**ARİF ŞƏKƏRƏLİ OĞLU**

**ŞƏKƏRƏLİYEV**

Əməkdar Elm Xadimi, Beynəlxalq Menecment
Akademiyasının üzvü, İqtisad elmləri doktoru, professor

# DÖVLƏTİN İQTİSADİ SİYASƏTİ:

# DAYANIQLI VƏ DAVAMLI

# İNKİŞAFIN TƏNTƏNƏSİ

**BAKI -2011**

**Elmi redaktoru:** Məmmədhəsən Xanlar oğlu Meybullayev iqtisad elmləri doktoru, professor

**Rəyçilər:** Məhiş Alış oğlu Əhmədov iqtisad elmləri doktoru, professor
Qabil Nadir oğlu Manafov iqtisad elmləri doktoru, professor

**Arif Şəkərəli oğlu Şəkərəliyev** Əməkdar Elm Xadimi, Beynəlxalq Menecment Akademiyasının üzvü, iqtisad elmləri doktoru, professor

# DÖVLƏTİN İQTİSADİ SİYASƏTİ: DAYANIQLI VƏ DAVAMLI İNKİŞAFIN TƏNTƏNƏSİ
(MONOQRAFİYA)

Bakı: «İqtisad Universiteti», 2011.

Monoqrafiyada dövlətin cəmiyyətin siyasi sistemində oynadığı rol, bazar iqtisadiyyatı şəraitində dövlətin rolu və funksiyaları, dövlətin iqtisadi siyasəti, dövlətin neft siyasəti, ticarət siyasəti, gömrük siyasəti, ixrac siyasəti, dövlətin büdcə-vergi siyasəti, investisiya siyasəti, sosial-siyasət və s. məsələlər araşdırılır. Həmçinin monoqrafiyada iqtisadi təhlükəsizliyin təmin olunması istiqamətləri və problemləri, ekoloji siyasət, dövlətin iqtisadi siyasətinin davamlı və dayanıqlı inkişafa təsiri məsələləri tədqiq edilir.

Kitab elmi işçilər, doktorantlar, magistrlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

… qrif nəşri. Bakı 2011

## M Ü N D Ə R İ C A T

**Giriş**..... 6

I Bölmə. İqtisadiyyatın dövlət tərəfindən idarə olunması..... 10

I Fəsil.Dövlət-cəmiyyətin siyasi sisteminin mühüm elementi kimi
1.1.Dövlətin əmələ gəlməsinin səbəbləri..... 10
1.2.Dövlətin funksiyaları..... 16
1.3.Keçid dövründə dövlətin qarşısında duran əsas vəzifələr..... 31
1.4.Bazar iqtisadiyyatında dövlət..... 37

P Fəsil. Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyat və siyasət, onların qarşılıqlı əlaqəsi..... 44
2.1.Siyasət və dövlət..... 44
2.2.İqtisadi siyasət..... 47
2.3.İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin obyektiv əsasları..... 55
2.4.İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin metodları... 61

P Bölmə. Azərbaycan dövlətinin iqtisadi siyasəti və onun reallaşması istiqamətləri..... 64

Ş Fəsil. Xarici ticarət siyasəti..... 64
3.1.Xarici ticarət siyasəti və onun formalaşması..... 64
3.2.Xarici ticarətin tənzimlənməsinin dünya təcrübəsi..... 72
3.3.Xarici ticarət əməliyyatlarının aparılması və onların təkmilləşdirilməsi məsələləri..... 94
3.4.Azərbaycanın xarici ticarət əlaqələrinin dinamikası və strukturu 102
3.5.Turizmin ölkə iqtisadiyyatında rolunun artması..... 109

IV Fəsil. Gömrük siyasəti və onun təkmilləşdirilməsi..... 114
4.1.Milli iqtisadiyyatın inkişafında gömrük siyasətinin rolu və onun təkamülü..... 114
4.2.Gömrük siyasətinin normativ-hüquqi bazasının formalaşması 133
4.3.Gömrük siyasətinin formalaşmasının səciyyəvi xüsusiyyətləri 139
4.4.Gömrük siyasəti ilə iqtisadi təhlükəsizliyin təmin edilməsinin qarşılıqlı əlaqəsi..... 147
4.5.Gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi..... 160
4.6.Azərbaycan Respublikasının beynəlxalq gömrük əməkdaşlığı 177

V Fəsil. Azərbaycan dövlətinin Neft Strategiyası..... 194

5.1.Azərbaycan iqtisadiyyatının formalaşmasında neft potensialının rolu..... 194
5.2.Neft sənayesinin sosial iqtisadi mahiyyəti və onun rolunun artması……..... 201
5.3.Milli iqtisadiyyatın inkişafında neft layihələrinin sosial-iqtisadi səmərəsinin qiymətləndirilməsi……..…….. 210
5.4.Azərbaycanın ixracında neft və neft məhsullarının payı…..… 218
5.5.Neft gəlirlərinin milli iqtisadiyyatın perspektiv sahələrinə yönəldilməsi…..... 223
5.6.Neft sənayesinin perspektiv inkişafının təkmilləşdirilməsi istiqamətləri..... 231

VI Fəsil. İxrac potensialı və onun tənzimlənməsi……..... 235
6.1.İxrac potensialının iqtisadi inkişafda rolu və onun tənzimlənməsi 235
6.2.İxrac potensialının tənzimlənməsinin qanunvericilik bazası və onun təkmilləşdirilməsi…… 241
6.3.Milli iqtisadiyyatın inkişafı və ixrac potensialından səmərəli istifadədə onun əhəmiyyəti…….. 246
6.4.Azərbaycan Respublikasının Neft-Qaz İxracı Strategiyası…… 258
6.5.Qeyri-neft sektoru üzrə ixrac prioritetləri……..... 265

VP Fəsil. Dövlətin investisiya siyasəti……..…… 280
7.1.İnvestisiya qoyuluşlarının mahiyyəti və əsas xüsusiyyətləri….. 280
7.2.İnvestisiyaların iqtisadi inkişafda rolu……..... 289
7.3.İnvestisiyaların beynəlxalq hüquqi-normativ əsasları……... 296
7.4.Bazar iqtisadiyyatı şəraitində investisiya siyasətinin prioritetləri və istiqamətləri…….....…… 312

VŞ Fəsil. Dövlətin büdcə-vergi siyasəti……..... 336
8.1.Büdcə-vergi siyasətinin həyata keçirilməsinin zəruriliyi və hüquqi əsasları..... 336
8.2.Büdcə gəlirlərinin formalaşması xüsusiyyətləri və onun qiymətləndirilməsi..... 353
8.3.Büdcə gəlirlərinin artırılmasında büdcə-vergi siyasətinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri……..……. 370

IX Fəsil. Dövlətin pul-kredit siyasəti…….....…… 385
9.1.Pul-kredit siyasətinin nəzəri əsasları……..... 385
9.2.Pul-kredit sferasında dövlət tənzimlənməsinin əsas vasitə və alətləri……..... 390
9.3.Azərbaycanda pul-kredit siyasətinin müasir vəziyyəti, onun təhlili və qiymətləndirilməsi……..... 397
9.4.Bank sisteminin inkişafında dövlətin pul-kredit siyasətinin rolu 402

9.5.Milli iqtisadiyyatın inkişafında pul-kredit siyasətinin rolunun artması……..... 409

X Fəsil. İqtisadi təhlükəsizliyin təmin olunmasının dövlət strategiyası 426
10.1.İqtisadi təhlükəsizlik konsepsiyası və onun xüsusiyyətləri..... 426
10.2.Maliyyə təhlükəsizliyi strategiyasının formalaşması……..... 436
10.3.Pul-kredit sferasında dövlət nəzarətinin təkmilləşdirilməsi istiqamətləri..... 440
10.4.İnvestisiya, innovasiya fəallığının artmasına pul-kredit siyasətinin təsiri..... 446

XI Fəsil. Dövlətin sosial siyasəti…… 460
11.1.Sosial siyasətin həyata keçirilməsinin başlıca istiqamətləri… 460
11.2.Sosial islahatlar və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə onun təsiri……..…… 479

XP Fəsil. Ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi……..…….... 484
12.1.Davamlı ekoloji tarazlığın təmin edilməsinin iqtisadi zəruriliyi və iqtisadi metodlardan istifadənin istiqamətləri…..…. 484
12.2.Azərbaycanda ekoloji durum və iqtisadi inkişafın tarazlıq problemi…….....……..... 498
12.3.Azərbaycanda ekoloji inkişafın təmin edilməsi sahəsində beynəlxalq əməkdaşlıq……..... 503

XŞ Fəsil. Dövlətin iqtisadi siyasətinin Davamlı və Dayanıqlı İnkişafa təsiri və onun reallaşması……..... 511
13.1.«Davamlı inkişaf»ın yaranma tarixi və əsas istiqamətləri…… 511
13.2. «Davamlı və dayanıqlı inkişaf»ın başlıca şərtləri……..... 522
13.3.Azərbaycan dövlətinin iqtisadi siyasətinin «Davamlı və Dayanıqlı İnkişaf»a təsiri və onun təkmilləşdirilməsi……..... 529

# GİRİŞ

***«Bu gün iftixar hissi ilə deyə bilərik ki, biz artıq öz taleyimizin, öz ölkəmizin sahibiyik və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir»***

**Heydər Əliyev**

***«Azərbaycanın seçdiyi yol düzgün yoldur, Azərbaycanın seçdiyi yol tərəqqi və inkişaf yoludur»***

***İlham Əliyev***

Bazar iqtisadiyyatına keçidin başa çatması Azərbaycanın siyasi kursunda, sosial-iqtisadi inkişafında yeni, keyfiyyətcə daha yüksək mərhələnin təməlini qoyub. Keçid dövrünə xas olan problemlərin tamamilə aradan qaldırılması iqtisadiyyatımızın hərtərəfli və çoxşaxəli tərəqqisinə, xalqımızın rifah halının yüksəldilməsinə, sosial tələbatlarının daha dolğun ödənilməsinə münbit şərait yaratmaqla, Azərbaycanın siyasi və iqtisadi qüdrətini daha da yüksəldib. Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı proqramm xarakterli nitqində Prezident İlham Əliyev ölkəmizin davamlı tərəqqisi yolunda sosial prqoramların həllinin böyük əhəmiyyətini önə çəkərək böhranlı ildə bu istiqamətdə görülən işləri yüksək dəyərləndirib. Belə ki, insanların maddi rifah halının yüksəldilməsini özündə təcəssüm etməklə yanaşı, onların potensialından sistemli şəkildə istifadə olunaraq ümumi iqtisadiyyatı, o cümlədən sosial sferanın dayanıqlı inkişafının təmin edilməsini şərtləndirən aparıcı amillər sırasına aid edir. Bu mənada təsadüfi deyil ki, sürətli tərəqqiyə can atan Azərbaycan dövlətinin qarşısında duran ən əsas məqamlardan biri sosialyönümlü milli iqtisadiyyatın yaradılması, ədalət prinsiplərinə əsaslanan sosial quruluşa nail olunması, iqtisadi gəlirlər və maddi nemətlərin ədalətli və şəffaf qaydada bölünməsini təmin etməkdir. Mövcud dünya ölkələrinin təcrübəsi göstərir ki, sosial-əmək potensialından səmərəli istifadə, iqtisadi cəhətdən aktiv əhalinin işgüzar və yaradıcı təşəbbüskarlığının artırılmasına yönəlmiş əməli tədbirlər, əməyin sosial cəhətdən səmərəli təşkili yüksək sürətlə müşayiət olunan dinamik inkişafın, eləcə də cəmiyyətin sarsılmaz bünövrə üzərində qurulmuş sabitliyinin əsas şərtlərindəndir.

İnkişafının keyfiyyətcə yeni və kifayət qədər sürətli mərhələsini yaşayan müasir Azərbaycanı xarakterizə edən əsas xüsusiyyətlərdən biri formalaşdırılmış möhkəm iqtisadi əsaslar fonunda əhalinin maddi rifah

halının davamlı olaraq yüksəlməsi, ölkə vətəndaşlarının etibarlı sosial müdafiəsinin təşkilidir. Qloballaşma prosesinin geniş vüsət aldığı mövcud dönəmdə zamanın tələblərinə adekvat cavab verərək dünya iqtisadi sisteminə fəal inteqrasiya edən Azərbaycanın iqtisadiyyatında yaşayan yüksəlişin vətəndaşların həyatında da öz əksini tapması ölkəmizdə həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin və onun praktik nəticələrinin səmərəliliyini aydın şəkildə nümayiş etdirir. Sosial-iqtisadi tərəqqi prosesində qazanılan nailiyyətlərin miqyasının ildən-ilə genişlənməsi və dərinləşməsi əhalinin bütün təbəqələrinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bərabər, bu istiqamətdə mümkün zəruri tədbirlərin uğurla reallaşmasına da yeni imkanlar açır. Təsadüfi deyil ki, dövlətin iqtisdai əsaslarının davamlı olaraq möhkəmlənməsi şəraitində sosial-iqtisadi problemlərin həlli, o cümlədən işgüzar fəallığın yüksəldilməsi, qeyri-neft sektorunun inkişafı, yoxsulluğun azaldılması və bu kimi digər sahələrdə ölkəmizdə son illər ərzində möhtəşəm nailiyyətlərə imza atılmışdır.

O da birmənalı şəkildə qəbul edilmiş həqiqətdir ki, Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsindən sonra uğurlu sosial-iqtisadi inkişafın, eləcə də dövlətçilik bazasının əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Xalqının sosial rifah halının yüksəldilməsi ulu öndərin fəaliyyətinin əsas məqsədlərindən birini təşkil etmişdir. Ölkəmizin yeni tarixinə həlledici zaman kəsiyi kimi daxil olmuş 1993-2003-cü illərdə Azərbaycan Ümummilli Liderin titanik əməyi sayəsində sürətli və sabit sosial-iqtisadi inkişaf yoluna qədəm qoymaqla yanaşı, daxili əmin-amanlığa da qovuşmuş, özünü beynəlxalq hüququn müstəqil subyekti kimi təsdiqləməyi bacarmışdır. Məhz bütün bunların məntiqi nəticəsi olaraq çoxmilyardlı xarici investisiyanın ölkə iqtisadiyyatının müxtəlif sahələrinə, o cümlədən neft-qaz sektoruna gəlişi təmin edilmiş, sürətli tərəqqiyə xidmət edən islahatlar başlanmış, dövlətçiliyin əsasları tam şəkildə qurulmuşdur. Dövlət quruculuğu prosesinin ayrılmaz tərkib hissələrindən biri kimi çıxış edən güclü iqtisadiyyatın yaradılması hesabına xalqın sosial rifahının artırılması Heydər Əliyevin fəaliyyətində hər zaman mühüm əhəmiyyət daşımış, bu məsələnin praktiki həlli sosialyönümlü iqtisadiyyatın formalaşdırılmasında əsas strategiya xətlərindən biri kimi müəyyən edilmişdir.

Ulu öndərin inkişaf strategiyasını yeni çalarlarla zənginləşdirərək zamanın tələblərinə uyğun şəkildə böyük müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyev tərəfindən yürüdülən, praqmatizmə söykənən səmərəli siyasət nəticəsində Azərbaycanın sosial-iqtisadi tərəqqisi daha intensiv xarakter daşımağa başlamış, bu baxımdan ölkə vətəndaşlarının rifahı ildən-ilə nəzərəçarpacaq dərəcədə yüksəlmişdir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi siyasətin fərqləndirici xüsusiyyətləri bu sahədə sürətli inkişafa xidmət edən bütün istiqamətlər üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilməsi və əlaqələndirilmiş

proqramlar üzrə aparılmasıdır. Bu zaman ənənəvi xarakter daşıyan yerli xüsusiyyətlərin gözlənilməsi ilə mütərəqqi dünya təcrübəsindən istifadə olunması, sosialyönümlülük prinsiplərinin, iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarının nəzərə alınması əsas şərtlər sırasında yer alır. Sabit, dinamik inkişaf məntiqinə əsaslanan bu siyasət həm də ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanılmasına, təbii və iqtisadi potensialdan, əmək ehtiyatlarından səmərəli istifadə edilməsinə, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına xidmət edir.

Ölkəmizdə həyata keçirilən çevik iqtisadi siyasətin dövlət büdcəsinə, onun gəlir və xərclərinin dinamikasına təsir göstərməsi fonunda sosial məqsədlər üçün ayrılan vəsaitlərin həcmi son illərdə davamlı şəkildə artmış, bunun nəticələri vətəndaşların pul və digər formada maddi gəlirlərindən tutmuş həyat şəraitinin yaxşılaşdırılmasına qədər geniş bir spektrdə özünü qabarıq şəkildə büruzə vermişdir. Artıq tarixə çevrilmiş 2010-cu il də əhalinin sosial müdafiəsinin yüksək səviyyədə təşkili, iqtisadiyyatın strukturunda keyfiyyət dəyişikliyi ilə sıx bağlı olan əmək yaradıcılığı üçün müvafiq şəraitin formalaşması, məşğulluğun yüksəldilməsi, səmərəli istehslak səviyyəsinə nail olunması baxımından zəngin olmuşdur.

Hələ də fəsadları tam aradan qalxmayan qlobal maliyyə-iqtisadi böhran ötən il ərzində dünyanın bir çox ölkələrində ümumi daxili məhsulun artım səviyyəsinin proqnozlaşdırılan həddə çatmasına imkan verməmiş, dünya iqtisadiyyatının inkişafına mane olmaqda davam etmişdir. Lakin sözügedən böhranın istər özünün zirvə nöqtəsinə çatdığı 2009-cu ildə, istərsə də dünya iqtisadiyyatını gərginlikdə saxladığı 2010-cu ildə Azərbaycanda ümumi daxili məhsulun yüksək artımı qeydə alınmışdır ki, bu da ölkəmizin inkişaf yolunun nümunəviliyini və səmərəliliyini dünya miqyasında sübuta yetirən ən mühüm hadisələrdən biri kimi dəyərləndirilir.

Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin qeyd etdiyi kimi, aparılan islahatlar və əldə edilən iqtisadi artım ilk növbədə Azərbaycan vətəndaşlarının maddi rifah halının yüksəldilməsinə yönəlmişdir. Qeyd etmək lazımdır ki, ölkəmizdə işsizlik probleminin həlli istiqamətində qazanılmış nailiyyətlərin miqyası son illərdə nəzərəçarpacaq dərəcədə genişlənmiş, ümumi iqtisadi inkişaf bu məsələnin çözümünə böyük töhfələr vermişdir. Yoxsulluğun azaldılması iqtisadiyyatın uğurlu diversifikasiyası, enerji gəlirlərinin səmərəli istifadə olunması, sahibkarlığın inkişafı üçün yaradılan şərait qeyri-neft sektorunun dirçəlməsinə, regionların inkişafına xidmət edən dövlət proqramlarının uğurlu reallaşdırılması və bu qəbildən olan digər addımlar sayəsində mümkün olmuşdur. Yoxsul əhalinin müvafiq iş yerlərinə və istehsal vasitələrinə çıxış imkanlarının yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsi, məşğulluğun artırılmasına istiqamətlənmiş addımlar insanların gəlir əldə etmək imkanlarının genişlənməsində mühüm rol oy-

namışdır. Xatırlatmaq yerinə düşərdi ki, 2008-ci sentyabrın 15-də Prezident İlham Əliyev tərəfindən «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı» təsdiq olunmuşdur. Sözü gedən proqram makroiqtisadi sabitliyi saxlamaqla və qeyri-neft sektorunun tarazlığını inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi, əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına nail olunması, səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən, xüsusilə həssas qrupların sosial riskinin azaldılması kimi məsələləri əhatə edir.

Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində Prezident İlham Əliyev bu böhranlı illər ərzində iqtisadi siyasətin uğurlarını yüksək dəyərləndirərək bildirib ki, ölkə qarşısında duran bütün vəzifələr icra edildi: «Bütün sosial proqramlar öz həllini tapdı. Keçən il minimum əməkhaqqı və pensiyaların baza hissəsi artırıldı. Halbuki Avropanın bir çox ölkələrində əks istiqamətdə proseslər gedirdi, maaşlar, pensiyaların məbləği aşağı düşürdü. Əlbəttə ki, bütün bu uğurlarımızın təməlində uzun illər aparılan düşünülmüş iqtisadi siyasət, iqtisdai islahatlar dayanır».

Azərbaycanda həyata keçirilən siyasətin uğurlu nəticələri nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapır. Dünya İqtisadi Forumu tərəfindən 2010-2011-ci illər üçün hazırlanmış «Qlobal rəqabətlilik hesabatı»nda Azərbaycan MDB ölkələri arasında yenə də birinci, makroiqtisadi sabitlik alt indeksi üzrə isə 14 pillə irəliləyərək 139 ölkə arasında 13-cü yerdə qərarlaşmışdır. «Standart And Poors» Beynəlxalq Reytinq Agentliyi 2009-2010-cu illər üzrə ölkə reytinqini «Stabil»dən «Pozitiv»ə yüksəltmiş, «Fitch Ratings» Agentliyi ölkəmizə ilk dəfə olaraq investisiya reytinqi vermişdir.

2010-cu ildə beynəlxalq müstəvidə də uğurlu siyasət aparıldığını vurğulayan Prezident İlham Əliyev bildirib ki, Azərbaycan bölgədə gedən proseslərə təsiri artmaqda olan ölkədir: «Elə etməliyik ki, bu proses daim davam etsin, ölkəmiz güclənsin və inkişaf etsin».

# I B Ö L M Ə

# İQTİSADİYYATIN DÖVLƏT TƏRƏFİNDƏN İDARƏ OLUNMASI

## I F Ə S İ L

## DÖVLƏT CƏMİYYƏTİN SİYASİ SİSTEMİNİN MÜHÜM ELEMENTİ KİMİ

***«Azərbaycan müstəqillik mövqeyində möhkəm dayanır və ölkəmizin dövlət müstəqilliyi dönməzdir»***

**Heydər Əliyev**

### 1.1. Dövlətin əmələ gəlməsinin səbəbləri

Dövlət əbədi mövcud olmamışdır. İbtidai cəmiyyətdə siniflər yox idi. O dövrdə istehsal elə aşağı inkişaf səviyyəsində idi ki, yalnız insanların minimum tələbatlarını ödəyirdi. Lakin sonralar ictimai əmək bölgüsünün dərinləşməsi məhsuldar qüvvələrin inkişafı və əmək məhsuldarlığının yüksəlməsinə təkan verdi. Yəni insanlar istehslak etdiklərindən daha çox məhsul istehsal etməyə başladılar. Nəticədə izafi məhsul yarandı ki, bu da xüsusi mülkiyyətin, əmlak bərabərsizliyinin meydana gəlməsinə gətirib çıxardı. İbtidai icmanın pozulması, onun sinfi təbəqələşməsi prosesi belə gedirdi. Bu proses bir-birinə əks siniflərin, varlı və kasıbların meydana gəlməsinə səbəb oldu.

Cəmiyyət iqtisadi cəhətdən qeyri-bərabər qruplara bölündüyünə görə, obyektiv olaraq elə bir hakimiyyət təşkilatı yaranırdı ki, bir tərəfdən varlıların mənafeyi təmin edilmiş olsun, digər tərəfdən isə varlılarla cəmiyyətin maddi cəhətdən onlardan asılı olan hissəsi arasında qarşıdurmanı aradan qaldıra bilsin. Cəmiyyət içərisindən çıxıb ayrılmış belə bir təşkilat, məhz dövlət olmuşdur. Dövlət - cəmiyyətin daxili inkişaf məhsuludur.

Dövlət ictimai əmək bölgüsü, izafi məhsul və xüsusi mülkiyyətin yaranması, daha sonra isə cəmiyyətin ziddiyyətli iqtisadi maraqları olan siniflərə bölünməsi ilə əlaqədar meydana gəlmişdir. F.Engels qeyd etdiyi kimi, qəbilə quruluşunu «Əmək bölgüsü və bunun nəticəsində cəmiyyətin siniflərə parçalanması dağıtdı. Onun yerini dövlət tutdu».Yəni xüsusi itaət və idarəetmə vasitələrilə iqtisadi cəhətdən hakim sinfin maraqlarını təmin etməklə siniflərin qarşıdurmasının qarşısını alan dövlət yaranır.

Dövlət xüsusi ictimai təşkilatdır və ibtidai işləri idarə etməklə daim məşğul olan xüsusi orqanlardan ibarətdir.

Böyük fransız mütəfəkkiri Deni Didro yazırdı: «İnsanlar tez anladılar ki, əgər onlar öz azadlıqlarından, müstəqilliklərindən istifadə etməyə davam etsələr, dayanmadan öz ehtiraslarına qapılsalar, onda hər bir ayrıca insanın vəziyyəti onun ayrı yaşadığı halda olacağından daha bədbəxt olacaqdır. Onlar dərk etdilər ki, hər bir insan öz təbii müstəqilliyinin bir hissəsindən imtina etməli və bütöv cəmiyyətin idarəsini təmsil edən idarəyə tabe olmalıdır: bu idarə bütün idarələrin və bütün qüvvələrin ümumi mərkəzi və birləşmə nöqtəsi ola bilərdi. Dövlət başçılarının mənşəyi belədir».

Dünyanın elm mütəfəkkirləri dövlətin əmələ gəlməsinin bir sıra nəzəriyyələrini irəli sürmüşlər. Onlardan əsasları: iqtisadi, hüquqi, psixoloji, üzvi və zokarılıq nəzəriyyələridir.

Dövlətin yaranma səbəbləri bir çox obyektiv amillərlə, yəni iqtisadi, sosial, dini, milli, psixoloji, bioloji və başqa amillərlə izah olunur.

Dövlət ictimai həyatın təşkilinin elə bir formasıdır ki, o, ayrı-ayrı fərdlərin pərakəndə cəhdləri ilə yaradıla bilməz. Dövlət cəmiyyətin əsas hakim siyasi təşkilatıdır. Onun hakimiyyəti cəmiyyətdə birləşdirən, təşkil edən və məcbur edən başlıca qüvvədir.

Cəmiyyətdə dövlətlə yanaşı, insanları müxtəlif (siyasi, iqtisadi, mənəvi, peşəkar və s.) maraqlarına görə birləşdirən digər təşkilatlar da mövcuddur.

İctimai birləşmələr sistemində dövlətin xüsusi rolu vardır. Belə ki, dövlət ölkə miqyasında yeganə, tam hakimiyyətli, cəmiyyətin inkişafının əsas istiqamətini müəyyən edən bütün vətəndaşların mənafelərini nəzərə alan, ölkə daxilində və beynəlxalq aləmdə rəsmi tanınan təşkilatdır.

Dövlət insanlara ictimai təşkilatlarda birləşmək kimi konstitusiya hüququ verir, bəzi ictimai təşkilatların hüquqi vəziyyətini müəyyən edərək onların fəaliyyətini mühafizə edir. İctimai təşkilatların hüquq və mənafelərini isə məhkəmə, prokurorluq və başqa dövlət orqanları qoruyur.

Dövlət iqtisadi bazis üzərində siyasi üstqurumdur. Siyasi sistemin bütün təşkilati qurumları olan dövlət təşkilatları, ictimai təşkilatlar, əmək kollektivləri dövlət və ictimai həyatın hüquqi əsasını təşkil edən qanunlar çərçivəsində fəaliyyət göstərirlər. Dövlət daima inkişafdadır. Cəmiyyətin inkişafı ilə dövlət, onun məqsəd və vəzifələri, idarəetmə qurumları və funksiyaları da dəyişir. Buna müvafiq surətdə dövlət anlayışına müxtəlif baxışlar mövcuddur.

Məşhur alman filosofu G.Hegel göstərir ki, «Dövlət anlamı onun ümumi fəlsəfi sisteminə əsaslanır. Bu sistem isə dövləti insan varlığının xüsusi, ruhi əsaslarının məhsulu kimi izah edir. Dövlət – mənəvi ideyanın gercəkliyidir, mənəvi ruh, göründüyü kimi özü-özünə aydın olan, düşünən, özünü bilən və bildiyinə görə icra edən substansional iradədir».

Marksistlərə görə, dövlət cəmiyyətin barışmaz siniflərə bölündüyünə görə sinfi cəmiyyətin məhsulu kimi yaranmışdır. «O, ümumi qaydaya görə iqtisadi cəhətdən qüdrətli, hakim siniflərin dövlətidir. Həmin sinif dövlətin köməyi ilə siyasi cəhətdən də hakim sinfə çevrilir və beləliklə, istismar edilən sinfi əzmək və əsarətdə saxlamaq üçün yeni vasitələr əldə edir».

V.İ.Lenin isə yazır: «Dövlət bir sinfin başqa sinfə zülm etməsi maşınıdır, bir sinfin başqa sinif üzərində ağalığını saxlamaq maşınıdır».

Dövlət anlayışının müəyyən edilməsi onun əsas əlamətlərinin izahı ilə bağlıdır.

Dövlət, hakimiyyətinin vahid ərazisi, həmin ərazidə yaşayan əhali və həmin əhaliyə aid olan hakimiyyətlə xarakterizə olunur. Dövlət bütün ölkə miqyasında siyasi hakimiyyətin vahid ərazi təşkilatıdır. Ərazi əlaməti məkan bölgüsü nəzərə alınmaqla, dövlət aparatının fəaliyyətini və formalaşma xarakterini şərtləndirir.

Ərazi və əhali dövlətin yaranması və mövcudluğu üçün zəruri maddi şərtdir. Dövlətin xüsusi idarəetmə aparatı və mexanizmi vardır. Dövlətin bütün tarixi tiplərinə və növlərinə qanunvericilik, icra və məhkəmə orqanları xasdır. Dövlət mexanizminə həmişə məcburetmə, o cümlədən ordu, polis, həbsxanalar və islah-əmək müəssisələri və s. aiddir. Hüquq və qanunvericilik olmadan dövlət cəmiyyətə rəhbərliyi və qəbul edilmiş qərarların həyata keçirilməsini təmin edə bilməz.

Dövlət cəmiyyətin elə siyasi təşkilatıdır ki, o öz hakimiyyətini ölkənin bütün ərazisinə və əhalisinə şamil edir. Bunun üçün də xüsusi idarəetmə aparatı vardır. Bu aparat hamı üçün məcburi göstərişlər verir.

Tarixdə dörd dövlət tipi məlumdur: quldarlıq dövləti, feodal dövləti, kapitalist dövləti və sosialist dövləti.

Dövlətin əmələ gəlməsilə insanlar arasında siyasi münasibətlər yarandı. Siyasi münasibətlər öz əsası etibarilə siniflər arasındakı münasibətlərdir. Siniflər arasındakı siyasi münasibətlər onların ümdə iqtisadi mənafeyini təmərküzləşmiş şəkildə ifadə edir. «İqtisadi hərəkat, ümumiyyətlə və bütünlüklə özünə yol açacaqdır, lakin iqtisadi hərəkat özü üçün yaratdığı və nisbi bir müstəqilliyə malik olan siyasi hərəkatdan da əks-təsir almalıdır.

Dövlət - hakimiyyətin suveren təşkilatıdır. Dövlətin severenliyi dövlət hakimiyyətinin elə xassəsidir ki, o, ölkə daxilində, habelə beynəlxalq aləmdə beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş normalarına riayət etməklə dövlətlərarası münasibətlər sahəsində həmin dövlətin aliliyi və müstəqilliyində ifadə olunur.

İlk dəfə Azərbaycan Demokratik Respublikası dövründən başlanan konstitusiya quruculuğu tariximizdə 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikasının yarandığını elan edən «İstiqlaliyyət Bəyannaməsi» və 1919-cu ildə qəbul edilən «Müstəqillik haqqında Akt» - Konstitusiya xarakterli hüquqi sənədlər olmuşdur. Qısa müddətdə, cəmi 23 ay

mövcud olmuş Azərbaycan Demokratik Respublikasının özünün ilk Konstitusiyasını qəbul etmək imkanı Sovet Rusiyasının 1920- ci il aprelin 28-də Azərbaycanda bolşevik hökumətini yaratması ilə aradan qaldırıldı. Azərbaycanda ilk Konstitusiya Sovet hökuməti dövründə qəbul olundu. Azərbaycan SSR-in 1921-ci ildə qəbul olunmuş bu Konstitusiyası Azərbaycanın müstəqil dövlət atributlarını formal olsa da, əsasən əks etdirirdi. Azərbaycan SSR-in 1921-ci il Konstitusiyası müəyyən dəyişikliklərlə (1924) 1937-ci ilə qədər qüvvədə olmuşdur. 1936-cı ildə ZSFSR tərkibindən çıxaraq «Müttəfiq Respublika» kimi SSRİ tərkibinə daxil olan Azərbaycan SSR-in 1937-ci ildə ikinci Konstitusiyası qəbul edildi.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyasının qəbulu ilə əlaqədar olaraq 1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edildi.

SSRİ-nin dağılması və müstəqil Azərbaycan Respublikasının yaranmasından sonra Azərbaycan SSR-in 1978-ci il Konstitusiyası öz əhəmiyyətini itirdi.

XX əsrin sonu Azərbaycan Respublikasının ictimai-iqtisadi, siyasi və mədəni həyatında tamamilə yeni bir mərhələnin başlanğıcını qoydu. Bu yeni mərhələ SSRİ-nin dağılması və onun yerində müstəqil dövlətlərin,o cümlədən müstəqil Azərbaycan Respublikasının yaranması ilə başlanır. Azərbaycan Respublikası ictimai mülkiyyətə əsaslanan iqtisadi sistemdən tamamilə bir ictimai-iqtisadi və siyasi münasibətlərə əsaslanan sistemə doğru yeni bir yola qədəm qoydu.

Azərbaycan dövləti müstəqillik uğrunda mübarizədə çox ciddi obyektiv və subyektiv çətinliklərlə rastlaşdı. Azərbaycanın zəngin təbii sərvətlərə malik olması və əlverişli strateji mövqedə yerləşməsi onu bir sıra iri dünya dövlətlərinin iqtisadi-siyasi və hərbi maraq dairəsinin kəsişməsi üzərində qurulmuş mübarizə burulğanına saldı. Azərbaycan qondarma «Dağlıq Qarabağ problemi ilə üzləşdi və Ermənistanın hərbi təcavüzünə məruz qaldı».

Yeni iqtisadi-siyasi quruluşa keçid dövründə müstəqillik yolu ilə irəliləyən respublikamız başqa çətinliklərlə də rastlaşdı. Bu çətinliklər ilk dövrlərdə siyasi sabitliyin olmaması, hərc-mərclik, siyasi hakimiyət uğrunda mübarizə, silahlı qiyamlar, dövlət çevrilişi cəhdləri, iqtisadi əlaqələrin və maliyyə nizamının pozulması, işsizlik, inflyasiya, sosial gərginlik və s. formada özünü göstərirdi.

1933-cü ilin ikinci yarısında Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlişi ilə bütün bu çətinlikləri aradan qaldırmaq, müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət yaratmaq üçün çox gərgin və fəal mübarizə başlandı. Ölkədə özbaşınalığa, hərc-mərcliyə, hakimiyyət boşluğuna son qoyuldu. Güclü mərkəzi hakimiyyət yaradıldı.

Müstəqilliyin ilk illərində respublikanın strateji inkişaf yolunu müəyyənləşdirən 30 avqust Bəyanatı və 18 oktyabr «Müstəqillik aktı» yalnız

1991-ci ilin 30 dekabrından sonra konstitusiya xarakterli sənəd hüququ qazandı.

Göstərilən bu ilk sənəd ölkənin ictimai-iqtisadi və siyasi həyatında baş verən prosesləri əks etdirmək, müstəqil Azərbaycan Respublikasının tutduğu strateji yolun qanunvericilik bazasını yaratmaq, cəmiyyətin həyatında baş verən yenilikləri hüquqi cəhətdən tənzimləmək və s. Baxımından respubikanın

inkişaf sürətindən çox geri qalırdı. Buna görə də Azərbaycanın gələcək inkişaf yolunu müəyyən edən və ümumbəşəri tələblərə cavab verən yeni Konstitusiyanın qəbul edilməsi təkidlə tələb olunurdu. Məhz buna görə də Azərbaycanın tarixi keçmişini, milli xüsusiyyətlərini, ənənələrini, ümumbəşəri, bugünkü reallıqları və gələcək perspektivləri əks etdirən yeni Konstitusiya 1995-ci ilin noyabrın 12-də Ümumxalq müzakirəsi və referendumu nəticəsində qəbul edildi.

Azərbaycan Respublikasının Prezidenti Ümummilli Liderimiz Heydər Əliyevin sədrliyi ilə qəbul edilən yeni Konstitusiya müstəqil Azərbaycan Respublikasının hüquqi, demokratik dövlət quruculuğu yolunda strateji yolun hüquqi təsisatlarını yaratdı. Bu Konstitusiyanın ana xəttini xalqın və onun dövlətinin ümumi mənafeyi, xalqın idarəsi və dövlətin suverenlik hüququ, dövlətçiliyin mütləq üstünlüyü və əhalinin hüquqi təminatı təşkil edir.

Suverenlik - dövlətin ümumiləşdirilmiş əlamətidir. Dövlət hakimiyyətinin və aliliyin öz idarəsini konkret olaraq dövlət hakimiyyətinin qərarlarının həmin ölkənin əhalisi və ictimai təşkilatlarına aid olmasında, qeyri-qanuni hərəkətlərin qarşısının alınmasında, xüsusi təsir vasitələrinə malik olmasında tapır.

XX əsrin ortalarında müasir dövlətçilik haqqında bir sıra nəzəriyyələr yaranmışdır. Həmin nəzəriyyələrdən «ümumrifah dövləti», «plüralist demokratiya», «hüquqi dövlət» nəzəriyyələrini göstərmək olar.

Azərbaycan Respublikası müstəqillik və suverenlik əldə etdikdən sonra hüquqi və demokratik dövlət yaratmağı qarşısına məqsəd qoymuşdur. Dövlət fəaliyyətində hakimiyyətlər bölgüsü, qanun aliliyi, aşkarlıq, fikir plüralizmi ön plana çəkilir. Beynəlxalq aləmdə də dövlət rolu müsbət istiqamətdə dəyişir.

Hüquqi dövlət ideyasının yaranmasında böyük xidmətləri olan mütəfəkkirlərdən biri Spipozadır. Spipoza qanunlarla bağlı olan, inkişafın həqiqi hüquq və azadlıqlarını təmin edən demokratik dövlətin nəzəri əsasını ilk dəfə verənlərdən biridir. O yazırdı ki, dövlət o vaxt güclü olur ki, o, hər bir vətəndaşa təkcə həyatının deyil, həm də onun mənafeyinin təmin olunmasına təminat versin və hökmdarları mülkiyyətə, təhlükəsizliyə, şərəfə, azadlığa və təbəqələrin digər nemətlərinə qəsdlərdən qorusun.

Kant mərkəzində insan, şəxsiyyət duran hüquqi dövlət nəzəriyyəsinin fəlsəfi əsaslarını işləyib hazırlamışdır. O, xalqın idarəsini ifadə edən

Konstitusiyanı qəbul etmək yolu ilə hüquq qaydaları yaradılmasında onun öz iştirakını tələb etməsinin müstəsna hüququnu ümumi hüququn mühüm prinsipi hesab edirdi. «Xalqın aliliyi hüquqi qanunlara tabe olan çoxlu insanlar birliyi» kimi çıxış edən dövlətdə bütün vətəndaşların azadlığı, bərabərliyi və müstəqilliyini şərtləndirir.

Hüquqi dövlətdə qanun ən yüksək hüquqi qüvvəyə malikdir. O, ictimai münasibətlərin əsas tənzimləyicisidir.

Hüquqi dövlətin əsas səciyyəvi xüsusiyyətlərinə gəldikdə onun iqtisadi, sosial və əxlaqi əsasının olmasını göstərmək lazımdır.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir: «Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır».

Bazar münasibətlərinə keçid dövründə respublikamızda baş verən iqtisadi dəyişiklikilərin, getdikcə daha da sürətlənən islahatların aparılmasında və ictimai – siyasi münasibətlərin formalaşmasında Əsas Qanunun xüsusi rolu vardır. Yeni Konstitusiyada müxtəlif mülkiyyət növlərinə əsaslanan, bazar iqtisadiyyatına keçidi nəzərdə tutan, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi, azad sahibkarlığa hüquqi təminat yaradılması və s. iqtisadi inkişafın əsası kimi xarakterizə olunur.

Azərbaycanın yeni Konstitusiyası ümumbəşər sivilizasiyasının ən ali prinsiplərinə əsaslanan və müstəqil dövlətin atributlarını özündə əks etdirir. Bu konstitusiya ölkəmizdə qanunun aliliyinə və vətəndaş cəmiyyətinə əsaslanan müstəqil, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu üçün hüquqi təminatlar verən, sosial-iqtisadi sahədə köklü dəyişikliklərin həyata keçirilməsinə zəmin və şərait yaradan bir konstitusiyadır.

Dövlətlərin tiplər üzrə təsnifatında sinfi formasiyon yanaşma son vaxtlara kimi elmi və tədris ədəbiyyatlarımızda yeganə yanaşma idi.

Lakin son zamanlar dövlətlərin tiplər üzrə təsnifatının ən çox yayılmış və Qərb elmi tərəfindən geniş tanınmış olan əsaslarından biri «sivilizasiya» anlayışıdır.

İngilis tarixçisi A.Toynibi «Sivilizasiya» termini altında cəmiyyətin mədəni, iqtisadi, coğrafi, dini, psixoloji və başqa faktların ümumiliyi ilə fərqlənən nisbətən qapalı və lokal vəziyyətini başa düşürdü. Hər bir sivilizasiya onun çərçivəsində mövcud olan bütün dövlətlərə sabit ümumilik verir.

Sivilizasiya konsepsiyası siniflərin və sosial qrupların təkcə qarşıqarşıya durmasını, ümumbəşəri dəyərlər bazasında onların qarşılıqlı əlaqə sahəsini, təkcə sinfi ziddiyyətlərin təzahürünü deyil, həm də insan həyatının müxtəlif sahələrində onun bütün davranışına nüfuz edən prinsiplərin ümumiliyini ayırmağa imkan verir.

Sivilizasiyalı yanaşmada, cəmiyyətin siyasi sistemində dövlət cəmiyyətin sosial-iqtisadi və mənəvi inkişafının, insanların müxtəlif tələbatının təmin edilməsinin mühüm amili kimi çıxış edir.

Dövlətin tipologiyası dövlətin forması anlayışı ilə sıx əlaqədardır. Dövlətin forması özündə qarşılıqlı əlaqədə olan üç ünsürü: idarəçilik formasını, dövlət quruluşu formasını və dövlət rejimi formasını birləşdirir.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərildiyi kimi, idarəçilik forması ali dövlət hakimiyyəti orqanlarının strukturunu, onların təşkili və onlar arasında səlahiyyətlər bölgüsü qaydasını özündə birləşdirir.

Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi, İcra hakimiyyəti, Azərbaycan Respublikasının Prezidenti, məhkəmə hakimiyyətini isə Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Dövlət quruluşu formasına görə Azərbaycan Respublikası unitar dövlətdir.

Unitar dövlət mərkəzi hakimiyyət orqanlarına tabe olan və dövlət suverenliyi əlamətlərinə malik olmayan inzibati – ərazi vahidlərindən ibarət vahid, bütöv dövlət birliyidir.

Dövlət rejimi forması isə dövlət tərəfindən hakimiyyətin həyata keçirilməsinin üsul və metodlarının məcmusunu özündə əks etdirir. Dövlət rejiminə gəldikdə isə onu göstərmək lazımdır ki, Azərbaycan əsl demokratik rejim əsasında inkişaf edən dünyəvi hüquqi sivil dövlət qurur. Demokratik rejim dövlət hakimiyyətinin həyata keçirilməsinin, şəxsiyyət azadlığının, onun qanuni hüquq və mənafelərini real təmin edən metodları ilə səciyyələnir.

### 1.2. Dövlətin funksiyaları

Dövlətin funksiyası dövlət hakimiyyətinin həyata keçirilməsinin, dövlət fəaliyyətinin həmin istiqamət ilə sıx əlaqədə olan məzmun, forma və metodlarının vəhdətini özündə təcəssüm etdirir. Dövlətin bütün funksional fəaliyyəti şəxsiyyət, onun maddi və mənəvi rifahına, şəxsiyyətin maksimum hüquqi və sosial müdafiəsinə nail olmağa yönəlmişdir. Dövlət həmçinin şəxsiyyətin qanun mənafelərinin ali müdafiəçisi kimi çıxış edir.

Dövlətin funksiyaları cəmiyyətin dövlət idarəetməsinin mahiyyət və sosial məzmununu ifadə edən fəaliyyətinin əsas istiqamətləridir. Bütün cəmiyyətlərdə dövlət daxili, xarici və ölkənin müdafiəsi funksiyasını yerinə yetirir.

**Daxili funksiyalar**

Dövlətin daxili funksiyası iqtisadi, sosial, ekoloji və hüquq qaydasının mühafizəsindən ibarətdir.

## 1. İqtisadi funksiya

***«İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir»***

**Heydər Əliyev**

Dövlətin çoxtərəfli iqtisadi fəaliyyəti iqtisadi həyatın bütün sahələrini əhatə edir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq hüquqi dövlətdə iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi əsasən inzibati metodlarla deyil, iqtisadi metodlarla həyata keçirilir. Yəni dövlətin iqtisadiyyatın idarə edilməsində yaxından iştirakı bir qədər məhdudlaşdırılır. Dövlət üçün mülkiyyətçinin azadlığı və müstəqilliyi, istehlakçının sərbəstliyi və qiymətlərin sərbəstləşdirilməsi təmin edilir.

P.Samuelson və V.Nordxaus göstərirlər ki, «Dövlətin rolunu müzakirə etməklə deyə bilərik ki, ümumiyyətlə, o, fəaliyyət qaydalarını müəyyən edir. Bəs, onun konkret funksiyaları nədən ibarətdir? Bunlar üçdür: səmərəlilik, ədalətlilik, sabitlik. Səmərəlilik funksiyası dedikdə nəzərdə tutulur ki, dövlət bazarın inhisar kimi «səhvini» düzəldir. Dövlətin ədalətlilik proqramı kasıbların və miskinlərin (dilənçilərin) xeyrinə gəlirləri yenidən bölür. Sabitlik siyasəti nəticəsində işgüzar tsiklin qalxıb-enməsi, işsizliyin və inflyasiyanın səviyyəsi, iqtisadi artım tənzim edilir».

Bütün dünya ölkələrində başlıca məqsəd cəmiyyətdə sosial-iqtisadi sabitliyi təmin etmək, ölkə daxilində, eləcə də dünya miqyasında mövcud quruluşu möhkəmlətmək və onu yeni ictimai-iqtisadi şəraitə uyğunlaşdırmaqdan ibarətdir.

Azərbaycanda inzibati-amirlik sisteminin, bazar sistemilə əvəz edilməsi, azad rəqabət və iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin təşəkkül tapması prosesi gedir.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərildiyi kimi, «Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inKişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir».

Bazar iqtisadiyyatında dövlətin rolu haqqında danışarkən əvvəlcə tarixə nəzər salmaq lazımdır. İlk dəfə dövlətin iqtisadiyyata müdaxilə etməsi məsələsi merkantilistlər tərəfindən irəli sürülmüşdür. Merkantilizm XV-XVIII əsrlərdə Avropada iqtisadi siyasətin başlıca istiqaməti idi.

Merkantilistlər yalnız dövlətə insanın təbii hüquq prisnipəlrinə uyğun olan dövlət müdaxiləsini bəyənirdilər.

Bu ideyaları sonralar bir sıra iqtisadçılar inkişaf etdirdilər. Dövlətin vəzifələrini əks etdirən iqtisadi ideyaları daha geniş şəkildə əsrimizin 30-40-cı illərində ingilis iqtisadçısı Con Keyns irəli sürdü.

Dövlətin iqtisadi funksiyaları məsələsi müasir iqtisadi ədəbiyyatLarda daha da inkişaf etdirilmişdir. Məşhur Amerika iqtisadçıları K.R.Makkonnell və S.L.Bryu dövlətin əsas iqtisadi funksiyalarının aşağıdakılardan ibarət olduğunu göstərirlər:

1. Bazar sisteminin səmərəli fəaliyyətinə şərait yaradan ictimai mühitin və hüquqi bazanın təmin edilməsi.
2. Rəqabətin müdafiəsi.
3. Gəlir və sərvətlərin yenidən bölgüsü.
4. Milli məhsulun quruluşunu dəyişmək məqsədi ilə ehtiyatların bölgüsünü təkmilləşdirmək.
5. İqtisadiyyatın sabitləşdirilməsi.

Bazar iqtisadiyyatına keçid yeni iqtisadi mexanizmin yaradılması və hüquqi bazanın təmin edilməsini tələb edir. Sərbəst iqtisadiyyat yaratmaq, möhkəm iqtisadi sabitliyə nail olmaq, işsizlik və inflyasiyanın qarşısını almaq, sosial ədalətliliyi, iqtisadi artımı, bazar infrastrukturunu təmin etmək üçün güclü hüquqi təminat yaratmaq lazımdır.

İqtisadiyyatın normal tənzimlənməsi və səmərəli fəaliyyəti üçün dövlətin hüquqi təminatı və müdafiəsi sahəsindəki işi onun başlıca funksiyası kimi çıxış edir. Heç də təsadüfi deyildir ki, İ.Kant göstərir ki, «İqtisadiyyat ədalətli yox, səmərəli olmalıdır».

Dövlət səmərəli bazar iqtisadiyyatını təmin etmək üçün mülkiyyət inhisarçılığını aradan qaldırmaq, özəlləşdirmə, xüsusi sahibkarlıq, sosial-iqtisadi inkişafa stimul yaradan vergi sisteminin tətbiq edilməsi, maliyyə-kredit sisteminin normal tənzimlənməsi, bazar infrastrukturunun yaradılması, xarici-iqtisadi əlaqələrin düzgün təşkili, əhalinin sosial müdafiəsi, ətraf mühitin və ekoloji vəziyyətin sağlamlaşdırılması, idarəetmə sisteminin təkmilləşdirilməsi və s. sahələr üzrə müvafiq qanunlar işləyib hazırlayır və qəbul edir.

İqtisadiyyat dövlət işindən vətəndaş cəmiyyətinin əsas işinə çevrilməlidir. Bazar iqtisadiyyatında dövlət iqtisadi münasibətlərdə artıq inhisarçı subyekt kimi yox, bazarın iştirakçılarından biri kimi çıxış edir.

Dövlət inhisarçılığını aradan qaldırmaq və sərbəst iqtisadiyyat yaratmaq məqsədi ilə iqtisadi həyatın tamamilə yeni və hərtərəfli normativ hüquqi bazasını yaratmaq lazımdır.

Bazar iqtisadiyyatında dövlət xüsusi mülkiyyət hüququnu və bu mülkiyyətin istifadəsindən mənfəət əldə etmək hüququnu müəyyənləşdirir və təsbit edir. Dövlət tərəfindən xüsusi mülkiyyətin müdafiəsi torpaq,

fabrik, dükanla yanaşı, intellektual mülkiyyətə də aiddir. Əks halda, şirkətlər və sahibkarlar intellektual sahəyə investisiya qoymazlar.

Mülkiyyət hüququnu müəyyənləşdirib, onu qorumaqla və səmərəli hüquqi sistem yaratmaqla dövlət əmtəələrin və xidmətlərin xüsusi bazarlarının əlverişli fəaliyyətinə, onların cəmiyyət tərəfindən yardım göstərilməsinə nail olur.

Bazarın təminatı sahəsində Azərbaycanda son vaxtlarda xeyli iş görülmüş, bu sıra qanunlar qəbul olunmuş, yeni bazar infrastrukturunun elementləri yaranmışdır.

## Rəqabətin müdafiəsi

Bazar iqtisadiyyatına keçid mülkiyyətin çoxnövlülüyünün yaranmasını və rəqabətin mövcudluğunu tələb edir. Rəqabət, sözün əsl mənasında, bazar iqtisadiyyatının əsas hərəkətverici qüvvəsidir. Rəqabət əmtəə istehsalçısını məhsulun keyfiyyətini yüksəltməyə, onun çeşidini yaxşılaşdırmağa, istehsal xərclərini aşağı salmağa sövq edir. Bütün bunlar isə yüksək keyfiyyətli məhsul istehsal edilməsinə, istehlakçıların tələbatının ödənilməsinə, məhsulların qiymətlərinin aşağı salınmasına və mənfəətin artmasına səbəb olur. Bazar iqtisadiyyatı iqtisadiyyatda inhisarçılığın aradan qaldırılması və rəqabət mühitinin yaranmasını tələb edir.

Dövlət iqtisadiyyatda inhisarçılığı qadağan etmək, iqtisadi sistemdə yüksək rəqabət səviyyəsini yaratmaq üçün antiinhisar qanunları qəbul edir. Bu məqsədlə respublikada «Haqsız rəqabət» və «Antiinhisar fəaliyyəti haqqında» qanunlar qəbul edilmişdir. «Haqsız rəqabət» qanunu bazar subyektlərinin haqsız rəqabət metodlarının tətbiqi üçün məsuliyyəti müəyyən edir və sahibkarlıq fəaliyyətinin ədalətli üsullarla aparılmasına hüquqi təminat yaradır. Haqsız rəqabət qanunvericilik aktları ilə qadağan olunur və bu metodlardan istifadə edənlər məsuliyyətə cəlb olunurlar.

«Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununda təsərrüfat subyektlərinin inhisarçılıq fəaliyyətinin, yəni bazarda rəqabətə yol verilməsinin, onun məhdudlaşdırılmasının və aradan qalldırılmasının təşkilati və hüquqi əsasları müəyyən edilir.

Qeyd etmək lazımdır ki, bir çox hallarda dövlət tənzimlənməsi və antiinhisar siyasəti rəqabəti gücləndirmək əvəzinə, onu bəzən zəiflədir. Bu siyasətə əmtəə və xidmətlərin istehsalına müstəsna lisenziyalar verilməsi, vergilər, xarici malların və xidmətlərin idxalını məhdudlaşdıran kvotalar, əmək haqqını müəyyənləşdirən lisenziyalar və s. daxildir. Məhdudiyyətlər əlverişli deyil və yalnız bir qrup azsaylı insanların arzusu ilə qəbul edilə bilər. Bu isə cəmiyyətin qalan üzvləri üçün səmərəli deyil.

Dövlətin rəqabətə kömək göstərmək üçün tətbiq etdiyi qanunlar və tənzimləmə tədbirləri ardıcıl olaraq həyata keçirilməli və bu sahədə dünya dövlətlərinin təcrübəsi nəzərə alınmalıdır.

## Gəlir və sərvətlərin yenidən bölgüsü

Bazar iqtisadiyyatı şəraitində dövlət gəlirlərin və sərvətlərin yenidən bölüşdürülməsi proqramında iştirak edir. Dövlətin fəaliyyəti vergi siyasətinin, gəlirlərin və sərvətlərin yenidən bölüşdürülməsinin daha ədalətli olmasına yönəldilir. Dövlət cəmiyyətin qarşısında duran məqsəd və problemlərdən asılı olaraq resursların ölkə iqtisadiyyatının sahələri arasında səmərəli bölgüsünə nail olur.

Bazar iqtisadiyyatı şəraitində insanların bacarıq və resurslarla təmin edilməsi sahəsində fərqlər meydana çıxır. Yəni gəlirlərin ədalətli bölgüsü təmin edilmir. Məhz bu baxımdan gəlirlərin yenidən bölgüsündə dövlətin müstəsna rolu vardır.

Yenidən bölgünün genişləndirilməsinin tərəfdarı olan iqtisadçılar iddia edirlər ki, bu sahədə dövlətin rolu sərvətin və iqtisadi hökmranlığın ayrı-ayrı ailələrin əlində toplanmasını məhdudlaşdırmaqdan ibarətdir. Yenidən iri bölgü proqramlarının əleyhdarları isə yüksək gəliri olan ailələrə əlavə vergilərin qoyulması nəticəsində bu qrupun işə həvəsinin, qənaət və investisiyalara olan marağının zəifləyəcəyini, bundan isə bütün cəmiyyətə ziyan dəyəcəyini göstərirlər.

Bazar iqtisadiyyatı ölkələrində dövlət gəlirlərin ədalətli bölgüsü və əhalinin sosial təminatı sahəsində xeyli iş görür, işsizlərə müavinət verilməsi, yoxsulların müalicə olunması, qocaların təqaüdlə təmin edilməsi, gəlirlərin indeksləşdirilməsi, sosial təminatlar, əhalinin hüquqları və istehlakçıların müdafiəsində yaxından iştirak edir.

Sosial sferada əhalinin rifah halının, maddi təminatının və yaşayış səviyyəsinin yaxşılaşdırılması məqsədi ilə respublikada həyata keçirilən sosial-iqtisadi siyasətin nəticəsi olaraq, 2007-ci illə müqayisədə 2008-ci ildə orta aylıq əməkhaqqı 23,1%, əhalinin adambaşına düşən gəlirləri 34,1% artmış, əhalinin sərəncamında qalan vəsaitlər 36,9% çox olmuşdur. Bütün bunlar əhalinin pul gəlirlərinin və bank əmanətlərinin artımına şərait yaratmışdır.

Respublikada son beş il ərzində həyata keçirilən regionların sosial-iqtisadi inkişafı, Dövlət Proqramı da uğurla başa çatmışdır. Proqramda nəzərdə tutulmuş 600 min yeni iş yerlərinin yaradılması əvəzinə, 750 min yeni iş yerləri açılmışdır ki, bu da regionların inkişafına çox böyük təkan vermişdir.

Qeyd etmək lazımdır ki, son illər dövlət büdcə xərclərinin bir neçə dəfə artması hesabına iqtisadiyyata sərmayələrin qoyulmasına diqqətin artırılması özünü qabarıq şəkildə büruzə verir. Məsələn, 2003-cü ilə nisbətən 2008-ci ilin sonuna dövlət büdcəsindən əsaslı vəsait qoyuluşuna 20 dəfədən çox vəsait yönəldilmişdir. Bu artım hesabına ölkəmizin prioritet sosialyönümlü infrastruktur sahələrinin yaradılması və yenidən qurulması

ilə bərabər, mədəniyyət, idman, turizm, təhsil, səhiyyə təyinatlı layihələrin maliyyələşdirilməsi mümkün olmuşdur.

Dünyanın sənaye ölkələrində son yarım əsrdə sosial proqramlar dövlət xərclərinin və vergi sistemlərinin sürətlə artan hissəsinə çevrilMişdir. Məsələn, ABŞ-da ailələrin illik gəlirlərinin məbləğindəki fərqin əsas səbəbi əmək haqlarının müxtəlifliyidir. Alınan gəlirin təxminən 4/3 hissəsi əməkhaqqının payına, qalan 1/4 hissəsi isə icarənin, mənfəətin və faizlərin payına duşur.

ABŞ-ın Perdyu Universitetinin iqtisadiyyat üzrə professoru və İqtisadi Tədris Mərkəzinin direktoru Maykl Uottsın hesablamalarına görə gəlirlərin bölüşdürülməsinin əsas modeli İkinci Dünya müharibəsindən sonrakı dövrdən bəri dəyişməmişdir. Onun hesablamalarına görə əhali hər birinin xüsusi çəkisi 10% olmaqla beş qrupa bölünür və onda görünür ki, milli gəlirin 43 faizi ən varlı ailələrin, 24 faizi sonrakı qrupun, 17 faizi mərkəzdə yerləşən qrupun, 2 faizi sonuncudan bir pillə yüksəkdə duranların və 5 faizi ən kasıb ailələr qrupunun payına düşür.

Lakin bu rəqəmlərdə varlıların yüksək vergi ödəməsi, gəliri aşağı olan ailələrin isə hökumətin yardım proqramları hesabına subsidiyalar olması faktı əks olunmamışdır. Daha sonra o göstərir ki, ən yoxsul ailələrin ümumi gəlirləri hökumətin yardım proqramı üzrə 7%-dək artdığı halda, ən varlı ailələrin gəlirlərinin 37%-dək endiyi müşahidə olunur.

Dünyanın inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrinin hökumətləri bu problemlərin həlli üçün tədbirlər görərək, gəlir səviyyəsi aşağı olan ailələrə subsidiyalar verilməsi proqramlarını hazırlamışlar. Bu yardımın səviyyəsi və formaları məsələsi isə ölkələrin əksəriyyətində mübahisəli siyasi problem kimi qaldırılmaqdadır.

Bazar iqtisadiyyatı istər-istəməz ölkədə gəlir və sərvətlərin dövlət, xüsusi sahibkarlar və əhali arasında bölüşdürlməsində və istifadə edilməsində əsaslı qeyri-bərabərliyə gətirib çıxarır.

Dövlət bu şəraitdə milli gəlirin və sərvətin yenidən bölüşdürülməsində yaxından iştirak edir və əhalinin azgəlirli hissəsinin sosial təminatına kömək edir. Dövlətin transfer tədiyyələri ciddi ehtiyacı olanlara, müavinəti isə ən çox işsizlərə verilir.

Əhalinin müxtəlif strukturlarının təminolunma səviyyəsini təyin etmək üçün «istehlak səbəti»ndən istifadə edilir.

Aztəminatlıların sosial müdafiəsinin istənilən forması o zaman real olur ki, fəaliyyət göstərən qanunvericiliklə əlaqədar vətəndaşların əmək haqqı «istehlak səbəti»ndən aşağı olsun. Aztəminatlılıq təkcə dövlət hesabına deyil, həm də müəyyən xeyriyyə cəmiyyətləri hesabına yüngülləşdirilməlidir.

### Milli məhsulun quruluşunu dəyişmək məqsədi ilə ehtiyatların bölgüsünü təkmilləşdirmək

Dövlətin mühüm funksiyalarından biri ehtiyatların sosial ədalətliliyə görə düzgün bölünməsinə kömək etməkdir. Bu dövlətin siyasətinin «mikro» və «makro» iqtisadi tərəfidir, iqtisadi həyatın bütün tələblərinə cavab verir. Bu funksiya ölkə iqtisadiyyatının, o cümlədən, sənayenin, kənd təsərrüfatının, tikintinin, nəqliyyatın, sosial sferanın və s. sahələrin, cəmiyyətin seçdiyi bazarın birləşməsini özündə əks etdirir. «Mikro» və «makro» iqtisadiyyatın inkişafı cəmiyyət qarşısında duran bütün sosial iqtisadi problemlərin, iqtisadi artımın və habelə ölkədə siyasi sabitliyin yaradılmasında mühüm rol oynayır.

İqtisadi artım mahiyyət etibarilə müəyyən müddət ərzində istehsal edilmiş ümumimilli məhsulun və ya xalis milli məhsulun faizlə artımını və ya onların adambaşına düşən kəmiyyətini əks etdirir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq dövlət mülkiyyəti ilə rəqabət apara biləcək mülkiyyət strukturlarının yaradılması iqtisadi artımın təmin olunmasında yaxından iştirak edir.

Ümumimilli məhsulun təkrar istehsalının kəmiyyət tərəfi istehsal olunan məhsulların həcminin dinamikasını, digər tərəfdən isə iqtisadi ehtiyatlara olan xərc və əldə olunan nəticənin nisbətini əks etdirir. Lakin ümumimilli məhsulun təkrar istehsalının keyfiyyət tərəfi ölkə iqtisadiyyatının bütün sahələrində gedən mütərəqqi quruluş dəyişikliklərini, onların proporsionallıq və tarazlıq səviyyəsini, təsərrüfatçılığın təşkili və idarə olunması istiqamətini əks etdirir.

Azərbaycan iqtisadiyyatında aparılacaq iqtisadi islahatların əsasını mülkiyyət və struktur dəyişikliyi təşkil edir. Mülkiyyətlə yanaşı olaraq struktur dəyişikliyi iqtisadi islahatların ana xəttini təşkil edir. İqtisadiyyatın strukturu dedikdə, onun təsərrüfat mexanizmi nəzərdə tutulur. Belə yanaşma nöqteyi-nəzərindən qurmaq istədiyimiz bazar iqtisadiyyatının sahə, idarəetmə, təsərrüfat tərkibinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Sahə tərkibi əsasən iki amildən: mövcud təbii resurslar ehtiyatından və əhalinin ehtiyacları və iqtisadiyyatın tələbatından asılı olur.

Bazar iqtisadiyyatına keçid şəraitində struktur dəyişiklikləri aparmaq məqsədilə dövlət milli məhsulun quruluşunu dəyişmək və ehtiyatların səmərəli bölgüsünü ön plana çəkir.

İqtisadi artımın səviyyəsi hər şəraitdə məşğulluğun artması və inflyasiyanın yüksəlməsi ilə müşahidə olunur. Dövlətin əsas vəzifəsi isə bu şəraitdə milli məhsulun quruluşunu dəyişmək, yeni iş yerləri yaratmaq, işsizliyin qarşısını almaq üçün ehtiyatların bölgüsünü təkmilləşdirməkdən ibarətdir. Yəni dövlət təbii ehtiyatlar, əmək ehtiyatları və maliyyə (kapital) ehtiyatlarının səmərəli surətdə bölgüsünü təşkil edir.

Bazar iqtisadiyyatına keçid nəticəsində qiymətlərin sərbəstləşdirilməsi, satışa təklif edilən əmtəələrin çeşidi dövlət normaları ilə deyil, istehlakçı tələbatı ilə müəyyənləşdirilir. İqtisadi strukturlarda rəqabət gəlir gə-

tirməyən müəssisələrin bağlanmasına, ya da işçilərin sayının azalmasına səbəb olur. Nəticədə işsizlik artır, çünki müəssisələr, firmalar, şirkətlər öz xərclərini aşağı salmaq uğrunda mübarizə aparırlar. Dövlət dotasiyalarından məhrum olmuş iri dövlət müəssisələri yeni iqtisadi şəraitdə rəqabətə davam gətirmirlər. Bu proses isə xüsusi mülkiyyətin yaranmasını sürətləndirir. Yeni kommersiya imkanlarının yarandığını görən sahibkarlar işçiləri muzdla tutur və yeni əmtəələr və xidmətlər istehsal edirlər. Yeni müəssisələrin açılması isə iş yerlərinin sayının artması, əmək bazarının çevikliyi və fəhlələr üçün iş seçmək imkanları yaradır.

Bazar iqtisadiyyatı möhkəmləndikcə işsizlik və inflyasiya səviyyəsi aşağı düşür.

Bazar iqtisadiyyatına keçid iş qüvvəsinin az məhsuldar və gəlir verən sahədən daha yüksək məhsuldar sahəyə çıxıb getməsinə səbəb olur. Belə ki, hazırkı şəraitdə respublikada iş qüvvəsinin kənd təsərrüfatı (fermer təsərrüfatı), kommersiya sahəsi (ticarət) və maliyyə-kredit strukturlarında cəmləşməsi müşahidə olunur. Çünki bu sahələrdə çalışan işçilərin maddi marağı daha yaxşı təmin edilir.

Bu baxımdan dövlət konkret olaraq təbii sərvətlərin, iş qüvvəsinin, mövcud kapitalın, texnologiyanın səmərəli bölgüsünü təmin etməlidir. Dövlət ehtiyatları yenidən bölmək yolu ilə ümumi milli məhsulun quruluşunun dəyişilməsinə nail olur.

Artan ehtiyatların kəmiyyətinin səmərəli bölgüsü bazar sisteminə keçid şəraitində Azərbaycan dövlətinin iqtisadiyyatı üçün daha xarakterikdir. Çünki tələb amili rolunda çıxış edən ehtiyatların bölgüsü dövlətin əlində cəmləşdiyi üçün onun səmərəli mexanizminin tətbiqi müxtəlif istehsal sahələrinin məhsuldar fəaliyyətini təmin edə bilər.

Cəmiyyət varlandıqca insan üçün daha çox ehtiyatlar ayırır. Bu gün inkişaf etmiş ölkələr, sağlamlığın qorunması, qida və gəlirin minimal vəziyyətinin saxlanmasına öz büdcələrindən xeyli pul ayırırlar. ABŞ-da pulsuz tibbi yardım, sosial təminat, ərzaq talonları kimi sosial proqramlar fəaliyyətdədir. Müasir iqtisadiyyatda insana minimal tələblərdən xeyli çox xərc qoyulur. Vətəndaşların gəlirlərinin yenidən bölüşdürülməsi isə vergi ilə yerinə yetirilir.

Dövlət həmçinin ölkədə ehtiyatların bölgüsünün strateji planlaşdırılması və proqnozlaşdırılması məsələlərinə xüsusi diqqət yetirir. Bu baxımdan Yaponiya dövlətinin iqtisadi inkişafında qısa müddətdə sıçrayışlı tərəqqinin baş verməsi buna əyani misaldır. Çünki burada planlaşdırma ilə bazar mexanizmi qarşılıqlı əlaqədə həyata keçirilir.

## İqtisadiyyatın sabitləşdirilməsi

Bazar iqtsiadiyyatı şəraitində dövlətin rol və məsuliyyətinin artması, funksiyalarının genişlənməsi iqtisadiyyatın normal inkişafına əsaslı təsir edir ki, bu da ölkədə sabitliyin təmin edilməsinə gətirib çıxarır.

Dünyanın aparıcı iqtsiadçıları dövləti maliyyə, büdcə və pul-kredit siyasəti vasitəsi ilə iqtisadiyyatın sabitləşdirilməsi, böhranın, işsizliyin, inflyasiyanın aradan qaldırılmasının mümkünlüyünün elmi yollarını işləyib hazırlamışlar.

Maliyyə-büdcə siyasəti yüksək işsizlik və zəif inflyasiya dövründə milli iqtisadiyyatın stimullaşdırılması, yaxud sürətli inflyasiya və aşağı səviyyəli işsizlik dövrlərində onun ləngidilməsinə yönəldilmiş dövlət xərclərinə və vergiqoyma problemlərinə toxunur.

Ölkədə iqtisadi artımı təmin etmək və insanların maddi rifahını yaxşılaşdırmağın əsas amili sabitlikdir. Sabitlik iki yerə bölünür: siyasi sabitlik və maliyyə sabitliyi. Respublikada siyasi sabitlik möhkəmlənir. Bu isə xarici və daxili sərmayədarlar üçün çox vacib göstəricidir. Sərmayədarların Azərbaycana axınının çoxalması birinci növbədə siyasi sabitliklə bağlıdır.

Maliyyə sabitliyi isə inflyasiyanın səviyyəsi, büdcə kəsirinin azaldılması, manatın alıcılıq qabiliyyətinin artması və dollara nisbətdə məzənnəsinin möhkəmlənməsi və s. məsələləri əhatə edir. Azərbaycan dövləti həyata keçirdiyi iqtisadi siyasəti respublikanın ən vacib, aktual probleminin həllinə yönəldib. Bu birinci növbədə istehsalı dirçəltmək və onun əsasında əhalinin həyat səviyyəsini yüksəltməkdən ibarətdir.

Respublikada maliyyə sabitliyi sahəsində işlər əsasən 1994-cü ilin sonundan başlanmışdır. Həmin ilin noyabr – dekabr aylarında inflyasiyanın səviyyəsi 50 - 60 faizə çatmışdı. Qiymətlər hər gün 2 faiz artırdı. 1994-cü ildə inflyasiyanın səviyyəsi təxminən 1560-1600 faizə yaxın idi. Bu o deməkdir ki, qiymətlər 1993-cü ilə nisbətən 16 dəfə artmışdır. 1995-ci ildə isə inflyasiyanın səviyyəsi cəmi 84 faiz oldu. 1997-ci ilin əvvəlindən isə həmin proses daha intensiv gedir. 1997-ci ilin əvvəlində respublikada inflyasiyanın səviyyəsi 2 faizdən də azdır. İnflyasiyanın aşağı düşməsi həm daxildə və həm də xaricdə respublikanın iqtisadiyyatına inamı artırır.

Maliyyə sabitliyi birinci növbədə büdcə kəsirinin azaldılması ilə əlaqədardır. Büdcə kəsiri keçmiş illərdə 20-30 faizə çatdığı halda, 1997- ci ilin əvvəlində cəmisi 2,2 faiz təşkil etmişdir. Büdcə kəsirinin azalması bank sisteminin sağlamlaşdırılması və manatın məzənnəsinin möhkəmlənməsinə səbəb olmuşdur. Valyuta tənzimlənməsi faktiki olaraq tam sərbəstləşmişdir. Bu müsbət dəyişikliklər istehsalın səviyyəsinin aşağı düşməsinin qarşısını alır, maliyyə sabitliyi, iqtisadi sabitlik müəyyən müsbət meyillərə imkan yaradır.

Dövlətin iqtisadi siyasətində üstünlük banklardan, ticarət-kommersiya strukturlarından istehsala keçməlidir. Onun vasitələrindən biri dövlətin təkmil vergi siyasəti yeritməsidir.

Müxtəlif mülkiyyət formalarına, rezident və qeyri-rezident müəssisə və təşkilatlara bərabər vergi dərəcəsi tətbiq etmək, güzəştləri minimuma endirmək, vergi bazasını genişləndirmək, istehsal sahələrinə kapital qoyuluşunu stimullaşdıran, bazar iqtisadiyyatı tələblərindən irəli gələn çevik vergi siyasəti yeritmək lazımdır.

Maliyyə-sənaye qruplarının yaranması, inteqrasiyanın dərinləşməsi, istehsal, ticarət, bank strukturlarının bir təşkilati-hüquqi formada birləşməsi və qiymətli kağızlar bazarının yüksək səviyyəyə çatması dövlətə imkan verir ki, vahid vergi dərəcəsi tətbiq etsin.

Dövlətin yerinə yetirmiş olduğu maliyyə siyasətində maliyyə nəzarətindən geniş istifadə edilir. Maliyyə nəzarəti funksiyası istehsalçıların gəlirlərinin dövlət tərəfindən aşkar edilməsində və qeydiyyatında ifadə olunur. Vergi qanununa görə, bu gəlirlərin bir hissəsi vergilər şəklində sosial və digər ümumdövlət ehtiyaclarının ödənilməsi üçün dövlət büdcəsinə daxil olur. Dövlət vergilərin xərclənməsinin düzgünlüyünə nəzarət edir.

Gəlir və xərclər üzərində ali maliyyə nəzarəti Azərbaycan Respublikası Milli Məclisinin müstəsna hüququdur. Yerlərdə bu funksiyaları yerli dövlət hakimiyyəti orqanları həyata keçirir. Maliyyə nəzarəti üzrə geniş hüquqlar isə Azərbaycan Respublikası Maliyyə Nazirliyinə aiddir.

Dünya dövlətlərində, məsələn, ABŞ-da xüsusi maliyyə nəzarətini, prezident tərəfindən təyin edilən və yalnız Konqresin hər iki palatasının qərarı ilə azad edilən baş nəzarətçinin rəhbərlik etdiyi Baş Hesabat İdarəsi, Fransada mərkəzdə və yerlərdə Hesabat Palatası, İngiltərədə isə Nəzarətçi və Auditor İdarəsi Maliyyə Nazirliyi ilə birgə həyata keçirir.

Bunlardan başqa, Dövlət Gömrük İdarəsi dövlət sərhədi vasitəsilə maddi nemətlərin aparılmasına nəzarət edir və gömrük vergi və rüsumlarını yığır. Nəhayət, Azərbaycan dövləti ölkənin təbii, iqtisadi, elmi-texniki və intellektual potensialının istehsal dövriyyəsinə cəlb edilməsini, rəqabət qabiliyyətli məhsullar istehsalını və reallaşdırılmasını, ixracatı stimullaşdırmağı, yeni iş yerləri yaratmağı və iqtisadiyyatın sabit inkişafı əsasında əhalinin həyat səviyyəsinin yüksəltməyi iqtisadi sahədə fəaliyyətinin başlıca vəzifəsi hesab edir.

## 2. Sosial funksiya

Dövlətin yerinə yetirmiş olduğu funksiyalardan biri sosial funksiyadır. Sosial funksiya əhalinin sosial müdafiəsini, bütün cəmiyyət üzvləri üçün onların nemətlər istehsalında bilavasitə iştirakından asılı olmayaraq normal həyat şəraiti təmin etməyə xidmət edir. Bazar iqtisadiyyatına keçid nəticəsində inzibati-amirlik sistemində dövlət tərəfindən bərabərçilik prinsipi üzrə sosial nizamasalma tədricən aradan qaldırılır. Bazar iqtisadiyyatı istehsalçıların və istehlakçıların azadlığı, müstəqilliyi, iqtisadi sərbəstliyi ilə şərtlənir. Bazar iqtisadiyyatı əhalini fəal iqtisadi fəaliyyətə cəlb

edir, onlarda sahibkarlıq, maddi maraq, qanun və hüquqlara riayət etmək vərdişləri tərbiyə edir.

Dövlətin sosial sahədə həyata keçirdiyi funksiya ilk növbədə əhalinin təhsil, səhiyyə, sosial mühafizə, sosial təminatı və s. sahələrdə işlərin aparılmasında özünü göstərir.

Azərbaycanın dövlət başçısı möhtərəm Heydər Əliyev cənablarının sözləri ilə desək, «Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətdə inkişaf etməsidir».

Dövlət əhalinin tam və səmərəli məşğulluğunu, ictimai tələbat nəzərə alınmaqla əmək qabiliyyətli bütün əhalinin qabiliyyətinə, təhsilinə və peşəsinə uyğun işlə təmin edən elmi-texniki, iqtisadi və sosial tədbirlər kompleksini həyata keçirir. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq maddi nemətlərin bölgüsü istehsalçılar və istehlakçılar arasında qeyri-bərabər bölüşdürülür. Burada bazar və kommersiya prinsipləri inkişaf edir.

Bununla yanaşı olaraq dövlət xəstələrin, əlillərin, qocaların, tələbələrin, uşaqların sosial təminatı məsələsini öz üzərinə götürür.

Azərbaycan Respublikasının Konstitusiyasında deyildiyi kimi, «hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını və əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir».

Dövlət səhiyyə, maarif, mənzil tikintisinə, rabitə və nəqliyyatın normal inkişafına daima qayğı göstərir. Bazar iqtisadiyyatına keçid iqtisadiyyat və mədəniyyətin inkişafı, sosial münasibətlərin və cəmiyyətin başlıca məhsuldar qüvvəsi olan insanın özünün təkmilləşdirilməsi böyük dövlət qayğısı tələb edir.

Dövlət insanların mədəni həyatda iştirakı və mədəniyyət sərvətlərindən istifadə etmək qayğısına qalır.

Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür. Sanitariya – epidemiologiya salamatlığına təminat verir, əhalinin sağlamlığının möhkəmləndirilməsində, gənclərin əməyə və vətəni müdafiəyə hazırlanmasında bədən tərbiyəsinin və idmanın əhəmiyyəti artır.

Azərbaycan Respublikası ali və yerli dövlət hakimiyyəti və idarəetmə orqanları əhalinin sanitariya-epidemioloji salamatlığının təmin edilməsi, idman və bədən tərbiyəsinin inkişafı sahəsində məqsədyönlü respublika kompleks proqramlarının hazırlanması və qəbul olunmasına, onların maliyyələşdirilməsi və həyata keçirilməsinə nəzarət edir.

Əhalinin sağlamlığını qorumaq və möhkəmləndirmək, ətraf mühitin insana mənfi təsirinin qarşısının alınmasına kömək etmək üçün ölkədə səhiyyə sahəsində təhsil sisteminin inkişafına böyük ehtiyac yaranır.

Azərbaycan dövləti pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində vətəndaşlar pulsuz təhsil al-

maq hüququna malikdirlər. Həmin təhsil müəssisələrində əlavə, pullu təhsil qrupları da yaradılır.

Azərbaycan Respublikasında dünya strandartlarına müvafiq olaraq dövlət təhsil standartlarını tətbiq edir. Azərbaycan dövləti bilik, bacarıq və istedadı reallaşdırmaq üçün hamıya bərabər şəraitin yaradılması, təhsilin demokratikləşdirilməsi, təhsil müəssisələrinin arıtrılması, ümumbəşəri dəyərlərdən istifadə edilməsi, insan həyatı və sağlamlığının qorunması, təhsilin elmi-kütləvi xarakter daşıması prinsiplərini ardıcıl olaraq həyata keçirir.

Bazar iqtisadiyyatına keçid ölkədə əhali arasında təbəqələşməyə, yəni yoxsul və varlılara bölünməsinə səbəb olursa, dövlət quruculuğu prosesi isə ölkəmizdə hüquqi dövlətin yaranmasını, əlverişsiz vəziyyətdə onların real sosial müdafiəsini təmin edir. Dövlət quruculuğunun inkişafı isə yoxsul təbəqənin sosial müdafiəsini təmin etmək məqsədi ilə ayrılan vəsaitin get-gedə artmasına səbəb olur.

### 3. Ekoloji funksiya

Ekoloji funksiya bütün dünya dövlətlərinin həyata əhəmiyyətli fəaliyyətinin əsas ana xəttidir. Bir-birilə qarşılıqlı əlaqədə olan təbiət komponentlərindən torpaq, yerüstü və yeraltı sular, atmosfer havası, yerin təki, bitkilər və heyvanlar aləmi və onları birləşdirən ekoloji sistemlər və komplekslər təbiəti mühafizə obyektləri dövlətlərin daima diqqət mərkəzindədir.

Azərbaycan dövləti ekoloji funksiyanın zəruri və dünyəvi əhəmiyyət kəsb etməsini nəzərə alaraq 1992-ci ildə «Təbiəti mühafizə və təbiətdən istifadə haqqında» Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir.

Təbiəti mühafizə və təbiətdən istifadə haqqında qanunun məqsədi cəmiyyət ilə təbiətin ahəngdar qarşılıqlı əlaqəsini təmin edərək Azərbaycanın əzəli təbii xüsusiyyətlərini, habelə canlı orqanizmləri və onların yaşayış mühitini qoruyub saxlamaqdır.

Təbii mühitin ayrı-ayrı komponentləri ilə bağlı olan ictimai münasibətlər torpaqların, yerin təkinin, su ehtiyatlarının atmosfer havasının, floranın (o cümlədən meşə ehtiyatlarının), faunanın (o cümlədən balıq ehtiyatlarının), istirahət (rekreasiya) ehtiyatlarının mühafizəsi və onlardan istifadə haqqında bu qanuna əsasən qəbul edilmiş qanunvericilik aktları ilə, habelə əlaqədar qanunlarla tənzimlənir.

Dövlət təbiəti mühafizəni təmin etməyin və təbiətdən istifadəni tənzimləyən iqtisadi mexanizmi işləyib həyata keçirir. Burada iqtisadi mexanizmin əsas vəzifəsi ekoloji təhlükəsizlik, təbii ehtiyatlardan səmərəli istifadə, onların bərpası və artırılması tədbirlərinin işlənib hazırlanmasına, planlaşdırılmasına və yerinə yetirilməsinə təbiət istifadəçilərinin maddi həvəsini artırmaqdır.

Dövlət ətraf mühitin və təbiətdən istifadənin vəziyyətinə müşahidə və nəzarət edir. Bu vəzifəni Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, habelə müvafiq fəaliyyət istiqamətləri üzrə nazirliklər və yerli idarəetmə orqanları həyata keçirirlər.

Hazırda Azərbaycan ekoloji böhran həddindədir. Deməli, su, yeraltı sular, torpağın çirklənməsi və s. problemlər həll olunmasa, respublikanın gələcək inkişafı mümkün deyil.

Xəzər problemi, torpağın, havanın çirklənməsi və s. problemlər özünü daha kəskin şəkildə göstərir. Əhalinin artımı və urbanizasiya ətraf mühitin keyfiyyət problemlərini kəskinləşdirmiş və geniş kütlə qarşısında aşkara çıxarmışdır. Məsələn, cəmiyyət külli miqdarda sərvətlərin istehsalı və istehlakının havanın, suyun və torpağın çirklənməsi şəklində ciddi təhlükə yarada biləcəyindən xəbərdaodır. Ətraf mühitin problemlərinin həlli isə dövlətin əsas vəzifələrindən biridir.

### 4. Hüquq qaydasının mühafizəsi funksiyası

Hüquq qaydasının mühafizəsi dövlətin qanunverici göstərişlərinin ictimai münasibətlərin bütün iştirakçıları tərəfindən dürüst və tam həyata keçirilməsinin təmin edilməsinə yönələn dövlət fəaliyyətidir. Dövlət ictimai həyatda xüsusi məhkəmə, prokurorluq və s. orqanların köməyilə reallığı təmin edir və hüquq normaları dövlət tərəfindən rəsmi aktlarda müəyyən olunur. Bazar iqtisadiyyatına keçid şəraitində hüquq şəxsiyyətin iqtsiadi azadlığının təmininin zəruri aləti kimi çıxış edir. Hüquq və iqtisadiyyatın qarşılıqlı əlaqəsi ictimai inkişafın ümumi qanunauyğunluqlarına tabedir. Bir tərəfdən bazar iqtisadiyyatının tələbatı obyektiv olaraq müəyyən iqtisadi münasibətlərin tənzimlənməsinin hüquqi formasının, mülkiyyətin müxtəlif formalarının hüquqi təsbitinin və mühafizəsinin, istehsalçıların müstəqilliyinin təmin edilməsinin zəruriliyini doğurur. Bu baxımdan Azərbaycan dövləti bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq «Mülkiyyət haqqında», «Özəlləşdirmə haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında» və s. silsilə qanunlar qəbul etmişdir.

Qanunçuluq, sivilizasiyalı cəmiyyətin, onun siyasi sisteminin bütün halqalarının normal fəaliyyətinin əsasıdır. İctimai həyatın sabit amili kimi qanunçuluq, bütün vətəndaşların qanun qarşısında real bəra-bərçiliyini təmin edən sivilizasiyalı cəmiyyətdə yaranır və formalaşır.

Azərbaycan dövlətinin bazar iqtisadiyyatına keçməsi və sivilizasiyalı dövlət qurması məsələsi yalnız qanunçuluq şəraitində yarana və formalaşa bilər. Bazar iqtisadiyyatı zamanı xüsusi mülkiyyət azadlığı, rəqabət yalnız qanunlarla tənzim edilə bilər.

İstənilən sivilizasiyalı dövlətin hüquq sisteminin ən vacib vəzifələri ictimai münasibətləri sosial azadlıq və ədalət çərçivəsinə salmaqdan ibarətdir.

Hüquq qaydasının mühafizəsi funksiyası hüquqi təsirin cəmiyyət üçün müsbət münasibətlərin qorunması və mənfi münasibətlərin isə sıxışdırılıb aradan çıxarılmasına xidmət edir. Dövlətin hüquq qaydasının mühafizəedici funksiyası hüquqazidd davranışın qarşısının alınması və aradan qaldırılmasına yönəlmişdir.

## 5. Xarici funksiyalar

Dövlətin xarici funksiyaları özündə beynəlxalq aləmdə fəaliyyətinin əsas istiqamətlərini təcəssüm etdirir. Dünya birliyinin bütün dövlətləri ilə faydalı əməkdaşlıq və xarici hücumlardan ölkənin müdafiəsini təşkil edir.

Cəmiyyətin inkişafının müasir səviyyəsi bütün sivilizasiyalı dövlətlərin iqtisadiyyat, siyasət, mədəniyyət və s. sahələrdə əməkdaşlıq etməsini tələb edir. Burada dövlətin mənafelərinin bütün dövlətlərin konkret və ümumi mənafelərinə uyğun gəlməsi, bərabərhüquqlu iqtisadi, siyasi, mədəni və digər münasibətlərin müəyyən edilməsi prinsipi əsas götürülür.

Yenicə müstəqillik əldə etmiş Azərbaycan dövləti dünyanın bütün dövlətlərilə dostçasına möhkəm münasibətlərə və hərtərəfli əməkdaşlığa səy edir. Dövlətlərarası münasibətləri möhkəmlətmək, onları müqavilə qaydası ilə təsbit etmək, qanunvericilik orqanları, ictimai təşkilatlar arasında əlaqələri inkişaf etdirmək, iqtsiadi, siyasi, mədəni, humanitar və s. əməkdaşlığın bütün formalarını daha da fəallaşdırmaq xəttini yeridir.

Dünya ölkələri arasında iqtsiadi əlaqələr kapitalların, xidmətlərin, iş qüvvələrinin, valyuta ehtiyatlarının beynəlxalq hərəkəti vasitəsilə həyata keçirilir.

Beynəlxalq iqtsiadi əməkdaşlığın ümumi əlaqələndirilməsi, BMT və onun ixtisaslaşdırılmış idarələri, beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilir. Artıq Azərbaycan dövləti də BMT-nin üzvüdür və bütün səlahiyyətlərdən istifadə edir.

Müasir tarixi dövrdə BMT-nin başlıca vəzifəsi beynəlxalq sülh və təhlükəsizliyin qorunması, möhkəmləndirilməsi, dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsidir. Azərbaycan dövləti dünyanın iri super dövlətləri, sənaye dövlətləri və inkişaf etməkdə olan ölkələrlə sıx əməkdaşlıq edir. Azərbaycan dövləti BMT-nin ixtisaslaşdırılmış idarə və təşkilatları olan Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, BMT-nin Maarif, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı (YUNESKO), Ümumdünya Səhiyyə Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Banklar, Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Maliyyə Korporasiyası isə yaxından əməkdaşlıq edir.

Hazırda beynəlxalq həyatın beynəlmiləlləşməsi beynəlxalq təşkilatların sayının çoxalmasına, onların funksiyalarının və səlahiyyətlərinin genişlənməsinə səbəb olmuşdur.

Azərbaycan Dövləti siyasi sahədə dövlətlərin əməkdaşlığına, hər şeydən əvvəl, sülh məsələsinə böyük qiymət verir.

Azərbaycan dövləti siyasi əməkdaşlıq məsələsində parlamentlərarası və hökumətlərarası danışıqların aparılmasına istinad edir. Cəlb edildiyimiz «Qarabağ» müharibəsinin dünya dövlətlərinin, BMT-nin və ATƏT-in vasitəçiliyi ilə dinc yolla qurtarmasına daha çox üstünlük verir. Məsələnin diplomatik yolla, ikitərəfli və ya çoxtərəfli danışıqlar əsasında həll edilməsinə tərəfdar çıxır.

Azərbaycan dövləti dünya dövlətləri arasında dinc, mehriban qonşuluğun və əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Bu baxımdan ətraf mühitin mühafizəsi və ekoloji vəziyyəti qorumaq sahəsində dünya dövlətlərinin əməkdaşlığı müstəsna rol oynayır. Çünki hal – hazırda ekoloji tarazlığın pozulması, ətraf mühitin çirklənməsi məsələsi ən mühüm qloabl problemlərdən biridir. Bu isə bütün dünya dövlətlərinin səyinin birləşdirilməsini tələb edir.

### 6. Ölkənin müdafiəsi funksiyası

Dövlətin yerinə yetirmiş olduğu əsas funksiyalardan biri ölkənin təhlükəsizliyi və müdafiəsini təmin etmək funksiyasıdır.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir ki, «Azərbaycan Respublikası öz təhlükəsizliyinin müdafiəsini təmin etmək məqsədi ilə Silahlı qüvvələr və başqa silahlı birləşmələr yaradır. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir».

Azərbaycan dövləti müdafiə və təhlükəsizlik məsələlərində ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, Silahlı qüvvələrin gündəlik təkmilləşdirilməsi, dövlət sərhədələrinin mühafizəsi və mülki müdafiənin təşkili məsələlərinə xüsusi diqqət yetirir.

Ölkənin müdafiəsi funksiyası iqtisadi, sosial və hüquq qaydasının mühafizəsi və s. funksiyaları ilə əlaqəlidir.

Dövlətin təhlükəsizliyi və müdafiəsi onun daxili funksiyaları ilə sıx bağlıdır. Belə ki, o həm ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi və həm də ölkədə dinc quruculuq işləri ilə məşğul olmağa şərait yaradır.

## 1.3. Keçid dövründə dövlətin qarşısında duran əsas vəzifələr

Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan dövlətinin özünün milli iqtisadiyyatını yaratmaq prosesində hakimiyyət orqanları yaxından iştirak etməli və geniş islahatlar keçirməlidirlər. İslahatlar keçirmək keçid dövründə dövlətin əsas funksiyalarından biridir. Dövlətin əsaslı islahatlar keçirmək istiqaməti dövlət inhisarının aradan qalldırılması, özəlləşdirmə, maliyyə-kredit və pul tədavülü, bank, büdcə, vergi, sığorta, xarici ticarət, gömrük və s. sahələri əhatə edir.

Keçid dövründə hər bir dövlətin qarşısında duran əsas vəzifə milli mənafeyi tam təmin edən resursların istifadəsinə nail olmaqdan ibarətdir. Keçid dövrü yaşayan ölkələrin ənənəvi quruluş və xüsusiyyətlərindən asılı olaraq mikroiqtisadi siyasət xeyli fərqlənir. Fərqlər mövcud olsa da, keçid dövrünün xüsusiyyətləri məhz bir prinsipə diqqət yetirir: sahibkarlıq üzərində sərt dövlət nəzarəti. Bu prinsip bazar iqtisadiyyatından hakim olan «görünməz əl» mexanizminin fəaliyyətini məhdudlaşdırmağı tələb edir. Düzdür, normal bazar iqtisadiyyatında «görünməz əl» resursların səmərəli bölgüsünü təmin etməlidir. Ancaq keçid dövrü buna qabil deyil. Sərt dövlət tənziminin son məqsədi «görünməz əl» mexanizmini bərqərar etmək və fəaliyyətə salmaqdan ibarətdir. Dövlət tənzimi sağlam və təkmil rəqabətə şərait yaradılması, ətraf mühitin tənzimliyinə riayət edilməsi, istehsalın hər hansı formada cəmiyyətə digər ziyan vurmasının istisna edilməsi yolu ilə reallaşır.

Dövlət keçid dövründə səmərəli iqtisadi fəaliyyətə zəmin yaradılması sahəsində aşağıdakı istiqamətlərdə iş aparır:

- təkmil rəqabəti təmin etmək üçün inhisarların və ya oliqopoliyaların fəaliyyəti qəti qadağan olunur, bu sahədə mövcud qanunvericiliyə əməl olunması üçün ciddi nəzarət edilir;
- ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün müvafiq istehsal sahələrində nəzarət həyata keçirilir, müəssisələrin zərərli tullantıları minimuma endirilir, bu mümkün olmadıqda isə, həmin müəssisələr bağlanılır. Eyni zamanda, artıq çirklənmiş olan mühitin təmizlənməsi üçün xüsusi proqramlar hazırlanıb həyata keçirilir. İnsan həyatı üçün zərərli olan məhsullar istehsal edən sahələrin (tütün məmulatları, spirtli içkilərin) vergi yükünü artırmaqla onların mənfi nəticələrini aradan qaldırmaq üçün baza yaradılır;
- keçid dövrünə xas olan əsas problemlərdən birinin - informasiya qıtlığının aradan qaldırılması üçün fəal tədbirlər görülür. İstehlakçılar bazarda olan məhsullar barədə məlumatlandırılır. İstehsalçıları isə elmi-texniki yeniliklər, qabaqcıl istehsal üsulları ilə tanış etmək üçün lazımi vasitələrdən istifadə olunur.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı istənilən halda gəlirlərin ədalətli bölgüsünü təmin etməyə qadir deyildir. Keçid dövründə əhali arasında onsuz da mövcud olan təbəqələşmə daha da dərinləşir, yoxsul təbəqə daha da var-yoxdan çıxır. Aşağı inkişaf səviyyəli dövlətlərdə bu təbəqənin payı say nisbətində xüsusilə azdır. Ancaq yüksək inkişaf etmiş ölkələrdə zəhmətkeş təbəqə kifayət qədər təmin olunur. Daha doğrusu, cəmiyyət varlandıqca aztəminatlılara ayrılan xərclərin həcmi də artır. Keçid dövrü ölkənin aşağı gəlir səviyyəsi ilə səciyyələndiyindən gəlirlərin bölgüsündə az da olsa ədalətliliyin bərqərar olması üçün hökumətin səyləri əvəzsizdir. Gəlir bölgüsü, ümumiyyətlə, hökumətin ikinci ən əsas

funksiyası hesab olunurdu. Bu funksiya vergiqoyma və xərclər, bəzən isə tənzim vasitəsilə həyata keçirilir.

Bazar iqtisadiyyatında keçid şəraitində dövlət konkret olaraq bir sıra iqitsadi funksiyaları yerinə yetirir:

1. İqtisadiyyatın dövlətsizləşdirilməsi və özəlləşdirilməsi, sahibkarlığın inkişafı.

2. Bazar infrastrukturunun, o cümlədən, əmtəə və fond birjalarının yaradılması.

3. İqtisadiyyatın inhisardan azad edilməsi və rəqabət mühitinin yaradılması əsasında bazar tarazlığına nail olunması.

4. Qiymətlərin liberallaşdırılması, tələb-təklif münasibəti əsasında qiymətin müəyyən edilməsi.

5. Ölkədə düzgün pul-kredit siyasətinin aparılmasını nəzərdə tutan maliyyə – iqitsadi sabitləşdirmənin həyata keçirilməsi.

6. Əhalinin müvafiq hissəsinin bazar iqitsadiyyatına uyğunlaşmasının təmini məqsədilə güclü sosial müdafiə sisteminin təşkili.

7. Əhalinin tələbatını ödəmək məqsədilə fəal struktur-investisiya siyasəti yürütmək əsasında iqtisadiyyatın sosial istiqamətə yönəldilməsi.

Dünya ölkələrində bu məqsədlərə nail olmaq üçün əsasən iki keçid variantı nümayiş etdirilir. Birincisi – təkamül yoludur ki, bu üsul bazar təsisatlarının tədrici formalaşmasına əsaslanır (Çin, Macarıstan). İkincisi – şok terapiyası Qərbi Avropa ölkələrində (Polşa) və Rusiyada xüsusi intensivliklə həyata keçirilir. Bu iki yoldan məhz hansının seçilməsi təkcə siyasi rəhbərliyin iradəsindən deyil, eləcə də siyasi-sosial, tarixi və digər amillərin təsirindən asılıdır.

Bazara keçidin təkamül yolu aşağıdakı əsas xüsusiyyətlərlə səciyyələnir.

İslahatın başlanğıcı istehlak bazarında dinamik tarazlığın bərqərar olması ilə əlaqələndirilir, belə ki, yalnız daha çevik qiymət sistemi deyil, istehlak malları bazarının özəl bölməsində sürətli inkişaf tarazlığın yaranmasına şərait yaradır.

Bazar münasibətləri əvvəlcə istehlak mallarının istehsalı və satışı sahəsini, bundan sonra isə investisiya sahəsini bürüyür.

Qiymətlərin liberallaşdırılması istehsalatın sonrakı mərhələlərində həyata keçirilir, ancaq güclü inhisarçılığa meyilli olan sahələrdə qiymətlərə dövlət nəzarəti saxlanılır.

İnflyasiyaya yol verməmək üçün sərt maliyyə siyasəti yeridilir.

Bazar iqtisadiyyatı sürətlə formalaşdırılır, sahibkarlıq fəaliyyəti həvəsləndirilir.

Təkamül yolu ilə keçidin əsas əlaməti onun kənd təsərrüfatı sahəsindən başlanmasıdır. Burada köhnə sistemin çatışmazlıqları yoluna qoyulur, özəl təsərrüfat üçün zəmin yaradılır. Aqrar sahənin inkişafına verilən təkanın təsiri getdikcə kənd təsərrüfatı ilə bağlı olan digər sahələrdə hiss olunmağa başlayır və islahat bütün təsərrüfatı əhatə edir. Məsələn, bazar

iqisadiyyatına keçiddə Çin Xalq Respublikasının yeritdiyi təkamül siyasətinin əsas məzmunu iqtisadiyyatda «bazar» və «plan» mövcudluq formalarının birləşdirilməsindən ibarətdir. Belə birləşmənin istehsal fəaliyyətinə təkan verəcəyi və xalq təsərrüfatı inkişafının yüksək tempini təmin edəcəyi nəzərdə tutulur.

Ancaq Çində plan və bazarın birgə mövcudluğunun səmərəli forması hələ muəyyənləşdirilməyib. Nəzəri olaraq belə bir forma əsaslandırılsa da, praktiki səmərəli metodlar hələ ki, müəyyən edilməyib. Bununla belə, Çin Respublikası bazara keçiddə digər respublikalar ilə müqayisədə üstün nailiyyətlər əldə edib.

Çin modelinin digər respublikalarda, o cümlədən Azərbaycanda tətbiqinin qeyri-mümkünlüyü bu ölkələrin sovet dövründən miras qalmış təsərrüfatın səciyyəvi xüsusiyyətlərinə bağlılığıdır. Çindən fərqli olaraq, bu respublikalarda təsərrüfat əlaqələri kəskin pozulmuş, kənd təsərrüfatı iflasa uğramışdır.

1991-ci ilin sonunda keçmiş Sovetlər Birliyinə daxil olan respublikalarda iqtsiadi durum çox ağırlaşdı və nəticədə respublikalar təkamül yolundan imtina etdilər.

«Şok terapiyası» modelinin strategiyası iki əsas istiqaməti özündə birləşdirir: antiinflyasiya proqramı və dərin institusional islahatlar.

«Şok terapiyası» proqramının tərəfdarları öz modellərinin reallaşmasının iki mərhələsini fərqləndirirlər. Birinci mərhələdə (1-2 il) inflyasiyaya qarşı əsaslı tədbirlər həyata keçirilir ki, nəticədə bazarda maliyyə tarazlığı əldə oulnur. İkinci mərhələ təqribən 10-15 il müddətə iqtisadiyyatda mühüm dəyişikliklər və iqtsiadi yüksəlişi nəzərdə tutur.

Birinci mərhələdə əmtəə qıtlığı aradan götürülmüş və istehslak bazarında tarazlıq yaranmışdır ki, bu da bazarın əsas əlamətinin istənilən əmtəənin istənilən vaxt əldə edilməsi imkanını reallığa çevirmişdir.

Hökumətin yeritdiyi sərt keçid siyasəti iqtisadi böhranın aradan götürülməsində hər hansı başqa metodun istifadə imkanını istisna edir. Buna görə də, keçid respublikaları bu yolda sonunadək irəliləməlidirlər.

«Şok terapiyası»nın institusional dəyişikliklər mərhələsi hazırda davam edir. Bu mərhələdə dövlətin reallaşdırmalı olduğu proqram ümumi şəkildə belə göstərilə bilər:

- qiymətlərin sərbəstləşdirilməsi;
- antiinhisar qanunvericiliyinin qəbulu və bir sıra sahələrdə böyük dövlət müəssisələrinin kiçik müəssisələrə bölünməsi:
- dövlət müəssisələrinin tam kommersiya hesabına keçirilməsi, dövlət və müəssisələrin maliyyəsinin ayrılması;
- ənənəvi mərkəzi planlaşdırmanın ləğvi;
- kiçik özəlləşdirmənin geniş vüsət alması, xüsusən pərakəndə satış və ərzaq sahəsində;

- təsərrüfatın bütün sahələrində özəl bölmənin dinamik inkişafının təmini;

-milli valyutanın konvertləşən xarici valyutaya sabit kursla daxili dönərliliyinin əldə olunması;

- sosial müdafiənin, o cümlədən işəgötürmə xidmətinin və işsizliyə görə müavinət sistemi tətbiqinin əsaslarının yaradılması.

Dövlət bu məqsədləri reallaşdırmaqla yanaşı, iqtisadiyyata sərbəstlik verməк üçün müdaxilə miqyaslarını minimuma endirməyə çalışır. Maddi və maliyyə resurslarının bölgüsü üzrə məsuliyyəti dövlət tədricən öz üzərindən götürür. Onun əsas vəzifəsi bazarın vəziyyətinə nəzarəti və onun işinin səmərəliliyinin təmini məqsədilə, vergi, kredit və digər iqtisadi alətlərdən istifadəyə çevrilir. Dövlət həm istehlak, həm də istehsal vasitələri bazarında adi bazar iştirakçısı kimi çıxış etməyə başlayır. Dövlət sifarişi məzmun etibarilə əsaslı dəyişikliklərə uğrayır. Sifarişlər komanda deyil, təklif şəklində reallaşır, qiymətlər bazar əsasında müəyyən edilir, dövlət orqanlarının vəzifəsi isə əməliyyatı rəsmiləşdirməkdən ibarət olur.

Həqiqi bazar mexanizminin formalaşması üçün dövlət ÜDM-də özəl bölmənin payının yüksəlməsinə hər vasitə ilə yardım edir. Məlumdur ki, bu pay ən azı 25-30% olmalıdır. İlkin nəticələrin tədqiqi göstərir ki, bazara keçid prosesində artıq müəyyən fəaliyyətlər mövcuddur. Keçid proqramının əsas məqsədləri forma etibarilə reallaşmışdır. Qiymətlər əsasən sərbəstdir, özəlləşdirilmə aparılıb, maliyyə tarazlığı mövcuddur və s. Lakin iqtisadi islahatların aparılmasında bir sıra maneələr vardır. Belə ki, vergi yığımında və təsərrüfat uçotunda saxtakarlıq, sahibkarlara kredit verilməsində qanunsuzluqlar və s. özəl bölmənin inkişafında böyük əngəl törədir, gizli iqtsiadiyyat genişlənir. Dövlətə yığılmalı olan ümumi vergilərin yalnız kiçik bir hissəsi çatır, nəticədə sosial təminat, dövlət büdcəsindən maliyyələşdirilən müəssisə, idarə və təşkilatların iqtisadi durumu çox pis vəziyyətə qalmışdır.

Səmərəli bazar mexanizminin formalaşmasında dövlətin səyləri əsasən iki istiqamətdə formalaşır: birincisi, institusional dəyişikliklər – özəlləşdirmə, inhisarsızlaşdırma, sahibkarlıq və özəl təsərrüfat təşəbbüskarlığının stimullaşdırılması, kapital bazarının, eləcə də maliyyə və bank sisteminin müasir tələblərə cavab verən sisteminin yaradılması, aqrar islahatların həyata keçirilməsi və bazar mexanizminin şərtlərinin ödəyən sosial xidmət sisteminin inkişafı; ikinci istiqamət - iqtisadiyyatın sərbəstləşdirilməsinin başa çatdırılması, o cümlədən ticarətdə, kredit-pul sferasında və xarici iqtisadi fəaliyyətdə iş azadlığının təmini.

Bazara keçidin ilk mərhələsində müəyyən olunmuş bu dövlət məqsədlərinin reallaşmasının bir neçə ilə başa gələcəyi hesab oulnurdu. Ancaq təcrübə göstərdi ki, bu onillərlə vaxt aparacaq. Başlıca səbəb ondan ibarətdir ki, dövlət keçidə yardım göstərməkdənsə, ona əngəl törədir.

Bazara keçidin başlıca şərti sağlam dövlətçilik, demokratiya, o cümlədən fəaliyyət azadlığı, hər bir istiqaməti nizamlayan ədalətli qanunvericiliyin mövcudluğudur.

Bazara keçidin əsas çətinliklərindən ən əsaslı odur ki, mövcud struktur səmərəli resurs bölgüsünə təminat vermir. Əsl bazar strukturunun əsas səciyyəvi cəhəti bu strukturun böhranın davam etməsinə imkan verməməsindən ibarətdir. Əsl struktur bazarın daimi inkişaf edən mövcudluğuna təminat verir, bütün problemləri, o cümlədən istehsal böhranını aradan qaldırır. Bu baxımdan, resursların səmərəli bölgüsündə dövlətin rolu əvəzsizdir. Bazar mexanizmi özü gec-tez bu problemi həll edəcək, ancaq onun tezləşdirilməsi keçid prosesini çox sürətləndirə bilər. Belə ki, mövcud kredit ekspansiyası resursların daha səmərəli sahələrə axınını təmin edə bilmir, başqa sözlə, proses çox ləng gedir. Əsas səbəbi isə dövlət sifarişlərinin kəskin azalması, tədiyyə qabiliyyətli tələbin məhdudlaşmasıdır. Bu amillər isə məcmu səmərəli tələbin aşağı düşməsini şərtləndirir. Keynsin makroiqtisadi nəzəriyyəsinə görə, böhranın əsas səbəbi səmərəli tələbin azalmasıdır. Rəqabətli bazarda resurslar məhdudlaşmış dövlət bölməsindən başqa sahələrə axa bilərdi. Lakin mövcud struktur təsərrüfatları yeni bazarlar axtarmağa həvəsləndirməyə qabil olmamaqla yanaşı, stimulllaşdırıcı pul və vergi siyasətinə onların qiymətləri yüksəltməklə cavab vermələrini şərtləndirir. Etibarlı dövlət sifarişindən əli çıxmış istehsalçılar iki yol ayrıcında qalıblar. Birincisi, fəaliyyəti bazar əsaslarında yenidən qurmaqla, dövlət sifarişlərinin boşalmış yerinin səmərəli tələblə doldurulmasına nail olmaqdır ki, bu yol ciddi çətinliklər gətirir. Yeni əmtəələr istehsalı, marketinq tədqiqatı, müasirləşmə və s. çoxlu vəsait və uzun vaxt tələb edir. Ancaq belə imkan mövcud deyil. Üstəlik, vergiləri ağır, təsərrüfat şərtləri qeyri – sabit, sifarişlər isə etibarsızdır. İkinci yol, hökumətin yeritdiyi siyasətə qiymətləri yüksəltməklə verilən cavabdır ki, bu, hazırda geniş yayılmışdır. Məsələn, gömrük rüsumunun artması idxal məhsullarının qiymətinin yüksəlməsi ilə nəticələnir və s.

Belə hallarda müəssisələr üçün yeganə çıxış yolu qısamüddətli tədbir bank kreditlərindən istifadə olunmasıdır. Bu vəsait xammal və materialların artan qiymətinin ödənməsinə yönəldilir. Bank kreditlərindən sərbəst istifadə imkanı investisiyaların artımına, müəssisələrin daxili təkmilləşdirmə aparmasına mühüm təsir göstərir. Buna görə də keçid dövründə dövlətin qarşısında duran ən başlıca məsələlərdən biri, bank sistemini müasir əsaslarla yenidən qurmaq, bank təminatlılığını artırmaq və butun bazar subyektlərinin bank kreditinə sərbəst müraciət imkanına şərait yaratmaqdadır.

Hazırda respublikamızda bu istiqamətdə müəyyən işlər görülmüşdür. Belə ki, bank fəaliyyətini tənzimləyən qanunvericilik müəyyən edilmiş, «qara» valyuta bazarına son qoyulmuş, xarici vətəndaş və firmaların milli bank şəbəkəsində fəaliyyəti üçün imkanlar yaradılmışdır. Bank sisteminin inkişafına təkan verən əsas amil inflyasiyanın aradan götürül-

məsidir ki, bu da respublika rəhbərliyinin düzgün pul siyasəti yeritməsinin nəticəsidir.

Keçid şəraitində dövlətin iqstiadi siyasətinin nəzərdən keçirdiyimiz istiqamətləri bu və ya digər formada yalnız bir məqsədə yönəlir. Bu məqsəd məcmu məhsulun artırılmasından ibarətdir. Məhz bu göstərici ölkənin iqtsiadi qüdrətini, əhalinin rifah halını müəyyən edir. Buna görə də, müəssisələrin istehsal fəaliyyəti hər vasitə ilə stimullaşdırılır, onların məhsul satışını təmin etmək üçün hər cür şərait yaradılır. Keçid respublikaları beynəlxalq münasibətlərdə qəbul olunmayan himayədarlıq siyasətindən də istifadə edirlər. Bu siyasətin əsas məzmunu daxili məhsulları xarici rəqabətdən qorumaq məqsədilə, idxala məhdudiyyətlər qoyulması və daxili bazarda milli məhsulların reallaşdırılmasına şərait yaradılmAsından ibarətdir. Keçid ölkələrinin, eləcə də inkişaf etməkdə olan ölkələrin əsas çətinliyi, məhz istehsal olunan məhsulların reallaşdırılması ilə bağlıdır. Hazır məhsul satıla bilməyərək anbarlarda yığılıb qalır, fəaliyyətin təkrarlanması imkanını heçə endirir. Buna görə də, satış bazarlarının müəyyən edilməsi üçün dövlət müxtəlif mexanizmlərə müraciət edir: inkişaf etməkdə olan digər ölkələrdə bu sahədə müxtəlif müqavilələr bağlanılır, barter əməliyyatları genişləndirilir,güzəştlər tətəbiq oulnur, məhsullar kredit əsasları ilə satılır və s.

İqtisadi artıma gedən yol heç də yeni istehsal güclərinin yaradılmasından başlanmır. Yalnız mövcud istehsalın səmərəli surətdə reallaşması üçün şərait yaradılması sonrakı inkişaf üçün zəmin ola bilər. Keynsçilərin dediyi kimi, tələb təklifin deyil, təklif tələbin ardınca gedir.

### 1.4. Bazar iqtsiadiyyatında dövlət

Azərbaycan müstəqillik əldə etdikdən sonra onun qarşısında duran başlıca vəzifə dünya dövlətlərinin inkişafında mütərəqqi meyllərə uyğun gələn, müxtəlif, bərabərhüquqlu mülkiyyət və təsərrüfatçılıq formaları və bazar münasibətlərinə əsaslanan əsl demokratik hüquqi dövlət qurmaqdan ibarətdir.

Azərbaycanda bazar iqtisadiyyatının təşəkkülü prosesi müəyyən çətinliklər və ziddiyyətlərlə bağlı olub, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində özünü büruzə verir.

İqtisadi münasibətlərin yenidən qurulması, inzibati – amirlik sistemindən imtina edilməsi, hər yerdə iqtisadi amillərdən səmərəli istifadə edilməsini, bazar münasibətlərinə keçməyi təkidlə tələb edir. Burada başlıca məqsəd ölkəni böhranlı vəziyyətdən çıxarmaq, əmtəə qıtlığına son qoymaq, tələb və təklif arasında tarazlığı təmin etmək, normal maliyyə-kredit sistemi yaratmaq və bütün sahələrdə sosial-iqtisadi tərəqqiyə nail olmaqdan ibarətdir.

Bazar iqtisadiyyatı inzibati-amirlik sisteminin əksidir, ictimai tərqqi və iqtsiadiyyatın inkişafının səmərəli yoludur. Bazar iqtisadiyyatına keçməkdə məqsəd işçilərin maddi marağını yüksəltmək əsasında yüksək texnika və texnologiyaya əsaslanan istehsal və istehsalın quruluşunu isə əhalinin sosial – mədəni tələbatlarını ödəyə biləcək istiqamətdə inkişaf etdirmək yolu ilə ölkədə səmərəli iqtsiadiyyat yaratmaqdan ibarətdir.

Hər hansı bir iqstiadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlətin rolu əvəzsizdir. Dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsi əsas məsələlərdən biridir. Dövlətin iqtisadiyyata təsiri əsasən üç istiqamətdə həyata keçirilir. Dövlət iqtsiadiyyatın əks-təsirinə müvafiq müdaxilə siyasəti yürütməklə iqtisadi inkişafa təkan verir, dövlətin iqtisadiyyatı özünə tabe etdirmək cəhdi iqtisadi durğunluğa aparır, dövlət iqtsiadi inkişafa bu və ya digər sahədə əngəl törətməklə deformasiyaya səbəb olur ki, bu da inkişafda yeni, mənfi, ya da müsbət meyilləri meydana çıxarır. Müasir şəraitdə dövlətlər məhz üçüncü istiqamətə üstünlük verirlər. Tarixi sınaqdan çıxmış hər üç mexanizm üçüncüsünün daha səmərəli olduğunu göstərir. İqtisadi sahənin dəqiqliklə öyrənilməsi, inkişaf istiqamətlərinin aşkar edilməsi, nəzərə çarpan mənfi meyillərin qarşısının alınması və s.-dən ibarət olan bu mexanizm dövlətin iqtisadiyyata ümumi nəzarətini və iqtisadi inkişafın bütünlüklə lazımi axara salınmasını əsaslandırmaqla, müasir dövlətlərin əksəriyyətində iqtsiadi siyasətin əsasını təşkil edir.

Bazar iqtisadiyyatında dövlətin rolunu geniş şəkildə izah etməzdən əvvəl, bu rolun nə dərəcədə mühüm olduğunu əsaslandırmaq ümumi məqsəd baxımından da vacibdir. Müasir bazar iqtisadiyyatı əmtəə və xidmətlərin arzuolunan şəkildə mübadilə olunduğu ideal bazardan hələ çox uzaqdır. Cəmiyyətin mövcud resurslarından maksimum fayda ilə istifadəni təmin edən belə bir ideallıq dövlət müdaxiləsinə ehtiyac duymur. Ancaq ən çox inkişaf edən dövlətlərin də iqtisadi quruluşu «gözəgörünməz əl»in heç bir çətinlik olmadan hər şeyi həll edəcəyi ideal bazardan çox-çox uzaq olmaqla, çoxsaylı iqtisadi və sosial bəlalara – ətraf mühitin çirklənməsinə, işsizliyə, güclü təbəqələşməyə və s. aparan çatışmamazlıqlardan əziyyət çəkir. Buna görə də dövlətin fasiləsiz olaraq iqtisadiyyatın tənzimlənməsində iştirakı vacibdir. Hələ XIX əsrin sonu, XX əsrin əvvəllərində bir çox Qərb dövlətləri «dövlətə müdaxiləsiz iqtisadiyyat», «azad bazar iqtisadiyyatı» adı ilə məşhur olan prinsipə sözün əsl mənasında əməl etməyə çalışırlar. Bu prinsip dövlət müdaxiləsini minimuma endirməyi və iqtisadiyyatı qüvvələrin «azad oyunun» ixtiyarına buraxmağı əsas götürürdü. Ancaq qüvvələrin azad oyunu öz «bəhrəsini» verdi. Kapitalizmin təkrarlanan istehsal böhranları, eləcə də iqtisadiyyatda hərbiləşmə, müstəmləkəçilik və s. dünyəvi amillər dövlətin iqtisadiyyata yenidən, həm də daha ciddi şəkildə cəlb olunmasını zəruri etdi.

İqtisadiyyatda dövlət bazar mexanizmində tez-tez meydana çıxan çatışmazlıqları aradan qaldırmalı olur. Ordu, polis, milli meteoroloji xid-

mət, tikinti və s. bütün bunlar dövlət fəaliyyətinin özünəməxsus istiqamətlərinə çevrilməklə dövlətin iqtisadi rolunu daha da canlandırır. Kosmik və digər elmi tədqiqatlar, sosial təminat və s. dövlət fondlarından maliyyələşdirildiyi üçün dövlət mühüm maliyyə subyekti kimi maliyyə sahəsində həlledici rol oynayır. Bütün fiziki və hüquqi şəxsləri vergiyə cəlb etməklə daxili məhsulun yenidən bölgüsünü şərtləndirir. Bazar iqtisadiyyatında dövlət fəaliyyətinin üç mümkün növünü fərqləndirməklə onun rolunu müəyyən etmək daha məqsədəuyğundur. Bu funksiyalara ilk növbədə səmərəliliyin artırılması, bərabərliyin təmin olunması və makroiqtsiadi sabitliyin, artımın stimullaşdırılması aiddir.

Səmərəliliyin artırılması dedikdə, bazar iqtisadiyyatının təbii inkişafından doğulan mənfi təzahürlərin – ətraf mühitin çirklənməsinin, inhisarlaşmanın və s.-nin problem kimi həll edilməsi başa düşülür. Adam Smitin sözlərii ilə desək, bazar mexanizminin üstünlükləri yalnız o vaxt reallaşır ki, mükəmməl rəqabət bərqərar olur. Belə bir şəraitin mövcudluğu bütün əmtəə və xidmətlərin bazarda öz həqiqi qiymətinə mübadilə olunmasını təmin edir və hər hansı alıcının, yaxud satıcının bazar qiymətlərinə və ümumiyyətlə, bazara təsir göstərməsini imkan xaricində qoyur. Rəqabətə əks olan prosesin, yəni inhisarın zühür etməsi iqtisadi səmərəyə kəskin mənfi təsir göstərdiyindən, onunla mübarizə müasir dövlət iqtisadi siyasətində mühüm əhəmiyyət kəsb edir. İlk dəfə ABŞ-da qəbul olunan antiinhisar qanunvericiliyi sonralar bütün ölkələrdə özünəməxsus formada qəbul olunmuşdur. Azərbaycan respublikasında antiinhisar qanunvericiliyi, eləcə də rəqabət haqqında qanun mövcuddur və bu qanunların həyata keçirilməsini təmin etmək üçün xüsusi qurum – Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi fəaliyyət göstərir. Bu dövlət qurumunun əsas vəzifəsi təkmil rəqabəti möhkəmlətməklə, təsərrüfatda «gözəgörünməz əl»in fəaliyyətini təmin etməkdir. Belə bir mexanizm isə resursların səmərəli istifadəsini və iqtisadiyyatın öz istehsal imkanlarının son həddinə yaxınlaşmasını reallığa çevirir. Dövlət bütün iqtisadi sahələrin təkmil rəqabət çərçivəsində işləməsini təmin etməklə, bazarların ən yüksək texnologiya və minimum miqdarlı resursların köməyilə cəmiyyətə lazım olan bütün nemətləri istehsal etməsinə şərait yaradır. Ancaq bu vəzifənin yerinə yetirilməsi bazar iqtisadiyyatının əsas səciyyələrinin təkmil rəqabət meyarlarına uyğun gəlməməsilə mürəkkəbləşir. Bu uyğunsuzluğu şərtləndirən amillərin ən əsasları qeyri-təkmil rəqabət (məsələn, inhisar), xarici səmərələr (məsələn, ətraf mühitin çirklənməsi) və ictimai rifahın (məsələn, milli müdafiənin) təmin olunması kimi qaçılmazlıqlardır ki, bunlar da cəmiyyətin maddi sərvətinin bu və ya digər şəkildə israf olunmasına səbəb olur. Belə bir şəraitdə yalnız dövlətin qüdrəti bütün problemlərin eyni vaxtda və optimal şəkildə həll edilməsinə təminat verir.

Qeyd etmək lazımdır ki, bazarın səmərəliliyini azaldan amillərdən ən birincisi qeyri-təkmil rəqabət və ya inhisardır. Təkmil rəqabət şəraitin-

də heç bir firma bazar qiymətlərinə nəzərə çarpan mənfi təsir göstərə bilmədiyi halda, inhisarçılıq vəziyyəti bunun tam əksini diktə edir. Məsələn, telefon şirkəti və ya həmkarlar ittifaqı müvafiq olaraq telefon xidmətinə və ya əmək bazarına təsir etmək iqtidarındadırsa, deməli inhisarlaşma mövcuddur, baxmayaraq ki, o, müsbət, yaxud mənfi nəticələrlə müşayiət olunur. İnhisarçılığın labüd olduğu hallarda, yəni onu aradan qaldırmaq mümkün deyilsə, dövlət birbaşa təsir üsulu ilə mənfi nəticələri neytrallaşdırmağa çalışır. XX əsr ərzində dövlətlərin əksər hissəsi qeyri-təkmil rəqabətin nəticələrini zəiflətmək üçün ciddi müdaxilə siyasəti yürütmüşlər. Bu hər şeydən əvvəl qiymətlərin qəti olaraq tənzimlənməsində və inhisarların gəlirinə nəzarətdə özünü göstərmişdir.

Bazar iqtisadiyyatında dövlətin əsas diqqətini cəlb edən məsələlərdən biri bazarın xarici təzahürləridir. Texnika və texnologiya inkişaf etdikcə, dövlətin üzləşməli olduğu mənfi təzahürlərin miqyası da genişlənir. Ümumi inkişaf nəticəsində istehsal olunan enerjinin, kimyəvi və s. zərərli məlumatların həcmi durmadan artır ki, bu da həmin problemlərin əleyhinə mübarizənin çətin olduğunu, o cümlədən ətraf mühitin çirklənməsinin daha böyük təhlükəyə səbəb olmasını şərtləndirir. Bu cür qlobal problemlərin həlli təklikdə ayrı-ayrı dövlətlərin deyil, bütün dünya dövlətlərinin səylərinin birləşməsini tələb edir. Məhz bu baxımdan dövlət tənzimində istehsalın mənfi təzahürləri ilə – suyun və havanın çirklənməsi, faydalı qazıntılardan dağıdıcı istifadə, zəhərli tullantılar, təhlükəli dərman vasitələri, radioaktiv materaillar və s. ilə münasibətə ciddi diqqət yetirilir. Ümumi təhlükəsizilik, daha doğrusu, avtomobillərdə tətbiq oldunan təhlükəsizlik qayışından tutmuş nüvə sınaqlarının aparılması qaydalarınadək dövlətin etdiyi bütün oxşar cəhdlər yalnız bir məqsədə, cəmiyyətin ümumi rifahının, o cümlədən iqtsiadi rifahının yüksəlməsinə xidmət edir.

Müasir bazar iqtisadiyyatı törətdiyi mənfi təzahürlər müqabilində böyük sərvətlər bəxş edir. Şose və dəmir yollarının çəkilməsi müəyyən meşə sahələrinin qırılmasını tələb etsə də, digər tərəfdən böyük fayda verir, su elektrik stansiyalarının tikilməsi bəzi əraziləri su altında qoysa da, təsərrüfatı enerji ilə təmin edir və s. Bütün bunlar zəruridir, onların mənfi nəticələri isə labüddür. Dövlətin bu sahədə rolu həmin proseslərdə müəyyən optimallığa nail olunmasını təmin edir.

Dövlət üzərinə düşən mühüm vəzifələri yerinə yetirmək üçün böyük həcmdə vəsitələrə malik olmalıdır. Belə vəsaitlər üçün əsas mənbə rolunu vergilər oynayır. Müxtəlif gəlirlər üçün müəyyən edilmiş vergilərin səviyyəsini dəyişməklə, vergi güzəştləri etməklə, vergialmanın minimum səviyyəsini aşağı salmaqla dövlət iqtisadi tsiklə təsir etmək, yüksək inkişaf sürətini təmin etməyə çalışır.

Bazar iqtisadiyyatının əsas təmayüllərindən biri də gəlirlərin sosial ədalət və bərabərlik prinsipi əsasında bölüşdürülməsi mexanizminin mövcud olmasıdır. Yuxarıda cəmiyyətin maddi və intellektual resurslarından

səmərəli istifadə olunmasında, iqtisadiyyatın istehsal imkanlarının mümkün həddində işləməsində dövlətin əvəzsiz rolu açıqlandı. Ancaq belə bir şərait tam bərqərar olduqda belə, bazar iqtisadiyyatının sosial bərabərlik əsasında işləməsinə təminatı yalnız dövlət verə bilər. Məsələ ondadır ki, gəlirlərə çoxsaylı qüvvələr – təbii bacarıq, təhsil, varislik, uğur, eləcə də idarəetmədə olan əyintilər: korrupsiya, mütəşəkkil cinayətkarlıq və s. təsir göstərir ki, bu da gəlir vergisinin ədalətsizliyini şərtləndirir.

Qeyd etmək lazımdır ki, qocalara, əlillərə, işsizlərə və digər imkansız şəxslərə dövlətin verdiyi transfert ödənişlər gəlirlərin ədalətli bölgüsünün əsas amillərindən biridir. Digər vasitə dövlət tərəfindən azgəlirli qrupların subsidiyalaşdırılması, ərzaq, mənzil, tibb xidməti sahəsində dotasiyaların verilməsi ümumi gəlirlə müqayisədə çox az olsa da, sosial və maddi təminat sferasında nəzərəçarpan dəyişikliklərlə müşayiət olunur.

Dövlətin iqtisadiyyata müdaxiləsi nə qədər geniş miqyaslı olsa da, qüvvələrin azad oyunu xroniki bəlalar törətməkdə davam edir. Bazar iqtisadiyyatının bərqərar olduğu dövlətlərdə onu müşayiət edən inflyasiya, işsizlik, istehsal böhranları və s. problemlər yalnız son onilliklərdə əsaslı dövlət iqtisadi siyasətinin təsiri altında öz qorxuncluğunu itirmişlər. İqtisadi tsikliqtisadi siyasət konsepsiyası, iqtisadi artım və tsikl nəzəriyyələri 1970-1980-ci illərdə Amerika və Avropanın iqtisadçı alimləri, xüsusən Marşallın, Samuelsonun və b. şəxsində daha da inkişaf etdirilərək dövlət iqtsiadi tənzim mexanizminin əsas alətinə çevrildi.

P.Samuelson çox haqlı olaraq obrazlı şəkildə yazır ki, «Birləşmiş Ştatlar dünyada ən böyük müəssisədir». Bütün bunlar bir daha sübut edir ki, işlək dövlət tənzimləmə mexanizminə malik olmadan bazar iqtisadiyyatının səmərəli fəaliyyətini təmin etmək mümkün deyildir. 80-ci illərdə ABŞ-da və Qərbi Avropa ölkələrində tüğyan edən inflyasiya və işsizlik problemləri sərt monetar siyasət vasitəsilə aradan qaldırıldı. Təcrübə göstərdi ki, düşünülmüş dövlət siyasəti iqtisadiyyatda istənilən xroniki geriləmə hallarını aradan qaldırır. Eyni hadisə SSRİ-nin dağıdılmasından sonra müstəqillik əldə edən respublikalarda da özünü büruzə verdi. Uzun müddət mövcud olan inflyasiya sərt pul siyasəti nəticəsində aradan qaldırılırdı. Müasir dövlətlər qeyd olunan problemlərin baş qaldırılması üçün çox ehtiyatla vergi-büdcə və kredit-pul siyasəti həyata keçirirlər. Vergi-büdcə siyasəti vergilərin toplanması nəticəsində gəlirin müəyyən hissəsini dövlətin əlində cəmləşdirir ki, o da öz növbəsində zəruri sahələri maliyyələşdirir. Kredit-pul siyasəti isə pul təklifini və faiz dərəcələrini müəyyən edir. Beləliklə, dövlət investisiyalara və faiz dərəcələrinə həssas olan digər xərclərə fəal təsir etmək imkanı əldə edir. Bunun da nəticəsində xərclərin ümumi səviyyəsinə, iqtisadi artım sürətinə, məhsul buraxılışının həcminə, məşğulluq səviyyəsinə, qiymətlərə və təbii ki, inflyasiyaya fəal nəzarət mexanizminin formalaşması üçün zəmin yaranır.

80-ci illərdən etibarən əksər dövlətlərin iqtisadi siyasətdə əsas diqqət yetirdikləri makroiqtisadi siyasət mövcud problemləri həll etməklə yanaşı, iqtsiadi artım və məhsuldarlıq kimi uzunmüddətli məqsədlərə nail olm-

aq niyyəti daşıyır. Məsələn, bir çox sənaye ölkələri istehsalatı stimullaşdırmaq üçün vergi dərəcələrinin endirilməsindən geniş istifadə edirlər. İstehsalın çox aşağı səviyyədə olduğu ölkələrdə bu cür vergi siyasəti həmişə öz bəhrəsini göstərir. İnvestisiyaya mənfi təsir göstərən dövlət xərclərini məhdudlaşdırmağa da cəhdlər edilir. Ümumiyyətlə, bazar iqtisadiyyatında sabitliyə və iqtsiadi artıma nail olmaq məqsədilə dövlətin tətbiq etdiyi makroiqtisadi siyasət vergiqoyma və dövlət xərcləri mexanizmlərini əhatə edən vergi – büdcə siyasətini və kredit-pul siyasətini (faiz dərəcələrinə və kreditləşdirməyə nəzarət) özündə birləşdirir.

Hazırda bəzi iqtisadçılar bazarın planlaşdırılmasını qeyri-mümkün sayırlar. Onlar göstərirlər ki, bazar və plan heç vaxt bir araya sığa bilməz. Əslində isə, bazar mexanizmli istənilən ölkədə təsərrüfat fəaliyyəti dəqiq planlışdırılır. İctimai tələb dəqiq öyrənilir və istehsal yalnız tələbə xidmət edir. Bazar iqtisadiyyatında plan inzibati-amirlik sistemindən onunla fərqlənir ki, bu plan sərt, dəyişməz deyil, məcmu tələbin dəyişikliklərinə çox həssaslıqla uyğunlaşandır. Plan heç də sadəcə olaraq yuxarıların göstərişlərinin həyata keçirilməsi demək deyil. Bazar sistemində dövlət yalnız idarə etdiyi sahələri – hərbi, təhsili, səhiyyəni, tikintini və s. planlaşdırır. Xüsusi bölmə isə müxtəlif iqtisadi dövlət metodları vasitəsilə müəyyən qədər idarə edilir.

Planlaşdırma isə idarəetmənin əsası, onun başlıca metodudur. Yalnız planlı iqtisadiyyatın bəşəriyyətin tələbatını lazımi qədər ödəməyə qadir olduğu indi bütün ölkələrin iqtisadçıları tərəfindən təsdiq olunur. İqtisadi həyat təcrübəsi, araşdırma və müşahidələr göstərir ki, bazarın bütövlükdə planlaşdırılması qeyri-mümkün olduğu halda, onun subyektlərinin fəaliyyətinin planlaşdıırlması obyektiv cəhətdən zəruridir. Mövcud qanunvericilik bazası, o cümlədən inhisar əleyhinə, sahibkarlıq fəaliyyəti haqda qanunlar, sağlam rəqabət və reklamın təmini, keyfiyyətə nəzarət və s. kimi dövlət tənzimi alətləri bazar subyektlərinin fəaliyyətini bilavasitə olmasa da, dolayı yolla tənzim etməyə yönəldilir. Burada subyektlər dedikdə, istehsalçı və istehlakçı müəssisələr, firmalar, birliklər, səhmdar cəmiyyətləri, assosiasiyalar, ev təsərrüfatları və s. hüquqi və fiziki şəxslər başa düşülür. Onların hər biri öz fəaliyyətlərində qısa, orta (1-5 il) və uzunmüddətli (5-15 il) planlaşdırmaya müraciət edirlər. Görkəmli iqtisadçı Filipp Kotlerin fikrincə, bir vaxtlar bəzi firma rəhbərləri vaxt məhdudluğunu, digərləri təsərrüfat təcrübəsini əsas tutaraq, planlaşdırmasız da keçinmək mümkün olduğunu söyləyirdilər. Ancaq sonralar təsərrüfat quruluşunun mürəkkəbləşməsi, firmaların sayının artması, rəqabətin yeni xüsusiyyətlər kəsb etməsi o yerə gətirib çıxardı ki, istehsalçılar düşünülmüş planlı fəaliyyətin rolunu dərk etməyə başladılar.

Dövlət iqtisadiyyatı liberallaşdırmaqla yanaşı, iqtisadi və sosial inkişafın ahəngdar və sürətli olmasını, ictimai istehsalın məhsuldarlığını təmin etməli, mövcud ehtiyatların səmərəli istifadəsini reallığa çevirmək üçün planlaşdırma-ya xüsusi diqqət yetirməlidir. Hazırda dünyanın əksər ölkələrində uğurla tətbiq olunan planlaşdırma demokratik mərkəziyyət

prinsiplərinə əsaslanır. Bu prinsip ayrı-ayrı şəxslərin və qrupların maddi marağını əsas götürməklə, onların imkan və təşəbbüslərin tənzimləyir. Əsl bazar bütün qabiliyyətli insanlar üçün fəaliyyət imkanı təmin edən məkandır.

Bazar planlaşdırılması sərt mərkəzliyi rədd edir, hökumət komanda deyil, yalnız sifariş verə bilər. Müvafiq firmalar bu sifarişləri qəbul etməkdə tam sərbəstdirlər. Onların təklif edilən sifarişləri qəbul etməsi üçün təbii ki, bu təklif səmərəli olmalıdır. Buna görə də, bu cür münasibət asılılıq və komanda əsasında deyil, iqtisadi dövlət tənzimi əsasında qurulmuş olur. Subyektlərin mövcud qanunlara uyğun fəaliyyət göstərməsinə yerli dövlət orqanları nəzarət edirlər. Lakin subyektlər qanunauyğun olaraq istənilən növ fəaliyyətlə məşğul ola bilirlər. Dövlət və hökumət orqanları ölkə iqtisadiyyatını müəyyən dövrlər üzrə planlaşdırsa da, bu plana əməl edilməsi üçün heç bir məcburi tədbirdən, komandadan istifadə etmirlər. Planlaşdırma yolu ilə dövlət iqtisadi siyasəti müəyyən edilir, tənzimləmə üsulu ilə isə bu siyasət reallaşdırılır. Onların məcmusu isə ümumi idarəçilik deməkdir.

Bazar iqtsiadiyyatının yarandığı ilk dövrlərdə onun idarə edilməsinin qanunauyğun əsasları məlum olmadığından, tez-tez böhranlar baş verir, makroiqtisadi problemlər cəmiyyəti çulğalayırdı. Ancaq getdikcə idarəetmənin qanunları aşkar edilməyə başlandı və bazarın tənzimlənməsinin incə üsulları müəyyən edildi. Tələb və təklifin tənzim edilməsinin mümkünləşməsi bazarın həm makro, həm də mikro səviyyədə idarə edilməsini reallaşdırdı. Yeni tənzim metodları bazarın formasını və ya məzmununu dəyişmədi. Əmtəə-pul münasibətləri azadlığı bazar mexanizminin bütün potensial stimullaşdırıcı vasitələrinin birgə mövcudluğuna təminat verir.

Dövlətin bazara müdaxiləsi rəqabət mexanizminin düzgün işini təmin etmək, qanunlara riayət olunmasına nəzarət, bazar subyektlərinin qanuni mənafelərini müdafiə məqsədilə edilir. inkişaf etmiş ölkələrin hamısında hökumət nəzdində baş nəzarət idarələri vardır. Məsələn, 80-cı illərdə ABŞ-da düzgünlük, doğruluq, namusluluq, səmimilik və səmərəlilik üzrə Prezident Şurası yaradılmışdır. Şura ölkənin federal proqramının həyata keçirilməsində hər cür sui-istfiadəyə, xəyanətə və cinayətə qarşı mübarizə aparan bütün nəzarət-təftiş orqanlarının işini əlaqələndirir. Nəzarət-təftiş orqanları qanunu pozanları dövlət sifarişindən məhrum edir, normal işləməyən qaydalara yenidən baxır, qaydaları pozan şəxslərə və firmalara cərimələr tətbiq edir və s. Bazar mexanizminin fəaliyyətini hər hansı bir formada ilk dəfə olaraq pozan hüquqi və ya fiziki şəxs bunun aşkar edildiyi halında böyük məbləğli cərimə ödəməli olur.

Bazar iqtisadiyyatı nə qədər təkmil olsa da, bütün iqtisadi qurumlar kimi, o da bütün tələbatları ödəməyə qadir deyil. Tələbatların qeyri-bərabər ödənməsi ona da xasdır. Gəlirlərin dəstəklənməsi üzrə dövlətin yeritdiyi siyasət yoxsulluqla mübarizənin mühüm dövlət məqsədi olmasına dəlalət edir. Sosial təminat dövlətin iqtisadi subyekt kimi fəaliyyə-

tində mərkəzi yer tutur. Bu sahədə dövlət siyasəti iki istiqamətdə – sosial sığorta və dövlət yardımı proqramları istiqamətində təzahür olunur. Sosial sığorta təqaüdə və müvəqqəti işsizliyə görə təminatı nəzərdə tutduğu halda, dövlət yardımı çoxuşaqlı ailələrə, analığa görə, təbii fəlakət və s. Səbəblərdən dövlətin həyata keçirdiyi xeyriyyə proqramıdır.

# II FƏSİL

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ İQTİSADİYYAT VƏ SİYASƏT, ONLARIN QARŞILIQLI ƏLAQƏSİ

## 2.1.Siyasət və dövlət

***«Azərbaycanın uğurlarının təməlində düşünülmüş iqtisadi siyasət və iqtisadi islahatlar durur»***

**İlham Əliyev**

Siyasət - kütlələrin dövlət idarəçiliyində, onun formaları, vəzifələri və məzmununun müəyyən edilməsində iştirakını ifadə edən xüsusi fəaliyyətdir.

Hər cür fəaliyyəti siyasət hesab etmək olmaz. Siyasət əsasən hakimiyyətə münasibətdə meydana çıxır. Siyasətdə ən mühüm ideya dövlət hakimiyyətinin saxlanmasını, onun fəaliyyəti üçün əlverişli şərait yaradılmasını və ya həmin hakimiyyətin dəyişdirilməsini tələb edir. Antaqonist cəmiyyətlərdə siyasətin əsas məqsədi dövlət hakimiyyəti vasitəsilə iqtisadi cəhətdən qüdrətli olan hakim sinfin mənafeyini qorumaq, onun siyasi hakimiyyətini də təmin etməkdir. Cəmiyyətin iqtisadi mənafeləri, nəticədə siyasi fəaliyyətin sosial səbəbi kimi çıxış edir. Məhz buna görə də çox zaman siyasəti iqtisadiyyatın təmərküzləşmiş ifadəsi adlandırırlar. Siyasi hakimiyyət iqtisadi münasibətlərin yenidən qurulmasının mühüm amili kimi çıxış edir. Bu cəhət isə siyasətin və siyasi münasibətlərin nisbi müstəqilliyini də ifadə edir. Lakin siyasətin mütləqə çevrilməsi iqtisadiyyatın, sosial-mədəni tərəqqinin tamamilə ona tabe edilməsi nəticəsində praktik fəaliyyətdə avantürizm və volyuntarizm meyilləri baş verir. Siyasət o zaman qüdrətli idarəetmə sənətinə çevrilir ki, o, elmi cəhətdən əsaslandırılsın və yüksək mənəvi dəyərlərlə qovuşsun, onlara uyğun olsun, yüksək, humanist, mənəvi ideallarla uzlaşsın.

Siyasət və ya siyasi fəaliyyət müəyyən siyasi hakimiyyət mövcud olmadan həyata keçirilə bilməz. Siyasi hakimiyyət siyasi fəaliyyəti reallaşdıran müəyyən icraedicilik və qanunvericilik orqanlarının məcmusudur. Buraya əsasən dövlət aparatı və onun orqanları, siyasi partiyalar, həmkarlar ittifaqları, gənclər təşkilatları, müxtəlif ictimai və yaradıcılıq ittifaqları, dini təsisatlar və s. daxildir. Bütün bunlar elə möhkəm çulğaşmış mexanizmə çevrilir ki, onun əsasında siyasi recim formalaşır və hər bir cəmiyyətdə siyasi hakimiyyət həyata keçirilir.

Cəmiyyətin siyasi təşkili və münasibətlərin sistemində əsas rol dövlətə məxsusdur. Belə ki, cəmiyyətdə dövlət sosial sinfi strukturu bütöv şə-

kildə əhatə etməklə bütün sinif və təbəqələrdən ibarət olan insan qruplarının mənafeyinə bu və ya digər dərəcədə toxunur.

Qeyd etmək lazımdır ki, mütəxəssislər dövlətə tarixi kateqoriya kimi baxaraq onu inkişafda götürmüş, dövlətin hansı şəraitdə meydana gəldiyinin, tarixi inkişafının və ölüb getməsi şəraitinin ardıcıllıqla təhlilini vermişdir. Qeyd etmək lazımdır ki, tarixi inkişaf prosesində müxtəlif siniflərin mülkiyyətə və istehsal vasitələrinə müxtəlif münasibəti formalaşır, siniflər arasında mənafe əksliyi yaranır. Bu şəraitdə cəmiyyətdə «qayda-qanun yaratmaq» məqsədilə dövlətin yaranması tarixi zərurət olur. Dövlət sinfi ziddiyyətlərin, barışmazlığın məhsulu və təzahürüdür. Sinfi ziddiyyətlər harada, nə zaman və nə dərəcədə obyektiv surətdə barışdırıla bilinməzsə, dövlət də orada, o zaman və o dərəcədə meydana gəlir.

Bildiyimiz kimi, hər bir dövlətin iki əsas funksiyası vardır: daxili və xarici. Təsərrüfat quruculuğu, qanunvericilik, nəzarət, intizam, tərbiyə və s. vəzifələri həyata keçirmək dövlətin daxili funksiyasını, xarici dövlətlərlə, iqtisadi, siyasi, hərbi, mədəni və s. əlaqələrin tənzim edilməsi, ölkənin bütövlüyünün qorunması isə dövlətin xarici funksiyasını təşkil edir.

Tarixdə müxtəlif cür dövlət idarəçiliyi formaları mövcud olmuşdur, məsələn, quldarlıq dövlətinin idarəçilik forması olan monarxiya, yəni «tək hökmdarın qeyri-məhdud hakimiyyəti, imperator, şah və s.» respublikada formalarından aristokratik və demokratik respublika: ali hakimiyyət orqanı müəyyən müddətə seçilir. Feodalizmdə əsas dövlət idarəçiliyi forması monarxiyadır. Kapitalizmdə isə dövlət idarəçiliyinin müxtəlif formaları mövcuddur: respublika, monarxiyalı respublika, parlamentli respublika və s. Sosialist dövləti idarəçiliyinin isə üç forması mövcud olmuşdur. Paris Kommunası, sovetlər respublikası və xalq demokratik respublikası.

Müstəqillik qazanmış hər bir xalq öz demokratik dövlətini qurmadan milli azadlıq hərəkatının nailiyyətlərini qoruyub saxlaya bilməz. Hər hansı suveren ölkə öz iqtisadiyyatının yüksəltmək, sosial-siyasi və mənəvi islahatları həyata keçirmək, ərazi bütövlüyünü qoruyub saxlamaq üçün güclü demokratik dövlətə nail olmalıdır. Bu, istiqlaliyyətini əldə etmiş ölkənin ən ümdə vəzifəsidir.

Qeyd etmək lazımdır ki, öz suverenliyini elan etmiş Azərbaycan Respublikası da Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə bu yolda ilk addımlarını atmışdır. Artıq respublikamızda müstəqil demokratik dövlətin qanunverici və icra hakimiyyəti orqanları formalaşdırılır, dövlətin mühüm atributları olan ordu yaradılır, pul islahatı həyata keçirilir. İndi Azərbaycanın öz dövlət bayrağı , himni və gerbi vardır. Demokratik dövlət quruculuğu 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Demokratik Respublikası ənənələrinin bərpası yolu ilə davam etdirilir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə respublikamızın iqtisadiyyatı, ordusu, inteqrasiya əlaqələri sürətlə inkişaf edir. Azərbaycanda müstəqil demokratik dövlət quruculuğu 20 ilə yaxın bir müddətdə Ermənistanın respublikamıza qarşı ərazi iddiaları əsasında apardığı

müharibə şəraitində həyata keçirilir.Bütün bunlara baxmayaraq, Azərbaycanın bütün iqtisadi, mənəvi, siyasi, hərbi intellektual potensialı müharibənin həllinə yönəldilmişdir. İqtisadi və sosial sahələrdə, demokratik dövlət quruculuğunda ilk addımlar atılmış, müxtəlif mülkiyyət formalarının, özəlləşmənin, dövlət vergi və gömrük siyasətinin , maliyyə-kredit siyasətinin, xarici ticarət əlaqələrinin yaradılması və s ölkədə böyük inkişafa təkan vermişdir. Bütövlükdə demokratiyanın mahiyyətini təşkil edən, demokratik dövlət quruculuğunda həyata keçirilməsi zəruri olan başlıca prinsip və tələblər qarşıya qoyulur:

- cəmiyyət miqyasında çoxluğun hakimiyyətinin bərqərar olması, çoxluğun qəbul etdiyi qanun və qərarların həyata keçirilməsinin hamının və hər kəsin borcu və vəzifəsi kimi qəbul edilməsi;
- cəmiyyətdə qanunun aliliyi prinsipinə hamının qəti əməl etməsi, qanunun aliliyinin həyata keçirilməsinə real maddi, sosial-siyasi və mənəvi təminat verilməsi, bu əsasda hüquqi dövlət formalaşdırılması;
- milli, dini, siyasi və s. mənsubiyyətindən asılı olmayaraq vətəndaşların tam siyasi, hüquqi və mənəvi azadlıqlarına və hüquq bərabərliklərinə təminat verilməsi;
- millətlərarası etnik və dini ədalət, ayrı-seçkilik hallarına yol verilməməsi, xalqların həqiqi dostluğu və əməkdaşlıq münasibətlərinin qərarlaşması üçün təminat verilməsi;
- siyasi dövlət quruluşu sistemində aşağıdan yuxarıya bütün qanunvericilik və icraedicilik hakimiyyəti orqanlarının müəyyən müddət daxilində seçkili olmasının təmin edilməsi, rəhbərlərin və dövlət orqanlarının seçicilər qarşısında hesabat verməsi, xalq qarşısında tam məsuliyyət daşıması; - konstitusiyanın və ona uyğun qəbul edilmiş qanunların toxunulmazlığının tam təmin edilməsi;
- ictimai-siyasi və mənəvi fəaliyyətdə çoxpartiyalılığa, fikir plüralizminə rəy və mövqelərin müxtəlifliyinə geniş meydan verilməklə ümummilli mənafe əsasında bütün ictimai birlik və hərəkatların, ictimai təşkilat və siyasi partiyaların həmrəyliyi, yekdilliyi üçün maksimum təminat verilməsi; cəmiyyətin və millətin ümumi mənafeyinin fərdi, şəxsi və qrup mənafeyindən üstün tutulması;
- sosial-siyasi və mənəvi fəaliyyətdə beynəlmiləlçiliklə millilik, milli dəyərlərlə bəşəri sərvətlər, milli tarixi ənənələrlə müasirlik, ümumi demokratik prinsiplərlə milli idarəçilik ənənələrinin üzvi vəhdətdə həyata keçirilməsi;
- qonşu dövlət və millətlərlə , bütün xarici ölkə və xalqlarla qonşuluq və əməkdaşlıq edilməsi, heç bir dövlətə qarşı ərazi iddialarının sürülməməsi, öz ərazisinin bütövlüyünün qorunub saxlanması üçün ümumi mənafe əsasında ölkədə millətdaxili və millətlərarası həmrəyliyin və birliyin təmin edilməsi, onların milli - mədəni muxtariyyət hüquqlarının qorunub həyata keçirilməsi və s.

## 2.2. İqtisadi siyasət

Bazar iqtisadiyyatı şəraitində ölkənin iqtisadiyyatının inkişafı və möhkəmlənməsi dinamik və davamlı inkişaf yolu ilə nə qədər çox irəli gedirsə, istehsalın təşkili və idarə edilməsinin, rəhbərliyin elmi prinsipləri bir o qədər inamla həyata daxil olur. Ölkəmizdə həyata keçirilən iqtisadi siyasət işləyib hazırlamaq və əməli surətdə həyata keçirmək getdikcə daha artıq dərəcədə dövlət başçımızın fəaliyyətinin ən mühüm istiqamətinə çevrilir.

Hazırda ölkə rəhbəri İlham Əliyevin dünyada nüfuzunun artması, bütün cəmiyyətin müqəddəratı üçün onun üzərinə tarixi məsuliyyət qoyur. Həmin andan etibarən ölkə iqtisadiyyatının inkişafı problemləri, iqtisadi siyasəti, yəni ölkə iqtisadiyyatını, insanlar arasında iqtisadi münasibətləri normal şəkildə tənzim etmək sahəsində Azərbaycan dövlətinin fəaliyyətinin problemləri zəhmətkeşlərin, dövlət başçısının diqqət mərkəzinə keçir. İqtisadiyyat yeni bazar sisteminə keçidin qələbəsi uğrunda mübarizənin həlledici sahəsinə çevrilir. Müvafiq surətdə ölkə başçısının siyasətində, V.İ.Leninin dediyi kimi, «iqtisadiyyat siyasəti» və ya iqtisadi siyasət ön plana keçir. Leninin «İndii bizim başlıca siyasətimiz dövlətin iqtisadi quruculuğundan ibarət olmalıdır» müddəası bizim dövrümüzdə də öz aktuallığını tamamilə saxlayır.

Dövlətin iqtisadi siyasəti dövrümüzün ən qabaqcıl elmi olan iqtisadi nəzəriyyənin həyatda yoxlanmış müddəalarına əsaslanır. Bildiyimiz kimi, iqtisad elmi donub qalmış ehkamlar və formullar məcmusu deyildir, durmadan inkişaf edən təlimdir. Onun yaradıcı ruhunu rəhbər tutaraq dövlət həyatın tələb etdiyi yeni müddəalar irəli sürür, eyni zamanda köhnəlmiş nəzəri formulları qətiyyətlə kənara atır. Həmişə zənginləşməsi və inkişafı sayəsində nəzəriyyə iqtisadi siyasətin daimi elmi əsasına çevrilir.

Karl Marks «Siyasi iqtisadın tənqidinə dair» əsərinə müqəddimədə ictimai hadisələrin təhlilinə bu yeni münasibətin qısa şərhini vermişdi: «İnsanlar öz həyatının ictimai istehsalında öz iradəsindən asılı olmayan müəyyən, zəruri münasibətlərə öz maddi məhsuldar qüvvələri inkişafının müəyyən pilləsinə uyğun olan istehsal münasibətlərinə girirlər. Bu istehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi quruluşunu, real bazisi təşkil edir, hüquq və siyasi üstqurum bu bazis üzərində yüksəlir və müəyyən ictimai şüur formaları bu bazisə uyğun olur. Maddi həyatın istehsal üsulu, ümumiyyətlə, həyatın ictimai, siyasi və mənəvi prosesləri üçün şərt olur. İnsanların varlığını onların şüuru müəyyən etmir, əksinə, insanların ictimai varlığı onların şüurunu müəyyən edir».

Qeyd etmək lazımdır ki, dövlətin yaranması siniflərin meydana gəlməsi ilə bağlıdır.V.İ.Lenin siniflərin geniş elmi tərifini verdi. O yazırdı : «Sinif, tarixcə müəyyən ictimai istehsal sistemində tutduqları yerə görə, istehsal vasitələrinə olan münasibətlərinə (çox qismi qanunlarda möhkəm-

lənib rəsmiləşdirilən bu münasibətlərə) görə, ictimai əmək təşkilindəki rollarına görə, deməli, malik olduqları ictimai sərvətdən pay almaq üsuluna və bu payın miqdarına görə fərqlənən böyük insan qruplarına deyilir» Buradan belə bir nəticəyə gəlmək olar ki, , cəmiyyətin sinfi bölgüsünün əsasını ən dərin iqtisadi səbəblər təşkil edir.

Marks və Engels, sonralar isə həmçinin Lenin bu nəticələrə gəldikdən sonra iqtisadi nəzəriyyə problemlərini özlərinin nəzəri işinin mərkəzində qoydular.

İqtisadiyyat anlayışının özü olduqca əhatəli və çoxmənalıdır. Bu anlayış yunanca «oikonomia» sözündən əmələ gəlmişdir, hərfi mənası «təsərrüfat (ev təsərrüfatı) qanunları» deməkdir. Hazırda «iqtisadiyyat» sözü bu və ya digər cəmiyyətin istehsal münasibətləri məcmusunu, bütövlükdə ölkənin iqtisadiyyatını və ya onun sahələrini; istehsalın bu və ya digər sahəsini öyrənən elmləri ifadə etmək üçün işlədilir.

Bazar iqtisadiyyatı yolu ilə gedən ölkəmiz möhkəmlənib inkişaf etdikcə, onun kamillik dərəcəsi yüksəldikcə dövlətimiz ictimai tərəqqinin ən böyük və mürəkkəb məsələlərinin öyrənilməsində və dərk edilməsində daha da irəliləmiş, cəmiyyətə rəhbərlik məsələsində elmi münasibət güclənmişdir, iqtisadi siyasətin problemlərinə, onun elmi surətdə əsaslandırılmasına getdikcə daha artıq diqqət yetirilməsi bunun parlaq ifadələrindən biri olmuşdur.

Bazar iqtisadiyyatı yolu ilə gedən respublikamız, dünya tarixinin gedişinə ən əvvəl öz timsalının gücü ilə, təsərrüfat və mədəniyyət quruculuğunun müvəffəqiyyətləri ilə, öz iqtisadi siyasəti ilə təsir göstərir. Ölkəmizdə qəbul edilmiş «Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları»nın həyata keçirilməsi ölkəmizin dünyanın inkişaf etmiş dövlətləri səviyyəsinə çatmasını yaxınlaşdırır. Bu, bütün beynəlxalq inkişafa, çox böyük təsir göstərir.

Ölkəmizdə məhsuldar qüvvələr inkişaf etdikcə və təsərrüfat əlaqələri mürəkkəbləşdikcə dövlətimizin iqtisadi siyasətinin rolu artır, qəbul olunan qərarların elmi surətdə əsaslandırılmasına tələb yüksəlir. Dövlət quruculuğu təcrübəsi göstərir ki, yeni dövlətimizin yaratdığı çox böyük imkanlardan istifadə edilməsi birinci növbədə dövlətimiz və onun rəhbərindən, ölkə iqtisadiyyatının inkişaf problemlərini elmi cəhətdən əsaslandırılmış iqtisadi siyasət əsasında həll etmək qabiliyyətindən asılıdır.

Beləliklə, iqtisadiyyat insan fəaliyyətinin əsas sahəsi olub, nəticə etibarı ilə ictimai həyatın bütün başqa tərəflərini müəyyən edir. İqtisadi siyasət Azərbaycan dövlətinin başlıca siyasətidir.

Əgər iqtisadiyyat ictimai həyatın maddi əsası, onun real bazisidirsə, onda siyasət onun üzərində ucalan üstqurumun mühüm ünsürüdür. V.İ.Lenin onların qarşılıqlı əlaqəsindən bəhs edərək hər şeydən əvvəl iqtisadi bazisin siyasətə nisbətən müəyyənedici rolunu qeyd etmişdir.Öz

sadəliyinə və əhatəliliyinə görə onun klassik formulu çox məşhurdur: «Siyasət- iqtisadiyyatın təmərküzləşmiş ifadəsidir».

«Siyasət» sözü yunanca politike sözündən əmələ gəlmişdir, hərfi mənası «dövləti idarə etmək məharəti» deməkdir. Siyasət cəmiyyətin əks siniflərə parçalanması və dövlətin yaranması nəticəsində meydana gəlmişdir.

Qeyd etmək lazımdır ki, siyasət ictimai həyatda xüsusi yer tutur. Bu yer, əvvələn onunla müəyyən edilir ki, siyasət cəmiyyətdə iqtisadi münasibətlərin başlıca cəhətlərini, onların sinfi təbiətini ən dolğun şəkildə əks etdirir; ikincisi, onunla müəyyən edilir ki, siyasət bunu üstqurumun digər ünsürlərindən fərqli olaraq bilavasitə edir. Məhz bu da siyasətə iqtisadiyyatın təmərküzləşmiş ifadəsi deməyə imkan verir.

Bəs hansı yolla iqtisadiyyat əməli surətdə siyasətdə təmərküzləşmiş ifadəsini tapır. Bu məsələni nəzərdən keçirdikdə yəqin etmək çətin deyildir ki, burada iqtisadi mənafe problemi meydana çıxır. Məsələ burasındadır ki, iqtisadiyyat, iqtisadi münasibətlər, f.Engelsin tdediyinə görə, ən əvvəl mənafelər kimi təzahür edir. Onlar, yəni iqtisadi, maddi mənafelər obyektivdir və ictimai istehsalın bu və ya digər sistemində insanların (siniflərin) mövqeyini əks etdirir. Bu sistemdə müəyyən yer tutarkən insanlar fikirlərində və hərəkətlərində nəticə etibarilə özlərinin iqtisadi mənafelərini rəhbər tuturlar, öz siyasətlərini, öz sinfinin siyasətini müəyyən edərkən onları əsas götürürlər. Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatı siyasətdə «təmərküzləşmiş ifadə etmək» iqtisadiyyat üçün zəhmətkeş kütlələrin ümdə iqtisadi mənafelərini əsas götürmək deməkdir. Dövlətimizin həm daxili , həm də xarici siyasətinin ən dərin köklərini dövlətimizdəki hakim siniflərin iqtisadi mənafeləri, iqtisadi vəziyyəti müəyyən edir.

Hazırkı şəraitdə Azərbaycan dövləti iqtisad elmi qarşısında getdikcə artan tələblər qoyur. Sürətlə inkişaf edən ölkə iqtisadiyyatı elm qarşısında yeni və daim mürəkkəbləşən vəzifələr qoyur. Bunların içərisində başlıca vəzifə ölkə iqtisadiyyatının səmərəli şəkildə planlı idarə olunması işində dövlətin plan və proqnozlarından istifadə edilməsinin ən səmərəli forma və metodlarını işləyib hazırlamaqdır. Azərbaycan iqtisadiyyatının daha da inkişaf etdirilməsinin ümdə problemləri aşağıdakılar kimi dövlətin iqtisadi siyasətinin diqqət mərkəzində durur:

1. Xalqın maddi və mənəvi tələbatını ən dolğun şəkildə ödəmək.
2. İstehsalın səmərəliliyini yüksəltmək, onu ardıcıl surətdə intensivləşdirmək.
3. Elmi-texniki inqilabın nailiyyətlərinə yiyələnmək.
4. İqtisadi həvəsləndirmə sistemini təkmilləşdirmək.
5. İstehsalın səmərəli təşkili və idarə edilməsinə nəzarət etmək

Tarixi təcrübə göstərir ki, bazar iqtisadiyyatı quruculuğu prosesində siyasət qüdrətli yaradıcı qüvvədir. Siyasət iqtisadiyyata fəal müdaxilə edərək, ona məqsəd aydınlığı və mütəşəkkillik verir.Bununla da siyasət

cəmiyyətin iqtisadi inkişafının sabitliyini, dayanıqlı və davamlı inkişafını, dinamizmini və səmərəliliyini ölçülməz dərəcədə artırır.

Bütün bunlar iqtisadiyyatla siyasətin qarşılıqlı fəaliyyəti haqqında dövlət siyasətinin tamamilə düzgünlüyünü bir daha təsdiq edir. Bu anlayış iqtisadiyyatın siyasətə nisbətən müəyyənedici rolunu göstərməklə kifayətlənmir. İctimai həyatın bütün sahələri, bütün tərəfləri və tərkib hissələri bir-biri ilə bağlıdır və bir-birinə qarşılıqlı təsir göstərir. Bu qarşılıqlı fəaliyyətdə iqtisadiyyat nəinki cəmiyyət həyatının bütün başqa hadisələrini müəyyən edir, habelə onların əks təsirini də öz üzərində hiss edir. Həm də iqtisadiyyat üstqurum ünsürlərinə başlıca olaraq siyasət vasitəsi ilə təsir göstərdiyi kimi, bu ünsürlərin iqtisadiyyata təsiri də ən əvvəl elə siyasət vasitəsilə həyata keçirilir.

İqtisadiyyatın müəyyənedici rol oynaması ilə ictimai həyatın müxtəlif sahələrinin qarşılıqlı fəaliyyətindən bəhs edərək, Fridrix Engels yazmışdır:

«Siyasi, hüquqi, fəlsəfi, dini, ədəbi, bədii inkişaf və s. iqtisadi inkişafa əsaslanır. Lakin bunların da hamısı həmçinin bir-birinə, habelə iqtisadi zəminə təsir göstərir. Məsələ qətiyyən elə deyildir ki, guya yalnız iqtisadi vəziyyət səbəbdir, yalnız o fəaldır, bütün yerdə qalanı isə yalnız passiv nəticədir. Yox, burada iqtisadi zərurət əsasında qarşılıqlı təsir vardır ki, bu da son nəticədə həmişə özünə yol açır».

Siyasi iqtisadiyyatın inkişafına müxtəlif şəkildə təsir göstərə bilər. Siyasi hakimiyyətdən və ya dövlət hakimiyyətindən danışarkən Fridrix Engels qeyd etmişdir ki, onun «iqtisadi inkişafa əks təsiri üç cür ola bilər. Dövlət hakimiyyəti eyni istiqamətdə təsir göstərə bilər, onda inkişaf sürətlənir; o, iqtisadi inkişafa əks təsir edə bilər, -bu halda, hazırkı zamanda hər bir böyük xalqda bu hakimiyyət müəyyən vaxt keçdikdən sonra dağılmış olur; yaxud dövlət hakimiyyəti iqtisadi inkişafa müəyyən istiqamətlərdə maneçilik göstərib onu başqa istiqamətlərdə irəlilədə bilər.Bu hal, nəticə etibarı ilə, əvvəlki iki halın birinə müncər olur».

Dövlətimiz və onun yeritdiyi iqtisadi siyasətin tarixi təcrübəsi inandırıcı surətdə sübut edir ki, iqtisadiyyata rəhbərlik sahəsində elmi xəttin işlənib hazırlanması və ardıcıl surətdə həyata keçirilməsi dövlətimizdən, cəmiyyətin həyatında iqtisadiyyatla siyasətin nisbəti, iqtisadi siyasətin rolu və əhəmiyyəti haqqında mütərəqqi anlayışdan bütün və hər cür uzaqlaşma hallarına qarşı ən qəti mübarizə aparılmasını nəzərdə tutur.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi siyasətin, yəni elmi surətdə əsaslandırılan, cəmiyyətin real imkanlarını və vəzifələrini düzgün nəzərə alan siyasətin rolu və əhəmiyyəti getdikcə artır. Belə ki, iqtisadi siyasət cəmiyyət həyatının maddi şəraitinin inkişaf xarakterini və səviyyəsini xeyli dərəcədə müəyyən edir, deməli, məhsuldar qüvvələrin tərəqqisindən tutmuş bütövlükdə daxili və xarici siyasətin müxtəlif cəhətlərinin formalaşmasınadək cəmiyyət həyatının bütün tərəflərinə, hüquqa, ideologiya-

ya,əxlaqa və s. bilavasitə və ya dolayı yolla təsir göstərir.Bir halda ki, belədir, onda gərək davamlı və dayanıqlı inkişafın güclü amili kimi iqtisadi siyasətin həqiqi rolu elm tərəfindən dərindən açılıb göstərilsin, bu amil hərəkət halında və cəmiyyətin tərəqqisinin digər hərəkətverici qüvvələri ilə qarşılıqlı əlaqədə, daim dəyişən şəraitə və vəzifələrə uyğun surətdə təhlil edilsin.

Bundan başqa, iqtisadi siyasət təkcə cəmiyyətin həyatının deyil, habelə hər bir adamın, bunu onun istəyib-istəməməsindən, həmin faktı dərk etməsindən və ya ona əhəmiyyət verməməsindən asılı olmayaraq, həyatının bir çox tərəflərinə həm bilavasitə, həm də dolayısı ilə təsir göstərir.

Qeyd etmək lazımdır ki. ciddi elmi əsaslara arxalanan iqtisadi siyasət bütün daxili imkanların, daha tam şəkildə aşkara çıxarılmasına və onlardan istifadə olunmasına həlledici dərəcədə kömək edir. Bir halda ki, belədir, onda gərək iqtisadi siyasətin kütlələrə müyəssər olan elmi prinsipləri cəmiyyət miqyasında və onun hər bir hissəsində daha ardıcıl və tam şəkildə, maksimum səmərə ilə həyata keçirilsin, bir-biri ilə sıx bağlı olan bütün iqtisadi və ictimai, siyasi və ideoloci tədbirlər vahid bir istiqamətə - ölkə iqtisadiyyatının dinamizmini, onun səmərəsini yüksəltməyə, cəmiyyətin inkişaf sürətini artırmağa yönəldilmiş olsun.

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkənin iqtisadi inkişafına dair uzunmüddətli proqram işlənib hazırlanmış, orada iqtisadi siyasətinin prinsiplərini əsaslandırmış və təsbit etmişdir. Bu siyasət ölkəmizin bütün zəhmətkeşləri tərəfindən hamılıqla bəyənilir. Onlar dövlətin siyasətini bütünlüklə müdafiə edirlər, çünki, bu siyasət dərin xəlqi siyasətdir - o, zəhmətkeşlərin həyati mənafeyini əsas tutur; bu siyasət əsl elmi siyasətdir - o, bu mənafeyi ödəməyin yeganə mümkün və düzgün yollarını göstərir.

Azərbaycan dövlətinin elmi surətdə əsaslandırılmış iqtisadi siyasəti ölkəmizin uğurlu inkişaf yolu ilə irəliləyişini istiqamətləndirən və sürətləndirən qüdrətli qüvvədir.

Azərbaycan dövlətinin iqtisadi siyasəti işdə zəhmətkeşləri inandırır ki, onların maddi rifahının yüksəlməsi bütövlükdə ölkə iqtisadiyyatının müvəffəqiyyətləri ilə bilavasitə bağlıdır. Onun bütün sahələrinin yüksək inkişaf sürəti, istehlak malları miqdarının sürətlə artması, onların çeşidinin və keyfiyyətinin yaxşılaşması əhalinin artan tələbatını getdikcə daha dolğun ödəməyə imkan verir. Ölkədə iqtisadi artım təmin edildikcə, istehsalın miqyası genişləndikcə, milli gəlir artdıqca dövlət zəhmətkeşlərinin pul gəlirini artırmaq, mənzil və mədəni-məişət obyektləri tikintisini genişləndirmək imkanı əldə edir. Bu isə son nəticədə xalqın maddi rifahının yaxşılaşdırılmasına səbəb olur. Belə ki, siyasət qanunun nəzəri formulu arxasında onun real iqtisadi məzmununu, insanların fəaliyyətinin müəyyən bir tərəfini, onun əsasını təşkil edən maddi mənafeyi və səbəbləri, eyni zamanda bu fəaliyyətin həyata keçirilməsi üçün istifadə olunan iqtisadi

üsulları və vasitələri, iqtisadi formaları və metodları, onun cərəyan etdiyi konkret şəraiti, habelə ona təsir göstərən xarici amilləri açıb göstərir.

Hal-hazırda ölkəmizdə aparılan uğurlu siyasət nəticəsində məhsuldar qüvvələrin inkişafında yeni keyfiyyət dəyişiklikləri baş verir. Buna görə də həmin dəyişiklikləri vaxtında görməyin və düzgün istiqamət götürməyin böyük əhəmiyyəti vardır. Belə ki, ölkə iqtisadiyyatının prioritet və həlledici sahələri bunlardır: elektrik energetikası, neft-kimya sənayesi, turizm.Bundan başqa maşınqayırma və cihazqayırma, elektronika, neft və qaz çıxarılması sahələrinin inkişafı olduqca vacibdir. Bu sahələrin hər birinin özündə də xüsusilə mütərəqqi istiqamətlər vardır ki, onları da görmək və gələcəkdə inkişaf etdirməyi nəzərdə tutmaq lazımdır. Belə ki, yalnız perspektivli sahələrin və sənayenin bütün başqa sahələrində ən mütərəqqi istiqamətlərin üstün inkişafını nəzərə alaraq planlar və proqnozlar işləyib hazırlamaqla biz istehsalın ən səmərəli quruluşunu təmin edə bilərik.

Elmi surətdə əsaslandırılmış iqtisadi siyasətin işlənib hazırlanması və həyata keçirilməsi iki qrup problemin həllini nəzərdə tutur. Bu qrupplardan biri iqtisadi siyasətin strategiyasına, digəri isə taktikasına aiddir. İqtisadi siyasətin strategiyası dövlətin baş məqsədlərinin müəyyən edilməsindən, ölkə iqtisadiyyatı inkişafının bu və ya digər mərhələsinin xüsusiyyətlərinə tətbiqən həmin məqsədlərin konkretləşdirilməsindən, ölkə iqtisadiyyatının sahələri üçün dövlətin fəaliyyətinin başlıca istiqamətlərinin işlənib hazırlanmasından ibarətdir, iqtisadi siyasətin taktikası iqtisadiyyatın qısa dövr üçün planlaşdırılmasının və ona rəhbərliyin elə formalarını, metod və üsullarını aşkara çıxarmaqdan ibarətdir ki, strateci xətdən irəli gələn konkret vəzifələri onların vasitəsilə ən səmərəli şəkildə yerinə yetirilir.

Qeyd etmək lazımdır ki, «Strategiya» yunanca «strategia» sözündən əmələ gəlmişdir, «ilkin hərbi rəhbərlik məharəti» deməkdir, «taktika» da yunanca «taktika» sözündəndir, «qoşunları düzmək məharəti» deməkdir. Siyasətə gəldikdə isə «strategiya» siyasi fəaliyyətin məqsəd və istiqamətlərinin müəyyən edilməsini, «taktika» isə bu fəaliyyətin əməli vasitələrinin, üsul və metodlarının hazırlanmasını göstərən anlayışlar kimi işlədilir.

İqtisadi siyasətin strateci xəttinin müvəffəqiyyəti və taktiki üsullarının səmərəliliyi həlledici dərəcədə onların elmi surətdə əsaslandırılmasından, iqtisadiyyatın inkişafının xüsusiyyətlərinin nə qədər dolğun nəzərə alınmasından asılıdır.

Bazar iqtisadiyyatı şəraitində insanların fəaliyyəti dövlət tərəfindən, bütün cəmiyyət miqyasında dövlət tərəfindən tənzim edilir. Bazar iqtisadiyyatı şəraitində dövlət iqtisadi siyasətin işlənib hazırlanması və həyata keçirilməsində bir sıra məsələləri diqqətdə saxlayır:

1. Birinci mərhələ iqtisadiyyatın inkişaf istiqamətləri və meyillərinin dərk edilməsi, bu və ya digər tarixi mərhələ xüsusiyyətlərinin tədqiqi ilə

bağlıdır. Belə ki, ölkənin daxilində mövcud vəziyyətin təhlili, konkret beynəlxalq şəraitin və onun perspektivlərinin nəzərə alınması da böyük əhəmiyyətə malikdir. Elmi proqnozlaşdırmanın ölkə əhalisinin artımına, ölkənin tələbatına, elmi-texniki tərəqqiyə dair proqnozların tərtib edilməsinin hazırkı şəraitdə rolu getdikcə artır, bu isə təkcə yaxın perspektiv üçün deyil, habelə nisbətən uzaq perspektiv üçün iqtisadi və ictimai-siyasi vəzifələri müəyyən etmək lüzumu ilə əlaqədardır.

2. İkinci mərhələ elmi-tədqiqat əsasında iqtisadi siyasətin məqsəd və vəzifələrinin irəli sürülməsi, onun strateci xəttinin işlənib hazırlanmasıdır. İqtisadi siyasətin strategiyası bir qayda olaraq dövlət və onun icra strukturları tərəfindən müəyyən edilir.

İqtisadi siyasətin nəzəri konsepsiyası həmişəlik müəyyən edilmiş hərəkətsiz bir şey deyildir. Öz əsası etibarilə tarixi inkişafın tam bir mərhələsi üçün vahid nəzəri konsepsiya olaraq qalmaqla yanaşı, o, toplanmış təcrübənin, yeni elmi nailiyyətlərin və başqa şəraitin nəzərə alınması ilə təfsilat və təfərrüat cəhətcə dəyişilə bilər. Belə dürüstləşdirmələrdən imtina edilməsi labüd olapraq siyasəti həyatdan ayrı düşməyə məhkum edir, onun zəruri çevikliyini itirir. Lakin bir halda ki, təshihlər ayrı-ayrı cəhətlərə və təfərrüata aiddir, başlıca istiqamətləri və məqsədləri isə dəyişdirmir, deməli, bunlar iqtisadi siyasətin strategiyasına deyil, ancaq taktikAsına toxunur.

3.İqtisadiyyatın davamlı və dayanıqlı inkişafının meyilləri dərk edildikdən və iqtisadi siyasətin başlıca istiqaməti müəyyənləşdirildikdən sonra əsas iş bu xətti əməli surətdə həyata keçirməkdən ibarət olur. İqtisadi siyasətin işlənib hazırlanmasının və yeridilməsinin üçüncü mərhələsi - onun həyata keçirilməsi başlanır. Bu mərhələdə əsas diqqət iqtisadi siyasət taktikasının problemləri, bu və ya digər mərhələnin xüsusiyyətlərinə ən çox uyğun olan və strateci müvəffəqiyyəti təmin edən yolların və vasitələrin, forma və üsulların müəyyən edilməsi üzərində cəmlənir.

Dövlətin iqtisadi siyasətini Azərbaycan dövlətinin orqanları konkret İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Mərkəzi Bank, Vergilər Nazirliyi, Dövlət Gömrük Komitəsi və s. qurumlar həyata keçirirlər. Məhz bu orqanlar texniki və maliyyə siyasətini, qiymət, əsaslı vəsait qoyuluşu, əməkhaqqı və s. siyasəti əməli surətdə həyata keçirirlər. Bütün bunlar dövlətin vahid iqtisadi siyasətinin bir-biri ilə bağlı ünsürlərini, funksional istiqamətlərini əmələ gətirir. Bu məsələdə cəmiyyətin elmi-texniki, ictimai-iqtisadi, siyasi və mədəni tərəqqisinin fasiləsiz artan dinamizmi də nəzərə alınsa, onda təsərrüfat praktikasını daim təhlil etmək, ilkin qərarları dürüstləşdirmək lüzumu tamamilə şəksiz və zəruri olar. Bu mərhələdə iqtisadi eksperimentlərin təşkilinin böyük əhəmiyyəti vardır.

Beləliklə, elmi surətdə əsaslandırılmış iqtisadi siyasət onun strateci xəttini müəyyən etmək və onun həyata keçirilməsinin ən səmərəli taktiki vasitələrini axtarıb tapmaq deməkdir. Bu siyasətin işlənib hazırlanması və

həyata keçirilməsi qarşılıqlı surətdə əlaqədar olan bir sıra mərhələlərdən keçir. Həmin mərhələlərdən isə cəmiyyətin obyektiv iqtisadi qanunlardan istifadə etməsi prosesi əmələ gəlir.

Qeyd etmək lazımdır ki, Azərbaycan əhalisinin maddi və mədəni həyat səviyyəsinin yüksəldilməsinə dair proqram əhalinin gəlirini və istehlakını artırmaq, zəhmətkeşlərin əmək və məişətinin təşkilini yaxşılaşdırmaq, mədəni-texniki səviyyəsini yüksəltmək, şəhərdə və kənddə həyat şəraitini yaxşılaşdırmaq sahəsində bir-biri ilə bağlı tədbirlərin geniş kompleksindən ibarətdir. Son illərdə qəbul edilmiş «Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda (2008-2013-cü illər) cəmiyyətin ictimai inkişafının aktual problemlərinin həll edilməsi, əhalinin bütün təbəqələrinin rifahının yüksəldilməsi nəzərdə tutulur.

Müəyyən edilmiş proqramın səciyyəvi cəhəti onun elmi surətdə əsaslandırılmasından, xalqın gəlirini artırmağın, onun maddi nemətlərə və xidmətlərə artan tələbatını ödəməyin müxtəlif yol və formalarının səmərəli əlaqələndirilməsindən ibarətdir. Əməkhaqqının yüksəldilməsi və əmək şəraitinin yaxşılaşdırılması, əhalinin az təminatlı hissəsinə verilən ödənclərin artırılması, vergi güzəştlərinin genişləndirilməsi, pərakəndə satış qiymətləri siyasəti, istehlakın artırılması və quruluşun təkmilləşdirilməsi, mənzil tikintisinin genişləndirilməsi, əhaliyə ictimai-mədəni və məişət xidmətinin yaxşılaşdırılması və bu istiqamətlərdən hər biri daha da inkişaf etdirilir, hər biri başlıca vəzifənin yerinə yetirilməsində öz rolunu oynayacaqdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan dövlətinin gücünün mənbəyini bunda görürdü ki, bu dövlət əsl xalq dövlətidir, xalqın xeyrinə yaradılmışdır və xalqa xidmət edir.

Hal-hazırda Azərbaycan dövlətini möhkəmləndirməyin, demokRatiyanı inkişaf etdirməyin vacib olduğunu nəzərə alaraq Azərbaycan Respublikasının Milli Məclisinin rolunun artırılması xüsusi əhəmiyyət kəsb edir. Bunun səbəbi odur ki, ölkədə qəbul edilən qanunlar Milli Məclis tərəfindən qəbul edilir. Bu qanunlar isə ölkə iqtisadiyyatının sürətlə inkişaf etməsinə, onun qanunvericilik bazasının təkmilləşməsinə xidmət edir.

Ali dövlət hakimiyyəti orqanı olan Azərbaycan Respublikasının Milli Məclisi iqtisadi siyasətin işlənib hazırlanmasında və həyata keçirilməsində böyük rol oynayır. Hazırda sənayenin, kənd təsərrüfatının, tikintinin, təhsilin, elmin, mədəniyyətin, səhiyyənin, ticarətin, ictimai təminatın inkişafı ilə əlaqədar olan əsas məsələlərin həllində onun rolu xeyli artır.

Azərbaycan Respublikasının Milli Məclisi ictimai və iqtisadi həyatın aktual problemlərini müzakirə edir. Ən mühüm qanunların layihələri daim ümumxalq müzakirəsinə verilir. Belə ki, geniş xalq kütlələrini «dövləti idarə etmək işinə, bütün dövlət hakimiyyətini ələ almaq işinə» cəlb edir.

İqtisadi siyasəti həyata keçirmək üçün Milli Məclisin daimi komitələrinin işinin böyük əhəmiyyəti vardır. Bu komitələr sənaye və kənd təsərrüfatı sahələrinin, nəqliyyatın, ticarətin, təhsilin, təhsilin, cəmiyyətin, mədəniyyətin və sairənin inkişafı məsələləri ilə məşğul olurlar. Onlar dövlət planlarının və büdcəsinin layihələrini diqqətlə öyrənir, öz mülahizə və təkliflərini irəli sürürlər.

### 2.3. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin obyektiv əsasları

Bazar iqtisadiyyatı nəzəriyyəsinin banilərindən olan A.Smit hesab edirdi ki, hökmdarın və ya dövlətin vəzifəsi bütövlükdə cəmiyyət üçün son dərəcə faydalı olan, lakin öz vəsaiti ilə bir nəfərin, yaxud da qrupun, xərcini ödəyə bilmədiyi ictimai müəssisələri yaratmaq və həyata keçirməkdən ibarətdir. Odur ki, onların xüsusi şəxslər və ya sayda xüsusi şəxslərdən ibarət olan qrup tərəfindən yaradılması və saxlanılmasını göz-ləmək olmaz.

Buradan aydın olur ki, azad bazar heç də öz-özünə tənzimlənən və ya öz-özünə təshih olunan sistem deyildir.Başqa sözlə, azad prinsipinə və heç nə ilə məhdudulaşdırılmayan rəqabətə əsaslanan bazar, cəmiyyət qarşısında duran bütün problemləri həll etmək iqtidarında deyildir. Və buna görə də dövlətin cəmiyyətdə gedən iqtisadi və sosial proseslərə müdaxiləsi zəruridir.

Dövlətdə biznesin qarşılıqlı fəaliyyəti baxımından kapitalizm birbirindən az və ya çox dərəcədə fərqlənən iki mərhələdən keçmişdir. Birinci mərhələdə burcua sahibkarlığını formalaşdırmağın əsas vəzifəsi özünün mənafeyini reallaşdırmaq üçün feodal dövlətinin istifadə etdiyiqeyri-iqtisadi məcburetmə formalarını aradan qaldırmaqdan ibarət olmuşdur. Bunlar öz ifadəsini azad rəqabət və sahibkarlıq prinsiplərinə əsaslanan kapitalizm mərhələsində tapmışdır. Bu dövr formalaşdığı vaxtdan təqribən XIX əsrin ikinci yarısınadək davam etmişdir. Kapitalizmin inkişafının birinci mərhələsində iqtisadiyyat sahəsində dövlətin üzərinə düşən vəzifələr, onun XX əsrdə və hazırda yerinə yetirdiyi vəzifələrlə müqayisədə bir qədər zəif görünsə də, o, heç zaman iqtisadi və sosial proseslərin tənzimlənməsindən kənarda qalmamışdır. Başqa sözlə, o dövrdə də dövlət ölkənin iqtisadi və sosial inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsində çox böyük rol oynamışdır.

XIX əsrin sonu, XX əsrin əvvəllərində kapitalist iqtisadiyyatı öz inkişafının korporativ mərhələsinə daxil olmuşdur. Bu dövrün fərqləndirici cəhətlərindən biri iqtisadi və sosial sahələrdə dövlətin tənzimləyici və nəzarətedici rolunun əhəmiyyətli dərəcədə genişlənməsidir.

Bu, bir sıra səbəblərlə, xüsusilə də istehsalın təmərküzləşməsi və mərkəzləşməsinin güclənməsi, iqtisadi əlaqələrin mürəkkəbləşməsi və sosial problemlərin kəskinləşməsi ilə əlaqədardır.

XIX əsrin əvvəllərindən dövlətin iqtisadi funksiyalarının tədriclə genişlənməsi üç mərhələdən keçmişdir. Birinci mərhələnin başlanması birinci dünya müharibəsi ilə əlaqədardır. Bu mərhələ 1929-1933-cü illəridəki Böyük durğunluq dövrünədək davam etmişdir. Bu dövrdə, dövlət, iqtisadiyyatda dövlət bölməsi yaratmaqla inhisarçılığa meyli məhdudlaşdırmağa çalışmış və iqtisadi proseslərin tənzimlənməsinə fəal müdaxilə etməyə başlamışdır.Lakin bu müdaxilə əsas etibarilə hərbi istehsal sahələri ilə məhdudlaşmışdır. Yerdə qalan sahələrdə isə təsərrüfatçılığın xüsusi kapitalist formaları hökmran mövqeyə malik olmuşdur.

1929-1933-cü illərdəki dünya iqtisadi böhranı dövlətin funksiyalarının genişlənməsində ikinci mərhələnin başlanğıcını qoymuşdur. Bu dövrdə cəmiyyətin tarixində bazar təsərrüfatının idarə olunmasında dövlətin daim və fəal iştirakı sistemi meydana gəlmiş, iqtisadiyyatın tənzimlənməsində istifadə olunan formalar inkişaf etmiş, planlaşdırmanın ünsürləri özünü göstərmişdir. Bu cür siyasət öz ifadəsini dövlət mülkiyyətinin və dövlət büdcəsinin həcminin artmasında tapmışdır. Belə bir şəraitdə büdcə vəsaitindən təkcə dövlət aparatının saxlanması üçün deyil, həm də dövlət və xüsusi fəaliyyətin maliyyələşdirilməsi üçün istifadə olunmağa başlanmışdır.Dövlət makroiqtisadi tarazlığın tənzimlənməsi üçün büdcə-vergi siyasəti ilə yanaşı, həm də kapital qoyuluşlarının stimullaşdırılması və sosial problemlərin həllinə yönəldilən pul-kredit siyasətindən də fəal istifadə etmişdir.

Dövlətin funksiyalarının genişlənməsində üçüncü mərhələ İkinci Dünya müharibəsindən sonra başlamış və 50-ci illərin ortalarına qədər davam etmişdir.Bu mərhələ,əvvəlki mərhələdən onunla fərqlənmişdir ki, həmin vaxtadək yeridilən siyasətə iqtisadi artım sürətinin stimullaşdırılması ilə əlaqədar tədbirlər sistemi əlavə edilmişdir. Bu dövrdə dövlət, sənayenin ən mühüm sahələrinin inkişaf etdirilməsində, istehsal və sosial infrastrukturunun yaradılmasında daha fəal iştirak etməyə başlamışdır. Bu mərhələdə «kapitalizmin qızıl əsri» adlandırılan növbəti mərhələnin başlanması üçün zəruri maddi zəmin yaradılmışdır.

XX əsrin 50-70-ci illərində yeridilən dövlət siyasəti aşağıdakı ilkin şərtlərə əsaslanmışdır:

1)İqtisadiyyat xüsusi kapitalist deyil, qarışıq olmalıdır. Dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyi bazarın «nöqsanlı» olması, daha dəqiq desək, onun resursları səmərəli bölüşdürmək iqtidarında olmaması ilə şərtlənir. Bu nöqsanlara ictimai nemətlərin və təbii inhisarların, xarici təsirin mövcudluğu, bazar haqqında informasiyaların kifayət qədər tam olmaması və s. aiddir;

2)Bazar öz-özünə sabit makroiqtisadi nəticələrə gətirib çıxarmaq iqtidarında olmadığına görə məqsədyönlü makroiqtisadi siyasət yeridilməsi zəruridir;

3)Bazar, öz-özlüyündə gəlirlərin bərabər bölüşdürülməsinə gətirib çıxarmır. Ona görə də dövlət, bir tərəfdən gəlirlərin bölüşdürülməsini tənzimləməli, digər tərəfdən isə hər hansı bir səbəbdən gəlir mənbəyindən məhrum olan şəxsləri müdafiə etməlidir. Dövlət, həm də təhsil və səhiyyə infrastrukturlarının inkişaf etdirilməsi qayğısına qalmalıdır.

Bu dövrdə dövlətin başlıca məqsədi tam məşğulluğu, qiymətlərin sabitliyini və tədiyyə balansının tarazlığını təmin etməkdən ibarət olmuşdur. Bu dövrdə dövlət nəinki iqtisadi, həm də sosial münasibətlərin tənzimlənməsinə daha geniş müdaxilə etmiş, Qərbi Avropanın bir çox ölkələrində ümumi rifah dövləti ideoloğiyası formalaşmışdır.

İkinci Dünya müharibəsindən sonra bir çox siyasi partiyaların proqram sənədlərində, habelə Qərbi Avropanın üç ölkəsinin Konstitusiyasında - 1949-cu ildə AFR-in Əsas Qanununda, 1958-ci ildə Fransanın, 1978-ci ildə İspaniyanın Konstitusiyalarında «sosial dövlət» anlayışı öz əksini tapmışdır.

Keçən əsrin 50-60-cı illərində inkişaf etmiş ölkələrin çoxunda sosial dövlətin mümkünlüyü industral cəmiyyətdən postindustral cəmiyyətə keçid dövründə yalnız maddi istehsal sahələrində deyil, həm də birinci növbədə müasir istehsalda şəxsi (insan) amilin rolunun dəyişməsi ilə əlaqədardır. «Sosial dövlət» həm də ona görə mümkün olmuşdur ki, XX əsrin ortalarında cəmiyyətdə müxtəlif sosial qruplar arasında bir növ tarazlıq yaranmışdır ki, bu da onlara bu yolla öz mənafelərini müdafiə etmək imkanı vermişdir.

Müasir mərhələnin başlıca xüsusiyyəti «sosial dövlət» siyasətindən «səmərəli dövlət» siyasətinə keçilməsidir. «Səmərəli dövlət» siyasəti öz ifadəsini aşağıdakı iki əsas müddəada tapmışdır:

Birincisi, dövlət, dövlət büdcəsinin kəsirli olmasına səbəb olan yersiz xərcləri azaltmaq məqsədilə yerinə yetirdiyi vəzifələrin dairəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırmalıdır;

İkincisi, pensiya təminatı, tibbi sığortalama, işsizliyə görə müavinətlər və digər sosial ödənişlər yalnız dövlət büdcəsi vəsaiti hesabına ödənilməməlidir. Bu xərclər bütün subyektlər arasında bərabər bölünməlidir.

Beləliklə, dövlət iqtisadi artımı təmin etməklə kifayətlənməməli, həm də bazar iqtisadiyyatının tərəfdaşı, köməkçisi olmalıdır.XX əsrin 80-90-cı illərində inkişaf etmiş kapitalist ölkələrinin əksəriyyətinin apardıqları siyasətin əsas məzmunu məhz bundan ibarət olmuşdur.

Müasir dövrdə mütəxəssislər Cənub-Şərqi Asiya ölkələrinin təcrübəsini əsas götürərək belə hesab edirlər ki, dövlət sosial sferanın inkişaf etdirilməsi üçün məsuliyyəti öz üzərinə götürməməlidir. O, sosial xərcləri ixtisar etməli və bunun nəticəsində sərbəstləşən vəsaiti iqtisadi fəallığın

stimullaşdırılmasına yönəltməlidir. Başqa sözlə, dövlət siyasətinin əsas məqsədi iqtisadi artımın təmin edilməsi olmalıdır. Çünki iqtisadi artıma nail olunduqda sosial problemlər haqqında fikirləşmək və onları həll etmək olar.

Dərin iqtisadi, sosial və siyasi dəyişikliklər dövründə dövlətin rolu xüsusilə böyükdür. Bu sözlər hazırda möhtəşəm quruculuq işlərinin getdiyi ölkəmizə də aiddir.Azərbaycan cəmiyyətində inzibati amirlik sistemindən qalmış idarəetmə qaydalarının tədriclə aradan qaldırıldığı, bütün SAhələrdə yeniləşmə prosesinin getdiyi, dünyanın üzünə açıq olan iqtisadiyyat yaradıldığı müasir dövrdə dövlətimiz əzəmətli, genişmiqyaslı və əhatəli vəzifələri və məsul işləri yerinə yetirir. Bu sahədə ayrı-ayrı ölkələrin təcrübəsinin, onun müsbət və mənfi cəhətlərinin öyrənilməsi daha məqsədəuyğundur. Belə olduqda ölkə öz iqtisadiyyatını malik olduğu imkanlara uyğun inkişaf etdirir, dünya birliyində layiqli yer tutur, xalqın həyat səviyyəsinin yüksəldilməsi sahəsində böyük nailiyyətlər qazanır.

Ölkəmizdə yeni iqtisadi sistemin yaradılması prosesində dövlət tərəfindən tənzimlənmənin bir sıra formalarından istifadə olunur. Planlı iqtisadiyyat şəraitində direktiv planlaşdırmadan istifadə olunduğu halda, bazar iqtisadiyyatına keçid dövründə tənzimlənmənin aşağıdakı formalarından istifadə edilir:1) dövlət sifarişi; 2) indikativ ( tövsiyə xarakterli) planlaşdırma; 3) strateci planlaşdırma; 4) proqramlaşdırma; 5) proqnozlaşdırma və i.a.

Dövlət tərəfindən tənzimlənmənin əsas formalarından olan direktiv planlaşdırmadan keçmiş SSRİ-də və digər sosialist ölkələrində uzun müddət istifadə edilmişdir.

Direktiv planlaşdırmada ölkənin iqtisadi və sosial inkişaf planı qanun qüvvəsinə malik olur və xalq təsərrüfatının bütün pillələri-müəssisələr, sahələr, regionlar üçün məcburidir. SSRİ-də direktiv planlaşdırma dövründə dövlətin iqtisadiyyata müdaxiləsinin ən yüksək həddinə nail olunmuşdur.

Direktiv planlaşdırma iqtisadi fəaliyyət azadlığını və qərarların qəbul olunmasında təşəbbüskarlığı məhdudlaşdırırdı. Bu zaman dövlət əsas etibarilə maddi ehtiyatların bölüşdürülməsi, habelə istehsal və istehlakın inzibati yolla idarə edilməsi vəzifələrini yerinə yetirirdi. Çünki, müəssisələr dövlətə məxsusdur və istehsal dövlət planları əsasında həyata keçirilirdi. Başqa sözlə, hər bir müəssisə üçün tapşırıq mərkəzi plan orqanları tərəfindən müəyyən olunurdu. Həm də hər bir müəssisə üçün nə qədər istehsal ehtiyatı ayrıldığı konkretləşdirilirdi ki, o, dövlət tapşırıqlarını yerinə yetirə bilsin. İstehsal planına uyğun olaraq təsərrüfat əlaqələrinin müəyyən edilməsi üçün əsas olan məhsulların bölüşdürülməsi planı da işlənib hazırlanırdı. O zaman hər bir malgöndərənin özünün istehlakçısı var idi, onlar bir-birlərini yaxşı tanıyırdılar.

Tənzimləmənin dövlət sifarişi formasından keçən əsrin 20-ci illərində xarici ölkələrdə və keçmiş SSRİ-də geniş istifadə olunmuşdur. Lakin dövlət sifarişinin nöqsan cəhəti vardır. Belə ki, onun yerinə yetirilməsi heç də həmişə satışla və maliyyə resursları ilə təmin olunmur və buna görə də istehsalçı müəssisə üçün faydalı deyildi. Qərb ölkələrində firmalar dövlət sifarişi uğrunda öz aralarında rəqabət aparır, sovet müəssisələri isə bütün ciddi- cəhdlə bu prosesdən kənarda qalmağa səy göstərirdilər.

Dövlət sifarişləri ABŞ-da daha geniş yayılmışdır. Təsərrüfatçılığın bu forması sənayenin yeni-yeni sahələrinin (elektron, aerokosmik, atom və s.) meydana gəlməsi ilə əlaqədardır.

Bazar iqtisadiyyatı şəraitində toplanmış təcrübə dövlət sifarişinin formalaşması və reallaşdırılmasının aşağıdakı prinsiplərini müəyyən etməyə imkan verir:

1)Məhsulların (işlərin, xidmətlərin) sifarişçisi müəyyən maliyyə və digər zəruri resurslara, büdcə vəsaitinə malik olan, hüquqlarının bir hissəsini özünün səlahiyyətli icra orqanlarına verən, konkret smetaları, tədbirlər proqramlarını işləyib hazırlayan dövlətdir;

2)Sifarişlərin tərkibi ümumdövlət tələbatlarının quruluşu, ölkənin ictimai-siyasi, elmi və iqtisadi həyatının müxtəlif sahələrində dövlətin yerinə yetirdiyi funksiyalarla əlaqədardır. Çünki bu vəzifələr obyektiv səbəblər üzündən bazarın öz-özünü tənzimləmə mexanizminin köməyilə həyata keçirilə bilmir.

3)Sifarişlərin həcmi ölkənin büdcə fondundakı vəsaitin kəmiyyəti ilə məhdudlaşır;

4)Sifarişlər müqavilə əsasında yerləşdirilir və yerinə yetirilir.

Dövlət sifarişi dövlət büdcəsinin xərc hissəsinin icra edilməsi və deməli, bazar iqtisadiyyatının tənzimlənməsi formasıdır.

Sifarişlər yerləşdirilənə qədər podratçı müəssisələrin seçilməsi üçün müsabiqə aparılır. Bu, büdcə resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsinə təsir edir.

Bazar münasibətləri şəraitində dövlət tərəfindən tənzimləmənin formalarından biri indikativ (tövsiyə xarakteri daşıyan) tənzimləmədir. Direktiv planlaşdırmadan fərqli olaraq Qərbin bir sıra ölkələrində (Fransa, Yaponiya və s.) indikativ planlaşdırma geniş yayılmışdır.

Bu planlar ümumxalq mənafelərinə xidmət edən planların yerinə yetirilməsi üçün təsərrüfat subyektlərinin səylərinin səfərbərliyə alınmasına xidmət edir.

Sosial-iqtisadi inkişafın indiqatoru kimi iqtisadiyyatın dinamikası, strukturu və səmərəliliyi, maliyyənin, pul tədavülünün, əmtəə və qiymətli kağızlar bazarlarının vəziyyəti, qiymətlərin hərəkəti, məşğulluq və əhalinin həyat səviyyəsi və s. göstəricilərdən istifadə olunur.

Yaponiyada müharibədən sonrakı illərdə 12 beşillik və bir yeddiillik plan qəbul edilmişdir ki, onların adları qarşıya qoyulan məqsədi əks etdirir.

Dövlət tərəfindən tənzimləmənin formalarından biri kimi Fransada və digər ölkələrdə strateji planlaşdırmadan istifadə edilir. Fransanın və Avropa İttifaqına daxil olan digər ölkələrin milli bazarlarının bir-birinə yaxınlaşması indikativ planlaşdırmadan strateji planlaşdırmaya keçirilməsini zəruri etmişdir. Strateji planlaşdırma öz əksini ilk dəfə 1989-1992-ci illərdə Fransanın iqtisadi inkişafına dair onuncu planda tapmışdır.

Strateji planlaşdırmanın mahiyyəti ondan ibarətdir ki, dövlət, milli iqtisadiyyatın başlıca inkişaf prioritetlərinin seçilməsi və həyata keçirilməsində aparıcı rol oynamalıdır. Strateji planlaşdırma vasitəsi ilə cəmiyyətin inkişaf yolu müəyyən edilir, hansı bazarlarda fəaliyyət göstərməyin daha yaxşı olması, hansı texnologiyalardan istifadə olunması, bu zaman iqtisadiyyatın hansı bölməsinə və hansı ictimai strukturlara istinad olunması məsələləri həll edilir. Bunlara əsasən ölkənin inkişaf etdirilməsinin əsas istiqamətləri, milli valyutanın möhkəmləndirilməsi və məşğulluğun təmin olunması, əhalinin təhsili və sosial müdafiəsi, elmi tədqiqatların aparılması, ərazilərin abadlaşdırılması və s. müəyyənləşdirilir.

Proqramlaşdırma sosial-iqtisadi inkişaf proqramlarının işlənib hazırlanması və onlara nail olunması yollarının müəyyənləşdirilməsi deməkdir. Ölkənin sosial-iqtisadi inkişaf proqramı adətən aşağıdakıları əhatə edir:

- Ölkənin əvvəlki illər üzrə sosial-iqtisadi inkişafının yekunlarının təhlili və ölkə iqtisadiyyatının müasir vəziyyətinin xarakteristikası;
- Orta müddətli perspektiv üçün ölkənin sosial-iqtisadi inkişaf proqramı konsepsiyası;
- Makroiqtisadi siyasət;
- Hərtərəfli (institutsional) dəyişikliklərin aparılması;
- İnvestisiya və struktur siyasət;
- Aqrar siyasət;
- Ekoloji siyasət;
- Sosial siyasət;
- Xarici iqtisadi siyasət.

Proqnozlaşdırma ölkənin inkişaf etdirilməsinin başlıca problemləri və istiqamətlərinin aşkara çıxarılmasına xidmət edir. Dövlət orqanları proqnoz hesablamalarının nəticələrindən sosial-iqtisadi siyasətin və prioritetlərin işlənib hazırlanması və əsaslandırılması üçün istifadə edilir.

Proqnozlaşdırma dövlət tərəfindən tənzimləmənin formalarından biri olmaqla, proqramların, planların, əsas istiqamətlərin, sosial-iqtisadi siyasətin və prioritetlərin işlənib hazırlanması və əsaslandırılması üçün istifadə edirlər.

Proqnozlaşdırma dövlət tərəfindən tənzimlənmənin formalarından biri olmaqla, proqramların, planların, əsas istiqamətlərin, sosial-iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasının başlanğıc mərhələsidir.

### 2.4.İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi metodları

İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi metodları iki qrupa bölünür: 1)müstəqim (inzibati) metodlar; 2)dolayı (iqtisadi) metodlar. Lakin qeyd etmək lazımdır ki, real həyatda tənzimləmənin inzibati və iqtisadi metodları hüdudlarının müəyyənləşdirilməsi əslində şərti xarakter daşıyır. Bu, onunla əlaqədardır ki, iqtisadi tənzimləmə prosesini müəyyən inzibati amillərdən istifadə etmədən tənzimləmək mümkün deyildir. Məsələn, dövlət, əhalidə olan pul vəsaitini əmanət qoyuluşuna cəlb etmək üçün əmanətə görə verilən faizin səviyyəsini qaldırmalıdır. Hər bir inzibati tənzimləmə metodu isə müəyyən iqtisadi mexanizmlər vasitəsilə həyata keçirilir.

Dövlət tərəfindən istifadə olunan tənzimləmə metodlarının təsnifləşdirilməsi olduqca mürəkkəb prosesdir. İqtisadçılar tənzimləmə metodlarını adətən iki qrupa bölürlər: 1)ümumi metodlar; 2)xüsusi metodlar.

Ümumi metodlara idrak metodlarının toplusu, sistemli metod, ümumi təkrar istehsal nəzəriyyələri və başqaları aiddir. Makroiqtisadiyyatın qarşısında duran əsas vəzifə bütövlükdə iqtisadi sistemin fəaliyyətini tədqiq etməkdən ibarətdir. Makroiqtisadi proseslərin tədqiq olunması, bu və ya digər sosial-iqtisadi proseslərdə hadisələrin inkişafının qabaqcadan proqnozlaşdırılması, kəmiyyət və keyfiyyət təhlil metodlarına kompleks yanaşmalara əsaslanır.

Sosial-iqtisadi inkişaf proseslərinin dövlət tərəfindən tənzimlənməsində xüsusi metodlardan daha geniş istifadə olunur. Bunların içərisində ekstropolyasiya, iqtisadi qruplaşdırma, indeks, büdcə, balans, proqram-məqsədli və normativ metodlar xüsusi yer tutur.

Ekstropolyasiya metodundan əsas etibarilə ilkin proqnozların, əsas istiqamətlərin, proqramların, layihələrin işlənib hazırlanmasında istifadə olunur. Bu metodun tətbiq olunduğu müddət nə qədər qısa olarsa, onun dəqiqliyi də bir o qədər böyük olur.

Dövlət tərəfindən tənzimləmədə iqtisadi qruplaşdırma metodundan geniş istifadə edilir. Bu metod tərkibinə görə çox mürəkkəb olan məcmunun hər hansı bir əhəmiyyətli əlamət üzrə eynitipli qruplara bölünməsinə imkan verir. Təhlil bir çox hallarda bir və ya bir neçə əlamətin əlaqələndirilməsi üzrə formalaşan struktur, dinamik və struktur-dinamik qruplaşdırmaların köməyi ilə həyata keçirilir.

İndeks metodundan bilavasitə cəmlənməsi mümkün olmayan ünsürlərdən ibarət olan məcmuya müqayisəli xarakteristika vermək üçün istifadə edilir. İndeks metodu mürəkkəb hadisələri əmələ gətirən ünsürlərin dəyişməsinə təsir edən amilləri aşkara çıxarmaq və onları qiymətləndirmək üçün tətbiq edilir.

Büdcə metodu (ev təsərrüfatları büdcələrinin seçmə yolu ilə tədqiq olunması) dedikdə, əhalinin həyat səviyyəsinin öyrənilməsi ilə əlaqədar həyata keçirilən statistik müşahidə metodu nəzərdə tutulur.

Bazar iqtisadiyyatı şəraitində tarazlıq təmin olunmalıdır. Başqa sözlə, resruslara tələbat (maddi, əmək, maliyyə) arasında tarazlığın yaradılması ilk növbədə həll edilməli olan problemdir. Bazar iqtisadiyyatı şəRaitində heç kim onun subyektlərini istehsal, mal göndərilməsi, istehlak limiti üzrə tapşırıqları məcburi surətdə yerinə yetirməyə təhrik edilmir.

Müasir dövrdə, maddi, əmək ehtiyatları, maliyyə-dəyər və sahələrarası balanslardan daha çox istifadə olunur.

Normativ metoddan həm ayrılıqda, həm də digər metodlarla birlikdə istifadə oluna bilər. Məsələn, proqram məqsədli metodlarla birlikdə qarşıya qoyulan məqsəd üzrə kəmiyyət göstəriciləri və ona nail olunması üçün lazım olan ehtiyatlar müəyyən edilir. Normativ metoddan müxtəlif balanslar tərtib olunarkən tələbatın və mümkün olan ehtiyatların aşkara çıxarılması, dövriyyə vəsaitləri normativlərinin, amortizasiya ayırmaları normalarının müəyyən edilməsi üçün istifadə olunur.

Bazar iqtisadiyyatı şəraitində müxtəlif normativlərdən də istifadə edilir. Bunlara texniki-iqtisadi, sosial, ekoloji normativləri, maliyyə normaları və normativlərini misal göstərmək olar.

Proqnozlaşdırma metodları dövrlərdən (qısa, orta və uzunmüddətli), səviyyədən (makroiqtisadi, sahələr, regionlar və s.) və proqnozlaşdırma obyektindən asılı olaraq bir-birindən fərqlənir. Demoqrafik, elmi-texniki və təbii resurslar üzrə proqnozlaşdırmanın özlərinə məxsus xüsusiyyətləri vardır.

Alimlərin fikrincə, proqnozlaşdırmanın 150-dən çox metodu mövcuddur. Lakin bunların 15-dən daha çoxu istifadə olunur.

Proqnozlaşdırma metodikasının əsası aşağıdakılardan ibarətdir:

1) analitik tədqiqatın aparılması; 2) məlumat bazasının hazırlanması; 3) məlumat bazasının keyfiyyəti; 4) informasiyaların öyrənilməsi və birləşdirilməsinin bütöv, tam halına gətirilməsi.

Mövcud şərait, perspektivdə onun dəyişməsinə təsir edən amillər və meyillər tam və düzgün nəzərə alındıqda proqnozlaşdırma daha keyfiyyətli və ümüdverici olur. Bunlarsız, proqnozlaşdırma ehtimal olaraq qalır.

Statistik metoddan proqnoz modellərinin müəyyən edilməsi məqsədilə hadisəyə kəmiyyət xarakteristikası vermək lazım gəldikdə istifadə olunur. Proqnozlaşdırma aparılarkən istifadə edilən ən mühüm və geniş yayılmış mteod qruplaşdırmadır. Proqnozlaşdırmanın formalaşdırılması dərəcəsinə görə onun bütün metodları iki yerə bölünür:

1)ekspert (intuitiv) metod; 2)formalaşdırma metodu.

Proqnozlaşdırmanın ekspert metodundan əsas etibarilə aşağıdakı hallarda istifadə olunur:

- proqnozlaşdırma obyektini riyazi cəhətdən formalaşdırmaq mümkün olmadıqda;

- nəticə çıxarmaq üçün kifayət qədər statistik seçmə aparmaq mümkün olmadıqda;

- proqnozlaşdırma obyekti həddindən çox mürəkkəb olduğuna görə çoxsaylı amillərin təsirinin nəzərə alınması mümkün olmadıqda;

- təcili qərarlar qəbul edilməsi lazım gəldikdə və ekstremal şərait yarandıqda.

# II BÖLMƏ

# AZƏRBAYCAN DÖVLƏTİNİN İQTİSADİ SİYASƏTİ VƏ ONUN REALLAŞMASI İSTİQAMƏTLƏRİİ

## III FƏSİL

## XARİCİ TİCARƏT SİYASƏTİ

***«Azərbaycanın xarici ticarət siyasəti həm ikitərəfli formada, həm də beynəlxalq təşkilatlar çərçivəsində çox uğurludur, düşünülmüş siyasətdir. Bizim strateci xəttimiz var və bu xəttə sadiqik. Son illər ərzində aparılan işlər onu göstərir ki, Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənir»***

**İlham Əliyev**

### 3.1.Xarici ticarət siyasəti və onun formalaşması

Beynəlxalq əmək bölgüsünün formalaşmağa başladığı dövrdən etibarən siyasətçilər və iqtisadçılar həm ayrı-ayrı ölkələr, həm də bütövlükdə dünya təsərrüfat əlaqələri baxımından xarici ticarətin yaranma səbəblərini, onun inkişafına təsir göstərən amillər toplusunu və iqtisadi inkişafa nail olmaqdan ötrü dövlətin nə cür ticarət strategiyası tutmalı olduğunu araşdırmağa çalışmışdırlar. Tədqiqatların bu şəkildə təkamülü eyni zamanda xarici ticarət siyasətinə müəyyən baxışların meydana gəlməsinə səbəb olmuşdur.

İqtisadi ədəbiyyatlarda **«xarici ticarət siyasəti»** terminina 20 müxtəlif tərif verilsə də, iqtisadçılar arasında onun mahiyyətinə dair köklü fikir ayrılığı yoxdur. Xarici ticarət nəzəriyyələrinin tətbiqi nəticəsində gəldiyimiz qənaət belədir ki, xarici ticarət siyasəti ölkənin xarici iqtisadi siyasətinin mühüm tərkib hissəsi olub, ticarət – iqtisadi əlaqələrin tənzimlənməsinə yönəlmişdir. Doğrudur, müasir dövrdə dövlətlərin yeritdiyi iqtisadi siyasəti xarici və daxili cəhətdən fərqləndirmək, onlar arasında kəskin sərhəd qoymaq müəyyən məsələlərin izahına çətinlik törədir. Lakin ümumiqtisadi siyasətdə xarici ticarət siyasətinin yerini və əhəmiyyətini müəyyənləşdirmək üçün əvvəlcə onun sərhədlərini aydınlaşdırmaq gərəkdir.

Xarici ticarət siyasəti çərçivəsində iqtisadi (gömrük tarifləri), siyasi (enbarqo), inzibati-idarəetmə (gömrük-sərhəd proseduru), hüquqi (əlverişli şərait) rejimi, milli rejim, ticarət bağlaşmaları və digər məsələlər sıx birləşmişdir. Buna görə də, onun geniş və dar mənada izahı verilir və bu zaman bazar subyektlərinin xarakterindən asılı olaraq (fiziki şəxslər, müəssisələr, transmilli korporasiyalar) dövlətin xarici ticarət sferasının tənzimlənməsində oynadığı rol müəyyənləşdirilir. Xarici ticarət siyasətinin dar mənada izahı hökumətin xarici ticarəti, daxili və xarici investisiyaları məhdudlaşdırması və stimullaşdırması istiqamətində gördüyü tənzimləmə işlərini əhatə edir. Geniş mənada xarici ticarət siyasəti dedikdə isə hökumətin istehsal amillərinin hərəkət sürətinə və istiqamətinə, ticarətin həcminə və quruluş formasına təsir göstərən tədbirlərin məcmusu başa düşülür. Bu mənada tərif yalnız gömrük siyasətini deyil, eyni zamanda pul-kredit və valyuta-maliyyə siyasəti kimi ümumsiyasət kurslarını da əks etdirir.

Xarici ticarət siyasəti çox vaxt xarici iqtisadi siyasətlə eyniləşdirilir. Məsələn, Q.Haber qeyd edir ki, «xarici ticarət siyasəti – hər hansı bir ölkənin xarici iqtisadi əlaqələrini tənzimləyən bütün tədbirləri əhatə edir». Bu isə xarici iqtisadi siyasət anlayışına daha yaxın olub, çox ümumi xarakter daşıyır. S.Mid isə xarici ticarət siyasəti dedikdə, tədiyyə balansında əks olunan əməliyyatlara birbaşa nəzarət məqsədi güdən tədbirləri nəzərdə tutur. Göründüyü kimi, bu yanaşmada daxili vergilər, subvensiya və dotasiyaların beynəlxalq ticarətə birbaşa təsir imkanı nəzərə alınmır. B.Belaşanın əsərində təklif edilən tərifdə isə xarici ticarət siyasətinin çərçivəsi yalnız idxal və ixracda tətbiq edilən tariflər, miqdar məhdudiyyətləri və subvensiyalarla məhdudlaşdırılır. Əslində isə xarici ticarət siyasəti tədiyyə balansının cari əməliyyatlar hesabındakı idxal və ixrac əməliyyatları ilə bağlı bütün hökumət qərar və fəaliyyətlərini əhatə edir.

Xarici ticarət siyasəti ilk növdədə, makro və mikrosəviyyədə nəzərdən keçirilir. Bildiyimiz kimi, dövlət, müəssisə, fiziki şəxslər və TMK səviyyəsində həyata keçirilən xarici iqtisadi əlaqələr kəmiyyət və keyfiyyət baxımından xeyli fərqlənir. Xarici ticarət siyasətini dövlət və müəssisə səviyyəsində fərqləndirməklə, hökumətin xarici ticarət fəaliyyətinə müdaxilə dərəcəsinə uyğun olaraq hər bir səviyyə üzrə xarakterik cəhətləri aydınlaşdırmaq mümkündür. Xarici ticarətin təhlili əsasında belə nəticəyə gəlmək mümkündür ki, milli iqtisadiyyat səviyyəsində xarici ticarət siyasəti dedikdə, ticarət partnyoru olan ölkələrin də maraqları nəzərə alınmaqla hökumətin mal, xidmət və informasiyalar üzrə beynəlxalq mübadilənin inkişafı və tənzimlənməsinə istiqamətlənmiş gömrük, investisiya, institutsional və hüquqi tədbirlər sistemi başa düşülür. Bu tərifdə xarici ticarət siyasətinin əsas xüsusiyyəti ondan ibarətdir ki, dövlət özünün milli (gömrük) sərhədini keçən əmtəə, xidmət, kapital və informasiya axınını öz ölkəsinin beynəlxalq əmək bölgüsündə iştirakından daha çox mənfəət əldə etməsi məqsədi ilə tənzimləyir.

Müəssisə və fiziki şəxsləri əhatə edən makrosəviyyədə isə xarici ticarət siyasəti, bu subyektlərin xarici bazarlara çıxması və nəticədə, beynəlxalq mübadilədən daha çox iqtisadi səmərə əldə edilməsi məqsədi ilə dövlətin əlverişli şərait yaratmaq istiqamətində həyata keçirdiyi tədbirlər sistemi kimi başa düşülür.

Xarici ticarət siyasəti ayrılıqda həm ölkə, həm birlikləri, həm də çoxtərəfli şəkildə həyata keçirilə bilər. Əhatə dairəsi və dövlətlərin beynəlxalq mübadilənin tənzimlənməsinə təsir imkanları baxımından xarici ticarət siyasəti birtərəfli, ikitərəfli, regional və qlobal (beynəlxalq) olmaqla fərqləndirilir. Beynəlxalq mübadilə proseslərinin tənzimlənməsində dövlətin iştirakını M.Korden özünün əsərlərində geniş əks etdirmişdir. Belə ki, tənzimlənmə vasitələri hökumət tərəfindən birtərəfli qaydada, ticarət partnyorları ilə razılaşdırılmadan tətbiq olunduqda birtərəfli qaydada xarici ticarət siyasəti həyata keçirilir. Bu cür xarici ticarət siyasəti dünya ölkələri arasında siyasi münasibətlərin gərginləşməsinə təsir edən müvafiq qaydada ikitərəfli, çoxtərəfli razılaşmalara əsasən həyata keçirilir və beynəlxalq (qlobal) və regional olmaqla fərqləndirilir. Beynəlxalq təşkilatların (Ümumdünya Ticarət Təşkilatı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və s.) yaxından təsiri nəticəsində formalaşan qlobal ticarət siyasəti istehsal amillərinin maksimum mobilliyinə və təbii və maliyyə resurslarının səmərəli bölgüsünə xidmət göstərir.

80-cı illərin əvvəllərindən başlayaraq qlobal ticarət siyasəti himayədarlığın yumşaldılması, inkişaf etməkdə olan ölkələrin xarici ticarət siyasətinin liberallaşdırılması zəminində qurulmağa başlamışdır. Liberallaşma tərəfdarları himayədarlığın birbaşa və dolayı nöqsanlarını göstərirlər. Birbaşa çatışmazlıqlar ilk növbədə istehsal amillərinin ədalətsiz şəkildə bölüşdürülməsi daxili və xarici bazar qiymətləri arasındakı uyğunSuzLuğun nəticəsi olaraq istehlakçıların rifah halının aşağı düşməsi ilə bağlıdır. Bəzi hallarda himayədarlıq qiymətin əmələ gəlməsinin qeyri-rəqabət sistemi ilə bağlı olur. Himayədarlığın dolayı zərəri isə resursların qeyri-istehsal, lakin gəlir gətirən sahələrə (qaçaqmalçılıq, tariflərin ödənilməsindən yayınmaq və s.) yönəldilməsi ilə bağlıdır. Digər tərəfdən himayədarlığın yüksək həddi ölkəni elmi-texniki nailiyyətlərdən məhrum edir ki, bu da milli əmtəənin rəqabətdözümlülüyünü aşağı salır.

Xarici ticarət siyasətinin liberallaşdırılmasının və iqtisadiyyatın tam açılmasının əleyhdarları bəzi arqumentlər irəli sürürlər.

1. Xarici Ticarət Siyasətinin liberallaşdırılması tədiyyə balansında və dövlət büdcəsində tarazlığın mənfi istiqamətə pozulması ilə müşayiət olunur (80-cı illərdə əksər ölkələr bununla qarşılaşmışlar).

2.Liberallaşmanın iqtisadi artıma müsbət təsirinə dair əsaslı dəlillər yoxdur. Bəzi iqtisadçılar əksinə sübut etməyə çalışırlar: iqtisadiyyat yeni sahələrin qorunması hesabına dirçəlir, ixracın genişləndirilməsi isə beynəlxalq ticarət sistemindəki tarazlığı süni istifadə pozur.

3.İqtisadiyyatın liberallaşmasına keçidin özü dövlət üçün əlavə problemlər yaradır: işsizlik və mübadilə kursları aşağı düşdüyü üçün inflyasiyanın templəri artır.

Son dövrlər iqtisadçılar arasında liberal xarici ticarət siyasətindən daha çox neftral xarici ticarət siyasətinin formalaşdırılması ilə bağlı fikirlər yaranmaqdadır. Neytral xarici ticarət siyasəti ixracyönümlü və idxaləvəzləyici, eləcə də xarici iqtisadi fəaliyyət obyekti olmayan əmtəələr üçün bərabər stimulların yaradılması sistemidir.

Bura həmçinin daxili və xarici bazar üçün nəzərdə tutulmuş əmtəələrə eyni satış mühitinin formalaşdırılması aiddir. Liberallaşma isə daha çox bürokratik aparatın zəiflədilməsi yolu ilə xarici ticarət məhdudiyyətlərinin aradan qaldırılmasıdır.

Xarici ticarət siyasətinin reallaşması nəticəsində mürəkkəb və kompleks xarakter daşıyan xarici ticarət rejimi meydana gəlir. Xarici ticarət rejimi mübadilə obyektlərinin ölkə sərhədinin keçməsini tənzimləyən üsul və qaydaların məcmusunu əks etdirir və dünya və milli bazarlarda beynəlxalq ticarət əməliyyatları iştirakçılarının davranış qaydalarını müəyyən edir. Xarici ticarət rejimi xarici ticarət siyasətinin çoxsaylı prinsip və qaydaları hesabına formalaşır. Bura iqtisadi və təşkilati xarakterli tədbirlər, həmçinin xarici ticarət siyasətinin reallaşdırılması zamanı dövlətin istifadə etdiyi qanunverici normalar daxildir. Ölkə və onun ticarət subyektləri beynəlxalq mübadilədə iştirakdan daha çox iqtisadi səmərə əldə etmək üçün dövlət, mal və xidmətlərin milli sərhəddən keçməsini bütün mümkün vasitələrlə tənzimləməyə can atır. Bu zaman nəzərdə tutulmalı olan başlıca şərt ondan ibarətdir ki, xarici ticarət siyasətinin reallaşma mexanizmləri təkcə milli yox, həmçinin fövqəlmilli (beynəlxalq) maraqlara müvafiq olmalıdır.

Qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatlar Xarici Ticarət Siyasətinin işlənib hazırlanması və onun reallaşdırılması mexanizmlərinin seçilməsi zamanı bir neçə vacib şərtin nəzərə alınmasını tövsiyə edirlər:

- iqtisadiyyatın müəyyən sahəsi üçün əldə olunacaq ümumi səmərə yaxud mümkün zərərin kəmiyyətcə hesablanması;
- bazarın quruluşuna oradakı rəqabətin təsiri;
- digər ölkələrin mümkün cavab tədbirləri və bu addımların potensial təsiri;
- yeridilən siyasətin milli və fövqəlmilli maraqlara, iki və çoxtərəfli razılaşmalara uyğunluğu və s.

Xarici ticarət siyasətinin əsas alətlərindən danışmazdan əvvəl, onların funksiyalarını sadalayaq. Təhlillər göstərir ki, xarici ticarət siyasətinin bütün vasitələri 4 əsas funksiyanı yerinə yetirir:

1.Tənzimləyici; 2.Müdafiə; 3.İdxal və ixrac əməliyyatları üzərində nəzarət; 4.Fiskal.

Qeyd edək ki, xarici ticarət siyasəti vasitələrinin konkret olaraq hansı funksiyanı yerinə yetirməsi ölkənin inkişaf xüsusiyyətlərindən asılıdır. Bunların içərisində ən mübahisəli xüsusiyyət tənzimləyici funksiyaya

aiddir. Onun vasitəsilə resursların ixracyönümlü, yaxud idxaləvəzləyici istehsal sahələrində təkrar bölgüsü həyata keçirilir, xarici ticarətin inkişaf etdirilməsindən ötrü kapital cəlb olunur və s.

İdxal və ixrac olunan malların qiymətinə etdiyi təsirin birbaşa, yaxud dolayı olmasından asılı olaraq bu vasitələr tarif və qeyri-tarif olmaqla iki əsas qruppa ayrılır. Ümumiyyətlə, xarici ticarət siyasətinin ayrı-ayrı vasitələrindən ya idxalın məhdudlaşdırılması, ya da ixracın gücləndirilməsi məqsədilə istifadə olunur. Buna görə də onların bir qismi idxalın, digər qismi isə ixracın idarə olunmasına görə istiqamətlənmişdir.

**Cədvəl 1**

**Xarici ticarət siyasətinin əsas vasitələri**

| *Xarici ticarətin tənzimlənmə metodu* | *Ticarətin siyasəti aləti* | *Tənzimlənmə obyekti* | |
|---|---|---|---|
| *1.Gömrük-tarif tənzimlənməsi* | *gömrük rüsumu* | | *İdxal* |
| | *tarif kvotası* | | *ixrac* |
| *2.Qeyri-tarif tənzimlənmə sistemi* | | | |
| *a)miqdar vasitələri* | *kvotalaşdırma* | | *idxal* |
| | *lisenziyalaşdırma* | *ixrac* | |
| | *«könüllü məhdudlaşdırma»* | *ixrac* | |
| *b)gizli himayəçilik* | *dövlət alışı sistemi* | | *idxal* |
| | *yerli komponentlər üzrə qoyulan tələblər* | | |
| | *texniki maneələr* | | *idxal* |
| *v)maliyyə vasitələri* | *vergi və yığımlar* | | *idxal* |
| | *subsidiya* | *ixrac* | |
| | *ixracın kreditləşməsi* | *ixrac* | |
| | *demping* | *ixrac* | |

Xarici ticarət siyasətinin tarif və qeyri-tarif vasitələri kəmiyyət qiymətləndirilməsi baxımından fərqli xüsusiyyətlərə malikdir. Belə ki, əgər gömrük tənzimlənməsi kəmiyyətcə dəqiq hesablanıla və qiymətləndirilə bilərsə, qeyri-tarif vasitələri müxtəlif iqtisadi məzmun və növ tərkibi nöqteyi-nəzərindən yalnız təqribi qiymətləndirməyə malik olur, buna görə də qeyri-tarif məhdudiyyətlərinin orta səviyyəsi adətən ixracın və ya idxalın məhdudiyyət altına düşən hissəsinin dəyəri kimi hesablanır.

Dövlətlərin ticarət rejiminin xüsusiyyəti tarif və qeyri-tarif tənzimlənmə vasitələrinin kombinasiyası nəticəsində real məzmun kəsb edir. Məsələn, bütün rüsumları ləğv etmiş, lakin eyni zamanda miqdar məhdudiyyətlərini qadağan səviyyəsində tətbiq edən ölkədə xarici ticarət siyasəti

liberal və yaxud sərbəst sayıla bilməz. Nisbətən açıq ticarət rejiminə o Ölkədə təsadüf olunur ki, onun idxal gömrük rüsumlarının orta səviyyəsi 10%-dən az olsun və miqdar məhdudiyyətləri idxalın 25%-dən az hissəsini əhatə etsin.

**Cədvəl 2**

**Xarici ticarət siyasəti vasitələrinin xüsusiyyəti**

| *Ticarət siyasətinin əsas aləti* | *Ticarət rejiminin xüsusiyyəti* | | | | |
|---|---|---|---|---|---|
| | ***qadağan*** | ***məhdudiyyət*** | ***liberal*** | ***açıq*** | ***azad*** |
| *1.Tariflərin orta səviyyəsi (%-lə)* | *40-100-dək* | *25-dən yuxarı* | *10-15 arası* | *10-dan aşağı* | *0* |
| *2.Miqdar məhdudiyyətləri (ticarətin əhatə olunan hissəsi,%-lə)* | *40-dək* | *25-dən yuxarı* | *10-15 arası* | *0-10 arası* | *0* |

Gömrük rüsumunun tətbiqi zamanı ölkənin inkişaf səviyyəsindən asılı olaraq bir neçə məqsəd göz altına alına bilər:

- idxal mallarının əmtəə strukturunun optimallaşdırılması;
- idxal və ixrac, valyuta gəlirləri və valyuta xərcləri arasında rasional nisbətin saxlanılması;
- ölkədə istehsalın xarici rəqabətin mümkün zərərli təsirindən qorunması.

Gömrük rüsumları 3 əsas funksiyanı yerinə yetirir:

1.Fiskal – idxal-ixrac rüsumlarından əldə olunan vəsait dövlət büdcəsi gəlirlərinin əsas hissəsini təşkil edir.

2.Himayəçi – bu əsasən idxal rüsumlarına aiddir. Dövlət bu yolla yerli istehsalı xarici rəqabətin zərərli təsirindən qoruyur.

3.Tarazlaşdırma – bu əsasən ixrac rüsumlarına aiddir. Müəyyən məhsulun daxili bazar qiyməti bu və ya digər səbəbdən dünya qiymətlərindən aşağı olduqda, ixrac rüsumları həmin malın ölkədən kütləvi surətdə aparılmasının qarşısını alır.

Hazırda aşağıdakı rüsum növlərindən geniş istifadə olunur:

Xarici ticarət strategiyası nöqteyi-nəzərindən, tətbiq olunan tariflərin forması və hətta ayrı-ayrı əmtəələr üzrə dərəcələrin səviyyəsindən daha çox ölkənin gömrük müdafiəsinin ümumi səviyyəsi mühüm əhəmiyyət daşıyır.

**Cədvəl 3**

## Gömrük rüsumlarının təsnifatı

| *Təsnifatın növü* | *Rüsumların növləri və məzmunu* | | |
|---|---|---|---|
| *1.Tutulma üsuluna görə* | *Advalor-gömrük dəyərinə görə faizlə hesablanır* | *Spesifik – malın gömrük vahidinə görə müəyyən olunmuş konkret məblə-ğidir* | *Kombinə olunmuş-əvvəlki iki rüsum növünün birgə tət-biqi zamanı istifa-də olunur* |
| *II.Rüsumlaşdırılan obyektə görə* | *İdxal-ölkənin gömrük sərhədini keçən idxal mallarından tutulur* | *İxrac-ölkənin gömrük sərhədini keçən ixrac mallarından tutulur* | *Tranzit-müəyyən ölkənin ərazisindən daşınan mallara tətbiq olunur* |
| *Ş.Xarakterinə görə* | *Mövsümi-mövsümi xarakter daşıyan mallara tətbiq olu-nur* | *Antidempinq-mallar ölkəyə dünya bazar qiymətlərindən çox aşağı qiymətlərlə gətirilirsə, tətbiq olunur* | *Kompensasiya-malların müəyyən ölkəyə ixracı birbaşa, yaxud dolayı subsidiyalaş-dırma ilə həyata keçirilən zaman tətbiq olunur* |
| *IV.Mənşəyinə görə* | *Avtomat-orqanları-nın birtərəfli qaydada çıxardığı qərara uyğun olaraq tətbiq edilir* | *Konvensiya – çoxtə-rəfli şəkildə müəyyən olunmuş razılaşma şərtlərinə uyğun olaraq tətbiq edilir* | *Preferensial-zəif iqtisadiyyatlı ölkələrə tətbiq edirlər* |
| *V.Tarif dərəcələrinin tipinə görə* | *Daimi (sabit)-hö-kumət orqanları tərəfindən müəy-yən olunmuş tarif dərəcəsi şəraitdən asılı olmayaraq sabit qalır* | *Dəyişkən-dünya ba- zar qiymətləri, ya- xud dövlət subsidiya və dotasiyalarının səviyyəsi dəyişdikdə tətbiq edilir* | |
| *VI.Hesablanma üsuluna görə* | *Nominal – gömrük tarifində əks olun- muş tarif dərəcə-sini əks etdirir* | *Effektiv-son məh-sul üçün müəyyən olunmuş gömrük rü- sumunun real səviy-yəsini göstərir* | |
| *VII.Mürəkkəblik dərəcəsinə görə* | *Birpilləli-idxal olunan məhsulların növündən, miqdarından və mənşə ölkəsindən asılı olmayaraq vahid tarif dərəcələri əsasında tətbiq olunur* | *Çocpilləli – tarif stavkaları ayrı-ay-rı ölkələr, eləcə də malların miq-darı və növündən asılı olaraq fərq- lənir* | |

Əgər nəzərə alsaq ki, bütün ölkələrdə tarif dərəcələri diferensiasiya olunub, onda gömrük müdafiəsinin nominal deyil, səmərəlilik, yəni həqiqi səviyyəsi aktual məzmun kəsb edir. Tarifin səmərəlilik səviyyəsi – aralıq idxal mallarından tutulan rüsumları çıxmaqla son idxal mallarına qoyulan gömrük vergisinin real səviyyəsini əks etdirir:

$$G_c = \frac{(G_h - U_m \cdot G_{uk})}{1 - U_m}$$

Burada

$G_c$ - gömrük müdafiəsinin səmərəlilik səviyyəsi,

$G_n$ - son məhsul üzrə tarifin nominal dərəcəsi,

$G_{uk}$ - idxal komponentlərinin nominal tarif dərəcəsi,

$U_m$ - son məhsulun dəyərində idxal komponentlərinin dəyərinin xüsusi çəkisidir.

Qeyd etmək lazımdır ki, dünya ölkələrində tariflərin strukturu hazır məhsulun milli istehsalçılarının mühafizəsinə yönəlib və xammal və yarımfabrikatların idxalına heç bir manea yaratmır. Bu baxımdan, *tarif eskalasiyası* – əmtəələrin emal dərəcəsi artdıqca onlara qoyulan gömrük rüsumunun səviyyəsinin də artımı xarici ticarət siyasətinin mühüm vasitəsi hesab oluna bilər.

İdxal tarifləri müəyyən ziddiyyətlərlə xarakterizə olunur. Bir tərəfdən yerli istehsalçılar beynəlxalq rəqabətdən qorunduqları üçün tarif tətbiq olunmasında maraqlıdırlar, digər tərəfdən həmin subyektlər özləri də istehlakçı olduqları üçün idxal mallarının daha yüksək qiymətə əldə olunması onlara zərər vurur. Bu problem müəyyən dərəcədə gömrük siyasətinin bir aləti olan tarif kvotası vasitəsilə həll olunur. *Tarif kvotası* – dərəcələri idxal olunan malın həcmindən asılı olan dəyişkən gömrük rüsumlarının bir növüdür. Bunun mahiyyəti ondadır ki, müəyyən hədd daxilində həyata keçirilən idxal zamanı əmtəələrə kvotadaxili tarif dərəcəsi tətbiq olunur. İdxalın həcmi konkret kəmiyyəti keçdikdə isə mallardan daha yüksək – kvotaüstü tarif dərəcələri tutulur.

Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrin, demək olar ki, hamısında ixrac tarifi praktiki səciyyə daşımır. Ənənəvi ixrac sahələrinə malik inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə isə bu tarifdən geniş istifadə olunur. İxrac tarifi büdcəyə əlavə vəsaitin cəlb olunması, daxili və dünya bazar qiymətləri arasında böyük fərq yarandıqda onun tənzimlənməsini nəzərdə tutur. İxrac rüsumlarının ən qadağanedici həddi embarqodur. Bu, çox zaman müxtəlif sosial-iqtisadi sistemlərə malik olan ölkələr arasında tətbiq olunur və güclü ölkə tərəfindən tənzimlənir.

Mövcud beynəlxalq ticarət qaydaları tarif dərəcələrinin dəyişdirilməsi üzrə hər hansı birtərəfli addımı qəti surətdə inkar edir. Bunun üçün beynəlxalq səviyyəli danışıqların aparılması tələb olunur. Lakin belə danışıqlar uzun zaman tələb etdiyi üçün ticarət balansındakı dəyişikliklərə

çevik reaksiya vermək mümkün olmur. Bu məqsədlə dövlət qeyri-tarif tənzimlənmə tədbirlərindən istifadə edir.

Beynəlxalq ticarət praktikasında xarici ticarət siyasətinin elə Alətlərinə təsadüf edilir ki, onlar beynəlxalq hüququn obyekti sayıla bilər. Bu vasitələr qeyri-iqtisadi olmalarına baxmayaraq beynəlxalq iqtisadiyyatla sıx əlaqəlidir. Bunlara ticarət sazişlərini, Əlverişli Şərait Rejimini (ƏŞR), milli rejimi misal göstərmək olar. Ticarət sazişləri iki ölkənin hökumətləri arasında bağlanılan və qanunverici orqan tərəfindən ratifikasiya olunan razılaşmalar olub, 5-10 il müddətinə nəzərdə tutulub. ƏŞR razılığa gələn tərəflərin bir-birinə güzəşt, üstünlük və hüquq verməsini nəzərdə tutan və beynəlxalq ticarət sazişlərində təsbit olunan şərtdir. ƏŞR ÜTT tərəfindən qeyri-ayrıseçki ticarət rejiminin yaradılmasında başlıca amil kimi qəbul edilir. Milli rejimi isə burada bir dövlət digər xarici ölkənin fiziki və hüquqi şəxslərinə özünün bazar subyektlərinə tətbiq etdiyi şəraitdən əlverişsiz olmayan fəaliyyət mühiti yaradır. Buna daha çox inteqrasiya qrupplarına daxil olan ölkələrdə təsadüf olunur.

### 3.2.Xarici ticarətin tənzimlənməsinin dünya təcrübəsi

Son dövrlərdə dünya iqtisadiyyatında qloballaşma və regional iqtisadi inteqrasiya meyiləri ilə yanaşı, imperiyaların dağılması, yeni, müstəqil dövlətlərin yaranması prosesləri də genişlənmişdir ki, bu da dünya təsərrüfat sisteminin bütövləşməsinə aparır. Bu baxımdan, sosialist blokunun dağılması və SSRİ-nin süqutu daha çox diqqəti cəlb edir. Belə ki, hazırda bu proseslər nəticəsində həm siyasi, həm də iqtisadi müstəqillik əldə edən dövlətlər dünya birliyinin bərabərhüquqlu üzvləri kimi bütöv milli iqtisadiyyatlarını formalaşdırmağa və digər ölkələrlə müstəqil olaraq qarşılıqlı faydalı iqtisadi əlaqələr yaratmağa çalışırlar.

Qeyd etmək lazımdır ki, dünya təsərrüfat sisteminin bütövləşdiyi və beynəlxalq iqtisadi münasibətlərin qloballaşdığı müasir dövrdə milli iqtisadiyyatın formalaşması və inkişaf prosesində qarşıya çıxan problemlərin uğurlu həlli, əhəmiyyətli dərəcədə, xarici iqtisadi fəaliyyətin məqbul vasitələrlə genişləndirilməsi və inkişafı hesabına ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasından asılıdır. Bu ona əsaslanır ki, dünya təsərrüfat sisteminə fəal surətdə qoşulmaqla dövlətlər, bir tərəfdən özlərinin müvafiq ehtiyatları olmadıqları halda belə, cəmiyyətin tələbatını daha dolğun ödəmək, iqtisadiyyatın səmərəli strukturunu formalaşdırmaq, müasir texnika və texnologiya əldə etmək, mütərəqqi təsərrüfatçılıq və idarəçilik təcrübəsi qazanmaq və s. bu kimi mühüm problemləri həll etmək, digər tərəfdən isə, özlərinin beynəlxalq əmək bölgüsündə malik olduqları üstünlükləri reallaşdırmaq imkanları əldə etmiş olurlar. Məhz buna görə də, xarici iqtisadi fəaliyyətin inkişaf etdirilməsi və bu əsasda iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqra-

siyasının təmin olunması son dövrlərdə həm siyasi, həm də iqtisadi müstəqillik əldə etmiş postsosialist ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında bazar münasibətlərinə əsaslanan milli iqtisdaiyyatın formalaşdırılması məqsədilə həyata keçirilən iqtisadi islahatların strateji istiqamətlərindən biri hesab olunur.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu Dünya Təsərrüfat Sisteminə səmərəli inteqrasiya kortəbii şəkildə baş vermir. Bunun üçün Dünya Təsərrüfat Sistemində gedən qlobal proseslər, ölkənin beynəlxalq əmək bölgüsündə malik olduğu üstünlüklər, milli iqtisadiyyatın inkişaf potensialı və konkret şəraitin xüsusiyyətləri nəzərə alınmaqla məqsədyönlü xarici iqtisadi siyasətin aparılması lazım gəlir. Bu isə öz növbəsində, xarici iqtisadi fəaliyyətin beynəlxalq hüquq normalarına və mütərəqqi dünya təcrübəsinə əsaslanan və Dünya Təsərrüfat Sisteminin, beynəlxalq iqtisadi münasibətlərin və milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərini və perspektivlərini nəzərə alan mükəmməl və çevik dövlət tənzimlənməsi sisteminin yaradılmasını nəzərdə tutur.

İqtisadçılar belə bir qənaətə gəlmişlər ki, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin nəzəri, metodoloci və praktiki problemləri həmişə iqtisad elminin diqqət mərkəzində olmuşdur. Dünyanın ən görkəmli iqtisadçı alimləri və siyasətçiləri bu problemlərin həlli ilə bağlı öz münasibətlərini bildirmiş və müxtəlif fikirləri əsaslandırmağa çalışmışlar. Tarixi təkamül prosesində bu fikirlər iki istiqamətdə inkişaf etmişdir: fritrederçilik (azad ticarət) və proteksionizm (himayəçilik).

Azad ticarət tərəfdarları (A.Smit, D.Rikardo, C.S.Mill, C.B.Sey, P.Samuelson, V.Stolper və b.) fikirlərini belə əsaslandırırlar ki, maneəsiz həyata keçirilən xarici iqtisadi fəaliyyət «təbii seçmə» əsasında qarşılıqlı faydalı beynəlxalq əmək bölgüsünə kömək edir, bütün ölkələrin real milli məhsulunu potensial olaraq xeyli artırır və bütün Yer kürəsində həyat səviyyəsinin yüksəldilməsinə imkan yaradır.

Proteksionist tərəfdarları (F.List, A.Hamilton, Ç.Keri, C.Keyns) isə öz fikirlərini ənənəvi təşəkkül tapmış iqtisadi durumu saxlamaq, yeni yaranan milli sənaye sahələrini qorumaq, dövlət büdcəsinin gəlirlərini artırmaq, dempinqi məhdudlaşdırmaq, ölkənin müdafiə qabiliyyətini lazımi səviyyədə saxlamaq və s. xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsi zərurəti ilə əsaslandırırlar.

Dünya təcrübəsi göstərir ki, fritrederçiliyin yuxarıda söylənilən kimi müsbət səciyyələndirilməsi və ideallaşdırılmasına baxmayaraq, bu ideya heç də həmişə gözlənilən ümidləri doğrultmayıb. Təkcə xarici ticarət siyasəti keçən əsrdə ticarət və proteksionizm ideyalarının hər biri bir neçə dəfə müxtəlif müvəffəqiyyətlə iqtisadi fikirdə üstünlük əldə etmişlər.

Dünya təsərrüfat sistemində yaranmış müasir şərait, xüsusilə, beynəlxalq iqtisadi inteqrasiyanın yüksələn xətlə sürətli inkişafı, ölkələrin qarşılıqlı iqtisadi asılılıqlarının güclənməsi, transmilli korporasiyaların

dünya iqtisadiyyatında rolunun artması, dünya bazarında rəqabətin güclənməsi və s. müxtəlif iqtisadi nəzəriyyələrin xarici iqtisadi fəaliyyətin tənzimlənməsinə münasibətdə irəli sürdüyü bu və ya digər mülahizələrə diqqətlə və yaradıcı yanaşmanı tələb edir. Belə ki, müasir dövrdə dünya təsərrüfat sistemində baş verən köklü keyfiyyət dəyişiklikləri nəticəsində beynəlxalq ticarət-iqtisadi əlaqələr mürəkkəb və dinamik bir sistemə çevrilmiş və bu sistemin ayrılıqda hər bir ölkədə milli iqtisadiyyatın inkişafına təsiri də xeyli güclənmişdir. Müasir dövrdə hər hansı bir ölkədə milli iqtisadiyyatın formalaşması və onun dinamik, tarazlı inkişafının təmin olunması məqsədyönlü xarici iqtisadi siyasət aparılmasını, başqa sözlə, xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsini nəzərdə tutur.

Bu, zəif inkişaf etmiş və milli iqtisadiyyatını yenicə formalaşdıran keçid iqtisadiyyatlı ölkələr üçün daha böyük əhəmiyyət kəsb edir. Belə ki, müasir şəraitdə inkişaf etməkdə olan zəif, gənc ölkələrin sənayesi geridə qalmış əyalət «status»unun saxlanılmasına xidmət edən xarici rəqabətin hücumlarından, o cümlədən dempinq şəraitindən qorunmağa sadəcə olaraq məcburdurlar. Ən azı ona görə ki, hər hansı bir məhsulun istehsalında rəqabət üstünlüyünə nail olmaq üçün müəyyən vaxt lazımdır ki, bunu da azad ticarət mövcud olduğu halda, müasir rəqabət şəraitində əldə etmək mümkün deyildir. Azad ticarət tərəfdarları, məhz proteksionist siyasətinin köməyilə formalaşma dövrünü keçərək inkişaf etmiş və dünya bazarında rəqabət üstünlüyü qazanmış sənaye istehsalını artıq yaratmış ölkələrin mövcud olması fikrinin doğruluğunu bir daha təsdiqləyirlər.

Qeyd etmək lazımdır ki, inzibati-amirliyə əsaslanan, qapalı iqtisadi sistemdən bazar münasibətlərinə əsaslanan açıq iqtisadi sistemə keçid iqtisad elmi qarşısında yeni məsələlər qoymaqla yanaşı, bir çox məsələlərin, o cümlədən müasir dövrdə bazar münasibətlərinə əsaslanan açıq milli iqtisadiyyatın formalaşması şəraitində xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin nəzəri, metodoloci və əməli məsələlərinin yenidən işlənməsini tələb edir.

Hal-hazırda xarici iqtisadi siyasətin islahatının müxtəlif tipləri iqtisadiyyatın «açıqlığının» fərqli səviyyələrinə gətirib çıxarır. Bəzi islahatlar liberallaşmaya, bəziləri isə ixracatçı və idxalatçılar üçün eyni (neytral) şəraitin yaradılmasına yönəldilir.

Bəzi hallarda ölkənin ticarət sisteminin neytrallığının gücləndirilməsinə yönəldilmiş islahatlar proqramı da liberallaşdırma kimi nəzərdən keçirilə bilər. Lakin stimulların neytrallığı meyarı ticarət islahatlarının adekvat qiymətləndirilməsi üçün kifayət etmir. Belə ki, birincisi, neytrallığa təkcə liberal ticarət rejimi çərçivəsində deyil, həm də tənzimlənmə dərəcəsi yüksək olan rejim çərçivəsində də nail olmaq mümkündür. Bu zaman həm daxili, həm də xarici bazarlarda ticarətə münasibətdə güclü stimullardan istifadə edilir, lakin onların səviyyəsi bərabər olmur. İkincisi, neytrallıq prinsipi «şəffaflığı» zəif olan müxtəlif qeyri-tarif tədbirlərin-

dən imtina edilməsini nəzərdə tutmur. «Xarici ticarətin liberallaşdırılması» isə geniş anlayışdır və xarici ticarətə məhdudiyyətlərin azaldılması, bürokratik aparatın və siyasi xidmətlərin subyektiv qərarlarının əvəzinə, iqtisadi mexanizmdən istifadə edilməsini nəzərdə tutur. Başqa sözlə desək, nəinki qərarların qəbulu səlahiyyəti sərbəst təsərrüfat vahidlərinə ötürülür, eyni zamanda onların fəaliyyət göstərdikləri iqtisadi mühit dövlət tərəfindən birbaşa tənzimlənməyə daha az dərəcədə məruz qalır.

Belə ki, ölkənin ticarət rejimi qiymətləndirilərkən onun açıqlığı, şəffaflığı və neytrallığı baxımından fərqləndirilməsi zəruridir.

Ənənəvi olaraq, iqtisadiyyatın açıqlığı ixrac və idxalın həcminin ÜDM-a (Ümumi Daxili Məhsul) nisbəti ilə ölçülür. Bu isə məsələyə bəsit yanaşmaya, böyük və kiçik ölkələr arasında fərq qoyulmamasına gətirib çıxarır. Ən vacib məqam isə bundan ibarətdir ki, baxılan halda iqtisadi siyasətlə birbaşa əlaqə də aşkara çıxarılmır. Çünki, təkcə, xarici ticarət kvotasının kəmiyyətinə əsaslanıb iqtisadiyyatın əsl mənada başa düşülən açıqlığı haqqında qəti fikir söyləmək doğru olmaz.

İnstitutsional açıqlıq konsepsiyasına istinad edən alternativ yanaşma, aparılan iqtisadi siyasəti daha dərindən xarakterizə edir və bu səbəbdən öz konstruktivliyi ilə fərqlənir. Bu cür yanaşma tərzinə görə əgər milli təsərrüfat subyektləri xarici bazara çıxarılarkən, eyni zamanda xarici təsərrüfat subyektləri milli bazara daxil olarkən az sayda məhdudiyyətlərlə üzləşərlərsə, ölkə iqtisadiyyatı daha açıq hesab edilə bilər.

Ticarət sistemi dövlət tərəfindən gözlənilmədən həyata keçirilən tədbirlərlə deyil, sabit, müxtəlif şəkildə şərh edilməsi mümkün olmayan, dünya təcrübəsində geniş yayılmış qaydalar vasitəsilə tənzimləndikdə şəffaf hesab edilir. Şəffaflıq dərəcəsini kəmiyyətlə ifadə etmək kifayət qədər çətindir, lakin bununla belə, tarif məhdudiyyətlərinin mövcud ticarət məhdudiyyətlərinə (kvotalar, valyuta nəzarəti, lisenziyalaşdırma və s.) nisbəti ticarət rejiminin şəffaflıq dərəcəsini müəyyənləşdirməyə imkan verir.

Proteksionist tədbirlərin strukturu resursların optimal bölgüsü və buna uyğun olaraq ölkənin maddi rifahının artımı baxımından çox vacibdir. Belə ki, milli istiehsalçılar daxili, yaxud xarici bazarlarda fəaliyyətlərini inkişaf etdirmək seçimi qarşısında durduqlarından ixracatçılara yardımın səviyyəsi ilə müqayisədə daxili bazarın müdafiə səviyyəsi, resursların idxalı əvəz edən və ixracyönümlü sahələr arasındakı bölgüsü proporsiyalarını müəyyən edir. İxracın stimullaşdırılmasına istiqamətlənmiş müdafiə tədbirlərinin həcminin idxalı əvəz edən istehsalların stimullaşdırılması üzrə tədbirlərin həcminə nisbəti ticarət rejiminin neytrallıq dərəcəsini müəyyənləşdirməyə imkan verir.

Deyilənlərdən belə bir nəticəyə əgəlmək olar ki, xarici ticarətin liberallaşdırılması dedikdə, qeyri-tarif ticarət məhdudiyyətlərinin, o cümlədən idxal məqsədləri üçün valyuta alınmasına olan məhdudiyyətlərin əhəmiyyətli dərəcədə aşağı salınması, tarif məhdudiyyətlərinin səviyyəsinin

endirilməsi və sayının azaldılması, ixrac subsidiyalarının ləğv edilməsi, habelə müəssisələrin xarici iqtisadi əməkdaşlıq sahəsində qərarlar qəbul etmə prosesinə dövlətin təsirinin zəiflədilməsi üzrə tədbirlər kompleksi başa düşülə bilər. Lakin bununla belə liberallaşdırma siyasəti heç də ciddi dövlət nəzarətindən azad ticarətə kəskin keçid kimi də başa düşülməməlidir. Bir sıra ölkələrdə iqtisadi vəziyyətin təhlilindən göründüyü kimi, xarici ticarətin inkişafı üzrə dərindən işlənmiş dövlət siyasəti iqtisadi inkişafa müsbət təsir göstərir. Xarici ticarət sahəsindəki islahatların uğuru, ilk növbədə, makroiqtisadi sabitləşdirmə siyasətinin həyata keçirilməsi və möhkəm institutsional-hüquqi bazanın qurulması ilə müəyyən olunur. Göstərilən tədbirlərin həyata keçirilməməsi, habelə istehsal amillərinin mobilliyinin artırılmasına yönəldilmiş proqramların işlənməməsi resursların xarici ticarət siyasətinin islahatı ilə əlaqədar meydana çıxan yenidən bölgüsü prosesinin intensivliyini azaldır. Baxılan sahədəki islahatlara müsbət təsir göstərən və təmin olunması üçün dövlətin yaxından iştirakı tələb olunan digər amillərə isə sahibkarlığın inkişafını, müvafiq infrasturkturun (rabitə və nəqliyyat vasitələri, banklar və s.), habelə bazarlar haqqında məlumatın yayılması və beynəlxalq ticarət əlaqələrinin qurulması üzrə xidmətlər göstərən dövlət və özəl strukturlarının yaradılmasını aid etmək olar.

Prinsip etibari ilə xarici ticarətin liberallaşdırılması fəaliyyət göstərən təsərrüfat subyektləri arasında, obrazlı şəkildə desək, «təbii seçmə» apararaq nəticədə milli iqtisadiyyatın sağlamlaşdırılmasına, rəqabət qabiliyyətinin artırılmasına, səmərəliliyin yüksəldilməsinə təkan vermiş olur. Başqa sözlə desək, xarici ticarətin liberallaşdırılması özlüyündə məqsəd kimi deyil, yalnız dövlətin strateji iqtisadi maraqlarının təmin edilməsinin təsiri vasitələrindən biri kimi qiymətləndirilir. Məsələyə bu cür baxış ümumiqtisadi islahatlarla xarici ticarət siyasəti sahəsindəki islahatlar arasındakı nisbəti düzgün təyin etməyə imkan vermiş olur.

Ümumiyyətlə götürdükdə, daxili bazarda aparılan islahatlarla xarici iqtisdai əməkdaşlıq sferasında həyata keçirilən islahatlara qarşılıqlı təsir kontekstində baxılmalı, onların zaman və sıralama aspektlərində bir-biri ilə münasibətlərinə hər bir konkret haldan asılı olaraq müxtəlif cür yanaşılmalıdır. Belə ki, bu iki islahatdan hər hansı birinin digərinə nisbətən üstün templərlə həyata keçirilməsi müəyyən uyğunsuzluqlar yaradır. Məsələn, xarici ticarətin liberallaşdırılmasına digər ölkə təsərrüfatında bazar qüvvələrinin canlanmasına yönəldilən tədbirlər həyata keçirildikdə istehsalın inkişafına yönəldilən yeni investisiyaların əsas etibarı ilə proteksionist tədbirlərlə müdafiə olunmuş sahələrə axması təhlükəsi meydana çıxa bilər ki, bu da sonradan həmin sahələrə münasibətdə xarici ticarətin liberallaşdırılması üzrə müvafiq addımları çətinləşdirmiş olar. İslahatların həyata keçirilməsinin bu taktikasının seçilməsi istehsalın miqyasını artırmaqla qənaət əldə edilməsi mümkün olan sahələrdə daha iri

iqtisadi məsrəflərə gətirib çıxara bilər. Belə olduğu halda xarici ticarət rejimi şəraitində bu növ islahatların tələb olunan optimal həcmlərdə qurulması üçün kifayət qədər təsirli stimullar mövcud olmadığından son nəticədə sərf edilmiş irihəcmli investisiyaların səmərəliliyinə nail olunması çətinləşir. Bundan əlavə, bu zaman inkişaf etdirilən, yaxud yeni qurulan infrastruktur obyektlərinin (avtomobil və dəmir yolları, limanlar, elektrik və istilik təchizatı sistemləri, telekommunikasiyalar) xarici ticarətin liberallaşdırılması zamanı formalaşacaq tələbini və istehsalın xarakterinə tam şəkildə uyğunluğunu təmin etmək də mümkün olmur. Bu isə investisiyaya resursların əlavə itkisinə gətirib çıxarır.

Məlum olduğu kimi, xarici iqtisadi sferanın liberallaşdırılması nə-ticəsində istehsalın formalaşacaq strukturunun proqnozlaşdırılması kifayət qədər mürəkkəb və çətin bir prosesdir. İslahatlar dövrünü yaşamış ölkələrin təcrübəsindən göründüyü kimi, qeyd edilən siyasətin yeridilməsi nəticəsində bəzi ölkələrdə əvvəllər tamamilə mövcud olmayan, yaxud zəif fəaliyyət göstərən yeni iri istehsallar meydana çıxmağa başlamışdır. Bunlara misal olaraq Çilidə təzə meyvə ixracatı üzrə istehsalları və s. Göstərmək olar.

Həmin bu səbəblər ümumiqtisadi islahatların xarici ticarət siyasəti üzrə islahatlarla müqayisədə daha üstün sürətlə liberallaşdırılması özü də bir sıra mənfi cəhətlərə malikdir. Belə ki, islahatlar bu yönümdə həyata keçirildikdə milli istehsalçıların formalaşmaqda olan yeni iqtisadi münasibətlərə uyğunlaşması daha kəskin rəqabət mübarizəsi şəraitində baş verir. Ölkə iqtisdaiyyatı çərçivəsində bazar mexanizminin zəruri elementləri, müvafiq bazar infrastrukturu, təşəkkül tapmaqda olan yeni iqtisadi münasibətlərə adekvat dövlət tənzimlənməsi sistemi formalaşmadan, istehsal və ticarət infrastrukturu təkmilləşdirilmədən, milli istehsalçıları rəqabət mühitinə alışdırmadan, əsasən köhnə istehsal aparatı ilə sürətlə açıq xarici ticarət rejiminə keçid mövcud yerli istehsalın mövqelərinin itirilməsinə və tənəzzülünə gətirib çıxara bilər. Qısaca şərh etməyə çalışdığımız bu səbəblər üzündən xarici ticarət sahəsindəki islahatların bir qayda olaraq ümumi iqtisadi islahatlarla paralel şəkildə, üzvi vəhdətdə həyata keçirilməsi daha məqsədəmüvafiq hesab edilir.

Məlum olduğu kimi, transformasiya dövrünü yaşayan ölkələrdə islahatların məzmununu inzibati amirlik iqtisadiyyatından azad iqtisadi münasibətlərə keçid təşkil edir. İnzibati amirlik iqtisadiyyatının əsas əlamətlərini onun planlı və «qapalı» olması, azad iqtisadiyyatın səciyyəvi cəhətlərini isə onun bazar mexanizminə istinad etməsi və «açıq» olması təşkil edir. Təcrübədən göründüyü kimi, bu növ islahatların aparılması zamanı üç mümkün variant nəzərdən keçirilə bilər:

- xarici sektorun üstün sürətlə liberallaşdırılması nəticəsində formalaşan – planlı «açıq» iqtisadiyyat modeli;

- daxili iqtisadi islahatların üstün sürətlə həyata keçirilməsi nəticəsində formalaşan – bazar münasibətlərinə əsaslanan «qapalı» iqtisadiyyat modeli;

- planlı və «qapalı» iqtisadiyyatdan total liberallaşdırma tədbirləri nəticəsində hər cəhətdən azad və «açıq» iqtisadiyyata keçidə əsaslanan iqtisadi model.

İndiyə kimi keçidin mümkün bu üç yolunun ikisindən artıq istifadə edilmişdir. Keçmiş Sovet İttifaqının mövcud olduğu son illərdə aparılan islahatlar zamanı müəssisələrin daxili bazarda öz aralarında ticarət əlaqələri qurmalarına məhdudiyyətlər saxlanıldığı bir şəraitdə onların xarici bazarlara çıxışı sərbəstləşdirilmiş, onun süqutundan sonrakı dövrlərdə artıq müstəqil dövlətlər tərəfindən həyata keçirilən islahatlar zamanı isə həmin bu məhdudiyyətlər aradan qaldırılmış və dünya iqtisadiyyatına inteqrasiya ilə paralel olaraq bazar münasibətlərinin qurulması inkişafın əsas istiqaməti kimi qəbul edilmişdir.

Xarici ticarətin liberallaşdırılması üzrə tədqiqatlardan göründüyü kimi, ümumiqtisad islahatların həyata keçirilməsindən əvvəl ticarətin liberallaşdırılması, başqa cür desək, xarici iqtisadi sferadakı islahatların daxili islahatlarla müqayisədə daha sürətlə həyata keçirilməsi səmərəli tələbin formalaşmasına təkan verməklə yanaşı, xarici iqtisadi əməkdaşlığın zəruri infrastrukturunun qurulması və xidmətlərin inkişafı üzrə işləri də sürətləndirə bilər və bu proseslərin, tədbirlərin nəticəsi olaraq iqtisadiyyatda hiss edilən müsbət impulslar bütün siyasi qüvvələrin hərtərəfli iqtisadi islahatlara yardım mövqeyindən çıxış etməsini təmin edə bilər. Lakin nəzərdən qaçırılmamalıdır ki, hadisələrin bu cür təkamülü daha çox idxalı əvəzetmə rejimində fəaliyyət göstərən, antiixrac meyilli təsərrüfatlarda aparılan islahatların tələblərinə cavab verir.

Bunun əksinə olaraq, ümumiqtisadi islahatların prioritetliyinin qəbul edilməsi, daxili bazarın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istehsalın kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsinə, nəticə etibarı ilə milli iqtisadiyyatın səmərəliliyinin artırılmasına imkan verməklə, yerli islahatların dövlət himayəsinə o qədər də arxalanmadan həm daxili, həm də xarici bazarlarda rəqabətə cəlb olunması üçün əlverişli şəraiti təmin edə bilər. Bu isə daha çox ixracyönümlü təsərrüfata malik olan ölkələrdə aparılan islahatların uğurlu nəticələrinin əldə edilməsinə imkan verə bilər.

Buradan belə nəticəyə gəlmək olar ki, müasir dövrdə keçid iqtisadiyyatlı ölkələrdə, ilk növbədə, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsində iqtisadi vasitələrin üstünlüyü təmin olunmaqla tədiyyə balansının möhkəmləndirilməsi məqsədilə ixracın stimullaşdırılması üzrə tədbirlər görülməlidir. Sonra isə səmərəli ixrac üçün ümumi yardımı saxlamaqla ixracyönümlü istehsalın daha perspektivli sahələrini müəyyən etmək və bu istiqamətdə ixtisaslaşan sahələrdə stimullaşdırma sistemini formalaşdırmaq, tədiyyə balansının yaxşılaşdığı halda isə daxili bazarın

müdafiəsi tədbirlərini yumşaltmaq lazımdır. Bundan sonra isə ixracyönümlü istehsal kompleksinin yaradılması və ixracın stimullaşdırılması istiqamətində tədbirlər genişləndirilməli və xarici iqtisadi fəaliyyətin milli tənzimlənmə sistemi beynəlxalq hüquq normalarına və dünya təcrübəsində qəbul olunmuş prinsiplərə uyğunlaşdırılmalıdır.

Bu zaman nəzərə almaq lazımdır ki, getdikcə çoxalan sayda ölkələrdə xarici iqtisadi əlaqələrin liberallaşması prosesinin güclənməsi əsasında milli iqtisadiyyatların qarşılıqlı asılılığının artması və bir çox istehsalçıların beynəlxalq dövriyyəyə cəlb olunması qlobal miqyasda daha səmərəli əmək bölgüsü, habelə istehsal güclərinin yerləşdirilməsindəki disproporsiyaların aradan qaldırılması üçün yeni imkanlar açır. Məsələ ondadır ki, inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş sənaye ölkələri arasındakı «məsrəflər-qiymətlər» nisbətindəki fərq, sonuncu qrupa daxil olan ölkələr arasındakı müvafiq göstəricidən orta hesabla 2 dəfə çoxdur. Buna görə də inkişaf etmiş sənaye ölkələrilə inkişaf etməkdə olan ölkələr arasındakı müvafiq məhsulların istehsalı üzrə ixtisaslaşma əsasında əmək bölgüsünün inkişaf etdirilməsindən əldə edilən səmərə, prinsip etibarı ilə, inkişaf etmiş ölkələrin özləri arasında əmək bölgüsünün dərinləşdirilməsinin səmərəliliyindən daha artıqdır.

İnkişaf etməkdə olan regionların əsas üstünlüklərinə, məlum olduğu kimi, işçi qüvvəsinin ucuzluğu, yeyinti və yüngül sənaye sahələrində istehlak olunan ilkin məhsulların və yarımfabrikatların istehsalı üçün çox əlverişli, bəzi hallarda isə nadir iqlim şəraitinin olması, yer təkinin zənginliyi aid edilə bilər. Ən böyük çatışmazlıqları isə ixtisaslı kadrların və investisiya resurslarının qıtlığıdır. Göstərilənlər bu ölkələrin beynəlxalq ixtisaslaşmada mövqelərini aqrar xammalın və mineral ehtiyatların istehsalçısı və ixracatçısı kimi müəyyən edir. Belə ki, həmin sahələr əmək tutumlu olmaqla yanaşı, nə yüksək ixtisaslı işçi qüvvəsini, nə də mütəmadi iri investisiya qoyuluşlarını tələb edir. İnkişaf etmiş sənaye ölkələri isə əksinə, müasir tələblərə cavab verən işçi qüvvəsi və izafi investisiya resurslarına malik olduqlarından kapital və elmi tutumlu istehsallar üzrə ixtisaslaşırlar.

Qlobal əmək bölgüsünün bu sistemi sabit xarakter daşımır və heç də inkişaf etməkdə olan ölkələrin aqrar-xammal əlavəsi buxovundan qurtulması üçün imkanların olmadığına dəlalət etmir. Əksinə, bu sistem aşağıdakı səbəblər üzündən çox dinamik və dəyişkəndir: birincisi, ETT-nin durmadan sürətlənməsi və bu prosesin təkanverici qüvvəsinin inkişaf etmiş ölkələrin olması; ikincisi, bu qrup ölkələrdə həyat səviyyəsinin mütəmadi yüksəlməsi, əksər hallarda əmək məhsuldarlığını üstələyən templərlə əməkhaqqının artımı səbəbilə, əsasən sadə texnologiyalar bazasında istehsal edilən malların və xidmətlərin qiymət üzrə beynəlxalq miqyasda rəqabət qabiliyyətinin aşağı düşməsi.

Qeyd edilənlər həmin ölkələrin sahibkarlarını ölkə iqtisadiyyatının aşağı texnoloci qatında yerləşən islahatları, yaxud onların bəzi mərhələlərini daha zəif inkişaf etmiş ölkələrə köçürməyə təhrik edir. Ekoloji təhlükəsizlik standartlarının yüksəlməsi, onlara riayət edilməsi ilə əlaqədar xərclərin artımı da ekoloji cəhətdən əlverişsiz istehsal məsrəfləri tərkibində təbiəti müdafiə xərclərinin xüsusi çəkisi kifayət qədər aşağı olan, ətraf mühitin müdafiəsinə çox ciddi tələblər qoymayan inkişaf etməkdə olan ölkələrə köçürülməsinə də təkan verir.

Qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyət strategiyasını müəyyənləşdirmək üçün ölkənin beynəlxalq əmək bölgüsündəki üstünlükləri, daxili tələbat və mövcud iqtisadi potensial əsas götürülərək məqsədlər sistemi formalaşdırılmalıdır. Bu zaman əməli fəaliyyət üçün ən yaxşı metodiki üsul, ölkədaxili proseslərin Dünya Təsərrüfat Sisteminin inkişaf meyilləri və qanunauyğunluqları ilə uzlaşdırılması hesab olunmalıdır.

Beləliklə, bu qənaətə gəlirik ki, müasir dövrdə milli iqtisadiyyatın təşəkkülü şəraitində xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi aşağıdakı metodoloci prinsiplər nəzərə alınmaqla həyata keçirilməlidir:

- ölkədə dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olunmuş, açıq iqtisadi sistemin formalaşdırılması məqsədilə xarici iqtisadi siyasət sahəsində qərarların qəbul edilməsi zamanı ÜTT-nin tələblərinin, habelə əlaqədar beynəlxalq hüquq normalarının nəzərə alınması;
- tənzimlənmənin iqtisadi vasitələrinə üstünlük verilməsi ilə yanaşı, keçid dövründə dövlətin əlahiddə tənzimləyici rolunun nəzərə alınması;
- xarici iqtisadi fəaliyyət üzərində dövlət inhisarının yolverilməzliyi;
- xarici iqtisadi siyasətin vahidliynin, ardıcıllığının və proqnozlaşdırıla bilən olmasının təmin edilməsi (ancaq bu halda ayrı-ayrı tədbirlərin qarşılıqlı gücləndirici effektinə nail olmaq olar);
- xarici iqtisadi əlaqələrin mövcud vəziyyətinin obyektiv qiymətləndirilməsi və inkişafının konkret şəraitə adekvat proqnozlaşdırılması;
- dünya iqtisadiyyatında baş verən qlobal prosesləri, dünya təsərrüfat sisteminin və milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərini, perspektivlərini nəzərə almaqla məqsədlərin və ya hədəflərin ardıcıllığının düzgün müəyyənləşdirilməsi (məqsədlər sırasının konkret şəraitdən asılı olaraq dəqiqləşdirilməsi istisna edilməməklə);
- xarici iqtisadi fəaliyyət sahəsindəki islahatların ümumiqtisadi islahatlar və dünya təsərrüfat sistemində gedən proseslərlə uzlaşdırılması;
- müstəqil milli iqtisadiyyatın formalaşdırılması zərurəti ilə əlaqədar olaraq ölkə iqtisadiyyatının mütərəqqi struktur şəkildə yenidən qurulması və onun beynəlxalq əmək bölgüsündə üstünlüklərinin reallaşması üçün əlverişli şəraitin yaradılması;
- iqtisadi, sosial və ekoloji siyasətin dünya standartlarına uyğunlaşdırılması.

Qeyd etmək lazımdır ki, müasir dövrdə hər hansı bir ölkədə xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin səmərəli milli mexanizminin qurulması istiqamətində atılan addımlar beynəlxalq ticarət-iqtisadi əlaqələrin tənzimlənməsinin ümumi qaydalarını nəzərə almalı və çoxtərəfli beynəlxalq sazişlərin tənzimləmə alətlərinə, onların tətbiqi sahəsindəki norma və qaydalara, onlardan istifadə imkanlarına qoyulan tələblərə cavab verməlidir.

Bu baxımdan, ilk növbədə, ÜTT və GATT/TTBS (Tarif və Ticarət üzrə Baş Saziş) çərçivəsində çoxtərəfli beynəlxalq tənzimlənmə sisteminin baza prinsiplərinə diqqət yetirilməlidir. Bunlar milli tənzimləmə sistemlərinin qurulması və fəaliyyətinin universal prinsipləri kimi çıxış etməklə rəqabət aparan bu sistemlərin qarşılıqlı səmərəli fəaliyyət göstərmələrinə imkan yaradır.

Bütövlükdə, çoxtərəfli sazişlər sisteminin əsaslandığı ən vacib prinsiplərə aşağıdakıları aid etmək olar: diskriminasiyaya yol verilməməsi və transparentlik.

Diskriminasiyaya yol verilməməsi prinsipi malların və xidmətlərin azad rəqabəti üçün bərabər şəraitin yaradılması zərurətindən irəli gəlir və beynəlxalq ticarətin tənzimlənməsinin iki əsas prinsipi ilə şərtlənir: Ən Əlverişli Rejim (ƏƏR) və Milli Rejim (MR).

ƏƏR prinsipi GATT-47-nin I maddəsində və GATT-94-də birbaşa şəkildə müəyyən olunmuşdur: «Razılığa gələn tərəflərdən birinin hər hansı digər ölkədən gələn, yaxud həmin ölkəyə gedən istənilən mala münasibətdə müəyyən etdiyi (təqdim etmiş olduğu) hər hansı üstünlük, əlverişli şərait, imtiyaz və ya immunitet razılığa gələn bütün digər tərəflərin ərazilərindən gələn, yaxud onların ərazilərinə gedən eyni cür (analoci) mala da dərhal və şərtsiz qaydada təqdim olunmalıdır». Göründüyü kimi, ƏƏR dedikdə, hər hansı üçüncü ölkəyə verilmiş istənilən güzəştin bu cür rejim təqdim olunmuş ölkəyə də aid edilməsi başa düşülür. Başqa sözlə desək, ƏƏR prinsipi ayrıca götürülsə də daha əlverişli ticarət rejiminin təqdim olunmasına yol vermir. ƏƏR ilk dəfə olaraq XIX əsrdə İngiltərə ilə Fransa arasında bağlanmış 1860-cı il tarixli Ticarət Sazişi çərçivəsində tətbiq olunmuşdur.

TTBS, sonradan isə həm hə ÜTT çərçivəsində ƏƏR şərtsiz xarakter daşıyır, yəni həmin rejim çərçivəsində güzəştlərin bütün ölkələrə aid edilməsi heç bir şərtdən asılı ola bilməz və üzv-ölkələr müvafiq maddəni tam həcmdə tətbiq etməyə borcludurlar.

ƏƏR prinsipi, hər şeydən əvvəl, gömrük rüsumlarının tətbiqini tənzimləyən qayda kimi meydana çıxmış, sonralar isə getdikcə universal xarakter kəsb etmişdir. QATT müddəaları çərçivəsində bu prinsip idxal olunan mallara daxili vergilərin və yığımların tətbiqi, habelə, həmin malların daşınması, satışı, bölgüsü və istifadəsi qaydalarına birbaşa şəkildə aid edilirdi. Hal-hazırda isə, bu prinsip çoxtərəfli razılaşmaların əksər ele-

mentlərinə münasibətdə tətbiq edilir. Bunların sırasında gömrük rüsumlarının, tranzit qaydalarının, vergi alətlərinin, texniki maneələrin, kəmiyyət məhdudiyyətlərinin tətbiqini göstərmək olar. Bundan əlavə, ƏƏR prinsipi Xidmətlərlə Ticarətə dair Baş Sazişin (QATS) və İntellektual Mülkiyyət Hüquqlarının Ticarət Aspektləri haqqında Sazişin (TRİPS) də əsasında durur.

Onu da qeyd etmək zəruridir ki, ÜTT çərçivəsində ƏƏR prinsipindən bir sıra standart istisnalar da nəzərdə tutulmuşdur. Ənənəvi olaraq bunlara gömrük ittifaqlarının və sərbəst ticarət zonalarının qurulması, sərhədyanı və sahilyanı ticarət, inkişaf etməkdə olan, son dövrlərdə isə həm də keçid iqtisadiyyatlı ölkələrə verilən qarşılıqlı olmayan preferensiyalar aid edilir. Bu cür güzəştlər spesifik xarakter daşıyır, bu səbəbdən də ancaq məhdud şəkildə tətbiq oluna bilir.

ƏƏR prinsipindən ənənəvi istisnalara inkişaf etməkdə olan və ən az inkişaf etmiş ölkələr üçün xüsusi rejimin müəyyən edilməsi təcrübəsini də aid edirlər. Bu təcrübə GATT çərçivəsində aparılan danışıqların «Kennedi raundu»nun sazişləri ilə müəyyən olunmuşdur.

Baxılan halda ƏƏR-dən istisnalar müxtəlif formalarda təzahür edə bilər. Ənənəvi forma preferensiyaların milli sistemləri çərçivəsində preferensial gömrük rüsumları tətbiq edilmişdir. Digər sahələrdə bu, bir qayda olaraq, tənzimləmənin müxtəlif alətlərinin tətbiqi qaydalarına münasibətdə göstərilən ölkələrə qarşı daha yumşaq tələblərin (subsidiyalardan istifadə üçün daha geniş imkanlar, milli qanunvericiliyin və onun tətbiqi təcrübəsinin çoxtərəfli sazişlərin normalarına uyğunlaşdırılması üçün daha uzun keçid dövrü və s.) irəli sürülməsində özünü büruzə verir. Son illərdə diferensiallaşdırılmış və əlverişli rejimin elementləri keçid iqtisadiyyatlı ölkələrə də tətbiq olunmağa başlanmış və bu da öz əksini Uruqvay raundunun sazişlərində tapmışdır.

Milli rejim prinsipi GATT – 47-nin Ş maddəsində və GATT-94-də birbaşa şəkildə müəyyən olunmuşdur: «Razılığa gələn hər bir tərəfin ərazisinə gələn və razılığa gələn digər tərəfin ərazisinə gətirilən mallara, onların daxili bazarda satışına, satışa təklifinə, alınmasına, daşınmasına, bölgüsünə, yaxud istifadəsinə aid olan bütün qanunlar, qaydalar və tələblərə münasibətdə milli mənşəli analoci mallar üçün müəyyən olunmuş rejimdə az əlverişli olmayan rejim təqdim olunmalıdır». Başqa sözlə desək, MR prinsipi xarici mallara, xidmətlərə, kapitallara və şəxslərə münasibətdə tətbiq olunan hüquqi rejimlə eyni, yaxud ondan az əlverişli olmayan rejimin təqdim olunmasını nəzərdə tutur. MR prinsipinin tətbiqində məqsəd, tənzimlənmənin daxili tədbirləri vasitəsilə xarici malların (xidmətlərin, kapitalın) diskriminasiyasının qarşısını almaq, son nəticədə isə idxalın tənzimlənməsi vasitələrini malın gömrük tənzimlənməsi zamanı sərhəddə tətbiq olunan tarif, qeyri-tarif və vergi tədbirlərini hüdudlandırmaqdır.

Xarici iqtisadi əlaqələrin genişlənməsinə ticarət, işçi qüvvəsinin beynəlxalq miqrasiyası, intellektual mülkiyyət obyektləri ilə ticarət kimi formaların əhəmiyyətinin artmasına mütənasib olaraq MR prinsipinin rolu da artmışdır. Göstərilən sahələrdə daxili tənzimləmə tədbirləri ənənəvi ticarətlə müqayisədə daha güclü təsirə malikdir. Məsələn, bir çox peşəkar xidmətlərlə ticarət əməliyyatları (rabitə xidmətləri, hüquqi, tibbi və tikinti xidmətləri) sırf xarici iqtisadi tənzimlənmə tədbirlərindən, demək olar ki, asılı deyillər. Baxılan halda müvafiq fəaliyyət sferasını tənzimləyən daxili qaydalar və normalar, müəyynədici rol oynayan və məhz həmin bu ümumi qaydalar başlıca proteksionist alətləri kimi çıxış edirlər.

Mallara ticarətdə MR prinsipinin tətbiq ounduğu ən vacib sahələrə – daxili vergilərin və yığımların tutulması, mallın satış qaydaları, nəql edilməsi və istifadəsi aid edilir. MR prinsipi universal xarakter daşıdığından xidmətlərlə ticarətə və xarici investorların fəaliyyətinin tənzimlənməsinə də tətbiq oluna bilər. Lakin məlumdur ki, göstərilən istiqamətlərdə müəyyən fəaliyyət sferasına xarici şəxslərin daxil olması milli təhlükəsizliyin təmin edilməsi baxımından qadağan edilə bilər. Məhz bu səbəbdəndir ki, həmin sferalarda (xidmətlərlə ticarət, xarici investisiyanın tənzimlənməsi) MR prinsipi geniş yayılmış və adətən ayrı-ayrı sahələrə münasibətdə fərqli şəkildə tətbiq edilir. Eyni zamanda texnologiyalarla və elmi-texniki birliklərə ticarət və xüsusilə də intellektual mülkiyyət sahiblərinin hüquqlarının müdafiəsi sahələrində MR prinsipi baza xarakteri daşıyır.

MR prinsipindən istisnalar da nəzərdə tutula bilər ki, bunlara da, ilk növbədə, hökumət subsidiyalarının verilməsi və dövlət satınalmalarının həyata keçirilməsi sahələri aid edilir, milli qanunvericiliyin yerli sahibkarlar üçün daha əlverişli şəraitin yaradılmasına istiqamətlənən ayrı-ayrı normaları üzrə də istisnalar nəzərdə tutula bilər.

Transprentlik prinsipi xarici ticarətin tənzimlənməsi sisteminin şəffaflığının təmin edilməsi zərurətindən irəli gəlir və geniş planda – tənzimlənmə tədbirləri haqqında məlumatın əldə edilməsinin mümkünlüyünü, həmin tənzimlənmə tədbirlərinin, habelə onların tətbiqi qaydalarının aydınlığını və birmənalığını nəzərdə tutur.

Ən aydın şəkildə transprentlik prinsipi GATT-47-nin X maddəsində və GATT-94-də müəyyən edilmişdir. Transpretliyin əsas elementlərinə aşağıdakılar aid edilir:

- dövlət tənzimlənməsi tədbirləri haqqında məlumatın əldə edilməsinin mümkünlüyü;
- tənzimlənmənin istənilən tədbirlərinin yalnız dərc olunduqdan sonra tətbiq edilməsi;
- tənzimlənmə tədbirlərinin eyni şəkildə tətbiqi;
- hakimiyyət orqanlarının fəaliyyətindən şikayət edilməsinin mümkünlüyü;

- notifikasiya – çoxtərəfli sazişlər çərçivəsində maraqlı tərəflərin tənzimlənmə sistemləri barədə məlumatlandırılması,

- çoxtərəfli sazişlərin tətbiqi üzərində nəzarət aparan orqanların rəsmi xəbərdar edilməsi yolu ilə həyata keçirilir;

- mübahisələrin həlli sistemi çərçivəsində transprentliyin təmin edilməsi ilə əlaqədar tədbirlərin (məsləhətləşmələr, maraqlı tərəflərə məlumatın verilməsi);

- qərarların tətbiq edilməsi prosedurlarının şəffaflığı.

Müəyyən hallarda (məsələn, tam şəffaflıq tərəflərdən birinin hüquqlarının pozulmasına gətirib çıxara bildikdə, kommersiya sirrinin açılması təhlükəsi ortaya çıxdıqda və s.) transprentlik prinsipindən istisnalara da yol verilə bilər. Bu hallar çoxtərəfli ticarət sazişləri ilə müəyyən edilir.

Hazırda ÜTT çərçivəsində ticarət-iqtisadi əlaqələrin beynəlxalq tənzimlənmə sistemi aşağıdakı sahələri əhatə edir:

**Gömrük-tarif tənzimlənməsi.** Bu sahədə əsas alətlər kimi aşağıdakılar çıxış edir:

- iştirakçıların tarif dərəcələrinin əlaqələndirilməsi üzrə öhdəlikləri;

- müntəzəm çoxtərəfli danışıqlar mexanizmi.

Gömrük rüsumlarının azaldılmasına dair danışıqların aparılması qaydaları, eləcə də tarif güzəştləri siyahılarının hazırlanması və dəyişdirilməsi qaydaları GATT-47-nin XXVII və XXVIII maddələrində müəyyən edilmişdir. GATT-ın gömrük-tarif tənzimlənməsi məsələlərinə dair maddələri tez-tez düzəlişlərə və əlavələrə məruz qalmışdır. Bir sıra mühüm dəyişikliklər XXXVI və XXXVII maddələrin daxil edilməsi ilə əlaqədardır. Həmin maddələrdə inkişaf etməkdə olan ölkələrin öz iqtisadiyyatlarını müdafiə etmək məqsədilə gömrük rüsumlarını artırmaq hüquqları təsbit edilmiş, həmçinin inkişaf etmiş dövlətlərin inkişaf etməkdə olan dövlətlərdən idxal olunan mallara gömrük rüsumlarını azaltmaq sahəsində öhdəlikləri müəyyən edilmişdir.

**Kəmiyyət və inzibati məhdudiyyətlərin tətbiqi.** GATT-47-nin XI maddəsi (həm ixraca, həm idxala məhdudiyyətlərə aiddir) xüsusi hallar istisna olmaqla gömrük rüsumlarından, vergilərdən və digər yığımlardan savayı, kəmiyyət məhdudiyyətlərinin və istənilən digər tədbirlərin (o cümlədən lisenziyalar şəklində) tətbiqindən imtina edilməsini nəzərdə tuturdu. Bu müddəalar GATT-94-də də saxlanmış və başqa sözlə desək, kənd təsərrüfatı malları ilə ticarət sahəsindəki dəyişikliklər və tədiyyə balansının nizama salınması üzrə qeydlər nəzərə alınmaqla ÜTT çərçivəsində də fəaliyyət göstərməkdədir.

GATT-47-nin XŞ maddəsi və GATT-94 kəmiyyət məhdudiyyətlərinin tətbiqinin əsas prinsipi kimi diskriminasiyaya yol verməmək prinsipini müəyyən edir və bu əsasda onların tətbiqi qaydalarını təsbit edir.

Uruqvay raundu sazişləri çərçivəsində bütün kəmiyyət məhdudiyyətlərinin ləğv edilməsi haqqında (onlardan qoruyucu tədbirlər keyfiyyə-

tində istifadə halları istisna olmaqla) razılıq əldə edilmişdir. Bu, ilk növbədə kənd təsərrüfatı üzrə sazişə aiddir. Toxuculuq məmulatları və geyim əşyaları üzrə saziş kəmiyyət məhdudiyyətlərinin 10 il ərzində, toxuculuq məmulatları ilə ticarət öhdəliklərinin ümumi sisteminə 4 mərhələli inteqrasiyası gedişində ləğv edilməsini nəzərdə tutur. Kənd təsərrüfatı üzrə saziş isə kəmiyyət məhdudiyyətlərinin 1995-ci illərin əvvəlindən dərhal aradan qaldırılması və onların tarif ekvivalentlərinə köçürülməsini nəzərdə tuturdu. Məhz bunun nəticəsində baxılan sektordan tarif dərəcələrinin səviyyəsi sənaye məhsulları və ticarətlə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir.

**İdxalın (ixracın) inhisarçı kanalının (dövlət inhisarının) tətbiqi.** Xarici ticarət sahəsində dövlət inhisarından ayrı-ayrı mallarla ticarət əməliyyatlarının tənzimlənməsi vasitəsi kimi istifadə edilməsi dünya ticarətinin çoxtərəfli tənzimlənməsi sisteminin tələbləri ilə ziddiyyət təşkil etmir. İdxalın (ixracın) inhisarçı kanalı sisteminin tətbiqinin əsas prinsipləri GATT-ın XVII maddəsində nəzərdə tutulmuşdur. Belə ki, inhisarçı lisenziyaya malik müəssisələr (o cümlədən dövlətin mülkiyyətində olan) bu və ya digər mal ilə ticarətdə qəbul olunmuş ümumi prinsiplər və qaydalar əsasında fəaliyyət göstərməli, habelə malları tələb və təklifin nisbəti ilə müəyyən olunan qiymətlərlə almalı və satmalıdırlar. Göründüyü kimi, inhisarçı lisenziyaya malik olan müəssisələr onların tərəf müqabili, yaxud rəqibi ola bilən istənilən hər hansı bir müəssisə ilə eyni şərtlər daxilində fəaliyyət göstərməlidirlər.

**Qadağanların tətbiqi.** İdxal və ixrac qadağanlarının tətbiqinin ümumi prinsipləri kəmiyyət məhdudiyyətləri üçün müəyyən olunmuş prinsiplərlə eynidir. İdxala və ixraca qadağanlara GATT-47-nin XI maddəsinin müddəaları şamil edilir ki, burada da sazişlərdə nəzərdə tutulmuş hallar istisna olmaqla, qadağanların tətbiqinin yolverilməz olduğu birbaşa bildirilir. Bu istisnalar (tədiyyə balansı və qoruyucu tədbirlərin tətbiqi ilə əlaqədar məhdudiyyətlərdən savayı) kəmiyyət məhdudiyyətlərinin tətbiqi sahəsindəki istisnalarla eynidir. Göründüyü kimi, təcrübədə qadağanların tətbiq edilməsi üçün əsas kimi texniki maneələr çıxış edir. Bundan əlavə, GATT-47-nin XTS maddəsi aşağıdakı məqsədlərlə də qadağanların və məhdudiyyətlərin tətbiq edilməsinə yol verir:

- ictimai əxlaqın qorunması;
- insanların, heyvanların və bitkilərin həyat və sağlamlığının müdafiəsi;
- GATT-ın müddəalarına zidd olmayan qanunlara riayət edilməsi;
- patentlərin müəlliflik hüquqlarının qorunması;
- hökumətlərarası mal mübadiləsi sazişləri üzrə öhdəliklərin yerinə yetirilməsi;
- təbii ehtiyatlarının tükənməsinin qarşısının alınması (əgər müvafiq tədbirlər daxili istehsalın və istehlakın məhdudlaşdırılması ilə eyni zamanda aparılırsa);

- milli bədii, tarixi və arxeoloci sərvətlərin mühafizəsi.

Həmin maddəyə uyğun olaraq milli emaledici sənayenin yerli materiallarla, bu materialların daxili qiymətinin dünya qiymətindən aşağı olduğu dövrlərdə, təmin edilməsi məqsədilə onların ixracına məhdudiyyətlərin tətbiq edilməsi də nəzərdə tutulmuşdur. Lakin o da qeyd olunur ki, bu cür məhdudiyyətlər ixracın artımı, yaxud həmin daxili sənayenin müdafiəsi üçün şərait yaratmalıdır. Bundan əlavə, baxılan maddəyə uyğun olaraq həbsdə olan şəxlərin əməyi ilə istehsal olunan mallara, qızıl və ya gümüşlə ticarətə də müvafiq tədbirlər tətbiq oluna bilər.

Qadağanlar ayrı-seçkilik əsasında, yaxud diskriminasiyaya yol verən şəkildə tətbiq edilməməli və beynəlxalq ticarət gizli əngəl vasitəsi kimi çıxış etməməlidir.

**Lisenziyalaşdırmanın tətbiqi.** GATT-47-nin müddəaları (maddə XI) idxal və ixrac lisenziyaları da daxil olmaqla istənilən məhdudiyyət və qadağanlardan istifadə edilməsini yasaqlayır. Başqa sözlə, GATT-47-də lisenziyalaşmanın tətbiqi qaydaları bütövlükdə kəmiyyət məhdudiyyətlərinin tətbiqi üçün müəyyən olunmuş qaydalarla eyni idi. ÜTT-nin təsis edilməsi haqqındakı Saziş çərçivəsində idxala lisenziya verilməsinə dair daha müfəssəl qaydalar nəzərdə tutulmuşdur. Bu Saziş lisenziyalaşdırmanı ən geniş mənada şərh edir və onu gömrük rəsmiləşdirməsi zamanı adətən təqdim olunmayan xüsusi müraciətlərin, yaxud sənədlərin təqdim edilməsini nəzərdə tutan bir inzibati prosedur kimi müəyyən edir.

Saziş müddəalarına riayət edilməsinin təmin edilməsi üçün iştirakçı ölkələrin daxili qanunvericiliyinin mütləq şəkildə həmin müddəalara uyğunlaşdırılması nəzərdə tutulmuş və dövlətlərin iştirakçı razılığı olmadan istisnaların yolverilməz olduğu müəyyən edilmişdir.

**«Boz zona» tədbirlərinin tətbiqi.** Ticarət siyasəti sahəsində beynəlxalq öhdəliklər sisteminin formalaşması və genişlənməsi, xüsusilə proteksionizm imkanlarının məhdudlaşdırılması bir çox dövlətləri xarici iqtisadi fəaliyyəti tənzimləmə sistemlərini təkmilləşdirmək məcburiyyəti ilə üzləşdirdi. Nəticə etibarı ilə çoxtərəfli sazişlər çərçivəsində müəyyən olunmuş öhdəliklərdən yan ötməklə ticarət məhdudiyyətinin tətbiqi təcrübəsi yayılmağa başlandı. Belə məhdudiyyətlər demək olar ki, heç vaxt qanunvericiliklə təsbit olunmur, yalnız ayrı-ayrı hallarda ikitərəfli sazişlər formasında (bəzən hətta qeyri-rəsmi xarakterli) təzahür edir. Məhz bu səbəbdən də ticarətin məhdudlaşdırılmasının bu cür vasitələri «boz zona tədbirləri» adı ilə tanınır. Həmin tədbirlər arasında ixracın «könüllü» məhdudlaşdırılması xüsusilə geniş yayılmışdır ki, bu da kvotalaşdırma mexanizmini rəsmi şəkildə tətbiq etmədən kifayət məhdudiyyətlərindən istifadə edilməsinə imkan verir.

«Uruqvay raundu» sazişləri ixracın «könüllü» məhdudlaşdırılması tədbirlərindən istifadə sahəsində iştirakçı ölkələrə qarşı ciddi öhdəliklər irəli sürür. Qoruyucu təlbirlər üzrə Sazişin 11-ci maddəsində iştirakçı öl-

kələrin ixracın «könüllü» məhdudlaşdırılması, ixraca və ya idxala münasibətdə digər oxşar tədbirlərin tətbiqi, yaxud qorunub saxlanılması cəhdlərindən, o cümlədən ixracın məhdudlaşdırılmasından, ixrac və ya idxal qiymətləri, habelə ixrac və ya idxal üzərində müşahidə üzrə tədbirlərin tətbiqindən, idxalın kartelləşdirilməsindən, ixracın, yaxud idxalın selektiv lisenziyalaşdırılmasından çəkinəcəkləri birbaşa şəkildə nəzərdə tutulmuşdur. Bu Saziş qoruyucu tədbirlərin tətbiqi qaydalarına uyğun olaraq, yaxud ayrı-ayrı sektorlar üzrə sazişlər çərçivəsində (toxuculuq məmulatları və geyim əşyaları üzrə Saziş) görülmüş tədbirlərə şamil edilmir. Bütün bu cür tədbirlər və sazişlər ÜTT-nin təsis edilməsi haqqında Sazişin qüvvəyə mindiyi andan 4 il ərzində aradan qaldırılmalı, yaxud qoruyucu tədbirlər üzrə Sazişə uyğunlaşdırılmalıdır. Eyni zamanda iştirakçı ölkələr qeyri-hökumət səviyyəsində də, yəni ayrı-ayrı şirkətlərin sazişləri çərçivəsində də, müvafiq tədbirlərdən istifadə edilməsini stimullaşdırmayacaqları və dəstəkləməyəcəklərinə dair öhdəlikləri öz üzərlərinə götürürlər.

**Texniki mənafelərin tətbiqi.** Ticarətdə texniki maneələr üzrə Saziş texniki maneələrin bütün növlərinin ticarətin məhdudlaşdırılmasının mümkün metodları kimi nəzərdən keçirildiyi ilk çoxtərəfli hüquqi sənəddir. Bu Saziş GATT-ın tənzimləmə obyektini genişləndirərək ora yeni fəaliyyət sahəsinin standartlarını da əlavə etmişdir.

İştirakçı ölkələr texniki maneələrdən (texniki normalar, standartlar, sertifikatlaşdırma sistemi, qablaşdırma və işarələnməyə tələblər və s.) istifadə edərkən ƏƏR və MR prinsipinə riayət etməli və onlardan ticarətə süni əngəllər qurmaq vasitəsi kimi istifadə etməməlidirlər. Texniki məhdudiyyətlərin tətbiqi sahələrinə sanitar və fitosanitar normalar da aid edilir. Müvafiq tədbirlərin tətbiqinin ümumi prinsipləri texniki məhdudiyyətlər üçün müəyyən olunmuş prinsiplərlə (ƏƏR, MR) eynidir.

Sənəddə inkişaf etməkdə olan ölkələr üçün xüsusi istisnalar da nzərdə tutulmuşdur.

Qeyd etmək zəruridir ki, texniki mənafelərdən ticarətin tənzimlənməsi aləti kimi istifadə edilməsinin gələcəkdə daha da genişlənməsi və mürəkkəbləşməsi gözlənilir. Bu sahədə beynəlxalq ticarətin liberallaşdırma meyli isə, məhdudiyyətlərin növlərinin və onların tətbiq edildiyi malların sayının azalmasında deyil (əksinə, hər iki göstəricinin artması davam edəcək), texniki tələblərin və standartların, o cümldən onların tətbiqi qaydalarının unifikasiyası prosesində öz əksini tapacaq.

**Vergi alətlərinin tətbiqi.** Beynəlxalq ticarətin vəziyyətinə təsir edən daxili vergilərin və yığımların tətbiqi prinsipləri GATT-47-nin III maddəsində əks etdirilmişdir. Bunların arasında ən başlıcası MR prinsipidir. GATT-ın müddəaları daxili vergi və yığımlardan kompensasiya vasitəsi kimi istifadə edilməsinin mümkünlüyünü nəzərdə tutur, onların proteksionizm aləti kimi tətbiqinə isə qadağa qoyur. Ölkənin yerli mallara tətbiq olunan daxili vergi və yığımlarla eyni vergi və yığımları idxal edilən

analoci mallara tətbiq etməsi hüququ GATT-47-nin (uyğun olaraq da GATT-94-ün) II.2(a)maddəsində təsbit olunmuşdur. Baxılan halda söhbət idxal olunan mallara dolayı vergilərin tətbiqindən gedir. GATT-94-ün II.1(v) maddəsinin müddəalarının şərh edilməsinə dair razılaşmada gömrük rüsumlarından fərqli vergi və yığımların tətbiqi sahəsində iştirakçı ölkələrin əlavə öhdəlikləri müəyyən olunmuşdur. Bu sənəddə istifadə edilən «xarakter etibarı ilə isə gömrük rüsumlarına oxşar vergi və yığımlar» termini gömrük rüsumları kimi yalnız xarici mallara aid edilən vergilərə (məsələn, gömrük yığımları və s.) aid edilir.

İxrac olunan mallara vergi alətlərinin tətbiqi sahəsində qarşıya çıxan ən vacib problem vergi güzəştləri ilə ixracın subsidiyalaşdırılması arasında əlaqə məsələsidir. İxracatçıların birbaşa vergilərdən azad edilməsi beynəlxalq təcrübədə və ÜTT çərçivəsində bağlanmış sazişlərdə qadağan edilmiş ixrac subsidiyası kimi nəzərdən keçirilir və qarşı tərəfdən cavab tədbirlərinin tətbiqi üçün əsas götürülə bilər. Subsidiyalar və kompensasiya tədbirləri üzrə Saziş bu cür vergilərə mənfəətdən vergini, fiziki şəxslərin gəlir vergisini, icarə haqqını, royaltini (mədən vergisi), digər gəlirlərdən və əmlak vergiləri, əməkhaqqından vergini, faizlər üzrə ödənişləri aid edir. Vergi krediti formasında verilə bilən müvafiq vergi güzəştləri subsidiya kimi nəzərdən keçirilir.

İxrac olunan mallara vergi alətlərinin tətbiqi sahəsində hamı tərəfindən tanınan təcrübəyə görə ölkədən çıxarılan mallar dolayı vergilərdən, ilk növbədə ƏDV (əlavə dəyər vergisi), satışdan vergi, (aksizlər) azad edilir. Bu təcrübə GATT-94-ün XVI maddəsinin müddəalarında və adı çəkilən Sazişdə təsbit edilmişdir.

Həmin Sazişin 1-ci maddəsinə əsasən ixrac olunan malların daxili bazar üçün nəzərdə tutulmuş analoci mallara tətbiq olunan vergi və yığımlardan azad edilməsi, yaxud ixrac zamanı belə vergi və yığımların məbləğinin qaytarılması ixrac subsidiyası kimi nəzərdən keçirilmir. Bu zaman ixrac edilən malın azad edilmiş olduğu, yaxud ixracatçıya qaytarılmış vergilərin və yığımların məbləği, daxili bazar üçün nəzərdə tutulmuş analoci mala tətbiq olunan vergi və yığımların məbləğindən artıq olmamalıdır.

Qeyd etmək lazımdır ki, ixrac olunan malların dolayı vergilərdən azad edilməsi, ölkə istehsalı olan mallara tətbiq edilən vergi və yığımlara ekvivalent vergilərin idxal olunan analoci mallardan tutulmasının əsaslarından biri kimi çıxış edir.

**Qoruyucu tədbirlərin tətbiqi.** Qoruyucu tədbirlər – xarici mallar onlarla rəqabət aparan yerli istehsal sahələrinə əhəmiyyətli iqtisadi zərər vuran, yaxud bu cür zərəri vurma təhlükəsi törədən həcmdə və ya şərtlərlə idxal olunduqda idxalına müvəqqəti əsasda tətbiq olunan məhdudiyyətdir. Bu tədbirlərdən istifadə olunması qaydaları qoruyucu tədbirlər üzrə Sazişdə əks etdirilmişdir. Həmin sənəddə bu tədbirlərin tətbiqinin əsas

prinsipi, qoruyucu tədbirlər konkret malın idxalına bütövlükdə tətbiq olunmalıdır, təsbit olunmuşdur. Bu isə öz növbəsində onlardan istifadə edərkən diskriminasiyaya yol verilməməsinin təmin edilməsinə yönəldilmişdir.

Göstərilən Sazişin 3-cü maddəsinə uyğun olaraq yalnız səlahiyyətli orqanlar tərəfindən araşdırmalar apardıqdan sonra qoruyucu tədbirlərin tətbiqinə yol verilir. Öz növbəsində həmin araşdırmaların nəticələri elan edilməlidir. Araşdırma prosesində bütün maraqlı tərəflərə, o cümlədən açıq müzakirələr çərçivəsində, öz fikirlərini bildirmək üçün imkan Verilməlidir. Bunda məqsəd cəmiyyətin maraqları nöqteyi-nəzərdən qoruyucu tədbirlərin tətbiqinin məqsədəuyğunluğunun aşkara çıxarılmasıdır.

Sazişin 4-cü maddəsinə uyğun olaraq əhəmiyyətli zərər dedikdə, milli sahənin vəziyyətinin ciddi şəkildə ümumi pisləşməsi başa düşülür. Elə həmin maddəyə görə, əhəmiyyətli zərərin vurulma təhlükəsi anlayışı qaçılmaz olan zərər kimi müəyyən edilmişdir. Bu zaman zərər vurulması təhlükəsinin mövcudluğuna dair nəticələr fərziyyələrə deyil, faktlara əsaslanmalıdır.

**Antidempinq tədbirləri.** Dünya bazasında gedən rəqabət mübarizəsində ticarət məhdudiyyətlərinin əvəzinə, malların xarici bazarlara çıxarılması zamanı haqsız qiymət rəqabəti vasitələrindən (dempinq də daxil olmaqla) getdikcə artan miqyasda istifadə edilməsi antidempinq tədbirlərinin tətbiqinin zəruriliyini şərtləndirmişdir.

Antidempinq tədbirlərinin xarakterik xüsusiyyəti onlardan istifadə edən ölkənin tariflərin səviyyəsi sahəsindəki adi öhdəliklərdən və ƏƏR prinsipindən kənarlaşmasıdır. Çoxtərəfli öhdəliklər sisteminin sabitliyinin qorunması zərurəti isə bu cür ciddi tədbirlərin beynəlxalq səviyyədə tənzimlənməsi qaydalarının işlənməsini şərtləndirmişdir. GATT-ın mövcud olduğu bütün bu müddət ərzində antidempinq tədbirlərinin tətbiqi sahəsində sazişlərin işlənməsi və mütəmadi olaraq təkmilləşdirilməsi aparılmış, «Tokio raundu» çərçivəsində danışıqlar nəticəsində «Antidempinq Məcəlləsi» hazırlanmışdır. Bu sahədəki ən təkmil normalar isə ÜTT-nin antidempinq tədbirləri üzrə Sazişində (GATT-94-ün VI maddəsinin tətbiqi haqqında Saziş) öz əksini tapmışdır. Sazişin 2-ci maddəsinə müvafiq olaraq dempinq anlayışı malın normal dəyərindən aşağı qiymətlərlə xarici ölkə bazarına yeridilməsi, ixrac qiymətinin ixracatçı ölkənin daxili bazarında analoci (eynicinsli) malın adi ticarət şərtləri ilə satışı üçün nəzərdə tutulmuş müqayisə edilə bilən qiymətdən aşağı olması kimi müəyyən edilmişdir. Dempinqdə günahlandırılan mallara hər cəhətdən analoci mal olmadıqda, onunla uyğun xarakteristikalara malik olan mal da analoq Kimi qəbul edilir.

**Subsidiyalar və kompensasiya tədbirləri.** Subsidiyalaşdırma – ticarət siyasətinin ən mürəkkəb alətlərindən biridir. Ənənəvi olaraq xarici bazarların ələ keçirilməsi vasitəsi kimi ixrac subsidiyalarından geniş istifadə edilirdi. ÜTT çərçivəsindəki sazişlərdə ixrac subsidiyaları haqsız rəqabət

vasitəsi kimi nəzərdən keçirildiyindən hal-hazırda onlardan istifadə edilməsinin miqyası əhəmiyyətli dərəcədə məhdudlaşmışdır. Bununla yanaşı, istehsalın beynəlmiləlləşməsi prosesinin gücləndiyi hazırkı şəraitdə subsidiyaların ən müxtəlif növləri, o cümlədən sırf «daxili» xarakterli subsidiyalar belə ticarət siyasətinin aləti kimi çıxış edə bilər.

Subsidiya məsələlərinə ikitərəfli ticarət sazişlərində, bir qayda olaraq toxunulmur və onlar çoxtərəfli beynəlxalq ticarət tənzimləməsinin obyekti kimi çıxış edir. GATT- 47- də bu məsələlərə dair müddəalar iki maddədə (VI və XVI) əks olunmuşdur. Baxılan sahədə daha dərindən işlənmiş normalar «Tokio raundu» danışıqları nəticəsində hazırlanmışdır. «Uruqvay raundu» sazişləri paketinə daxil olan Subsidiyalar və kompensasiya tədbirləri üzrə Sazişdə isə ilk dəfə olaraq müvafiq məsələlərə dair ən dəqiq müddəalar müəyyən edilmişdir.

Sazişin ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən mühüm cəhətlərindən biri inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə subsidiyaların tətbiqi xüsusiyyətlərinə dair qeyd-şərtlərin müəyyən edilməsidir.

Belə ki, keçid iqtisadiyyatlı ölkələr üçün subsidiyaların verilməsinin növbəti xüsusi qaydaları nəzərdə tutulmuşdur:

- mərkəzləşdirilmiş iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidlə əlaqədar olan, subsidiyaların verilməsini də nəzərdə tutan, iqtisadi proqramların həyata keçirilməsi hüququ (Sazişin 29-cu maddəsi);
- sazişin şərtlərinə zidd olan və ÜTT-yə üzv qəbul edilənə kimi mövcud olan subsidiya proqramlarının ləğv edilməsi üçün güzəştli müddətin müəyyən edilməsi. ÜTT-nin müddəalarının ölkəyə şamil edildiyi andan 3 il ərzində bütün subsidiya proqramları Sazişin tələblərinə uyğunlaşdı-rılmalıdır. Bu ölkələrə münasibətdə, təşkilata üzv olduqları andan 7 il ərzində, qadağan edilmiş subsidiyalara qarşı tədbirlərdən istifadə edilməməsi;
- borcların silinməsi və onların ödənilməsi üçün vəsaitlərin verilməsi formasında subsidiyaların icazə verilən kateqoriyaya aid edilməsi;
- maraqlara ciddi zərər vurulması faktının müəyyən edilməsi zamanı inkişaf etməkdə olan ölkələr üçün əlverişli rejimin tətbiq edilməsi.

Kənd təsərrüfatı məhsullarına subsidiyaların verilməsi sahəsində ÜTT sazişlərində (kənd təsərrüfatı üzrə Saziş) əsas prinsip kimi onların qadağan edilməsi deyil, həmin məhsulların istehsalı və ixracının subsidiyalaşdırılmasının məhdudlaşdırılması və azaldılması sahəsində iştirakçıların öhdəlikləri sistemi müəyyən edilmişdir. Bununla bərabər, dövlətlər götürdükləri ümumi öhdəliklərin icrası sahəsində subsidiya obyektlərinin və formalarının seçilməsi baxımından da fəaliyyət sərbəstliklərini müəyyən dərəcədə qoruyub saxlamışlar.

Yardım tədbirlərinin qeyd edilən öhdəliklərə daxil edilməsinin əsası kimi ölkələr bu cür tədbirlərin istehsala və ticarətə güclü təsir göstərmədiyi fikrilə çıxış etmişlər. Bu tədbirlərdən, demək olar ki, hər hansı bir

məhdudiyyət qoyulmadan istifadə oluna bilər və onlar «yaşıl paket» adı ilə tanınırlar. Həmin qəbildən olan tədbirlərin bəziləri aşağıdakılardır:

- istehsalçılara ödənişlərin verilməsi ilə əlaqədar olmayan, ümumi xarakterli xidmətlərin göstərilməsi (elmi tədqiqatlar, infrastruktur obyektləri, zərərvericilərə və xəstəliklərlə mübarizə və s.);

Sazişdə ərzaq yardımının ticarət aspektlərinə də toxunulmuş və bu cür yardımın resipient ölkənin ərzaq idxalının həcmləri ilə əlaqələndirilməsinə dair tələb müəyyən edilmişdir.

ÜTT sistemində çoxtərəfli hüquqi tənzimlənmə sferasına daxil olan yeni obyektlərdən biri də xidmətlərin sərhədlərarası hərəkətidir. Xidmətlərlə beynəlxalq ticarətin razılaşdırılmış qaydaları və normaları GATS-la (Xidmətlərlə Ticarətə dair Baş Saziş) müəyyən edilmişdir. Beynəlxalq ticarətin bu seqmentinin mallarla müqayisədə daha yüksək templərlə artdığını nəzərə alsaq, baxılan Sazişin tələblərinin öyrənilməsinin və təcrübədə tətbiqinin vacibliyi aşkara çıxmış olar. Sazişdə xidmətlərin göstərilməsinin dörd üsulu müəyyən edilmişdir. Sazişin əhatə etdiyi xidmətlərin təsnifat siyahısı kifayət qədər genişdir və buraya işgüzar xidmətlər, rabitə, tikinti, incinirinq xidmətləri, distribyuter, ümumtəhsil, maliyyə, nəqliyyat, turizm və bir sıra digər xidmətlər daxildir. GATT sazişində olduğu kimi GATS-ın da əsas prinsiplərini ƏƏR, MR və transparentlik təşkil edir. Lakin iştirakçı dövlətlərə müəyyən xidmət növləri üçün konkret bir Ölkəyə münasibətdə daha əlverişli rejim müəyyən etmək, başqa sözlə, ƏƏR-dən istisnalar etmək hüququ da verilmişdir. Sazişin əsas müddəalarından biri tərəflərin xidmətlərlə ticarət sferasını dövri olaraq liberallaşdırmalarına dair öhdəliklərin müəyyən edilməsidir.

Saziş maliyyə xidmətləri sahəsində investorların, əmanətçilərin və bu kateqoriyadan olan digər şəxslərin hüquqlarının müdafiəsi, habelə milli maliyyə sisteminin vahidliyinin və sabitliyinin təmin edilməsi sahəsində hökumətlərin qoruyucu tədbirlər görmək hüququnu tanıyır. GATS eyni zamanda diskriminasiyaya yol vermədən xidmət ixracatçısı olan xarici şəxslərə dövlət telekommunikasiya şəbəkələrindən istifadə üçün şəraitin yaradılmasını da tələb edir.

Qeyd etmək lazımdır ki, xidmətlərlə ticarətdə hüquqi rejimi təhlil etmək kifayət qədər mürəkkəb vəzifədir ki, xidmətlərlə ticarətdə maneələrin vahid təsnifatı hələ ki, müəyyən edilməmişdir. Bunlar isə baxılan sazişin tələblərinin mükəmməlliyi və işlənilməsinin dərinliyi baxımından GATT-dan geri qaldığına dair fikir yürütməyə imkan verir.

Ölkəmizdə müasir xidmətlər sferasının yenicə təşəkkül tapmaqla olduğunu və bu sahəyə də xüsusi dövlət himayəçiliyinin həyata keçirilməsinin zəruriliyini nəzərə alsaq, göstərilən Sazişlə təsbit edilən tənzimlənmə normalarına və tələblərə daha həssas yanaşmağın zəruriliyi aşkara çıxmış olur.

Son dövrlərdə texnologiyalarla, elmi-texniki məlumatlarla beynəlxalq mübadilənin güclənməsi, rəqabət mübarizəsinin vasitəsi kimi əmtəə və xidmət nişanlarının rolunun artması, habelə intellektual mülkiyyət sahiblərinin hüquqları ilə əlaqədar mallarla (kompyuter avadanlığı, proqram təminatı və s.) ticarətin genişlənməsi intellektual mülkiyyət hüquqlarının qorunması probleminin də ÜTT fəaliyyət sferasına daxil edilməsinə gətirib çıxarmışdır. Əlaqədar münasibətlərin tənzimlənməsi qaydaları və normaları intellektual mülkiyyət hüquqlarının ticarət aspektləri üzrə Sazişlə (TRİPS) təsbit edilmişdir. Bu Saziş GATT və GATS-la yanaşı, ÜTT sistemi üzərində qurulduğu üçüncü təməl daşını təşkil edir. TRİPS-in də əsas prinsipləri kimi ƏƏR və MR prinsipləri çıxış edir. Sazişin əhatə dairəsi genişdir və buraya müəlliflik hüquqları, əmtəə və xidmət nişanları, coğrafi göstəricilər, sənaye nümunələri, patentlər, inteqral mikrosxemlərin topologiyası, kommersiya sirləri və «nou-hau» lar daxil edilmişdir. Sazişə görə iştirakçı ölkələrdə müvafiq milli qurumlar yaradılmış və normativ hüquqi aktlar qəbul edilmişdir. Respublikamız üçün maraqlı olan məqamlardan biri sazişlərdə təsbit edilən keçid müddətidir. Bu müddət inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr üçün 5 il, ən az inkişaf etmiş ölkələr üçün isə 11 il müəyyən edilmişdir ki, həmin vaxt ərzində iştirakçılardan öz qanunvericiliklərini və bu sahədəki təcrübələrini Sazişin müddəalarına uyğunlaşdırılması tələb edilir.

ÜTT ilə əməkdaşlıq perspektivlərinin araşdırılması zamanı diqqət yetirilməli olan məqamlardan biri də investisiya siyasətinin ticarət aspektləri arasında Sazişlə bağlılığıdır. Bu sənəd mallarla ticarətə mənfi təsir göstərən MR prinsipinə və GATT-ın kəmiyyət məhdudiyyətlərinə qadağan edilməsinə dair maddəsinə zidd olan investisiya siyasəti tədbirlərinin tətbiqini qadağan edir. Sazişə müvafiq tədbirlərin siyahısı əlavə edilmiş və buraya xarici sərmayədarların yerli istehsal olan malları almalarına, habelə ixracın həcminə dair öhdəliklər götürülməsini nəzərdə tutan tədbirlər, balanslaşmış ticarətə dair tələblər və s. daxil edilmişdir. Saziş müvafiq tədbirlərdən istifadənin inkişaf etməkdə olan ölkələrdə 5 il ərzində, ən az inkişaf etmiş ölkələrlə isə 7 il ərzində dayandırılmasını tələb edir.

Göründüyü kimi, müasir dövrdə milli dövlətlərin beynəlxalq qurumlarla əməkdaşlıq səviyyəsinin yüksəlməsi onların xarici iqtisadi fəaliyyətinin güclənməsi ilə yanaşı, birgə hazırlanmış fəaliyyət qaydalarına həm də daxili iqtisadi siyasətdə riayət olunmasını nəzərdə tutur. Başqa sözlə, bu halda milli iqtisadiyyatın tənzimlənməsində endogen (daxili) amillərlə yanaşı, ekzogen (xarici) amillərin də rolu güclənir və dövlətin iqtisadi prosesləri, o cümlədən xarici iqtisadi fəaliyyəti tənzimləmə funksiyaları dəyişikliklərə uğrayır. Nəticədə, dövlətin makroiqtisadi tənzimlənmənin ənənəvi alətlərində (idxala məhdudiyyətlər və ixrac subsidiyaları, milli valyutanın məzənnəsi, mərkəzi bankların uçot dərəcəsi və s.) istədiyi kimi istifadə imkanları məhdudlaşır. Milli təsərrüfatların qarşılıqlı asılılığının

getdikcə gücləndiyi bir zamanda hökumətlər bu alətlərdən istifadə edərkən həm digər dövlətləri, həm də beynəlxalq iqtisadi münasibətlərin subyektləri olan TMK-ları və transmilli bankları, habelə beynəlxalq təşkilatlar çərçivəsində işlənmiş qaydalardan irəli gələn tələbləri nəzərə almaq məcburiyyəti ilə üzləşirlər. Bu isə müəyyən şəraitdə ölkənin milli mAraqları və iqtisadi mənafeyi baxımından arzuolunmaz hallarla nəticələnə bilər.

Buna görə də, zəif inkişaf etmiş və keçid iqtisadiyyatlı ölkələr beynəlxalq təşkilatlarla əməkdaşlıq strategiyasını müəyyənləşdirərkən iqtisadi təhlükəsizliklərin və milli mənafelərin təmin olunması üçün müvafiq güzəştlərə nail olmağa çalışmalıdırlar.

Eyni zamanda nəzərə almaq lazımdır ki, beynəlxalq əmək bölgüsünün dərinləşməsi əsasında dünya ölkələri arasında iqtisadi əlaqələrin, elmi-texniki əməkdaşlığın və işçi qüvvəsi axınının genişlənməsi və təkrar istehsal prosesinin milli sərhədləri aşaraq artıq beynəlmiləl miqyasda cərəyan etməsi tərəf müqabili olan ölkələrə xarici iqtisadi əlaqələrin üstünlüklərindən yararlanmağa imkan verməklə yanaşı, milli təsərrüfatlara dünya miqyasında yaranan qlobal problemlərin (dövri böhranlar, valyuta məzənnələrinin qeyri-sabitliyi və s.) neqativ təsirlərinin güclənməsi üçün də əlverişli şərait yaradır.

Beləliklə, bütün bunlar isə milli iqtisadiyyatı həmin neqativ təsirlərdən qorumaq, onun beynəlxalq iqtisadi əməkdaşlıq sistemindən iştirakını optimallaşdırmaq, dünya bazarlarında yerli istehsalçıların mövqelərini möhkəmləndirmək və ölkənin xarici iqtisadi təhlükəsizliyini təmin etmək məqsədilə iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin zəruriliyi və iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilməsini şərtləndirir.

### 3.3. Xarici ticarət əməliyyatlarının aparılması və onların təkmilləşdirilməsi məsələləri

Beynəlxalq ticarət əməliyyatları mahiyyətinə görə iki qrupa ayrılır: əsas və əlavə əməliyyatlar.

Əsas əməliyyatlara bilavasitə həmin əməliyyatların iştirakçıları (müxtəlif ölkələrin kontragentləri) arasında qarşılıqlı ödəniş şərtilə ticarət əməliyyatlarının həyata keçirilməsi, əlavə əməliyyatlara isə malların (yükün) satıcıdan alıcıyadək yeridilişinə bağlı olan ticarət əməliyyatları aiddir.

Əsas ticarət əməliyyatları aşağıdakılardır:

- malların mübadiləsi (alqı-satqı) üzrə ticarət əməliyyatları (idxal və ixracat);
- patent, lisenziya və «nou-hau» formasında elmi-texniki biliklərin mübadiləsi;
- icarə üzrə ticarət əməliyyatları;
- beynəlxalq informasiya və idarəetmənin təkmilləşdirilməsi sahəsində məsləhət xidmətlərinin ticarət əməliyyatları;

- kinofilimlərin, teleproqramların mübadiləsi üzrə əməliyyatlar;

Əlavə ticarət əməliyyatları aşağıdakılardır (bu əməliyyatlar beynəlxalq mal dövriyyəsini təmin edir və «mal yeridilişi əməliyyatları» adını alıbdır):

- beynəlxalq yüklərin daşınması əməliyyatları;
- nəqliyyat-ekspeditor əməliyyatları;
- beynəlxalq yükdaşıma prosesində malların qorunması üzrə əməliyyatlar;
- yüklərin sığortası əməliyyatları;
- beynəlxalq hesablaşmaların aparılması üzrə əməliyyatlar.

Beynəlxalq ticarət işinin spesifik sferası olan istehsal və elmi-texniki əməkdaşlıq sahəsi xüsusi diqqət kəsb edir. Çünki bu əməkdaşlıq müəyyən təşkilati-idarəetmə fəaliyyətinin nəticələri kimi çıxış edir. Təşkilati-idarəetmə əməliyyatlarının əsas məqsədi isə aşağıdakı sövdələşmələrin (sazişlərin) bağlanması ilə nəticələnir:

a) istehsalın ixtisaslaşdırılması və kooperasiyalaşdırılması barədə;

b)obyektlərin və onların istismarının birgə tikintisinin təşkilinə dair;

v) mal və mal-material dəyərinin ödənilməsi şərtilə iri sənaye obyektlərinə göndərilməsinə dair; q) elmi-tədqiqatlar sahəsində kooperasiya barədə və s.

Bu sövdələşmələr beynəlxalq ticarət sazişləri (müqavilələri) əsasında realizə olunur. Beləliklə, «beynəlxalq ticarət» anlayışından təkcə maddi və xidmətlərin dəyərləri üzrə əməliyyatlarda deyil, eyni zamanda beynəlxalq ticarət yolları (üsulları) vasitəsilə realizə olunan ticarət-iqtisadi münasibətlər mexanizmində də effektli istifadə edilməlidir. Bu məqsədlə, əvvəl yüksək bilik səviyyəsinə malik olmalı və vətən müəssisələrindən, birliklərindən, xarici ticarət təşkilatlarından bacarıqla istifadə etməli, xarici kontragentlərlə ticarət əməliyyatları sahəsində böyük səriştə və təcrübə olmalıdır; ikincisi, əsas və təminedici əməliyyatlara xüsusi diqqət yetirilməli və bu ticarət işinin bütün incəlikləri ilə əlaqələndirilməlidir; üçüncüsü, xarici firmalarla istehsal, ticarət-iqtisadi və elmi-texniki əlaqələrin inkişafından irəli gələn başlıca üstünlüklərdən səmərəli istifadə olunmalı; dördüncüsü, müxtəlif mallar və xidmətlər üzrə beynəlxalq ticarət metodları və formaları hərtərəfli və bacarıqla tətbiq edilməlidir.

Xarici ticarət sövdələşmələri dedikdə, müxtəlif ölkələrin iki və bir neçə tərəfləri arasında kəmiyyət və keyfiyyəti müəyyənləşdirilmiş mal vahidləri, yaxud xidmətlər üzrə müqavilələrin (sazişlərin) bağlanması nəzərdə tutulur. Həmin müqavilə və sazişlərin beynəlxalq xarakteri subyektlərin, yəni tərəflərin müxtəlif ölkələrdə olmasından irəli gəlir. Tərəflər müxtəlif dövlətlərə məxsus olsalar belə, əgər onların müəssisələri (firmAları) bir dövlətin ərazisində yerləşibsə, onda bağlanılan müqavilə birbaşa hesab olunacaqdır. Eyni zamanda, müqavilə həm də o zaman beynəlxalq müqavilə kimi tanınar ki, bu müqavilə bir dövlət daxilində fəaliyyət gös-

tərən iki və daha çox xarici tərəflər arasında bağlanılsın, onların ticarət müəssisələri, firmaları isə xarici ölkələrdə yerləşmiş olsun. Müqavilənin bu cür təsviri BMT-nin beynəlxalq alqı-satqı barəsindəki Konvensiyasında verilmişdir (Vyana Konvensiyası 1980-cı il). 1985-ci ildə isə bu, yenidən Haaqa Konvensiyasında şərh edilmişdir.

Ticarət sövdələşmələrində tərəflər sahibkarların xüsusi kateqoriyalarına aid edilir və tacir adlanırlar. Onların fəaliyyətləri çox hallarda xüsusi qaydaya tabe etdirilir. Qeyd etmək lazımdır ki, bu qayda sazişlərin bağlanmasında formalizmi (rəsmiyyətçiliyi) ləngidir, işgüzar yanaşmanı tələb edir.

Beynəlxalq ticarət fəaliyyəti təcrübəsində də milli ticarətdə olduğu kimi, mal vahidi dedikdə bir növ malın ayrı-ayrılıqda miqdarı (sayı) başa düşülür. Mal dəsti (mal partiyası) isə bir məntəqədən, məmləkətdən (mal göndərəndən) digər məntəqəyə (mal alana) daşınması nəzərdə tutulan bir və yaxud bir neçə mal vahidinin məcmu miqdarıdır.

Müasir şəraitdə beynəlxalq ticarət sövdələşmələrinin xüsusi cəhəti bundan ibarətdir ki, bu sövdələşmələr beynəlxalq maddi istehsal və elmi-texniki əməkdaşlıqdan yaranmış əlaqələri əks etdirir. Bu əlaqələr aşağıdakı mühüm cəhətlərlə xarakterizə olunur:

1.Beynəlxalq mal dövriyyəsinə daxil olan məhsulların siyahısının (nomenklaturanın) əhəmiyyətli dərəcədə genişləndirilməsi, dəyişdirilməsi və çeşidinin yaxşılaşdırılması.

2.Bütövlükdə müəssisələrə dəst avadanlıq göndərmək (satmaq) üçün Sazişin kompleks xarakteri. Bu cür sazişlərdə maşın, avadanlıq, material və xidmətlərin dəsti nəzərdə tutulur. Həmin xidmətlər isə mühəndis işlərindən, infrastrukturun inkişafına dair xidmətlərdən və s. ibarətdir.

3.Sövdələşmələrin miqyasının artması. Burada ayrı-ayrı mallar üzrə alqı-satqı miqyasında deyil, iqtisadi əməkdaşlıq üzrə irihəcmli sövdələşmələrdən (sazişlərdən) söhbət gedir.

4.Müəssisə tikilməsi üzrə bu gün kompleks işlərin – layihə sənədlərindən tutmuş ta müəssisənin işə salınması üçün layihələşdirilən bütün göstəricilərə nail olunanadək öhdəliklərin satıcı tərəfindən öz üzərinə götürməsi praktikasının genişləndirilməsi.

5.Konsorsiumlar yaratmaq yolu ilə müxtəlif ölkələrin şirkətləri tərəfindən birgə irimiqyaslı razılaşmaların (sazişlərin) həyata keçirilməsi. Bu halda sazişin bağlanmasında əsas tərəf kimi aparıcı şirkət çıxış edir.

Beynəlxalq ticarət sövdələşmələrinin (sazişlərinin) mühüm cəhətlərindən biri onların məqsədyönlü olmasıdır. Məqsədyönlü fəaliyyət həm milli, həm də xarici konkret istehlakçıya yön alması deməkdir. Bu istehsalçıya (satıcıya) onun vasitəçi xidmətindən istifadə etmədiyinə görə, adətən malın göndərilməsi dəyərindən 30 faizədək qənaət verir. Həm də müəyyən bir konkret istehlakçıya yönalma istehsalçının xammal, materiallar, komponentlər göndərənlərlə bilavasitə və uzunmüddətli əlaqələrdə

olmasına şərait yaradır ki, bu da vaxtlı-vaxtında lazımi məhsulların istehsalını təmin etsin.

Beynəlxalq alqı-satqı müqavilələrinə dair Konvensiya dünya miqyasında alqı-satqı proseslərinin ünifikasiya olunmuş (vahid şəklə salınmış) qayda-qanunlarını tənzimləyir. Bu qayda-qanunlar müxtəlif ictimai, iqtisadi və hüquqi sistemlərə malik olan bir çox ölkələr üçün münasib idi və beynəlxalq ticarətdə hüquqi maneələri aradan götürə bilərdi.

Konvensiya normativ xarakter daşıyır. Başqa sözlə, Konvensiyada nəzərdə tutulan əsasnamə hüquqi normaları əks etdirir. Bu o deməkdir ki, müqavilədə iştirak edən tərəflər konvensiyanın hər hansı müddəasını qəbul etməyə, hətta onu dəyişə də bilərlər. Konvensiya ancaq beynəlxalq xarakter daşıyan müqavilələrə tətbiq edilir.

Vyana Konvensiyasının məqsədi beynəlxalq alqı-satqını tənzim edən milli qanunçuluğun unifikasiyasına (vahid şəklə salınmasına) kömək göstərməkdir. Konvensiya əsasən aşağıdakıları nəzərdə tutur:

- mallar üzrə beynəlxalq alqı-satqı müqavilələrinin bağlanması və istifadə edilməsini eyni formada tənzimləyir;
- kommersiya danışıqlarının tezləşdirilməsinə, asanlaşdırılmasına və ucuzlaşdırılmasına kömək göstərir;
- müqavilə tərəflərin bir-birinin hüquq və vəzifələrini birmənalı başa düşmələri üçün ilkin şərait yaradır;
- daha güclü tərəf-müqabili (partnyor) tərəfindən müqaviləyə əsasən özü üçün daha əlverişli şərtlərin digər tərəfə qəbul etdirilməsi hallarının aradan götürülməsinə imkan yaradır;
- Konvensiyada iştirak etməyən dövlətlər arasında müqavilə mübadiləsi (münaqişəsi) baş verdikdə, müqavilə tərəfləri (subyektləri) və müqavilə predmetləri (obyektləri) üzrə münasibətləri qaydaya salır;
- alqı-satqı müqaviləsinin obyektlərinin (malların) siyahısını müəyyən edir;
- konvensiyanın aid olmadığı ölkələr üçün alqı-satqı müqaviləsinin nişanələrini (əlamətlərini) müəyyənləşdirir.

Vyana Konvensiyası 101 maddəni əhatə etməklə dörd hissədən ibarətdir: birincisi, tətbiqi sfera və ümumi müddəalar; ikincisi, müqavilənin bağlanması; üçüncüsü, malın alqı-satqısı; dördüncüsü son müddəa.

Beynəlxalq ticarətdə Beynəlxalq alqı-satqı müqavilələrinə tətbiq edilən hüquqi qaydalara dair Konvensiyanın böyük əhəmiyyəti vardır. Belə ki, bu Konvensiya yuxarıda göstərildiyi kimi, Haaqa konvensiyası adlanır. Yeni Konvensiya 1985-ci ildə Haaqada Beynəlxalq Xüsusi Hüquq Konfransının sessiyasında qəbul olunmuşdur. Sessiyanın işində 62 dövlət iştirak edirdi. Bu konfransın məqsədi 1955-ci ildə Haaqa Konfransında qəbul olunmuş və artıq köhnəlmiş Konvensiyaya yenidən baxılması məqsədini qarşıya qoymuşdur. 1985-ci il Konvensiyası isə 1980-cı ildə qismən Vyana Konvensiyasına bəzi əlavələr edilməsini də nəzərdə tuturdu.

Beynəlxalq idxal-ixrac münasibətləri əsasən beynəlxalq ticarət əməliyyatları vasitəsi ilə həyata keçirilir. Təəssüf ki, beynəlxalq təcrübədə idxalat və ixracat əməliyyatları dedikdə, ancaq ticarət fəaliyyəti əsasında həyata keçirilən əməliyyatlar başa düşülür. Bu beynəlxalq ticarət Razılaşmalarının alqı-satqı kontraktları vasitəsilə realizə oluna bilər. İdxalar-ixracat əməliyyatlarının yerinə yetirilməsi ani malların (məhsulların) qarşılıqlı mübadiləsi üzrə münasibətdə olan iki kontragentin məmləkətinin sərhədlərinin qovuşduğu xətti, əlbəttə, ancaq gömruk xidmətinin icazəsilə keçdiyi vaxtdan tamamlanır. Bu halda nəzərə alınmalıdır ki, dövlət, özəl, yaxud da ictimai təşkilatlar tərəfindən yardım, ənam (bəxşiş, hədiyyə, mükafat və s.) formasında əvəzsiz göndərilən əşyalar (mallar) idxalat və ixracat dəyərlərinə daxil edilmiş və onların ayrıca uçotu aparılmışdır. Həm də nəzərə alınmalıdır ki, bunların ticarət əməliyyatlarına heç bir aidiyyatı yoxdur.

Qeyd etmək lazımdır ki, idxal-ixrac əməliyyatları sistemində gömrük tarif tənzimi mühüm yer tutur. Gömrük tarifi dünyanın bütün ölkələrində istifadə olunur. Milli tariflərlə yanaşı, regional (məhəlli) ticarət-iqtisadi ölkələr birliyi deyilən gömrük ittifaqları çərçivəsində vahid Gömrük Tarifləri Sistemi vardır. Bu ittifaq (birlik) iştirakçı dövlətlərin qarşılıqlı ticarətdə öz milli gömrük tariflərini ləğv edir, üçüncü dövlətə (ölkəyə) ticarətdə ümumi gömrük tarifini müəyyən edir. Həmin birliklərdən biri Qərbi Avropa birliklərinin Avropa İttifaqı - Aİ adı altında yaratdıqları birlikdir. Avropa İttifaqı 15 ölkəni, o cümlədən Almaniyanı, Fransanı, İngiltərəni, İspaniyanı, Finlandiyanı və s. ölkələri əhatə edir. Bu gömrük sistemi (Aİ) milli gömrük qanunçuluğu əvəzinə, ittifaqa daxil olan ölkələr üçün vahid tarif normaları və qaydaları işləyib hazırlamağı və onları işə salmağı nəzərdə tutur.

İttifaqın qəbul etdiyi vahid gömrük tariflərinin çox hissəsi qeyri-ərzaq mallarına şamil edilir və gətirilən malın dəyərinə nisbətən faizlə müəyyən olunur. Digər az hissəsi isə malın çəkisinə, həcminə və s. nisbətən dəyər ifadəsi ilə müəyyənləşdirilir. Avropa İttifaqı ölkələrinə gətirilən və sonradan təkrar ixrac, yaxud həmin ölkələrin sənaye müəssisələrində yenidən işlənməsi üçün nəzərdə tutulan mallar gömrük vergilərindən, rüsumlarından azad olunurlar.

Gömrük tarif sistemi tənziminin mühüm vasitələrindən biri də antidempinq rüsumlarının tətbiq edilməsidir. Bu cür gömrük vergiləri (rüsumları) ixracat malları aşağı qiymətlərlə satıldıqda tətbiq olunur.

Avropa İttifaqı daxilində dempinqə, ümumiyyətlə, yol verilmir. Belə ki, ucuzlaşdırılmış mallar həmin aşağı qiymətlərlə öz vətəninə (istehsal olduğu ölkəyə) qaytarılır. Avropa İttifaqının xüsusi komissiyası antidempinq siyasətini həyata keçirmək üçün aşağıdakı iki cəhəti əsas (rəhbər) tutur:

- «normal dəyər» və «mala normal qiymət» qoyulmasını;

- Avropa İttifaqı ölkələrində analoci malın istehsalına dəyən faktiki zərərin müəyyənləşdirilməsi.

Avropa İttifaqının Əsasnaməsinə uyğun olaraq antidempinq tətbiqi işinə (üsuluna, qaydasına) baxılması, onun yoxlanılması başlandığı vaxtdan etibarən bir il ərzində tamamlanmalıdır. Əgər fakt təsbiq olunarsa, məsələ aşağıdakı qaydada yoluna qoyula bilər: ya ixracatçı öhdəçilik götürəcək ki, qiymətləri qaldırılsın və göndərilən malın miqdarını azaltsın, yaxud da antidempinq vergisi, rüsumu müəyyən edilsin.

Beynəlxalq ticarət idxal-ixrac əməliyyatlarının lisenziya-laşdırılması məsələsinə xüsusi fikir verilir. Belə ki, idxal-ixrac əməliyyatlarının lisenziyalaşdırılması da milli firmaların beynəlxalq ticarət razılaşmalarının həyata keçirilməsinə nəzarət edilməsinin və dövlət tənziminin bir vasitəsidir. Məsələn, idxalın lisenziyalaşdırılmasının əsasını kontragentləşdirmə həcmi təşkil edir. Yəni müəyyən bir dövr ərzində, bir qayda olaraq bir ildə ölkəyə konkret malın gətirilməsinə miqdar məhdudiyyətini – kontragent, yaxud kvota müəyyən edilməsini nəzərdə tutur. Kvotadan istifadəetmə üzərində nəzarət, verilən idxal lisenziyalarının qeydiyyat vərəqəsi vasitəsilə həyata keçirilir. İxracın lisenziyalaşdırılması da əsasən eyni qaydada müəyyənləşdirilir.

Növlərinə görə lisenziyalar əsas (firmaya verilən və müəyyən dövr ərzində daim qüvvədə qalan) və fərdi (konkret beynəlxalq ticarət razılaşması üzrə birdəfəlik verilən) lisenziya kimi fərqləndirilir. Lisenziyaların verilməsi (alınması) qaydası milli qanunçuluq normaları ilə nizama salınır. Lisenziyalaşdırma müvəqqəti tədbir kimi sayılsa da, o, xarici ticarət əməliyyatlarının tənzimlənməsinə təsir edən bir alətdir.

Dünya ticarəti təcrübəsi göstərir ki, lisenziyalaşdırma xarici valyutanın xərclənməsinə nəzarət məqsədilə istifadə olunur. O, həm də daxili bazarın tələbinin ödənilməsini təmin edən məhsul ixracını məhdudlaşdırma məqsədini güdür, əks təqdirdə daxili bazarda həmin məhsulun qiyməti qalxa bilər.

Qeyd etmək lazımdır ki, dünya bazarında malların və xidmətlərin beynəlxalq alqı-satqısı üzrə kontragentlər sifətində çıxış edən BMT sisteminin ixtisaslaşmış idarələri yaxından iştirak edirlər. BMT sisteminin kontragentlər sifətində çıxış edən bu idarələr dünya bazarında kifayət qədər iri alıcı sifətində çıxış etməyə başladılar. Məsələn, investisiya obyektlərinin tikintisini həyata keçirən təşkilatlar sırasına PROON və YUNİDO kimilərini aid etmək olar.

PROON 1966-cı ildən fəaliyyət göstərir. Onun çoxtərəfli iqtisadi və texniki yardım göstərmək üzrə xüsusi əməli fəaliyyəti maliyyələşdirmək fondu vardır. Onun maliyyələşdirmə fondu BMT çərçivəsində texniki əməkdaşlıq sistemi iştirakçıları olan dövlətlərdən alınan könüllü üzvlük haqqı hesabına yaradılır. PROON həmin sistem üzrə texniki yardım həcmini və istiqamətlərini tənzimləyən əsas orqan hesab edilir. Onun pul

fondu texniki yardım alan ölkələr arasında bölüşdürülür. PROON texniki yardımı innovasiya işlərinin aparılması ərəfəsində həyata keçirir, tikintisi isə yardım alan ölkənin hesabına ödənilir. Lakin son zamanlar PROON bir sıra inkişaf etmiş ölkələrdə iri sənaye obyektlərinin tikintisini 10 mln. dollardan artıq məbləğlə özü maliyyələşdirməyə və təşkil etməyə başlamışdır.

Çox hallarda layihələrin bilavasitə icraçısı sifətində BMT sisteminin digər ixtisaslaşdırılmış təşkilatları da çıxış edirlər, o cümlədən:

YUNİSEF – Uşaq Fondu;
PROON – İnkişaf Proqramı;
FAO – Beynəlxalq Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı;
YUNİDO – Sənaye İnkişaf Təşkilatı;
YUNKTAD – Ətraf Mühütün Qorunması Proqrammı;
YUNESKO – Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilat;
MOT – Beynəlxalq Əmək Təşkilatı.

Dünya ölkələri üzrə xarici ticarət fəaliyyətini tənzimləyən beynəlxalq təşkilatlar bir-birindən fərqlənən bir çox vacib funksiyaları yerinə yetirirlər. Bu təşkilatların strukturunun sxemi aşağıda verilmişdir. (1-ci şəkil):

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) – 947-ci ildə Cenevrədə ABŞ da daxil olmaqla, 23 ölkənin iştirakı ilə GATT (Ceneral Aqrecment on Tariffs And Trade) Ticarət və Tariflər haqqında Baş Sazişin imzalanması ilə yaranmış və 1994-cü ildən bu təşkilat Ümumdünya Ticarət Təşkilatı adı altında fəaliyyət göstərir.

Bu gün ÜTT-i dünya ticarətinin 85% -ni əhatə edən 153 ölkəni özündə birləşdirən bir təşkilat olmuşdur. Azərbaycan Respublikası 1997-ci ildən Ümumdünya Ticarət Təşkilatında müşahidəçi statusu ilə iştirak edir.

**Xarici iqtisadi fəaliyyət dairəsində əsas beynəlxalq təşkilatların təşkilati-idarəetmə strukturu**

AİB (Avropa İttifaqı Birliyi) – 1957-ci ildə yaradılmışdır. Roma müqaviləsinə əsasən, bu təşkilata 6 Qərbi Avropa ölkəsi daxil edilmişdir. Sonrakı inkişaf prosesində üzv ölkələrin sayı 15-ə çatmışdır. Aİ-nin



fəaliyyəti nəticəsində artıq 60-cı illərdən bəri bu ölkələr arasında vahid gömrük ittifaqı yaradılmış, üçüncü ölkəyə münasibətdə vahid gömrük tarifi müəyyənləşdirilmiş, gömrük rüsumları və qarşılıqlı ticarətdə kəmiyyət məhdudiyyətləri ləğv edilmişdir. Bu ölkələrdə faktiki olaraq vahid maliyyə sistemi fəaliyyət göstərir. Belə ki, AİB ölkələrindən hər biri bu və ya digər ölkələrdə özlərinin kommersiya banklarının filiallarını açmaq iqtidarındadırlar. 1999-cu ilin yanvar ayının 1-dən bu ölkələrdə vahid valyuta – «avro» tətbiq edilməyə başlanmışdır.

BVF (Beynəlxalq Valyuta Fondu) – 22 iyun 1994-cü ildə Bretton – Vudada (ABŞ-da) yaradılmış, beynəlxalq ticarətin və valyuta sahəsində əməkdaşlığın inkişafına təsir göstərən Dövlətlərarası Valyuta-Kredit Təşkilatı kimi fəaliyyət göstərir. Azərbaycan 18 sentyabr 1992-ci il tarixdən BVF-nin üzvüdür.

BYİB (Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı) – 1944-cü ildə Bretton Vuds Müqaviləsi əsasında yaradılmışdır. VYİB inkişaf etməkdə olan ölkələrdə inkişafın investisiya proqramının həyata keçirilməsi üçün köməklik etmək məqsədi ilə həmin ölkələrə vəsait təklif edir. VYİB - Dövlətlərarası Maliyyə-Kredit Təşkilatı kimi aşağıdakıları həyata keçirir:

- beynəlxalq ticarətin inkişafına təsir göstərir;
- ödəniş balanslarını dəstəkləyir;
- ölkələrin iqtisadi inkişafını stimullaşdırır.

BYİB-nin üzvləri yalnız o dövlətlər ola bilər ki, hansı ki, onlar əvvəlcədən BVF-nin üzvü olsunlar. 1999-cu ilin məlumatına görə, BYİB-nin sıralarına 180-dan çox dövlət daxil olmuşdur. Azərbaycan 1992-ci ildən bu təşkilatın üzvüdür.

İƏİT (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) – 1948-ci ildə Avropada müharibə illərindən sonra «Marşall Planı» adı altında amerikanların iqtisadi və maliyyə köməklərindən səmərəli istifadə etmək məqsədi ilə yaradılmışdır. Faktiki olaraq İƏİT 1961-ci il müvafiq Konvensiyanın imzalanmasından sonra təşkil olunmağa başlamışdır. İƏİT-nin əsas məqsədlərinə aşağıdakıları aid etmək olar:

- optimal iqtisadi inkişaf yollarının axtarılmasına təsir göstərmək;
- üzv olan ölkələrdə maliyyə möhkəmliyini qoruyub saxlamaqla əhalinin yaşayış səviyyəsini qaldırmaq və məşğulluğunu artırmaq;
- üzv ölkələrin siyasi koordinasiyası vasitəsilə İƏİT regionunda sosial və iqtisadi nailiyyətlərə nail olmaq;
- Avropanın postsosialist və inkişaf etməkdə olan ölkələrə İƏİT-in üzv dövlətlərinin köməklik etməyə razılıqları.

Hal-hazırda 30-dan artıq dövlət İƏİT-in üzvüdür.

BMT-nin YUNKTAD (BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı) – BMT-nin Baş Assambleyasının orqanı olmaqla, Beynəlxalq Ticarət Təşkilatı statusuna malik deyildir. Bu təşkilat 1964-cü ildə yaranmış və artıq onun 170-dən çox üzv-ölkəsi vardır. Təşkilatın əsas məqsədi:

- beynəlxalq ticarətin inkişafına təsir göstərmək;
- ölkələrarası bərabərhüquqlu qarşılıqlı mənafe baxımından əməkdaşlığa nail olmaq;
- beynəlxalq iqtisadi münasibətlərin funksiyalaşdırılması sahəsində müxtəlif təkliflər işləyib hazırlamaq.

Bu təşkilatın əsas ali idarəetmə orqanı Ticarət və İnkişaf üzrə Şuradır ki, bunun da tərkibinə 6 komitə daxil edilir.

NİÖT (Neft İxrac edən Ölkələr Təşkilatı) – dövlətlərarası iqtisadi-siyasi təşkilat olub, 1960-cı ildə Bağdad Konfransında yaradılmışdır. Bu təşkilatın əsas Nizamnaməsi 5 il keçdikdən sonra Karakasda qəbul edilmişdir. NİÖT aşağıdakı əsas məqsədləri həyata keçirir:
- üzv-ölkələrin neft siyasətinin koordinasiyasını və unifikasiyasını;
- iştirakçı dövlətlərin maraqlarını qorumaq məqsədi ilə bir qədər səmərəli şəxsi və kollektiv vəsaitlərin təyini;
- dünya neft bazarında qiymətlərin dəyişdirilməzliyinin qorunub saxlanılması üçün yolların axtarılıb tapılması;
- neft istehsal edən ölkələrin gəlirlərinin möhkəmliyini təmin etmək;
- ətraf mühitin hərtərəfli qorunması üzrə tədbirlərin keçirilməsi.

Müasir dövrdə NİÖT-un tərkibinə 12 dövlət daxildir. Əlcəzair, Venesuela, Qabon, İndoneziya, İraq, İran, Qatar, Küveyt, Liviya, Nigeriya, BƏƏ, Səudiyyə Ərəbistanı.

BİA (Beynəlxalq İnikşaf Assosiasiyası) – 1960-cı ildə xüsusi olaraq inkişaf etməkdə olan BYİB-nin üzv ölkələrinə güzəştli şərtlərlə kreditlər və istiqrazlar vermək məqsədi ilə yaradılmışdır. Assosiasiyanın 4 əsas maliyyə mənbəyi vardır. Bunlara:
- BYİB-in mənfəəti;
- üzv ölkələrin xüsusi üzvlük haqları;
- imkanlı üzv-ölkələrin xüsusi üzvlük haqları;
- əvvəl verilmiş kreditlərin qaytarılması.

3 ildə bir dəfə kreditor ölkələr qrupu, hansı ki, 34 ölkəni özündə birləşdirir, Assosiasiyaya əhatəli vəsaitlər cəlb etmək məqsədi ilə özlərinin səlahiyyətli nümayəndələrini bir yerə yığaraq məsləhətləşmələr keçirirlər.

Qeyd etmək lazımdır ki, son illərdə Azərbaycan Respublikasının dünyanın bir sıra dövlətləri ilə ticarət əlaqələri sürətlə artmışdır. Belə ki, 2010-cu ildə Azərbaycan dünyanın 145 ölkəsi ilə ticarət əlaqələri qurmuşdur ki, onun da dövriyyəsi 25,1 milyard dollar təşkil etmişdir.

### 3.4.Azərbaycanın xarici ticarət əlaqələrinin dinamikası və strukturu

Azərbaycanda kifayət qədər ixtisaslı kadrın olması və ölkənin böyük enerji, mineral resursları, nadir iqlimin potensialı ona milli iqtisadiyyatın sürətlə inkişaf etdirilməsi və qarşılıqlı faydalı şərtlərlə

dünya ölkələri ilə iqtisadi ticarət əlaqələrinin genişləndirilməsi və eləcə də xarici investisiyanın ölkəyə axını üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra xarici iqtisadi siyasətini artıq özü müəyyən etməyə başlamışdır.

Ölkəmizin Asiya və Avropanın kəsişməsində çox əlverişli coğrafi mövqedə yerləşməsi bu siyasətin uğurla həyata keçirilməsinə öz müsbət təsirini göstərmişdir.

2008-ci ildə Azərbaycanın 107 ölkə ilə aparılmış ticarət (idxal-ixrac) əməliyyatlarının həcmi 2 milyard 132.1 milyon ABŞ dolları məbləğində olmuşdur.

Aşağıdakı cədvəldə göstərilən kimi, xarici ticarət dövriyyəsinin 1 milyard 197.8 milyon dollarını (56.2 %-ni) ölkədən ixrac olunmuş mallar, 934.3 milyon dollarını (43.8 %-ni) ölkəmizə idxal edilmiş mallar təşkil etmiş, 263.5 milyon dollarlıq müsbət saldo yaranmışdır.

***Cədvəl 1***

**1991-2008-ci illərdə xarici ticarət əlaqələrinin dinamikası (min ABŞ dolları)**

| İllər | Dövriyyə | İdxal | İxrac |
|---|---|---|---|
| **1991** | 4002234,3 | 1881266,2 | 2120968,1 |
| **1992** | 2423835,0 | 939862,0 | 1483973,0 |
| **1993** | 1353467,1 | 628806,0 | 724661,1 |
| **1994** | 1430644,7 | 777910,5 | 652734,2 |
| **1995** | 1304856,5 | 667657,2 | 637199,3 |
| **1996** | 1591881,8 | 960636,3 | 631245,5 |
| **1997** | 1575652,9 | 794343,2 | 781309,7 |
| **1998** | 1682647,9 | 1076497,4 | 606150,5 |
| **1999** | 1965552,4 | 1035888,8 | 929663,6 |
| **2000** | 2917291,1 | 1172071,2 | 1745219,9 |
| **2001** | 3745313,5 | 1431107,4 | 2314206,1 |
| **2002** | 3832883,7 | 1665484,0 | 2167399,7 |
| **2003** | 5216558,9 | 2626181,1 | 2590377,8 |
| **2004** | 7131365,1 | 3515930,0 | 3615435,1 |
| **2005** | 8558373,2 | 4211222,0 | 4347151,2 |
| **2006** | 11638908,7 | 5266743,7 | 6372165,0 |
| **2007** | 11770570,8 | 5712170,7 | 6058400,1 |
| **2008** | 54919700,0 | 7163500,0 | 47756200,0 |

Bu ölkələrdən ixracda əsasən ABŞ, İsrail, Rusiya, İran, Çili, İtaliya, Türkiyə, Gürcüstan, idxalda isə Rusiya, Türkiyə, Almaniya, Çin, Böyük Britaniya, Qazaxıstan, Ukrayna, ABŞ, Yaponiya, Fransa fərqlənmişlər.

Son dövrlərdə idxal və ixrac əməliyyatlarında üstünlük tədricən MDB ölkələrindən Uzaq xarici ölkələrə doğru inkişaf etmişdir. İqtisadi subyektlər MDB-dən kənar ölkələrə meyillidir. MDB dövlətləri arasında ixracda Rusiya və Gürcüstan üstünlük təşkil edirdisə, idxalda Rusiya, Qazaxıstan, Ukrayna böyük üstünlüyə malikdir. Uzaq xarici ölkələrlə ticarət əlaqələrinə aşağıda təqdim edilən cədvəldə baxdıqda isə illər üzrə artım meyli müşahidə olunur:

***Cədvəl 2***

**Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsində MDB dövlətlərinin payı (milyon ABŞ dolları ilə)**

| | Ticarət dövriyyəsi | | İdxal | | İxrac | | Saldo | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2008 | 2009 | 2008 | 2009 | 2008 | 2009 | 2008 | 2009 |
| Cəmi: | 54 925,49 | 20 818,23 | 7 169,45 | 6 119,73 | 47 756,04 | 14 698,50 | 40 586,59 | 88578,77 |
| MDB | 3 416,64 | 2 961,60 | 2 288,20 | 1 825,63 | 1 128,44 | 1 135,97 | -1 159,76 | -689,66 |
| *faizlə xüsusi çəkisi* | 6,22 | 14,23 | 31,92 | 29,83 | 2,36 | 7,73 | | |
| o cümlədən | | | | | | | | |
| Belarus | 94,90 | 141,83 | 89,69 | 136,66 | 5,21 | 5,17 | -84,48 | -131,49 |
| *MDB üzrə faizlə xüsusi çəkisi* | 2,78 | 4,79 | 3,92 | 7,49 | 0,46 | 0,46 | | |
| Qazaxıstan | 490,08 | 205,77 | 199,83 | 63,62 | 290,25 | 142,15 | 90,42 | 78,53 |
| *MDB üzrə faizlə xüsusi çəkisi* | 14,34 | 6,95 | 8,73 | 3,49 | 25,72 | 12,51 | | |
| Qırğızıstan | 4,93 | 5,31 | 1,34 | 0,75 | 3,59 | 4,56 | 2,25 | 3,81 |
| *MDB üzrə faizlə xüsusi çəkisi* | 0,14 | 0,18 | 0,06 | 0,04 | 0,32 | 0,40 | | |
| Moldova | 6,44 | 6,66 | 6,12 | 2,91 | 0,32 | 3,75 | -5,80 | 0,84 |
| *MDB üzrə* | 0,19 | 0,23 | 0,27 | 0,16 | 0,03 | 0,33 | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| *faizlə xüsusi çəkisi* | | | | | | | | |
| Özbəkistan | 29,89 | 18,14 | 22,44 | 12,37 | 7,45 | 5,77 | -14,99 | -6,60 |
| *MDB üzrə faizlə xüsusi çəkisi* | 0,88 | 0,61 | 0,98 | 0,68 | 0,66 | 0,51 | | |
| Rusiya | 1 932,45 | 1 815,88 | 1 349,56 | 1 070,93 | 582,89 | 744,95 | -766,67 | -325,98 |
| *MDB üzrə faizlə xüsusi çəkisi* | 56,56 | 61,31 | 58,98 | 58,66 | 51,65 | 65,58 | | |
| Tacikistan | 46,10 | 8,84 | 0,50 | 0,74 | 45,60 | 8,10 | 45,10 | 7,36 |
| *MDB üzrə faizlə xüsusi çəkisi* | 1.35 | 0,30 | 0,02 | 0,04 | 4,04 | 0,71 | | |
| Türkmənistan | 72,49 | 63,47 | 51,49 | 25,99 | 21,00 | 37,48 | -30,49 | 11,49 |
| *MDB üzrə faizlə xüsusi çəkisi* | 2,12 | 2,14 | 2,25 | 1,42 | 1,86 | 3,30 | | |
| Ukrayna | 739,36 | 695,70 | 567,23 | 511,66 | 172,13 | 184,04 | -395,10 | -327,62 |

Son 5 ildə Azərbaycanda iqtisadiyyatın həcminin 2,7 dəfə artması potensial əməkdaşlığı daha da genişləndirməyə imkan verir. Ötən il ölkəmizin əmtəə dövriyyəsi böyük sürətlə 50%-dən çox artmışdır. İnfrastruktur və digər layihələrin uğurla icraçısı kimi xarakterizə edilən Azərbaycanın iqtisadiyyatının dinamik inkişafı Avropa Birliyi ölkələri ilə ticarət əlaqələrini daha da genişləndirilməsini stimullaşdırır. Azərbaycanın xarici ticarət dövriyyəsinin 53,3%, o cümlədən idxalın 28%-i, ixracın 56,8%-i məhz Avropa Birliyi ölkələrinin hesabına formalaşıb.

Müasir dövrdə ölkənin xarici ticarətinin coğrafiyası getdikcə daha geniş əraziləri əhatə etməklə yanaşı, mövcud regional qruplaşmalar çərçivəsində bir sıra xüsusiyyətlərin meydana çıxması ilə səciyyələnir.

Aşağıdakı cədvəllərdən müşahidə etmək olar ki, 2008-ci ildə Azərbaycan Respublikasının Avropa Birliyi ölkələri ilə xarici ticarət dövriyyəsinin həcmi 29 milyard 12 milyon 757 min ABŞ dolları, o cümlədən idxalın həcmi 2 milyard 33 milyon 655 min ABŞ dolları, ixracın həcmi isə 26 milyard 979 milyon 102 min ABŞ dolları təşkil etmişdir. Bu dövr ərzində Avropa Birliyi ölkələri ilə xarici ticarət saldosu müsbət 24 milyard 945 milyon 446 min ABŞ dolları olmuşdur.

2007-ci illə müqayisədə, 2008-ci ildə Avropa Birliyi ölkələri ilə xarici ticarət dövriyyəsi 7,7 dəfə artmışdır.

2008-ci ildə Avropa Birliyi ölkələrinin Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 52,8%, o cümlədən idxalda 28,4%, ixracda isə 56,5% təşkil etmişdir.

***Cədvəl 3***

**Xarici ticarət dövriyyəsində Avropa Birliyi ölkələrin xüsusi çəkisi (min ABŞ dolları ilə)**

| Ölkələr | İxrac | %-lə çəkisi | İdxal | %-lə çəkisi | Dövriyyə | %-lə çəkisi |
|---|---|---|---|---|---|---|
| İtaliya | 19 220 143,80 | 40,25 | 188 508,90 | 2,63 | 19 408 652,7 | 35,34 |
| Fransa | 2 322 667,80 | 4,86 | 132 731,40 | 1,85 | 2 455 399,2 | 4,47 |
| İspaniya | 1 497 693,40 | 3,14 | 28 047,20 | 0,39 | 1 525 740,6 | 2,78 |
| Niderland | 1 353 423,00 | 2,83 | 80 292,10 | 1,12 | 1 433 715,1 | 2,61 |
| Birləşmiş Krallıq | 925 926,10 | 1,94 | 385 934,40 | 5,39 | 1 311 860,5 | 2,39 |
| Almaniya | 205 485,60 | 0,43 | 598 570,20 | 8,36 | 804 055,8 | 1,46 |
| Finlandiya | 160 782,20 | 0,34 | 245 909,70 | 3,43 | 406 691,9 | 0,74 |
| Yunanıstan | 290 884,30 | 0,61 | 6 614,40 | 0,09 | 297 498,7 | 0,54 |
| Portuqaliya | 260 991,80 | 0,55 | 4 566,30 | 0,06 | 265 558,1 | 0,48 |
| Bolqarıstan | 194 441,20 | 0,41 | 17 090,60 | 0,24 | 211 531,8 | 0,39 |
| Rumıniya | 161 077,90 | 0,34 | 40 372,80 | 0,56 | 201 450,7 | 0,37 |
| Polşa | 89 924,60 | 0,19 | 32 087,50 | 0,45 | 122 012,1 | 0,22 |
| Malta | 113 450,50 | 0,24 | 183,2 | 0,00 | 113 633,7 | 0,21 |
| Sloveniya | 82 121,40 | 0,17 | 3 744,30 | 0,05 | 85 865,7 | 0,16 |
| İsveç | 62 841,90 | 0,13 | 22 538,10 | 0,31 | 85 380,0 | 0,16 |
| Avstriya | 2 629,50 | 0,01 | 70 746,20 | 0,99 | 73 375,7 | 0,13 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Belçika | 1 061,00 | 0,00 | 59 778,30 | 0,83 | 60 839,3 | 0,11 |
| Litva | 5 318,40 | 0,01 | 20 961,10 | 0,29 | 26 279,5 | 0,05 |
| Kipr | 23 422,60 | 0,05 | 1 262,30 | 0,02 | 24 684,9 | 0,04 |
| Çex Respublikası | 1,7 | 0,00 | 21 347,20 | 0,30 | 21 348,9 | 0,04 |
| Danimarka | 16,5 | 0,00 | 18 498,00 | 0,26 | 18 514,5 | 0,03 |
| Macarıstan | 6,2 | 0,00 | 17 079,90 | 0,24 | 17 086,1 | 0,03 |
| Slovakiya | 55 | 0,00 | 13 718,70 | 0,19 | 13 773,7 | 0,03 |
| İrlandiya | 0 | 0,00 | 12 314,50 | 0,17 | 12 314,5 | 0,02 |
| Latviya | 3 974,60 | 0,01 | 3 883,30 | 0,05 | 7 857,9 | 0,01 |
| Estoniya | 761,1 | 0,00 | 5 417,10 | 0,08 | 6 178,2 | 0,01 |
| Lüksemburq | 0 | 0,00 | 1 458,00 | 0,02 | 1 458,0 | 0,00 |
| Digər | 20 777 127,3 | 43,51 | 5 129 814,6 | 71,61 | 25 906 941,9 | 47,17 |
| **Cəmi:** | **47 756 229,4** | **100,0** | **7 163 470,3** | **100,0** | **54 919 699,7** | **100,0** |

Qeyd etmək lazımdır ki, Azərbaycanın Avropa Birliyi ölkələri ilə ticarət əlaqələrində əsas yeri maşınlar, mexanizmlər, elektrotexnika avadanlıqları, xam neft, kimya sənayesi məhsulları, nəqliyyat vasitələri, az qiymətli metallar və s. üstünlük təşkil edir.

***Cədvəl 4***

**Avropa Birliyi ölkələri ilə idxal və ixrac olunan əsas mallar**

| **Malların adları** | **min ABŞ dolları** | **%-lə** |
|---|---|---|
| **İdxal (2008)** | | |
| Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıq, aparatura | 1 004 323,5 | 49,4 |
| Azqiymətli metallar və onlardan hazırlanmış məmulatlar | 178 942,0 | 8,8 |
| Kimya sənayesi məhsulları | 123 425,0 | 6,1 |
| Quru nəqliyyat vasitələri, uçan aparatlar, üzən nəqliyyat vasitələri | 56 466,7 | 2,8 |
| Müxtəlif sənaye malları | 29 425,5 | 1,4 |
| Digər | 641 072,9 | 31,5 |
| **Cəmi:** | **2 033 655,6** | **100,0** |
| **İxrac (2008)** | | |
| Xam neft | 26 334 621,2 | 97,61 |
| Digər | 644 480,9 | 2,39 |
| **Cəmi:** | **26 979 102,1** | **100,00** |

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən verilən məlumata görə,2009-cu ildə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin həcmi 20818,23 mln. ABŞ dolları, o cümlədən idxalın həcmi 6119,73 mln. ABŞ dolları, ixracın həcmi 14698,50 mln. ABŞ

dolları təşkil etmiş, xarici ticarət saldosu isə müsbət 8578,77 mln. ABŞ dolları olmuşdur.

***Cədvəl 5***

**2009-cu ildə Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsində xüsusi çəkisi olan ölkələr**

| **İxracda** | | | **İdxalda** | | |
|---|---|---|---|---|---|
| **Milyon ABŞ dolları ilə** | | **Faizlə** | **Milyon ABŞ dolları ilə** | | **Faizlə** |
| İtaliya | 3 788,44 | 25,77 | Rusiya | 1 070,93 | 17,50 |
| ABŞ | 1 746,81 | 11,88 | Türkiyə | 905,98 | 14,80 |
| Fransa | 1 326,11 | 9,02 | Almaniya | 550,97 | 9,00 |
| İsrail | 1 236,20 | 8,41 | Ukrayna | 511,65 | 8,36 |
| Rusiya | 744,95 | 5,07 | Çin | 484,82 | 7,92 |
| Tayvan | 680,39 | 4,63 | Böyük Britaniya | 274,77 | 4,49 |
| Kanada | 660,65 | 4,49 | ABŞ | 264,22 | 4,32 |
| İndoneziya | 587,48 | 4,00 | Yaponiya | 146,21 | 2,39 |
| Malayziya | 395,01 | 2,69 | İtaliya | 142,12 | 2,32 |
| Gürcüstan | 387,56 | 2,64 | Belarus | 136,66 | 2,23 |
| Digər | 3 144,90 | 21,40 | Digər | 1 631,40 | 26,67 |
| **Cəmi** | **14 698,50** | **100,00** | **Cəmi** | **6 119,73** | **100,00** |

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən verilən məlumata əsasən, 2010-cu ilin I rübü ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin həcmi 5667,67 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 1158,41 milyon ABŞ dolları, ixracın həcmi isə 4509,26 milyon ABŞ dolları təşkil etmişdir. Bu dövr ərzində Azərbaycan Respublikası 112 ölkə ilə ticarət sahəsində əməkdaşlıq etmiş və xarici ticarət saldosu müsbət 3350,85 milyon ABŞ dolları olmuşdur.

2009-cu ilin müvafiq dövrü ilə müqayisədə, 2010-cu ilin I rübü ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi 48,85%, o cümlədən ixrac 81,65% artmış, idxal isə 12,6% azalmışdır.

Xarici ticarətin inkişafın dinamikası və meyillərinin kompleks tədqiqatı zamanı ixrac-idxal əməliyyatlarının ölkə-coğrafi strukturunun öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Xarici ticarətin, xüsusilə də ixracın coğrafiyasına görə xarici ticarət münasibətlərindəki prioritetlər barədə fikir yürütmək olar.

***Cədvəl 6***

| **2010-cu ilin I rübü ərzində Azərbaycan Respublikasının əsas ticarət tərəfdaşları** | | | | | |
|---|---|---|---|---|---|
| **İxracda** | | | **İdxalda** | | |
| **Milyon ABŞ dolları ilə** | | **Ümumi ixracda xüsusi çəkisi, faizlə** | **Milyon ABŞ dolları ilə** | | **Ümumi idxalda xüsusi çəkisi, faizlə** |
| İtaliya | 1 764,44 | 39,13 | Rusiya | 213,45 | 18,43 |
| İsrail | 347,44 | 7,71 | Çin | 130,63 | 11,28 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Fransa | 318,21 | 7,06 | Türkiyə | 127,70 | 11,02 |
| İndoneziya | 272,27 | 6,04 | Ukrayna | 86,89 | 7,50 |
| ABŞ | 200,46 | 4,45 | Almaniya | 77,43 | 6,68 |
| Xorvatiya | 182,59 | 4,05 | Böyük Britaniya | 58,26 | 5,03 |
| Ukrayna | 153,10 | 3,40 | Qazaxıstan | 43,65 | 3,77 |
| Hindistan | 152,34 | 3,38 | ABŞ | 32,95 | 2,84 |
| Malayziya | 143,48 | 3,18 | Belarus | 29,40 | 2,54 |
| Rusiya | 132,59 | 2,94 | Fransa | 29,24 | 2,52 |
| Digər | 842,34 | 18,68 | Digər | 328,81 | 28,38 |
| **Cəmi** | **4 509,26** | **100,00** | **Cəmi** | **1158,41** | **100,00** |

İdxal-ixracın strukturunda maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparaturalar, bitki mənşəli məhsullar, mineral məhsullar, hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün, kimya sənayesi məhsulları, plastik kütlələr, kauçuk, rezin, onlardan hazırlanan məmulatlar, daş, gips, sement, slyuda, keramika və şüşə məmulatları, quru yol nəqliyyat vasitələri, uçan aparatlar, üzən nəqliyyat vasitələri, optik fotoqrafik ölçü, nəzarət, tibbi alət və aparatlar, saatlar, musiqi alətləri üstünlük təşkil edir.

Beləliklə, ölkələr beynəlxalq iqtisadi əməkdaşlıq və eləcə də elmi-texniki əməkdaşlıq etmək yolu ilə öz milli iqtisadiyyatının dirçəldilməsi üçün qarşıya çıxan problemləri həll etməklə istehsalın səmərəliliyini artırmaq, elm və texnikanı daha da inkişaf etdirmək yollarını axtarırlar. Bütün bunlara nail olmaq üçün ölkəmiz beynəlxalq iqtisadi və o cümlədən ticarət əlaqələrinin genişləndirilməsinə və inkişafına çalışmaqla beynəlxalq əmək bölgüsünün üstünlüklərindən yararlanmalıdır.

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri də qeyri-neft sektorunun, xüsusilə də aqrar bölmənin dayanıqlı inkişafının təmin edilməsidir. Bu məqsədlə kənd təsərrüfatı məhsullarının istehsalının stimullaşdırılması, rəqabət qabiliyyətinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi və ixracının genişləndirilməsi məqsədilə ölkəmizdə kompleks dövlət dəstəyi tədbirləri həyata keçirilir. Hazırda kənd təsərrüfatı məhsullarının istehsalı üçün sərf olunan yanacaq və motor yağlarının, mineral gübrələrin 50% güzəştlə satılması, toxum və tinglərə görə subsidiyaların ödənilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının güzəştli şərtlərlə texnika və texnoloji avadanlıqlarla təmin edilməsi, damazlıq heyvandarlığın inkişaf etdirilməsi üçün lizinq xidmətlərinin göstərilməsi, buğda istehsalçılarına səpilən hər hektar sahəyə görə əlavə 40 manat yardımın verilməsi, 2014-cü ilə qədər kənd təsərrüfatı mülkiyyətçilərinin torpaq vergisi istisna olmaqla, digər vergiləri ödəməkdən azad edilməsi belə tədbirlərdəndir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın ixracatında mineral məhsulların xüsusi çəkisi çox olmasına baxmayaraq qeyri-neft sektorunun çoxçeşidliliyi kiçik və orta sahibkarlığın sürətli inkişafının məntiqi nəticəsi kimi qiymətləndirilə bilər. Ədalətlə qeyd etməliyik ki, hələ də ixracatımızda mineral məhsulların payı yüksək olaraq qalmaqdadır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın idxalında bu gün mövcud olan məhsulları, orta və kiçik sahibkarlığın bundan sonrakı inkişafına nail olmaqla qısa zamanda ixrac dönümlü məhsullara çevirmək mümkündür.

Qeyd etmək lazımdır ki, respublikamızda ÜDM-in ümumi həcmində neft sektorunun xüsusi çəkisinin 53,1% olması, ixracın 84%-nin neft və neft məhsullarının payına düşməsi, milli iqtisadiyyatın "Holland sindromu" xəstəliyinə tutulması ehtimalının istisna olunmaması, torpaqlarımızın 20%-nin işğal altında olması, ölkədə hər səkkiz nəfərdən birinin qaçqın olması ölkəmizin ÜTT-yə İEOÖ statusu ilə üzv qəbul olunmasını əsaslandıran arqumentlər kimi istifadə oluna bilər. Ən pis halda uzunmüddətli keçid dövrü ərzində (10-15 il) respublikamıza bu statusun verilməsinə nail olmaq lazımdır. Eyni zamanda bütövlükdə İEOÖ statusunun alınması mümkün olmadıqda, bir sıra mühüm sahələrdə (məsələn: kənd təsərrüfatı) bu statusun əldə olunması tələb olunmalıdır. YUNKTAD ekspertlərinin rəyinə görə bu mümkün ola bilər. Eyni zamanda, bazar iqtisadiyyatı statusu araşdırılmalı, bu statusun Azərbaycan üçün əhəmiyyəti tədqiq edilməlidir.

ÜTT-yə üzvolma danışıqları zamanı kənd təsərrüfatının ölkə iqtisadiyyatının aparıcı sahəsi olması, aqrar sektorun yaxşı ənənələrinin olması, bu sahənin inkişafı üçün əlverişli aqroiqlim ehtiyatlarının mövcudluğu, ölkə əhalisinin yarıdan çoxunun kənd yerlərində yaşaması faktları xüsusi vurğulanmalıdır. Məlum olduğu kimi, həm ÜTT-yə üzvolma zamanı aparılan danışıqlarda, həm də bütövlükdə ÜTT çərçivəsində həyata keçirilən ticarət danışıqlarında ən çox mübahisə doğuran sahə kənd təsərrüfatı hesab olunur. Bunu son dövrlərdə üzv olmuş ölkələrin təcrübəsi, eləcə də Kankun və Honkonqda keçirilmiş Nazirlər Konfransları bir daha təsdiqləyir.

ÜTT üzvləri tərəfindən təqdim olunmuş suallara verilmiş cavablar Azərbaycanın xarici ticarət rejimi haqqında daha dolğun təsəvvür yaratmışdır. Bunun sübutu kimi hər yeni təqdim olunmuş suallar toplusunda sualların sayının azalmasını qeyd etmək olar.

İqtisadi həyatın beynəlmiləlləşməsi, Azərbaycanın ağır şərtlər altında gedən müasir dünya ilə inteqrasiyasının bütün istiqamətləri yeni imkanlar yaratmaqla yanaşı, yeni problemlər, bəzən də təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud

problem və təhlükələrin vaxtında aşkara çıxarılıb öyrənilməsi bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən məsələlərdəndir.

### 3.5. Turizmin ölkə iqtisadiyyatında rolunun artması

***Turizm*** ölkə iqtisadiyyatının inkişafının mühüm sahələrindən biridir. Başqa sahələrdən fərqli olaraq, turizm, iqtisadiyyatın inkişaf istiqaməti kimi bir çox üstünlüklərə malikdir. Belə ki, turizmə qoyulan sərmayə qısa müddətə öz bəhrəsini verir, qoyulan kapital yüksək dövretmə əmsalına malikdir. Turizmin cazibədarlığı xidmət sahələrinin durmadan genişlənməsində, qoyulan sərmayələrin qısa müddət ərzində özünü doğrultmasında və gəlirlərin konvertasiyası mümkün olan valyuta şəklində olmasındadır.

Qeyd etmək lazımdır ki, beynəlxalq turizm dünya ixracının 7-8%-ni təşkil edir. Ümumi məhsul dəyərinə görə artıq neft və avtomobil istehsalını qabaqlamışdır. 2002-ci ildə beynəlxalq turistlərin sayı 715 milyona çatmışdır. ÜTT-nin proqnozlarına görə 2020-ci ildə beynəlxalq turistlərin sayı 1602 milyon nəfər və turizmdən alınan gəlirlərin miqdarı isə 2000 milyard dollar olacaqdır. Qeyd etmək lazımdır ki, turizm Ən çox işçi qüvvəsi tələb edən sahədir. Bir nəfər xarici turistə yüksək səviyyədə xidmət göstərmək üçün 3 nəfər iş yeri lazımdır. Dünya üzrə beynəlxalq turizm sahəsində 300 min iş yeri fəaliyyət göstərir.

Azərbaycan son dövrdə inkişaf tempini sürətləndirərək, dünyanın aparıcı və inkişafda olan ölkələri sırasında öz mövqeyi, eləcə də, mövcud potensialı ilə seçilir və özünəməxsus yer qazanmışdır. Qısa bir dövr ərzində əldə olunan nailiyyətlər ölkənin milli maraqlarının zəminində formalaşmış, eləcə də, dövlət tərəfindən həyata keçirilən milli strategiya, yürüdülən ictimai, siyasi və mədəni mövqe məhz belə imicin Azərbaycan ətrafında yaranmasına gətirib çıxarmışdır. Sözsüz ki, bu uğurlar, nailiyyətlər, Azərbaycanın iqtisadiyyatına, sosial rifahının yüksəlməsinə gətirib çıxarmışdır. Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft və bununla bağlı imzalanan beynəlxalq sazişlər, müqavilələr dövlətin maliyyə vəsaitinin yüksəlməsinə və bunun müqabilində ölkənin bütövlükdə sferasının dəyişməsinə səbəb olmuşdur. Dövlət başçısı İlham Əliyevin Azərbaycan iqtisadiyyatına neft sektoru tərəfindən gələn gəlirin bərabərində, eləcə də, ondan daha artıq bir şəkildə gəlir gətirə biləcəyi turizmin inkişafını zəruri hesab etməsi, əlbəttə ki, müəyyən faktorlara əsaslanır. Ölkənin yeraltı və yerüstü sərvətləri, mövcud iqlimin olması Azərbaycan turizmi üçün lazımi şəraitin olduğunu göstərir. Qeyri-neft sahələrinin yüksəlişi ilə davamlı iqtisadi inkişafın təmin edilməsi müasir dövrdə ölkəmizdə qarşıda duran mühüm vəzifədir. Çoxsaylı tədqiqatlar göstərir ki, turizm öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur. Hazırda turizm planetar miqyasda

sürətlə inkişaf edən biznes sahələrindəndir. Dünya üzrə ümumimilli məhsulun 10 faizi ixracatın, 8 faizi Beynəlxalq turizmin payına düşür. Göstərilən xidmətlərin təqribən üçdə biri beynəlxalq turizm vasitəsilə həyata keçirilir. Dünyada əməkqabiliyyətli əhalinin 8,1 faizi turizm sənayesində və onunla bağlı iqtisadiyyat sahələrində məşğuldur.

Zəngin mədəni-tarixi irsə və əlverişli təbii şəraitə malik olan Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir. Ölkəmizdə turizmin əksər növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur.

Azərbaycan Respublikasında «2002-2005-ci illərdə Turizmin İnkişafına dair» Dövlət Proqramının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətədavamlılığı yüksəlmişdir. Azərbaycanda turistləri yerləşdirmə biznesi dinamik surətdə inkişaf edir.

Dövlət Proqramında göstərilir ki, 2002-ci ildə ölkədə fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 94 olduğu halda ötən dövr ərzində onların sayı 4 dəfə artaraq 370-ə çatmışdır. Bu obyektlərdə ümumi yerlərin sayı da 2002-ci illə müqayisədə təxminən 3 dəfə çoxdur.

Azərbaycan Respublikasında 2010-2014-cü illərdə Turizmin İnkişafına dair Dövlət Proqramı ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsi və turizm sahəsinin daha da inkişaf etdirilməsinin təmin edilməsi üçün hazırlanmışdır. Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi məqsədi ilə ölkədə turizm infrastrukturunun yüksək beynəlxalq tələblər səviyyəsində qurulmasına istiqamətlənmiş məqsədyönlü fəaliyyəti həyata keçirilir. Turizm sahəsində qabaqcıl beynəlxalq təcrübədən istifadə edilməklə səmərəli dövlət tənzimlənməsi və idarə edilməsi mexanizmlərinin yaradılması əsas şərtlərdəndir. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması məqsədi ilə görülən işlər davamlı olaraq həyata keçirilir. Turizm sahəsində normativ hüquqi bazanın və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, turizm və rekreasiya zonalarında müvafiq infrastrukturun yaradılması, ölkənin turizm potensialından istifadə imkanlarının genişləndirilməsi, ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, yeni turizm marşrutlarının yaradılması, turizm xidmətlərinin

keyfiyyətinin artırılması məqsədi ilə mütərəqqi üsulların və standartların hazırlanması və tətbiq edilməsi və bu kimi yeniliklərin Azərbaycan turizm bazarında tətbiqi yaxın 5 il ərizində tam şəkildə həllini tapacaq. Sözsüz ki, artıq bu və ya digər nailiyyətlər Azərbaycan turizm sektorunda özünü göstərir. Mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi, turizm sahəsi üçün kadr hazırlığı və ixtisasartırma sisteminin təkmilləşdirilməsi, xarici dövlətlərdə məqsədli təhsil üzrə layihələrin həyata keçirilməsi, Azərbaycanın milli-tarixi, mədəni və mənəvi irsinin, milli adət-ənənələrin dünyada təbliği, ayrı-ayrı regionların və şəhərlərin tarixini əks etdirən materialların nəşr etdirilməsi və yayılması, müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi, turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi də vacib şərtlərdəndir.

Turizmin rolunu və əhəmiyyətini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda 2011-ci ili «Turizm İli» elan etmişdir.

Mədəniyyət və Turizm Nazirliyinin apardığı araşdırmalara və statistikaya görə isə ölkəmizə təşrif buyuran turistlərin sayına nisbətən Azərbaycandan xaricə dincəlmək üçün gedənlərin sayı daha çoxdur.

Aşağıdakı cədvəldən aydın olur ki, ötən il ölkəyə təxminən 1 milyon 830 min xarici vətəndaş gəlib ki,bunun da 1 milyon 430 mini turist olub. Maraqlıdır ki, 2009-cu ildə ölkə hüdudlarını 2 milyon 300 min nəfər tərk edib. Onların əksəriyyətinin turist olduğu bildirilir.

***Cədvəl 1***

**Azərbaycan Respublikasının sərhədini keçən və təndaşların sayı haqqında məlumat*)**

| | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|
| **Sərhədi keçən vətəndaşların sayı, nəfər** | **5528570** | **6247237** | **6096490** | **5874533** | **8041933** | **8 345 355** |
| **o cümlədən:** | | | | | | |
| Azərbaycan vətəndaşları | 3052023 | 3703408 | 3575951 | 3231641 | 4259851 | 4 690 703 |
| Xarici ölkə vətəndaşları | 2476547 | 2543829 | 2520539 | 2642892 | 3782082 | 3 654 652 |
| **Azərbaycana gələn vətəndaşların sayı, cəmi** | **2857905** | **3155786** | **3001984** | **2932994** | **3996418** | **4 158 595** |
| **o cümlədən:** | | | | | | |
| Azərbaycan vətəndaşları | 1578527 | 1873643 | 1740023 | 1600293 | 2097479 | 2 328 228 |
| Xarici ölkə vətəndaşları | 1279378 | 1282143 | 1261961 | 1332701 | 1898939 | 1 830 367 |
| **Azərbaycandan gedən vətəndaşların sayı, cəmi** | **2670665** | **3091451** | **3094506** | **2941539** | **4045515** | **4 186 760** |

| o cümlədən: | | | | | | |
|---|---|---|---|---|---|---|
| Azərbaycan vətəndaşları | 1473496 | 1829765 | 1835928 | 1631348 | 21623722 | 2 362 475 |
| Xarici ölkə vətəndaşları | 1197169 | 1261686 | 1258578 | 1310191 | 1883143 | 1 824 285 |

*)2005-2006-cı illərin göstəriciləri Dövlət Gömrük Komitəsinin, 2007-ci il və sonrakı illərin göstəriciləri Dövlət Sərhəd Xidmətinin məlumatları əsasında qəbul edilmişdir.

Bütün bunları nəzərə alan Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev xaricə turist axınının qarşısını almaq üçün cari ildə turizm mərkəzlərində qiymətlərin aşağı salınması ilə bağlı göstərişlər verib. Bu tədbirlərin nəticəsi isə ilin sonunda təqdim edilən statistikada bəlli olacaq.

Hal-hazırda Azərbaycanda turistlər üçün nəzərdə tutulmuş yataq yerlərinin sayı 30 mindən çoxdur. Mədəniyyət və Turizm Nazirliyinin nəzdində 137 turizm şirkəti, 57 otel və 48 restoran fəaliyyət göstərir. Turizm İnformasiya Mərkəzləri aşağıdakılardır:

- Lahıc Turizm İnformasiya Mərkəzi;
- Qala kəndində Turizm İnformasiya Mərkəzi;
- Heydər Əliyev adına Beynəlxalq Hava Limanı Turizm İnformasiya Mərkəzi;
- Zaqatala Turizm İnformasiya Mərkəzi;
- Naxçıvan Turizm İnformasiya Mərkəzi;
- Gəncə Turizm İnformasiya Mərkəzi;
- Quba Turizm İnformasiya Mərkəzi;
- Lənkəran Turizm İnformasiya Mərkəzi;
- Şəki Turizm İnformasiya Mərkəzi;
- Xaçmaz Turizm İnformasiya Mərkəzi;
- Şamaxı Turizm İnformasiya Mərkəzi;
- Bakı Turizm İnformasiya Mərkəzi.

Qeyd etmək lazımdır ki, son 10 ildə turizmin inkişafında xeyli iş görülmüşdür. Belə ki, Qusar rayonunda, Şahdağın ətəklərində salınan Qışyay Turizm Kompleksi həm təyinatına, həm də nadir layihə strukturuna görə xüsusi önəm daşıyır. Bu kompleksdə gündə 10 min turist istirahət edəcək. Layihə Avstriya, İsveç, Türkiyə, ABŞ, İtaliya və Birləşmiş Ərəb Əmirliklərinin ən qabaqcıl şirkətləri tərəfindən icra olunur.

Turizmin inkişafına yönəlmiş çoxsaylı tədbirlər sırasında Bakı şəhərində məşhur özəl şirkətlər tərəfindən inşa olunan mehmanxana kompleksləri, Qəbələdə inşa olunan turizm potensialı da diqqəti cəlb edir. Beynəlxalq standartlara uyğun mehmanxana şəbəkəsinin inkişafı bu sahədə çalışan kadrların hazırlanması zərurətini meydana çıxarır.

Qeyd etmək lazımdır ki, Azərbaycan təbii resursları və kurort-rekreasiya ehtiyatlarına görə çox zəngindir. Xəzər dənizi sahil zonasının təbii

mühiti insan istirahəti və müalicəsi baxımından çox yararlıdır. Bolluca günəş radiasiyası, uzun və geniş çimərliklərdəki narın qumlar və s. burada kurort-rekreasiya imkanlarının Qafqazın məşhur Qara dəniz sahillərindən üstünlüyünə əyani sübutdur.

# IV FƏSİL

# GÖMRÜK SİYASƏTİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

*«Ölkəmizin iqtisadi mənafeyi və təhlükəsizliyi etibarlı surətdə qorunur»*

**İlham Əliyev**

## 4.1. Milli iqtisadiyyatın inkişafında gömrük siyasətinin rolu və onun təkamülü

Respublikamızın iqtisadiyyatının sabit artım mərhələsinə daxil olması, sosial-iqtisai, demoqrafik, ekoloci problemlərin dinamik tarazlığına istiqamətlənən yeni tipli milli iqtisadiyyatın yaradılmasını tələb edir. Məhz son dövrdə Respublika Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu islahatlar nəticəsində sosial-iqtisadi inkişafda böyük uğurlar qazanılıb. Belə ki, 2003-2010-cu illərdə Azərbaycanda ümumi daxili məhsul 7,2 milyard manatdan 41,6 milyard manata qalxmış, artım 5,7 dəfə olmuşdur.

Dünya ölkələrinin tarixi inkişaf təcrübəsinə əsaslanaraq beynəlxalq ticarət nəzəriyyəsi və beynəlxalq ticarətin çoxillik inkişaf tarixinə nəzər salsaq, görərik ki, azad ticarət həyata keçirilməklə beynəlxalq ixtisaslaşmanın ortaya çıxardığı bütün üstünlüklərdən faydalanmaq mümkündür. Lakin tam sərbəst xarici ticarət yalnız nəzəri cəhətdən mümkündür. Təcrübədə isə dövlətlər xarici ticarətə bu və ya digər şəkildə müdaxilə edirlər. Bu isə xarici iqtisadi siyasətin mühüm tərkib hissəsi olan gömrük siyasətinin həyata keçirilməsini nəzərdə tutur.

Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin uyğun gömrük rejimləri müəyyən edilməsi vasitəsilə keçirilməsinin dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini təyin edir. Onun əsas vasitəsini gömrük-tarif sistemi təşkil edir. Gömrük tarifləri gömrük rüsumu alınan malların sistemləşdirilmiş siyahısından ibarətdir.

Beynəlxalq ticarət təcrübəsində azad ticarətin həm bütövlükdə dünya iqtisadiyyatına, həm də ayrı-ayrı ölkələrə bir çox faydalar bəxş etdiyi halda, gömrük rüsumlarından istifadənin səbəblərini araşdırmaq mühüm əhəmiyyət kəsb edir.

Gömrük tariflərinin tətbiqi ölkənin ümumi iqtisadiyyatında, xüsusən də xarici iqtisadi fəaliyyətində bəzən mənfi nəticələr doğursa da, olduqca mühüm əhəmiyyətə malikdir və istər azad ticarət, istərsə də proteksionist ticarət siyasəti həyata keçirən ölkələrdə də onun tətbiqi labüddür.

Gömrük tariflərinin tətbiqinin ölkə iqtisadiyyatına, o cümlədən xarici iqtisadi fəaliyyətə (XİF) nə kimi təsirlər göstərdiyi və hansı nəticələrə gətirib çıxardığı barədə iqtisadçılar bir çox qənaətə gəlmişlər.

Gömrük tariflərinin tətbiq olunmasının mənfi və müsbət cəhətlərini təhlil edərək amerikan iqtisadçısı P.X.Lindert aşağıdakı nəticələrə gəlir:

1. Gömrük tarifləri ticarət edən ölkələrdə, o cümlədən onun təşəbbüsçüsü olan ölkədə rifah səviyyəsini çox vaxt aşağı salır.
2. Bir qayda olaraq tariflərin qoyulması ilə əldə edilən nailiyyətlərə başqa yollarla, özü də daha yaxşı nəticələrlə nail olmaq mümkündür.
3. Sərbəst ticarət siyasətindən kənara çıxmaq isə aşağıdakı hallarda özünü doğruldur:

a) "Optimal tarif"dən istifadə olunduqda: əgər ölkə hər hansı bir malın dünya qiymətinə təsir göstərə bilirsə, tarifin elə bir səviyyəsini tapmaq olar ki, ölkə xalis mənfəət əldə etsin;

b) tarif ən optimal qərar kimi qəbul olunduqda: əgər ölkə iqtisadiyyatında daxili həll olunmaz problemlər mövcuddursa, tarifin tətbiqi bəzən mövcud iqtisadi passivlikdən faydalı ola bilir;

c) ayrı-ayrı xalis xarici ticarət problemləri həll edildikdə, bəzən gömrüklərin tətbiqi başqa iqtisadi tədbirlərdən daha səmərəli olur;

d) gömrük rüsumları idxalatla rəqabət aparan istehsalçılar üçün həmişə sərfəlidir, baxmayaraq ki, millətin ümumi rifah səviyyəsi bu zaman aşağı düşür.

Hər hansı bir ölkədə tariflərin doğurduğu iqtsadi nəticələri istər makroiqtisadi baxımdan, istərsə də bu və ya digər mal və yaxud da məlum bazar üçün araşdırıb meydana çıxarmaq mümkündür. Bu nəticələri daha aydın anlamaq üçün mühakimələrimizi yalnız bir mal üzərində aparaq. Bu zaman fərz edək ki, zövqlər, digər malların qiymətləri, istehlakçı gəlirləri, texnologiya və istehsal xərclərinə təsir edən amillər sabit qalır.

Fərz edək ki, idxala qoyulan gömrük tarifi malın ölkə daxilindəki qiymətini vergi miqdarı qədər yüksəldir. Onda gömrük vergisinin tətbiqi nəticəsindən daxili qiymətlərin yüksəlməsi istehsalını tətbiq edəcək və daxili istehsal inkişaf edəcəkdir. Bütün bunların nəticəsində isə idxalın həcmi müvafiq surətdə azalacaqdır.

Gömrük tariflərinin tətbiqinin bir nəticəsi də istehlakçılara olan təsirdən ibarətdir. Belə ki, onun tətbiqindən ilk növbədə istehlakçılar ziyan çəkə bilər. İstehlakçıların xarici malları satın alması onu göstərir ki, onlar məhz bu mallara üstünlük verirlər. Lakin gömrüklərin qoyulması ilə əlaqədar olaraq istehlakçılar bu malların alınmasına daha çox pul sərf edəcəklər və yaxud onlardan az miqdarda satın almağa məcbur olacaqlar. Ona görə də gömrüklər istehlakı məhdudlaşdırır. İstehlakın azalması idxal olunan malın tələb elastikliyinə təsir göstərir və idxalı da azaldır. İstehlakın azalması isə əhalinin rifah səviyyəsinə mənfi təsir göstərir. Nə-

zərə almaq lazımdır ki, idxal mallarının qiymətinin artması, son nəticədə yerli malların da qiymətinin artmasına səbəb olur.

*Gömrük tariflərinin himayəçilik rolu.* Gömrük vergilərinin, idxal mallarının daxili qiymətlərini artırması yerli istehsalçıları xarici rəqabətdən qoruyaraq istehsalın genişlənməsi üçün şərait yaradır. Bunun nəticəsində daxili istehsalın miqdarı xeyli artır. İstehsalçılar maddi və maliyyə ehtiyatlarını iqtisadiyyatın başqa sahələrində çıxararaq yüksək qiymətlərlə rəqabətə davam gətirəcək bu sahəyə kapital qoya biləcəklər.

Lakin, müasir iqtisadçıların əksəriyyəti hesab edirlər ki, sərbəst ticarətin maddi faydaları daha çoxdur. Himayəçilik milli istehsalçılara rəqabət təzyiqini azaldır və son nəticədə istehsalın səmərələliyini də azaldır, məhdud mənbələrin israfçılığına yol açır. Çünki hər bir vahid istehsal artımı daha yüksək real istehsal xərcləri ilə başa gəlir. Bundan başqa, əgər himayəçilik siyasəti uzun müddət birtərəfli qaydada izafi tətbiq edilərsə, izafi qorunan müəssisələr gömrük divarları arasında istehsalın məhsuldarlığının artırılması qayğısına qalmır, onların yeni və ən yeni texnologiyanın tətbiqinə marağı azalır.

Onu da nəzərə almaq lazımdır ki, idxal ilə rəqabət vəziyyətində olan mal istehsal edən istehsalçılar tarifin tətbiqindən o zaman udurlar ki, tarif real olaraq idxalı azaltmış olsun. İstehlakçıya idxal malı nə qədər baha gəlirsə, o, bir o qədər çox yerli mala üz tutur. Bu zaman isə yerli istehsalçılar həm daha çox mal satışından, həm də yüksək qiymətlərdən faydalanırlar.

Lakin ümumi ölkə miqyasında götürülərsə, tarif tətbiqindən istehlakçıların itkisi yerli istehsalçıların əldə etdiyi mənfəətdən daha çoxdur. Çünki istehsalçılar yalnız yerli malların qiymətinin artmasından mənfəət əldə etdikləri halda, istehlakçılar həm yerli, həm də xarici malları yüksək qiymətlə satın almağa məcburdurlar.

*Gömrük tarifləri dövlətin gəlir mənbəyi kimi.* Tarifin idxalatçı ölkədə iqtisadi nəticələri yalnız istehsalçı və istehlakçıların vəziyyətinə təsiri ilə bitmir. Gömrük qadağanedici olmadıqda o, dövlətə gəlir gətirir və dövlətin mühüm gəlir mənbələrindən birini təşkil edir. Gömrük gəlirindən daxil olan verginin ümumi miqdarı idxal edilən malın miqdarının mal vahidinə qoyulmuş vergi məbləğinə vurulması yolu ilə hesablanır.

Qeyd etmək lazımdır ki, dünya ölkələrində "Optimal" gömrük tarifləri nəzəriyyəsi geniş yayılmışdır. Klassik xarici ticarət nəzəriyyəsi "optimal" gömrük tariflərinin tətbiq edilməsi ilə "sərbəst ticarət" ideyasından müəyyən qədər kənarlaşmağı mümkün hesab edir. Bunun mahiyyəti odur ki, əgər ölkə kifayət qədər böyükdürsə, o, idxal olunan malların qiymətini bu mallara olan tələbi azaltmaqla aşağı sala bilər. Bu halda həmin ölkə "ticarət şərtlərini" yaxşılaşdırmaq, yəni xarici satıcıları qiymətləri aşağı salmağa məcbur etmək üçün gömrük tarifləri qəbul edə bilər. Təcrübədə

belə hal istehlakı az elastiklik səviyyəsinə malik olan kənd təsərrüfatı malları üçün xarakterikdir.

Bu halda xarici satıcı idxal rüsumu tətbiq edildikdən sonra mühüm ixracat bazarını itirməmək üçün qiymətləri aşağı salmağa məcbur olur.

Belə vəziyyət "Masler paradoksu" adlanır və aşağıdakı qrafikdə öz əksini tapmışdır.




**Qrafik 1.**

Qrafikdə $ƏƏ_s$ xətti gömrük tarifi tətbiq edilənədək bazarda mala olan təklifin dinamikasını göstərir; $ƏƏ_s^n$ xətti T tarifi tətbiq edildikdə bazarda təklifin vəziyyətini göstərir ki, bu zaman xarici satıcı bazarı itirməkdən qorxaraq T tarifinin miqdarından çox, yəni $P_1P_2$ qədər aşağı salır; $ƏƏ_s^{n+t}$ xətti tarif tətbiq edildikdən sonra mal təklifini əks etdirir. $Q_1$, $Q_2$, $Q_3$ parametri alınan malların müvafiq miqdarını, $DD_1$ xətti isə qiymətdən asılı olaraq idxal malına olan tələbi göstərir.

Qrafikdən göründüyü kimi, qiymətlər aşağı düşdükcə istehlakçı məsrəflərinin həcmi satışın ümumi həcminin $Q_1$-dən $Q_2$-yə qədər birgə artması $P_3D_1Q_1O$ dördbucaqlısı əvəzinə $P_2D_2Q_2O$ dördbucaqlısının sahəsi ilə müəyyən ediləcək, istehlakçı faydası isə "a" dördbucaqlısı və "b" və "c" üçbucaqlısı miqdarında olacaqdır.

Nəzərə almaq lazımdır ki, ixracatçıların qiyməti aşağı salması üçün əsas şərt idxal edən və gömrük rüsumunu artıran ölkədə istehlakın böyük həcmdə olmasıdır.

*Gömrük rüsumunun real himayəçilik səviyyəsi.* Hər hansı bir mala qoyulan gömrük tarifi yalnız həmin malı istehsal edən firmaları himayə

etmir. O, həmçinin həmin firmada işləyən fəhlə və qulluqçuların gəlirlərini də himayə edir.

İnkişaf etmiş sənaye ölkələrində gömrük tarifləri elə qurulur ki, vergiyə cəlbolunma səviyyəsi malın emalı dərəcəsi artdıqca çoxalır. Məsələn, emal olunmamış xam pambıq emalında gömrük rüsumu qoyulmadığı halda, pambıq-parça ipliyi üçün bu tarif 7-9%, hazır məhsul üçün isə 20% səviyyəsində ola bilir.

Bununla da hər hansı bir ölkənin pambıq-parça məmulatı istehlakçısı rüsumsuz xarici pambıq satın alaraq real müdafiə səviyyəsinə malik olur ki, bu da gömrük rüsumunun nominal miqdarından xeyli çoxdur. Təcrübədə bu miqdar rüsumsuz və ya rüsumla idxal olunan xammalın xüsusi çəkisi nə qədər yüksəkdirsə, bir o qədər çox olur. Gömrük müdafiəsinin real səviyyəsi aşağıdakı formula ilə müəyyən edilir:

$$q = \frac{a_1 t_1}{t - a_1}$$

Burada : **t** – son məhsul idxalına qoyulan gömrük rüsumunun nominal səviyyəsi;

$a_1$ – gömrük rüsumu olmadığı halda, son məhsulun qiymətində idxal olunan xammal dəyərinin payı;

$t_1$ – idxal olunan xammala qoyulan nominal tarif.

Formuladan aydın olur ki, müdafiə səviyyəsi yalnız xammal və hazır məhsula qoyulan rüsumun fərqi artdığı halda yüksəlmir. O, həmçinin malın emal səviyyəsi azaldıqca da artır. Şübhəsiz, inkişaf etmiş sənaye ölkələrinin belə siyasəti xammal ixrac edən inkişaf etməkdə olan ölkələrin ziyanınadır.

70-ci illərdə aparılmış hesablamalar Avropa İqtisadi Birliyi (indiki Avropa Birliyi), ABŞ və Yaponiyada emal olunan malların gömrük müdafiəsinin həqiqi səviyyəsini üzə çıxardı. Günümüzdə nominal və real tarif nisbətləri arasındakı fərqlər ciddi nəticələr doğurur. İnkişaf etmiş sənaye ölkələrində ən aşağı nominal tariflər xammala, ən yüksək tariflər isə sənaye məhsullarına tətbiq edilir. Belə vəziyyətdə sənaye məhsullarına tətbiq edilən real tariflər isə daha yüksəkdir ki, bu da inkişaf etməkdə olan ölkələrin sənaye ölkələrinə hazır mal ixrac etməsi yolunda maneədir.

Qeyd etmək lazımdır ki, nəzəriyyəçilər arasında "sərbəst ticarət" tərəfdarları üstünlük təşkil etsə də, bəzən siyasətçilər arasında "himayəçilik" tərəfdarları çoxluq təşkil edir. Bu zaman onlar himayəçilik siyasətini müdafiə etmək üçün adətən aşağıdakı arqumentləri irəli sürürlər:

*Ölkə müdafiəsinin təmin edilməsi zərurəti.* İqtisadi mahiyyətdən çox, hərbi-siyasi xarakter daşıyan bu arqument, ölkənin müdafiəsini təmin etmək üçün lazım olan strateji material və malları buraxan sahələrin gömrük rüsumu ilə himayə olunması məqsədini güdür. Bu ideyanın tərəf-

darları göstərirlər ki, qeyri-sabit dünyada hərbi-siyasi məqsədlər (özünü müdafiə) iqtisadi məqsədlərdən (dünya ehtiyatlarının səmərəli yerləşdirilməsi) yüksək olmalıdır. Təcrübədə bu siyasətin həyata keçirilməsi və ehtiyatların strateji sahələrin xeyrinə bölüşdürülməsi milli təhlükəsizliyin təminatını yüksəldir, lakin istehsalın səmərəliliyini azaldır.

*Daxili məşğulluğun artırılması.* Ölkə daxilində işçi yerlərinin sayını, xüsusən istehsalı durğunluq dövründə qoruyub saxlamaq məqsədilə də siyasətçilər bəzən bu və ya digər mal növlərinə rüsum qoyulmasını tələb edirlər. Bu tələb makroiqtisadi göstəricilərin təhlili nəticəsində meydana çıxır. Belə ki, məlum olduğu kimi, açıq iqtisadiyyatda məcmu məsrəflər = istehlak xərcləri + kapital qoyuluşları + dövlət məsrəfləri + xalis ixracat. Burada xalis ixracat ixracatla idxalat arasında olan müsbət fərqdir. Belə bir şəraitdə idxalatın azaldılması nəticəsində məcmu məsrəflərin artması gəlirlərin və məşğuliyyətin əhəmiyyətli dərəcədə artmasına səbəb olaraq ölkənin daxili iqtisadi inkişafına müsbət təsir göstərir. Bu zaman başqa məsələləri də nəzərə almaq lazımdır:

1. Hər hansı bir məhsul növü üzrə idxalın azalması məşğuliyyətin strukturuna təsir göstərsə də onun ümumi səviyyəsini dəyişdirə bilmir, çünki məşğuliyyət bir sahədə artsa da, o biri sahədə azalır.

**2.** Məlumdur ki, bütün ölkələr idxal məhdudiyyəti qoyduqda eyni zamanda müvəffəqiyyət qazana bilməzlər. Bir ölkənin ixracı o biri ölkə üçün idxaldır. Ona görə də idxalın məhdudlaşdırılması ilə məşğuliyyət səviyyəsinin artırılması "qonşunu müflis etmək" siyasətidir.

**3.** Belə halda rüsumdan ziyan çəkən qonşu ölkə də cavab tədbiri görməyə məcbur olacaqdır. Bu isə ticarət sədlərinin yenidən artırılması kimi qorxulu meylin başlanmasına yol açа bilər.

*Sabitlik naminə istehsalın diversifikasiyasının artırılması.* Bu arqument belə bir müddəaya əsaslanır ki, yüksək ixtisaslaşmış iqtisadiyyatda (məsələn, Azərbaycanın neft iqtisadiyyatı və s.) gəlirlər dünya bazarında konyuktura görə gəlir dəyişmələrindən ciddi surətdə asılıdır. Ona görə də hesab olunur ki, sənayenin diversifikasiyasını (buraxılan məhsul çeşidlərinin sayının artırılması) təşviq etmək və xaricdən asılılığı azaltmaq üçün gömrük və ticarət sədlərinin qoyulması lazımdır. Bu yolla xarici siyasi və iqtisadi sarsıntılardan qorunmaqla daxili sabitliyin təmin olunması vacib hesab edilir.

*İqtisadiyyatın yeni yaranmış sahələrinin qorunması*. Ən çox istifadə olunan bu arqumentin mənası ondan ibarətdir ki, zəif inkişaf etmiş ölkələrdə iqtisadiyyatın yeni sahələrini müdafiə etmək üçün müvəqqəti tariflərin tətbiqi özünü doğruldur. Ona görə ki, həmin tariflər qüvvədə olduğu müddətdə yaradılan yeni sənaye sahəsi təcrübə toplayana və istehsal xərclərini xarici mal ilə gömrüyün köməyi olmadan rəqabət mübarizəsinə davam gətirə biləcək həddə qədər azaldanadək idxalı məhdudlaşdırır. Hesab olunur ki, bu himayəçilik növü yalnız həmin siyasəti yenidən inki-

şaf etməkdə olan ölkə üçün deyil, həm də ümumiyyətlə, dünya təsərrüfatı sistemi üçün faydalıdır. Bu zaman əsas məsələ tarifin müvəqqəti olması arqumentidir.

Müasir mərhələdə yeni texnologiyanın tətbiqi ilə yeni-yeni istehsal sahələrinin vaxtaşırı meydana gəlməsi həmin siyasətin gələcəkdə də həyata keçiriləcəyinə dəlalət edir. Bu siyasətdən yalnız inkişaf etməkdə olan ölkələr deyil, bir sıra yüksək inkişaf etmiş sənaye ölkələri də (xüsusilə Yaponiya kimi) istifadə edirlər.

Həmin siyasətin əleyhinə aşağıdakı arqumentlər gətirilir:

1. Gömrük qanunlarını dəyişdirmək o qədər də asan olmadığı üçün müvəqqəti xarakter daşımaya bilər. Belə bir təhlükə qeyd olunur ki, gənc sahələr rentabelliyi təmin etmədən, gömrükdən əldə etdiyi mənfəətin bir hissəsini həmin qanunların saxlanılması üçün rüşvət və s. şəkildə siyasi qüvvələrə sərf edə bilərlər.

**2.** Yeni yaranmış sahələrin müdafiəsi üçün digər iqtisadi tədbirlər (məsələn, birbaşa subsidiyalar) həyata keçirmək olar.

**3.** Tarif midafiəsi heç də həmişə səmərəli ola bilməz.

Gənc dövlətlərin dövlət gəlirlərinin qorunması zərurəti. İdxaldan vergi alınması sosial problemlər içində boğulan, zəif inkişaf etmiş ölkələr üçün bu problemləri həll etmək məqsədilə həyata keçirildikdə özünü doğruldur. Milli gəliri zəif inkişaf etmiş bu ölkələrin çoxunda gömrük gəlirləri büdcə gəlirlərinin 1/4 ilə 3/5-i (25-60%) arasında olur. Burada çox vaxt sosial problemlərin həlli iqtisadi səmərə məfhumundan üstün planda durur.

*Himayəçi gömrük tarifinin tətbiqinə əks arqumentlər.* Sərbəst ticarətin iqtisadi çiçəklənməyə yol açdığı, himayəçiliyin isə əks nəticələr doğurduğu haqda aşağıdakı tarixi faktlar irəli sürülür:

1. ABŞ konstitusiyası ayrı-ayrı ştatlara rüsum tətbiq etməyi qadağan edərək Amerikanı nəhəng azad iqtisadi zonaya çevirmişdir. İqtisadçılar ABŞ-ın iqtisadi cəhətdən çiçəklənməsində bu məsələyə böyük əhəmiyyət verirlər.

2. XIX əsrin ortalarında Böyük Britaniyanın nisbətən azad beynəlxalq ticarət siyasəti yeritməsi onun sənayeləşməsində mühüm rol oynamışdır.

3. Avropa İqtisadi Birliyinin yaranması üzv ölkələr arasında gömrük rüsumlarının aradan qaldırılmasına yol açdı. İqtisadçılar yekdil olaraq göstərirlər ki, bu son onilliklərdə Qərbi Avropanın sürətli inkişafında vacib amil olmuşdur.

4. 30-cu illərin ortalarından dünyada gömrük sədlərinin azalma meyli, xüsusən II Dünya müharibəsindən sonra dünya iqtisadiyyatının sürətli inkişafına yol açmışdır.

5. İnkişaf etməkdə olan ölkələrin inkişaf yolunun təhlili göstərir ki, milli sənayeni müdafiə məqsədilə idxal məhdudiyyətini geniş tətbiq edən

ölkələrin iqtisadi inkişaf sürəti nisbətən zəif, açıq iqtisadiyyat siyasəti yeridən ölkələrinki isə yüksək olmuşdur.

Beləliklə, bütün deyilənlərdən belə nəticəyə gəlmək olar ki, gömrük tariflərinin tətbiqi ölkənin ümumi iqtisadiyyatında, xüsusən də xarici iqtisadi fəaliyyətində bəzən mənfi nəticələr doğursa da, olduqca mühüm əhəmiyyətə malikdir və istər azad ticarət, istərsə də proteksionist ticarət siyasəti həyata keçirən ölkələrdə də onun tətbiqi labüddür.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra seçdiyi dövlət quruluşu və iqtisadiyyatın inkişaf istiqamətləri ölkə iqtisadiyyatını xarici müdaxilənin zərərli təsirlərindən qorumağa, milli istehsalı müdafiə etməyə qadir olan və bütövlükdə dövlətin iqtisadi təhlükəsizliyini təmin edə biləcək orqanın yaradılmasını zəruri etdi. Keçid dövrünün ilk illərində müstəqil Azərbayan dövlətinin idarəetmə sisteminin aparıcı elementlərindən biri – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. 1995-ci ildən başlayaraq Azərbaycan Respublikası gömrük orqanlarının fəaliyyətində köklü dəyişikliklər baş verdi. Gömrük sistemi və infrastrukturu yenidən quruldu və bütövlükdə gömrük işinin məzmununa yenidən baxıldı. İnkişaf etmiş ölkələrin gömrük təcrübəsinin öyrənilməsi, beynəlxalq tələblərə cavab verən gömrük qanunvericiliyinin yaradılması və tətbiqi, Azərbaycan Respublikası gömrük xidmətinin və gömrük əməliyyatlarının təkmilləşdirilməsi kimi mühüm prinsiplər bu yeniləşmənin əsasını təşkil etdi.

Təşkilati tədbirlərlə bir vaxtda dövlətin gömrük siyasəti də formalaşdırıldı. Dövlətin gömrük siyasətinin başlıca məqsədi ölkədə güclü gömrük sistemi yaratmaq idi.

Azərbaycan dövləti keçid dövrünün ilk illərində respublikada güclü gömrük sisteminin formalaşmasına xüsusi diqqət yetirdi və buna qısa bir zamanda nail oldu.

Gömrük sistemi – ümumi anlayış olub, yalnız gömrük siyasətini həyata keçirən dövlət və digər icra hakimiyyəti strukturları deyil, habelə onların fəaliyyət formalarıdır.

Müstəqil Azərbaycan dövlətinin hazırda həyata keçirdiyi iqtisadi siyasətin mühüm tərkib hissəsini gömrük siyasəti təşkil edir.

Gömrük siyasəti – Azərbaycan Respublikasının gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin daha səmərəli tənzimlənməsi, daxili bazarın qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin iqtisadi siyasətindən irəli gələn vəzifələrin həyata keçirilməsi, habelə beynəlxalq normalara uyğun gömrük işinin aparılmasıdır. Gömrük işinin hüquqi əsasını şərti olaraq 3 yerə bölürlər: konstitusiya normaları, gömrük işini tənzimləyən qanunlar, cari normativ-hüquqi aktlar.

Azərbaycan Respublikasında gömrük işini və gömrük siyasətini Dövlət Gömrük Komitəsi həyata keçirir.

Azərbaycan Respublikasının gömrük siyasəti müasir mərhələdə iqtisadiyyatın, maliyyənin, ümumi şəkildə desək, dövlətin daxili və xarici iqtisadi fəaliyyətinin əsasını təşkil etdiyindən, bu siyasətin düzgün həyata keçirilməsi respublikamızda aparılan iqtisadi islahatlarla sıx surətdə bağlıdır. Yəni müxtəlif inkişaf mərhələlərində gömrük siyasəti dəyişikliklərə məruz qalsa da, onun əsas məzmunu olan dövlətçilik həmişə öz mAhiyyətini saxlamışdır.

Müasir mərhələdə gömrük siyasətinin əsas xüsusiyyəti yeni iqtisadi münasibətlərə keçidlə əlaqədar olaraq onun forma və məzmununda yeniliklər edilməsi, tarixən qazanılmış müsbət keyfiyyətlərin qorunub saxlanılması və beynəlxalq təcrübənin nailiyyətlərindən istifadə olunması əsasında təkmilləşdirilməsidir.

Gömrük siyasətinin məqsədi xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin gömrük mexanizmini hərəkətə gətirən və dövlət büdcəsinin gəlir hissəsində əhəmiyyətli yer tutan rüsum və yığımların toplanmasını təmin edən strateci məsələlərin həyata keçirilməsidir.

Gömrük siyasətinin inkişafı xarici iqtisadi fəaliyyəti tənzimləmə mexanizminin beynəlxalq tələblərə uyğunlaşdırılması və milli iqtisadiyyatın maraqlarının dünyəvi qaydalar nəzərə alınmaqla müdafiəsi ilə bağlıdır.

Milli iqtisadiyyatı xarici mənfi təsirlərdən qorumaq, eyni zamanda daxili bazara keyfiyyətsiz malların idxalının qarşısını almaq məqsədilə hərtərəfli düşünülmüş tədbirlər həyata keçirilməlidir.

Gömrük siyasətinin başlıca vəzifəsi – Azərbaycan dövlətinin iqtisadi maraqlarının və təhlükəsizliyinin təmin edilməsidir. Qaçaqmalçılıq, gömrük qaydalarının və vergi qanunvericiliyinin pozulması hallarına qarşı mübarizə aparılması, narkotik vasitələrin, silahların, Azərbaycan xalqının bədii və arxeoloci sərvətlərinin, eləcə də intellektual mülkiyyətin, nadir fauna və flora nümunələrinin qeyri-qanuni daşınmasının qarşısının alınması hüquq-mühafizə fəaliyyətinin prinsipial müddəalarını əsas tutan gömrük orqanlarının ən ümdə vəzifəsidir.

Gömrük siyasətinin hüquq-mühafizə sahəsində səmərəliliyinin göstəricisi qaçaqmalçılığın ictimai təhlükəli mütəşəkkil formalarının sistemli şəkildə aşkar edilməsi və qarşısının alınmasıdır.

Bu siyasətin dövlətin iqtisadi maraqlarının qorunmasına yönəldilmiş əsas istiqamətlərindən biri xarici iqtisadi fəaliyyət iştirakçılarının valyuta əməliyyatlarına mükəmməl nəzarət sisteminin yaradılmasıdır.

Müasir mərhələdə gömrük siyasətinin hazırlanması, onun ölkədəki iqtisadi vəziyyətin dəyişməsinə reaksiyası və çevikliyi, milli maraqların qorunmasına istiqamətləndirilməsi, eləcə də bir sıra digər məsələlərə yeni münasibət formalaşdırılması zərurəti meydana çıxarmışdır.

Bu problem, demək olar ki, bütün fəaliyyət sahəsini və bütün idarəetmə səviyyələrini əhatə edir və kompleks xarakter daşıyır.

İlk növbədə xarici iqtisadi fəaliyyətin liberallaşdırılması və Azərbaycan Respublikasının beynəlxalq əmək bölgüsündə daha fəal iştirakı şəraitində onun tənzimlənməsinin və gömrük siyastəinin formalaşdırılmasının elmi əsasları hazırlanmalıdır. Bu zaman milli istehsalçıların səmərəli müdafiəsinin üsul və vasitələri nəzərdə tutulmalı və əsaslandırılmalıdır.

Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatlarına üzv olmağa hazırlaşması, müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulması ilə əlaqədar olaraq öhdəliklər götürməsi gömrük siyasətinin, xarici iqtisadi fəaliyyətin tənzimlənməsi qaydalarının və proseduralarının beynəlxalq normalara uyğunlaşdırılması məsələsini ön plana çəkir. Bununla əlaqədar olaraq xarici iqtisadi fəaliyyətin, qaçaqmalçılığa qarşı mübarizə üsullarının sərbəstləşdirilməsinin, milli istehsalçıların müdafiəsinin və ixracın stimullaşdırılmasının hüquqi təminatının təkmillƏşdirilməsi zərurəti yaranır.

Gömrük siyasəti daxili və xarici siyasətlə bağlı olub dövlətin maraqlarını əks etdirir. Bu siyasətin özülü dövlətin iqtisadi əsasıdır. Müxtəlif inkişaf mərhələlərində o, dəyişikliklərə uğrasa da, onun əsas məzmununu təşkil edən dövlətçilik dəyişməz qalır.

Azərbaycan Respublikasında gömrük işi hüquq-mühafizhə orqanları kimi vahid sistem təşkil edən gömrük orqanları tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının gömrük işini bilavasitə həyata keçirən orqanlar Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilən əsasnamələrə uyğun fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası gömrük orqanlarının vahid sisteminin müəyyən olunması, gömrük orqanlarının yaradılması, yenidən təşkili və ləğv edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının gömrük işini malların və nəqliyyat vasitələrinin Aazərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələri təşkil edir.

«Gömrük Məcəlləsi» və digər qanunvericilik aktları ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, heç kəsin Azərbaycana mal və nəqliyyat vasitələri gətirməsi və ya aparılması hüququ əlindən alına və ya məhdudlaşdırıla bilməz.

Azərbaycan müstəqillik əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, milli mənafelərini əsas tutaraq demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla da gedir.

Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin keçirilməsinin uyğun gömrük recimləri müəyyən edilməklə dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini təyin edir.

Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən institutların məcmusu, həmçinin onun həyata keçirilmə metodları, səlahiyyətli dövlət orqanları tərəfnldən gömrük tənzimlənməsi metodlarının istifadə qaydası gömrük siyasəti mexanizmi anlayışını təşkil edir.

Gömrük siyasəti xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsas prinsipləri ilə müəyyən edilir. Gömrük siyasəti xarici ticarət siyasəti ilə sıx bağlıdır və aşağıdakı məsələləri təşkil edərək, onları tənzimləyir:

- Azərbaycan dövləti xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimləmə sistemi və onun həyata keçirilməsinə nəzarət;
- vahid valyuta nəzarəti sistemi;
- Azərbaycanın gömrük ərazisinin bütövlüyü;
- xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsində iqtisadi tədbirlərə üstünlük verilməsi, xarici ticarət fəaliyyəti iştirakçılarının bərabərliyi və hər hansı formada ayrı-seçkiliyə yol verilməməsi;
- xarici ticarət fəaliyyəti iştirakçılarının hüquqi qanuni maraqlarının dövlət tərəfindən qorunması;
- dövlətin və onun orqanlarının xarici ticarətə lüzumsuz müdaxiləsinin, onun iştirakçılarına və bütövlükdə ölkə iqtisadiyyatına zərər vurmasının qarşısının alınması və s.

Ölkədə aparılan gömrük siyaksəti dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət edir. Belə ki, iqtisadi təhlükəsizlik məsələləri Ölkənin iqtisadiyyatını, sosial-siyasi vəziyyətini, müdafiə qabiliyyətini və mətərəqqi inkişaf səviyyəsini təmin edə bilən vəziyyəti, tarazlaşdırma problemlərinin həlli yollarını, mümkün xarici və daxili təhlükələrə müqavimət və milli iqtisadi maraqların xarici maraqlardan mümkün qədər asılı olmamasını nəzərdə tutur.

Gömrük siyasəti onun həyata keçirilməsi üçün başlıca zəmin olan gömrük xidmətinin fəaliyyətinə arxalanır. Eyni zamanda, gömrük tənzimlənməsini yalnız gömrük orqanlarının fəaliyyəti ilə eyniləşdirmək olmaz. Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsi mürəkkəb proses olub hakimiyyətin hər üç qanadının – qanunvericilik, icra və məhkəmə hakimiyyətinin və həmçinin bu işdə maraqlı olan təsərrüfatçılıq və sahibkarlıq dairəsinin bilavasitə iştirakı ilə reallaşa biləcək bir məsələdir.

Gömrük siyasəti ölkənin iqtisadi siyasətinin mühüm tərkib hissəsi olmaqla yanaşı, respublikanın gömrük ərazisində mal mübadiləsinin tənzimlənməsi və gömrük nəzarəti vasitələrindən effektiv istifadə edilməsi ilə daxili bazarın müdafiəsi üçün ticarət-siyasi məsələlərin həlli, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin iqtisadi siyasətinin əsas məsələlərinin həllinə təkan vermək məqsədi güdür.

Gömrük siyasətinin mahiyyəti öz əksini gömrük-tarif qanunvericiliyində, müxtəlif istiqamətli beynəlxalq gömrük birlikləri və münasibətləri yaradılmasında, sərbəst gömrük və ticarət zonalarının təşkil edilməsində tapır.

Gömrük siyasəti dövlətin iqtisadi və xarici ticarət siyasətinin ayrılmaz hissəsidir və buna görə də hökumətin ümumi iqtisadi strategiyasının məqsəd və vəzifələrindən asılıdır.

Ölkə iqtisadiyyatının inkişaf səviyyəsi və daxili istehsalçıların beynəlxalq rəqabət qabiliyyətindən asılı olaraq xarici iqtisadi siyasətin, o cümlədən də gömrük siyasətinin proteksionizm, yumşaq proteksionizm, yumşaq sərbəst ticarət və sərbəst ticarət (fritrederçilik) növləri tətbiq edilir. Bu istiqamətlər eyni zamanda ölkə iqtisadiyyatının xarici iqtisadi müdaxilələrə açıqlıq dərəcəsini nümayiş etdirir.

Proteksionist gömrük siyasəti yerli istehsalın inkişafı üçün daha əlverişli şərait yaradılmasına yönəldilir. Onun əsas məqsədləri idxal edilən mallara gömrük vergiqoymasının daha yüksək səviyyəsini tətbiq etməklə əldə edilir.

Proteksionist siyasətdən fərqli olaraq sərbəst ticarət siyasəti gömrük rüsumlarının daha aşağı – minimum səviyyəsini nəzərdə tutur və daxili bazara xarici malların daha çox cəlb edilməsinə təhrik edir.

Gömrük siyasətinin həyata keçirilməsinin əsas vasitələri gömrük rüsumları, yığımları (tarif və ya iqtisadi tənzimləmə), gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti əməliyyatları, xarici ticarətin lisenziyalaşdırılması və kvotalaşdırılması (qeyri-tarif və ya inzibati tənzimləmə) təcrübəsi ilə bağlı olan müxtəlif gömrük məhdudiyyətləri və rəsmiyyətidir.

Gömrük siyasəti müxtəlif hüquq normaları və gömrük qaydaları əsasında həyata keçirilməlidir və bu da gömrük hüququ məfhumunu meydana çıxarır.

Gömrük siyasətinin dəqiq hüquqi əsaslandırılması ilk növbədə ona görə vacibdir ki, sahibkarlıq və biznes fəaliyyətinin bu və ya digər istiqamətlərini imperativ tənzimləyərkən onun həyata keçirilməsi vasitələri istər-istəməz mülkiyyət siyasətinin xarici münasibətlərə təsiri üçün beynəlxalq-hüquqi xarakterli öhdəliklər yaratdığından onun normallaşdırılması zərurətini doğurur.

Gömrük işi haqqında Azərbaycan Respublikasının Qanunvericiliyi «Gömrük Məcəlləsi»ndən, «Gömrük Tarifi Haqqında» Qanundan və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

«Gömrük Məcəlləsi» və Gömrük Tarifi haqqında Qanun Gömrük münasibətlərinin hüquqi tənzimlənməsində baş mövqedə durur və gömrük praktikasında meydana çıxan bütün əsas hüquqi məsələləri əhatə edir. Hüquqi qüvvəsinə görə onlar yalnız Konstitusiyadan geridə qalır və bütün gömrük qanunvericiliyinin qurulduğu və inkişaf etdirildiyi hüquqi bazanı təşkil edir.

Hal-hazırda respublikamızda gömrük münasibətlərini tənzimləyən qanun qüvvəli aktların aşağıdakı əsas növləri tətbiq edilməkdədir:

1.Konstitusiyanın 99-cu maddəsinə əsasən Azərbaycan Respublikasında İcra Haikmiyyətinin Prezidentə mənsub olması ilə əlaqədar olaraq xarici siyasətin, o cümlədən də onun tərkib hissəsi olan xarici iqtisadi və gömrük siyasətinin strateci istiqamətlərinin müəyyənləşdirilməsi Prezidentin fərman və sərəncamları ilə öz həllini tapmış olur.

Keçid dövrünün ilk illərində Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamları Gömrük Məcəlləsi və Gömrük tarifi haqqında qanun qəbul edilənə qədər gömrük münasibətlərinin əsas hüquqi və sosial cəhətləri Prezidentin fərmanları ilə tənzimlənirdi.

2.Nazirlər Kabinetinin qərarları ilə, adətən, gömrük siyasəti və gömrük hüququnun mühüm məsələləri tənzimlənir və daha yüksək statusa malik aktların icra mexanizmi müəyyən edilir.

3.Bir neçə dövlət orqanı tərəfindən qəbul edilən qanun qüvvəli aktlar. Bu qəbildən olan aktlara nümunə kimi Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi və Vergilər Nazirliyinin birgə təsdiq etdikləri, MDB ölkələri hüdudları kənarından respublikaya gətirilən minik avtomobillərinə aksiz vergisinin tətbiqi qaydaları haqqında məlumat və s. Göstərmək olar.

4.Dövlət Gömrük Komitəsinin normativ aktları. Gömrük Məcəlləsinin 9-cu maddəsinə əsasən Dövlət Gömrük Komitəsi öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının gömrük orqanları, bütün başqa dövlət orqanları, tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq idarələr, müəssisələr və təşkilatlar, habelə vəzifəli şəxslər və vətəndaşlar üçün icrası məcburi olan normativ aktlar qəbul edir.

Qeyd etmək lazımdır ki. dövlət müstəqilliyi hər dövlətin gömrük məsələlərinin birtərəfli qaydada daxili qanunvericiliklə tənzimlənməsi zərurətini meydana çıxarır. Lakin hər bir dövlətin geosiyasi mövqeyi və ayrı-ayrı dövlətlərlə əlahiddə münasibətləri bu məsələlərə xüsusi yanaşma metodları tətbiq edilməsini şərtləndirir. Eyni zamanda gömrük siyasətinin beynəlxalq əhəmiyyəti açıq-aşkardır və nəticədə bu məsələlər razılaşdırma tənzimlənməsinin mövzusuna çevrilir. Əgər hər hansı bir dövlət, gömrük məsələlərinin həlli zamanı digər dövlətlərin maraqlarını nəzərə almırsa və ya onların mənafeyinə zərbə vura bilən siyasət yeridirsə, xarici iqtisadi əlaqələri və bütövlükdə beynəlxalq əlaqələri mürəkkəbləşdirən konfliktlər meydana çıxa bilər.

Rusiya İmperiyası ilə Hollandiya arasında, Böyük Britaniya ilə Fransa arasında mövcud olmuş «Gömrük Müharibələri» tarixi faktlardır. Gömrük sahəsində beynəlxalq-hüquqi əməkdaşlıq, həmçinin müasir gömrük tariflərinin mürəkkəbliyi, çoxsaylı gömrük rəsmiləşdirilmələri qaydaları gündəlik zərurət halına gətirilir.

Beynəlxalq ticarət dövriyyəsinin inkişafı, turist mübadiləsi, humanitar əlaqələr gömrük siyasətinin əsas istiqamətlərinin və müxtəlif dövlətlərin eynitipli normativ aktlarının koordinasiyasını nəzərdə tutan gömrük qanunvericiliyinin eyniləşdirilməsini zəruri edir. Milli normaların yaxşılaşdırılmasına yardım edilməsi, beynəlxalq hüquq və əldə edilmiş hökumətlərarası razılaşmalar prinsipinə əsaslanan beynəlxalq gömrük reciminin yaradılması ön plana çıxır. Milli gömrük-hüquq sistemlərinin eyniləşdirilməsi beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsi və inteqrasiya proseslərinin dərinləşdirilməsi üçün əlverişli şərait yaradır.

Hal-hazırda Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına və Avropa Birliyinə daxil olmaq arzusu keçid şəraitində daxili qanunvericilikdə müvafiq dəyişikliklər edilməsini, tətbiq edilən hüquqi normaların beynəlxalq normalara yaxınlaşdırılmasını, rəsmiləşdirmə əməliyyatlarının sadələşdirilməsini, sürətləndirilməsi və eyniləşdirilməsini nəzərdə tutur. Son zamanlar qəbul edilmiş bir sıra qərarları bu istiqamətdə atılmış mühüm addımlar kimi qəbul etmək lazımdır. Vahid idxal gömrük rüsumunun tətbiqi, əlavə dəyər vergisi məsələlərinin çevikləşdirilməsi, bəzi mallara aksiz vergisinin tətbiqi bu qəbildən olan tədbirlərin vacib mərhələləridir.

Gömrük sahəsində beynəlxalq-hüquqi əməkdaşlıq ilk növbədə poçt göndərişlərinə gömrük nəzarətini - dəniz, dəmiryolu, hava, avtomobil yolları ilə və qarşılıq daşımalarda gömrük qaydalarının eyniləşdirilməsini, daimi yaşamaq üçün başqa ölkələrə gedən şəxslərin hüquqi statusunu, sərnişinlərdən ayrı gedən müşayiət olunmayan baqacın gömrük recimini əhatə edir.

Azərbaycan dövlətinin gömrük sahəsində beynəlxalq hüquqi əməkdaşlığı əsasən beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Gömrük Təşkilatı, MDB Gömrük Rəhbərləri Şurası çərçivəsi, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsi, ikitərəfli münasibətlər əsasında ayrı-ayrı dövlətlərin gömrük orqanları ilə əməkdaşlıq formasında həyata keçirilir.

Gömrük sahəsində tətbiq edilən normativ aktlara ilkin nəzarət daxili qanunvericiliyin, qüvvədə olan beynəlxalq müqavilələrin müddəalarına uyğunsuzluq hallarını istisna etməyə imkan verir.

«Gömrük Məcəlləsi»nin 6-cı maddəsinə görə Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrində müəyyən edilən qaydalar bu Məcəllədə və Gömrük İşi haqqında Azərbaycan Respublikasının digər qanunvreicilik aktları ilə nəzərdə tutulmuş qaydalardan fərqlənərsə, dövlətlərarası müqavilələrin qaydaları tətbiq edilir.

Milli iqtisadiyyatın formalaşdırılması bazar mexanizmi və dövlətin müdaxiləsi siyasətinin tədqiqini iqtisadi nəzəriyyənin aktual bir probleminə çevirmişdir. Belə bir şəraitdə ümumbəşəri inkişaf meyilləri ilə spesifik milli inkişaf modellərini uzlaşdıraraq, məhz respublikamıza xas səmərəli keçid və inkişaf konsepsiyasının işlənib hazırlanması və bu

prosesdə dövlət tənzimlənməsinin yeri və rolunun düzgün müəyyənləşdirilməsi nəinki nəzəri, eləcə də əməli əhəmiyyət kəsb edir. Keçid dövründə bu problemlərin həlli respublikamızda həyata keçirilməsi nəzərdə tutulan transformasion dəyişikliklərin milli təkrar istehsal problemlərinin səmərəliliyi ilə qarşılıqlı əlaqə və asılılıqda həll edilməlidir. Bu konkret problemlərlə yanaşı, keçid mərhələsində respublikamızda işlənib hazırlanan inkişaf modelinin qarşısında bir tərəfdən bazar iqtisadiyyatına keçidlə bağlı olaraq sosial-iqtisadi münasibətlərini baza sisteminin tələblərinə uyğun yenidən qurmaq, digər tərəfdən isə Azərbaycanın suveren dövlətə çevrilməsi ilə əlaqədar olaraq təkrar istehsal prosesinin müstəqil xarakter daşıdığı müasir dövrdə ölkəmizin siyasi, iqtisadi müstəqilliyini reallaşdırmağa imkan verən sağlam milli iqtisadiyyatı formalaşdırmaq vəzifəsi dururdu.

Keçid dövründə formalaşan milli iqtisadiyyat, cəmiyyətdə sistem dəyişikliklərinin xüsusi şəraitinin, həyata keçirilən iqtisadi siyasətin, daxili və xarici amillərin, habelə müxtəlif sosial-iqtisadi proseslərin nəticəsi kimi formalaşır.

Milli iqtisadiyyat problemi öz əksini siyasi iqtisadiyyatın tarixi məktəbinin nümayəndələri olan Q.Şmoller, V.Zombart, M.Veber və A.Oykenin təcdqiqatlarından götürülür. Məlum iqtisadi ədəbiyyatda «milli iqtisadiyyat» anlayışına verilən başlıca təriflərin araşdırılması onu aşağıdakı kimi dəyərləndirməyə imkan verir:

-milli iqtisadiyyat hər hansı bir təsərrüfat forması və ya formasiya ilə bağlı bir kateqoriya olmayıb, özündə cəmiyyətin, iqtisadiyyatın müxtəlif inkişaf pillələrini, strukturunu, xüsusiyyətlərini milli xüsusiyyətlər baxımından əks etdirir.

-milli iqtisadiyyat dedikdə, söhbət heç də bir millətə mənsub iqtiSAdiyyatdan getmir. Bu, bütöv cəmiyyət, ümumdövlət səviyyəsində fəaliyyət göstərən və həmin cəmiyyətdə yaşayan bütün xalqa məxsus və onun mənafelərini əks etdirən iqtisadiyyatdır.

-milli iqtisadiyyat dedikdə beynəlxalq iqtisadiyyatla qarşılıqlı əlaqə və asılılıq halında olan ayrı-ayrı ölkələrin inzibati ərazi sərhədləri üzrə təbii coğrafi, sosial-iqtisadi və texniki-texnoloci fərqlərinə görə bölünən müstəqil təsərrüfat sistemi başa düşülür.

-milli iqtisadiyyat bir-biri ilə qarşılıqlı asılılıqda olan müstəsna dərəcədə mürəkkəb ümumiqtisadi, regional və ölkənin iqtisadi proseslərinin nəticəsi kimi qiymətləndirilməlidir. Ümumən milli iqtisadiyyat anlayışlarına verilən bu xarakteristikalarla razılaşmaqla yanaşı, onu qeyd etmək lazımdır ki. milli iqtisadiyyat özünün daxili inkişaf qanunauyğunluqlarına malik hər hansı bir ölkənin hüdudları çərçivəsində fəaliyyət göstərən milli təkrar istehsalı əhatə edən institutsional quruluş, milli dəyərləri, mentaliteti, əhalisinin iqtisadi təfəkkürü ilə fərqlənən, tarixi varisliyi özündə əks etdirən mürəkkəb bir sosial-iqtisadi təsərrüfat orqanizmidir.

Keçid dövründə formalaşan milli iqtisadiyyatın inkişaf səviyyəsini ancaq iqtisadi göstəricilərlə xarakterizə etsək qətiyyən düzgün olmazdı. Ümummilli Liderimiz Heydər Əliyev göətərirdi ki, «XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki. Azərbaycanın müstəqil dövlətinin yaradılmasıdır… Məhz bu müddət ərzində Azərbaycan xalqı öz müstəqil dövlətinin konstitusiyasını qəbul etmişdir… yaşayışımızın bütün sahələrini əhatə edən köklü dəyişikliklər əldə edilmiş və islahatlar həyata keçirilmiş, bu proses bu gün də davam edir. Eyni zamanda son onillikdə makroiqtisadi göstəricilərin dinamikasında çox müsbət nəticələr əldə edilmişdir». Eyni zamanda bu illərdə sosial-iqtisadi inkişafın elmi təhlili bu prosesləri bir mənalı qiymətləndirməyə imkan vermir.

Bütün bunları nəzərə alaraq milli iqtisadiyyatın formalaşması gedişində respublikamızda baş verən sosial-iqtisadi prosesləri tədqiq edərkən müxtəlif iqtisadi məktəblərin inkişafa yanaşma metodologiyası və qiymətləndirməsi üsullarından kompleks istifadə etməyə çalışmaq lazımdır.

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatlar inkişaf səviyyəsindən asılı olmayaraq müxtəlif quruluşa malik olurlar. Belə ki. məlum tarixi, iqtisadi, təbii və s. şərtlərdən asılı olaraq ayrı-ayrı ölkələr müxtəlif qrup məhsullar üzrə ixtisaslaşırlar. Buna uyğun olaraq, son nəticədə əmtəə, xidmət və kapitalların idxal və ixracının həcmi və quruluşu iqtisadiyyatın strukturundan, xüsusən xarici iqtisadi əlaqələrin xarakterindən çox asılı olur. Bu məqsədlə milli iqtisadiyyatın xarakterinə beynəlxalq ticarətin təsirini aşkara çıxarmaq üçün aşağıdakı göstəricilərdən istifadə məqsədəuyğun hesab edilə bilər:

1. Ölkənin əhalisinin beynəlxalq ticarətdən aslılıq əmsalı. Bu ölkə daxilində istehlak olunan bütün əmtəə və xidmətlərin xaricdən daxil olan əmtəə və xidmətlərin həcminə nisbəti kimi müəyyən olunur;

2. İdxal və ixraca meyillilik. Bu idxal və ixracın milli gəlirə nisbəti kimi müəyyən edilir;

3. İdxal və ixracın elastikliyinin, qiymətə və gəlirə nisbəti. Bu gəlir və qiymətin nisbi dəyişməsindən asılı olaraq idxal və ixracın nisbi dəyişməsi və s.

Qeyd etmək lazımdır ki. keçən XX əsrin sonuncu qərinəsində dünyada baş verən proseslər nəinki, artımın mərhələlərini, eləcə də onun amlilərinin nisbətini, hətta məqsədini mühüm dəyişikliklərə uğratdı.

Beləki, 80-cı illərdə iqtisadi artımı inkişafın məqsədi elan edən Dünya Bankı 1991-ci ildə hazırladığı məruzədə yazılır: «…inkişafın məqsədi əhalinin həyat səviyyəsini yaxışlaşdırmaqdan ibarətdir. Orada qeyd olunur ki, həyatın keyfiyyətinin yaxşılaşdırılması, gəlirlərin səviyyəsinin artırılması ilə yanaşı, təhsilin, sağlamlığın, ətraf mühitin yaxşılaşdırılmasını, imkanların bərabərliyini, şəxsi azadlığın genişləndirilməsini nəzərdə tutur».

Həmin konsepsiyaya uyğun olaraq inkişaf çoxplanlı bir proses olmaqla insanların davranışında, sosial strukturunda, ictimai institut-

larda, həyat səviyyəsindəki qeyri-bərabərliyi yumşaldan, işsizliyi azaldan, iqtisadi artımı sürətləndirən bir prosesdir.

Dünyanın müxtəlif ölkələrində inkişafs təmin edən iqtisadi və qeyri-iqtisadi amilləri ətraflı təhlil edərək 1971-ci ildə Nobel Mükafatı almış Saymon Kuznets iqtisadi artımın üç əsas cəhətini qeyd edir.

Dünyanın inkişaf etmiş öklələrinin təcrübəsi göstərir ki. iqtisadi artımın qeyd olunan üç əsas cəhəti və altı amilin fəaliyyətindən yüksək son nəticələr əldə olunması, bazar mexanizmi konsepsiyası daxilində müvafq iqtisadi siyasətin işlənib hazırlanması və həyata keçirilməsini tələb edir. Bununla yanaşı, bir çox ölkələrin, xüsusən Yaponiya, Cənubi Koreya və digər Şərqi Asiya ölkələrinin, o cümlədən, inkişaf konsepsiyası daha çox iqtisadi nəzəriyyənin milli sisteminə söykənən Almaniyanın təcrübəsi sübut edir ki, iqtisadi tərəqqiyə nail olmaq üçün ölkədə mütərəqqi iqtisadi siyasətin işlənib hazırlanması kifayət deyildir. Dünya Ölkələrinin təcrübəsi göstərir ki. cəmiyyətin inkişafının ümdə problemlərini həll edə bilmək bacarığı ancaq düzgün seçilən iqtisadi siyasətlə müəyyən olunmur.

Hal-hazırda keçid mərhələsində müstəqil dövlətə çevrilən, eyni vaxtda yeni iqtisadi sistemə keçən, xüsusən, ərazisi Ermənistan tərəfindən işğal edilən Azərbaycanda milli mənafelər iqtisadi inkişafın xarakterinə güclü təsir göstərir. Keçid dövründə ölkəmizin qarşısında duran ən başlıca makroiqtisadi məqsədlər hər şeydən əvvəl, birincisi, sosial-iqtisadi inkişafın vəhdətinin təmin edilməsini və respublika ərazisində vahid iqtisadi məkanın bərpa edilməsini; ikincisi, milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyinin təmin edilməsini; üçüncüsü, milli iqtisadiyyatın mümkün qədər beynəlxalq miqyasda rəqabət qabiliyyətinin artırılmasını; dördüncüsü, cəmiyyətdə sosial sabitliyin təmin edilməsi ilə bağlı tədbirlər sisteminin həyata keçirilməsini tələb edir.

Hazırkı şəraitdə bazar iqtisadiyyatına keçid dövründə milli iqtisadiyyatın inkişaf konsepsiyasının işlənib hazırlanması hər şeydən əvvəl inkişafın üstünlüyü və milli prioritetlərin dəqiq müəyyənləşdirilməsini tələb edir. Dünya ölkələrində inkişaf üstünlüyünün formalaşmasının müxtəlif modelləri mövcuddur. Belə ki, sənayecə inkişaf etmiş ölkələrdə rəqabət üstünlüyü daha çox elmi-texniki tərəqqi və texnoloci təkmilləşmə əsasında əmək məhsuldarlığının yüksək səviyyəsi ilə təmin olunur. Bir qayda olaraq, bu da ölkə əhalisinin yüksək həyat səviyyəsinin təmin edilməsi ilə müşayi ət olunur. Eyni zamanda keçid dövründə olan ölkələrdə ilkin mərhələdə rəqabət qabiliyyətinin təmin edilməsi daha çox əhalinin aşağı həyat səviyyəsi və əməkhaqqının təmin edilməsi hesabına əldə olunur.

Hazırkı şəraitdə Azərbaycanın yeni iqtisadi sistemə keçməsi respublikamızda ayrı-ayrı sahələrin və bütünlükdə ölkənin iqtisadiyyatının rəqabət üstünlüyünün yeni meyar və ölçülərə söykənməsini tələb edir. Bu isə öz növbəsində bir çox hallarda yeni müəyyənləşən iqtisadi inkişaf konsepsi-

yasının ənənəvi ilkin şərtlərindən və imkanlarından, amillərindən imtina edilməsini qarşıya qoya bilər. Keçid dövründə ölkəmizdə iqtisadiyyatın bazarın tələblərinə uyğun yenidən qurulması və onun rəqabət qabiliyyətinin təmin edilməsi, innovasiya proseslərinin kəskin güclənməsini tələb edir.

Qeyd etmək lazımdır ki, hər hansı bir sahənin rəqabət qabiliyyətinin artırılmasına və yaxud zəifləməsinə ölkədə seçilən milli üstünlüklər və iqtisadi tərəqqinin konsepsiyası da mühüm təsir göstərir. Belə ki, makroiqtisadi səviyyədə milli iqtisadiyyatın quruluşu əslində, ölkədə mövcud istehsal resurslarının istifadəsi nisbətində yaranmış faktiki vəziyyəti əks etdirir. Bu isə nəticədə ictimai əmək bölgüsü ilə müəyyən olunan resursların bölgüsü milli gəlirin istehsalı, bölgüsü, mübadiləsi istehlakına mühüm təsir göstərir. Bu baxımdan hər hansı bir ölkədə resurslar balansı, milli iqtisadiyyat və milli bazarın formalaşmasında mühüm rol oynayır. Bununla belə əsas problem bu resurslardan necə istifadə olunması ilə bağlıdır.

Milli iqtisadiyyatın tamlığı və yetkinliyini xarakterizə edən üçüncü qrup meyarlar institutsional amilləri başqa sözlə, iqtisadi siyasətin işlənib hazırlanmasını, bu proseslərdə dövlətin rolunun müəyyənləşdirilməsini, hazırlanmasını, habelə bazar subyektlərinin hüquqi münasibətlərinin milli iqtisadiyyatın formalaşmasına nə dərəcədə xidmət etməsini nəzərdə tutur.

Milli iqtisadiyyatın ümumdünya təsərrüfatında oynadığı rol və onun yeri, hər şeydən əvvəl həmin dövlətin iqtisadi inkişaf səviyyəsi, məhsullarının dünya bazarında rəqabət apara bilmək bacarığı ilə yanaşı, onun iqtisadi potensialının həcmi ilə müəyyən olunur. Hər bir ölkənin iqtisadi potensialı, orada istehsal olunan əmtəə və xidmətlərin həcmi, quruluş və texniki səviyyəsi, milli məhsulun quruluşunda dünya bazarında rəqabət qabiliyyətli məhsulların xüsusi çəkisi, habelə ölkə daxilində və xaricində yığılmış maddi və digər sərvətlərin kəmiyyəti ilə müəyyən olunur.

Qeyd etmək lazımdır ki, Azərbaycanın iqtisadi iknişaf səviyyəsini, iqtisadi potensialını, həm də yaxın vaxtlarda hərəkətə gətirilə bilən imkanlar baxımından qiymətləndirmək məqsədəuyğun olardı.

İqtisadi inkişaf səviyyəsini müəyyən etmək üçün son illərdə BVF tərəfindən irəli sürülmüş müqayisəli göstəricilər sistemi geniş tətbiq olunur. Bu göstəricilər sistemi qiymətin və xərclərin səviyyəsini inkişaf etmiş ölkələrin müvafiq göstəriciləri ilə müqayisə etmək üçün hazırlanır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, hər bir ölkədə milli iqtisadiyyatın formalaşmasında bu və ya digər amliin rolu müxtəlif ola bilər. Burada əsas məsələ mövcud iqtisadi potensialdan və subyektiv amillərdən mümkün qədər səmərəli və məqsədyönlü istifadə olunması məsələsidir.

Hazırkı şəraitdə respublikamızın müstəqil dövlətə çevrilməsi nəticəsində, onun xarici iqtisadi əlaqələrinin xarakteri, prinsipləri və meyar-

ları əsaslı surətdə dəyişmişdir. Müasir şəraitdə Azərbaycan dünya bazarına sərbəst çıxmaq və kapitalların beynəlxalq hərəkətinə birbaşa, müstəqil surətdə qoşulmaq imkanı əldə etmişdir. Odur ki, indiki şəraitdə xarici iqtisadi əlaqələrin saldosu və xarakteri iqtisadi artımın surətini və keyfiyyətini müəyyən edən mühüm bir amilə çevrilir. Artıq Azərbaycan iqtisadi artım tempinə görə bölgədə lider dövlətə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, kifayət qədər iqtisadi potensialın mövcudluğu hələ onun avtomatik reallaşdırılmasını, başqa sözlə, iqtisadi inkişafın yüksək səviyyəsini birbaşa təmin etmir. İqtisadiyyatda vaxtaşırı olaraq baş verən dəyişikliklər, son nəticədə mövcud texnoloci ukladın dəyişilməsinə səbəb olur. Bu zaman baza sahələrində baş verən elmi-texniki yeniliklər istehsalın miqyasının kəskin artmasına səbəb olmaqla yanaşı, eyni zamanda iqtisadiyyatın strukturunun təkmilləşdirilməsini də stimullaşdırır. Bu, öz növbəsində iqtisadi inkişafın dalğavarı hərəkətinə səbəb olur.

XX əsrin 70-ci illərində BMT (Stokholmda 1972-ci il) dünya birliyi qarşısında yeni bir istiqaməti - davamlı inkişaf yolunu müəyyənləşdirdi. Daha sonra 1992-ci ildə Rio-de Caneyroda qlobal, regional və ekoloci problemlərin birgə həlli problemi irəli sürüldü və nəhayət, 2002-ci ilin sentyabr ayında Yohansburqda Ümumdünya Sammitində davamlı inkişafı təmin etmək üçün qlobal problemlərin həlli üzrə birgə fəaliyyət planı qəbul edildi.

BMT təlimatında «davamlı inkişaf» dedikdə, elə inkişaf başa düşülür ki, bugünkü problemlər həll edilərkən, gələcək nəsillərin mənafeyinə ziyan gətirilmir. Əlbəttə, problemin bu cür xarakterizə edilməsi onun mahiyyətini tam dərk etməyə imkan vermir.

Bu baxımdan «davamlı inkişaf» problemi bərpa olunan resurslardan səmərəli istifadəni, başqa sözlə, gələcəkdə onun kifayət həcmdə təkrar istehsalını xarakterizə edən «davamlı istifadə» anlayışında nəzərdə tutulan məsələlərlə birgə həllini tələb edir. Həm də davamlı inkişaf iqtisadi sosial, ekoloci problemlərin müxtəlif səviyyələrdə birgə həllini tələb edir. Deməli. «davamlı inkişaf» iqtisadi artımın, hər bir konkret halda iqtisadi sistemin potensial imkanlarının üstələnməsini qəbul etmir.

Qeyd etmək lazımdır ki. mövcud problemlərin konkret həlli istiqamətləri BMT-nin davamlı mövcudluq strategiyasında öz əksini tapmışdır. Biz tədqiqat gedişində həmin istiqamətləri ümumbəşəri bir problem kimi qəbul etməklə yanaşı, keyfiyyət baxımından qiymətləndirərkən ölkəmizin qarşısında duran kəskin problemlərə üstünlük verəcəyik.

Qeyd etmək lazımdır ki. iqtisadi inkişaf çox amilli, ziddiyyətli və əməli cəhətdən ölçülməsi çətin olan mürəkkəb bir prosesdir. Bütün bunları nəzərə alaraq, iqtisadçılar iqtisadi artımın dinamikasını əmtəə və xidmətlərin həcminin dəyişməsini xarakterizə edən göstəricilərdən birinin timsalında təhlil edirlər. Onu göstərmək vacibdir ki, iqtisadi artımın

sürətli, sıfır və hətta mənfi səviyyəsi iqtisadiyyatın qənaətbəxş inkişafı və yaxud da böhran vəziyyətində olması haqqında tam fikir yürütməyə imkan vermir. Misal üçün, struktur irəliləyişləri nəticəsində ölkədə bir qrup məhsulların istehsalının azalması və müvafiq surətlərdə digərlərinin artması şəraitində onların dinamikası iqtisadi inkişafın xarakterinə uyğun gəlməyə bilər. Bu prosesə milli məhsulun fond, material və əmək tutumunun müxtəlif istiqamətdə dəyişməsi həlledici təsir göstərir.

Sonda belə bir nəticəyə gəlirik ki. müstəqillik əldə etmiş və yeni iqtisadi sistemə keçən respublikamız üçün bütün bu problemlərin nəzəri cəhətdən tədqiqi və dövlətin iqtisadi siyasətində nəzərə alması mühüm əhəmiyyət kəsb edir. Lakin burada nəzərə alınmamalıdır ki, məlum nəzəri dünya inkişaf modelləri nə qədər əhəmiyyətli olsa da, son nəticədə həmin prinsiplərin səmərəli reallaşdırılması onların iqtisadi sistemin konkret reallıqlarını, maddi mənafelərini nə dərəcədə nəzərə almasından çox asılı olacaqdır.

### 4.2.Gömrük siyasətinin normativ-hüquqi bazasının formalaşması

Dövlət suverenliyi hər dövlətin gömrük məsələlərinin birtərəfli qaydada daxili qanunvericiliklə tənzimlənməsi zərurətini meydana çıxarır. Lakin, hər bir dövlətin geosiyasi mövqeyi və ayrı-ayrı dövlətlərlə əlahiddə münasibətləri bu məsələlərə xüsusi yanaşma metodları tətbiq edilməsini şərtləndirir. Eyni zamanda gömrük siyasətinin beynəlxalq əhəmiyəti açıq-aşkardır və nəticədə bu məsələlər razılaşdırma tənzimlənməsinin mövzusuna çevrilir. Əgər hər hansı bir dövlət, gömrük məsələlərinin həlli zamanı digər dövlətlərin maraqlarını nəzərə almırsa və ya onların mənafeyinə zərbə vura bilən siyasət yeridirsə, xarici iqtisadi əlaqələri və bütövlükdə beynəlxalq əlaqələri mürəkkəbləşdirən konfliktlər meydana çıxa bilər.

Gömrük sahəsində beynəlxalq-hüquqi əməkdaşlıq, həmçinin müasir gömrük tariflərinin mürəkkəbliyi, çoxsaylı gömrük rəsmiləşdirmələri qaydalarını gündəlik zərurət halına gətirir.

Beynəlxalq ticarət dövriyyəsinin inkişafı, turist mübadiləsi, humanitar əlaqələr gömrük siyasətinin əsas istiqamətlərinin və müxəlif dövlətlərin eynitipli normativ aktlarının koordinasiyasını nəzərdə tutan gömrük qanunvericiliyinin eyniləşdirilməsini labüd edir. Milli normaların yaxınlaşdırılmasına yardım edilməsi, beynəlxalq hüquq və əldə edilmiş hökumətlərarası razılaşmalar prinsipinə əsaslanan beynəlxalq gömrük rejiminin yaradılması ön plana çıxır. Milli gömrük-hüquq sistemlərinin eyniləşdirilməsi beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsi və inteqrasiya proseslərinin dərinləşdirilməsi üçün əlverişli şərait yaradır.

Gömrük qaydalarının əsas eyniləşdirmə vasitələri beynəlxalq müqavilələrin və ixtisaslaşmış beynəlxalq təşkilatların tövsiyələridir.

Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına və Avropa Birliyinə daxil olmaq arzusu keçid dövrü ərəfəsində daxili qanunvericilikdə müvafiq dəyişikliklər edilməsini, tətbiq edilən hüquqi normaların beynəlxalq normalara yaxınlaşdırılmasını, rəsmiləşdirmə əməliyyatlarının sadələşdirilməsini, sürətləndirilməsi və eyniləşdirilməsini nəzərdə tutur. Son zamanlar qəbul olunmuş bir sıra qərarları bu istiqamətdə atılmış mühüm addımlar kimi qəbul etmək lazımdır. Vahid idxal gömrük rüsumunun tətbiqi, əlavə dəyər vergisi məsələlərinin çevikləşdirilməsi, bəzi mallara aksiz vergisinin tətbiqi bu qəbildən olan tədbirlərin vacib mərhələləridir.

Azərbaycan Respublikasında 1997-ci ildə «Gömrük Məcəlləsi» və 1995-ci ildə «Gömrük Tarifi Haqqında» qanunun qüvvəyə minməsi ilə gömrük işi sahəsində Qanunvericiliyin hüquqi-normativ bazasının əsası qoyuldu (2,…19).

Azərbaycan Respublikasında gömrük-tarif tənzimlənməsi məsələləri, «Gömrük Məcəlləsi»ndə, «Gömrük Tarifi Haqqında» Azərbaycan Respublikasının Qanununda və digər qanunlarda nəzərdə tutulmuş hüquq normaları ilə həll olunur.

«Gömrük Məcəlləsi» gömrük işinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin, suverenliyinin və maraqlarının qorunmasına, Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatı ilə əlaqələrinin genişlənməsinə, gömrük işi sahəsində təsərrüfat subyektlərinin, fiziki şəxslərin və dövlət orqanlarının hüquqlarının müdafiəsinin təmin olunmasına, onların öz vəzifələrini yerinə yetirməsinə yönəldilmişdir.

Respublikada gömrük fəaliyyətini tənzimləyən gömrük qanunlarını, gömrük hüququnun mənbəyi kimi 2 şərti yarımqrupa bölmək olar:

a) bilavasitə gömrük məsələlərini tənzimləyən qanunlar;

b) dolayısı ilə gömrük məsələlərini tənzimləyən qanunlar.

Birinci qrupa «Gömrük tarifi haqqında» Qanun, habelə bundan sonra bilavasitə gömrük işi ilə bağlı olaraq qəbul ediləcək digər qanunlar daxildir.

İkinci qrupa isə «Azərbaycan Respublikasının Vergi Məcəlləsi», «Girov haqqında», «Valyuta tənzimi haqqında», «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» qanunları və s. daxil etmək olar .

«Gömrük Tarifi Haqqında» qanun Azərbaycan Respublikasında daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə, xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşması və tətbiqi, həmçinin ölkənin gömrük sərhədindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən edir.

Gömrük tarifinin formalaşdırılması və tətbiqi qaydası bu Qanunda müəyyən edilmiş və əsas məqsədləri idxalın əmtəə strukturunu səmərələşdirmək, malların gətirilməsi və çıxarılması, valyuta gəlirlərinin və xərc-

lərinin əlverişli nisbətini təmin etmək, valyuta sərvətlərinin respublikanın gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarət etmək, əmtəə və xidmətləri istehsal etmək, istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaqdan ibarətdir. Bundan başqa, respublika iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq, iqtisadiyyatın dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq məsələləri də həyata keçirilir.

Gömrük rüsumunun dərəcəsi vahid olub, malları gömrük sərhəddindən keçirən şəxslərdən, əqdlərin növlərindən, «Gömrük tarifi haqqında» Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla digər faktlardan asılı olaraq dəyişdirilə bilməz.

Azərbaycan Respublikasının ərazisinə gətirilən gömrük rüsumuna cəlb olunan (olunmayan) malların siyahısı və tətbiq edilən rüsum dərəcələri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

İxrac gömrük rüsumlarının dərəcələri və onların tətbiq olunduğu malların siyahısı, həmçinin xarici iqtisadi tənzimlənmənin qeyri-tarif tədbirləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin malları üçün ixrac gömrük rüsumları dərəcələrinin son həddi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin olunur. Gömrük tarifi tənzimlənməsinin hüququnun əsas məqsədləri aşağıdakılardır:

1) gömrük işini həyata keçirmək, onun inkişafını və təkmilləşdirilməsini təmin etmək üçün gömrük və digər müvafiq dövlət orqanlarına səmərəli fəaliyyət şəraiti yaratmaq;

2) gömrük siyasətinin həyata keçirilməsi üçün optimal, elmi cəhətdən əsaslandırılmış və dah çox demokratik dəyərlərə söykənmiş gömrük sistemi yaratmaq;

3) ölkə vətəndaşlarının hüquq və azadlıqlarının qanuni təminatı, onların birləşdiyi ictimai birliklərin gömrük işi ilə əlaqədar fəaliyyətləri zamanı, habelə, xarici vətəndaşlar və vətəndaşlığı olmayan fiziki şəxslərin, həmçinin hüquqi şəxslərin gömrük qanunvericiliyində nəzərdə tutulan bütün hüquqların qorunması üçün möhkəm, sabit hüquqi təminat yaratmaq;

4) Azərbaycan Respublikasının sosial-iqtisadi üstünlüklərini və mAraqlarını qorumaq (ilk növbədə, burada söhbət ölkəmizin iqtisadi suverenliyi və iqtisadi təhlükəsizliyindən, daxili bazarın qorunmasından, milli iqtisadiyyatın inkişafının stimullaşdırılmasından, həmçinin Azərbaycan iqtisadiyyatının beynəlxalq əlaqələrindən getməlidir).

207

Gömrük-tarif tənzimlənməsinin mühüm tərəflərindən biri də gömrük ödənişlərinin tutulmasıdır. Bildiyimiz kimi, gömrük ödənişləri «Göm-

rük Məcəlləsi»nin 108-ci maddəsində nəzərdə tutulub. Məcəllədə nəzərdə tutulmuş gömrük ödənişlərinə əlavə dəyər vergisi, aksizlər, gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları, saxlanmasına görə gömrük yığımları, malların gömrük müşayiətinə görə gömrük yığımları və s. aid edilir.

Mal və nəqliyyat vasitələrini keçirən şəxslərdən gömrük orqanının aldığı istənilən pul vəsaitləri ***gömrük ödəmələri*** adlanır.

Dövlətin öz xərclərini ödəmək və iqtisadi-sosial həyata müdaxiləsini təmin etmək məqsədi ilə, hüquqi və fiziki şəxslərdən qanunvericilik əsasında topladığı məcburi vəsaitlər ***vergilər*** adlanır.

Vergilər və gömrük ödəmələrinin hüquqi əsasını Azərbaycan Respublikasının «Gömrük Məcəlləsi»ndə nəzərdə tutulmuş müddəalar, habelə Azərbaycan Respublikasının müvafiq qanunları təşkil edir. Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən və bu ərazidən aparılan mallara əlavə dəyər vergisinin tətbiqi «Gömrük Məcəlləsi» və Azərbaycan Respublikasının «Vergi Məcəlləsi»nə uyğun həyata keçirilir.

Gömrük Qanunvericiliyinə uyğun olaraq, idxal-ixrac əməliyyatlarında ƏDV və aksiz vergiləri tutulur.

ƏDV dolayı vergi olub, əhalinin xərclərindən tutulur. Çünki bu vergi istehsalda alqı-satqı prosesində yaranır. 1 yanvar 2001-ci ildən qüvvəyə minən «Azərbaycan Respublikasının Vergi Məcəlləsi»nə görə ƏDV 18% qəbul olunmuşdur. ƏDV-nin faiz dərəcəsi və hesablanması, vergitutma obyektləri müxtəlif ölkələrdə fərdi xarakter daşıyır. Azərbaycan Respublikasında da Əlavə Dəyər Vergisi haqqında Qanun və təlimatlar qəbul olunmuşdur. 1992-ci ilə qədər ƏDV-nin dərəcəsi 28% olmuşdursa, 2001-ci ildən 18%-ə endirilmişdir. Sonda müqayisə üçün qeyd edək ki, ƏDV-nin dərəcəsi İspaniya və Fransada 12%, Almaniyada 14%, İngiltərədə 15%, Portuqaliyada 16% və s.-dir. İdxal olunan mallara ƏDV-nin tətbiqi iki funksiyanı yerinə yetirir:

1) xarici iqtisadi fəaliyyətin tənzimlənməsi, daha doğrusu daxili bazarda yerli və idxal malları arasındakı rəqabətin tənzimlənməsi;

2) Dövlət büdcəsinin gəlir hissəsini doldurmaq üçün fiskal funksiyanı.

ƏDV-ni müəyyənləşdirərkən advalor dəyərdən istifadə olunur.

ƏDV müqavilədə göstərilən valyuta əsasında hesablanır, daha doğrusu, malın gömrük dəyəri hesablanan valyuta əsas götürülür.

ƏDV hesablanarkən üç dəyər elementinin cəmi əsas götürülür:

- malın gömrük dəyəri;
- gömrük rüsumu (advalor, spesifik və kombinə edilmiş tariflərlə hesablanmış);
- aksiz kəmiyyət.

Azərbaycan Respublikasında 1995-ci ildən başlayaraq xarici ticarət mallarından əlavə dəyər vergisi tutulur. İdxal malları istehsal olunduğu

ölkənin ərazisində əlavə dəyər vergisinə cəlb olunmadığı üçün, istehlakçı ölkələrdə həmin mallardan əlavə dəyər vergisi tutulur. Lakin Müstəqil Dövlətlər Birliyi ölkələri ilə Xüsusi Gömrük Sistemi fəaliyyət göstərdiyindən, bu ölkələrdən Azərbaycan Respublikasının ərazisinə gətirilən malların əlavə dəyər vergisinə cəlb olunması Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə tənzimlənir.

MDB ölkələrinə ixrac olunan mallardan ƏDV tutulur.

Qeyd etmək lazımdır ki, dolayı vergilərdən biri də aksizlərdir. Aksizlər istehlak mallarına və xidmətlərinə qoyulduğu üçün, bilavasitə alıcılar tərəfindən ödənilir. Aksizlərin faizi, Azərbaycan Respublikasının «Vergi Məcəlləsi»nə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Hal-hazırda aksiz faizləri 10%-dən (qiyməti metal və gümüş məmulatı) 90-dək (içməli spirt) dəyişir.

Qeyd etmək lazımdır ki, ixrac məhsullarına qoyulan ƏDV və aksizləri Azərbaycan Respublikası vergi orqanları, idxal olunan mallar üçün müəyyən edilmiş ƏDV-ni və aksizləri isə Azərbaycan Respublikasının gömrük orqanları toplayır.

Aksizləri advalor tariflərinə görə hesabladıqda malın gömrük dəyəri, gömrük rüsumu və gömrük rəsmiləşdirilməsi üçün gömrük yığımlarının miqdarı vergiqoymanın bazası kimi götürülür.

Mal qismində ölkənin gömrük sərhəddindən keçirilən malların və nəqliyyat vasitələrinin, habelə müşayiət olunmayan baqacda, beynəlxalq poçt göndərişlərində keçirilən, kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların və yüklərin, həmçinin nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinə görə Qanunvericiliklə müəyyən olunmuş miqdarda gömrük yığımları alınır.

Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları, gömrük sisteminin xidməti xərcləri kimi qiymətləndirilir. Bu gömrük yığımları birbaşa büdcə vəsaiti hesab olunur.

Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımları, mal və sənədlər gömrük rəsmiləşdirilməsinə təqdim olunana qədər və ya həmin vaxt həyata keçirilir. Bu gömrük yığımları ödənilməsinin özünəməxsusluğu aşağıdakılardır:

1) gömrük yığımlarının ödənilməsi üçün hər bir vaxt alma və ya vaxt uzatma nəzərdə tutulmayıb;

2) gömrük rəsmiləşdirilməsinə görə alınmış gömrük yığımları geri qaytarılmır.

Azərbaycan Respublikası «Gömrük Məcəlləsi»nin 112-ci maddəsinə görə gömrük rəsmiləşdirilməsi üçün yığımların miqdarını Qanunvericiliyə uyğun olaraq müvafiq İcra hakimiyyəti, yəni Azərbaycan Respublikası Nazirlər Kabineti müəyyənləşdirir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 saylı Qərarı ilə gömrük rəsmiləşdirilməsinə görə aşağıdakı gömrük yığımlarının miqdarı müəyyən edilmişdir:

1)mal qismində ölkənin gömrük sərhəddindən keçirilən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların və yüklərin (dəyəri 100 ABŞ dollarından az olduqda, 10 ABŞ dollarından az olmayacaq), nəqliyyat vasitələrinin, həmçinin Azərbaycan Respublikası Milli Bankı tərəfindən Azərbaycan Respublikasının gömrük ərazisindən kənarda sifariş verilməklə gətirilən milli valyutanın gömrük rəsmiləşdirilməsinə görə gömrük dəyərinin, xarici valyuta sərvətlərinin isə nominal dəyərinin 0,15% miqdarında, Azərbaycan Respublikası Milli Bankı tərəfindən müəyyən edilən məzənnəyə görə manatla gömrük yığımları alınır;

2) Azərbaycan Respublikasının gömrük sərhədindən Qrant haqqında Müqaviləyə əsasən qrant kimi alınan maddi yardım, humanitar və texniki yardım məqsədi ilə, habelə Azərbaycan Respublikasının ərazisində yerləşən diplomatik nümayəndələrin rəsmi və nəqliyyat vasitələri, elektrik enerjisinin qarşılıqlı ötürülməsi üzrə gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları alınır;

3) Gömrük Yük Bəyannaməsinin hər bir əlavə vərəqi üçün sövdələşmə xarakterindən asılı olmayaraq 5 ABŞ dolları məbləğində məzənnəyə görə manatla ödənc alınır.

4) Azərbaycan Respublikasının gömrük sərhədindən tranzit gömrük rejimi altında keçirilən malların gömrük rəsmiləşdirilməsinə 30 ABŞ dolları, hər əlavə Tranzit Yük Bəyannaməsi üçün 10 ABŞ dolları miqdarında məzənnəyə görə gömrük yığımları alınır;

5) fiziki şəxslər tərəfindən Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən nəqliyyat vasitələrinin qeydə alınması üçün vəsiqə verilməsinə görə: - yük və minik avtomobilləri, mikroavtobus və avtobuslar üçün – 20 ABŞ dolları; digər nəqliyyat vasitələri üçün 15 ABŞ dolları məbləğində məzənnəyə uyğun olaraq manatla ödənc alınır;

6) malların və nəqliyyat vasitələrinin Azərbaycan Respublikası orqanlarının iş vaxtından kənarda və müəyyən edilmiş yerdən kənarda rəsmiləşdirilməsinə görə gömrük yığımları ikiqat miqdarda alınır.

**Saxlanca görə gömrük yığımları.** Gömrük anbarlarında və sahibi Azərbaycan Respublikasının gömrük orqanları olan müvəqqəti saxlanc anbarlarında malların və nəqliyyat vasitələrinin saxlancına görə göstərilən xidmətlərin orta dəyərindən asılı olaraq Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin müəyyən etdiyi miqdarda gömrük yığımları alınır (Gömrük Məcəlləsinin 113-cü maddəsi).

**Malların gömrük müşayiətinə görə gömrük yığımları.** Malların gömrük müşayiətinə görə Azərbaycan Respublikası DGK-nin Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə müəyyən etdiyi miqdarda gömrük yığımları alınır.

Tətbiq olunan gömrük vergiləri, gömrük rüsumları və müxtəlif gömrük yığımları Dövlət büdcəsi gəlirlərinin təxminən 10-25%-ə qədərini təşkil etsə də, gəlir gətirmədiyindən daha çox iqtisadi siyasət vasitəsi kimi əhəmiyyətə malikdir.

### 4.3. Gömrük siyasəti ilə iqtisadi təhlükəsizliyin təmin edilməsinin qarşılıqlı əlaqəsi

Gömrük xidməti ölkənin iqtisadi təhlükəsizliyinin keşiyində duran və nəticə etibarilə onun suverenliyinin qorunmasında fəal iştirak edən etibarlı qüvvədir. İqtisadi inkişafın dərinləşməsi, daxili bazarın yad təsirlərdən qorunması, Dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasında gömrük xidmətinin rolu böyükdür. Məlum olduğu kimi, Azərbaycan öz suverenliyini bərpa etdikdən sonra 1992-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsi yaradılmışdır. Lakin o zaman mürəkkəb ictimai-siyasi vəziyyət gömrük orqanlarının formalaşmasına imkan verməmişdir. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra isə bütün sahələrdə olduğu kimi, gömrük xidmətində də islahatlar aparılmış, Dövlət Gömrük Komitəsinin fəaliyyətində ciddi dönüş yaranmışdır. Ulu öndərin sözlərilə desək, gömrük xidməti Azərbaycanın iqtisadı müstəqilliyinin qorunub saxlanılmasında mühüm əhəmiyyət kəsb edir. Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir.

Qeyd etdiyimiz kimi, Azərbaycanın iqtisadi inkişafı, onun suverenliyinin təmin edilməsi ölkədə aparılan gömrük siyasətilə bilavasitə bağlıdır. Bütün bunlar nəzərə alınmaqla, son 10 ildə Azərbaycanda uğurlu gömrük siyasətinin təməli qoyulmuş, gömrük işinin təkmilləşdirilməsi, gömrük orqanlarının maddi-texniki və normativ-hüquqi bazasının möhkəmləndirilməsi, ümumdünya gömrük sisteminə inteqrasiyası istiqamətində uğurlu addımlar atılmışdır. Bununla belə, gömrük işi ölkədə və dünyada gedən ictimai-siyasi, iqtisadi-sosial proseslərdən geridə qala bilməz və daim təkmilləşdirilməlidir. Odur ki, ötən illərdə olduğu kimi, yola saldığımız 2008-cı ildə də bu sahədə görülmüş işlər davam etdirilmiş, kompleks tədbirlər həyata keçirilmişdir. Gömrük orqanlarının mühüm vəzifələrindən biri də fiskal funksiyanın – gömrük vergi və rüsumları üzrə proqnozun yerinə yetirilməsidir. Bildiyimiz kimi, son dövr Azərbaycanda mövcud olan siyasi sabitlik, həyata keçirilən iqtisadi islahatlar öz bəhrəsini verir. Makroiqtisadi göstəricilər yüksələn xətlə artır. Nəticədə dövlət büdcəsinin ölkə üzrə artım tempi dünya üzrə orta göstəricini qabaqlamışdır.

Bu gün dünyada vahid iqtisadi sistem - ayrı-ayrı ölkələrin milli təsərrüfat sistemlərinin məcmusundan ibarət Ümumdünya Təsərrüfat sistemi formalaşır. Həmin sistemlər daim sıx əlaqədədirlər, ancaq eyni zamanda bir-birinə qarşılıqlı təsir edirlər. Azərbaycan da müstəqil dövlət kimi özünün Milli Təsərrüfat Sistemini qurur. Bu sistemin formalaşması üçün isə onu xarici müdaxilədən qorumaq zəruridir. Çünki iqtisadi təhlükəsizlik hərbi təhlükəsizlik qədər vacibdir. Bunun təmin olunması, təbii ki, gömrük orqanlarının vəzifəsidir. İndi tam qətiyyətlə deyə bilərik ki, müstəqil Azərbaycanın müstəqil gömrük sistemi formalaşıb və qarşıya qoyulan funksiyaları kifayət qədər müvəffəqiyyətlə yerinə yetirir. Bu funksiyalar aşağıdakılardır:

I. hüquq-mühafizə orqanı kimi gömrük xidməti təhlükəsizliyi təmin edilir, narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə aparılır.

II. fiskal funksiyalarının yerinə yetirilməsi, yəni dövlət büdcəsi gəlirlərinin təmin edilməsi. Bundan başqa, gömrük orqanları ölkədə yeni iqtisadi inkişaf mərhələsinin başlanmasına uyğun olaraq milli istehsalın qorunmasında proteksionist siyasətin həyəta keçirilməsinə də xidmət edirlər.

Büdcə gəlirlərinin yerinə yetirilməsində gömrük orqanları da mühüm rol oynayır. Təkcə onu qeyd edim ki, büdcə gəlirlərində gömrük vergi və rüsumlarının xüsusi çəkisi azalsa da, məbləği ilbəil artır. 2006-cı ilin yekunlarına əsasən, Dövlət Gömrük Komitəsi üzrə nəzərdə tutulmuş 505,4 milyon manat məbləğində gömrük vergi və rüsumu əvəzinə, büdcəyə 515,9 milyon manat vəsait köçürülmüş, proqnoz artıqlaması ilə təmin edilmişdir. Bir sözlə, büdcə daxilolmalarında, yəni vergi növlərində və strukturda dəyişikliklər aparılmadan maliyyə intizamı və qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi, ümumiyyətlə, gömrük nəzarətinin daha effektiv təşkili və digər sahələrdə görülən tədbirlər nəticəsində Dövlət Gömrük Komitəsi hər il olduğu kimi, ötən ildə də proqnozu artıqlaması ilə yerinə yetirmişdir. 2007-ci il üzrə müvafiq tapşırıqlara gəlincə, bütün iqtisadi təhlillər aparıldıqdan sonra Dövlət Gömrük Komitəsi üçün 630 milyon manat proqnoz nəzərdə tutulmuşdur. Tam əminliklə deyə bilərəm ki, bu ildə də Dövlət Gömrük Komitəsi öz üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələcək. Belə ki, son illər Azərbaycan gömrük xidmətinin maddi-texniki bazası möhkəmləndirilmiş, qanunvericilik bazası təkmilləşdirilmişdir. Bunlar isə növbəti uğurlara əsaslı yol açır.

Ölkə iqtisadiyyatının inkişafında özünəməxsus yeri olan gömrük orqanları əvvəlki illərdə olduğu kimi, ötən hesabat ilində də fəallıq göstərərək, "Dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanunu

ilə gömrük vergi və rüsumları üzrə müəyyən edilmiş proqnozun artıqlaması ilə yerinə yetirilməsini təmin etmişdir.

Belə ki, xarici ticarətin ümumi dövriyyəsinin 11637,2 mln. ABŞ dolları, o cümlədən, ixracın 6372,1 mln. ABŞ dolları, idxalın isə 5265,1 mln. ABŞ dolları olmaqla, ümumi idxalda vergitutma bazasının 45,2 % təşkil etdiyi 2006-cı ildə, Dövlət Gömrük Komitəsi tərəfindən 505,4 mln. manat proqnoza qarşı 515,9 mln. manat məbləğində vəsait toplanaraq Dövlət büdcəsinə köçürülməsi təmin olunmuş və illik proqnoz 102,1% yerinə yetirilmişdir. Bu da 2005-ci illə müqayisədə 139,8 mln. manat və yaxud 37,2% çoxdur.

Məlum olduğu kimi, ölkədə yeni iqtisadi inkişaf mərhələsi başlayıb. Bundan əvvəl ölkəmiz iki inkişaf mərhələsi yaşadı. Siyasi stabilliyin təmin olunması mərhələsi 1996-cı ildə başa çatdı. Sonra start götürən makroiqtisadi stabilliyin təmin olunması 1996-2000-ci illərdə həyata keçirildi. Həmin dövrdə Birinci Özəlləşdirmə Proqramını həyata keçirməklə yanaşı, makroiqtisadi stabillik əldə olundu. Bu müddətdə milli valyutanın kursu, inflyasiya səviyyəsi, xarici valyuta ehtiyatlarının formalaşması müsbət istiqamətdə dəyişdi. Bütün bunlardan sonra, yeni bir inkişaf mərhələsi başlayıb. Gömrük orqanlarının vəzifələri də bu mərhələlərə uyğun olaraq dəyişdi. Birinci mərhələdə gömrük orqanlarının fəaliyyətində əsas diqqət bilavasitə sərhədlərin tam şəkildə qorunması idi. Yəni sərhəddən ölkəyə hər hansı yad ünsürün daxil olması, qeyri-qanuni miqrasiyanın, qaçaqmalçılıq və narkotik vasitələrin dövriyyəsinin qarşısının alınması əsas məqsəd idi. Yəni ölkə daxilində həyata keçirilən siyasi stabillik proseslərinə kənar təsirlərin qarşısının alınması zəruri idi. İkinci mərhələdə isə əsas məsələ fiskal funksiyanın həyata keçirilməsi, yəni büdcənin gəlirlərinin proqnoz səviyyəsində təmin olunması idi. Amma indiki mərhələdə bu funksiyalar sırasına proteksionist funksiya da əlavə olunub. İqtisadi inkişafın təmin olunması üçün yerli istehsalın qurulmasına ehtiyac var. Ölkədə daxili istehlak bazarının formalaşması və onun strukturunun dəyişməsində gömrük orqanları mühüm rol oynamalıdır. İstehlak bazarı iki hissədən ibarətdir: əhalinin istehlak bazarı və istehsal sahələrinin istehlak bazarı. Onların hər ikisində struktur dəyişdirilməli, istehlakda yerli və xarici xammalın həcmi müəyyənləşməlidir. Hesab edirəm ki, iqtisadi inkişafın təmin olunmasında təkcə DGK yox, İqtisadi İnkişaf Nazirliyi, bank qurumları, Vergilər və Maliyyə nazirlikləri birgə kompleks şəkildə fəaliyyət göstərməlidirlər. Bildiyiniz kimi, Dövlət başçısı 2003-cü il üçün Dövlət Neft Fondu Büdcəsinin formalaşması haqqında Fərman imzaladı. Fərmanda Nazirlər Kabinetinə tapşırıldı ki, Neft Fondunun vəsaitlərindən səmərəli istifadə etmək üçün investisiya proqramları hazırlansın. Çox vacib olan bu məsələ onu göstərir ki, ölkədə yaranmış

həm xarici valyuta resursları, həm də Neft Fondunun vəsaitləri hesabına yerli istehsalın inkşaf etdirilməsinə başlamaq lazımdır. Hazırda bu istiqamətdə iş aparılır. Gömrükçü kimi onu qeyd etmək istərdim ki, həmin investisiya proqramlarının təmin edilməsində idxal və ixrac əməliyyatları və hazırkı fəaliyyətin təsirini mütləq nəzərə almaq lazımdır. Bu proseslərin səmərəliləşdirilməsi isə iqtisadçıların öz üzərinə düşür.

2006-cı il ərzində Azərbaycanın gömrük orqanları ölkənin iqtisadi mənafeyinin və təhlükəsizliyinin qorunması, qaçaqmalçılığa və gömrük işi sahəsində digər hüquqpozmalara qarşı mübarizə aparılması istiqamətində hüquq-mühafizə sahəsində fəaliyyətini gücləndirməklə, kompleks tədbirlər həyata keçirmişdir. Hesabat dövründə gömrük orqanlarının əməliyyat bölmələrinin fəaliyyəti əsasən qaçaqmalçılığa qarşı mübarizənin aparılmasına, xüsusilə də qaçaqmalçılıq kanallarının aşkar olunmasına və ləğvinə, qabaqlayıcı, profilaktik və əməliyyat-axtarış tədbirləri vasitəsilə gömrük ödənişlərinin ödənilməsindən yayınmanın və digər hüquqpozmaların qarşısının alınmasına yönəlmişdir. Həyata keçirilmiş tədbirlər nəticəsində ötən il 5326 hüquqpozma faktı aşkar edilmişdir. Bu faktlardan 181-ni, cinayət xarakterli faktlar olmuş, 185 nəfər (123 Azərbaycan, 62 xarici ölkə vətəndaşı) şübhəli şəxs qismində saxlanılmışdır. Gömrük orqanlarının işinin əsas istiqamətlərindən biri də idxal-ixrac əməliyyatları zamanı Valyuta Qanunvericiliyinin pozulmasına qarşı mübarizə təşkil etmişdir. Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2000-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş 2006-cı ilədək olan dövr üçün nəzərdə tutulan "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə gömrük orqanları tərəfindən digər hüquq-mühafizə orqanları ilə əməkdaşlıq şəraitində görülən tədbirlər nəticəsində 2006-cı ilin müvafiq dövründə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 44 fakt aşkarlanmış, həmin faktlar üzrə 13 kq 322,56 qram narkotik, o cümlədən 3 kq 187,497 qram tiryək, 8 kq 717,57 qram marixuana, 62 qram həşiş, 854,893 qram heroin, 1364 ədəd psixotrop maddə (ampul, kapsul və həb şəklində) tutulmuşdur.

Qeyd etmək lazımdır ki, hazırda DGK dünyanın 12 ölkəsi ilə gömrük fəaliyyətində qarşılıqlı əqalələr qurub. Bu əlaqələr əsasən informasiya mübadiləsi, narkotiklərin qeyri-qanuni dövriyyəsi, qaçaqmalçılığın qarşısının alınması, həmçinin gömrük dəyərləndirilməsinin düzgün həyata keçirilməsi istiqamətlərində qurulur.

İldən-ilə artan ixrac-idxal əməliyyatlarının həcmi müvafiq texniki və proqram təminatını tələb edirdi. 1999-cu ildən başlayaraq Dövlət Gömrük Komitəsinin rəhbərliyinin diqqəti nəticəsində gömrük xidməti üçün çox vacib şəbəkələr və avtomatlaşdırılmış sistemlər yaradılmışdır.

Hazırda 57 gömrük orqanını birləşdirən və "on-line" rejimində işləyən korporativ şəbəkə yaradılıb, 31 gömrük orqanında GRNAS-ın tətbiqi tamamlanır, 19 gömrük orqanında "Hüquqpozmaların uçotu və nəzarəti avtomatlaşdırılmış sistemi" tətbiq olunub, 29 gömrük orqanında informasiya mübadiləsini təmin edən "Çatdırma" proqramı təminatından istifadə olunur.

Məlum olduğu kimi, ölkə iqtisadiyyatının dinamik inkişafı şəraitində gömrük xidmətinin də daim təkmilləşdirilməsi vacib amildir. O cümlədən, gömrük işinin tələb olunan səviyyədə təşkili, beynəlxalq normalara uyğun aparılması bu sahədə normativ bazanın təkmilləşdirilməsi və gömrük nəzarətinin həyata keçirilməsində informasiya texnologiyalarının geniş tətbiqindən asılıdır. Artıq 7 ildir ki, bu istiqamətdə Dövlət Gömrük Komitəsi Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının ölkəmizdəki ofisi ilə əməkdaşlıq edir.

2006-cı ilin noyabrında təqdimatı keçirilən yeni Gömrük Məcəlləsi layihəsinin hazırlanmasında məqsəd də davamlı iqtisadi inkişafa müasir xidmət göstərmək, başqa sözlə, XXI əsrin yeni çağırışları əsasında çevik gömrük modelini formalaşdırmaqdır. Yeni Gömrük Məcəlləsinin hazırlanması Avropa Birliyi və Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının birgə layihəsi olan – "Azərbaycan Respublikasında Gömrük Xidmətinin Təkmilləşdirilməsi" layihəsi çərçivəsində həyata keçirilmişdir. Layihə çərçivəsində Avropa Birliyinə üzv olan Estoniya və İsveçin gömrük xidmətləri ilə yaxından tanışlıq və təcrübə mübadiləsi aparmaq üçün Dövlət Gömrük Komitəsinin mütəxəssislərindən ibarət bir qrup əməkdaş bu ölkələrə səfər etmişlər.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsinin tətbiqinə dair Dövlət Gömrük Komitəsinin mövcud siyasət və

prosedurlara tələb olunan əlavə və dəyişiklikləri, informasiya texnologiyalarının tətbiqi sahələrinin müəyyənləşdirilməsində mühüm rol oynayacaqdır. Ümumiyyətlə, Avropa Birliyinə üzv dövlətlərin gömrük işi ilə bağlı qanunvericilik aktlarının və qabaqcıl iş təcrübələrinin dərindən öyrənilməsi Azərbaycanın yeni Gömrük Məcəlləsinin layihəsinin beynəlxalq standartlara uyğun şəkildə işlənib hazırlanması işinə yaxından kömək göstərmişdir. Məlumat üçün onu da qeyd edim ki, "Azərbaycan Respublikasının Gömrük Xidmətinin Təkmilləşdirilməsi" layihəsi çərçivəsində yeni Gömrük Məcəlləsinin işlənib hazırlanması ilə bağlı Azərbaycanın müvafiq dövlət qurumlarının nümayəndələri və ölkəmizdə fəaliyyət göstərən sahibkarlarla görüşlər keçirilmiş və onlarla fikir mübadiləsi aparılmışdır. Bir sözlə, Azərbaycan gömrük xidməti bu dövr ərzində də öz fəaliyyətini beynəlxalq normalara, Ümumdünya Gömrük Təşkilatının prinsiplərinə, Azərbaycan Respublikasının qanunlarına,

gömrük işinə dair normativ-hüquqi aktlara uyğun olaraq qurmuş, gömrük nəzarətini və gömrük işinə dair normativ-hüquqi bazanı təkmilləşdirmək, maliyyə intizamını möhkəmləndirmək, qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizəni gücləndirmək, şəxsi heyətlə aparılan işin səmərəsini artırmaq, gömrük orqanlarının maddi-texniki bazasını inkişaf etdirmək və beynəlxalq əlaqələri gücləndirmək istiqamətində məqsədyönlü iş aparmışdır.

Bunlarla birlikdə, gömrük orqanlarının əməkdaşları tərəfindən gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin səmərəli və operativ şəkildə həyata keçirilməsi, sərhəd-keçid məntəqələrində sərnişin axınının sürətləndirilməsi və mal dövriyyəsinin artırılması məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən yerli gömrük orqanlarının müasir standartlara cavab verən texniki nəzarət vasitələri ilə təmin olunması işi davam etdirilir, yeni alınmış texniki nəzarət vasitələrindən düzgün istifadəni təmin etmək üçün mütəmadi kurslar təşkil olunur. 2006-cı il ərzində gömrük statistikasının və bu sahədə informasiya texnologiyalarının təkmilləşdirilməsi sahəsində də bir sıra tədbirlər həyata keçirilmişdi. Ümumiyyətlə, gömrük xidmətinin təkmilləşdirilməsi və inkişafı Dövlət Gömrük Komitəsinin daim diqqət mərkəzindədir. Gömrük xidmətinin təkmilləşdirilməsi və inkişafı əsasən müxtəlif gömrük prosedurlarında informasiya texnologiyalarının geniş tətbiqindən asılıdır. Hazırda bu sahə üzrə DGK mal və nəqliyyat vasitələri dövriyyəsinin məlumatlarının yığımını təmin edən sistemin yaradılması, gömrük orqanları arasında informasiya mübadiləsinin təmin olunması, gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılması, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizənin informasiya təminatının təşkili, gömrük inspektorlarının avtomatlaşdırılmış iş yerlərinin yaradılması, mərkəzi aparata gündəlik daxil olan məlumatların yoxlanılması və müvafiq məlumat bazalarının təşkili, eləcə də xarici-iqtisadi əlaqələrin təhlilinin avtomatlaşdırılmış rejimdə aparılması istiqamətlərində iş görür. Eyni zamanda, DGK-da və sərhəd gömrük idarələrində videokonfrans avadanlıqları quraşdırılmışdır ki, bu da idarə rəhbərlərinə videokonfranslar vasitəsi ilə həlli çox vacib və təxirəsalınmaz məsələləri iş yerlərini tərk etmədən komitə rəhbərləri ilə canlı ünsiyyət vasitəsilə müzakirə və həll etməyə, vacib qərarlar qəbul etməyə imkan yaradır.

Respublikada aparılan gömrük siyasətinin əsas istiqamətlərindən biri də gömrük rəsmiləşdirilməsi və nəzarətinin şəffaflığının təmin edilməsidir. Bu məqsədlə gömrük inspektorlarının avtomatlaşdırılmış iş yerlərinin yaradılmasına da böyük diqqət yetirilir. Belə ki, bu məqsədlə "Avtonəqliyyat", "Müvəqqəti yüklərə nəzarət" və " Gömrük mədaxil orderləri" proqram təminatları yaradılıb və gömrük orqanlarında tətbiq

olunur. Aparılan işlər nəticəsində Dövlət Gömrük Komitəsi mal və nəqliyyat vasitələrini təsvir edən məlumatları şəbəkə vasitəsilə yığır, yoxlayır və 4 – "Sərhəd", "Yük gömrük bəyannamələri", "Tranzit" və "gömrük mədaxil orderləri" məlumat bazalarını yaradır. Göstərilən məlumat bazalarının emalı nəticəsində hər ay xarici-iqtisadi əməliyyatların makroiqtisadi təhlili aparılır və müvafiq icra orqanlarına təqdim olunur. Eyni zamanda, hər rüb üzrə "Azərbaycan Respublikasının xarici ticarətinin gömrük statistikası" bülleteni tərtib olunur və icra orqanlarına, beynəlxalq təşkilatlara, səfirliklərə və MDB ölkələrinə göndərilir.

Ötən müddətdə gömrük orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, onun müasir avadanlıq və texniki vasitələrlə təchiz olunması istiqamətində başlanılmış iş davam etdirilmiş, əsaslı tikinti və təmir işləri aparılmışdır. Belə ki, Culfa, Əli Bayramlı, Sumqayıt gömrük idarələrinin və "Azterminalkompleks" Təsərrüfat Hesablı Xarici İqtisadi Birliyinin yeni inzibati binaları, eləcə də Bakı Baş Gömrük İdarəsinin "İpək Yolu", Xaçmaz Gömrük İdarəsinin "Şirvanovka" gömrük postları istifadəyə verilmişdir. "Azərbaycan Respublikasında Gömrük Xidmətinin Təkmilləşdirilməsi» layihəsi üzrə Dövlət Gömrük Komitəsinə kompyuter avadanlıqları, ABŞ hökuməti adından isə digər texniki avadanlıqlar təqdim olunmuşdur. Bundan başqa, Dövlət Gömrük Komitəsində İnformasiya-Sorğu Mərkəzi və Müasir Server Xidməti istifadəyə verilmişdir.

2006-cı ilin noyabr ayında Azərbaycan Respublikası "Gömrük Məcəlləsi"nin yeni layihəsinin təqdimatı keçirilmiş, "Azərbaycan Respublikası Gömrük Sisteminin 2007-2011-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" hazırlanmış, "GUAM Ticarət və Nəqletməyə Yardım Layihəsinin həyata keçirilməsi üzrə Milli Plan" qəbul olunmuşdur.

Ölkədə korrupsiyaya və digər neqativ hallara qarşı mübarizəni gücləndirmək məqsədilə gömrük ödənişlərinin xüsusi ödəniş kartları vasitəsilə həyata keçirilməsi üçün Bakı Hava Yolları Nəqliyyatında, Baş Gömrük İdarələrində, habelə Sumqayıt və Avtonəqliyyat Gömrük İdarələrində ödəniş post-terminalları artıq fəaliyyətə başlamış, bir çox digər gömrük orqanlarında isə bu iş başa çatmaq üzrədir. Mal və nəqliyyat vasitələri üzərində gömrük nəzarəti və rəsmiləşdirilməsinin beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində tədbirlər hesabat ilində davam etdirilmiş, bu sahədə avtomatlaşdırılmış sistemin ilk olaraq Bakı Baş Gömrük İdarəsinin "İpək Yolu" gömrük postunda tətbiqinə başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı, bu sahədə əsassız müdaxilə hallarının qarşısının alınması barədə" Sərəncam və göstərişlərinə uyğun olaraq ötən hesabat

ilində Dövlət Gömrük Komitəsi ilə iş adamları arasında əlaqələndirici funksiyanı həyata keçirən Koordinasiya Şurasının fəaliyyəti gücləndirilmiş, sahibkarların fəaliyyətinə lüzumsuz müdaxilələrin qarşısının alınması, həmçinin daxili bazarı qorumaq və ixracı stimullaşdırmaq məqsədilə lüzumsuz tarif güzəştlərinin ləğvi yönümündə tədbirlər həyata keçirilmişdir. Beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla, hazırda tətbiq olunan gömrük idxal rüsumlarının çoxpilləli sistemdən azpilləli sistemə keçilməsi barədə müvafiq təkliflər hazırlanıb baxılmaq üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir. 2006-cı ildə gömrük statistikasının daha da təkmilləşdirilməsi, yeni, müasir informasiya texnologiyalarının tətbiqi işi davam etdirilmişdir.

Dövlət Gömrük Komitəsi beynəlxalq gömrük əməkdaşlığının genişləndirilməsi, beynəlxalq inteqrasiyanın dərinləşdirilməsi istiqamətində işini davam etdirmiş, dünyanın bir çox qabaqçıl ölkələrinin gömrük təşkilatları ilə qarşılıqlı əməkdaşlığa dair sənədlər qəbul edilmiş, o cümlədən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Macarıstan Respublikası Maliyyə Mühafizə Xidməti arasında əməkdaşlıq haqqında Protokol, "Moldova Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" imzalanmışdır.

1995-ci ildən qarşılıqlı əməkdaşlığa başladığımız Amerika Birləşmiş Ştatlarının Gömrük və Sərhəd Mühafizə Xidməti nümayəndə heyətinin bu günlərdə ölkəmizə səfəri Azərbaycan-Amerika gömrük xidmətlərinin əməkdaşlığında yeni mərhələ olmaqla, gömrük məsələləri üzrə hökumətlərarası Sazişin imzalanmasını sürətləndirməkdədir. Cari ililn fevral ayında isə ölkəmizin paytaxtında Ümumdünya Gömrük Təşkilatının xətti üzrə dünyanın bir sıra beynəlxalq təşkilatlarının və ən iri farmakologiya kampaniyalarının iştirakı ilə "Saxta dərman preparatları ilə mübarizə" mövzusunda keçiriləcək Beynəlxalq Konfransa bu günlər ciddi hazırlıq görülür.

Beynəlxalq inteqrasiya ilə yanaşı, milli iqtisadiyyatın inkişafını nəzərdə tutan xarici siyasətin məntiqi nəticəsi olaraq dövlətimizin iqtisadi əlaqələri ilbəil genişlənməkdədir. Artıq xarici investisiya qoyuluşları, ticarət əlaqələri və digər beynəlxalq əlaqələrə istiqamətlənmiş tədbirlər Azərbaycan dövlətinin iqtisadi-siyasi həyatında mühüm yer tutur. Dövlətimizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması isə xarici iqtisadi, o cümlədən, onun tərkib hissəsi olan ticarət əlaqələrinin regionun iqtisadiyyatındakı rolunun əhəmiyyətini daha da artırır. Xarici ticarət əlaqələrinin Muxtar Respublika ərazisində tənzimlənməsini həyata keçirən gömrük orqanları büdcənin formalaşdırılması ilə yanaşı, daxili bazarın qorunması ilə

sahibkarlığın inkişaf etdirilməsində, süni qiymət dəyişmələrinin tənzimlənməsi ilə istehlakçıların hüquqlarının müdafiə edilməsində, gömrük qanun pozuntularına qarşı mübarizədə yaxından iştirak edirlər.

Qeyd etmək lazımdır ki, Azərbaycanın gömrük xidməti ölkənin iqtisadi maraqlarını və təhlükəsizliyini qoruyan çoxfunksiyalı bir kompleksə çevrilib. DGK indi öz işini müasir tələblərə uyğun quraraq müasirləşmiş, təşkmilləşmiş bir sistemdir.

Hazırda DGK-da müxtəlif beynəlxalq təşkilatların - Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının və Ümumdünya Gömrük Təşkilatının yaxından köməyi ilə ciddi modernləşdirmə prosesi aparılır. Bu tədbirlərin görülməsində əsas məqsəd bir tərəfdən ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün gömrük nəzarətinin daha da gücləndirilməsidirsə, digər tərəfdən də ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi, iş adamlarının gömrüklə bağlı vaxt itkisinə yol verməməsidir.

Beynəlxalq təşkilatlarla DGK-nın sıx əməkdaşlığı, eyni zamanda beynəlxalq layihələrin həyata keçirilməsində qarşılıqlı münasibətlərin dərinləşməsi bu sahədə müsbət nəticələr verir. TRASEKA və TASİS proqramları çərçivəsində həyata keçirilən məqsədyönlü tədbirlər buna misal ola bilər.

DGK-nın BMT İnkişaf Proqramı ilə qarşılıqlı əlaqələri də öz müsbət nəticələrini verir. DGK-nın potensialının gücləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması istiqamətində 1999-cu ilin yanvar ayında imzalanmış layihənin 1-ci və 2-ci fazası uğurla yekunlaşdırılmışdır.

Gömrük təşkilatları ilə regional səviyyədə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsində göstərilən təşəbbüslər Bakıda Regional Tədris Mərkəzinin yaradılmasına da böyük təkan verib. Terrorizmin təzahürlərinin, nüvə, radioaktiv materialların yayılmasının qarşısını almaq yolunda DGK effektiv fəaliyyət göstərir. DGK bu məqsədlə Atom Enerjisi üzrə Beynəlxalq Agentliklə (AEBA) fəal əməkdaşlıq edir. Gömrük orqanları tərəfindən sərhəd-keçid məntəqələrinin lazımi texniki-nəzarət vasitələri ilə təchiz edilməsinə dair hazırlanan layihə Agentliyə təqdim edilib.

### 4.4.Keçid dövründə gömrük siyasətinin formalaşmasının səciyyəvi xüsusiyyətləri

Bazar iqtisadiyyatı yolu ilə gedən ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri xarici iqtisadi fəaliyyətin gömrük münasibətlərinin tənzimlənməsi idi. Belə ki, gömrük tənzimlənməsi dövlətin xarici ticarət

dövriyyəsinə təsirinin əsas vasitələrindən biridir, onun köməyi ilə dövlət bir tərəfdən öz iqtisadiyyatının dünya təsərrüfatına azad çıxışını təmin edir, digər tərəfdən isə ayrı-ayrı malların ölkə ərazisinə gətirilməsi və çıxarılmasını tənzimləməklə müəyyən qadağalar və məhdudiyyətlər qoyulması, lisenziyalaşdırma, kvotalaşdırma və respublika istehlakçılarının maraqlarının təmin edilməsi məqsədilə digər tədbirlərin görülməsini təmin edir. Eyni zamanda xarici iqtisadi fəaliyyətin gömrük tənzimlənməsi iqtisadi təhlükəsizliyin müdafiəsi, ictimai qaydanın, insanların həyat və sağlamlığının, cəmiyyətin əxlaqi və mənəvi dəyərlərinin qorunması, həmçinin ölkənin sərhədindən malların və nəqliyyat vasitələrinin keçirilməsi zamanı gömrük ödənişlərinin alınması yolu ilə Dövlət büdcəsinin gəlir hissəsinin doldurulmasını təmin edir.

Bu münvalla, 1992-ci ilin yanvarın 30-da Prezidentin 561 saylı Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. Yarandığı ilk illərdə Komitənin həyata keçirdiyi ilkin sahələr əsasən təşkilati məsələlər, o cümlədən də gömrük xidməti fəaliyyətinin məqsədlərinin müəyyənləşdirilməsi, həmçinin onun strukturu və əməkdaşlarının sayı və s. bu kimi məsələlər təşkil edirdi.

Bir qayda olaraq gömrük orqanlarının əhəmiyyətli funksiyası Gömrük Qanunvericiliyinin icrası, mal və xidmətlərin, o cümlədən də nəqliyyat vasitələrinin yerdəyişməsi (ölkəyə daxil olması və ya çıxarılması) üzərində nəzarətin təmin edilməsi yolu ilə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması, gömrük siyasətinin formalaşdırılması və təkmilləşdirilməsi kimi ölkə üçün həyati əhəmiyyətli məsələlərdən ibarətdir. Əsas məqsədlər sırasına isə ilk növbədə Dövlət büdcəsinə gömrük rüsumlarından və ödəmələrindən yığımların daxil olmasını təmin etmək kimi prioritetlər daxildir.

Azərbaycan dövlətinin xarici ticarət-iqtisadi siyasətinin məqsədlərinə aşağıdakıları aid etmək olar: ötürülməsindən asılı olmayaraq malların gömrük qeydiyyatının aparılmasının təmin olunması; gömrük prosedurlarının sadələşdirilməsi və qeydiyyat müddətinin aşağı salınması; gömrük nəzarəti üçün müasir aparıcı gömrük texnologiyalarının tətbiq edilməsi; gömrük ödənişlərinin və onların büdcəyə daxilolmaları üzərində nəzarət texnologiyalarının təkmilləşdirilməsi; yük və yük yolayrıcıları haqqında əvvəlcədən məlumatın əldə edilməsi; qaçaqmalçılığın qarşısının alınması, narkotik maddələrin gətirilməsinin (və ya aparılmasının), o cümlədən digər hüquq-mühafizə orqanları ilə birlikdə ölkə ərazisindən istifadə edərək narkotik maddələrin qeyri-qanuni tranzitinin qarşısının alınması; ixracdan əldə edilən gəlirlərin tam daxil olması, o cümlədən, barter və bank təminatlarının yerinə yetirilməsi üzərində tədbirlərin gücləndirilməsi istiqamətində nəzarətin həyata keçirilməsi; gömrük sərhədinin tamamilə yenidən qurulması və gömrük nəzarətinin dünya standartına uyğun şəkildə yenidən quraşdırılması; gömrük sərhədindən yükün yerdə-

yişməsinin avtomatlaşdırılmış qeydiyyatının və yekun hesabatların təkmilləşdirilməsi; gömrük müayinəsinin təkmilləşdirilməsi; hissəvi identifikasiya müayinəsi texnologiyalarının tətbiqi və gömrük müayinəsinin dairəsinin genişləndirilməsi; beynəlxalq tələblər səviyyəsinə uyğun olaraq gömrük sənədlərinin uyğunlaşdırılması; boru nəqliyyatı və elektrik ötürücü naqillərinin vasitəsi ilə idxal və ixrac edilən mal və xidmətlər üzrə faktiki nəzarətin təmin olunması; tənzimlənmənin qeyri-tarif tədbirləri üzrə nəzarət texnologiyalarının təkmilləşdirilməsi; intellektual mülkiyyət obyektlərinin yerdəyişməsi üzərində nəzarətin həyata keçirilməsi və bununla əlaqədar təşkilati mexanizmlərin və təşkilati-hüquqi bazanın formalaşdırılması; gömrük tənzimlənməsinin tarif metodları kompleksinin səmərəli fəaliyyətinin təhlilinin həyata keçirilməsi və bununla əlaqədar tədbirlər planının, o cümlədən təkmilləşdirilməsi istiqamətlərinin hazırlanması və həyata keçirilməsi; müəyyənləşdirilmiş zaman müddətində hesabatların müəyyənləşdirilmiş formada Gömrük Komitəsinə məlumatların təhvil verilməsi və bununla əlaqədar kompleks fəaliyyətin keyfiyyət aspektlərinin yüksəldilməsi, məlumatın həqiqiliyinin yoxlanılması üçün mövcud olan əks-əlaqə mexanizmlərinin tətbiq edilməsi; Komitənin təşkilati strukturunun təkmilləşdirilməsi məqsədilə gömrük xidmətinin ümumən və struktur vahidləri şəklində ayrı-ayrılıqda fəaliyyətinin periodik təhlili və s.

Azərbaycan dövlətinin gömrük siyasətinin uğurla həyata keçirilməsi öz növbəsində aşağıdakı prioritetlərin əldə edilməsini mümkünləşdirir:

– Gömrük nəzarəti alətlərinin səmərəli istifadəsinin təmin olunması;

– Respublikanın gömrük sərhədlərində əmtəə dövriyyəsinin tənzimlənməsi;

– Daxili bazarı qorumaq məqsədilə ticari-iqtisadi məqsədlərin həyata keçirilməsi;

– Milli iqtisadiyyatın inkişafının stimullaşdırılması;

– Xarici bazar ekspansiyasından və qeyri-sivil rəqabətdən qorunmaq və s.

Bu mənada Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin üzərinə ölkə iqtisadiyyatının uzunmüddətli perspektivdə dayanıqlı inkişafı üçün böyük işlər düşür. Bir qayda olaraq, ölkənin gömrük xidmətinin və bu xidməti həyata keçirən gömrük orqanlarının, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sistemində mərkəzi element funksiyasını yerinə yetirən gömrük sisteminin əhəmiyyəti müasir iqtisadi gerçəkliklər və dünya iqtisadiyyatında baş verən dəyişikliklər fonunda, o cümlədən müsbət meyillər zəminində daima artmaqdadır.

Ölkənin dünya birliyinə inteqrasiyasını sürətləndirmək və daha dayanıqlı sütunlar üzərində xarici ölkələrlə ikitərəfli və çoxtərəfli əməkdaşlıq və əlaqələrin yaradılması, əlaqələrin inkişaf etdirilməsi, ölkəmizin milli

maraqlarının təmini prosesində keyfiyyətcə yeni üfüqlərin açılmasında və ümumiyyətlə, Azərbaycanın xarici iqtisadi əlaqələrinin qurulması və tənzimlənməsində Dövlət Gömrük Komitəsinin fəaliyyətinin əhəmiyyəti yarandığı gündən bəri xeyli artmışdır. Bu mənada ölkənin xarici iqtisadi əlaqələrinin günü-gündən artması və bu istiqamətdə gömrük xidmətinin və onun ayrı-ayrı strukturlarının üzərinə düşən vəzifə və funksiyaları arzu olunan və dünya standartlarının tələblərinə müvafiq formada, müasir iqtisadi gerçəkliklərin prizmasından məqsədyönlü şəkildə yerinə yetirilməsində təbii ki, Dövlət Gömrük Komitəsinin rolu danılmazdır.

Müstəqilliyini yeni əldə etmiş və iqtisadiyyatının keçid dövrünü yaşayan Azərbaycan dövlətinin gömrük siyasəti, ölkənin dünya birliyində nüfuzunun artmasına xidmət edən, iqtisadiyyatımızın inkişafına kömək edən və bununla yanaşı, ölkəmizin beynəlxalq iqtisadi əlaqələr sferasında yerini möhkəmləndirən gömrük sisteminin yardılması istiqamətində formalaşdırılmışdır.

Gömrük siyasətinə ölkə rəhbərliyinin yüksək səviyyədə önəm verməsi və respublikamızın dünya birliyinə sürətli inteqrasiyası Dövlət Gömrük Komitəsinin strukturuna yenidən baxmağı və bu strukturun iş mexanizminin, vəzifə və funksiyalarının təkmilləşdirilməsini zərurətə çevirmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu Ümummilli Liderimiz Heydər Əliyevin 26 oktyabr 1998-ci il fərmanı ilə təsdiqlənmişdir və bu gün də öz qüvvəsini saxlamaqdadır. Ümumdünya Gömrük Təşkilatının (ÜGT) mütəxəssisləri hesab edirlər ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin mövcud strukturu digər Qafqaz dövlətlərinin – Gürcüstan və Ermənistan gömrük orqanlarının analoji strukturlarından daha çox proqressivdir və ÜGT- nin tələblərinə daha çox uyğun gəlir.

Azərbaycan Respublikasında gömrük xidməti ilə əlaqədar fəaliyyət qanunverici və normativ-hüquqi aktlar, Nazirlər Kabinetinin və Dövlət Gömrük Komitəsinin qərar, sərəncam və əmrləri, o cümlədən beynəlxalq müqavilələrlə tənzimlənir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycanda gömrük fəaliyyətini tənzimləyən ən mühüm qanun 10 iyun 1997-ci il tarixli Qanun ilə təsdiq edilmiş və 6 avqust 1997-ci il tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikası «Gömrük Məcəlləsi»dir. «Gömrük Məcəlləsi» Azərbaycanda malların və nəqliyyat vasitələrinin ölkənin gömrük sərhədindən keçirilməsinin qaydaları və şərtlərini, gömrük ödənişlərinin alınmasını, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələrini özündə cəmləşdirən maddələrlə əhatə edilmişdir və müasir dövrdə ölkənin dünya iqtisadiyyatına inteqrasiya olunmasında xarici iqtisadi əlaqələrin qurulmasını, təşkilini, dövlət tənzimlənməsinin, o cümlədən, gömrük siyasətinin təməl prinsiplərini özündə

əks etdirən proqressiv qanundur. Onu da qeyd edək ki, bu qanun 14 bölmə, 61 fəsil və 450 maddədən ibarətdir.

Gömrük siyasətinin formalaşdırılması və həyata keçirilməsində iştirak edən təsisatların məcmusu, həmçinin onun həyata keçirilməsi metodları, səlahiyyətli dövlət orqanları tərəfindən gömrük tənzimlənməsi metodlarının qaydası gömrük siyasəti mexanizmində çulğalaşır. Buna görə də gömrük siyasəti dövlətin xarici iqtisadi siyasətinin əsas prinsipləri ilə müəyyənləşdirilir:

– Xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimlənməsi sisteminin yaradılması və onun həyata keçirilməsinə nəzarət;

– Vahid valyuta nəzarəti;

– Azərbaycan Respublikasının gömrük ərazisinin bütövlüyü;

– Xarici ticarət fəaliyyəti iştirakçılarının bərabərliyi və hər hansı formada ayrı seçkiliyə yol verilməməsi;

– Xarici ticarət iştirakçılarının hüquq və qanuni maraqlarının dövlət tərəfindən qorunması;

– Dövlətin və onun orqanlarının xarici ticarət fəaliyyətinə lüzumsuz müdaxiləsinə, xarici ticarət iştirakçılarına və bütünlükdə ölkə iqtisadiyyatına zərər vurulmasına yol verilməməsi.

Azərbaycan dövlətinin gömrük siyasəti formalaşdığı gündən bu günə qədər çoxsahəli inkişaf yolu keçmiş və hər zaman dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməkdədir.

Qeyd etmək lazımdır ki, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, daxili bazarı müdafiə etmək və ölkə istehsalına dayaq durmaq üçün gömrük siyasətinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Yalnız Azərbaycan sahibkarlarının beynəlxalq kooperasiyaya cəlb edilməsini stimullaşdıran və xarici sənayeçilər ilə yerli subyektlərin vicdanlı rəqabətinə kömək edən zəif proteksionizm tədbirlərini tarazlaşdırmağa cəhd etməklə iqtsadiyyatda müsbət dəyişikliklərə nail olmaq olar.

Məqsədyönlü gömrük siyasəti idxalın strukturunu yüksək keyfiyyətli əlaqələrin xeyrinə dəyişdirmək, təkcə idxal edilən məhsulun deyil, eyni zamanda yerli məhsulun qiymətinin aşağı salınmasına kömək etmək iqtidarındadır. Gömrük orqanlarının ən böyük funksiyaları ixrac nəzarəti və əmtəələrin keyfiyyətlərini qiymətləndirməkdir. Fiskal funksiya əvvəlki kimi gömrük xidməti fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Azərbaycanın iqtisadi təhlükəsizliyinə təhlükə törədən kifayət qədər çox amillər mövcuddur: ixracda xammalın üstünlük təşkil etməsi və maşınqayırma, elektrotexnika, kimya və digər məhsulların bazarının itirilməsi, müxtəlif ölkələrin Azərbaycanın strateji cəhətdən mühüm xammal bazarı üzərində nəzarət qoymaq cəhdi, istehlak mallarının bir çox çeşidlərinin idxal edilməsindən durmadan artan asılılıq, xaricdən iqtisadi və siyasi təzyiq olacağı hallarda, iqtisadiyyatın güclənən zəifliyi, Rusiya Federasiyasının və İran İslam Respublikasının mövqelərinin sərtləşməsinə görə

idxal-ixrac yüklənməsinin, daşınmasının çətinlikləri, respublikanın ərazisinin və iqtisadi potensialının 20%-nin itirilməsinə səbəb olan Ermənistan təcavüzkarlığının davam etməsi, iqtisadiyyatın yenidən qurulmasında, manevretmə imkanlarını məhdudlaşdıran xarici kreditlərdən ölkənin asılılığı, xarici iqtisadi fəaliyyətlə bağlı cinayətkar biznes.

Müasir şəraitdə ölkənin dünya iqtisadiyyatında vəziyyətini yaxşılaşdırmaq üçün ilk növbədə, idxal və ixracın strukturunun yenidən qurulması, təşkilatların və firmaların xarici iqtisadi fəaliyyət şəraitinin yaxşılaşdırılması sahəsində mühüm işlər görülür. Müsətqillik qazandıqdan bu ilədək aparılmış xarici ticarət siyasəti və onun tərkib hissəsi olan gömrük siyasəti nəticəsində respublikanın idxal-ixrac dinamikasında xeyli irəliləyişlər olmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycanın gömrük siyasəti, ölkədəki iqtisadi və siyasi vəziyyətə təsir göstərən bütün amillər nəzərə alınmaqla qurulur. Bu gün ixracın inzibati tənzimetmə vasitələrinin, demək olar ki, hamısı ləğv edilmişdir. Lakin ixrac kvotalarının və rüsumlarının ləğvi o demək deyildir ki, gömrük orqanları ixrac sövdələşmələrinə fikir verməməlidirlər. Ölkədən kapital axınının qarşısını yalnız iqtisadi metodlarla almaq olmaz. İxrac hasilatının qaytarılması problemi əvvəlki kimi mühüm problemlərdən biri olaraq qalır.

İstehsalın və istehlakın milli strukturunun xüsusiyyətlərini nəzərə almaqla ölkənin iqtisadi inkişaf səviyyəsi, eləcə də müxtəlif obyektiv və subyektiv amillərin təsiri xarici ticarət tənzimlənməsi sisteminə, onun icra edilməsi mexanizminə kompleks yanaşmanı tələb edir:

Birincisi, milli iqtisadiyyat yüksək dərəcədə xarici iqtisadi əlaqələrdən asılıdır;

İkincisi, keçmiş SSRİ dövlətləri ilə tarixən yaranmış təsərrüfat əlaqələri bu sahədə prioritetlərdən biri kimi, MDB çərçivəsində iqtisadi inteqrasiyanın inkişafını tələb edir;

Üçüncüsü, Azərbaycan, digər inkişaf etməkdə olan ölkələr kimi, iqtisadi inkişaf səviyyəsini yüksəltmək məsələsini və dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiya olunma məsələsini eyni vaxtda həll etmək məcburiyyətindədir;

Dördüncüsü, dünya ticarətinin mövcud müasir sistemi xarici iqtisadi siyasətin sərt tələb və məhdudlaşdırmalarını bütün dövlətlər üçün irəli sürür ki, onlar da inkişaf etməkdə olan ölkələr üçün, o cümlədən Azərbaycan üçün xüsusilə ağırdır;

Beşincisi, Azərbaycan iqtisadiyyatı özünün texnoloji səviyyəsini yüksəltməyə və dünya bazarında rəqabət qabiliyyətli istehsal komplekslərini yaratmağa imkan verə bilən struktur yenidənqurmanı həyata keçirməlidir.

İqtisadi islahatların ilk mərhələsindəki çətinliklər həm tarif sahəsində öz izini qoymuş, həm də gömrük tənzimlənməsində ixrac tarif-

lərinin tətbiq edilməsinə səbəb olmuşdur. Xarici ticarət tənzimlənməsi, o cümlədən gömrük tənzimlənməsi ona yönəldilməlidir ki, iqtisadi inkişaf üçün xammal ixracının imkanlarından hər vasitə ilə istifadə etməklə, eyni zamanda, tədricən yüksək emal səviyyəli məhsulun ixrac potensialı artırılsın, ixracın əmtəə strukturu rəngarəng olsun.

Belə vəzifələrin yerinə yetirilməsi ixraca nəzarətin effektiv sistemi olmadan mümkünsüzdür. Ölkənin dünya iqtisadi sisteminə tam daxilolma şərtləri ixracın rəngarəngliyi (diversifikasiyası), ixrac mallarının emal səviyyəsinin qaldırılması, beynəlxalq istehsal kooperasiyası sxeminə qoşulmasıdır. Problemin həlli iqtisadiyyatın fəal struktur tənzimlənməsində, perspektivli sahələrin inkişafının məqsədyönlü həvəsləndirilməsində, dünya təcrübəsində ixracı stimullaşdırmağın yol verilən vəsitələrdən istifadə edilməsində və xarici iqtisadi əlaqələrin həcminə və strukturuna tarif və qeyri-tarif metodları ilə təsir edilməsindədir. Keçid dövrü müddətində xarici iqtisadi və xarici ticarət siyasətinin müxtəlif vasitələrindən istifadə olunmaqla, Azərbaycanın iqtisadiyyatının qısa müddətdə dünya iqtisadi sisteminə müəyyən bilgi ilə inteqrasiya olunmasına imkan verə bilən sxemini hazırlamaq lazımdır. Xarici ticarət tənzimlənməsi struktur tənzimlənmənin tərkib hissəsi hesab olunur. Xarici ticarətin kəmiyyət məhdudiyyətlərindən tam imtina etmək vaxtından əvvəl və zərərli ola bilərdi. ÜGT-nin üzvü olan ölkələr indiyə qədər ayrı-ayrı əmtəələrin ticarətinə belə məhdudiyyətlər tətbiq edir. Belə vasitənin prinsipial tətbiqetmə imkanı ilə yaxın gələcəkdə də hesablaşmamaq olmaz.

Struktur tənzimlənmənin ümumi mexanizmində xarici ticarət vasitələrinin rolu aşağıdakılar olmalıdır:

– Perspektivli sahələrin inkişaf etdirilməsi üçün zəruri olan məhsulların idxalına kömək etmək;

– İnkişafın ilk mərhələsində perspektivli sahələrlə rəqabət aparan məhsulların idxalını məhdudlaşdırmaq; rəqabət qabiliyyəti olmayan sahələrin tədrici strukturunun yenidən qurulması və belə yenidən qurulma iqtidarında olmayanların həmin prosesin neqativ sosial nəticələrini minimuma endirməyə tədricən ixtisar edilməsi üçün şərait yaratmaq;

– Buna iqtisadi siyasətin digər qalan vasitələrinin köməyi ilə nail olmaq mümkün olmadığı halda, daxili bazarda əmtəəlrin kifayət qədər təklifini təmin etmək;

– Tədiyyə balansının münasib vəziyyətini təmin etmək;

– Milli istehsalçılara xarici ixracatçıların vicdansız rəqabətindən müdafiə təminatı vermək;

Bu kontekstdə müsbət nəticə tənzimlənmənin tarif və qeydi-tarif metodlarının tarazlaşdırılmış tətbiqi ilə əldə edilə bilər.

İqtisadiyyatın struktur tənzimlənməsi gömrük tarifinn mühün funksiyasıdır. Yüksək differensial tarif, rüsumların orta mülahizə edilmiş

səviyyəsini ona ilk növbədə ehtiyacı olan sahələrin müdafiəsini saxlamaqla, azaltmaq yolu ilə təmin etmək iqtidarındadır.

Bu səbəbdən də tarif siyasətini struktur siyasətin tərkib elementinə çevirmək gərəkdir. Sənayenin ən mühüm sahələrinin hər birinə aid tərkib hissəsi gömrük rüsumları dinamikası ola bilən fəaliyyət proqramı işləyib hazırlamaq lazımdır.

Müəyyən müddət ərzində gücləndirilmiş müdafiədən Azərbaycanın ixrac potensialını möhkəmləndirə bilən yeni yaranan sahələr, eləcə də struktur yenidənqurma prosesini keçirən böhranlı sahələr istifadə etməlidir. Bu sahələr möhkəmləndikcə tarif maneələri azaldılmalıdır. Əksinə, indiki vaxtda dünya miqyasında rəqabət qabiliyyətli sahələrin, işçilərin sayı nisbətən çox da böyük olmayan perspektivsiz sahələrin tarif müdafiəsinə ehtiyacı yoxdur.

Gömrük tarifinin norma səviyyəsi həddindən artıq yüksək olmamalıdır. Onlar elə kəmiyyətdə olmalıdır ki, müvafiq məhsulun milli bazarının müdafiəsi üçün zəruri olsun, yəni yeni bir qayda olaraq idxal olunan malın qiymətini yerli qiymət səviyyəsinə qədər qaldırmağa və aksizli mallarda olduğu kimi, büdcə məsələlərinin həlli üçün imkan versin. Rüsumların dəyişmə diaqnozunu elə müəyyən etmək lazımdır ki, onların kəmiyyət qaydasını təyin etmək tamamilə mümkün olsun və eyni zamanda hökUmətə milli və dünya bazarnda konyukturadakı dəyişikliyə reaksiya verməkimkanı versin.

Normaların kəmiyyəti hesablanarkən çıxış məlumatı kimi müvafiq sahələrdəki vəziyyəti haqqında Dövlət Statistika Komitəsinin, dünya bazar konyukturasının vəziyyəti və dövlət büdcəsində və dövlət proqramlarında qeyd edilən milli iqtisadiyyatın inkişaf oriyentirləri haqqında məlumatlardan istifadə edilə bilər.

Hazırda tətbiq edilən xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası (XİFƏN) beynəlxalq normalara uyğundur. O, ahəngdar sistem əsasında hazırlanmışdır və MDB ölkələrində istifadə olunan XİFƏN-lə eynidir. Lakin, o, yerli məhsul və malların spesifikasını tam əks etdirmir, çünki qara kürü, yerli dərman bitkiləri, nadir vəhşi heyvanlar, quşlar və s. identifikasiya olunmur. Bu nomenklaturanı təkmilləşdirmək lazımdır. Nəzərdə tutmaq lazımdır ki, hər bir tarif pozisiyası birmənalı şəkildə bir XİFƏN kodu ilə müəyyən olunmalıdır.

Ona görə də hər hansı istehsal olunan, çıxarılan və ölkəyə idxal olunan əmtəənin hər bir növü nomenklatura müxtəlifliyinə müəyyən qədər uyğunlaşdırılmalıdır.

Tarif fiskal funksiyaSı, ilk növbədə, aksizli mallara qoyulan rüsumlar hesabına yerinə yetirilməlidir. Lakin daxilolmaların azalmasına səbəb olmasın deyə, bu rüsumları həddən artıq artırmaq lazım deyildir.

İndiki dövrdə maliyyə vəsaitlərinin büdcəyə daxil olmasının sabitliyini təmin etmək aktual vəzifələrdən biridir. İxrac rüsumları ləğv edil-

dikdən sonra idxal gömrük ödəmələri (rüsumlar, vergilər, yığmalar) xarici iqtisadi fəaliyyətdən büdcə vəsaitlərinin yeganə doldurulma mənbəyi olaraq qalır.

İdxal gömrük ödəmələrinin büdcə vəsaitlərinin yeganə doldurulma mənbəyi olması probleminin həlli qanunla nəzərdə tutulmuş ödəmələrin hesablanmasına və o cümlədən fiziki şəxslər tərəfindən ödənilməsinin düzgünlüyünə mövcud nəzarət sisteminin, eləcə də onun həyata keçirilməsi texnikasının nə dərəcədə təkmilləşdiriləcəyindən asılıdır. Bu prosesdə aparıcı rol gömrük orqanlarına məxsusdur. Xarici iqtisadi fəaliyyətin dövlət tənzimləməsi sisteminin təkmilləşdirilməsi xarici iqtisadi əlaqələr sahəsində işlərin real vəziyyətini əks etdirən analitik-statistik tədqiqatlar olmadan mümkünsüzdür.

Beynəlxalq ticarət sistemi ilə qanuniləşdirilmiş qeyri-tarif tənzimləmə tədbirləri, yəni xarici malların idxalının kəskin artımı ilə milli iqtisadiyyata vurulan zərərin müəyyən olunmuş qaydada qarşısının alınması və ya yüngülləşdirilməsi məqsədi güdən müdafiə tədbirləri mövcuddur. Eyni zamanda xarici ixracatçıların vicdansız rəqabətinin qarşısının alınmasına yönəldilən tədbirlər də tamamilə legitim xarakter daşıyır.

Vaxtilə istifadə olnunmuş bir çox materiallar indi qadağan edilmişdir. İdxala kəmiyyət məhdudiyyətləri tədiyyə balansının pisləşməsi şəraitində kənd təsərrüfatı məhsuluna, alkoqollu içkilərə və tütün məmulatına, ölkədə istehsalı hələ inkişaf etməyən yeni məhsul növlərinə münasibətdə zəruri olmayan (məhsul) mallara münasibətdə tətbiq oluna bilər. İstehsalı ölkədə yenidən yaranan məhsulun idxalına qoyulan məhdudluğun müdafiə tədbiri kimi izah etmək lazımdır. Gömrük nəzarəti mexanizminin prosedurlarının təkmilləşdirilməsi işində nəzarətin səmərəliliyini saxlamaqla gömrük prosedurlarını sadələşdirməyə nail olmaq məqsədilə Ümumdünya Gömrük Təşkilatı (ÜGT) ilə, eləcə də Ümumdünya Ticarət Təşkilatı (ÜTT) və YUNKTAD ilə faydalı əməkdaşlığı qaydaya salmaq lazımdır. Xarici ticarətdə Azərbaycana tətbiq edilə biləcək ayrı seçkilik halında müdafiə, eyni zamanda cavab tədbirləri sistemini eləcə də Azərbaycan ÜTT-yə hələ üzv olmadığı hallarda belə, ölkənin mənafeyini müdafiə mexanizmini inkişaf etdirmək lazımdır. Lakin, respublikamızın İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzvüdür. Bu təşkilatın bir çox üzvləri, o cümlədən İran və Türkiyə Respublikaları da eyni zamanda ÜTT-nin üzvüdür. Həmin təşkilat çərçivəsində imzalanmış sazişlər ÜTT-nin tələblərinə müvafiq olan qaydaların və üsulların tətbiqini nəzərdə tutur.

Hazırda gömrük siyasətinin başlıca istiqamətlərindən biri, məhz Azərbaycanın Ümumdünya Ticarət təşkilatına üzv olmaqla bağlı gömrük məsələlərinin elə düzgün qurulmasıdır ki, bundan həm bütövlükdə ölkə iqtisadiyyatı, həm də Dövlət büdcəsi maksimum səmərə əldə edə bilsin. Bu baxımdan Azərbaycan Respublikasının yeni diferensiallaşdırılmış gömrük-tarif sisteminin qəbul edilməsi, xüsusi əhəmiyyətli addım kimi

qiymətləndirilə bilər. Yeni sistemin hazırlanması zamanı heç də gömrük tariflərinin qaldırılması başlıca vəzifə kimi qarşıya qoyulmamışdır. Əsas məsələ tariflərin yalnız büdcə mədaxilini təmin etmək funksiyasının deyil, eyni zamanda daxili istehsalı tənzimləmək funksiyasının da reallaşdırılmasına nail olmaq idi. Bu sistem hazırkı dövrdən Azərbaycanın ÜTT-yə üzv olduğu vaxta qədər, bir müddət üçün optimal sayıla bilər.

Ölkəmizin ÜTT-yə daxil olması dünya təsərrüfat əlaqələrinə inteqrasiya olmağın bir mərhələsidir. ÜTT-yə daxil olmaqla, Azərbaycan öz iqtisadiyyatının müqayisəli üstünlüklərini reallaşdıra bilmək imkanı qazanacaq, ticarət şəraitini yaxşılaşdıracaq, ixracın həcmini artıracaq və daha da rəngarəng edəcək, satış bazarlarını stabilləşdirəcək və onun coğrafiyasını genişləndirəcək və məhsulların keyfiyyətinin artırılmasının stimullaşdırılması üçün əlverişli şərait əldə edəcəkdir.

Azərbaycanın ÜTT-yə üzvlüyünün bir sıra müsbət cəhətləri vardır:

-Azərbaycan ÜTT-yə üzv olmaqla nəinki dünya ticarətində daha geniş şəkildə iştirak etmək imkanı qazanacaq, həmçinin milli maraqlarımızı nəzərə almaqla onun inkişafında iştirak edəcək;

-ixracatçı və idxalatçılarımız müxtəlif sazişlərə əsaslanaraq (QATT, QATS, TRİPS və s.) vahid hüquqi məkandan istifadə etmək imkanı qazanacaqlar, həmçinin digər ölkələrlə ticarətdə beynəlxalq hüquqi müdafiə ilə təmin olunacaqlar. Yəni ölkəmiz digər dövlətlərin əsassız ayrı seçkilik tədbirlərindən hüquqi cəhətdən qorunacaqlar;

-digər dövlətlərlə ticarətdə tarif və qeyri-tarif maneələrinin ölkə ixracına mənfi təsiri kəskin surətdə azalacaq. Ölkəmizin beynəlxalq istehsal kooperasiyasına və beynəlxalq işgüzar əməkdaşlığın digər formalarına qouşlması üçün əlverişli zəmin yaranacaq, birgə müəssisələrin yaradılmasından intellektual mülkiyyətin mübadiləsinə qədər əməkdaşlıq üçün geniş imkanlar olacaqdır;

-bu sahədə mövcud ola biləcək mübahisə və ziddiyyətlərin həlli üçün real hüquqi əsas yaranacaq, yerli istehsalçıların sağlam beynəlxalq rəqabətə qoşulması onlar üçün stimullaşdırıcı rol oynayıcıqdır.

Bütün bunlar, Azərbaycanın dünya təkrar istehsal proseslərinə daha tez inteqrasiyasını təmin edəcək və bu əsasda da xarici iqtisadi fəaliyyətə istiqamətlənmiş perspektiv istehsal sahələri daha da inkişaf edəcəkdir. Digər tərəfdən, müasir istehsal və idarəetmə texnologiyalarının idxalı imkanları daha da genişlənəcək və ölkəmizə birbaşa investisiya axını güclənəcək.

Lakin nəzərə almaq lazımdır ki, Azərbaycan ÜTT-yə daxil olarkən nəyisə əldə etdiyi kimi, nədənsə də imtina etməlidir. O, təşkilatdaxili olarsa, ortaya bir sıra problemlər çıxacaqdır.

-ÜTT-yə daxil olarkən Azərbaycan xarici ticarətin tənzimlənməsinin qeyri-tarif metodlarından imtina etməli olacaqdır (ÜTT standartlarının

icazə verdiyi sahələr istisna olmaqla) ki, bu da daxili bazarın qorunması səviyyəsini aşağı sala bilər;

-Xarici ticarətdə qeyri-tarif vasitələrindən imtina etməklə yanaşı, Azərbaycan idxal tariflərinin səviyyəsini də aşağı salmağa məcbur olacaqdır. Bu da xüsusi ilə böhran vəziyyətində olan iqtisadiyyat üçün ağrılı bir prosesdir. Nəzərə alsaq ki, yerli istehsalın əksər sahələrinin rəqabət qabiliyyətlilik səviyyəsi xeyli aşağıdır, onda xarici istehsalçıların ekspansiyasının kəskin güclənməsi milli istehsalın bir sıra sahələrinin məhvinə gətirib çıxara bilər;

-bu zaman, həmçinin fiskal problem də üzə çıxa bilər. Belə ki, idxal rüsumlarının götürülməsi, vergi yığımları ilə vəziyyətin lazımi səviyyədə olması şəraitində gömrük ödənişlərinin aşağı düşməsinin kompensasiya etmək xeyli çətin olacaqdır;

-digər bir problem isə yerli istehsalçıların dövlət tərəfindən dəstəklənməsi ilə bağlıdır. ÜTT bu məsələdə kənd təsərrüfatı üzrə müəyyən qədər mülayimlik göstərsə də, ümumilikdə göstərilən bu və ya digər formada həyata keçirilməsi ÜTT-yə görə digər üzv ölkələrə qarşı ayrı-seçkilikdir ki, bu da onun prinsiplərinə birbaşa ziddir;

-qarşıya çıxa biləcək digər bir problem isə milli qanunvericiliyin ÜTT-nin norma və qaydalarına uyğunlaşdırılmasıdır. Bu vergi, büdcə, gömrük və s. ilə bağlı qanunvericilik aktlarına toxunacaq və onlarda əsaslı dəyişikliklərin edilməsini tələb edəcəkdir.

Bütün bu deyilənlər onu göstərir ki, hər bir dövlət ÜTT-yə üzv olmaq üçün danışıqlara ciddi hazırlaşmalı və dəqiq startegiya işlənib hazırlanmalıdır. Artıq Azərbaycanın bu quruma üzvlüyünün müzakirəsinin birinci mərhələsinə başlanılıb. Çox güman ki, yaxın gələcəkdə bu mərhələ başa çatacaq və ikinci və əsas mərhələyə – birbaşa danışıqlara keçiləcək. Məhz bu danışıqlar zamanı Azərbaycanın perspektiv gələcək üçün tarif siyasətinin sərhədləri müəyyən ediləcək. Bu zaman təbii ki, ÜTT-nin üzv ölkələri Azərbaycan bazarına daxil olmaq üçün ölkələrinə əlverişli şərait yaratmağa çalışacaqlar ki, bu da özünü tarif dərəcələrinin aşağı səviyyədə müəyyən edilməsi və qeyri-tarif maneələrinin aradan qaldırılması cəhdində göstərəcək. Azərbaycanın maraqları isə tamamilə əks strategiyanın həyata keçirilməsini tələb edir: bazar iqtisadiyyatına keçid şəraitində daxili bazarın mümkün maksimal qorunmasını təmin etmək, iqtisadiyyatının zəif vəziyyətdə olan müxtəlif sahələrinin modernləşdirilməsi üçün vaxt udmaq və bu əsasda onların rəqabət qabiliyyətini artırmaq.

Yaxşı olardı ki, danışıqlara hal-hazırda fəaliyyətdə olan tarif dərəcələrindən daha yüksək dərəcələrlə gedilsin. Bu isə özünü aşağıdakıları əldə etməyə imkan verir:

- birincisi, ilkin, yüksək səviyyəli dərəcələr sonrakı danışıqlar üçün «ehtiyat» rolunu oynayacaqdır. Danışıqlar zamanı şübhəsiz ki, Azər-

baycan şərt pressinə məruz qalacaqdır. Lakin milli istehsalçıların maraqlarına zidd olan şərtlərlə ÜTT-yə üzv olmaq olmaz. Fikrimizi aydınlaşdırmaq üçün Çinin təcrübəsinə nəzər salaq. Çin 10 ildən artıqdır ki, ÜTT-yə üzv olmaq üçün danışıqlar aparır və eyni zamanda iqtisadi tərəqqiyə əsaslanaraq güclü ixrac ekspansiyasını həyata keçirir. Danışıqlarda elə bir siyasət yeridilir ki, ölkə təşkilatına üzv olduğundan sonra mümkün iqtisadiyyatını minimuma endirə biləcək kompromislər işlənib hazırlansın və prinsipial məsələlər üzrə ölkənin mövqeləri qorunsun.

- ikincisi, Azərbaycan nə qədər iqtisadiyyatını «açıq» elan etsə də, proteksionizm siyasəti yeritməyə məcburdur. Əlbəttə ki, bu zaman kütləvi proteksionizmdən qaçmalı və selektiv proteksionizm siyasəti tətbiq etmək lazımdır.

- üçüncüsü, daxili bazarın qorunması üçün tarif vasitələrilə yanaşı, ÜTT standartlarının yol verdiyi qeyri-tarif vasitələrindən də istifadə etmək olar. Bu zaman kəmiyyət məhdudiyyətlərindən, texniki standartlardan, sanitar və fotosanitar tədbirlərdən, həmçinin xüsusi növ rüsumlardan (antidempinq, kompensasiya) istifadə etmək olar.

Azərbaycan iqtisadiyyatı üçün digər güclü tədbir tarif dərəcələrinin eskolasiyası prinsiplərinə əməl etməkdir. Tarif eskolasiyası sənayeyə münasibətdə həyata keçirilə bilən selektiv proteksionizm siyasətinin mühüm vasitəsidir.

ÜTT-yə daxil olarkən tarif siyasətinin çox vacib vəziyyətindən biri də mümkün ümumiqtisadi mənfi nəticələrin (sosial ziddiyyətlərin kəskinləşməsi, işsizliyin artması və maliyyə-büdcə problemlərinin yaranması) minimuma endirilməsidir. Bütün bunlar göstərir ki, Azərbaycanın ÜTT-yə üzv olması üçün onun dəqiq iqtisadi startegiyasını hazırlamaq lazımdır. Azərbaycan ÜTT-yə daxil olmağa tələsmədən nə qədər yaxşı hazırlaşsa, onun dünyanın inkişaf etmiş ölkələri ilə yanaşı durmaq şansı bir o qədər çox olacaqdır.

ÜTT-yə üzv olmağa hazırlıq xarici iqtisadi fəaliyyətin liberallaşdırılması şəraitində gömrük sisteminin inkişafı və daha da təkmilləşdirilməsini tələb edir. İnkişaf etmiş ölkələrin təcrübəsi milli gömrük xidmətlərinin inkişaf və təkmilləşdirilməsini proqram məqsədli yanaşma əsasında aparılmasının məqsəduyğunluğunu nümayiş etdirir. Azərbaycan Respublikasında gömrük sisteminin inkişafı və təkmilləşdirilməsi proqramının yaradılmasna ehtiyac var. Respublikanın milli xüsusiyyətləri MDB ölkələri ilə idxal-ixrac əməliyyatlarının spesifikası, digər ölkələrlə xarici-iqtisadi əlaqələrin genişlənməsi gömrük sisteminin müvəffəqiyyətinə zəmanət verə biləcək prinsip və metodlar əsasında təkmilləşdirilməsini tələb edir. Gömrük fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminin lazımi səviyyədə işlənməsini təmin etmək üçün bütün çatışmazlıqlar taktiki və strateji tədbirlərlə aradan qaldırıla bilər.

Taktiki tədbirlərə aşağıdakılar aid edilir:

– gömrük prosedurlarının sadələşdirilməsi (o cümlədən, yüklərin yoxlama müddətlərinin qısaldılması və yoxlamanın seçmə üsulu ilə aparılması, daşınma, anbarlaşdırma, saxlanc, rəsmiləşdirmə proseslərində lüzumsuz sənədləşmələrin ləğvi və rəsmiləşdirmə müddətinin azaldılması);

– gömrük informasiyalarının işlənməsinin avtomatlaşdırılmış sisteminin tətbiqi;

– gömrük və gömrükətrafı infrastrukturların inkişafı;

Xüsusilə qeyd edilməlidir ki, gömrük rəsmiləşdirilməsi prosedurlarının təkmilləşdirilməsi taktiki tədbirlər arasında əsas nöqtələrdən biridir və öz formasına görə fasiləsiz, daimi fəaliyyətdədir. Bu zaman riskin dərəcə və qruplarının qiymətləndirilməsinə ciddi fikir verilməlidir.

Strateji tədbirlərə ilk növbədə ÜTT-nin tövsiyələri aid edilməlidir. ÜTT-nin tövsiyyələri aşağıdakı məsələləli nəzərdə tutur:

- Resurs potensialından (kadr, maddi, texniki, maliyyə və s.) rasional istifadə:
- Gömrükxanaların rəhbər orqanlarının möhkəmləndirilməsi;
- İdarəetmə sisteminin təkmilləşdirilməsi;
- Müvafiq sistem və strukturunun formalaşdırılması;
- Daha səmərəli gömrük prosedurları və gömrük rejiminin tədbirləri;

Gömrük Xidmətinin İnkişafının Kompleks Proqramının (GXİKP) tərtib edilməsində onun hazırlanmasının ümumi mərhələləri mühüm əhəmiyyət kəsb edir.

1) Proqramın məqsədi və əhatə etdiyi məsələlər;
2) Əldə edilməsi nəzərdə tutulan göstəricilər;
3) Texniki və fəaliyyət təminatı;
4) Proqramın müxtəlif növ resurslarla təmin edilməsi;
5) Proqramın hazırlanması və həyata keçirilməsinin stimullaşdırılması;
6) Proqramın yerinə yetirilməsinin təşkili;
7) Proqramın yerinə yetirilməsi effektivliyinin müəyyən edilməsi.

GXİKP-nın hazırlanmasının mühüm təşkilatı məsələsi ardıcıllıqdır. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi qanunverici hakimiyyətin hüquqi və normativ aktlarını Komitənin idarə təlimatlarında konkretləşdirməklə həyata keçirir. Gömrük xidməti öz mütəxəssisləri vasitəsilə bu sahənin tənzimlənməsi ilə birbaşa və ya dolayı yolla bağlı qanunların, prezident fərmanlarının, hökumət qərarlarının hazırlanmasında, eləcə də xarici iqtisadi münasibətlər problemi üzrə hökumət və beynəlxalq komissiyaların işində iştirak edir.

Gömrük Komitəsinin normayaratma fəaliyyəti ilə Azərbaycana idxal olunan xarici malların təhlükəsziliyi üzrə nəzarət sisteminin təcrübə tətbiqi əsasları yaradılmış, Gömrük tarifi, Valyuta Tənzimlənməsi haqqında Qanun qəbul edilmişdir.

Səhvlərin üzə çıxarılmasında əldə olunan təcrübəni və dünya təcrübəsini nəzərə almaqla normativ hüquqi aktlara müvafiq düzəlişlər edilmişdir.

Xarici iqtisadi əlaqələrdə islahat aparılması üzrə iş davam etməkdədir.

Müasir şəraitdə gömrük xidmətinə, xarici iqtisadi fəaliyyətin tənzim edilməsinin əsas istiqamətlərinin reallaşdırılmasına mühüm rol ayrılır:

- xarici ticarət sahəsində valyuta və vergi nəzarətini sərtləşdirmək məqsədi ilə dövlətin nəzarət funksiyalarının möhkəmləndirilməsi;
- milli əmtəə istehsalçılarını xarici rəqabətdən və istehlakçıları isə keyfiyyətsiz məhsul idxalında müdafiə etməyin ticarət-siyasi metodlarının təkmilləşdirilməsi.

Bu, ixrac olunan malların yüklənmədən qabaq yoxlanılmasının, barter sövdələşmələri də daxil olmaqla ixrac və idxal əməliyyatlarının həyata keçirilməsi zamanı vəsaitlərin daxil olmaması və tam daxil olmaması faktlarının keyfiyyət təhlilini, eləcə də malların idxalı və ixracı zamanı qiymət nəzarətinin aparılmasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və onun bölmələrinin fəaliyyətini aktivləşdirməyi nəzərdə tutur.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsində, xüsusilə onun həyata keçirilməsinə nəzarət edilməsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin rolu yaxın gələcəkdə də labüd olaraq artacaqdır.

### 4.5. Gömrük-tarif tənzimlənməsinin təkmilləşdirilməsi

Azərbaycan Respublikasının gömrük xidməti, XİF-in tənzimlənməsi, gömrük siyasətinin həyata keçirilməsində mühüm institutdur. Ölkə iqtisadiyyatının idarə edilməsi və inkişafında gömrük-tarif tənzimlənməsi vacib rol oynayır və çoxşaxəli funksiyalara malikdir. Gömrük-tarif tənzimlənməsi daxili bazarı qoruyur, iqtisadi təhlükəsizlik baxımından lazımi məhsulların istehsalını stimullaşdırır, valyuta ehtiyatlarından səmərəli istifadə olunur və ona nəzarət edilir, Dövlət büdcəsinə gəlir gətirir. Gömrük tarifi və rüsumları dövlətin iqtisadi təhlükəsizliyinin, eləcə də xarici ticarət əlaqələrinin inkişaf etdirilməsinin təmin edilməsində mühüm faktora çevrilir. İdxal gömrük tarifi adətən ayrı-ayrı milli iqtisadiyyat sahələrini müdafiə edir və fəal xarici ticarət siyasəti yürütməyə, milli əmtəələrin ixracının formalaşmasına imkan verir.

Bu baxımdan idxal-ixrac siyasətinin formalaşması, iqtisadi maraqlarla yanaşı, sosial mənafelər və sosial inkişaf, iqtisadi təhlükəsizlik və daxili resursların iqtisadi dövriyyəyə cəlb olunması baxımından hazırlanır və tənzimlənir. İdxal strukturu istehsal və istehlak tələbatı və daxili istehsalın tələbatının ödənilməsində rolundan asılı olaraq formalaşır. Təbii ki, idxalın, məhz istehlak xarakterli olması ölkədən valyutanın getməsinə, ölkənin iqtisadiyyatının öz resursları hesabına inkişafının zəifləməsinə, iqtisadi müstəqilliyin, əmtəə və xidmət bazarının məhz idxaldan asılı olmasına gətirib çıxarır.

İdxal-ixrac siyasətinin konseptual əsasları gömrük siyasətini, idxalın və ixracın tənzimlənməsində gömrük orqanlarının vəzifələrini və

mexanizmlərini müəyyən edir. Belə ki, daxili bazarın və istehlakçıların hüquqlarının qorunmasında optimal qərar qəbulu - məhz elmi proqnozlara əsaslanan və səmərəli inkişaf baxımından seçilən düzgün gömrük vergiləri və rüsumları ilə tənzimlənir. Bilavasitə gömrük rüsumları və ödəmələri ölkədə qiymət siyasəti ilə, həmçinin istehsal xərcləri və yerli sahibkarlarla xarici investorlar arasında bərabər şəraitin tənzimlənməsi ilə mümkün olur.

Hər bir dövlətin özünün inkişafında müəyyən mərhələlər var ki, bu mərhələyə uyğun iqtisadi siyasət həyata keçirilir. Bu baxımdan gömrük siyasəti də həmin dövrün iqtisadi siyasətinə uyğunlaşdırılır. Azərbaycan Respublikasında gömrük tarif tənzimlənməsinin formalaşmasında 1997-ci ildən tətbiq olunan vahidləşdirilmiş tarif sistemi və 2001-ci ilin aprelin 16-da qəbul olunmuş diferensiallaşdırılmış tarif sistemi mühüm rol oynayır.

1997-ci ildə vahidləşdirilmiş tarif sisteminə keçilmişdir. Bu sistemə keçməkdə qarşıda duran əsas məqsəd – gömrük rüsumlarından iqtisadiyyatın idarə edilməsinin bir elementi kimi istifadə etmək, Dövlət büdcəsinin gəlirlər hissəsini təmin etməkdən ibarət idi.

Bildiyimiz kimi, 1997-ci ilin yanvarın 1-dən başlayaraq ölkəyə idxal edilən xarici mallara vahid unifikasiya edilmiş 15%-lik gömrük idxal rüsumu tətbiq edildi. Bu üst dərəcə idi. Konkret desək, respublika idxal olunan mal ya idxal rüsumundan azad idi, ya da 15%-lik gömrük idxal rüsumuna cəlb olunurdu. Sonradan bəzi mal qruplarına 10%-lik, 5%-lik, 3%-lik gömrük idxal rüsumları tətbiq olundu. Amma maksimum 15%-lik səviyyə saxlandı. Belə bir gömrük tarif sisteminin fəaliyyəti daxili istehsalın inkişafı üçün normal şərait yarada bilmirdi. 1997-ci ildə belə bir sistemin qəbul edilməsini normal qarşılamaq lazım idi. Çünki o zaman qarşıda dayanan əsas məsələ özəlləşdirmə prosesini başlamaq və onun birinci mərhələsini uğurla başa çatdırmaqdan ibarət idi. Sirr deyil ki, özəlləşdirmə prosesinin gedişində özəlləşdirilən müəssisələrin çoxunda müəyyən dövrə bağlanan işlərin sayı arta biləcəkdi, belə olan təqdirdə yenə də idxal olunan mallara yüksək rüsumlar tətbiq olunsaydı, o zaman sosial vəziyyət mənfi hallarla müşayiət oluna bilərdi. Ona görə də özəlləşdirmə prosesinin az mənfi sosial effektlə müşayiət olunması üçün hökumət unifikasiya edilmiş, vahidləşdirilmiş gömrük tariflər sisteminə keçdi və bu, 1997-ci ilin yanvarın 1-dən tətbiq olunmağa başladı. Eyni zamanda gömrük ixrac rüsumları ləğv edildi ki, həm manatın kursunun dəyişməsi, həm də idxalın təmin olunması üçün ixracdan gələn vəsaitdən kifayət qədər istifadə oluna bilsin. Özəlləşdirmənin birinci proqramının əhatə etdiyi dövrlə belə siyasətin həyata keçirilməsi məqsədəuyğun idi və özəlləşdirmənin ikinci dövrünün başlanması ilə əlaqədar ona uyğun olaraq yeni gömrük tariflər sisteminə keçid vacib zərurət kimi ortaya çıxırdı. İkinci tərəfdən, birinci özəlləşdirmə proqramının reallaşması nəti-

cəsində özəlləşdirilmiş müəssisələrin çalışması və daxili bazarda onların rəqabət qabiliyyətinin yüksəldilməsinə köməklik göstərməsi zəruridir. Bu köməklik isə çox aşağı faizlə kreditlər verməklə, həmin müəssisələri dövriyyə vəsaitləri ilə ətmin etmək, ya onları müəyyən dövrdə daxili vergi və rüsumlardan azad etmək, yaxud da onların istehsal edəcəkləri eyniadlı mallar kənardan Azərbaycana gətirilərkən, həmin mallara yüksək rüsumlar qoymaqla müəyyən dövr ərzində ölkə bazarına iqtisadi baxımdan buraxmaq yolu ilə edilə bilər. Burada əsas meyar, ölkə daxilində istehsal olunan məhsullar kənardan respublikaya gətirilən zaman onlara yüksək gömrük idxal rüsumu qoymaq və bu malların ƏDV-dən azad edilməsinə yol verməkdən ibarətdir. Bu da təbiidir. Əgər ölkə daxilində mal istehsal olunursa, o, qanunvericiliklə nəzərdə tutulmuş dərəcədə ƏDV-yə cəlb olunursa, nə üçün həmin mal kənardan Azərbaycana gətiriləndə ona əlavə dəyər vergisi tətbiq olunmasın? Belə olan təqdirdə daxili istehsalçı qarşısında idxalatçı rəqabət qabiliyyətini artırmış olur. ona görə də Nazirlər Kabinetinin 124 saylı Qərarında bu amil tamamilə nəzərə alınmışdır. Ölkə daxilində ayrı-ayrı məhsul növlərinin istehsal edilib-edilməməsi məsələsi, yaxud bu imkanın olub-olmaması ciddi şəkildə araşdırılmış və qeyd edilən qərarda öz əksini tapmışdır. Bu qərardan belə nəticəyə gəlmək olar ki, idxal olunan mal Azərbaycanın özündə istehsal olunursa, həmin mallara idxal zamanı ƏDV tətbiq edilməlidir. Əgər yerli istehsal Azərbaycanın həmin mala olan ehtiyacını ödəmirsə, bu zaman o, ƏDV-dən azad oluna bilər. Başqa sözlə, ölkə daxilindəki hər bir malın, xammal istehsalçısının rəqabət qabiliyyətini artırmaq əsas meyar kimi götürülür. Eyni növ və eyni cins bir-birini əvəz edə bilən malların Azərbaycan Respublikası ərazisində istehsalı varsa və yaxud belə bir istiqamətdə işləmək mümkündürsə, o zaman həmin malın idxalına yüksək idxal rüsumu tətbiq olunur. Bununla da daxili istehsalçılar üçün normal şərait yaranacaq. Bütün bunların fövqündə isə 15%-lik maksimal həddi ortadan qalxır. Amma o mallar ki, Azərbaycanda istehsal olunmur, onların gömrük idxal rüsumunu aşağı, sıfır dərəcəyə yaxın qoymaq lazımdır.

Qeyd edim ki, 1997-ci il yanvarın 1-dən bütün mallar üçün gömrük ixrac rüsumları tamamilə sıfıra endirilmiş, eyni zamanda bütün tarif və qeyri-tarif maneələri ləğv edilmişdir. Burada əsas məqsəd ölkədə valyuta ehtiyatlarının normal həddini təmin etmək üçün ixracın qarşısında duran bütün maneələri aradan qaldırmaq idi. Bu əsas götürülərək ixrac üçün tam real şərait yaradıldı. Ölkədə kifayət qədər valyuta ehtiyatları yaratmaq üçün ixracın artırılması labüd idi. Daxildə müxtəlif ərzaq və qeyri-ərzaq məhsullarının istehsalının həcmi çox kiçik olmaqla, bu məhsullara tələbat əsasən idxal hesabına ödənilirdi. Ona görə elə addımlar atılmalıydı ki, ixracdan gələn vəsait idxalın maliyyələşdirilməsindən artıq olsun və bu hesaba ölkənin maliyyə ehtiyatları yaradılsın.

Artıq 2008-ci ilin sonunda ölkədə valyuta ehtiyatlarının həcmi artıq 17 milyard dollara çatmışdır. Gömrük işinin mühüm istiqamətlərindən biri də Azərbaycan Respublikasında gömrük orqanları tərəfindən həyata keçirilən valyuta nəzarətidir. Qeyd edim ki, valyuta nəzarəti dövlətin istər valyuta tənzimlənməsinin və istərsə də XİF-in gömrük tarif tənzimlənməsinin vacib elementlərindəndir. Yəni valyuta nəzarətini qurmadan, onu təkmilləşdirmədən və onun iqtisadi səmərəliliyini artırmadan dövlətin gömrük-tarif tənzimlənməsi tədbirlərini həyata keçirmək səmərəsiz olar.

Azərbaycan Respublikasının gömrük orqanları Azərbaycan Respublikasının gömrük sərhədində mövcud valyuta əməliyyatlarından əldə edilmiş valyuta sərvətlərinin Azərbaycan Respublikasına qaytarılmasına nəzarəti təmin edir.

Azərbaycan kimi inkişaf etməkdə olan, bazar iqtisadiyyatı tam təşəkkül tapmayan bir ölkədə gömrüyün əsas vəzifələri büdcə gəlirlərinin yaranmasında bilavasitə iştirak etmək, imkan düşdükcə milli iqtisadiyyatı xarici rəqabətin hər cür mənfi təsirindən qorumaqdır. Azərbaycanın gömrük siyasətində hər iki istiqamətdə iş aparılır.

Bunun nəticəsidir ki, ölkə iqtisadiyyatı dinamik inkişaf edir. Ümumi iqtisadi inkişaf da yeni mərhələyə qədəm qoymuşdur. Büdcə gəlirlərinin formalaşması təmin edildikcə, büdcə kəsiri azalır. Qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün real zəmin yaranıb. Təbii ki, gömrük bu proseslərdən kənarda qalmayıb.

Qeyd etmək lazımdır ki, 2001-ci ilin aprel ayının 16-na qədər Azərbaycanda gömrük orqanlarının həyata keçirdiyi iqtisadi fəaliyyət birmənalı şəkildə, yalnız Dövlət büdcəsi gəlirlərinin doldurulmasına xidmət edirdi və elə həmin aydan da Azərbaycanın yeni gömrük-tarif sistemi qəbul edildi. Bu gömrük-tarif sistemi gömrük orqanları üçün yalnız fiksal funksiyaları deyil, eyni zamanda tənzimləyici və qoruyucu funksiyaları həyata keçirmək imkanı yaratdı. Beləliklə, 2001-ci ildə yeni tarif sisteminin qəbul edilməsi, gömrük orqanlarının iqtisadi yönümlü fəaliyyətində tamamilə yeni bir dövrün başlanğıcını qoydu.

Diferensiallaşdırılmış tarif sistemi heç də Dövlət büdcəsinin gəlirlər hissəsinin artırılmasını nəzərdə tutmur. 1997-ci ildə qəbul olunmuş vahidləşdirilmiş tarif sistemi bu məqsədə xidmət edirdi.

Ölkə daxilindəki istehlakçıların maraqlarının qorunması üçün cəmi 5 dərəcədən (0, 3, 5, 10, 15) ibarət olan diferensiallaşdırılmış tarif sistemi qəbul edilmişdir. Bu sistem ölkə daxilində istehsal edilən və ya istehsalını təşkil etmək mümkün olan mallara yüksək gömrük rüsumları, əksinə yerli istehsalı mümkün olmayan mallara isə aşağı gömrük rüsumları müəyyənləşdirdi. Amma bu uzun müddətli olmamalıdır. Hər bir ölkədə milli istehsalın inkişafının bir «uşaqlıq dövrü» və müdafiə tədbirləri var. Bu tariflər sistemi özəlləşdirmənin birinci mərhələsindən sonra yaranmış yeni milli istehsalımızın «ayağa durması», onun müdafiəsi üçün vacibdir.

Proteksionist tarif sistemi dünyanın hər yerində əgər uzun müddət davam edərsə, artıq mənfi nəticələrə gətirib çıxarar. Misal üçün, qonşu Türkiyə Respublikasında vaxtilə avtomobil sənayesini «ayağa qaldırmaq» üçün proteksionist tarif siyasəti həyata keçirməklə avtomobil sənayesini inkişaf etdirmək məqsədilə xarici avtomobillərin Türkiyəyə gətirilməsi zamanı dəyərin 100%-ə qədər gömrük idxal rüsumu tətbiq edilməyə başlandı. Amma bu siyasətin əhatə etdiyi dövr uzandı. Nəticədə son vaxtlar buraxılan türkiyə avtomobilləri öz keyfiyyətinə görə xarici ölkə avtoMobillərinə uduzdular. Proteksionist siyasət yalnız 3-5 il üçün nəzərdə tutulmalıdır. Başqa sözlə, proteksionist siyasət total xarakter daşımalı, ölkənin iqtisadi təhlükəsizliyi baxımından xarici ticarət siyasəti aşağıdakı prinsiplər əsasında qurulmalıdır: tədricilik, diferensiallaşma və müddətlilik.

Tədricilik prinsipi daha çox xarici ticarətin liberallaşdırılmasına tətbiq edilməlidir. Bu sahədə Azərbaycanda müəyyən işlər görülmüşdür. İxrac gömrük vergiləri ləğv edilmiş, idxal vergilərinin isə səviyyəsi aşağı salınmışdır.

Diferensiallaşdırma prinsipi dedikdə, milli iqtisadiyyatın sahələri özlərinin inkişaf səviyyəsinə, daxili və xarici bazarda rəqabət qabiliyyətinə, ölkədəki məşğul əhalinin həmin sahələrdə iştirak səviyyəsinə, istehsalın və malların strateji əhəmiyyət daşımasına görə, əhalinin zəruri istehlakında malların oynadığı rola görə (xüsusi ilə ərzaq məhsulları) ayrılaraq qruplaşdırılması başa düşülür. İqtisadiyyatın hər hansı konkret sahəsində ölkədəki məşğul əhalinin iştirak payı yüksəldikdə və əhalinin zəruri istehlak mallarında həmin sahənin məhsulları mühüm paya malikdirsə və həm də strateji əhəmiyyət daşıyırsa, onda həmin mallara proteksionist siyasətdə, bu və ya digər məhsullara qarşı yeridilən proteksionist siyasətin uzunmüddətli olmaması, konkret müddətinin göstərilməsi nəzərdə tutulur. Bu müddətdə həmin sahələr, yaradılan əlverişli şərait sayəsində rəqabət qabiliyyətli sahələrə çevrilməlidir.

Beynəlxalq təcrübəyə uyğun olaraq XİF-in gömrük-tarif tənzimlənməsi tədbiri kimi diferensiallaşdırılmış tarif sisteminə uyğun olaraq Azərbaycn Respublikasının gömrük tarifi müəyyən edilmiş, Nazirlər Kabineti ilə «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri», «Azərbaycan Respublikasından ixrac zamanı ixrac gömrük rüsumuna cəlb olunan malların siyahısı və ixrac rüsumlarının dərəcələri» və «Gömrük rəsmiləşdirilməsinə görə alınan gömrük yığımlarının miqdarı» təsdiq edilmişdir.

Diferensiallaşdırılmış tarif sisteminə uyğun olaraq bu gün bəzi məhsullara ixrac rüsumlarının tətbiq edilməsi məqsədəuyğun hesab edilmişdir. Müxtəlif istehsal sahələrinin yaranması, həm də belə müəssisələrin ölkə daxilindəki xammalla təmin edilməsi problemini ortaya qoyur. Məsələn, bu gün poladəritmə sahəsində «Baku Steel Company», əlvan metaldan məmulatların hazırlanması istiqamətində müəyyən istehsal

sahələri qurulmuşdur. Bunların isə yerli xammalla təmin olunması daha çox effekt verə bilər. Bütün bunlar nəzərə alınmaqla Nazirlər Kabinetinin Qərarında yeni tarif sistemində ixrac rüsumlarının tətbiqi də nəzərdə tutulub. Bu iki adda məhsulu – qara metal qırıntıları və xammalını, əlvan metalları əhatə edir. Ölkədən ixrac ediləcək qara metalın hər tonuna 5 ABŞ dollarının manat ekvivalentində, əlvan metallar üçün də həm onların xammalı, həm də onlardan istehsal olunan məmulatlar üçün ixrac edilən zaman 15 ABŞ dollarının manat ekvivalenti həcmində gömrük ixrac rüsumları nəzərdə tutulmuşdur. Hələlik bu 2 qrup məhsullara gömrük ixrac rüsumu tətbiq ediləcəkdir. Zaman keçdikcə və müəyyən istehsal sahələrində normal istehsal və rəqabət qabiliyyətinə malik müəssisələr yarandıqca, ölkədə daxili bazarın tələbatını təmin etdikcə, digər xammal növlərinin də ixracına belə rüsumların tətbiqi problemi aktuallaşa bilər.

Qeyd edim ki, hətta bizdən 1 il, 6 ay qabaq MDB dövlətlərinin əksəriyyətində ixrac rüsumlarının tətbiqinə başlanılmışdır.

2001-ci ilin aprelin 16-da qəbul olunan «Azərbaycan Respublikasının Gömrük tarifi» layihəsi nazirliklərə, şirkətlərə, özəl strukturlara göndərilmiş, onların rəyi alınmışdır. Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən, Kənd Təsərrüfatı Nazirliyindən, «Azərkimya» Dövlət Şirkətindən layihəyə münasibət bildirilmiş və rəy verilmişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti xarici iqtisadi fəaliyyətin vahid əmtəə nomenklaturasının (XİFƏN) 27-ci qrupuna daxil olan mallara idxal zamanı gömrük rüsumlarının Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsum dərəcələri haqqında» 22.04.1998-ci il tarixli 91 saylı və ona əlavə olunan 27.02.1999-cu il tarixli 25 saylı, 25.05.2000-ci il tarixli 94 saylı və 06.07.2000-ci il tarixli 112 saylı Qərarları ilə müəyyən edilmiş dərəcədə tətbiq edilməsini (xam neft və maye yanacaq istisna olaraq) təklif edərək idxal olunan xam neftə, tranzit və svop əməliyyatları zamanı gömrük rüsumuna cəlb edilməsi, müvafiq olaraq ARDNS-in neft emalı zavodlarının və nəqliyyat vasitələrinin istehsalat güclərindən daha səmərəli istifadəsini və büdcəyə əlavə gəlir yaradılmasının mümkünlüyünü göstərməkdədir.

Kənd Təsərrüfatı Nazirliyinin verdiyi rəydə respublikada aqrar sənayeni inkişaf etdirmək üçün «Azərbaycan Respublikasının Gömrük Tarifi» layihəsində ayrı-ayrı qruplarda qeyd olunan kənd təsərrüfatı bitkiləri toxumlarının, hibridlərinin, ling və qələmlərinin, eyni zamanda buğda səpini və barama toxumlarına, mineral gübrələr və zəhərli-kimyəvi maddələrlə gömrük tarif dərəcəsini sıfır faiz təklif edərək yerli istehsalın inkişafını ön plana çəkmişdir. Ayrıca yerli istehsalı qorumaq baxımından 22-ci qrupda yer alan hər cür şərab növlərinə gömrük tarif dərəcəsini 50% təklif etmişdir.

«Azərkimya» Dövlət Şirkəti «Azərbaycan Respublikasının Gömrük Tarifi» layihəsində yerli müəssisələrdə istehsal edilən məhsulların tarif dərəcələrinin yüksəldilməsini, istehsal üçün lazım olan məhsulların gömrük tarif dərəcələrinin azaldılmasını təklif edərək, müdafiəedici bir siyasət həyata keçirməyin məqsədəuyğunluğunu göstər- mişdir.

Yuxarıda verilən təkliflərdən aydın olur ki, Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara gömrük rüsumlarının diferensiallaşdırılmış dərəcələrinin müəyyən edilməsi ölkəmizin iqtisadi təhlükəsizliyinin təminatında mühüm yer tutur.

Layihənin müzakirəsi zamanı beynəlxalq ekspertlər iştirak etmişdir. Beynəlxalq ekspertlər əvvəlki 15%-in maksimum rüsum dərəcələrindən yuxarı çıxmamaq şərti ilə, yəni 0-la 15% arasında variasiya etmək şərtilə bu dərəcələrdə dəyişiklik aparılmasının məqsədəuyğunluğunu qəbul etdilər. Bu prosesin başlanğıcında bir sıra hallarda beynəlxalq təşkilatların ekspertləri maksimum dərəcənin 15%-dən 12%-ə salınması məsələsini qoyurdular. Bu gömrük tarif sistemi qəbul olunandan sonra Azərbaycan gömrük idxal rüsumlarının orta dərəcəsi 7-8%-ə bərabər oldu. Əlbəttə, bu rəqəm əvvəlki, yəni 6-7 %-ə nisbətən irəliyə doğru bir addımdır. Lakin onu son həddkimi qəbul etmək düzgün olmazdı. Ona görə də yaxın gələcəkdə, təbiidir ki, gömrük siyasətinin həyata keçirilməsində bir sıra parametrlərə yenidən baxılması zərurəti ortaya çıxacaqdır.

Qeyd etmək lazımdır ki, bu gün artıq bu faktdır ki, idxalın artım tempi ildən-ilə aşağı düşür. 2008-ci ildə də idxalın strukturunda yüksək vergi və rüsumlu malların (ət və ət məhsulları, süd, un, yağ, şirniyyat, spirtli içkilər, dəri, kafel-metlax, dəmir, boya) xüsusi çəkisinin aşağı düşməsi davam etmişdir. Belə ki, 2008-ci il ərzində ərzaq məhsullarının xüsusi çəkisi 2000-ci illə müqayisədə aşağı düşmüş, əksinə müqayisə olunan dövrdə istehsal təyinatlı avadanlıqların xüsusi çəkisi isə artmışdır.

İdxalın strukturunda baş verən əsas dəyişikliyə səbəb ölkədə əksər kənd təsərrüfatı məhsullarına, süd və ət məhsullarına, mebelə, tütün və spirtli içki məmulatlarına və s. olan tələbatın 90%-ə qədərini ödəyə biləcək səviyyədə təşkil olunmuş müəssisələrin olmasıdır. Bu müəssisələrə Bakı Tütün Kombinatını, «Azeri Kostel» Pivə Zavodunu, Koka-Kola Zavodunu, müxtəlif şirələr istehsal edən «SAF» Şirkətini, «AZƏRSUN Holdinq» Şirkətini, «Baku Steel Company» Şirkətini göstərmək olar.

Qeyd etmək lazımdır ki, diferensiallaşdırılmış tarif sisteminin özü malın hansı ölkədən gəlməsindən asılı olaraq aşağı və yuxarı gömrük idxal (ixrac) rüsumunun tətbiqini nəzərdə tutmur. 2000-ci ildə Azərbaycan Respublikası bütün dünyada qəbul olunmuş malların kodlaşdırılmasının harmonikləşdirilmiş sisteminə qoşulmuşdur. Harmonik sistem əsasında tərtib edilmiş XİF Mal nomenklaturası əsas götürülməklə, həmin nomenklatura üzrə bütün mal kodlarının qarşısında gömrük idxal rüsumlarının dərəcələri qeyd olunur. Bunlar advalor və spesifik rüsumLardır.

Ayrı-ayrı ölkələr üçün mallara gömrük idxal rüsumlarının dərəcələri göstərilmir. Azərbaycan Respublikasının Vergi Məcələləsinin qüvvəyə minməsi ilə əlaqədar olaraq 2001-ci ilin yanvarın 1-dən etibarən vasitəli vergilərin «son təyinat» prinsipi ilə alınması qaydasına keçirilmişdir.

İmzalanmış və ratifikasiya olunmuş Azad Ticarət sazişlərinə uyğun olaraq Rusiya Federasiyası, Ukrayna, Qazaxıstan və Gürcüstandan Azərbaycana, Azərbaycandan isə həmin ölkələrə idxal olunan mallardan gömrük idxal rüsumları alınmır. Qalan digər ölkələrdən gələn mallara gömrük idxal rüsumları tətbiq edilir. əgər başqa ölkələrlə də belə müqavilə bağlasaq, onda qarşılıqlı şəkildə gömrük idxal rüsumları tutulmAyacaq. Bütövlükdə hər bir ölkə ilə belə müqavilə bağlamaq olmaz. Məsələn, qonşu ölkələrdən Türkiyə ilə belə müqavilə bağlasaq, o zaman İran tərəfi də belə çıxışlar edəcək. Belə müqavilələr bağlanarkən ilk növbədə, həmin ölkələrlə Azərbaycanın ticarət əlaqələri təhlil edilməlidir. Əgər bu gün bizdən Türkiyəyə gedən malların dəyəri azdırsa, onda belə bir müqavilənin bağlanmasından nə qazanırıq?! Axı ortada mənfi saldo var. Nəticə etibarilə mənfi saldonun həcmi qədər gömrük idxal rüsumları itiriləcəkdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən sahibkarlığın inkişaf etdirilməsi məqsədilə son illər ərzində xüsusi Dövlət Proqramlarının qəbul edilməsi, sahibkarlıq fəaliyyətinə mane olan bürokratik əngəllərin aradan qaldırılmasına yönəldilən tədbirlər respublikanın gömrük siyasətində də nəzərə alınmışdır. Sahibkarlığın inkişafına mane olan problemlərin aradan qaldırılması, xarici iqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraiti yaradılması üçün, Azərbaycan Respublikası gömrük orqanlarının modernləşdirilməsi üzrə tədbirlər planına uyğun olaraq spesifik rüsumların advalor rüsumlarla əvəz olunmasının 4 mərhələli qrafiki hazırlanmış və həmin qrafikə uyğun olaraq Nazirlər Kabinetinin müvafiq Qərarı ilə 5 mal mövqeyi üzrə spesifik rüsumlar advalor rüsumlarla əvəz edilmişdir.

Hazırda gömrük siyasətinin başlıca istiqamətlərindən biri də məhz Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmaqla bağlı gömrük məsələlərinin elə düzgün qoyulmasıdır ki, bundan həm bütövlükdə ölkə iqtisadiyyatı, həm də Dövlət büdcəsi maksimum səmərə əldə edə bilsin. Bunun üçün isə respublikada diferensiallaşdırılmış tarif sisteminin tətbiqi mühüm rol oynayır.

Keçid dövründə respublikada yeni iqtisadi münasibətlərin təkamülü, onun beynəlxalq əmək bölgüsünə və dünya təsərrüfat əlaqələri sisteminə qoşulması, Beynəlxalq Ticarət Təşkilatına üzv olmağa hazırlıq, xarici iqtisadi fəaliyyətin liberallaşdırılması şəraitində gömrük sisteminin inkişafı və təkmilləşdirilməsinin proqram-məqsədli yanaşma əsasında aparılmasını məqsədəuyğun şəkildə nümayiş etdirir. Bu baxımdan respublikamızda gömrük sisteminin inkişafı və təkmilləşdirilməsi proqramı-

nın yaradılmasına ehtiyac var. Respublikanın milli xüsusiyyətləri, MDB ölkələri ilə idxal-ixrac əlaqələrinin genişlənməsi gömrük sisteminin müvəffəqiyyətə zəmanət verə biləcək prinsip və metodlar əsasında təkmilləşdirilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, dünyada heç bir ölkə, hətta ən çox inkişaf etmiş ölkə yeni çoxobrazlı müasir malı səmərəli istehsal edə bilmir. Təbii ki, ayrı-ayrı ölkələr və ya ölkələr qrupu məhz elə nomenklatura məhsulları istehsal edirlər ki, onlar burada daha çox əlverişli şəraitə malikdirlər. Bunun əsasında ölkələrin ixtisaslaşması və kooperasiyası qurulur. Bu zaman onlar bu və ya digər malı elə həcmdə istehsal edirlər ki, o daxili bazarın tələbatını ödəsin və bundan sonra xarici bazara çıxarılır. Bunun bazasında isə əmtəə mübadiləsi yaranır və inkişaf edir, vahid dünya təsərrüfatı formalaşır.

Bu mənada, demək olar ki, beynəlxalq ticarət bir tərəfdən beynəlxalq əmək bölgüsünü şərtləndirir, digər tərəfdən isə onda iştirak edən ölkənin daxili iqtisadiyyatının səmərəliliyini artırır.

Azərbaycan Respublikası hazırda dünyanın 150-dan çox ölkəsi ilə beynəlxalq ticarət əlaqələri aparır. Beynəlxalq ticarətin iqtisadi əsasları arasında müxtəlif malların istehsalı üzrə ixtisaslaşır və hər bir ölkədə digər ölkənin malına ehtiyac yaranır.

Beynəlxalq ticarət haqqında mülahizələr dərinləşdikcə göstərilən amillərin təsiri ilə xarici ticarətin əsasını təşkil edən digər amillər: yerli istehsalın kifayət etməməsi, malların qiymətinin beynəlxalq miqyasda fərqlənməsi, müxtəlif ölkələrdə fərqli mallar istehsalı da ortaya çıxır.

Qeyd etmək lazımdır ki, beynəlxalq əmək nəticəsində ölkələr konkret əmtəə və xidmətlər istehsalı üzrə ixtisaslaşmış və bir çox əmtəələr bəzi ölkələrdə ya istehsal edilmir, ya da az istehsal edilir. Bu isə son nəticədə beynəlxalq qiymətlərin fərqli olmasına səbəb olur.

Hələ vaxtı ilə klassik iqtisadi məktəbin nümayəndələrindən biri Adam Smit göstərirdi ki, sərvətin mənbəyi nə yalnız qiymətli daşlar, nə də yalnız torpaqda becərilən kənd təsərrüfatı mallarıdır. Sərvət bütün istehsal amillərinin iştirakı ilə bütün sahələrdə (kənd təsərrüfatı, sənaye, ticarət) istehsal olunan malların ümumi miqdarı ilə müəyyən edilir. İstehsalda məhsuldarlığı əmək bölgüsü ilə ixtisaslaşma təmin edir.

Adam Smit özünün «mütləq üstünlüklər» nəzəriyyəsini iki ölkə və iki mal üzərində izah edir. Onun nəzəriyyəsinə görə, ticarət aparan hər iki ölkə iqtisadi səmərə əldə edir. Lakin bu zaman o hesab edirdi ki, xarici ticarətə dövlətlər mümkün qədər az müdaxilə etməlidirlər.

Mütləq üstünlüklər nəzəriyyəsinin cavab verə bilmədiyi sualları D.Rikardo «müqayisəli üstünlüklər» nəzəriyyəsi ilə aydınlaşdırmışdır. O,öz nəzəriyyəsi ilə sübut etmişdir ki, hər hansı bir ölkə bu və ya digər malın istehsalında istehsal xərcləri baxımından mütləq üstünlüyə malik olmadığı halda da, ölkələr arasında xarici ticarət aparılır və bu ticarətdən

hər iki ölkə mənfəət əldə edə bilir. Rikardoya görə əgər ölkələr arasında qiymətlərdə az da olsa fərq varsa, onda hər bir ölkə nisbi üstünlüyə malikdir. Yəni bu ölkədə həmişə elə bir mal tapmaq mümkündür ki, mövcud istehsal xərclərinin nisbətində onun istehsalı digər ölkədəki istehsaldan daha sərfəli olsun. Həmin ölkə, məhz belə malın istehsalı və ixracında ixtisaslaşmalıdır.

Qeyd etmək lazımdır ki, klassik iqtisadçılar ölkələr arasında istehsal funksiyaları və istehsal xərclərinin nə üçün olduğu səbəblərini izah etməmişlər.

İsveç iqtisadçıları F.Hekşer və B.Olin XX əsrin 30-cu illərində həmin suallara cavab verməklə beynəlxalq ticarət axınlarının istiqamətləri və strukturunun hansı amillərlə müəyyən edilməsi haqqında müasir anlayışların əsasını qoydular.

Hekşer və Olin nəzəriyyəsinə görə, ölkələrin istehsal xərcləri arasındakı nisbi fərqin əsasını istehsal amillərinin dünyada qeyri-bərabər bölgüsü təşkil edir. Həmin nəzəriyyənin mahiyyəti aşağıdakından ibarətdir: hər hansı ölkə malik olduğu bol istehsal amillərindən intensiv surətdə istifadə olunan malların istehsalını təşkil etməklə üsütünlük qazanır. Digər tərəfdən, nisbətən az və ya çox olmayan istehsal amilləri intensiv istifadə edilən malların istehsalında isə üstünlüyə malik deyildir.

Ümumi olaraq Hekşer-Olin nəzəriyyəsinə görə, xarici ticarət o zaman səmərəli olur ki, o ayrı-ayrı dövlətləri eyni tip məhsul istehsalından imtina etməyə sövq edir, yəni istehsalın sahələrarası ixtisaslaşmasını artırır.

Lakin beynəlxalq ticarətin sonrakı inkişafı qarşıya yeni-yeni suallar qoyurdu və Hekşer-Olin nəzəriyyəsində irəli sürülən fərziyyələrin real həyatda özünü tam göstərdiyini demək mümkün deyildir. Yalnız onu göstərmək kifayətdir ki, bu nəzəriyyədə real həyatda güclü təsirə malik olan tələb amili nəzərə alınmamışdır. Halbuki, nəzəriyyədə irəli sürülən əsas müddəalar ilə əldə edilən nəticələr tamamilə bu müddəaların əksinə ola bilər.

İqtisadiyyat üzrə sonradan Nobel Mükafatına layiq görülmüş rus mənşəli V.V.Leontyev Hekşer-Olin nəzəriyyəsinin nə dərəcədə real həyata uyğunluğunu 1947-ci ildə ABŞ-ın misalında təhlil etmişdir. Təhlilin nəticələri kəskin elmi mübahisələrə yol açmış, lakin, ümumiyyətlə, qəbul edilmiş və iqtisadi ədəbiyyata Leontyev təzadı (ziddiyyəti) adı altında daxil olmuşdur.

Yuxarıda göstərildiyi kimi, Hekşer-Olin nəzəriyyəsinə görə hər hansı bir ölkə nisbi üstünlüyə malik olduğu amildən intensiv istifadə etdiyi malın istehsalı və ixracı üzrə ixtisaslaşmalı, nisbi üstünlüyə malik olmadığı malı isə idxal etməlidir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünya ölkələri ilə sərbəst idxal-ixrac əməliyyatları aparır və ölkəmizin bu sahədə

əlaqələri genişlənir. İdxal-ixrac əməliyyatlarının aparılması gömrük işinin səmərəli təşkil edilməsi ilə sıx bağlıdır. Bu sahədə isə qarşıda bir sıra vaxtı çatmış problemlərin həlli durur.

Gömrük fəaliyyətinin səmərəliliyinin artırılması mexanizminin lazımi səviyyədə işlənməsini təmin etmək üçün bütün çatışmazlıqlar aradan qaldırılmalıdır. Belə ki, ölkədə aparılan gömrük siyasəti gömrük rəsmiləşdirilməsinə sərf edilən müddətin qısaldılması, gömrük prosedurlarının sadələşdirilməsi, gömrük informasiyalarının işlənməsinin avtomatlaşdırılmış sisteminin yaradılması, gömrük və gömrükətrafı infrastrukturların inkişaf etdirilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, gömrük rəsmiləşdirilməsi prosedurlarının təkmilləşdirilməsi taktiki tədbirlər arasında əsas məsələlərdən biridir və məzmununa görə fasiləsiz, daimi fəaliyyətdədir. Bu zaman riskin dərəcə və qruplarının qiymətləndirilməsinə ciddi diqqət yetirilməlidir.

Strateji tədbirlərə ilk növbədə, Ümumdünya Gömrük Təşkilatının tövsiyələri aid edilir. ÜGT tövsiyələrində resurs potensiallarından səmərəli istifadə, gömrükxanaların rəhbər orqanlarının möhkəmləndirilməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, müvafiq sistem və strukturların formalaşdırılması, daha səmərəli gömrük proseduraları və gömrük rejimlərinin tətbiqi məsələlərinə xüsusi fikir verilir.

Respublikamızda gömrük xidmətini inkişaf etdirmək və təkmilləşdirmək üçün ilk növbədə, dövlətin kompleks inkişaf proqramı olmalıdır. Bu proqram ardıcıl olaraq mərhələlər üzrə həyata keçirilməlidir.

Gömrük Xidmətinin İnkişaf Kompleks Proqramının (GXİKP) tərtib edilməsində onun hazırlanmasının ümumi mərhələləri proqramın məqsədi və əhatə etdiyi məsələlər, əldə edilməsi nəzərdə tutulan göstəricilər, texniki və fəaliyyət təminatı, Proqramın müxtəlif növ resurslarla təmin edilməsi, Proqramın hazırlanması və həyata keçirilməsinin stimullaşdırılması, Proqramın yerinə yetirilməsinin təşkili, Proqramın yerinə yetirilməsi səmərəliliyinin müəyyən edilməsi və s. başlıca rol oynayır.

GXİKP-nin hazırlanmasında başlıca məqam Proqramın məsələləri və əldə edilməsi nəzərdə tutulan göstəricilərin, həmçinin gömrük xidmətinin yenidən qurulmasının konkret məsələlərini həll etməyə imkan verən mühüm istiqamətlərin dəqiq və aydın ifadə edilməsidir.

Gömrük Xidmətinin İnkişafının Kompleks Proqramının tərtib edilməsinə təsir edən amilləri üç əsas qrupda, aşağıdakı xarakterlərə görə birləşdirmək olar:

*Birinci qrup: ictimai-siyasi xarakterli amillər*

Müstəqillik əldə ediləndən sonra ölkədə gömrük xidmətinin formalaşmağa başlaması ölkənin siyasi həyatında ağır bir dövrlə və Azərbaycanın yaşayış məntəqələrinin Ermənistan tərəfindən işğal edilməsi ilə eyni vaxta düşür. Müxtəlif qruplaşmalar vəziyyətdən istifadə edərək əsas sahələrdə öz təsirini möhkəmləndirə bildilər. Çox vaxt bu qrupların mə-

nafeləri bu regionda özlərinin geosiyasi planlarını təmin etməyə can atan xarici dövlətlərin maraqları ilə üst-üstə düşürdü. Belə ki, həmin dövrdə sərhədlər açıldı, bu da müəyyən olunmamış şəxslərin və yüklərin mAneəsiz yerdəyişmələrinə kömək etdi.

*İkinci qrup: iqtisadi-hüquqi xarakterli amillər*

Keçid dövrünün ilk illərində birbaşa təsərrüfat əlaqələrinin qırılması, respublikalararası ödəmələr sisteminin dağılması və nəticədə satış bazarının itirilməsi ölkənin iqtisadiyyatını iflic vəziyyətinə gətirdi. Yaranmış vəziyyətdə tələbin ödənilməsi xeyli dərəcədə istehsal-texniki və istehlak təyinatlı əsas məhsulların idxalı yolu ilə mümkün idi. Vaxtı keçmiş ictimai-siyasi quruluşdan miras qalan qanunvericlik yeni problemlərin öhdəsindən gələ bilmədi. Gömrük vergiqoymasında dolaşıqlıq, aydın dövlət siyasətinin olmaması XİF-in tənzimlənməsində gömrük orqanlarının rolunu heçə endirmişdir.

*Üçüncü qrupp: professional-etik xarakterli amillər*

Gömrük Komitəsi yaranan zaman müvafiq təcrübəyə və ixtisasa malik gömrük işçilərinin sayı çox az (yüz nəfərə yaxın) idi, indiki sayla müqayisə edilə bilməzdi. İlk vaxtlarda respublikanın müxtəlif təsərrüfat, qismən də bilik və ixtisas səviyyəsi aşağı olan mütəxəssislər işə götürülmüşdülər. Gömrükçülərin cərgələrinə «asan qazanc» məqsədilə yaşayan adamlar da soxula bilmişdilər. Qanunvericilikdə boşluq və zəif dövlət idarəetməsi gömrük daxilolmalarının mütləq rəqəmlərində özünü göstərirdi.

Şübhəsiz, insan amili gömrük işində başlıca olaraq qalır. Hələ vaxtı ilə Ümummilli Liderimiz H.Əliyev gömrük işində yaranmış vəziyyəti xarakterizə edərək demişdir: «Təəssüf olsun ki. Gömrük işçilərinin öz vəzifələrindən sui-istifadə etməsi halları, dövlət mənafeyini qorumayaraq öz mənafeyinə çalışması halları da var. Bunlarla kəskin mübarizə aparmaq lazımdır. Mən hesab edirəm ki, əgər bütün gömrük məntəqələrində, gömrük orqanlarında işlərin hamısı qanunun yüksək tələblərinə uyğun, bütün qaydaların, bütün nizamnamələrin yüksək tələblərinə uyğun oslaydı, gömrük xidmətindən gələn gəlir xeyli artıq olardı, eyni zamanda respublikamızın iqtisadiyyatına zərər vuran hallar olmazdı».

Keçid dövrünün ilk illərində gömrük nəzarətinin texniki vasitələrinin çatışmazlığı sərhəd gömrük postlarında lazımi nəzarəti həyata keçirməyə imkan vermir və gömrük prosedurlarının aparılma vaxtını süni şəkildə uzadırdı.

Keçid dövrünün ilk illərinin çətinliklərini nəzərə alaraq Azərbaycan dövləti Azərbaycanın gömrük xidmətinin formalaşması prosesinə mənfi təsir göstərən amillər və onun aradan qaldırılması üçün gömrük xidmətinin inkişafında Kompleks Proqramın hazırlanmasmı və həyata keçirilməsi işini öz üzərinə götürdü.

Dövlətin iqtisadi siyasətinin tələbləri baxımından Azərbaycan Dövlət Gömrük Komitəsi tərəfindən Strateji İnkişaf Proqramı işlənib hazır-

landı. Bu Proqrama keçirilmə üsulundan asılı olmayaraq malların tam gömrük rəsmiləşdirilməsinin təmin edilməsi, gömrük prosedurlarının SA-dələşdirilməsi və rəsmiləşdirilmə vaxtının qısaldılması, müasir mütərəqqi gömrük nəzarəti texnologiyalarının tətbiqi, gömrük ödəmələri texnologiyalarının və ödəmələrin büdcəyə daxil olmasına nəzarətin təkmilləşdirilməsi, yüklər və yük göndərənlər haqqında ilkin informasiyanın alınması, Gömrük Qanunvericiliyinin pozulmasının qarşısının alınması, digər hüquq-mühafizə orqanları ilə birgə narkotik maddələrin idxalının qarşısının alınması, respublikanın gömrük ərazisindən onların qanunsuz dövriyyəsinin tranzitinə yol verilməməsi, valyuta nəzarəti və s. məsələlər həll edildi.

Gömrük sisteminin infrastrukturunun yaradılması sahəsində mühüm addımlar atıldı.

Həlli vacib olan təşkilati və idarəetmə problemləri arasında Azərbaycanın gömrük sisteminin bu gün üçün və uzunmüddətli perspektivdə keyiyyətcə yüksəlişini nəzərdə tutan şaxələnmiş, mürəkkəb gömrük infrastrukturunun yaradılması xüsusi rol onayır. Bu, bir çox amillərlə bağlıdır. Bu amillərin əsasında bazar iqtisadiyyatının inkişafı durur. Şübhəsizdir ki, inkişaf etmiş bazar infrastrukturu və onun digər tərkib hissələri, o cümlədən xarici iqtisadi əlaqələr və gömrük sahəsi olmadan bazar iqtisadiyyatı normal fəaliyyət göstərə bilməz.

Gömrük infrastrukturunun getdikcə artan rol və əhəmiyyətinə bir sıra amillər təsir göstərir:

-xarici iqtisadi fəaliyyətin tənzimlənməsi prosesində funksiyalarının, səlahiyyətlərinin və məsuliyyətlərinin artması ilə əlaqədar olaraq gömrük orqanlarının fəaliyyətinin çətinləşməsi;

-gömrük rəsmiləşdirilməsi və mallara gömrük nəzarəti üzrə işlərin həcminin əhəmiyyətli dərəcədə artması, onların yerinə yetirilməsinin yeni texnologiya və texniki vasitələrin tətbiqindən birbaşa asılılığının güclənməsi;

-gömrük orqanlarının hüquq-mühafizə orqanı kimi yeni hüquq və vəzifələri, o cümlədən ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi;

-gömrük təşkilatlarının kadr heyətinin keyfiyyətcə yaxşılaşdırılması və möhkəmləndirilməsinə tələbatı, onların peşəkarlığının, bilik səviyyəsinin yüksəldilməsi, yüksək əxlaqi-etik keyfiyyətlərin tərbiyə edilməsi, sosial sahənin geriliyinin aradan qaldırılmasının vacibliyi, gömrük əməkdaşlarının sosial müdafiəsinin, normal həyat fəaliyyətinin təmin edilməsi, gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi və dərinləşməsi prosesinin Azərbaycanın gömrük orqanlarının infrastruktur təminatının beynəlxalq səviyyəyə qaldırılmasını tələb etməsi və s.

Qeyd etmək lazımdır ki, gömrük infrastrukturunun təşkili və inkişafı – gömrük orqanlarının vahid sisteminin ayrılmaz atributu, gömrük işinin həyata keçirilməsində onun səmərəli olmasını şərtlərindən əsas amillərdən biridir. Belə ki, bu amillər infrastrukturun təminatı bu və ya

digər səviyyədə mövcudluğu ilə gömrük işinin həyata keçirilməsinin prosedur mərhələlərini müşayiət edir.

Ənənəvi olaraq gömrük infrastrukturu məfhumunun müəyyən edilməsində əsas diqqət ona yönəldilir ki, infrastruktur dedikdə, gömrük işinin həyata keçirilməsində, gömrük orqanlarının vəzifələrinin yerinə yetirilməsində tabeli, köməkçi rol oynayan gömrük müəssisələrinin şəbəkəsi nəzərdə tutulur.

Beləliklə, infrastruktur – gömrük orqanlarının normal fəaliyyət göstərməsini təmin edən istehsal, qeyri-istehsal, elmi sahələr kompleksidir.

Gömrük infrastrukturuna xas olan ümumi və əlahiddə xüsusiyyətləri aşağıdakı kimi xarakterizə etmək olar:

-gömrük infrastrukturu bütövlükdə milli iqtisadiyyatın infrastrukturundan təcrid olunmur, onun tərkibində yaradılır və fəaliyyət göstərir;

-gömrük sistemi bütövlükdə tənzimetmə, hüquqi, idarəetmə xarakterli infratsrukturla sıx bağlı olan ümumi infrastrukturun tərkib hissəsidir. Bu keyfiyyətdə o xarici iqtisadi fəaliyyətin tənzimilənməsi sahəsinə və beləliklə də iqtisadi təhlükəsizliyin təmin edilməsinə xidmət edir;

-gömrük infrastrukturunun gömrük sisteminin fəaliyyətinin təmin edilməsi kimi sahədaxili təyinatı var.

Bu baxımdan, gömrük sisteminin normal fəaliyyətini təmin edən infrastruktur təminatı elementlərini üç əsas qrupa ayırmaq olar:

- Birinci qrupa mal və nəqliyyat vasitələrinin keçirilməsi, saxlanması və anbar emalı üçün, həmçinin sərnişinlərə xidmət etmək üçün şərait yaradan elementlər daxil edilir. Başqa sözlə, bu, gömrük orqanlarının maddi-texniki bazası (inzibati binalar, keçid-buraxılış məntəqələri, anbar təsərrüfatı, nəqliyyat vasitələri, sosial təyiantlı obyektlər, vağzal və hava limanlarında gömrük nəzarəti zonaları və s.) hesab edilir.

- İkinci qrupa gömrük əməliyyatlarının aparılmasını, prosesin gedişi və alınmış nəticələr barədə məluatın ötürülməsini təmin edən sistem, vasitə və fəaliyyət növləri, gmrük nəzarətinin texniki vasitələri, gömrük ekspertizası vasitələri, rabitə, gömrük orqanlarının vahib avtomatlaşdırılmış məlumat sistemi, digər EHM və kompyuter avadanlığı və s. daxildir.

- Üçüncü qrupa gömrük orqanları kadrlarının normal həyat fəaliyyətinin bərpası üçün maddi-məişət, mədəni və digər şəraitin yaradılmasına xidmət edən sosial infrastruktur aid edilir. Bu sfera gömrük işçisinin peşə hazırlığının və hərtərəfli inkişafının təmin edilməsi üçün qeyri-istehsal xarakterli tələbatın ödənilməsini təmin etməlidir.

Beləliklə, gömrük infrastrukturu dedikdə, xarici iqtisadi fəaliyyə- tin gömrük tənzimlənməsi şərtlərini, gömrük sisteminin bütövlükdə fəaliyyət göstərməsini təmin edən, gömrük nəzarəti, ekspertizası, rabitəsi, məlumat sistemi, gömrük orqanlarının maddi-texniki bazası, texniki vasitələr, institutsional, sosial struktur və fəaliyyət növləri kompleksi başa düşülməlidir.

Hal-hazırda gömrük infrastrukturunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

-gömrük sərhədinin tam qaydaya salınması və təchizatı, yüklərin gömrük sərhəddindən yerdəyişməsi uçotunun avtomatlaşdırılmasını təkmilləşdirmək üzrə işləri başa çatdırmaq;

-gömrük baxışı işlərinin təkmilləşdirilməsi, onun müxtəlif formalarından istifadə edilməsi, müstəqil identifikasiya və sənədli yoxlama texnoloigyasının tətbiqi;

-boru kəməri nəqliyyatı və elektrik xətləri ilə yerdəyişən mallar üzərində faktiki nəzarətin təşkili;

-tənzimetmənin mülkiyyət obyektlərinin yerdəyişməsinə nəzarəti həyata keçirmək üçün təşkilati-hüquqi zəminin yaradılması;

-gömrük tənzimlənməsinin tarif metodları komlpeksinin fəaliyyət səmərəliliyinin təhlilini aparmaq və onların təkmilləşdirilməsi üçün təkliflər hazırlamaq;

-hesabatların qəbul olunmuş formalar üzrə verilməsi, onların dəqiqliyini və keyfiyyətini yüksəltmək üçün işlərin sistemləşdirilməsi.

Azərbaycan Dövlət Gömrük Komitəsinin qarşısında qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi Ümumdünya Gömrük Təşkilatının (ÜGT) tövsiyə etdiyi taktiki və strateji tədbirlərin ardıcıl həyata keçirilməsindən çox asılıdır. Məsələn, taktiki tədbirlərə aşağıdakılar aid edilməlidir: gömrük rəsmiləşdirilməsi müddətlərinin azaldılması, gömrük prosedurlarının sadələşdirilməsi, daşınma, saxlanma, anbarlara vurulma mərhələsində vacib olmayan sənədləşmənin aradan qaldırılması və məcburi olmayanın ixtisar olunması, gömrük informasiyasının avtomatlaşdırılmış işlənmə sistemlərinin tətbiqi, gömrük və gömrükətrafı infrastrukturun inkişaf etdirilməsi.

**Azərbaycan Respublikası Gömrük Orqanının**
**mövcud strukturu**
aşağıdakı sxemdə təsvir olunmuşdur




Gömrük vəzifələrini uğurla həyata keçirmək üçün Azərbaycan Respublikası Gömrük Sisteminin Büdcədənkənar İnkişaf Fondu təsis edilmişdir. Bu Fond Azərbaycan Respublikası «Gömrük məcəlləsi»nin 398-ci maddəsinə uyğun olaraq yaradılır və Azərbaycan Respublikasında gömrük siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsini nəzərdə tutur. Gömrük Sistemi İnkişaf Fondunun vəsaitləri Azərbaycan Respublikasında gömrük sistemi fəaliyyətinin təmin edilməsinə və inkişafına, sosial sahənin inkişafına, eləcə də tabeçilikdə olan elmi-tədqiqat təşkilatlarının, laboratoriyaların və tədris müəssisələrinin saxlanması, maddi həvəsləndirmə və sosial inkişaf fondunun inkişaf etdirilməsinə yönəldilir.

Gömrük təşkilatları öz işində mövcud infrastrukturlara əsaslanmaqla gömrük rəsmiləşdirmələrinin prosedurlarının təkmilləşdirilməsinə xüsusi diqqət yetirirlər.

Qeyd etmək lazımdır ki, gömrük rəsmiləşdirilməsi prosedurlarının təkmilləşdirilməsi formasına və məzmununa görə permament (fasiləsi),

daimi fəaliyyətdə olan taktiki tədbirlər arasında mühüm mərhələlərdən biridir. Gömrük rəsmiləşdirilməsi prosedurlarının təkmilləşdirilməsi üçün baza xarici iqtisadi fəaliyyət iştirakçıları- nın riskinin obyektiv qiymətləndirilməsi olmalıdır.

Strateji tədbirlərə, fikrimizcə, ilk növbədə, ÜGT-nın dünyanın bütün gömrük sistemləri üçün hazırladığı metodiki tövsiyələrin tətbiqini aid etmək lazımdır. ÜGT müxtəlif ölkələrin milli gömrük sistemlərinə yardım göstərmək, xüsusən də resurs potensialından daha səmərəli istifadə etmək, müvafiq idarəetmə sistemlərini təkmilləşdirmək, daha effektiv gömrük rejimlərini tətbiq etmək zərurətindən çıxış edir.

ÜGT-yə daxil olan ölkələrin öz fəaliyyətində rəhbər tutduqları strategiyanın əsasında aşağıdakılar dayanır:

-milli gömrük sisteminin islahat və modernləşdirilmə proqramları;

-gömrük konvensiyalarının, beynəlxalq qaydaların və normativlərin tətbiqi və genişləndirilmə təcrübəsi;

-milli gömrük sistemlərinin islahatı üzrə tədbirlərin dövlət rəhbərliyi tərəfindən dəstəklənmə təcrübəsi;

-milli gömrük sisteminin kadr potensialının islahatına xərclərin strukturu.

Ümumdünya Gömrük Təşkilatı dünya gömrük sistemlərinin işinin əlaqələndirilməsi funksiyasını öz üzərinə götürmüşdür. Əksər ölkələrin gömrükxanalarının fəaliyyətini təhlil etməklə, ÜGT, onların əsas fəaliyyət prinsiplərini işləyib hazırlamışdır. Bu prinsiplərdə, milli xüsusiyyətlərin nəzərə alınması mühüm rol oynayır. Bu o deməkdir ki, hər bir dövlət öz milli mentalitetindən, iqtisadi vəziyyətindən və s. irəli gələn inkişaf qanunauyğunluqlarından çıxış edir. Bu prinsiplə yanaşı, bazislik prinsipinə xüsusi əhəmiyyət verilir.

Bazislik prinsipi ölkənin gömrük xidmətinin milli meyarını nəzərə almaq üçün əsas ÜGT-nin müddəaları, müəyyən tövsiyələri hesab edilir. Bu prinsiplərin reallaşdırılmasında həlledici rol Dövlətə məxsusdur, əsas maliyyələşmə mənbəyi isə Dövlət büdcəsidir.

Gömrük sistemi sahəsində aparılan uğurlu islahatlardan bütün vətəndaşlar faydalanır, onun həyata keçirilməsi ölkənin bütün iqtisadiyyatına, onun gəlirlərinə faydalı təsir göstərir. Beləliklə, bu islahatları Dövlət büdcəsi gəlirlərinin artması ilə bərabər, bütövlükdə respublikanın gəlirlərinin, eləcə də Proqramın həyata keçirilməsində iştirak edəcək strukturların gəlirlərinin artmasında da nəzərə almaq lazımdır. Büdcə gəlirlərini və bütövlükdə iqtisadiyyatın qarşılıqlı əlaqəsini də nəzərdən qaçırmaq olmaz. İxrac gömrük rüsumları məhdudluğunun aradan qaldırılmasına və ləğv edilməsinə görə Dövlət büdcəsinin bu mənbə hesabına gəlirləri azalmalıdır. İdxal rüsumlarının aşağı salınması da xarici iqtisadi fəaliyyətdə büdcənin gəlirinin azalmasına səbəb olur.

Qeyd etmək lazımdır ki, gəlirlərin azalması digər amillər hesabına, məsələn, milli iqtisadiyyatın yüksəlişinə əsaslanan xarici iqtisadi dövriyyənin həcmlərinin artması hesabına kompensasiya ediləcəkdir.

İdxal rüsumlarının ümumi azalması zamanı məntiqi proteksionizm və ölkə əmtəə-xidmət istehsalçılarını müdafiə etmək siyasəti yürüdüləcək- dir.

Ümumiyyətlə, xarici ticarət dövriyyəsi artımı, milli iqtisadiyyatın yüksəlişi, onun dünya təsərrüfat əlaqələri sisteminə üzvi şəkildə daxil olması nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsindən çox asılıdır. Bütün bunlar son nəticədə respublika iqtisadiyyatının inkişaf etməsi və xalqın maddi rifah halının yüksəlməsini təmin edəcəkdir.

## 4.6. Azərbaycan Respublikasının beynəlxalq gömrük əməkdaşlığı

Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycanın gömrük təşkilatının beynəlxalq əlaqələri xeyli genişlənmiş və keyfiyyətcə yeni səviyyəyə qalxmışdır.

Beynəlxalq gömrük əməkdaşlığının inkişaf etdirilməsi və möhkəmləndirilməsi, inteqrasiyanın dərinləşdirilməsi məqsədilə bir çox beynəlxalq təşkilatlar və dünya dövlətlərinin gömrük xidmətləri ilə əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi hüquqi əməkdaşlığı bir neçə istiqamətdə həyata keçirir. Bu istiqamətlərdən biri də Ümumdünya Gömrük Təşkilatı ilə sıx əlaqələr müstəvisində fəaliyyət göstərməsidir. Təsadüfi deyildir ki, Azərbaycan Gömrük Təşkilatı ÜGT-nin strateji istiqamətlərinin formalaşdırılması, qlobal gömrük proseslərinin effektivləşdirilməsi və daha da müasirləşdirilməsində yaxından iştirak edir. Digər tərəfdən, ÜGT-nin fəal üzvü kimi dünyanın ən qabaqcıl ölkələrinin gömrük orqanları ilə sıx əməkdaşlıq edir.

Bu əməkdaşlıq ÜGT, MDB Gömrük Xidmətləri Rəhbərlər Şurası və ikitərəfli münasibətlər (ayrı-ayrı ölkələrin gömrük orqanları ilə) çərçivəsində özünü büruzə verir.

ARDGK-nin ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlərə üstünlük verməsi gömrük sisteminin təkmilləşdirilməsində öz bəhrəsini verir. Türkiyə, İran İslam Respublikası, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Livan, Bolqarıstan respublikaları və Ukrayna gömrük orqanları ilə gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər imzalanmışdır. MDB Gömrük Xidmətləri Rəhbərlər Şurası çərçivəsində və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrlə çoxtərəfli sazişlər mövcuddur. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında gömrük orqanlarının qarşılıqlı inzibati yardımı haqqında Memorandum 7 iyul 1997-ci il tarixində imzalanmışdır.

DGK Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Gömrük Xidmətləri Rəhbərlər Şurasının iclaslarında fəal itirak edir. Bunun nəticəsidir ki, MDB üzvü olan ölkələrin Gömrük Xidmətləri Rəhbərlər Şurasının 20-ci iclası Bakı şəhərində keçirilmişdir. Dövlət Gömrük Komitəsi XİFƏN əsasında vahid gömrük tarifinin işlənib hazırlanmasını, gömrük rüsumlarının alınmasını, tətbiq edilməsini, malların mənşə ölkəsinin təyin edilməsini, gömrük məqsədləri üçün malların qiymətləndirilməsi də daxil olmaqla, MDB üzvü olan ölkələrin gömrük siyasətinin əsas istiqamətləri üzrə təkliflərin hazırlanıb təqdim edilməsini təmin edir.

DGK, həmçinin gömrük orqanları üçün kadrların hazırlanması, avtomatlaşdırılmış informasiya sistemi, gömrük statistikası, beynəlxalq əməkdaşlıq sahələrində MDB gömrük xidmətləri ilə əməkdaşlıq edir.

Ukrayna Dövlət Gömrük Xidmətlərindən daxil olmuş "Ukrayna Dövlət Gömrük Xidməti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı yardım göstərilməsi qaydaları haqqında Memorandum" layihəsinin ekspertizası aparılmış və Azərbaycan Respublikası hökuməti nümayəndə heyətinin Ukraynada səfəri zamanı 30 iyul 1999-cu il tarixində Kiyev şəhərində imzalanmışdır.

Ümumdünya Gömrük Təşkilatının Baş Katibi Mişel Danenin məktubuna əsasən Azərbaycan Respublikası "Malların təsviri və kodlaşdırılması üzrə hormonikləşdirilmiş sistem haqqında Beynəlxalq Konvensiya"ya qoşulmaq barədə təklif daxil olmuşdur. Bu məqsədlə yuxarıda adı çəkilmiş Konvensiya dövlətdaxili prosedurlardan keçirilməsi üçün Nazirlər Kabinetinə və Xarici İşlər Nazirliyinə göndərilmiş və Milli Məclisdə ratifikasiya olunmuşdur.

Fərəhləndirici haldır ki, 2001-ci ilin yanvar ayından respublikamız bu Konvensiyaya qoşulan 100-cü dövlət oldu.

ÜGT-nin Brüssel şəhərində keçirilən 93/94-cü sessiyalarında Komitə sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmiş və sessiyanın işi zamanı Azərbaycan Respublikası ÜGT-nin Maliyyə Komitəsinə üzv seçilmişdir.

Avropa İttifaqının TASİS Proqramı üzrə Azərbaycan Respublikasının milli və dövlətlərarası proqramları və Avropa İttifaqı Komissiyasının Texniki Yardım Proqramı çərçivəsində (1996-cı il oktyabr) Daşkənd şəhərində Avropa Gömrüyü və Azərbaycan Respublikası Dövlət Komitəsi arasında TASİS Proqramı çərçivəsində "Təhsil", "İdarəetmə və Təşkilat" layihələri üzrə müqavilələr imzalanmışdır.

DGK-nın Avropa Gömrüyü ilə apardığı intensiv danışıqlar nəticəsində TASİS Proqramı çərçivəsində Avropa Gömrüyünün Orta Asiya Respublikaları və Azərbaycan Respublikası üzrə koordinatları tərəfindən "Con Erik Platt"la bağlanmış müqavilələrin həyata keçirilməsi barədə gömrük orqanlaarının məsul vəzifəli şəxsləri ilə görüşmək və Azərbaycan

Respublikasının Dövlət Gömrük Komitəsinin rəyini öyrənmək üçün Bakıda görüşlər keçirilmişdir.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafına həsr edilmiş Beynəlxalq Konfransa hazırlıq üçün Bakı şəhərində keçirilən iştirakçı dövlətlərin işçi qruplarının üzvlərinin iclasında gömrük əməliyyatları və sənədləşdirilmələrinin aparılması üzrə əsas sazişin texniki əlavəsinin layihəsi hazırlanmışdır.

Bu layihədə TASİS və TRASEKA Proqramları çərçivəsində həyata keçirilən sərhəd-keçid prosedurlarının sadələşdirilməsi, unifikasiya olunması və s. məsələlər öz əksini tapmışdır. Təbii ki, nəqliyyatın sərhədlərdən keçməsi üçün proqram iştirakçıları olan dövlətlərarası gömrük əməliyyatlarının genişlənməsi vacib məsələ kimi qarşıda dayanır. Azərbaycan gömrük orqanları sərhəd buraxılış məntəqələrində vacib dövlət xidməti orqanı kimi gömrük prosedurlarının hormonikləşdirilməsi və sadələşdirilməsi istiqamətində mühüm addımlar atırlar. Azərbaycan bununla bağlı bir sıra beynəlxalq konvensiyaya qoşulmuş, Dövlət Gömrük Komitəsi tərəfindən gömrük nəzarətinin təşkili, informasiya texnologiyalarının istifadəsi sahəsində səylərini xeyli artırmış, avtomatlaşdırılmış idarəetmə sisteminə keçilmiş, proqram təminatı və texniki baza yaradılmış, istismardadır.

TRASEKA Layihəsi üzrə əsas, çoxtərfli Saziş imzalandıqdan sonra ölkəmiz tərəfindən bütün lazımi təşkilati işlər həyata keçirilmişdir və bu dəhlizin səmərəliliyinin artırılması və inkişaf etdirilməsi üzrə mühüm işlər görülmüşdür.

Ümumiyyətlə, respublikamıza gələn avropalı ekspertlər gömrük orqanları tərəfindən həyata keçirilən işləri yüksək qiymətləndirmiş, sərhəd-keçid məntəqələrində yaradılan şəraitdən razı qaldıqlarını dilə gətirmişdilər.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin dəvəti ilə İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə Nazirinin müavini, Gömrük İdarəsinin prezidenti və Türkiyə Cumhuriyyətinin gömrük müstəşarı Azərbaycana rəsmi səfər etmişdir.

İran İslam Respublikasının İqtisadiyyat və Maliyyə Nazirinin müavini, Gömrük İdarəsinin prezdentinin səfəri zamanı "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və İran İslam Respubilkası Gömrük İdarəsi arasında qarşılıqlı əməkdaşılıq haqqında Memorandum" imzalanmşdır.

Azərbaycan Prezdenti İlham Əliyevin 2008-ci ildə Türkiyəyə rəsmi səfəri çərçivəsində iki ölkənin hökumətləri arasında gömrük sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında imzalanan sazişi əməkdaşlığın genişləndirilməsi baxımından irəliyə doğru atılan müsbət addım kimi səciyyələndirmək olar.

Saziş imkan verəcəkdir ki, gömrük orqanları arasında gömrük Qanunvericiliyinin pozulmasının hər iki ölkənin iqtisadi, maliyyə, ticarət

və ictimai maraqlarına ziyan vurduğu nəzərə alınmaqla qarşılıqlı əməkdaşlıq genişləndirilsin.

Sazişin əsas məram və məqsədlərindən biri də tərəflərin zəruri məlumat və sənədlərin alınmasında bir-birinə yardım etməsidir. Eyni zamanda Sazişin müddəalarına uyğun olaraq Türkiyə Cumhuriyyəti Gömrük Müstəşarlığı və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Qanunvericiliyinin düzgün tətbiq edilməsi məqsədilə gömrük hüquqpozmalarının qarşısının alınması təhqiqatının aparılması üçün bu hüquqpozuntulara qarşı bütün zəruri tədbirlər görəcəklər.

Razılığa gələn tərəflər öz təşəbbüsləri ilə və ya sorğu əsasında öz milli Qanunvericiliyinə uyğun olaraq birgə əməkdaşlıq edəcək, Gömrük Qanunvericiliyini pozan və ya pozması aşkara çıxan fəaliyyət və yaxud narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz ticarəti ilə məşğul olan bütün təzahürlərə qarşı birgə mübarizə aparacaqlar. İki qardaş ölkənin gömrük xidmətləri əməkdaş və mütəxəssis mübadiləsi də daxil olmaqla, aralarında bərabər təsirli əlaqələrin qurulması, təhsil sahəsində qarşılıqlı proqramların hazırlanması, razılaşdırılan mövzularda birgə seminar və konfransların təşkili, gömrük qanunvericiliyi və tətbiqi sahəsində qarşılı təcrübə mübadiləsi aparacaqlar.

Məlumdur ki, beynəlxalq aləmdə xüsusi nüfuza malik olan Ümumdünya Gömrük Təşkilatının Baş Katibi Mişel Dane respublikamıza ikinci dəfə (19 iyun 2000-ci il) işguzar səfər etmiş və faydalı fikir mübadiləsi aparmaqla perspektiv planların müzakirəsində iştirak etmişdir. Baş Katib tərəfindən Azərbaycan Gömrük Təşkilatının müsbət işi qiymətləndirilmişdir. Bu isə beynəlxalq aləmdə milli gömrük xidmətlərimizin layiqincə təmsil olunması və tanınmasının təzahürüdür.

Yeri gəlmişkən, 2002-ci ilin yanvar ayının 3-da ÜGT Baş Katibi Mişel Dane və DGK-nin sədri Kəmaləddin Heydərov arasında "Azərbaycan Respublikasının Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Regional Tədris Mərkəzinin təsis edilməsi haqqında" anlaşma Memorandumu imzalandı. Memorandumda yaradılacaq həmin mərkəzdə regional tədris, texniki yardıma dair görüşlər və gömrüklə bağlı digər tədbirlərin keçiriləcəyi, DGK-nın onun sahibi və istifadəçisi olacaq özünün milli və beynəlxalq proqramları üçün də istifadə edəcəyi öz əksini tapmışdır.

2000-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) üzvü olan ölkələrin gömrük orqanları rəhbərlərinin 7-ci İclasının Bakı şəhərində keçirilməsi beynəlxalq iqtisadi əməkdaşlığın, regional ticarət, nəqliyyat və kommunikasiya məsələlərinin həllinə yönəldilmiş üzv ölkələrin iqtisadi tərəqqisinə kömək etməklə, gömrük sahəsində inteqrasiyanın dərinləşməsinə, beynəlxalq əlaqələrin genişlənməsinə xidmət edir.

ARDGK-nin nümayəndə heyətinin ÜGT-nin 95/96-cı sessiyasında (Brüssel, 6-8 iyul 2000-ci il) iştirakı və üzv ölkələrin təmsilçisi tərəfindən

dəstəklənəcək və mötəbər təşkilatların ali orqanı olan siyasi komissiyaya üzv seçilməsi ölkələrin beynəlxalq aləmdə nüfuzunun tanınmasının təzahürüdür.

Göründüyü kimi, son 10 ildə ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü siyasət, o cümlədən gömrük siyasəti nəticəsində respublikanın beynəlxalq gömrük əlaqələri xeyli genişlənmiş ve hal-hazırda genişlənməkdə və inkişaf etdirilməkdədir.

Ümumdünya Gömrük Təşkilatı çərçivəsində dövlətlərarası gömrük siyasətinin həyata keçirilməsi xüsusiyyətləri və inkişaf tendensiyaları, o cümlədən Azərbaycan Respublikasının bu təşkilatla əməkdaşlıq etməsinin ətraflı şəkildə öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Gömrük işi sahəsində ilk təşkilatların tarixinə nəzər salsaq, görərik ki, bu təşkilatlar informasiya xarakteri daşıyırdı.Belə ki, 1890-cı ildə Belçika hökumətinin təşəbbüsü ilə bağlanmış Gömrük tariflərinin nəşri üzrə Beynəlxalq İttifaqın yaradılması haqqında Konvensiya əsasında Beynəlxalq Gömrük Təşkilatı - Gömrük Tariflərinin Nəşri üzrə Beynəlxalq Büro yaradılmışdır. Gömrük işinin inkişafı ilə əlaqədar aydın oldu ki, bu sahədə təkcə informasiya mübadiləsi kifayət etmir. Ona görə də 1950-ci ildə universal beynəlxalq hökümətlərarası təşkilatın- Gömrük Əməkdaşlığı Şurasının (GƏŞ) yaradılması işindən istifadə olunmuşdur. Gömrük işi sahəsində bu təşkilatın qarşısında bir sıra, o cümlədən beynəlxalq gömrük saziş və tövsiyələrin layihələrinin işlənib hazırlanması, onların vahid təfsiri və tətbiqi və s. məsələlər qoyulmuşdur. GƏŞ-in yaranmasını zəruri edən şərtlərdən biri XX əsrin ikinci yarısında, daha dəqiq desək, İkinci Dünya müharibəsi dövründən sonra Ümumdünya bazar təsərrüfatında zidiyyətlərin kəskinləşməsi və ümumtəsərrüfat əlaqələrinin tənzimlənmə mexanizminin kompleks təkmilləşdirilməsinə tələbatın artırılması idi. Belə ki, Gömrük Əməkdaşlığı Şurasının yaradılması haqqında Konvensiyanın 1-ci Maddəsində göstərilir ki, Təşkilat dövlətlərin gömrük sistemlərinin uzlaşdırılmasının və vahidliyinin mümkün dərəcədə daha yüksək səviyyəsini təmin etmək və gömrük texnikası və qanunvericiliyin inkişafı və yaxşılaşdırılması işində yaranan problemlərin öyrənilməsini gücləndirmək kimi səlahiyyətlərə malikdir.

Fəaliyyət dairəsinin bu miqyasda genişlənməsi və üzvlərinin sayının kəskin surətdə artması ilə əlaqədar olaraq, 1994-cü ildə Şuranın adı Ümumdünya Gömrük Təşkilatı (ÜGT) adlandırıldı və bununla da onun beynəlxalq hökumətlərarası bir təsisat kimi fəaliyyətə keçidinin tamamlanması başa çatdı. Hazırda ÜGT-nin 170-dən çox üzvü vardır. ÜGT-nin qlobal mənsədi - dünyanın bütün ölkələrində, xüsusilə ciddi iqtisadi islahatların aparıldığı ölkələrdə müasir efetli, çoxfunksiyalı gömrük xidmətlərinin yaradılmasına və inkişaf etdirilməsinə yardım deməkdir. Bu məqsədin müasir mərhələdə reallaşdırılması üçün ÜGT üzvləri tərəfindən Təşkilatın fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirən strateci plan

qəbul edildi, gömrük islahatları və onun təkmilləşməsi Proqramı təsdiq olundu. Bu Proqram öz məqsədlərini və onların potensial imkanlarının aktivləşdirilməsi, idarəetmə metodlarının təkmilləşdirilməsi, Təşkilatın strukturunun möhkəmləndirilməsi və müasir gömrük texnologiyasının tətbiq edilməsi yolu ilə həyata keçirmə üsullarının daha dəqiq müəyyənləşdirməsində milli gömrük xidmətlərinə yardım göstərməyə yönəlmişdir. Bununla bağlı gömrük sistemi və gömrük qanunvericiliklərinin harmonizasiyasına, gömrük xidmətlərinin modernləşdirilməsinə kömək göstərilməsi mühüm əhəmiyyət kəsb edir. Bütövlükdə, ÜGT-nin fəaliyyətində əsas məqsəd aşağıdakılardır:

- gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi;
- gömrük sistemlərinin harmonizasiyasının və unifikasiyasının daha yüksək səviyyəsinin təmin edilməsi;
- Gömrük Qanunvericiliyi və gömrük texnologiyalarının təkmilləşdirilməsi;
- gömrük vasitələri ilə beynəlxalq cinayətlərlə mübarizənin gücləndirilməsi.

Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün Ümumdünya Gömrük Təşkilatı gömrük prosedurlarını sadələşdirən və unifikasiya edən müxtəlif tövsiyələr qəbul edir, konvensiyaları və digər sənədləri işləyib hazırlayır, mübahisə və ixtilafların yarandığı hallarda vasitəçilik və barışdırıcı tədbirlər həyata keçirir, gömrük sahəsində əməkdaşlıq məsələlərini öyrənir, gömrük sisteminin texniki aspektlərini tədqiq edir, gömrük prosedurları haqqında informasiya yayır və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edir.

Qeyd etmək lazımdır ki, son dövrdə ÜGT-nin fəaliyyətinin əsas hüquqi formaları kimi gömrük əməkdaşlığının müxtəlif aspektləri üzrə beynəlxalq müqavilə, konvensiya və sazişlər qəbul etmişdir. ÜGT xarici ticarətin müxtəlif sahələrini tənzimləyən çoxlu sənəd qəbul etmişdir. Belə ki, sənədlərə standart tələblər üzrə 1952-ci il Məcəlləsi, Gömrük prosedurlarının sadələşdirilməsi və unifikasiyası haqqında Konvensiya, 1961-ci il Narkotik vasitələr haqqında Konvensiya (bu Konvensiyaya əsasən Narkotiklərə Nəzarət üzrə Komitə yaradılmışdır), Psixotrop maddələr haqqında 1971-ci il Konvensiyası, Gömrük prosedurlrının sadələşdirilməsi və harmonizasiyası haqqında 1973-cü il Kioto Konvensiyası; Gömrük hüquqpozmalarının qarşısının alınması, araşdırılması və ləğv edilməsi üzrə qarşılıqlı inzibati yardım haqqında 1977-ci il Konvensiyası (bu Konvensiya ümumi qarşılıqlı yardım tədbirlərilə yanaşı, narkotik və psixotrop maddələrin, həmçinin incəsənət əsərlərinin, əntiq əşyaların və digər mədəni mülkiyyətin qaçaqmalçılığı ilə konkret mübarizə tədbirlərini nəzərdə tutur). Müvəqqəti İdxal haqqında Konvensiya və s. Bütövlükdə, ÜGT çərçivəsində 20-dən çox konvensiya, 50-dən artıq tövsiyə və ayrı-ayrı gömrük məsələlərinə dair ondan artıq beynəlxalq norma qüvvədədir.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi 1955-ci ildən ÜGT ilə əlaqələr yaradır. AR Dövlət Gömrük Komitəsi 1999-cu il iyun ayının 24-də ÜGT-nin Maliyyə Komitəsində keçirilən seçkilərdə səs çoxluğu ilə həmin quruma, 2000-ci ildə isə Siyasi Komissiyaya üzv seçilmişdir. ÜGT-yə üzv seçilməzdən əvvəl Dövlət Gömrük Komitəsi bu Təşkilat tərəfindən bir sıra tələblərlə üzləşmişdir: gömrük rəsmləşdirilməsinə görə dəqiq məbləğin müəyyən edilməsi, gömrük vergi və rüsumlarının azaldılması.

ÜGT-yə daxilolma bütün dövlətlər üçün olduğu kimi, AR üçün də mühüm əhəmiyyət kəsb edir. Belə ki, ÜGT-yə üzv olmaqla, dövlət müəyyən üstünlüklər əldə edir, həmçinin onun konvensiyalarına qoşulmaqla müəyyən öhdəlikləri öz üzərinə götürür. Məsələn,1988-ci il Malların təsviri və kodlaşdırılmasının «Harmonizasiya edilmiş sistemi haqqında Konvensiya» ya qoşulma AR üçün Harmonizasiya edilmiş sistem nomenklaturasında verilən və onun ayrılmaz hissəsini təşkil edən prinsiplərdən - malların kodlaşdırılması və adlandırılması prinsipindən gömrük, xarici ticarət və statistik məqsədlərlə istifadə etmək öhdəliklərinin qəbul edilməsini bildirir. Malların təsviri və kodlaşdırılmasının «Harmonizasiya edilmiş sistemi haqqında Beynəlxalq Konvensiya»da respublikamızın iştirakı mühüm xarici ticarət üstünlükləri (gömrük, statistik, danışıq) verir, eyni zamanda xarici bazarda Azərbaycan məhsulunun rəqabət qabiliyyətinin təmin edilməsi məqsədilə istehsalat standartlarının Konvensiya normalarına uyğunlaşdırılmasını tələb edir.

Qeyd etmək lazımdır ki, ÜGT beynəlxalq hüququn subyektlərinə aid edilən və beynəlxalq ticari-iqtisadi münasibətlər sferasında öz xüsusi çəkisi olan hökümətlərarası bir təşkilatdır. Təşkilat öz üzvlərini ümumi gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardımla əlaqələndirir. ÜGT orqanlarının fəaliyyətinin hərtərəfli təhlili göstərir ki, onlar sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərməklə dövlətlərin gömrük işi sferasında əməkdaşlığında kifayət qədər mühüm rol oynamışlar.

Müasir dövrdə ÜGT gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın inkişafı, gömrük sistemlərinin harmonizasiyasının və unifikasiyasının daha yüksək səviyyəsinin təmin edilməsi, gömrük qanunvericiliyi və gömrük texnologiyalarının təkmilləşdirilməsi, effektiv gömrük siyasəti vasitələri ilə beynəlxalq cinayətlərlə mübarizənin gücləndirilməsi, gömrük mübahisələri yarandığı hallarda vasitəçilik və barışdırıcı tədbirlərin həyata keçirilməsi, gömrük işi sahəsində beynəlxalq Konvensiyaların işlənib hazırlanması sahəsində mühüm işlər görə bilmiş və hazırda da bu fəaliyyətini davam etdirir. Bundan əlavə ÜGT hökumətlərarası təşkilat kimi gömrük xidmətlərinin fəaliyyətinin səmərəliliyinin artırılmasına çalışır, çünki gömrük işinə investisiyaların qoyuluşu beynəlxalq ticarətə investisiya qoyuluşu deməkdir. ÜGT-nin Gömrük Siyasəti sahəsindəki fəaliyyətində əsas istiqamətlərdən biri də digər beynəlxalq təşkilatlarla əməkdaşlıqdır.

Ümumdünya Ticarət Təşkilatı (ÜTT) əməkdaşlığı xüsusilə qeyd etmək lazımdır.Belə ki, hər iki təşkilatın fəaliyyətində gömrük siyasəti prioritet istiqamətdir.ÜTT-nin sazişləri və ÜGT-nin inkişafı ilə qəbul edilmiş beynəlxalq gömrük münasibətlərinin inkişafına, ticarətin liberallaşdırılmasına, Milli Gömrük qanunvericiliklərinin harmonizasiyasına, gömrük qayda və prosedurlarının harmonizasiyasına, gömrük siyasəti sferasında vahid və sadələşdirilmiş standartların işlənib hazırlanmasına şərait yaradır. Bununla yanaşı, dövlətlərin belə universal təşkilatlar çərçivəsində fəaliyyəti, mübahisələrin həllində bu təşkilatların mexanizmlərindən istifadə və informasiyaya çıxış əldə etməsi həm dövlətlərin gömrük siyasətinin təkmilləşməsi və ticarət əlaqələrinin inkişafına, həm də bütövlükdə beynəlxalq ticarətin inkişafına səbəb olur.

Qeyd etmək lazımdır ki, ÜGT gömrük işi üzrə dövlətlərin beynəlxalq əlaqələri sferasında hüquqyaradıcı və hüquqtətbiqedici fəaliyyətə münasibətdə dövlətlərin və beynəlxalq təşkilatların əməkdaşlığının əsas qərargahına çevrilmişdir. Hazırda ÜGT bu sahədə mövcud çoxtərəfli müqavilələr (böyük hissəsi məhz GƏŞ-in himayəsi altında qəbul olunmuş 20-dək müqavilə), 50-dək tövsiyə və müxtəlif gömrük məsələləri üzrə onlarla texniki norma çərçivəsində gömrük xidmətlərinin fəaliyyətini əlaqələndirir.

Azərbaycan Respublikası 1999-cu il iyun ayının 24-də ÜGT-nin Maliyyə Komitəsinə, 2000-ci ildə isə Siyasi Komissiyaya üzv seçilmişdir. Azərbaycanın qeyd edilən komissiyalarda aktiv fəaliyyəti həm Azərbaycan Respublikası ÜGT əməkdaşlığında, həm də Təşkilatın üzv dövlətləri ilə ticarət əməkdaşlığı və bu sferada gələcək perspektivlərin müəyyən edilməsində mühüm rol oynayır. Bütün bunlar isə son nəticədə respublikanın sabit və etibarlı ticarət sferasına çevrilməsinə və ümumilikdə iqtisadi nüfuzunun artmasına gətirib çıxarır. ÜGT-nin Regional Tədris Mərkəzinin digər Qafqaz ölkələrində deyil, məhz Azərbaycanda yaradılması respublikamızın bu Təşkilatla real əməkdaşlığını sübut edir. Azərbaycanda əlverişli biznes mühiti və sabit iqtisadi inkişafın təmin edilməsi nöqteyi-nəzərindən belə əməkdaşlıqdan maksimum dərəcədə faydalanmaq lazımdır.

Azərbaycan Respublikasının gömrük siyasətinin inkişafını təmin etmək məqsədilə ÜGT ilə gömrük işi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və dəqiqləşdirilməsi, gömrük rəsmiləşdirilməsi və nəzarəti prosedurlarının sadələşdirilməsi, xarici ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi üçün xüsusi, yalnız bu iş üçün təyinatlaşdırılmış mərkəzlərin yaradılması olduqca vacibdir.

Hal-hazırda spesifik və advalor rüsumların alternativ rüsumlarla əvəz olunması, yeni texnologiyaların rasional və iqteqrasiya olunmuş istifadəsinin həvəsləndirilməsi, gömrük və digər inzibati proseslərdə, həmçinin ödəmə sistemi və maliyyə xidmətlərindəki beynəlxalq ticarəti dəstəkləyən əsas xidmət və fəaliyyət sahələrində lazımsız və ya hədsiz ticarət

maneələrinin müəyyənləşdirilməsi və aradan qaldırılmasına böyük diqqət yetirilməlidir.

Hal-hazırda ticarət əməliyyatları sahəsində qabaqcıl təcrübənin müəyyən edilib istifadə olunması, gömrük brokeri institutlarının inkişaf etdirilməsi məsələlərinə diqqət artırılmalıdır. Bundan sonra gömrük orqanları və işgüzar dairələr arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, gömrük orqanı mütəxəssislərinin, əməkdaşlarının, xüsusən də gömrük sərhəddindən keçirilən mallara tarif dərəcələri ilə işləyən və onların dəyişdirilməsini əsaslandıra biləcək mütəxəssislərin ixtisaslarının müntəzəm artırılması olduqca vacibdir.

Respublikamızın beynəlxalq müqavilələrdə iştirakı və bununla bağlı digər məsələlər Konstitusiya və digər qanunvericilik aktlarında müəyyən edilmişdir. Konstitusiyanın 148-ci maddəsinin 2-ci hissəsində qeyd edilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir. Beynəlxalq aktların hüquqi qüvvəsi adlı 151-ci maddəsində isə qeyd edilir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (AR Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir. Bundan başqa, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin Gömrük işi və Beynəlxalq İqtisadi İnteqrasiya adlı 4-cü maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının beynəlxalq iqtisadi inteqrasiyanın inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün digər dövlətlərlə gömrük ittifaqları, sərbəst iqtisadi zonalar yaradır, gömrük məsələləri üzrə beynəlxalq hüquq normalarına uyğun sazişlər bağlayır.

Gömrük işi sahəsində qəbul edilmiş çoxtərəfli müqavilələr beynəlxalq gömrük münasibətlərinin əsas tənzimləyicisidir və müvafiq olaraq, respublikamızın bu müqavilələrdə iştirakı digər dövlətlərlə ticarət və gömrük əlaqələrində və ümumilikdə, iqtisadi münasibətlərinin inkişafında və tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir.

Dövlətimiz üçün mühüm olan bir sıra beynəlxalq müqavilələr: «Malların gömrük qiymətləndirilməsi haqqında Konvensiya»(1953), 1956-cı il tarixli «Yol nəqliyyat vasitələrinin ticarət və kommersiya məqsədilə müvəqqəti idxalı haqqında Gömrük Konvensiyası», 1961-ci ildə Brüsseldə imzalanmış « Əmtəələrin müvəqqəti idxalı haqqında ATA karneti üzrə Konvensiya(ATA Konvensiyası), 1990-cı ildə İstanbulda imzalanmış «Müvəqqəti idxal haqqında Konvensiya», 1970-ci ildə Brüsseldə qəbul edilmiş «Pedoqoci materialların müvəqqəti idxalı haqqında Gömrük Konvensiyası», 1966-cı il tarixli «Yük nişanı haqqında beynəlxalq Konvensiya», 1971-ci il tarixli «Yüklərin beynəlxalq tranziti haqqında Gömrük Konvensiyası», 1975-ci il «BYD kitabçasının tətbiqi ilə beynəlxalq yük daşımaları haqqında Gömrük Konvensiyası», 1984-cü

il 31 may tarixli «Sərhədlərdə yüklərin nəzarətdən keçirilməsi şərtlərinin razılaşdırılması haqqında Konvensiya», 1972-ci il tarixli Cenevrədə imzalanmış «Konteynerlərə aid Gömrük Konvensiyası» 1973-cü il tarixli «Gömrük prosedurlarının sadələşdirilməsi və harmonizasiyası haqqında Beynəlxalq Konvensiya» (Kioto Konvensiyası), 1977-ci il «Gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım haqqında Beynəlxalq Konvensiyası», 1983-cü il iyun ayının 14-də Brüsseldə «Əmtəələrin təsvirinin və kodlaşdırılmasının harmonizasiya olunmuş sistemi haqqında Beynəlxalq Konvensiya» və s. göstərmək olar.

Azərbaycan Respublikasının gömrük işi və bu sahədə meydana çıxan problemlərin həllində əsas mexanizm, beynəlxalq müqavilələr, xüsusilə də universal əsasda beynəlxalq müqavilələr təşkil edir. Gömrük işi sahəsində çoxtərəfli beynəlxalq müqavilələrin bağlanması zamanı müxtəlif problemləri olan ayrı-ayrı dövlətlər bu məsələləri qarşılıqlı asılılıq şəraitində müzakirə edə və müvafiq məsələ üzrə vahid bir mövqeyə gələ bilərlər, gömrük işi sahəsində universal beynəlxalq müqavilələr əsas hüquqi baza qismində çıxış etməklə, meydana çıxan münasibətlərin tənzimlənməsində mühüm rola malikdir. Eyni zamanda onlar regional beynəlxalq müqavilələrin qəbul edilməsi üçün də xüsusi əhəmiyyətə malikdir və buna görə də daha çox universal beynəlxalq müqavilələrin qəbuluna üstünlük verilməlidir.

Avropa İttifaqının (Aİ) yaradılması Avropada inteqrasiya quruculuğunun və Avropa hüququnun inkişafının əsas məzmununu təşkil edir.Aİ-nin yaradılması haqqında Müqavilənin 2-ci və 6-cı maddələrində ittifaqın məqsəd və prinsipləri müəyyən edilir. Müqavilənin 2-ci maddəsinə əsasən, İttifaq öz qarşısına aşağıdakı məqsədləri qoyur: iqtisadi və sosial inkişafa və məşğulluğun yüksək səviyyəsinə yardım göstərmək, sərhədsiz məkanın yaradılması, iqtisadi və valyuta ittifaqının yaradılması vasitəsilə tarazlı və sabit inkişafa nail olmaq; ümumi müdafiə siyasətinin formalaşması da daxil olmaqla, ümumi xarici siyasətin və təhlükəsizlik siyasətinin həyata keçirilməsi ilə İttifaqın beynəlxalq arenada müstəqil rolunun təsdiqlənməsinə kömək etmək; İttifaq vətəndaşlığının tətbiqi ilə üzv-dövlətlərin vətəndaşlarının hüquq və maraqlarının müdafiəsinin gücləndirilməsi; şəxslərin azad hərəkəti, xarici sərhədlərə nəzarətə münasibətdə müvafiq tədbirlərin həyata keçirilməsi, sığınacaq verilməsi, immiqrasiya, cinayətkarlığın qarşısının alınması və cinayətkarlıqla mübarizə üzrə tədbirlərin həyata keçirilməsi ilə birgə təmin edilən İttifaqı azadlıq, təhlükəsizlik və qayda-qanun məkanı kimi qorumaq və inkişaf etdirmək.

Avropada inteqrasiya prosesinin inkişafı, xüsusilə də iqtisadi inteqrasiya təşkilatlarının yaradılması və fəaliyyəti hazırda beynəlxalq münasibətlərin bütün sistemində mühüm dəyişikliklərə səbəb olmuşdur.

Bu dəyişikliklərin əsasını iqtisadi və siyasi inteqrasiyanı özündə birləşdirən qloballaşma təşkil edir. Avropa regionunda da iqtisadi və siyasi inteqrasiya prosesinin formalaşması və inkişafında mühüm addımlar atılmışdır. Belə ki, vahid ittifaqın,konstitusiyanın, valyutanın, vətəndaşlığın, ümumi ticarət siyasətinin, vahid vizanın, ümumi bazarın və vahid gömrük tarifinin mövcudluğu bunu sübut edir.Avropa hüququnun mənbələrində öz əksini tapan hüquq normalarının təşlili Aİ-nin Gömrük Siyasətinin predmetinin növbəti ictimai münasibətləri əhatə etdiyini müəyyən etməyə imkan verir. Beləki, Avropa İttifaqı və üzv-dövlətlər arasında, Gömrük rüsumlarını, idxal vergilərini, eyni səmərəli digər vergiləri, həmçinin idxal və ixracın kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması və qadağan olunmasına yönəlmiş münasibətlər; vahid gömrük ərazisinin yaradılması və üçüncü ölkələrlə ticarətdə tətbiq olunan vahid gömrük tarifinin qəbuluna yönəlmiş münasibətlər; vahid gömrük prosedurlarının müəyyən olunmasına yönəlmiş münasibətlər və s. daxildir.

Bundan başqa Avropa İttifaqı gömrük siyasətinin əsas xüsusiyyətlərindən biri onun gömrük ittifaqının fəaliyyətinin daxili və xarici aspektlərini reqlamentləşdirən hüquq normalarının məcmusu kimi çıxış etməsidir. Avropa İttifaqının gömrük ittifaqının yaradılması və fəaliyyəti ilə bağlı təsis aktlarının müddəalarının həyata keçirilməsi məqsədilə qəbul olunan aktları üzv-dövlətlərdə məcburi qüvvəyə malikdir, birbaşa tətbiq olunur və Avropa İttifaqı Məhkəməsinin, Milli məhkəmələrin ədalətli fəaliyyətinin yurisdiksion müdafiəsinə malikdir.

Qeyd etmək lazımdır ki, respublikamızla Avropa İttifaqı arasında 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (22 aprel 1996-cı ildə Lüksemburqda imzalanmış, 22 iyun 1999-cu ildə qüvvəyə minmişdir) Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əlaqələrin hüquqi və praktiki əsasını təşkil edir və respublikamızın Avropa İttifaqı ilə münasibətlərində yeni imkanlar açır. Müqavilənin əsas məqsədləri müvafiq siyasi dialoq çərçivəsində tərəflər arasında siyasi münasibətlərin inkişafının təmin edilməsi, Azərbaycanda demokratiyanın möhkəmlənməsi, iqtisadi inkişaf və bazar iqtisadiyyatına keçid cəhdlərinin dəstəklənməsi, ticarət və investisiyanın inkişafı, iqtisadi, sosial, maliyyə, elmi, texniki və mədəni əməkdaşlıqdır.

Azərbaycanın Avropa İttifaqına inteqrasiya prosesi uzun və olduqca mürəkkəb bir strateci məqsəddir və onun reallaşması üçün, ardıcıl olaraq kompleks siyasi, iqtisadi, sosial, hüquqi vəzifələrin yerinə yetirilməsi tələb olunur. Namizəd-ölkələrin təcrübəsi göstərir ki, bu vəzifələrin təmin edilməsində Avropa İttifaqı texniki köməyi və məsləhətləri ciddi əhəmiyyət kəsb edir ki, Azərbaycan da bu imkanlardan maksimum faydalanmalıdır. Lakin unutmaq lazım deyil ki, Avropa İttifaqı bu kömək və yardımları edərkən, hər şeydən öncə, ölkənin hazırlıq vəziyyətini nəzərə alır.Odur Ki, Azərbaycan, ilk növbədə, öz qanunvericilik sistemini

və qanunvericilik aktlarının müvafiq olaraq Avropa İttifaqı ölkələrinin qanunvericiliyi qarhısında qoyduğu tələblərə (acquis communautaire) uyğun olaraq dəyişdirilməsini təmin etməlidir. Azərbaycan Respublikası qanunvericiliyinin Avropa İttifaqı normalarına və hüququna uyğunlaşdırılması sahəsində bir sıra əhəmiyyətli addımlar atılmışdır. Müvafiq sahədə əsas sənəd Azərbaycan Respublikası qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması üzrə Proqramdır. Proqramm 2009-2011-ci illəri əhatə edir. Proqramda qeyd edilir ki, Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin 45-ci maddəsinə əsasən, tərəflər Azərbaycan Respublikasının beynəlxalq ticarətinin ÜTT tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etmək məqsədilə, əməkdaşlıq etməyi və Azərbaycan Respublikası isə öz növbəsində, bu istiqamətdə ÜTT və Avropa İttifaqı tələblərinə uyğun Qanunvericilik hazırlamağı öhdəsinə götürmüşdür.

Avropa iqtisadi məkanına daxil olan dövlətlərlə bir çox prioritet sahələrdə üst-üstə düşən Qanunvericilik Azərbaycan Respublikasının Avropa İttifaqı ölkələri ilə daha yaxın iqtisadi tərəfdaş olmağa və aşağıdakı sahələr üzrə xüsusi məqsədlərə nail olmağa imkan verəcək: texniki qaydalar və standartlar, insanların sağlamlığının qorunması, heyvanların və bitkilərin mühafizəsi, istehlakçıların hüquqlarının müdafiəsi sahəsində; telekommunikasiya və informasiya texnologiyaları sahəsində; gömrük sahəsində; işçilərin iş yerlərində mühafizəsi sahəsində; hüquqi şəxslər və vergilər sahələrində; nəqliyyat sahəsində; ətraf mühitin mühafizəsi və nüvə təhlükəsizliyi sahəsində.

Qeyd etmək lazımdır ki, respublikamızın Gömrük Qanunvericiliyinin təkmilləşdirilməsi və gömrük prosedurlarının sadələşdirilməsi, sanitariya və fitosanitariya sahəsində nailiyyətlərin davamlı olaraq qanunvericiliyin uyğunlaşdırılması prosesinin davam etdirilməsi və bununla da yeni məhsullarının ticarəti və ümumi ərzaq təhlükəsizliyi sahəsində tam uyğunluğun təmin edilməsi, istehlakçıların hüquqlarının qorunması sahəsində tədbirlərin görülməsi, xarici investisiyaların Azərbaycana axınının artırılması və yeni sahələrə investisiyaların təşviq olunmasının təmin edilməsi məqsədilə investisiya qanunvericiliyinin və hüquqi şəxslərin yaradılması və fəaliyyəti ilə bağlı normativ bazanın təkmilləşdirilməsi olduqca vacibdir. Bundan əlavə, maliyyə xidmətinin səmərəliliyinin, kapitalın və işçi qüvvəsinin sərbəst hərəkətinin təmin edilməsi məqsədilə tədbirlərin görülməsi, ədalətli rəqabət prinsiplərinin tam bərqərar olması və onun möhkəmləndirilməsi, vergi siyasətinin daha da liberallaşdırılması, dövlət satınalma prosedurlarının təkmilləşdirilməsi və maliyyə nəzarəti metodlarınnın möhkəmləndirilməsi, nəqliyyat, sahibkalığın təşviqi, ətraf mühitdən səmərəli istifadə, enerci, telekommunikasiya və informasiya texnologiyaları, ictimai səhiyyə sektorlarında həyata keçirilən vahid dövlət inkişaf siyasətinin davam etdirilməsi olduqca vacibdir.

Hazırda Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyi (MDB) ilə beynəlxalq gömrük əməkdaşlığı mühüm rol oynayır. Belə ki, MDB dövlətləri arasında gömrük işi sferasında əməkdaşlığın müəyyən hüquqi əsası yaradılmışdır. 13 mart 1992-ci il tarixdə MDB üzv-dövlətləri Moskvada «Gömrük siyasətinin prinsipləri haqqında Saziş» imzaladılar. Saziş iştirakçıları ümumi gömrük tarifinin hazırlanmasını və öz aralarında gömrük maneələrinin aradan qaldırılmasını qərara aldılar. Bu sənəd vahid iqtisadi məkanın saxlanmasına, onun hüquqlarında malların sərbəst hərəkətinin təmin olunmasına, üçüncü dövlətlərə münasibətdə ümumi siyasətin işlənib hazırlanmasına, Gömrük Qanunvericiliyinin və Gömrük prosedurlarının unifikasiyasına, o cümlədən Gömrük İttifaqının yaradılmasına istiqamətlənmişdir. Saziş əsasında MDB üzv-dövlətlərinin Gömrük Şurası yaradıldı.

1992-1994-cü illərdə MDB üzv-dövlətləri arasında Gömrük məsələləri üzrə bir neçə Müqavilə imzalandı. 1992-ci il fevralın 8-də «Birlik dövlətlərinin ərazisindən yüklərin tranzit daşınması qaydaları barədə Saziş» imzalandı. Sazişə əsasən, bir MDB dövlətinin ərazisindən tranzit keçən digər MDB dövlətinə məxsus yüklər tranzit dövlətində gömrük rəsmiləşdirilməsinə görə gömrük rüsum, vergi və yığımlarından, tranzit keçid üçün icazədən azad olunur.

1994-cü ilin iyul ayında «Birlik Dövlətləri arasında gömrük sərhədlərində gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi və unifikasiyası barədə saziş» imzalanmışdır. 1995-ci il fevralın 21-də isə Rusiya Federasiyası ilə Belarus Respublikası arasında «Gömrük xidmətlərinin vahid idarəçiliyi haqqında saziş» imzalandı. Bir qədər əvvəl, 1995-ci il yanvarın 6-da isə Minskdə Rusiya ilə Belarus Respublikası arasında «Gömrük İttifaqının yaradılması barədə Saziş» imzalanmışdır. Minsk Sazişində İttifaqın yaradılmasının məqsəd və prinsipləri xüsusi olaraq göstərilirdi.

MDB üzv-dövlətlərinin Gömrük Xidmətlərinin Şurası MDB Hökumət Başçıları Şurasının 24 sentyabr 1993-cü il Qərarı əsasında təsis olunmuşdur. MDB Hökümət Başçıları Şurasının 23 dekabr 1993-cü il Qərarı ilə MDB iştirakçı-dövlətlərin GXRŞ-nin Əsasnaməsi təsdiq olunmuşdur. MDB Gömrük Xidmətlərinin Rəhbərləri Şurası çərçivəsində bir sıra mühüm məsələlər üzrə daimi fəaliyyət göstərən ekspertlər qrupu yaradılmışdır.

Qeyd etmək lazımdır ki, Müstəqil Dövlətlər Birliyi regional birlikdir, suveren dövlətlərin könüllü birləşməsinin yeni hüquqi və siyasi formasıdır, keçmiş SSRİ Respublikalarının dövlətlərarası birliyidir və birliyin çərçivəsində hər bir dövlət öz dövlət suverenliyini və beynəlxalq hüquq subyektliyini tam həcmdə saxlayır. Nizamnamədə deyildiyi kimi, Birlik dövlət deyildir və millətüstü səlahiyyətlərə malik deyildir. MDB çərçivəsində dövlətlərin əməkdaşlığı mühüm yer tutur. Bu zaman çoxtərəfli və ikitərəfli əməkdaşlıq münasibətləri nəzərdə tutulur. Ümumiyyətlə isə əməkdaşlıq Prinsipi MDB-nin yaranması zamanı da əsas

götürülmüşdür. MDB üzv-dövlətləri iqtisadi sahədə, kollektiv təhlükəsizliyin təmin edilməsi sahəsində, hüquqi sahədə və s. Sahələrdə əməkdaşlıq edirlər ki, bu da MDB-nin fəaliyyətini daha da təkmilləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir və buna görə də Birlik çərçivəsində dövlətlərin əməkdaşlığı daha da inkişaf etdirilməlidir.

Belə bir məsələni qeyd etmək lazımdır ki, iqtisadi inteqrasiyanın dərinləşməsi üçün dövlətlərarası maliyyə-sənaye qruplarının yaradılması olduqca vacibdir. Vahid elmi-texnoloci məkan yaradılmasına, təsərrüfat subyektləri arasında birbaşa əlaqələrə və mikrosəviyyədə inteqrasiyaya da əhəmiyyət verilir. Digər regional qurumlara münasibətdə MDB çərçivəsində gömrük sahəsində həyata keçirilən əməkdaşlıq zəif olsa da, özünəməxsus spesifik xüsusiyyətləri ilə seçilir. Bu, daha çox regionun xarakterik cəhətlərinin nəzərə alınması ilə şərtlənir. Şübhəsiz ki, keçmiş SSRİ-nin tərkib hissələrini təşkil edən Respublikalar arasında çoxistiqamətli siyasi, iqtisadi, mədəni, humanitar əlaqələrin mövcudluğu da müvafiq əməkdaşlığın əsas meyarlarından biri kimi çıxış edir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın MDB məkanında gömrük işi sahəsində əməkdaşlığı 2 istiqamətdə həyata keçirilir. Birincisi, çoxtərəfli səviyyədə, yəni MDB çərçivəsində müvafiq sferada beynəlxalq müqavilələrdə iştirak, müxtəlif konfrans və toplantılarda iştirak nəzərdə tutulur. Belə əməkdaşlığın əhəmiyyəti, regional səviyyədə ticari-iqtisadi, xüsusilə də gömrük inteqrasiyasının intensivləşməsində, müxtəlif layihə və sazişlərin realizəsində effektiv vasitə kimi çıxış etməsində özünü büruzə verir. Belə ki, Azərbaycanın xarici ticarət dövriyyəsində MDB ölkələrinin, xüsusilə də Rusiya, Ukrayna, Gürcüstan, Özbəkistanın payı daha çoxdur. Bununla yanaşı, respublikamız bu dövlətlərin çoxu ilə həmsərhəddir. Fikrimizcə, bu meyarları nəzərə alaraq, respublikamız dövlətlərlə gömrük əməkdaşlığına xüsusi önəm verilməlidir.

Beynəlxalq hökümətlərarası təşkilata çevrilmə mərhələsində olan regional dövlətlərarası birlik olan GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) beynəlxalq-hüquqi nöqteyi-nəzərdən xüsusi əhəmiyyət kəsb edir. GUAM-ın formalaşmasının əsası 10 oktyabr 1997-ci ildə Avropa Şurasının Strasburq şəhərində keçirilən Sammitində qoyulmuşdur. 1999-cu il aprelin 24-də NATO-ya üzv və tərəfdaş dövlətlərin iştirakı ilə Vaşinqtonda keçirilən yubiley Sammitində Özbəkistan da Birliyə qoşulmuş və genişləndirilmiş dövlətlər birliyi GUÖAM adlandırılmışdır. Həmin Sammitdə üzv-dövlətlərin birgə qəbul etdikləri bəyanat Birliyin fəaliyyətinin əsas prioritetlərini bir qədər də dəqiqləşdirilmişdir: beynəlxalq forumlar və təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsi, Avroatlantika Tərəfdaşlığı Şurası vasitəsilə qarşılıqlı əlaqələrin genişləndirilməsi; NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramının gerçəkləşdirilməsində iştirak; münaqişələrin və böhran hallarının dinc yolla aradan qaldırılması sahəsində qarşılıqlı fəaliyyət; sülhyaratma

potensialının möhkəmləndirilməsində praktiki əməkdaşlığın dərinləşdirilməsi; etnik dözümsüzlüyə, dini ekstremizmə, terrorizmə, nüvə silahlarının yayılmasına qarşı birgə mübarizə; Avropa-Qafqaz-Asiya dəhlizinin inkişaf etdirilməsində əməkdaşlıq; qarşılıqlı maraq doğuran bütün məsələlərə dair müntəzəm məsləhətləşmələrin aparılması öz əksini tapmışdır.

GUAM çərçivəsində ticarət-iqtisadi və gömrük əməkdaşlığının əlaqələndirilməsi Azərbaycanda daimi neft satışı bazarı və karbohidrogenlərin ixracı üçün əlverişli marşrut, Ukrayna,Gürcüstan və Moldovaya isə alternativ enerci resursları mənbələrinə çıxış əldə etməyə və onların nəqlində mühüm həlqə rolunu oynamağa imkan verir. Buna görə də belə əməkdaşlıq iqtisadi problemləri həll etməyə, bir çox zidiyyətlərin mövcud olduğu məkanda mənafelər balansını təmin etməyə qadirdir.

Azərbaycanın ən yaxın qonşusu Gürcüstan, həmçinin Moldova ilə bağladığı ikitərəfli sazişlər GUAM-ın yaradılması üçün zəmin rolunu oynamışdır.GUAM-ın üzvü olan ölkələr son illərdə imzalanmış ikitərəfli və çoxtərəfli müqavilələrə əsaslanaraq, ticarət-iqtisadi münasibətlərin, habelə əvvəllər mövcud olmuş əməkdaşlığın inkişaf etdirilməsi və dərinləşdirilməsi zərurətini nəzərə alaraq, belə nəticəyə gəlmişlər ki, gömrük, nəqliyyat, rabitə, energetika, kənd təsərrüfatı kimi sahələrdə əməkdaşlığa hər vasitə ilə kömək göstərmək, iqtisadiyyat, humanitar əməkdaşlıq, turizm və mədəniyyət sahəsində qarşılıqlı fəaliyyət göstərmək zəruridir.

Gömrük işi və bütövlükdə, gömrük siyasəti sferasında əməkdaşlıq da Təşkilatın əsas fəaliyyət istiqamətlərindən biridir. 2003-cü il fevralın 11-də Kiyevdə GUAM üzvlərinin gömrük idarələri rəhbərlərinin görüşü keçirildi. Görüşdə terrorizm, mütəşəkkil cinayətkarlıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədilə yanaşı, ticarət və nəqliyyata yardım, sərhəd və gömrük nəzarətinin təmin edilməsi üzrə GUAM-ABŞ Çərçivə Proqramının reallaşdırılması və bununla əlaqədar GUAM-ın üzv-dövlətləri arasında Qarşılıqlı Anlaşma Memorandumu qəbul olunmuşdur.

GUAM-ın 2003-cü il iyulun 3-4-də Yaltada keçirilmiş Sammitində GUAM üzv-dövlətləri arasında Azad ticarət zonasının yaradılması Layihəsinin reallaşdırılmasında inkişaf qeyd olunmuş, həmçinin Xəzərin enerci ehtiyatlarının nəqli üçün çoxvariantlı marşrutlar konsepsiyası çərçivəsində Avrasiya neft ixracı dəhlizi Layihəsinin reallaşdırılmasının perspektivlərinə yüksək qiymət verilmişdir. Sammitin gedişində özünün ikinci iclasını keçirmiş Təşkilatın İşgüzar Şurasının fəaliyyəti müsbət qiymətləndirilmişdir. Gömrük işi ilə bağlı məsələlər GUAM üzv-dövlətləri arasında gömrük işində qarşılıqlı yardım və əməkdaşlıq haqqında 4 iyul 2003-cü il Yalta Sazişi bir sıra vacib münasibətlərin nizama salınmasında əsas qismində çıxış edir. Bundan başqa, 22 may 2006-cı il tarixdə GUAM üzv-dövlətləri mallarının mənşə ölkəsinin müəyyən edilməsinin müvəqqəti qay-

daları haqqında Protokol imzalanmışdır ki, bu da Azad Ticarət Zonasının yaradılması haqqında sazişin realizəsində mühüm əhəmiyyət kəsb edir.

Gömrük siyasətinin əlaqələndirilməsi sahəsində həyata keçirilən fəaliyyət də GUAM-ın istiqamətində mühüm rolunu əsaslandırır.Bu mənada AR-in GUAM-la əlaqələrinin genişləndirilməsi tendensiyası, bir tərəfdən, onun daha səmərəli gömrük siyasəti qurmasına, digər tərəfdən, mühüm beynəlxalq təşkilatların üzvü kimi balanslaşdırılmış siyasət yeritməsinə gətirib çıxaracaqdır.

Azərbaycan Respublikasının üzvü olduğu regional inteqrasiya birliklərindən biri Qara Dəniz İqtisadi Əməkdaşlıq (QDİƏT) təşkilatıdır. Qara dəniz sahili, Qafqaz və Cənubi Balkanın 12 dövlətini birləşdirən QDİƏT hökümətlərarası təşkilat olmaqla, 25 iyun 1992-ci il tarixli Qara Dəniz İqtisadi Əməkdaşlıq Müqaviləsi əsasında 1 may 1999-cu ildə yaradılmışdır. Mənzil qərərgahı İstanbul şəhərində yerləşir. Subregional təşkilat olan QDİƏT-in tərkibinə hazırda 12 dövlət (Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan,Gürcüstan, Moldova, Rusiya, Rumıniya, Yunanıstan, Ukrayna, Serbiya, Türkiyə) daxildir. Almaniya, ABŞ, Fransa, İtaliya, Avstriya, Çexiya, istail, Polşa, Xorvatiya, Misir, Slovakiya, Belarus və Tunis kimi dövlətlər isə Təşkilatda müşahidəçi statusuna malikdir. 1999-cu ildə Təşkilatın Nizamnaməsi qüvvəyə mindikdən sonra QDİƏT tamformatlı beynəlxalq təşkilata çevrilmişdir.BMT Baş Məclisinin 8 oktyabr 1999-cu ildə keçirilmiş 54-cü Sessiyasında Təşkilata BMT-də müşahidəçi statusu verilmişdir.

QDİƏT-in gələcək inkişafı və perspektivlərinə gəldikdə isə, qeyd etmək olar ki, bu təşkilat yaxın gələcəkdə dünyanın ən iri regional iqtisadi inteqrasiya təşkilatlarından birinə çevriləcək. Bunu növbəti amillər sübut edir: Təşkilatda Almaniya, ABŞ, Fransa, İtaliya kimi dövlətlərin müşahidəçiliyi, bütövlükdə, regionun zəngin təbii ehtiyatlara malik olması və strateci ərazidə yerləşməsi, geniş işçi qüvvəsi, Avropa İttifaqı, Baltik Regionu İnteqrasiya Birlikləri və s. təşkilatlarla genişlənən əməkdaşlıq. QDİƏT-in digər beynəlxalq təşkilatlardan fərqli özünəməxsus xüsusiyyətləri vardır.İlk növbədə, onu qeyd etmək olar ki, QDİƏT-in əksər üzvləri möhkəm və inkişaf etmiş təşkilati quruluşa malik olan beynəlxalq təşkilatların (Avropa İttifaqı, NATO, MDB) üzvləridir. Bu fakt onu qeyd etməyə imkan verir ki, QDİƏT-in fəaliyyətində siyasi və təhlükəsizlik məsələləri deyil, iqtisadi sfera daha qabarıqdır.

Azərbaycan Respublikasının QDİƏT-lə əməkdaşlığına gəldikdə isə, qeyd etmək lazımdır ki, Azərbaycan 1992-ci ildən bu Təşkilatın üzvüdür. Regional iqtisadi layihələrin və ticarət münasibətlərinin genişləndirilməsi baxımından Azərbaycanın bu Təşkilatda iştirakı məqsədəmüvafiqdir. Belə ki, bu Təşkilatın üzvü olan dövlətlərin əksəriyyəti ilə respublikamızın geniş ticarət əlaqələri vardır.Respublikamızın QDİƏT-də iştirakının əsas məqsədləri Təşkilatın əhatə etdiyi Qara dəniz regionunda xüsusi rola

malik olduğunu sübut etmək və bu rolu möhkəmləndirmək, regiona proqressiv qurucu münasibət bəslədiyini göstərmək, Avropa inteqrasiya siyasətini bütün ölçülərdə həyata keçirmək, Qara Dəniz bölgəsindən nəql olunan Qərbyönümlü Neft Strategiyasının davamlılığını təmin etmək, Azərbaycanın tranzit potensialını gücləndirmək, regionun aparıcı dövlətləri ilə (Türkiyə, Yunanıstan, Ukrayna, Rumıniya, Rusiya və s.) çoxtərəfli tərəfdaşlıq mexanizmi qurmaq və bununla da strateci maraqlarımızı qoruyub inkişaf etdirməkdir. Bu gün QDİƏT bir məqsədə deyil, bir sıra məqsədlərə xidmət edir. O, bütün ölkələrin iqtisadi və sosial tərəqqisini sürətləndirmək və deməli, demokratik təsisatlarını gücləndirmək üçün zəruri yardımçı vasitədir. QDİƏT həm də XX əsrin Birləşmiş Avropası ilə inteqrasiyaya hazırlıq üçün zəmindir. Bu əməkdaşlıq bütün səviyyələrdə dövlətlərarası, regionlararası və insanlar arasında qarşılıqlı əməkdaşlıq vasitəsilə, ümumi gələcəyi birlikdə, addımbaaddım qurmağa tarix imkan verir ki, bu da Qara dəniz bölgəsini XXI əsrdə investisiyalar üçün cəlbedici, çiçəklənən və sabit bölgələrdən birinə çevirir.

# V FƏSİL
# AZƏRBAYCAN DÖVLƏTİNİN NEFT STRATEGİYASI

***«Neft sənayesi ölkəmizdə xalq Təsərrüfatının aparıcı frastrukturudur»***

**Heydər Əliyev**

***«Azərbaycanın neft sərvəti səmərəli, məqsədyönlü və şəffaf şəkildə idarə edilir»***
**İlham Əliyev**

## 5.1. Azərbaycan iqtisadiyyatının formalaşmasında neft potensialının rolu

Bakı XIX əsrin son iyirmi beş ili ərzində özünün saysız-hesabsız mədənlərinin neməti və bir çox neftayırma zavodlarının istehsal etdiyi məhsullarla neft dünyasında hökmranlıq etməyə başlamışdır.Neft istehsalı sahəsində Bakının misli-bərabəri yoxdur. Dünyada elə bir neft şəhəri tapılmaz, həm zəngin neft ehtiyatları, həm də özünün qədim, tarixi adət-ənənələrilə Bakı ilə müqayisə edilə bilsin. Bakı dünyada bütün neft şəhərlərinin ən qədimi və ən böyüyüdür. Tarixi mənbələr bu diyarda neftin daha erkən,eradan əvvəl VII-VI əsrlərdə çıxarıldığını xəbər verir. Bundan başqa, Abşeron nefti haqqında bir sıra Ərəb və İran tarixçilərinin əsərlərində qeydlər vardır.VIII əsrdə yaşamış məşhur səyyah Əbu-İsaq İstəxri bakılıların ocaqlarda odun əvəzinə, neftli torpağın yandırıldığını göstərir. IX əsrin ikinci yarısında ərəb tarixçisi Əhməd Balazuri yazırdı ki, 754-cü ildə Azərbaycan hökmdarı Şirvanda çıxarılan neft və duzun üzərinə vergi qoyulmuşdur. X əsrdə yaşamış ərəb səyyahı və tarixçisi Məsudi Əbdül Həsən ibn Hüseyn Bakı rayonunun neft mədənləri haqqında bir sıra qeydlər etmişdir. Onun yazdığına görə, Bakıda iki əsas neft mənbəyi olmuşdur. Məşhur venesiyalı səyyah Marko Polonun yazdığına görə XIII əsrdə Abşeron yarımadasında bir çox neft quyuları olmuş, neftdən işıqverici material kimi istifadə edilmişdir.O zamanlar Bakıda hasil edilmiş neft dəvələrə yüklənərək Bağdad barbarlarına aparılıb satılırmış. Bakı nefti haqqında birinci dəfə ətraflı məlumatı 1683-cü ildə İranda İsveç müvəkkilinin katibi J.Kemifer vermişdir. O yazırdı ki, əbədi odlar yaxınlığında ağ neft verən bir neçə quyu vardır. Bu quyularda neft yeraltı mənbələrdən damcı-damcı süzülərək toplanılıb çıxarılırdı. Planetmizdə ilk neft quyusu Azərbaycanda məhz Abşeron yarımadasında, 1847-ci ildə qazılmışdır.

Ölkəmizdə neftin qədimdən çıxarılmasına baxmayaraq, onun hasilatı haqqında məlumatlar XIX əsrin əvvəllərindən start götürür.

Qeyd etmək lazımdır ki, Xəzər regionu (Azərbaycan, Türkmənistan, Qazaxıstan, Rusiya və İran) 10 milyard barel təsdiqlənmiş neft ehtiyatına sahibdir. Təxmini neft ehtiyatlarının həcmi 233 milyard bareldir. Xəzər regionunun təsdiqlənən təbii qaz ehtiyatları isə təxmini olaraq 170 Tcf (trilyon cobic feet)-dir. Özbəkistan da daxil olmaqla regionun təxmini təbii qaz ehtiyatları 293$m^3$ -dir.

Onu da qeyd etmək lazımdır ki, Xəzər regionunun hidrokarbon ehtiyatları ilə, bunun nəticəsi olaraq Azərbaycanın neft və təbii qaz potensialı ilə əlaqədar olaraq da çox fərqli qiymətləndirmələr edilir.

Azərbaycan Enerji Nazirliyinin məlumatına əsasən, Azərbaycanın imzaladığı müqavilələri əhatə edən regionlarında 6-8 milyard barel (1 milyard ton) neft ehtiyatı vardır. Sadəcə «Azəri-Çıraq-Günəşli» yataqlarının neft ehtiyatı 730 milyon tondur. Yuxarıda verilən məlumat əsasında Azərbaycanın dünya neft ehtiyatlarının 0.7%-nə sahib olduğunu deyə bilərik.

Azərbaycanın fəaliyyətdə olan yataqlarında 200 milyard $m^3$ təbii qaz ehtiyatı vardır. Dünyanın mühüm kondensat yatağı olan «Şahdəniz» yatağının kəşfi ilə birlikdə, aparılan 2 fərqli hesablamaya görə, yatağın təbii qaz ehtiyatının 1 trilyon $m^3$ olduğu təsbit edilmişdir. Azərbaycanın təsdiqlənən ümumi təbii qaz ehtiyatları isə 1,37 $m^3$dir. Təsdiqlənən təbii qaz ehtiyatlarına görə Azərbaycan dünyanın 0,8%-nə bərabər olan təbii qaz ehtiyatına sahibdir. Aparılan hesablamalara görə, risk amili də diqqətə alınaraq, Azərbaycanda geoloji qaz ehtiyatlarının ümumi həcmi 8-10,7 trilyon $m^3$-dir. Bu ehtiyatlarla Azərbaycan gələcək 10-15 il ərzində neftlə bərabər, qaz da ixrac edən ölkələr sırasına girəcək.

"Azəri-Çıraq-Günəşli (AÇG)" və "Şahdəniz" yataqlarının tam olaraq istifadəsindən sonra Azərbaycan gələcək 5 ildə neft və təbii qaz hasilatında güclü inkişafa nail olacaq. "AÇG" üzrə 3-cü mərhələnin başlaması ilə 2008-ci ildə bu yataqdan günlük hasilat həcmi 140 min bareldən 1 milyon barelə yüksələcəkdir. Bu hasilatla Azərbaycan təbii qaz ixrac edən ölkələrdən biri olacaq və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru xətti vasitəsilə Türkiyə bazarı "mavi enerji" - təbii qaz ilə təmin ediləcək.

Aparılan bəzi hesablamalara görə, Azərbaycanın neft ehtiyatları, 60-67 il ərzində tükənəcək. Rus mütəxəsislərinə görə isə, bu vaxt 25-35 ildir.

Dərin mənəvi, mədəni, elmi iqtisadi potensiala, əlverişli coğrafi-siyasi mövqeyə malik Azərbaycan, həm də özünün zəngin təbii sərvətləri ilə məşhurdur. Bu sərvətlər içərisində neft əsas yer tutur. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müdriklik və uzaqgörənliklə,

dərin inam və qətiyyətlə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasət nəticəsində bu gün neft onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilmişdir.

Azərbaycan neft sənayesi özünün 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı, yalnız XX əsrin sonralarında, müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən isə Heydər Əliyev dühasıdır.

Bütün dünyada qədim neft diyarı kimi tanınmış Azərbaycanda neftin sənaye üsulu ilə hasilatı hələ XIX əsrin ortalarından başlanmışdır. 1848-ci ildə Bakıda, «Bibiheybət» yatağında qazılmış quyudan vurmuş neft fontanı ilə Azərbaycanda "qara qızılın" sənaye üsulu ilə çıxarılmasının əsası qoyulmuşdur. Artıq 1899-cu ildə Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxmış, dünya neft hasilatının yarısını vermişdir.

XIX əsrin 70-ci illərindən etibarən Azərbaycan neft sənayesinə xarici kapitalın güclü axını başlanmışdır. Neft sənayesinin inkişafı yerli sahibkarların böyük bir nəslini yetişdirmişdir. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev və başqaları öz bacarığı, istedadı və əməksevərliyi sayəsində iri neft sənayeçilərinə çevrilmiş, xalqın, millətin rifahı üçün böyük işlər görmüşlər.

İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında çıxarılan neftin 75 faizini verən Azərbaycan, cəbhəni yanacaqla təmin edərək alman faşizmi üzərində qələbədə böyük rol oynamışdır. 1949-cu ildə açıq dənizdə, Bakı şəhərindən 100 kilometr məsafədə o zaman üçün nadir yataq sayılan «Neft daşları»nda vuran fontan, dənizdə neftçıxarmanın yeni mərhələsinin başlanğıcını qoymuşdur. Azərbaycan dünyada ilk dəfə olaraq açıq dənizdə neft çıxarmağa başlamışdır.

XX əsrin 70-80-ci illəri Azərbaycan neft sənayesinin böyük nailiyyətləri ilə yadda qalaraq onun inkişafı, maddi-texniki bazasının möhkəmlənməsi illəri olmuşdur. Həmin illərdə respublikamızın neft sənayesinin bütün uğurları Azərbaycana rəhbərlik etmiş Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Bu illər Azərbaycan neftçiləri tərəfindən dənizin daha dərin sahələrinin mənimsənilməsi ilə səciyyələnmişdir. Məhz bu dövrdə görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmlənmiş və onun geniş infrastrukturu yaranmışdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmiş, Bakı Dərin Dəniz Özülləri Zavodu kimi nəhəng strateji istehsalat qurğusu tikilmişdir.

Bununla yanaşı, neft emalı, neft-kimya sənayesinin və neft maşınqayırmasının inkişafında böyük sıçrayış olmuşdur. 70-ci illərin əvvəllərindən etibarən Xəzərdə planlı surətdə geoloji-kəşfiyyat işlərinin təşkili və həyata keçirilməsi də Ümummilli Liderimiz Heydər Əliyevin misilsiz tarixi xidmətlərindəndir. Bu gün qətiyyətlə demək olar ki, Ümummilli Liderimiz Heydər Əliyevin bu illərdə respublikanın həyatının bütün sahələrində olduğu kimi, neft sənayesində də gördüyü işlər onun uzaqgörən planlarının - Azərbaycanı "Əsrin Müqaviləsi"nə, deməli, xalqımızın müstəqilliyinə və rifahına doğru aparmaq niyyətlərinin əsasını təşkil edirdi.

Müstəqillik tariximizin ilk illərində neft və qaz hasilatının artımına ölkənin qarşıdakı iqtisadi və sosial çətinliklərinin aradan qaldırılmasının əsas vasitələrindən biri kimi baxılırdı. Belə bir şəraitdə maliyyə vəsaitinin məhdudluğu xarici şirkətlərin və investorların cəlb olunmasını strateji zərurətə çevirmişdi. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, ölkəni bürümüş daxili ziddiyyətlər, səbatsızlıq, özbaşınalıq Qərbin neft şirkətlərini Azərbaycandan çəkindirdi. Eyni zamanda aparılan danışıqlarda isə Azərbaycanın iqtisadi maraqları tam təmin olunmurdu.

Azərbaycan neftinə maraq göstərən xarici neft şirkətləri ilə hələ 80-ci illərin axırlarından aparılan danışıqlar, artıq 1993-cü ilin yazında başa çatmaq üzrə idi. Həmin dövrdə Azərbaycan elə bir müqavilənin imzalanmasına yaxınlaşmışdı ki, o, nəinki xalqın mənafelərini nəzərə almır, həmçinin ölkənin qiymətli təbii sərvətini talan edərək iqtisadiyyata böyük ziyan vururdu.

1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Qərbin neft şirkətləri ilə bağlanmış Neft Sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Sonradan haqlı olaraq "Əsrin Müqaviləsi" adlandırılan bu Saziş həqiqətən müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu.

Ötən dövrdə Heydər Əliyevin bilavasitə iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük paytaxtları - Vaşinqton, Moskva, London, Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 21 Neft Sazişi imzalanmışdır. Bu gün həmin sazişlərin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir.

Bu sazişlərdə Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur. Bu məbləğdən 4,5 milyardı artıq ölkəmizə investisiya şəklində qoyulmuşdur. Hazırda Azərbaycanın bütün kateqoriyaları üzrə karbohidrogen ehtiyatları 4 milyard tondan çoxdur ki, bu da Azərbaycanı dünyanın ən iri neft regionları sırasına çıxarır.

Qeyd etmək lazımdır ki, bu gün Azərbaycanın neft ehtiyatlarının və neftçıxarma sahəsi üzrə yerini müəyyənləşdirmək üçün neft hasil edilən

ölkələrdə adambaşına düşən neft hasilatının həcmini müqayisə etmək maraqlıdır. Bundan başqa, Azərbaycan adambaşına düşən illik neft hasilatına (1,7 ton) görə, bir çox ölkələri əhəmiyyətli dərəcədə qabaqlayır. Bunlar içərisində Argentina, Braziliya, Peru, Venesuella, Misir, İndoneziya, İran, Rumuniya, Türkmənistan və başqalarının adlarını çəkmək olar. Lakin belə bir faktı da nəzərə almaq lazımdır ki, bu ölkələrin hamısı, Türkmənistan istisna olmaqla, əhalisinin sayına görə respublikamızı xeyli dərəcədə üstələyir.

Respublikanın dünya neft sənayesində yeri və rolu haqqında danışarkən, həmçinin onun xammal ehtiyatlarından danışmaq lazımdır. Məlum olduğu kimi, bu və digər ölkənin neft sənayesinin vəziyyətini qabaqcadan müəyyənləşdirən əsas amillərdən biri də neft ehtiyatlarını mövcudluğudur. Bundan başqa, regionun əlverişli coğrafi şəraitdə yerləşməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycanın xüsusi yeri vardır.

Ekspertlərin fikrinə görə, keçmiş SSRİ və Şərqi Avropa ölkələrinin neft ehtiyatları 32,4 milyard ton, başqa sözlə desək, məcmu dünya ehtiyatlarının 6 faizi qədər qiymətləndirilir. Alimlərin fikrincə, bu göstərici regiona kifayət qədər investisiya yönəldiyi şəraitdə texniki tərəqqi və geoloji kəşfiyyat sahəsində, mütərəqqi yeniliklər sayəsində əhəmiyyətli dərəcədə artırıla bilər.

Dünya neft ehtiyatları içərisində Azərbaycanın xüsusi çəkisi 0,6 faiz təşkil edir. Əgər bu ehtiyatları dünya regionları ilə müqayisə etsək, onda görərik ki, onun ehtiyatları Cənub-Şərqi Asiya, Avstraliya, Okeaniya ölkələrinin ümumilikdə ehtiyatlarına bərabərdir və Qərbi Avropanın ehtiyatlarını təqribən 2 dəfə üstələyir.

Azərbaycan Dövlət Neft Şirkəti Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyinin məlumatına görə, Azərbaycanın quru və dəniz sektorunda 625-dən çox antiklinal tipli qarışıqlar var. Bunlar çox perspektivli neftli-qazlı laylardır.

Ümumiyyətlə isə, neft sənayesinin bütün inkişafı dövründə 64 neft və qaz yatağı kəşf edilmişdir. Hal-hazırda quruda 37, Xəzər dənizinin Azərbaycan sektorunda 17 yataq istismara verilmək ərəfəsindədir. İndiyə qədər torpağın qatlarından 1,4 milyard ton neft, 450 milyard kub metrdən çox qaz çıxarılmışdır. İlkin neft ehtiyatlarının işlənməsi dərəcəsi quruda 87 faiz, dənizdə 53 faiz təşkil edir.

Azərbaycanın neftçıxartma sənayesinin əsas inkişaf perspektivləri dəniz yataqlarının mənimsənilməsi və Xəzərin potensial strukturlarından asılıdır. Belə ki, respublikanın neft sənayesinin potensial resurslarının təqribən yarısı Xəzər dənizinin Azərbaycan sektorunda cəmləşmişdir. Bir sıra iri neft yataqlarının aşkarlanması bunu bir daha təsdiq edir. Bu

resursların geoloji və geofiziki metodlarla öyrənilmə dərəcəsi cəmi 34 faiz təşkil edir.

Neft sənayesi respublikanın ən mühüm sənaye sahələrindən biridir. Azərbaycan neftinin yüksək keyfiyyətliliyi və ondan istehsal olunan məhsullar, ixracatda neftin xüsusi çəkisinin yüksək olması, neft ehtiyatının zənginliyi Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynadığını bir daha təmin edir. Neft sənayesi və onunla bağlı olan emaledici sahələrin inkişafı sayəsində respublikamızın sənayeləşdirilməsində ən mühüm bazalardan biri olmuşdur. Respublikamızda keçid dövrünün tələblərinə uyğun inkişaf edən əsas sahələrdən biri neft-qaz sənayesidir. Neft sənayesi milli iqtisadiyyatın prioritet sahəsi olmaqla, xarici investorların diqqətini daha çox cəlb edən sahədir. Dünyanın ən qədim neft rayonlarından biri kimi Azərbaycanın uzunmüddətli hasilat tarixinə, zəngin təcrübəyə əsaslanan sənaye infrastrukturuna malik olması və nəhayət, burada yeni nəhəng karbohidrogen ehtiyatlarının aşkarlanması xarici investorların diqqətini bu regiona daha da cəlb etdi.

Ulu Öndərimiz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan xalqının ictimai-siyasi və iqtisadi həyatında çox mühüm hadisə baş verdi.

Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 2004-cü ildə dünyanın aparıcı dövlətlərinin iri şirkətləri Xəzər neftinin çıxarılması və dünya bazarına nəqlinə dair "Əsrin Müqaviləsi"ni imzaladılar. Bu günədək həmin müqavilə üzrə 10 milyon tondan çox neft hasil edilmiş, Azərbaycanın aparıcı neft şirkətləri ilə imzaladığı müqavilələrin sayı iyirmi birə çatmışdır. "Əsrin müqaviləsi" Azərbaycanın dövlət müstəqilliyini, xalqın öz taleyinin sahibi olduğunu, özünə aid məsələləri müstəqil həll etdiyini göstərməklə yanaşı, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyasında da mühüm və həlledici rol oynamışdır.

Azərbaycan neft ehtiyatlarının birgə işlənməsi üçün respublikamıza dünyanın bir çox dövlətlərindən xarici şirkətlərin dəvət olunması, müqavilələrin bağlanması və onların fəaliyyəti üçün əlverişli şəraitin yaradılması neft strategiyasının siyasi istiqamətinin reallaşması üçün zəmin yaratmışdır.

Ümumilli Liderimiz Heydər Əliyevın aparmış olduğu dövlət siyasəti neft-qaz sahəsi ilə yanaşı, xarici ticarət, investisiya, tədiyyə balansı, humanitar və s. sahələrdə də uğurla həyata keçirilir. Belə ki, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq respublikamızda milli iqtisadiyyatın formalaşması və inkişafı yalnız daxili imkanlarla deyil, xeyli dərəcədə xarici amillərlə beynəlxalq iqtisadi münasibətlərin bütün formalarından geniş səmərəli şəkildə istifadəsi ilə bağlıdır.

Bu gün Azərbaycan neftinin müştərək mənimsənilməsi üzrə 21 irimiqyaslı konsorsium tərəfindən Beynəlxalq Kontraktın bağlanması

respublikanın ictimai-siyasi, iqtisadi həyatında son dərəcə əlamətdar hadisədir. Bu kontraktların reallaşması üçün 50-60 milyard ABŞ dolları həcmində sərmayə qoyuluşlarının artıq 10-15%-i təyinat obyektinə cəlb edilmişdir. "Çıraq" platformasından hasil edilən neftin miqdarı köhnə yataqlardakı müvafiq istehsal həcminə yüksəlmiş, "Şahdəniz" yatağından qazın sahilə gətirilməsi təmin olunmuş, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin inşası artıq reallığa çevrilmiş, yeni regional infrastrukturun modernləşdirilməsinə başlanılmışdır.

Bütün bu hadisələr Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlı olaraq onun uğurla həyata keçirdiyi Neft Strategiyasının mühüm tərkib hissəsini təşkil edir.

Azərbaycanın iqtisadi inkişafı, qlobal strukturlara inteqrasiyasının genişlənməsi, dünyəvi dəyərlərə əsaslanan möhkəm, sivil bir dövlətə çevrilməsində insan amili ilə yanaşı, güclü amillərdən biri kimi neft-qaz resurslarının mövcudluğunu və onun istismar edilməsini göstərmək vacibdir.

Hazırda bu sərvətlərdən daha səmərəli istifadə ümumimilli inkişaf strategiyasının ən mühüm prioritetlərindən birini təşkil edir.

Azərbaycanın iqtisadiyyatında, mədəni inkişafında, əhalinin sosial-mədəni rifahının yaxşılaşdırılmasında neft ehtiyatları başlıca amillərindən biri kimi təzahür edir. Son iki əsrdə neft ehtiyatları Azərbaycanın iqtisadi həyatında mühüm mərhələni formalaşdıraraq, həm də milli dəyərlərdə öz əksini tapmışdır. Ölkəmizin malik olduğu təbii sərvətlərin ən geniş əhatəli hissəsini təşkil edən neft-qaz resursları üzərində qurulan sənaye indi də, iqtisadiyyatımızın aparıcı sahəsi olaraq özünü göstərir. Yanacaq-enerci kompleksinin 2/3 hissəsini özündə birləşdirən neft-qaz sənayesi, həm də respublikanın sosial-iqtisadi inkişafının məhək daşı kimi iqtisadi dirçəlişi stimullaşdıran mühüm sahədir.

Azərbaycanda həyata keçirilən neft siyasəti ölkəmizdə xarici sərmayələr ilə yanaşı, müasir texnologiyaların, iş təcrübələrinin, yeni idarəçilik qaydalarının, iqtisadi münasibətlərin daxil olması üçün də şərait yaradıb.

Respublika iqtisadiyyatının ümumdünya təsərrüfatı ilə çoxşaxəli və intensiv inteqrasiyası müstəqil Azərbaycan Respublikasının rəsmi dövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir.

Hazırda ölkə iqtisadiyyatı, demək olar ki, neftin üzərində qurulub. Lakin bu müsbət cəhət hesab oluna bilməz. İlk növbədə, əgər diqqət yetirmiş olsaq görərik ki, neftin olması hər bir ölkə üçün iqtisadi baxımdan yeni imkanlar açır. Birinci növbədə, neft əlavə gəlirlərin əldə olunmasına gətirir. Xüsusi ilə neftin dünya bazarlarında son zamanlar qiymətinin yüksəlməsi bu gəlirləri daha da artırır. İndi bizim iqtisadiyyatın inkişaf templərinə nəzər yetirək. Baxıb görərik ki, neft sahəsindəki inkişaf daha sürətlə getdiyi halda, digər sahələrdə geriləmə

müşahidə olunmaqdadır. «Holland sindromu»ndan dönə-dönə danışırlar. Əgər lazımi tədbirlər görülməsə mənim qənaətimcə Azərbaycan artıq bu problemi müəyyən zamandan sonra yaşayacaq.

«Holland sindromu»nun sadalanan əlamətlərinin hər biri Azərbaycan iqtisadiyyatında bu və ya digər dərəcədə müşahidə olunmaqdadır. Bu əlamətlərdən 4-ü özünü daha qabarıq göstərir**:**

1) Neft istehsalı və ixracının artmasından əldə edilən neft gəlirlərinin (xarici valyutanın) valyuta bazarına daxil olması nəticəsində milli valyutanın möhkəmlənməsi;

2) Milli valyutanın möhkəmlənməsi nəticəsində ənənəvi ixrac məhsullarının rəqabət qabiliyyətinin aşağı düşməsi və ixracın səviyyəsinin azalması;

3) Xam neft istehsalının həcminin sürətlə artımı, sənayenin qeyri-neft sektorunda istehsal məhsullarının rəqabət qabiliyyətinin azalması nəticəsində istər iqtisadiyyatın, istərsə də sənayenin sahə strukturunun dəyişməsi və iqtisadiyyatda birtərəfli inkişafın baş verməsi;

4) Dövlət büdcəsinin gəlirlərinin neftdən asılılığının artması və dünya bazarında neftin qiymətinin aşağı düşməsindən büdcənin qarşılaşa biləcəyi təhlükənin dərinləşməsi;

Bu gün 1-ci və 4-cü əlamət digərlərinə nisbətən daha çox özünü büruzə verir.

Eyni zamanda bunu da unutmaq lazım deyil ki, neft olan ölkələr daimi digər ölkələrin təzyiqlərinə məruz qalırlar. Eyni zamanda digər ölkələr, belə ölkələrin inkişafını ləngitməyə çalışırlar. Belə olan halda onlara daha çox sərf edən bu ölkə vətəndaşlarının bisavad, düşüncəsiz, əxlaqsız, mənəviyyatsız yetişməsidir. Nəticədə, bu insanlar biganə olduqları üçün hər şeyə göz yumurlar və onlardan sahib olduqları nemətləri almaq daha asan olur. Təəssüflə qeyd edim ki, sonuncu dediklərimə müəyyən miqdarda nail olublar.

### 5.2. Neft sənayesinin sosial iqtisadi mahiyyəti və onun rolunun artması

XIX əsrin son onilliklərində sənayeləşən neft hasilatı Azərbaycanın iqtisadiy-

yatını geniş miqyasda hərəkətə gətirmiş, paytaxt Bakını bütöv bir makroregionun industrial ticarət və maliyyə mərkəzinə çevirmişdir.Artan neft hasilatı bu məkanda güclü sənaye strukturları ilə yanaşı, həm də müqabil sosial infrastrukturun da formalaşmasını qaynaqlandırmışdır.İndi meqapolisə çevrilmiş şəhərdə əksər kommunikasiya şəbəkəsi, su, qaz kəmərləri, istilik elektrik xətləri, avtomobil yolları sahəsi milyon kvadrat metrdən çox hesablanan mənzil

fondu mədəniyyət ocaqları, ticarət-məişət obyektləri, neft sənaye kompleksinin sosial fəaliyyət sferasına daxildir.

Ölkənin dövlət müstəqilliyinin bərpa edilməsi ötən əsrin son onilliklərində Xəzərdə aşkarlanan nəhəng karbohidrogen yataqlarının beynəlxalq əməkdaşlıq çərçivəsində aktiv işlənməsini şərtli etmişdir. Təzahür olunan geosiyasi reallıqlar fonunda qərarlaşan yeni neft situasiyasından milli və dövləti mənafelərə uyğun olaraq maksimal bəhrələnmək missiyası isə prezident Ümummilli Liderimiz Heydər Əliyevin üzərinə düşərək, onun təşəbbüsçüsü və rəhbəri olduğu Neft Strategiyasında dolğun əksini tapmışdır. Gerçəkləşən strategiyanın genişlənən halqası çağdaş mərhələdə ölkə neft təsərrüfatının daha mütərəqqi sistem və konstruksiyada modernizasiyasının elmi əsaslarının işlənməsini aktuallaşdırmışdır.

İstiqlala qovuşduqdan sonra neft sektorunda aparılan iqtisadi ilahatların elmi bazasının möhkəmləndirilməsi və təkmilləşdirilməsi istiqamətində respublika hüdudlarında çoxsaylı tədqiqatlar yerinə yetirilmiş, nəzəri və praktiki təyinatlı bir sıra qiymətli nəticələr əldə olunmuşdur. Sahəvi elmi-tədqiqatlar sferasında gerçəkləşən nailiyyətləri bir daha dəyərləndirirək iqtisadçılar və neft sahəsində çalışan şəxslər mövcud şəraitdə milli neft strategi-yasının prioritetləri əsasında ölkədə dərinləşən islahatların təkmilləşməsi «Dövlət tənzimlənməsi idarəetmə» Konsepsiyası istehsalın rasional təşkili problemlərini tədqiq edərək müvafiq sistemli situasiyon yanaşma və analitik araşdırmalar çevrəsində neft sektorunun modernizasiyasının alternativ iqtisadi bazar mexanizmlərini işləyib hazırlamışlar. Onlar qarşıya qoyulan məqsədlərə müvəffəqolmada verifikasiya prinsipli çevrədə karbohidrogen epoxası və müasir industrial iqtisadiyyatın təşəkkül və təsnifatı, neft resurslarının əhəmiyyət diapozonu, ehtiyatların coğrafi yerləşməsi, milli neft strategiyasının gerçəkləşməsinin iqtisadi əsasları, elmi-nəzəri istiqamətləri tədqiq edilmişdir. Xəzərin neft-qaz resurslarının dəyərləndirilməsi, onların beynəlxalq enerji bazarlarına çıxış problemləri, mənfəət karbohidrogenlərinə çəkilən xərclərin ödənilməsi, hasilatın pay bölgüsünün normativ-hüquqi aspektivləri, xam neftin və təbii qazın emalı, onlardan alınan sintetik məhsulların iqtisadi səmərəliliyi tədqiqat işində geniş araşdırma və təhlil obyektlərinə çevrilmişlər.

Neft sektorunun modernizasiyasının alternativ iqtisadi bazar mexanizmlərinin təyinatı sferasında aparılan araşdırmaların elmi əsaslarını möhkəmlədirmək məqsədi ilə tədqiqat işində səmərəli və rentabelli fəaliyyət quruculuğu, dinamik iqtisadi inkişaf faktorları, neftqazçıxarma kompleksinin müasir durumu, beynəlxalq neft kontraktları spektrində sahəvi infrastrukturdan faydalanma perspektivləri, investisiyon siyasət, institutsional islahatlar, kompleksin bazar iqtisadiyyatına adaptasiyası,

audit xidməti, özəlləşdirmə və innovasiyası ilə bağlı problemlər də həll olunmuşdur.

Azərbaycan Respublikasında son illərdə həyata keçirilən iqtisadi islahatlar nəticəsində iqtisadiyyatın bəzi sahələrində o cümlədən də sənayedə və onun aparıcı sahələrindən biri olan neft sənayesində bir sıra uğurlu nailiyyətlər əldə edilmişdir. Neft sənayesində 1990-cı ilin əvvəllərində start götürən iqtisadi islahatlar prosesi hazırda köklü dəyişikliklərə məruz qalacaq yeni mərhələyə qədəm qoyub. Müasir dövrdə neft sənayesində, xüsusilə də onun quruda yerləşən neftqazçıxarma idarələrində mövcud elmi-texniki və istehsal potensialından daha səmərəli istifadə etməklə, iqtisadi islahatları həyata keçirmək lazımdır. Bu sahədə müəyyən nailiyyətlər də əldə edilmişdir. Belə ki, son 10 ildə neft sənayesində bazar iqtisadiyyatına uyğun infrastrukturlar yaradılmış, neftqazçıxarma idarələrinin bəzi bölmələri özəlləşdirilmiş, xarici ölkələrin neft şirkətləri ilə birlikdə müştərək müəssisələr yaradılmış, neftçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamə- tində əməli tədbirlər həyata keçirilmişdir. Bütün bunlar neft sənayesində iqtisadi islahatların aparılması ilə yanaşı, neft hasilatının da sabitləşdirilməsi və gözəçarpan dərəcədə irəliləyişlər əldə edilməsinə imkan vermişdir. Məlumat üçün qeyd edim ki, neft sənayesində aparılan iqtisadi islahatlar sənayenin, eləcə də iqtisadiyyatın digər sahələrində həyata keçirilən iqtisadi islahatlardan öz xarakterinə və əhatə dairəsinə görə müəyyən qədər fərqlənir. Belə ki, neft sənayesində aparılan iqtisadi islahatlar çoxşaxəlidir.Neft sənayesində görülən bütün bu işlər təbii ki ölkəmizin iqtisadiyyatına və əhalinin güzəranına birbaşa təsir edir.

Azərbaycanın Xəzər dənizindəki neft hasilatı və inkişafı «Günəşli», «Çıraq», «Azəri» və «Kəpəz» olmaqla, 4 sahədə cəmləşmişdir. Ancaq, sadə texnologiyanın istifadəsi səbəbilə həm hasilatda, həm də hasil edilə biləcək ehtiyatlarda azalma problemləri ilə qarşı-qarşıya qoyulmuşdur. 1980-cı ildə neft hasilatı 14,7 milyon ton idisə, bu rəqəm getdikcə azalaraq 1990-cı ildə 12,5 milyon ton, 1995-ci ildə 9,2 milyon tona və 1996-cı ildə isə 9,1 milyon tona düşmüşdür. Neft hasilatındakı bu azalma, köhnə texnologiyaların istifadəsi və neft sahələrinin təmirindəki çatışmazlıqlar səbəbindən məhsuldarlığın azalmasından qaynaqlanmışdır. Azərbaycanın sahib olduğu zəngin neft yataqlarının istifadəsi üçün 1992-ci ilin sentyabrında Azər neft və Azneftkimya birləşdirilərək Azərbaycan Dövlət Neft Şirkəti (The State Oil Company if the Azerbaican Republic-SOCAR) yaradıldı. Neft hasilatının artırılması və mövcud ehtiyatlarının yaxşılaşdırılması ancaq müasir tecnologiyanın istifadəsi və yeni layihələr həyata keçirməklə mümkün ola biləcək. Azərbaycanın sahib olduğu iqtisadi gücü və texnologiyası mövcud ehtiyatların istifadəsi və inkişafı üçün kifayət

etmirdi. Bu çatışmazlıq Azərbaycanı böyük neft şirkətləri ilə müttəfiqliyə istiqamətləndirdi.

Ölkədə həm quruda, həm də dənizdə neft çıxarılır. Quruda çıxarılan neft daha çox Abşeron yarımadasında çıxarılır. Azərbaycan neft müqavilələri əsasən dəniz yataqları üzərində cəmləşmişdir. Azərbaycan böyük neft şirkətləri ilə imzaladığı müqavilələrlə neft ehtiyatlarını ölkə iqtisadiyyatına cəlb etməyi hədəf olaraq seçmişdir. Bu hədəf istiqamətində, qurudakı yataqlar da daxil olmaqla, 20 sentyabr 1994-cü ildən etibarən Azərbaycanda dünyanın 19 ölkəsindən 33 şirkətin iştirakı ilə 23 Beynəlxalq Neft Müqaviləsi imzalanmışdır. Hasilatın Bölgüsü Müqavilələri 25-30 illik dövrü əhatə edir. Qərarlaşdırılan sərmayənin ümumi həcmi 60 milyard dollardan çoxdur.

Neft layihələrinin həyata keçirilməsində 72-si yerli olmaqla, 400 şirkət iştirak edir. Şirkətlərin fəaliyyətləri inşaatdan ekoloji xidmətlərə qədər uzanır. Yerli və xarici şirkətlər arasında müttəfiqlik, müasir texnologiyaların, materialların, idarəetmə texnikalarının istifadəsinə imkan yaradır və beləliklə, mərkəzi idarəetmə tipindən bazar iqtisadiyyatına keçiddə böyük rol oynayır.

İmzalanan müqavilələrinin ən əhəmiyyətlisi və Sovet dövründə mütəmadi olaraq geriləmə göstərən sektora yeni nəfəs verən "Əsrin Müqaviləsi" Azərbaycan baxımından böyük iqtisadi əhəmiyyətə sahibdir.

«AÇG» yataqlarını əhatə edən Müqavilə Azərbaycanın müstəqilliyindən və mövqeyini dəyişdirmək üçün etdiyi cəhdlərdən qaynaqlanan ən əhəmiyyətli tarixi hadisədir. Çox çətin vəziyyətlərdə aparılan danışıqlar Azərbaycan və qərb şirkətləri arasında hələ keçmiş Sovet İttifaqı dövründə başlandı.

Sovet iqtisadiyyatını zəiflədən liberalizasiya dövrü daha çox Qərb şirkətlərini «Azəri-Çıraq-Günəşli» sahələrindəki zəngin mineral ehtiyatların kəşfi və Azərbaycanın yaxşı inkişaf etmiş neft sənayesi ilə cəzb etdi.

Ehtiyatların inkişaf etdirilib araşdırılması üçün lazımi texnikanın yoxluğu səbəbindən Azərbaycan hökuməti layihələrin həyata keçirilməsi üçün qərb sərmayəsini ölkəyə çəkməyi qərara aldı. 1991-ci ilin yanvar ayında ölkə layihələri tenderə açdı. «BP», «Statoil», «Amoco», «Unocal» və digər şirkətlər bu tenderdə iştirak etdilər.

1991-ci ildə «Amoco», «BP», «McDermott», «Pennzoil», «Ramco», «Unocal, Türkiyə Petrolları Anonim Ortaqlığı» (TPAO) və «Statoil» kimi şirkətlərin olduğu bir qrup xarici şirkətlər Azərbaycanla, Azərbaycanın Xəzər dənizindəki sektorunda yerləşən «Çıraq» və «Günəşli» sahələrinin yaxşılaşdırılması mövzusunda 3 il müddətində davam edəcək işlərə başladılar.

Təxmninən 3 il davam edən müzakirələr nəticəsində, 20 sentyabr 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Bakının Gülüstan sarayında SOCAR ilə Konsersiyum arasında əsrin müqaviləsi adlandırılan "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən «Azəri», «Çıraq» və «Günəşli» yataqlarında Neftin Müştərək İstifadəsi və Pay Bölgüsü Haqqında Müqavilə" imzalanaraq həmin regionlarda neft axtarma və çıxartma haqqı AİOC-a verildi.

Nəticədə, bir çox təsirlərə baxmayaraq müqavilə imzalanaraq Azərbaycan lehinə həyatı bir addım atılmış oldu.

Müqavilə şərtlərinə görə, Azərbaycan bu üç neft yatağı üzərində mülkiyyət hüququnu qoruyur.

Bu müqavilə, 2 dekabr 1994-cü ildə Azərbaycan Milli Məclisi tərəfindən müzakirə edildikdən sonra 12 dekabr 1994-cü ildə quvvəyə mindi.

«Meqa layihə» olaraq da adlandırılan və ümumi sərmayə həcmi 11 milyard dollara yaxın bu layihə həcmində ümumi hasil edilə bilən neft ehtiyatlarının 5.4 milyard barel (730 milyon ton), təbii qaz ehtiyatlarının isə 96 milyard $m^3$ olduğu təxmin edilir. Bundan əlavə, yataqlar 6 milyon ton kondensat ehtiyatına da sahibdir. Yuxarıdakı təxmini məlumatlarda tez-tez dəyişikliklər baş verir. Müqavilə 30 illik bir dövrü əhatə edir.

Müqavilə tərkibinə də olan «Günəşli» yatağı 82 km, «Çıraq» yatağı 94 km və «Azəri» yatağı isə 113 km sahildən uzaqda yerləşir.

1994-cü ilin dekabrında Konsersium, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini (AİOC) qurdu. Vəzifəsi, işi günlük olaraq izləmək olan AİOC-un Proqramında, Azərbaycan neft sənayesinin infrastrukturunun Qərb standartlarına görə və bu ölçülər diqqətə alınaraq qurulması əsas yer tutur.

Müqavilənin müzakirəsi əsnasında qarşıya çıxan problemler informasiya olmaqla, şirkətlərin müqaviləni ləğv edə biləcəkləri mövzularını əhatə edirdi. Bu şərtlər bunlardır: Dağlıq Qarabağdakı müharibənin başlaması, Rusya ilə Azərbaycan arasında həm iqtisadi, həm də siyasi münasibətlərin hədsiz dərəcədə pozulması, Azərbaycan daxilindəki qeyri-stabillik, Azərbaycan hökumətinin stabil bir ixrac xəttinə sahib olmaması və Xəzər dənizinin statusunu müəyyən edən rejim üzərində meydana gələn hər hansı bir anlaşılmazlıq.

İlk illərdə Konsersiumda olmayan Yaponiya da daha sonra Konsersiyuma daxil olunmuşdur. Yaponiyanın "Itochu" Şirkəti əvvəlcə Müqavilədə iştirak etmədiyi halda, daha sonra bütün paylarını satan "McDermott International"dan 2.45% pay alaraq "AÇG" Konsersiumuna qoşulmuşdur. Yapon şirkəti daha sonra AMOCO-nun satdığı 5%-lik paydan 1.5%-ini alaraq, ümumi payını 3.9%-ə çıxartmışdır.

Konsorsium üzvləri arasında imzalanan "Əməliyyatların Birlikdə Aparılması Haqqında Razılaşma Üzrə Müqavilə" ilə əlaqədar olaraq daha sonra «Azerbaijan International Operating Company» yaradıldı. «SOCAR»la yanaşı, dünayanın digər ölkələrindən 11 şirkəti iştirakı ilə yaradılan bu təşkilat Müqavilədəki yataqların istifadəsinə xidmət edir.

«Əsrin müqaviləsi»ndə mövcud bölgülərin son şəkli aşağıdakı kimidir:

| | |
|---|---|
| «BP» (operator) | 34.13% |
| «Unocal» | 10.3% |
| «SOCAR» | 10% |
| «İNPEX» | 10% |
| «Statoil» | 8.56% |
| «ExxonMobil» | 8% |
| «TPAO» | 6.75% |
| «Devon» | 5.62% |
| «İtochu» | 3.72% |
| «AmeradaHess» | 2.72% |

"Production Sharing Agreement (Hazır məhsulun bölünməsi)" tipli bir Müqavilə olan "Əsrin müqaviləsi"ndə səhmlərin paylanılmasına baxdığımızda ən böyük payın ABŞ-a aid olduğunu görürük. Amerika şirkətlərinin ümumi payı təxminən 40%-dir. ABŞ bir ildə təxminən 340 milyon ton neft hasil edir, 600 milyon ton isə idxal edir. Beləliklə, ABŞ-a idxal edə biləcəyi yeni enerji ehtiyatları lazımdır. Bu baxımdan Xəzər ABŞ-ın iqtisadi marağı olan regionlar içindədir. İngilis şirkətlərinin ümumi payı isə 19%-dir. Amerika və İngilis şirkətlərindən sonra Konsersiumdakı ən böyük pay Rusiya və Azərbaycan şirkətlərinindir.

"Əsrin Müqaviləsi"nin Azərbaycan Respublikası üçün rolu, sahələrin istifadəsi üçün lazımi investisiyaların 90%-nin Konsersium tərəfindən yerinə yetiriləcək olmasıdır. Azərbaycan neft və təbii qaz sahələrinin istifadəsi üzərində idarə və nəzarət hüququnu özündə saxlayır. Heç şübhəsiz ki, dənizin neft ehtiyatlarına tez və faydalı olacaq şəkildə böyük miqdarda sərmayə qoyulmalıdır və yeni texnologiyalar alınmalı, xarici ölkələrdən ən təcrübəli neft şirktlərini bu ərazilərə cəlb edərək onlarla müttəfiq olmalıdır. Çünki bu sahələrin istifadəsi məqsədi ilə qazma və emalat platformalarının, boru xətlərinin quruda təchizat sistemlərinin qurulması üçün böyük miqdarda sərmayə qoyulmalıdır.

Milli iqtisadiyyatın inkişafında vacib bir ünsür olmaqla yanaşı, xarici bazarda da mühüm bir açar olan enerji ehtiyatlarına dair imzalanan "Əsrin Müqaviləsi" ilə Azərbaycan, dünya iqtisadiyyatına aktiv bir şəkildə inteqrasiya olunmaq yolunda ilk addım atmış oldu.

İlk neft layihəsi olan «Azəri-Çıraq-Günəşli» dəniz yataqlarında nəzərdə tutulan bütün fəaliyyətlər yerinə yetirilmiş, burada neft istehsalına dair son texnologiyalar tətbiq olunmuş, neft sənayesinin bünövrəsi olduqca müasirləşmişdir. "Çıraq-1" dəniz platformasının inşası

qurtarmış və neft istehsalının ilk quyusu qazılmış, platformadan Səngəçaldakı sahil terminalına qədər və neft daşlarındakı kompressor stansiyasına qədər sualtı boru kəmərləri çəkilmişdir. Səngəçalda sahil terminalı inşa edilmiş, Bakı-Novorossiyski neft boru xəttində təmir fəaliyyətləri aparılmış və 1997-ci il 12 noyabr tarixində bu neft boru xətti fəaliyyətə başlamışdır.

«Çıraq-1»də istehsal sonrasında «Əsrin Müqaviləsi»ndə adları göstərilən yataqlarda neft istehsalı ilə bağlı fəaliyyətlər üç mərhələdən ibarətdir. Birinci mərhələ, 2001-ci ilin avqust ayında «Mərkəzi Azəri» yatağında istehsal üçün lazımi işlər başlanmışdır. İkinci mərhələ isə, 2002-ci ilin iyul ayında «Qərb və Şərq Azəri» yataqlarındakı fəaliyyətlərlə başlamışdır. Üçüncü mərhələnin başlamasına dair Müqavilə isə, 2004-cü ilin 20 oktyabrında imzalanmışdır. Müqavilədə «Günəşli» yatağında istehsala başlama nəzərdə tutulmuşdur. Üçüncü mərhələ ilə bağlı neftin ilk olaraq 2008-ci ildə istehsalı planlaşdırılmışdır. 2008-ci ildə neft istehsalı gündə 300.000 (üç yüz min) barel olacaqdır. Bir ildən sonra isə, "Əsrin Müqaviləsi" çərçivəsində neft istehsalı günlük 1 milyon barelə yüksəlmiş olacaqdır.

«Şahdəniz» yatağı ilə əlaqədar Müqavilə 1996-cı il iyul ayının 4-də imzalanmış və 1997-ci il oktyabr ayının 4-də təsdiqlənmiş, 1996-cı il oktyabr ayının 17-də qüvvəyə minmişdir. "Production Sharing Agreement" halında imzalanan Müqavilənin 30 illik müddəti vardır. Bu Müqaviləyə əsasən məsuliyyət «Şah dəniz» konsersiumuna verilmişdir. «BP exploration Ltd»yə, ərazinin işlədilməsi tapşırılmışdır. Xəzərin Azərbaycan sektorunun cənub-şərqində yerləşən Şahdəniz yatağı, Bakıdan 70 km uzaqlıqdadır. Yataq 800 km$^2$ ərazini əhatə edir.

«BP Exploration» 1996-cı ilin oktyabr ayının sonlarına yaxın fəaliyyətə başlamışdır. Layihənin sərmayəsi 4.1 milyard dollardır.

«Şahdəniz» yatağında təxmini bir trilyon m$^3$ qaz ehtiyatı var. Təbii qazın 400 milyard m$^3$-i təsdiqlənmişdir. İldə 60 milyard m$^3$ qaz çıxarılacağı təxmin edilir. Beləliklə, «Şahdəniz» yatağı Azərbaycanın təbii qaz potensialını təxminən 1 trilyon m$^3$ artırmışdır.

«Şahdəniz» yatağı, Azərbaycanın dünya təbii qaz istehsalçısı və ixracatçısı ölkələri arasında sayılmasına imkan verdi. Bu səbəblə Bakı-Tbilisi-Ceyhan xətti qərarlaşdırılmadan təbii qaz ixracı ilə bağlı boru xətti də müzakirəyə başlanmışdı.

«Şahdənizdən» çıxarılacaq qazın satışı ilə bağlı olaraq 2004-cü ildə 4 müqavilə imzalandı. İldə 6.3 milyard m$^3$ qazın satılması üçün ilk Müqavilə "Botaş" ilə imzalandı. Bir Müqavilə Azərbaycan dövləti ilə iki Müqavilə isə Gürcüstanla imzalandı. Müqavilələrə görə, Azərbaycana ildə 1.5 milyard m$^3$, Gürcüstana isə 800 milyon m$^3$ təbii qaz satılacaqdır.

Şahdəniz layihəsi çərçivəsində hər ay təxminən 100 milyon dollar xərclənir. «Şahdəniz» dünyanın ən böyük 10 neft-qaz layihəsindən biri

olacaqdır. Yataqdan 2006-cı ilin sonlarında təbii qaz ixrac edilməyə başlanmışdır.

Son illərdə ölkəmizdə aparılan iqtisadi islahatlar nəticəsində sosial-iqtisadi sahələrdə geriləmələrin qarşısı alınmış və müəyyən irəliləmələr müşahidə edilmişdir. Dövlət tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi, pensiya və müavinətlərin məbləğinin artırılması sahəsində mühüm tədbirlər həyata keçirilməsi, aztəminatlı ailələrə dövlətin diqqətinin və sosial qayğısının yüksəldil- məsi bunu bir daha sübut edə bilər. Görülən tədbirlər nəticəsində, 2010-cu ilin ilk iki ayında ölkənin ümumdaxili məhsulu əvvəlki ilin eyni dövrünə nisbətən 5,6 faiz və yaxud müqayisəli qiymətlərlə 236,7 milyon manat artaraq 6,1 milyard manata çatmış, onun əhalinin hər nəfərinə düşən həcmi isə 689,6 manat (858,5 ABŞ dolları) təşkil etmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş ÜDM-in həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,8 faiz, qeyri-neft sektorunda isə 4,2 faiz artmışdır. ÜDM-in 67,4 faizi istehsal sahələrində, o cümlədən 60,3 faizi sənayedə, 5,5 faizi tikintidə, 1,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 25,7 faizi isə xidmət sahələrində yaradılmışdır. Xidmət sahələrində yaradılmış əlavə dəyərin 24,1 faizi nəqliyyat, 6,6 faizi informasiya və rabitə, 27,7 faizi topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri üzrə xidmətlər, 4,3 faizi yaşayışın təşkili və ictimai iaşə xidmətləri, 37,3 faizi sosial və digər xidmət sahələrində fəaliyyət göstərən iqtisadi vahidlərin payına düşmüşdür. Məhsula və idxala xalis vergilər ümumdaxili məhsulun 6,9 faizini təşkil etmişdir.Neft sənayesinin inkişafı nəticəsində ölkəyə xarici investisiyalar qoyuluşu artmışdır.Təbii ki bütün bunlar da öz növbəsində neft sənayesinin elmi-texniki təchizatlarla təmin olunmasına, ixrac potensialının genişlənməsinə və s. səbəb olur. İndi isə 2000-2009-cu illər ərzində Azərbaycana qoyulan investisiyaların miqdarını göstərmək istərdim.

**Cədvəl 1**

**Xarici investisiyalar (mlyn. ABŞ dolları)**

| | **2000** | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2009** |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi xarici investisiyalar | 927 | 3371 | 4575.5 | 4893.2 | 5052.8 | 6674.3 | 6847.4 | 9.2mil-yard |
| o cümlədən: | | | | | | | | |
| Neft sənayesinə | 546.1 | 2972.4 | 4088.1 | 3799.9 | 3422.3 | 4003.3 | 3350.7 | 1,9mil-yard |
| Birgə və xarici investisiyalı müəssisələr | 118 | 45.4 | 104.2 | 230.5 | 368.4 | 439.1 | 494.1 | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Neft bonusu | - | 58.6 | 21.6 | 1 | 17 | 68.2 | 3.5 | - |
| Portfel investisiyaları | - | 56.3 | 49.2 | 58.4 | 203.8 | 587.1 | 641.2 | - |

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi

Son illərdə dövlət tərəfindən əhalinin sosial gücləndirilməsi, pensiya və müavinətlərin məbləğinin artırılması sahəsində mühüm tədbirlər həyata keçirilməsi, aztəminatlı ailələrə dövlətin diqqətinin və sosial qayğısının yüksəldilməsi bunu bir daha sübut edir. Əhalinin həyat səviyyəsinin artması 2009-cu ildə də davam etmişdir. Belə ki, respublikamızda mənzil tikintisinin artması, Bakıda özəl firmalar tərəfindən yaşayış evlərinin inşasının getdikcə geniş vüsət alması, ölkəyə idxal olunan avtomobillərin və məişət avadanlıqlarının sayının ilbəil çoxalması, əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi ilə ticarət dövriyyəsinin genişlənməsi və sair amillər ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşmasına dəlalət edir.

2008-2011-ci illər üçün "Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramı»nın layihəsi hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur.

2008-2011-ci illər üçün "Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramı" ölkə iqtisadiyyatının, əsasən qeyri-neft sektorlarının davamlı olaraq yüksək artım templəri ilə dinamik və tarazlı inkişafına, əhalinin iqtisadi və sosial tələbatının daha yüksək səviyyədə təmin olunmasına, regionlararası inkişaf fərqinin azaldılmasına, optimal sektor istehsal strukturuna nail olunmasına, ixrac potensialının yüksəldilməsinə, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin qorunmasına yönəlmiş dövlət əhəmiyyətli investisiya layihələrinin ardıcıl və əlaqəli şəkildə həyata keçirilməsi məqsədi ilə hazırlanmışdır.

2008-2011-ci illər üzrə təklif edilən Dövlət İnvesitiya Proqramı son illərin iqtisadi vəziyyətinə, gələn dörd il üzrə makroiqtisadi siyasətə və inkişaf proqnozlarına, o cümlədən fiskal proqnozlara uyğun olaraq hazırlanmışdır.

2008-2011-ci illər üzrə Dövlət İnvetisiya Proqramını əhatə edən orta müddət ərzində Azərbaycanın neftin və qazın ixracından böyük həcmdə gəlirlər əldə edəcəyi gözlənilir.

Bu dövrdə respublikada neft gəlirlərinin istifadəsi təsdiq edilmiş "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya" ilə müəyyən edilmiş prinsiplər əsasında həyata keçiriləcək. Böyük hissəsinin gələcək nəsillərə saxlanılması təmin edilməklə, əldə edilmiş irihəcmli neft gəlirlərinin bir hissəsi xərclənəcək və tam şəffaflıq prinsipinə əməl ediləcək. Həmin xərclər "insan kapitalının", qeyri-neft sektorunun inkişaf etdirilməsinə, mövcud infrastrukturun təkmilləşdirilməsi və yeni

infrastruktur obyektlərinin tikilməsinə, yeni texnologi-yaların gətirilməsinə, prioritet vəzifələrin reallaşdırılması məqsədi ilə hazırlanmış dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək.

Yeni mərhələnin əsas hədəfi – uzunmüddətli ümumbəşəri dəyərlər, qlobal proseslər və milli maraqlar nəzərə alınmaqla, ortamüddətli dövr üçün ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir.

Sosial-iqtisadi inkişaf mədsədlərinin həyata keçirilməsi üçün investisiya siyasəti mühüm alətlərdən biridir. Bu baxımdan Dövlət İnvestisiya Proqramı milli və sektor inkişafı çərçivəsində formalaşdırılması mühüm əhəmiyyət kəsb etməklə yanaşı, sektorlar arasında qarşılıqlı əlaqələrin təmin edilməsi və uyğunsuzluqlara yol verilməməsi üçün yeganə yoldur. Bir çox inkişaf etməkdə olan və vəsait çatışmazlığı ilə üzləşən ölkələrdən fərqli olaraq, Azərbaycan karbohidrogen ehtiyatlarının istismarından böyük həcmdə gəlir əldə etməyə başlamış və bu gəlirlərin orta müddətdə azalan templərlə artması gözlənilir. Dünya təcrübəsi göstərir ki, maliyyə vəsaitlərinin çatışmazlığı şəraitində gəlirlərin səmərəli istifadəsi ilə müqayisədə, böyük həcmdə gəlirlərin istifadəsi prosesinin idarə olunmasında daha çətin problemlərlə üzləşilir. Qısa müddətdə irihəcmli gəlirlərin əldə edilməsi səmərəli xərclər həyata keçirməklə yanaşı, makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatda regionlarla mərkəzin sosial-iqisadi cəhətdən ahəngdar inkişafı, ümumiyyətlə, tarazlı inkişafın təmin olunması, yoxsulluğun səviyyəsinin azaldılması, iqtisadi münasibətlərdə ədalət prinsiplərinin gözlənilməsi, bugünkü və gələcək nəsillər arasında gəlirlərin düzgün bölüşdürülməsi kimi mühüm məsələlərin həllini tələb edir. Qeyd olunan problemlərin həlli hökumətin əsas məqsədidir. Hazırlanmış DİP də məhz bu məqsədlərə nail olunmasına yönəlmişdir.

Digər mühüm təbir, 2000-ci ilin sentyabrında Nyu-Yorkda BMT-nin təşkilatçılığı ilə keçirilən Sammitdə 147 ölkənin başçısı Minilliyin İnkişaf Məqsədlərini əks etdirən birgə Bəyannamə imzalamış və 2015-ci ilədək olan dövr üçün yoxsulluğun azaldılması prioritet kimi müəyyənləşdirilmişdir. Sənədi Azərbaycan Respublikası adından xalqımızın Ümummilli Lideri Heydər Əliyev imzalamış və bununla da ölkəmiz Minilliyin Bəyannaməsinə qoşulmuşdur. 2003-cü ilin fevralında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

Proqramda yoxsulluğun azaldılması sahəsində strateji məqsədlər və onlara nail olunması üçün həyata keçiriləcək tədbirlər müəyyənləşdirilmişdir. Dövlət Proqramının həyata keçirilməsi

nəticəsində ölkədə makroiqtisadi sabitlik qorunub saxlanmış, dinamik iqtisadi artım təmin edilmiş, bu isə öz növbəsində yoxsulluq probleminin əsasən həllinə şərait yaratmışdır. Görülən işlərin nəticəsidir ki, 2005-ci ildə yoxsulluq səviyyəsi 2002-ci ildəki 46,7%-dən 29,3%-ə enmişdir. Bu istiqamətdə davam etdirilən sistemli tədbirlər ölkədə yoxsulluğun səviyyəsinin daha da azalması ilə nəticələnmiş, ötən ilin yekunlarına görə, Azərbaycanda bu göstərici 13,2% təşkil etmişdir.

Ölkəmizin iqtisadi və sosial həyatındakı müsbət meyillərin, əhalinin rifah halının yaxşılaşdırılması və yoxsulluğun səviyyəsinin azaldılması sahəsində tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramı özündə əsas 9 strateji məqsədi əks etdirir. Makroiqtisadi sabitliyi saxlamaq və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi, əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi, təhsil və səhiyyə sahəsində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, sosial infrastrukturun inkişaf etdirilməsi Dövlət Proqramının əsas strateji istiqamətlərindəndir. Bu sahədə həyata keçiriləcək məqsədyönlü tədbirlər nəticəsində 2008-2015-ci illərdə ölkədə işsizlik səviyyəsinin 3-4%-dək, yoxsulluğun səviyyəsinin isə 2 dəfə azaldılması nəzərdə tutulur. Deməli, bizim əsas məqsədimiz bundan sonra aparılan işlərlə yoxsulluqla mübarizəni gücləndirmək, yoxsulluğu azaltmaq və gələcəkdə Azərbaycan Respublikasında yoxsulluğu tamamilə aradan qaldırmaqdan ibarətdir. Bu sahədə Azərbaycanın yeni Neft Strategiyası mühüm rol oynaya bilir və biləcəkdir. Çünki republikamızda mənfəət karbohidrogenlərinin həcminin və satışının artması Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil olan gəlirin çoxalmasına imkan verir ki, bu da əhalinin sosial problemlerinin həllini sürətləndirə bilər.

Müstəqil Azərbaycanın taleyində müstəsna əhəmiyyət kəsb edən Neft Strategiyasının bütün çətinliklərə baxmayaraq, uğurla baş tutması və onun böyük müdrikliklə müəyyən olunmuş uzunmüddətli başlıca məqsədlərinin ardıcıl mərhələlərlə, müvəffəqiyyətlə gerçəkləşdirilməsi nəticəsində ölkə iqtisadiyyatının bu aparıcı sahəsi artıq özünün daima yüksələn xətlə artım məcrasına düşmüşdür. Respublikanın sosial-iqtisadi inkişafında ən mühüm dəyişiklik yaradacaq sahənin köklü yüksəlişinin nəticələri ən yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir.

## 5.3. Milli iqtisadiyyatın inkişafında neft layihələrinin sosial-iqtisadi səmərəsinin qiymətləndirilməsi

Azərbaycan qədim zamanlardan bəri öz nefti ilə məşhurdur. Hələ eramızdan əvvəl yerdən qalxan alov dillərinə görə bu torpağı "Odlar diyarı" adlandırırdılar. Lakin ölkədə əsl neft bumu XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə Rotşild və Nobel qardaşları, eləcə də Rusiya İmperiyasının neft sənayeçiləri Bakı neftinin satışından qazanc əldə edirdilər. Sonra isə "qara qızıl" yataqlarının işlənməsi və hasilatı məsələlərinə Moskvada oturan Partiya funksionerləri rəhbərlik edirdilər. Yalnız 1990-cı illərin əvvəllərində ölkə müstəqillik qazandıqdan sonra azərbaycanlılar öz təbii ehtiyatlarına sahib çıxa bildilər.

Azərbaycan neft və qaz ehtiyatlarının zənginliyi ilə seçilir və onların ixracatından da böyük gəlirlər əldə edir. Bir tərəfdən neft hasilatı və satışı sahəsində əldə olunan naliyyətlər, digər tərəfdən dünya bazarında neftin satış qiymətinin yüksəlməsi isə neft sektorunu ölkə iqtisadiyyatının həlledici sahəsinə çevirib və bu gün ölkə iqtisadiyyatında artım neft sektorunun hesabına təmin edilir.

Xəzər dənizində ən çox təcrübəyə sahib olan Azərbaycanda son 100 ildə 1.4 milyard ton neftin, 445 milyard $m^3$ təbii qazın çıxdığı hesablanmışdır. İstehsala başlandığı tarixdən 2005-ci ilə qədər Azərbaycanda ən yüksək neft istehsalı isə 1941-ci ildə 23.4 milyon tonla həyata keçirilmişdir.

Azərbaycanda enerji ehtiyatları və buna bağlı olaraq ölkəyə daxil olan xarici sərmayə, 1990-cı illərin ortalarından etibarən Azərbaycan iqtisadiyyatının yaxşılaşmasında əhəmiyyətli bir rola sahibdir.

Enerji ehtiyatlarının istehsalı ilə bağlı imzalanan 23 müqavilə ilə qərarlaşdırılan sərmayənin ümumi həcmi isə təqribən 60 milyard dollardır.

Azərbaycanın ixracatı içərisində əsas yeri 85-90% nisbəti ilə neft və neft məhsulları tutur. 2005-ci ilin sonlarına yaxın BTC-nin fəaliyyətə başlaması ilə ixrac içərisində neftin miqdarı daha da artmışdır.

2004-cü ilə qədər Bakı-Novorossiysk və Bakı-Supsa boru xətləri ilə neft ixrac edən Azərbaycanın ixrac həcmi BTC xəttinin 2005-ci ilin oktyabr ayında fəaliyyətə başlamasından sonra, ilk əvvəl 25 milyon ton, 2007-ci ildən etibarən isə 45-50 milyon ton olmuşdur.

Proqnozlara görə, Azərbaycanın xam neft ixracı 2010-cu ildə 1 milyard barel/gün və 20 il içində isə 2 milyard barel/günə çatacaq.

Təbii qazı idxal edən Azərbaycan 1995-si ildə 579, 2000-ci ildə 274, 2001-ci ildə 3337, 2002-ci ildə 3935.3 milyon $m^3$ (216 milyon dollar), 2004-cü ildə isə 5.5 milyard $m^3$ təbii qaz idxal etmişdir. 2005-ci ildə eyni

miqdarda təbii qaz idxalı planlanmışdır. "Şahdəniz" yatağının 2006-ci ildə istehsala başlaması ilə birlikdə təbii qaz ixracına da başlanılmışdır.

İxrac məhsullarını əsasən neft və neft məhsulları olduğu üçün Azərbaycan iqtisadiyyatı neft qiymətlərindən asılı hala gəlmişdir. 1997-ci ildə neft ilə bağlı vasitəli vergilər ümumi vergilərin 57%-ini təşkil etmişdir. Neft ilə bağlı vergilər büdcə gəlirlərinin əsas artan hissəsini təşkil edərək, 1996-1997-ci illərdə təxminən ümumi gəlirin 50%-ini təşkil etmişdir. 1997-1998-ci illərdə neft qiymətlərinin aşağı düşməsi isə, dövlət gəlilərinə və ümumi iqtisadi gücə mənfi təsir göstərmişdir.

Neft ixracatından Azərbaycanın əldə edəcəyi valyuta gəliri ölkə iqtisadiyyatının digər sahələrinə, xüsusi ilə də idxalı əvəz edən sahələrə və ixrac sahələrinin inkişafına istiqamətəndirilməlidir. Hal-hazırda Azərbaycan dünya bazarına təkcə enerji və xam maddənin ixracatçısı kimi çıxmağa məcburdursa, gələcəkdə yalnız bununla kifayətlənmək olmaz. Bundan əlavə, neft ixracatçısı olan ölkələrin "acı" təcrübəsini dərindən öyrənərək ondan nəticə çıxarmaq lazımdır.Neftdən əldə edilən gəlir ilə daha çox investisiya qoyulmalıdır. Sərmayə istiqamətli siyasət daha əhəmiyyətlidir. Ancaq hökumət bununla birlikdə sosial məsələləri də həyata keçirməlidir.

Beynəlxalq informasiya prosesinə sürətlə qovuşmaq, Dünya Birliyində öz layiqli yerini tutması üçün Azərbaycanın hər hansı bir neft ixracı marşrutunu reallaşdırarkən özünün iqtisadi və siyasi maraqlarına ekoloji problemləri və s-ni nəzərə alaraq BTC əsas ixrac neft kəmərinin tikintisinin zəruri və strateji məqsəd kimi ön plana çıxmasını şərtləşdirən amillər artıq bu layihəni tarixi zərurətə çevirmişlər. Həmin neft kəmərlərinə üstünlük verilməsi təkcə ölkəmiz üçün deyil, həm də çox böyük regional və beynəlxalq əhəmiyyəti vardır. Belə ki, BTC, ilk növbədə, ölkəmizi etnik siyasi münaqişələr burulğanından xilas etmiş, dövlət müstəqilliyi möhkəmlənmiş, xalqımızın maddi rifah halını xeyli yaxşılaşdıracaq bir vasitəyə çevirməkdədir. Digər tərəfdən neft ixracının genişlənməsi hesabına Azərbaycanın valyuta ehtiyatlarını artırmaq üçün əlverişli şərait yaratmışdır ki, bu da qeyri-neft sektorunun inkişafına zəmin yaratdı və yaradacaq. BTC-nin işə düşməsi ilə enerji daşıyıcılarının Azərbaycanın Türkiyədən keçməklə ixracı və tranzit nəqli üçün Xəzər Aralıq dənizi nəqliyyat dəhlizinin əsası qoyulmuşdur. Və ölkəmiz neftin çevik və etibarlı ixracını təmin edən dövlətə çevrilmişdir. Boru kəməri istifadəyə veriləndən sonra, ildə 50 mln, tondan çox Azərbaycan nefti dünya bazarında satılır.

Tezliklə, "Şahdəniz" qaz yatağının istismarı zamanı "BT Ərzurum" marşrutu ilə Azərbaycan qazı Türkiyə Respublikasına çatdırılacaqdır. Uğurla həyata keçirilən Neft Strateğiyasının və çoxşahəli iqtisadi islahatların nəticəsində ölkə iqtisadiyyatında əsaslı dönüş yaranmışdır.

Elə həmin dövrdən də Azərbaycanın makroiqtisadi göstəricilərdə yüksək artım tempi müşahidə olunmaqdadır. Təkcə onu qeyd etmək olar ki, ÜDM-in nəticələrinə və adambaşına düşən xarici investisiyalara görə, Azərbaycan MDB ölkələri içərisində birinci yeri tutur.

"Əsrin Müqaviləsi" imzalandıqdan cəmi üç il sonra - 1997-ci il noyabrın əvvəllərində İlkin Neft Layihəsi (İNL) çərçivəsində "Çıraq" platformasından hasilata başlandı. Bu hadisə göstərdi ki, "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından dünya bazarına neft ixrac etmək mümkün olacaq. Qarşıda "Azəri", "Dərinsulu Günəşli" yataqlarının üç mərhələdə işlənməsi dururdu. Odur ki, AÇG-dən hasilatın getdikcə artacağı şəksiz idi. Bu isə çıxarılan karbohidrogenlərin dənizdən sahilə nəql olunması, ilkin emalı, yerləşdirilməsi və nəhayət, alıcıya, sifarişçiyə çatdırılması üçün yeni infrastrukturun yaradılmasını tələb edirdi. Beləliklə, istər "Əsrin müqaviləsi" çərçivəsində, istərsə də bilavasitə ona bağlı olan yeni-yeni layihələrin həyata keçirilməsi zərurətə çevrilirdi. "Əsrin Müqaviləsi"nin 15-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi, Kontraktın icrası nəticəsində Azərbaycana milyardlarla, on milyardlarla xarici investisiya qoyulmağa başlamışdı. Bizim bütün neft-qaz infrastrukturumuz yeniləşdi.

Sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında Sazişin imzalanmasının on altıncı ildönümü tamam olur.

Bu tarixi hadisə xalqımızın yaddaşında əbədi yaşayacaq. Çünki məhz bu tarixi addımla müstəqilliyini bir daha sübut edən Azərbaycan, öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirib.

Milli sərvətlərimizdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə olunması, on illərlə imperiya maraqlarına xidmət etmiş karbohidrogen ehtiyatlarının qüdrətli və inkişaf etmiş Azərbaycanın formalaşması üçün istismarı, bu məqsədlə xarici investisiyaların cəlb olunması üçün cəsarətli siyasi addımlar atılıb. Elə ilk günlərdən o vaxt ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev danışıqlar prosesinə cəlb edilmiş, yeni Neft Strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçısı olub. Bu saysız-hesabsız görüş və danışıqlarda, ilk növbədə, Azərbaycan xalqının və dövlətinin maraqları əsas götürülürdü. Əlbəttə, çətinlik və maneələr də var idi. "Əsrin Müqaviləsi" ilə bağlı danışıqların 1994-cü ilin yazında və yayındakı İstanbul və Hyustonda keçən son mərhələləri xüsusilə ağır oldu. Bəzən böhran anları da olur, müəyyən şərtlərin

qəbuledilməzliyi ucbatından danışıqlar dayandırılma məqamına çatırdı. Həmin anları möhtərəm Prezidentimiz İlham Əliyev belə xatırlayır: "Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcək. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik". Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafelərinə uyğun hazırlandı. Təxminən 400 səhifə həcmində və 4 dildə hazırlanmış Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin Müqaviləsi" adını aldı. "Əsrin Müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti ("Amoko", "BP", "MakDermott", "Yunokal", "ARDNŞ", "Lukoyl", "Statoyl", "Ekson", "Türkiyə Petrolları", "Penzoyl", "İtoçu", "Remko", "Delta") iştirak edib. Bununla da müstəqil dövlətimizin Neft Strategiyası və doktrinası uğurla həyata keçirilməyə başladı.

"Əsrin Müqaviləsi"nin ilk günlərindən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu, dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək Sazişin imzalanması üçün yol açdı. "Əsrin Müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulmuş 64 milyard ABŞ dolları məbləğində investisiyanın 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinə yönəldilib.

Bağlanmış bu Müqavilə Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu. "Əsrin Müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində Milli Neft Strategiyası həyata keçirilməyə başladı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi. Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi, eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması nümayiş etdirildi. "Əsrin Müqaviləsi" Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə neft sazişlərində iştirak edən dövlətlərlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi,

dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı.

Neft Strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. Neft Strategiyasının həyata keçirilməsinin ilk illərində əvvəlcə "Bakı-Novorossiysk" və "Bakı-Supsa" boru kəmərləri yenidən quruldu, daha sonra neftin və qazın etibarlı və irimiqyaslı ixracını təmin etmək məqsədi ilə Heydər Əliyev adına "Bakı-Tiflis-Ceyhan" əsas neft ixrac və "Bakı-Tiflis-Ərzurum" qaz ixrac boru kəmərləri tikilərək, istismara verildi. "Bakı-Tiflis-Ceyhan" və "Bakı-Tiflis-Ərzurum" əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi və bu kəmərlərlə neftin və qazın nəqlinin ildən-ilə genişlənməsi Neft Strategiyasının mühüm qələbəsi idi. Xəzər dənizi ilə Aralıq dənizini birləşdirən bu yeni enerji dəhlizinin fəaliyyəti sayəsində Azərbaycan neftinin beynəlxalq bazarlara genişmiqyaslı nəqli və ölkədə çoxvariantlı ixrac strategiyasının həyata keçirilməsi üçün əlverişli imkan yarandı, eyni zamanda ölkənin tranzit potensialı bir neçə dəfə artdı. "Bakı-Tiflis-Ceyhan" və "Bakı-Tiflis-Ərzurum" əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi Azərbaycan, Gürcüstan, Türkiyə ilə Mərkəzi Asiya regionu arasında idxal-ixrac münasibətlərinin və iqtisadi əlaqələrin inkişafına təkan verildi.

"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda mövcud ehtiyatların son qiymətləndirilməsinə görə, burada 2008-ci ilin sonuna ilkin geoloji neft ehtiyatları 2 milyard 188 milyon tondur. Yataqlar blokundan, ümumilikdə 923 milyon ton neft hasil olunub.

1998-ci ilin ilkin qiymətləndirilməsi ilə müqayisədə AÇG yataqlar blokunda geoloji ehtiyatların həcmi 45,6 faiz olub, hasil olunmuş ehtiyatlar isə 1,5 dəfə artıb. Yataqlar blokundan hasil olunmuş səmt qazının həcmi 353,756 milyard kubmetrə, geoloji ehtiyatlar isə 632, 366 milyard kubmetrə bərabərdir.

Milli Neft Strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə istismarı və ixracı ildən-ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta daxilolmaları sürətlə artmaqdadır. Hazırda Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada birincidir, ölkəmiz əhəmiyyətli regional və beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Dünya İqtisadi Sisteminə inteqrasiya neft gəlirlərinin idarə edilməsi sahəsində ən yaxşı təcrübələrin tətbiqinə yol açıb. Azərbaycana daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsini təmin etmək məqsədi ilə 1999-cu ildə ulu öndər Heydər Əliyevin Fərmanı ilə Dövlət Neft Fondu yaradıldı. Neft Fondunun təsis olunması ilə neft sərvətlərinin nəsillər

arasında ədalətli bölgüsü, onların səmərəli və məqsədyönlü idarə edilməsi üçün əsaslı təminat yaradıldı.

Yaradılarkən 271 milyon ABŞ dollarına bərabər olan Dövlət Neft Fondunun aktivlərinin həcmi hazırda 12 milyard ABŞ dollarını keçib. Bu vəsait ildən-ilə artacaq. Dövlətin artan maliyyə imkanları hesabına ölkədə mühüm investisiya, o cümlədən regional proqramların və infrastruktur layihələrin maliyyələşdirilməsinə şərait yaranıb. Son illər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət proqramları çərçivəsində ölkənin bütün bölgələrində və Bakı şəhərində müxtəlif infrastruktur layihələri həyata keçirilir, təhsil, sosial və digər obyektlərin inşası uğurla davam etdirilir.

Ölkənin maliyyə potensialının artması nəticəsində qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi üçün əlverişli zəmin yaranıb. Bununla əlaqədar Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi kursun prioritet istiqaməti olaraq Azərbaycanda neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişaf etdirilməsinə bu gün xüsusi diqqət yetirilir. Bu məqsədlə artan neft gəlirləri hesabına ölkədə mühüm infrastruktur və sosialyönümlü layihələrin maliyyələşdirilməsi həyata keçirilir.

Azərbaycanın hər bir bölgəsində yeni, müasir tələblərə cavab verən infrastruktur yaradılır, elektrik stansiyaları tikilir, qaz və su kəmərləri çəkilir, yollar salınır. İnfrastrukturun yeniləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər eyni zamanda insanların rahatlığı, firavan yaşayışı üçün həyata keçirilən sosialyönümlü tədbirlərin mühüm tərkib hissəsidir.

Artan neft gəlirləri hesabına, ilk növbədə, sosial siyasət sayəsində, o cümlədən aztəminatlı təbəqələrin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də saysız tədbirlər həyata keçirilir. Bu məqsədlə dövlətimizin Başçısı tərəfindən bir neçə Sərəncam və Dövlət Proqramı qəbul edilmiş və bu qərarlara uyğun olaraq qaçqın və məcburi köçkünlər üçün Azərbaycanın müxtəlif ərazilərində yaşayış qəsəbələri tikilmiş, 2007-ci ilin sonunda isə Sabirabad rayonunda yerləşən son Qalaqayın çadır düşərgəsi ləğv edilib və burada məskunlaşmış məcburi köçkünlər yeni qəsəbələrə köçürülüb. Ölkənin artan maliyyə imkanları hesabına, beynəlxalq əhəmiyyətli strateji infrastruktur layihələri də uğurla həyata keçirilir. Bu layihələr təkcə Azərbaycanın deyil, bütövlükdə regionun nəqliyyat infrastrukturunun modernləşdirilməsinə şərait yaradır. Bu layihələrdən biri olan "Bakı-Tiflis-Qars" yeni dəmir yolunun inşası Azərbaycanın regionda siyasi nüfuzunun güclənməsinə təkan verməklə bərabər, respublikamızın Qərbə doğru inteqrasiyasına, Azərbaycan, Gürcüstan və Türkiyə arasında siyasi və iqtisadi münasibətlərin inkişafına şərait yaradacaqdır. "Bakı-Tiflis-

Qars" yeni dəmiryolu regional əhəmiyyətə malik olmaqla bərabər, Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizinə çevriləcəkdir.

Bu gün neft gəlirlərinin bir hissəsi su təchizatı ilə bağlı məsələlərin həllinə yönəldilir. Bu, Bakının su təchizatı ilə bağlı problemlərin əsaslı şəkildə həllini təmin edəcək. "Oğuz-Qəbələ" zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi və "Samur-Abşeron" suvarma sisteminin yenidən qurulması layihələri mühüm yer tutur. Bu layihələrin reallaşması Neft Strategiyasının məntiqi davamı kimi qəbul edilir.

Neftdən əldə edilən gəlirlər hesabına bu gün ölkənin kadr potensialının artırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri kimi, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın reallaşması nəticəsində ölkəmizdə müasir tələblərə cavab verən kadr potensialının yaradılmasına, gənc nəslin təhsil səviyyəsinin artırılmasına və beynəlxalq səviyyəyə çatdırılmasına şərait yaranıb. Bu proqramın, ilk növbədə, neft gəlirləri hesabına maliyyələşdirilməsi "qara qızılın insan kapitalına çevrilməsi" ideyasının reallaşmasına doğru atılmış strateji bir addımdır.

"Əsrin Müqaviləsi" ilə əsası qoyulmuş Milli Neft Strategiyasının uğurlarının nəticəsi olaraq Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranıb. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanğıcında, məhz Milli Neft Strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu "Əsrin Müqaviləsi" təşkil edir.

Bu yaxınlarda Dövlət Neft Şirkəti ilə «BP-Azərbaycan» şirkəti arasında «Azəri-Çıraq-Günəşli» yataqlarının işlənməsi çərçivəsində yeni "Çıraq Neft" Layihəsinə başlamaq haqqında Müqavilə imzalanıb. Bu layihənin reallaşması üçün ölkəyə 6 milyard dollar investisiya qoyulacaq, 1800 yeni iş yeri açılacaq.

"Çıraq Neft" layihəsi «Əsrin Müqaviləsi» çərçivəsində reallaşan "Azəri-Çıraq-Günəşli" layihəsinin növbəti hissəsidir. Layihə yeni texnologiyalardan istifadə etməklə, bu yataqlardan daha çox neft çıxarmağa imkan verəcək. «BP-Azərbaycan» Şirkətinin Prezidenti Rəşid Cavanşir bildirdi ki, "Çıraq Neft" layihəsi çərçivəsində əlavə 360 milyon barel neft hasil olunacaq. Bu indiki qiymətlərlə 28 milyard dollar pul deməkdir.

Layihənin reallaşmasına 6 milyard dollar xərclənəcək. Bunun 4 milyardı tikinti, 2 milyardı isə qazma işlərinə sərf olunacaq. Ancaq yeni layihənin əhəmiyyəti təkcə bununla bitmir. "Çıraq Neft" layihəsi ölkədə 1800 yeni iş yerinin yaradılmasına imkan verəcək. Bundan başqa, əvvəlki layihələrdən fərqli olaraq bu dəfə lazım olan bütün qurğular ölkə daxilində istehsal ediləcək.

Layihənin reallaşması üçün suyun 170 metr dərinliyində, «Çıraq» və «Dərinsulu Günəşli» platformaları arasında yeni platforma qurulacaq. Buradan neftin 2013-cü ildə çıxarılması gözlənilir. Qeyd edək ki, indi Azərbaycanda 14 xarici neft-qaz şirkəti işləyir, İndiyədək Azərbaycanın neft sektoruna 38 milyard dollar sərmayə qoyulub. Bunun böyük hissəsi "Azəri-Çıraq-Günəşli" layihəsinə sərf olunub. İndi "Azəri-Çıraq-Günəşli" yataqlarından gündə 850 min barel, yəni 68 milyon dollarlıq neft çıxarılır.

Əminliklə, demək olar ki, bu güclü təməl üzərində ölkə iqtisadiyyatı bundan sonra daha sürətlə inkişaf edəcək, xalqımızın rifahı ildən-ilə daha da yaxşılaşacaq, Azərbaycan qüdrətli dövlətə çevriləcək.Lakin keçən qlobal dünya böhranı Azərbaycana müəyyən qədər təsir göstərdi.

Qlobal böhran dünya iqtisadiyyatına sıx inteqrasiya olunmuş Azərbaycan iqtisadiyyatı üçün də əhəmiyyətli risklər yaratsa da, qonşu Cənubi Qafqaz ölkələri ilə müqayisədə, Azərbaycan ötən ili müsbət yekunla başa vurmuşdur. Çünki Azərbaycan iqtisadiyyatı qlobal böhranını neft ixracatından gələn gəlirlər hesabına akkumilyasiya olunmuş kifayət qədər sərbəst maliyyə resursları ilə qarşılamışdır. Bu, böhrandan öncəki dövrdə neft hasilatının və ixracatının artımı hesabına yaradılmış valyuta ehtiyatları sayəsində mümkün olmuşdur. Bütün bunlar nəticəsində Azərbaycan iqtisadiyyatının "təhlukəsizlik yastığı" rolunu oynayan valyuta ehtiyatları börhan dövrü üçün makroiqtisadi və maliyyə sabitliyinin təminatına çevrilmişdir. Azərbaycan iqtisadiyyatı qlobal böhrana yüksək dayanıqlılıq nümayiş etdirərək öz müvazinətini itirməməsinin, ÜDM-in yüksək artım dinamikasını qoruya bilməsinin digər səbəbi də Azərbaycan Mərkəzi Bankının həyata keçirdiyi antiböhran siyasəti olmuşdur. Odur ki, bu risklərlə üz-üzə qalan 2009-cu ili Azərbaycan iqtisadiyyatı üçün ən çətin il kimi xarakterizə etmək olar. Belə ki, təzahürləri hələ 2008-ci ilin ikinci yarısından başlayan qlobal böhranın yaratdığı risklər Azərbaycan iqtisadiyyatında nominal ÜDM-in neqativ dinamikasını, adambaşına düşən ÜDM-in azalmasını, ÜMM-lə ÜDM arasında fərqin böyüməsini, qeyri-neft ÜDM-nin ümümi səviyyədən geridə qalan artımını, dövlət xərcləmələrinin ixtisarını, biznes mühitinin rəqabət qabliyyətinin aşağı düşməsini əhalinin gəlirlərinin artım tempinin azalmasını şərtləndirmişdir. Nəticədə, Azərbaycan iqtisadiyyatında böhrandan əvvəlki 3 ildə müşahidə edilmiş orta illik 22%-lik iqtisadi artım sürəti 2009-cu ildə 9,3%-ə endi. İlk baxışdan bu artım dünyada tüğyan edən böhran şəraitində nəinki regional, hətta qlobal baxımdan kifayət qədər yuksək göstərici təsiri bağışlayır. Lakin unutmayaq ki, Azərbaycan hələ də xammal ölkəsi olaraq qalır və ÜDM-in artımı ölkə iqtisadiyyatının real vəziyyətini o qədər də adekvat ifadə etmir. Ötən il ölkə iqtisadiyyatının əsas ixrac məhsulundan - neftdən,

daha doğrusu, onun qiymətindən asılılığını bir daha qabarıq şəkildə göstərdi. Belə ki, struktur təhlili göstərir ki, Azərbaycanda ÜDM-in üçdə iki hissəsi ixrac edilir və milli iqtisadiyyatın artımının yarıdan çoxu xarici tələb amilləri hesabına formalaşır. Bu baximdan ölkədə istehsal olunan neftin həcmi və onun dünya bazar qiymətlərinin dinamikası milli iqtisadiyyat üçün çox önəmlidir. Ötən il ÜDM-in real artımının 9,3% səviyyəsində qərarlaşmasında neft sektorunda formalaşan ÜDM-in 14,3%-lik və həcmcə ondan kiçik olan qeyri–neft ÜDM-nin 3,2%-lik artımı səbəb oldu.

### 5.4. Azərbaycanın ixracında neft və neft məhsullarının payı

2010-cu ilin I rübü ərzində respublikanın rezident və qeyri-rezidentləri tərəfindən 112 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi 5667674,9 min ABŞ dolları olmuşdur. Bu müddət ərzində 4509261,5 min ABŞ dolları dəyərində 995 adda mal ixrac, 1158413,4 min ABŞ dolları dəyərində 4050 adda mal isə idxal olunmuş, ixrac-idxal əməliyyatları üzrə müsbət saldo 3350848,1 min ABŞ dolları təşkil etmişdir.

O cümlədən, respublikaya 5641,1 min ABŞ dolları dəyərində 469,1 ton əmtəə dövlət, hökumət və beynəlxalq təşkilatların xətti ilə təmənnasız kömək, humanitar yük və texniki yardım kimi daxil olmuşdur.

2009-cu ilin I rübünə nisbətən, 2010-cu ilin I rübündə ixrac əməliyyatlarının həcmi 81,65% (2026894,3 min ABŞ dolları) artmış, idxal əməliyyatlarının həcmi isə 12,60% (166968,7 min ABŞ dolları) azalmışdır.

Müvəqqəti ixrac rejimində ölkəmizdən 33810,9 min ABŞ dolları dəyərində mal ixrac edilmiş, 72734,1 min ABŞ dolları dəyərində mal isə ölkəyə müvəqqəti idxal edilmişdir.

2010-cu ilin I rübü ərzində müxtəlif növ nəqliyyat vasitələrindən istifadə etməklə, 9527,8 min ton yük daşınmışdır. Bu da keçən ilin müvafiq dövrünə nisbətən 100,76% təşkil etmişdir. Bunlardan 8111,5 min ton ixrac, 1416,3 min ton isə idxal əməliyyatlarının payına düşür. İxrac əməliyyatlarında əsasən dəniz (82,2 min ton), dəmiryolu (773,8 min ton), avtomobil (123,4 min ton), hava (86,6 min ton) və stasionar nəqletmə (boru kəməri) (7044,7 min ton) nəqliyyat vasitələrindən istifadə olunmuşdur. İdxal əməliyyatlarında dəniz (141,4 min ton), dəmiryolu (948,2 min ton), avtomobil (319,2 min ton), hava (3,7 min ton) nəqliyyat vasitələrinə üstünlük verilmişdir. Qeyd etmək lazımdır ki, daşınmalarda nəqliyyat vasitələrindən istifadənin vəziyyətinin təhlili yalnız yük-gömrük bəyannamələri (YGB) əsasında aparılmışdır.

Göstərilən müddət ərzində gömrük orqanlarında 43646 (əlavə vərəqlə birlikdə 61223) ədəd YGB rəsmiləşdirilmişdir. Bunlardan 8037 (əlavə vərəqlə birlikdə 8934) ədəd ixrac, 35609 (əlavə vərəqlə birlikdə 52289) ədəd idxal YGB-sidir. 2010-cu ilin I rübündə YGB-lərin ümumi sayı 2009-cu ilin müvafiq dövrünə nisbətən 95,66% təşkil etmiş və ya 1981 ədəd bəyannamə çox olmuşdur. O cümlədən, ixracda artım 1747 (127,77%) ədəd, idxalda isə azalma 3728 (90,52%) ədəd YGB olmuşdur.

Tranzit olaraq Azərbaycan Respublikası ərazisindən 2154,9 min ton yük keçirilmişdir. Tranzit yüklər əsasən Bermud adaları (891,7 min ton), İsveçrə (400,1 min ton), İtaliya (299,2 min ton), Gürcüstan (129,7 min ton), Tacikistan (100,2 min ton), İran (71,6 min ton), Əfqanıstan (71,3 min ton), Türkmənistan (66,0 min ton) və Türkiyə (34,8 min ton) dövlətlərinə göndərilmişdir. Azərbaycan Respublikası ərazisindən daşınan tranzit yükün miqdarı keçən ilin müvafiq dövrünə nisbətən 147,98% olmuş və ya 698,7 min ton çoxalmışdır.

2010-cu ilin I rübü ərzində ixrac-idxal əməliyyatlarının həcminin aylar üzrə dəyişməsi aşağıdakı kimi olmuşdur:

- ixrac əməliyyatlarının həcminin yüksək həddi fevral ayında (1788577,6 min ABŞ dolları), aşağı həddi isə mart ayında (1292640,9 min ABŞ dolları) olmuşdur;
- idxal əməliyyatlarının həcminin yüksək həddi mart ayında (449248,5 min ABŞ dolları), aşağı həddi isə fevral ayında (345164,7 min ABŞ dolları) olmuşdur;
- mart ayında ixrac əməliyyatlarının həcmi fevral ayı ilə müqayisədə 495936,7 min ABŞ dolları həcmində azalmışdır;
- mart ayında idxal əməliyyatlarının həcmi fevral ayı ilə müqayisədə 104083,8 min ABŞ dolları həcmində artmışdır;
- ixrac əməliyyatlarında orta aylıq azalma 67701,1 min ABŞ dolları, idxal əməliyyatlarında isə orta aylıq artım 42624,1 min ABŞ dolları olmuşdur.

Fiziki şəxslər tərəfindən respublikaya gətirilən 38461,1 min ABŞ dolları dəyərində əmtəə gömrük mədaxil orderləri (GMO) ilə rəsmiləşdirilmişdir. Keçən ilin müvafiq dövrünə nisbətən GMO ilə rəsmiləşdirilən yüklərin dəyəri 60,98% təşkil etmiş və ya 24613,3 min ABŞ dolları az olmuşdur.

İdxal-ixrac əməliyyatlarının saziş növləri üzrə təhlili göstərir ki, 2010-cu ilin I rübü ərzində 01, 21, 41 və 80 saziş növlərinə üstünlük verilib.

| | **İxracda:** | **İdxalda:** |
|---|---|---|
| 01 (milli valyuta ilə hesablaşma) | -0,30 % | -0,09 % |

21 (SDV ilə hesablaşma) -93,89 % -76,56 %
23 (dövlət krediti üzrə hesablaşma) -0,01 % -4,16 %
41 (qapalı dövriyyəli valyuta) -0,33 % -5,96 %
80 (digərləri) -5,48 % -13,24 %

İxrac və idxalın strukturunda gömrük nəzarətindən keçən əsas əmtəələrin payı (%-lə) aşağıdakı kimidir (2009-cu ilin I rübünə nisbətən müqayisə statistik dəyərə görə aparılmışdır):

İxracda: xam neft - 84,61% (2009-cu ilin I rübünün ixracına nisbətən 185,84%), neft məhsulları - 6,72% (136,51%), bitki və heyvan mənşəli yağlar - 1,23% (182,43%), qara metallar və onlardan hazırlanan məmulatlar - 0,61% (374,27%), meyvə-tərəvəz - 0,33% (100,75%), kimya sənayesi məhsulları - 0,31% (407,89%), alkoqollu və alkoqolsuz içkilər - 0,10% (256,92%), pambıq - 0,05% (151,87%), tütün və tütün məmulatları - 0,02% (93,26%), alüminium və ondan hazırlanan məmulatlar - 0,02% (8,80%) təşkil edir. Qalan əmtəələrin payına 6,00% düşür.

İdxalda: maşın və elektrik aparatları, avadanlıqlar, elektrotexniki avadanlıqlar və onların ehtiyat hissələri - 27,77% (2009-cu ilin I rübünün idxalına nisbətən 72,99%), ərzaq məhsulları - 17,63% (107,37%), nəqliyyat vasitələri və onların hissələri - 12,34% (79,42%), qara metallar və onlardan hazırlanan məmulatlar - 7,44% (76,62%), oduncaq və ondan hazırlanan məmulatlar - 2,81% (298,51%), əczaçılıq məhsulları - 1,92% (91,76%), mebel - 0,89% (105,28%), xalq istehlakı malları - 0,77% (100,64%) təşkil edir. Qalan əmtəələrin payına 28,43% düşür. Azərbaycan Respublikasının ixrac və idxalında xüsusi çəkisi böyük olan ölkələrdən aşağıdakıları göstərmək olar.

**İxracda**

| Ölkənin adı | Dəyəri (min ABŞ dol.) | Ümumi ixraca nisb.%-lə |
|---|---|---|
| İtaliya | 1764436,67 | 39,13 |
| İsrail | 347444,37 | 7,71 |
| Fransa | 318209,46 | 7,06 |
| İndoneziya | 272271,96 | 6,04 |
| ABŞ | 200455,77 | 4,45 |
| Xorvatiya | 182586,04 | 4,05 |
| Ukrayna | 153101,68 | 3,40 |
| Hindistan | 152341,47 | 3,38 |
| Malayziya | 143480,36 | 3,18 |
| Rusiya | 132588,45 | 2,94 |

**İdxalda**

| Ölkənin adı | Dəyəri (min | Ümumi idxa- |
|---|---|---|

ABŞ dol.) la nisb.%-lə

Rusiya 213447,99 18,43
Çin 130625,28 11,28
Türkiyə 127703,50 11,02
Ukrayna 86890,94 7,50
Almaniya 77432,56 6,68
B. Britaniya 58263,93 5,03
Qazaxıstan 43653,35 3,77
ABŞ 32954,44 2,84
Belarus 29401,67 2,54
Fransa 29243,10 2,52

**2010-cu ilin aprel ayına olan statistik məlumatlara əsasən aşağıdakı həcmdə neft və neft məhsulları ixrac olunub.**

**Cədvəl 2**

| | Miqdarı tonla | Dəyəri (min ABŞ dolları) |
|---|---|---|
| 1.Neft (xam) | 6850072,8 | 3815118,9 |
| 1.1) Boru kəməri ilə 01.04.2010-cu ilə qədər gedən xam neft (sayğac göstəricilərinə əsasən) | | |
| -Şimal boru kəməri ilə | 449589,0 | |
| -Supsa boru kəmərilə | 1052853,7 | |
| Bakı-Tiflis-Ceyhan boru kəmərilə | 8266683,5 | |
| 1.2) Dəmiryolu nəqliyyatı 01.04.2010-cu ilə qədər yola salınan xam neft (şərti YGB) | 278184,2 | |
| Neft emalı məhsulları üzrə | 551931,7 | 302893,5 |

Mənbə: Azərbaycan Dövlət Gömrük Komitəsi

Cədvəldən göründüyü kimi, 2010-cı ilin aprel ayına olan məlumata əsasən, Azərbaycan ümumi dəyəri 3815118,9 min ABŞ dolları təşkil edən 6850072,8 min ton xam neft, 302893,5 min dollar dəyərində 551931,7 min

ton neft emalı məhsulları ixrac edib. İxrac olunan xam neftin həcmi 2007-ci il illə müqayisədə 12,3 dəfə artıb neft emalı məhsullarının ixracı isə 9,5% azalıb. Xam neftin 449589,0 tonu "Bakı-Novorossiysk", 1052853,7 tonu "Bakı-Supsa", 8266683,5 tonu isə "Bakı-Tiflis-Ceyhan" boru kəmərləri vasitəsi ilə ixrac edilib Xam neft Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi (6850072,8 ton (100,00%)) tərəfindən ixrac edilmişdir. Neft məhsullarının ixracında Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi (474066,3 ton (85,89%)), "İlqar LTD" şirkəti (34269,3 tonu (6,21%)), "Azneftyağ" İstehsalat Birliyi (20181,5 ton (3,66%)) və Azərbaysan Hava Yolları" QSC-nin "Azal OİL" YSM idarəsi (17562,9 ton (3,18%)) üstünlük təşkil edir.Azərbaycanın magistral kəmərləri ilə nəql olunan neftin həcmi ötən il 11%, qazın həcmi 53% artıb. Ötən il ərzində Azərbaycanda magistral neft kəmərləri ilə 44,4 mln. ton neft nəql edilib. Nəqletmənin ¾ hissəsi "Bakı-Tiflis-Ceyhan" (BTC) əsas ixrac boru kəməri ilə həyata keçirilib və ötən il ərzində bu kəmər vasitəsilə Bakıdan 32,8 mln. ton və ya 15,3% çox neft ötürülüb. Ötən il ilk dəfə olaraq BTC kəməri ilə Qazaxıstan neftinin nəqlinə başlanılıb və 2008-ci ilin son üç ayında bu kəmərlə 285,1 min ton Qazaxıstan nefti ötürülüb. Ümumilikdə, 2009-ci ildə Azərbaycanın magistral neft kəmərləri şəbəkəsi ilə nəql edilmiş neftin həcmi əvvəlki illə müqayisədə 11% artıb.

Azərbaycan nefti ən çox boru və dəmiryol nəqliyyatı ilə nəql olunur. Azərbaycanda istehsal olunan xam neft və neft məhsulları hazırda müxtəlif marşrutlarla ABŞ, Çin, İngiltərə, Almaniya, Fransa, İtaliya, İspaniya da daxil olmaqla, dünyanın 30 ölkəsinə ixrac edilir. Bu barədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) prezidenti Rövnəq Abdullayev bildirib. Onun sözlərinə görə, son zamanlar bu sıraya Hindistan, İndoneziya, Koreya Respublikası, Tailand, Braziliya, Çili kimi Asiya və Cənubi Amerika ölkələri də əlavə olunub. Bundan əlavə, iri beynəlxalq şirkətlərin də yüksək keyfiyyətli Azərbaycan neftinə marağı getdikcə artır. Artıq bir sıra neft emalı sirkətləri ARDNŞ ilə xam neftin ixracına dair uzunmüddətli müqavilələrin bağlanmasına üstünlük verirlər.

Qeyd edək ki, təkcə fevral ayında ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi 8 min 303 ton avtomobil benzini, 121 min 130 ton dizel yanacağı, 6 min 766 ton təyyarə yanacağı ixrac edib. Ümumilikdə, 2010-cu ilin yanvar-fevral ayları ərzində 18 min 847 ton avtomobil benzini, 273 min 109 ton dizel yanacağı, 14 min 985 ton təyyarə yanacağı ixrac edilib. 2010-cu ilin fevral ayında dünya bazarında avtomobil benzininin qiyməti (1 ton üçün) 685 dollar, təyyarə yanacağının – 640,85 dollar, dizel yanacağının – 598,48 dollar, 1%-li kükürdlü mazutun qiyməti isə 445,33 dollar təşkil edib.

Bundan başqa, onu da qeyd etmək istərdim ki, müstəqillik əldə etdikdən sonra Azərbaycanda çıxan neftin xarici bazarlara ixracı strategiyası 1996-cı ildən həyata keçirilməyə başlanmışdır. Bu vaxt Xəzər dənizinin Azərbaycan sektorunda çıxan neftin ixracı üçün iki neft boru kəmərinin: "Bakı-Novorossiysk" və "Bakı-Supsa" istiqamətlərində tikilməsi nəzərdə tutulmuşdur. Birinci neft boru kəməri Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına, ikinci neft boru kəməri isə Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çıxır.

## 5.5. Neft gəlirlərinin milli iqisadiyyatın perspektiv sahələrinə yönəldilməsi istiqamətləri

Ölkəyə neft gəlirlərinin daxil olması və onun təsiri altında baş verən proseslər hazırda təmsilçilik səviyyəsi və mövqeyindən asılı olmayaraq nəinki siyasətçiləri, həm də tədqiqatçıları ən çox düşündürən məsələlərdən hesab olunur. Əgər siyasətçiləri bu vəsaitdən hara və nə qədər xərcləmək maraqlandırırsa, tədqiqatçıları bu halda formalaşacaq tendensiyalar və onun iqtisadiyyata təsirlərinin müxtəlif aspektləri düşündürür. Bu zaman hər iki qrup üçün eyni səviyyədə qəbul olunan bir problem var ki, o da neft gəlirlərinin səmərəli və şəffaf idarə olunmasıdır.

1994-cü ildən bəri Azərbaycanda neft sənayesində xarici tərəfdaşlarla birgə aparılan uğurlu işlərin nəticəsi kimi, ölkəmizə böyük miqdarda neft gəlirləri daxil olmağa başlayıb. Azərbaycan Prezidenti İlham Əliyev "Xəzər-2006" Neft və Qaz sərgisinin açılışında bəyan etdi ki, növbəti 20 ildə Azərbaycanın neft və qaz layihələrindən əldə etdiyi gəlirlər 140 milyard ABŞ dollarından artıq olacaq. 2006-cı ildən başlayaraq bu gəlirlərin həcmi dəfələrlə artmışdır. Qeyd etmək lazımdır ki, neft gəlirləri Azərbaycan üçün parlaq inkişaf imkanları açır, amma bunun üçün böyük neft gəlirlərinin yarada biləcəyi iqtisadi və sosial riskləri hökmən irəlicədən həll etmək lazımdır.

Azərbaycanın neft və təbii qaz gəlirinin idarə olunmasının uzunmüddətli Strategiyası 2008-cü ildə müəyyən edilmişdir. Bu strategiya region enerji sektorunun və ölkə infrastrukturunun inkişafı üçün, yüksək miqdarda neft və təbii qaz gəlirinin əldə edilməyə başlandığı vaxtda, iqtisadiyyatın itkisiz transformasiyasının təmin edilməsi haqqındakı hökumət planlarını əks etdirir. Ölkə Başçısı tərəfindən təsdiqlənən strateji Proqram əldə ediləcək neft və təbii qaz gəlirlərinin 2005-2015-ci illərdə idarəsini əhatə edir. Əldə ediləcək gəlirlərin 25%-i isə xərclənməyərək mühafizə ediləcəkdir.

30 il ərzində Azərbaycanın neft və təbii qazdan 240-265 mlrd dollar gəlir əldə edəcəyi hesablanmışdır. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından əldə olunacaq gəlir 2008-2015-ci illərdə ən yüksək səviyyəsinə çatacaqdır. Bu müddət ərzində ölkəyə ildə təxminən 5-6 milyard dollar, nəticədə isə, 35-42 milyard dollar daxil olacaq. "Şahdəniz" yatağının istifadəsindən sonra əldə edilə biləcək gəlir isə, 2029-cu ilə qədər 7 milyard dollardan çox olacaqdır.

Dövlət Neft Fondu tərəfindən aparılan hesablamalara görə, 2009-2018-ci illərdə neft və təbii qaz gəliri ən yüksək səviyyəsinə çatacaqdır. Növbəti 20 il ərzində ölkənin neft və təbii qaz gəlirləri 25-45 mlrd dollar arasında dəyişəcəkdir.

Xəzər Dənizinin Azərbaycan regionunda yerləşən və sahildən 100 km. uzaqlıqda yerləşən "Şahdənizdə" zəngin qaz yataqlarının kəşfindən sonra, təbii qazın necə ixrac ediləcəyi müzakirə edilməyə başlandı. İlham Əliyev və Türkmənbaşı arasındakı telefon danışıqlarında Azərbaycanın "Trans-Xəzər" xəttindən ildə 5 milyard $m^3$ təbii qaz barədə razılaşılmasının müqabilində, Türkmənistanın "Trans-Xəzər" layihəsində iştirak edəcək şirkətin Müqavilə müddətini uzatmaması, xəttin həyata keçməsini təhlükəyə saldı. Bundan əlavə, Türkmənistanın Rusiyaya ildə 50 milyard $m^3$ təbii qaz satacaq olması bir tərəfdən Türkmənistanın "Trans-Xəzər" boru xəttindən soyuması demək idi. Bunlar da Azərbaycanın öz təbii qazını satmaq üçün yeni yollar axtarmasına səbəb oldu.

2001-ci ilin mart ayında İlham Əliyevin Türkiyəni ziyarəti zamanı Ankarada Türkiyə-Azərbaycan arasında təbii qazın ixracına dair Müqavilə imzalandı. Müqaviləyə görə, Türkiyəyə "Şahdəniz" yatağından çıxarılacaq 2 milyard $m^3$ həcmində, 2005-ci ildə 3 milyard $m^3$, 2006-cı ildə 5 milyard $m^3$ və 2007-2008–ci illərdə 6.6 milyard $m^3$ olmaqla, 5 il ərzində 23.2 milyard $m^3$ təbii qaz ixracı planlaşdırılsa da, sonrakı illərdə bəzi qiymət anlaşılmazlığı və texniki problemlərdən qaynaqlanan müəyyən axsamalar olmuşdur. İmzalanan Müqavilədə ixraca 2004-cü ildə başlanacağı qərarlaşdırılsa da, hadisələrin gedişatına görə daha sonra "Şahdəniz" təbii qazının Türkiyəyə nəql edilməsi məqsədi ilə Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərinin inşasına 2004-cü ildə başlanılmışdır. Həmin bu kəmər, BTC neft kəmərinə paralel düşünülmüşdür. İki boru xətti arasında məsafənin 12 metr olaraq hesablanması isə layihənin həyata keçməsində vaxtın və maliyyə xərclərinin azaldılmasına imkan verəcəkdir.

2004-cü ildə "BP" şirkəti "Şahdəniz" dəniz yatağının təbii qaz nəqli ilə əlaqədar Cənubi Qafqaz təbii qaz boru kəmərinin inşasına başlamışdır. İnşaatın 2005-ci ilin 4-cü rübündə tamamlanması, 2006-cı ilin qışında isə təbii qazın istehsal edilərək ixracatına başlanılmışdır..

İmzalanan bir müqavilə ilə birinci il 1 milyard $m^3$ olmaq üzrə təbii qaz Yunanıstan və Avropaya ixrac ediləcəkdir. İxrac miqdarı daha sonra 14.3 milyard $m^3$-ə çıxacaqdır. Bu çərçivədə Yunanıstan ilə Türkiyə arasında kəmərin inşası da planlaşdılmışdır. Yunanıstanın bu kəmərdən təbii qaz alması ilə layihəyə qoşulması, Yunanıstanın "Şahdəniz" layihəsinin strateji müttəfiqi olan Türkiyə ilə münasibətlərinin dərinləşməsinə kömək edəcək. Yunanıstanın layihədə iştirakı Azərbaycana və Ermənistana qarşı siyasətində də tarazlıq yaradacaq.

"Trans–Xəzər" təbii qaz boru kəmərinin də aktiv hala gətirilməsi halında enerji qaynaqlarının iqtisadi inkişafına təsiri daha aydın görünəcək.

Neft gəlirlərinin sürətli artımı neft sektorunu ölkə iqtisadiyyatının həlledici sahəsinə çevirib. Bir tərəfdən, neft hasilatı və satışı sahəsində əldə olunan nailiyyətlər, digər tərəfdən dünya bazarında neftin satış qiymətinin yüksəlməsi ölkədə makroiqtisadi göstəricilərin (ÜDM-ə və büdcə gəlirlərinə, xarici ticarət dövriyyəsinə və s.) dinamik artımına olduqca ciddi təsir göstərib. Hal-hazırda ölkəmizdə ən çox müzakirə olunan məsələlər neft gəlirlərini necə və hara xərcləməklə bağlı olan məsələlərdir:

1) qeyri-neft istehsal sahələrini necə inkişaf etdirib rəqabətqabiliyyətliliyini təmin etməli;

2) neft gəlirlərindən bütün əhali təbəqələrinin faydalanmasını necə təmin etməli;

3)"neft qarğışından" necə xilas olmalı.

Bir sıra ölkələrdə bu məsələlərin ən optimal həlli Neft Fondu yaratmaq hesab edilir.

Neft Fondunu yaratmaq və düzgün idarə etməklə aşağıda sadalanan problemlərin həllinə nail olmaq mümkündür:

- Milli valyutanın real mübadilə məzənnəsinin kəskin artmasının qarşısını almaq;
- Fiskal intizamı qoruyub saxlamaq;
- Gələcək nəsillər üçün yığım;
- Fiskal stabilizasiya.

Ümumiyyətlə desək, Neft Fondu yaratmaqda əsas məqsəd indiki neft gəlirlərilə, indiki xərcləri bir-birindən bacardıqca çox ayırmaqdan ibarətdir. Bu o qədər də asan olmayan bir məsələdir. Belə ki, indiki nəsil istəyir ki, qısa müddətdə neft gəlirlərinin bəhrəsini görsünlər. Bu isə o zaman mümkün olardı ki, neft gəlirləri ya əhali arasında bölünsün, ya da istehlak məqsədilə dövlət tərəfindən təşkil olunmuş şəkildə xərclənsin. Amma, dünya ölkələrinin tarixi təcrübəsi göstərir ki, zəif qeyri-neft sektoru və tam inkişaf etməmiş maliyyə sistemi olan ölkələrdə neft gəlirlərinin indiki nəsil vətəndaşlar arasında bölünməsi və ya istehlaka xərclənməsi neft gəlirlərinin ümumi faydasını ciddi şəkildə azaldır və həm də böyük makroiqtisadi sarsıntılara səbəb ola bilər. Neft fondları adətən iki cür olur:

- Yığım fondu: təbii sərvətlərin istismarından əldə edilən gəlirləri yığıb gələcək istifadəyə saxlamaq üçün;
- Stabilizasiya fondu: təbii sərvətlərin istismarından dövlətin əldə etdiyi gəlirlərin stabilləşdirilməsi üçün.

Dövlət Neft Fondu 1999-cu ildə ulu öndər Heydər Əliyevin qərarı ilə yaradılmışdır. Ötən müddətdə xalqımızın milli sərvəti olan neft gəlirlərinin idarə olunması sahəsində uğurlar qazanılmışdır. Qurum yeni

yaradılan zaman 271 milyon ABŞ dollarına bərabər olan büdcəsi bu gün təqribən 28 milyard ABŞ dollarına çatmışdır. Azərbaycan Dövlət Neft Fondu əsasən yığım məqsədilə yaradılan bir fonddur. Azərbaycanda Dövlət Neft Fondunun yaradılması çox düzgün və vaxtında atılmış bir addım idi. Hökumət ARDNF-nun yaradılması və onun vəsaitlərindən istifadə edilməsi istiqamətində həm institutsional, həm də proqram xarakterli bir sıra uğurlu işlər görüb. Hazırda, ARDNF həm tədqiqatçılar, həm də iqtisadi siyasətlə məşğul olanlar tərəfindən ən düzgün tərtib edilmiş bir Neft Fondu kimi misal gətirilir. Amma bütün yığım fondları kimi ARDNF qarşısında da belə bir problem dayanır: artan neft gəlirləri fonunda əhali öz gəlirlərinin də eyni sürətlə artmasını görmək istəyir, bu isə öz növbəsində Neft Fondunun yığım fəlsəfəsi ilə uyğun gəlmir.

Azərbaycanda neft gəlirlərinin istifadəsində üç mühüm məsələni fərqləndirmək lazımdır:

1. Neft gəlirlərinin hansı hissəsinin indi istehlak üçün xərclənib, hansı hissəsinin isə gələcək nəsillər üçün yığılıb saxlanması;
2. Neft gəlirlərinin qeyri-istehlak üçün xərclənən hissəsinin hansı layihələr üçün istifadə edilməsi;
3. Neft gəlirlərinin isitifadə edildiyi layihələrdə xərclərin səmərəli və şəffaf şəkildə istifadə edilməsi.

İndi isə bu məsələlərin hər üçünü ayrı-ayrılıqda araşdırmaq lazımdır.

### 1. Nə qədər indi xərcləməli, nə qədər gələcək nəsillərə saxlamalı?

Azərbaycanın neft və qaz ehtiyatları sonsuz deyil: 2005-ci ilin sonuna olan məlumata əsasən, Azərbaycanın təsdiq olunmuş neft ehtiyatı 7 milyard barel, qaz ehtiyatı isə 1,38 trilyon kubmetrdən bir az artıqdır ("BP" şirkətinin 2005-ci ilin sonuna olan məlumatı: Statistical Review of World Energy 2005). Hazırkı hasılat planlarına əsasən, demək olar ki, mövcud təsdiq olunmuş ehtiyatlar ancaq 2-3 növbəti onillik ərzində tükənəcək. Ona görə də neft gəlirlərindən elə isitifadə edilməlidir ki, həm indiki nəslin, həm də gələcək nəsillərin rifahı yüksək şəkildə təmin edilsin. Bu səbəbdən hər il dəqiq müəyyən edilməlidir ki, neft gəlirlərinin hansı hissəsi xərclənməli, hansı hissəsi isə gələcək üçün yığılmalıdır. Burada əsas prinsip nəsillərarası istehlakın optimallaşdırılması olmalıdır. Son vaxtlar bəzi azərbaycanlı iqtisadçılar (parlamentdə və hökumətdə təmsil olunan iqtisadçılar) neft gəlirlərinin 75%-nin cari istehlak üçün xərclənib, 25%-nin isə yığılmasının tərəfdarı olduqlarını bildirirlər. Fikrimcə, bu məsələyə qeyri-ciddi yanaşmadır. Belə ki, neft gəlirlərinin çox böyük hissəsinin xərclənməsi ciddi problemlərə gətirib çıxarar.

Sonda belə bir nəticəyə gəlmək olar ki, artıq neft gəlirləri elə bir həcmdə iqtisadiyyata daxil olmağa başlayıb ki, onu idarə etməyin çətinlikləri asta-asta üzə çıxır:

- Neft gəlirlərinin böyük hissəsinin indi xərclənməsi (əsasən də istehlak məqəsədilə) Azərbaycan iqtisadiyyatını gələcəkdə neftin qiymətindən kəskin asılı vziyyətdə qoyar.
- Neft gəlirlərinin böyük hissəsinin indi xərclənməsi iqtisadi islahatların aparılmasının vacibliyindən diqqəti yayındırar, fiskal, vergi və mübadilə məzənnəsi siyasəti sahələrində bir arxayınçılığa gətirib çıxarar ki, bu da Azərbaycanın qlobal miqyasda rəqabət apara bilən iqtisadiyyat qurması niyyətini puç edər.
- Neft gəlirlərinin əksər hissəsinin indi xərclənməsi, nəsillərarası ədalət baxımından düzgün olmazdı – gələcək nəsillərə ancaq korlanmış ətraf mühit və lazımsız, paslanmış infrastruktur qalar (neft sənayemizin indiki müstəqillik dövrümüzə qədərki vəziyyəti buna misaldır).

Yuxarıda sadalananları nəzərə alaraq, təklif edirəm ki, neft gəlirlərinə "göydəndüşmə" gəlirlər kimi baxaraq, həmin pulları əsasən ölkənin insan kapitalının artırılması, yığım, bir qismini isə ölkənin iqtisadi gücünü artırmağa xidmət edən iri infrastruktur layihələri üçün sərf edilməsi məqsədəuyğun olardı. Xərc-yığım bölgüsü indi bəzilərinin barmaqhesabı təklif etdiyi kimi 75-25 deyil, belə bir prinsipə əsasən aparılmalıdır ki, Azərbaycanın neft gəlirləri həm indiki, həm də gələcək nəsillərin həyat səviyyəsinin yüksəldilməsinə və rəqabətqabiliy- yətli iqtisadiyyatın qurulmasına sərf edilməlidir.

Neft gəlirlərinin yığım üçün olan hissəsini isə yüksək gəlir gətirmək məqsədilə yerli və xarici fond idarəçilərinə həvalə etmək olar. Bu yolla həmçinin Azərbaycanı gələcəkdə güclü regional maliyyə xidmətləri mərkəzinə çevirmək mümkündür.

### 2. Neft gəlirlərini necə və hara xərcləməli?

Neft gəlirlərinin hara xərclənməsi məsələsi, ən mürəkkəb məsələlərdən biridir və bu məsələdə edilə biləcək səhv, vətəndaşlarımızın Azərbaycanın parlaq gələcəyi ilə bağlı ümidlərinin puça çıxması demək olardı. Səhvə yol verməmək və xərclənən neft gəlirlərinin səmərəli istifadəsi üçün, fikrimcə aşağıdakı addımlar atılmalıdır:

- Mütəxəssisləri cəlb edərək qabaqcıl dünya təcrübəsindən öyrənməklə, qısa müddətdə Azərbaycanın Ümumi İnkişaf Konsepsiyası hazırlanmalıdır;
- Azərbaycan Prezidenti yanında, bu Konsepsiyanın ardıcıl və uğurla həyata keçirilməsinə nəzarət edəcək İnkişaf Əlaqələndirmə Şurası yaradıl-malıdır;

• Neft pullarının xərclənməsində Dövlətin və Özəl Sektorun rolları dəqiq müəyyən edilməlidir:

o Dövlət əsasən mikro və makroiqtisadi əlverişli mühitin yaradılması və iri vacib infrastruktur layihələrinin həyata keçirilməsi ilə məşğul olur;

o Özəl Sektor isə yaradılmış əlverişli rəqabət və açıq iqtisadiyyat mühitinə öyrəşib inkişaf etməlidirlər.

• Sosial və iqtisadi inkişafın prioritet istiqamətləri müəyyənləşdirilməlidir və istifadə olunacaq resurslar məhdud olduğu üçün, hər iki sahədəki prioritetlər uzlaşdırılmalıdır;

• Uzunmüddətli iqtisadi inkişaf planları və hədəfləri müəyyən edilməlidir;

• Amma dövlətin neft pullarından istifadə edərək biznes layihələrində birbaşa iştirakına yol verilməməlidir!

İqtisadi siyasət elə qurulmalıdır ki, guya ki, neft gəlirləri yoxdur. Ancaq bu halda neft gəlirləri ümumi iqtisadi inkişafa müsbət təsir edə bilər.

Neft gəlirləri **dövlət tərəfindən** əsasən üç məqsəd üçün xərcələnsə, daha yaxşı olar:

1.İnsan kapitalının inkişafına;

2.İri infrastruktur layihələrinə;

3.Ölkədə münbit mikroiqtisadi mühitin yaradılmasına.

Qeyd etmək lazımdır ki, neft gəlirlərinin inkişaf üçün xərclənməsi, ölkəmizin coğrafi şəraiti (regionda yeri, təbii ehtiyatları və iqlim şəraiti), iqtisadi inkişaf səviyyəsi, sosial sahədəki vəziyyət, iqtisadi, siyasi və sosial institutların hazırkı inkişaf səviyyəsini nəzərə alaraq aşağıdakı istiqamətərdə istifadə edilməsi çox məqsədəuyğun olardı:

**1. Neft-kimya sənayesinin inkişafına:**

• Yüksəkixtisaslı idarəetmə və texniki rəhbər kadrların hazırlanmasına;

• Neft-kimya sənayesinin elmi-texniki bazasının müasirləşdirilməsinə;

• Azərbaycanın neft-kimya sənayesinin texnoloji baxımdan müasirləşdirilməsinə;

• Azərbaycanın neft maşınqayırması sənayesinin müasirləşdirilməsinə və ixrac qabiliyyətinin artırılmasına;

• Regional neft sənayesi üçün tikinti və quraşdırma mərkəzinə çevril-məsinə;

• Azərbaycanın tədricən digər regionlarda neft istehsal edən ölkəyə çevrilməsinə;

• Kimya sənayesinin regional kənd təsərrüfatı üçün gübrələr istehsal etməsinə;

• Plastik əmtəələrin müasir texnologiyaya əsasən istehsalı üçün lazımi şəraitin yaradılmasına.

**2. Təhsil sahəsinə:**

• Azərbaycanın gələcək əsas iqtisadi inkişaf istiqamətlərinə uyğun olan sahələrdə yüksəkixtisaslı mütəxəssislərin dünyanın qabaqcıl təhsil müəssisələrində hazırlanmasına;

• Azərbaycanda təhsil müəssisələrinin müsair tələblərə cavab verən mühəndis-texniki mütəxəssislərinin hazırlanmasına;

• Müxtəlif sənaye sahələri üçün yüksəkixtisaslı işçilər yetişdirən ixtisaslaşdırılmış peşə təhsili ocaqlarının yaradılmasına;

• Təhsil müəssisələrinin təmirinə və maddi-texniki bazasının möhkəmləndirilməsinə;

• Təhsil kreditləri sisteminin yaradılmasına.

**3.Səhiyyə sahəsinə:**

• Xəstəliklə mübarizə aparmağa yönələn səhiyyə sistemindən, xəstəliklərin qarşısını almağa yönələn səhiyyə sisteminə keçilməsinə;

• Səhiyyə sahəsində idarəetmə mütəxəssislərinin yetişdirilməsinə;

• Ölkədə səhiyyə infrastrukturunun müasirləşdirilməsinə;

• Tibbi sığorta sisteminin realist əsaslarla qurulmasına;

• Regional əhəmiyyətli əczaçılıq və gigiyena sənayesinin təşəkkül tapmasına.

**4.Nəqliyyat infrastrukturunun inkişafına:**

• Regional neft-qaz tranzitində Azərbaycanın rolunu gücləndirən infrastruktur layihələrinə;

• Mal və xidmətlər, informasiya nəqlində Azərbaycanı regional mərkəzə çevirə biləcək infrastrukturun gecikmədən yaradılmasına;

• Biznes xidmətləri sektorunun yaradılıb inkişaf etdirilməsinə.

**5.Kənd təsərrüfatının inkişafına:**

• Mikromaliyyələşmənin geniş tətbiqinə;

• Maddi-texniki bazanın möhkəmləndirilməsinə;

• Kəndli sahibkarların ixraca daha yaxından qoşulmasına kömək üçün təhsil və biznes xidmətlərinin təşkilinə;

• Dünyadakı qabaqcıl aqrotəcrübənin Azərbaycana gətirilməsi işinin səmərəli təşkilinə;

• Qida və yüngül sənaye sahələrinin inkişafı üçün lazımi şəraitin yaradılmasına.

**6.Turizmin inkişafına:**

• Ölkədə turizmin inkişafı üçün vacib olan infrastrukturun müasirləşdirilməsi və ya yaradılmasına:

- Aviasiya nəqliyyatı infrastrukturu;
- Avtomobil nəqliyyatı infrastrukturu;
- Dəmiryolu nəqliyyatı infrstrukturu;
- Energetika infrastrukturu;
- Poçt və rabitə infrastrukturu.

• Azərbaycanın diplomatik nümayəndəlikləri, dövlət təşkilatları və şirkətləri vasitəsilə Azərbaycanın turizm imkanlarının xaricdə geniş təşviqinə;

• Turizm bazarının liberallaşdırılması və xarici sərmayələrin cəlb edilməsi işinə.

**7.Gələcəyin texnologiyalarının Azərbaycanda istehsalının təşəkkül tapmasına və Azərbaycanın qlobal biznes xidmətləri bazarına yaxından qoşulmasına**

• Elektron sənayesinin inkişafına;
• Biotexnologiya sənayesinin inkişafına;
• İKT istehsalı mərkəzlərinin yaradılmasına;
• Lazımi mütəxəssislərin hazırlanmasına;
• Müvafiq infrastrukturun yaradılmasına;

**8. İqtisadi və insan inkişafı ilə bərabər dayanıqlı inkişafın digər mühüm amili olan Ekoloji balansın qurunub saxlanmasına:**

• Yerli və regional ekoloji layihələrin maliyyələşdirilməsinə.

Neft gəlirlərinin xərclənməsinə nəzarət ilə büdcə vəsaitinin xərclənməsinə nəzarət arasında fərq qoymaq düzgün deyil. Belə ki, bu vəsaitlərin hər ikisi ictimai vəsaitlərdir və onlara nəzarət mexanizmləri də eyni olmalıdır. Təəssüflər olsun ki, bir çox keçid ölkələrində olduğu kimi, Azərbaycanda da ictimai vəsaitlərin xərclənməsinə nəzarət mexanizmi mükəmməl deyil.

Neft gəlirlərinin və digər ictimai vəsaitlərin xərclənməsinə nəzarəti gücləndirmək və Neft Fondundan ayrılan vəsaitlərin xərclənməsinin səmərəliliyini təmin etmək üçün aşağıda sadalanan tədbirləri təklif edirəm:

• Vətəndaş cəmiyyəti institutlarının neft gəlirlərinin xərclənməsinə nəzarət işinə daha yaxından cəlb edilməsi;

• Mətbuatın neft gəlirlərinin xərclənməsinə nəzarəti üçün aşkarlıq şəraitinin yaradılması;

• Neft gəlirlərinin xərclənməsinin birbaşa təsir etdiyi icmaların nəzarət işinə qoşulmasına imkan yaradılması;

• Müvafiq dövlət orqanları və müstəqil beynəlxalq audit təşkilatları tərəfindən müntəzəm audit və yoxlamaların keçirilməsi və nəticələrin geniş ictimaiyyətə mətbuat və hesabatlar vasitəsilə açıqlanması;

• Ölkə xaricindən kənarda saxlanılan neft gəlirlərinin kimə, hansı şərtlərlə idarəyə verilməsi və nəticələr barədə müntəzəm məlumatların dərci.

Qeyd etmək lazımdır ki, neft gəlirləri Azərbaycanın uzunmüddətli iqtisadi tərəqqisində və qüdrətli ölkəyə çevrilməsində effektiv bir vasitə rolunu oynayacaq. Belə ki, Azərbaycanın uzunmüddətli iqtisadi inkişafının elmi-texniki bazasının yaradılması, indiki və gələcək nəsillərin həyat səviyyəsinin daimi olaraq yüksəldilməsi, ölkədə siyasi demokratiyanın dönməz şəkildə bərqarar edilməsi və Azərbaycanın regionda və dünyada nümunə götürüləcək bir ölkəyə çevrilməsi üçün neft gəlirləri böyük imkanlar açır. Bir məsələni heç zaman yaddan çıxarmaq lazım deyil ki, ölkələrin qloballaşan dünyada rəqabətqabiliyyətli və müstəqil qalmalari üçün əsas amil insan amili olaraq qalacaq və inanıram ki, ölkəmizin neft gəlirləri, məhz rəqabətqabiliyyətli Azərbaycan iqtisadiyyatının qurulması məqsədi üçün istifadə ediləcək.

### 5.6.Neft sənayesinin perspektiv inkişafının təkmilləşdirilməsi istiqamətləri

Məlum olduğu kimi, Azərbaycan Respublikasının ərazisi karbohidrogen ehtiyatları ilə zəngindir. Abşeron yarımadasında və Xəzər dənizinin Azərbaycan sektorunda irihəcmli neft və qaz yataqları və strukturları mövcuddur. Onlardan istifadə bütün dövrlərdə aktual olmuş və xüsusilə, Azərbaycan Respublikası özünün

dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkənin təbii ehtiyatlarından xalqın rifahının yaxşılaşdırılması və iqtisadiyyatın yüksəlişi naminə səmərəli istifadə, daha böyük əhəmiyyətə malik olmuşdur.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qətiyyətli siyasəti nəticəsində 1994-cü ildən başlayaraq həyata keçirilən yeni Neft Strategiyası Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasında və ölkəyə xarici investisiyaların gətirilməsində mühüm rol oynamışdır. Onun şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi altında Xəzər dənizinin

Azərbaycan sektorunda yerləşən karbohidrogen yataqlarının işlənilməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə bağlanmış «Əsrin Müqaviləsi» müasir dövrdə ölkənin neft-qaz sənayesinin inkişafına yeni təkan vermişdir. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında yanacaq-enerji kompleksinin müstəsna rolu vardır. Bu gün ölkənin yanacaq-enerji kompleksinin qarşısında duran əsas vəzifə son on ildə qazanılmış uğurları möhkəmləndirməkdən, iqtisadiyyatın və əhalinin enerji resurslarına olan tələbatının daha dolğun ödənilməsini təmin etməkdən ibarətdir. Bu mühüm vəzifənin yerinə yetirilməsi məqsədilə hazırlanmış «Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı»nda qarşıdakı onillik dövrdə bu kompleksə daxil olan sahələrin inkişaf istiqamətləri müəyyənləşdirilmiş və onların reallaşması üçün konkret tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

2008-2011-ci illərdə sənaye sektorunun inkişaf etdirilməsində əsas məqsəd respublikada elmtutumlu və yüksək texnologiyalı, rəqabətədavamlı və ixracyönümlü, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsal edilməsinə və dövlət dəstəyi tədbirlərinin genişləndirilməsi, sənaye kompleksində dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, investisiya mənbələrinin və resurslarının müəyyənləşdirilməsi və artırılması, təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi, sənayenin davamlı inkişafına nail olmaqdan ibarətdir.

Neft sektorunun dinamik inkişafı və regionların enerjidaşıyıcıları ilə təminatının yaxşılaşdırılması, eyni zamanda qeyri-neft sektorunda yaradılan əlverişli investisiya mühiti, aparılan özəlləşdirmə prosesi, kiçik və orta sahibkarlığa maliyyə dəstəyi və digər islahatlar qeyri-neft sahələrinin daha intensiv inkişafını təmin edəcəkdir.

Neft sənayesinin perspektiv inkişafı məqsədilə aşağıdakı istiqamətlərdə tədbirlər görülsə daha məqsədəuyğun olar:

- yeni yataqların axtarışı və kəşfiyyatı;
- aşkar edilmiş yataqların tammiqyaslı işlənməyə cəlb edilməsi;
- işlənmədə olan yataqlarda yeni quyuların qazılması və fəaliyyətsiz quyuların bərpası;
- işlənmədə olan yataqlar üzrə neftvermə əmsalının artırılması məqsədilə yeni texnika və texnologiyaların tətbiqi;
- neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin tikilməsi, yenidən qurulması və modernləşdirilməsi;
- elm və texnikanın nailiyyətlərindən və qabaqcıl təcrübədən geniş və müntəzəm istifadə edilməsi;
- Neft və qazın yığım-nəql proseslərinə nəzarəti optimallaşdırmaq üçün avtomatlaşdırılmış neft və qaz hesabatı qovşaqlarının qurulması və kompyuterləşdirilmiş nəzarət-informasiya şəbəkəsinin təkmilləşdirilməsi;

- Neft və neft məhsulları tutumlarındakı neft şlamlarının emal edilməsi üçün qurğunun tikilməsi;

- Neftin ilkin emalı üzrə "ELOU-AVT-6" qurğusunun istilik mübadiləsi sxeminin təkmilləşdirilməsi, tullantıların zərərsizləşdirilməsi, məhsulların keyfiyyətinin artırılması və itkilərin azaldılması məqsədi ilə modernləşdirilməsi;

- Avropa standartlarının (EVRO-2005) tələblərinə cavab verən dizel və reaktiv mühərrik yanacağının istehsalı məqsədi ilə hidrogenlə təmizlənmə kompleksinin tikilməsi;

- Dəniz yataqlarından neft-qaz hasilatının təminatı üçün hidrotexniki qurğuların tikintisi, təmiri və yenidən qurulması;

- Layların neftveriminin artırılması üçün lay və quyu dibi zonaya mütərəqqi təsir üsullarının tətbiqi;

- İşlənmədə olan yataqların ehtiyatlarının dəqiqləşdirilməsı, işlənmə layihələrinin hazırlanması və müəllif nəzarətinin həyata keçirilməsi;

- Horizontal quyuların qazılması istiqamətində işlərin aparılması;

- Yanacaq-enerji resurslarının dəqiq uçotunun təmin edilməsi məqsədilə ölçü qovşaqlarının təkmilləşdirilməsi və ölçülərin aparılması üzrə tədbirlərin həyata keçirilməsi;

- Yanacaq-energetika kompleksinin korporativ kompyuter-informasiya şəbəkəsinin və mərkəzi məlumatlar bankının yaradılması üzrə tədbirlərin həyata keçirilməsi;

- Müasir tikinti texnologiyasından və texniki vasitələrdən istəfadə etməklə geoloji-kəşfiyyat işlərinin aparılmasını yataqların istismarının səmərəliliyinin yüksəldilməsini neft və qaz buruqlarının tikintisinin sürətləndirilməsini habelə yerin təkindən istifadə edilməsi və mühafizəsi sahəsində mövcud olan qanunvericiliyə riayət etməklə yataqların hazırlanmasının keyfiyyətinin və sürətinin artırılmasını.

- İstehsalın səmərəliliyi və rentabelliyinin artırılması. İstehsalın səmərəliliyi, onun nəticələrini, yəni istehsal-təsərrüfat fəaliyyətinin nəticələri ilə onlara nail olunmasına sərf edilən əmək və material ehtiyatlarının nisbətini xarakterizə edir. İstehsalın səmərəliliyinin yüksəldilməsi prosesinin mahiyyəti-məsrəfin hər vahidinə düşən iqtisadi nəticələrin yüksəldilməsidir.

- Servis xidmətinin genişləndirilməsi. Servis xidmətinin göstərilməsini qərara alan təşkilat, bazar xadimi üç qərar qəbul etməlidir. İlk növbədə özü üçün müəyyənləşdirməlidir ki, servis xidmətinə hansı xidmətləri daxil etməlidir, yəni sifarişçiyə nə kimi xidmətlər götərməlidir; ikincisi, hansı səviyyəli servis xidmətini sifarişçiyə təklif etməlidir və üçüncüsü, servis xidmətini sifarişçi üçün hansı formada həyata keçirməlidir.

- Maliyyə sabitliyinin təminatı. Maliyyə sabitliyinin təminatında maliyyə intizamına ciddi əməl olunması mühüm əhəmiyyət kəsb edir. Maliyyə sabitliyinin təminatı pul ehtiyatlarından istifadə olunmasında qənaət rejiminin gözlənilməsinə yönəldilir və təsərrüfat hesabının şərtidir.

- İqtisadi inteqrasiyanın genişləndirilməsi, rəqabətin gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi.

- Təsərrüfat subyektlərinin çevikliyinin və transformasiya qabiliyyətinin artırılması. Bu müxtəlif əməliyyatların yerinə yetirilməsini təmin etməklə yanaşı, istehsalın çevikliyini də artırır. Bu isə öz növbəsində bir məmulatın emalından tezliklə digərinə keçməyə, eyni zamanda müxtəlif əməliyyatları yerinə yetirməyə imkan verir. Çevik avtomatlaşdırılmış istehsalatlarda istehsalın tələbi ilə müəyyən olunan funksiyalarda çox müxtəlif dəzgah hissələrinin, mühərriklərin, nəqliyyat maşınlarının düzəldilməsi tətbiq edilir.

- İqtisadi artımın təmin olunması. Bu artım, elmi-texniki inqilabın nailiyyətlərindən geniş istifadə olunmasına məhsulun, işin, xidmətin keyfiyyətinin yaxşılaşdırılmasına, qabaqcıl istehsalat təcrübəsinin geniş yayılmasına əsaslanır. İqtisadi artım dedikdə, itehsal və qeyri-istehsal istehlakı məqsədilə məhsul istehsalının və xidmətlərin çoxaldılması nəzərdə tutulur.

Neft sənayesini inkişaf etdirmək məqsədilə son illərdə "Azərneftyağ" Neft Emalı Zavodunda Cənubi Koreyanın "Laki İnjinirinq LTD" və Amerikanın "Petrofak" firmalarının layihəsi əsasında hər birinin illik məhsuldarlığı 2 milyon ton olan iki ədəd neftin ilkin emalı qurğuları, Avstriyanın "Pyerner" firması tərəfindən layihələndirilmiş və illik istehsal gücü 250 min ton olan bitum istehsal edən "Bituroks" qurğusu tikilib istismara verilmişdir. Yenidənqurma işlərinin həyata keçirilməsi məqsədilə neftin ilkin emalı və bitum istehsalı qurğularında idarəetmə sistemləri quraşdırılmışdır. Zavodda istehsal olunan kerosin, dizel yanacağı və benzin məhsullarının saxlanılması üçün yeni çənlər parkı, istehsalatda tətbiq edilən reagentlərin qəbulu və saxlanması üçün reagent təsərrüfatı, ekologiyanın mühafizəsi məqsədilə proses vaxtı əmələ gələn qazların ətraf mühitə atılmasının qarşısını almaq üçün yeni məşəl təsərrüfatı tikilib istismara verilmişdir. Həmçinin, Avropa standartına uyğun DT markalı mühərrik yanacağının yeni texnologiya ilə istehsalına başlanmışdır. İstehsal olunan məhsula artan tələbatı nəzərə alaraq, bitum qurğusunun illik istehsal gücünün 500 tona qədər artırılması nəzərdə tutulur.

Azərbaycan Respublikasının neft sənayesinin inkişaf perspektivləri qeyd etdiyim kimi, dəniz yataqlarının işlənməsi ilə əlaqədardır. Hazırda dəniz neft mədənlərində çıxarılan neft ümumi neft hasilatının 2/3-ini verir. Bununla belə quruda da neft hasilatını artırmaq üçün işlər görülür.

“Küryanı-Kür-İori” çayları arası “Şamaxı-Qobustan”, “Xəzəryanı-Quba” sahələrində axtarış-kəşfiyyat işləri aparılır, köhnə quyularda hasilat artırılır, neftçıxarma texnologiyası yaxşılaşdırılır, daha səmərəli metodlar tətbiq edilir, təsərrüfat mexanizmi təkmilləşdirilir və s.

# VI FƏSİL

# İXRAC POTENSİALIVƏ ONUN TƏNZİMLƏNMƏSİ

***«Bizim apardığımız islahatlar və iqtisadi artım, ilk növbədə, Azərbaycanın rifah halının yaxşılaşdırılmasına yönəldilibdir.»***

**İlham Əliyev**

## 6.1.İxrac potensialının iqtisadi inkişafda rolu və onun tənzimlənməsinin nəzəri-metodoloci əsasları

Xarici ticarət əlaqələrinin ölkənin iqtisadi inkişafındakı rolu ilə bağlı hələ çox qədim zamanlarda müxtəlif nəzəriyyələr meydana gəlmişdir. Sonradan bunların bir çoxu klassik beynəlxalq ticarət nəzəriyyələri kimi iqtisadi nəzəriyyəyə daxil olmuşdur. Hazırda da ölkənin xarici ticarət əlaqələrinin tənzimlənməsində, ixrac strategiyasının müəyyənləşdirilməsində, həmçinin müasir beynəlxalq ticarət nəzəriyyələrinin meydana gəlməsində sözügedən nəzəriyyələr həlledici rol oynayırlar.

XVI-XVII əsrlərdə meydana gəlmiş «Merkantlizm» nəzəriyyəsi, demək olar ki, belə baxışların başlanğıcı olmuşdur. Bu nəzəri məktəbin tanınmış nümayəndələri olan V.Stoffor, T.Man, Q.Skarufari, A.Monkretyen ilk dəfə ticarətin milli iqtisadiyyatdakı rolunu əsaslandıran sanballı əsərlər yaratmışlar. Hələ o vaxt merkantlistlər iddia edirdilər ki, İngiltərə, Fransa və İtaliya kimi dövlətlər xarici ticarəti himayə etməli, idxal-ixrac üzərində yüksək nəzarət həyata keçirməlidirlər. Maraqlıdır ki, merkantlistlər tərəfindən beş əsr əvvəl idxal-ixracla bağlı, gömrük siyasəti ilə bağlı irəli sürülmüş ideyalar, bu gün də ölkənin xarici-iqtisadi əlaqələr strategiyasında özünü göstərməkdədir. Əsasını A.Monkretyen qoyan bu nəzəriyyəyə görə, hər bir ölkədə xəzinədə qiymətli metallar toplanılmalıdır, müasir dildə desək, qızıl ehtiyatı formalaşdırılmalıdır. Onlar hesab edirdilər ki, sərvətin yeganə mənbəyi xarici ticarətdir. Lakin merkantlistlər əsaslandıra bilməmişdilər ki, ölkələr hansı ölkələrlə, hansı formada xarici ticarət həyata keçirməlidirlər, hansı əmtəələri satmağa, hansıları almağa üstünlük verməlidirlər. Bu baxımdan klassik iqtisadçılar Adam Smitin «Mütləq üstünlüklər», David Rikardonun isə «Müqayisəli üstünlüklər» nəzəriyyələri daha mükəmməlliyi ilə diqqəti cəlb edir.

Monkretyen xaricdən gətirilən mallara yüksək gömrük rüsumunun qoyulması təklifi ilə çıxış edir və bunu belə əsaslandırırdı ki, xaricdən gətirilən əmtəələr baha başa gələrsə, onda sahibkarlar məcburiyyət qarşısında qalıb həmin məhsulu ölkə daxilində istehsal edəcək. Nəticədə, ölkə

daxilində sənayeçilərin, tacirlərin, əkinçilərin sərbəst inkişaf etməsi üçün şərait yaranacaq.

Özünün məşhur «Gözəgörünməz əl» nəzəriyyəsinə əsaslanan A.Smit qeyd edirdi ki, merkantlistlərin yanaşmalarının əksinə olaraq xarici ticarət sərbəst olmalı, dövlət müdaxiləsi edilməməlidir. Şotland iqtisadçısının fikrincə, idxal-ixracın sərbəst buraxılması milli iqtisadiyyatların inkişafına stimul verir. Dünya iqtisadiyyatının inkişafı da xarici ticarətin sərbəstliyindən asılıdır.

A.Smitə qədər «merkantilizm» cəmiyyətdə elə təsəvvürlər yaratmışdı ki, əmtəələrin xaricdən idxal olunması zərərli sayılırdı və elə hesab edilirdi ki, sərvətlər – yəni qızıl, gümüş o mallara odənilib tükədilir. Həmin vaxtlar malların ixracı xeyirli hesab olunurdu, çünki əmtəələr xaricə satılmaqla bu qiymətli metallar ölkəyə geri qayıdırdı. Bir sözlə, ticarətin alıcıdan deyil, yalnız satıcıdan mənfəət götürdüyü təsəvvürü formalaşdırılmışdı. Bu baxış əsasında ölkənin sərvətinin qorunması məqsədilə idxala xüsusi nəzarət sistemləri formalaşdırılırdı. Ancaq A.Smit sübut etmişdir ki, «merkantlist» nəzəriyyəsi yanlışlığa əsaslanır və səmərəsizdir. İqtisadçı əsaslandırmışdır ki, azad mubadilədə hər iki tərəf varlana bilər: «Kimsə mubadilədən itirəcəyini gözləsəydi, ona qoşulmazdı. Satıcı kimi, alıcı da mənfəət götürür. Bizim ixrac etdiklərimiz başqaları üçün dəyərli olduğu kimi, idxal da bizim üçün qiymətlidir. Biz özümüzü zənginləşdirmək üçün başqalarını yoxsullaşdırmaga ehtiyac duymuruq». «Millətin sərvəti qızılgümüşlə yox, onun ümumi istehsal və ticarəti ilə ölçülür» deyən klassik iqtisadçı iqtisad elminə ilk dəfə «ümumdaxili məhsul» anlayışını gətirmişdir.

«Adam Smit - iqtisadiyyatın əlifbası» adlı kitabda iqtisadçının xarici ticarətin sərbəstləşdirilməsi təklifi ilə bağlı qeyd edilir ki: «Həmin ideya XVI əsrdən bəri Avropa olkələri ətrafında qurulmuş ticarət divarlarından böyük bir intellektual oyuq açdı və onun təcrubi nəticələri də oldu»...

Beynəlxalq ticarətdə ixtisaslaşmanın zəruri olduğunu bildirən A.Smit bu baxışları əsasında özünün əvvəldə qeyd etdiyimiz «Mütləq üstünlüklər nəzəriy-yəsi»ni formalaşdırmışdır.

Əmtəələrin mübadiləsini, xüsusilə də onların idxal-ixrac edilməsini istehsalın gətirdiyi faydanın cəmiyyətə yayılması vasitəsi kimi qiymətləndirən A.Smit bu prosesdən əldə edilən ümumi gəlirlər barəsində konkret misallarla təhlil aparmışdır: «Bir insan «ibtidai bir olkədə» ox duzəltmək işində başqalarından daha yaxşı olduğu halda, bir başqası da metal işində daha yaxşı ola bilər. İxtisaslaşmaqla, oxçu daha çox ox və dəmirçi daha çox ülgüc istehsal edir ki, onlardan hər ikisi istifadə edə bilər. Beləliklə, onlar oxlarla ülgucləri mubadilə edirlər. İndi hər ikisinin sərfəli mubadilə vasitələri var və hər biri digərinin bacarığından, ixtisaslaşmiş məhsulundan faydalanır. Mal mubadiləsinə, barter və mübadilə ilə ticarətə həvəs insan təbiətinin təbii və xarakterik cəhətidir, əlbəttə, ona görə ki, bundan hər iki tərəf faydalanır. Həqiqətən də, əgər tərəflərdən hər

hansı biri özünü bu prosesdə itirən hesab etsəydi, mubadilə baş verməzdi. Fayda qarşılıqlıdır, mubadilə ilə hər iki tərəf özü üçün məhsul hazırlamağa cəhd göstərməkdənsə, istədiyi məhsulu daha az səylə əldə edir. Hər biri mubadilə sayəsində zənginlik, sərvət yaradır.»

Merkantlistlərin idxalı məhdudlaşdırmaq çağırışına qarşı çıxan A.Smit qeyd etmişdir ki, nə zaman ki, biz öz qızıl və gümüş yataqlarımızı qorumaq ümidi ilə idxalı məhdudlaşdırırıq, bu o deməkdir ki, yerli istehlakçıların seçimi azdır, onlar muxtəlif xarici istehsalçılardansa, yerli istehsalçılardan almalıdırlar, hansı ki, xarici istehsalçıların məhsulları daha yaxşi və daha ucuz ola bilər. İqtisadçının gəldliyi qənaət belədir ki, ticarət sahələri arasında əmək bölgüsü olduğuna gorə, olkələr də yaxşı bacardıqları işlə məşğul olmalı və öz artıq məhsullarını mubadilə etməlidirlər. İqtisadçılar sonralar A.Smitin bu ideyasını «mutləq mənfəət» prinsipi adlandırıblar, hansı ki, bu «Mütləq üstünlüklər nəzəriyyəsi»nin əsasını təşkil edir.

Qeyd etmək lazımdır ki, təkcə son 50 ildə dünya iqtisadiyyatında gedən prosesləri nəzərə alaraq deyə bilərik ki, A.Smitin bu ideyaları təcrübi olaraq özünü doğrultmuşdur. Onun nəzəriyyəsinin bugünkü gün üçün də qüvvədə olması şəksizdir. İndi bir çox iqtisadçı alimlər iddia edirlər ki, hər bir ölkə ixtisaslaşdığı əmtəə istehsalı üzrə ixrac potensialını artırmağa, ondan səmərəli istifadəyə səy göstərməlidir. Hansı ki, məhz bu ideyanı A.Smit XVIII əsrdə irəli sürmüşdür. Bu prizmadan yanaşsaq, Azərbaycanda karbohidrogen ixracından səmərəli istifadəyə diqqət yetirilməsi aktual görünür. Daha sonra isə qeyri-neft sektoru üzrə kənd təsərrüfatı məhsullarının ixracı da prioritet istiqamət təşkil etməlidir.

A.Smitin sonralar məşhurluq qazanmış «Xalqların sərvətlərinin təbiəti və səbəbləri» adlı əsəri 5 hissədən ibarət idi və sonuncu hissə «Dövlətin gəlir və xərcləri» adlanırdı. Bu kitabda iqtisadiyyatda dövlətin rolundan bəhs edən iqtisadçı hökumət və bürokratik aparatın tənqidcisi kimi çıxış edir və azad ticarətə siyasi mudaxilənin tərəfdarı olmadığını bildirir. O, bildirmişdir ki, onun təsvir etdiyi bazar iqtisadiyyatı yalnız mülkiyyətin təhlukəsiz olduğu və muqavilələrə əməl olunduğu zaman işləyə və öz faydalarını verə bilər.

Bir sözlə, A.Smitin klassik nəzəri baxışlarının təhlilindən belə nəticə çıxır ki, ölkə ixrac potensialından səmərəli istifadə etmək üçün, onun yüksəldilməsi üçün azad xarici ticarətin bərqərar edilməsinə çalışmalıdır. Ticarətin liberallaşdırılması prioritet təşkil etməlidir.

Smitin «Mütləq üstünlüklər nəzəriyyəsi»ni digər klassik iqtisadçı David Rikardo inkişaf etdirərək özünün «Müqayisəli üstünlüklər nəzəriyyəsi»ni meydana gətirmişdir. Ədəbiyyatlarda bu ingilis iqtisadçısı ilə bağlı qeyd edilir: David Rikardo (1772-1823) klassik siyasi iqtisadın görkəmli nümayəndəsidir. O, London səhm birjasında uğurlu əməliyyatlar apararaq böyük sərvət sahibi olmuş, sonra isə İngiltərə parlamentində çalışmışdır. Ölkənin ictimai həyatında fəal iştirak edərək həmişə təsərrüfat həya-

tının sərbəstləşdirilməsinin tərəfdarı olmuşdur. 1817-ci ildə ən məşhur əsəri olan «Siyasi iqtisadın və vergiqoymanın əsasları» adlı kitab nəşr olunmuşdur. Məhz bu əsər onu, A.Smitdən sonra klassik siyasi iqtisadın ən nüfuzlu nümayəndəsi kimi tanıtmışdır.

D.Rikardo belə qənaətə gəlmişdir ki, azad ticarət nisbi üstünlük prinsipi əsasında daha çox faydaya malikdir. Portuqaliya və İngiltərənin idxal-ixrac əlaqələrini təhlil edərək Rikardo bu ideyasını əsaslandırmışdır. Parlament üzvü kimi Rikardo hökumətə təzyiq göstərirdi ki, ticarət maneələri siyasətindən əl çəksin. Məhz bu uzunmüddətli səylərin nəticəsi olaraq 1840-cı illərdə İngiltərə azad ticarət siyasətini qəbul etmiş, birinci sənaye dövləti olmuşdur. Bir sözlə, D.Rikardo özünün və Smitin ideyalarının gerçəkləşdirilməsinə nail olmuşdur. Sonrakı 60-70 il ərzində İngiltərədə müşahidə edilmiş iqtisadi yüksəliş iqtisadçılar tərəfindən azad ticarətin nəticəsi kimi qiymətləndirilib.

Qeyd etmək lazımdır ki, D.Rikardonun nəzəriyyəsi sübut edir ki, dövlətin inkişafı, onun dünya iqtisadiyyatında yerini möhkəmlətməsi «Müqayisəli üstünlüyə» malik əmtəə və ya xidmətlərin istehsalına səylərin cəmləşməsi üçün onların öz resurslarından necə istifadə etməsindən asılıdır. Ticarətin liberallaşdırılması əmtəələrin, xidmətlərin və istehsal amillərinin maneəsiz axınını təmin etməklə ölkələrin mənfəətlərini artırır.

Neoklassik iqtisadçılar Eli Hekşer və Bertil Olinin «İstehsal amillərinin nisbəti nəzəriyyəsi» ölkələrin hansı əmtəələr üzrə ixtisaslaşmalı və hansı əmtəələrin ixracından daha çox fayda götürə bilmələri məsələsinə bir qədər də aydınlıq gətirmiş oldu. İqtisadçıların nəzəriyyələrinə görə, ölkə hansı istehsal amili ilə zəngindirsə, məhz həmin amillər əsasında istehsalı həyata keçirilən əmtəələr üzrə ixtisaslaşmalıdır. Çünki ölkə həmin əmtəələr üzrə müqayisəli üstünlüyə malik olacaqdır. İqtisadçı alimlərin gəldiyi nəticə belədir ki, Hekşer-Olin modelinə görə, Azərbaycan daha çox malik olduğu neft resursundan istifadə edərək neft məhsulları istehsalında ixtisaslaşmalıdır.

Ədəbiyyatlardan birində tanınmış İsveç iqtisadçısı, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı B.Olinin ticarət nəzəriyyəsi haqqında yazılır: «Bertil Olin ticarətin gəlirə və onun paylanmasına təsirini aydanlaşdırmaq üçün ümumi tarazlıq nəzəriyyəsinin geniş sferası ilə ticarət nəzəriyyəsini birləşdirmək üçün struktur əsas yaratmışdır. Həqiqətən, onun işi Volfqan Stopler və Pol Samuelsonun işləyib hazırladıqları «İstehsal amillərinin qiymət nisbətinin bərabərləşdirilməsi haqqında teorem»in yaranmasına təkan vermişdir».

B.Olin də əvvəldə haqlarında bəhs etdiyimiz digər iqtisadçılar kimi ixrac-idxalın səmərəliliyini azad ticarətdə görmüşdür. İqtisadçının ticarət nəzəriyyəsinin praktik tətbiqi belə bir nəticədən ibarət olmuşdur ki, tariflər və digər ticarət məhdudiyyətləri ticarətdə gəlirlərin paylanılmasına mənfi təsir göstərir, istehsal amillərinin qiymətlərinin bərabərləşməsinə maneə olur.

Bu prizmadan çıxış edərək deyə bilərik ki, Azərbaycanda ixrac potensialından istifadənin tənzimlənməsi, əmtəə ixracının artırılması, ixrac məhsullarının ucuz başa gələrək rəqabətdə üstünlük əldə etməsi üçün istehsal amillərinin, istehsal vasitələrinin idxalına tarif və ya qeyri-tarif maneələri aradan qaldırılmalıdır.

Tanınmış rus iqtisadçı alimi, iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Vasiliy Leontyev «Hekşer-Olin» nəzəriyyəsinin tətbiqi və onun real iqtisadi göstəricilərlə yoxlanılması zamanı mühüm elmi nəticələr əldə etmiş və özünün «Leontyev effekti» nəzəriyyəsini formalaşdırmışdır. ABŞ-ın xarici ticarət əlaqələrinin strukturunu təhlil edən V.Leontyev belə qənaətə gəlmişdir ki, inkişaf etmiş bazar iqtisadiyyatı ölkəsi əlavə əmək sərfi tələb edən məhsulları, yəni xammal və yarımfabrikatları idxal, əvəzində isə əmək tutumlu malları, yəni hazır məhsulları ixrac etməlidir. Təhlil zamanı ABŞ-da 1920-1930-cu illərdə bunun əksinin müşahidə edildiyini deyən professorun fikrincə, ABŞ-da investisiya təbəqəsinin güclü və əməkhaqqının yüksək olmasına baxmayaraq, belə prosesin müşahidə edilməsi paradoksdur. V.Leontyev təklif edib ki, xarici iqtisadi əlaqələrdən səmərəli istifadə üçün işçilərin ixtisaslaşmış əməyini özündə birləşdirən məhsullar ixrac edilməlidir.

II Dünya müharibəsindən sonra ABŞ iqtisadiyyatında struktur dəyişikliklərinin aparılması və bunun nəticəsi olaraq sürətli iqtisadi inkişafa nail olunması tədqiqatçılar tərəfindən V.Leontyevin modelinin tətbiqinin nəticəsi kimi qiymətləndirilmişdir.

Beynəlxalq ticarətlə bağlı məşhur nəzəriyyələrdən birinin müəllifi, tanınmış ABŞ iqtisadçısı, 1970-ci ildə iqtisadi təhlilə gətirdiyi mühüm elmi zənginliyə – statistik və dinamik iqtisadi nəzəriyyəyə görə Nobel mükafatına layiq görülmüş Pol Samuelson olmuşdur. Bu iqtisadçı istehsal amillərinin qiymətlərinin bərabərləşməsi, «Müqyayisəli üstünlüklər nəzəriyyəsi»nin daha çox miqdarda ölkə və əmtəələrə aid edilməsi təklifini edərək «Hekşer-Olin» nəzəriyyəsini inkişaf etdirmiş və bunun nəticəsi olaraq «Hekşer-Olin-Samuelson» modeli meydana gəlmişdir.

Xarici ticarətlə bağlı nəzəriyyələrdən biri də amerikalı neoklassik iqtisadçı Maykl Porterə məxsusdur. Bu nəzəriyyə daha çox «Porterin dörd amili» kimi tanınır. Belə ki, M.Porter ölkələrin dünya bazarında rəqabət qabiliyyətini əsasən dörd amilin müəyyən etdiyini iddia etmişdir: 1. amillərin şərtləri; 2. tələb şərtləri; 3. qohum və ona xidmət edən sahələr; 4. firmaların strategiyası və rəqabət səviyyəsi.

Tədqiqatçıların fikrincə, M.Porterin ölkələrin rəqabət üstünlükləri ilə bağlı bu nəzəriyyəsinə görə, dünya bazarında Azərbaycanın neft məhsulları üzrə rəqabət üstünlüyünə malik olması ilə bağlı nəticə çıxır. Çünki iqtisadçının nəzəriyyəsində göstərilən hər dörd amil neft məhsulları istehsalı və ixracı sahəsində mövcuddur. Bu aşağıdakı kimi izah edilir:

- qeyd edilən sahədə əsas istehsal amilllərindən olan əmək resursları və neft ehtiyatları neft emalı sənayesinin inkişafı üçün geniş imkanlar açır;

- neft məhsullarına istər daxili, istərsə də dünya bazarında tələbat ilbəil artır;

- neft emalı və neft sektorundakı müəssisələrin inkişaf strategiyası müasir tələblərə uyğun qurulmuş, yeni mütərəqqi texnologiyalardan istifadə, beynəlxalq əməkdaşlıq məsələləri onların rəqabət qabiliyyətini getgedə artırmaqdadır.

Beynəlxalq nəzəriyyələrin zəruriliyini kifayət qədər sübüt etdiyi xarici ticarətin liberallaşdlırılması keçid iqtisadiyyatını yaşayan Azərbaycanda da dünya təsərrüfat sisteminə inteqşrasiyanın başlıca istiqaməti kimi qəbul edilmişdir. Bununla bağlı Prezident İ.Əliyev demişdir: «Biz iqtisadiyyatımızı liberallaşdırırıq. Bunu etmək üçün müxtəlif qərarlar qəbul edilibdir, proqramlar icra olunur». Ölkənin xarici iqtisadi, o cümlədən ticarət əlaqələrinin daha da liberallaşdırılması və genişləndirilməsi, bu sahədə bazar iqtisadiyyatı tələblərinə cavab verən müasir qaydaların müəyyən edilməsi məqsədi ilə Prezident Fərmanı ilə «Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları»ı təsdiq edilmişdir ki, bu sənəddəki müddəalar xarici ticarətin liberallaşdırılmasına geniş imkanlar açır.

İstər beynəlxalq nəzəriyyələrin, istərsə də ölkə iqtisadçılarının müasir dövrdəki tədqiqatlarının, nəzəri baxışlarının təhlili, apardığımız tədqiqatların nəticələri göstərir ki, ölkənin ixrac potensialının tənzimlənməsində aşağıdakı nəzəri fikirlər əhəmiyyət kəsb edir:

- Hər bir ölkə beynəlxalq əmək bölgüsü və istehsalın ixtisaslaşması sahəsində dünya ölkələri arasında öz iqtisadi potensialına, resurslarına uyğun mövqeyini tutmalıdır;

- Dünya ölkələri arasında müqayisəli üstünlüklərə malik olan sahələr müəyyənləşdirilməli və ölkələr bu sahələri inkişaf prioritetlərinə daxil etməlidirlər;

- Makroiqtisadi sabitliyin, davamlı inkişafın təmin edilməsi, dünya iqtisadiyyatına inteqrasiya proseslərinin sürətləndirilməsi hökumətlərin qarşısında duran əsas vəzifə olmalıdır;

- İxrac olunan əmtəələrdə əmək tutumunun artırılmasına çalışılmalıdır;

- Ölkələr daxili bazarın qorunması ilə yanaşı, xarici ticarətin daim liberallaşdırılmasına çalışmalıdırlar;

- İxrac olunan əmtəələrin beynəlxalq rəqabət qabiliyyətinin artırılması daim diqqət mərkəzində olmalıdır və s.

## 6.2. İxrac potensialının tənzimlənməsinin qanunvericilik bazası və onun təkmilləşdirilməsi

İxrac potensialının tənzimlənməsində başlıca məqsəd milli iqtisadiyyatın davamlı inkişafının təmini və makroiqtisadi sabitliyin qorunub saxlanılmasıdır. Digər tərəfdən də ixrac potensialının yüksəldilməsi, ondan milli iqtisadiyyatın inkişafı üçün səmərəli istifadə edilməsi üçün makroiqtisadi sabitlik və davamlı inkişaf əsas şərtlər kimi çıxış edir. Bir sözlə, bu iki amil bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Buna görə də ixrac potensialının tənzimlənməsi məsələlərindən bəhs edərkən makroiqtisadi inkişaf göstəricilərinin öyrənilməsi və iqtisadi inkişaf xüsusiyyətlərinin, milli iqtisadiyyatda müşahidə edilən tendensiyaların tədqiqi zəruri görünür.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının ixracat potensialından səmərəli istifadə edilməsi haqqında» 13 aqust 1992-ci il tarixli Fərmanı bəhs etdiyimiz qanunvericilik bazasının formalaşdırılması istiqamətində atılmış ilk addım kimi qiymətləndirilə bilər. Fərmanda xarici iqtisadi fəaliyyətdə lazımi intizam və qayda yaratmaq və Azərbaycan Respublikasının Vahid Valyuta Fondunun doldurulmasını sürətləndirmək məqsədi ilə Azərbaycan Respublikasının ixracat potensialından istifadə edilməsinin qaydaları müəyyən edilmişdir. Bu sənəd müstəqillik əldə etdikdən sonra Azərbaycanın xarici-iqtisadi əlaqələrinin ilkin formalaşma mərhələsində əhəmiyyət kəsb edirdi və xarici ticarət əlaqələrinin qurulmasında və tənzimlənməsində müvafiq dövlət orqanları arasında vəzifə bölgüsünü müəyyən edirdi. Lakin sonrakı illərdə ölkədə iqtisadi inkişafn təmin edilməsi, bazar münasibətlərinin daha geniş şəkildə formalaşmağa başlaması, dünya iqtisadiyyatına inteqrasiya proseslərinə start verilməsi belə qanunvericilik ba- zasının daha da mükəmməlləşdirilməsini, müsair tələblərə uyğunlaşdırılmasını tələb edirdi. Bu baxımdan 1995-1997-ci illərdə qəbul edilmiş bəzi normativ-hüquqi aktlar xüsusi əhəmiyyət kəsb etmişdir.

28 mart 1995-ci ildə qəbul edilmiş «İxracat vergisi haqqında» Azərbaycan Respublikasının Qanunu ixrac potnsialının tarif tənzimlənməsi istiqamətində mühüm bir sənəd olmuşdur. Qanunda ixracat vergisinin vergitutma obyekti kimi Azərbaycan Respublikasında istehsal edilmiş strateji məhsulun kontrakt qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) respublikadaxili müəssisə topdansatış qiymətinin arasındakı fərq qəbul edilmişdir.

Qanunda Azərbaycan Respublikasında xarici xammaldan emal və istehsal edilmiş məhsulu ixrac edən, həmçinin xarici kapitalın iştirakı ilə yaradılmış hüquqi şəxslərin özlərinin istehsal etdikləri strateji məhsullar üzrə ixracat vergisini ödəməkdən azad olduqları göstərilmişdir. Vergi tutulan strateji məhsulların siyahısı və vergi dərəcələrinin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilməsi və ixracat vergisinin

dərəcəsinin 70 faiz olması qeyd edilmişdir.

20 iyun 1995-ci ildə «Gömrük tarifi haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu Qanun Azərbaycan Respublikasında daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə, xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən edir.

Sözügedən Qanunda gömrük tariflərinin əsas məqsədləri kimi aşağıdakılar göstərilmişdir:

- Azərbaycan Respublikası üzrə idxalın əmtəə strukturunu səmərələşdirmək;
- Azərbaycan Respublikası ərazisinə malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək;
- valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılması üzərində səmərəli nəzarət etmək;
- Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq;
- Azərbaycan Respublikasının iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq;
- Azərbaycan Respublikası iqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

Qanunda qeyd edilmişdir ki, ixrac gömrük rüsumlarının dərəcələri və onların tətbiq olunduğu malların siyahısı, həmçinin xarici iqtisadi tənzimlənmənin qeyri-tarif tədbirləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin malları üçün ixrac gömrük rüsumları dərəcələrinin son həddi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin olunur.

Yerli istehsalın xarici rəqabətdən qorunması məqsədilə qanunda xüsusi rüsumların tətbiqi nəzərdə tutulmuş və onların aşağıdakı hallarda tətbiqi müəyyənlədirilmişdir:

- mallar Azərbaycan Respublikası gömrük ərazisinə bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək kəmiyyətdə və şərtlərlə gətirildiyi təqdirdə müdafiə tədbiri kimi;
- digər dövlətlərin və onların ittifaqlarının Azərbaycan dövlətinin mənafeyinə toxunan ayrı-seçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi.

Qanundaxili bazarın qorunmasında antidempinq rüsumlarının tətbiqini də nəzərdə tutur. Belə rüsumlar idxal olunan malların qiyməti Azərbaycan Respublikası gömrük ərazisinə gətirildiyi anda ixrac olunduğu ölkədəki real dəyərindən xeyli aşağı olduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə, Azərbaycan Respublikasında onların istehsalının təşkilinə və ya genişləndirilməsinə maneçilik törədildikdə tətbiq edilir.

Yerli istehsalın maraqlarına xidmət edən rüsumlardan biri də kompensasiya rüsumlarıdır. Qanunda qeyd edilir ki, kompensasiya rüsumları Azərbaycan Respublikası gömrük ərazisinə gətirilən malların istehsalı və ya ixracı zamanı birbaşa və dolayı subsidiyalardan istifadə olunduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna edilmədikdə tətbiq edilir.

Fikrimizcə, ixrac potensialının tənzimlənməsində Gömrük Qanunvericiliyinin nə dərəcədə xüsusi əhəmiyyət kəsb etdiyini şərh etməyə ehtiyac yoxdur. Həm yerli istehsalın qorunması, həm də ixracın stimullaşdırılması baxımından səmərəli Gömrük Qanunvericiliyi hökumətin bu sahədəki fəaliyyətinin başlıca alətidir.

10 iyun 1997-ci il tarixli 311-IQ saylı Qanuna əsasən təsdiq edilmiş Azərbaycan Respublikasının «Gömrük Məcəlləsi» ölkənin Gömrük Qanunvericiliyinin əsasını təşkil edir. Bu Məcəllə gömrük işinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir, Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin, suverenliyinin və maraqlarının qorunmasına, Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatı ilə əlaqələrinin genişlənməsinə, gömrük işi sahəsində təsərrüfat subyektlərinin, fiziki şəxslərin və dövlət orqanlarının hüquqlarının müdafiəsinin təmin olunmasına, onların öz vəzifələrini yerinə yetirmələrinə yönəlmişdir.

Milli iqtisadiyyatın inkişafı və beynəlxalq iqtisadi inteqrasiya prosesləri dovlət gömrük sisteminin təkmilləşdirilməsini, onun müasir tələblərə uyğun şəkildə modernləşdirilməsini, gömrük işinin beynəlxalq standartlara uyğun aparılmasını və gömrük sisteminin olkənin sosial-iqtisadi inkişafındakı rolunun daha da yüksəldilməsini əsas vəzifə kimi qarşıya qoymuşdur.

Prezidentin 2007-ci il 1 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dovlət Proqramı»" dovlətin gömrük siyasətində əhəmiyyətli bir addım kimi qiymətləndirilmişdir. Proqramda 2007-2011-ci illərdə gömrük sisteminin iqtisadi inkişafla uzlaşdırılması və modernləşdirilməsi ilə bağlı əsas vəzifələr, istiqamətlər və yerinə yetirilməli olan tədbirlər öz əksini tapmışdır.

26 oktyabr 2004-cü ildə «İxrac nəzarəti haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu normativ aktda dövlət orqanları tərəfindən ixrac nəzarətinin həyata keçirilməsinin hüquqi əsasları və ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) Azərbaycan Respublikasının gömrük sərhədlərindən keçirilməsi qaydaları müəyyən edilmişdir.

Bir sıra dövlətlərlə, xüsusilə də keçmiş sovet respblikaları ilə Azərbaycan hökuməti arasında sərbəst ticarət haqqında sazişlər imzalanmışdır. Bütün bu sazişlərdə əsas məqsəd tərəfdaş ölkələrin ixrac potensiallarından istifadənin yüksəldilməsi olmuşdur. Bunlara misal olaraq aşağıdakıları göstərə bilərik.

Sərbəst ticarət haqqında Azərbaycan Respublikası hökuməti və

Moldova Respublikası hökuməti arasında Saziş 16 aprel 1996-cı il tarixli 300 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Sazişdə hər bir tərəf üçün aşağıdakı öhdəliklər nəzərdə tutulmuşdur:

- sazişin təsir dairəsinə düşən malları, bilavasitə və ya dolayı yolla, daxildə istehsal olunan, yaxud üçüncü ölkədən gətirilən analoji mallara tətbiq edilən daxili vergi və rüsumlardan yüksək vergi və rüsumlara cəlb etməyəcək;
- sazişin təsir dairəsinə düşən malların idxal və ixracına münasibətdə, analoji halda eyni qəbildən olan daxili istehsal mallarına və ya üçüncü ölkədən gələn mallara qarşı tətbiq edilməyən, hər hansı bir xüsusi məhdudlaşma və ya tələb yeritməyəcək;
- sazişi imzalayan ölkədən gələn malların anbara vurulmasına, yüklənməsinə, saxlanmasına, daşınmasına, həmçinin onlar üçün ödənclərə və ödənc köçürmələrinə analoji halda öz mallarına və ya üçüncü ölkədən gətirilən mallara tətbiq olunanlardan fərqli qaydalar tətbiq etməyəcək və s.

Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi, ixrac potensialından istifadədə xüsusi iqtisadi zonaların yaradılmasının böyük əhəmiyyəti vardır.

Azərbaycan Respublikası Prezidenti 6 mart 2007-ci ildə «Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında» Fərman imzalamışdır. Bu Fərmandan irəli gələn məsələlərin həlli ilə bağlı Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirinin 2007-ci il 27 mart tarixli 141 nomrəli əmrinə əsasən yaradılmış komissiya və işçi qrup tərəfindən aşağıdakı layihələrin hazırlanması uzərində işlər aparılmışdır:

- «Xüsusi iqtisadi zonalar haqqında»" Azərbaycan Respublikasının Qanunu;
- xüsusi iqtisadi zonaların yaradılmasının prioritet istiqamətlərinə dair təkliflər;
- müvafiq xüsusi iqtisadi zonalar barədə əsasnamə;
- xüsusi iqtisadi zonalarda guzəştli vergi və gömrük rejimi, valyuta tənzimlənməsi barədə təkliflər;
- xüsusi iqtisadi zonaların hüdudlarında gömrük nəzarətinin, gömrük məntəqələrinin fəaliyyətinin, malların sənədləşdirilməsinin, nəqliyyat vasitələrinin və fiziki şəxslərin buraxılma rejiminin sadələşdirilmiş qaydaları.

Nazirlik tərəfindən xüsusi iqtisadi zona olacaq «sənye şəhərciyi» layihəsi hazırlanmışdır. Beynəlxalq təşkilatların dəstəyi ilə şəhərciyin ilkin texniki-iqtisadi əsaslandırılması həyata keçirilmiş, onun yaradılması və fəaliyyətinin mühüm məqamları uzrə sorğuları və iqtisadi təhlilləri əhatə edən marketinq tədqiqatı aparılmışdır. Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) dəstəyi ilə şəhərciyin infrastrukturunun yaradılmasının işçi layihələrinin hazırlanması bu istiqamətdə novbəti uğurlu addım olmuşdur. Bu layihə cərcivəsində hazırlanmış işçi layihələr Turkiyənin KOSGEB təşkilatında ekspertizadan keçmişdir. 2007-ci il 10 iyul tarixində İqtisadi İnkişaf Nazirliyi ilə TİKA arasında əməkdaşlıq cərcivəsində

həyata kecirilən Azərbaycanda ilk Sənaye şəhərciyinin yaradılmasına dəstək layihəsinin nəticələrinin təqdimatı olmuşdur.

Tədqiqatlar göstərir ki, sərbəst iqtisad zonaların qanunvericilik bazasının formalaşdırılması və onun təkmilləşdirilməsi hazırkı dövrdə aktuallığı artmış məsələlərdən biridir. Qanunvericilik bazasının mükəmməl olması yaradılacaq sərbəst zonalarda, sənaye şəhərciklərində istehsalın daha sürətli artımına, ixrac potensialının yüksəlməsinə yardım edə bilər.

Sahibkarlığın inkişafının surətləndirilməsi, biznes mühitinin əlverişsizliyinin daha da artırılması və sahibkarlıq fəaliyyətinə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlərin görulməsi məqsədi ilə «Sahibkarlıq fəaliyyəti subyektlərinin «bir pəncərə» prinsipi uzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 25 oktyabr tarixli Sərəncamı imzalanmıdır. Bundan sonra, 2007-ci il 18 dekabr tarixdə isə sahibkarlıq subyektlərinin dovlət qeydiyyatının "bir pəncərə" prinsipinə uyğun təşkilini təmin etmək məqsədi ilə «Sahibkarlıq fəaliyyəti subyektlərinin dovlət qeydiyyatının «bir pəncərə» prinsipi uzrə təşkilinin təmin edilməsinə dair əlavə tədbirlər barədə» Prezident Sərəncamı olmuşdur.

Azərbaycan Prezidentinin 11 noyabr 2008-ci il tarixli Fərmanı ölkənin ixrac potensialının tənzimlənməsi sahəsində mühüm bir sənədə çevrilmişdir. Bu Fərmanda nəzərdə tutulanlara əsasən, 1 yanvar 2009-cu ildən etibarən respublikamızın dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında «bir pəncərə» prinsipi tətbiq ediləcəkdir. Bu prinsip üzrə vahid dövlət orqanının səlahiyyətləri Dövlət Gömrük Komitəsinə həvalə olunmuşdur.

Qeyd edək ki, bundan əvvəl vergi sistemində və sahibkarlıqla məşğul olmaq istəyən fiziki və hüquqi şəxslərin qeydiyyatı məsələsində «bir pəncərə» prinsipinin tətbiqi özünü praktiki baxımdan doğrultmuş və böyük səmərə vermişdir. Bu baxımdan ekspertlər - sərhəd keçid məntəqələrində belə sistemin tətbiqinin də müsbət nəticə verəcəyini proqnozlaşdırırlar.

İqtisadi İnkişaf Nazirliyi tərəfindən «Azərbaycan Respublikasının Antiinhisar Məcəlləsi»nin",«İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu»nun layihələri hazırlanmış və bu sənədlər Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunmuşdur. Hazırda Milli Məclisdə qanun layihələrinin qəbulu üçün muzakirələr aparılır. Bundan başqa, nazirlik tərəfindən «Azərbaycan Respublikasında sahibkarlığın inkişafı Dovlət Proqramı» layihəsi də hazırlanmışdır. Bu sənəddə sahibkarlığın inkişafına dovlət dəstəyinin forma və üsulları muəyyən ediləcəkdir. Nazirliyin məlumatında qeyd edilir: «Layihədə sahibkarlığın dovlət tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi, infrastruktur təminatı səviyyəsinin yuksəldilməsi və sahibkarlığın dəstəklənməsi modellərinin tətbiqi, sahibkarlığın informasiya, məsləhət təminatı səviyyəsinin yuksəldilməsi və

kadr hazırlığının təkmilləşdirilməsi, sahibkarlığın maliyyə təminatının yaxşılaşdırılması, dovlət-sahibkar munasibətlərinin inkişafı və sahibkarların hüquqlarının mudafiəsi mexanizmlərinin təkmilləşdirilməsi, sahibkarlığın ixrac potensialının gucləndirilməsi uzrə tədbirləri nəzərdə tutulub».

### 6.3.Milli iqtisadiyyatın inkişafı və ixrac potensialından səmərəli istifadədə onun əhəmiyyəti

İxrac potensialının tənzimlənməsində başlıca məqsəd milli iqtisadiyyatın davamlı inkişafının təmini və makroiqtisadi sabitliyin qorunub saxlanılmasıdır. Digər tərəfdən də ixrac potensialının yüksəldilməsi, ondan milli iqtisadiyyatın inkişafı üçün səmərəli istifadə edilməsi üçün makroiqtisadi sabitlik və davamlı inkişaf əsas şərtlər kimi çıxış edir. Bir sözlə, bu iki amil bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Buna görə də ixrac potensialının tənzimlənməsi məsələlərindən bəhs edərkən makroiqtisadi inkişaf göstəricilərinin öyrənilməsi və iqtisadi inkişaf xüsusiyyətlərinin, milli iqtisadiyyatda müşahidə edilən tendensiyaların tədqiqi zəruri görünür.

1990-cı illərin ortalarından başlayaraq milli iqtisadiyyatda əldə edilmiş sabitlik sonrakı illərdə makroiqtisadi inkişafın əsasına çevrilmişdir. Ölkəyə xarici investisiyaların cəlb edilməsi, xarici-iqtisadi əlaqələrin qurulması, maliyyə sabitliyinin təmini və digər bu kimi amillər nəticə etibarilə 1997-ci ildən başlayaraq özünü əsas makroiqtisadi göstərici olan ümumdaxili məhsulun artımında göstərmişdir. Hətta indi Azərbaycan iqtisadi artım sürətinə görə dünya ölkələri arasında ön sıralarda durur. Xüsusilə də, 2006-cı ildə ÜDM-in 34,5 %-lik, 2007-ci ildə isə 25,0 faizlik artımı daha diqqətəlayiq olmuşdur. Neft sektorunda əldə edilmiş nailiyyətlər, bu sektordan qazanılan gəlirlər hesabına iri investisiya layihələrinin reallaşdırılması, Dövlət büdcəsi gəlirlərinin son bir neçə il ərzində 2 dəfəyə qədər artması, xarici iqtisadi əlaqələrin genişlənməsi, hökumətin regionların inkişafına daha ciddi diqqət yetirərək bir sıra proqramların icrasına başlaması və digər bu kimi amillər sürətli iqtisadi inkişafın əsasına çevrilmişdir. 1995-2007-ci illər ərzində ölkədə istehsal olunan ÜDM-in adambaşıda düşən dəyəri 282 manatdan 2980 manata qədər yüksəlmişdir. Cədvəl 1.1.-ə diqqət yetirsək, bu pozitiv dinamika daha aydın şəkildə görünər.

Təhlillər göstərir ki, milli iqtisadiyyatda inkişaf proseslərinin sürətlənməsi iqtisadi sahələrin ixrac potensiallarından istifadə imkanlarını da yüksəltmişdir. Lakin bununla yanaşı, bir sıra strateci sahələrin ixrac potensialının tənzimlənməsinə daha böyük zərurət yaranmışdır.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında ÜDM-in 1995-2007-ci illər üzrə artım dinamikası**

| *İllər* | *Milyon manat* | *Milyon ABŞ dolları* | *Dinamika* | *Adambaşına* | |
|---|---|---|---|---|---|
| | | | | *manat* | *$* |
| *1995* | 2133.8 | 2415.2 | *88,2* | 282.1 | 319.3 |
| *1996* | 2732.6 | 3180.8 | *101,3* | 357.5 | 416.1 |
| *1997* | 3158.3 | 3960.7 | *105,8* | 409.2 | 513.2 |
| *1998* | 3440.6 | 4446.4 | *110,0* | 441.5 | 570.6 |
| *1999* | 3775.1 | 4583.7 | *107,4* | 480.1 | 582.9 |
| *2000* | 4718.1 | 5272.8 | *111,1* | 595.1 | 665.1 |
| *2001* | 5315.6 | 5707.7 | *109,9* | 665.2 | 714.3 |
| *2002* | 6062.5 | 6235.9 | *110,6* | 752.9 | 774.4 |
| *2003* | 7146.5 | 7276.0 | *111,2* | 880.8 | 896.8 |
| *2004* | 8530.2 | 8680.4 | *110,2* | 1042.0 | 1060.3 |
| *2005* | 12522.5 | 13238.7 | *126,4* | 1513.9 | 1600.4 |
| *2006* | 18746.2 | 20983.0 | *134,5* | 2241.1 | 2508.5 |
| *2007* | 25228.1 | 29399.9 | *125,0* | 2980.9 | 3473.9 |

**Qeyd:** Cədvəl DSK-nın və İİN-in hesabatları əsasında hazırlanmışdır

İqtisadi İnkişaf Nazirliyinin hazırladığı «Azərbaycan Respublikasının 2008-ci il və gələn 3 il üzrə iqtisadi-sosial İnkişaf Konsepsiyası və Proqnoz Göstəriciləri» adlı sənəddə yaxın üç ildə əsas makroiqtisadi göstərici olan ÜDM-də daha ciddi artımların müşahidə ediləcəyi proqnozlaşdırılmışdır. Bu inkişaf prosesləri əsasən aşağıdakı amillərlə izah edilir:

- real sektorda, xüsusi ilə də, neft sektorunda istehsalın fiziki həcminin xeyli artması;
- neft və neft məhsulları üzrə ixracın həcminin və dünya bazarlarında neftin qiymətinin artması;
- iqtisadi siyasətdə məcmu tələbin stimullaşdırılmasına üstünlük verilməsi;
- ölkədə, xüsusilə, daxili mənbələr hesabına investisiya fəallığının yüksəldil- məsi və sahibkarlığın inkişafının sürətlənməsi.

Məlum olduğu kimi, Azərbaycanda dövlətin iqtisadi siyasətinin əsas prioritetindən biri kimi qeyri-neft sektorlarının inkişaf etdirilməsi, regionların inkişafına nail olunması göstərilmişdir. Bu baxımdan ölkənin aqrar sektoru xüsusilə diqqəti cəlb edir. Bu sektor, həm də böyük ixrac potensialına malikdir və bu potensialdan istifadənin yüksəldilməsi uzun illərdir ki, qarşıda duran aktual məsələlərdən biridir.

ÜDM-in sahələr üzrə strukturuna diqqət yetirsək, görərik ki, kənd təsərrüfatının buradakı çəkisi 2000-ci ildəki 15,9 faizdən 2007-ci ildə 5,9 faizə enmişdir. Düzdür, bu daha çox neft sektorunun ÜDM-dəki çəkisinin durmadan artması və 27,6 faizdən 52,8 faizə çatması ilə izah edilə bilər. Amma nəzərə almaq lazımdır ki, kənd təsərrüfatının qeyri-neft sektorundakı çəkisi də bu illər ərzində 2 dəfədən çox azalmışdır. Bununla yanaşı, son bir neçə ildə kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən

kəndli fermer təsərrüfatlarına, müxtəlif sahibkarlıq subyektlərinə dövlət dəstəyinin yüksəldiyi müşahidə olunur. Bu tədbirlərin kompleks şəkildə davamlı olaraq həyata keçirilməsi aqrar bölmənin ixrac potensialından istifadənin yüksəldilməsində müstəsna rol oynaya bilər.

**Cədvəl 2**

**Azərbaycan Respublikasında ÜDM-in iqtisadi fəaliyyət növləri üzrə strukturu 1995-2007-ci illər**

| | *2000* | *2002* | *2003* | *2004* | *2005* | *2006* | *2007* |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 15.9 | 13.8 | 12.2 | 10.8 | 9.0 | 6.7 | 5.9 |
| Balıqçılıq | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.4 | 0.3 |
| Sənaye – cəmi | 36 | 37.4 | 37.2 | 38.3 | 47.5 | 57.3 | 59.1 |
| Mədənçıxarma sənayesi və karxanaların işlənməsi | 27.6 | 28.9 | 27.5 | 29.0 | 39.4 | 50.9 | 52.9 |
| o cümlədən | | | | | | | |
| xam neft və təbii qaz hasilatı, neft və qaz hasilatı ilə əlaqədar xidmətlər | 27.6 | 28.8 | 27.5 | 28.9 | 39.3 | 50.8 | 52.8 |
| Emal sənayesi | 5.3 | 7.4 | 8.6 | 8.3 | 7.2 | 5.8 | 5.3 |
| Elektrik enerjisi, qaz və su təchizatı | 3.1 | 1.1 | 1.1 | 1.0 | 0.9 | 0.6 | 0.9 |
| Tikinti | 6.5 | 8.7 | 11.2 | 12.5 | 10 | 7.7 | 7.1 |
| Ticarət, ictimai iaşə, mehmanxanalar | 6.7 | 7.9 | 7.6 | 7.7 | 6.9 | 5.9 | 5.9 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 12 | 9.8 | 10 | 9.5 | 8.1 | 6.6 | 6.0 |
| Sosial və qeyri-formal xidmətlər | 16.5 | 14.2 | 13.8 | 13.8 | 10.6 | 9.9 | 8.4 |
| Xalis vergilər | 6.2 | 8 | 7.8 | 7.2 | 7.7 | 5.5 | 7.3 |

**Qeyd:** Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır

Ölkə Prezidentinin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi siyasət 2007-ci ildə də okəmizin davamlı dinamik inkişafını şərtləndirmiş, dovlətimizin siyasi və iqtisadi qudrətinin artması, xalqın rifah halının yaxşılaşdırılması, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi, həyata keçirilmiş işlərin, əldə edilmiş nailiyyətlərin həcmi baxımından diqqətəlayiq olmuşdur. ÜDM-in istehsalı 2007-ci ildə də yuksək olmuş və 25,2 milyard manata çatmışdır ki, bu da 2006-cı illə muqayisədə, 25,0 faiz səviyyəsində real artım deməkdir. İl ərzində ÜDM-in adambaşına düşən həcmi 23,6 faiz artaraq 2 981,0 manata, yaxud 3 473,9 ABŞ dollarına çatmışdır və bu göstəriciyə görə ölkəmiz dünya ölkələri sırasındakı mövQeyini xeyli yaxşılaşdırmışdır. İqtisadi İnkişaf Nazirliyinin (İİN) hesabatında qeyd edilir ki, 2007-ci ildə qeyri-neft sektoru uzrə artım 11 faiz təşkil etmiş, ümumilikdə son 4 ildə olkə iqtisadiyyatı təxminən 2 dəfə, qeyri-

neft sektoru 1,8 dəfə artmışdır. 2007–ci ildə 2003-cü illə muqayisədə, dovlət investisiya qoyuluşunun həcmi 20 dəfədən çox artmışdır. İqtisadiyyatda muşahidə olunan sıçrayışlı artım 2007-ci ilin dovlət və icmal budcələrinin gostəricilərində də özünü aydın şəkildə büruzə vermişdir. 2003-cü illə muqayisədə, 2007-ci ildə Dovlət büdcəsinin cari xərcləri uzrə səhiyyə xərcləri 4,7 dəfə, kənd təsərrufatı xərcləri 4,6 dəfə, mədəniyyət, incəsənət, bədən tərbiyəsi və idman xərcləri 3,1 dəfə, təhsil xərcləri 3,1 dəfə, sosial mudafiə və sosial təminat xərcləri 2,8 dəfə, mənzil-kommunal təsərrufatı xərcləri 3,1 dəfə artmışdır.

Əvvəldə qeyd etdiyimiz kimi, kənd təsərrufatı sahəsində dovlət dəstəyinin gücləndirilməsi müşahidə edilir. Prezidentin Sərəncamına əsasən 2007-ci ilin Dövlət budcəsindən 80,0 milyon manat vəsaitin ayrılması hesabına, həmin ildə 598,8 min nəfər fiziki və 12 hüquqi şəxsə əkin sahəsinin becərilməsində istifadə edilmiş yanacaq və motor yağlarına, mineral gubrələrin guzəştlə satılmasına, buğda istehsalçılarına səpilən hər hektar sahəyə gorə 40 manat yardımın verilməsi təmin edilmişdir. Bu məqsədlə 68,9 milyon manat vəsait sərf olunmuşdur. Tədqiqatlar göstərmişdir ki, belə yardımların nəticəsi olaraq əvvəlki ilə nisbətən kənd təsərrufatı məhsulları uzrə butovlukdə əkilən sahə 2,0 min hektar, payızlıq taxıl və buğda sahələri isə 261 min hektar artmışdır.

İİN-in məlumatına görə, sahibkarlığın, o cumlədən aqrar sektorda sahibkarlığın inkişafına dovlət qayğısı 2007-ci ildə daha da artırılmış, fermer təsərrufatlarına mikrokreditlərin verilməsi, lizinq xidmətinin gostərilməsi istiqamətində mühüm addımlar atılmışdır. «Aqrolizinq» ASC üçün nəzərdə tutulmuş 40,0 milyon manat, Kənd Təsərrufatı Kreditləri uzrə Dovlət Agentliyinə nəzərdə tutulmuş 5,0 milyon manat vəsaitlərin təyinatı uzrə istifadəsi təmin edilmişdir.

Son illər aqrar sektorda fəaliyyət gostərən fermerlərə və sahibkarlara dovlət dəstəyi gücləndirilməkdə davam etmişdir. Bu da öz növbəsində kənd təsərrüfatı məhsullarının, aqrar sənaye məhsullarının istehsalına və həm də ixracına müsbət təsir göstərmişdir. Belə dəstək tədbirlərinə misal olaraq bir sıra konkret faktlar göstərə bilərik: «Kənd təsərrufatı məhsulları istehsalı ilə məşğul olan hüquqi şəxslər mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini, fiziki şəxslər isə əlavə dəyər vergisini və əmlak vergisini odəməkdən azad ediliblər». Azərbaycan Respublikası Prezidentinin «Aqrar bolmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında» 2004-cü il 23 oktyabr tarixli Sərəncamına uyğun olaraq aqrar bolmənin müasir texnika ilə təchizatının mükəmməlləşdirilməsi məqsədilə «Aqrolizinq»" ASC yaradılmış, beş ilə qaytarmaq şərtilə kənd təsərrufatı texnikalarının alınıb lizinqə verilməsi üçün 2005-ildən başlayaraq Dövlət budcəsindən iri məbləğdə vəsaitlər ayrılmışdır. Kənd təsərrufatı məhsulları istehsalçılarına zəruri aqrokimyəvi xidmət-

lərin gostərilməsi üçün bu səhmdar cəmiyyətinin tərkibində 61 rayonda təsərrufat hesablı Aqroservis filialları yaradılmış və onların texnika ilə təchiz olunması sahəsində tədbirlər həyata keçirilməkdədir. ASC-nin məlumatına görə, «2005-2006-cı illərdə ölkəyə səhmdar cəmiyyət tərəfindən gətirilmiş kənd təsərrufatı texnikalarından 270 ədəd taxılyığan kombayn, 486 ədəd traktor, 11 ədəd mini-traktor, 19 ədəd ekskavator-buldozer və 1061 ədəd kotan və muxtəlif kənd təsərrufatı təyinatlı qoşqular rayon Aqroservis filiallarının və ayrı-ayrı şəxslərin istifadəsinə verilirmişdir». Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 noyabr 2007-ci il tarixli Qərarı ilə «Buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalçılarının stimullaşdırılması məqsədilə Dövlət budcəsinin vəsaiti hesabına yardım verilməsi Qaydaları»" təsdiq edilmişdir ki, bu sənədə əsasən, buğda istehsalçılarına məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağının və mineral gubrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən odənilməsi nəzərdə tutulmuşdur və bu ötən illər ərzində həyata keçirilməkdədir.

**Cədvəl 3**

**Kənd təsərrüfatı məhsulları istehsalı, 2000-2007-ci ilər *(mln. manat.)***

| | ***2000*** | ***2002*** | ***2003*** | ***2004*** | ***2005*** | ***2006*** | ***2007*** |
|---|---|---|---|---|---|---|---|
| Bütün təsərrüfat kateqoriyaları | 1060.7 | 1270.5 | 1366.5 | 1476.6 | 1732.1 | 1969.7 | 2318.3 |
| *Dinamika* | - | *119.7* | *107.5* | *108.0* | *117.0* | *113.7* | *117.7* |
| *o cümlədən:* | | | | | | | |
| *bitkiçilik* | 617.7 | 774.1 | 807 | 874.8 | 988.2 | 1124.3 | 1303.1 |
| *heyvandarlıq* | 443 | 496.4 | 559.5 | 601.8 | 743.9 | 845.4 | 1015.2 |
| Kənd təsərrüfatı müəssisələri | 23.9 | 22.8 | 41.6 | 63.2 | 68.9 | 63.6 | 98.8 |
| *o cümlədən:* | | | | | | | |
| *bitkiçilik* | 17.8 | 11 | 10.3 | 13.0 | 14 | 15.9 | 17.7 |
| *heyvandarlıq* | 6.1 | 11.8 | 31.3 | 50.2 | 54.9 | 47.7 | 81.1 |
| Fərdi sahibkarlar, ailə, kəndli və ev təsərrüfatları | 1036.8 | 1247.7 | 1324.9 | 1413.4 | 1663.2 | 1906.1 | 2219.5 |
| *o cümlədən:* | | | | | | | |
| *bitkiçilik* | 599.9 | 763.1 | 796.7 | 861.8 | 974.2 | 1108.4 | 1285.4 |
| *heyvandarlıq* | 436.9 | 484.6 | 528.2 | 551.6 | 689 | 797.7 | 934.1 |

**Qeyd:** Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır

Hökumətin iqtisadi siyasətində aqrar bölmənin inkişaf prioritetləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmini;
- kənd təsərrüfatında suvarma və meliorasiya təminatının bərpası;
- aqrar bölmənin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- aqrar bölmənin xammal istehsalı və emalı sahələrinin əlaqəli inkişafının dəstəklənməsi;

- rəqabətqabiliyyətli məhsul istehsalının artırılmasının stimullaşdırılması;
- aqrar bölmənin maliyyə vəziyyətinin yaxşılaşdırılması;
- aqrar bölmənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi;
- aqrar bölmənin elmi-metodiki təminatının və kadr hazırlığı sisteminin təkmilləşdirilməsi.

Proqnozlara görə, 2008-2011-ci illərdə aqrar bölmədə məhsul istehsalı 40 faizə qədər arta bilər və eyni göstərici ixracda da öz əksini tapa bilər. Şəkil 1-də aqrar məhsulların faktiki və proqnoz göstəricilərinin müqayisəli dinamikası təqdim edilmişdir.

İstər aqrar bölmənin, istərsə də digər sahələrin ixrac potensialının yüksəldilməsində və ondan milli iqtisadiyyatın inkişafı üçün səmərəli istifadə edilməsində özəl bölmənin, xüsusi mülkiyyətə əsaslanan sahibkarlığın rolu xüsusilə vurğulanmalıdır. Nəzərə almalıyıq ki, qeyri-neft sektoru üzrə ixrac əsasən özəl bölmə hesabına formalaşır. Bu baxımdan müasir iqtisadi proseslər şəraitində dövlətin sahibkarlığa dəstəyi xüsusi əhəmiyyətə malikdir.

«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dovlət Proqramı»nın (2004-2008-ci illər) qəbulundan və həmin Proqramda nəzərdə tutulan tədbirlərin reallaşdırıldığı bu illər ərzində olkədə sahibkarlığın inkişafına gostərilən diqqət və qayğı nəticəsində ozəl sektora maraq xeyli artmışdır. Məsələn, 2007-ci ildə ÜDM-in strukturunda özəl bolmənin payı əvvəlki illərə nisbətən xeyli artaraq 84 faizə çatmış, son dörd il ərzində açılmış yeni iş yerlərinin də 85 faizindən çoxu özəl sektorun payına düşmüşdür. Dövlət büdcəsi gəlirlərinin də böyük hissəsi bu sektorda formalaşır.

Respublikamızın ixrac potensialının artmasında son illər sənaye sahəsində əldə edilmiş nailiyyətlər, inkişaf prosesləri də xüsusi rola malikdir. 2002-2007-ci illər ərzində ölkədə sənaye məhsulu istehsalının həcmi 4020 milyon manatdan 20277 milyon manata yüksəlmişdir. Sənaye istehsalını mədənçıxarma və emal sənayeləri kimi qruplaşdırsaq, görərik ki, son illər birincinin ümumi sənaye məhsulu istehsalında çəkisi durmadan artmışdır. Bu, əsasən neft sektorunda hasilatın artımı ilə bağlıdır. Amma bununla yanaşı, emal sənayesində də inkişaf prosesləri müşahidə edilMişdir. 2002-2007-ci illər ərzində emal sənayesi məhsulu istehsalı 2002 mln. manatdan 14631 mln. manata çatmışdır. Bu sektorda məhsul istehsalı 2005-ci ildə 16 %, 2006-cı ildə 6,9 %, 2007-ci ildə isə 7,3 % artmışdır. Emal sənayesinin daha sürətli artım müşahidə olunan sahələri bunlardır: dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı, oduncaqların emalı və ağacdan məmulatların istehsalı, sellüloz-kağız istehsalı; nəşriyyat işi, maşın və avadanlıqların istehsalı, nəqliyyat vasitələri və avadanlıqlarının istehsalı, rezin və plastik kütlə məmulatlarının istehsalı.

**Cədvəl 4**

**Sənayenin əsas göstəriciləri, 2002-2007-ci illər**

| | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|
| *Sənaye məhsulu (mln. man.)* | *4019.5* | *4982.1* | *5961.4* | *9290.5* | *15509.4* | *20277.4* |
| Dinamika (%) | *103.6* | *106.1* | *105.7* | *133.5* | *136.6* | *124* |
| Sənaye müəssisələrinin sayı | *2357* | *2421* | *2439* | *2571* | *2664* | *2729* |
| Mədənçıxarma sənayesi məhsulu (mln. man.) | *2002.5* | *2346.6* | *2958.3* | *5672.6* | *10565.9* | *14630.9* |
| Sənayedə xüsusi çəkisi | *55.6* | *52.5* | *50.7* | *55.2* | *61.0* | *68.0* |
| Emal sənayesi məhsulu (mln.man.) | *1664* | *2220* | *2543.3* | *3074.2* | *4312.2* | *4440.4* |
| Sənayedə xüsusi çəkisi (%) | *29.9* | *31.5* | *34.2* | *32.8* | *29.0* | *24.9* |
| Elektrik enercisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | *353* | *415.5* | *459.8* | *543.7* | *631.3* | *1206.1* |
| Sənayedə xüsusi çəkisi (%) | *14.5* | *16.0* | *15.1* | *12.0* | *10.0* | *7.1* |

**Qeyd:** Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır

Müxtəlif dövlət proqramlarının, sosial-iqtisadi inkişaf konsepsiyalarının təhlili göstərir ki, Azərbaycanda dövlətin iqtisadi siyasətində növbəti illər ərzində sənayenin inkişaf prioritetləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- sənayenin qeyri-neft sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;
- sənaye strukturunun seçilmiş inkişaf istiqamətlərinə uyğun olaraq yenidən qurulması və onun investisiya tələblərinə uyğunlaşdırılması;
- dövlət mülkiyyətində olan və ya səhmlərin nəzarət zərfi dövlətə məxsus olan sənaye müəssisələrinin sağlamlaşdırılması;
- istehsalın texnoloji cəhətdən yenidən qurulması;
- investisiya mənbələrinin və resurslarının müəyyənləşdirilməsi və artırılması;
- güzəştli büdcə vəsaiti hesabına sənayenin inkişafının dəstəklənməsi;
- vergi və gömrük siyasətinin təkmilləşdirilməsi, ixracın dəstəklənməsi və daxili bazarın qorunması;
- ixtisaslı işçi qüvvəsinin hazırlanması;
- sənaye şəhərciklərinin yaradılması ilə rəqabətədavamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi;
- ixracyönümlü istehsalların yaradılmasının təşviqi və bu sayədə regional və dünya iqtisadiyyatına inteqrasiyanın gücləndirilməsi;
- dünyada mövcud olan elmi-texniki innovasiya proseslərinə qoşulması və s.

Qeyd etmək lazımdır ki, son dörd ildə ölkə üzrə yaradılmış yeni müəssisələrin 60 faizi paytaxtın payına düşüb. Bu da heç şübhəsiz ki, iqtisadi inkişafın bir mərkəzdə təmərküzləşməsinin təzahürüdür. Məhz buna görədir ki, Azərbaycan hökuməti iqtisadi sahədəki siyasətinin prioritetlərindən biri kimi ölkə regionlarının inkişaf etdirilməsini müəyyənləşdirmişdir. 2004-2008-ci illərdə icra edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı» da bu məqsədə

xidmət etmişdir. Tədqiqatlar göstərir ki, Proqramın icrası və onun çərçivəsində regionlarda çoxsaylı müəssisələrin yaradılmasına, inkişafına dəstək verilməsi, regionlarda infrastrukturun inkişaf etdirilməsi ixrac potensialından səmərəli istifadə üçün geniş imkanlar açmışdır. İİN-in sənədində sözü gedən Dövlət Proqramının icrası və onun nəticələri belə qiymətləndirilmişdir: «Dovlət Proqramının icrası dövründə sənaye sahəsində əsas məqsədlərdən biri olaraq regionlardakı sənaye muəssisələrinin fəaliyyətinin bərpası, yeni muəssisələrin yaradılması, eləcə də kənd təsərrufatı məhsullarının emalı muəssisələrinin istehsal imkanlarının artırılmasına xüsusi diqqət yetirilmişdir. Ölkə Başçısının regionlara səfərləri bu prosesi daha da surətləndirmiş, yerli və xarici sahibkarların işgüzar fəallığının artması ilə muşahidə olunmuşdur. «Proqramı»n icrası muddətində regionlarda mövcud təbii və əmək potensialından səmərəli istifadə məqsədilə onlarla yeni istehsal və emal muəssisələri yaradılmışdır ki, bu da yerli əhalinin məşğulluğunun və olkədə dinamik inkişafın təmin edilməsində əsas inkişaf gostəricilərindən biri kimi qiymətləndirilmişdir. Dovlət Proqramının qəbulundan kecən dövr ərzində qeyri-neft sektorunun dinamik inkişafı və regionların iqtisadi potensialından səmərəli istifadə edilməsinə yönəldilmiş tədbirlər həyata kecirilmiş, sosial-mədəni infrastruktur obyektləri yenidən qurulmuş, yeni iş yerlərinin açılması və əhalinin həyat səviyyəsinin yuksəldilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir».

Regionlarda yaradılmış və ölkənin ixrac potensialının yüksəldilməsində xüsusi rol oynayan müəssisələrdən bir neçəsinin iqtisadi göstəricilərinə aşağıda diqqət yetirmişik. Fikrimizcə, belə müəssisələrin fəaliyyətinin genişləndirilməsi, onların beynəlxalq bazarlarda rəqabətədavamlı məhsul istehsal etmələrinə dövlət dəstəyinin göstərilməsi böyük səmərə verə bilər.

Abşeron iqtisadi rayonunda qeyd edilən dövrdə fəaliyyətə başlamış «Tam» Qida Sənayesi Müəssisəsində 150 ceşiddən çox şirniyyat məhsulu istehsal edilir və muəssisənin gundəlik gücü 10 tondur. Burada 500 nəfərdən çox işçi çalışır. Muəssisənin yuksək keyfiyyətli məhsulları yerli tələbatı odəməklə yanaşı, həm də ixrac olunaraq xarici bazarlara – Gürcüstana, Orta Asiya olkələrinə də gondərilir.

Sumqayıt şəhərində fəaliyyətə başlamış «Bismak» MMC Qida-Sənaye Kompleksi də bu qəbildən olan müəssisədir. 20-dək ceşiddə məhsul istehsal edən bu muəssisəyə əsas texnologiyalar Almaniyadan, Rusiyadan və Turkiyədən gətirilmiş və müasir avadanlıqlar quraşdırılmışdır. Kompleksdə dəyirman, qənnadı fabriki, biskvit və makaron sexləri fəaliyyət göstərir. Burada sutkada 12 ton qənnadı məmulatı, 3 ton vafli, 20 ton makaron istehsal olunur və gələcəkdə şokolad fabrikinin də istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Bu müəssisənin də məhsulları xarici ölkələrə ixrac olunur.

İxrac potensialı nəzərəçarpacaq şəkildə artan və yeni bərpa edilmiş müəssisələrdən biri olan «Azərbaycan Alüminiumu» ASC-nin Sumqayıt «Alüminium" istehsalat sahəsi»dir. Müəssisəyə xarici investisiyanın cəlb edilməsi nəticəsində onun istehsal həcmi və ixracı bir-neçə dəfə artmış, burada əlavə 600 iş yeri yaradılmışdır.

Sumqayıt şəhərində 2003-cü ildən inşasına başlanan və yuksək keyfiyyətli polietilen boruların istehsalı üçün nəzərdə tutulan «Dizayn-Genay Azərbaycan» Zavodu 2006-cı ilin oktyabrından işə başlamışdır. Müəssisənin istehsal edəcəyi məhsul çeşidlərinin böyük hissəsi ixrac üçün nəzərdə tutulub.

«Azkompozit» Boru İstehsalı Zavodu da 2006-cı ilin ikinci yarısından fəaliyyətə başlamışdır. Hazırda burada komponent maddələrdən gündə 500 metr boru istehsal edilir və gələcəkdə bu göstəricinin 1000 metrə çatdırılması nəzərdə tutulub. Muəssisədə ilkin mərhələdə boru istehsalı, gələcəkdə isə iri həcmli su, neft çənlərinin buraxılması planlaşdırılıb. İtaliya, İngiltərə və Fransadan gətirilmiş müasir avadanlıqların quraşdırıldığı bu müəssisədə istehsal olunan borulardan «Oğuz-Qəbələ-Bakı» su kəmərinin, şəhərlərin daxili su və kanalizasiya xətlərinin çəkilişində istifadə edilməsi, daxili tələbat odənildikdən sonra isə ixraca yönəldilməsi məqsəd kimi qarşıya qoyulmuşdur.

Ölkə Prezidenti 2006-cı ildə Gəncə şəhərinə və Daşkəsən rayonuna səfər edərkən «Daşkəsən Filizsaflaşdırma» ASC-də olmuş və ona bu nəhəng müəssisənin «Daşkəsən» və «Gəncə» layihələri, gələcəkdə yaradılacaq zavodların planları təqdim edilmişdir. Bildirilmişdir ki, dünyada ABŞ-dan sonra bu tipli ikinci muəssisə Azərbaycanda olacaqdır. 5 mindən çox insanın işlə təmin ediləcəyi bu müəssisə də ölkənin ixrac potensialında xüsusi əhəmiyyətə malikdir.

2005-ci ildən başlayaraq Qəbələ rayonunda «Gilan Holdinq»in tərkibində olan müəssisələr tərəfindən müxtəlif sahələri əhatə edən iri istehsal sahələri qurulmuşdur. Konserv zavodu, fındıq emalı və corək zavodları, tikinti materialları istehsalı muəssisələri kompleksi, qum-çınqıl zavodu və asfalt zavodu, kərpic zavodu və digərlərini buna misal göstərmək olar.

Son illər regionlarda fəaliyyət göstərən müəssisələrdən inkişafı daha çox diqqəti cəlb edənlərdən biri də «Şəki-İpək» ASC-dir. Bu müəssisənin fəaliyyəti hesabına respublikanın baramaçılıq və pambıqçılıq rayonlarında 20 min nəfərə yaxın yerli sakin mövsümi işlərə cəlb edilir. Müəssisə əsasən ixrac təyinatlıdır.

Masallı rayonunda 1996-cı ildən fəaliyyətə başlamış «Embawood» Mebel Fabrikində ildə 45 min dəst yuksəkkeyfiyyətli yumşaq və bərk mebellər istehsal olunur. Bu məhsullar Rusiyaya, Gürcüstana və Orta Asiya respublikalarına ixrac edilir. Daha keyfiyyətli məhsul istehsal etmək üçün İtaliya, Bolqarıstan, Rumıniya, Turkiyə kimi xarici ölkələrdən

yarımfabrikatlar gətirilir. Müəssisə «İSO-9001» beynəlxalq keyfiyyət sertifikatı almış, bir sıra beynəlxalq sərgilərin diplomuna layiq görülmüşdür.

2006-cı ildə İmişli Şəkər Zavodunun açılışı olmuşdur. Azərbaycanın ilk şəkər zavodu olan bu muəssisənin işə salınması kənd təsərrufatının digər sahələrinin də inkişafına, işsizliyin aradan qaldırılmasına böyük köməklik göstərmişdir. Zavodda Turkiyə, Ukrayna, Çexiya, Polşa, Almaniya və İran mutəxəssisləri də çalışırlar. Bu müəssisə həm ixrac potensialına görə, həm də regionda məşğulluğun artırılması baxımından ən strateci müəssisəyə çevrilmişdir.

2005-ci il aprelin 26-da Şamaxıda «Star Ltd» Televizor Zavodunun açılışı olmuşdur. Bu Turkiyə, Cənubi Koreya və Çin birgə muəssisəsidir. Müəssisədə müasir standartlara cavab verən muxtəlif ölçülü televizorlar istehsal edilir və bu məhsullar Ukrayna və Orta Asiya olkələrinə ixrac olunur. «Star» Məişət Avadanlığı Zavodunda isə il ərzində muxtəlif modellərdə 300 min ədəd kondisioner, 200 min ədəd muxtəlif ölçülü soyuducu və 150 min ədəd paltaryuyan maşının istehsal edilməsi nəzərdə tutulmuşdur.

Şübhəsiz ki, belə nümunələri çoxaltmaq da olar. Cədvəl 1.5-dən göründüyü kimi, təkcə 2007-ci ildə açılmış müəssisələrin sayı 5 mini keçmişdir. Ancaq bizi maraqlandıran əsas məsələ bu müəssisələrin ölkənin ixrac potensialının tənzimlənməsindəki roludur. Tədqiqatlar göstərir ki, ixracın artımında, onun diversifikasiyalaşmasında, müxtəlif yeni sahələrdə ixrac potensiallarının formalaşdırılmasında sahibkarlıq təşəbbüsləri ən əsas amil kimi çıxış edir. Bu baxımdan da dövlətin ixrac potensialını tənzimləməsində belə sahibkarlıq təşəbbüslərinə geniş meydan açması, investorlara dəstək verməsi zəruri görünür.

Belə dəstəkdən biri hökumətin sahibkarlığa subsidiyalar verməsi və güzəştli kredit xətlərini açmasıdır ki, son illərdə bu sahədə pozitiv meyillər müşahidə edilir. İİN-nin hesabatına görə, 2002-2005-ci illər ərzində Nazirliyin tabeliyində olan Sahibkarlığa Komək Milli Fonduna sahibkarlıq subyektlərinə yardım məqsədlə Dövlət budcəsindən 74 milyon manat vəsait ayrılmışdır, 2007-ci ildə isə bu rəqəm artaraq 80 milyon manata çatmışdır ki, bu da 2004-cü illə muqayisədə, 4 dəfə, 2003-cü illə muqayisədə, 7 dəfə, 2002-ci illə muqayisədə, isə təxminən 30 dəfə çox olmuşdur. 2004-2007-ci illər ərzində Fondun vəsaitləri hesabına olkə uzrə 6194 sahibkarlıq subyektinə 235.6 milyon manat kredit verilmişdir.

**Cədvəl 5**

**1995-2007-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların strukturu və dinamikası**

| | | *1995* | *1997* | *1999* | *2001* | *2003* | *2004* | *2005* | *2006* | *2007* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi kapital qoyuluşları | *mln. Man* | *480,6* | *1351,8* | *1293,8* | *1454,6* | *4249,2* | *5820,4* | *5769,9* | *6234,5* | *6774,8* |
| | *mln. dol.* | 544,0 | 1695,0 | 1571,0 | 1562,1 | 4326,4 | 5922,8 | 7118,3 | 7249,4 | 7584,0 |
| *Dinamika* | *%* | *691,0* | *168,7* | *84,3* | *110,6* | *156,3* | *132,8* | *115,7* | *114,8* | *117,8* |
| Daxili investisiyalar | *mln. Man* | *149,3* | *308,8* | *395,2* | *437,7* | *938,3* | *1324,0* | *2104,9* | *2756,1* | *4037,8* |
| | *mln. dol.* | 175,6 | 387,2 | 480,0 | 470,1 | 955,4 | 1347,3 | 2225,1 | 3096,7 | 4695,1 |
| *Dinamika* | *%* | *423,9* | *115,3* | *110,9* | *95,1* | *168,2* | *141,1* | *159,0* | *130,9* | *150,7* |
| Xarici investisiyalar | *mln. Man* | *331,4* | *1043,0* | *898,6* | *1016,9* | *3310,9* | *4496,4* | *4628,9* | *4154,1* | *2737,0* |
| | *mln. dol.* | 368,4 | 1307,0 | 1090,2 | 1092,0 | 3371,0 | 4275,5 | 4893,2 | 4667,5 | 3182,6 |
| *Dinamika* | *%* | *9,6d* | *195,5* | *76,3* | *119,0* | *146,5* | *130,4* | *106,9* | *89,7* | *89,1* |

**Qeyd:** Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır

İxrac potensialından səmərəli istifadədə və onun iqtisadi inkişaf istiqamətində tənzimlənməsində iqtisadiyyata qoyulan investisiyalar mühüm əhəmiyyətə malikdir. Bu investisiyaların bir hissəsi mövcud istehsal sahələrinin inkişafına, o cümlədən də bu sahələrdə ixracın artımına yönəldilirsə, onların əsas hissəsi yeni istehsal, xidmət və ifrastruktur sahələrinin yaradılmasına istiqamətləndirilir. Bu da öz növbəsində, ölkədə real iqtisadi artımı şərtləndirmiş olur. Neft sektorunda əldə edilmiş nailiyyətlər, neftin dünya bazarına çıxarılması nəticəsində irihəcmli valyuta ehtiyatlarının əldə edilməsi, Dövlət büdcəsi gəlirlərinin sürətli artımı son illər ərzində dövlət investisiyalarının həcminin durmadan artmasını şərtləndirmişsə, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, ölkədə makroiqtisadi maliyyə sabitliyinin möhkəmləndirilməsi xarici investisiyaların artımına, sahibkarlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması isə öz növbəsində daxili özəl investisiyaların artımına rəvac vermişdir.

Cədvəl 5-də təqdim olunan göstəricilərin müqayisəli təhlili göstərir ki, 1995-2007-ci illərdə il ərzində ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 14 dəfə, o cümlədən daxili investisiyaların illik həcmi 27 dəfə, xarici investisiyalar isə 8,2 dəfə artmışdır. 2003-2004-cü illərdən başlayaraq bu sahədə müşahidə edilən pozitiv tendensiyalardan biri daxili investisiyaların sürətli artımı və ümumi ivestisiyalardakı xüsusi çəkisinə görə xarici investisiyaları üstələməsidir.

Rəsmi statistikaya əsasən, 2007-ci ildə ölkə iqtisadiyyatında əsas kapitala yonəldilmiş ümumi investisiyanın 3456,6 milyon manatı, yaxud 51,0 faizi neft sektorunun, 3318,2 milyon manatı, yaxud 49,0 faizi qeyri-neft sektorunun payına düşmüşdür. 2006-cı illə muqayisədə, qeyri-neft

sektoruna yonəldilmiş investisiyanın həcmi 28,8 faiz çox olmuş, əsas kapitala yonəldilmiş xarici investisiyanın istifadə edilmiş bütün sərmayədəki xüsusi çəkisi 40,4 faiz, daxili investisiya isə 59,6 faiz təşkil etmişdir. İl ərzində əsas kapitala yonəldilmiş daxili investisiya əvvəlki ildəkindən 50,7 faiz çox olmuşdur.

Qeyd etmək lazımdır ki, ixrac potensialından səmərəli istifadə göstəricilərindən biri də ölkənin ixracının artım səviyyəsi, mövcud sahələrin ixrac potensiallarına uyğunluğu məsələsidir. İxracın səviyyəsi və artım tempi ölkədəki iqtisadi inkişafa uyğundurmu? Bu suala cavab axtarmaq məqsədilə müxtəlif müqayisə və paralellər aparmaq olar. Bunlardan ən əsası ölkənin əsas makroiqtisadi göstəricisi olan ÜDM-də ixracın payı və bu iki göstəricinin artım templərinin müqayisəsidir. Məlum olduğu kimi, ÜDM hesablanarkən onun tərkibindəki əsas hissələrdən biri olan ixrac götürülür. Belə ki, son dövrdə, ÜDM-in artım tempi ixracın artımını üstələmişdir. Bu da ondan xəbər verir ki, ÜDM-in artımında başqa amillərin rolu yüksəlmişdir. Bir sözlə, bu ilkin, sadə bir təhlil olsa da onu göstərir ki, ixracın artımı ölkədəki iqtisadi artımla adekvat deyildir. Ölkədəki makroiqtisadi sabitlikdən, artan maliyyə resurslarından daha səmərəli istifadə etməklə ixrac potensiallarını effektli reallaşdırmaq olar.

Ölkədə ixrac potensialından səmərəli istifadəyə əhəmiyyətli dərəcədə təsir edən və onun tənzimlənməsinin əsas aləti olan amillərdən biri də gömrük sistemi və onun inkişafı məsələləridir. Gömrük sisteminin, gömrük tarif tənzimlənməsinin cari vəziyyəti, həm də xarici ticarətin liberallaşdırılma səviyyəsini xarakterizə edir.

Tədqiqatlar göstərir ki, Azərbaycanın iqtisadi inkişaf strategiyasında gömrük sisteminin növbəti illərdə aşağıdakı istiqamətlərdə inkişafı nəzərdə tutulub:

- yerli istehsalçıların maraqları və istehsal olunan məhsulların rəqabət qabiliyyətinin artırılması nəzərə alınmaqla gömrük rüsumlarının dərəcələrinin çevik tənzimlənməsi, eyni zamanda gömrük tənzimlənməsi zamanı ölkə iqtisadiyyatının investisiya mallarına artan tələbatının nəzərə alınması;
- bütün hallarda malların idxalı zamanı gömrük siyasətinin ən vacib istiqamətlərindən biri kimi xammal və investisiya yönümlü mallara daha əlverişli şəraitin yaradılması və idxal mallarının milli istehsalçılara mənfi təsirinin azaldılması kimi müəyyənləşdirilməsi;
- gömrük xidmətinin təkmilləşdirilməsi, gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi, gömrük rəsmiləşdirilməsi prosedurlarının daha da sadələşdirilməsi, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizənin səmərəliliyinin artırılması, gömrük brokeri institutlarının yaradılması istiqamətlərində tədbirlərin görülməsi;

- daxili bazarın qorunması tədbirlərinin gömrük siyasətinin əsas istiqamətlərindən biri kimi olaraq qalması və s.

Belə bir qənaətə gəlmək olar ki, gömrük tarif tənzimlənməsinin iqtisadi inkişafı, ixrac potensialından istifadənin yüksəldilməsini stimullaşdıracaq şəkildə təkmilləşdirilməsi günün ən aktual tələblərindən biridir. İxrac potensiallarının xarici ticarətdə daha dolğun əks olunması üçün bu məsələyə diqqət yetirilməsi vacibdir.

## 6.4. Azərbaycanın xarici-ticarət fəaliyyətinin xüsusiyyətləri və onun əsas göstəricilərinin təhlili

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra qarşıda duran ən mühüm iqtisadi problemlərdən biri ölkənin dünya iqtisadiyyatına inteqrasiyasının təşkili, xarici ticarət əlaqələrinin qurulması, ixrac potensialının artırılması və bu proseslərdən səmərəli istifadə məsələləri olmuşdur. Müstəqilliyin ilk illərində respublikamızın iqtisadiyyatı əsasən idxaldan asılı vəziyyətdə olmuş, iqtsiadiyyatın vaxtı ilə prioritetini təşkil etmiş sahələrdə belə dərin böhran prosesləri müşahidə edilmişdir.

*Bu gün hissi fərəhlə qeyd etmək olar ki, ölkə iqtisadiyyatında sürətli inkişaf prosesləri müşahidə edilir, milli iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində böyük uğurlar əldə edilmişdir. Artıq Azərbaycan Respublikasının dünyanın 140 ölkəsi ilə ticarət-iqtisadi əlaqəsi mövcuddur. 1995-2007-ci illər ərzində xarici ticarət dövriyyəsinin həcmi 9 dəfədən çox artmışdır. Bu illər ərzində idxal 8 dəfədən çox, ixrac isə 10 dəfəyə qədər yüksəlmişdir.*

Müasir dövrdə Azərbaycanın xarici-ticarət fəaliyyəti spesifik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətləri səciyyələndirən aşağıdakı faktorlar mövcuddur:

- ölkənin bazar iqtisadiyyatına keçid dövrünü yaşaması;
- zəngin təbii sərvətlərə malik olması;
- neft ixracatçısı olması;
- coğrafi mövqeyi (Avropa-Asiya nəqliyyat dəhlizinin üzərində yerləşməsi);
- yerli istehsalın daha çox keçmiş sovet standartlarında olması və s.

**Cədvəl 1**

**Azərbaycan Respublikasının xarici-ticarət dövriyyəsinin əsas göstəriciləri, 1995-2007-ci illər (mln.ABŞ dolları ilə)**

| *İllər* | *Dövriyyə* | *Dinamika, %-lə* | *İdxal* | *Dinamika, %-lə* | *İxrac* | *Dinamika, %-lə* | *Saldo* |
|---|---|---|---|---|---|---|---|
| ***1995*** | 1304,9 | -8,8 | 667,6 | -14,2 | 637,2 | -2,4 | -30,4 |
| ***1996*** | 1591,9 | 22,0 | 960,6 | 43,9 | 631,2 | -1,0 | -329,4 |
| ***1997*** | 1575,6 | -1,1 | 794,3 | -17,3 | 781,3 | 23,8 | -13,0 |
| ***1998*** | 1682,6 | 6,8 | 1076,5 | 35,5 | 606,1 | -22,4 | -470,3 |
| ***1999*** | 1965,1 | 16,8 | 1035,9 | -3,8 | 929,2 | 53,3 | -106,6 |
| ***2000*** | 2917,3 | 48,5 | 1172,0 | 13,1 | 1745,2 | 87,7 | 573,1 |
| ***2001*** | 3745,3 | 28,4 | 1431,1 | 22,1 | 2314,2 | 32,6 | 883,0 |
| ***2002*** | 3833,0 | 2,3 | 1665,6 | 16,4 | 2167,5 | -6,3 | 501,9 |
| ***2003*** | 5218,1 | 36,1 | 2626,4 | 57,7 | 2591,7 | 19,6 | -34,7 |
| ***2004*** | 7131,4 | 36,7 | 3515,9 | 33,7 | 3615,5 | 39,5 | 99,5 |
| ***2005*** | 8547,2 | 19,8 | 4200,4 | 19,5 | 4346,9 | 20,2 | 146,5 |
| ***2006*** | 11637,2 | 36,1 | 5265,1 | 25,3 | 6372,1 | 46,6 | 1107,0 |
| ***2007*** | 11770,5 | 1,1 | 5712,2 | 8,5 | 6058,4 | -5,9 | 3462,3 |

**Qeyd:** Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır.

Respublikanın xarici-ticarət strategiyasının müəyyənləşdirilməsində bu faktorlar öz təsirini göstərmişdir. Fikrimizcə, gələcəkdə də bu amillərin müsbət və mənfi təsirləri müəyyənləşdirilməli, ölkənin ixrac potensialının tənzimlənməsində bunlar nəzərə alınmalıdır.

Tədqiqatlar göstərir ki, son beş ildə xarici ticarət dövriyyəsində ixracın xüsusi çəkisinin yüksəlməsində və onun dinamik olaraq artımında neft amilinin rolu böyük olmuşdur. Statistik göstəricilərin təhlili bunu aydın şəkildə göstərir.

Belə ki, 2001-ci ildə ixracın 91 %-ni, 2002-ci ildə 87%-ni, 2003-cü ildə 85%-ni, 2004-cü ildə 82%-ni, 2005-ci ildə 76%-ni, 2006-cı ildə 84%-ni, 2007-ci ildə isə 81 %-ni neft və neft məhsulları təşkil etmişdir. 2008-ci ildə isə bu göstərici neftin dünya bazarındakı qiymətinin 2 dəfədən çox artması ilə əlaqədar olaraq 95 faizdən də çox olmuşdur. Təsadüfi deyildir ki, respublikamızın irihəcmli neft ixracına başladığı 2000-ci ildən xarici-ticarət dövriyyəsində müsbət saldo müşahidə edilir. Qeyd etdiyimiz kimi, həm də dünya bazarında xam neftin qiymətinin artması da ixracın dəyər ifadəsində, artımında rol oynayır.

Bu qeyd edilənlər onu göstərir ki, ixracın sürətli artımı, ümumi ticarət dövriyyəsində müsbət saldonun müşahidə edilməsi, onun həcminin artması heç də arxayınçılığa əsas vermir. Artıq bir sıra iqtisadçı alimlər öz tədqiqatlarında göstərmişlər ki, ölkənin ixrac potensialından səmərəli istifadə edilməsi üçün ixracın strukturunda qeyri-neft sektorunun xüsusi çəkisinin artırılmasına diqqət yetirilməlidir.

Düzdür, araşdırmalar göstərir ki, bu illər ərzində qeyri-neft sektoru üzrə ixracda da artım müşahidə edilmişdir. Lakin bu artımın qeyd edilən

sektorun real ixrac potensialını özündə əks etdirdiyini söyləmək mümkün deyil.

Statistik məlumatların təhlili göstərir ki, son illər ixracın strukturunda xüsusi çəkisinə görə neft və neft məhsullarından sonra kimya sənayesi məhsulları və kənd təsərrüfatı məhsulları gəlir. Bu məhsulların isə ayrı-ayrılıqda ixracda xüsusi çəkisi 3 %-i keçmir.

Azərbaycan Respublikasının ixrac potensialından istifadənin yüksəldilməsində və onun tənzimlənməsində beynəlxalq iqtisadi inteqrasiya prosesləri müstəsna rola malikdir. Təbii ki, bu proseslərdən biri yuxarıda qeyd etdiyimiz ikitərəfli ticarət-iqtisadi əlaqələr hesab edilə bilər. Lakin beynəlxalq iqtisadi inteqrasiyada çoxtərəfli ticarət-iqtisadi əlaqələr, o cümlədən beynəlxalq təşkilatlarla əlaqələr mühüm əhəmiyyət kəsb edir. Bu tip əlaqələrə aşağıdakıları misal göstərmək olar:

- MDB çərçivəsində bu Birliyə üzv olan ölkələrlə əməkdaşlıq;
- Qara Dəniz İqtisadi Əməktəşliq Təşkilatı çərçivəsində üzv ölkələrlə əməkdaşlıq;
- GUAM çərçivəsində bu təşkilata üzv ölkələrlə əməkdaşlıq;
- Beynəlxalq maliyyə institutları (BFV, DB, AYİB və s.) ilə əməkdaşlıq;
- Digər iqtisadi birliklər (AB və s.) və təşkilatlarla (Dünya Ticarət Təşkilatı, Dünya Gömrük Təşkilatı və s.) əməkdaşlıq və s.

*MDB ölkələri Azərbaycanın xarici ticarətində xüsusi çəkiyə malikdirlər. Xüsusilə də onu qeyd etmək lazımdır ki, respublikamızın qeyri-neft sektoru üzrə ixracında MDB birinci yerdə durur. Təcrübə göstərir ki, ölkəmizin ixrac potensialından səmərəli istifadə məsələsində bu Birlik, xüsusilə də bu təşkilata üzv olan Rusiya Federasiyası xüsusi əhəmiyyət kəsb edirlər. Fikrimizcə, ixrac potensialının tənzimlənməsi prosesində bu ölkələrlə olan ticarət-iqtisadi əlaqələrə bundan sonra da böyük diqqət yetirilməlidir.*

Ölkəmizin xarici ticarət əlaqələrinin coğrafi və regional quruluşu spesifik xüsusiyyətlərə maikdir. Əgər bir sıra Qərbi Avropa ölkələri neft amilinə görə, daha doğrusu Azərbaycan neftinin alıcısı olduqları üçün ixracda önəmli yer tuturlarsa, MDB ölkələri, o cümlədən Rusiya daha çox milli iqtisadiyyatların tarixi bağlılığı, qonşuluq, nəqliyyat infrastruktur əlaqələrinin daha geniş şəkildə mövcudluğu, məhsulların standartlarının uyğunluğu, bazarların qarşılıqlı fəaliyyətinin dərinləşməsi və digər bu kimi faktorlarla əlaqədar olaraq strateci ticarət tərəfdaşlarıdır. Cədvlə 2.-yə diqqət yetirsək, burada Azərbaycanın xarici ticarətinin coğrafi strukturu və 2007-ci ildə onun dinamikası daha dolğun əks olunmuşdur.

**Cədvəl 2**

**Azərbaycanın xarici ticarətində dünya regionlarının xüsusi çəkisi**

| | *2007* | *Əvvəlki ilə nisbətən (l%)* |
|---|---|---|
| | | |
| Cəmi dövriyyə | 11766,9 | 101,1 |
| AB ölkələri | 3347,5 | 63,5 |
| MDB ölkələri | 3003,5 | 99,2 |
| Digər ölkələr | 5415,9 | 161,9 |
| | | |
| İxrac – cəmi | 6058,3 | 95,1 |
| AB ölkələri | 1674,1 | 46,0 |
| MDB ölkələri | 1102,4 | 118,6 |
| Digər ölkələr | 3281,1 | 182,4 |
| | | |
| İdxal – cəmi | 5708,6 | 108,4 |
| AB ölkələri | 1673,4 | 103,0 |
| MDB ölkələri | 1901,1 | 90,6 |
| Digər ölkələr | 2134,1 | 138,1 |

**Qeyd:** Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır

Əslində MDB bir qurum kimi elə də əhəmiyyət kəsb etmir. Əsasən Birliyə üzv olan ölkələr, xüsusilə də Rusiya, Ukrayna, Qazaxıstan və digərləri ikitərəfli ticarət-iqtisadi əlaqələr çərçivəsində ixrac və idxalda xüsusi paya malikdirlər. Buna baxmayaraq qeyd etməliyik ki, bu ölkələrlə Birlik çərçivəsində də ticarət-iqtisadi əlaqələrə aid sazişlər imzalanmışdır. MDB çərçivəsində bu günə qədər 1400-ə qədər sənəd qəbul edilmişdir ki, bu sənədlərin də 141-i Azərbaycan Respublikası tərəfindən imzalanmışdır. Onlardan 12-i ratifikasiya olunmuş, 75-i dövlətdaxili prosedurlardan keçmişdir.

Hazırda MDB ölkələri arasında 1000-dən çox dövlətlərarası, hökumətlərarası və idarələrarası müqavilə, saziş və digər ikitərəfli sənədlər qüvvədədir. Bu sənədlərdən 100-dən çoxu ticarət–iqtisadi əlaqələrə aiddir.

MDB ölkələrinin inkişafı üçün bazar münasibətlərinin qorunması şərti ilə ümumiqtisadi bazara tədricən keçilməsinin təmin olunması məqsədilə 1994-cü ildə MDB məkanında azad ticarət zonasının, Gömrük Birliyinin, ümumi mal və xidmət bazarının, Dövlətlərarası Valyuta Komitəsinin yaradılması haqqında sazişlər imzalanmışdır.

**Cədvəl 3**

**2002-2007-cı illərdə MDB ölkələri ilə xarici ticarətin əsas göstəriciləri**

| | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2002-2007-ci illərdə artım |
|---|---|---|---|---|---|---|---|
| İxrac (mln. dollar) | 243,7 | 333.9 | 614,3 | 905,4 | 929,6 | 1102,4 | 4,5 dəfə |
| Xüsusi çəkisi, % | 11,2 | 12,8 | 16,9 | 20,8 | 14,6 | 18,1 | 6,9 % |
| İdxal (mln. dollar) | 650,6 | 850,7 | 1200,5 | 1449,5 | 2100,0 | 1901,1 | 2,9 dəfə |
| Xüsusi çəkisi, % | 39,1 | 32,4 | 34,1 | 34,5 | 39,9 | 33,2 | - 5,9 % |

**Qeyd:** Cədvəl DSK-nın və DGK-nın məlumatları əsasında hazırlanmışdır

Dövlət Gömrük Komitəsinin məlumatına görə, respublikanın rezident və qeyri-rezidentləri 2008-ci ildə MDB ölkələrinə 1619619,2 min ABŞ dolları dəyərində əmtəə (ümumi ixraca nisbətən 3,39%) çıxarmışlar, o cümlədən, 830044,4 min ABŞ dolları dəyərində əmtəə sərbəst dönərli valyuta ilə (ixraca nisbətən 51,25%), 548 153,3 min ABŞ dolları dəyərində digər sazişlərlə (ixraca nisbətən 33,84%) və 206865,9 min ABŞ dolları dəyərində əmtəə qapalı valyutaya hesablaşmalar ilə (ixraca nisbətən 12,77%) çıxarılmışdır. Respublikaya MDB ölkələrindən 2 340 338,9 min ABŞ dolları dəyərində əmtəə (ümumi idxala nisbətən 32,67%) gətirilmişdir. Onlardan 1762233,4 min ABŞ dolları dəyərində əmtəə sərbəst dönərli valyutaya (idxala nisbətən 75,30%), 339458,8 min ABŞ dolları dəyərində əmtəə qapalı valyutaya hesablaşmalar ilə (idxala nisbətən 14,50 %) və 189182,4 min ABŞ dolları dəyərində əmtəə digər sazişlərlə (idxala nisbətən 8,08%) gətirilmişdir. Ümumilikdə, MDB ölkələri üzrə xarici ticarət dövriyyəsində mənfi saldo 720 719,7 min ABŞ dolları təşkil etmişdir.

**Cədvəl 4**

**Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsində əsas tərəfdaş ölkələr və onların 2008-ci ildə ixrac və idxalda xüsusi çəkisi**

| ***İxracda*** | | | ***İdxalda*** | | |
|---|---|---|---|---|---|
| Ölkənin adı | mln. ABŞ dol. | çəkisi, %-lə | Ölkənin adı | mln. ABŞ dol. | çəkisi, %-lə |
| İtaliya | 19220,1 | 40,25 | Rusiya | 1348,9 | 18,83 |
| ABŞ | 6014,3 | 12,59 | Türkiyə | 807,3 | 11,27 |
| İsrail | 3605,8 | 7,55 | Almaniya | 598,6 | 8,36 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Hindistan | 2432,5 | 5,09 | Ukrayna | 567,2 | 7,92 |
| Fransa | 2322,7 | 4,86 | Çin | 478,5 | 6,68 |
| İspaniya | 1497,7 | 3,14 | B.Britaniya | 385,9 | 5,39 |
| İndoneziya | 1411,1 | 2,95 | ABŞ | 266,1 | 3,72 |
| Niderland | 1353,4 | 2,83 | Finlandiya | 245,9 | 3,43 |
| Çili | 934,0 | 1,96 | Yaponiya | 240,4 | 3,36 |
| B.Britaniya | 925,9 | 1,94 | Qazaxıstan | 199,8 | 2,79 |

**Qeyd:** Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır.

Respublikadan MDB ölkələrinə əsasən mineral yanacaq, neft və onların emal məhsulları, bitumlu minerallar (ixraca nisbətən 36,36%); qara metallardan məmulatlar (10,95%); meyvə (9,00%); gəmilər, qayıqlar və digər üzən vasitələr (7,62%); heyvan və ya bitki mənşəli piylər və yağlar (7,58%) ixrac edilmişdir. MDB ölkələrindən Azərbaycana isə dənli bitkilər (idxala nisbətən 16,65%); quru nəqliyyat vasitələri (12,11%); avadanlıqlar və mexaniki qurğular (7,43%); qara metallardan məmulatlar (6,86%); elektrik maşınları və avadanlıqları, onların hissələri (6,29%) idxal edilmişdir.

Xarici iqtisadi əlaqələrin təhlili, statistik göstəricilərin müqayisəsi göstərir ki, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin, xüsusilə də qeyri-neft sektorlarının, o cümlədən kənd təsərrüfatının ixrac potensialından istifadədə və bu potensialın yüksəldilməsində Rusiya Federasiyası ilə olan ticarət əlaqələri böyük əhəmiyyətə malikdir. Bu ölkə, Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında xüsusi çəkisinə görə birinci yerdə durur. 2007-cı ildə Rusyanın Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində payı 13,0 %, o cümlədən idxalda 17,6%, ixracda isə 8,7 % olmuşdur. Nəzərə alsaq ki, əvvəldə qeyd etdiyimiz kimi ölkənin ümumi ixracında neft və neft məhsulları 81 % paya malikdir (2007-ci il) və bu məhsullar Rusiyadan başqa ölkələrə ixrac olunur, onda deyə bilərik ki, Rusiya Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında 45 faizdən çox paya malikdir (Rusiyanın ixracdakı payı 8,7 % / Qeyri-neft sektorunun ixracdakı payı 19% × 100).

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2007-ci ildə ixrac-idxal əmliyyatlarının 28,5 faizi Avropa Birliyi, 25,5 faizi MDB ölkələrində , 46,0 faizi isə digər dövlətlərdə aparılmışdır . Ümumilikdə isə xarici ticarət əlaqələrinin 47,4 faizi Avropa, 44,6 faizi Asiya, 7,7 faizi Amerika, 0,2 faizi Afrika qitəsi ölkələri, 0,1 faizi isə Okeaniya ölkələrinin payına düşür.

Əvvəldə qeyd etdiyimiz kimi, xarici ticarət əlaqələrinin əsas xüsusiyyətlərini səciyyələndirən göstəricilərdən biri də idxalın və ixracın strukturunda əmtəələrin xüsusi çəkisidir. Son illər bu sahədə əldə edilmiş əsas nailiyyətlərdən biri idxalın strukturunda ərzaq məhsullarının çəkisinin

azalmasına nail olunmasıdır. Bu da ölkədə həm idxalın əvəzlənməsi, həm də ərzaq təhlükəsizliyi strategiyasının uğurlu icrasından xəbər verir.

2008-ci ildə idxal və ixracın strukturunda əmtəələrin payı və onun əvvəlki ilə nisbətən dəyişməsi aşağıdakı kimi olmuşdur:

- İxracda: xam neft - 92,49% (2007-ci ilin ixracına nisbətən 13,7 dəfə artmışdır), neft məhsulları - 4,30% (123,11%), qara metallar və onlardan hazırlanan məmulatlar - 0,48% (301,31%), meyvə-tərəvəz - 0,45% (131,92%), bitki və heyvan mənşəli yağlar - 0,26% (148,78%), alüminium və ondan hazırlanan məmulatlar - 0,26% (133,33%), kimya sənayesi məhsulları - 0,23% (115,68%), alkoqollu və alkoqolsuz içkilər - 0,04% (90%), pambıq - 0,03% (46,23%), tütün və tütün məmulatları - 0,01% (54,59% artım).

- İdxalda: maşın və elektrik aparatları, avadanlıqlar, elektrotexniki avadanlıqlar və onların ehtiyat hissələri - 30,82% (2007-ci ilə nisbətən 127,91%), nəqliyyat vasitələri və onların hissələri - 16,98% (137,63%), Ərzaq məhsulları - 12,50% (125,88%), qara metallar və onlardan hazırlanan məmulatlar - 9,30% (108,38%), Əczaçılıq məhsulları - 1,51% (118,41%), oduncaq və ondan hazırlanan məmulatlar - 1,16% (115,06%), xalq istehlakı malları - 0,72% (100,24%), mebel - 0,56% (116,93%) təşkil edir. Qalan əmtəələrin payına 26,46% düşür.

2008-ci ildə ixrac əməliyyatlarında dövlət sektorunun payı 37,81 %, özəl sektorun payı 61,78 %, fiziki şəxslərin payı isə 0,41 % olmuşdur.

Statistik göstəricilər, hesabatlar əsasında aparılmış təhlil və müqayisələr Azərbaycanın xarici ticarət əlaqələrinin müasir xüsusiyyətləri ilə bağlı aşağıdakıları qeyd etməyə imkan verir:

- milli iqtisadiyyatda müşahidə edilən sürətli inkşaf prosesləri xarici-iqtisadi əlaqələrdə də təzahür olunur;

- xarici-iqtisadi əlaqələrin əsas göstəricilərinin təhlili beynəlxalq iqtisadi inteqrasiya proseslərinin sürətləndiyini göstərir;

- xarici-iqtisadi əlaqələrin coğrafiyasının və idxal-ixrac əməliyyatlarının regional struktrunun dinamik şəkildə dəyişikliyi müşahidə edilir;

- ixracın artımında neft sektoru müstəsna rol oynayır, lakin bununla yanaşı, xarici-iqtisadi əlaqələrin genişlənməsi qeyri-neft sektoru üzrə ixrac potensialından istifadə üçün geniş imkanlar yaradır;

- qeyri-neft sektoru üzrə ixracda MDB ölkələri, xüsusilə də Rusiya Federasiyası tərəfdaş ölkə kimi strateci əhəmiyyətə malikdir;

- Azərbaycanın tranzit ölkə kimi beynəlxalq iqtisadi inteqrasiya proseslərində əhəmiyyəti artır;

- ölkənin kənd təsərrüfatı məhsullarının ixrac potensialından istifadə yüksəlməkdədir;

- idxal və ixracın əmtəə strukturunda makroiqtisadi inkişafa, iqtisadi təhlükəsizlik parametrlərinə uyğun pozitiv dəyişikliklər gedir və s.

## 6.5. Azərbaycan Respublikasının Neft-Qaz İxracı Strategiyası

Hal-hazırda Azərbaycanın ixracının əsasını neft və neft məhsullarının xarici ölkələrə satışı təşkil edir. Bir sözlə, ölkənin ixracında əsas stratec istiqaməti neft sektoru tutur. Son illər neft sektorunda əldə edilmiş nailiyyətlər, neft ixracının ilbəil yüksəlməsi Azərbaycanı dünyanın əsas neft ixrac edən ölkələri sırasına çıxarmışdır. 2009-cu ildə ölkədə neft hasilatının 50 milyon, 2010-cu ildə isə 60 milyon tona çatdırılması planlaşdırılmışdır ki, bu da onu göstərir ki, yaxın illərdə neft amilinin ixracdakı çəkisi və rolu daha da artacaqdır.

Bəzən bir sıra tədqiqatçılar iddia edirlər ki, ölkənin ixrac potensialının tənzimlənməsindən bəhs edərkən, bu istiqamətdə araşdırma apararkən neft sektoruna diqqət yetirmək vacib deyil, çünki bu sahənin ixrac potensialı özü-özlüyündə tənzimlənir. Onlar iddia edirlər ki, hazırkı şəraitdə dünya neft bazarında rəqabət yox səviyyəsindədir, bazara çıxarılan istənilən həcmdə xam neftin alıcısı var, əksinə, ixracatçı ölkələr neftin qiymətini yüksəltmək, onu arzuolunan səviyyədə saxlamaq üçün həcmi azaltmağa meyillidirlər.

Tədqiqatlar göstərir ki, hazırkı şəraitdə Azərbaycanın neft ixracının səmərəliliyinin yüksəldilməsində aşağıdakı məsələlər prioritet təşkil edir:

- neft hasilatı sənayesində mütərəqqi texnika və texnologiyalardan, xarici investisiylardan effektli istifadə etməklə ixrac olunan neftin maya dəyərinin aşağı salınması, dünya bazarındakı qiymət dəyişikliyindən pozitiv istifadə və digər amillər hesabına ixracdan daxil olan vəsaitlərin yüksəldilməsi;
- neft ixracından daxil olan irihəcmli maliyyə vəsaitlərindən milli iqtisadiyyatın inkişafında səmərəli investisiya kimi istifadə etmək, bu vəsaitlər hesabına digər sahələri də inkişaf etdirmək;
- neft ixracından əldə edilən vəsaitlərin gələcək nəsillər üçün qorunub saxlanmasının səmərəli menecmentini təşkil etmək, dünya maliyyə bazarlarında effektiv şəkildə yerləşdirmək;
- irihəcmli neft gəlirlərinin yarada biləcəyi mənfi tendensiyaların qarşısının alınması, davamlı makroiqtisadi sabitliyin qorunub saxlanılması və s.

Hazırda enerjı təhlükəsizliyi problemi dünyada, xüsusılə inkişaf etmış ölkələrdə ən aktual problemdir – deyən Prezident İ.Əliyevin fikrincə, Azərbaycanın neft strategiyası ölkənin enerjı təhlükəsizliyi problemini 100-150 il qabaqcadan həll edib: «Bizim gücümüz bundadır ki, Azərbaycan özünün enerji təhlükəsizliyi problemini həll etməklə yanaşı, bunun digər ölkələrdə, həm qonşu, həm də coğrafi baxımdan bizə yaxın olmayan ölkələrdə həllinə də töhfə verır». O, bildirib kı, bu mənada Azərbaycan artıq dünyada mühüm rol oynayır və gələcəkdə də bu rol artacaq:

**Cədvəl 1**

**Azərbaycanın neft ixracının əsas göstəriciləri, 2003-2007-ci illər**

| | *2003* | *2004* | *2005* | *2006* | *2007* |
|---|---|---|---|---|---|
| Miqdarı, min ton | 10951,8 | 11500,9 | 9033,1 | 12434,4 | 9432,4 |
| Məbləği, mln. dollar | 2212,4 | 2962,2 | 3308,6 | 5354,0 | 4883,1 |
| İxracda xüsusi çəkisi, % | 85,4 | 81,9 | 76,1 | 84,0 | 80,6 |

**Qeyd:** Cədvəl DSK-nın və DGK-nın məlumatları əsasında hazırlanmışdır

Hazırda hökumət neft sektorunda ehtiyatlardan daha səmərəli istifadə ilə bağlı müxtəlif proqram və konsepsiyalar reallaşdırmaqdadır. Neft hasilatının səmərəliliyinin artırılması, yeni yataqların daha effektiv şərtlərlə istismar edilməsi, hasilat sənayesinə innovasiyaların tətbiqi qarşıda duran əsas vəzifələrdəndir.

2006-cı ilin may ayında istifadəyə verilmiş «Bakı-Tbilisi-Ceyhan» neft ixrac kəmərinin ümumi uzunluğu 1769 km, keçirmə qabiliyyəti isə gün ərzində 1 mln. barel, ildə 50 mln. tondur.

Yuxarıda qeyd edilənlər onu göstərir ki, Azərbaycanın karbohidrogen ixracı üçün geniş imkanlar açılmış, onların dünya bazarlarına daha sərfəli şərtlərlə çıxarılması üçün lazımi infrastruktur formalaşmışdır. Lakin bu sahənin ixrac potensialının tənzimlənməsi, ondan daha səmərəli istifadə edilməsi üçün istehsalın-hasilatın da tələb olunan səviyyəyə çatdırılması zəruridir. Ölkədə neft-qaz hasilatının müasir vəziyyəti necədir? Biz aşağıda bu suala cavab aramağa çalışmışıq.

2007-ci ildə Azərbaycanda ümumilikdə 42,6 mln. ton neft, 17,0 milyard kub metr qaz hasil edilib. 2008-ci ildə isə neft hasilatının 50,5 mln. tona, qaz hasilatının isə 26,1 milyard kub metrə qədər yüksələcəyi gözlənilir. 2009-cu ildə neft hasilatı 60,0 mln. ton, təbii qaz hasilatı isə 30,0 milyard kub metr həcmində proqnozlaşdırılır.

Azərbaycanın neft ixracının səmərəliliynin artırılması, neft satışından daxil olan vəsaitlərdən milli iqtisadiyyatın inkişafında daha doğru istiqamətlərdə istifadə olunması daim dövlətin diqqət mərkəzindədir. Bu günə qədər bu problemlə bağlı bir sıra dövlət proqramları, qanunlar, müxtəlif normativ-hüquqi sənədlər qəbul edilmiş, Prezident tərəfindən fərman və sərəncamlar imzalanmışdır.

Bu istiqamətdə atılmış ən mühüm addım Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması olmuşdur. Fond neft və qazın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə sərmayəçilər arasında bağlanmış Sazişlərin həyata keçirilməsindən, habelə Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dair bağlanmış digər Sazişlərin həyata keçirilməsindən irəli gələn Azərbaycan Respublikasının əldə etdiyi vəsaitin səmərəli idarə olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr

1999-cu il tarixli 240 nömrəli Fərmanına uyğun olaraq yaradılmışdır. Fondun əsas vəzifəsi kimi göstərilmişdir: «Azərbaycan Respublikası vətəndaşlarının bugünkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşviyyatı və işlənməsi sahəsində bağlanmış sazişlərin həyata keçirilməsindən və Fondun öz fəaliyyətindən əldə olunan valyuta və digər vəsaitin yığılmasını və səmərəli idarə olunmasını təmin etmək.»

Azərbaycan Hökuməti tərəfəndən «Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli Strategiya» hazırlanmış və bu Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2004-cü il tarixli 128 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Strategiyanın işlənib hazırlanması zəruriliyi belə izah edilmişdir: «1994-cü ildən başlayaraq həyata keçirilən Milli Neft Strategiyasının reallaşması sayəsində Azərbaycan Respublikası neft və qaz yataqlarının inkişafı istiqamətində keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, ölkə iqtisadiyyatına külli miqdarda investisiya cəlb edilmiş, Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Azərbaycandan keçməklə dünya bazarlarına nəqli sahəsində nailiyyətlər əldə edilmiş, 1999-cu ildən etibarən "Əsrin Müqaviləsi" üzrə mənfəət neftinin ixracı nəticəsində ölkəyə xarici valyutanın davamlı daxil olması təmin edilmişdir.»

Azərbaycanda karbohidrogen ehtiyatlarının genişmiqyaslı istismarı ilə əlaqədar olaraq, bir tərəfdən, neft və qaz gəlirlərinin 2008-ci ildən başlayaraq kəskin artması və digər tərəfdən, mövcud neft-qaz ehtiyatlarının nisbətən qısa müddətdə tükənmə ehtimalı, böyük həcmdə xarici valyutanın daxil olması şəraitində ölkədə bərqərar olan makroiqtisadi sabitliyin qorunması, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanması ilə yanaşı, onlardan indiki nəslin rifahının yüksəldilməsi üçün istifadə edilməsi, qeyri-neft sektorunun inkişafının stimullaşdırılması və iqtisadiyyatın tarazlı inkişafının təmin edilməsi neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli Strategiyanın qəbul edilməsi zərurətini gündəmə gətirmişdir.

Sözügedən Strategiya 2005-2025-ci illəri əhatə edir və bu müddət ərzində həmin gəlirlərdən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirir.

Sənəddə neft və qaz gəlirlərinin uzunmüddətli dövr üçün proqnozlaşdırılması məsələsinə dair aşağıdakı məqamlar öz əksini tapmışdır:

- uzunmüddətli dövr üçün Azərbaycan Respublikasının neft və qaz gəlirlərinin həcmi ölkənin təsdiq olunmuş neft və qaz ehtiyatlarının ehtimal olunan qiymətləri əsasında müəyyən edilir;

- neft və qaz ehtiyatlarının həcmi «Azəri-Çıraq-Günəşli», «Şahdəniz» yataqlarından, hasilatın pay bölgüsü sazişlərində nəzərdə tutulmuş digər yataqlardan, eləcə də AR DNŞ-in və onun təsisçiliyi ilə yaradılmış müştərək müəssisələrin istismarında olan yataqlardan gözlənilən neft və qaz ehtiyatlarının qiymətləndirilməsi əsasında müəyyən edilir;

- yeni yataqlar kəşf edildikcə Azərbaycanın neft və qaz ehtiyatlarının həcmi ilə bağlı proqnozlar dəqiqləşdirilir;

- neftin və qazın qiyməti pessimist variantda (baza variantında nəzərdə tutulduğundan aşağı qiymətlə) proqnozlaşdırılır (baza variantı - neftin və qazın müvafiq dövr üçün proqnozlaşdırılan qiymətidir).

Strategiyada karbohidrogen məhsullarının ixracından əldə edilən irihəcmli vəsaitlərin uzunmüddətli istifadəsi prinsipləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- uzunmüddətli dövr üçün neft və qaz gəlirləri hesabına xərclərin proqnozlaşdırılması zamanı dəyişməz real xərclər prinsipi əsas götürülür və bu Strategiyanın əhatə etdiyi dövr ərzində nəzərdə tutulan xərclər üçün illik limit müəyyən edilir;

- neft və qaz gəlirlərindən daxilolmalar zirvə səviyyəsinə çatdıqda, onların 25 faizdən az olmayan hissəsi yığıma yönəldilir;

- neft və qaz gəlirlərinin qəbul edilmiş xərcləmə qaydaları neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli Strategiyanın əhatə etdiyi dövr ərzində dəyişməz qalır və bu zaman dəyişməz real xərclər prinsipi əsasında proqnozlaşdırılan xərclər limitinə riayət olunur;

- ortamüddətli dövr ərzində xərclərin həcmi uzunmüddətli dövr üçün müəyyən edilmiş limitlər nəzərə alınmaqla, qeyri-neft kəsiri (neft sektoru nəzərə alınmadan ölkənin icmal büdcəsinin gəlirləri və xərcləri arasında fərq) əsasında müəyyən edilir. Növbəti ilin xərcləri ilə əvvəlki ilin xərcləri arasında kəskin artıb-azalmalar arzuolunmaz hesab edilir və qeyri-neft kəsirinin kəskin dəyişməsinə yol verilmir;

- investisiya yönümlü xərclər hər il üçün tərtib olunan ortamüddətli Dövlət İnvestisiya Proqramı çərçivəsində həyata keçirilir.

Bu prinsiplərin realizasiyası ilə belə proqnoz edilir ki, Azərbaycanın investisiyaya olan yüksək tələbatının ödənilməsi ilk dövrlərdə xərclərin artması ilə yanaşı, qeyri-neft sektorunun inkişafına və ölkənin tədricən neft və qaz gəlirlərindən asılılığının zəifləməsinə şərait yaradacaq və qeyri-neft sektorunun uzunmüddətli dövr ərzində neft və qaz gəlirləri hesabına inkişafı ölkənin xarici borclara ehtiyacının azalmasını şərtləndirəcək.

Hazırda ölkədə sözügedən sənəd əsasında makroiqtisadi sabitliyin təmin edilməsi, neft və qaz gəlirləri hesabına nəzərdə tutulan prioritet xərclərin əlaqələndirilməsi ortamüddətli siyasət əsasında həyata keçirilir. Ortamüddətli dövr ərzində real xərclərin həcmi uzunmüddətli dövr üçün nəzərdə tutulmuş limitdən kənarlaşa bilər. Hökumətin qənaətinə görə, bu, qeyri-neft sektorunun inkişafını sürətləndirməklə bərabər, ayrı-ayrı dövrlərdə inflyasiyanın artımına səbəb olsa da, illik real xərclər müəyyən edilmiş qeyri-neft kəsirinin limitini nəzərə almalıdır.

Strategiyada Azərbaycanın neft və qaz gəlirlərindən istifadənin prioritetləri kimi aşağıdakılar göstərilmişdir:

- iqtisadiyyatın qeyri-neft sektorunun, regionların, kiçik və orta sahibkarlığın inkişafı;

-infrastruktur sahələrin genişmiqyaslı inkişafı;

- yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi və digər sosial problemlərin həlli;

- iqtisadiyyatın intellektual və texnologiya bazasının səviyyəsinin yüksəldilməsinin stimullaşdırılması;

- "insan kapitalı"nın inkişafı (yüksəkixtisaslı kadrların hazırlanması (o cümlədən xarici ölkələrdə), kadrların professionallıq səviyyəsinin artırılması);

- ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi;

- azad edilmiş ərazilərin yenidən qurulması və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı tədbirlərin həyata keçirilməsi.

Neft ixracından daxil olan vəsaitlərin səmərəli istifadəsinə yönəldilmiş mühüm sənədlərdən biri «Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı olmuşdur.

Ölkədə iqtisadi sahədə əldə olunmuş nailiyyətlərin möhkəmlənməsinə və əhalinin alıcılıq qabiliyyətinə mənfi təsir edən istehlak qiymətlərinin artımı, inflyasiya səviyyəsinin gözlənilən həddən yüksək olması sənədin meydana gəlməsini şərtləndirmiş və infilyasiyanın səbəbləri kimi bunlar göstərilmişdir: əsasən, dünya bazarlarında xam neftin qiymətinin artmasının istehsal xərclərinə təsiri nəticəsində idxal mallarının bahalaşması, dövriyyədə olan pul kütləsi həcminin artması və izafi pul kütləsinin müxtəlif maliyyə alətlərinə cəlbolunma mexanizminin kifayət qədər inkişaf etməməsi, iqtisadiyyata yönəldilən investisiyaların strukturunun təkmil olmaması, istehsalda, ticarətdə və idxal-ixrac əməliyyatlarında inhisarçılığa qarşı mübarizənin yetərli olmaması və s.

Azərbaycanda iqtisadi inkişafın yeni mərhələyə daxil olduğu şəraitdə makroiqtisadi sabitliyi qoruyub saxlamaq, maliyyə ehtiyatlarını səfərbər etmək və onlardan istifadənin səmərəliliyini artırmaq, mövcud əlverişli işgüzar mühiti və investisiya fəallığını, habelə həyata keçirilən islahatların sosial əhəmiyyətini və əhalinin gəlirlərini inflyasiya təzyiqindən qorumaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti qarşıda mühüm vəzifələr qoymuşdur. Belə ki, Dövlət Neft Fondundan Dövlət büdcəsinə daxil olan vəsaiti, yalnız həmin Fondun hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli layihələrin icrasına yönəltməli, maliyyə bazarının konyukturunu və inflyasiya səviyyəsini nəzərə alaraq qısa, orta və uzunmüddətli dövlət istiqraz vərəqələrinin, dövlət daxili uduşlu istiqraz vərəqələrinin və digər qiymətli kağızların buraxılışını təşkil etməli, ölkədə inhisarçılığa qarşı mübarizə və sağlam rəqabət mühitinin formalaşması ilə bağlı fəaliyyətini gücləndirməli, bu sahədə qanunvericiliyi pozanlara qarşı ciddi tədbirlər həyata keçirməli, qeyri-neft sektorunun sürətli

inkişafını, ixracın diversifikasiyasını və əhalinin tələbatının yerli istehsal hesabına daha dolğun ödənilməsini təmin etmək məqsədi ilə müvafiq dövlət orqanları ilə birlikdə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" çərçivəsində rəqabətqabiliyyətli kənd təsərrüfatı və emal sənayesi məhsullarının istehsalını stimullaşdıran tədbirlər və s. həyata keçirməlidir.

### 6.6.Qeyri-neft sektoru üzrə ixrac prioritetləri

Azərbaycanın irihəcmli neft ixracatçısına çevrilməsi, neft hasilatının ilbəil artması, bu sektordan reallaşdırılan ixrac hesabına valyuta daxilolmalarının dinamik şəkildə yüksəlməsi qeyri-neft sektorunun inkişaf etdirilməsinin, bu sahənin də ixrac potensialının artırılmasının zəruriliyini diqqət mərkəzinə çəkmişdir. Hökumət irihəcmli neft gəlirlərinin mənfi təsirlərinin qabaqlanması, həmçinin neft ehtiyatlarının gələcəkdə tükənmə amilini əsas götürərək qeyri-neft sektorunun inkişaf etdirilməsini iqtisadi siyasətin prioriteti kimi elan etmişdir. Müxtəlif yüksəksəviyyəli tədbirlərdə bu məsələ Dövlət Başçısı tərəfindən dəfələrlə bəyan edilMişdir. Ötən illər ərzində qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahəyə dövlət dəstəyinin gerçəkləşdirilməsi məqsədilə çoxlu sayda proqramlar qəbul edilmiş, onların bir qisminin icrası başa çatdırılmışdır.

«Qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatının inkişafı – bunlar Azərbaycanın gələcəyini müəyyən edən amillərdir» - deyən Prezident İlham Əliyev hələ 2003-cü ildə Nobel mükafatı laureatı, tanınmış iqtisadçı C.Stiqlitsi qəbul edərkən qeyd etmişdir: «Mən hökumət üzvlərinə müraciət edərək demişdim ki, gərək biz hamımız neft amilini kənara qoyaq. Orada işlər çox uğurla davam edir və bu sahə Azərbaycana böyük həcmdə valyuta ehtiyatları gətirəcəkdir. Biz öz siyasətimizi elə aparmalıyıq ki, sanki Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələri, ilk növbədə, qeyri-neft sektoru, infrastruktur inkişaf etməlidir. Ancaq bu yolla biz Azərbaycanı hərtərəfli inkişaf etmiş ölkəyə çevirə bilərik».

Ümummilli Liderimiz Heydər Əliyev də vaxtı ilə qeyri-neft sektorunun inkişaf etdirilməsini hökumətin əsas vəzifəsi kimi elan etmişdi. O, hələ 90-cı illərin əvvəlində bəyan etmişdir: «Azərbaycanın neft hasil etdiyini unutmaq lazımdır, onun böyük ehtiyatları, böyük perspektivləri var – bunu bir tərəfə qoyun. Bəli bunu bizə təbiət vermişdir, amma biz gələcəyimizi bunun əsasında qura bilmərik, çünki bu gec-tez tükənəcəkdir. Ciddi iqtisadi siyasət aparmadan, ciddi sənaye yaratmadan biz Azərbaycanın inkişafını təmin edə bilmərik...»

Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafına yönəldilmiş Strategiya ilə bağlı bu fikirləri söyləmişdir: «Bir tərəfdən, dövlət dəstəyi, digər tərəfdən, düşünülmüş siyasət, Milli Strategiyanın həyata keçirilməsi,

xarici sərmayələrin cəlb olunması, ən qabaqcıl texnologiyanın tətbiqi, yerli sahibkarların dəstəklənməsi – bütün bu amillər bizim uğurumuzu şərtləndirəcəkdir».

Qeyri-neft sektorunun inkişafı və onun ixrac potensialının artırılması istiqamətində həyata keçirilmiş mühüm dövlət proqramlarından biri «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» olmuşdur. Əsas məqsədlərindən biri Azərbaycan Respublikasında regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin inkişafının təmini kimi göstərilən Proqramda icrası nəzərdə tutulmuş makroiqtisadi tədbirlərdən aşağıdakılar qeyri-neft sektorunun inkişafı, bu sahənin ixrac potensialının artırılması üçün daha çox xüsusi əhəmiyyətə malik olmuşdur:

- qanunvericilik bazasının təkmilləşdirilməsi, o cümlədən ölkədə xüsusi iqtisadi zonaların yaradılması, investisiya fəaliyyətinin genişləndirilməsi, antiinhisar və digər iqtisadi münasibətləri tənzimləyən, regionların inkişafını stimullaşdıran qanun layihələrinin hazırlanması;
- regionların sosial-iqtisadi inkişafına yönəldilmiş layihələrin maliyyə təminatının artırılması;
- vergi dərəcələrinin optimal həddədək azaldılması;
- kənd təsərrüfatı istehsalçılarına vergi tariflərinin tətbiq edilməsi siyasətinin davam etdirilməsi;
- gömrük dərəcələrinin optimal səviyyədə saxlanılması siyasətinin davam etdirilməsi;
- Azərbaycan Respublikasının Şimal, Cənub və Qərb istiqamətlərində, habelə Bakı şəhəri ətrafında böyük gömrük terminallarının və sərbəst gömrük zonalarının yaradılması;
- Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin təkmilləşdirilməsi;
- aqrotexservis xidmətləri şəbəkəsinin yaradılmasının təkmilləşdirilməsi;
- aqrar-sənaye kompleksi müəssisələrinə, fermer təsərrüfatlarına dövlətin maliyyə yardımı tədbirlərinin davam etdirilməsi və s.

Məlum olduğu kimi və digər paraqraflarda qeyd etdiyimiz kimi, Azərbaycanın qeyri-neft sektorları içərisində həm ixrac potensialına, həm də bu potensialdan istifadə səviyyəsinə görə kənd təsərrüfatı fərqlənir və xüsusi çəkiyə malikdir. Bu baxımdan sözü gedən proqramın əhəmiyyəti daha yüksək olmuşdur. Fermerlər tərəfindən yetişdirilən məhsulların həm daxili, həm də xarici bazarlarda satışına dövlət tərəfindən dəstəyin göstərilməsi, İxraca Yardım Fondunun, bircaların, topdansatış anbarlarının, auksionların yaradılması sənəddə bu sahə ilə bağlı müəyyənləşdirilmiş əsas vəzifələrdən biri olmuşdur.

İstər bu proqramın, istərsə də digər tədbirlərin icrası son illər ərzində ölkənin kənd təsərrüfatının, aqrar sənaye sahələrinin inkişafına böyük

stimul vermiş və onu qeyri-neft sektorunun ixrac prioritetlərindən birinə çevirmişdir.

Son illərin statistik göstəricilərinin təhlilindən aydın olur ki, aqrar-sənaye məhsullarının ixracı davamlı olaraq artmaqdadır. Belə məhsulların ixracı 2004-cü ildəki 137 milyon ABŞ dollarından 2007-ci ildə 438,2 milyon ABŞ dollarına yüksəlmişdir, bir sözlə, 3,2 dəfəyə qədər artmışdır. Cədvəl 2.8-ə diqqət yetirsək görərik ki, starteci kənd təsərrüfatı məhsullarının ixracındakı pozitiv dinamika aydın şəkildə görünür. Belə ki, 2003-2007-ci illər ərzində kartof ixracı 7,1 dəfə artmış, təzə tərəvəz 6,7 dəfə, meyvə-tərəvəz şirələri 3,3 dəfə, üzüm şərabı 11,6 dəfə, çay 4,7 dəfə, bitki yağları 2,2 dəfə çox ixrac edilmişdir. Tədqiqatlar göstərir ki, aqrar islahatların dərinləşdirilməsi, kənd təsərrüfatı sektoruna dövlət dəstəyinin gücləndirilməsi, subsidiyalardan səmərəli istifadə edlməsi, meliorasiya işlərinin sürətləndirilməsi, ölkədə gübrə istehsalının qurulması, ölkədə istehsal olunmayan gübrə və dərman məhsullarının, texnikanın idxalının dəstəklənməsi, «Aqrolizinq» şirkətinin fəaliyyətinin təkmilləşdirilməsi, kənd təsərrüfatında sığorta sisteminin qurulması və digər bu kimi tədbirlər aqrar bölmənin ixrac potensialından istifadənin yüksəldilməsinə təkan verə bilər.

**Cədvəl 1**

**Əsas kənd təsərrüfatı məhsulları ixracı, mln. ABŞ dolları ilə**

| | ***2003*** | ***2004*** | ***2005*** | ***2006*** | ***2007*** | 2003-2007 artım |
|---|---|---|---|---|---|---|
| Kartof | 2374 | 4799 | 9363 | 12778 | 16968 | *7,1 dəfə* |
| Təzə tərəvəz | 3233 | 7393 | 16828 | 20503 | 21854 | *6,7 dəfə* |
| Meyvə-tərəvəz şirələri | 7206 | 8577 | 10591 | 14631 | 24073 | *3,3 dəfə* |
| Bitki yağları | 13419 | 30920 | 20135 | 26477 | 30308 | *2,2 dəfə* |
| Üzüm şərabı | 208 | 275 | 494 | 1726 | 2407 | *11,6 dəfə* |
| Çay | 3936 | 18578 | 14096 | 17996 | 18400 | *4,7 dəfə* |
| Quş yumurtaları | 1673 | 2568 | 5009 | 5859 | 6429 | *3,8 dəfə* |

**Qeyd:** Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır

«Aqrar islahatların uğurla həyata keçirilməsi ölkənin aqrar sahəsinin inkişafında həlledici rol oynayır. Aqrar sektorda son illər həyata keçirilmiş məqsədyönlü tədbirlər kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının dinamik inkişafına imkan yaratmaqla, kənd təsərrüfatı bitkilərinin əkin strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur». Azərbaycanda ilk dəfə olaraq 2008-ci ildə payızlıq və yazlıq dənli, dənli paxlalıların istehsalı qarğıdalı ilə birlikdə 2 milyon 500 min tondan çox olmuş, bununla yanaşı, ölkəmizin coğrafi-iqlim şəraiti nəzərə alınmaqla torpağın münbitliyinin artırılması, bitkilərin becərilməsində mütərəqqi texnologiyaların tətbiqi, mineral gübrələrdən və suvarma suyundan aqrotexniki tələblərə uyğun olaraq vaxtında və lazımi miqdarda istifadə edilməsi, bitkilərin xəstəlik və ziyanvericilərdən qorunması, texnoloji xə-

ritələrə uyğun olan digər tədbirlərin həyata keçirilməsi hesabına bu göstəricilərdən 1,5-2 dəfə artıq məhsul götürülməsi məqsəd kimi qarşıya qoyulmuşdur.

Kənd təsərrüfatının inkişafında yeni meyvə bağlarının salınması da xüsusi rol oynayır. Nəzərə alsaq ki, bu bölmədən təzə meyvələrin, meyvə şirələrinin, üzüm şərabının ixracı daha sürətlə artır və ixrac potensialı daha yüksəkdir, onda bunun daha böyük əhəmiyyətə malik olduğunu deyə bilərik. 2004-2007-ci illərdə 14,06 min hektar yeni meyvə bağı, 4,7 min hektar üzümlüklər salınmışdır ki, bununla da meyvə bağlarının ümumi sahəsi 114 min hektara, üzümlüklər isə 11,1 min hektara çatmışdır.

Prezident İlham Əliyev tərəfindən imzalanmış 2007-ci il 23 yanvar tarixli Sərəncama əsasən, kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsul istehsalı üçün istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi üçün 80 milyon manatın ayrılması, "Aqrolizinq" ASC tərəfindən gətirilən kənd təsərrüfatı texnikalarının və texnoloji avadanlığın lizinqə verilməsi, satışı zamanı dəyərinin ödənilmə müddətinin 5 ildən 10 ilə qədər artırılması, buğda istehsalçılarına səpilən hər hektar sahəyə görə, 40 manat yardımın verilməsi, toxumçuluq və tingçilik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə Dövlət büdcəsindən subsidiyaların ödənilməsi və s. kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət qayğısının bariz təzahürü, bu sektordakı inkişaf proseslərinin əsası kimi qiymətləndirilmişdir.

"Aqrolizinq" ASC-nin fəaliyyətə başladığı 2005-ci ildən ötən dövr ərzində cəmiyyət tərəfindən Dövlət büdcəsindən ayrılmış vəsait hesabına 565 taxılyığan kombayn, 1578 traktor, 120 ekskavator, 21 texnoloji avadanlıq, 4396 ədəd digər kənd təsərrüfatı maşınları, 161 min ton mineral gübrələr alınmışdır ki, bu da ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində, kənd təsərrüfatı məhsulları istehsalının artımında əhəmiyyətli rol oynamışdır.

Mütəxəssislərin fikrincə, əkilmiş sahənin ümumi əkin sahəsində tutduğu xüsusi çəkisinin 2000-ci ildəki 51,1 faizdən 2007-ci ildə 81 faizə çatdırılmasına baxmayaraq, hələ ki, kənd təsərrüfatı məhsulları istehsalının həcmi əhalinin ərzaq təhlükəsizliyinin daxili istehsal hesabına tam təmin edilməsi səviyyəsinə çatmamışdır. Bunun başlıca səbəblərindən biri kimi əkin sahələrinin aqrotexniki müddətlərdə və bitkilərin bioloji tələbatına müvafiq suvarma suyu ilə təmin edilməməsi göstərilmişdir. Bu işlərin görülməsi ərzaq təhlükəsizliyi ilə yanaşı, ixrac potensialının artımına da xidmət etmiş olardı.

«Kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq, mühərrik yağları, buğda, toxum və gübrəyə görə subsidiyaların verilməsi, texnika, gübrə və toxum təchizatının yaxşılıaşdırılması üçün Dövlət büdcəsindən vəsaitin ayıralması və vergi güzəştlərinin tətbiqi nəticəsində, son 5 il ərzində məhsul istehsalının nominal dəyəri 2,4 dəfə artmışdır». Nazir son 5 ildə sənaye istehsalının 3,7 dəfə, investisiyaların 2,4 dəfə, strateci val-

yuta ehtiyatlarının 9,8 dəfə, ÜDM-də qeyri-neft sektorunun çəkisinin 1,7 dəfə, bu sahəyə yönəldilən investisiyaların 6,2 dəfə, qeyri-neft məhsulları ixracının 2,2 dəfə artdığını bildirmişdir.

Müşahidələr göstərir ki, qeyri-neft sektorunun inkişafını öz iqtisadi siyasətinin prioriteti kimi bəyan edən hökumət son illər ərzində aqrar, nəqliyyat, kommunikasiya, meliorasiya, rabitə və digər sahələrin inkişafı üçün genişmiqyaslı layihələr həyata keçirmişdir. Hökumət qeyri-neft sektorunun prioritet sahələri kimi sənaye, kənd təsərrüfatı, nəqliyyat, informasiya texnologiyaları, valyuta ehtiyatlarının idarə edilməsini və s. seçmişdir. Ekspertlərin fikrincə, sənaye potensialının artması respublikamızın inkişafının mühüm prioritet istiqamətinə çevrilib. Ölkədə sənayeləşmənin başlanması üçün zəngin xammal bazasının mövcudluğu, nəhəng və çoxşaxəli sənaye kompleksinin imkanlarının səfərbər edilməsi bu sahənin inkişafına baza yaradır.

İqtisadi İnkişaf Nazirliyinin sənədində qeyd edilir ki, Azərbaycanda bu gün sənaye istehsalının artım tempi ilə ümumdaxili məhsulun dinamikası, demək olar ki, eyni səviyyədədir. 2007-ci ildə ÜDM-in 25 faizlik artımı fonunda sənaye istehsalı da 24 faiz çoxalmışdır. Azərbaycanda sənayenin inkişafına neft sektoru impuls versə də, ümumilikdə maşınqayırma, metallurgiya, yeyinti və emal müəssisələri, texnologiyalar, kimya kompleksi, mədənçıxarma və filiz müəssisələri bu sektorun inkişafında həlledici rola malik olublar. Bu gün neyri-neft sektorunun ixrac potensialının artmasında metallurgiya, xüsusilə də əlvan metallurgiya xüsusi rola malikdir. Mütəxəssislər belə qənaətə gəliblər ki, Gəncə-Daşkəsən zonalarında xammal bazasının mövcud olması yeni sənaye müəssisələrinin yaradılmasına əlverişli şərait yaradıb. Gəncədə Polad Kompleksinin və «Detal» Alüminium Zavodunun inşasına başlanılması bu sahədəki perspektiv layihələrin başlanğıcı kimi qiymətləndirilib.

Statistik göstəricilərə diqqət yetirdikdə görürük ki, 2003-2007-ci illər ərzində ixrac olunan emal edilmiş alüminiumun miqdarı 2 dəfədən çox artaraq 41612 tona çatmışdır. Belə ki, 2003-cü ildə 18 928 ton, 2004-cü ildə 31158 ton, 2005-ci ildə 31561 ton, 2006-cı ildə isə 32 406 ton alüminium ixrac edilmişdir. Bu illər ərzində alüminiumun dünya bazarındakı qiyməti artdığı üçün onun ixracından daxil olan valyutanın həcmi daha çox artmış, 25 mln. dollardan 90,7 mln. dollara çatmışdır.

2003-2007-ci illər ərzində qara metallardan hazırlanmış qazma borularının ixracı 1367 tondan 17 dəfədən çox yüksələrək, 23673 tona çatmış və onun dəyəri 22,7 mln. dollar olmuşdur. Bu sahədə sürətli inkişaf 2006-cı ildən başlayaraq daha ciddi nəzərə çarpır.

Təhlillər göstərir ki, ölkənin əlvan metallurgiya sahəsində ixrac üzrə əsas tərəfdaşlar İran, Çin, Türkiyə, BƏƏ və digər ölkələr, qara metallurgiyada isə Rusiya, Qazaxıstan, Türkmənistan, BƏƏ, B.Britaniya kimi ölkələrdir. Metallurgiya sənaye sahəsinin mövcud ixrac potensialının və ixrac əlaqələrinin tədqiqi deməyə əsas verir ki, gələcəkdə bu sahə qeyri-neft sektorunun həm istehsal, həm də ixrac baxımından əsas bölməsinə

çevriləcək. Bugünkü statistik göstəricilər və onların dinamikası da göstərir ki, metallurgiya qeyri-neft sektorunun ixrac prioritetlərindən biridir.

Qeyd etmək lazımdır ki, qeyri-neft sektoru kimi metallurgiyanın inkişaf etdirilməsində, onun ixrac potensialının yüksəldilməsində Aşağıdakı tədbirlər əhəmiyyətli rola malik ola bilər:

- metallurgiya sənayesində sovet dövründən mövcud olan iri sənaye müəssisələrinin yenidən qurulması, müasir standartların tətbiq edilməsi;
- metallurgiya sənaye sahəsinə istər xarici, istərsə də yerli investisiyaların cəlb edilməsini stimullaşldıran dövlət siyasətinin formalaşdırılması;
- bu sahə ilə bağlı dövlət dəstəyini, güzəştləri özündə əks etdirən xüsusi dövlət proqramlarının hazırlanması və icrası;
- dövlətin investisiya resurslarından bu sektorda səmərəli istifadə edilməsi;
- yüksək ixrac potensialına malik neft maşınqayırma sektorunun xarici-iqtisadi əlaqələrinin bərpası və yerli metallurgiya sənayesi məhsullarından istifadə və s.

Hazırda hökumətin daha çox diqqət yetirdiyi sahələrdən biri də informasiya və kommunikasiya texnologiyaları sahəsidir. Bir sıra tədqiqatçılar iddia edirlər ki, 2015-2020-ci illərdə ölkəmizin informasiya texnologiyalarından illik valyuta gəliri 10 mlrd. manatı keçə bilər. Azərbaycan regionda informasiya texnologiyaları məhsullarının potensial ixracatçısına çevrilə bilər. Statistik məlumatlar göstərir ki, qeyri-neft sektorunda informasiya texnologiyalarının xüsusi çəkisi artmaqda davam edir. Hökumət tərəfindən İKT üzrə Dövlət Proqramı qəbul edilmişdir. İqtisadi İnkişaf Naziri Ş.Mustafayev bildirmişdir: «2009-cu ildə ölkədə infrastrukturun inkişafına 3 mlrd. manat vəsait ayrılacaq. Ölkənin rabitə və informasiya texnologiyaları sahəsinə də diqqət yetiriləcək. Belə ki, bu sahənin inkişafında hər il təxminən 25 % artım müşahidə olunur. Növbəti ildə isə artımın daha da yüksək səviyyədə olacağı gözlənilir».

Hər şeydən öncə, onu qeyd etmək lazımdır ki, İKT-nın inkişafı digər qeyri-neft sektorlarının inkişafına bu sahələrə innovasiyaların idxalına təkan verir, ixrac potensiallarının yüksəldilməsində vacib şərtlərdən biri kimi çıxış edir.

Çox vaxt tədqiqatçılar ixracdan, ixrac potensialından bəhs edərkən yalnız əmtəələrin ixracını tədqiqat obyektinə çevirirlər. Əslində isə müasir dünyada başqa tendensiyalar müşahidə edilməkdədir. İndi xarici iqtisadi əlaqələrdə, valyuta daxilolmalarında xidmətlərin ixracı ön sıraya çıxmaqdadır. Əgər əmtəələri ixrac etmək üçün onları xarici ölkəyə daşımaq lazımdırsa, xidmətləri ixrac etmək üçün xarici ölkə vətəndaşlarının ölkəyə gəlməsi lazımdır. Bu baxımdan bizim də mövzumuza uyğun olaraq Azərbaycanın xidmətlər ixracı potensialından və perspektivindən bəhs etməyimiz zəruri görünür. Bu prizmadan yanaşdıqda ölkənin qeyri-neft sektoru olaraq ən çox turizm diqqəti cəlb edir. Hökumət də neft gəlirlərindən istifadə etməklə turizmin inkişafı strategiyasını müəyyənləşdirmişdir. Xarici turizmin inkişafı ölkədə digər bir sıra xidmətlərin

də ixracına geniş imkanlar açır. Bu xidmətlərə misal olaraq bank, sığorta, rabitə, nəqliyyat, mehmanxana, restoran və digərlərini göstərə bilərik. Turizm inkişaf etdikcə, ölkəyə gələn xarici turistlərin sayı artıqca bu xidmətlərin də ixracı qanunauyğun olaraq yüksələcəkdir. İşgüzar turizmin inkişafı, ölkədə müxtəlif beynəlxalq konfransların, seminarların təşkili, bununla da xarici iş adamlarının işgüzar turist səfərləri çərçiəsində ölkədə olması milli məhsulların tanıdılmasında xüsusi rol oynaya bilər.

Azərbaycanda turizmin inkişafı üçün çox əlverişli şəraitin olması artıq öz təsdiqini tapmışdır. Republikamızın Şərqlə Qərbi birləşdirən əlverişli coğrafi məkanda yerləşməsi, beynəlxalq aləmdə fərqli mədəniyyətləri və dünyagörüşlərini bir araya gətirən tolerant dövlət kimi tanınması, 800 kilometrdən artıq məsafədə dənizsahili zonaya, 12 iqlim qurşağından 9-na malik olması, zəngin təbiəti, qədim tarixi mədəniyyət abidələri və digər amillər böyük turizm potensialından xəbər verir. Hazırda ölkədə dövlətin böyük dəstəyi ilə turizmin infrastrukturu, xidmət sahələri formalaşdırılmaqdadır. Bu gün respublikamızda 250-dən artıq turizm şirkəti fəaliyyət göstərir, hansı ki, 2001-ci ildə belə qurumların sayı 20-dən az idi, 7 il öncə ölkədə mehmanxana, turizm obyektlərinin sayı 60 idisə, indi ölkədə 300-ə qədər belə obyekt fəaliyyət göstərir.

Mədəniyyət və Turizm Nazirliyinin sənədlərində qeyd edilir ki, 10 il müddəti əhatə edən Dövlət Proqramında əsas vəzifələr kimi, turizm sahəsində normativ-hüquqi aktların hazırlanması, daxili və beynəlxalq turizm marşrutlarının yaradılması, xarici ölkələrdə geniş reklam kampaniyasının aparılması, xarici ölkələrin turizmlə məşğul olan dövlət qurumları ilə əlaqələrin möhkəmləndirilməsi, dövlət səviyyəsində müqavilələrin bağlanılması, turizmin infrastrukturunun yaradılması və s kimi müəyyənləşdirilmişdir.

**Cədvəl 2**

**2007-ci ildə ölkəyə gəlmiş xarici turistlərin statistikası**

| | Turistlərin sayı, nəfər | Xüsusi çəkisi | Tur-günlərin sayı, adam-gün |
|---|---|---|---|
| ***Cəmi*** | ***12356*** | ***100 %*** | ***55004*** |
| Gürcüstan | 90 | 0,7 | 440 |
| Qazaxıstan | 81 | 0,6 | 243 |
| Rusiya | 1531 | 12,4 | 8946 |
| Ukrayna | 45 | 0,35 | 90 |
| Türkiyə | 545 | 4,4 | 2585 |
| Birləşmiş Krallıq | 149 | 1,2 | 799 |
| Almaniya | 371 | 0,3 | 1970 |
| İspaniya | 14 | 0,1 | 76 |
| İtaliya | 134 | 1,0 | 718 |
| Fransa | 171 | 1,3 | 660 |
| Finlandiya | 32 | 0,2 | 270 |
| BƏƏ | 187 | 1,4 | 580 |
| Misir | 8 | 0,06 | 66 |
| İran | 2588 | 20,9 | 2742 |
| ABŞ | 413 | 3,3 | 2026 |
| Digər ölkələr | 2779 | 22,5 | 14187 |

**Qeyd:** Cədvəl DSK-nın və Mədəniyyət və Turizm Nazirliyinin məlumatları əsasında hazırlanmışdır

Prezident İlham Əliyev turizmin inkişaf etdirilməsinin hökumətin qarşısında duran ən mühüm vəzifələrdən olduğunu dəfələrlə bəyan etmişdir. Hökumət tədbirlərindən birində o, respublikamızda son illər geniş vüsət almış abadlıq-quruculuq işlərini, habelə infrastruktur layihələrinin həyata keçirilməsini turizmin inkişafı baxımından çox əhəmiyyətli olduğunu bildirərək demişdir: "İndi Azərbaycanda - ölkənin qərbində, cənubunda və şimalında üç yeni aeroport tikilir, baxmayaraq ki, ölkənin ərazisi o qədər də böyük deyildir. Üç yeni, beynəlxalq standartlara cavab verən aeroportun tikintisi turizmin inkişafına xidmət göstərəcəkdir. Avtomobil yolları Azərbaycanda sürətlə inşa edilir. O cümlədən, kənd yolları, magistral yollar. Azərbaycanın ən ucqar kəndlərinə yeni yollar çəkilir ki, həm insanlar daha da rahat gedib-gələ bilsinlər, eyni zamanda, turistlər üçün əlverişli imkan yaradılsın. Həm Bakı şəhərində, həm də Azərbaycanın müxtəlif bölgələrində yeni müasir hotellərin tikintisi nəzərdə tutulur. Bir sözlə, dövlət öz tərəfindən əlindən gələni etməyə çalışır ki, turizmin inkişafı üçün bütün infrastruktur layihələri tezliklə həyata keçirilsin. Eyni zamanda, əlbəttə ki, özəl bölmə də bu gözəl imkanlardan istifadə edib yeni, müasir turizm obyektləri yaratmalıdır".

Azərbaycanın qeyri-neft sektoru üzrə ixracında xüsusi çəkisinə görə birinci yerdə kimya sənayesi durur. İstər bu amil, istərsə də yaxın keçmişə nəzər salmaq, kimya sənayesinin iqtisadi potensialı, ölkədə xammal təchizatının yüksək səviyyədə olması deməyə əsas verir ki, kimya sənayesi məhsulları ixracı qeyri-neft sektorunun ixrac prioritetlərindən ən əhəmiyyətlisidir. Hazırda ölkənin kimya sektorunda fəaliyyət göstərən müəssisələr öz məhsullarını Rusiya, Gürcüstan, Türkmənistan, Ukrayna, Türkiyə, Qazaxıstan, Polşa, Misir, İngiltərə, Almaniya, İran və digər bu kimi ölkələrə ixrac edirlər.

**Cədvəl 3**

**Kimya sənayesi məhsulları ixracı, 2001-2007-ci illər (mln. ABŞ dolları)**

| | *2001* | *2002* | *2003* | *2004* | *2005* | *2006* | *2007* |
|---|---|---|---|---|---|---|---|
| Ümumilikdə | | | 50,6 | 91,5 | 99,7 | 134,5 | 98,1 |
| Dövlət müəssisələri | 9,4 | 34,0 | 43,7 | 84,7 | 95,0 | 125,6 | 88,2 |
| Dinamika | - | 3,6 dəfə | +28,5 % | +93,8 % | +12,1 % | +32,2 % | -29,8 % |

**Qeyd:** Cədvəl DSK-nın və «Azərkimya» DŞ-nin məlumatları əsasında hazırlanmışdır

Qeyd edək ki, kimya sənayesi, demək olar ki qeyri-neft sektorları içərisində ən yüksək ixrac potensialına malik sahədir. Bu potensialın yüksək olmasını əsasən aşağıdakı amillər şərtləndirir:

- sovet dövründə ölkədə iri kimya sənayesi komplekslərinin qurulması;

- region ölkələri arasında Rusiyadan sonra, yalnız Azərbaycanda mövcud olan «EP-300» qurğusu və onun istehsal imkanları;

- neftayırma sənayesinin inkişafı və bu sektorda kimya sənayesi üçün xammal təchizatının formalaşması;

- yeni bazarlara çıxış imkanlarının açılması;

- digər kimya sənayesi ölkələrinə nisbətən, Azərbaycanda xammalın, əmək ehtiyatlarının, enerci daşıyıcılarının ucuz olması və s.

Hazırda ölkənin kimya kompleksində 100-dən çox növdə kimya məhsulu istehsal edilir ki, bunların da böyük hissəsi əsasən ixraca yönəldilir. Quru kaustik soda, maye xlor, yüksək təzyiqli polietilen, mütləqləşdirilmş izopropil spirti, dixloretan, propilen oksidi, poliefir qətranı, xlor parafinləri, ağır və yüngül piroliz qətranları, propilenqlikolu, propilen, butilen, butilen-butadien fraksiyası və digərləri Azərbaycandan ixrac olunan əsas kimya sənayesi məhsullarıdır.

Statistik məlumatlara görə, hər ilə təkcə dövlətin sərəncamında olan «Azərkimya» Dövlət Şirkətinin müəssisələrindən 85-90 mln. ABŞ dolları dəyərində məhsul ixrac edilir.

Ölkənin kimya sənayesi müəssisələrinin ixrac potensialından səmərəli istifadə edilməsi, Avropa bazarlarına çıxış imkanlarının artırılması üçün 1999-cu ildə Gürcüstanın Poti limanında maye tərkibli kimyəvi məhsulların yüklənilməsi üçün xüsusi qurğu inşa edilərək istifadəyə verilmişdir ki, bu da ixracın artımına öz töhfəsini vermişdir. Digər tərəfdən hesab edilir ki, «Bakı-Tbilisi-Qars» dəmiryolu layihəsinin reallaşdırılmasından sonra Azərbaycanın kimya sənayesi müəssisələrinin Türkiyə və Yunanıstan kimi ölkələrin bazarlarına çıxış imkanları daha da artacaq.

**Cədvəl 4**

**Dövlət müəssisələrinin əsas kimya sənayesi məhsulları ixracı, 2003-2007-ci illər**

| | *2003* | *2004* | *2005* | *2006* | *2007* |
|---|---|---|---|---|---|
| Maye xlor, *ton* | 9122 | 11347 | 13069 | 17035 | 9476 |
| Propilen oksidi, *ton* | 6533 | 9233 | 11518 | 16125 | 11461 |
| Polietilen, ton | 46913 | 59141 | 53204 | 70687 | 47090 |
| İzopropil spirti, *ton* | 19568 | 23376 | 20741 | 24772 | 17115 |
| Poliefir qətranı, *ton* | 3910 | 5628 | 6402 | 10701 | 7212 |
| Etilen, *ton* | 50545 | 61628 | 53973 | 72588 | 48412 |
| Propilen, *ton* | 26685 | 34614 | 29219 | 38488 | 26195 |

Qeyd etmək lazımdır ki, ölkənin kimya sektorunda keçmiş sovet dövründən mövcud olan və real potensiala malik istehsal sahələrinin yenidən qurulması, mövcud istehsal güclərinin potensialından səmərəli istifadə edilməsi, köhnəlmiş, potensialı aşağı düşmüş istehsal sahələri bazasında müasir komplekslərin qurulması, məhsul çeşidlərinin beynəlxalq bazarlardakı tələbə uyğun diversifikasiya edilməsi və digər bu kimi tədbirlər kimya məhsulları ixracının artırılmasına, bu sahənin ixrac potensialından səmərəli istifadəyə təkan verə bilər.

Dünya bazarında kimya məhsullarına tələbatın artması, bu məhsulun istehsalında Azərbaycanın bir sıra müqayisəli üstünlüklərə malik

olması, regional bazarlarda rəqabət üstünlüyünü qazanması və digər bir sıra amillər deməyə əsas verir ki, kimya kompleksini inkişaf etdirmək, bu sahəyə dövlət dəstəyini gücləndirmək, xammal təchizatını artırmaq qeyri-neft sektoru üzrə ixracın yüksəldilməsinə mühüm bir töhfə olar.

Ölkənin kimya sənayesinin ixrac potensialının yüksəldilməsi, kimya sənayesi məhsulları ixracının artırılması üçün aşağıdakı istiqamətlər üzrə tədbirlərin görülməsi faydalı olar:

- xüsusi dövlət proqramları vasitəsilə kimya sənaye kompleksinə dövlət dəstəyinin göstərilməsi, vergi, gömrük və digər güzəştlərin tətbiq edilməsi;
- dövlət vəsaitləri hesabına uzunmüddətli güzəştli kredit xətlərinin açılması;
- kimya kompleksinə xidmət edən infrastrukturun modernləşdirilməsi;
- dövlətin sərəncamında olan iri kimya sənayesi komplekslərinə investisiya müsabiqələri vasitəsilə xarici investisiyaların cəlb edilməsi imkanlarının nəzərdən keçirilməsi;
- müasir elmtutumlu məhsul istehsalının təşkili və s.

Vaxtı ilə ölkəmizdə inkişaf etmiş toxuculuq sənayesini inkişaf etdirmək, onun ixrac potensialını yüksəltmək üçün geniş imkanlar mövcuddur. Ölkədə pambıq və yun kimi xammal ehtiyatının kifayət qədər olması bu imkanı şərtləndirir. Ölkədən pambıq mahlıcının ixracı ilbəil artmaqdadır, ancaq bunu emal-istehsal proseslərindən keçirərək əməktutumlu məhsul kimi ixrac edəriksə, əldə edilən fayda daha çox olar.

Beləliklə, tədqiqatlar belə nəticəyə gəlməyə imkan verir ki, kənd təsərrüfatı məhsulları, aqrar bölmənin emal olunmuş məhsulları, kimya sənayesi məhsulları, metallurgiya məhsulları ixracı qeyri-neft sektoru uzrə ixrac prioritetlərini təşkil edir. Lakin iqtisadiyyatın digər yüksək ixrac potensialına malik sahələrinin də inkişaf etdirilməsi, belə prioritet istiqamətlərin sayını artıra bilər və bunun üçün geniş imkanlar mövcuddur.

# VII FƏSİL

# DÖVLƏTİN İNVESTİSİYA SİYASƏTİ

***«Azərbaycan əlverişli investisiya mühitinə görə nümunəvi ölkədir»***

**İlham Əliyev**

## 7.1.İnvestisiya qoyuluşlarının zəruriliyi və onun nəzəri-metodoloci məsələləri

İinvestisiya - iqtisadi və sosial səmərə əldə etməkdən ötrü müxtəlif obyektlərə qoyulan pul, qiymətli kağızlar, intellektual mülkiyyət obyektləri və sairdir. Bu tərif "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının «Qanun»unda daha ətraflı göstərilmişdir:

İnvestisiya - gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan kapitaldan ibarətdir. Həmin kapital isə maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarət ola bilər.

Belə vəsait və sərvətlər aşağıdakılardır:

• pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar;

• daşınan və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər);

• müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;

• bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilməmiş texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu ("nou-hau");

• torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqdan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları;

• başqa sərvətlər.

• Əsas fondların yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına investisiya yönəldilməsi kapital qoyuluşları şəklində həyata keçirilir.

Ölkə miqyasında investisiyalar geniş təkrar istehsal prosesi şəklində həyata keçirilir. Yeni müəssisələrin tikilməsi və yeni iş yerlərinin açılması birbaşa olaraq kapital qoyuluşlarından asılıdır.

İnvestisiyalar mahiyyətinə görə, maliyyə, real (birbaşa) və intellektual olmaqla üç qrupa bölünürlər. Maliyyə investisiyaları səhm, istiqraz və s. kimi qiymətli kağızlara yatırılan investisiyalardır. Real (birbaşa) investisiya müəyyən bir məhsulun istehsalına yatırılan investisiyalardır. İntellektual investisiyalar isə kadr hazırlığına, təcrübə mübadiləsinə, lisenziya və "nou-hau"ya, birgə elmi araşdırmalara və s. yatırılan investisiyalardır.

Real investisiyalar iki tərkib hissəsindən ibarətdir: əsas kapitala yatırılan investisiyalar və dövriyyə vəsaitlərinə yatırılan investisiyalar.

İnvestisiyalar, həm də birbaşa və portfel investisiya olmaqla, iki formada həyata keçirilirlər. Birbaşa investisiyalar elə kapital qoyuluşudur ki, onların sayəsində investorlar kapital qoyulmuş obyekt üzərində nəzarəti həyata keçirə bilirlər. Birbaşa investisiyalar uzunmüddətli iqtisadi fəaliyyəti həyata keçirmək məqsədilə tətbiq olunur. Birbaşa investisiyalar yeni müəssisələrin yaradılması, mövcud müəssisələrin qismən alınması və birgə-müştərək fəaliyyətin digər formaları şəklində həyata keçirilirlər. Birbaşa investisiyaların mühüm fərqləndirici cəhəti investorların investisiya etdikləri obyektlərin idarə edilməsində iştirakının təmin edilə bilməsidir.

Portfel investisiyaların beynəlxalq hərəkətinin səbəbləri birbaşa investisiyaların beynəlxalq hərəkətinin səbəblərinə prinsipcə yaxındır. Fərq ondadır ki, investor, kapital qoyulmuş müəssisə üzərində real nəzarətə malik olmur. Lakin eyni zamanda portfel investisiyaların likvidliyi, yəni qiymətli kağızların nağd valyutaya çevrilməsi qabiliyyəti birbaşa investisiyalarla müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir. Portfel investisiyaların həyata keçirilməsinin əsas səbəbi, kapitalın elə bir ölkəyə və elə bir qiymətli kağızlara qoyulmasıdır ki, o, maksimum mənfəət versin. Portfel investisiyalar pulların inflyasiyadan qorunmasında və möhtəkir gəlirlərinin əldə olunmasında vasitə kimi çıxış edirlər. Portfel investisiyaların beynəlxalq hərəkəti, həm də riskin azaldılması məqsədilə baş verir. Adətən, hər hansı qiymətli kağızın mənfəətliyi nə qədər yüksək olursa, həmin qiymətli kağızın əldə olunmasının riski də bir o qədər böyük olur. Riskin səviyyəsinin azaldılması məqsədilə portfel investisiyaların beynəlxalq hərəkətindən istifadə oluna bilər.

Hal-hazırda cəmiyyətdə mövcud olan «investisiya» anlayışı iqtisadi nəzəriyyədə mövcud olan «investisiya» anlayışından daha geniş «sferanı» əhatə edir. Belə ki, indi istənilən aktivin əldə edilməsi investisiya yatırımı kimi anlaşılır və qəbul edilirsə, iqtisadi nəzəriyyə elmində isə istənilən yox, yalnız real investisiya qoyuluşları investisiyalar kimi qəbul olunurlar. Bir qədər də dəqiq qeyd etmiş olsaq, istənilən dəyərli və ya dəyərini gələcəkdə itirməyən hər hansı əşyanın və ya əmlakın əldə edilməsi investisiya qoyuluşu hesab edildiyi təqdirdə, elm hər bir belə fəaliyyəti investisiya fəaliyyəti hesab etmir. Məsələn, istənilən səhmin və ya köhnəlmiş avadanlığın alınması iqtisadi nəzəriyyə elmi baxımından investisiya

qoyuluşu hesab edilə bilməz. Bundan ötrü həmin fəaliyyət müəyyən kriteriyalara cavab verməlidir. Yəni həmin fəaliyyətin nəticəsi ya iqtisadi, ya da sosial səmərə şəklində özünü göstərməlidir.

Qeyd etmək lazımdır ki, investisiyalar maliyyələşmə mənbələrinə əsasən iki qrupa bölünürlər :

- daxili investisiya mənbələri;
- xarici investisiya mənbələri.

Ölkədaxili investisiya mənbəyi də çox mürəkkəbdir. Belə ki, opu aşağıdakı mənbələrə bölmək olar :

- dövlət büdcəsi vəsaitləri ;
- büdcədənkənar fondların vəsaitləri ;
- bank vəsaiti ;
- şəxsi vəsaitlər ;
- ticarət kapitalı ;
- qrantlar və texniki yardımlar ;
- sığorta və sosial təminat fondlarının vəsaitləri ;
- dini təşkilatların, icmaların, məscidlərin, kilsələrin və s. maliyyə vəsaitləri.

Xarici investisiya qoyuluşlarının maliyyələşmə mənbələrinə isə aşağıdakılar aiddir :

- xarici dövlətlərin büdcə vəsaitləri ;
- xarici hüquqi və fiziki şəxslərin vəsaitləri ;
- beynəlxalq təşkilatların maliyyə vəsaitləri ;
- dövlətlərarası kreditlər ;
- beynəlxalq maliyyə təşkilatlarının maliyyə vəsaitləri.

Ümumiyyətlə, investisiyaların maliyyələşmə mənbələrinin təsnifi zamanı müxtəlif meyarlardan istifadə olunur, bizim yuxarıda göstərdiyimiz təsnifat (xarici və daxili investisiya) milli prinsip üzrə aparılmışdır.

«İnvestisiya» anlayışının meydana gəlməsini araşdırarkən hökmən, ilkin iqtisadi fikirlərə istinad etmək lazım gəlir. Belə ki, hələ merkantilistlər öz nəzəriyyələrində əsas yeri dövlətin öz sərvətinin artırılması mənbələrini öyrənilməsi məsələsinə ayırmışlar. Demək olar ki, merkantilizm nəzəriyyəsi sərvətin əldə edilməsi və artırılması ideyası üzərində qurulmuşdur. Merkantilistlər ölkənin daxili sərvətini artırmaqdan ötrü o vaxt üçün mümkün olan bütün sərt proteksionist tədbirlərin nəzəri əsaslarını verməyə cəhd etmişlər.

İlkin merkantilistlər ölkədən xaricə pulun (qızıl və gümüşün) çıxarılmasına razı olmasalar da, sonrakı merkantilistlər bu halın əlavə və daha çox gəlir gətirəcəyi təqdirdə lazımlı olduğunu bildirmişlər. Deməli, inkişaf etmiş merkantilizm "pulun – pul gətirə biləcəyini" anlamışdır. «Merkantilizm» nəzəriyyəsi meydana çıxdığı dövrə uyğun olaraq mer-

kantilistlər, monarxın iqtisadiyyatı əl altında olan vasitələrlə necə idarə edə biləcəyi üsullarının nəzəri sistemini hazırlamışlar.

A.Smitin söylədiyi kimi, ölkələr beynəlxalq ticarətə daha çox fikir versələr, çox fayda götürərlər. İndi isə belə demək olar ki, dövlətlər xarici iqtisadi fəaliyyətlərində investisiya qoyuluşlarına fikir versələr, onlar üçün daha sərfəli olar.

Ümumiyyətlə, dünya tarixini nəzərdən keçirdikdə məlum olur ki, kapital ixracı ilə başlayan beynəlxalq investisiya axını hələ o vaxtın kapital axını nəzəriyyəçiləri tərəfindən dərindən araşdırılmışdır. Kapital ixracının, indiki təbircə desək, beynəlxalq investisiya axınının yaranma səbəbləri tədqiqatçılar tərəfindən o vaxtın mövcud reallıqları şəraitində tədqiq olnumuşdur. Belə ki, müasir dövrdəki beynəlxalq investisiya axını ilə ilkin kapital ixracı arasında xeyli fəqrli cəhətlər mövcuddur. Buna görə də müasir iqtisad elmində kapitalın beynəlxalq axını barədə tədqiqatların nəzəri-konseptual səviyyədə iki mühüm istiqaməti fərqləndirilir. Bunlar kapitalın beynəlxalq axının ənənəvi və müasir konsepsiyalarıdır. Mövcud adı çəkilən nəzəriyyələr özləri də bir neçə biri-birindən fərqli yarımqruplara bölünürlər. Ənənəvi nəzəriyyələrə «neoklassik», «marksist» və «neokeyns» nəzəriyyələrini göstərmək olar.

*«Neoklassik» nəzəriyyə sözsüz ki, klassik iqtisad elminin baniləri olan A.Smit və D.Rikardonun nəzəri görüşləri əsasında formalaşmışdır. Klassiklərin, xüsusən də D.Rikardonun «müqayisəli üstünlüklər» nəzəriyyəsi, «neoklassik» nəzəriyyənin beynəlxalq kapital axınını xarakterizə edən görüşlərinin əsasında durur. Belə ki, D.Rikardonun beynəlxalq ticarətin «müqayisəli üstünlüklər» nəzəriyyəsi, C.S.Millin formalaşdırmağa çalışdığı kapitalın ölkələrarası axınının nəzəri baxışlar sisteminin əsası kimi çıxış etmişdir. C.S.Mill belə zənn edirdi ki, kapitalın beynəlxalq hərəkətinə səbəb, onun bir ölkədən digərinə nəzərən daha çox gəlir gətirəbilmə imkanıdır. Yəni bəzi kapitalla zəngin olan ölkələrdə, iqtisadi şərait kapitalla lazımi səviyyədə gəlir əldə etməyə imkan vermir. Lakin, həmin kapitalla digər ölkədə daha çox gəlir əldə etmək mümkündür. Belə olan halda, kapitalın bir ölrədən digərinə axını baş verir.*

*Digər klassiklərin fikirləri ilə yanaşı, A.Smitin fikri də diqqətəlayiqdir. Belə ki, A.Smit "mütləq üstünlüklər" nəzəriyyəsində bildirir ki, beynəlxalq ticarət vasitəsi ilə ayrı-ayrı ölkələr varlandıqca dünya iqtisadiyyatı da inkişaf edir. Belə olan surətdə dünya ölkələri qapalı iqtisadiyyatdan imtina edərək daha sərfəli beynəlxalq ticarətlə məşğul olmalıdırlar.*

*"Neoklassik" nəzəriyyənin mühüm hissəsi olaraq XX yüzilliyin əvvəllərində E.Hekşer və B.Olin tərəfindən yaradılmış "İstehsal amillərinin nisbəti" nəzəriyyəsini misal kimi göstərmək olar. Onların nəzəri sistemlərində kapitalın beynəlxalq hərəkəti haqqında nəzəriyyə E.Hekşerin əsaslandığı "son faydalılıq" nəzəriyyəsi, B.Olinin "beynəlxalq ticarət" Konsep-*

*siyası və Nurksenin görüşlərindən ibarətdir. Buradan da görünür ki, hər bir mütəfəkkirin fikri ümumi istiqamətdən ayrılan bir cığır kimi formalaşır. Onların arasında R.Nurksenin gəldiyi qənaət çox maraqlıdır. R.Nurksenin tədqiqatlarının nəticəsi ona gətirir ki, əmtəə eksportu sürətlə artan ölkədə əlavə kapitala tələbat yaranır və ölkə bu kapitalı idxal edir. Bu faktın qəribəliyi ondadır ki, əksər alimlər tam əks olan ideyanın tərəfdarı idilər. Yəni onlar iddia edirdilər ki, kapital onunla bol olan ölkədən kapital cəhətdən "kasıb" ölkəyə "miqrasiya" edir. Bu fikir uzun müddət müvafiq tədqiqatla məşğul olan insanların beynində hakim mövqe tutmuşdur. Nurksenin gəldiyi qənaət həm də adi bir qənaətdir. Yəni dünyada baş verən hadisələr faktiki olaraq onun fikrini təsdiqləyir və bununla da onun fikirlərindəki qeyri-adilyi aradan götürür.*

*Bununla belə "neoklassik" nəzəriyyədən fərqli mövqedə duran "marksist" nəzəriyyədə kapitalın beynəlxalq hərəkətinin səbəbləri K.Marks tərəfindən müvafiq elmi metodologiya əsasında araşdırılmışdır. Belə ki, K.Marks kapital ixracının səbəbini, onun ölkədə nisbi artıqlığında görür. Bu yanaşmada əsas kimi Marks gəlir normasını götürür və nisbi artıq kapital kimi istifadə zamanı gəlir norması aşağı salan kapitalı nəzərdə tuturdu. K.Marks nisbi artıq kapitalı üç tərkib hissəsinə bölür. Belə ki, o nisbi artıq kapitalı mal, istehsal və pul formasında görürdü.*

Ölkənin ÜDM-in həcminə investisiya qoyuluşlarının səviyyəsi böyük təsir göstərir. Milli iqtisadiyyatın bir çox makroproporsiyaları investisiyaların dinamikasından asılıdır. Məsələn, bir çox mütəfəkkirlərin fikrincə işsizlik, məcmu tələb və məcmu təkilif və s. kimi makroiqtisadi göstəricilər investisiyaların dinamikasından asılıdır. Buna misal olaraq Keynsçilərin fikrincə, investisiya və yığımların səviyyəsi müxtəlif proseslər və şəraitlərlə təyin olunur ki, bu proses və şəraitlər məhz makroiqtisadi mühitdən asılıdır.

Neokeynsçilər kapitalın beynəlxalq axınının ölkənin tədiyyə balansı ilə əlaqədar olması fikri əsasında nəzəriyyə formalaşdırıblar. Bu nəzəriyyəyə görə, kapitalın ölkədən ixrac olunması səbəbi tədiyyə balansında tarazılığın pozulmasıdır. Bu ideyanın müəllifi Keyns özüdür, sadəcə olaraq onun davamçıları bu fikri mövcul vəziyyətə daha da uyğunlaşdıraraq inkişaf etdirmişlər.

Son zamanlar əvvəldə qeyd etdiyimiz kimi, kapitalın beynəlxalq miqrasiyasına iqtisadçıların "ideoloji" yanaşması müşahidə olunmur. Belə ki, iqtisadçı alimlər indi kapitalın beynəlxalq hərəkətinə dair fikirlərini faktiki baş verən hadisələr və müşahidə edilən tendensiyalar əsasında qururlar. Buna misal olaraq "TMK-lar" nəzəriyyəsini və "kapital qayçışı" nəzəriyyələrini göstərmək olar.

Müasir "Transmilli korpjrasiyalar" (TMK) nəzəriyyəsi, TMK-ların XX əsrin ikinci yarısında fəaliyyətlərinin sürətlə artması nəticəsində onlar

iqtisadi nəzəriyyədə əsas diqqət mərkəzinə keçmişdir. İlk dövrlərdə TMK-lar ancaq "firma" nəzəriyyəsi çərçivəsi daxilində öyrənilirdi, sonralar isə onlar üçün ayrıca müstəqil konsepsiyalar işlənib hazırlanmağa başlandı ki, onların da əsasında əsasən amerikalı iqtisadçıların ideyaları üstün mövqe tutur. TMK-ların beynəlxalq fəaliyyətinin elmdə xüsusi nəzəri konsepsiyaya əsas olmasının səbəbi planetin ümumi istehsal fondunun 1/3-nin, dünya üzrə istehsal olunan məhsulların 40%-nin, xarici ticarət dövriyyəsinin yarıdan çoxunun, ən yeni texnologiyalarla ticarətin 80%-dən çoxu və ən əsası kapital ixracının 90%-dən çoxu TMK-ların nəzarəti altında olmasıdır.

TMK-lar nəzəriyyəsi əvvəldə də qeyd etdiyimiz kimi, son zamanlar beynəlxalq arenada Transmilli korporasiyaların kapital axınındakı rolunun artması ilə formalaşmağa başladı. Bu nəzəriyyələrin tərəfdarları kimi S.Haymeri, R.Vernonu, R.Kouzu və başqalarını göstərmək olar.

Kapitalın beynəlxalq hərəkətinin tarixini alimlər, adətən XIX əsrin sonu və XX əsrin əvvəllərindən başlayaraq tədqiq edirlər. Dünya ədəbiyyatında kapital ixracının tarixi mövzusunda işlənmiş əsərlərin əksəriyyəti bu mövzunun ya dar zaman kəsiyində, ya da ayrı-ayrı ölkələrin timsalında formalaşdırılmışlar. Xüsusilə ayrı-ayrı ölkələrin tarixinin spesifik dönəmləri və oradakı kapital ixracı məsələləri daha çox işlənmiş sahədir. Lakin bütün bu ədəbiyyatları nəzərdən keçirdikdən sonra Ümumdünya Kapital Axınının tarixi inkişaf yolunu gözümüz önündə canlandıra bilərik. Sözsüz ki, ayrı-ayrı ölkələrin tarixində baş verən xüsusi halları da nəzərə alsaq, onda mühüm elmi nəticələr əldə edə bilərik.

Beləliklə, ümumi mənzərə belədir ki, kapitalın beynəlxalq axını dörd mühüm tarixi mərhələ keçərək, bu günümüzə gəlib çatıb. 1870-ci ildən bəri hesablanan bu tarix müvafiq olaraq : 1870-1914; 1914-1945; 1945-1971; 1971-ci ildən bəri olan dövrlərə bölünür. Tarixi dövrlərin bu bölgüsü nisbi və şərtidir. Heç də demək olmaz ki, 1870-ci ildən öncə kapitalın beynəlxalq hərəkəti olmamışdır. Sadəcə olaraq onu qeyd etmək kifayətdir ki, bu tarixə qədər formalaşmış dünya təsərrüfatı hələ o səviyyədə deyildi ki, həmin təsərrüfatda irimiqyaslı kapital axınları formalaşmış olsun.

Birinci dövrün (1870-1914) səciyyəvi cəhəti, o dövrün aparıcı ölkələrinin maliyyə sistemində klassik qızıl standartının bərqərar olmasıdır. Dünyanın aparıcı ölkələrinin ardınca digər ölkələr də öz iqtisadi-siyasi imkanları çərçivəsində bu standartı qəbul etməyə çalışırdılar. Bu dövrdə, həmçinin əksər ölkələrin bank sistemləri təkmilləşmiş və digər ölkələrlə uyğunlaşdırılmışdır. Bununla belə, həmin dövrdə beynəlxalq əmək və əmtəə bazarı xeyli liberllaşmışdı.

İkinici dövr (1914-1945) iki dünya müharibələri və 30-cu illərin böyük depressiyası, dünya ölkələrini məcbur etdi ki, onlar öz milli iqtisadiyyatlarına diqqət yetirsinlər. Böhran və müharibələrin vurduğu ziyanın aradan qaldırılması bu dövrün əsas xarakterik cəhətidir. Bunun nəticəsi kimi bu dövrdə beynəlxalq kapital axını minimum səviyyəyə endi.

Üçüncü dövr (1945-1970) "Breton-Vuds" dövrü də adlanır. Bu dövrdə ölkələr arasında iqtisadi əlaqələr xeyli dərinləşdi və tarixdə görünməmiş həcmdə kapital axını müşahidə olunmağa başlandı. Lakin bu axının qarşısını alan bəzi beynəlxalq və milli doktrinalar mövcud idi ki, onlar kapitalın beynəlxalq axınını buxovlayırdılar.

Dördüncü dövr "Bretton-Vuds"dan sonrakı dövr və ya pul-kredit sistemində nisbi dəyərin aradan qaldırılması dövrü kimi xarakterizə olunur. Bu dövrdə beynəlxalq iqtisadi əlaqələr dərinləşməsi və kapital axınının artması ökələrarası inteqrasiyanı o həddə gətirib çıxartdı ki, qloballaşma adlanan yeni dünya reallığı ortaya çıxdı.

Sözsüz ki, orta əsrlərdə Avropada və daha sonralar Amerika və başqa qitələrdə yaranmış iri banklar, həmçinin dövlət istiqrazları, səhmlər və s. XIX əsrin sonunda formalaşmış beynəlxalq iqtisadi durumdan çox uzaq bir mühit formalaşdırırdılar. Böyük coğrafi kəşflər, onların nəticəsi olaraq maddi sərvətlərin yeni dünyadan köhnə dünyaya gətirilməsi, əmək qüvvəsinin beynəlxalq hərəkəti və s. bu kimi əlamətdar hadisələr də XIX əsrin sonlarında dünya təsərrüfatında formalaşmış iqtisadi durumdan keyfiyyətcə fərqli idi.

*Kapitalın beynəlxalq hərəkəti, ilk baxışdan çox sadə mahiyyətə malik olub, kapitalın varlı ölkələrdən kasıb ölkələrə axması kimi görünür. Belə olan halda bu proses barəsində formalaşan nəzəri baxışların "ideoloji" cəhətdən biri-birindən kəskin fərqli olması yersiz bir hal kimi qəbul oluna bilər. Ancaq dünya təcrübəsi göstərir ki, son iyirmi ildə bütün tarix boyu formalaşan bir təməl - ideya tamamilə puça çıxdı. Belə ki, məlum oldu ki, kapital varlı ölkələrdən kasıb ölkələrə yox, əksinə kasıb ölkələrədən də varlı ölkələrə ixrac olunur.*

*Özü də xarici investisiyaların axını əvvəldə də dediyimiz kimi, varlı ölkələrdən kasıb ölkələrə yox həm də əksinə olur. Belə ki, dünya üzrə cəlb olunmuş xarici investisiyaların həcminə görə son onilliklərdə yeganə lider ABŞ-dır. Deməli, ölkələr xaricə investisiya yatırmaqla deyil, həm də xaricdən investisiya cəlb etməklə daha məqəsəduyğun xarici iqtisadi fəaliyyət qururlar. Bununla belə, bəzi tədqiqatçıların qənaətincə, xarici investisiyaların inkişaf etmiş ölkələrə doğru axını müvəqqəti bir tendensiyadır və bu tendensiya tezliklə aradan qalxaraq, xarici investisiyaların beynəlxalq axın istiqaməti əvvəlki məcrasına dönəcəkdir. Buna sübut kimi, 2007-ci ildə inkişaf etməkdə olan və keçid iqtisadiyyatına malik olan*

*ölkələrdə cəlb olunmuş xarici investisiyaların həcminin əvvəlki ilə nisbətən müvafiq olaraq 21% və 68% artmasını göstərmək olar.*

Əsas etibarı ilə "Beynəlxalq İnvestisiya Hesabatı" jurnalının məlumatlarına görə, beynəlxalq səviyyədə aparılan araşdırmaların sonu belə nəticə çıxarmağa imkan verir ki, ümumiyyətlə dünya üzrə xarici investisiya axınının artması bununla əlaqədar ölkələrin gəlirlərinin artmasına səbəb olmuşdur. İkinci nəticə kimi, ABŞ-ın cəlb olunmuş xarici investisiyalar üzrə dünya lideri olmasının səbəbini dolların məzənnəsinin aşağı düşməsini göstərirlər.

Qeyd etdiymiz kaptalın tətbiqinin klassik nəzəri konsepsiyaları ilə yanaşı, dünya iqtisadi təfəkküründən və praktikasından irəli gələn digər nəzəri konsepsiyalar da formalaşmışdır. Həmin konsepsiyalara misal olaraq inkişafın beynəlxalq maliyyələşdirilməsi nəzəriyyələrini göstərmək olar.

Həmin nəzəri görüşlər sistemi bir neçə bölmələrdən ibarətdir. Aşağıda adları çəkilən nəzəriyyələr həmin nəzəri baxışlardandır.

"İnkişafa yardım" konsepsiyası, "inkişafın beynəlxalq maliyyələşdirilməsi" nəzəriyyəsi özündə inkişaf etməkdə olan ölkələrə maliyyə vəsaitləri ilə təmin olunmasını birləşdirir.

Amerika iqtisadçıları S.Kuznets və K.Kurixara öz ideyaları ilə zəif inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının maliyyə resurslarına böyük ehtiyacları olduğunu sübuta yetirirlər. Bu ideya həmin alimlər tərəfindən irəli sürülmüş zəif inkişaf etmiş ölkələrdə yığım xüsusiyyətləri haqqında sistemli görüşlərə söykənirdi.

Kuznets bildirirdi ki, iqtisadiyyatı zəif inkişaf etmiş ölkə kapital yığımı prosesində aşağıdakı problemlərlə rastlaşır :

- ilk öncə bu ölkələrdə yığıma az meyillilik ucbatından maliyyə ehtiyatlarının qıtlığı mövcuddur;
- ikincisi, real ehtiyatların qıtlığı mövcuddur. Yəni istehlak malları istehsalında mövcud olan kapitalı istehsalın investisiyalaşmasına cəlb etmirlər;
- üçüncüsü, bu ölkələrdə tədiyyə balansının saldosunun mənfi olması onlarda xarici valyuta qıtlığı yaradır, bu da resurs idxalına mənfi təsir göstərir.

Məsələnin belə olması ümidi yalnız xarici investorlara bağlamağa vadar edir. Xarici investorlar ölkənin xarici valyutaya olan ehtiyacını və yığımlara olan ehtiyacını ödəyir. Bununla əlaqədar inkişafa yardım nəzəriyyəsinin *iki modeli* formalaşmışdır. *Birincisi,* ölkə daxili yığımlardakı qıtlığın aradan qaldırılması modeli. *İkincisi,* xarici valyuta qıtlığının aradan qaldırılması modeli.

Yığım qıtlığının aradan qaldırılması problemini XX əsrin 60-cı illərinin əvvəlində amerikalı alim P.Rouzensteyn-Rodan qaldırmışdır. Müəllif güman edirdi ki, iqtisadiyyatı zəif inkişaf etmiş ölkələrin

iqtisadiyyatına cəlb edilmiş investisiyaların məqsədi, ölkə iqtisadiyyatını durğunluq vəziyyətindən inkişaf vəziyyətinə keçirməkdir.

Yardımlar sırasına o, dövlətin qeyri-bazar şərtləri ilə borca və ya başqa məqsədlə verdiyi vəsaitləri daxil edir ki, həmin vəsaitlər gəlir əldə etmək məqsədi güdmür. Yardım yığımların səviyyəsini o həddə qaldırır ki, lazımi inkişaf tempini təmin edən investisiya səviyyəsi təmin olunsun. Xarici özəl investisiyaların axını xarici dövlət investorlarının formalaşdırdığı sabit iqtisadi inkişafın təminindən sonra mümkün olacaqdır.

1960-cı illərin ortalarında amerikalı alim H.Çeneri zəif inkişaf etmiş iqtisadiyyatın bir neçə mərhələli inkşaf modelini irəli sürmüşdür. Xarici investisiyalara ehtiyacı olan ölkələrin iqtisadiyyatının investisiya ilə təminolunma dövrünü alim şərti olaraq üç mərhələyə bölüb. Hər mərhələdə inkişafı buxovlayan amillər xüsusi qeyd olunur:

- Birinci mərhələdə yüksəkixtisaslı kadrların çatışmamazlığı mühüm amil kimi qeyd olunur. Bu zaman kadr çatışmazlığı mövcud imkanlar çərçivəsində maksimum nəticələr əldə etməyə şərait yaratmır;

- İkinci mərhələdə alimlər inkişafı ləngidən amil kimi yığımların azlığını göstərirlər. Bu zaman daxili yığımların qıtlığı xarici vəsaitlərə ehtiyac doğurur. İkinci mərhələnin sonu ölkə daxilində yığımların səviyyəsinin artması ilə xarakterizə olunur ki, bunun nəticəsində xarici ölkələrdən cəlb olunan investisiyaların həcmi kəskin surətdə aşağı düşür. Çünki ehtiyaclar artıq daxili imkanlar hesabına ödənilmir;

- Üçüncü mərhələdə inkişafın qarşısını alan amil ixracın idxalı üstələyə bilməməsidir. Bu mərhələnin vəzifəsi daimi sabit inkişafın təmin edilməsidir. İxracın idxala nisbətən zəif inkişafı onu tələb edir ki, investisiyaların yenidən bölgüsünü təmin etməklə iqtisadiyyatda struktur dəyişikliklərin həyata keçirilsin. Bunun çıxış yolu üçfazalı modelin həllindədir.

Struktur dəyişikliklərin nəticəsində idxala yönümlülük azalır, ixracın səviyyəsi isə artır. Bunun nəticəsində cari tədiyyə balansındakı müsbət saldo əmələ gəlir. Burada xarici valyuta axınının təsirini də qeyd etməmək olmaz.

Bununla belə, "inkişafa yardım" nəzəriyyəsini də tənqid etdilər. Çünki praktika göstərdi ki, İEOÖ-lər onlara edilən yardımları iqtisadi inkişafa yox, dövlət səviyyəsində istehlak xərclərinə yönləndirdilər.

"Ortaqlıq" nəzəriyyəsi, "inkişafa yardım" nəzəriyyəsinin böhran keçirməsi ilə əlaqədar müxtəlif ortaqlıq nəzəriyyələrini formalaşdırmağa başladı. XX əsrin 50-ci illərindən başlayaraq yerli və xarici kapitalın birgə iştirakı ilə yaranmış kampaniyalarda öz təzahürünü tapmış ortaq nəzəriyyəsi özünə geniş yer almağa başladı.

İqtisadçıların fikrincə, qarışıq tipli şirkətlər xarici investor, hökumət və yerli investorlar arasında razılığı təmin edirlər. Onlar öz fikirlərini

inkişaf etdirərək belə qənaətə gəlirlər ki, həmin şirkətlər ölkə üçün aşağıdakı müsbət təsirləri edirlər :

- Milli investorun məqsədlərinin reallaşmasını təmin edir;
- Hökumətin milli inkişaf planı ilə uyğunluğunu təmin edir;
- Xarici investisiyanın axınını təmin edir;
- Yerli kadrların hazırlanmasına kömək edir;
- İstehsal və sosial infrastrukturun inkişafını təmin edir;
- İdxalı əvəz edən sənayeni formalaşdırır.

Xarici investorların qarışıq tipli müəssisələrə kapital yatırmağının səbəbini, həmin iqtisadçılar onda görürdülər ki, xarici investorların öz ölkəsindən fərqli olaraq gəldiyi ölkədə istehsalat xərcləri aşağı olur və həmçinin onlara vergi güzəştləri edilir.

## 7.2. İnvestisiyaların iqtisadi inkişafda rolu

İqtisadi inkişaf səviyyəsindən və coğrafi mövqeyindən asılı olmayaraq bütün ölkələrin investisiya qoyuluşuna ehtiyacı vardır. Yəni bu və ya digər ölkəyə qoyulan investisiyalar, həmin ölkənin iqtisadi inkişafında katalizator rolunu oynayırlar. Ölkə iqtisadiyyatına qoyulan investisiya məqsəd deyil, vasitə olmalıdır. Ölkəyə investisiyanı cəlb etməklə, əvvəllər pis istifadə olunmuş təbii, istehsal və əmək resurslarını daha effektiv şəkildə istifadə etmək olar. Əgər xarici kapitaldan səmərəli istifadə olunarsa, bu kapital milli resurslarla birləşərək zəncirvarı reaksiya yarada bilər və yüksək effekt əldə olunar.

XX əsrin sonlarında makroiqtisadiyyatda həyata keçirilən institutsional və struktur dəyişikliklərinin həyata keçirilməsində dövlət kifayət qədər aktiv mövqe nümayiş etdirir. Dövlətin fəaliyyətinin xarakteri istər təkmil makroiqtisadiyyata malik olan sistemlərdə, istərsə də inkişaf etməkdə və formalaşmaqda olan cəmiyyətlərdə özünəməxsus fərqli cəhətlərə malikdir.

Təbiidir ki, inkişaf etmiş iqtisadiyyata malik olan ölkələrlə müqayisədə, keçid dövrünü yaşayan ölkələrdə dövlətin hüquqi, siyasi və sosial-iqtisadi məsuliyyət yükü daha ağır olur. Yəni inkişaf etmiş iqtisadiyyatda artıq nəhəng bazar təsərrüfatçılıq qurumları - iri firmalar, transmilli şirkətlər, sosial tərəfdaşlıq institutları fəaliyyət göstərdiyindən dövlət cəmiyyətin sosial ağırlıq yükünü həmin özəl sektorla, demək olar ki, yarılayır və ölkə daha çox özünün əhəmiyyətli problemlərilə məşğul olur. Transformasiya prosesinin hakim olduğu keçid iqtisadiyyatında dövlətin funksiyaları isə əslində çoxsaylıdır. Belə ki, transformasiya prosesi keçmiş təsərrüfatçılıq sisteminin dağılması, yeni qurumların isə yaradılmaması fonunda həyata keçirilir. Bu isə, hər şeydən əvvəl,

cəmiyyətdə çoxsaylı sosial problemlərin mövcudluğundan irəli gəlir. Ona görə də dövlət işsizlərin və aztəminatlı əhali kateqoriyalarının sosial müdafiə yükünü çəkməli, paralel olaraq bazar infrastrukturlarının formalaşdırılmasına mümkün vasitələrlə dəstək verməli, iqtisadiyyatın maliyyə və pul-kredit stabilləşdirilməsinə nail olmalı, ən nəhayət, ölkənin milli iqtisadi təhlükəsizliyinin təmin edilməsinə yönələn siyasəti də reallaşdırmalıdır.

Qeyd etmək lazımdır ki, keçid şəraitində dövlətin güclü tənzimləyici siyasəti olmadan, real bazar münasibətlərini formalaşdırmaq qeyri-mümkündür. Belə ki, dövlətin keçid dövründə funksiyalarından biri ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi üçün lazımi hüquqi-iqtisadi bazanın formalaşdırılmasıdır. Lazimi iqtisadi-hüquqi bazanı formalaşdıran dövlət xarici investisiyaları ölkə iqtisadiyyatına cəlb etməyə çalışır. Ümumiyyətlə, dövlət hansı quruluşa malik olmasından asılı olmayaraq iqtisadiyyata müdaxiləni təkrar istehsal prosesinin hər hansısa bir tsiklinə müdaxilə etməklə həyata keçirir. Yəni müdaxilə istehsala müdaxilə, bölgüyə müdaxilə, mübadiləyə müdaxilə və istehlaka müdaxilə formalarında mövcud olur. İndiki dövrdə kompleks müdaxilədən danışmaq olar ki, bu müdaxilə də hər bir ölkədə mövcud qanunvericiliklə tənzimlənir.

Beynəlxalq səviyyədə isə bütün münasibətlər beynəlxalq qanunlar və normalar vasitəsi ilə tənzimlənir. Çünki indiki qloballaşan dünyadakı təsərrüfat münasibətləri fövqəlmilli xarakter daşıyırlar. Burada bir dövlətin və ya bir neçə dövlətin qanunları hakim ola bilməz, hüquqi baza da universal xarakterli olmalıdır. Xüsusən qeyd etməliyik ki, planlı inzibati-amirlik sistemində olan rejimin süqutu dünya təsərrüfatında anqlo-amerkan qlobal modelinin bərqərar olmasına səbəb oldu. Sözsüz ki, hüquqi baza da o, model əsasında formalaşdı. Azərbaycan da bütün digər keçmiş sosialist ölkələri kimi, müstəqillik əldə etdikdən sonra Dünya Təsərrüfat Sisteminin bir müstəqil elementinə çevrildi.

Bununla belə, hər bir ölkədə qanunvericiliklə investisiyaların maliyyələşmə mənbələri müəyyən olunur. Bizim Qanunvericilikdə təsbit olunmuş investisiya maliyyələşmə mənbələrini ümumi şəkildə yuxarıda qeyd etdik. İnvestisiyanın maliyyələşmə mənbələrini müəyyən etməklə yanaşı, dövlət investisiya siyasəti də yürüdür. Bu siyasətin məqsədi ölkədə investisiya mühitinin əlverişli şəklə salınmasıdır. İnvestisiya siyasətinin əsas prinsiplərini aşağıdakı kimi göstərmək olar:

- müxtəlif mülkiyyət formalarının yaradılması vasitəsi ilə mütəmadi olaraq investisiya prosesinin qeyri-mərkəzləşdirilməsinə nail olmaq, müəssisədaxili imkanlardan istifadə üçün əlverişli şərait yartmaq;

- mərkəzi investisiyalar hesabına müəssisələrə dövlət tərəfindən qayğının göstərilməsi;

- bu sahədə dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsinə nəzarətin artırılması;

- ixtisaslaşmış dövlət investisiya layihələrinin hazırlanması;

- xarici investisiyaların cəlb edilməsi məqsədi ilə hüquqi-normativ bazanın təkmilləşdirilməsi;

- investisiya layihələrində dövlətin kommersiya təşkilatları ilə birgə iştirakı təcrübəsinin genişləndirilməsi.

Qeyd etmək lazımdır ki, istər daxili, istərsə də xarici investisiya siyasətinin həyata keçirilməsində maliyyə mənbələri əsas amil kimi çıxış edir. Belə ki, daxili investisiya siyasəti dedikdə, daxili investisiya mənbələri hesabına müxtəlif məqsədlərə nail olunması istiqamətindəki tədbirlərin məcmusu nəzərdə tutulur. Xarici investisiya siyasəti dedikdə isə uzunmüddətli beynəlxalq kapital qoyuluşları sahəsində görülən tədbirlər nəzərdə tutulur. Müasir dövrdə xarici investisiyaların və həmçinin TMK-ların yatırdığı investisiyalar uzunmüddətli dövr üçün nəzərdə tutulur. Ona görə də uzunmüddətli fəaliyyəti həyata keçirmək üçün Azərbaycanın yaratdığı mühit olduqca əlverişlidir.

Ümumiyyətlə, investisiya siyasətinin həyata keçirilməsi zamanı istiqamətlərin müəyyənləşdirilməsi həm dövlətin, həm də, investistorların maraqları ilə uzlaşdırılır. Bu zaman müəyyənləşdirilmiş istiqamətlərə əsasən aşağıdakıları aid etmək olar:

- beynəlxalq standartlar səviyyəsində milli məhsul və xidmətlərin həcminin artırılması;

- ölkəyə yeni texnologiyaların cəlb edilməsi;

- ölkə əhalisinin məşğulluq səviyyəsinin artırılması;

- milli gəlirin səviyyəsinin artırılması;

- ölkənin ixracyönlü məhsul və xidmətlərlə xarici bazara çıxarılmasının təmini;

- bank sisteminin təkmilləşdirilməsi və valyuta əməliyyatlarının effektivliyinin artırılması;

- sığorta sisteminin təkmilləşdirilməsi və sığorta fəaliyyətinin aktivləşdirilməsi.

Keçid dövrünü yaşayan ölkələrin iqtisadiyyatında xarici investisiyaların cəlb edilməsində mühüm əhəmiyyətə malik proseslər gedir ki, bu proseslərdən biri də özəlləşdirmədir. Xarici investisiyanın cəlb edilməsində önəmli bir mərhələ olan özəlləşdirmə praktikaları başlanğıc etibarilə ilk dəfə Çilidə görünsə də, daha çox 1979-cu ildə İngiltərədə mühafizəkar M.Tetçerin iqtidara gəlməsilə sürət qazanmışdır. Daha sonra digər inkişaf etmiş ölkələr də bu praktikaya söykənərək iqtisadi siyasət yürütmüşdür. Özəlləşdirmə kimi mühüm iqtisadi tədbirlər sitemini iqtisadi islahatlar əsnasında tətbiq etmək XX əsrin 90-cı illərində Orta və Şərqi Avropa ölkələrinə nəsib olmuşdur. Onu qeyd etmək lazımdır ki,

qeyd olunan Latın Amerikası ölkələrində özəlləşdirmə, birbaşa xarici kapital investisiyalarını ölkəyə cəlb etməkdə önəmli bir funksiya yerinə yetirmişdir. Məsələn, Çiliyə gələn birbaşa xarici investisiyanın 5%-i, Argentinada isə 3%-i özəlləşdirmə kanalı ilə daxil olmuşdur. 1997-ci ildə inkişaf etməkdə olan ölkələrə yönəldilmiş birbaşa xarici investisiyaların 11,3%-i, yəni 21,1 milyard ABŞ dolları özəlləşdirmə kanalı ilə gəlmişdir. Eyni ildə, özəlləşdirmə yolu ilə Avropa və Orta Asiya ölkələri öz ölkələrinə 6.9 milyard ABŞ dolları, Latın Amerikası ölkələri də 11.4 milyard ABŞ dolları həcmində birbaşa xarici investisiya cəlb etmişlər. Yenə 1996-cu ildə dünyada toplam 100 milyard ABŞ dolları olan özəlləşdirmə gəlirinin 60-70 milyardı İƏİT (OECD) ölkələri tərəfindən gerçəkləşdirilmişdir.

İnkişaf etməkdə olan ölkələrdə özəlləşdirmə prosesində rast gəlinən mühüm problemlərdən biri özəlləşdiriləcək dövlət mülkiyyətinin qiymətinin təyin edilməsidir. Onu da qeyd etmək lazımdır ki, qiymətin müəyyənləşdirilməsinin sərbəst bazar mexanizminə buraxılması, özəlləşdirmə ilə məşğul olan dövlət idarələrinin bu sahədə müstəqilliyinin təmin edilməsi və özəlləşdirmə aktlarında ölkənin mövqeyi ilə birlikdə xarici təşəbbüskarların mövqelərinin uyğunlaşdırlması baxımından önəmli məqamlar ortaya çıxır. Unudulmamalıdır ki, Polşa, Macarıstan və Çexiya kimi ölkələr öz iqtisadiyyatlarına ciddi miqdarda birbaşa xarici investisiya cəlb etmələrini, regional iqtisadi inteqrasiya prosesləri ilə yanaşı, özəlləşdirmə prosesinin müvəffəqiyyətlərinə də borcludurlar.

Ölkəmizdə həyata keçirilən özəlləşdirmə prosesinin səmərəli aparılması onun mükəmməl qanunvericilik bazasının formalaşdırılmasından asılı idi. Azərbaycanın qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinin ən mühüm vasitələrindən biri, özəlləşdirmə prosesi olmuşdur. Belə ki, xarici şirkətlər, həmçinin ölkəmizdə aparılan özəlləşdirmə prosesində iştirak edə biliblər. Bununla əlaqədar olaraq, Özəlləşdirmə Qanunvericiliyində xarici şirkətlərin bu prosesdə iştirakının şəffaf və aydın mexanizmləri nəzərdə tutulmuşdur.

Respublikamızda özəlləşdirmənin normativ və metodik təminatını mülkiyyətdə struktur islahatlarının həyata keçirilməsi prosesini reqlamentləşdirən qanun qüvvəli Proqram və ondan irəli gələn normativ sənədlər təşkil edir. Azərbaycanda özəlləşdirmə sisteminin qanunvericilik bazasının formalaşmasına 1993-cü ildən başlanmasına baxmayaraq onun startı 1996-cı ilin mart ayının 26-da verilmişdir. Özəlləşdirmənin hüquqi təminatını təşkil edən, sonradan qanun qüvvəli aktlar üçün əsas rolunu oynayan ilk sənəd 1993-cü ilin yanvar ayının 7-də, Azərbaycan Respublikası Prezidentinin 445 saylı Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"dur. Bu qanun Azərbaycan

Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsinin prinsipləri və təşkilati-hüquqi əsaslarını müəyyən edir. Qanuna görə, özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər istisna olmaqla, dövlət mülkiyyətində olan bütün müəssisə və əmlak özəlləşdirmənin obyektləri, özəlləşdirilən müəssisənin əmək kollektivləri, Azərbaycan Respublikasının vətəndaşları, dövlət müəssisələri, birlikləri və təşkilatı olmadan, eləcə də Nizamnamə kapitalında dövlətin payı 25 faizdən çox olmayan hüquqi şəxslər, xarici hüquqi və fiziki şəxslər özəlləşdirmənin subyektləri hesab olunurlar. Qanunda dövlət mülkiyyətinin özəlləşdirilməsinin prinsipləri, özəlləşdirmənin qaydaları, yolları, formaları, özəlləşdirmənin dövlət tərəfindən tənzimlənməsini həyata keçirən orqanların səlahiyyətləri və s. nəzərdə tutulur.

Qanuna əsasən özəlləşdirməni dövlət əmlakını idarə edən orqan tənzimləyir. Qanunla həmin orqana özəlləşdirmənin Dövlət Poqramını işləyib hazırlamaq, respublikanın bütün ərazisində özəlləşdirmənin həyata keçirilməsinə metodik rəhbərlik və nəzarət etmək, özünün ərazi qurumlarını yaratmaq, onların fəaliyyətinə rəhbərlik və digər funksioner tapşırıqlar verilir.

Əvvəlki Dövlət Əmlak Komitəsi bu Qanun əsasında əlavə və dəyişikliklər nəzərə alınmaqla işləyib hazırladığı "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin I özəlləşdirlməsinin Dövlət Proqramı" 1995-ci il iyul ayının 21-də Milli Məclis tərəfindən qəbul olunub. Dövlət Proqramı 29 sentyabr 1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanaraq Qanun qüvvəsində təsdiq olunub. Qanun statusunda təsdiq edilmiş Dövlət Proqramı Azərbaycan Respublikasında özəlləşdirmə prosesinin hüquqi təminatında baza rolunu oynayır. Dövlət Proqramı əsasında iyirmidən artıq aktlar, o sıradan əsasnamələr, qaydalar, metodik göstərişlər hazırlanıb, qəbul olunub.

Bu səviyyələrdə baza rolunu oynayan Dövlət Proqramı əsasında prosesi daha sistemli və əhatəli tənzimləmək məqsədi ilə əlavə olaraq yardımçı normativ sənədlər qəbul olunub və olunmaqdadır.

Özəlləşdirmə zamanı müstəsna əhəmiyyət kəsb edən və bu prosesin həyata keçirilməsində mühüm rol oynayan hüquqi sənədlərə misal olaraq "Azərbaycan Respublikasında Dövlət Mülkiyyətinin Özəlləşdirilməsi Haqqında Azərbaycan Respublikasının Qanun"unu (7 yanvar 1993-cü il), "İcarə Haqqında Azərbaycan Respublikasının Qanun"unu (30 aprel 1992-ci il), "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə Dövlət Mülkiyyətinin Özəlləşdirilməsinin Dövlət Proqramı"nı (22 sentyabr 1997-ci il), həmçinin özəlləşdirilməsi Azərbaycan Respublikasının səlahiyyətində olan dövlət müəssisələrinin özəlləşdirilməsi prosesinə qatılması haqqında müvafiq sərancamları və s. göstərmək olar. Bunlar Azərbaycanda keçirilən özəlləşdirmənin heç də tam normativ bazası deyildir.

Proses davam etdikcə Qanunvericilik aktları təkmilləşəcək və yeniləri qəbul olunacaqdır.

Dövlət mülkiyyətinin özəlləşdirilməsi, həmin mülkiyyətin Qanunda müəyyən edilən qaydada xüsusi mülkiyyətə çevrilməsini nəzərdə tutur. Onu da qeyd edək ki, torpaq və mənzil fondunun özəlləşdirilməsi "Azərbaycan Respublikası Mülkiyyət Haqqında Qanunda" yox, digər Qanunvericilik aktları əsasında aparılır.

Özəlləşdirmənin subyektləri olan əmək kollektivləri, vətəndaşlar, dövlət müəssisələri, birlikləri və təşkilatı olmayan hüquqi şəxslər həmçinin Nizamnamə kapitalında dövlətin payı 25 faizdən çox olmayan hüquqi şəxslər, xarici hüquqi və fiziki şəxslər özəlləşdirmə obyekti kimi özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlər istisna olmaqla, Azərbaycan Respublikasında dövlət mülkiyyətində olan bütün müəssisə və obyektləri seçə bilərlər.

"Xarici investisiyanın qorunması haqqında Azərbaycan Respublikasının Qanunu"nda qeyd olunduğu kimi, xarici investorların Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşu və onun yolları belədir:

Xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar xarici investisiyadır.

Xarici investorlar Azərbaycan Respublikası ərazisində aşağıdakı yolla investisiya qoya bilərlər:

a) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan muəssisələrdə, təşkilatlarda payçılıq iştirakı;

b) tamamilə xarici investorlara məxsus olan müəssisələr yaradılması;

c) müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların və digər qiymətli kağızların, habelə Azərbaycan Respublikasının Qanunvericiliyinə müvafiq surətdə xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi;

ç) torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi;

d) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə xarici investisiya qoyuluşunun başqa formalarını nəzərdə tutan müqavilələr bağlanması.

Həmin Qanunun başqa bir maddəsində dövlətsizləşdirmə və özəlləşdirmədə xarici investorların iştirakı belə qeyd olunur :

Dovlət və bələdiyyə muəssisələrinin, habelə başa catdırılmamış tikinti obyektlərinin ozəlləşdirilməsində xarici investorlar Azərbaycan

Respublikasının Qanunvericiliyi ilə muəyyənləşdirilən şərtlərlə və qaydada iştirak edə bilərlər. Buradan aydın olur ki, Azərbaycanda xarici investorların özəlləşdirmə və dövlətsizləşdirmə prosesində iştirakında onların qarşısına heç bir hüquqi maneə qoyulmur, əksinə, həmin Qanunun digər maddəsinə nəzər yetirsək görərik ki, xarici investorlar üçün nisbətən əlverişli hüquqi mühit formalaşdırılırr.

Onu da qeyd etmək lazımdır ki, xarici iş adamları neft sektoru ilə yanaşı, qeyri-neft sektoruna da böyük maraq göstərirlər. Bu zaman onlar özəlləşdirmə prosesini diqqət mərkəzində saxlayırlar. Çünki xarici investorlar gələcəkdə böyük səmərə verə biləcək müəssisələrin dövlətsizləşdirilməsində iştirak edərək səhmlərin əksər hissəsini alır və böyük həcmdə investisiya qoyurlar. Qeyd edək ki, xarici investorlar üçün, xüsusilə, cəlbedici olan metallurgiya, kimya, energetika, maşınqayırma, rabitə və digər sahələrdə fəaliyyət göstərən müəssisələrin özəlləşdirməyə açılması xarici investisiya axınına təkan vermişdir.

Azərbaycan iqtisadiyyatına investisiya yatıran beynəlxalq qurumlardan biri olan Dünya Bankının Azərbaycanda keçirilən özəlləşdirmə prosesi ilə əlaqədar bəzi tövsiyələri mövcuddur:

- Özəlləşdirmə Strategiyasının inkişafı, orta və böyük ölçülü müəssisələrin özəlləşdirilməsini sona çatdırmaq, dövlət müəssisələrinin inkişafı məsələsilə məşğul olmaq və sərmayə bazarlarını inkişaf etdirmək;
- Müəssisələr üçün maliyyə gəlirinin əsas bazasını təşkil etmək, özəlləşdirilmə çeklərindən istifadə edərək topdan özəlləşdirilməni sürətləndirmək;
- Yerli mütəxəssislərin digər ölkələrin təcrübələri ilə tanış olmaq və Azərbaycan üçün öz kadr potensialını inkişaf etdirmək məqsədilə daxili təhsilini və xarici ölkələrdə təhsil almaq üçün şəraiti təşkil etmək;
- Özəlləşdirmə Proqramı haqqındakı məlumatları geniş kütləyə bildirmək və onların bu müddətdə aktiv iştiraklarına nail olmaq;
- Sərmayə bazarları üçün köklü və qanuni şəbəkənin təşkili.

Ölkəmizin dinamik inkişaf yolu ilə uğurla irəliləməsi beynəlxalq qurumların Azərbaycana marağını artırmışdır. Bununla əlaqədar respublikamızda xarici investisiyaların cəlb edilməsi ilə beynəlxalq əməkdaşlıq sahələrində həyata keçirilən tədbirlər son illər daha geniş miqyas almışdır.

Ölkə iqtisadiyyatına yatırılan investisiyaların bir hissəsini təşkil etməklə xarici investisiyalar ölkə iqtisadiyyatının, xüsusən də keçid dörvü yaşayan iqtisadiyyatın dirçəlməsi və inkişaf etməsinə yardım edir. Xarici investisiyaların ökəyə cəlb olunmasının iqtisadi əsasları kimi Azərbaycanın müstəqillik əldə etməklə qlobal iqtisadi məkana azad bir subyekt kimi daxil olması və bununla əlaqədar olaraq iqtisadiyyatın transfor-

masiya olunmasını göstərmək olar. İqtisadiyyatın transformasiya olunması islahatlar yolu ilə aparıldığından bu zaman mühüm alət kimi özəlləşdirmə prosesindən istifadə olunmuşdur. Xüsusi qeyd olunmalıdır ki, dünya ölkələrinin təcrübəsindən özəlləşdirmə vasitəsi ilə xarici investisiyanın cəlb edilməsi praktikasının əxz edilməsi mühüm bir mərhələni təşkil edirdi. Belə ki, həm keçmiş sosialist ölkələrinin təcrübəsi və həm də azad bazar iqtisadiyyatına malik inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin xarici investisiyalarının cəlb edilməsi üçün özəlləşdirmə alətindən istifadə təcrübəsinin bizə uyğun tərəflərinin öyrənilməsi və tətbiq edilməsi bu tarixi mərhələnin əsas cəhətlərindən idi. Lakin qeyd olunmalıdır ki, özəlləşdirmə vasitəsi ilə ölkəyə xarici investisiyaların cəlb edilməsi başlanğıc mərhələdirsə, ondan sonrakı mərhələdə geniş hüquqi-normativ bazanın formalaşdırılması ilə iqtisadi və xüsusən də investisiya mühitinin formalaşdırılması prosesi həyata keçirilməlidir.

### 7.3.İnvestisiyaların beynəlxalq hüquqi-normativ əsasları

İnvestisiyalar milli və xarici investorların kapital axını zamanı fəaliyyətlərini reqlamentləşdirən ümumtəsərrüfat rejiminin mühüm halqası və xarici iqtisadi fəaliyyətin mühüm tərkib hissəsidir. «İnvestisiya» anlayışının müəyyən olunması və onun ayrı-ayrı milli iqtisadiyyatlara və həmçinin ümumilikdə dünya iqtisadiyyatına etdiyi təsiri aydınlaşdırmaq müasir iqtisad elminin qarşısında duran problemlərdən biridir. Belə bir problemin öyrənilməsində beynəlxalq hüquqi əsasların tədqiqi olduqca əhəmiyyətlidir. Hüquqi aspektdən yanaşdıqda, məsələnin bir sıra mühüm cəhətləri aydın şəkildə görünmüş olur. Belə ki, bu sahədə qabaqcıl, yəni xarici investisiyaları artıq bir neçə onillikdir ki, öz ölkələrinə cəlb edən dövlətlərin təcrübəsini araşdırmaq və onların təcrübəsini mənimsəmək, onların bu sahədə hansı beynəlxalq hüquqi normalar sisteminə üstünlük vermələrini aydınlaşdırmaq xüsusilə vacibdir. Çünki bazis rolunda çıxış edən iqtisadiyyat və iqtisadi maraqların təmininə imkan yaradan üstqurum olan hüquq və onun rejimlərinin hansı prinsiplərə söykəndiyini müəyyənləşdirmək artıq bu sahədə iqtisadi mexanizmin xüsusiyyətlərini aydın şəkildə ifadə edir. Sözsüz ki, iqtisadiyyatı keçid mərhələsində olan və inkişaf etməkdə olan ölkələrin qoşulduqları konvensiya və sazişlərin onların ölkələrinə cəlb ediləcək xarici investisiyaların həcmi və strukturuna necə təsir edəcəyini bilmək çox maraqlıdır. Bundan savayı, onu da qeyd etməliyik ki, günümüzdə elə bir beynəlxalq saziş və ya konvensiya yoxdur ki, yalnız bir tərəfin maraqlarını təmin etmiş olsun. Əgər biz beynəlxalq hüquqi tənzimləmə mexanizmlərindən bəhs ediriksə, bu belə də olmalıdır.

Ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və onların səmərəli istifadə olunması olduqca əhəmiyyətlidir. Belə ki, Beynəlxalq Valyuta Fondunun apardığı tədqiqatlar göstərir ki, Fonda üzv olan ölkələrin 80%-ə yaxını xarici investisiyaların ölkəyə idxal edilməsinə qarşı proteksionist tədbirlər həyata keçirirlər. Ona görə də beynəlxalq miqyasda investisiya axınının normal gedişini təşviq edən tədbirlərin görülməsi olduqca zəruridir. Dünya praktikasında investisiyalar ölkəyə xüsusi investisiya agentlikləri vasitəsi ilə cəlb edilirlər. Həmin agentliklər investorların tələbatlarını öyrənir və onlara lazımi informasiyanı təqdim edirlər.

Ölkələrdə həyata keçirilən investisiya fəaliyyətinin mahiyyəti investisiya bazarının genişlənməsi və inkişafı ilə daha da aydın şəkildə görünməyə başlayır. Dünya üzrə investisiya bazarının formalaşması və inkişafı dünyanın bir çox ölkələrinin iqtisadiyyatının çiçəklənməsinə yardım etmişdir. Bununla belə, dünya investisiya bazarı hələ ki, tam ideal şəkildə formalaşmadığından, dünya üzrə investisiya prosesinin lazımi şəkildə həyata keçməsinə şərait yaranmır.

Ölkə daxilində investisiya fəaliyyətinin həyata keçirilməsi və investisiya prosesinin tənzimlənməsi daxili qanunlarla həyata keçirilirsə, dünya miqyasında ölkələr arasında investisiya axınının tənzimlənməsi beynəlxalq hüquqi-normativ aktlar vasitəsi ilə reallaşdırılır.

Qeyd etmək lazımdır ki, ilkin kapital yığımından başlayaraq kapitalın beynəlxalq hərəkəti kütləvi surətdə bərqərar oldu. Tarixin bu dönəmində kapital axını, əsasən müstəmləkəçi və müstəmləkə dövlətlər arasında baş verən kapital axını ilə xarakterizə olunurdu. Belə olan təqdirdə beynəlxalq hüququn investisiya prosesini tənzimləmə zərurəti yaranmırdı. Çünki müstəmləkənin hüquqi sistemi müstəmləkəçinin hüquqi sisteminə inteqrasiya olunurdu və beynəlxalq hüquqa ehtiyac qalmırdı.

Sonrakı dövrlərdə, yəni, müstəmləkə dövlətlərin müstəqillik əldə etdikləri dövrdən başlayaraq investisiyaların beynəlxalq miqyasda tənzimlənməsinə ehtiyac duyuldu. Bu zaman yeni müstəqillik əldə etmiş dövlətlər müstəmləkəçilərin hüquqlarını öz dövlətləri daxilində məhdudlaşdırdılar və onlara məxsus olan əmlakları milliləşdirdilər. Onda keçmiş kolonistlər əks addım ataraq beynəlxalq miqyasda ümumi standartların qəbul edilməsinə cəhd etdilər. Bu ümumi standartlar, daha doğrusu "minimal beynəlxalq standartlar" adlanan və beynəlxalq hüququn tərkib hissəsi olan standartlardır ki, onlar da istənilən dövlətin xarici investorla milli investorlara bərabərhüquqlu və ədalətli hüquqi rejim yaradan normaların qəbulunu özündə ehtiva edirdi.

Lakin XX əsrin əvvəlləri və ortalarında meydana gəlmiş yeni müstəqil dövlətlərin öz milli iqtisadiyyatlarını dirçəltmək cəhdləri bəzi

məqamlarda xarici investorların maraqlarına real zərbə vururdu. "Minimal stanadartlar" heç də bütün dövlətlər tərəfindən birmənalı şəkildə qəbul olunmurdu. Bəzi dövlətlər milli iqtisadiyyatlarının inkişafı naminə apardıqları islahatlar nəticəsində xarici investorlara məxsus şirkətləri milliləşdirirdilər. Dünyada baş vermiş böhranlardan sonra bu məsələ daha da kəskin şəkildə özünü büruzə verdi. Ortaya beynəlxalq investisiya fəaliyyətinin tənzimlənməsi üçün daha universal və ümumi hüquqi-normativ aktların qəbul olunması zərurəti çıxdı. Bu hüquqi-normativ aktlar sözsüz ki, universal beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmalı idi. Belə hüquqi aktlardan ən birincisi kimi, BMT-nin 14 dekabr 1962-ci il 1803 saylı "Təbii ehtiyatlar üzərində tam suverenlik" qətnaməsini qeyd etmək olar.

XX əsrdə investisiyaların beynəlxalq hüquqi əsasının formalaşmasının bir neçə mərhələsini qeyd etmək olar. İlkin olaraq XX əsrin əvvəllərində yeni yaranmış sosialist dövlətlərinin meydana gəlməsi idi ki, onların atdıqları ilk addım xarici investorların mülkiyyətində olan obyektlərin milliləşdirilməsi olmuşdur. Bununla belə, milliləşdirmə zamanı xarici investorlara lazimi konpensasiya verilimirdi. "Dövlətin suverenliyi prinsipindən çıxış edərək demək olar ki, dövlət əmlaka sahiblik və həmçinin əmlakın milliləşdirilməsi barədə bütün məsələlərin tənzimlənməsində müstəsnə hüquqa malikdir". Bu dövr, "dövlət və şəxsi əmlak" dövrü kimi xarakterizə oluna bilər.

Növbəti dövrdə bir sıra "üçüncü dünya ölkələrinin" beynəlxalq arenada mövqelərinin möhkəmlənməsi ilə əlaqədar olaraq və həmçinin bir sıra beynəlxalq konvensiyaların qəbul edilməsi ilə investisiyaların beynəlxalq hüquqi əsası daha da möhkəmləndi. Bu konvensiyalara misal olaraq 1965-ci ildə imzalanmış Vaşinqton Konvensiyasıdır ki, bunun nəticəsində İnvestisiya mübahisələrinin həlli üçün Beynəlxalq Mərkəz təsis edildi. Digər mühüm konvensiya 1972-ci ildə imzalanmış dövlətlərin immuniteti barədə Avropa Konvensiyasıdır.

Nəhayət, XX əsrin 80-ci illərindən başlayaraq dünya üzrə bütün xarici investisiya axınlarını "koordinasiya" edə biləcək Konvensiya imzalandı. Bu konvensiya 11 oktyabr 1988-ci ildə, İnvestisiyaların zəmanəti üçün çoxtərəfli Agentliyin təsisini reallaşdırdı. Həmin Agentlik aşağıdakı qeyri-kommersiya riskləri ilə əlaqədar investorlara uzunmüddətli zəmanətlər verir:

- İnvestisiya qəbul edən ölkə tərəfindən kapitalın mübadiləsi və köçürülməsinə məhdudiyyətin qoyulması;
- İnvestorun gəlirini əsaslı şəkildə azaldan və ya onun investisiyadan istifadə hüququnun qanuni və ya inzibati qaydada məhdudlaşdırılması;
- Dövlət institutları ilə bağlanmış müqavilələrin ləğv edilməsinə gətirib çıxaran inzibati və ya məhkəmə praktikası;

- Hərbi konfliktlər və vətəndaş müharibələri.

Xarici investisiyaların beynəlxalq hüquqi normalarla tənzimlənməsində ikitərəfli hökumətlərarası sazişlərin xüsusi əhəmiyyəti vardır. Mahiyyət etibarı ilə bu sazişlər adətən investisiyaları təşviq edən və onların müdafiəsinin qarşılıqlı şəkildə təşkili məsələlərinə aid sazişlərdir. Həmin sazişlər tənzimləmə obyektlərinə görə iki qrupa bölünürlər :

- Kapital qoyuluşlarının təşviq edilməsi və qarşılıqlı müdafiəsi barədə ikitərəfli sazişlər – investisiya prosesi zamanı yaranan bütün mübahisələrin həllinə yönəlmiş iki dövlət arasında bağlanmış sazişlər;

- İkiqat vergiqoymaya yol verməmək barədə ikitərəfli sazişlər, investorun investisiya fəaliyyətinin nəticələrinin həm investisiyanı qəbul edən həm də investorun öz dövləti tərəfindən vergiyə cəlb olunması halının qarşısını almağa yönəlir.

İkitərəfli beynəlxalq sazişlərin yuxarıda qeyd olunan obyektlər üzrə iki qrupa bölünməsi praktikada sırf formal xarakter daşıyır. Çünki ölkələrin bir-biri ilə investisiyaların qarşılıqlı təşviqi və müdafiəsi barədə bağladıqları sazişlər hökmən həyata keçiriləcək investisiya fəaliyyətinin səmərəliliyi naminə ikiqat vergiqoymaya yol verilməməlidir. Bundan savayı, ikiqat vergiqoymanı aradan qaldıran razılaşmanın olmaması investisiyaların təşviqinə heç bir vəchlə yardım edə bilməz.

Hansı qrupa daxil olmasından asılı olmayaraq, ikitərəfli sazişlərin populyar olması artıq bir faktdır. Məsələn, kapital qoyuluşunun təşviq edilməsi və qarşılıqlı müdafiəsi üçün imzalanmış sazişlərin ümumi sayı 1900-ə yaxındır. Onların təqribən 49%-i Qərbi Avropa ölkələrinin payına düşür, yəni 904-ü. Qərbi Avropa ölkələrindən isə lider 124 sazişlə liderlik edən Almaniyadır. Ondan sonra 95 sazişlə İsveçrə, hərəyə 92 sazişlə isə Fransa və Böyük Britaniya gəlirlər. İnkişaf etməkdə olan ölkələr arasında isə 94 belə saziş bağlamış Çin, daha sonra isə 90 sazişlə Rumıniya və 84 saziş bağlamış Misirdir.

Ümumən dünya üzrə qloballaşma prosesinin gedişi onu göstərir ki, qloballaşma müasir dönəmdə hökmən regionlaşma prosesi vasitəsi ilə reallaşır. Belə ki, regional səviyyədə iqtisadi inteqrasiya prosesi daha tez və effektli gedir. Çoxsaylı regional birliklərin olması regional səviyyədə investisiya fəaliyyətinin hüquqi tənzimlənməsi məsələsinin əhəmiyyətini artırır. Həmin iqtisadi birliklərin təsis sənədlərində birbaşa olaraq üzv ölkələr arasında investisiya əməkdaşlığının bütün tərəfləri qeyd olunmuş olur. Belə regional birliklərə misal kimi Avropa Birliyini, NAFTA-nı, MERKOSUR-u və s. göstərmək olar. Faktiki olaraq bu birliklərə daxil olan ölkələr arasında kapital axınına bəzi istisna hallar nəzərə alınmamaq şərti ilə heç bir qadağa qoyulmamışdır. Həmin istisna hallar da üzv ölkələrin xüsusi iqtisadi potensial və tələbatlarından irəli gəlir ki, son nəticədə həmin "qadağalar" bütün ölkələrin iqtisadiyyatının inkişafına

səbəb olur. Məhz bir tərəfdən regional səviyyədə investisiya mübadiləsinə əlverişli şəraitin yaradılması təkcə təşviqedici tədbirlərdən ibarət olmayıb, özündə bəzi qadağanedici, yəni məhdudlaşdırıcı tədbirləri cəmləməsi investisiyaların beynəlxalq hüquqi tənzimlənməsinin nüfuz dairəsini və təsirini artırır.

Regional səviyyədə investisiyaların hüquqi-normativ bazasını təşkil edən sazişlər ümumdünya səviyyəsində öz funkisiyasını yerinə yetirə bilməz. Çoxtərəfli sazişlər isə, dünyanın bir çox ölkələri tərəfindən qəbul edildiyindən onlar universal hesab olunurlar. Həmin sazişlər əsasən BMT, Dünya Bankı və ÜTT tərəfindən inkişaf etdirilirlər. Çoxtərəfli sazişlərin əsas prinsipi ədalətlilik və qeyri-diskriminasion rejim prinsipləridir ki, onların sayəsində investisiyaların ölkələr arasında mübadiləsinə əlverişli şərait formalaşdırılır.

Çoxtərəfli sazişlər sırasında BMT-nin Baş Assambleyasının 1975-ci ildə qəbul etdiyi "Dövlətlərin iqtisadi hüquq və vəzifələri barədə Xartiya"nın adını çəkmək olar. Həmin Xartiyada dövlərin öz iqtisadi fəaliyyətlərinə və sərvərlərinə sahibolma və istifadə suverenliyi xüsusi qeyd olunur. Xüsusi bir məqamı da qeyd etmək lazımdır ki, Xartiyada investisiyaların ölkədə qəbulu dövlətin məqsəd və məramlarına uyğun şəkildə ölkə Qanunvericiliyi ilə tənzimlənməsi ayrıca qeyd olunur. Bu əsnada bildirilir ki, heç bir dövlət məcburi qaydada digər ölkə üçün xüsusi və əlahiddə investisiya rejimi təqdim etməyə məcbur edilə bilməz. Müasir dövrün aktual problemlərindən biri olan TMK-ların fəaliyyətinin hüquqi tənzimlənməsi də bu Xartiyada öz əksini tapmışdır. Belə ki, Xartiyada qeyd olunmuşdur ki, "TMK-ların fəaliyyəti investisiyaları qəbul edən dövlətin maraqlarına uyğun şəkildə tənzimlənməlidir".

İnvestisiyaların axınının beynəlxalq hüquqi-normativ aktlar vasitəsilə tənzimlənməsinin mühüm cəhətlərindən biri ölkələr arasında investisiyalarla bağlı mübahisələrin həlli məsələləridir. Məlum olduğu kimi, istənilən sövdələşmədə tərəflər arasında mübahisə doğuran hallar meydana çıxır. Bu mübahisəli halların çözülməsi qaydalarını öyrənmək üçün beynəlxalq hüquq praktikasına nəzər yetirmək kifayətdir. Belə ki, onların həlli olduqca müxtəlif yollarla həyata keçirilir. Lakin 1965-ci ildə Vaşinqtonda qəbul edilmiş "Dövlətlər və xarici şəxslər arasında investisiya mübahisələrinin həlli qaydaları haqında Konvensiya"nın əhəmiyyəti olduqca çoxdur. Azərbaycan bu konvensiyaya 1992-ci ildən qoşulmuşdur. Həmin Konvensiyda İnvestisiya mübahisələrinin tənzimlənməsinin Beynəlxalq Mərkəzinin təsisi xüsusi qeyd olunmuşdur.

Konvensiyanın 25-ci maddəsində investisiya mübahisələri anlayışı dəqiqləşdirilmişdir. Belə ki, Konvensiyaya qoşulmuş dövlət və digər dövlətin şəxsləri arasında birbaşa xarici investisiya ilə əlaqədar formalaşan mübahisələr aşağıdakılardır:

- xarici investisiya münasibətləri ilə əlaqədar formalaşan investisiya mübahisələri;
- sazişə qoşulmuş dövlətlə özəl xarici investor arasında formalaşmış investisiya mübahisələri;
- investisiya sazişində nəzərdə tutulmuş hüquq və öhdəliklərin mahiyyəti və həcmi, öhdəliyin pozulması ilə əlaqədar kompensasiyanın şərtləri və həcmi ilə əlaqədar formalaşan investisiya mübahisələri.

Konvensiyada beynəlxalq hüquqi tənzimləmə ilə yanaşı, investisiya qəbul edən ölkənin daxili qanunlarının bu tip mübahisələrin həllində əsas kimi götürülməsi birmənalı şəkildə vurğulanır. Belə ki, əgər xarici investisiya prosesi ilə əlaqədar mübahisə baş vermişdirsə və tərəflər qarşılıqlı razılaşma əsasında mübahisənin həllini İnvestisiya Mübahisələrinin Tənzimlənməsinin Beynəlxalq Mərkəzinə həvalə edirlərsə, onda Mərkəz işə Konvensiyadakı müddəalar əsasında baxır və müvafiq qərarını çıxarır. Arbitracların çıxardığı qərar hər iki tərəf üçün məcburi xarakter daşıyır, çünki onlar müvafiq qaydada beynəlxalq hüququn bu subyektinə qanuni müraciət ediblər və buna görə məsuliyyət daşıyırlar. O ki, qaldı qərarın yerinə yetirilməsinə, bu proses qərarı yerinə yetirəcək ölkənin daxili qanunlarına uyğun şəkildə və ardıcıllıqda həyata keçirilməlidir.

Vaşinqton Konvensiyasından savayı, beynəlxalq səviyyədə investisiya mübahisələrini həll edə biləcək bir sıra regional arbitraj qurumları da mövcuddur ki, onlara misal kimi Lome konvensiyalarından – AB, Afrika ölkələri, Sakit okean hövzəsi ölkələri və Karib dənizi hövzəsi ölkələri arasındakı investisiya mübahisələrindən irəli gələn arbitraj proseslərini, NAFTA – ABŞ, Kanada və Meksika daxilində investisiya mübahisələrinin həlli ilə məşğul olan Arbitrajı, Enerji Xartiyasına aid müqavilələrdən irəli gələn arbitraj proseslərini, kompensasiya barədə Beynəlxalq Arbitrajı və s. göstərmək olar. Bu regional təşkilatlar və ya sazişlər, onların hüquqi bazasında mövcud olan, həmçinin beynəlxalq investisiya münasibətlərini tənzimləyən normaların pozulması ilə əlaqədar təşkil olunmuş arbitrajlar regional səviyyədə mühüm əhəmiyyət daşısalar da ümumdünya əhəmiyyətləri xeyli dərəcədə azdır. Çünki həmin arbitrajlar həm müəyyən region, həm də müəyyən fəaliyyət sahəsi ilə hüdudlanırlar.

Kapitalın beynəlxalq axının güclənməsi və investisiya prosesinin beynəlxalq səviyyədə cərəyan edən iqtisadi münasibətlərin mühüm hissəsinə çevrilməsi onların beynəlxalq hüquq vasitəsi ilə tənzimlənməsinə ehtiyac doğurdu. Həmin ehtiyacın ödənilməsi məlumdur ki, ölkələr arasında ikitərəfli sazişlərin, həmçinin regional inteqrativ qurumlar və universal beynəlxalq təşkilatların hüquqi-normativ sistemləri daxilində tənzimlənməsi vasitəsi ilə həyata keçirildi.

Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsində mühüm təsiredici qüvvə, yerli qanunvericilik bazasıdır ki, həmin qanunvericilik bazası xarici investorların fəaliyyət çərçivəsini müəyyən edir. Bu baxımdan «İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu»nun dördüncü maddəsi xüsusi qeyd olunmalıdır:

Azərbaycan Respublikasının və xarici olkələrin vətəndaşları və huquqi şəxsləri, vətəndaşlığı olmayan şəxslər, habelə dövlətlər investisiya fəaliyyətinin subyektləri (investorları və iştirakçıları) ola bilərlər.

Müasir iqtisadi inkişafın əsas xüsusiyyətlərdən biri kapitalın ölkələr arasında hərəkətinin artmasıdır. Bu, qloballaşma və regional inteqrasiya kapitalının mobilliyinin kəskin artmasına səbəb olur və əsrlərin astanasında iri beynəlxalq kapital qovuşmaları ilə xarakterizə olunur. İnkişaf etməkdə olan ölkələrin sırasına yenilərinin qatılması yeni inkişaf etməkdə olan bazarların meydana gəlməsinə səbəb oldu və bununla da kapitalın mobilliyi artdı.

Dünya iqtisadiyyatının genişlənməsi ilə əlaqədar olaraq inkişafa zəmin yaradan resurslardan istifadə imkanları da artır. Lakin əvvəlki kimi bu kapital, məhdud sayda resursların sahibləri - inkişaf etmiş ölkələrin "əlində" cəmləşmişdir.

Dünya üzrə yığımların məhdudluğu investisiyalara olan tələbatı artırır. Bununla da nəinki, İEÖ-də, həm də İEOÖ-də kapitalın dövr etməsinə tələbat yaradır. İnkişaf etmiş dünya ölkələri həm daxili, həm də xarici investisiyaların hüquqi şəraitinin təsbiti məsələsində xeyli irəliləyişə nail olublar. Bu sahədə mühüm faktorların müəyyən edilməsinə rəğmən, daxili və xarici investisiyaların arasında onların hüquqi şəraitlərdəki bəzi fərqliliyə əsaslanan rəqabəti mövcuddur. Bu tendensiya güclü siyasi və iqtisadi risklərə sahib olan İEOÖ –nü yaratmalı olduqları mühitə və onun formalaşması prosesinə güclü təsir edir.

XX əsrin sonundan başlayaraq İEÖ-nün iqtisadiyyatına yönələn birbaşa investisiyaların həcmi artdı. Yəqin ki, bu tendensiya müvəqqəti xarakter daşıyır. Lakin, İEÖ-nün investisiya ixracının başlanmasını proqnozlaşdırmaq hələ ki, qeyri-mümkündür. Bununla belə, investisiya axınlarının istiqamətləri qabaqcadan müəyyən qədər özünü büruzə verir. Çünki birbaşa xarici investisiyalar şəksiz ki, yatırımlar üçün daha yaxşı investisiya mühiti formalaşdırmış və hökumət, ictimaiyyət, biznes tərəfindən xarici investisiyalara qarşı dəqiq mövqe seçmiş ölkələrə doğru axacaqdır. Bu cür ölkələrdən biri də hökmən Azərbaycan olmalı idi.

Ümumiyyətlə, indiki dövrdə iqtisadi münasibətlərdəki mürəkkəbliklərdən doğan çətinliyin aradan qaldırılması üçün xarici kapital qoyuluşları olduqca böyük əhəmiyyət kəsb edrilər. Bu zaman, investisiya qəbul edən ölkənin ictimai maraqları ilə xarici investorun maraqları üst-üstə düşməyə bilər. Ona görə xarici kapitalın cəlb edilməsi mexanizmi elə

qurulmalıdır ki, həm investorun iqtisadi maraqları, həm də ölkənin iqtisadi-sosial maraqları təmin olunmuş olsun. Bu hal problem kimi mövcuddur, lakin, həll olunandır və bunu biz dünya təcrübəsindən görə bilərik. Ancaq problemin həlli istiqamətində konkret addım atarkən, ilk növbədə, müasir şəraitdə lazımi investisiya mühitini təmin edən iqtisadi və qanunverici bazanın formalaşdırıması məsələsi diqqət mərkəzinə alınmalıdır. Çünki hər bir xarici subyekt hər hansı bir ölkəyə kapital qoymazdan əvvəl, həmin ölkədəki mövcud siyasi, iqtisadi, mədəni, hüquqi mühiti tədqiq edir. Əgər bu mühit qənaətbəxş hesab olunarsa, ölkəyə investisiya yatırmaq qərarına gəlir. Keçid iqtisadiyyatlı ölkələr, o cümlədən respublikamızın qarşısında duran mühüm vəzifələrdən biri bu sahədə xarici investor üçün şəffav investisiya mühitininin yaradılmasından ibarətdir. İnvestisiyaların cəlb edilməsinin metodlarının fərqliliyinə baxmayaraq, öz iqtisadiyyatına külli miqdarda investisiya cəlb edən ölkələrin ümumi cəhətləri mövcuddur: yatırımların etibarlı qorunması; investorlarla uzunmüddətli, etibarlı əlaqələr; investisiyaların kritik həcmi və perspektiv inersiyalı artımı. Keçid dövründə olan ölkələrdə xarici kapitalın ölkəyə cəlb edilməsi probleminin həlli onların inkişaf məqsədlərinin və vəzifələrinin uzlaşdırılmasından asılıdır. Keçid iqtisadiyyatlı ölkələr birbaşa xarici investisiyaların ölkəyə cəlb olunması uğrunda rəqabət aparırlar. Onlar yaxşı anlayırlar ki, xarici investisiyalar iqtisadiyyatın modernləşməsi və maliyyə problemlərinin həllində əvəzsizdirlər. Bir çox ölkələr üçün xarici investisiyalar, həm də bazar institutlarının formalaşmasında vasitə rolunu oynayırlar.

Ölkədə xarici investisiyaların həcmi elə səviyyədə olmalıdır ki, investisiyanı qəbul edən ölkənin iqtisadiyyatının effektivliyi təmin olunsun. Beynəlxalq investisiya rəqabəti mübarizəsində investorlara daha liberal investisiya rejimi təklif edən ölkə qalib olur. Onu da qeyd edək ki, investisiya stimulları və onların investisiya cəlb etməsindəki rolu nisbidir. Tədqiqatlar göstərir ki, investisiya stimulları ölkənin İEÖ, ya da İEOÖ olmasından asılı olmayaraq, əksər hallarda investisiya cəlb edilməsi prosesinə təsir etmirlər.

Xarici investisiyaların Azərbaycan Respublikasına cəlb edilməsi yönündə ölkədə hökumət tərəfindən əsaslı addımlar atılmışdır. Azərbaycan iqtisadiyyatının potensialını nəzərə alsaq və dünyada mövcud iqtisadi durumu qiymətləndirsək, onda şəksiz bu nəticəyə gələ bilərik ki, Azərbaycan Respublikası hökumətinin son onillikdə ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi istiqamətində formalaşdırdığı investisiya mühiti reallığın tələbi və təcəssümüdür.

Aydın məsələdir ki, ölkəyə xarici investisiyaların cəlb edilməsi müasir texnologiyaların və avadanlıqların, idarəetmə təcrübəsinin ölkə iqtisadiyyatına cəlb edilməsidir. Bunun da obyektiv nəticəsi kimi, ölkədə

rəqabətqabiliyyətli məhsullar istehsal edilir və ölkə dünya bazarına inamlı tərzdə inteqrasiya edir. Əlverişli investisiya mühitinin tərkib hissəsi kimi respublikadakı investorların hüquq və mənafelərinin qorunması, bütün formalarda mülkiyyətin toxunulmazlığını və həmçinin yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən onların maneəsiz istifadə etmələri üçün formalaşdırılmış hüquqi zəmini də misal kimi göstərmək olar.

Xarici investorların Azərbaycan iqtisadiyyatına olan marağının artmasının səbəblərindən biri bəzi maneələrin tamamilə aradan qaldırılmasıdır. Həmin maneələrdən misal kimi ikiqat vergitutmanın bəzi ölkələrlə bağlanmış müqavilələr sayəsində tamamilə aradan qaldırılması, mənfəətin başqa valyutalara maneəsiz çevrilməsi, mənfəətin digər ölkələrə köçürülməsi kimi maneələr ləğv edilmişdir. Bunlarla yanaşı, formalaşdırılmış investisiya mühiti nəinki xarici investisiyaların cəlb edilməsinə, hətta reinvestisiyaları stimullaşdırmağa xidmət edir. Bütün bunlar nəinki xarici investorların Azərbaycan iqtisadiyyatına olan marağını artırır, onlarla yanaşı, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların marağını artırır.

Formalaşdırılmış əlverişli investisiya mühitinin bir tərkib hissəsi hüquqi bazadırsa, digər mühüm hissəsi investisiya mühitidir. O da çoxtərəfli olub, çoxsaylı tərkib hissəsindən ibarətdir. Onlardan biri ölkədə mövcud olan müsbət iqtisadi tendensiyalardır. Bu tendensiyaların nəticəsi olaraq davamlı və sabit iqtisadi inkişafdır. Bizim ölkəmizin timsalında bu ölkənin və regionun ən iri layihəsi olan "Əsrin Müqaviləsinin" imzalanması idi ki, onun nəticəsində 3 il sonra 1997-ci ildə ilk neft hasil olundu və 5 il sonra 1999-cu ildən etibarən mənfəət nefti ixrac olunmağa başlandı. Bunun sayəsində ölkəyə külli miqdarda vəsait daxil oldu və "Əsrin Müqaviləsi" layihəsinə etibar edən xarici investorlar artıq reallıq və zəmanətin şahidi oldular. Ölkənin iqtisadiyyatı xarici investorlar üçün daha da cəlbedici oldu.

1994-1997-ci illərdə dünyanın 15 ölkəsinin 33 iri neft şirkətləri ilə 10 kontrakt, 1998-1999-cu illərdə isə 9 kontrakt imzalanması ilə ölkəyə böyük miqdarda xarici investisiya cəlb edilmişdir. Bu kontraktlardan 1994-cü ildə 12-14 mlrd. dollarlıq 30 il müddətinə bağlanılmış «Əsrin Kontraktı» xüsusilə nəzərə çarpır. Respublikada investisiya iqliminin müəyyən əlverişsiz tərəflərinin mövcudluğuna baxmayaraq ölkəyə investisiya axını artmaqdadır.

«Əsrin Kontraktı» Azərbaycanın Xəzər sektorunda neft yatağının («Azəri», «Çıraq», «Günəşli») birgə istifadəsini nəzərdə tutur. Müqavilə dünyanın 8 ölkəsinin 12 şirkəti ilə imzalanmışdır: «Amoco» (ABŞ)-17,01%; «BP» (B. Britaniya)-17,13%; «Lukoil» (Rusiya)-10%; «Statoil» (Norveç)-8,56%; «Turkish Petrolium» (Turkiyə)-6,75%; «Unokl» (ABŞ)-

9,52%; «İtochu Co» (Yaponiya)-7,45% («McDermant» şirkəti aksiyalarının bir hissəsini 1996-cı ildə «Hotchu Co» şirkətinə satmışdır); «Ramco» (B. Britaniya)-2,08%; «Delta» (S. Ərəbistanı)-1,68%; «Penzoil» (ABŞ)-4,81%; «Exon» (ABŞ)-5% və ARDNŞ-10% paya malikdir.

Müqavilənin dəyəri 14 mlrd. dollardır. Bütün investisiyaların 80%-i isə xarici şirkətlər tərəfindən həyata keçiriləcək. 30 il müddətinə neftdən gələn ümumi gəlir 157,6 mlrd. dollar, «Yalama» yatağı üzrə 3,5 mlrd.doll., «Oğuz» yatağı üzrə-2 mlrd.doll., «Kürdaşı» yatağı üzrə isə 2,5 mlrd.doll. təşkil edəcəkdir.

Bütövlükdə «Əsrin Kontraktı» imzalandıqdan sonra Azərbaycanın enerci yataqlarının işlənməsində iştirak edən ölkələrin sayı artmış və hazırda 15 kontraktda 14 ölkənin 28 şirkəti iştirak edir.

**Cədvəl 1**

**Respublikada neft yataqlarının layihə istismarına nəzərdə tutulmuş xarici investisiyaların həcmi**

| № | Yatağın adı | Neft hasilatı həcmi (mln.ton) | İnvestisiya (mlrd.doll.ABŞ) | Azərbaycanın payı (%-lə) |
|---|---|---|---|---|
| 1 | "Azəri", "Çıraq" | 600 | 12.0 | 10 |
| 2 | "Günəşli" | 80-150 | 1.7-2.0 | 7.5 |
| 3 | "Qarabağ" | 100 | 4.0 | 10 |
| 4 | "Şahdəniz" | 100-150 | 1.5-2.0 | 10 |
| 5 | "Dan Ulduzu- Əşrəfi" | 100 | 1.5-2.0 | 25 |
| 6 | "Lənkəran-dəniz" "Talış-dəniz" | 100 | 1.5-2.0 | 40 |
| 7 | "Yalama"(D-22) | 150-300 | 3.0-3.5 | 50 |
| 8 | "Abşeron" | 75-100 | 5.0 | 50 |
| 9 | "Naxçıvan" (keçmiş D3) | 75 | 2.0 | 50 |
| 10 | "Oğuz" | 90-120 | 2.0 | 50 |
| 11 | "Kürdaşı" | 30-60 | 0.3-0.5 | 20 |
| 12 | "Güney-Qərbi-Qobustan" | 150-250 | 3.0-4.0 | 50 |
| 13 | "İnam" | 50-80 | 1.0-1.5 | 50 |
| 14 | "Muradxanlı" | 150-300 | 9.0 | 40 |
| 15 | "Alov", "Araz", "Şərq" | 60-90 | 0.5-0.8 | 50 |
| 16 | "Gürsəngi", "Qarabağlı" | 100 | 2.0 | 50 |
| 17 | "Atəşgah" | 120-150 | 2.0 | 50 |
| 18 | "Zəfər", "Məşəl" | 100-120 | 2.0 | 50 |
| 19 | "Lerik-dəniz", "Savalan", "Padar" | 50-100 | 0.8-1.0 | 20 |

Respublikada irihəcmli kontraktların imzalanması dünyanın iri şirkətləri-TMK-lar ölkəyə artan maraqlarının da əks etdirir. Milli

iqtisadiyyat artıq TMK-ın ölkədə filiallarının yaradılması ilə xaricə birbaşa investisiyaların axını ilə qarşılaşmaqdadır.

2003-2008-ci illər ərzində ölkə iqtisadiyyatına 33,5 milyard manat investisiya yönəldilmişdir. Adambaşına düşən investisiyanın göstəricisi ölkə tarixində ilk dəfə olaraq 1000 manat həddini keçmişdir. Son beş il ərzində daxili investisiyaların xüsusi çəkisi və təbii ki, mütləq çəkisi artmışdır. Beləki, əgər 2003-cü ildə daxili investisiyaların ümumi investisiyalardakı xüsusi çəkisi 24,8% idisə, 2008-ci ildə bu göstərici 75.5% həddinə çatmışdır. Müqayisə üçün qeyd edə bilərik ki, 1993-cü ildən 1999-cu ilə qədər daxili investisiyaların həcmi uyğun olaraq 245; 153; 169; 312; 387; 431 və 1062 mln. dollar olmuşdur ki, 1993-1999-cu illər ərzində ümumilikdə 2759 mln. dollar təşkil etmişdir. Daxili investisiyaların strukturuna diqqət yetirdikdə neft sektoruna daha çox kapital qoyulması aydın olur (2 mlrd. manatdan çox).

Ümumilikdə sənaye sektoruna 4022 mln. manat investisiya yatırılıb ki, bunun da 10,8 mln. manatı tikinti, 2043,7 mln. manatı nəqliyyat və rabitə sahəsinə qoyulmuşdur.

Adı çəkilən nəhəng layihə ilə yanaşı, ölkənin digər qlobal və regional layihələrdə iştirakı onun dünya iqtisadiyyatına inteqrasiya etməsinə böyük kömək edir. Nəqliyyat-ticari layihələr buna misal ola bilər. Böyük İpək Yolunun bərpası, nəinki Azərbaycanın iqtisadi inkişafına, eləcə də bütün region ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə, bu ölkələrin iqtisadi qüdrətinin artmasına, burada yaşayan xalqların daha firavan yaşamasına xidmət edir.

Ölkədə investisiya mühitini formalaşdıran mühüm amillərdən biri vergi sistemidir. Sahibkarların öz fəaliyyətlərini həyata keçirmələrində onlara mane ola biləcək əsas ünsürlərdən biri kimi vergiləri göstərmək olar. Vergi güzəştləri investor üçün daha çox əhəmiyyət kəsb edir, belə ki, dünyanın əksər ölkələrində yüksək vergilərin tətbiqi nəticəsində investorlar öz mənfəətlərinin təxminən yarısından məhrum olurlar. Bu vergilərin içərisində isə əsas yeri mənfəət vergisi tutur. Bu vergi üzrə güzəştlər vergi dərəcələrinin azaldılması və ya onun ödənilməsindən uzunmüddətli azadolmalar formasında tətbiq edilə bilər. Mənfəət vergisindən başqa, həmçinin əmlak, dövriyyə və digər vergi növlərinin də ödənilməsində güzəştlər tətbiq olunur. Vergiqoymanın səviyyəsi investorların müəyyən bir region daxilində məhz hara investisiya yatırmaq qərarına təsir göstərə bilər. Lakin gəlir vergisi dərəcələrinin mənfəətə yüksək təsiri siyasət kursunu müəyyənləşdirənlərdə bu dərəcələrin xarici investorların cəlb edilməsində və sahibkarların fəaliyyətinə təkan verilməsində əhəmiyyəti haqqında yanlış təsəvvürlər yarada bilər. Üstəlik, vergi dərəcələri aydın ifadə edilmiş rəqəmlər təsiri bağışlasa da, bu təəssürat aldadıcı ola bilər, çünki inkişaf etmiş vergiqoyma rejimləri çox

vaxt hədsiz dərəcədə mürəkkəb qaydalar toplusu irəli sürür ki, bu da şirkətlərin ödəyəcəkləri vergilərin qabaqcadan müəyyən edilməsini çətinləşdirir. Nəticədə, aşağı nominal vergi dərəcələri təcrübəli investorlara ümumi vergi yükünə nisbətən daha az təsir bağışlayır. Buna görə də Azərbaycan hökuməti xarici ölkələrin təcrübəsini nəzərə alaraq öz vergi sistemini sahibkarlıq fəaliyyəti üçün əlverişli şəkildə formalaşdırmağa başlamışdır. Artıq bizə məlum olduğu kimi, aşağı vergi dərəcələri xarici investorları ölkəyə cəlb etmir. Çünki dünya təcrübəsi göstərir ki, xarici investorun qazandığı vəsaiti ölkədən çıxarması zamanı bir sıra problemlər yaranır. Bu problemlərdən biri ikiqat və daha çox vergitutma hallarıdır. Ona görə vergi sistemini xarici investorlara əlverişli şəkildə qurmaqdan ötrü ölkə hökuməti beynəlxalq səviyyədə qəbul olunmuş üsullarla belə yolverilməz halları aradan qaldırmalıdır. Dediyimizə misal olaraq bəzi hallarda xarici investorların ödədikləri vergilərin həcminin onların gəlirlərindən artıq olduğu hallar da mövcud olmuşdur. Belə anlaşılmaz halların baş verməməsi üçün vergi sisteminin şəffaflığı tələb olunur.

Qeyd etmək lazımdır ki, xarici investorlar ölkəyə investisiya yatıranda oradakı vergi dərəcələrinin səviyyəsinə fikir verirlər. Baxmayaraq ki, indiki gündə Avropa ölkələri cəlb olunan xarici investorların həcminə görə dünyada birinci yerdədirlər, lakin onların vergi dərəcələrinin səviyyəsi nisbətən yüksəkdir. Məsələn, Avstriya, Belçika, İspaniya, Fransa, Yunanıstan, İtaliya, Niderlandda kampaniyalardan tutulan gəlir vergisinin dərəcəsi 34-36% arasındadır. Bu göstərici Danimarka, Lüksemburq, Portuqaliya və Böyük Britaniyada 30%, Finlandiyada 29%, İsveçdə 28%, Almaniyada 25%, İrlandiyada isə 12,5%-dir. Xüsusən, İrlandiyada sənaye sahəsində bu göstərici 10%-dir. Göründüyü kimi, inkişaf etmiş Avropa ölkələrinin çoxunda vergi dərəcələri keçmiş Sovet İttifaqı ölkələrinin vergi dərəcələrindən yuxarıdır. Lakin onların iqtisadiyyatları, həmçinin vergi sistemləri investisiya yatırımları üçün əlverişlidir. Səbəbi yuxarıda qeyd etdiyimiz vergi sisteminin şəffaflığı, çoxqat vergitutmalarının olmamasıdır. Belə halların olmamasından ötrü Azərbaycanda vergi sistemi 2001-ci il yanvarın 1-dən yeniliklə fəaliyyətə davam etdi. Belə ki, "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" qüvvəyə mindi. Bununla da vergi sistemində şəffaflıq artmış oldu.

Bir çox sosial sığorta ödənişlərinin və vergilərin azaldılması ilə hökumət ölkədəki sahibkarlıq və investisiya fəaliyyətinə əlverişli şərait yaratmağa cəhd edir. Məhz «Vergi Məcəlləsi»nin 3-cü maddəsinin 10-cu bəndində qeyd edilir ki, "Vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir".

Vergi sistemində şəffaflıq yaradılması özünü, həm də vergi ödəyicilərinə dəqiq və sadə təlimatların verilməsində göstərir. Sahibkarlara

daha sadə vergi xidməti göstərmək məqsədilə sadələşdirilmiş vergi sistemi - "vahid pəncərə" sistemi formalaşdırılmışdır. Bununla da həm vergi ödəyicisinin qeydiyyatı, həm də vergi-ödəmə mexanizmi olduqca sadələşdirilmişdir.

Vergi ödəyicilərinin müvafiq orqanlar tərəfindən yoxlama hallarının sayı azaldılmışdır. Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısı alınmışdır. Bu da xarici investorların kiçik və orta sahibkarlıq obyektlərinə investisiya yatırmaq imkanlarını artırmışdır.

Sosial sığorta ayırmaları 40%-dən 22%-ə dək aşağı salınmışdır. Bununla belə, kənd təsərrüfatı sahəsində torpaq vergisindən başqa digər vergilər tutulmur. Ümumilikdə isə vergi növlərinin sayı 15-dən 9-a qədər azaldılmışdır.

MDB ölkələri arasında hazırda investisiya əməkdaşlığı üzrə aktiv əlaqələr qurulmaqdadır. Bu ölkələr uzun müddət qarşılıqlı asılılıq şəraitində mövcud olduqlarını nəzərə alaraq bu sahədə müsbət meyillər yarada bilər ki, bu da regionda makroiqtisadi sabitliyə gətirib çıxarmış olar. Artıq MDB ölkələri arasında Dövlətlərarası Komitə (DİK) yaradılmış və bu Komitə ölkələr arasında ümumi investisiya məkanının yaradılması işi ilə məşğuldur. DİK-in investisiya sferasında əsas sənədi 1993-cü ildə Aşqabadda imzalanmış "İnvestisiya fəaliyyəti sferasında əməkdaşlıq" Sazişidir. Lakin qeyd edək ki, MDB ölkələri arasında investisiya əməkdaşlığı o zaman müsbət effekt verə bilər ki, MDB tam inteqrasiya məkanına - birliyə çevrilsin, son zamanlar isə bəzi əks proseslər müşahidə olunmaqdadır.

Buna baxmayaraq MDB ölkələrində ümumən investisiya və biznes mühiti son illərdə yaxşılaşmışdır. Buna sübut məşhur "Forbes" jurnalının tərtib etdiyi reytinq siyahısıdır.

**Cədvəl 2**

**MDB və postsovet ölkələrində biznes mühiti göstəriciləri**

| Yer | Ölkə | ÜDM (adambaşına ABŞ dolları ilə) | İnvestisiya etibarlılığı göstəricisi |
|---|---|---|---|
| 17 | Estoniya | 21900 | 15 |
| 42 | Litva | 18400 | 71 |
| 45 | Latviya | 18500 | 71 |
| 64 | Gürcüstan | 5000 | 15 |
| 71 | Qazaxıstan | 12000 | 30 |
| 87 | Azərbaycan | 9500 | 30 |
| 90 | Qırğızıstan | 2200 | 11 |
| 94 | Ermənistan | 6600 | 71 |
| 95 | Moldova | 2500 | 30 |
| 97 | Ukrayna | 7800 | 118 |
| 103 | Rusiya | 15800 | 48 |
| 123 | Tacikistan | 1800 | 91 |

Qeyd edək ki, bu reytinqə görə, Azərbaycanın investisiya etbarlılıq göstəricisi ABŞ-la eynidir.

Xarici investisiyalarla xarici ticarət arasında olan əlaqə məlumdur və bu əlaqənin xarakteri iqtisadiyyatın bu və ya digər sahəsində müxtəlif xarakterli olur. Xammal sektorunda dünya praktikasından göründüyü kimi, birbaşa xarici investisiyalar xarici ticarət axınına stimullaşdırıcı təsir göstərir. Məsələn, konkret Azərbaycandan xammal ixracı artır, TMK-ların ana ölkələrinin xammal üzrə idxalı isə artır. Son zamanlar respublikamız ixracatın strukturunun onun ümumi həcmini artırmaqla dəyişmək istiqamətində tədbirlər həyata keçirir, belə ki, TMK-rın bütün digər üstünlüklərindən istifadə etməyə cəhd göstərərək emaledici sənaye sahələrinin inkişafına çalışır.

Xarici iqtisadi əlaqələrin inkişafı ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının beynəlxalq təsərrüfat miqyasında inteqrasiyasının sürətləndirilməsinin əsas şərtidir. Ölkələr iqtisadi inteqrasiya axınlarına qoşularaq bu yolla öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin ümumi rifah səviyyəsini artırmağa çalışırlar. Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum istifadə edilmədən, xarici iqtisadi əlaqələrin bütün formaları intensiv şəkildə genişləndirilmədən ölkə iqtisadiyyatının inkişafında əsaslı dönüş aparmaq mümkün deyildir. Dünya ölkələrindən hər biri öz inkişafını xarici ölkələrdən təcrid olunmuş şəkildə təmin edə bilmədiyinə görə, öz aralarında beynəlxalq və regional səviyyədə iqtisadi əlaqələr yaratmağa çalışırlar.

Azərbaycan özünün təbii resursları və nisbətən yüksək iqtisadi potensialı ilə xarici iqtisadi əlaqələrin səmərəli inkişafında əlverişli şəraitə malikdir. Ölkəyə xarici investisiyaların axınına təsir edən şərait bir sıra kompleks amillərdən asılıdır. Bu amillər investisiya şəraitini təşkil edir. Həmin şəraitə ölkə iqtisadiyyatının vəziyyəti, sosial stabillik, mədəniyyət və digər amillər aid edilməlidir. Onlar xarici investorlar tərəfindən investisiya miqyası və istiqamətləri qəbul edildikdə nəzərə alınırlar.

Müasir dünya iqtisadiyyatı liberallaşdırma və qloballaşdırma ilə xarakterizə olunur. Bu şəraitdə firmalar kapital qoyuluşunun mənfəətliliyini təmin etmək məqsədi ilə ölkə və əraziləri axtardıqda inkişaf etmiş infrastruktura, mədəni işgüzarlığın mövcudluğunu, özəlləşdirmə proqramlarının həyata keçirilmiş olmasına xüsusi fikir verirlər.

İqtisadi islahatların zəruriliyi ölkə iqtisadiyyatının mövcud durumundan irəli gəlir.Yəni hər hansı bir iqtisadi sistemdə islahatların keçirilməsi zərurəti onun içindən doğur. Ümumiyyətlə, müxtəlif dövrlərdə həyatın müxtəlif sferalarında islahatlar həyata keçirilmişdir. Bu islahatların keçirilmə səbəbləri yuxarıda qeyd etdiyim kimi, həm daxili, həm də xarici səbəblərdən ibarətdir. Xarici səbəblər dedikdə, beynəlxalq ictimai,

siyasi, iqtisadi və s. mühit və onun təsiri başa düşülür. Daxili səbəblər isə daha çox təsirə malik olub, həm də daha müxtəlif olurlar.

Tarixən islahatların, həmçinin iqtisadi islahatların həyata keçirilmə səbəbi təsərrüfat münasibətlərinin obrazlı şəkildə desək, digər mövcud cəmiyyət münasibətlərini ötüb keçməsi ilə əlaqədar olmuşdur. Lakin hansı səbəbdən doğmasından asılı olmayaraq iqtisadi islahatlara təsir edən iki qrup amil xüsusi ayırd edilir:

- Bu və ya digər ölkədə qəbul olunmuş sosial-iqtisadi inkişaf konsepsiyası;
- Dəyişikliklər ərəfəsində ölkənin sosial, siyasi və iqtisadi islahatlara təsir edə biləcək obyektiv amillər. Azərbaycanda indiki dövrdə iqtisadi islahatların aparılması zərurəti ölkədə siyasi sistemin və onunla birlikdə iqtisadi sistemin dağılması ilə əlaqədardır. Azərbaycan inzibati-amirlik sistemindən azad bazar sisteminə keçidi seçdi. Özü də bu keçidi islahatlar yolu ilə keçməyi əsas götürdü.

Hər bir ölkədə iqtisadi islahatlar həyata keçirilə bilər. Lakin onların mahiyəti və zərurəti bir-birindən fərqlənəcəkdir. Bu həmin ölkənin sosial-iqtisadi inkişaf səviyyəsindən, coğrafi şəraitindən və digər təbii-iqtisadi amillərindən asılıdır. O ki, qaldı Azərbaycan şəraitində iqtisadi islahatların həyata keçirilməsinin xüsusiyyətlərinə, o, daha çox müxtəlifliyə malikdir.

Azərbaycanda iqtsadi islahatların həyata keçirilməsi zərurəti yuxarıda qeyd olunduğu kimi, ölkədə ictimai formasiyanın dəyişməsi və bazar iqtisadiyyatına keçidlə əlaqədardır. İqtisadi islahatların başlıca məqsədi sərbəst bazar münasibətlərini formalaşdırmaqdır. Bu iqtisadi islahatlarla bazar münasibətləri arasındakı qarşılıqlı əlaqənin tədqiqində aydınlaşır. Həmçinin bazar münasibətlərini inkişaf etdirmək üçün isə hökmən gərək iqtisadi islahatlar aparılsın, xüsusi mülkiyyət formaları təşəkkül tapsın, azad, müstəqil sahibkarlığa geniş imkanlar açılsın.

Bütün bunlara görə də iqtisadi islahatlar həyata keçirilərkən gərək bazar iqtisadiyyatının qanunauyğunluqları, onun xüsusiyyətləri hərtərəfli öyrənilib nəzərə alınsın.

İqtisadi islahatların mahiyyəti haqqında danışarkən mütləq onun məqsəd və vəzifələrinə toxunmaq lazımdır. Ancaq onu da demək lazımdır ki, hər bir ölkədə keçirilən iqtisadi islahatların öz spesifikası vardır. Məsəl üçün, Azərbaycanda keçirilən iqtisadi islahatların məqsədlərini ümumi şəkildə aşağıdakı kimi göstərmək olar;

-bazar iqtisadiyyatına söykənən sağlam iqtisadiyyat qurmaq;
-iqtisadiyyatda mülkiyyət çoxnövçülüyünə nail olmaq;
-rəqabətqabiliyyətli milli iqtisadiyyat formalaşdırmaq;
-əhalinin rifah halını yaxşılaşdırmaq;
-beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiya etmək və s.

Bununla belə, iqtisadi islahatların yerinə yetirdikləri vəzifələr də çox saylıdır. Bunlara əsasən ölkənin iqtisadi və sosial potensialının artırılması, əhalinin maddi və mənəvi tələbatlarının ödənilməsinin ardıcıl olaraq yaxşılaşdırılmasına şərait yaratmaq və sairəni aid etmək olar.

İqtisadi islahatlar tarixindən əxz edilən yeganə nəticə budur ki, ölkələrin tarixi inkişafının müxtəlif dönəmlərində dövlətin iqtisadi fəaliyyətdə müxtəlif səviyyəli iştirakı milli iqtisadiyyatın vəziyyəti ilə şərtlənən bu və ya digər strateji məqsədə nail olmaqdan ötrü mümkün olub. Buna görə də iqtisadi islahatların həyata keçirilməsinin xüsusiyyətləri xeyli dərəcədə onun qarşısında duran vəzifələrlə müəyyən olunur. Bazar iqtisadiyyatına keçidin müasir mərhələsində ölkəmizdə həyata keçirilən iqtisadi islahatların qarşısında başlıca olaraq aşağıdakı məqsədlərə nail olmaq nəzərdə tutulur:

1.Ölkəmizin suverenliyi və müstəqilliyini qoruyub saxlamaq və getgedə onu daha da möhkəmləndirmək;

2.Milli iqtisadiyyatımızın bütün sahələrinin mülkiyyət rəngarəngliyi, əmək fəaliyyətinin sərbəstliyi və ekoloji tarazlığın qorunub saxlanması əsasında ahəngdar inkişafı təmin etmək;

3. Xalqın təhsilini, elmi dünya görüşünü, mənəvi aləmini zənginləşdirmək;

4. Bəşəri dəyərlərə arxalanaraq kamil, yetkin, yüksək əxlaqi keyfiyyətlərə malik insan yetişdirmək və bu əsasda ölkəmizi sivil ölkələr səviyyəsinə çatdırmaq.

Bu bəşəri məqsədlərə müvəffəq olmaq üçün aşağıdakı problemlərin uğurlu həllinə nail olmaq lazımdır.

Birincisi, ölkəmizin təbii-iqtisadi potensialı hərtərəfli öyrənilməli və ondan səmərəli istifadə edilməsi yolları müəyyən edilməlidir. Əmək bölgüsünün tələblərinə cavab verən maddi-texniki baza yaradılmalıdır. Milli mənafeyimizi təmin edən sahələr - sənaye, kənd təsərrüfatı, nəqliyyat, ticarət təşəkkül tapmalıdır. Xidmət göstərən sahələrin inkişafına geniş imkan yaradılmalıdır.

2008-ci ilin birinci rübündə ölkədə aparılan iqtisadi islahatların davam etdirilməsi və iqtisadi sabitliyin qorunub saxlanılması nəticəsində maliyyə və makroiqtisadi göstəricilər artmışdır. Respublikada ÜDM-in həcmi 8,2 mlrd manat olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə, bu göstərici 727,4 mln.manat və ya 13,8% artmışdır. ÜDM-in 66,4%-i sənayenin, 1,3%-i kənd təsərrüfatının, 5,7%-i tikintinin, 3,8%-i nəqliyyatın, 1,9%-i rabitə və poçt xidmətinin, 6 %-i pərakəndə ticarət və torpağın, 0,7%-i mehmanxana xidmətinin, 6,9%-i xidmət sahələrinin, 7,3%-i isə digər sahələrin payına düşür.

Qeyd etmək lazımdır ki, sahibkarlığa kömək və antiinhisar siyasətinin düzgün həyata keçirilməsi də bazar iqtisadiyyatına keçid şəraitində

iqtisadiyyatın müxtəlif sahələrində azad sahibkarlığın fəalliyyətinə əlverişli imkanlar yaradır. Kiçik biznesin inkişafına və dirçəlişinə kömək göstərmək üçün meydana çıxa biləcək istehsal inhisarçılığına qarşı tədbirlər işlənib hazırlanmalıdır. Bu cəhətdən azad sahibkarlığın və kiçik biznesin inkişafı üçün zəruri olan hüquqi qanunvericilik aktlarının hazırlanması çox vacib və faydalıdır. Xarici və daxili sərmayənin sosial-iqtisadi dirçəlişə yönəldilməsi hər vasitə ilə təmin edilməlidir. İqtisadi mühit və maliyyə şəraiti xarici investisiyaların cəlb edilməsi üçün ən mühüm amillərdir. Əlbəttə, həm iqtisadi mühit, həm də maliyyə şəraiti mühüm əhəmiyyət kəsb edir, lakin əlverişli biznes və investisiya mühitinin yaradılmasında ən zəruri amil çox güman ki, siyasi və hüquqi mühitdir. Ölkələr investorlara aşağı vergi dərəcələri və pulsuz torpaqlar təklif edə bilər, lakin əgər investorlar aktivlərin müsadirəsindən, güzəştlərin ləğv edilməsindən, əmək iğtişaşlarından, daxili qarışıqlıqlardan və ya təbii fəlakətlərin öhdəsindən gələ bilməməkdən ehtiyatlanırsa, investisiya yatırmağa meyilli olmayacaqlar. İnvestorlar əmin olmalıdırlar ki, sözü gedən ölkə xarici investisiyaların cəlb edilməsi ideyasına sadiqdir və həmin ölkəyə investisiya yatırımı təhlükəsizdir. Qeyri-sabit siyasi mühit investorların, bir qayda olaraq, çəkindiyi riskləri artırır. Bundan əlavə, korrupsiya, bürokratiya və qanunun aliliyinin təmin edilməməsi təkcə risklər deyil, həm də investisiyalarla əlaqədar birbaşa xərcləri artıran amillərdir.

Azad sahibkarlığın inkişafını təmin etmək və istehlak bazarında rəqabət yaratmaq məqsədi ilə istehsal və əhaliyə müxtəlif məişət xidmətləri, xalq sənətkarlığı sexlərinin, fərdi və kollektiv emalatxanaların təşkilinə, habelə fəaliyyətinə geniş meydan açmağın, müəyyən vaxt müddətində onları hər cür vergilərdən azad etməyin, bu sahədə mütərəqqi dünya təcrübəsinə əsaslanaraq azad sahibkarlığın çevik tərpənən modelini yaratmağın da vaxtı çoxdan çatmışdır.

## 7.4.Bazar iqtisadiyyatı şəraitində investisiya siyasətinin prioritetləri və istiqamətləri

Hazırkı şəraitdə respublikada həyata keçirilən investisiya siyasəti get-gedə daha çox təkmilləşdirilməli və əsaslandırılmalıdır. Bu məqsədlə sahibkarları həvəsləndirən tədbirlər işlənib hazırlanmalıdır. Bu baxımdan vergi sisteminə yenidən baxılması və onun təkmilləşdirilməsi hökümət tərəfindən atılmış çox yaxşı bir addımdır. Belə ki, vergi sisteminin təkmil-ləşdirilməsi ilə yanaşı, hökumət 2008-ci ilin yanvarın 1-dən sahibkarlıq subyeklərinin qeydiyyatının "bir pəncərə" prinsipi üzrə təşkilinə nail olub. Vergi sisteminin təkmilləşdirilməsi və iqtisadi islahatların mühüm

tərkib hissəsi kimi vergi islahatlarının həyata keçirilməsi islahatlar sitemində xüsusi əhəmiyyətə malikdir. Xairci investisiyaların cəlb edilməsində ölkənin vergi mühiti müəyyənedici rola malikdir. Bundan başqa, beynəlxalq aləmdə vergi münasibətlərinin tənzimlənməsi və ölkələrin biribirləri ilə vergi sahəsində sazişlərin bağlanması, həmin sazişlərdə iştirak edən ölkələr üçün xarici investisiya axınında yeni imkanlar formalaşdırır. Bu sahədə Azərbaycan hökuməti bir sıra xarici ölkələr ilə ikiqat vergitutmanın aradan qaldırılması və investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalamışdır. Qeyd etmək lazımdır ki, mənfəətin başqa valyutalara konvertasiya edilməsi, xarici ölkələrə köçürülməsi, yaxud reinvestisiya edilməsi ilə bağlı bütün məhdudiyyətlər ləğv edilmiş, bazar iqtisadiyyatı prinsipləri əsasında vahid valyuta məzənnəsi formalaşmışdır. Bu tədbirlər xarici investorların, beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların Azərbaycana olan marağını daha da artırmışdır.

İqtisadi inkişafa xidmət edən, daha az xərc və əmək tələb edən, yeni iş yerləri açmağa imkan verən ən kiçik müəssisələrin geniş şəbəkəsinin təşkilinə də xüsusi əhəmiyyət verilməlidir.

Sözsüz ki, iqtisadi isalahatların həyata keçirilməsi müəyyən prinsiplərə söykənməlidir. Bu prinsiplər əsaslı olmalıdır. Həmin prinsiplər bunlardır: fəallılıq, ədalətlilik, mənafelərin tarazılılığı, elmi proqnozlaşdırma, sistemlilik, iqtisadi qanunlar ilə onların reallaşma mexanizmləri arasında vəhdətin təmin olunması və komplekslilik.

Sonda isə yekdil qənaətə gəlmək olar ki, aparılan iqtisadi islahatlar kompleks xarakter daşımalıdır. İqtisadi islahatlar iqtisadiyyatın bütün sahələrini əhatə etməlidir, bütün növ mülkiyyət formalarına şamil edilməlidir, həmçinin bütün növ fəaliyyət sahələrinə toxunmalıdır.

İstənilən ölkənin milli iqtisadiyyatı təkrar istehsal prosesini həyata keçirməkdən ötrü müəyyən qədər investisiya resurslarına ehtiyac duyur. Qeyd etmək lazımdır ki, investisiya siyasətinin hazırlanması ölkə iqtisadiyyatının makroiqtisadi vəziyyətindən asılıdır. İstənilən təsərrüfat sistemində investisiyaların əsas mənbəyi kimi əhalinin yığımları çıxış edir. Buna görə qeyd etmək olar ki, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinin səbəbləri olduqca çoxdur. Əsas səbəblərdən biri kimi ölkədə şəxsi yığımların səviyyəsinin aşağı olması, əsas kapitalın bərpası üçün formalaşdırılmış fondların lazımi vəsaitlərdən məhrum olması və s. göstərmək olar. Qeyd etdiyimiz kimi, dövlət bu sahədəki çatışmazlığı aradan qaldırmaq üçün hökmən xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinə böyük yer verməyə başlayır. Bundan ötrü dövlət öz investisiya siyasətini formalaşdırır. Həmin investisiya siyasətinin əsas istiqamətlərini isə belə qruplaşdırmaq olar:

- əlverişli investisiya mühitinin formalaşdırılması;
- dövlət investisiya proqramlarının hazırlanması və reallaşdırılması;
- milli investisiya qanunvericiliyinin inkişaf etdirilməsi;
- investisiya bazarının infrastrukturunun inkişaf etdirilməsi;
- investisiyaların həcminin və effektivliyinin artırılması və innovasiya investisiyalarına geniş yer verməklə investisiyaların strukturunun yaxşılaşdırılması.

Ölkədə sosial-iqtisadi inkişafı tənzimləməkdən ötrü dövlət, iqtisadiyyatda lazımi sahə proporsiyalarının formalaşdırılması və investisiya qoyuluşlarından və həmçinin investisiya fəaliyyətindən əldə edilən gəlirlərdən tam və səmərəli istifadəni iqtisadi və hüquqi mexanizmlər vasitəsi ilə tənzimləməlidir. Sözsüz ki, hər hansı bir sənaye sahəsində və ya sosial sahədə yeni təsərrüfat subyektinin yaradılması, yenidən qurulması, genişləndirilməsi və həmçinin həmin sahələrdə məşğulluğun təmin edilməsi, müəyyən qədər investisiya qoyuluşları olmadan mümkün deyildir. Bu baxımdan həmin təsərrüfat subyektlərinin gəlirlərinin xərclənməsini tənzimləmək və bununla da reinvestisiya prosesinə təkan vermək birbaşa dövlətin diqqət mərkəzində olmalıdır.

Xarici investorların digər ölkələrə investisiya yatırmasına müxtəlif motivasiyalar və müxtəlif məqsədlərə nail olmaq perspektivi sövq edir, məsələn, istehlak bazarı əldə etmək; daha ucuz xammal və ixtisaslı işçi qüvvəsi əldə etmək; istehsal xərclərinin azaldılması və yerli güzəştlər hesabına məhsulların reallaşdırılması; təbii ehtiyatların mövcudluğu; ölkənin strateji mövqeyi. Beləliklə, investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi birinci dərəcəli əhəmiyyətə malikdir. Güclü biznes və investisiya mühitini dəstəkləyən siyasi şəraitin yaradılmasında əhəmiyyətli məsələlərdən biri də qanunvericiliyin sabit olmasıdır. Daima dəyişən qanunvericilik, investorların öz gəlirlərini planlaşdırmasına

mənfi təsir göstərir. Üstəlik mühasibat və audit işi, ətraf mühitə təsir və iş qüvvəsinin idarə edilməsi kimi biznes fəaliyyətlərinə dair qaydaların dəyişməsi investorun xərclərini artırır. Bundan əlavə, cari şərait əlverişli olsa belə, qeyri-sabit qanunvericilik mühiti investorlarda əlverişsiz şərait riskinin hədsiz böyük olması hissini yarada bilər ki, bu da onları investisiya yatırmaq fikrindən daşındırar. Odur ki, Azərbaycanın müstəqillik əldə etməsi və bazar iqtisadiyyatını özünə bir iqtisadi sistem kimi seçdiyi şəraitdə xarici ölkələr və onların iqtisadi subyektlərinin marağına və milli iqtisadiyyatın inkişafına imkan yaradan mənafelərə əsasən, investisiya fəaliyyətini, xüsusən də xarici investisiya fəaliyyətini daha da dərinləşdirmək zərurəti ortaya çıxar. Belə bir real şəraitdə, investisiya fəaliyyətinin dövlət tənzimlənməsi və idarə edilməsi müasir reallıqdan irəli gəlir. Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri çoxşaxəli

olmaqla bərabər, onun əsas istiqamətlərindən biri respublikaya investisiya axınının getdikcə gücləndirilməsidir. Beləliklə, xarici investisiya resurslarının artırılması və xüsusilə, investisiya fəaliyyətindən əldə edilən gəlirlərdən istifadə istiqamətlərinin tənzimlənməsi yolu ilə milli iqtisadiyyatın strukturunda səmərəli proporsiyaların yaradılması, habelə, güclü istehsal potensialına uyğun sosial infrastrukturun formalaşması və inkişafı dövlətin tənzimləyici rolunun və funksiyasının bir daha artırılmasını təkidlə tələb edir.

Qeyd etmək lazımdır ki, xarici investisiyaların yeni və ən yeni sahələr olan yüksək texnologiyalar sahəsinə, ölkə iqtisadiyyatında mövcud olmayan və idxalla ödənilən məhsul və xidmətlərin istehsal olunduğu sahələrə yönəldilməsinə nail olunmalıdır. Bu baxımdan xarici investisiya axınlarının tənzimlənməsində dövlət aşağıdakı iqtisadi mexanizmlərdən istifadə etməlidir:

- *subyekt və obyektlərdə vergi dərəcələrinin və vergi güzəştlərinin tətbiqi;*
- *kredit və amortizasiya siyasətinin həyata keçirilməsi, o cümlədən, əsas fondların sürətli amortizasiyası ilə bağlı güzəştlər, ayrı-ayrı istehsal sahələri üzrə dəyişkən və fərqli güzəştlərin müəyyən edilməsi;*
- *ayrı-ayrı region və istehsal sahələrinin inkişafı üçün subversiya, subsidiya və büdcə borclarının verilməsi;*
- *dövlət norma və standartlarının müəyyənləşdirilməsi və antiinhisar tədbirlərinin həyata keçirilməsi;*
- *torpaqdan, sudan və s. təbii ehtiyatlardan istifadə şərtlərinin müəyyənləşdirilməsi;*
- *qiymətlərin müəyyənləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi;*
- *investisiya layihələrinin ekspertizası və s. tədbirlər nəzərdə tutulur.*

Əgər xarici investorlar öz vəsaitlərini ölkədə mövcud və ən qorxulusu ixrac edilən məhsul və xidmətlərin istehsal olunduğu sahələrə yönəltsələr, onda yerli sahibkarlar itkilərlə üzləşərlər. Bu da ölkə iqtisadiyyatına təbii ki, xeyir yox, əksinə güclü ziyan vurar. Məsələnin bir tərəfi də budur ki, xarici kapital ölkə iqtisadiyyatında rəqabəti gücləndirən bir amildir. Lakin keçid iqtisadiyyatlı ölkələrdə xarici investorlara yaradılan güzəştləri nəzərə alsaq, yerli sahibkarların olduqca çətin vəziyyətə düçar olduğunu anlaya bilərik. Ona görə də xarici investisiyaların və xarici investorların fəaliyyətini tənzimləyərkən dövlət iqtisadiyyatın 4 sahəsini fərqləndirməlidir:

1) Xarici investisiyaların iştirakı qadağan olunmuş sahələr;
2) Xarici investisiyaların qismən iştirak edə biləcəyi sahələr;
3) Xarici investisiyalara açıq sahələr;
4) Xarici investisiyaların cəlb edilməsi üçün xüsusi tədbirlərin görüldüyü sahələr.

Bu kriteriyalarla fəaliyyətini quran dövlətlər, xarici investisiyaların daxili bazara təsirini ölkə iqtisadiyyatı üçün müsbət nəticələr verən axara yönəldə bilərlər. Bu zaman struktur siyasətinin həyata keçirilməsi zərurəti meydana çıxır. Struktur siyasəti, ölkənin əsas iqtisadi fəaliyyət istiqaməti ilə müəyyən olunur və onun yeni resursqoruyucu, yüksək texnologiyalı və ekoloji cəhətdən əlverişli modeldə fəaliyyət göstərməsini təmin edir.

Ölkə iqtisadiyyatının inkişafı məqsədilə dövlət tərəfindən geniş iqtisadi islahatlar həyata keçirilməsi və hökumətin bu istiqamətdə yürütdüyü siyasətin başlıca məqamlarından biri də iqtisadi inkişafın əsas təkanverici qüvvəsi hesab olunan investisiya siyasəti nəticəsində ötən illər ərzində həqiqətən də ölkə iqtisadiyyatına xeyli həcmdə kapital axını olmuşdur. Xarici investisiyaların cəlb edilməsinin mühüm formalarından biri kimi müasir dövrdə azad iqtisadi zonaların formalaşdırılması hesab edilir. Azad iqtisadi zonaların yaradılması məqsədləri bu və ya digər ölkənin iqtisadi, sosial, hətta siyasi mühitlərindən asılı olaraq müxtəlif cür olur. İnkişaf etmiş kapitalist ölkələrində azad iqtisadi zonalar bir qayda olaraq, işsizlikdən əziyyət çəkən və zəif infrastruktura malik geridə qalmış regionlarda yaradılır. Bu cür regionlara zona statusu verən ölkələrin hökumət orqanları bu cür ərazilərə xarici investisiyaların cəlb edilməsindən daha çox mövcud istehsalın inkişafını daha da stimullaşdırmaq və əlavə iş yerlərinin təmin edilməsi kimi məqsədlər güdürlər. Asiyanın Yeni Sənaye ölkələrində zona siyasəti sənayenin əsas elementi kimi çıxış edir və iqtisadi artımın sahəvi anklavlarının yaradılmasına yönəldilir (əsasən ixrac və elmi-texniki zonalar). İnkişaf etməkdə olan ölkələrdə isə əsas məqsəd kimi xarici kapitalın, qabaqcıl texnologiyanın və idarəetmə təcrübəsinin ölkəyə cəlb edilməsi, ixracın stimullaşdırılması, onun strukturunun yaxşılaşdırılması, məşğulluğun artırılması və yüksəkixtisaslı kadrların hazırlanması, torpaq sahələrinin və digər obyektlərin icarəyə verilməsi ilə əlavə mənfəətin əldə edilməsi, kommersiya və s. xidmətlərin göstərilməsi götürülür.

Dünya ölkələrinin təcrübəsində Azad iqtisadi zonaların yaradılmasında iki yanaşma mövcuddur. Azad iqtisadi zonaların yaradılmasının ərazi konsepsiyası özündə tətbiq edilən ölkənin digər ərazilərindən ayrılmış elə bir ərazisini əks etdirir ki, burada yerləşən müəssisələr üçün xüsusi güzəştli rejim tətbiq edilir. Nöqtəvi konsepsiyaya görə isə yaradılan azad iqtisadi zonalarda güzəştli rejimlər, yalnız sahibkarlıq fəaliyyətinin müəyyən bir növünə şamil edilir. Bu zaman təsərrüfat subyektlərinin coğrafi yerləşməsi heç bir əhəmiyyət daşımır.

Cəlb edilmiş külli miqdarda xarici investisiya hesabına daxili bazarı tənzimləyərkən xarici investisiyaların ölkə iqtisadiyyatına göstərə biləcəyi təsirlər nəzərə alımalıdır. Həmin təsirlər aşağıdakılardır :

*Ölkə iqtisadiyyatına yeni texnika və texnologiyaların cəlb edilməsi.* Ölkəyə cəlb edilmiş xarici investisiyaların hansı formada olmasından asılı olmayaraq həmin investisiyaları yatıran investorlar özləri ilə birlikdə fəaliyyət göstərdikləri sahələrə yeni texnika və texnologiyaları cəlb etməyə məcbur olurlar. Çünki, dünya bazarına rəqabətqabiliyyətli məhsulun çıxarılması birbaşa olaraq mənimsənilən texnika və texnologiyalardan asılıdır. Dövlətlərin elmi-texniki fəaliyyətlərinin investisiya aspektlərinə xüsusi diqqət yetirmək lazımdır. Beynəlxalq elmi-texniki əməkdaşlıq sistemi, çağdaş fundamental və tətbiqi elmlərin nəzəri və təcrübi məsələlərinin həllinə yönəlmiş, beynəlxalq texniki və texnoloji əlaqələrin, beynəlxalq kadr hazırlığının və elmi-texniki nailiyyətlərin əldə edilməsində təhlükəsizliyin təmin edilməsindən ibarət beynəlxalq elmi-texniki əlaqələri əhatə edir.

Elmi-texniki əməkdaşlıq çərçivəsində elmi biliyin, texnologiyanın transsərhəd hərəkəti baş verir. Bu həm əmtəə (xüsusilə xidmət, hüquq), həm investisiya, həm də kömək kimi ola bilər.

*Ölkədə mövcud, lakin, üzə çıxarılmamış və ya az istifadə olunan potensialın mənimsənilməsi.* Xarici investisiyaların cəlb olunması ilə ölkə iqtisadiyyatında başlanan canlanma bir qayda olaraq iqtisadiyyatın digər sahələrinə təzahür etməyə başlayır. Əvvəllər nəzər və diqqətdən bu və ya digər səbəbdən kənar qalan sahələr, artıq indi lazımlı və əvəzedilməz olurlar. Bununla da tarixən potensial halında olan iqtisadiyyat sektorları artıq real sektorlara çevrilirlər.

*İxracın artması və idxalı əvəz edən sənayenin formalaşması.* Xarici investisiyaların ölkə iqtisadiyyatına gətirə biləcəyi yeniliklərdən biri də idxal yönümlü sahələrin canlandırılmasıdır. Yəni xarici investor, resipient ölkənin uzun illər boyu idxal etdiyi məhsul və ya xidməti həmin ölkənin özündə istehsal etməyə yön alır. Əvvəla, həmin məhsul və xidmətlərə daxili bazarda tələbat olur. İkincisi isə resipient ölkə xarici investor üçün bu sahədə xeyli güzəştlər edir. Olduqca abstrakt olmasın deyə belə bir misal çəkək. Azərbaycan istifadə etdiyi şəkər tozunun bir hissəsini daim idxal edir. Səbəbi Azərbaycanın SSRİ-nin tərkibində olduğu zaman bu məhsulun bol olan İttifaq ölkələrindən idxalı idi ki, o da bu sahənin inkişafını bizim ölkədə buxovlamışdı. Şəkər tozu kimi gündəlik istifadədə əvəzsiz və daim istifadə olunan məhsulun ölkənin daxili potensialı hesabına istehsal edilməsi həm dövlətin strateji məqsədlərinə, həm də bu sahəyə investisiya yatırmağa çalışan investorun məqsədlərinə uyğun gəlir. Hələ bu zaman şəkər tozu istehsalı ilə yanaşı kənd təsərrüfatının müvafiq sahəsindəki baş verəcək canlanmanı nəzərə almasaq, Azərbaycanda bu sahəyə investisiya yatırımlarının artırılması mühüm əhəmiyyət kəsb edir.

*Təbii ehtiyyatlarla və əmək resursları ilə zəngin regionların mənimsənilməsi.* Daxili bazarı tənzimləyərkən dövlət əvvəla, özünün birbaşa

funksiyasını yerinə yetirir. Yəni o, əhalinin müvafiq həyat tərzini və həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın bu və ya digər sahələrinə, iqtisadi proseslərə müdaxilə edir. Əgər xarici investor təbii ehtiyatlarla və işçi güvvəsi ilə zəngin regionlara vəsait yatırmaq istəyirsə, onda belə güman etmək olar ki, onun istəyi ilə dövlətin məqsədi üst-üstə düşür. Ancaq belə gümanlar adətən düz çıxmır heç də həmişə dövlət xarici investroların bu istəyini bir mənalı qarşılamır. Doğrudur, heç bir dövlət bu cür fəaliyyətin qarşısını almağa çalışmaz və investorlar da asanlıqla öz fikirlərindən dönməzlər. Lakin potensialı gizli olan regionların potensiallarını tam üzə çıxarmaq və xarici investorları həmin regionlara cəlb etmək dövlətin bu sahədə ən ümdə vəzifəsi olmalıdır. Bu cür regionlarda istehsal olunacaq məhsul və xidmətlər həm ölkənin daxili tələbatlarını ödəyə bilər, həm də ixrac yönümlü ola bilərlər. Məsələn, dağlıq zonalarda qış xizəksürmə düşərgələrinin salınması. Xarici ölkələrin təcrübəsi burada əvəzsizdir. İllərlə bu sahədə çalışan firmaları ölkəyə cəlb etməklə, dövlət turizmi həmin regionda inkişaf etdirmiş olar.

*Yeni iş yerlərinin açılması və yeni istehsalat mədəniyyətinin formalaşdırılması.* Xarici investisiyaların ölkə iqtisadiyyatında formalaşdırdığı makroiqtisadi dəyişikliklərdən ən mühümü yeni iş yerlərinin açılması və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsidir. Sözsüz ki, açılmış yeni iş yerlərində xarici investorlar yeni istehsalat mədəniyyətini istehsal prosesinə nüfuz etdirirlər. Yeni texnika və texnologiya ilə davranma ilə yanaşı, ən əsası yeni idarəçilik mədəniyyətinin – menecment institutunun bərqərar olması ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir.

*Yeni sahibkarlıq formalarının tətbiqi.* Sözsüz ki, Azərbaycan kimi yeni müstəqillik əldə etmiş ölkələr üçün sahibkarlıq fəaliyyəti sahəsində baş verəcək istənilən dəyişiklik yenilik deməkdir. Bununla belə xarici investorlar ölkə iqtisadiyyatına yatırdıqları vəsaitlər hesabına ölkəyə yeni texnologiyalar, texnikalar, idarəçilik üsul və vasitələri gətirməklə yanaşı, onlara müvafiq sahibkarlıq fəaliyyətinin yeni formalarını tətbiq etməyə məcbur olurlar.

*İnfrastrukturun inkişaf etdirilməsi.* Yüksəkkeyfiyyətli infrastruktur, investor və sahibkarların bazara giriş xərclərini azaldır, ixracatın inkişafını asanlaşdırır, əmək və torpaq ilə əlaqədar oxşar daxili xərcləri təklif edən, lakin az inkişaf etmiş infrastruktura malik digər məkanlara nisbətən rəqabətədavamlı üstünlüyü təmin edir.

Xarici investor fəaliyyət göstərdiyi sahədə hökmən özünün normal fəaliyyət göstərməsi üçün müvafiq infrastrukturun mövcudluğuna diqqət yetirir. Əgər onun fəaliyyət göstərəcəyi ölkədə lazımi infrastrukturun olmadığını görsə, onda həmin ölkəyə vəsait yatırmaqdan boyun qaçıra bilər. Belə olan təqdirdə həmin ölkədə xarici investorların infrastruktur layihələrində iştirakı stimullaşdırılmalıdır. Doğrudur, əgər dövlət

müvafiq infrastrukturu özü təmin edə bilərsə, onda bu cür tədbirlərə əl atmaq lazım deyildir. Fəaliyyətlə məşğul olmağa başlayan xarici investor, hökmən az və ya çox dərəcədə öz sahəsi ilə əlaqəli infrastrukturu yeniləyir və ya təkmilləşdirir. Bu zaman daxili bazara təsir edə biləcək makroiqtisadi dəyişikliklər baş verməyə başalyır. İlk öncə, infrastruktur layihələrində işə cəlb olunanalar işlə təmin olunurlar. Həmin infrastruktur layihələrində işləyən daimi işçilərin və müvəqqəti işçilərin hamısı məşğul hesab olunurlar. Daxili bazarda bazara xidmət edən infrastrukturun qurulması üçün lazımi avadanlıqlar, materiallar və s. alınır. Bir sözlə, əgər ümumi ölkə səviyyəsində bu prosesə baxsaq və nəzərə alsaq ki, xarici investisiyalar iqtisadiyyatın müxtəlif sahələrinə cəlb olunub, onda təsəvvür edə bilərik ki, yalnız bu sahələrin infrastrukturunun təmini üçün nə qədər yeni fəaliyyət sahələri formalaşacaq, köhnələri daha artıq güclə fəaliyyətlərini davam etdirəcəklər. Bunu da qeyd etmək lazımdır ki, xarici investisiyaları əsasən emal, tədarük və kənd təsərrüfatı məhsullarının saxlanılması ilə məşğul olan sahələrin infrastrukturunun inkişafına yönəltmək mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, 2010-cu ildə respublikamızda sosial infrastrukturun inkişafı sahəsində daxili və xarici investisiyaların cəlb edilməsi mühüm rol oynamışdır. Belə ki, 2010-cu ildə respublikada 40-dan çox tibb müəssisəsi, 70-dən çox məktəb, 5 olimpiya mərkəzi, regionlarda isə 170-dən çox yeni müəssisə tikilib istifadəyə verilmişdir.

Xarici investisiya siyasəti Azərbaycan dövlətinin ümumi investisiya siyasətinin mühim tərkib hissəsi olub, milli iqtisadiyyatın yüksəlməsində, onun stabil inkişafında və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində özünəməxsus rol oynayır. Bu siyasətin həyata keçirilməsi üçün xüsusi investisiya proqramları işlənib hazırlanmalı və həmin proqramlarda milli iqtisadiyyatın xüsusiyyətləri keçid dövrünün şərtləri və beynəlxalq təcrübə hərtərəfli öyrənilib nəzərə alınmalıdır. Bu zaman ölkə iqtisadiyyatının inkişafı üçün strateji əhəmiyyət kəsb edən sahələrə xüsusi diqqət yetirilməlidir.

İnvestisiya siyasətinin formalaşdırılması zamanı dövlət xarici ölkə və onların təmsilçilərinin maraqlarını nəzərə almaqla yanaşı, dövlətin milli maraqları da təmin olunmalıdır. Bundan savayı, ölkə iqtisadiyyatının ayrı-ayrı subyektlərinin maraqları da nəzərə alınmalıdır. Bir sözlə, investisiya siyasətinin formalaşdırılması ümummilli maraqlar, fərdi maraqlar və xarici subyektlərin maraqları çərçivəsində uzlaşdırılmalıdır.

Qeyd etmək lazımdır ki, investisiyaları stimullaşdıran üç investisiya tənzimləmə modeli mövcuddur ki, onlar məsələyə bu və ya digər aspektdən yanaşmaqla bir-birindən fərqlənirlər.

Birinci modeldə əsas diqqət şəxsi investisiyalara yönəldilir. İkinci modeldə əsas diqqət şəxsi layihələrin dövlət maliyyələşməsinə yönəldilir.

Üçüncü modeldə dövlət müxtəlif şəxsi investisiyaların fəaliyyətlərini koordinasiya edir. Sözsüz ki, hər bir model özündə geniş "alətlər dəsti" ehtiva edir. Lakin biz bu modelləri əsas məqsədlərinə uyğun qruplaşdırırıq. Sadaladığımız modellər bir sıra bazar iqtisadiyyatlı ölkələrdə uğurla reallaşdırılmışdır. Ona görə də keçid iqtisadiyyatlı ölkələrdə həmin təcrübənin tətbiqi məqsədəuyğundur.

«Amerikan modeli» adlanan modeldə tənzimləmə əsasən vergi riçaqları vasitəsilə həyata keçirilir. Bununla yanaşı, digər liberal makroiqtisadi tədbirlər də həyata keçirilir ki, onların köməyi ilə vergi tənzimləməsinin davamı kimi qiymət və bazar dərəcələrinə təsir həyata keçirilir. Bu tədbirlərin həyata keçirilməsi zamanı bankların (dövlətin təlimatlarından asılıdır) rolu olduqca əhəmiyyətlidir, lakin investisiya resurslarının bölgüsündə mühüm işi fond birjaları görür. Bu modelin fəaliyyətini şərtləndirən əsas amil inkişaf etmiş qiymətli kağızlar bazarıdır. Dövlət öz funksiyasını bu sahədə bazar və ölkənin makroiqtisadi göstəriciləri haqqında informasiyanın hazırlanması və koordinasiya edilməsi ilə həyata keçirir. Bu modeldə dövlətin birbaşa investisiyaları nadir hallarda həyata keçirilir. Ümumən model özünü doğruldur. Lakin modelin əksik cəhətləri də vardır. Məsələn, lazımi pul kütləsinin tez bir zamanda yığılmasını təmin etmir, həmçinin yığımı stimullaşdırmır.

Dövlətlə şəxsi investor arasında güclü əlaqələrin formalaşması ilə xarakterizə olunan ikinci model «Yapon modeli» adlanır. Bu modelə uyğun olaraq dövlət banklara birbaşa nəzarəti özü həyata keçirir. Bununla o, şəxsi vəsaitlərin toplanması və bölüşdürülməsini öz nəzarəti altına alır. Vətəndaşlardan toplanmış vəsaitləri korporasiyalara güzəştli şərtlərlə verən dövlət onları mühüm şərtə əməl etməyə məcbur edir. Həmin şərt dövlətlə sıx əlaqədə olmaq və götürülmüş bütün öhdəliklərə tam əməl etməkdir. İnfrastrukturaya yönələn investisiyalar birbaşa olaraq konkret şəxsi sahibkarların ehtiyaclarına uyğun şəkildə təşkil olunmuşdur. Koordinasiya funksiyasını öz öhdəsinə məsləhətçi şuralar götürür. Bu modelin fəaliyyət göstərməsini şərtləndirən əsas amil, güclü özəl sektor və güclü dövlət aparatının mövcud olmasıdır. Modelin üstün cəhəti böyük həcmdə vəsaitlərin cəmləşdirilə bilməsi imkanıdır. Mənfi cəhətləri isə investisiya prosesinin siyasiləşməsi və korrupsiya hallarının meydana gəlməsidir.

Özündə iki modelin ünsürlərini birləşdirən və «Tayvan modeli» adlanan üçüncü model investisiya məsələlərində özəl sektorun özünün koordinasiyaedilmə mexanizminin yaradılmasına çalışır. Məsələ ondadır ki, hökumət hesab edir ki, xaricə ixracla məşğul olan firmalar investisiya və yatırımlar haqqında daha yaxşı və mükəmməl təsəvvürə malikdirlər.

Dünyada xarici investisiyaların cəlb edilməsi istiqamətində dövlətlərin apardığı iqtisadi siyasət tədbirləri ildən - ilə daha da geniş

vüsət alır. Hər bir ölkə öz iqtisadiyyatında investisiya mühitinin yaxşılaşdırılmasına çalışır. Əlverişli investisiya mühitinin formalaşdırılması əsasən xarici investisiyaların dövlət tənzimlənməsinin hüquqi-normativ bazasının inkişaf etdirilməsi yolu ilə mümkün olur. UNİCDAT-ın məlumatına görə, 2006-cı ildə dünya ölkələrində birbaşa xarici investisiyaların cəlb edilməsi və TMK-rın fəaliyyətini ölkə ərazisində genişləndirməyə yönəlik dövlətlər tərəfindən öz qanunvericiliklərində 184-ə yaxın dəyişikliklər həyata keçirilmişdir. Bunlardan 80%-i əlverişli investisiya mühitinin yaradılmasına istiqamətləndirilmişdir. Bununla belə, məcmuədə qeyd edilib ki, bəzi hasilat sənayesi inkişaf etmiş ölkələrdə xarici investisiyaların cəlb edilməsinə "qarşı" 37 qanun dəyişikliyi həyata keçirmişdir. Buna misal kimi, respublikamızda müstəqilik əldə edildikdən bəri xarici investisiyaların axınına şərait yaradan, ona hörmətlə yanşmağa çağıran bir sıra hüquqi-normativ sənədlər qəbulunu qeyd etmək olar. Bunlardan «Azərbaycan Respublikasının Torpaq Məcəlləsi», «Azərbaycan Respublikasında mülkiyyət haqqında», «İcarə haqqında», «Qiymətli kağızlar və fond birjaları haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında», «Azərbaycan respublikasının dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında», «Antiinhisar fəaliyyəti haqqında», «Əmtəə birjası haqqında», «Müəssisələr haqqında», «Girov haqqında», «Lizinq xidməti haqqında», qanunları xüsusi olaraq qeyd etmək lazımdır. Torpağın, daşınar və daşınmaz əmlakın özəl mülkiyyətə məxsus ola bilməsi, mülkiyyət hüququnun toxunulmazlığı xarici investisiyalara dövlət təminatı və bu kimi bir sıra məqamlar, məhz bu qanunlar vasitəsilə təsbit edilərək qüvvəyə mindi və özəl sektorun ayaq açmasına, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olmasına şərait yaratmış oldu. Xarici investisiyaların ölkəyə cəlb olunmasında 1992-ci ildə qəbul edilmiş «Xarici investisiyaların qorunması haqqında» və 1995-ci ildə qəbul edilmiş «İnvestisiya fəaliyyəti haqqında» qanunları xüsusi qeyd etmək lazımdır. Bu qanunlar Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyyətinin ümumi və sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirir. Qanunlar investisiyanın Azərbaycan respublikası iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəldilmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir.

Xarici investisiyaların cəlb edilməsinə "qarşı" edilən 184 dəyişikliklərdən 109-u inkişaf etməkdə olan ölkələrə məxsusdur. Afrika ölkələrində 57, Qərbi Asiya ölkələrində 14, Cənubi, Şərqi və Cənubu-Şərqi Asiyada 32, Latın Amerikası ölkələri və Karib dənizi hövzəsi ölkələrində 6, Cənubi-Şərqi Avropa və Müstəqil Dövlətlər Birliyinə daxil olan

ölkələrdə 38, İnkişaf etmiş ölkələrdə isə 37 bu tipli qanunvericilik dəyişiklikləri edilmişdir.

Qeyd etmək lazımdır ki, son dövrdə bəzi ölkələr investisiya siyasətlərində dəyişikliklər etməyə başladılar. Belə ki, onlar bütün layihələrinə nəzarət etməkdən əl çəkərək, diqqətlərini əlverişli mühiti yaratmağa yönəltdilər. Yalnız sosial sferada və infrastruktur layihələrdə birbaşa iştiraka yol verməyə başladılar.

Əgər keçid iqtisadiyyatının keçmiş Şərqi Avropa ölkələrinin təcrübəsinə nəzər yetirsək görərik ki, keçid dövrünün ilk çağlarında həmin ölkələrdə dövlət kompleks investisiya fəaliyyətindən əl çəkərək bu sahədə öz fəaliyyətini əsasən əlverişli investisiya mühitini təmin edən hüquqi bazanın və vergi sisteminin islahatlarına yönəltdi. Bugünkü gündə artıq bizə məlumdur ki, investisiya siyasətində bütün fəaliyyətləri həyata keçirən dövlətlər yox, dəqiq investisiya strategiyası formalaşdıran və yürüdən dövlətlər bu sahədə nəzərəçarpan nailiyyətlər əldə etmişlər.

Tədqiqatlar göstərir ki, iqtisadiyyatda müvafiq bazar infrastrukturlarının formalaşdırılması və etibarlı sosial siyasətin işlənib hazırlanması, eləcə də onun müvəffəqiyyətlə reallaşdırılması müxtəlif mülkiyyət formalarının inkişaf etdirilməsindən, liberallaşma prosesinin ardıcıllığından və düzgün işlənib hazırlanmış investisiya siyasətindən əhəmiyyətli dərəcədə asılı olur. İqtisadiyyatda yeni institutsional qurumların yaradılması, məlum olduğu kimi, müvafiq texniki, təşkilati və maliyyə resurslarının məsarifi ilə şərtlənir və hətta sürətli siyasi dəyişikliklər fonunda belə nisbətən ləng həyata keçirilir.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatlı ölkələrdə investisiyaların həcmi həddən ziyadə yüksək səviyyədən normal səviyyəyə enməsi islahatların keçirilməsinə zəmin yaradırdı. Belə ki, normal səviyyəsi investisiyanın həcminin ÜDM-ə olan nisbətinin faizlə ifadəsində təqribən 20%-ə bərabər olması deməkdir. Bu qrup ölkələrdə dövlət investisiya layihələrinin maliyyələşdirilməsindən tamam əlini çəkmiş və yalnız sosial sferanı və infrastruktur layihələrini maliyyələşdirir. Belə ölkələrdə investisiya sahəsində inkişaf yalnız xarici investisiyaların hesabına baş verir. Bu qrup ölkələrdə investisiya strategiyasının mühüm cəhətlərindən biri investorların vergilərdən azad edilməsidir. Sözsüz ki, müəyyən bir müddətə. Bu qrup ölkələr öz investisiya problemini həll etmiş hesab edilirlər. Onların iqtisadiyyatının qarşısında duran problemlər artıq başqa problemlərdir. Məsələn, iqtisadiyyatı yeni texnoloji səviyyəyə çatdırmaq, adekvat yığım səviyyəsini təmin etmək və investisiyaları ölkə iqtisadiyyatının yenidən qurulmasında istifadə etmək və s.

İkinci qrup ölkələrdə cəlb edilmiş investisiyaların həcmi qənaətbəxş səviyyədədir. Lakin iqtisadi inkişafa nail olmaq çətin başa gəlir, demək olar ki, dövlət stabilləşmə siyasəti yürütməsə, dayanıqlığa nail olmaq

qeyri-mümkün olar. Bununla belə, dövlət özəl investisiya layihələrində iştirak edir, yəni ya zəmanətçi olur, ya da maliyyə yardımları edir. Bu qrup ölkələrdə investisiyanın həcminin ÜDM-ə olan nisbəti 30%-dən 20-15%-ə enir və həmin ölkələr xarici investisiyaları cəlb etməkdə çətinlik çəkirlər. Ona görə də əsas diqqətlərini investisiyaların verimliliyinin artırılmasına, yəni effektivliyinin artırılmasına yönəldirlər.

Üçüncü qrup ölkələrdə keçid dövrünə qədəm qoyandan investisiyaların həcmi o qədər aşağı düşüb ki, onlar haqqında iqtisadi artımdan yox, iqtisadi gerilikdən danışmaq lazımdır. Belə ölkələrdə sözsüz və şübhəsiz, investisiya strategiyası birbaşa olaraq xarici investisiyaların cəlb edilməsinə yönəldilmişdir. Bu tip ölkələrə misal olaraq mənfur qonşumuz Ermənistanı misal çəkə bilərik. Belə ölkələrdə birinci və ikinci qrup ölkələrin təcrübəsindən istifadəetmə imkanı da olmur. Çünki həmin ölkələr yerləşdiyi geostrateji məkanda yanlış siyasət yürüdürlər. Bu da onların iqtisadi deqradasiyasına gətirib çıxarır.

Azərbaycan Respublikasında həyata keçirilən investisiya siyasəti əsasən dövlətin aşağıdakı istiqamətlərdə apardığı islahatlar sayəsində formalaşmışdır:

- bilavasitə qanunverici bazanın təkmilləşdirilməsi;
- bir sıra xarici ölkələr ilə ikiqat vergi tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin imzalanması;
- beynəlxalq valyuta əməliyyatlarının sadələşdirilməsi;
- vergi və gömrük sistemlərinin təkmilləşdirilməsi;
- lisenziyalaşdırma sisteminin sadələşdirilməsi,
- hüquqi şəxslərin dövlət qeydiyyatına alınmasının sadələşdirilməsi (vahid pəncərə sistemi)

Xarici investisiyalı müəssisələrin Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmasında heç bir məhdudiyyət yoxdur. Dövlət qeydiyyatı "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" (1996-cı il) Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir. Xarici investisiyalı müəssisə dövlət qeydiyyatına alındığı andan etibarən hüquqi şəxs hüquqları əldə edir. Xarici investisiyalı müəssisələrin dövlət qeydiyyatına alınması haqqında məlumat vəkil edilmiş dövlət orqanının tutduğu respublika reyestrinə daxil edilir. Xarici investisiyalı müəssisəni dövlət qeydiyyatına almaqdan yalnız o halda imtina edilə bilər ki, belə müəssisənin yaradılması qaydası haqqında Azərbaycan Respublikasının qanunvericiliyi pozulmuş olsun, yaxud qeydiyyat üçün zəruri sənədlər müəyyən edilmiş tələblərə uyğun gəlməsin, habelə qarşıdakı fəaliyyət növləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilmiş olsun. Dövlət qeydiyyatına almaqdan imtina olunduqda bu barədə Azərbaycan Respublikasında məhkəmə

qaydasında şikayət oluna bilər. Bu prosedurlarda investorlara köməklik edən dövlət orqanı – Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyidir.

Bu günədək Türkiyə, Amerika Birləşmiş Ştatları, Fransa, Böyük Britaniya, Çin, İran, İsveçrə, Hollandiya və bəzi digər ölkələrin investorları Azərbaycanda həyata keçirilən özəlləşdirmə prosesində iştirak etmiş və müəssisələrin səhmlərinin ən azı 51 %-ni əldə edərək onlara böyük məbləğdə investisiyalar qoymuşlar.

Belə bir faktı göstərmək olar ki, 2010-cu ildə ölkə iqtisadiyyatına 15,5 milyard dollar vəsait qoyulmuşdur ki, onun da 9,3 milyard dolları qeyri-neft sektoruna yönəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə yeni sahələrin, o cümlədən xarici investorlar üçün xüsusilə cəlbedici olan metallurgiya, kimya, energetika, maşınqayırma, nəqliyyat, rabitə və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin özəlləşdirməyə açılması xarici investisiya axınına güclü təkan vermişdir.

Ölkə iqtisadiyyatına cəlb olunan investisiyaların artırılması məqsədilə beynəlxalq iqtisadi təşkilatlarla və maliyyə qurumları ilə əməkdaşlıq ilbəil genişlənir ki, həmin təşkilatlara misal olaraq: BMT, Ümumdünya Ticarət Təşkilatı, Avropa İttifaqı, MDB, GUÖAM, İƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı, KfW bankı, Beynəlxalq Maliyyə Korporasiyası və s. adlarını çəkmək olar.

Dövlət qeyri-neft sektorunun inkişafı prioritet istiqamətlərdən biri kimi, dövlət proqramlarını, o cümlədən "2003-2005-ci illər üzrə Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"nı, 2002-2005-ci illər üzrə "Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üzrə Dövlət Proqramı"nı, "2004-2007-ci illər üçün Dövlət İnvestisiya Proqramı"nın layihəsini, habelə "2004-2008-ci illər üçün "Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"nı həyata keçirməklə, bir daha ölkədəki investisiya mühitini yaxşılaşdırdı.

Azərbaycan Respublikasında sahibkarlığın inkişafı və bu istiqamətdə dövlət himayəsinin göstərilməsi üzrə mühüm tədbirlərdən biri də 2002-ci ildə aparıcı xarici və yerli iş adamlarının daxil olduğu Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının yaradılması olmuşdur. Sahibkarlar Şurası ölkədə biznes mühitinin yaxşılaşdırılmasında, bu sahəyə dövlət qayğısının artırılmasında, mövcud problemlərin vaxtaşırı təhlil edilərək müvafiq tədbirlərin görülməsində böyük rol oynayır.

İnfrastruktur və sosial yönümlü Dövlət İnvestisiya Proqramının icrası nəticəsində 2010-cu ildə nəqliyyat, kommunal, su ehtiyatları və

irriqasiya, energetika və sənaye, ekologiya, kənd təsərrüfatı, sosial infrastruktur obyektlərinin tikintisi həyata keçirilmişdir. 2010-cu ildə regionlarda 160-dan çox sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi tikilib istifadəyə verilmiş, 200-dən çox müəssisənin tikintisi davam etdirilir. Bu müəssisələrin 112-də Sahibkarlığa Köməklik Milli Fondunun güzəştli kreditindən istifadə olunur.

Azərbaycan hökumətinin müraciəti ilə Beynəlxalq Maliyyə Korporasiyasının dəstəyi əsasında Dünya Bankının Xarici İnvestisiyalar üzrə Məsləhət Xidməti (FIAS) Azərbaycanda investisiya mühitinin monitorinqini aparmış və mühitin daha da yaxşılaşdırılması məqsədilə birgə tədbirlər planı müəyyənləşdirilmişdir. Həmin tədbirlərin icrası istiqamətində atılmış ilk addımlardan biri də Azərbaycanda İnvestisiyaların Təşviqi və Məsləhət Fondunun təsis edilməsi idi. Eyni zamanda Dünya Bankının ekspertləri ilə birgə «İnvestsiya fəaliyyəti haqqında» və «Xüsusi iqtisadi zonalar haqqında» qanun layihələri hazırlanmışdır. «İnvestisiya fəaliyyəti haqqında» yeni Qanun hazırda qüvvədə olan «İnvestisiya fəaliyyəti haqqında» və «Xarici investisiyaların qorunması haqqında» iki Qanunu əvəz edəcək. Bu iki mövcud qanunlardan fərqli olaraq yeni layihə beynəlxalq təcrübənin ən mükəmməl elementlərini özündə əks etdirir. Digər ölkələrin bu sahədə olan təcrübəsini əsas götürərək Qanun layihəsinə investisiyaların qorunması, investisiya fəaliyyəti zamanı yaranan mübahisələrin həlli və digər həlledici prinsipial məsələlər ilə bağlı yeniliklər daxil edilib.

Azərbaycan hökumətinin yürütdüyü məqsədyönlü iqtisadi siyasət nəticəsində əldə olunmuş bütün makroiqtisadi göstəricilər üzrə artım sözsüz ki, ölkədə həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələrin birbaşa təsiri ilə mümkün olmuşdur. Belə ki, ölkə iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyalar öz xüsusi çəkisi və yönəldiyi sahə üzrə formalaşdırdığı iqtisadi artım və onun müsbət əks effekti ilə xüsusi qeyd olunmalıdır.

Əvvəlcə onu qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyalardan danışmazdan əvvəl, birbaşa xarici investisiyalar anlayışına aydınlıq gətirmək lazımdır. Belə ki, Beynəlxalq Valyuta Fondunun metodikasına görə birbaşa xarici investisiyalar elə xarici investisiyalar hesab edilir ki, həmin investisiyaların həcmi investor iştirak etdiyi investisiya prosesinin fəaliyyətində mühüm qərarların qəbulunda iştirakına imkan verən səviyyədə olsun.

Xarici birbaşa investisiyaları xarakterizə edən ən məşhur tərif Ümumdünya Ticarət Təşklatının (ÜTT) rəsmi sənədlərində qeyd edilən tərifdir : Birbaşa xarici investisiyalar o tip investisiyalardır ki, investor olan şəxs bir ölkənin rezidenti olmaqla, öz aktivlərini başqa ölkədə o şərtlə yerləşdirir ki, həmin aktivlər üzərində tam nəzarət hüququnu özündə saxlamış olsun.

Birbaşa xarici investisiyaların reallaşması aşağıdakı formalarda həyata keçirilir:

- resipient ölkədə yerləşən şirkətin bir hissəsini əldə etmək yolu ilə;
- kapitalın "ana" şirkətdən resipient ölkədə yerləşən törəmə şirkətə ötürülməsi yolu ilə;
- törəmə şirkətlərin gəlirlərinin reinvestisiya edilməsi yolu ilə;
- "ana" şirkətlərin resipient ölkələrdə yerləşən törəmə şirkətlərinə uzunmüddətli və qısamüddətli borclar verməsi yolu ilə və s.

Praktikada birbaşa xarici investisiyaların digər reallaşma formalarına da rast gəlinir, lakin şəxsin ayrıca şəkildə digər ölkənin şirkətini alması və ya digər rast gəlinən hallar istisna kimi qəbul olunur. Belə ki, belə hallar dünya üzrə reallaşan birbaşa xarici investisiyaların ümumi həcminin cəmi 5%-ni təşkil edir.

Qeyd etmək lazımdır ki, xarici investisiyaları cəlb edən ölkələrdə iqtisadiyyatın statik inkişafı zaman keçdikcə dinamik inkişafla əvəz olunur. Bunun üçün həmin ölkələr hökmən öz qanunvericiliklərində xarici investisiyalar üçün elə mühit yaratmalıdırlar ki, cəlb olunmuş birbaşa xarici investisiyalar ölkə iqtisadiyyatının dinamik inkişafını təmin edən xarakterdə olsunlar. Bu zaman yalnız Qanunvericilikdə yox, həm də xarici investisiya siyasətinin tənzimlənməsində köklü dəyişikliklər olmalıdır. Bu isə kompleks məsələdir və bir ilin işi deyildir. Bu prosesi həyata keçirmək üçün dövlət hökmən xarici və daxili ticarət və rəqabət siyasətinə, xarici şirkətlərin ölkədə törəmə və filiallarının açılması ilə əlaqədar hüqiqi rejimə, transmilli kampaniyalarla əlaqəli siyasətə və digər bu qəbildən olan məsələlərə yenidən baxmalıdır.

Ümumiyyətlə, birbaşa xarici investisiyaların ölkəsindən çıxarılmasını təmin edən dövlətlər, yəni donor ölkələr bunu öz ölkəsinə nisbətən daha çox gəlir əldə etmək məqsədi ilə edirlər.

Birbaşa xarici investisiyaları qəbul edən ölkələr yəni resipient ölkələr bunu aşağıda qeyd olunan səbəblərə görə edirlər :

- birbaşa xarici investisiyalar ölkə iqtisadiyyatına əlavə kapital axınını təmin edir, iqtisadiyyatın proporsiyalarının müsbət istiqamətdə dəyişməsinə təsir edir, sahibkarlıq və istehsalat sahəsində inkişaf templərini sürətləndirir;
- birbaşa xarici investisiyalar ölkəyə portfel, borc kapitalı kimi digər kapital axınlarının cəlb edilməsini stimullaşdırır;
- birbaşa xarici investisiyalar hesabına formalaşmış şirkətlər xarici ticarət axınlarının həcminin artmasını təmin edirlər;
- birbaşa xarici investisiyalar texnologiyaların axınını stimullaşdırır.

Birbaşa xarici investisiyalar həm donor ölkə üçün həm də resipient ölkə üçün, eyni zamanda əlverişli ola bilir. Keçid iqtisadiyyatlı ölkələrdə iqtisadi islahatların müsbət nəticələrindən biri kimi külli miqdarda birbaşa xarici investisiyaların cəlb edilməsi hesab edilir. Keçid iqtisadiyyatlı ölkələrdə əlverişli investisiya mühitnin yaradılması təkcə makroiqtisadi sabitliyə deyil,

həm də institutsional islahatların həyata keçirilməsinə imkanlar yaradır. Bu islahatlara özəlləşdirmə, struktur dəyişikliyi, hüquqi və vergi sisteminin islahatları aiddirlər.

Son dövrdə Azərbaycan iqtisadiyyatına cəlb edilmiş birbaşa xarici investisiyaların həcmi ildən-ilə artır. 1994-cü ildə imzalanmış "Əsrin Müqaviləsi" Sazişi Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyaların axırına səbəb oldu. Bunun məntiqi davamı olaraq yuxarıda qeyd olunan multiplikator səmərəsinə uyğun olaraq cəlb edilmiş xarici investisiyaların həcmi yüksələn xətlə artdı. Bunun isə aşağıdakı statistik məlumatlardan daha aydın görmək olar.

**Cədvəl 1**

**Xarici investisiyalar (mln. ABŞ dolları)**

| İllər / İnvestisiya növü | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007* | 2008* |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi Xarici İnvestisiya ondan: | 927.0 | 1091.8 | 2234.9 | 3371.0 | 4575.5 | 4893.2 | 5052.8 | 6760.3 | 6847.4 |
| -Maliyyə kreditləri | 262.9 | 192.0 | 223.0 | 238.3 | 293.0 | 698.4 | 983.5 | - | - |
| -Neft bonusu | - | - | - | 58.6 | 21.6 | 1.0 | 17.0 | - | - |
| -Digər müəssisələr və xarici firmalar | 118 | 79.3 | 318.9 | 45.4 | 104.2 | 230.5 | 368.4 | - | - |
| -Digər investisiyalar | - | - | - | 56.3 | 68.6 | 163.4 | 261.6 | - | - |

Cədvəldən də göründüyü kimi, ilbəil Azərbaycan iqtisadiyyatına cəlb edilmiş xarici investisiyaların həcmi artır. Son dövrdə ölkə iqtisadiyyatına xarici və daxili investisiyaların cəlb edilməsi ölkədə ümumidaxili məhsulun həcminin sürətlə artmasına səbəb olmuşdur.

**Cədvəl 2**

**Ümumdaxili məhsul - manat və dollarla**

| | Cəmi | | Adambaşına | | 1$= manat |
|---|---|---|---|---|---|
| | milyon manatla, AZN | milyon dollarla | manatla | dollarla | |
| 1996 | 2133.8 | 2415.2 | 282.1 | 319.3 | 0.8835 |
| 1997 | 3158.3 | 3960.7 | 409.2 | 513.2 | 0.7974 |
| 1998 | 3440.6 | 4446.4 | 441.5 | 570.6 | 0.7738 |
| 1999 | 3775.1 | 4583.7 | 480.1 | 582.9 | 0.8236 |
| 2000 | 4718.1 | 5272.8 | 595.1 | 665.1 | 0.8948 |
| 2001 | 5315.6 | 5707.7 | 665.2 | 714.3 | 0.9313 |
| 2002 | 6062.5 | 6235.9 | 752.9 | 774.4 | 0.9722 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2003 | 7146.5 | 7276.0 | 880.8 | 896.8 | 0.9822 |
| 2004 | 8530.2 | 8680.4 | 1042.0 | 1060.3 | 0.9827 |
| 2005 | 12522.5 | 13238.7 | 1513.9 | 1600.4 | 0.9459 |
| 2006 | 18746.2 | 20983.0 | 2241.1 | 2508.5 | 0.8934 |
| 2007 | 28360.5 | 33050.3 | 3351.8 | 3906.1 | 0.8581 |
| 2008*) | 38005.7 | 46258.2 | 4439.9 | 5403.9 | 0.8216 |

Birbaşa xarici investisiyaları həyata keçirən mühüm subyektlərdən biri transmilli korporasiyalardır. Onların son onilliklər ərzində dünya iqtisadiyyatında, dünya təsərrüfatının qloballaşmasında və həmçinin də kapitalın beynəlxalq hərəkətində rolu olduqca artmışdır. Bunu isbat etmək üçün saysız hesabsız statistik göstəriciləri misal kimi çəkə bilərik.

*Azərbaycan Respublikasının iqtisadiyyatında yaranmış münbit investisiya mühiti xarici investorların ölkə iqtisadiyyatına marağını artırmışdır. Xüsusi olaraq transmilli şirkətlər bu şəraitdən yararlanmaq niyyətindədirlər. Bu şərait Azərbaycan hökmətinin ardıcıl surətdə yeritdiyi sistemli investisiya siyasətinin nəticəsidir. Azərbaycanın iqtisadi potensialı məlum olduğu kimi, əsasən yanacaq-energetika kompleksində daha çox təmərküzləşmişdir. Belə olan təqdirdə hökumət iqtisadiyyatdakı proporsiyaların qorunması və sabit iqtisadi inkişafa nail olmaqdan ötrü yanacaq-energetika kompleksi ilə yanaşı, digər sahələrə də investisiya yatırmaqla onların sabit inkişafını təmin etmək üçün lazım olan bütün addımları atmışdır. Bununla belə, xarici investisiyaların respublika iqtisadiyyatının daha çox yanacaq-energetika kompleksinə yönəldiyi məlumdur ki, son tarixi dövrdə bu sferada bağlanmış bir çox sazişlər bunu təsdiq edir. Ölkəyə cəlb olunan birbaşa xarici investisiyalar dövlət üçün xarici borc problemi deyil, əksinə, onun örtülməsi üçün əlavə vəsait mənbələri yaradır, istehsal və elmi-texniki kooperasiya vasitəsilə milli iqtisadiyyatın beynəlxalq təsərrüfata aktiv inteqrasiyasına münbit şərait yaradır. Bunun məntiqi davamı kimi ölkədə daxili kapital ehtiyatı artır və digər sahələrə kapital yatırmaq imkanı formalaşır.*

Qeyd etmək lazımdır ki, respublika ərazisində xarici investisiyalar haqqında əsas Qanunvericilik Aktı 1992-ci ildə qəbul olunmuş «Xarici investisiyaların qorunması haqqında Qanun»dur. Qanunda bəzi çatışmazlıqlar mövcud olsa da, sonrakı illərdə Qanuna edilmiş bəzi dəyişikliklər və əlavələr sayəsində Qanun təkmilləşmişdir. Xarici investisiyalara dövlət təminatı, həmçinin məhsul idxal-ixracında bəzi gömrük və digər güzəştlər nəzərdə tutulan bu Qanunda xarici investorların hüquq və öhdəlikləri, dövlətin vəzifəsi açıq-aydın təsbit edilmişdir.

Respublikanın müstəqilliyinin ilk illərində xarici investisiyalar haqqında bir çox qanunların qəbul edilməsinə baxmayaraq, ölkəyə

investisiya axını məlum siyasi vəziyyətlə əlaqədar bir qədər zəif olmuşdur. Digər postsosialist ölkələrində olduğu kimi, Azərbaycana da xarici investisiya axınları bir çox risklərdən sığortalamaq üçün dövlət şirkətləri ilə birgə müəssisələrin yaradılması formasında baş verirdi. 1990-cı ildə ölkədə cəmi 2 xarici və birgə investisiyalı müəssisə qeydə alınmışsa, 2000-ci ildə onların sayı 551-ə, 2009-cuilin əvvəlinə isə 5203-ə çatmış və ümumi məhsul və xidmət istehsalının həcmi isə 12 mld. manatdan çox olmuşdur. 2010-cu ildə ölkədə ümumi daxili məhsul 5% artaraq 41 milyard manat təşkil etmişdir.

Son beş il ərzində ölkə ərazisində fəaliyyət göstərən müştərək və tam xarici investisiyalı müəssisələr də daxil olmaqla, cəmi Azərbaycan iqtisadiyyatına 33.5 milyard manat məbləğində vəsait qoyulmuşdur. Həmin vəsaitlərin 81 faizi sənayenin payına düşür. Əgər biz neft və qeyri-neft sektorlarına cəlb edilmiş investisiyaları biri-birindən ayrı nəzərdən keçirsək, görərik ki, son illər ərzində qeyri-neft sektoruna yönəldilmiş investisiyaların xüsusi çəkisi ilbəil artır.

Belə ki, Azərbaycan iqtisadiyyatının əsaslı şəkildə inkişafını təmin edən uğurlu iqtisadi siyasət və əvvəlki illərdə ölkəyə cəlb edilmiş xarici investisiyalar artıq ölkə iqtisadiyyatında elə bir mühit formalaşdırmışdır ki, investisiyalar real sektora yönəlir. Qısası, ölkənin iqtisadi mühiti real sektorun inkişafına təkanverəcək bir şəklə düşmüşdür.

Ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların kredit və ya qeyri-kredit investisiya olması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, aşağıdakı cədvəllərdən görünür ki, Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların ümumi tərkibində qeyri-kredit investisiyalar ümumi investisiyaların böyük bir hissəsini təşkil edir ki, bunlar da birbaşa investorlar tərəfindən konkret müəssisələrə qoyulmuşdur. Bu investorlar müəssisənin yaradılmasından hazır məhsulun istehsalının təşkil olunmasına qədər bütün istehsal prosesində birbaşa iştirak edirlər.

Ümumilikdə, aşağıdakı cədvəldən görünür ki, Azərbaycan iqtisadiyyatına yatırılan xarici investisiyaların həcmi artan xətlə yüksəlir.

**İqtisadiyyata yönəldilən investisiyalar**

| | 2000 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla): | | | | | | | |
| mln.manat | 1289.8 | 4249.2 | 5820.4 | 6733.4 | 7415.6 | 10353.9 | 13328 |
| mln.dollar | 1441.4 | 4326.2 | 5922.7 | 7118.5 | 8300.4 | 12066.1 | 16222 |

| Xarici investisiyalar: | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| mln.manat | 829.5 | 3310.9 | 4496.4 | 4628.5 | 4514.2 | 5727.2 | 5625.8 |
| mln.dollar | 927 | 3371 | 4575.5 | 4893.2 | 5052.8 | 6674.3 | 6847.4 |
| Daxili investisiyalar: | | | | | | | |
| mln.manat | 460.3 | 938.3 | 1324 | 2104.9 | 2901.4 | 4626.7 | 7702.2 |
| mln.dollar | 514.4 | 955.2 | 1347.2 | 2225.3 | 3247.6 | 5391.8 | 9374.6 |

**Cədvəl 3**

Cədvəldən göründüyü kimi, 2008-ci ildə ölkə iqtisadiyyatına yönəldilən investisiyaların həcmi 16222 mln. ABŞ dollarıdır. Bunun 6847.4 mln. ABŞ dolları xarici investisiyalardır ki, o da cəmi investisiyaların 42.2 %-ni təşkil edir. Əgər cədvəl 4-ə nəzər yetisək, onda görərik ki, 2008-ci ildə ölkə iqtisadiyyatına cəlb olunmuş xarici investisiyaların 65.6 %-i ,yəni 4489.5 mln. ABŞ dolları qeyri-kredit investisiyalarıdır. Lakin ölkə üzrə ümumi investisiyaların cəmi 46.3%-i qeyri-kredit investisiyalarıdır.

**Cədvəl 4**

**Xarici investisiyalar (mln. ABŞ dolları)**

| | **2000** | **2003** | **2004** | **2005** | **2006** | **2007** | **2008** |
|---|---|---|---|---|---|---|---|
| **Cəmi xarici investisiya** | **927** | **3371** | **4575.5** | **4893.2** | **5052.8** | **6674.3** | **6847.4** |
| o cümlədən: | | | | | | | |
| Maliyyə kreditləri | 262.9 | 238.3 | 293 | 698.4 | 983.5 | 1576.6 | 2357.9 |
| Neft sənayesinə | 546.1 | 2972.4 | 4088.1 | 3799.9 | 3422.3 | 4003.3 | 3350.7 |
| Neft bonusu | - | 58.6 | 21.6 | 1 | 17 | 68.2 | 3.5 |
| Birgə və xarici investisiyalı müəssisələr | 118 | 45.4 | 104.2 | 230.5 | 368.4 | 439.1 | 494.1 |
| ondan: | | | | | | | |
| Türkiyə | 31.6 | 17.1 | 80.1 | 96.2 | 136.6 | 109.2 | 145.2 |
| ABŞ | 11.2 | 4.9 | 8.4 | 24.8 | 70 | 78 | 87.9 |
| İran | 2.9 | - | - | 1.2 | 17.5 | 4.6 | - |
| Almaniya | 1.7 | - | 2.1 | 21.5 | 17.4 | 22.9 | 48.2 |
| Rusiya | - | 1.2 | 1.8 | 5.1 | 4.6 | 10.7 | 5.8 |
| Böyük Britaniya | 6.8 | 9 | 4.2 | 39.5 | 39.1 | 80 | 89.9 |
| Birləşmiş Ərəb Əmirlikləri | 2.8 | 4.4 | 4.4 | 5.7 | 18.3 | 12.3 | 38.5 |
| İsveçrə | - | - | - | 0.5 | 2.7 | 3.5 | 3.7 |
| Fransa | 39.3 | 2.2 | 2.2 | 2.6 | 11.1 | 4.4 | - |
| Kipr | - | - | - | 0.2 | 5.4 | 13.2 | 2.2 |
| Çin | - | - | - | 0.2 | 1.3 | 1.2 | 8.1 |
| İtaliya | - | - | - | 4.6 | 2.8 | 14 | 2 |
| Pakistan | - | - | - | - | 3.1 | - | - |
| Yaponiya | 16.4 | - | - | - | - | - | 0.4 |
| Digər ölkələr | 5.3 | 6.6 | 1 | 28.4 | 38.5 | 85.1 | 62.2 |
| Digər investisiyalar | | 56.3 | 68.6 | 163.4 | 261.6 | 587.1 | 641.2 |

Qeyd etmək lazımdır ki, 2000-ci ildən bəri xarici maliyyə kreditlərinin ümumi xarici investisiyaların tərkibindəki xüsusi çəkisi 34.4%-dən yuxarı olmamışdır. Bu isə ölkə üzrə həyata keçirilən investisiyaların tərkibində olan kredit investisiyalarının xüsusi çəkisindən aşağıdır. Bu qeyd etdiklərimiz əvvəla, ölkənin xarici kredit asılılığının aşağı olmasına dəlalət edir ki, bu da müsbət makroiqtisadi göstərici olmaqla, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin mühüm göstəricisi kimi qəbul oluna bilər.

Qeyd etmək lazımdır ki, 2008-ci ildə qeyri-neft sektoruna yatırılan investisiyanın həcmi 6276 mln. manat olmaqla, neft sektoruna nisbətən 2,2 dəfə çoxdur. Beş il ərzində ölkə iqtisadiyyatında qeyri-neft sektoruna yatırılan investisiyaların əsas hissəsi nəqliyyat, kommunikasiya, tikinti sahələrinə yönəldilmişdir.

Azərbaycan iqtisadiyyatının müasir şəraitində istehsal prosesini təkmilləşdirmək, yeni texnologiya tətbiq etmək üçün ölkənin xarici investisiyalara tələbatı böyükdür. Bu səbəbdən də investisiya siyasətinin hazırlanması və optimal tətbiqi zəruridir. Xarici investisiyanın cəlb edilməsində dövlətin rolu danılmazdır, belə ki, investisiyaların iqtisadiyyat sahələri arasında optimal bölüşdürülməsi vacibdir.

Qeyd edək ki, son illərdə xarici investisiyaların ümumi investisiyaların tərkibindəki xüsusi çəkisinin azalması, heç də neqativ hal kimi qəbul edilməməlidir. Bu onu göstərir ki, ölkədə həyata keçirilən uğurlu islahatlar nəticəsində ölkənin maliyyə gücü artıb ki, bu da daxili investisiyaların həcminin artmasına səbəb olub.

Qeyd etmək lazımdır ki, makrosəviyyədə investisiyaların illər üzrə artımının ÜDM-in artımına etdiyi təsiri, məhz investisiya multiplikatoru vasitəsi ilə aydınlaşdırmaq çox əhəmiyyətlidir. Bu əsasda Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların multiplikator əmsalları

**Cədvəl 5**

**Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların multiplikator əmsalı**

| İllər | ÜDM- nin artımı (mln. ABŞ dol.) | Ümumi investisiyaların artımı (mln. ABŞ dol.) | Xarici investisiyaların artımı (mln. ABŞ dol.) | Ümumi investisiyalar üzrə multiplikator əmsalı | Xarici investisiyalar üzrə multiplikator əmsalı |
|---|---|---|---|---|---|
| 2000 | - | - | - | - | - |
| 2001 | 435 | - | 165 | - | 2,63 |
| 2002 | 528 | - | 1143 | - | 0,46 |
| 2003 | 1041 | - | 1136 | - | 0,91 |
| 2004 | 1404 | 1596 | 1204 | 0,87 | 1,16 |
| 2005 | 4558 | 1196 | 318 | 3,81 | 14,33 |
| 2006 | 7745 | 1182 | 159 | 6,55 | 48,71 |
| 2007 | 12067 | 3766 | 1708 | 3,20 | 7,06 |
| 2008 | 13208 | 4156 | 87 | 3,17 | 151,81 |

Cədvəldən göründüyü kimi, son beş il ərzində Azərbaycanda investisiya multiplikatoru əmsalı olduqca yüksəkdir. Elə həmin cədvələ əsasən son beş il üzrə xarici investisiyalar və ümumi investisiyalar üzrə multiplikator əmsalı uyğun olaraq orta hesabla 11.2 və 3.27-dir. Xarici investisiyalar üzrə multiplikator əmsalının belə yüksək olmasının bir neçə səbəbi vardır. Birincisi və ən mühüm xarici investisiyaların ölkə iqtisadiyyatının bütün sahələrinə eyni proporsiyada yatırılmamasıdır. Bunun da nəticəsində multiplikator əmsalı olduqca yüksəkdir. Lakin bununla belə Azərbaycan iqtisadiyyatının spesifik xüsusiyyətini nəzərə alsaq və ölkədə ÜDM-in formalaşdığı sahələrin əsasən xarici investisiyalrın yatırıldığı sahələrdə olmasını nəzərdə saxlasaq, onda bu əmsalın reallığa yaxın olduğunu qəbul etməliyik. Ümumi investisiyaların multiplikator əmsalı isə tam realdır və onun xarici investisiyalar üzrə multiplikator əmsalından bir neçə dəfə az olmasının əsas səbəbi ölkədə daxili investisiyaların əsas hissəsinin hələ ki, infrastruktur və sosial sahələrin inkişafına yönəldilməsidir. Bildiyimiz kimi, bu sahələr iqtisadiyyatın bazisini təşkil edirlər və gəlirlilik baxımından birbaşa olaraq gəlir gətirən sahələr deyillər. Bu sahələr digər sahələr üçün yardımçıdır və onlardan əldə ediləcək gəlirlər əsasən digər sahələrin gəlirlərində öz əksini tapacaqdır. Bundan ötrü Azərbaycan hökuməti bir sıra məqsədyönlü və sistemli tədbirlər planı hazırlayıb həyata keçirməlidir. Belə tədbirlər sırasından İqtisadi İnkişaf Nazirliyi tərəfindən hazırlanmış "2008-2011-ci illərin dövlət investisiya siyasəti" adlı Proqramdır. 2008-2011-ci illər üçün "Azərbaycan Respublikasının Dövlət İnvestisiya Proqramı" ölkə iqtisadiyyatının, əsasən qeyri-neft sektorlarının davamlı olaraq yüksək artım templəri ilə dinamik və tarazlı inkişafına, əhalinin iqtisadi və sosial tələbatının daha yüksək səviyyədə təmin olunmasına, regionlararası inkişaf fərqinin azaldılmasına, optimal sektor istehsal strukturuna nail olunmasına, ixrac potensialının yüksəldilməsinə, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin qorunmasına yönəlmiş dövlət əhəmiyyətli investisiya layihələrinin ardıcıl və əlaqəli şəkildə həyata keçirilməsi məqsədi ilə hazırlanmışdır. Bu Dövlət Proqramına görə ölkəyə cəlb ediləcək xarici investisiyalar regionlara, əsasən kənd təsərrüfatı məhsullarının emalı sahələrinə, ixracyönümlü məhsulların istehsalı sənayesinə və s. sahələrə yönlədiləcəkdir. Bundan ötrü hökemət adı çəkilən sahələrdə və regionlarda xarici investorlar üçün münbit şərait yaratmalıdır. Belə ki, ölkədə investisiya fəaliyyəti elə inkişaf səviyyəsinə çatmışdır ki, artıq xüsusi təşviq olunan sahələrdə, yəni konkret istiqamətlərdə investisiya axınına ehtiyac duyulur. Halbuki ümumi xarakterli və kütləvi investisiya axınını tələb edən sahələrdə müəyyən nailiyyətlər əldə edilib və investisiya bazarının bu seqmenti hələlik tarazlı vəziyyətə gətirilmişdir.

Xarici investisiyaların cəlb edilməsi, kiçik və orta müəssisələrin inkişafı üçün əlverişli biznes mühiti zəruri amildir. Qeyri-qənaətbəxş, yəni yüksək xərclər tələb edən, yubadılmalarla və risklərlə müşahidə edilən biznes mühiti iqtisadi inkişafı ləngidir və xarici investisiyaları "qorxudub" uzaqlaşdıra bilir. Xarici investisiyalar inkişaf etməkdə olan və keçid dövrünü yaşayan iqtisadiyyatlarda xarici maliyyələşdirmənin ən böyük mənbəyini təşkil edir.

Ölkədə formalaşan daxili resursların həcmi, mövcud iqtisadi vəziyyətin lazımi məcrada fəaliyyətinin təmin edilməsi, dünya təcrübəsini nəzərə alaraq təhlil etsək görərik ki, hələ öz maksimum həddinə çatmamışdır. Çünki dünyanın ən inkişaf etmiş ölkələri və ələlxüsus da, ən dinamik iqtisadi inkişafa malik olan ölkələr öz iqtisadiyyalarının inkişafını təmin etməkdən ötrü həm daxili investisiyalara, həm də xarici investisiyalara indi geniş yer verirlər. Bələ ki, ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya və s. kimi inkişaf etmiş ölkələr dünya üzrə xarici investisiyaların ən böyük ixracatçıları olduqları kimi, həm də xarici investisiyaların ən böyük idxalçılarıdır.

Artıq son illərin statistik məlumatlarına əsasən, belə bir mülahizə irəli sürə bilərik ki, respublikamıza cəlb edilən xarici investisiyaların perspektiv inkişaf istiqaməti qeyri-neft sektoru ilə bağlıdır. Məsələn, 2009-cu ilin birinci rübündə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna yatırılmış birbaşa xarici investisiyanın həcmi 249.9 mln. ABŞ dolları təşkil etmişdir ki, bu da 2008-ci ilin eyni rübündəkindən 63.7 mln. ABŞ dolları çoxdur. Bununla belə, ölkə iqtisadiyyatına yatırılmış investisiyaların yarıdan çoxu daxili investisiyalardır və bu investisiyaların əksər hissəsi, yəni 60%-i infrastruktur layihələrinə, 20%-i isə sosial sahələrə yatırılmışdır. Bu layihələrin məqsədi ölkənin iqtisadi-sosial vəziyyətinin daha da yaxşılaşdırılmasıdır. Çünki respublika hökumətinin məqsədi sosialyönümlü bazar iqtisadiyyatı qurmaqdır. Bu ali iqtisadi-sosial məqsədə nail olmaqdan ötrü dövlət hökmən iqtisadiyyata külli miqdarda investisiya cəlb etməlidir. Bu yolda hökumət uzun müddətdir ki, qəti və sistemli addımlar atır. Son illərdə infrastruktur layihələrinə yatırılmış investisiyalar ona dəlalət edir ki, ölkədə iqtisadi inkişafı təmin etməkdən ötrü bizim iqtisadiyyat üçün yeni sahələrin inkişaf etməsinə və yeni-yeni istehsal və xidmət sahələrinin yaradılmasına imkan verən şəraiti formalaşdırmalıdır. Məlumdur ki, lazımi infrastruktursuz iqtisadi inkişafa nail olmaq mümkün deyildir.

Yuxarıda deyilənləri nəzərə alaraq belə bir qənaətə gəlmək olar ki, Azərbaycan Respublikasına cəlb olunan xarici investisiyaların perspektiv istiqamətləri, məhz kənd təsərrüfatı, turizm, ixracyönümlü sənaye və ən yeni sənaye sahələri olacaqdır. Bu baxımdan aşağıdakı istiqamətlərdə

xarici investisiyaların cəlb edilməsi Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətlidir :

1.Turizm təsərrüfatı və müalicə-istirahət kompleksinin geniş miqyasda inkişafı üçün Azərbaycan Respublikasında hər cür təbii və iqtisadi potensial mövcuddur. Bu sahənin inkişaf etdirilməsi üçün onun kifayət qədər yerli əmək ehtiyatları da vardır. Turizm sənayesini başqa sahələrdən əsasən fərqləndirən cəhətlərdən biri də ona qoyulan vəsaitin tez bir zamanda böyük mənfəətlə geri qayıtmasıdır. Bu sahənin respublikamızda geniş miqyasda inkişafı üçün xeyli zəngin imkanlara malik olan müalicə-istirahət mərkəzlərinin yaradılması vacib məsələlərdən biri kimi qəbul olunmalıdır. Respublikamızda turizm industriyasının inkişaf etdirilməsi üçün bütün imkanlar vardır. Buraya həm təbii-coğrafi şərait, həm də iqtisadi amillər daxildir. Regionlarda turizm industriyasının inkişaf etdirilməsi üçün, ilk növbədə, onların iqtisadi potensialı və səmərəliliyi öyrənilməlidir.

2.Kənd təsərrüfatının bir sahə kimi inkişaf etdirilməsi, onun sahə strukturunun təkmilləşdirilməsi üçün regionlarda kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yeni sənaye mərkəzlərinin yaradılması tələb olunur. Bundan savayı, kənd təsərrüfatının spesifik cəhətlərini nəzərə alaraq kənd təsərrüfatı məhsullarının regionlarda tədarükü və satışı ilə məşğul olan müəssisələrin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Həmçinin yığılan məhsulların müasir tələblər səviyyəsində saxlanılması məqsədi ilə müvafiq maddi-texniki bazanın yaradılması tələb olunur. Bölgələrdə kənd təsərrüfatı məhsullarının saxlanılması və satışı bazarı infrastrukturunun təmin edilməsi, topdansatış xidmətinin genişləndirilməsi yolları ilə yanaşı, respublika daxilində aqroservis, toxuculuq, damazlıq, emal sənaye müəssisələrinin inkişafı və digər tədbirlərin həyata keçirilməsi ilə müşayiət olunan kompleks tədbirlər müasir dövrdə xarici investisiyalarsız qeyri-mümkün görünür. Bunun üçün ilk, növbədə, yerli və xarici iş adamlarının bu sahəyə sərmayə yatırımları tələb olunur.

3.Elm və texnikanın ən son nailiyyətlərinin Azərbaycan Respublikası iqtisadiyyatına tətbiq edilməsi və yeni istehsal sahələrinin yaradılması və sənaye sektorunda yeni texnologiyaların tətbiqi, təsərrüfat sahələrində maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasında və rəqabətqabiliyyətli məhsul və xidmətlər istehsalı ölkə iqtisadiyyatı üçün müstəsna əhəmiyyət kəsb edir. Bu kontekstdə ölkədə texnoparkların və xarici investorların vəsaiti hesabına güclü elmi-texniki bazanın yaradılması nəzərə alınmalıdır.

4.Nəhayət, ölkə iqtisadiyyatının mövcud strukturunu nəzərə almaqla konkret sahələrin inkişaf etdirilməsi məqsədilə sənaye şəhərciyinin yaradılması, xüsusilə Azad İqtisadi Zonaların təsis edilməsi istiqamətində

fəaliyyəti sürətləndirmək lazımdır. Respublika ərazisində AİZ-ların yaradılması məsələsində ilkin variant kimi ölkənin kommunikasiya qovşaqlarından başlamaq lazımdır. Belə olan təqdirdə ölkə iqtisadiyyatına külli miqdarda xarici investisiya cəlb edilə bilər.

Lakin ölkəmizə cəlb edilən xarici investisiyaların həcmində və strukturunda istənilən dəyişiklikləri əldə etməkdən ötrü hökumət bəzi mühüm addımları atmalıdır. Belə mühüm sıçrayışlardan biri, ölkənin ÜTT kimi beynəlxalq təşkilata üzv olmasını gerçəyə çevirməkdir. ÜTT-yə üzvlük sırasında ölkə iqtisadiyyatı üçün formalaşdırılan imkanlar, sözsüz ki, beynəlxalq investisiya axınının sürətlənməsi də vardır.

Azərbaycanın ÜTT və onun kimi nüfuzlu digər beynəlxalq iqtisadi təşkilatlara üzvlüyü, ölkəyə cəlb ediləcək xarici investisiyaların həcmini artıra bilər. Sözsüz ki, ölkə rəhbərliyi bu məqamda bu cür təşkilatlara üzv olduqdan sonra investisiya axınının artırılması istiqamətində tədbirlər həyata keçirməlidir. Çünki heç kim qəti şəkildə deyə bilməz ki, bu proseslər əks istiqamətdə gedə bilməz. Ona görə də daxil olacağımız yeni iqtisadi şəraitlə şərtlənən mühitin tədqiqi və ona uyğun transformasıya qaçılmazdır.

Azərbaycan hökuməti keçid iqtisadiyyatını başa vuraraq iqtisadi islahatların kursunu keyfiyyət və kəmiyyət baxımından yeni inkişaf erasının tələblərinə uyğun şəkildə müəyyənləşdirməyi qarşıya məqsəd qoyub. Uzunmüddətli inkişaf mərhələsinin başlanğıcında Azərbaycan hökuməti iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı konseptual sənədin hazırlanmasını nəzərdə tutur. Qarşıdakı illərdə iqtisadi strategiyanın əsas hədəfləri neftdən kənar bölmələrdə diversifikasiya siyasətinin dərinləşdirilməsindən ibarət olacaq. Respublikamızın sosial-iqtisadi inkişaf göstəricilərinə əsasən hazırlanmış proqnozlar və ssenarilər də Azərbaycanda yeni iqtisadi modelin tətbiq olunmasını ehtiva edir.

Respublikamızda qeyri-neft sektorunun yüksək inkişaf perspektivləri iqtisadiyyatın diversifikasiyası üçün başlıca stimullardan biridir və yeni strateji xətt sayəsində Azərbaycan yaxın onillikdə qeyri-neft məhsullarının ixracatçısı kimi dünyada böyük nüfuza malik olmalıdır. Təbii ki, ilkin mərhələdə iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsi üçün neftdən daxil olan vəsaitlərin həcmi xüsusi rol oynayacaq. Azərbaycan hökuməti zəngin neft resurslarının satışından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru böyük gəlirlər gətirə biləcək strateji bölməyə çevrilib. Həyata keçirilmiş məqsədyönlü investisiya proqramlarının icrası nəticəsində neftdənkənar sahələr valyutatutumlu olmaqla, gələcək iqtisadi inkişaf üçün dərin zəmin yaradır.

# VIII FƏSİL

# DÖVLƏTİN BÜDCƏ-VERGİ SİYASƏTİ

***«Bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik»***

**Heydər Əliyev**

***«Dövlət iqtisadiyyatın vergi yükünü müəyyən etməklə, vergi dərəcələrinin diferensiallığı ilə iqtisadi inkişafı stimullaşdıra və eləcə də bəzi sahələrdə antistimul yarada bilər»***

**İlham Əliyev**

## 8.1. Büdcə-vergi siyasətinin həyata keçirilməsinin nəzəri əsasları

Dövlət büdcəsini iqtisadi kateqoriya kimi xarakterizə edən ən vacib xüsusiyyətlərdən biri onun obyektiv xarakter daşımasıdır. İlk baxışda, hər il dövlətin əlində cəmləşən milli gəlirin həcmi, xüsusən onun bölüşdürülməsi prosesi dövlətin iradəsindən asılı kimi görünür. Əslində, istər milli gəlirin və Dövlət büdcəsinin həcmi, istərsə də onların bölüşdürülməsi prosesi ölkədəki istehsal sahələrinin inkişaf səviyyəsindən, cəmiyyətin mövcud sosial-iqtisadi tələblərinin xüsusiyyətlərindən və digər obyektiv amillərdən asılıdır.

Büdcə dövlətin hazırladığı iqtisadi siyasətin reallaşdırması üçün əsas vasitə olmaqla, maliyyə siyasətini də reallaşdırmağın mühüm alətidir. O, pul fondlarının formalaşması aləti olan vergilər və dövlət borclanması ilə yanaşı, həm də pul fondlarının məqsədəuyğun xərclənməsinə aid olan maliyyələşdirmə, büdcədən əmək haqqının ödənilməsi kimi tədbirləri özündə birləşdirir.

Büdcənin istehsal sahələrinə təsiri və onlarla qarşılıqlı əlaqədə olması - gəlirlər və xərclər formasında təzahür edir. Büdcənin gəlirləri istehsal və qeyri-istehsal sahələrinin əldə etdikləri mənfəətdən və bunun müqabilində ödədikləri vergilərdən, həmin sahələrin özünün inkişafı isə qismən və ya tamamilə büdcədən maliyyələşdirmə mənbələrindən xeyli asılıdır.

Bütün qurumlarda büdcə, dövlətin pul vəsaitlərinə olan tələbatlarını ödəyir. Məhsuldar əmək tərəfindən yaradılmış yeni dəyər, nəinki istehsal məqsədli məsələlərin həllinə xidmət etməli, o, həm də vətəndaşların konstitusiya hüquq və azadlıqlarını qoruyan dövlət təsisatlarının fəaliyyətini

təmin etməlidir. Bununla yanaşı, əhalinin öz maliyyə tələbatını təmin edə bilməyən hissəsi, habelə inkişaf səviyyəsi millətin ictimai təminatının indiqatoru hesab edilən sosial sahələr, dövlətin və vətəndaşların təhlükəsizliyini təmin edən hüquq-mühafizə orqanları və ordu, bilavasitə dövlətin himayəsindədir .

Dövlət büdcəsi-iqtisadiyyat sahələrinin, ölkənin müdafiə tələblərinin və dövlət idarə orqanlarının maliyyələşdirilməsi üçün lazım gələn pul fondlarının yaranması və istifadəsi ilə əlaqədar, dövlətlə hüquqi və fiziki şəxslər arasında milli gəlirin bölüşdürülməsi üzrə meydana gələn pul münasibətlərdir. Bu münasibətlər isə öz növbəsində, iqtisadiyyatın ayrı-ayrı sahələrində müvafiq tədbirlərin həyata keçirilməsi, ölkənin müdafiəsinin möhkəmləndirilməsi və dövlət idarəetməsinin maliyyələşdirilməsi üçün Büdcə Fondunun yaradılması və istifadəsi ilə əlaqədardır. İqtisadiyyatı inkişaf etdirmək, əhalinin sosial-iqtisadi tələbatlarını ödəmək, ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək və cəmiyyəti idarə etmək məqsədi ilə dövlət öz büdcəsini istehsal və qeyri-istehsal sfereları arasında, iqtisadi regionlar arasında yenidən bölüşdürür. Büdcə vasitəsilə dövlət - ölkənin iqtisadi sistemini, bütövlükdə iqtisadi münasibətləri tənzimləyir.

Cəmiyyət və iqtisadiyyat qarşısında duran vəzifələrdən asılı olaraq dövlət öz gəlirlərini və xərclərini illik büdcə planı formasında tərtib edir. Belə olan halda, dövlət öz gəlirlərinin mənbələrini və xərclərinin istiqamətlərini əvvəlcədən bilir və müvafiq qurumların fəaliyyətini bu məqsədlərə yönəldir. Bu, hər bir dövlətin büdcə siyasətinin əsas amili kimi qəbul edilir və bunun həyata keçməsi ancaq dövlətin mükəmməl büdcə sistemi olduğu şəraitdə mümkündür .

Qeyd etmək lazımdır ki, «büdcə» anlayışı hüquqi-normativ aktlarda və elmi ədəbiyyatda, monoqrafiya və dərsliklərdə bir qədər fərqli mənalarda işlədilir. Məsələn, Rusiya Federasiyasının "Büdcə Məcəlləsi"ndə o, – «dövlət və yerli özünüidarəetmənin vəzifə və funksiyalarını maliyyə cəhətdən təminat üçün nəzərdə tutulan pul vəsaitləri fondunun yaradılması və istifadə olunması forması...» kimi, digər elmi mənbə və dərsliklərdə - «əsas mərkəzləşdirilmiş pul vəsaitləri fondu» , «… pul münasibətlərinin məcmusu, … əsas maliyyə planı» , «… mühüm maliyyə tənzimləyicisi…» , «…real subyektiv maliyyə aləti (vasitəsi)…» , «milli gəlirin yenidən bölgüsünün əsas aləti», «dövlətin müəyyən müddət ərzində, adətən bir ilə gəlir və xərclərinin smetası» kimi ifadə olunur.

Büdcə-vergi siyasəti maliyyə siyasətinin tərkib hissəsi olmaqla, ölkənin sosial-iqtisadi inkişaf konsepsiyasına və iqtisadiyyatın, habelə ayrı-ayrı dövlət orqanlarının, sahibkarlığın inkişafını təmin edən digər dövlət proqramlarına uyğun olaraq hazırlanır. Büdcə – vergi siyasətinin

həyata keçirilməsində əsas məqsəd, ölkədə makroiqtisadi göstəricilərin sabit saxlanmasını təmin etməklə iqtisadi artıma nail olmaq, maliyyə intizamını möhkəmləndirmək, Dövlət büdcəsinin tərtibi və icrasını təkmilləşdirmək, onun şəffaflığını artırmaqı, sahibkarlığa maliyyə dəstəyini gücləndirmək və inflyasiyanın səviyyəsini aşağı salmaqdan ibarətdir.

Eyni zamanda bu siyasətin əsas məqsədlərindən biri də, bütövlükdə büdcənin həcm və tarazlığının tənzimlənməsidir. Burada əsas şərt – iqtisadi siyasət çərçivəsində dövlət xərclərinin həcminə uyğun olaraq, büdcənin vergi gəlirləri hesabına tarazlaşdırılması və nəticə etibarı ilə iqtisadiyyatın özündəki tarazlığın təmin edilməsidir.

Ənənəvi büdcə tarazlığı nəzəriyyəsinə görə, büdcə kəsiri və yaxud büdcə artıqlığı iqtisadiyyatdakı real tarazlığı və ya iqtisadi tarazlığı dəyişdirmir. Buna görə də büdcə-vergi siyasəti elə həyata keçirilməlidir ki, Dövlət büdcəsi istənilən şəraitdə iqtisadiyyatı zəiflətməsin. Ona görə də həyata keçirilən iqtisadi siyasətin pozitiv nəticələrindən başqa, neqativ nəticələrinin də ola bilməsini yaddan çıxarmaq olmaz. İqtisadi tarazlığın təmin edilməsində, məcmu tələb və təklifin uzlaşdırılmasında Dövlət büdcəsinin rolu əvəzsizdir. Belə ki, Dövlət büdcəsinin tarazlığı ümumi iqtisadi tarazlığın taleyini əvvəlcədən müəyyən etmiş olur.

İqtisadiyyatın inkişaf etdirilməsində, istehsalın stimullaşdırılmasında və həmçinin cəmiyyətin sosial-iqtisadi inkişafında Dövlət büdcəsinin çox böyük rolu vardır. Bu da özünü həm kəmiyyət və həm də keyfiyyət baxımından göstərir. Hər bir ölkədə dövlət idarəetmə sisteminin başlıca şərtlərindən biri, bu sahədə görüləcək tədbirlərin həyata keçirilməsi üçün zəruri olan büdcə xərcləri ilə əlaqədardır. Ona görə də hər il tərtib və təsdiq olunan büdcədə sosial xərclərə böyük əhəmiyyət verilir.

Dövlət büdcəsinin istehsal sahələri ilə qarşılıqlı əlaqələrinin ən təsirli metodlarından biri olaraq vergiqoyma və istehsal sahələrinin stimullaşdırılması metodlarını göstərmək olar. İstehsala bu yolla təsir göstərilməsi metodları eyni zamanda Dövlət büdcəsinin öz daxili iqtisadi mahiyyətini və rolunu da daha dərindən və geniş şəkildə aşkar etməyə imkan verir. Büdcənin aşağıdakı istiqamətlərdə: ümumdaxili məhsulun bölüşdürülməsi və yenidən bölüşdürülməsi, iqtisadiyyatın dövlət tənzimlənməsi, sosial-iqtisadi siyasətin həyata keçirilməsinin maliyyə təminatı və mərkəzləşdirilmiş pul vəsaitləri fondlarının yaradılması və istifadəsi prosesində onun məqsədyönlü olmasına dair bütün qanunların gözlənilməsinə nəzarət edilməsini, istehsal sahələrinə göstərdiyi təsiri qeyd etmək lazımdır. Bu funksiyaların yerinə yetirilməsi vasitəsilə büdcə həm istehsalın inkişafını və ümumdaxili məhsulun yaradılmasını, həm də onun bölgüsünü və yenidən bölgüsünü təmin edir.

Dövlət, fondlarının yaradılması, müxtəlif istehsal sahələrinin və təsərrüfat növlərinin stimullaşdırılmasını vergiqoyma metodu ilə həyata keçirir. Büdcənin istehsalla olan bu qarşılıqlı əlaqələrinin reallaşması, büdcə gəlirlərinin müxtəlif pul fondları şəklində formalaşması, onun bölüşdürülməsi, sonra da həmin fondların büdcə xərcləri maddələri üzrə məqsədyönlü şəkildə istifadə olunması formasında baş verir.

Azərbaycan Respublikasının Dövlət Büdcəsi - ölkənin maliyyə sisteminin başlıca halqı, əsas maliyyə planı hesab olunur, ali qanunvericilik orqanı olan Milli Məclis tərəfindən qəbul olunaraq ölkə Prezidenti tərəfindən Qanun şəklində təsdiq olunur. Azərbaycan Respublikasının Büdcə Sistemi haqqında Qanuna görə, büdcə – Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir .

Dövlətin birbaşa tənzimləmə metodlarının əsas istiqamətlərindən biri də iqtisadi artımla bağlıdır. Burada makroiqtisadi tarazlığa imkan verə bilən investisiya, habelə tələblə yığım arasında ən əlverişli nisbətin yaradılması problemi, xüsusilə böyük əhəmiyyət kəsb edir. Dövlətin həyata keçirdiyi iqtisadi tənzimləmə metodları içərisində fiskal siyasət xüsusi yer tutur. Bu siyasət, büdcə vəsaitinin yaranması və ondan istifadə edilməsi ilə əlaqədar dövlətin yeritdiyi maliyyə siyasətinin çox mühüm tərkib hissəsi olmaqla, dövlət xərcləri və vergi ilə bağlı tənzimləmə sistemi kimi iqtisadiyyata stabilləşdirici təsir göstərir. Təcrübə göstərir ki, bəzi ölkələrdə süni büdcə tarazlığının yaradılması bu ölkələrin iqtisadiyyatını zəiflədir, istehsalı isə iflic vəziyyətinə salır.

Büdcədə cəmiyyətin inkişafının tsiklik xarakteri və onun dinamikası əks olunur, köhnə prinsiplər mütləq mənada inkar olunmur, bütün müsbət meyillər isə inkişafın yeni mərhələsində nəzərə alınır. Son iki yüz illik inkişaf ərzində sənaye dünyasının tsiklik inkişafının konkret ifadəsi gah sosial-iqtiadi həyatın bazar tənzimləyicilərinin (iqtisadi səmərəliliyinin yüksəldilməsi meyillərinin özünü məqsəd kimi qəbul etməsi), gah da sosial-iqtisadi proseslərin dövlət tənzimləyicilərinin (sosial ədalətə, sosial bərabərliyə doğru meyillər) rolunun güclənməsində bir-birini əvəz etməsində öz əksini tapmışdır. Məlumdur ki, inkişafın tsiklik xarakterindən irəli gələn nəzəriyyələrdən bir-birini əvəz edən iqtisadi və sosial məqsədlər iqtisadi inkişafın tələbatlarına uyğun olaraq növbəylə aparıcı rol oynamışlar .

Bununla yanaşı iqtisadiyyatın səfərbəredici və qarışıq modelləri arasında bəzi fərqlər mövcuddur. Ayrı-aryı ölkələrin qarışıq iqtisadiyyatını üç tipə ayırmaq qəbul edilmişdir: neostat, neoliberal və mərkəzləşdirilmiş razılaşma . Onların hər üçünün ümumi cəhətini strateji sosial-iqtisadi

məsələlərin həllində dövlətin rolunun artması təşkil edir. Bu məsələlərdən - xarici iqtisadiyyat, ekologiya və fundamental tədqiqatlar sahəsində olan problemlər ön sıraya çıxır. Bununla yanaşı müstəqil statusa malik olan, lakin ümummilli məsələlərin həlli ilə məşğul olan ictimai təşkilatların da rolu artır. Yerli idarə orqanlarına xüsusi fikir verilməli, onlar həmin ərazidə yaşayan əhalinin ən vacib ehtiyaclarını ödəməlidirlər.

Dünya iqtisadiyyatının qloballaması ilə əlaqədar müəyyən proseslər meydana gəlir. Bir ölkə çərçivəsindən kənara çıxan transmilli korporasiyalar iş qüvvəsinin miqrasiyasına, kapitalın və əmək resurslarının ixracına ciddi təsir göstərirlər. Onların təsiri altında dünya təsərrüfatının yeni strukturu formalaşır və beynəlxalq əmək bölgüsü dərinləşir.

Qarışıq İqtisadiyyatın Yaponiya və Asiya-Sakit okean modelləri şəraitində Dövlət büdcəsi öz fərqli xüsusiyyətləri ilə seçilir. XX əsrin ikinci yarısında bu ölkələrin iqtisadiyyatında baş verən struktur dəyişiklikləri yüksək texnologiyalar və ixracyönümlü istehsal sahələrinin inkişaf etdirilməsi ilə səciyyələnirdi. Yapon iqtisadi möcüzəsi ölkənin innovasiya və sosial sahələrində büdcədən daha böyük maliyyələşmə ayrılması ilə bağlı idi.

Bu şəraitdə dövlət xərclərinin xeyli artmasına baxmayaraq, kapital yığımı ilə əlaqədar vergiqoyma bazasının genişləndirilməsi sayəsində əldə edilən səmərə cari büdcə kəsirindən yüksək olmuşdur. Uzun müddət yapon iyeninin digər valyutalarla müqayisədə, məzənnəsinin kəskin surətdə aşağı düşməsinin qarşısı alındı. Bu, ixracın stimullaşdırılmasına şərait yaratsa da, faiz dərəcəsinə mənfi təsir göstərmirdi. Kredit ucuz olaraq qalırdı və bu, həm əmtəə istehsalçıları, həm də dövlət idarə orqanları və ev təsərrüfatı üçün əlverişli idi. Faiz dərəcələrinin müəyyən edilməsində və kommersiya banklarının yenidən maliyyələşdirilməsində mərkəzi banklar fəal rol oynayırdı .

Asiya-Sakit okean regionu ölkələrinin bazarları xarici kapital tərəfindən zəbt edilməsinə baxmayaraq, burada dövlətin rolu fəal olaraq qalırdı. Region ölkələrində strateji planlaşmaya, o cümlədən büdcə planlaşmasına xüsusi fikir verilirdi ki, bu da maliyyə resurslarının milli iqtisadiyyatın əsas istiqamətlərində cəmləşməsinə imkan yaradırdı. «Miqyaslı iqtisadiyyat» effekti yaranırdı və dövlət transmilli maliyyə-sənaye qruplarına çevrilən iri milli korporasiyaların inkişafını müdafiə edirdi.

XX əsrin 50-60-cı illərində büdcənin gəlir bazasının genişləndirilməsi məsələləri və vergilərlə əlaqədar olan mülkiyyət hüquqi nəzəriyyəsi geniş yayılmışdı. Bu nəzəriyyənin banisi R.Koue idi və Nobel mükafatı laureatı A.M.Onore, Amerika hüquqşünası İ.Bekker kimi

məşhur alimlər də bu nəzəriyyənin əsaslarının işlənib hazırlanması üzərində çalışmışdılar .

Büdcə tənzimlənməsi ilə əlaqədar qarışıq iqtisadiyyatın neoliberal tipinin bəzi xüsusiyyətlərini də nəzərdən keçirməyə ehtiyac var. Qarışıq iqtisadiyyatın bü tipi - bazar tənzimləyicilərinə üstünlük verir, dövlətin rolu isə azad rəqabətin qorunub saxlanılması üçün müvafiq şəraitin təmin edilməsi ilə məhdudlaşdırılır. Burada, maliyyə siyasətində M.Fridmanın «monetarist» nəzəriyyəsinə üstünlük verilirdi. Büdcə siyasəti ilə əlaqədar büdcə kəsirinin azaldılmasına yönəldilmiş tədbirlər həyata keçirilirdi və bu, vergilərin yüksəldilməsi və ictimai xərclərin azaldılması yolu ilə baş verirdi.

50-60-cı illərdə ABŞ prezidenti Trumen və Eyzenhauer belə siyasəti həyata keçirirdilər. Lakin C.Kennedi «Nyu ekonomiks» prinsiplərini həyata keçirməyə başladı. Bu prinsiplər Keynsin vergilərin azaldılması və dövlət xərclərinin çoxaldılması yolu ilə məcmu tələbin genişləndirilməsi nəzəriyyəsinə əsaslanırdı. Eyni zamanda, tsiklik inkişafın nəticələrini yumşaltmaq məqsədi ilə büdcə kəsirinin genişləndirilməsində yol verilirdi. Həmin dövrdə iqtisadiyyatın dövlət sektorunun sürətli inkişafı əsasən kosmik və hərbi komplekslərin irimiqyaslı maliyyələşdirilməsi ilə əlaqədar idi. Bu dövrdə dövlətin rolunun güclənməsi sosial müdafiə sisteminin genişləndirilməsinin, işsizliyin səviyyəsinin azaldılmasının və strateji planlaşmanın rolunun artmasının təsiri altında baş veriridi. Bu konsepsiyanı V.Leontyev və C. Helrbeyt öz əsərlərində inkişaf etdirmişdilər .

Strateji planlaşmanın rolu regionların inkişaf proqramlarının işlənib hazırlanmasında əks olunurdu ki, bu da ABŞ-ın Şimal və Cənub rayonları əhalisinin həyat səviyyəsinin bərabərləşməsini təmin edirdi. Bütün bunlar o demək idi ki, iqtisadi inkişafın «neoliberal» modeli tədricən «neostat» modelin elementləri ilə zənginləşirdi. Bu, ABŞ və Qərbi Avropa iqtisadiyyatındakı islahatları bir-birinə yaxınlaşdırırdı. Bütün bunlara baxmayaraq, «neoliberal» model daha çox nəzəriyyə kimi mövcud idi.

Qərbi Avropa, məsələn, Almaniya neoliberalizminin əsas xüsusiyyəti onun sosial yönümlü olmasında idi. Bu model, sosial-bazar modeli konsepsiyasına əsaslanırdı. Müharibədən sonrakı Almaniyada bu nəzəriyyənin davamçısı L.Erxard olmuşdur. Alman neoliberalizmi «ortoliberalist» model idi. Bu modelin həyata keçirilməsi - pul islahatlarını, «dirijizm» nəzəriyyəsindən imtina edilməsini, milliləşmənin ləğv edilməsini, kiçik biznesin mudafiə edilməsini, müəssisələrin idarə olunmasında işçilərin iştirakını nəzərdə tuturdu. Mənfəətə görə verginin və səhmdar cəmiyyətlər üçün müəyyən edilmiş vergilərin azaldılması yolu ilə istehsal fəallığının stimullaşdırılmasına xüsusi fikir verilirdi .

«Nyu ekonomiks» modeli əsasında «neoliberalizm» nəzəriyyəsi tədricən «qarışıq iqtisadiyyat» nəzəriyyəsinə çevrilirdi. Bu xarici bazarlarda rəqabətin güclənməsi və istehsalın təmərküzləşməsi və ixrac potensialının stimullaşdırılmasında dövlətin rolunun fəallaşması ilə əlaqədar idi.

Qarışıq tipli iqtisadiyyatın xüsusiyyətləri Qərbi Avropanın İsveç, Hollandiya, Belçika və digər ölkələrində özünü göstərirdi. Bu iqtisadiyyat «mərkəzləşdirilmiş razılıq iqtisadiyyatı» adı almışdı. Bu ölkələrdəki iqtisadi modelin əsasını işverənlər, hökumət və muzdlu işçilərin birgə məsuliyyəti təşkil edirdi .

Ümumiyyətlə, büdcə-vergi siyasəti, iqtisadyyatın özü-özlüyündə tam məşğulluğa nail olmasını təmin edən avtomatik nizamlayıcılar, real əməkhaqqı elastikliyi, yığım və investisiyaların faiz dərəcəsi, pulun yalnız istehlak üçün tələb edilməsi və s. əsasında reallaşmasını nəzərdə tutur. Keyns bu fərziyyələrin doğru olmadığını qeyd edərək, əməkhaqqının və faiz dərəcəsinin elastik olmadığını, iqtisadiyyatın sərbəst buraxılarsa, ancaq aşağı səviyyəli bir tarazlığa nail olacağını, mənbələrin tam istifadəsi üçün pul təklifini tənzimləyən pul siyasətilə yanaşı, büdcə gəlirini artırmağa yönəlmiş bir maliyyə siyasətinin həyata keçirilməsinin vacibliyini də irəli sürmüşdür. Bu nəzəriyyəyə əsaslanan büdcə siyasətinin həyata keçirilməsi istiqamətləri çox genişdir. Nisbətən zəif inkişaf etmiş ölkələrdə büdcə siyasətinin həyata keçirilməsi və fəaliyyət göstərməsi mümkün deyildir. Çünki məcmu tələbdəki artımın, istehsalı və bilavasitə məşğulluğu artıracağı və pul vəsaiti mənbələrinin tam istifadə olunmasını təmin edəcəyi fikirləri də mövcuddur.

İqtisadi tarazlıq, iqtisadiyyatda məcmu tələb və məcmu təklif tarazlığıdır. Bu tarazlığın təmin edilməsində məcmu tələb və məcmu təklifin uyğunlaşdırılmasında dövlət bölməsinin rolu böyükdür. Dövlət bölməsinin tarazlığı ümumi iqtisadi tarazlığa müsbət və ya mənfi təsir edə bilər. İqtisadi tarazlığın təmin edilməsində istifadə oluna biləcək büdcə-vergi siyasətini ümumi olaraq üç bölmədə cəmləşdirə bilərik. Büdcədə dövlət xərcləri ilə vergilərin bir-birinə uyğun olması büdcə tarazlığı kimi qiymətləndirilir. Dövlət xərclərinin vergilərlə təmin olunmaması, borclanma, yaxud pul emissiyasından istifadə edilməsi - kəsirli büdcə və yaxud büdcənin kəsirlə maliyyələşdirilməsi deməkdir. Ən əlverişli vəziyyət isə toplanan vergilərin dövlət xərclərini üstələməsidir. Belə olan halda, büdcə artıqlığı əmələ gəlir və həmin artıq vəsait adətən, dövlətin qızıl və valyuta ehtiyatlarının artmasına yönəldilir.

Bir qayda olaraq, büdcə-vergi siyasətində büdcə, vergilərlə dövlət xərclərinin tarazlaşdırılmasına əsaslanır. Burada məqsəd odur ki, iqtisadiyyatın özündəki tarazlıq, büdcə qeyri-tarazlığı ilə pozulmasın.

«Büdcənin pul emissiyası yolu ilə tarazlığının təmin edilməsi» nəzəriyyəsində, ilk növbədə, dövlət xərclərini təmin etməsi üçün pul

emissiyası ilə pul təklifi məsələsi mühüm əhəmiyyət kəsb edir. Pul təklifini artırmaq, ilk növbədə, qiymətlərin ümumi normasını artıracaq və iqtisadiyyatda məcmu təklif ilə məcmu tələb artacaq, ancaq məcmu məhsulu müəyyən edən məcmu təklif olmadığından, eynihəcmli mal və xidmətlər daha yüksək qiymətlərlə satılacaq. Bu isə inflyasiya adlanan iqtisadi təhlükənin yaranması deməkdir. Məhz bu nəticələrdən qaçmaq üçün büdcə-vergi siyasətini iqtisadiyyatın vəziyyətinə uyğun olaraq həyata keçirmək lazımdır.

Bəzi ölkələrdə belə bir şəkildə süni tarazlığın yaradılması, məhz bu ölkələrin iqtisadiyyatını çətin vəziyyətə, istehsalı isə zəiflətməklə nəticələnir. Bu da, bazar iqtisadiyyatı şəratiində yeni büdcə-vergi siyasəti tətbiqinin uğursuzluğu kimi qiymətləndirilir. Buna misal olaraq, iqtisadiyyatı güclü və bazar iqtisadiyyatı çoxdan tətbiq olunan, qonşu Türkiyədəki vəziyyətə diqqət yetirsək görərik ki, büdcə siyasətinin «süni tarazlıq» deyilən nəzəriyyəsinin tətbiqi, Dövlət büdcəsində dönüş yaratdığından, milli valyutanın, türk lirəsinin xarici valyutalara nisbətən dəyəri tez-tez dəyişir.

Borclanma investisiya kimi istifadə olunduqda, investisiya və yığım normasını dəyişdirir və o, başqa məqsədlərə istifadə olunduqda isə iqtisadiyyatın real istehsal normasına təsir etmir. Ancaq faiz həddi dəyişərək yeni bir tarazlıq yaradır. Bu da, öz növbəsində büdcə siyasətində çox riskli bir metoddur. Çünki bazar iqtisadiyyatında yaranan büdcə kəsirini hər hansı bir borcalma vasitəsilə tarazlaşdırmaq, gələcəkdə nəinki büdcə kəsirinin artlması, həm də borcların gözlənilməz dərəcədə artmasına gətirib çıxaran amil sayılır.

Büdcə kəsirinin yüksəlməsi çox vaxt yüksək iqtisadi artım dövrləri ilə üst-üstə düşür. Bununla yanaşı, yüksək inflyasiyanın qarşısını maliyyə siyasətində sərt məhdudyyətlər hesabına, büdcə gəlirlərinin xərclərdən üstün olması hesabına almaq mümkündür. V. Perlonun qeyd etdiyi kimi «əgər dövlət sərbəst maliyyə resursları ola bilən özəl sektordan borc götürə bilərsə, o zaman Dövlət büdcəsinin yüksək kəsirliyi mənfi nəticələrə səbəb olmaya da bilər. Müəllifin fikrinə görə, restruktiv maliyyə siyasəti çox zaman iqtisadi tənəzzülə səbəb olur. Qeyd etmək lazımdır ki, pul kütləsinin məhdudlaşdırılması xarici kapitalın axınını gücləndirir, beynəlxalq maliyyə axınını sürətləndirir, milli iqtisadiyyatın xarici valyuta ilə əsaslandırılmamış zənginləşməsinə səbəb olur və bu da ödəniş balansına mənfi təsir göstərir».

Adətən, büdcə-vergi siyasətinin tətbiq edilməsi bilavasitə büdcə kəsiri vasitəsilə məcmu tələbdəki azlığı qaydaya salır və iqtisadiyyatı tam məşğulluğa cəlb edir. Fikrimizcə, iqtisadiyyatı zəif inkişaf etmiş ölkələrdə işsizliyin səbəbi məcmu tələbin aşağı səviyyədə olmasında deyil, iqtisadiyyatda mövcud investisiya bazarının hərəkətə gətirə biləcəyi

əməyin həcmindəki artıqlıqdır. Belə ölkələrdə investisiya qoyuluşu və yaxud investisiya imkanları az, iş qüvvəsi isə daha çox olur. İnkişaf etmiş ölkələrin iqtisadiyyatı uzunmüddətli məcmu təklif və məcmu tələb artımının tarazlaşmasına əsaslanır.

Keynsin «büdcə siyasəti» nəzəriyyəsi inkişaf etmiş ölkələrin əsaslandığı əsas nəzəriyyədir. İqtisadiyyatın müasir inkişaf səviyyəsi bu nəzəriyyənin bəzi müddəalarının real olmadığını sübut etsə də, iqtisadi tarixdə, dünya iqtisadiyyatının ən güclü iqtisadi amillərindən biri kimi qiymətləndirilir. Bu tədbirlərin həyata keçirilməsi, eyni zamanda, iqtisadiyyatın aparıcı sahələrində struktur islahatlarının sürətləndirilməsi ilə müşaət olunacaqdır ki, bu da ümumi iqtisadi artımın əsas şərtidir. Aparılan struktur islahatları yığım əmsalının artırılması və vergiqoyma bazasının genişləndirilməsi ilə yanaşı, büdcə gəlirlərinin artırılması, büdcə xərclərinin şəffaflığının və idarə olunmasının səmərəliliyinin yüksəldilməsi, xəzinə öhdəlikdərinin tam yerinə yetirilməsi hesabına büdcə təşkilatları tərəfindən yeni borcların yaranmasına yol verilməməsi ilə nəticələnir.

Milli iqtisadiyyatın sabit inkişafını təmin edən büdcə, maliyyə siyasətinin məqsədini ifadə edən və hər il tarazlaşdırılan maliyyə sənədidir. Bu problemi bir qədər dərindən və hərtərəfli nəzərdən keçirdikdə aydın olur ki, belə büdcə dövlətin fiskal siyasətinin səmərəliliyini ya tamamilə aradan qaldırır, yaxud da aşağı salır. Bu siyasətlə əlaqədar konsepsiyaların mahiyyəti ondan ibarətdir ki, büdcə hər il yox, iqtisadi tsiklin gedişində tarazlaşdırılmalıdır. Bu konsepsiyanın məntiqi cəhətdən əsaslandırılması olduqca sadədir. Adətən, istehsalın azalmasının qarşısını almaq üçün dövlət, vergiləri azaldır və dövlət xərclərini artırır, yəni şüurlu surətdə müvəqqəti olaraq büdcə kəsirinin artmasına şərait yaradır. İstehsalda yüksəlişə nail olunduqda vergilər artırılır, dövlət xərcləri isə ixtisar olunur. Büdcədə əmələ gələn müsbət qalıqdan, istehsal azaldığı dövrdə meydana çıxan kəsirin «örtülməsi» üçün istifadə edilir.

Beləliklə, dövlət, bu cür siyasət yeritməklə, iqtisadi tsiklin müxtəlif mərhə- lələrində büdcəni tarazlaşdırır. Bu konsepsiyanı reallaşdırdıqda meydana çıxan başlıca problem ondan ibarətdir ki, iqtisadi tsikldə azalma və yüksəliş dövrləri müddətlərinə görə eyni olmurlar. İstehsalın uzunmüddətli azalma meyli qısamüddətli yüksəliş dövrü ilə əvəz oluna bilər, yəni istehsal azaldığı dövrdə əmələ gələn büdcə kəsiri və dövlət borcu yüksəliş dövründə əldə edilən, çox da böyük olmayan müsbət qalıqla örtülmür. Bu isə o deməkdir ki, büdcədə vaxtaşırı kəsir əmələ gələ bilər. Hər hansı bir dövlətin iqtisadi tənzimləmə metodlarından biri də onun yeritdiyi pul-kredit siyasətidir. Bu siyasətin iqtisadiyyata kəsirinin aydınlaşdırılmasına iki yanaşma metodu diqqəti daha çox cəlb edir.

Bunlardan biri - modernləşdirilmiş «Keyns nəzəriyyəsi», digəri isə «monetarizm»dir. Keynsçilər pul-kredit siyasətinin faiz dərəcələrindən, monetaristlər isə pul üzrə təklifdən ibarət olduğunu deyirlər. Keynsçilərin fikrincə, pul üzrə təklifin dəyişməsinin səbəbi faiz dərəcələrinin dəyişməsidir. Bu isə, öz növbəsində, investisiyaya olan tələbin dəyişməsinə gətirib çıxarır.

XX əsrin 70-ci illərində Keyns məktəbində böhran başlayır və bunun nəticəsində, iqtisadi nəzəriyyədə «neoklassik» istiqamət, o cümlədən onun müasir forması olan «monetarizm» üstünlük qazanır. «Monetarizm» nəzəriyyəsinə görə, bazar iqtisadiyyatı daxilən sabit sistemdir. Burada mənfi hallar ona görə baş verir ki, dövlət iqtisadiyyata lüzumsuz müdaxilə edir. Məhz bu səbəbdən də bu müdaxilə minimuma endirilməlidir.

Monetarizmin tanınmış nümayəndəsi M.Fridman monetar siyasətdə tarazlaşdırılmış «pul qaydaları» ideyasını irəli sürmüşdür. Bunun mahiyyəti ondan ibarətdir ki, dövlət tədavüldə olan pul kütləsinin daim artmasını müdafiə etməlidir. Onun fikrincə, tədavüldə olan pul kütləsinin artımına ciddi nəzarət olunmalıdır. Pul kütləsi həddən çox artdıqda inflyasiya baş verir, az olduqda isə ümummilli məhsulun artım sürəti aşağı düşür. M.Fridmanın «pul qaydaları» keçən əsrin 70-ci illərinin axırlarında ABŞ və Böyük Britaniyanın pul siyasətinin əsasını təşkil etmişdir.

Pul-kredit siyasətini müasir modelləri də mövcuddur. Onlar «keynsçilik» və «monetarizm»in ən səmərəli ünsürlərinin birləşmiş variantıdır. Başqa sözlə, hər nəzəriyyədə ən səmərəli ünsürlər seçilmiş və onlardan istifadə edilmişdir. Hazırda uzunmüddətli dövrdə pul-kredit siyasətində monetar yanaşmalar üstünlük təşkil edir. Bununla birlikdə dövlət ən çevik iqtisadi manevretmədə faiz dərəcələrinin, bilavasitə təsirindən, istifadə olunmasından imtina etmir, əksinə, ondan hərtərəfli yararlanır.

*Respublikanın büdcə sistemi bütün büdcələrin vahidliyi və müstəqilliyi prinspləri üzərində qurulmuşdur. Bütün büdcələr sərbəstdir və onların hər biri müəyyən vəzifə və funksiyanı yerinə yetirir. Hazırda respublikamız müstəqil bir dövlət olmaqla özünün sərbəst büdcə hüququna malikdir. «Büdcə hüququ» məfhumunda Dovlət büdcəsi və onun ayrı-ayrı halqalarının tərtibi, müzakirəsi, təsdiqi və icrası, eləcə də büdcənin yerinə yetirilməsinə dair hesabatların tərtibi və təsdiqi qaydaları üzrə mərkəzi və yerli dövlət hakimiyyət orqanlarının fəaliyyətini nizamlayan hüquqi normaların məcmusu başa düşülür .*

*Dövlət büdcəsinin bölüşdürücü və nəzarət funksiyaları bir-birilə sıx əlaqədardır. Hər hansı bölgü nəzarətsiz həyata keçirilmir, yəni pul vəsaitləri ayrı-ayrı sahələrə yönəldildikdən sonra, onun öz təyinatına uyğun qənaətlə xərclənməsinə ciddi nəzarət edilir. Bu funksiyalar Dövlət*

*büdcəsinin mahiyyətini özündə əks etdirir və iqtisadiyyatın bütün sahələri ilə sıx surətdə bağlıdır. Bu funksiyalar əsas etibarilə bölgü və nəzarət funksiyası kimi qəbul olunur . Bütün bunlar birlikdə Dövlət büdcəsi mexanizmini təşkil edir. Dövlət büdcə mexanizmi ilə özünün sosial-iqtisadi məsələlərini həll edir, maddi istehsal və qeyri-istehsal sferasının inkişaf etdirilməsində əsas rol oynayır.*

Azərbaycan Respublikasının Qanunvericilik sistemində ən yüksək hüquqi qüvvəyə malik olan Azərbaycan Respublikasının Konstitusiyasında büdcə sisteminin əsas tərkib hissələrindən biri olan, Dövlət büdcəsinin hüquqi əsasları barədə bir sıra müddəalar öz əksini tapmışdır.

Konstitusiyanın 109.2 və 119-cu maddələrinə əsasən – «Azərbaycan Respublikasının Nazirlər Kabineti Dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir, Azərbaycan Respublikasının Prezidenti isə həmin layihəni Milli Məclisin təsdiqinə verir». Konstitusiyanın 95-ci maddəsinin 5-ci bəndinin tələblərinə əsasən – «Azərbaycan Respublikasının Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət məsələlərinin həlli Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə daxildir» .

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikası Qanununun qəbulu, ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynayan, dövlətin iqtisadiyyata təsir alətlərindən olan Dövlət büdcəsinin tərtibi prosesinin əsaslarını müəyyənləşdırmişdir.

«Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununda icmal büdcə anlayışı özündə - Dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, büdcə təşkilatlarının büdcədənkənar əməliyyatların, büdcədənkənar dövlət fondlarının gəlir və xərclərinin funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində icmalını əks etdirir. İcmal büdcə göstəricilərinin növbəti büdcə ili üçün Dövlət büdcəsi haqqında Qanunda təsdiq olunması mühüm əhəmiyyət kəsb edir. Belə ki, əvvəllər Dovlət büdcəsi yalnız dövlət sektorunun əməliyyatlarının bir hissəsini özündə birləşdirirdisə, İcmal büdcədə dövlətin demək olar ki, bütün maliyyə resursları öz əksini tapır. Bu Qanunun mühüm cəhətlərindən biri də - Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar əməliyyatlarının Dövlət büdcəsinin tərkibinə daxil edilməsi olmuşdur.

Azərbaycan Respublikası Dövlət büdcəsinin məqsədi - ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdən ibarətdir.

Büdcə gəlirlərini təmin edən orqanların təqdim etdikləri büdcə layihələrinə keçən ildə əldə edilmiş və cari ildə gözlənilən büdcə gəlirlərinin məbləği, hesablanmış büdcə gəlirlərinin keçən ildə faktiki və cari ildə gözlənilən məbləğləri, büdcə gəlirlərinin keçən ildə faktiki və cari ilin sonuna gözlənilən qalığı, növbəti il üçün təklif olunan büdcə gəlirlərinin həcmi, ödənilməli olan vergi və ödənişlərin məbləği, büdcə-vergi siyasətində nəzərdə tutulmuş tədbirlərin qiymətləndirilməsinə dair göstəricilər, sonrakı üç il üçün gəlirlərin qiymətləndirilməsi, digər zəruri göstəricilər əlavə olunmalıdır.

Büdcə-vergi siyasətində nəzərdə tutulmuş tədbirlərin qiymətləndirilməsinə dair göstəricilər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin hazırladığı büdcə göstəricilərinin tərtiblərinə dair təlimat məktubuna müvafiq olaraq tərtib olunur və təqdim edilmiş hesablamalarda büdcə-vergi siyasətində nəzərdə tutulmuş tədbirlərin büdcə gəlirlərinə təsiri (tədbirin həyata keçirilməsində mütləq ifadədə yaranan dəyişiklik və onun büdcə gəlirlərində xüsusi çəkisi), büdcə-vergi siyasətində nəzərdə tutulmuş tədbirlərin qiymətləndirilməsinə dair hesablamalarla bağlı məlumatlar daxil edilməlidir.

Dövlət büdcəsinin kəsirinin məbləği Dövlət büdcəsi haqqında Qanunla müəyyən edilir və məbləğ dövlət borcu, kredit və digər mənbələr hesabına bağlanılır.

*Dövlət büdcəsi müəyyən dövr üçün tərtib edilir və müddətli bir qayda olaraq bir il nəzərdə tutulur. Həmin ilə dünyanın bütün ölkələrində maliyyə ili deyilir. Maliyyə ili təqvim ili demək deyildir, lakin təqvim ilinə uyğunlaşdırılması çox asanlıqla mümkündür. Dünyada qəbul olunmuş ümumi ənənə ondan ibarətdir ki, yeni büdcə təqvim ilinin bitməsinə ən azı iki ay qalmış təsdiq olunur və yeni maliyyə ili başlayır.*

*Dövlət büdcəsində dövlət xərcləri və gəlirlərində qarşıdan gələn bir il üçün nəzərdə tutulur. Maliyyə ilinin sonunda büdcəni idarə edənlər və həyata keçirənlər dövlət xərclərinin və gəlirlərinin ölçülərinin və mənbələrinin proqnozlaşdırılan şəkildə icra olunub-olunmadığı barədə hesabat verirlər. Maliyyə ili başlanmamışdan əvvəl yeni maliyyə ilinin gəlir və xərcləri proqnozlaşdırılır. Bu proqnozlar əsasında da növbəti ilin büdcəsi tərtib olunaraq təsdiqə verilir.*

*Bazar iqtisadiyyatı şəraitində Dövlət bölməsində qarşıdan gələn bir il müddətində hansı xidmət proqramlarının reallaşdırılacağı, bu proqramların maliyyə təminatının məbləği və hansı bölmələr tərəfindən maliyyələşdiriləcəyi əvvəlcədən müəyyən edilir və məhdudlaşdırılır. Bütün bunlar tətbiq olunarkən büdcə layihəsində öz əksini tapır və təsdiq olunaraq icraya verilir.*

*Büdcə layihəsi təsdiq olunarkən qanunverici orqanın müəyyən edilmiş dövlət xidmət proqramlarını həyata keçirmək üçün büdcəni icra edən*

*orqana verdiyi səlahiyyət təxsisatın məbləği çərçivəsində olur. Yəni büdcəni idarə edənlər hər bir xidmət üçün müəyyən olunmuş məbləğdə pul xərcləməlidirlər. İcra orqanı qanunda ona verilmiş bu səlahiyyəti aşa bilməz və ya dəyişdirə bilməz. Təxsisatlar (ayrılmış məbləğ) müəyyən bir dövlət proqramına xərclənə biləcək ən yüksək hədlər daxilində hesablanır və icra orqanına həvalə edilir. Belə bir sistematik idarəçiliyin izahatlarının nəticəsi ondan ötrüdür ki, qanunla qabaqcadan icazə verilmədikdə müəyyən bir sahə üçün (istisna halları nəzərə almasaq) müəyyən olunmuş məbləğdən artıq vəsait xərclənməsi və ya müəyyən olunmuş məbləğin miqdarının dəyişdirilməsi yolverilməzdir. Dövlət büdcəsinin büdcə qanunu qəbul olunmadan və dövlətin səlahiyyətli nümayəndələri tərəfindən səlahiyyət verilmədən heç bir dövlət xərci həyata keçirmək və gəlir toplamaq (vergi qanunları qəbul olunmuş olsa belə) mümkün olmadığı kimi, büdcə qəbul olunduğu zaman belə verilmiş səlahiyyətlərdə və təxsisatlarda dəyişiklik edilməsi də yalnız qanunverici orqanın səlahiyyətlərinə daxildir.*

*Hal-hazırda Dövlət büdcəsinin gəlirləri üzrə şəffaflığın artırılmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir. Dövlət büdcəsi dövlət maliyyəsinin, demək olar ki, 60-70%-ni özündə birləşdirir.*

Büdcə Qanunvericiliyinə müvafiq olaraq büdcə-vergi sisteminə daxil olan bütün büdcə növləri sabit və ardıcıl daxil olan gəlir mənbəyinə malik olmalıdır. Ona görə də Dövlət büdcəsinə daxil olan gəlirlər qanunvericilik əsasında büdcə həlqələri arasında bölüşdürülür. Bu məqsədlə büdcə halqaları zəruri gəlir mənbəyi ilə təmin edilməklə, hər bir regionun sosial-iqtisadi inkişafı üçün lazımi məbləğdə maliyyə vəsaiti müəyyənləşdirilir.

Qeyd etmək lazımdır ki, büdcə təsnifatında dünya təcrübəsində istifadə olunan Milli Hesablar Sistemindən, Beynəlxalq Maliyyə Statistikasının metodologiyasından, ayrı-ayrı dövlətlərdə tətbiq olunan təsnifatlardan istifadə edilməklə formalaşması, təsnifatın beynəlxalq standartlara cavab verməklə, büdcə göstəricilərinin, onun gəlir və xərclərinin uçotunun və iqtisadi istiqamətlərinin daha da aşkar və şəffaf həyata keçirilməsinə, büdcədən maliyyələşən və ya əlaqəsi olan dövlət və qeyri-dövlət orqanlarının funksiya və vəzifələrinin yerinə yetirilməsi üçün ayrılan vəsaitlərin istiqamətlərinin daha da konkretləşdirilməsinə imkan verə bilər.

Büdcə gəlirləri iqtisadi fəaliyyətin ən vacib sahələrindən biridir və dövlət gəlirlərinin 80%-ə qədərini vergilər təşkil edir. Vergilərin iqtisadiyyatda rolunu dövlət xərclərinin rolu ilə eyni şəkildə izah etmək mümkündür və onun gəlirlərin bölgüsünə və məşğulluğa göstərdiyi təsirlər daha böyükdür. Vergilər istehsala stimullaşdırıcı təsir göstərdiyi kimi, investisiyaların təşviq edilməsinə də təkan verən amillərdəndir.

Adətən, vergilərin investisiyalara təsiri, biznes sahəsindəki etibarlılığın zəifləməsində və ya güclənməsində özünü göstərir. Eyni zamanda vergilər investisiya qoyuluşunda istifadə olunan yığımların bölgüsünü dəyişərək investisiya həcminə təsir edir. Vergi faizinin artması investisiyaya azaldıcı təsir göstərdiyi halda, vergilərin aşağı salınması investisiyaları artıra bilər.

Vergilər istehsal məsrəflərini azaltmaqla və ya artırmaqla istehsalın ümumi həcminə də çox böyük təsir göstərə bilər. İstehsalçılar satın aldıqları mallara əlavə dəyər vergisi ödəyirlər. Bu vergilər istehsal maliyyəsinə və istehsal qiymətlərinə böyük təsir göstərir. Ona görə də istehsalçıların satın aldıqları mallar və xidmətlərdən tutulan vergilərin müəyyən dövrlərdə artırılması və ya azaldılması istehsal maliyyəsinə və istehsal qiymətinə də təsir edir. Nəzərə almaq lazımdır ki, biznesin müxtəlif sahələri üzrə vergilər fərqli dərəcələrdə tətbiq olunmaqla qeyri-bərabər şəkildə bölüşdürülür, bəzi sahələrdə vergi yükü ağır, bəzilərində isə yüngül və ya nisbətən azdır.

İqtisadiyyatda stimullaşdırma siyasətinin tərkib hissəsi olmaqla bəzi sahələrdə vergi yükü azaldılır, bəzi sahələrdə isə artırıla bilər. Burada da əsas məqsəd maliyyə mənbələrinin istifadəsini dəyişdirmək və onun hərəkətini sürətləndirməkdən ibarətdir. «Qeyd etmək lazımdır ki, makroiqtisadi səviyyədə müəyyənləşdirilən vergi yükü həqiqi mənzərəni bir qədər təhrif olnunmuş şəkildə təsvir edir. Belə ki, ölkədə vergi tədiyyəçilərinin ödədiyi vergilərin ümumdaxili məhsula nisbəti kimi hesablanan vergi yükü tədiyyəçilərin fərqli xüsusiyyətlərini, məsələn, onların gəlirlərinin əldə edilməsi ilə əlaqədar istehsal və tədavül xərclərinin strukturunu, istehsalın, elm və fond tutumunun fərqli olmasını, rentabellik səviyyəsini və s. kimi vacib amilləri nəzərə almır».

«Vergidən yayınmanın ən çox rast gəlinən formaları nağd pul dövriyyəsi sferasında əməliyyatlar və uçotdankənar pul gəlirlərinin yayınması («gizli» nağd pul), uçotdankənar məhsul istehsalı və satışı, həmçinin «vergilərin optimallaşdırılması» üsulları ilə faktiki olaraq leqallaşdırılmış xərclərin şişirdilməsidir. Bir qayda olaraq, vergilərdən yayınma və iqtisadi cinayətkarlıq sıx qarşılıqlı əlaqəyə malikdir».

*İqtisadiyyata dövlət təsiri haqqında danışdıqda, ilk növbədə, iki müxtəlif üsulu nəzərə almaq lazımdır: avtoritar və dolayı üsul. Avtoritar təsir dövlətin özünün hakim səlahiyyətlərini həyata keçirdiyi hallarda əl atdığı birbaşa məcburiyyət təsiridir. Dolayı təsir isə cəmiyyətin azad üzvlərinin, dövlətə gərəkli istiqamətə yönəldilməsidir. Bir qayda olaraq, iqtisadiyyata dövlətin dolayı təsirinə daha çox üstünlük verilir. Çünki bu üsul daha səmərəli nəticələr verə bilir.*

*Dolayı təsir dövlətin iqtisadiyyata həm avtoritar, həm də dolayı müdaxiləsinin aləti ola bilər. Avtoritar müdaxilə dolayı müdaxilədən daha*

*səmərəsizdir, çünki hər hansı bir fəaliyyətə məcbur edilən şəxslər öz istəyi ilə fəaliyyət göstərən və şəxsi mənafelərə tabe olanlardan fərqli olaraq, icraçılığa az meyillidirlər. Buna görə də dövlətin vergi sisteminə avtoritar təsiri, xüsusilə ayrı-ayrı vergilərin dərəcələrinin qaldırılması və yaxud yeni vergilərin tətbiq edilməsi, ilk növbədə, təkcə dövlətə fayda verir, əslində isə müəssisələrin maliyyə vəziyyətini sarsıdır və deməli, son nəticədə, dövlət xəzinəsinə potensial ödənişlərin məbləğinin azalmasına gətirib çıxarır.*

*Yetkin vergi sisteminə hər hansı bir müdaxilənin mümkün nəticələrini qiymətləndirmək çox çətindir. Bunun üçün çoxamilli iqtisadi təhlil aparatından istifadə etmək olar, lakin bu və ya digər amilin əhəmiyyətinin qiymətləndirilməsində buraxılan hər hansı bir səhv tədqiqat nəticələrinin yanlış izahına gətirib çıxarır. Buraya təcrübədə bütün, o cümlədən də ən əhəmiyyətli amilləri nəzərə almaq imkanının heç də həmişə olmadığını əlavə etsək, bu və ya digər verginin tətbiqi və dərəcələrinin dəyişdirilməsi proqnozunun düzgünlüyü sıfıra endirilə bilər.*

*Fərz edək ki, zinət əşyalarına tətbiq edilən verginin yükünü, onları alan varlı şəxslər çəkəcəklər, lakin bu halda, inkişaf etmiş ölkələrin zərgərlik istehsalının rəqabəti ilə əlaqədar olaraq istehsalçı qiymətlərin mövcud səviyyəsini saxlamaqdan ötrü öz işçilərinin əmək haqlarını azaltmağa çalışacaqlar. Beləliklə, hökumət təsirinin iqtisadi nəticələri düzgün qiymətləndirilmədikdə hökumətin apardığı iqtisadi siyasətin qiymətləndirilməsinə mənfi təsir edən yeni amillər də qüvvəyə minə bilər.*

*Lakin yalnız pul vəsaitlərinin artırılmış emissiyası büdcə kəsirini əhəmiyyətli dərəcədə azaltmağa qadir deyil və onda hökumət çox vaxt vergi dərəcələrinin və yığılan vergilərin sayının artırılması ilə məhdudlaşan vergi sisteminin islahatına başlayır. MDB ölkələrinin bəzi hökumətləri inflyasiyanın kəskin sıçrayışından sonra, məhz belə hərəkət etdilər, lakin onlar bu cür addımların ölkənin iqtisadi vəziyyətini daha da sarsıtması haqqında düşünmürdülər. Dünya təcrübəsində isə buna aid misallar çoxdur. Məsələn, Fransada İkinci Dünya müharibəsindən sonra vergilər daha çox dövlət xərclərini maliyyələşdirməkdən ötrü deyil, artıq olan alıcılıq qabiliyyətini sıxışdırmaq məqsədi ilə tətbiq olunurdu. AFR-də 1966-cı ildə iqtisadiyyatı təhlükə altına alan inflyasiya ilə mübarizə üçün vergilərin artırılması həyata keçirildi, bu isə hökumətin tamamilə nüfuzdan düşməsi ilə nəticələndi.*

*Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, vergilər ölkə iqtisadiyyatının maliyyə tənzimlənməsinin ən səmərəli mexanizmlərindən biri olmaqla, onun ölkənin iqtisadi inkişafına təsiri aşağıdakı yollarla mümkündür:*

*- dövlət tənzimlənməsi üçün tələb olunan vəsaitlərin toplanması;*

*- hökumətlərin vergi sisteminin çevik tənzimlənməsi vasitəsi ilə xalq təsərrüfatı kompleksinin bütün sahələrinin inkişafına təsir göstərməsi.*

*Dövlətin iqtisadi siyasətinin aləti kimi vergilər cəmiyyətdə bazar münasibətlərinin inkişaf etməsi ilə və yanaşı, müxtəlif ictimai qrupların gəlirlərinin, qismən bərabərləşdirilməsi istiqamətində, getdikcə daha çox əhəmiyyət kəsb etməyə başlayır. Qeyd etmək lazımdır ki, təkcə fiskal üsullarla yığılan pul vəsaitlərinin həcmi deyil, həm də vergi siteminin quruluşu da getdikcə dəyişir.*

*Əgər XX əsrin əvvəllərində vergi daxilolmalarının əsas hissəsini (70-80%) dolayı vergilər təşkil edirdisə, bazar təsərrüfatının inkişafı artıq bu nisbəti xeyli dəyişdirmişdir. Yəni birbaşa vergilərdən daxilolmalar nəzərəçarpacaq dərəcədə artmağa başlamışdır.*

«Müxtəlif ölkələrin vergi sistemlərinin fəaliyyət göstərməsinin təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, səmərəli milli vergi sistemlərinin qurulması variantları özünü müxtəlif ölkələrdə mövcud olan və yerli vergilərin ayrı-ayrı növlərinin formalaşması və fəaliyyət nəticələrinin spesifikasında göstərən maliyyə münasibətlərinin konkret iqtisadi bazar xüsusiyyətləri ilə bilavasitə əlaqədardır» .

Beynəlxalq təcrübədə inkişaf səviyyələrinə uyğun olaraq hüquqi şəxslərin mənfəətindən və gəlirlərinin ayrı-ayrı növlərindən gələn vergi gəlirləri müxtəlif paylara malikdir. Təcrübə göstərir ki, investisiya qoyuluşlarının artırılması və genişləndirilməsi gələcəkdə mənfəət vergisinin artmasının ilkin şərtlərindən biri sayıla bilər. Hal-hazırda respublikamızda bu verginin dərəcəsi 22 faiz, Yunanıstanda 35 faiz, ABŞ-da 35 faiz, Avstraliyada 34 faiz, Almaniyada 34 faiz, İngiltərədə 30 faiz, İtaliyada 33 faizdir.

«Vergi Məcəlləsi»ndə nəzərdə tutulduğu kimi, respublikamızda mənfəət vergisi ölkə daxilində fəaliyyət göstərən bütün hüquqi şəxslərin əldə etdikləri mənfəətə tətbiq edilən vergidir.

Büdcə gəlirlərinin formalaşmasında xüsusi yer tutan vergi növlərindən biri də fiziki şəxslərdən gəlir vergisidir. Bu vergi növü vergi sistemindəki payına görə əhəmiyyətli yer tutur. Əksər ölkələrdə bu vergi növü Dövlət büdcəsinə daxil olan gəlirlərin təqribən 25-30 faizini, respublikamızda isə 15-17 faizini təşkil edir. Fiziki şəxslərin gəlirlərinin həcmindən asılı olaraq, respublikamızda bu vergi növü 14 və 35 dərəcə ilə, ABŞ-da 35 faiz, Avstriyada 50 faizlə tətbiq olunur.

*Bu vergi dərəcələri, eyni zamanda fiziki şəxslərin illik məcmuu gəlirləri üzrə də tətbiq olunur. Azərbaycan Respublikasında aylıq gəlirə tətbiq edilən vergi dərəcələri ayrıca bir maddə şəklində müəyyən olunur və gəlir vergisi hər bir fərdin ayrılıqda qazandığı gəlirə uyğun müəyyən edilir. Gəlir vergisi ödəyiciləri respublika ərazisində istər daim yaşayış yeri olan, istərsə də olmayan Azərbaycan Respublikası vətəndaşları, xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər hesab olunurlar.*

*Fiziki şəxslərdən gəlir vergisinin obyekti əsas etibarilə respublika ərazisində şəxsi gəlir formasında qazanılan əməkhaqqıdır. Bazar iqtisadiyyatı şəraitində Dövlət büdcəsində çox mühüm yer tutan fiziki şəxslərdən gəlir vergisindən daxilolmaların tam həcmdə tutulması və onun artırılması vergi orqanları qarşısında duran ən vacib vəzifələrdən biridir.*

Vergi siyasətinin ən mühüm istiqamətlərindən biri kimi əlavə dəyər vergisinin iqtisadi tənzimləmədə əhəmiyyəti danılmazdır. Əlavə dəyər vergisi – malların, işlərin, xidmətlərin istehsalı prosesində yaranan və onlar satıldıqca dəyər artımının bir hissəsinin vergi şəklində büdcəyə alınmasıdır. Əlavə dəyər vergisi satış zamanı reallaşdırılan məhsulun dəyərindən tutulur. Bu verginin faiz dərəcəsi və hesablanması, vergitutma obyektləri hər bir ölkə üzrə müxtəlif cür müəyyən olunur.

ƏDV kimi aksizlər də dolayı vergilər olmaqla, dövlətin büdcə siyasətinin ən mühüm alətlərindən biridir. Dövlət bir çox hallarda öz iqtisadi maraqlarını bu vergi vasitəsi ilə ifadə etməyə çalışır. Bəzi məhsulların kütləvi istehsalının qarşısının alınması, yaxud azaldılması və ya əksinə, bəzi məhsulların istehsalının artırılması büdcə siyasətinin əsas istiqamətlərindən biri hesab edilir. Ölkə daxilində milli istehsalın qorunması və qiymətlərin sabit saxlanılmasında aksizlərin böyük rolu vardır. İqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, verginin bu növü, demək olar ki, əksər ölkələrdə tətbiq olunur. Bu vergi üzrə daxilolmalar büdcə gəlirlərinin 15 – 20 faizini və bəzən daha çox hissəsini əhatə edir. Aksiz dərəcələri hər bir ölkə üzrə fərqli olaraq, hər bir məhsul növü üzrə müxtəlif dərəcələrlə müəyyə edilir və toplanılır. Respublikamızda aksiz tətbiq edilən kütləvi istehlak malları - spirtli içkilər, siqaret, benzin hesab edilir. Bu vergi faizləri məhsul və xidmətin qiymətinə daxil olur.

Təbii ki, vergi ağırlığının artım həddini kəmiyyətcə müəyyən etmək elə də asan deyildir. Bəzi ölkələrin əhalisi gəlirlərin 50%-nin vergiyə cəlb olunmasını adi bir şey kimi qəbul edir, digərlərində isə (ABŞ-da olduğu kimi) gəlirlərin 30%-nin belə yenidən bölüşdürülməsi geniş etiraza səbəb olmuşdu, bu etiraz («Vergi üsyanı» adı almışdır). Bu, mühafizəkar ideyaların genişlənməsinə və 80-ci illərdə R.Reyqanın mühafizəkar islahatlarının yaranmasına səbəb oldu. Məhz bunu nəzərə alaraq, ingilis iqtisadçısı R.Kleyn milli gəlirin yenidən bölüşdürülən hissəsini iqtisadi amillərlə deyil, daha çox siyasi amillərlə izah edirdi. Onun fikrincə, «Əslində xərclərin müəyyən səviyyəsini, yəni vergilərin də müəyyən səviyyəsini mümkün edə bilən siyasi sistemdən söhbət gedə bilər. Əgər güclü fəhlə hərəkatı dövlət qərarlarının qəbul edilməsi prosesinə təsir göstərərsə, o zaman hökumət dövlət xərclərinin İngiltərə ilə müqayisədə, daha yüksək səviyyəsini təmin edə bilər, məsələn, İsveç və Avstriyada olduğu kimi».

XX əsrin 80-ci illərində «təklif iqtisadiyyatı» nəzəriyyəsi geniş yayılmışdı. Bu nəzəriyyənin ən görkəmli nümayəndəsi məşhur «vergi əyrisini» təsvir və şərh etmiş A.Laffer idi. «Təklif iqtisadiyyatı» nəzəriyyəsinin əsasını dövlət xərclərinin azaldılması, vergilərin və dövriyyədəki pul kütləsinin azaldılması, strateji planlaşmanın aparıcı rolundan imtina edilməsi təşkil edirdi. Bu nəzəriyyəyə görə, təklif tələbi qabaqlamalıdır. Təklifin stimullaşdırılması üçün isə vergilər azaldılmalıdır. Laffer əyrisindən məlum olur ki, vergi ağırlığının artırılması yığıma, investisiyalara, əmək məhsuldarlığına mənfi təsir göstərir. Vergilərin yüksəldilməsi investisiyaların, əsasən vergiqoymadan kənar sahələrə yönəldilməsinə səbəb olur. Vergilər yığımı azaldır, bu isə investisiya fəallığına mənfi təsir göstərir .

Bu nəzəriyyə vergilərlə yanaşı, dövlət xərclərinin azaldılmasına da geniş yer verir. Qeyd olunur ki, dövlət xərclərinin genişləndirilməsi inflyasiya və vergilərin yüksəldilməsinə səbəb olur, bu da öz növbəsində büdcə kəsirinin artmasına, dövlət borclarının çoxalmasına, yığımın azalmasına gətirib çıxarır. Bu, o deməkdir ki, dövlət xərclərinin azalması inflyasiyanın zəiflədilməsinə və vergilərin azaldılmasına imkan verir. Vergi islahatları vergi dərəcələrinin azaldılmasını, vergi güzəştlərinin artırılmasını, vergiqoymada disproporsiyaların aradan götürülməsini, sürətli amortizasiyanın yeni sisteminin tətbiqini, investisiyalar üçün vergi güzəştli kreditlərin verilmə şərtlərinin genişləndirilməsini, elmi-texniki tərəqqinin stimullaşdırılmasında yeni güzəştlərin tətbiq olunmasını nəzərdə tutur .

Yuxarıda deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, iqtisadi inkişafın təsir gücü dövlətin maliyyə siyasəti də daxil olmaqla, tətbiq olunma mexanizmindən və dövlət gəlirlərinin formalaşma xüsusiyyətlərindən tam asılıdır.

Qeyd etmək lazımdır ki,büdcə hər bir ölkədə iqtisadiyyatın mühüm tənzimləyicisi kimi çıxış etdiyindən, makroiqtisadi tənzimlənmənin ən mühüm elementlərindən biri sayılır. İqtisadiyyatın inkişaf etməsində, istehsalın stimullaşdırılmasında və həmçinin cəmiyyətin sosial inkişafında Dövlət büdcəsinin böyük kəmiyyət, həm də keyfiyyət baxımından əhəmiyyəti vardır. Kəmiyyət təsiri dedikdə, hansı istiqamətə nə qədər vəsait yönəldilməsi başa düşülür. Keyfiyyət təsiri isə iki cür, yəni bir tərəfdən, vergilərin düzgün qurulması və vəsaitlərin səmərəli xərclənməsi, digər tərəfdən büdcə vasitəsilə nəzarət kimi təhlil edilir. Təbii ki, bunların hər ikisi birlikdə iqtisadiyyata keyfiyyətcə təsir göstərir.

Qeyd etmək lazımdır ki, iqtisadi və sosial həyata müdaxilə məqsədi ilə iqtisadi fəaliyyətlərin istiqamətlərini dəyişdirmək və möhkəmləndirmək baxımından, müasir bazar iqtisadiyyatına keçid dövründə Dövlət büdcəsinin gəlirlərinin ölkə iqtisadiyyatına təsiri

böyükdür . Dövlətin iqtisadi və sosial sahələrə müdaxiləsi hər zaman istər inzibati amirlik, istərsə də bazar münasibətləri şəraitində zərurətə çevrilir.

**Cədvəl 1**

**Ümumi Daxili Məhsul (mln. man.)**

| İllər | Cəmi | Adambaşına /manat/ |
|---|---|---|
| 2000 | 4718,1 | 595,1 |
| 2001 | 5315,6 | 665,2 |
| 2002 | 6062,5 | 752,9 |
| 2003 | 7146,5 | 880,8 |
| 2004 | 8530,2 | 1042,0 |
| 2005 | 12522,5 | 1513,9 |
| 2006 | 18746,2 | 2241,1 |
| 2007 | 26815,1 | 3168,5 |
| 2008 | 38005,7 | 4439,7 |

**Mənbə: AR DSK-nin məlumatları**

Cədvəl məlumatlarından görünür ki, Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəriciləri, xüsusən, ÜDM-in artımı 2003-cü ildən başlayaraq sürətlə artmaqdadır. Əgər 1998-2003-cü illərdə ÜDM-in artım sürəti orta hesabla 10% idisə - 2005-ci ildə 26,4%; 2006-cı ildə 34,5%; 2007-ci ildə isə 24,0%-ə bərabər olmuşdur. 2007-ci ildə respublikamızda əhalinin pul gəlirləri 40,3%, orta aylıq əməkhaqqı isə 44,8% artaraq 215,8 manata, orta aylıq pensiya isə 51,9% artaraq 62,9 manata çatmışdır. Son illərdə 600 mindən çox daimi yeni iş yeri açılmışdır ki, bunların da əsas hissəsi qeyri-neft sektorunun inkişafı hesabına regionların payına düşür. Respublikamız üzrə yoxsulluğun səviyyəsi daha sürətlə aşağı enməkdədir.

Əldə edilən bu böyük nailiyyətlər, makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf baxımından Azərbaycan dünyada analoqu olmayan bir dövlətə çevrilmişdir ki, bu da uğurla davam etdirilən iqtisadi siyasətin və bu siyasətin tərkib hissəsi olan büdcə-vergi siyasətinin nəticəsi kimi qiymətləndirilə bilər.

## 8.2.Büdcə gəlirlərinin formalaşmasi xüsusiyyətləri və onun qiymətləndirilməsi

Azərbaycan Respublikasının ərazisində qanunvericiliklə müəyyən olunmuş tədiyyələr üzrə daxilolmaların Dövlət büdcəsi və digər büdcələr arasında bölgüsü regionların inkişaf proqramları nəzərə alınmaqla, hər il qəbul olunan dövlət büdcəsi haqqında Qanunla tənzimlənir.

Dövlət gəlirləri sisteminin əsas tərkib hissəsi olan büdcə gəlirləri dövlətin maliyyə ehtiyatlarını özündə cəmləşdirir. Büdcə gəlirlərinin yaradılması Dövlət tədbirlərinin həyata keçirilməsi üçün ərazi, sahə və məqsədli təyinatı üzrə formalaşdırılır. Büdcə gəlirləri iqtisadi əlaqələri

ifadə etməklə, bütün mülkiyyətdən olan müəssisə, təşkilatlar və əhalinin gəlirləri hesabına ölkənin büdcəsini formalaşdırır. Bu iqtisadi əlaqələr müəssisə, təşkilat və əhalinin Dövlət büdcəsi gəlirlərinə müxtəlif növ tədiyyələr ödənilməsində özünü göstərir.

Müxtəlif səviyyəli büdcələrin xərclərinin təmin olunması üçün onlar müvafiq gəlirlərə malik olmalıdırlar. Bu məqsədlə, müasir tələblərə cavab verən büdcə təsnifatı büdcənin gəlir və xərclərinin uçotunun beynəlxalq standartlara uyğun həyata keçirilməsinə imkan verməlidir. Adətən, büdcə təsnifat, əsasən büdcənin ayrı-ayrı gəlirlərini və xərclərini qruplaşdıran «Büdcə gəlirlərinin təsnifatı»ndan, büdcə xərclərini bölmələr səviyyəsində birləşdirən qruplaşdıran «büdcə xərclərinin funksional təsnifatı»ndan, büdcə xərclərini ayrı-ayrı xərc yarımmaddələri səviyyəsində «Büdcə xərclərinin iqtisadi təsnifatı»ndan və büdcə xərclərini təşkilatlar səviyyəsində qruplaşdıran «Büdcə xərclərinin inzibati təsnifatı»ndan ibarətdir.

Nəzərə almaq lazımdır ki, gəlirlərin mövcud təsnifatı ilə inkişaf etmiş ölkələrin gəlirlərinin təsnifatı arasında uyğunsuzluq mövcud olduğundan, ölkələrarası məlumatların müqayisəsində, həmçinin həmin məlumatların beynəlxalq maliyyə qurumlarına təqdim edilməsində bəzi anlaşılmazlıqlar yaranır. Buna görə də gəlirlərin təsnifatına görə ölkəmizin iqtisadi göstəricilərinin digər ölkələrin müvafiq göstəriciləri ilə müqayisə edilməsi üçün mövcud nöqsanlar aradan qaldırılmalıdır.

Adətən, büdcə gəlirlərinin təsnifatı - vergilərdən daxilolmalar, sosial ayırmalar, qrantlar və digər gəlirlərdən ibarət dörd kateqoriyaya bölünür. Mövcud təsnifatda gəlirlər əsasən, spesfik xüsusiyyətlərinə, o cümlədən müxtəlif vergi dərəcələri, mülkiyyət növləri, vergi orqanlarında qeydiyyata alınma üsulu və s. nəzərə alınmaqla, vergi ödəyiciləri üzrə təsnifatlaşdırıldığından, vergi dərəcələrinə əlavə və dəyişikliklər edildikdə, bu qaydaların həyata keçirilməsinə xeyli vaxt tələb olunur. Buna görə də, gəlirlərin təsnifatında müvafiq Qanunvericilik aktlarında ola biləcək dəyişikliklər maksimum dərəcədə nəzərə alınmalıdır .

*Bütün hakimiyyət səviyyələri arasında səmərəli gəlir və xərclərin formalaşması, habelə büdcə münasibətləri sisteminin hazırlanması keçid iqtisadiyyatlı ölkələrdə islahatların həyata keçirilməsinin həlledici şərtidir.*

*Yerli səviyyələrdə tarazlaşdırılmış büdcə - makroiqtisadi sabitliyin təmin olunmasının başlıca amilidir. Bəzi hallarda büdcə tarazlığının pozulması uzun müddət ərzində davam edə bilər, çünki yerli səviyyəyə keçirilmiş vergilər eyni səviyyəyə keçirilmiş xərclərdən daha aşağı sürətlə arta bilər.*

Müvafiq gəlirlər əldə etmək vasitəsilə dövlət və bələdiyyə orqanları öz vəzifə və funksiyalarını yerinə yetirmək üçün iqtisadi imkan əldə etməklə yanaşı, sosial-mədəni tədbirlər həyata keçirir, iqtisadiyyatı tənzimləyir. Dövlətin sosial-iqtisadi vəzifələrinin həyata keçirilməsinin

əsasını təşkil edən Dövlət büdcəsi iqtisadi münasibətlərin mühüm tərkib hissəsi olmaqla, maliyyə münasibətləri sistemində əhəmiyyətli rola malikdir.

Büdcə gəlirlərinin formalaşmasında vergilərdən daxilolmalarla yanaşı, vergi olmayan gəlirlər də xüsusi əhəmiyyət kəsb edir. Bu gəlirlərə mülkiyyətdən və sahibkarlıq fəaliyyətindən gəlirlər, büdcə təşkilatının xüsusi vəsaitlərindən daxilolmalar, maliyyə və qeyri-maliyyə müəssisə və idarələrindən vergi olmayan daxilolmalar, qeyri-maliyyə dövlət müəssisələrindən gəlirlər, qeyri-maliyyə dövlət müəssisə və təşkilatları tərəfindən alınmış büdcə ssudaları üzrə faizlərin ödənilməsi, qeyri-maliyyə dövlət müəssisələrindən alınan dividendlər, pul-şey lotoreyaları üzrə daxilolmalar, qeyri-maliyyə dövlət müəssisələrindən gələn digər gəlirlər, maliyyə təşkilatlarından gələn gəlirlər, Milli Bankın mənfəətindən daxilolmalar, maliyyə təşkilatları tərəfindən alınmış büdcə ssudaları üzrə faizlərin ödənilməsi, maliyyə təşkilatlarından alınan dividendlər, xarici dövlətlərdən mülkiyyətlə bağlı gəlirlər, xarici qeyri-dövlət strukturlarından mülkiyyətlə bağlı gəlirlər, daxili xüsusi sektordan daxil olan mülkiyyətlə bağlı gəlirlər, mülkiyyətdən daxil olan sair gəlirlər, inzibati tədiyyələr, dövlət rüsumları, cərimə və sanksiyalar üzrə daxilolmalar aid edilir.

Büdcənin xüsusi gəlirlərinə qeyrivergi gəlirləri daxildir. Bunlar dövlət və ya bələdiyyə mülkiyyətində olan əmlakın satışından və ya əvəz edilməsindən gələn gəlirlər, büdcə sisteminin digər səviyyəli büdcələrdən maliyyə yardımı və büdcə ssudası kimi alınan gəlirlərdir. İstər dövlət, istərsə də bələdiyyə mülkiyyətində olan əmlakın satışından alınan vəsaitlər tam həcmdə müvafq büdcələrə köçürülür.

Bazar münasibətləri sistemində büdcə siyasəti dövlət siyasətinin ən vacib və lazımi bir ünsürüdür. Büdcə siyasətində büdcə gəlirləri mənbələrinin düzgün müəyyənləşdirilməsi gəlirlərin vaxtında və tam toplanmasının vacib şərtidir..

Hal-hazırda büdcə gəlirlərinin mahiyyəti bazar münasibətlərinin tələblərinə uyğun olaraq bir qədər də dəyişmiş və bu, dünyanin əksər ölkələrində büdcənin idarə edilməsinə də təsir etmişdir. Bu dəyişikliklər, hər şeydən əvvəl, büdcə gəlirlərinin daha geniş sisteminin yaradılması ilə əlaqədardır. Çünki hər bir dövlətin iqtisadi potensialı, onun inkişaf səviyyəsi büdcə gəlirlərinin həcmindən asılı olduğundan, struktur dəyişiklikləri, iqtisadi inkişafın mərhələləri yeni-yeni gəlir mənbələrinin yaranmasına şərait yaradır, dövlət gəlirlərinin tərkibinin dəyişərək genişlənməsinə təsir göstərir. Bazar iqtisadiyyatlı ölkələrində daha çox gəlir gətirən sahələrin inkişafına diqqətin artması, eyni zamanda həmin sahələrə böyük həcmdə sərmayə qoyuluşunu stimullaşdırır. Gəlirlərin tərkibinə aşağıdakı gəlir növləri: vergilərdən daxilolmalar, dövlət

sərvətlərindən istifadəyə görə borclanmadan gələn gəlirlər və xəzinənin imkanından istifadə etməklə əldə edilən gəlirlər daxildir. Bu gəlirlərdən dövlətin sərvətindən istifadəyə görə vergilər həqiqi dövlət gəlirləri, xəzinə imkanlarından istifadə etməklə əldə edilən gəlirlər isə fövqəladə dövlət gəlirləridir. Çünki xəzinənin buraxdığı dövlət qiymətli kağızlar və alınmış borc gələcəkdə mütləq ödənilməlidir .

Azərbaycan Respublikasının Dövlət büdcəsi ilə Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr arasında qarşılıqlı münasibətlərin tənzimləyicisi kimi mədaxil mənbələrindən istifadə etmək, məqsədli büdcə fondları yaratmaq, maliyyə ehtiyatlarını bölüşdürmək prinsipləri əsasında qurulur.

Azərbaycan Respublikasının büdcə gəlirlərinin strukturunun təkmilləşdirilməsində mühüm məqamlardan biri – ərazilərin sabit sosial-iqtisadi inkişafını təmin edən məqbul vergi «yüklənməsinin» tətbiq edilməsidir. Məsələn, investisiya cəlb etmək istəyən ərazilər üçün vergiqoyma aşağıdakı ardıcıllıqla tətbiq edilməlidir:

- xidmətlərə görə birbaşa tədiyyələr;
- təbiətdən istifadəyə görə tədiyyələr;
- torpaqdan və şəhər əmlakından istifadəyə görə tədiyələr;
- əmlak vergisi;
- satışdan vergilər;
- müəssisələrin gəlirlərindən vergilər;
- vətəndaşların gəlirlərindən vergilər.

Hər bir konkret rayon və şəhərin şəraitinə uyğunlaşdırılmış «vergi yüklənməsi» ardıcıllığı həmin ərazinin malik olduğu vergi potensialından istifadənin ortimal üsulunu seçməyə imkan verir. Belə variantların seçilməsi və həyata keçirilən büdcə siyasətinin istiqamətlərinin dəqiqləşdirilməsi bu işlə məşğul olan müvafiq maliyyə qurumlarının və hakimiyyət orqanlarının daima diqqət mərkəzində olmalıdır. Ölkəmizdə aparılan büdcə islahatlarında dövlətin sosial-iqtisadi inkişafında qəbul edilən prioritetlərlə yanaşı, hər bir regionun (rayon və şəhərin) tarixi, təbii və iqtisadi xüsusiyyətləri, ərazinin coğrafi yerləşməsi (sərhəd, anklav, dağlıq və s.) nəzərə alınmalıdır.

Büdcə münasibətlərinin təşkili - idarəetmənin yerli səviyyəsində büdcə sisteminin stabillik şərti kimi gəlir və xərclərin tarazlaşdırılmasına; inzibati büdcə sisteminin ədalətliliyi və açıqlığı şərti kimi ərazi vahidlərinin büdcə təminatı səviyyələrinin bərabərləşməsinə; büdcə sisteminin nəticəlilik şərti kimi yerli hakimiyyət orqanlarının gəlirlərin cəlb olunması və xərclərə qənaət üzrə səylərinin stimullaşdırılmasına istiqamətləndirilməlidir. Bu istiqamətlərin hər biri müvafiq subsidləşdirmə (dotasiya və subvensiyalar) üsulları ilə təmin olunur.

Dünya təcrübəsində mərkəz və regionlar arasında qarşılıqlı büdcə münasibətlərinin təşəkkülünə üç yanaşma mövcuddur:

• hər bir regionla ayrılıqda vergi daxilolmalarının bölüşdürülməsi və digər şərtlər haqqında ayrıca müqavilə bağlanmasını (məsələn, Çində) nəzərdə tutan «fərdi-müqavilə»;

• gəlir və xərclərin formalaşması və icrası məsələlərində ayrı-ayrı regionlara müstəsna hüquqlar verilməsini nəzərdə tutan, xüsusi büdcə rejimlərinin yaradılması (məsələn, Filippində, Avstraliyada, Malayziyada);

• normativ-hesablama düsturlarının tətbiqi əsasında unifikasiya edilmiş subsidiyalar verilməsi (əksər ölkələrdə regionların büdcə şərtlərinin qismən bərabərləşdirilməsi məqsədilə istifadə edilir).

Yerli büdcələrin struktur quruluşunda ciddi dəyişikliklər edilməsi yolunda qarşıya çıxan çətinliklər təkcə hüquqi xarakterli deyildir. Doğrudan da, bəzi ərazilərin inkişafının xeyli geridə qalmasını aradan qaldırmaq üçün yerli özünüidarəetmə orqanlarının tənzimləyici funksiyalarına daha çox zərurət yaranmasına baxmayaraq, istər xərc, istərsə də gəlir maddələrini çox vaxt iqtisadi səbəblərdən də dəyişmək çətindir.

Əlbəttə, xarici ölkələrdə uğurla tətbiq edilən büdcələrarası münasibətlərin Azərbaycanda eyni qaydada istifadə edilməsi qeyri-mümkündür. Azərbaycanın hətta unitar dövlət kimi quruluşundakı bəzi fərqlər (geniş səlahiyyətlərə malik prezident idarəçiliyinin mövcudluğu), region bölgüsünün ancaq iqtisadi rayonlar səviyyəsində (Naxçıvan MR-dən savayı) müəyyən olunması, inzibati rayonların ərazisinə və əhalinin sayına görə nisbətən çox olması, büdcə sistemini faktiki olaraq 2 səviyyədə – mərkəzi və yerli (rayon və şəhər) büdcələr səviyyəsində müəyyən etmişdir. Bunu nəzərə alaraq, inkişaf etmiş ölkələrin təcrübəsində diqqəti cəlb edən və nəzərə alınması zəruri olan aşağıdakı məqamları qeyd etmək olar:

• büdcə-maliyyə qanunvericiliyinin mükəmməlliyi və dəqiqliyinin, onun təməl prinsip və məqamlarının stabilliyinin təmin edilməsi;

• ərazi büdcələrinin səlahiyyətlərinin dövlətin inzibati-ərazi quruluşuna müvafiq olaraq, ərazinin sahəsinə, əhalinin sayına, tarixi, iqtisadi, siyasi inkişafın və milli-mədəni ənənələrə uyğun bölüşdürülməsi;

• regional inkişaf proqramlarının işlənməsi və reallaşmasında demokratizm prinsiplərinə əməl olunması;

• yerli özünüidarəetmə orqanlarının müstəqilliyi və məsuliyyətinin genişləndirilməsi əsasında büdcə sisteminin manevretmə qabiliyyətinin yüksəldilməsi;

• yerli büdcə vəsaitlərindən öz ərazilərində iş qüvvəsinin təkrar istehsal prosesində və təsərrüfat fəaliyyətinin tənzimlənməsində daha geniş istifadə edilməsi;

• ərazilərin büdcə tənzimlənməsinin konseptual və təşkilati baxımdan qurulması və reallaşmasına kompleks yanaşma.

Respublika iqtisadiyyatında əldə edilmiş nailiyyətlər içərisində aparılan iqtisadi islahatların avanqardı kimi çıxış edən büdcə-vergi sistemi özünəməxsus yer tutur. Maliyyə sistemində aparılan islahatlar təkcə hökumətin fiskal siyasətini deyil, eyni zamanda bu sistemin daxili strukturunu da əhatə etmişdir .

Hazırda Ümumdaxili Məhsulun tərkibində qeyri-dövlət sektorunun xüsusi çəkisinin artdığı, ölkəmizdə bazar iqtisadiyyatına keçidin getdikcə daha da sürətləndiyi bir şəraitdə dövlət tərəfindən iqtisadiyyatın tənzimlənməsinin əsas alətləri olan fiskal siyasətlə monetar siyasətin düzgün nisbəti xüsusi rol oynamışdır. Müasir şəraitdə Dövlət büdcəsinin gəlir və xərclərinin tərkibi ciddi dəyişikliklərə məruz qalmışdır. Fiskal siyasətdə xərclərin tərkibində sosial sfera xərclərinin, investisiya və əsaslı xərclərin xüsusi çəkisi artırılmış, Dövlət büdcəsindəki əməkhaqqı, pensiya və təqaüdlər üzrə olan borclar minimuma endirilmiş, Dövlət büdcəsi ilə yerli büdcələr arasında, həmçinin sosial müdafiə büdcəsi və digər büdcədənkənar fondlar ilə münasibətlər qarşılıqlı əlaqələr prinsipi üzərində qurulmuşdur. İqtisadiyyatın sabitləşməsi müasir dünyada iqtisadi proseslərin sürətləndiyi və iqtisadi təhlükəsizliyin qorunmasının gücləndiyi bir şəraitdə maliyyə siyasətinin, o cümlədən, onun tərkib hissəsi olan büdcə-vergi siyasətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması üçün geniş imkanlar yaradır. Büdcə-vergi siyasəti büdcə gəlirlərinin formalaşmasının kəmiyyət parametrlərinin və əsas vəzifələrinin müəyyənləşdirilməsi üzrə dövlətin məqsədyönlü fəaliyyəti olaraq iqtisadi siyasətin əsas alətləri kimi qiymətləndirilir.

Büdcə gəlirlərinin formalaşması, büdcə öhdəliklərinin yerinə yetirilməsi, büdcə kəsirinin idarə olunması büdcə-vergi siyasətinin mühüm istiqamətləri olduğu üçün bu siyasətin səmərəliliyi göstərilən istiqamətlər üzrə icraedici hakimiyyət orqanlarının fəaliyyəti kimi dəyərləndirilir. Dövlətin büdcə-vergi siyasəti inflyasiyanın aşağı tempinin, kredit bazarında nisbətən ucuz faiz dərəcələrinin saxlanılmasını təmin edən dövlət xərclərinin məhdudlaşdırılmasına əsaslanmalıdır.

Büdcə-vergi siyasətinin səmərəli həyata keçirilməsi real iqtisadiyyata güclü təsir göstərir. Buna görə də əsas makroiqtisadi göstəricilərin dinamikası həyata keçirilən büdcə-vergi siyasətinin səmərəlilik meyarı kimi çıxış edir.

Müasir şəraitdə mülkiyyətin yeni formalarının yaranmasında, həmçinin təsərrüfat subyektlərinə və idarəetmə orqanlarına sosial-iqtisadi

dəyişikliklərin həyata keçirilməsində geniş hüquqlar verildiyi üçün büdcə-vergi siyasətinin səmərəli istiqamətləndirilməsinin aktuallığı və əhəmiyyəti daha da artır.

Büdcə gəlirlərinin artırılması mənbələrinin, dövlət xərclərinin idarə edilməsinin və ona nəzarətin təkmilləşdirilməsi, göstərilən problemlərin həlli üçün geniş imkanlar yaradır.

Dövlət büdcəsinin gəlirləri iqtisadiyyatda fəaliyyət göstərən bir sıra qanunlar, iqtisadi kateqoriyalarla yanaşı, qarşılıqlı əlaqə, təsir və asılılıq şəklində fəaliyyət göstərir. O, iqtisadi münasibətlərin bir hissəsi olan – maliyyə münasibətlərinin müəyyən bir tərəfini ifadə edir. Büdcə-vergi münasibətləri dövlətlə müxtəlif müəssisələr, idarə və təşkilatlar və əhali arasındakı əlaqələri ifadə etməklə bərabər, həmin münasibətlərin məcmusu kimi çıxış edir.

Son vaxtlarda iqtisadi ədəbiyyatda ÜDM-in adambaşına düşən həcmi ilə hesablanan iqtisadi inkişaf səviyyəsi ilə ÜDM-də dövlət xərclərinin xüsusi çəkisi arasında əlaqənin xarakterini adambaşına düşən ÜDM-in həcmi ilə ÜDM-də dövlət xərclərinin xüsusi çəkisi arasında sabit bir asılılığın olduğunu müəyyən etmək üçün cəhdlər göstərilməkdədir. Aparılan tədqiqatların əksəriyyətindən belə məlum olur ki, bu iki göstərici arasında pozitiv korrelyasiya əlaqəsi mövcuddur .

Vergi daxilolmaları özəl bölmənin dövlətə transfert ödəmələridir. Dövlətin özəl bölməyə transfertləri xərclər kimi qeydiyyata alınır. Sahibkarlığın inkişafı ilə əlaqədar görülən işlər nəticəsində ÜDM-də qeyri-dövlət sektorunun xüsusi çəkisi 1995-ci ildəki 30%-dən 2003-cü ildə 73,3%-ə, 2007-cı ildə isə 84%-ə çatmışdır (Bax: cədvəl 1.)

**Cədvəl 1**

**Ümumdaxili Məhsulda qeyri-dövlət bölməsinin payı, % -lə**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 70,8 | 71,8 | 73,0 | 73,3 | 73,5 | 77,8 | 81,0 | 84,0 |
| O cümlədən: | | | | | | | | |
| Sənaye | 48,4 | 51,2 | 61,0 | 66,7 | 68,5 | 84,5 | 87,5 | 88,4 |
| Tikinti | 63,5 | 60,4 | 95,8 | 97,0 | 97,6 | 90,4 | 81,8 | 71,9 |
| Kənd təsərrüfatı | 99,0 | 99,0 | 98,0 | 99,3 | 98,4 | 97,8 | 96,9 | 99,8 |
| Ticarət və restoranlar | 98,3 | 98,4 | 98,9 | 98,5 | 97,8 | 97,8 | 99,3 | 99,2 |
| Nəqliyyat | 62,6 | 63,6 | 60,3 | 36,7 | 42,1 | 37,5 | 46,1 | 71,4 |
| Rabitə | 57,8 | 62,8 | 71,4 | 90,9 | 81,7 | 80,2 | 79,6 | 78,3 |
| Sosial və sair xidmətlər | 78,8 | 84,2 | 59,0 | 52,0 | 47,7 | 33,5 | 43,8 | 48,2 |

**Mənbə: Azərbaycanan statistik göstəriciləri 2008. Bakı, 2008, s.347.**

Gəlir vergisi ödəyicilərinin artırılmasına səbəb olan amillərdən biri də - normal investisiya mühitinin yaradılmasıdır. Bir qayda olaraq, xarici

investisiya qoyuluşunun azalması vergi daxilolmalarının azalmasına səbəb olan amillərdəndir. Bu baxımdan, xarici iqtisadi fəaliyyətdə müəyyən tarazlığın saxlanması da məqsədəmüvafiqdir.

Büdcə xərclərinin maliyyələşdirilməsi üçün xəzinədarlıq sisteminin yaradılması ilə Maliyyə Nazirliyi, bu strukturun beynəlxalq aləmdə qəbul edilmiş standartlara uyğun olaraq fəaliyyət göstərməsinə imkan yaratmışdır. Bəzi ölkələrdən fərqli olaraq respublikamızda yaradılmış xəzinədarlıq sistemi dövlət vəsaitlərinin idarə edilməsində aktiv rola malikdir . Belə ki, büdcə vəsaitlərinin hərəkətinin tam xəzinə uçotunun aparılması ilə yanaşı, dəqiq müəyyən olunmuş və mövcud qanunvericiliklə təsbit edilmiş prosedurlara uyğun olaraq xəzinədarlıq tərəfindən büdcə təşkilatlarının bütün xərclərinin icrası və ona nəzarət prosesi həyata keçirilir. Başqa sözlə, xəzinədarlıq respublikamızda büdcənin kassa icrasını həyata keçirən, büdcə və büdcədənkənar vəsaitlərin hərəkəti haqqında dolğun və hərtərəfli informasiyaya malik olan yeganə orqan kimi çıxış edir.

İstənilən dövlətin uğurlu iqtisadi inkişafı, hər şeydən əvvəl, daha çox onun malik olduğu maliyyə və maddi ehtiyatların vəziyyəti haqqında dürüst və operativ məlumata malik olmasından, habelə onların effektiv idarə edilməsi imkanından asılıdır. Yaranmış hər hansı vəziyyətin real qiymətləndirilməsi və qəbul ediləcək qərarın keyfiyyəti, məhz əldə edilmiş ilkin informasiyanın etibarlılığından asılıdır. Dövlət vəsaitlərinin effektiv idarə edilməsi, cari vəzifələrin yerinə yetirilməsi üçün tələb olunan vəsaitlərin proqnozlaşdırılması və baş kredit sərəncamçılarına veriləcək xərc limitlərinin müəyyən edilməsi üçün tələb olunan məlumat mənbəyi kimi hazırda xəzinədarlıq çıxış edir.

Qeyd etmək lazımdır ki, XIX əsrin 80-cı illərində inkişaf etmiş Avropa ölkələrində dövlət xərclərinin çəkisi ÜDM-in 10% həddində idisə, XX əsrin 90-cı illərinin ortalarında adambaşına düşən ÜDM-un həcmi yüksək surət, olaraq cəmi 3-5 dəfə artaraq, Yaponiya və ABŞ-da 35%, Avropa ölkələrində 45-55% həddində olmuşdur. Bu, o deməkdir ki, ölkənin iqtisadi inkişaf səviyyəsi birmənalı olaraq ictimai məhsulun dövlət tərəfindən yenidən bölüşdürülən hissəsi ilə müəyyən olunur.

*Belə ki, sabitləşmə səylərində büdcə-vergi siyasəti həlledici rol oynayır. Onun həyata keçirilməsi tədbirləri xərcləri azaltmaqla və əlavə vergi islahatlarının köməyilə gəlirləri artırmaqla, büdcə kəsirinin kəskin surətdə azaldılmasından ibarətdir. Sabitləşmə proqramı həm mərkəzi aparatda, həm də yerlərdə büdcə vəsaitindən səmərəli istifadəni və sərt qənaəti nəzərdə tutur. O, hakimiyyətin müxtəlif səviyyələri arasında büdcə münasibətlərinin inkişafına və yerli maliyyə mənbələrinə əhəmiyyətli təsir göstərir. Bir çox ölkələrdə kapital qoyuluşları, istehlakçı və istehsalçılara dotasiyalar, istismar xərcləri, müdafiə məsrəfləri və idarəetmə və s. kimi*

*xərclərin kəskin azaldılması, eyni vaxtda onların strukturunun yenidən qurulması, əhalinin sosial müdafiəsi və investisiya siyasətinin formalaşması kimi prioritet ehtiyaclara yönəldilməsi nəzərdə tutulur.*

*Aparılan iqtisadi islahatların yerlərdə doğurduğu əlavə xərclər müəssisələrə verilən dotasiyalarla bağlı olan xərcləri əhatə edir. Yerli səviyyəli vergilərin potensial mənbəyi olan Dövlət bölməsinin bir çox qiymətləri hələ də sərbəstləşdirilməmişdir. Onlara kommunal xidmətləri və ictimai nəqliyyatdan istifadə qiymətləri, yəni fəaliyyətlərinə yerli hakimiyyətin cavabdeh olduğu sahələrin qiymətlərini aid etmək olar. Bir çox ölkələrdə nəqliyyatda gediş haqqını və yaxud mənzil haqqını yerli hakimiyyət orqanları müəyyən edirlər. Lakin onların səviyyəsi əməkhaqqı sahəsində dövlət siyasətindən və onun həcmindən asılıdır. Bu müəssisələrə və mənzilkommunal təşkilatlarına verilən dotasiyalar indiyə qədər bəzi ölkələrdə büdcə üçün ağır yük olaraq qalır.*

*İşsizliyin yüksək səviyyəsini və həmçinin əhalinin dəqiq müəyyən edilmiş gəlirlər alan hissəsinə inflyasiyanın təsirini nəzərə alaraq, sosial cəhətdən ən zəif müdafiə olunan əhali təbəqələrinə yardımın artırılması məqsədi ilə hakimiyyət qurumlarına getdikcə artan təzyiqi əvvəlcədən görmək olar. Bir qayda olaraq, dotasiyalar alan ailələr, yoxsulların qidalanması, evsizlər və yetimlər üçün sığınacaqlar kimi sosial təminat xərcləri mərkəzləşdirilmiş büdcə fondundan - sosial müdafiə fondundan ödənilməlidir. Lakin bu fond kəsirdə olduqda, tam əminliklə qeyd etmək olar ki, yerli hakimiyyətlər bu xərcləri maliyyələşdirməkdən ötrü öz vəsaitlərindən istifadə etmək məcburiyyətində qala bilərlər. Yerli hakimiyyətlər indiyə qədər müəssisələrin sosial ehtiyaclara çəkdikləri xərcləri də öz üzərinə götürməli olacaqlar. Sadalanan amillərin təsirilə yerli səviyyəli xərclər əhəmiyyətli dərəcədə artacaq, bu da kəsirin yaranmasına gətirib çıxaracaqdır.*

*Yerli hakimiyyətlərə çox böyük vergi səlahiyyətlərinin verilməsi vergi qaydalarının qeyri-bərabərliyinə və bunun nəticəsi kimi formalaşmış təsərrüfat əlaqələrinin, təsərrüfat obyektlərinin yerləşdirilməsi nisbətlərinin pozulmasına, vəsaitlərin investisiya edilməsi şəraitindəki fərqlərə gətirib çıxara bilər. O faktı da nəzərə almaq lazımdır ki, vergi potensialının qeyri-bərabərliyi üzündən vergilərin bölüşdürülməsinin təhkim metodunun tətbiqi büdcə təmin olunması səviyyələrindəki qeyri-bərabərliyi şərtləndirir ki, bu da yerli büdcələr sistemini qeyri-sabit, operativ büdcə tənzimlənməsi olmadıqda isə sosial cəhətdən gərgin edir. Göstərilən səbəblər üzündən, vergilərin bölüşdürülməsinin təhkim metodu yerli büdcələrin normal fəaliyyətini təmin etmir. Buna görə də, gəlir daxilolmalarının bölgüsü zamanı vergilərin təhkim metodu onların payla bölgüsü metodu ilə birlikdə tətbiq ounur.*

*Vergilərin əsas hissəsinin mərkəz tərəfindən tutulduğu halda belə, vergi daxilolmalarının müəyyən payı yerli səviyyəyə ötürülə bilər. Bu meto-*

*dun üstünlükləri - nisbətən sadəliyi, yerli hakimiyyətlərin gəlir alacaqlarına zəmanət verməsi ilə bağlıdır. Payların ötürülməsi iki üsulla baş verir. Onlardan biri ondan ibarətdir ki, vergilər yığıldığı ərazinin yerli orqanının sərəncamında faiz ayırmaları normativi üzrə müəyyən edilmiş pay həcmində qalır. Vergi daxilolmalarından payların alınmasının digər üsulu ondan ibarətdir ki, yerli hakimiyyət orqanlarına ümumdövlət vergilərindən başqa, həcmləri müəyyən səviyyə ilə məhdudlaşdırılan məbləğlər tutmaq hüququ verilir.*

*Ümumdövlət vergilərinin bazasından istifadə etməklə, tutulan vergilərə yerli əlavələr sisteminin tətbiqi iqtisadi nöqteyi-nəzərdən məqsədəuyğundur. Vergilərin pay bölgüsü metodunun təhkim metodu kimi istifadə edilməsi, dövlət strukturunun səviyyələri arasında bölüşdürülməyə yararlı olan büdcə daxilolmaları növünün düzgün seçilməsini tələb edir.*

*Büdcə münasibətlərinin təşkili: gəlir və xərclərin (yerli idarəetmə səviyyəsinin büdcə sisteminin sabitliyi şərti kimi) tarazlaşdırılmasına; inzibati - ərazi vahidlərinin (büdcə sisteminin ədalətliliyi və açıqlığı şərti kimi) büdcə təminolunma səviyyələrinin bərabərləşdirilməsinə; yerli hakimiyyətlərin (büdcə sisteminin səmərəliliyi şərti kimi) gəlirlərinin səfərbər və ya xərclərə qənaət edilməsi üzrə səylərin stimullaşdırılmasına istiqamətləndirilə bilər. Göstərilən istiqamətlərin hər biri müvafiq tənzimləmə üsullarıdotasiya, subvensiya və yaxud subsidiyalarla təmin edilir.*

Dövlət büdcəsinin dayanıqlı vəziyyətdə olması geniş təkrar istehsalın və əhalinin sosial-iqtisadi vəziyyətinin dinamik inkişaf edə bilməsinin əsasıdır . Onun tarazlığının pozulması və bunun nəticəsində, büdcə kəsirinin həcminin müəyyən həddi keçməsi təkrar istehsal prosesinin və əhalinin sosial-iqtisadi vəziyyətində tarazlığın pozulması problemini yarada bilər və eyni zamanda, dövlətlə müəssisələr, təşkilatlar, əhali arasında yaranan maliyyə münasibətlərinin tənzimlənməsi problemini çətinləşdirə bilər. Bu münasibətlərin xüsusiyyəti ondan ibarətdir ki, onlar bölgü münasibətləri sahəsində, dövlətin zəruri iştirakı qaydasında yaranır. Dövlət büdcəsinə aid olan maliyyə münasibətləri mərkəzləşdirilmiş pul vəsaiti fondlarının yaranması və istifadəsi ilə əlaqədar mövcud olur ki, bunlar da vəsaiti dövlətin ümumi istehsal və istehlak tələbatının ödənilməsinə sərf etməklə yanaşı, həm də milli gəlirin bir hissəsinin dövlətin əlində toplanmasını zəruri edir, çünki bu ictimai təkrar istehsalın maliyyələşdirilməsi, dövlətin öz funksiyalarını yerinə yetirə bilməsi, idarə edilməsi xərclərinin ödənilməsi üçün lazım gəlir.

Büdcə-vergi siyasətinin əsas vasitələrindən biri vergilərdir. Vergilərin yığılması, işgüzar fəallığın tənzimlənməsi və bir sıra sosial vəzifələrin həll olunması üçün Dövlət büdcəsində olan vəsaitdən istifadə

edilməsi imkanlarını nəzərdə tutur. Bu siyasətin başlıca vasitələri - vergi dərəcələrinin, vergitutma obyektlərinin və vergilərin növlərinin dəyişdirilməsi ilə əlaqədar olan məsələlərdir. Dövlətin həyata keçirdiyi bu siyasətin metodlarına dair müxtəlif baxışlar vardır. Belə ki, Keynsin tərəfdarları ənənəvi olaraq iqtisadi inkişafın başlıca stimulu olan səmərəli ümumi təklifin yaradılmasına üstünlük verir və hesab edirlər ki, vergilərin azaldılması istehsalın artmasına səbəb olur, lakin qısamüddətli dövrdə büdcəyə daxilolmalar azalır, büdcə kəsiri isə artmış olur.

**Cədvəl 2**

**Dövlət büdcəsinin gəlirləri (mln. man.)**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Gəlirlər cəmi** | **714,6** | **784,8** | **910,2** | **1220,9** | **1509,5** | **2055,2** | **3868,8** | **6006,6** | **10762,7** |
| O cümlədən: | | | | | | | | | |
| Əlavə dəyər vergisi | 190,8 | 253,3 | 334,9 | 409,7 | 452,7 | 599,9 | 737,8 | 1179,2 | 1910,8 |
| Aksizlər | 22,1 | 110,9 | 86,7 | 67,0 | 72,4 | 141,0 | 187,4 | 402,9 | 486,9 |
| Mənfəət vergisi | 125,9 | 117,6 | 147,8 | 178,3 | 223,4 | 355,4 | 1360,5 | 2457,7 | 2862,3 |
| Mədən vergisi | 50,4 | 47,5 | 50,0 | 56,7 | 97,8 | 53,5 | 100,2 | 123,2 | 147,7 |
| Fiziki şəxslərin gəlir vergisi | 94,0 | 94,7 | 109,7 | 150,7 | 221,6 | 317,4 | 407,3 | 588,6 | 627,2 |
| Əmlak vergisi | 11,8 | 12,4 | 20,0 | 26,6 | 32,2 | 40,4 | 55,8 | 72,3 | 112,9 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergi | 63,4 | 59,9 | 75,2 | 92,7 | 101,5 | 205,2 | 139,3 | 293,2 | 449,7 |
| Digər gəlirlər (vergi olmayan gəlirlər) | 117,9 | 65,3 | 63,4 | 209,7 | 277,3 | 288,2 | 816,1 | 793,8 | 4037,8 |
| Torpaq vergisi | 6,7 | 10,4 | 8,8 | 11,3 | 14,1 | 15,3 | 18,35 | 27,1 | 30,6 |
| Sair gəlirlər | 31,3 | 12,8 | 13,7 | 18,5 | 16,5 | 38,9 | 45,9 | 68,6 | 96,8 |

**Mənbə: Mənbə: Azərbaycanın statistik göstəriciləri 2008. Bakı, 2009**

Cədvəldən göründüyü kimi, tətbiq edilən bütün vergi növləri üzrə göstərilən illər ərzində artım müvcuddur. Vergi daxilolmalarının artım tendensiyası son illərdə davam etmiş və dövlət vergi orqanları tərəfindən vergi daxilolmalarının təmin edilməsi üzrə proqnozlara tam əməl edilmişdir. Belə ki, 2004-cü ildə vergi daxilolmaları üzrə proqnoz tapşırıqlara 102,6 faiz, 2005-ci ildə 100,5 faiz, 2006-cı ildə 103,3 faiz, 2007-ci ildə isə 106,9 faiz əməl edilmişdir. 2007-ci ildə Dövlət büdcəsinə 6 milyard 6,6 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2006-cı illə müqayisədə, 2 milyard 137,8 milyon manat və ya 55,3 faiz çoxdur. Ümumilikdə 2003-cü illə müqayisədə, 2007-ci ildə vergi daxilolmaları 5 dəfəyə yaxın, 2008-ci ildə isə 10 dəfəyə yaxın artım olmuşdur.

Dövlət büdcəsi gəlirlərinə mütənasib sürətdə artan vergi daxilolmalarının strukturuna nəzər salınarsa, bütün vergi növləri üzrə əhəmiyyətli dərəcədə artım müşahidə edilmişdir. Vergi daxilolmalarının struktur təhlili göstərir ki, Dövlət büdcəsinin formalaşmasında və

büdcəyə vergi gəlirlərinin cəlb olunmasında həm qeyri-dövlət sektoru, həm də qeyri-neft sektoru üzrə daxilolmaların həcmi ildən-ilə artır. 2007-ci ildə dövlət sektoru üzrə büdcəyə 1 milyard 290,0 milyon manat, qeyri-dövlət sektoru üzrə 3 milyard 258,7 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2006-cı ilin göstəricilərindən müvafiq olaraq 450,4 milyon manat və 1 milyard 383,7 milyon manat çoxdur. Hesabat ilində qeyri-neft sektoru üzrə büdcəyə 1 milyard 603,4 milyon manat vəsait əvəzinə 1 milyard 635,9 milyon manat vəsait daxil olmaqla, proqnoza 102,0 faiz əməl edilmişdir. Qeyd edilməlidir ki, qeyri-neft sektoru üzrə vergi daxilolmaları 2006-cı illə müqayisədə, 57,1 faiz, qeyri-neft sektorunda neft konsorsiumları ilə işləyən şirkətlərin daxilolmaları nəzərə alınmasa bu sektordan daxilolmalar 75,9 faiz artmışdır. Qeyd edilməlidir ki, 2008-ci ilin Dövlət büdcəsində neft sektoru üzrə daxilolmaların 2007-ci ilin göstəricisinə nisbətən 3 faiz və ya 80 mln. manat artması nəzərdə tutulmuşdursa, qeyri-neft sektoru üzrə daxilolmaların 42,8 faiz və ya 680 mln. manat artacağı proqnozlaşdırılmışdır.

Vergi dərəcələrinin azaldılmasını ümumi tələbin artmasına təsir göstərən əsas amil hesab edən «İqtisadi təklif» nəzəriyyəsinin tərəfdarlırının fikrincə, vergilərin azaldılması bir tərəfdən əhalinin, digər tərəfdən isə bizneslə məşğul olanların gəlirlərinin və eyni zamanda investisiyaların gəlirliliyinin artmasına gətirib çıxarır. Bu məqsədlə aparılan vergi siyasəti düşünülmüş halda digər sosial-iqtisadi problemlərlə qarşılıqlı əlaqə və asılılıq şəraitində həyata keçirilməlidir . Bazar iqtisadiyyatı şəraitində, təsərrüfat obyektlərinin investisiya fəallığı ilə gəlirlərdən tutulan vergilərin dərəcələri arasındakı asılılığın öyrənilməsinə yönəldilmiş «Laffer nəzəriyyəsi»nə görə, vergilərin artırılmasının müəyyən bir həddi olmalıdır. Bu hədd gözlənilmədikdə, işgüzar fəallığın aşağı düşməsinə və nəticə etibarı ilə büdcə gəlirlərinin azalmasına səbəb olur.

Bəzi ölkələrdə işsizliyin artdığı bir şəraitdə, istehsalın artımını stimullaşdırmaq məqsədi ilə dövlət xərclərini çoxaltmaq və vergiləri azaltmaqla məşğulluğu artırmaq mümkündür. Vergilərin azaldılması istehsalın və gəlirlərin artmasına səbəb olur ki, bu da, öz növbəsində büdcəyə daxilolmaların azalması və büdcə kəsirinin əmələ gəlməsi ilə nəticələnə bilər. Lakin buna baxmayaraq, daha aşağı vergi dərəcələri müəyyən etmək və vergi obyektlərini genişləndirməklə vergilər hesabına daxilolmaların artmasını təmin etmək olar. Bu tədbirlərin görülməsində əsas məqsəd işsizliyi və inflyasiyanı aradan qaldırmaqdan ibarətdir.

İstehsal azaldığı dövrdə qarşıda duran əsas vəzifə - bu siyasətin stimullaşdırılmasıdır, yəni dövlət xərclərinin artırılması, vergilərin azaldılması və dövlət xərclərinin artırılması ilə vergilərin azaldılmasının bir-biri ilə əlaqələn- dirilməsidir. Bunlar maliyyələşdirmədə çətinliyin əmələ

gəlməsinə səbəb olsa da, istehsalın azalmasının qarşısının alınmasını təmin edə bilər (Bax: Cədvəl 3.).

**Cədvəl 3**

**2008-ci il üzrə vergi daxilolmaları (min. manat)**

| Vergi və tədiyyələrin növləri | Proqnoz | Daxilolma | Faiz | Fərq |
|---|---|---|---|---|
| Əlavə dəyər vergisi | 1 142 144,0 | 1 169 893,6 | 102,4 | 27 749,6 |
| Aksiz | 365 031,0 | 395 810,5 | 108,4 | 30 779,5 |
| Mənfəət vergisi | 2 450 528,5 | 2 863 950,2 | 116,9 | 413 421,7 |
| Mədən vergisi | 137 031,0 | 147 749,5 | 107,8 | 10 718,5 |
| Torpaq vergisi | 30 150,0 | 30 789,7 | 102,1 | 639,7 |
| Əmlak vergisi | 110 192,0 | 113 225,5 | 102,8 | 3 033,5 |
| Fiziki şəxslərin gəlir vergisi | 799 044,0 | 637 800,2 | 79,8 | -161 243,8 |
| Dövlət rüsumu | 52 800,0 | 59 870,7 | 113,4 | 7 070,7 |
| Yol vergisi | 26 287,0 | 27 365,6 | 104,1 | 1 078,6 |
| Sadələşdirilmiş vergi | 63 623,5 | 65 654,5 | 103,2 | 2 031,0 |
| Digər daxilolmalar | 222 169,0 | 234 455,8 | 105,5 | 12 286,8 |
| o cümlədən:<br>- qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən büdcəyə ödənişlər; | | 198 990,5 | | 198 990,5 |
| - dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən icarə haqqı | 4 000,0 | 1 724,9 | 43,1 | -2 275,1 |
| **Cəmi** | **5 399 000,0** | **5 746 565,8** | **106,4** | **347 565,8** |

**Mənbə: Vergilər Nazirliyinin internet saytı**

Vergi məbləğinin gəlirdən asılı olduğunu və ÜMM sürətlə artdıqda vergilər hesabına daxilolmaların artdığını görərik. Bu isə əhalinin alıcılıq qabiliyyətinin azalmasına, iqtisadi artımın ləngiməsinə səbəb olur. Əksinə, azalma dövründə əhalinin alıcılıq qabiliyyətinin artması prosesi gedir ki, bu da səmərəli tələbin formalaşmasına, istehsalın azalmasının qarşısının alınmasına imkan verir. İnflyasiyanın artdığı dövrdə, mütərəqqi vergiqoyma dərəcələrinin müəyyən edilməsi alıcılıq qabiliyyətinin azalmasına, iqtisadi artımın ləngidiyi dövrdə isə əksinə, alıcılıq qabiliyyətindəki azalmaların qarşısının alınmasına kömək edir. İqtisadi sabitlik baxımından bunların hər ikisi də zəruridir. İqtisadi yüksəliş dövründə vergilər hesabına daxilolmaların artması, büdcə kəsirinin azaldılması və ya ləğv olunması nəticə etibarı ilə büdcənin imkanlarının artması və inflyasiyanın azaldılması meylinin güclənməsinə şərait yaradır.

Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan dövləti dünyada iqtisadi artım sürətinə görə lider mövqedədir. 2005-2007-ci illərdə ÜDM-in orta illik artım tempinin 25 faizə yüksəlməsi aparılan iqtisadi siyasətin

çox uğurlu olmasından xəbər verir. Bu həm də sosial problemlərin həllinə imkan yaradıb. Belə ki, insanların həyat səviyyəsi ilbəil yaxşılaşır. Əmək haqları, pensiya və müavinətlər daim artırılır.

Bu gün dövlətin tənzimləmə tədbirləri ilə bazar ünsürləri qarşılıqlı əlaqə və vəhdət halında çıxış edir ki, bu da iqtisadiyyatın mühüm problemlərinin istehsala yönəlməsini asanlaşdırır. Respublikada qlobal proqramlar, irimiqyaslı layihələr həyata keçirilir. Ölkəyə xarici investisiyaların axını güclənir, ixrac potensialı artır .

Ümumiyyətlə, iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas aləti maliyyə mexanizmləri sayılır ki, buraya da, ilk növbədə, büdcə-vergi alətləri daxildir. Müasir şəraitdə makroiqtsiadi səviyyədə dövlət gəlirlərinin artımına nail olmaq üçün iqtsiadi siyasətin iki mühüm alətindən istifadə edlir: fiskal və monetar siyasət. Dövlət borcu, adətən, vergilər və əmtəə və xidmətlərin satışından daxilolmalar dövlət xərclərindən az olduqda meydana çıxır. Daxilolmalar və xərclər arasındakı fərq, bir qayda olaraq dövlət borcu hesabına örtülür. Dövlət bu borcu dövriyyəyə əlavə pul kütləsinin buraxılışı, dövlət qiymətli kağızlarının satışı vasitəsilə ödəyə bilər. Bütün bunlara əsaslanaraq, demək olar ki, daxilolmalar və xərclər vasitəsilə dövlətin iqtisadi fəallığa təsiri imkanları müasir iqtisadiyyatın mühüm hissəsini təşkil edir.

Vergilərin iqtisadi inkişafda oynadığı rol, birinci növbədə, dövlət gəlirlərini təmin etməsi ilə bağlıdır. Bazar iqtisadiyyatı şəraitində dövlətin əsas vəzifələrindən biri, əlverişli investisiya mühitinin formalaşdırılması və investisiya axınının düzgün tənzimlənməsidir. Vergilərin bu sahədə həyata keçirdikləri vəzifələr çox mühüm əhəmiyyət kəsb edir. Burada ən əsas tənzimləmə vasitəsi vergi güzəştlərinin tətbiqi və onun dairəsinin müəyyən olunmasıdır. Belə vergi güzəştləri əlverişli investisiya mühitinin formalaşmasının əsasını təşkil edir. Əlverişli investisiya mühiti istər daxili, istərsə də xarici mənbəli investisiyaların milli iqtisadiyyata axınını şərtləndirən ən mühüm amildir. Lakin vergi güzəştləri belə mühiti formalaşdıran yeganə vasitə deyildir. Belə ki, investisiyalara edilən vergi güzəştləri ilə bərabər, həm də investisiya vergi kreditləri və sürətləndirilmiş amortizasiya sisteminin də böyük əhəmiyyəti vardır. Bütün bunlar birlikdə investisiyaların təşviqinin vergi vasitələrini təşkil edir.

«Dövlətin iqtisadi siyasətinin aləti kimi vergilər cəmiyyətdə bazar münasibətlərinin inkişaf etməsi ilə və ən əvvəl, müxtəlif ictimai qrupların gəlirlərinin, heç olmasa qismən bərabərləşdirilməsindən ötrü getdikcə daha çox əhəmiyyət kəsb etməyə başlayır. … təkcə fiskal üsullarla yığılan pul vəsaitlərinin həcmi deyil, həm də vergi sisteminin quruluşu də dəyişir».

Ölkəmizin kredit reytinqinin müəyyən edilməsi və bu reytinqin bir sıra qonşu ölkələrlə müqayisədə yüksək olması xüsusi əhəmiyyət kəsb edir. Hal-hazırda respublikamızda infrastrukturun bərpası məqsədilə sərfəli şərtlərlə kreditlər cəlb edilməsi praktikasından geniş istifadə edilir. Bu məqsədlə Beynəlxalq Valyuta Fondu (BVF), Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (Dünya Bankı), İslam İnkişaf Bankı (İİB), Asiya İnkişaf Bankı (ASİB), Almaniyanın KFV Bankı, Yaponiyanın İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlıq nəticəsində respublikamızda həyata keçirilən iqtisadi islahatların, yenidənqurma və bərpa işlərinin maliyyə vəsaiti ilə dəstəklənməsi xüsusi qeyd edilməlidir. Mövcud infrastrukturun bərpası, yenidən qurulması, yeni iş yerlərinin yaradılması və ölkədə keçirilən islahatların dəstəklənməsi məqsədi ilə əlverişli şərtlərlə xaricdən hökumət zəmanəti ilə cəlb edilmiş kreditlərin 33%-i iqtisadi islahatlar və struktur dəyişikliklərinin maliyyələşdirilməsinə, 29% yanacaq-enerji sektorunun yenidən qurulmasına, 12% nəqliyyat xidmətinin yaxşılaşdırılmasına, 4% kimya, 11% kənd təsərrüfatı və digər mühüm sahələrin maliyyələşdirilməsinə yönəldilmişdir. Cəlb edilən investisiya məqsədli kreditlərə xidmət, bilavasitə, büdcədən həyata keçirilir.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın dinamik yüksəlişi üçün vacib olan amillərdən biri və ən mühümü neft gəlirlərinin ölkədaxili investisiyalara cəlb edilməsidir. Son nəticədə bu, ölkənin beynəlxalq miqyasda rəqabətdözümlüyünə ən yaxşı zəmanətdir. İqtisadi cəhətdən sürətlə inkişaf edən ölkələrin təcrübəsi göstərir ki, ixtisaslı işçi qüvvəsinə qoyulan investisiyalar digər investisiya formalarından daha mənfəətlidir. Nəzərdə tutulan bu tələbatın tam ödənilməsi üçün bu istiqamətdə bəzi tədbirlərin həyata keçirilməsi məqsədəmüvafiq olardı.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, iqtisadi islahatların aparılması ölkə iqtisadiyyatına xarici kapitalın cəlb olunması təcrübəsinin təkmilləşdirilməsi, investisiya mühitinin daha da sabitləşdirilməsini tələb edir. Bazar münasibətlərinə keçidin iqtisadiyyatda yaratdığı problemlərin və həmçinin daxili kapital çatışmazlığının aradan qaldırılması, hər şeydən əvvəl, ölkəyə xarici investisiya axınının sürətləndirilməsini zəruri edir.

Xarici kapitalın ölkəyə daxil olmasını sürətləndirmək məqsədilə, iqtisadiyyatın prioritet sahələrinin təhlili aparılmalı, ehtiyac olan investisiya məbləği müəyyənləşdirilməlidir. Sonra isə xarici kapitalı həmin sahələrə məqsədyönlü və səmərəli istiqamətləndirmək lazımdır. Nəticədə, investisiya prosesində yaranan əlavə itkilərin və dövlət borcunun səmərəsiz artımının qarşısını ala bilər, həmçinin maliyyə və investisiyalaşdırma kimi bazar iqtisadiyyatına xas olan iqtisadi tənzimləyici vasitələrlə istehsalçılar, ictimai istehlakı təmin edən

təsərrüfat fəaliyyəti üsullarını qəbul etməklə, büdcə gəlirlərinin artımını təmin edə bilərlər.

Respublikamızda iqtisadi həyatın bütün sahələrində islahatlar aparılır və bu da külli miqdarda büdcə vəsaiti tələb edir. Ölkəyə xarici kapital daxil olmaqla, yeni obyektlərin tikintisinin həyata keçirilməsi, yeni istehsal güclərinin işə salınması və istehsalın həcminin artması səbəbindən, nəticədə ÜDM-in həcminin artması təmin edlir ki, bu da maliyyə ehtiyatlarının əsas mənbəyi sayılır. Xarici kapitalın idxalı isə yeni obyektlərin tikintisi, fəaliyyətdə olan obyektlərin bərpası və həmçinin yeni fəaliyyətə başlayan müəssisələrdə əhalinin müəyyən hissəsinin məşğulluğunu təmin etmiş olur. İstehsal prosesinin artması nəticəsində isə hüquqi və fiziki şəxslərin gəlirləri də artır ki, bu da, dövlətin əsas maliyyə ehtiyatları fondunun, gəlirlər sisteminin artmasına gətirib çıxarır.

Nəticədə, neftin qiymətlərinin proqnoz səviyyəsindən çox artmasından əldə edilən əlavə gəlirlər xəzinədarlıqda toplanaraq xüsusi hesabda neftin qiymətlərinin azaldığı dövrdə, həmin vəsaitlərdən istifadə imkanlarını zəruri edir. Qeyd etmək lazımdır ki, əvvəllər əlavə gəlirlərin bölüşdürülməsi üzrə ətraflı izah edilməmiş mexanizm mövcud idi. Bunun nəticəsində, həmin gəlirlərin həcminin yalnız 25%-i Dövlət büdcəsinə daxil olurdu, qalan hissəsi isə ARDNŞ-in sərəncamında qalırdı. Büdcə-vergi siyasətinin əsas istiqamətində qeyd olunur ki, hal-hazırda Dövlət büdcəsinin xərcləri sosial və investisiya yönümlüdür. Bu da, ilk növbədə "Yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı" çərçivəsində tədbirlərin maliyyələşdirilməsini təmin etməlidir.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının əsas istiqamətləri və məqsədləri onun müasir durumu, inkişaf potensialı, qarşıda duran prioritet vəzifələri dünya iqtisadiyyatında tutduğu yerlə müəyyən edilir. Qeyd olunan ümumi inkişaf istiqamətlərinin və onların məqsəd və vəzifələrinin həyata keçirilməsi üçün investisiya siyasəti mühüm alətlərdən biridir. Bu baxımdan, dövlət investisiya siyasətinin milli və sektor inkişafı çərçivəsində formalaşdırılması mühüm əhəmiyyət kəsb etməklə yanaşı, sahələr arasında qarşılıqlı əlaqələrin təmin edilməsi və uyğunsuzluqlara yol verilməməsi üçün yeganə yoldur. Bir çox inkişaf etməkdə olan və vəsait çatışmazlığı ilə üzləşən ölkələrdən fərqli olaraq, ölkəmiz karbohidrogen ehtiyatlarının istismarından böyük həcmdə gəlir əldə etməyə başlamış və bu gəlirlərin orta müddətdə ildən-ilə artacağı gözlənilir. Dünya təcrübəsi göstərir ki, büdcə vəsaitlərinin çatışmazlığı şəraitində xərclərin səmərəli istifadəsi ilə müqayisədə, böyük həcmdə gəlirlərin toplanması prosesinin idarə olunmasında daha çətin problemlər

ortaya çıxa bilər.

Dünya Bankının proqnozlarına görə, 20 il ərzində neft qiymətləri normal götürüldükdə belə, Azərbaycan 140 milyard dollar vəsait qazanacaqdır. Bu vəsait isə ölkə iqtisadiyyatını inkişaf etdirməyə və insanların maddi rifahının yaxşılaşmasına kömək edəcəkdir. Məhz bu baxımdan, Qeyri-neft sektorunun İnkişaf Strategiyasının işlənib hazırlanması və həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Respublikada qeyri-neft sektorunun inkişafı üzrə Strategiya iki istiqaməti bu sektorda struktur islahatlarının aparılması ilə onun inkişafının dəstəklənməsini və neft gəlirlərinin düzgün idarə olunması vasitəsilə makroiqtisadi sabitliyin qorunub saxlanılmasını əhatə edir. Qeyri-neft sektorunun Stimullaşdırılması Strategiyası isə öz növbəsində, bir çox kompleks tədbirlərin həyata keiçrilməsini tələb edir. İlk növbədə, qeyri-neft sektorunda biznesin daha da həvəsləndirilməsi, onun kreditləşdirilməsi mexanizmlərinin yaradılması və bu istiqamətdə neft gəlirlərindən fəal istifadə mühüm şərtdir. Digər tərəfdən, qeyri-neft sektorunda vergi dərəcələrinin neft sektoruna nisbətən aşağı salınması, investisiyaların stimullaşdırılması, xüsusilə kənd təsərrüfatının xarici iqtisadi müdaxildən qorunması, özəlləşdirilən müəssisələrdə texnoloji yeniliklərin tətbiqi və bununla bağlı layihələrin kreditləşdirilməsi də diqqət mərkəzində saxlanılır. Bu sahədə mühüm məsələlərdən biri də qeyri-neft sektorunun subsidiyalaşdırılması hallarının mərhələlərlə aradan qaldırılması və sahənin neft sektorundan asılılığının azaldılmasından ibarətdir.

Yüksək makroiqtisadi dinamika şəraitində Azərbaycanda vergi bazasının qarşıdakı illərdə yüksək templə genişlənəcəyi gözlənilir. Bu da təbiidir, çünki iqtisadi artım dövlətin vergi gəlirlərinin artmasına əlverişli şərait yaradır.

Son 12 ilin məlumatlarından istifadə etməklə, ÜDM ilə vergi daxilolmaları arasında funksional asılılığa diqqət yetirək.

**Cədvəl 4**

**ÜDM və vergi gəlirləri haqqında məlumat (mlrd.manat)**

| İllər | ÜDM | Vergilər | Vergilərin ÜDM-ə nisbəti |
|---|---|---|---|
| **1996** | 2732,6 | 509,5 | 18,65 |
| **1997** | 3158,3 | 486,3 | 15,40 |
| **1998** | 3440,6 | 449,2 | 13,06 |
| **1999** | 3775,1 | 480,0 | 12,72 |
| **2000** | 4718,1 | 596,7 | 12,65 |
| **2001** | 5315,6 | 719,5 | 13,54 |
| **2002** | 6062,5 | 833,1 | 13,74 |
| **2003** | 7146,5 | 992,7 | 13,89 |
| **2004** | 8530,2 | 1215,7 | 14,25 |
| **2005** | 12522,5 | 1728,1 | 13,80 |
| **2006** | 18746,2 | 3006,8 | 16,04 |

| | | | |
|---|---|---|---|
| **2007** | 26815,1 | 5144,2 | 19,18 |

**Mənbə: Azərbaycanın statistik göstəriciləri 2002,Bakı,"Səda"2002, s.376; Azərbaycanın statistik göstəriciləri 2008,Bakı,"Səda"2008**

Cədvəldən görünür ki, 2005-ci ilə qədər ümumdaxili məhsulun hər 100 manat artımı vergi daxilolmalarını orta hesabla 13-15 manat, 2007-ci ildə isə 19,18 manat artımına səbəb olur. Son 2-3 ildəki artım əsasən xarici neft şirkətlərinin ödədiyi mənfəətdən vergilərin hesabınadır.

Dünyada az da olsa, neft gəlirlərindən səmərəli istifadə edib sabit iqtisadiyyat qurmuş ölkələr var. Doğrudur, bu ölkələrdə dövlət, iqtisadiyyatını neqativ təcrübəyə malik ölkələrdə olduğu kimi, yalnız neft üzərində formalaşdırmır. Bir sıra hallarda isə bu təcrübə bütöv ölkə miqyasında deyil, neft hasil edilən konkret coğrafi regionda özünü büruzə verir. Nəzərdən keçirilən ölkələr sırasına ABŞ, Kanada, Norveç, Avstraliya kimi inkişaf etmiş dövlətlər daxildir. Onların neft və digər mineral sənayesi, habelə bu sənayedən əldə olunan gəlirin istifadə təcrübəsi böyük maraq kəsb edir və güman etmək olar ki, hər bir neft ölkəsi bu təcrübədən bəhrələnib neft amilinin mənfi nəticələrini əvvəlcədən proqnozlaşdıra bilərlər. mümkündür.

Respublikamızda neft gəlirləri əsasən aşağıdakı istiqamətlərdə və təşkilatlarda istifadə edilir: ADNF, Dövlət büdcəsi, Sosial Müdafiə Fondu, dövlət müəssisələri, banklar, vətəndaşlar. Neft amili bütün digər ölkələrdə olduğu kimi, özünün iqtisadiyyat və cəmiyyət üçün doğurduğu çoxsaylı fəsadlarla müşayiət olunur. Neft gəlirlərinin hazırda və xüsusilə də yaxın gələcəkdə iqtisadiyyata çox güclü təsir imkanları olduğunu nəzərə alsaq, onun fəsadlarının ilk öncə makroiqtisadi dinamika və artım sürəti ilə bağlı olduğunu etirab etmək lazımdır. Adətən, belə qısamüddətli perspektivdə iqtisadiyyatın artım sürəti çox yüksək olur.

İqtisadiyyatın uzunmüddətli perspektivdə neftdən asılılığı artım sürətinin aşağı düşməsinə gətirib çıxara bilər. Bu qanunauyğunluq dünyanın bir çox ölkələrində özünü doğrultmuşdur. Neft, ilk əvvəl artım sürətini yüksəldir, lakin bu qısamüddətli effektdir. Sonrakı dövrdə isə artım sürəti aşağı düşür. Baxmayaraq ki, neft hal-hazırda bir sıra makroiqtisadi problemləri həll edir, lakin bu köklü islahatlar aparılmasına və daha optimal iqtisadi modellərin araşdırılmasına mane olmamalıdır, çünki neft öz effektini itirdikdən sonra, ölkə iqtisadiyyatı güclü təzyiq altına düşə bilər və bunun baş verməməsi üçün indi, yəni neftin iqtisadiyyatda böyük rol oynadığı bir dövrdə digər iqtisadi sektorları inkişaf etdirmək lazımdır.

## 8.3.Büdcə gəlirlərinin artırılmasında büdcə-vergi siyasətinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri

Dünya ölkələri təcrübəsində xammalın ixracatından əldə olunmuş vəsaitlərin kortəbii, heç bir iqtisadi səmərə gözlənilmədən xərclənməsi hallarına rast gəlinir ki, bu da son nəticədə xammal ixracatçısı olan ölkələrdə iqtisadi inkişafın qeyri-sabit olmasına gətirib çıxarır. Buna misal olaraq Nigeriya və Meksikanı göstərmək olar. Neft gəlirlərinin artmasının ilkin mərhələsində bu ölkələrdə böyük həcmdə büdcə kəsirləri mövcud idi. Lakin gəlirlərin artması hökumətə imkan verdi ki, müəyyən siyasi dividendlər qazanmaq üçün büdcə xərclərini daha da artırsınlar. Halbuki, bu gəlirlərin büdcə kəsirinin və xarici borcun azaldılmasına yönəldilməsi daha məntiqli görünərdi. Məhz bu səbəbə görə həmin ölkələr neft gəlirlərinin azalması dövründə sosial-iqtisadi gərginlik ilə üzləşdilər.

Beləliklə, «holland sindromu» təhlükəsinin yaranması fonunda bir çox ölkələrdə neft və qaz gəlirlərinin necə istifadə olunması məsələsi gündəmə gəlir. Məsələ burasındadır ki, neft və qaz gəlirləri hədsiz deyildir və gələcək dövrlərdə neft gəlirlərinin azalmasının mənfi makroiqtisadi nəticələrini tam kompensasiya etmək üçün milli iqtisadiyyatda kifayət qədər fiziki və insan kapitalının yaradılması çox zəruridir. Neft gəlirlərinin əsasən dövlət sektorunda cəmləşdiyini nəzərə alaraq, bu gəlirlərin necə xərclənməsi və indiki və gələcək nəsillər arasında necə bölüşdürülməsi xammal kəşfi ilə üzləşmiş ölkələrdə iqtisadi siyasətin təməl problemlərindən birini təşkil edir. Çünki təbii ehtiyatlardan əldə olunan gəlirlərin səmərəsiz daxili xərclərə yönəldilməsi və siyasi lobbizmin nəticəsi olaraq hədər xərclənməsi təhlükəsi yaranır. Digər tərəfdən dövlət maliyyə mexanizmləri şəffaf deyilsə, ictimaiyyətdə neft gəlirlərinin istifadəsi prosesində hökumətə qarşı inamsızlıq da arta bilər.

Məhz bu təhlükələrə əsaslanaraq, son 40 ildə «makroiqtisadi nəzəriyyə»də neft gəlirlərinin optimal istifadəsinə dair müxtəlif koseptual baxışlar və modellər təşəkkül tapmaqdadır. Bunlardan ən geniş yayılmışı, Engels və Vandesl yanaşmasıdır ki, burada da neft gəlirlərinin nəsillər arasında effektiv bölüşdürülməsi prinsipləri özünə yer tapmışdır. Bu yanaşmanın əsasını «daimi (dəyişməz) gəlirlər» hipotezi təşkil edir və bu hipotezə görə iqtisadi subyektlər öz gəlirlərinin yalnız daimi hissəsini xərcləyə bilərlər. Bu o deməkdir ki, dövlət bütün zamanlarda milli sərvətlərin dəyərini dəyişməz səviyyədə saxlamalıdır.

Bu modelə görə adambaşına düşən neft sərvətlərinin dəyişməz saxlanması prinsipi o zaman optimal sayılır ki, adambaşına düşən qeyri-neft ÜDM-i uzunmüddətli perspektivdə sabit səviyyədə qalır. Əgər

adambaşına düşən qeyri-neft ÜDM-in artması gözlənilirsə, onda neft gəlirlərinin onsuz da varlı olan gələcək nəsillər üçün saxlanması «nəsillərarası transfertlər» modelinə bir o qədər də adekvat deyildir. Əksinə, əgər qeyri-neft ÜDM-in azalması proqnozlaşdırılırsa (məsələn, əhalinin sayının artması səbəbindən), optimal fiskal strategiya tələb edir ki, adambaşına düşən sərvətlərin dəyişməz yox, artan trayektoriyası təmin olunmalıdır.

Hökumətin məqsəd funksiyası ondan ibarət olmalıdır ki, baxılan dövr ərzində adambaşına düşən Sərəncamda qalan gəlirlərin hamarlaşdırılması vasitəsilə əhalinin maksimal rifah halına nail olunsun. Burada adambaşına düşən Sərəncamda qalan gəlirlər dedikdə, vergilərin ödənilməsindən sonra adambaşına düşən qeyri-neft ÜDM-i ilə adambaşına düşən və neft gəlirləri hesabına maliyyələşən hökumət xərclərinin cəmi nəzərdə tutulur. Beləliklə, neftlə maliyyələşən xərclər ictimai istehlaka və ya sosial transfertlərə ekvivalent olan anlayışdır.

Hökumətin zamanlararası (intertemporal) büdcə məhdudiyyətləri belə bir siyasət prinsipini nəzərdə tutur ki, gələcək neft gəlirlərinin bugünkü xalis dəyəri, gələcək xərclərin bugünkü xalis dəyəri və borcun xalis dəyərinin dəyişməsinə bərabər olmalıdır. Bu zamanlararası büdcə məhdudiyyəti aşağıdakı qaydada müəyyən olunur:

- hər bir dövr üçün hökumətin büdcə məhdudiyyəti müəyyənləşdirilir;
- neftlə bağlı fiskal gəlirlər və neft yataqlarının istismarı arasında əlaqə tapılır və bu əsasda büdcə məhdudiyyəti müəyyən olunur.

Hər bir dövr üçün hökumətin büdcə məhdudiyyətinin müəyyənləşməsi büdcə kəsirinin hökumətin xalis aktivlərinin azalması hesabına maliyyələşməsini nəzərdə tutan konsepsiyadır. Qeyri-neft kəsiri (neft hasilatı ilə gəlirlərdən və neft aktivləri üzrə faiz gəlirlərindən təmizlənmiş Dövlət büdcəsi kəsiri) cəmi neft sərvətləri üzrə qazanılmış faizlərin, neft sərvətinin və dövlət borcunun dəyişməsi hesabına maliyyələşdirilir.

Bu şərtin əsas ehtimalları ondan ibarətdir ki, hər bir dövrdə qeyri-neft xərcləri (dövlət borcuna xidmət daxil olmaqla) qeyri-neft gəlirlərinə bərabərdir və qeyri-neft ÜDM-ində sabit xüsusi çəkiyə malikdir. Bu ehtimala əsasən, hökumət neft gəlirlərini bütün nəsillər arasında elə bölüşdürməlidir ki, daha az gəlirə malik nəsillərin maddi rifahı yüksəlmiş olsun. Dövlət borcunun qeyri-neft ÜDM-ində sabit payı ehtimal edilir.

Qeyd etmək lazımdır ki, adambaşına düşən Sərəncamda qalan gəlirlərin daimi (dəyişməz) trayektoriyası kəmiyyət baxımından məlum olan müəyyən dövr üçün hesablana bilər. Burada Engels və Vandelin «alqoritmi»-nə riayət etmək lazımdır. Bu alqoritmə əsasən neft gəlirləri dövr ərzində (məsələn, Azərbaycan şəraitində 30 il) ən kasıb nəslin

gəlirinin yüksəldilməsinə sərf olunur o vaxta qədər ki, bu nəslin maddi rifahı ondan bir qədər üstün olan nəslin rifah səviyyəsinə gəlib çatır. Əgər bu halda neft gəlirləri tükənməyibsə, iki ən kasıb nəslin gəlirləri o vaxta qədər artırılır ki, bu gəlirlər maddi rifahına görə onlardan üstün olan 3-cü nəslin gəlir səviyyəsinə bərabərləşir. Bu alqoritm zəncirvari sürətdə neft gəlirləri tükənənə qədər davam etdirilir. Yekunda Sərəncamda qalan gəlirlər adambaşına düşən qeyri-neft ÜDM-nin artım tempi səviyyəsində yüksəlir.

Hal hazırda Azərbaycan Respublikasının Dövlət büdcəsinin gəlirlərinin formalaşmasında qeyri-neft sektoru mühüm rol oynasa da, büdcə gəlirlərinin artım tempində onun iştirakı zəifdir və büdcə gəlirlərinin artımında neft sektorunun ödədiyi vergilərin payı daha böyükdür. Şübhəsiz ki, neft gəlirləri qeyri-neft sektorunun inkişafı üçün mühüm maliyyə mənbəyidir. Bununla belə, bu sektorun inkişafı yalnız maliyyə mənbələri ilə məhdudlaşmır. Burada bir çox institutsional amillər də həlledici rola malikdir. Burada ən başlıca prioritetlərdən biri, qeyri-neft sektorunun inkişaf potensialını maksimum nəzərə alan Optimal vergi Strategiyasının işlənməsidir. Məhz vergi yükünün cüzi yox, əhəmiyyətli dərəcədə azaldılması qeyri-neft sektorunda çox mühüm stimul yaratmaq imkanındadır. Bu gün hökumətin gördüyü tədbirlər vergi yükünün azaldılmasına yönəldilməsi kimi qiymətləndirilməlidir.

*Müasir dövr özünün inkişafının qlobal həcminə, münasibətlərin mürəkkəbliyinə, iqtisadi hadisələrin çevikliyinə görə əvvəlki dövrlərdən xeyli fərqlənir. Hal-hazırda dünya neft sənayesində mühüm rol oynayan respublikamıza dünya ölkələrinin maraqlarının arasında neft amili xüsusi əhəmiyyətə malikdir. Ölkəmizin ilkin iqtisadi yüksəlişi əsasən neft ixracının hesabına olmuş, sonradan neft və qaz istehsalına yardımçı olan sənaye sahələri inkişaf etmişdir. Deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, ölkəmizdə neft sektoru ilə yanaşı, başqa sahələrin də inkişaf etdirilməsinə geniş imkanlar vardır və bu istiqamətdə düzgün, məqsədyönlü investisiya siyasəti aparılır. Son illərdə digər sferalarda olduğu kimi dövlət maliyyəsi sferasında da sabitlik hökm sürməkdədir. Eyni zamanda, dövlətin büdcə-vergi siyasəti və onun iqtisadi siyasətin digər istiqamətləri, xüsusən də monetar siyasətə effektiv koordinasiyası ölkədə iqtisadi artımın dayanıqlı xarakter almasında mühüm rol oynamışdır.*

Fiskal strategiyanın reallaşması isə bu istiqamətdə həlledici rol oynayır. Təcrübə göstərir ki, neft gəlirlərinin fiskal ekspansiyada fəal istifadəsi valyuta və pul bazarlarında davamlı gərginlik yaradan amildir. Təbii ki, həm milli valyutanın dollara nisbətən kəskin bahalaşması, həm də pul kütləsinin arzuolunmaz dərəcədə artması problematik bir haldır. Bu problemi neft gəlirləri istisna olmaqla, Dövlət büdcəsinin real kəsirinə nəzər saldıqda aydın görmək olar.

Göründüyü kimi, makroiqtisadi sabitliyi və iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı ilə bağlı meydana çıxacaq, keyfiyyətcə yeni tələbləri nəzərə alaraq, ehtiyatlı xərc siyasətinin yeridilməsi vacibdir. Çünki büdcənin gəlirləri artdıqca, dövlət xərcləri də artmaqda davam edəcəkdir.

Qeyri-neft sektorunun ödədiyi vergilərin artım sürətinin neft sektorunun ödədiyi vergilərin artım sürətindən geridə qalmasına baxmayaraq, birinci daha sabit artım tempinə malikdir. Neft sektorunun ödədiyi vergilərin həcmi dünya bazarının konyunkturundan daha çox asılıdır.

Qeyri-neft sektorunun ödədiyi vergilərin həcminin artması isə bu sektorda iqtisadi canlanmanın nəticəsidir. Qeyri-neft sektorundan vergi daxiolmaları xarici tərəddüdlərə məruz qalmır və hökumətin fiskal tədbirlərinin sabitliyinə şərait yaradır. Onu da qeyd etmək lazımdır ki, qeyri-neft sektorunun ödədiyi vergilərin həcminin real artımı vergi dərəcələrinin aşağı salınması şəraitində baş verir. Bu da onu göstərir ki, qeyri-neft sektoru üzərində vergi ağırlığının azalması bu sektorda canlanmaya və nəticə etibarilə ödənilən vergilərin həcminin artmasına imkan verir.

Qeyri-neft sektorunda bir sıra sahələrin həyat fəaliyyətinin saxlanması məqsədilə hökumət dəyərinin tamamilə ödənilməməsinə baxmayaraq enerji daşıyıcılarının qeyri-neft sektoruna təklifini dayandırmır və beləliklə, qeyri-neft sektorunun həyat fəaliyyətinin neft sektoru tərəfindən subsidiyalaşdırılması effektini yaradır. Qeyri-neft sektorunun ödəniş qabiliyyətinin aşağı olması sürətli iqtisadi inkişafın təmin olunmasına ciddi əngəl yaradan ödəməmələr probleminin yaranmasına səbəb olur.

İqtisadiyyatda qarşılıqlı ödəməmələr sistemində yeganə xalis kreditor mövqeyinə Dövlət Neft Şirkəti malikdir. «Azərenerji», «Azəriqaz», Dəmiryol idarələrinin öz məhsullarının haqlarını ala bilməmələri onları Dövlət Neft Şirkəti qarşısında borclu durumuna salmışdır. Satılan enerjinin, su və qazın haqlarının ödənilməsi sisteminin qeyri-təkmil olması, onların istehlakçılara çatdırılması zamanı həddən artıq texniki itkilərin və qeyri-rəsmi mənimsəmə hallarının mövcud olması da həmin sahələrin ödəniş qabiliyyətinə mənfi təsir göstərən amillərdəndir. Bununla yanaşı, yuxarıdakı məlumatlardan göründüyü kimi, ən böyük məbləğdə xalis borclu mövqeyinə isə «Azərkimya» Dövlət Şirkətinin müəssisələri malikdir. Bu isə bu sahəyə daxil olan müəssisələrin yalnız dolayı subsidiyalar hesabına fəaliyyət göstərdiyini və ümumiyyətlə desək, həmin sahənin iqtisadi resursların səmərəsiz istifadəçisi olduğunu göstərir. Bütün bunlar özünün maliyyə ağırlığını son nəticədə neft sektorunun üzərinə qoyur. Neft sektoru da öz növbəsində dövlət Büdcəsi qarşısında vergi üzrə öhdəliyini tam ödəyə bilməmək vəziyyəti ilə üzləşir.

Neft sektorunun qeyri-neft sektorunu ödəməmələr formasında maliyyə- ləşdirməsi ikincinin belə şəraitdə fəaliyyət göstərməsi ənənəsini yaradır və qeyri-neft sektoru artıq bu şəraitə adaptasiya olunur. Bu şəraitin aradan qaldırılması isə artıq ödəməmələr probleminin yaranmasında mühüm amil kimi çıxış edən və səmərəsiz fəaliyyət göstərən sahələrin həyat fəaliyyətinin dayandırılması zərurətini yaradır.

Azərbaycanda Dövlət Büdcəsi, Neft Fondunun gəlirlərinin getdikcə artması geniş maliyyə bazasına malik bu tipli fondların yaradılmasına real imkanlar açır. Qeyri-neft sektorunun inkişafı üzrə dövlət maliyyə fondlarınun vəsaitləri aşağıdakı formalarda yerləşdirilə bilər:

- Əsas fondların alınması, yeniləşdirilməsi üçün uzunmüddətli, aşağı faizli kreditlərin təqdim edilməsi;
- Dövriyyə vəsaitinin tamamlanması üçün simvolik faizlə qısamüddətli kreditlərin təqdim edilməsi;
- Veksellərin uçotunun və akseptləşdirilməsi əməliyyatlarının həyata keçirilməsi;
- Riskli, lakin perspektivi yüksək olan yeni biznes fəaliyyətinin kreditləşdirilməsi;
- İnnovasiya layihələrinin kreditləşdirilməsi;
- Lizinq xidmətinin təşkili.

Qeyri-neft sektorunun inkişafı üzrə dövlət maliyyə fondlarının fəaliyyəti təkcə maliyyə vəsaitlərinin təqdim edilməsi ilə yekunlaşmamalı, eyni zamanda aşağıdakı xidmət növləri ilə tamamlanmalıdır:

- Menecmentin təşkili üzrə tövsiyələrin verilməsi;
- Kredit risklərinin dəyərləndirilməsi;
- Yeni biznes imkanlarının mövcudluğu ilə bağlı informasiyaların verilməsi, konsaltinq xidməti, biznes planların tərtibi;
- Kreditləşmə tarixi üzrə reyestrin aparılması və hər müəssisə üzrə kredit ödəmək mədəniyyətinin təhlili;
- Menecerlərin tədrisi sisteminin təşkili;
- Modern texnologiya, xammal və istehsal məqsədləri üçün digər növ vasitələrin daha əlverişli qiymətlərlə alınmasına yardım edilməsi;
- Biznes qurumları arasında əlaqələrin yaradılmasına yardım edilməsi;
- Məhsulun ixracının təşkili ilə bağlı məsləhətlərin verilməsi.

Neft gəlirlərinin əsasən fəal yığım vasitəsi kimi istifadə olunması, yəni Neft Fondunda aktivlərin dinamik artımı və qorunub saxlanması strateji önəm kəsb edir. Yaxın gələcəkdə nəzərdə tutulan neft-qaz müqavilələrinin reallaşması nəticəsində, Azərbaycan dünyanın ən zəngin neft-qaz ölkəsinə çevriləcəkdir. Neft yataqlarının mənimsənilməsi, böyük kapital qoyuluşu, müasir texnika və texnologiyanın tətbiqi külli

miqdarda xarici investisiyaların cəlb edilməsi neftdən gələn gəlirlərin və nəticədə, Dövlət büdcəsinin gəlirlərinin nəzərəçarpacaq dərəcədə artmasına gətirib çıxaracaqdır.

Qeyd etmək lazımdır ki, qeyri-neft sektorunun, xidmət və digər infrastruktur obyektlərinin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq qarşıda duran mühüm vəzifələrdəndir. Bu məqsədlə:

- gələcəkdə də xərclərin investsiya və sosialyönümlülüyünə üstünlük vermək;
- büdcə təşkilatlarında borclanma prosesini çevik idarə etmək;
- dövlət əmlakının idarə edilməsi mexanizmini təkmilləşdirməklə dövlət büdcəsinə daxilolmaları artırmaq;
- dövlət rüsumuna cəlb olunan xidmətlərin tərkibini genişləndirməklə onun yığılmasına nəzarəti gücləndirmək;
- büdcə gəlirlərinin və xərclərinin strukturunun təkmilləşdirilməsi, habelə şəffaflığının artırılmasını təmin edən qanunvericilik bazasının formalaşdırılması istiqamətində işi davam etdirmək.

Yuxarıda deyilənlərdən və əldə olunan iqtisadi nailiyyətlərdən belə bir qənaətə gəlmək olar ki, respublikada makroiqtisadi sahədə nailiyyətlərin təmin edilməsinin əsas şərtlərindən biri də düzgün büdcə vergi siyasətinin həyata keçirilməsi olmuşdur. Büdcə-vergi siyasətinin və maliyyə sistemində aparılan islahatların mühüm istiqamətləri kimi büdcə gəlirlərinin strukturunun təkmilləşdirilməsi və şəffaflığının artırılması, dövlətə məxsus maliyyə ehtiyatlarından səmərəli istifadə etmək baxımından, xəzinədarlığın işinin daha da təkmilləşdirilməsi, xərclərin icrasının maliyyə planlaşdırılması əsasında həyata keçirilməsi və vergi məkanını genişləndirməklə vergi yükünü azaltmaq olmuşdur. Göründüyü kimi, müasir şəraitdə dövlətin büdcə-vergi siyasətində büdcə tarazlığının qorunması çox vacib şərtlərdən biri olduğu üçün büdcə-vergi siyasətini elə bir şəkildə uyğunlaşdırmaq tələb olunur ki, Dövlət büdcəsi bu uyğunlaşmanın uğursuzluğunda iqtisadiyyatı iflic vəziyyətinə salmasın. Çünki hər bir siyasətin pozitiv nəticələrindən başqa, neqativ nəticələrinin də ola bilməsini yaddan çıxarmaq lazım deyildir.

Məlumdur ki, vergi dərəcələrinin azaldılması uzunmüddətli dövrdə iqtisadi aktivliyi artırmaqla, vergi bazasının genişlənməsinə və büdcənin vergi daxilolmalarının artmasına səbəb olur. Lakin bu məqamda əsas problem iqtisadiyyatın hansı fazada olmasını düzgün müəyyənləşdirmək və buna uyğun olan optimal vergi dərəcələrinin müəyyənləşməsidir . Əks halda vergi dərəcələrinin azaldılması istiqamətində atılan addımlar uzunmüddətli dövrdə də lazımi effekti verməyə bilər və büdcə daxilolmalarını müəyyən qədər azalda bilər.

Respublikamızda qeyri-neft sektorunun inkişafı ilə bağlı ən vacib strateji istiqamət - neft bumu nəticəsində makroiqtisadi sabitlik üçün yarana biləcək təhlükələrin aradan qaldırılmasıdır. Burada əsas vəzifə milli valyutanın möhkəmlənməsinin qarşısının alınması və inflyasiyanın normal səviyyədə saxlanılması məqsədilə müvafiq dövlət siyasəti aşağıdakı prinsiplərə əsaslana bilər:

- neft gəlirlərinin nəzərdə tutulmuş səviyyəsindən artıq hissəsinin yığım fondunda cəmləşdirilməsi;
- dövlət xərclərinin orta və uzunmüddətli sosial-iqtisadi inkişaf proqramlarına uyğun həyata keçirilməsi;
- büdcə xərclərinin artırılması zamanı onun məcmu tələbin komponentlərinə ayrılıqda göstərdiyi təsir və təklifin strukturu ilə uyğunluğuna diqqət yetirilməsi;
- dövlət xərcləmələrinin idarə olunmasının təkmilləşdirilməsi;
- maliyyə intizamının möhkəmləndirilməsi, həmçinin dolayı subsidiyalaşma hallarının azaldılması;
- gözlənilən inflyasiya meyillərinin qarşısının alınması üçün həyata keçirilən sterilizasiya tədbirlərinin çevikliyinin artırılması və s.

**Cədvəl 1**

**2000-2007-ci illər ərzində Dövlət büdcəsinin gəlirləri, xərcləri və büdcə kəsirinin ÜDM-də xüsusi çəkisi**

| Göstəricilər | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumdaxili məhsul (mln.manat) | 4718,1 | 5315,6 | 6062,5 | 7146,5 | 8530,2 | 12522,6 | 18746,2 | 26815,1 |
| Büdcənin gəlirləri (mlyn.manat) | 714,6 | 784,8 | 910,2 | 1220,9 | 1509,5 | 2055,2 | 3868,8 | 6006,6 |
| Büdcə gəlirlərinin ÜDM-də xüsusi çəkisi, %-lə | 15,1 | 14,7 | 15,0 | 17,1 | 17,7 | 16,6 | 20,6 | 22,4 |
| Büdcənin xərcləri (mln.manat) | 764,0 | 807,5 | 931,8 | 1234,5 | 1502,1 | 2140,7 | 3790,1 | 6086,2 |
| Büdcə xərclərinin ÜDM-də xüsusi çəkisi, %-lə | 16,2 | 15,2 | 15,4 | 17,3 | 17,6 | 17,1 | 20,2 | 22,7 |
| Büdcə kəsiri (mln.manat) | -49,3 | -22,7 | -21,5 | -13,6 | 7,3 | -85,6 | 78,6 | -79,6 |
| Büdcə kəsirinin ümumdaxili məhsula nisbətən, %-lə | 1,0 | 0,4 | 0,4 | 0,2 | 0,1 | 0,7 | 0,4 | 0,3 |

**Mənbə: Azərbaycanın statistik göstəriciləri 2008. Dövlət Statistika Komitəsi.Bakı, 2008**

Cədvəl məlumatlarından görünür ki, 2007-ci illə müqayisədə, 2010-cu ildə büdcə gəlirlərinin təqribən 50% artacağı proqnozlaşdırıldığı halda, Dövlət Neft Fondunun gəlirlərinin 5 dəfəyədək artacağı proqnozlaşdırılır.

Növbəti bir neçə ildə neft hasilatının kəskin yüksəlməsi büdcəyə böyük həcmli pulların daxil olacağını deməyə əsas verir. Ancaq bu artım qısamüddətli olacağından, vəsaitlərin optimal idarə olunması çox vacib məsələdir. Büdcə xərclərinin indiki templə artımı, bir tərəfdən, inflyasiya təzyiqi, digər tərəfdən də, neft hasilatının azalacağı təqdirdə maliyyələşmə problemi yaratmaqla ölkə iqtisadiyyatının inkişafı üçün ciddi maneəyə çevrilə bilər.

Baxmayaraq ki, 2007-ci ildə vergi dərəcələrinin aşağı salınması nəzərdə tutulmamışdır, lakin əvvəlki illərdə bu istiqamətdə ciddi addımlar atılmışdır. Təbii ki, vergi dərəcələrinin dəyişdirilməsi konkret məqsədlər daşımalıdır. Əgər əvvəlki illərlə müqayisə etsək, görmək olar ki, ölkədə vergilərin sayı azalaraq 14-dən 9-a endirilib, mənfəət vergisinin dərəcəsi 10 faiz, ƏDV-nin səviyyəsi 2 faiz, gəlir vergisinin yuxarı həddi 10

faiz aşağı salınıb. Yəni vergi dərəcələrinin müəyyən qədər aşağı salınması prosesi gedib. Nəzərə almaq lazımdır ki, vergi yükü problemi də kəskin şəkildə aktuallıq kəsb etmir.

Beynəlxalq təcrübə göstərir ki, vergi ödəyicisindən tutulan vergilər onun məcmu gəlirinin 30-40 faizindən çox olduqda, iqtisadi fəallığın səviyyəsi aşağı düşür, ölkəyə qoyulan investisiyaların həcmi azalır. Son beş il üzrə vergi yükünün səviyyəsinə diqqət yetirsək, bu göstəricinin 20 faiz həddini ötmədiyini görmək olar. Bu bir çox ölkələrlə müqayisədə çox aşağı göstəricidir, Avropa ölkələrində faktiki vergi yükünün səviyyəsi respublikamızla müqayisədə çox yüksəkdir. MDB dövlətlərinə gəldikdə isə, vergi yükü Rusiya, Ukrayna, Qazaxıstan, Belarus kimi dövlətlərdən aşağıdır. Əgər Avropa ölkələrinin vergi qanunvericiliyinə diqqət yetirsək, görə bilərik ki, ƏDV dərəcəsinin orta göstəricisi bu ölkələr üzrə 19,5%, mənfəət vergisi dərəcəsinin orta gostəricisi isə 24,2%-dir. Fiziki şəxslərin gəlir vergisinin dərəcəsinin maksimal həddi üzrə orta gostərici isə bu ölkələr üzrə 40,8% təşkil edir. Deməli, Azərbaycanda ƏDV-nin dərəcəsi Avropa ölkələri üzrə ƏDV dərəcəsinin orta göstəricisindən aşağıdır.

Mənfəət və gəlir vergisinin dərəcələrinin də Avropa ölkələri üzrə orta göstərici ilə müqayisəsi zamanı bu hal müşahidə olunur. MDB-yə üzv olan ölkələr üzrə ƏDV-nin orta göstəricisi 18,8%, mənfəət vergisinin orta göstəricisi 22,9%, fiziki şəxslərin gəlir vergisinin orta göstəricisi isə 21,3%-dir. Bütün bunlarla yanaşı, hökumət vergi yükünün optimal səviyyədə saxlanılması və vergi sisteminin liberallaşdırılması istiqamətində siyasət yürütməli, vergi dərəcələrinin perspektivdə aşağı salınması ilə bağlı Qanunvericiliyə müvafiq dəyişikliklər edilməsini diqqətdə saxlamalıdır.

Qeyd etmək lazımdır ki, beynəlxalq təcrübəyə əsasən, əmlak vergisi üzrə vergitutma obyekti kimi torpaq, bina və s. daşınan və daşınmaz əmlaklar götürülür. Bu baxımdan əmlak və torpaq vergisi növünün eyni məqsədə xidmət etdiyini nəzərə alaraq, onları birləşdirmək və vahid vergi növü kimi tətbiq etmək aktualdır. Lakin ölkəmizdə torpaq bazarının formalaşmaması və torpağın qiymətinin müəyyən edilməsi metodlarının işlənməməsi bu vergi növlərinin birləşdirilməsində müəyyən əngəllər yaradır. Daşınmaz əmlak kateqoriyasına aid olan torpaq qiymətləndirilərək alqı-satqı predmeti kimi götürülsə, perspektivdə torpaq vergisi ilə əmlak vergisini birləşdirmək barədə konkret tədbirlər görmək olar. Təbii ki, bu vergi qanunvericiliyinin sadələşdirilməsi, sahibkarlara daha aydın və şəffaf metodlardan istifadə imkanının verilməsinə xidmət edə bilər. Eyni zamanda, bu vergilərin birləşdirilməsi üçün bir sıra başqa iqtisadi əsasların da yaranması zərurəti vardır. Torpaq vergisi ölkədə iqtisadi fəallığı artıran vergi növlərindən biridir.

«Büdcə Məcəlləsi»nin «Vergi Məcəlləsi» ilə uyğunluq təşkil etməsi çox vacibdir. Büdcə Məcəlləsinə ölkənin sosial-iqtisadi inkişafının proqnozlaşdırılması, büdcə və büdcədən kənar dövlət təşkilatlarının maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyi və effektivliyinin qiymətləndirilməsi üzrə hüquqi və iqtisadi normalar daxil olmalıdır. Bundan başqa, burada dövlət gəlirlərinin potensialının qiymətləndirilməsi üzrə normalar, onların sosial-iqtisadi inkişafa təsirinin idarə olunmasının mexanizm və vasitələri, dövlət xərclərinin effektivliyinin təmin olunması üzrə mexanizmlər, dövlət xərclərinin və bütövlükdə büdcənin proqramlaşdırma səviyyəsinin artırılması, Dövlət büdcəsinin formalaşması, icrası və hesabatı üzrə normalar və s. müəyyən olunmalıdır.

Qeyd etmək lazımdır ki, ölkədə gözlənilən yüksək iqtisadi artım hesabına vergi bazasının genişlənəcəyinə baxmayaraq, vergi sisteminin təkmilləşdirilməsini nəzərdə tutan islahatların aparılmasının əhəmiyyəti olduqca böyükdür.

Şübhəsiz ki, qeyri-neft sektorunun sürətli inkişafının ilkin şərtini vergi rejiminin sadələşdirilməsi və bu rejimin investorlar üçün cəlbediciliyinin yüksəldilməsi təşkil edir. Bu mənada istənilən vergi stimullarının ana xəttini vergi dərəcələrinin azaldılması siyasəti təşkil edir. Hazırda biznes fəaliyyətinə mövcud vergi sisteminin göstərdiyi məhdudlaşdırıcı təsirin aradan qaldırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır**:**

- vergi dərəcələrinin azaldılması prosesinin davam etdirilməsi;
- vergiqoyma sisteminin sadələşdirilməsi, vergi yığımı işinin təkmilləşdirilməsi;
- prioritet sahələrdə fəaliyyət göstərən müəssisələrin Dövlət büdcəsinə olan vergi borclarının silinməsi praktikasının daha da genişləndirilməsi;
- yeni yaradılmış sahibkarlıq müəssisələri üçün vergi tətilləri və vergi kreditləri sxemlərinin tətbiqi, vergi avansı praktikasına son qoyulması;
- yeni açılmış kiçik və orta müəssisələrin müvəqqəti olaraq mənfəət vergisindən azad edilməsi;
- kiçik və orta biznes üçün iri müəssisələrə nisbətən daha aşağı dərəcə ilə mənfəət vergisinin tətbiq olunması;
- *Dövlət büdcəsi ilə sahibkarlar arasında vergi hesablaşmalarının dəqiq mexanizmlərinin müəyyən edilməsi;*
- *kənd təsürrüfatı müəssisələrinin istehsal məqsədləri üçün aldıqları malların üzərindəki ƏDV məbləğinin kompensasiyası.*

Qeyri-neft sektorunun inkişafını sürətləndirmək məqsədilə bu

sektor üçün neft sektorundan fərqli olaraq daha aşağı vergi dərəcəsinin müəyyənləşdirilməsi vacibdir. Eyni zamanda banklar tərəfindən investisiya yönümlü kreditlərin verilməsini stimullaşdırmaq məqsədilə əldə olunmuş gəlirlərin daha aşağı dərəcələrlə vergilərə cəlb olunması imkanları araşdırıla bilər.

Qeyd etmək lazımdır ki, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramının həyata keçirilməsi dövründə Azərbaycanın makroiqtisadi mənzərəsi iki səbəbdən dönüş dövrü kimi qiymətləndirilə bilər. Birincisi, hətta «Şah-dəniz» layihəsi üçün birbaşa xarici investisiyaların (XBİ) böyük məbləğ təşkil etməsinə baxmayaraq, əsasən «Bakı-Tbilisi-Ceyhan» boru kəmərinin tikintisini dəstəkləyən böyük həcmli XBİ-lər BTC kəmərinin tikintisinin tamamlanması ilə əlaqədar 2003-cü ildən azalmağa başlamışdır. İkincisi, ən mühüm amil qiymət effekti və 2006-cı ilə BTC vasitəsilə ilkin neftin Ceyhan limanına çatması ilə bağlı olaraq neft gəlirlərinin artmasıdır. Növbəti 20 ildə Azərbaycanın 170 mlrd. USD və ya hər il adambaşına 1000 USD gəlir əldə edəcəyi gözlənilir. Həmin pul axınlarını idarə edə biləcək və regionların sosial-iqtisadi inkişafına yönəldə biləcək Azərbaycanın tələb menecmenti arsenalı, gözlənilən neft bumu üzrə mühüm məsələyə çevrilmişdir. Bu arsenal, neft gəlirlərinin gələcək nəsillərə saxlanmasını təmin edən və sterilizasiya məqsədlərini güdən Neft Fondunun fəaliyyətini, əhatəli İcmal Dövlət büdcəsini (o cümlədən Neft Fondunun xərclərini), Neft Gəlirlərinin Uzunmüddətli İdarə olunması Strategiyası və qiymətlərin sabitliyinə məsul olan Milli Bankın müstəqilliyini əhatə edir. Bu fiskal və monetar orqanlar, 2005-ci ildən etibarən böyük məbləğdə XBİ şəraitində qeyri-neft sektorunun artımının və qiymət sabitliyinin saxlanmasında uğurlu imkanlara malik olmuşlar.

«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na və ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafını təmin edən digər dövlət tədbirlərinə uyğun olaraq büdcə-vergi siyasəti müəyyənləşdirilməklə, bu siyasət ölkədə sahibkarlığın inkişafı, infrastruktur sahələrin müasir tələblər baxımından yenidən qurulması, yoxsulluğun azaldılması və regionların inkişafı üçün iqtisadi imkanların yaradılması ilə yanaşı, mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslərdə, o cümlədən büdcə təşkilatlarında maliyyə intizamının gücləndirilməsini və şəffaflığın təmin edilməsini özündə əks etdirir. Həyata keçiriləcək kompleks tədbirlərin növbəti illərdə istehsalın, xüsusilə qeyri-neft sektorunun inkişafına, yeni iş yerlərinin açılmasına, regionların sosial-iqtisadi inkişafı üçün dayanıqlı maliyyə təminatının yaradılmasına, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına yönəldilməsi nəzərdə tutulmuşdur. Respublikamızda sosial-iqtisadi inkişaf sahəsində bu kimi zəruri tədbirlərin həyata keçirilməsi

idarəetmənin səmərəliliyinin yüksəldilməsi ilə müşayiət olunacaqdır. İqtisadiyyatımızda mövcud olan ödəməmələr probleminin mərhələlərlə aradan qaldırılması, enerji daşıyıcılarının ölkədaxili qiymətlərinin tədricən dünya qiymətlərinə uy-ğunlaşdırılması, enerji sektoruna Dövlət büdcəsi hesabına subsidiyaların verilməsi kimi məsələlər buna əyani sübutdur.

Yuxarıda qeyd olunanlardan belə bir qənaətə gəlmək olar ki, respublikamızda büdcə-vergi siyasətinin həyata keçirilməsində əsas məqsəd – ölkədə makroiqtisadi göstəricilərin sabit saxlanılmasını təmin etməklə iqtisadi artıma nail olmaqdan, maliyyə intizamının gücləndirilməsindən, Dövlət büdcəsinin tərtibi və icrasının təkmilləşdirilməsindən, qeyri-neft sektorunda məşğulluğun səviyyəsinin artırılmasından, kiçik və orta sahibkarlığa maliyyə dəstəyinin gücləndirilməsindən ibarət olmalıdır.

Qeyd etmək lazımdır ki, son bir neçə ildə büdcə-vergi siyasəti Azərbaycan Respublikasının ortamüddətli maliyyə siyasətinin tərkib hissəsi olmaqla, ölkənin iqtisadi-sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinə, Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"na (YAİİDP), "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı"na və ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafını təmin edən digər dövlət proqramlarına uyğunlaşdırılır. Bu əsasda büdcə xərclərinin aşağıdakı prioritet istiqamətləri müəyyənləşmişdir:

- kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün hazırlanmış proqramların maliyyələşdirilməsində büdcənin rolunun və bu istiqamətdə vəsait qoyuluşunun artırılması;
- Respublikanın daxili potensialından və büdcə resurslarından səmərəli istifadə edilməklə, iqtisadi regionlar üçün xüsusi əhəmiyyət kəsb edən sahələrin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafına nail olunması;
- «İqtisadi İnkişaf üzrə Dövlət Proqramı»nda Dövlət büdcəsinin vəsaitləri hesabına həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin maliyyə-ləşdirilməsinin təmin olunması;
- büdcə prosesinin təkmilləşdirilməsi vasitəsilə büdcə proqnozlaşdırılmasının və büdcə xərclərinin səmərəliliyinin artırılması;
- həmçinin ölkə iqtisadiyyatının, ayrı-ayrı dövlət orqanlarının, sahibkarlığın inkişafını təmin edən digər dövlət proqramlarında Dövlət büdcəsinin vəsaitləri hesabına həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsinin təmin edilməsi.

Maliyyə potensialının artırılmasında fiskal siyasətin rolu mühüm əhəmiyyətə malikdir. Bu siyasət, maliyyə bazarının sabitləşdirilməsinə, həmçinin dövlətin öz funksiyalarını həyata keçirə bilməsi üçün maliyyə təminatına xidmət edən alət rolunu oynayır. Odur ki, bu mexanizmdən düzgün və məqsədyönlü şəkildə istifadə olunması, fiskal siyasətin Dövlət büdcəsinə real təsirinin müəyyən edilməsinin hazırkı şəraitdə nəzərə alınması məqsədəmüvafiqdir.

Milli iqtisadiyyatın tənzimlənməsində özünəməxsus rol oynayan fiskal siyasət vasitəsilə hökumət maliyyə sisteminə nəzarət edir və bazar mexanizminə təsir edə bilir. Fiskal siyasət, sosial-iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edən problemləri həll etmək üçün tələb olunan pul vəsaitlərinin yığım forması olan büdcəni formalaşdırmağa imkan verir .

Vergi siyasətinin təhlili modelləri isə Vergi Qanunvericiliyinin dəyişməsinin büdcə gəlirlərinə və onların paylanmasına təsirini qiymətləndirmək üçün istifadə olunur. İlkin məlumat kimi vergi bəyannamələri götürülür. Mahiyyətcə bu modellər, imitasiya mikromodellərindən ibarətdir. Belə modellərin işlənib hazırlanması üçün vergi bazası haqqında məlumat və adekvat vergi modeli lazımdır ki, vergilərin real qiymətlərini və bəyannamə göstəricilərini imitasiya etmək mümkün olsun.

*Daxilolmaların monitorinqi modelləri daxilolmaların vaxtını və həcmini müşayiət etməyə imkan verir ki, o da ÜDM-in artıb-azalmasının səbəblərini aydınlaşdırmağa, proqnoz tapşırıqlardan kənarlaşmaları izah etməyə imkan verir ki, bu da vaxtında və məqsədyönlü qərarlar qəbul etməyə şərait yaradır.*

Beləliklə, ölkənin sosial-iqtisadi İnkişaf Konsepsiyasına və ortamüddətli Maliyyə Proqramına uyğun olaraq iqtisadiyyatın inkişaf etdirilməsini və nəzərdə tutulan büdcə-vergi siyasətinin effektiv həyata keçirilməsini təmin etmək üçün aşağıdakı istiqamətlərin nəzərə alınması məqsədəmüvafiqdir:

- ümumdaxili məhsulun strukturuna və sahə quruluşuna uyğun büdcə gəlirlərinin artımını təmin etmək;
- vergi daxilolmalarının proqnozlaşdırılması modelini hazırlamaq və bu prosesi keyfiyyətli həyata keçirmək üçün real informativ-məlumat sistemini təsis etmək;
- potensial gəlirlərin büdcəyə daxilolma əmsalının əhəmiyyətli dərəcədə yüksəldilməsinə nail olmaq;
- dövlət xəzinədarlığı vasitəsilə büdcə təşkilatları xərclərinin idarə edilməsi potensialını artırmaq, büdcə vəsaitlərinin təyinatı üzrə düzgün xərclənməsi üzərində dövlət maliyyə nəzarətini daha da gücləndirmək;
- qeyri-neft sektorunda büdcə gəlirlərinin yığım əmsalının üstün artımına nail olmaq;

- Dövlət büdcəsi xərclərinin investisiya yönümlüyünə üstünlük vermək;

- investisiya qoyuluşunun strukturunu və kreditlərin verilməsi mexanizmini daim təkmilləşdirmək;

- sahibkarlığı regionlar üzrə inkişaf etdirmək;

- dövlət vəsaitindən səmərəli istifadəni, büdcə xərclərinin strukturunun təkmilləşdirilməsini və xərclərin şəffaflığının artırılmasını təmin edən qanunvericilik bazasının formalaşdırılmasını davam etdirmək;

- dövlətin qısamüddətli istiqraz vərəqələri bazarını daha da inkişaf etdirmək, dövlətin qiymətli kağızlar bazarında investorların iştirakını genişləndirmək və qiymətli kağızlara olan tələbatı artırmaqla, normal rəqabət prinsipləri əsasında faiz dərəcələrinin aşağı düşməsinə şərait yaratmaq;

- kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün hazırlanmış proqamların maliyyələşdirilməsində büdcənin rolunu və bu istiqamətdə vəsait qoyuluşunu artırmaq;

- büdcə vəsaitlərinin məqsədyönlü və təyinatı üzrə istifadə olunmasını təmin etmək məqsədilə xəzinə nəzarətini daha da gücləndirmək, büdcə təşkilatlarında borclanma prosesini çevik idarə etmək;

- büdcə-vergi siyasəti alətlərindən səmərəli istifadə etmək.

Bazar iqtisadiyyatının formalaşdırılması, onun dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində aparılan məqsədyönlü iqtisadi siyasət çərçivəsində çevik büdcə-vergi siyasəti həyata keçirilir ki, bu siyasətin də əsas istiqamətləri vergilərin sayının azaldılması, vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsindən ibarətdir. Respublikamızda maliyyə axınlarının hərəkəti əsasən, Bakı şəhərində və qismən də böyük şəhərlərdə mərkəzləşmişdir. Bu tendensiya pul vəsaitlərinin paytaxtda cəmləşməsinə səbəb olan iri vergi ödəyicilərinin korporativ maraqları və regionlarda bank sektorunun kifayət qədər inkişaf etməməsi ilə əlaqədardır. Bu hal isə hər bir regionun vergi bazasının hesablanmasında fərdi yanaşmanın vacibliyini şərtləndirir.

Bu işdə regionların vergi bazasının hesablanması zamanı regionların ərazisindəki xüsusi mülkiyyətin gəlirliyinin və büdcə effektivliyinin, istehsal və sosial infrastrukturun və regionun inkişaf etmiş sahələrinin texnoloji yenilənməyə tələbatının, regionun resurs bazasının, nəqliyyat təminatının və s. keyfiyyətinin qiymətləndirilməsi nəzərə alınmalıdır. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı çərçivəsində vergi güzəştlərinin dövlətin sosial-iqtisadi proqramlarının strateji məqsədlərə uyğun

verilməsi, bu güzəştlərin ancaq müvəqqəti və əldə edilmiş nəticələrə əsaslanaraq tətbiq edilməsi məqsədəuyğun hesab edilir.

Belə bir məsələni qeyd etməliyik ki, beynəlxalq təcrübəyə əsasən, müxtəlif ölkələrdə sadələşdirilmiş vergi sistemi tətbiq olunur. Ölkəmizdə kiçik biznesin inkişafı üçün sadələşdirilmiş vergi sisteminin tətbiqi davam etdirilməlidir ki, xüsusilə regionlarda kiçik biznes obyektləri rəqabətqabiliyyətli olsunlar və iş məşğulluğu problemi həll olunsun.

Ancaq kiçik biznes üçün nəzərdə tutulmuş sadələşdirilmiş vergi rejimindən istifadə edərək, bir sıra iqtisadi fəaliyyət növləri üzrə sadələşdirilmiş vergi ödəyiciləri kimi qeydiyyata durmaqla, vergidən yayınma halları vergi orqanlarının xüsusi nəzarətində olmalıdır. Bu baxımdan, sadələşdirilmiş verginin məbləği həm iqtisadi fəaliyyət növü, həm dövriyyə, həm də işçilərin sayı və xidmət sahəsi kimi parametrlər əsasında təyin edilməlidir. Bununla yanaşı, regionların iqtisadi inkişafı nöqteyi-nəzərindən sadələşdirilmiş verginin məbləği ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq edilməklə də hesablana bilər.

Sonda belə bir qənaətə gəlmək olar ki, büdcə-vergi siyasətinin səmərəliliyini təmin etmək üçün aşağıdakı kompleks tədbirlərin həyata keçirilməsi vacibdir:

- vergi yükünün azaldılması, vergi məkanının genişləndirilməsi;
- vergi ödəyicilərinin fəaliyyətinin stimullaşdırılması, potensial vergi bazasının genişləndirilməsi;
- vergilərin strukturunun onların sadələşdirilməsi istiqamətində təkmilləşdirilməsi;
- sahibkarlıq fəaliyyətinin genişləndirilməsini təmin edən vergi mühitinin yaradılması;
- Dövlət büdcəsindən ayrılmış vəsaitlərin təyinatı üzrə səmərəli xərclənməsi üzərində nəzarətin gücləndirilməsi;
- büdcənin icrası prosesində şəffaflığın təmin olunması məqsədilə xəzinədarlıq sisteminin təkmilləşdirilməsi işlərinin sürətləndirilməsi;
- büdcə gəlir və xərclərinin ÜDM-də xüsusi çəkisinin artırılmasına nail olunması;
- xərclərin investisiya və sosialyönümlülüyünün təmin edilməsi;
- büdcə kəsirinin inflyasiya yaratmayan mənbələr hesabına maliyyələşdirilməsi;
- dövlət vəsaitinin təyinatı üzrə səmərəli xərclənməsi üzərində nəzarəti tam təmin etmək məqsədilə idarə, müəssisə və təşkilatlarda uçot-hesabat işlərinin yenidən qurulmasının təmin edilməsi.

# IX FƏSİL

# DÖVLƏTİN PUL-KREDİT SİYASƏTİ

***«Pul – kredit siyasəti dövlətin iqtisadi funksiyalarının reallaşmasında büdcə-vergi siyasətindən sonra ən güclü alətdir. Burada dövlət pula tələbatla pul təklifi arasındakı nisbətləri tənzimləyərək, iqtisadi artıma maliyyə təminatı yaradır və iqtisadi inkişafa təsir edir»***

**İlham Əliyev**

## 9.1.Pul-kredit siyasətinin nəzəri əsasları

Pul-kredit sferası ilə bağlı olan və «pul kütləsi nəzəriyyəsi» kimi tanınan ilk nəzəriyyə XVI əsrdə Saloman məktəbinin nümayəndələri tərəfindən rəsmən sistemli şəkildə irəli sürülmüşdür. «Pul-kütləsi nəzəriyyəsi» XVI-XVIII əsrlərdə klassik iqtisadçılar tərəfindən zənginləşdirilsə də əsasən XVIII əsrdə D.Yum tərəfindən inkişaf etdirilmişdir.

Tanınmış klassik iqtisadçı David Rikardonun iqtisadi təlimində pul tədavülü və bank sistemi ilə bağlı nəzəri fikirlər geniş yer almışdır. XVIII əsrin sonlarında Rikardo tədavüldə olan pulun kəmiyyətini və onun dəyərini tənzimləyən qanunlarla bağlı təkliflər irəli sürmüşdür. Bununla yanaşı, həmin vaxtlarda iqtisadçının vətəni İngiltərədə pul böhranının yaşanması, onu pul-kredit siyasəti məsələsinə daha fundamental yanaşmağa sövq etmiş və nəticədə Rikardonun pul tədavülü ilə bağlı mükəmməl nəzəri fikirləri meydana gəlmişdir. O qeyd edirdi ki, qızıl və gümüşün dəyəri, o cümlədən bütün digər əmtəələrin dəyəri onların istehsalı və satışı üçün zəruri olan əməyin miqdarına bərabərdir, qızılın gümüşdən bahalılığı isə, məhz ona olan tələbin çoxluğu ilə deyil, qızılın eyni miqdarının əldə edilməsi üçün sərf olunan əməyin gümüşün eyni miqdarına çəkilən əməkdən çox olması ilə bağlıdır. İngilis klassik iqtisadçısı bu yanaşmanı pula da aid edərək bildirmişdir ki, ölkədə istifadə oluna bilən qızıl və gümüş pulun miqdarı onların dəyərindən asılıdır. Tədavüldə yalnız qızıldan istifadə olunarsa, onda onun miqdarı eyni məqsədlə istifadə olunan gümüşdən aşağı olar. Bir sözlə, əgər qızıl gümüşdən 10 dəfə bahadırsa, onda tədavüldə lazım olan qızılın həcmi bir o qədər az olacaq. D. Rikardo bildirirdi ki, tədavül vasitəsinin dəyərini aşağı salmaqla həmin nisbətdə onların kəmiyyətini artırmaq, əksinə onların dəyərini artırmaqla isə kəmiyyətini azaltmaq olar. Bir sözlə,

iqtisadçı əsaslandırmışdır ki, tədavüldə olan pulun dəyəri ilə onun kəmiyyəti arasında əlaqə mövcuddur, ümumilikdə isə tədavüldəki pul kütləsinin bir optimal həddi vardır ki, o həddin çox keçilməsi düzgün deyildir.

Ədəbiyyatlarda qeyd edilir ki, Rikardo milli iqtisadiyyatın inkişaf tələblərinə uyğun gələn pul sisteminin nəzəri konsepsiyasını hazırlayan ilk tədqiqatçılardan biri olmuşdur. «İqtisadiyyatın inkişafının mühüm şərtlərindən biri və ən vacibi- sabit pul tədavülüdür» deyən Rikardo bu sabitliyin, yalnız qızıla əsaslanan pul sisteminə söykənməsini şərt kimi irəli sürmüşdür. VIII əsrin sonlarında Rikardo İngiltərə bankının banknotlar buraxmasını, dövlət vəsaitlərinin idarə etmə hüququna malik olmasını, Mərkəzi Bankın yaradılmasını iqtisadi inkişafı dəstəkləyəcək pul sferası ilə bağlı təkliflər paketi kimi hökumətə təqdim etmişdir.

Hələ o vaxt Rikardo hesab edirdi ki, ölkədə pul buraxılışı tənzimlənməli, kağız pulların buraxılışı limitləşdirilməli və onlara nəzarət həyata keçirilməlidir. Qiymətli metal külçələrin idxal və ixracının sərbəstləşdirilməsini tövsiyə edən nəzəriyyəçi iddia edirdi ki, əgər qızıl pul ölkəyə çox gələrsə, onda qiymətlər yüksələr, əksinə az gələrsə qiymətlər aşağı düşər. Mənbələrdən birində Rikardonun bu təklfini əsaslandırdığı qanunauyğunluq belə izah edilmişdir: «Rikardo ölkədə qızılın toplanmasına müsbət hal kimi baxır və göstərir ki, bu halda qiymətlər yüksəlir, xaricdən ölkəyə mal gətirilməsi faydalı olur. Deməli, ölkənin ticarət balansında qızılla ödənilməli olan vəziyyət yaranır, qızıl ölkədən kənara çıxır, qiymətlərin aşağı düşməsi baş verir. Bu da öz növbəsində xarici malların ölkəyə gətirilməsini məhdudlaşdırır və müvazinət yaranır. Ölkədə qızıl çatışmadıqda vəziyyət əks istiqamət alır və beləliklə, ticarət balanslarını bərabərləşdirən və ölkələr arasında qızılı bölüşdürən avtomatik mexanizm yaranır».

Digər klassik iqtisadçı Adam Smitin də pul ilə, pul tədavülü ilə bağlı nəzəri fikirləri və baxışları olmuşdur. Smit pulu vacib dəyər hesab etmir, ona yalnız mübadilə vasitəsi kimi baxırdı. «Real sərvət pulda deyil, pulla alınan məhsuldadır» deyən Smitə görə, qızıl və gümüşün alıcılıq qabiliyyəti qeyri sabit olur və bu gün bir qızıl pul alan adam, həmin pulu sabah xərcləyə bilər, beləliklə, ikinci üçün də gəlir təmin etmiş olar. İkinci şəxs də növbəti gün o pulu xərcləyərək üçüncüyə gəlir verə bilər. Bununla da dövriyyədə olan pul məbləği xalqların ümumi gəliri üçün eyni dərəcədə şəffaf deyil. Smit hesab edirdi ki, pulun öz təsirləri var, amma necə ki, o öz yerindədir, faydasız bir vasitədir, yəni «ölü vəsait»dir. Belə olan halda onun heç bir təsiri də olmur. İqtisadçı bildirirdi ki, yalnız səmərəli bank fəaliyyəti pulu daha güclü işlədə bilər, onun təsirlərini artırar.

1772-ci ildə Şotlandiyada bank böhranının müşahidə edildiyi bir vaxtda Smitin pul tədavülü ilə bağlı araşdırmaları daha da intensivləşmişdir. Hələ o vaxt iqtisadçı «bank riski» anlayışına geniş yer

vermiş, bankların vekselləri həddən artıq dərəcədə buraxmalarının riskli olduğunu əsaslan-dırmışdır.

D.Yum 1752-ci ildə nəşr edilmiş «Pul haqqında Esse» adlı əsərində qeyd etmişdir: «Yalnız qızılın və gümüşün miqdarını artıran pulun əldə edilməsi ilə qiymətlərin yüksəlməsi arasndakı interval və ya orta vəziyyət sənaye üçün əlverişlidir... Dövətin daxili xoşbəxtliyinə nəzərən elə bir əhəmiyyəti yoxdur ki, pul çox və ya az miqdardadır. Dövlət vəzifəsi olan şəxsin düzgün siyasəti əgər mümkünsə, pulu hələ də yüksələn səviyyədə qorumaqdır, çünki bu vasitə ilə o milli sənayeçilik ruhunu oyaq saxlayır və bütün real güc və zənginlikləri ehtiva edən işçi qüvvəsinin vəziyyətinin inkişafına səbəb olur. Pulu azalan millət pulu olmayan, lakin inkişaf tendensiyasına malik millətə nisbətən həqiqətdə həmin vaxt daha zəif və zavallıdır».

Tanınmış klassik iqtisadçı Pettinin mənfəət norması ilə bağlı nəzəri fikirlərindən çıxış edərək digər klassik iqtisadçı Lokk hesab edirdi ki, pulun təbii dəyəri mənfəət normasından illik gəlir gətirməyə meyil etdiyinə görə, tamlıqda həmin vaxt dövr edən pul səltənətinin bütöv ticarət səltənətinə nisbətindəki kəmiyyətdən asıldır. Lokkiyə görə, pulun iki dəyəri vardır: mənfəət normasından irəli gələn istifadə dəyəri və mübadilə dəyəri. Birinci mənada o, torpaq təbiətinə malikdir – birinin gəliri renta, digərinki isə istifadədir. İkinci mənada isə əmtəə təbiətinə malikdir: onun mübadilə dəyəri mənfəət normasının gözlənilən həcmindən deyil, əmtəələrin bolluğuna və ya qıtlığına nisbətdə pulun bolluğundan və ya qıtlığından asıldır. Beləliklə, Lokk birincisi, iddia edir ki, mənfəət norması – dövriyyə sürətini də nəzərə almaqla pulun miqdarının ticarətin ümumi dəyərinə nisbətindən asılıdır. İkincisi isə, pulun mübadilə dəyəri pulun miqdarının bazardakı məhsulların ümumi həcminə olan nisbətindən asılıdır.

Pul-kredit siyasəti ilə bağlı nəzəriyyələrin sistemləşməsi və iqtisadiyyatın dövlət tənzimlənməsində pul-kredit siyasətinin rolu ilə bağlı elm ictimaiyyətində müzakirələrin daha da dərinləşməsi dünya iqtisadiyyatında «Böyük depressiya» adlanan böhranın baş verməsindən sonra müşahidə edilmişdir. «Böyük depressiya»dan sonra dövlətin iqtisadi prosesləri tənzimləmək, iqtisadiyyatın inkişafını stimullaşdırmaq sahəsindəki fəaliyyəti ilə bağlı bir sıra nəzəri məktəblər arasında fikir ayrılıqları, hətta bir-birinə tam zidd olan yanaşmalar, bir-birini inkaretmələr olmuşdur. «Böyük depressiya»nın mənfi nəticələrinin aradan qaldırılmasında, dünya ölkələrində iqtisadi inkişafa nail olunmasında belə nəzəriyyələrdən ikisinin praktiki əhəmiyyəti daha böyük olmuşdur. Hazırda da həmin konsepsiyalar dünya ölkələrində iqtisadiyyatın tənzimlənməsində xüsusi əhəmiyyət kəsb edirlər. Con Meynard Keynsin əsasını qoyduğu nəzəriyyə iqtisadiyyatın tənzimlənməsində fiskal siyasətə üstünlük verilməsinin, Milton Fridmanın əsasını

qoyduğu «monetar nəzəriyyə» isə bu istiqamətdə pul-kredit siyasətinə üstünlük verilməsinin tərəfdarıdır.

«Böyük depressiya»dan sonra Keyns iddia edirdi ki, hökumət öz xərclərini çoxaltmaqla iqtisadi böhrana son qoya bilər. İri hökumət proqramları və layihələri yeni iş yerləri yaradaraq tələbatı artırır və nəticədə iqtisadi mühərrik yenidən işə düşür. Lakin Keynsin bu nəzəriyyəsini Avstriya iqtisadçısı F.Hayek sərt tənqid etmişdi. Hayek Keyns nəzəriyyəsinin yanlış əsaslara söykəndiyini, cəmiyyətdə iqtisadi bölgü balansını ədalətsizcəsinə pozduğunu, və hökumətin artan xərclərinin iqtisadiyyatı iflasa uğratdığını bildirirdi. O, qeyd edirdi ki, hökumətin pul xərcləməsinin yalnız 2 yolu var: birincisi, vergiləri artırmaqdır ki, bu, sahibkarlıq həvəsini öldürür, ikincisi isə əlavə pul çap etməkdir ki, bu da inflyasiyanı gücləndirir və pulun dəyərini salır. Bir sözlə, Keynsin nəzəriyyəsi pul-kredit sferasına göstərəcəyi mənfi təsirlərin proqnozu ilə inkar edilirdi.

Əslində pul-kredit siyasətinin bir sıra istiqamətləri və alətləri birbaşa Keynsin nəzəriyyəsindəki əsas müddəalara söykənir. Məsələn, iqtisadi inkişafın başlıca əsasını səmərəli tələbdə görən Keyns ikincinin formalaşmasında üç amilin mühüm rol oynadığını göstərirdi: istehlaka meyillilik, kapital qoyuluşunun səviyyəsi və likvidlik. Birinci və ikinci amillər məcmu tələbin səviyyəsini və artımını şərtləndirir, likvidlik isə məcmu tələbə əks göstərici kimi çıxış edir. Belə ki, likvidliyə üstünlük verilməsi kapitalın borc kimi mənfəətli olmasına gətirib çıxarır, bu isə bilavasitə borc faizi göstəricisindən asılıdır. Keyns bildirirdi ki, əgər borc faizi yüksək olarsa, onda kapital sahibləri onu istehsaldan götürərək pul formasında faiz gəliri əldə etməyə yönəldəcəklər. Bu isə məşğulluğun artmasında müstəsna rol oynayan investisiyalara mənfi təsir göstərəcək. Bu gün mərkəzi bankların uçot dərəcələri vasitəsilə iqtisadi proseslərə təsir etmələri, xüsusilə də böhranlar şəraitində faiz dərəcələrini azaldaraq iqtisadi inkişafı stimullaşdırmağa çalışmaları kimi fəaliyyətlərinin nəzəri əsaslarında Keynsin mülahizələrinin öz yeri vardır.

Pul-kredit sferasında monetar siyasətin müəllifi olmaq Milton Fridmana 1976-cı ildə iqtisadiyyat üzrə Nobel mükafatı qazandırmışdır. Bu mükafata o, istehlakın təhlili, pul dövriyyəsinin tarixi və «monetar nəzəriyyə»nin işlənib hazırlanması sahələrindəki nailiyyətlərinə, eləcə də iqtisadi sabitləşmə siyasətinin mürəkkəbliyinin təcrübi şəkildə göstərilməsinə görə layiq görülmüşdür.

Ədəbiyyatlardan birində qeyd edilir ki, II Dünya müharibəsindən sonra Qərbi Avropa ölkələrinin iqtisadi dirçəlişini təmin etmək üçün ABŞ-ın dövlət müşaviri Corc Marşal tərəfindən «Marşal planı»nın icrasında iştirak edən Milton Fridman «üzən valyuta kursları» ideyalarını fəal şəkildə müdafiə etmiş və qabaqcadan bildirmişdir ki, «Bretton-Vuds» razılaşması ilə aparılmış, qeyd edilmiş valyuta kursları son nəticədə iflaca

uğrayacaq. Onun proqnozu düz çıxır, 70-ci illərin əvvəllərində belə bir iflas baş verir və «Bretton-Vuds» razılaşması yenisi ilə əvəzlənir.

M.Fridman özünün 1957-ci ildə nəşr edilmiş «İstehlak funksiyasının nəzəriyyəsi» adlı əsərində sübut etmişdir ki, Keynsin «cari istehlakı cari gəlirlərlə uyğunlaşdıran» konsepsiyası mütləq yalnış kursa gətirib çıxaracaq. O, istehlakın praktiki məlumatlarının böyük sırasını tədqiq edərək müəyyən etmişdi ki, nəticələr onun «daimi gəlir» nəzəriyyəsindən fərqlənmir. Hansı ki, bu nəzəriyyəni o, Keynsin mülahizələrini tədqiq və tənqid edərək irəli sürmüşdü. Həmin vaxt Fridmanın «daimi gəlir haqda» nəzəriyyəsi «pulun miqdarı» nəzəriyyəsinin formulunda əsaslı dəyişikliklərə gətirib çıxararaq mühüm rol oynamışdır.

Böyük depressiya illərində Fridman ABŞ Federal Ehtiyat Sistemini tənqid edərək onu ölkənin bank sisteminin likvidliyinin qorunmasında zəiflik göstərməkdə günahlandırmışdır. Böhranın təsirlərinin azaldılması üçün bank sektorunun tənzimlənməsində prudensial fəaliyyətin gücləndirilməsini iqtisadçı zəruri şərt kimi təklif etmişdir.

Böhranın əsasən pul kütləsi ilə bağlı olduğunu iddia edən Fridman ondan çıxış yolunu belə izah etmişdir: «Pul kütləsinin kəskin ixtisarı – bu Keynsin və onun tərəfdarlarının bank sisteminin zəifliyi haqda dövriyyədə olan pulların ixtisarına dair fikirlərinə əks olaraq, monetar siyasətin gücünün faciəvi olsa da, həqiqi sübutudur». M.Fridman tədqiqatlarında bu fikri əsas götürmüşdür ki, nominal gəlirlərin intensiv artımının dəyişməsi əsasən pul kütləsinin artımının dəyişməsi ilə şərtlənir. Onun fikrincə, pul kütləsinə təsir edən və pula olan tələbə təsir etməyən mühüm amillər vardır. Və tədavüldə olan pul kütləsinin kəmiyyətinin müəyyən edlməsində əsas amillərdən biri Mərkəzi Bankın fəaliyyətidir.

M.Fridmanın əsasını qoyduğu «monetarizm nəzəriyyəsi»nə görə, tədavüldə olan pul kütləsi aşağıdakı əsas üç amildən asılıdır:

- pulun miqdarından, yəni mərkəzi bankın banknotlarının həcmindən;
- bank ehtiyat normalarından;
- nağd pulun bank depozitlərinə nisbətindən.

Həmkarlarından biri M.Fridman haqqında yazır: «Onun monetar doktrinası bir səbəbiyyət amilinə – pul kütləsinə həddən artıq bağlanmasına baxmayaraq digər doktrinaların həyat qabiliyyəti olan əsası olmuşdur. Onun nailiyyətləri necə olsa da, Keynsin nəzəri yeniliklərinin çatışmazlıqlarını təhlil etməsi və işsizliyin təbii normasını təqribi izah edən Fillips əyrisinin kəsərli tənqidi ilə bağlıdır. Tədqiq olunan hadisələrin tənqidi təhlili iqtisadi siyasətin nəzəri aspektlərinin işlənib hazırlanmasına, eləcə də inflyasiyanın kəskinləşməsi və əmək qabiliyyətli əhalinin məşğulluğunun ixtisarı dövrü üçün işsizliyin iqtisadi amillərinin qiymətləndirilməsinə dair təsir göstərməkdə M.Fridmana imkan yaratmışdır».

Hər yerdə və hər zaman monetar bir problem var deyə iddi edən M.Fridman bildirmişdir ki, hökumətlər hər il pul təklifini 3-5 faiz intervalında artırmalıdır.

M.Fridman dövlətin iqtisadiyyata yönəlmiş birbaşa idarəetmə və tənzimləmə prosesinin bürokratiya olduğunu, səmərəsiz olduğunu bildirə-rək, belə müdaxilənin yalnız dolayı yolla olmasının tərəfdarı olduğunu bəyan edirdi. O, belə dolayı vasitə kimi pul kütləsinin tənzimlənməsini ən ideal vasitə hesab edirdi.

1999-cu ildə iqtisadiyyat üzrə Nobel mükafatına layiq görülmüş Robert Mondel digər iqtisadçı həmkarı Markus Fleminq ilə birlikdə makroiqtisadiyyatla bağlı tədqiqatlarda geniş istifadə edilən «Mondel-Fleminq» modelini işləyib hazırlayıblar. Bu modelə görə, pul-kredit siyasətinin effektivliyi əsasən seçilmiş valyuta recimindən asılıdır. Azad valyuta zonalarının yaradılması və digər bu kimi məsələlər də pul-kredit siyasətinin səmərəli təsirləri üçün iqtisadçıların irəli sürdükləri təkliflərdən biri olmuşdur.

Pul-kredit siyasətinin başlıca vəzifəsi qiymətlərin sabitliyini və iqtisadi inkişafın davamlılığını təmin etməkdir. Bu baxımdan uzun illər, hələ iki-üç əsr bundan əvvəl tədqiqatçıların öyrənməyə çalışdıqları əsas məsələ tədavüldəki pul ilə qiymətlər arasındakı əlaqə olmuşdur. Yekunda əsas nəzəriyyələrin orta xəttində bu fikir dayanmışdır ki, makroiqtisadi səviyyədə qiymətlər birbaşa pul kütləsi ilə əlaqəlidir.

Klassik və müasir nəzəri fikirləri, müxtəlif konsepsiyaların əsas müddəalarını ümumiləşdirərək pul-kredit siyasəti haqda aşağıdakıları qeyd etmək olar:

- pul-kredit siyasətinin əsas mahiyyətini dövlətin pul kütləsini tənzimləməklə, ona müdaxilələr etməklə makroiqtisadi səviyyədə qiymətlərin sabitliyinə çalışması təşkil edir;
- fiskal siyasətə nisbətən pul-kredit siyasətinin iqtisadiyyata təsiri daha operativdir ki, bu baxımdan makroiqtisadi səviyyədə qiymətlərin tənzimlən-məsində pul-kredit siyasətinin əsas vasitə kimi seçilməsi zəruridir;
- pul-kredit siyasəti vasitəsilə iqtisadiyyatda borc faiz dərəcələrinin tənzimlənməsi investisiyaların stimullaşdırılması, iqtisadi tənəzüllərə qarşı mübarizə baxımından əhəmiyyətlidir;
- tədavüldə olan pul vahidinin dəyəri və onun ümumi miqdari qiymətlər səviyyəsini şərtləndirən əsas göstəricilərdən biridir;
- müasir iqtisadi proseslər şəraitində pul kütləsinə təsir edən amillərin sırası bir qədər də genişlənmişdir;
- valyuta recimi, valyuta məzənnəsinin tənzimlənməsi də pul-kredit siyasətinin səmərəsi üçün mühüm amillərdən biridir və s.

## 9.2.Pul-kredit sferasında dövlət tənzimlənməsinin əsas vasitə və alətləri

Dünya ölkələrinin təcrübəsi və çoxsaylı iqtisadçı alimlərin yekdilliklə qəbul etdiyi belə bir rəy mövcuddur ki, müasir dövrdə milli iqtisadiyyatın ümumi vəziyyəti yüksək səviyyədə pul-kredit siyasətinin vəziyyətindən asılıdır. Pul-kredit sferasının mövcud vəziyyətini isə pul bazarı, pula məcmu tələb, məcmu pul təklifi, kredit bazarı, valyuta bazarı və digər bu kimi amillər səciyyələndirir. Bu baxımdan hökumətin iqtisadi siyasətində mühüm yer tutan və pul-kredit tənzimlənməsinin əsas təminedicisi olan mərkəzi bankın qarşısında duran əsas vəzifə bu parametrləri iqtisadi inkişafın davamlılığı və makroiqtisadi sabitlik baxımından yolverilən səviyyədə saxlamaq və tənzimləməkdir. Hər bir ölkədə mərkəzi bank iqtisadi proseslərin məcrasını dəyişmək, pozitiv iqtisadi tendensiyaları stimullaşdırmaq, neqativ prosesləri isə əksinə məhdudlaşdırmaq üçün əsasən pul bazarına müdaxilələrdən, pul təklifini idarə etməkdən istifadə edir. Məlum məsələdir ki, pul təklifi zəruri səviyyədən çox artarsa, bu inflyasiyaya gətirib çıxarar, əksinə azalarsa, bu defilyasiyaya səbəb olar. Bunların hər ikisi iqtisadi inkişaf üçün zərərlidir. Bir sözlə, pul bazarında təkliflə iqtisadiyyatdakı inflyasiya arasında düz mütənasiblik mövcuddur. Bu mütənasiblikdə isə elə bir nöqtə mövcuddur ki, bu halda müşahidə edilən inflyasiya tempi iqtisadi inkişaf üçün yoverilən və zəruridir. Mərkəzi bank, məhz bu nöqtəyə uyğun pul təklifi formalaşdırmaldır.

Yuxarıda qeyd edilən məqsədlərə çatmaq üçün bazarın tənzimlənməsində müxtəlif vasitələrdən - alətlərdən istifadə edilir. Bu alətlərə əsasən aşağıdakıları aid etmək olar:

- faiz dərəcələrinin müəyyənləşdirilməsi;
- açıq bazarda əməliyyatların aparılması;
- kredit təşkilatları üçün məcburi ehtiyat normalarının müəyyən edilməsi;
- kredit təşkilatlarının reinvestisiyası;
- depozit əməliyyatları;
- bank əməliyyatlarının məhdudlaşdırılması;
- digər əməliyyatlar.

Qeyd edək ki, beynəlxalq təcrübədə istifadə edilən bu pul-kredit siyasəti alətləri «Mərkəzi Bank haqqında» Azərbaycan Respublikasının Qanununda da pul-kredit sferasının tənzimlənməsi vasitələri kimi nəzərdə tutulmuşdur. Bunlardan «məcburi ehtiyat normalarının müəyyən edilməsi» və «açıq bazar əməliyyatlarının aparılması» dolayı pul siyasəti alətəri hesab edilirlər. Çünki bu vəsaitlərdən istifadə konkret obyektə yönəlmir, həm də nail olunmaq istənilən nəticəyə birbaşa yox,

kommersiya bankları və qeyri-bank kredit təşkilatları vasitəsilə nail olunur, pul bazarına dolayı olaraq təsir edilir.

Ümumiyyətlə, yuxarıda qeyd edilən vasitələr pul-kredit tənzimlənməsinin ümumi metodlarıdır. Onlar ümumilikdə bütün kommersiya banklarının fəaliyyətinə şamil edilir. Bunlarla yanaşı, digər metodlardan da istifadə edilə bilər ki, bunlara bir qayda olaraq seçilmiş və ya selektiv metodlar deyilir. Adətən bu metodlar kreditlərin ayrıca formalarının, yaxud ayrı-ayrı sahələrin kreditləşdirilməsinin tənzimlənməsində istifadə edilir. Ədəbiyyatlarda aparılmış təsnifləşdirmələrdə birinciyə istehlak kreditləri, ikinciyə isə mənzil tikintisinin, ixracın və digər bu kimi sahələrin maliyyələşdirilməsi aid edilir.

Belə selektiv metodlara aşağıdakıları aid etmək olar:

- Ayrıca götürülmüş bir bank və ya borc üzrə bank krediti həcminin birbaşa məhdudlaşdırılması;
- Konkret kredit növü uzrə onun verilmə şərtlərinin qaydalarla tənzimlənməsi.

Birinci kredit siyasəti, ikinci isə marc siyasəti adlanır.

Bir sıra ədəbiyyatlarda dolayı pul siyasəti alətləri sırasına mərkəzi bankın reeskont siyasəti aid edilir. Likvidlik göstəriciləri yüksək olan maliyyə qurumlarının diskont edilməsi yolu bankların kredit həcmlərinə təsir edilməsi reeskont siyasətinin əsasını təşkil edir. Ümumilikdə dolayı pul siyasətinin reallaşdırılması zamanı mərkəzi bank pul bazarı iştirakçıları ilə eyni statusda çıxış edir, yalnız tələb və təklifi dəyişməklə tənzimləmə funksiyasını bazarın öhdəsinə buraxır.

Əsas pul-kredit siyasəti alətəri ilə yanaşı, mərkəzi bankın istifadə etdiyi vasitələrdən daha biri də banklar üçün iqtisadi normativlərin nizamlanmasıdır. Bunu maliyyə aktivlərinin yenidən nizamlanması da adlandırırlar. Belə iqtisadi normalara kassa ehtiyatları ilə depozitlər arasında nisbət, likvid aktivlərlə depozitlər arasında nisbət, səhmdar kapitalı ilə borclar arasında nisbət,kapitalı ilə cəlb edilmiş kapital arasında nisbət və s. aid edilir. Bu nisbətləri mərkəzi bank müəyyən edə və ona nəzarət həyata keçirə bilər.

Mərkəzi bank kommersiya bankları üçün kredit limitləri də müəyyənləşdirə bilər. Belə limitlər iqtisadiyyatın ayrı-ayrı sektorları üzrə müəyyən edilir. Məsələn, mərkəzi bank kommersiya bankları qarşısında belə bir tələb qoya bilər ki, kreditlərin ən azı x%-i real sektora yönəldilməlidir, yaxud real sektora yönəldilmiş kreditlərin ən azı y%-i kənd təsərrüfatına verilməlidir və s. Mərkəzi bankın kredit limitlərindən istifadəsi adətən iqtisadiyyatda konyuktur dəyişiklikləri niyyətinə xidmət edir.

Açıq bazarda əməliyyatlar dedikdə, Mərkəzi Bankın qiymətli kağızlar bazarında alqı-satqı əməliyyatlarını həyata keçirməsi nəzərdə tutulur. Bu fəaliyyətlərin də əsas məqsədi pul bazarına zəruri təsir

etməkdir. Daha da dəqiqləşdirsək, açıq bazar əməliyyatları mərkəzi bankın tədavüldəki pul kütləsini azaltmaq və ya çoxaltmaq üçün əməliyyatıdır. Qiymətli kağızlar bazarının inkişaf etdiyi ölkələrdə mərkəzi bankların pul-kredit tənzimlənməsində açıq bazar əməliyyatları xüsusi əhəmiyyətə malikdir. Əgər mərkəzi bank qiymətli kağızları bazarda satırsa və kommersiya bankları bunu alırsa, belə olan halda bankların kredit vermə imkanları azalır. Bu sə öz növbəsində iqtisadiyyatda pul təklifinin azalmasını şərtləndirir. Bununla yanaşı, həm də kreditlər üzrə faizlər kredit resursları təklifinin azalması səbəbindən artmış olur. Əks halda, yəni açıq bazarda kommersiya banklarından qiymətli kağızların geri alınması ilə banklara əlavə likvidlik verilmiş olur. Banklara kredit bazarında canlanma və pul kütləsində artım müşahidə edilir. Bu proses borc faizinin azalması və iqtisadi fəaliyyətin stimullaşması üçün əsasa çevrilir.

Açıq bazarda əməliyyatlarının əsasını REPO və Əks - REPO əməliyyatları təşkil edir. Son illər üzrə Azərbaycan Mərkəzi Bankının (AMB) REPO və Əks- REPO əməliyyatları ilə bağlı statistikaya və təhlillərə, biz növbəti paraqrafda yer vermişik.

Azərbaycan Respublikasının «Mülki Məcəlləsi»nə, «Mərkəzi Bank haqqında»" və «Banklar haqqında»" qanunlara müvafiq olaraq AMB tərəfindən hazırlanmış və Mərkəzi Bank tərəfindən dövlət qiymətli kağızları ilə Repo/əks-Repo əməliyyatlarının aparılması qaydalarını müəyyən edən «Dövlət qiymətli kağızları ilə Azərbaycan Respublikası Mərkəzi Bankının Repo, Əks-Repo əməliyyatlarının aparılması haqqında Qaydalar» adlı hüquqi sənəddə qeyd edilmişdir ki: «Repo əməliyyatı" – Milli Bank tərəfindən qiymətli kağız-ların müvəkkil banka satışı (Repo-nun açılması) və eyni zamanda müvəkkil bank tərəfindən həmin qiymətli kağızları Milli Banka satmaq, Milli Bankın isə onları müvəkkil bankdan geri satın almaq öhdəliyini (Repo-nun bağlanması) rəsmiləşdirən maliyyə əməliyyatıdır. Əks-Repo əməliyyatı" isə – müvəkkil bank tərəfindən qiymətli kağızların Milli Banka satışı (Repo-nun açılması) və eyni zamanda Milli Bank tərəfindən həmin qiymətli kağızları müvəkkil banka satmaq, müvəkkil bankın isə onları Milli Bankdan geri satın almaq öhdəliyini (Repo-nun bağlanması) rəsmiləşdirən maliyyə əməliyyatıdır.

«Mərkəzi Bank haqqında» Azərbaycan Respublikasının Qanununda AMB-nin açıq bazarda aşağıdakı əməliyyatları aparmaq hüququ müəyyən edilmişdir:

- dövlətin buraxdığı qiymətli kağızlarla alqı-satqı və digər əməliyyatlar;
- özünün buraxdığı qiymətli kağızlarla alqı-satqı və digər əməliyyatlar;
- xarici valyuta ilə alqı-satqı və digər əməliyyatlar.

Birinci istiqamət üzrə aşağıdakı tələblər mövcuddur:

- Mərkəzi Bank Dövlət büdcəsi kəsirinin birbaşa maliyyələşdirilməsi üçün kredit vermir;

- Dövlət büdcəsində qısamüddətli vəsait çatışmazlığı yarandıqda Mərkəzi Bank müvafiq icra hakimiyyəti orqanı ilə bağlanmış müqaviləyə əsasən gəlir gətirən dövlət borc qiymətli kağızları ilə təmin edilməsi şərti ilə dövlətə ən çoxu 6 ay müddətinə və cari ildə ödənilmək şərti ilə milli valyutada kredit verə bilər. Belə kreditlərin verilmiş və ödənilmiş hissəsinin ümumi məbləği son üç il ərzində Dövlət büdcəsinin orta gəlirlərinin 3 faizindən çox ola bilməz;

- Mərkəzi Bank tərəfindən Azərbaycan dövlətinin buraxdığı borc qiymətli kağızların alınması dövlətə kreditlərin verilməsi hesab olunur və belə əqdlər yalnız təkrar bazarda bağlanıla bilər və onlara əvvəldə qeyd edilən şərtlər şamil edilir.

Mərkəzi Bankın pul siyasətinin həyata keçirilməsi məqsədilə borc qiymətli kağızlarını buraxması və onun dövriyyəsi qaydaları Qanunvericiliklə müəyyən edilir.

Mərkəzi bankların təcrübəsi göstərir ki, qısamüddətli faiz dərəcələrinin tənzimlənməsində ənənəvi olaraq veksellərlə əməliyyatlardan və qısamüddətli dövlət istiqrazlarından istifadə edilir. Uzunmüddətli faiz dərəcələrinin tənzimlənməsində isə uzunmüddətli dövlət istiqrazları əsas vasitə kimi çıxış edir. Belə istiqrazları almaqla Mərkəzi Bank onların kursunun yüksəlməsinə çağırış edir və bununla da onlara tələb stimullaşaraq artır. İstiqraz üzrə kupon gəliri ilə onun bazar qiyməti arasındakı qarşılıqlı əlaqədə formalaşan istiqrazın faktiki gəlirliyi yüksəlir. Uzunmüddətli istiqrazların faktiki gəlirliyinin artması bazarda uzunmüddətli faizin azalmasını şərtləndirir.

Tədqiqatçıların fikrincə, pul-kredit siyasəti geniş və dar mənada nəzərdən keçirilməlidir. Geniş mənada o inflyasiya və işsizliklə mübarizə, pul kütləsinin tənzimlənməsidir, dar mənada isə optimal valyuta kursunun müəyyənləşdirilməsi, qısamüddətli faiz dərəcələrinin tənzimlənməsidir. Mərkəzi bank valyuta kursunun tənzimlənməsində də bazar əməliyyatından istifadə edir. Bunun üçün onun zəruri valyuta ehtiyatına malik olması lazımdır. Əgər xarici valyutanın təklifi artırsa, bu milli valyutanın möhkəmlənməsi, ikinci isə ölkənin ixrac potensialına mənfi təsir ilə nəticələnir. Belə olan halda, Mərkəzi Bank valyuta alışını həyata keçirərək bazardakı nisbəti birincinin xeyrinə dəyişməyə çalışır. Əks proses baş verdikdə, yəni xarici valyutanın təklifi azaldıqda milli valyutanın ucuzlaşması, bununla da ölkədə maliyyə sabitliyinin pozulması, əhalinin real gəlirlərinin azalması, inflyasiya təhlükəsi meydana gəlir. Buna görə də Mərkəzi Bank bazara xarici valuta çıxartmağa başlayır. Son qlobal maliyyə böhranı zamanı Azərbaycanın Mərkəzi Bankının fəaliyyətində belə bir tendensiya müşahidə edilmişdir.

2008-2009-cu illərdə AMB-nin valyuta bazarındakı satış yönümlü müdaxiləsinin artması valyuta ehtiyatının azalmasına da səbəb olmuşdur.

«Mərkəzi Bank haqqında» Qanunda faiz dərəcələrinin müəyyənləşdirilməsi ilə bağlı ağıdakılar öz əksini tapıb:

- Mərkəzi Bank uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini müəyyənləşdirir;
- Mərkəzi Bank uçot dərəcəsini müəyyənləşdirərkən ölkədəki mövcud makroiqtisadi durumu və maliyyə bazarının vəziyyətini nəzərə alır;
- Bank öz əməliyyatları üzrə faiz dərəcələrini pul bazarının likvidlik vəziyyətini nəzərə alaraq özünün açıq bazar, yenidənmaliyyələşdirmə və depozit əməliyyatları üzrə faiz dərəcələrini təsbit etməklə və ya hərraclarda tələb və təklif əsasında müəyyənləşdirir;
- Mərkəzi Bank müəyyən etdiyi uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini dərc etdirir.

Faiz dərəcələrinin müəyyənləşdirilməsi pul-kredit sferasının tənzimlən-məsinin ənənəvi metodlarından biridir. Borc-uçot əməliyyataru üzrə dərəcənin yüksəldilməsi ilə Mərkəzi Bank kommersiya banklarına və onun müştərilərinə kredit almaları üçün şərtləri ağırlaşdırır, bu yolda manea rolunu oynamaga çalışır ki, pul kütləsi ixtisar olunsun. Tədqiqatçıların fikrincə, faiz dərəcəsinin yüksəldilməsi ölkədə qısamüddətli xarici kapitalın cəlb edilməsinə kömək edir, bunun müqabilində isə tədiyyə balansı aktivləşir, xarici valyuta təklifi yüksəlir, nəticədə xarici valyuta ucuzlaşır və milli valyutanın kursu yüksəlir. Uçot-faiz dərəcələrinin endirilməsi isə bunun əksi olan proseslə nəticələnir.

Ümumiyyətlə, Mərkəzi Bankın pul bazarındakı əməliyyatlarının reallaşdırıldığı alətlər çərçivə alətləri və açıq bazar əməliyyatları kimi iki qrupa bölünür ki, haqqında bəhs etdiyimiz uçot-faiz dərəcəsinin müəyyənləşdirilməsi birinci qrupa aid edilir. Mərkəzi Bank çərçivə alətləri kimi vasitələrin cəlb olunması üçün bir günlük REPO , yerləşdirilməsi üçün isə bir günlük Əks-REPO-dan istifadə edir. Bir günlük REPO əməliyyatı üzrə faiz dərəcəsi dəhlizin aşağı həddini, Əks-REPO üzrə olan göstəricisi isə yuxarı həddi müəyyən edir. Bununla yanaşı, Mərkəzi Bank kedit təşkilatlarının likvidliyini idarə etmək məqsədilə onlara kreditlər verir. Bu dövlət kreditləri üzrə müəyyənləşdirilmiş faiz «uçot dərəcəsi» adlanır.

Qanunvericilikdə nəzərdə tutulur ki, AMB sonuncu instansiya kreditoru kimi bank kreditorlarının və əmanətçilərin maraqları baxımından özünün müəyyən etdiyi qayda və şərtlər daxilində qısamüddətli likvidlik problemi ilə üzləşmiş kredit təşkilatlarına tamtəminatlı kreditlər verə bilər. Belə kreditlər 6 aydan çox olmayan müddətə verilir və zəruri hallarda 6 ayadək müddətədək uzadıla bilər.

Uçot dərəcəsinin müəyyənləşdirilməsi birbaşa makroiqtisadi vəziyyət, pul bazarının mövcud durumu kimi meyarlala əlaqəlidir. Uçot dərəcəsinin endirilməsi iqtisadiyyatda kredit təklifini artırır və onun ucuzlaşmasına əsas verir ki, bu da biznes fəaliyyətini stimullaşdırır. Bu pul-kredit siyasətinin stimullaşdırıcı variantıdır. Son qlobal maliyyə böhranı zamanı AMB iqtisadi durğunluğun qarşısının alınması tədbirləri çərçivəsində uçot dərəcəsini 12 %-dən 5 %-ə qədər azaltmışdır.

2008-ci ilin ilk yarısında AMB iqtisadi subyektlərin istehlak davranışına təsir etməklə iqtisadiyyatda baş verən hərarətlənmə səviyyəsinə müəyyən təsir göstərmək, hökumətin antiinflyasiya siyasətinə dəstək vermək üçün pul siyasətinin bir qədər sərtləşdirilməsi məqsədilə faiz dəhlizinin əsas göstəricisi olan uçot dərəcəsini 13 %-dən 15 % səviyyəsinə yüksəltmişdir. Bu məlumat AMB-nin rəsmi hesabatındandır. Təhlillər göstərir ki, son illər ölkədə iqtisadi inkişaf proseslərinin sürətlənməsi, iqtisadiyyatda pul təklifinin sürətlə artması fonunda 2008-ci ilin ortalarına qədər ölkədəki pul-kredit siyasəti ümumilikdə sərt xarakterli olmuşdur. Əvvəldə qeyd edildiyi kimi, yalnız qlobal maliyyə böhranı, məcmu pul tələbinin artırılması zərurəti, maliyyə sektoruna potensial təhdidləri məhdudlaşdırma zərurəti pul-kredit siyasətinin yumşaldılmasını tələb etmişdir.

Mərkəzi Bankın pul-kredit siyasətinin «məcburi ehtiyat normaları» aləti əsasən kredit resurslarından istifadənin tənzimlənməsində işlədilir. Bu həm də bank sektorunda risklərin idarə edilməsi vasitəsi kimi çıxış edir. Bu alətin mahiyyəti ondan ibarətdir ki, Mərkəzi Bank kommersiya banklarını onların resurslarının müəyyən faizini mərkəzi bankın hesabında «dondurulmuş» vəziyyətdə saxlamağa məcbur edir. Banklar bu vəsaitlərdən kredit kimi istifadə edə bilmirlər. Deməli mərkəzi bank məcburi ehtiyat normasını yüksəltdikdə bank kreditləri və pul kütləsi azaır, bankların borcları üzrə faizlər yüksəlir. Bu məcburi normanın azaldılması isə banklara əlavə likvidlik verməklə kreditlərin və pul kütləsinin genişlənməsinə, bazar faizinin aşağı düşməsinə gətirib çıxarır.

Qanunvericilikdə Azərbaycan Mərkəzi Bankının məcburi ehtiyat normasının müəyyənləşdirməsi ilə bağlı aşağıdakılar nəzərdə tutulmuşdur:

- Mərkəzi Bank kredit təşkilatlarına məcburi ehtiyatlar saxlamaq barədə göstəriş verə bilər. Ehtiyatlar depozitlərin faizi nisbətində müəyyən edilir və Mərkəzi Bankda saxlanılır. Tələb olunan ehtiyatların norması, hesablanması və saxlanması qaydası Mərkəzi Bankın İdarə Heyəti tərəfindən müəyyən edilir;
- Məcburi ehtiyatlar təmin edilmədikdə Mərkəzi Bank ehtiyatı təmint etməyən kredit təşkilatına və onun inzibatçılarına qarşı Azərbaycan Respublikasının «İnzibati Xətalar Məcəlləsi»ndə nəzərdə tutulmuş inzibati tənbeh tədbirlərini tətbiq edə bilər.

Məcburi ehtiyat normasının azaldılması banklara əlavə likvidlik verilməsi və onların öz öhdəliklərini yerinə yetirmə keyfiyyətini yüksəltmə məqsədi daşıyır. Bu iqtisadiyyatın depressiya dövrlərində Mərkəzi Bank tərəfindən reallaşdırılır. Necə ki, AMB- də son qlobal maliyyə böhranı zamanı paraqrafın əvvəlində qeyd etdiyimiz kimi məcburi ehtiyat normasını kəskin şəkildə azaltmışdır. AMB-nin məlumatına görə, 2008-ci ilin ikinci yarısından başlayaraq pul siyasətinin yumşaldılması tədbirlərinin tərkibi olaraq bankların xarici öhdəliklər üzrə tətbiq edilən 5 %-lik məcburi ehtiyat norması ləğv edilmiş, daxili öhdəliklər üzrə məcburi ehtiyat norması isə oktyabr ayında 12%-dən 9%-ə, dekabrda isə 6 %-ə endirilmişdir. Buna qədər məcburi ehtiyat normasını formalaşdırmaq üçün banklara 15 gün vaxt verilirdisə, bundan sonra bu vaxt 1 aya qədər uzadılmışdır. AMB-nin hesabatında qeyd edilir ki, 2008-ci ildə təkcə məcburi ehtiyat normalarının azaldılması hesabına bank sisteminə 346,3 mln.manat həcmində likvidlik dəstəyi həyata keçirilmişdir ki, bunun 63 %-i xarici valyutada olan öhdəliklərə, 37 %-i isə milli valyutada olan öhdəliklərə görə məcburi ehtiyat normasının azaldılması hesabına görə olmuşdur. Məcburi ehtiyat normasının 12 %-dən 9 %-ə endirilməsi banklara 221,7 mln. manat, 9%-dən 6%-ə endirilməsi isə 124,6 mln. manat əlavə resurslardan istifadə imkanı vermişdir ki, bu da iqtisadiyyatın kredit təminatında xüsusi əhəmiyyətə malik olmuşdur. AMB bu preventiv tədbirləri 2009-cu ildə də davam etdirərək qlobal böhranın mənfi təsirlərini azaltmağa çalışmışdır. Biz bu barədə növbəti fəsildə bəhs edəcəyik.

«Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında»" və «Banklar haqqında»" Azərbaycan Respublikasının Qanunlarına uyğun olaraq AMB tərəfindən hazırlanmış və ölkədə fəaliyyət göstərən bütün banklar və xarici bankların yerli filialları üçün məcburi ehtiyatlar normasının müəyyənləşdirilməsi, hesablanması və Azərbaycan Respublikası Mərkəzi Bankında saxlanması qaydasını müəyyən edən «Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qaydası» adlı sənəddə qeyd edilmişdir ki, Məcburi ehtiyatlar Mərkəzi Bank tərəfindən pul siyasətinin həyata keçirilməsində istifadə olunan əsas alətlərdən biri olaraq pul kütləsini və bank sisteminin likvidliyini tənzimləyən mexanizmdir. Məcburi ehtiyatların norması AMB-nin İdarə Heyətinin qərarı ilə müəyyən edilir və bu normalar bankın cəlb etdiyi depozitlərin növü, müddəti və valyutası üzrə fərqləndirilə bilər.

Qanunvericilikdə nəzərdə tutulub ki, məcburi ehtiyatlar banklarda milli və xarici valyutalarda, qiymətli metallarda saxlanılan depozitlər üzrə hesablanır. Depozitlər «Banklar haqqında"» Qanunun 1-ci maddəsində depozitə verilən

anlayışa uyğun olaraq müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqlar ödənilməklə və ya ödənilmədən müştərilərin (əmanətçi-

lərin) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan bankın balansında aparılan cari, əmanət (depozit) və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitlərini əhatə edir. Bu Qaydaların məqsədləri üçün depozit anlayışına, həmçinin qeyri-rezident banklardan, habelə digər xarici və beynəlxalq maliyyə təşkilatlarından cəlb olunan vəsaitlər də aid edilir.

### 9.3.Azərbaycanda pul-kredit siyasətinin müasir vəziyyəti, onun təhlili və qiymətləndirilməsi

Azərbaycanda pul-kredit siyasətini Azərbaycan Respublikasının Mərkəzi Bankı (AMB) həyata keçirir. Mərkəzi Bankın hüquqi statusunu, onun məqsəd, funksiya və səlahiyyətlərini, idarəetmə və təşkilati strukturunu müəyyən edən «Mərkəzi Bank haqqında» AR-in Qanununda qeyd edilir ki, Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyini təmin etməkdir. Bank və ödəniş sistemlərinin SAbitliyini və inkişafını təmin etmək də Mərkəzi Bankın əsas məqsədlərindən biridir.

Qanunvericiliklə Azərbaycan Respublikası Mərkəzi Bankının funksiyaları aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- dövlətin pul və valyuta siyasətinin müəyyən edilməsi və həyata keçirilməsi;
- nağd pul dövriyyəsinin təşkil edilməsi;
- pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması;
- manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsinin mütəmadi olaraq müəyyənləşdirilməsi və elan edilməsi;
- ölkədə valyuta tənzimi və valyuta nəzarətininin həyata keçirilməsi;
- sərəncamda olan beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə edilməsi;
- qanunvericiliyə uyğun olaraq bank fəaliyyətinin lisenziyalaşdırılması və tənzimlənməsi;
- ödəniş sistemlərinin fəaliyyətinin təşkili, əlaqələndirilməsi, nəzarət edilməsi və s.

Mövcud qanunvericiliyə əsasən, hər il oktyabr ayının 1-dən gec olmayaraq AMB növbəti il üçün dövlətin pul siyasətinin əsas istiqamətlərini Prezidentə təqdim edir, dekabrın 31-dək isə ictimaiyyətə açıqlayır. Bu zaman Mərkəzi Bank cari ildə həyata keçirilən pul siyasətinin yekunları və qarşıdakı il üçün pul siyasətinin məqsəd və vəzifələrini, onların həyata keçirilməsi yollarını göstərir. Bu məqsədlə hər il Mərkəzi Bank «Pul siyasətinin əsas istiqamətləri» adlı sənəd hazırlayır. Bu sənəddə Qanunvericilikdə Mərkəzi Bankın qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsi, pul siyasətinin ötən il ərzində yerinə

yetirilməsi vəziyyəti, növbəti il üçün pul siyasəti üzrə hədəflər və bu hədəflərə nail olmaq yolları öz əksini tapır.

Bu sənədlə müəyyən edilmiş pul siyasətinin əsas istiqamətləri il ərzində Mərkəzi Bankın fəaliyyətinin prioritetlərini təşkil edir. Yalnız Mərkəzi Bankdan asılı olmayan səbəblərdən milli iqtisadiyyatdakı dəyişikliklərlə əlaqədar pul siyasəti istiqamətlərində dəyişikliklər edilir. Məsələn, son maliyyə böhranı illəri ərzində biz belə prosesləri müşahidə etmişik. Əslində «Pul siyasətinin istiqamətləri» ona görə hər il hazırlanır ki, o iqtisadiyyatda baş verən dəyişikliklərlə uzlaşdırılır. Burada həm dövlətin marağı, həm də biznes mühiti nəzərə alınır. İqtisadiyyatda sürətli və tsiklik dəyişikliklərin baş verdiyi, məsələn elə maliyyə böhranı şəraitində Mərkəzi Bank daha qısa müddətlərə pul siyasəti işləyə bilər. İstənilən halda AMB-nin 2008-2009-cu illərdə dünya maliyyə böhranı zamanı bu böhranın mənfi təsirlərinin ölkəyə daha az təsir göstərməsi, inflyasiyanın arzuolunmaz şəkildə yüksəlməməsi, milli valyutanın kursunun qorunub saxlanılması baxımından qənaətbəxş hesab edilə biləcək pul, kredit və valyuta siyasəti yürütdüyünü demək olar.

Təhlillər göstərir ki, AMB dünya ölkələrinin təcrübəsində müşahidə edilən və müasir iqtisadi proseslərin daha çox zəruri etdiyi aşağıdakı pul-kredit siyasəti alətlərindən istifadə edir:

- açıq bazarda əməliyyatların aparılması;
- uçot-faiz dərəcələrinin müəyyənləşdirilməsi;
- kommersiya bankları üçün məcburi ehtiyat normalarının müəyyən edilməsi;
- kommersiya banklarının reinvestisiyası;
- depozit əməliyyatlarının aparılması;
- bank əməliyyatlarının məhdudlaşdırılması və s.

AMB-nin açıq bazarda əməliyyatları dövlətin buraxdığı qiymətli kağızlarla alqı-satqını və xarici valyuta ilə alqı-satqını əhatə edir.

Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi, mərkəzi banklar uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini müəyyənləşdirməklə pul kütləsini idarə edir. Belə dərəcələrin müəyyənləşdirilməsində əsas kimi milli iqtisadiyyatın mövcud durumu, inflyasiya səviyyəsi, iqtisadi inkişaf xüsusiyyətləri əsas kimi çıxış edir. Qanunvericilikdə nəzərdə tutulmuşdur ki, AMB öz əməliyyatları üzrə faiz dərəcələrini pul bazarının likvidlik vəziyyətini nəzərə alaraq özünün açıq bazar, yenidənmaliyyələşdirmə və depozit əməliyyatları üzrə faiz dərəcələrini təsbit etməklə və ya hərraclarda tələb və təklif əsasında müəyyənləşdirir.

Hər il üçün dövlətin pul və valyuta siyasətinin müəyyənləşdirilməsi və təsdiq edilməsi; pul siyasətinin alətlərinə dair qərarların qəbul edilməsi; valyuta tənzimi və nəzarətinin həyata keçirilməsi qaydasının təsdiq edilməsi; valyuta tənzimi və nəzarətinin həyata keçirilməsi qaydasının təsdiq edilməsi; AMB-nin büdcəsinin və ona dəyişikliklərin

təsdiq edilməsi; AMB-nin kapital ehtiyatlarının formalaşdırılması və istifadə olunması qaydasının müəyyənləşdirilməsi; AMB-nin illik maliyyə hesabatının təsdiq edilməsi; beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə olunması strategiyası və qaydalarının müəyyən edilməsi; kredit təşkilatlarına bank fəaiyyətinin həyata keçirilməsi üçün lisenziyaların verilməsi və ləgv edilməsi barədə qərarın qəbul edilməsi; kredit təşkilatları üçün iqtisadi tənzimləmə normativlərinin müəyyən edilməsi; ölkənin bank sistemində xarici kapitalın iştirak limitinin müəyyənləşdirilməsi və digər bu kimi məsələlər İH-nin səlahiyyətlərinə aiddir.

Azərbaycanın Mərkəzi Bankının strukturunda onun pul-kredit siyasətinin hər bir alətinə və istiqamətinə müvafiq təşkilati bölmə fəaliyyət göstərir. Təhlillər göstərir ki, Mərkəzi Bankın təşkilati strukturunun formalaşmasında dünya ölkələrinin təcrübəsindən istifadə edilmişdir. Bir sıra xarici ölkələrin, MDB ölkələrinin, xüsusilə də Rusiya Federasiyasının Mərkəzi Bankının idarəetmə və təşkilati strukturu ilə AMB - nin müvafiq strukturu uyğunluq təşkil edir. Bu struktur bölmələrin fəaliyyətlərinin müxtəlifliyi və miqyası isə milli iqtisadiyyatın konyuktur fərqliliyindən, inkişaf istiqamətlərinin özünəməxsusluğundan irəli gəlir. Məsələn, Azərbaycanda qiymətli kağızlar bazarı kifayət qədər inkişaf etmədiyi üçün Mərkəzi Bankın da bu sektordakı fəaliyyəti inkişaf etmiş ölkələrdəki ilə müqayisədə geniş miqyasda deyildir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda qiymətli kağızlar bazarı hələ də özünün zəruri inkişaf səviyyəsinə çatmadığı üçün onun strukuturnda əsas yeri Dövlət qiymətli kağızları tutur. Sonuncu isə AMB-nin qısamüddətli notları və Maliyyə Nazirliyinin Dövlət qısamüddətli istiqrazları formalaşdırır. 01.01.2009-cu ildə dövriyyədə olan Dövlət qiymətli kağızların həcmi 410,7 mln. manat təşkil etmişdir.

Valyuta ehtiyatlarının idarə olunması şöbəsi AMB-nin valyuta ehtiyatlarının idarə edilməsi ilə bağlı əməliyyatları, beynəlxalq hesablaşmaların və ödənişlərin, valyuta aktivlərinin diversifikasiyası və konvertasiyası əməliyyatlarının təmin olunması məqsədilə daxili və xarici valyuta bazarlarında bir xarici valyutanın digər xarici valyutaya qarşı alqı-satqısının həyata keçirilməsi, xarici banklarda AMB-nin adına müxbir və qiymətli metal hesabların açılması da bu şöbənn funksiyalarına aiddir.

Qlobal maliyyə böhranı şəraitində valyuta ehtiyatlarının idarə olunması sahəsində AMB-nin məsuliyyəti bir qədər də artmışdır. ABŞ-ın ipoteka bazarından qaynaqlanan böhran, 2008-ci ildə beynəlxalq maliyyə bazarlarında likvidliyin aşağı düşməsi və maliyyə aktivlərinin kəskin ucuzlaşması ilə səciyyələnmişdir. Belə bir şəraitdə AMB, əsasən vəsaitlərin qorunub saxlanılmasını prioritet istiqamət kimi qəbul etmişdir. AMB rəsmi açıqlamasında 2008-ci ildə valyutanın idarə

olunması üzrə strategiyasını belə təsvir etmişdir: «İdarəetmə strategiyasının əsas komponenti kimi valyuta diversifikasiyası saxlanılmışdır. Belə ki, pul-məzənnə siyasətinin həyata keçirilməsi və ölkədaxili maliyyə sabitliyinin təmin olunması kimi AMB-in prioritet hədəflərinə nail olmaq üçün mövcud valyuta reciminin dəstəklənməsi və valyuta böhranlarına müqavimətin göstərilməsi məqsədilə saxlanılan əməliyyat traşının valyuta strukturu beynəlxalq praktikaya əsaslanaraq yuxarıda sadalanan məqsədlərdən irəli gələn valyuta kompozisiyasına uyğun seçilmişdir». Valyuta ehtiyatlarının 85%-i ABŞ dolları ilə, 10 %-i avro ilə, 5 %-i isə İngiltərə funtsterlinqi ilə saxlanılır.

Statistik məlumatlara görə, 2008-ci ildə AMB-nin sərəncamında olan valyuta ehtiyatlarının həcmi 2 121,7 mln. ABŞ dolları artaraq 6 137 mln. ABŞ dollarına çatmışdır və bu əvəlki illərdəkindən 52,8 % çoxdur. Valyuta ehtiyatlarının idarə edilməsi üzrə faiz gəlirliyi 3,2 % təşkil etmiş və 166,8 mln. ABŞ dolları faiz gəliri əldə edilmişdir.

AMB-nin fəaliyyət istiqamətləri arasında kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi, ona nəzarətin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu fəaliyyətin əsas məqsədi ölkənin bank sistemində sabitliyin qorunub saxlanması, kredit təşkilatlarının likvidliyinin yüksəldilməsi və sairədir. Bu sahədəki funksiyaların icrası üçün AMB-nin strukturunda Kredit təşkilatlarının fəaliyyətinə nəzarət Departamenti mövcuddur. Departamentin əsas məqsədi kredit təşkilatlarının riskyönümlü bank nəzarəti ilə əhatə edilməsini, risklərin vaxtında aşkara çıxarılmasını və qarşısının alınması vasitəsilə ayrı-ayrı bankların və digər inflyasiya proseslərinin qısa və uzunmüddətli modelləri qurulur.Ümumiyyətlə, mərkəzi bankların təcrübəsində qurulan inflyasiya modellərinin əsas məqsədi makroiqtisadi inkişafın mürəkkəb proseslərini və tendensiyalarını sadə formada əks etdirməkdən, böhranlı vəziyyətin yaranmasını nəzərə alan müxtəlif ssenarilər tətbiq etmək və model vasitəsilə böhranların həlli yollarının və uyğun şəraitlərin tapılmasından ibarətdir. AMB-nin sənədlərində qeyd edilir ki, inflyasiyanın modelləşdirmə prosesində bir çox ölkələrin mərkəzi bankları və elmi-tədqiqat institutlarında istifadə edilən «ARİMA», «VektorAvto», «Regressiya», «Kointeqrasiya», o cümlədən Engel-Granger və Yohansen yanaşmaları, Peseranın biraddımlı kointeqrasiya metodu kimi qabaqcıl metodologiya və üsullardan istifadə edilir.

İqtisadi inkişafın tənzimlənməsində nağd pul dövriyyəsinin təşkili də AMB-nin funksiyası kimi mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. AMB-nin Nağd pul Departamentinin həyata keçirdiyi bu fəaliyyətdə əsas məqsəd iqtisadiyyatın nağd pula olan tələbatının ödənilməsi və nağd pul dövriyyəsinin səmərəli idarə olunmasıdır. Azərbaycan Respublikasında nağd pul dövriyyəsinin zəruri nominallı kağız və metal pul nişanları ilə təmin edilməsi, pul nişanlarına olan zəruri

tələbatın həcminin və strukturunun proqnozlaşdırılması, MB-nin struktur bölmələrində pul nişanlarının ehtiyatlarının yaradılması və onların idarə edlməsi, pul nişanlarının istehsalı üzrə sifarişin verilməsi, çap şirkətləri ilə müqavilələrin bağlanması, yararsız pul nişanlarının tədavüldən çıxarılması və onların yeniləri ilə əvəz edilməsi, nağd pul dövriyyəsinin monitorinqinin həyata keçirilməsi, nağd pul sferası üzrə beynəlxalq təcrübəni öyrənmək məqsədilə xarici ölkələrin mərkəzi bankları ilə əməkdaşlıq və digər bu kimi məsələlər Departamentin əsas funksiya və vəzifələrini səciyyələndirir.

«Mərkəzi Bank haqqında» AR-in Qanununun 9-cu maddəsinin müddəalarına uyğun olaraq AMB Azərbaycan hökumətinin beynəlxalq maliyyə təşkilatlarında, məsələn BVF, Dünya Bankı və digərlərində üzvlük ilə bağlı əməliyyatlar, o cümlədən həmin təşkilatlara üzvlük haqlarının ödənilməsi üzrə vasitəçi kimi çıxış edir. Bank BVF ilə beynəlxalq valyuta münasibətləri, valyuta sisteminin sabitliyinin və nizamlı valyuta reciminin dəstəklənməsi, ödəniş balansının tənzimlənməsi istiqamətlərində əməkdaşlıq edir. Mərkəzi Bank bu günə qədər BVF-dən «Yoxsulluğun Azaldılması və İnkişaf Mexanizmi», «Ehtiyat Dəstəkləmə Mexanizmi», «Genişləndirilmiş Fond Mexanizmi» layihələri çərçivəsində kreditlər almışdır. Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq İnkişaf Assosiasiyası da AMB-yə kreditlər vermişdir.

**Cədvəl 1**

**AMB-nin beynəlxalq maliyyə institutlarından aldığı kreditlər**

| | | *2007* | *2008* |
|---|---|---|---|
| BVF | Yoxsulluğun Azaldılması və İnkişaf Mexanizmi | 15 512 | 61 365 |
| | Ehtiyat Dəstəklənmə Mexanizmi | 63 223 | - |
| | Genişləndirilmiş Fond Mexanizmi | 7 620 | 2 216 |
| Beynəlxalq İnkişaf Assosiasiyası | | 5 405 | 4 790 |

**Mənbə:** AMB, İllik hesabat-2008

Beynəlxalq İnkişaf Assosiasiyasından alınmış borc vəsaitləri ilkin ödəniş müddəti 19 il və illik faizi 1,0 % olan kreditlərdir. BİA kreditləri Maliyyə Nazirliyindən əlavə razılaşma vasitəsilə götürülmüşdür. 85 mln. ABŞ dolları və 149 mln. ABŞ dolları məbləğində olan kreditlərin qaytarılmasına müvafiq olaraq 2005 və 2007-ci illərdə başlanılmışdır, ödənilmə 2021-ci ildə başa çatacaq.

Mərkəzi Bankın fəaliyyətində diqqəti çəkən məsələlərdən biri də Bankın sərəncamında olan valyuta ehtiyatlarının xarici maliyyə bazarlarında yerləşdirilməsi və idarə edilməsi proseslərdir. Dünya maliyyə bazarlarında dinamik dəyişikliklərin müşahidə edildiyi son illərdə bu məsələnin aktuallığı daha da artmışdır. AMB-nin sərəncamında olan valyuta ehtiyatlarının bir qismi ticarət qiymətli kağızlarına yatırılmışdır. Bunlar, əsasən ABŞ Xəzinədarlıq notları,

Dövlət istiqrazları, korporativ istiqrazlar və ipoteka ilə təmin edilmiş qiymətli kağızlardır. Cədvəl 2.2-da bu qiymətli kağızların strukuturu və həcmi öz əksini tapmışdır.

**Cədvəl 2**

**Mərkəzi Bankın sərəncamında olan ticarət qiymətli kağızlarının strukturu**

| | *2007* | | | *2008* | | |
|---|---|---|---|---|---|---|
| | ***mln. $*** | ***illik faiz*** | ***ödəmə müddəti*** | ***mln. $*** | ***illik faiz*** | ***ödəmə müddəti*** |
| ABŞ xəzinədarlıq notları | 274,90 | 3,1%-5,0% | 2008-2012 | 374,87 | 0,0%-5,1% | 2009-2018 |
| Dövlət istiqrazları | 74,46 | 2,5%-6,5% | 2008-2012 | 121,43 | 0,6%-8,0% | 2009-2015 |
| Korporativ istiqrazlar | 45,06 | 3,0%-7,4% | 2008-2049 | 42,02 | 2,9%-7,4% | 2009-2012 |
| İpoteka ilə təmin edilmiş qiymətli kağızlar | 37,41 | 4,1-7,3% | 2008-2036 | 3,74 | 1,7%-6,5% | 2011-2035 |
| **CƏMİ:** | **431,83** | **-** | **-** | **542,07** | - | - |

ABŞ Xəzinədarlıq notları ABŞ hökuməti tərəfindən buraxılmış və yarımillik kupon ödənişlərini aparmaqla, beynəlxalq maliyyə bazarlarında alınıb-satılan notlardır. Bu qiymətli kağızlar AMB və onun xarici menecerləri tərəfindən saxlanılır və idarə edilir. Dövlət istiqrazları xarici dövlətlər tərəfindən buraxılmışdır və AMB-nin xarici menecerləri tərəfindən idarə edilir. Korporativ istiqrazlar ABŞ dolları, avro və funtsterlinq ilə ifadə edilmiş və maliyyə korporasiyaları tərəfindən buraxılmışdır. Bu qiymətli kağızlar da AMB-nin xarici menecerlərinin idarəetməsindədir. İpoteka ilə təmin edilmiş qiymətli kağızlar ABŞ dolları və avro ilə ifadə edilib, Avropa və ABŞ-ın maliyyə təşkilatları tərəfindən saxlanılan və idarə edilən qiymətli kağızlardır.

### 9.4.Bank sisteminin inkişafında dövlətin pul-kredit siyasətinin rolu

Mərkəzi Bankın fəaliyyətinin və onun pul-kredit siyasətinin mühüm istiqamətlərindən biri də bank sisteminin inkişaf etdirilməsi, bu sektorda risklərin azaldılması, likvidliyin yüksəldilməsi, bankların pul yaratma kimi keyfiyyət göstəricisinin daha da artırlması və sairədir. Bu baxımdan biz ölkənin bank sektorunun inkişaf xüsusiyyətlərini nəzərdən keçirməklə, həm də Mərkəzi Bankın bu sahədəki fəaliyyətinə və onun nəticələrinə diqqət yetirmiş olarıq. Bundan öncə isə Mərkəzi Bankın banklara yönəlik prudensial fəaliyyətinin əsas istiqamətlərini nəzərdən keçirmək istəyirik.

AMB yuxarıda qeyd edilən məqsədlərə çatmaq üçün bir sıra vasitələrlə ölkədə bank nəzarətini həyata keçirir. Bankın hesabat və bülletenlərinin, bəyanatlarının və digər sənədlərinin təhlili əsasında həyata keçirilən bank nəzarəti haqqında aşağıdakıları qeyd etmək olar:

- Ölkənin maliyyə sisteminə inamın möhkəmləndirilməsi istiqamətində bank nəzarət sisteminin inkişafı mühüm əhəmiyyətə malikdir. Mərkəzi Bankda «bank nəzarəti» konsepsiyası işlənib hazırlanmış və bank nəzarəti sistemində mühüm nailiyyətlər əldə etmişdir;

- Bank nəzarətinin bütün əsas halqaları təşkil olunmuşdur ki, onların işləri nəzarət orqanı kimi AMB-yə geniş səlahiyyətlər verən kompleks qanunvericilik bazasının mövcudluğu ilə təmin edilir. Nəzarət prosesində məsafəli monitorinqdən və inspeksiyadan istifadə edir;

- Mərkəzi Bank bank nəzarətinin səmərəliliyinin artırılması və funksiyasının optimallaşdırılması məqsədilə bank nəzarətinin metodoloji bazasının təşkili və onun Bazel Komitəsinin prinsiplərinə uyğunlaşdırılması istiqamətində tədbirlər görür;

- Banklara yönəlik prudensial tələblərin bank risklərinin səviyyəsinə təsirinin səmərəliliyinin artırılması, kapitalın adekvatlığının müəyyənləşdirilməsinin təkmilləşdirilməsi və nəzarət məqsədilə kapitalın yetərliyinə diqqətin artırılması baxımından məcburi normativlər sistemi təkmilləşdirilmişdir;

- Banklarda mümkün itkilər üzrə ehtiyatların yaradılması istiqamətində risklərin və vasitələrin tərkibi genişləndirilmişdir: kreditlərlə yanaşı bütün aktiv əməliyyatlar, həmçinin balansdankənar öhdəliklər də təsnifləşdirilmişdir;

- Kommersiya banklarında korporativ idarəetmə standartlarının layihəsi, səmərəli inspeksiya prosesinin tətbiqi üçün "Bank nəzarətinin təşkili və həyata keçirilməsi üzrə Metodoloji rəhbərlik" hazırlanaraq tətbiq edilməyə başlanılmışdır. İkinci sənədlə bank nəzarətinin bütün aspektləri standartlaşdırılmış və onun tətbiqi daxili inspeksiya çərçivəsində inspektorların fəaliyyətinin səmərəliliyinin artırılmasına istiqamətlənmişdir;

- Daxili nəzarətin həyata keçirilməsi çərçivəsində bankların etibarlığının təhlili prosedurları beynəlxalq CAMEL reytinq sistemi əsasında həyata keçirilir və qiymətləndirmə beynəlxalq standartlara uyğunlaşdırılmışdır;

- Mərkəzi Bankın bank nəzarəti sahəsində əsas prioritet istiqamətlərindən biri Avtomatlaşdırılmış Bank Statistika Hesabatlıq Sisteminin tətbiqi olmuş və bu sistem xarici nəzarət sahəsində istər konkret bank üzrə, istərsə də bütövlükdə bank sistemi üzrə məlumatların qəbulu, emalı və istifadəsinin avtomatlaşdırılmış variantını özündə əks etdirir;

- Bank nəzarətinin metodologiyasının və tətbiqinin bank nəzarəti üzrə Bazel Komitəsinin prinsiplərinə uyğunluğunun qiymətləndirilməsi aparılmış və bank nəzarət sisteminin zəif tərəfləri müəyyən edilmişdir və s.

Məlumdur ki, Mərkəzi Bankın iqtisadiyyata mühüm töhfəsi və onun əsas funksiyalarından biri ölkədə ödəniş sisteminin təmin edilməsi və iqtisadi inkişaf proseslərinə adekvat olaraq təkmilləşdirilməsidir. Bu fəaliyyət də kommersiya bankları vasitəsilə reallaşdırılır, banklar ödəniş sisteminin formalaşdırılmasının əsas subyektləridirlər. Təhlil və tədqiqatlar göstərir ki, son illərdə AMB tərəfindən ödəniş sistemi sahəsində də mühüm işlər görülmüş, nailiyyətlər əldə edilmişdir. Bu tədbirlərdən aşağıdakı ikisi xüsusilə qeyd edilməlidir:

- «AZİPS» - Real Vaxt Rejimində Banklararası Milli Hesablaşmalar Sisteminin tətbiqi;
- «XÖHKS» - Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sisteminin tətbiqi.

AMB-nin məlumatına görə, «AZİPS» İngiltərənin «Logica» şirkəti ilə bağlanmış kontrakt əsasında "SWIFT" sisteminə əsaslanmaqla yaradılmış və 16 fevral 2001-ci ildə istismara verilmişdir. Bu sistemin tətbiqi banklararası ödənişləri real vaxt rejimində aparmaq, hesablaşmalar zamanı vəsait itkisini aradan qaldırmaq, bankların balans hesabatlarının konsolidə edilməsini asanlaşdırmaq və banklar tərəfindən likvidli, daha çevik şəkildə idarə etmək üçün geniş imkanlar açmışdır. Bununla yanaşı, bazar iqtisadiyyatına əsaslanan pul-kredit siyasətinin daha səmərəli realizasiyası üçün və bankların bazara operativ surətdə geniş nəzarət etmələri üçün münbit şərait yaranmışdır.

«XÖHKS» AMB ilə ABŞ-ın «Hewlett Packard» şirkəti arasında bağlanmış kontrakta uyğun olaraq Milli Telekommunikasiya Şəbəkəsinin bazasında yaradılmış və 2 dekabr 2002-ci ildə istismara verilmişdir. Sistem AMB-nin ödəniş və informasiya sistemlərinə inteqrasiya olunmuş, Baş Mühasibat Sistemi ilə avomatik rejimdə interfeys əlaqəsi qurulmuşdur.

Qeyd edək ki, «Azərbaycan Respublikasında Milli Ödəniş Sisteminin İnkişafı üzrə 2005–2007-ci illər, üçün Dövlət Proqramı"» qəbul edilmişdir. Proqramda mərkəzi bank tərəfindən ölkədə ödəniş sisteminin inkişafı üçün həyata keçirilməli olan tədbirlər müəyyənləşdirilmişdir. Bu tədbirlərdən bir sırası reallaşdırılmışdır. AMB-nin məlumatına görə, Dövlət Proqramının icrasının təmin edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların daxili informasiya sistemlərinin daha da inkişaf etdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə «Banklarda informasiya texnologiyalarının tətbiqi Qaydaları"» işlənib hazırlanmış və tətbiq üçün banklara göndərilmişdir. Qaydaların tətbiqi ilə bağlı banklara göstərilən metodoloji yardım nəticəsində 44 bankın daxili informasiya sistemləri müasir standartlara uyğun olaraq inkişaf etdirilmişdir.

AMB-nin hesabatında qeyd edilir ki, Azərbaycan Respublikasında ödəniş sistemlərinin daha da inkişaf etdirilməsini, iqtisadi fəaliyyət

göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərinin imkanlarından daha fəal istifadə olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanmış 22 noyabr 2005-ci il tarixli «Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında» Sərəncamın icrası çərçivəsində görülmüş işlər nəticəsində 2008-ci ildə ölkə üzrə bank filiallarında, pərakəndə ticarət və xidmət müəssisələrində quraşdırılmış POS-terminalların sayı əvvəlki illə müqayisədə, 2829 ədəd, yaxud 65 % artaraq 8138 ədəd təşkil etmişdir ki, onlardan da 7397 ədədi Bakı şəhərində, 741-i isə regionlarda quraşdırılmışdır.

2008-ci ildə ölkə ərazisində bankomatların sayı əvvəlki ilə nisbətən 15 %, yaxud 202 ədəd artaraq 1518 ədəd, bankomatlar vasitəsilə aparılan əməliyyatların sayı 26 %, yaxud 7672 min ədəd artaraq 36772-yə, əməliyyatların həcmi isə 58,9 %, yaxud 1330 mln. manat artaraq 3592 mln. manata çatmışdır.

2008-ci ildə daxili maliyyə bazarlarının inkişafının dəstəklənməsi istiqamətində AMB-nin iştirakı ilə Mütəşəkkil Banklararası Kredit Bazarında təminat sistemi yaradılmışdır. Bu sistemin yaradılmasında əsas məqsəd bankların bir-birinə olan etimadını artırmaqla banklararası kredit bazarının likvidliyinin yüksəldilməsi olub. Bununla əlaqədar bazarda market meyker qismində iştirak edən banklar və Bakı Banklararası Valyuta Birjasının birgə təşəbbüsü ilə Mütəşəkkil Banklararası Kredit Bazarının yeni seqmenti olan Təminatlı Pul Bazarı seqmentinin əsası qoyulmuş və yeni seqmentdə Mərkəzi Bankın iştirak mexanizmi hazırlanmışdır. AMB mütəxəssislərinin fikrincə, yeni seqmentdə təminat sistemi, öhdəliklərin vaxtında icra edilməsini təmin edən Mərkəzi Bankın overdraft xətti və iştirakçı bankların kollektiv məsuliyyət prinsipinə əsaslanır, yeni seqmentin ilkin fəaliyyəti dövründə hər bir bankın cəlb edəcəyi vəsaitin-kredit limitinin və əməliyyatların maksimal müddətinin məhdudlaşdırılmasını nəzərdə tutur. Sistem üzrə əməliyyatların həcmi və intensivliyi artdıqca banklara ayrılan kredit limitinin həcminin artırılması və əməliyyatların müddətinin uzadılması planlaşdırılıb.

Bir sıra tədqiqatçılar hesab edirlər ki, son dövrdə bank sistemində müşahidə edilən proses pozitiv bir haldır və kommersiya banklarının iqtisadiyyatın geniş-lənməsinə, iqtisadi inkişaf proseslərinə uyğunlaşmasının təcəssümüdür. Digər bir qrup ekspertlər isə iddia edirlər ki, bu proses mərkəzi bankın inzibati təsirləri ilə yox, bankların qarşıya qoyduqları kommersiya məqsədi kimi reallaşdırılmalıdır: Bu təmərküzləşmə prosesinin daha da dərinləşərək gələcəkdə Azərbaycanın bank bazarında inhisarçılığa, bazarın az sayda banklar arasında bölgüsünə gətirib çıxarmamalıdır. Digər tərəfdən, Azərbaycanın neft ölkəsi olması, karbohidrogen ixracatından ölkəyə irihəcmli maliyyə

resurslarının gəlməsi şəraitində pul bazarının sürətlə genişlənməsi bank fəaliyyətinə tələbatı sürətlə artırmışdır ki, bu da bankların sayının çoxluğunu normal hal kimi qəbul etməyə imkan verir.

Cədvəl 1-də Azərbaycanın bank sektorunda fəaliyyət göstərən subyektlərin əsas göstəriciləri təqdim edilmişdir. Buradan göründüyü kimi, 2000-ci illə müqayisədə, 2004-cü ildə kommersiya banklarının sayı 59-dan 44-ə, bank olmayan kredit təşkilatlarının sayı isə 99-dan 70-ə qədər azalmışdır. Xarici kapitallı bankların sayı isə 2000-2008-ci illərdə 16-dan 23-ə yüksəlmişdir. Bankların yerli filiallarının sayı da 195-dən 567-ə qədər artmışdır ki, bu göstəricilər də bank sisteminin inkişafını xarakterizə edir.

AMB-nin hesabatında qeyd edilir ki, 2008-ci ildə dünya maliyyə böhranının təsirlərinə baxmayaraq Azərbaycanın bank sistemində mülkiyyətçi və yeni investorların əlavə vəsaitləri hesabına xarici sərmayələrin həcmində 57 % artım olmuş və ilin sonuna bu 159 mln. manat təşkil etmişdir. Bu bank sektorunun məcmu nizamnamə kapitalının 16 %-nə bərabərdir.

**Cədvəl 1**

**Azərbaycanda fəaliyyət göstərən kredit təşkilatları haqda statistika**

| | *2000* | *2001* | *2002* | *2003* | *2004* | *2005* | *2006* | *2007* | *2008* |
|---|---|---|---|---|---|---|---|---|---|
| Kommersiya bankları | 59 | 53 | 46 | 46 | 44 | 44 | 44 | 46 | 46 |
| Bank olmayan k/təşkilatları | 99 | 63 | 47 | 58 | 70 | 85 | 94 | 96 | 94 |
| Dövlət bankları | 3 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 1 |
| Özəl banklar | 56 | 51 | 44 | 44 | 42 | 42 | 42 | 42 | 45 |
| Xarici kapitallı banklar | 16 | 16 | 15 | 17 | 15 | 18 | 20 | 21 | 23 |
| Bankların filialları | 195 | 191 | 220 | 305 | 350 | 374 | 420 | 485 | 567 |
| Bankların şöbələri | 0 | 0 | 0 | 0 | 1 | 24 | 69 | 94 | 99 |
| Filialları olan banklar | 26 | 27 | 31 | 36 | 38 | 38 | 41 | 41 | 38 |

2008-ci ildə xarici kapitallı bankların sayı 3 ədəd artaraq 23-ə çatmış və yeni səhmdarlar Cənubi Kipr, Rusiya Federasiyası, Bəhreyn kimi ölkələri təmsil etmişdir. 01 yanvar 2009-cu il tarixə ölkənin bank sisteminin aktivlərində xarici kapitalın iştirak payı 29,9 %, depozitlərdə isə 26,6 % olmuşdur.

AMB-nin qiymətləndirməsinə görə, bank xidmətlərinin kəmiyyətcə artması və onların keyfiyyətinin daha da yaxşılaşması regionlarda da müşahidə edilmişdir. İlin əvvəlində ölkə əhalisinin hər 100 min nəfərinə 9,1 maliyyə təsisatı xidmət etdiyi halda, ilin sonunda bu göstərici 10,1 olmuşdur.

Təhlillər göstərir ki, 2000-ci illərin əvvəlindən başlayaraq Azərbaycanın bank sektorunda Mərkəzi Bank tərəfindən ciddi islahatlar həyata keçirilmişdir ki, bunun da əsas məqsədi kimi maliyyə sabitliyinin təmini,

müasir iqtisadi proseslərə cavab verən bank sisteminin formalaşdırılması və kommersiya banklarına inamın bərpası kimi izah edilmişdir.

Bu gün Azərbaycanda fəaliyyət göstərən və bank fəaliyyəti üçün lisenziyası olan kredit təşkilatlarının ümumi sayı 140-dır, bunlardan 44-ü kommersiya bankı, 94-ü isə bank olmayan kredit təşkilatıdır. Kommersiya banklarının yarısında – 23-də xarici kapitalın iştirakı mövcuddur ki, bunlardan da 7-də xarici kapital nizamnamə kapitalının 50 %-dən çoxunu təşkil edir. Əslində ölkənin bank sektorunda xarici kapitalın iştirakı və bunun əvvəlki illərə nisbətən artması da bank sektoruna bir inamın, bu sektorda münbit investisiya mühitinin yaradılmasının göstəricisidir.

Mərkəzi Bankın bank sektorunun inkişafına yönəlik siyasəti öz müsbət nəticəsini kommersiya banklarının məcmu aktilərinin və onların kredit portfelinin sürətli artımında göstərir. Əslində, bu iki göstərici və onların müqayisəli dinamikası bank sektorunun inkişafının əsas parametrləridirlər.

Tədqiqatlar göstərir ki, 2003-2008-cı illər ərzində kommersiya banklarının ümumi kredit portfelinin həcmi də, bank aktivləri də 10 dəfədən çox artmışdır. Bank sektoru üzrə ümumi kredit portfeli 2006-cı ildə 64,0 %, 2007-ci ildə 98,1%, 2008-ci ildə isə 49,2 % artmışdır. Bankların aktivləri də 2006-cı ildə 67,7 %, 2007-ci ildə 78,0%, 2008-ci ildə isə 52,7 % çoxalmışdır.

Bank sektorunun inkişafını xarakterizə etmək üçün əsasən ÜDM-lə bank aktivlərinin müqayisəli dinamikasına diqqət yetirmək zəruridir. Məhz bu göstərici, bankların və bank sektorunun iqtisadi inkişaf prosesləri ilə nə dərəcədə uzlaşmasını ifadə edir. Təhlillər göstərir ki, son illər bu göstərici pozitiv olaraq artmaqdadır.

**Cədvəl 2**

**Əsas bank göstəricilərinin qeyri-neft ÜDM-inə nisbəti, %-lə**

| | *2005* | *2006* | *2007* | *2008* |
|---|---|---|---|---|
| Bank aktivləri | 37,2 | 53,4 | 70,5 | 69,6 |
| Real sektora kreditlər | 23,1 | 32,5 | 47,8 | 47,4 |
| Əhalidən cəlb olunmuş əmanətlər | 8,2 | 11,6 | 15,4 | 12,9 |
| Bankların məcmu kapitalı | 5,6 | 7,4 | 10,6 | 10,1 |

**Qeyd:** Cədvəl AMB-nin məlumatları əsasında hazırlanmışdır

AMB-nin məlumatında qeyd edilir ki, 2008-ci ildə bank aktivlərinin ÜDM-ə nisbəti ilin əvvəlindəki 25,1 %-dən 27%-ə qədər yüksəlmiş, (qeyri-neft ÜDM-də bu çəki 70,5 %-dən 69,6 %-a dəyişmişdir), iqtisadiyyata yönəldilmiş kreditlərin ÜDM-dəki xüsusi çəkisi isə 17 %-dən 18,4 %-ə qədər artmışdır. Cədvəl 2-də əsas bank göstəricilərinin qeyri-neft ÜDM-i ilə müqayisəsi öz əksini tapmışdır. Cədvəldəki rəqəmlərin müqayisəsi bank sektorunun qeyri-neft sektorunun daha sürətli inkişaf edən sahəsi

olduğunu göstərir. Buradan göründüyü kimi, bank kreditlərinin qeyri-neft ÜDM-dəki faiz göstəricisi 2 dəfədən çox artmışdır.

İqtisadiyyatın real sektoruna kreditlərin həcminin artması bir tərəfdən bank sisteminin inkişafını ifadə edirsə, digər tərəfdən də bankların milli iqtisadiyyatdakı rolunun əhəmiyyətini göstərir. Bu baxımdan, demək olar ki, mərkəzi bankın kommersiya banklarının fəaliyyətini tənzimləməsi, bank sektorunu sağlamlaşdırması milli iqtisadiyyatın inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir. Təsadufi deyildir ki, bank sektorunu iqtisadiyyatın «qan damarı» adlandırırlar. Müasir dövrdə ən ciddi iqtisadi böhranlar bank sektorundan qaynaqlananlardır. Hazırkı şəraitdə bank sektounun təkmilləş-dirilməsi, bu sektorda risklərin azaldılması, həm də iqtisadi təhlükəsizlik məsələsidir.

Hazırda bankların fəaliyyətinin əsasını kreditlərin verilməsi təşkil edir. Son illər iqtisadi inkişaf proseslərinin sürətlənməsi, iqtisadi subyektlərin kredit resurslarına tələbatının ilbəil kəskin şəkildə artması kommersiya banklarının inkişafı üçün geniş imkanlar açmışdır.

Statistik məlumatlara görə DB ölkəmizdə bu günə qədər - bazar iqtisadiyyatına keçidlə bağlı islahat proqramlarının maliyyələşdirilməsi; makroiqtisadi stabilləşdirmə və neft gəlirlərinin idarə məsələlərinin həlli; qaçqın və məcburi köçkünlərin problemlərinə yardım; infrastruktur layihələrinin həyata keçirilməsi; təhsil və səhiyyə proqramlarının reallaşdırılması; enerci sektoruna investisiyaların cəlb edilməsi; qeyri-neft sektorunun inkişaf etdirilməsi və digər istiqamətlərdə Azərbaycan hökuməti ilə əməkdaşlıq etmiş və bu məqsədlər üçün ölkəyə ümumilikdə 22 investisiya layihəsi üzrə 585 milyon ABŞ dolları məbləğində kredit ayırmışdır. DB-nin qurumu olan Beynəlxalq Maliyyə Korporasiyası ölkə iqtisadiyyatında özəl sektora ümumilikdə 136,3 milyon ABŞ dolları məbləgində kredit ayırmış, «Bakı-Tbilisi-Ceyhan» boru kəmərinin tikintisində Azərbaycanın payını maliyyələşdirmək məqsədilə 300 milyon dollar kredit vermişdir.

Hesablama Palatasının yaradılması; Büdcə Sistemi haqqında Qanunun qəbul edilməsi; Neft Fondunun yaradılması və onun şəffaflığının təmin edilməsi; Vergi və Gömrük idarəetmə sistemlərinin təkmilləşdirilməsi və digər məsəllər isə BVF ilə əməkdaşlığın əsasını təşkil etmişdir. 6 müxtəlif proqram çərçivəsində BVF ölkəmizə 546,7 milyon ABŞ dolları məbləgində kredit vermişdir.

BVF aşağıdakı istiqamətlər üzrə struktur islahatlarının aparılmasında və kredit xətlərinin açılmasında hökumətimizə yardım etmişdir:

Dövlət kommersiya bankları olan Beynəlxalq Bankın və Kapital Bankın özəlləşdirilməsi məsələsində və bank sisteminin gücləndirilməsi

istiqamətində də BVF ilə Azərbaycan hökumətinin və Mərkəzi Bankın əməkdaşlığı olmuşdur.

Karbohidrogen gəlirlərindən səmərəli istifadə edilməsi, iri həcmli valyuta daxilolmaları fonunda valyuta nəzarətinin səmərəli təşkili, bu vəsaitlərin iqtisadiyyata mənfi təsirlərinin aradan qaldırılması məqsədilə stabilləşdirmə fondunun yaradılması və digər bu kimi məsələlərdə BVF mütəxəssislərinin təklif və tövsiyələri xüsusi əhəmiyyət kəsb etmişdir.

Qeyd etmək lazımdır ki, beynəlxalq maliyyə qurumları tərəfindən verilən bu kreditlərin həcmi 1,4 milyard dollardan, 2008-ci ildə 2,4 mlrd. dollara çatmışdır. Bu isə ölkəmizin beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığının əhəmiyyətli səviyyədə olduğunu göstərir.

Digər bir beynəlxalq maliyyə institutu olan Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) də bu günə qədər əsasən infrastruktur, nəqliyyat, energetika, maliyyə və digər sahələrdə reallaşdırılan müxtəlif layihələrə 686 milyon avro həcmində kredit vermişdir. AYİB ilə İqtisadi İnkişaf Nazirliyi arasında Azərbaycan Beynəlxalq Bankının Yenidən kapitallaşdırılması və özəlləşdirilməsi ilə bağlı Anlaşma Memorandumu da imzalanmışdır. Bu bank, ölkəmizdə fəaliyyət göstərən bir sıra kommersiya banklarının kapitalında paya malikdir.

*Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı, Almaniyanın KFW Bankı kimi tanınmış maliyyə qurumları da Azərbaycan iqtisadiyyatına kreditlər yönəldə bilər. Hətta bunlardan sonuncu ikisi ölkənin bir sıra kommersiya banklarının kapitalında paya malikdirlər.*

*Qeyd edilənlərin yekunu olaraq Mərkəzi Bankın pul- kredit siyasətinin bank sektorunun inkişafına təsirləri və ümumilikdə bank sektorunun inkişaf xüsusiyyətləri barədə aşağıdakıları qeyd etmək olar:*

*- Mərkəzi Bankın ölkədə maliyyə sabitliyini təmin etməsi, inflyasiyanı zəruri səviyyədə tənzimləməsi kommersiya banklarının və bütövlükdə bank sektorunun inkişafı üçün münbit şərait yaratmışdır;*

*- Milli iqtisadiyyatda son illər müşahidə edilən sürətli inkişaf prosesləri bank sektorunda da təzahür edir, bu sektorun əsas iqtisadi göstəriciləri dinamik olaraq artır;*

*- Mərkəzi Bankın bank sektorunda apardığı islahatlar, sağlamlaşdırma prosesləri, prudensial fəaliyyəti kommersiya banklarına inamı artırmış və bunun nəticəsi olaraq əhali əmanətlərində son illər sürətli artım müşahidə edilmişdir;*

*- Son qlobal maliyyə böhranı şəraitində AMB-nin reallaşdırdığı pul-kredit siyasəti Azərbaycanın bank sektorunu müflisləşmə təhlükəsindən, böhranın mənfi təsirlərindən zəruri səviyyədə qorumuş və bu banklarına böhrandansonrakı inkişafı üçün mühüm amillərdən birinə çevrilmişdir;*

*- Ölkənin karbohidrogen ixracından irihəcmli valyuta vəsaitləri əldə etməsi və bu vəsaitlərin əhəmiyyətli bir hissəsinin ölkədə strateci*

*infrastruktur layihələrinə xərclənməsi bank xidmətlərinə tələbatı da kifayət qədər artırmışdır ki, bu da bank sektorunun inkişaf parametrlərindən birinə çevrilmişdir;*

*- Mərkəzi Bankın bank fəaliyəti sahəsində münbit biznes mühiti yaratması bank sektoruna xarici investisiyaların cəlbini stimullaşdırmış, xarici kapitalın iştirakı bank sektorunun inkişafında xüsusi rola malik olmuşdur;*

*- Sərt pul-kredit siyasəti nəticəsində maliyyə sabitliyinin təmin edilməsi beynəlxalq maliyyə qurumlarının, dünyanın tanınmış banklarının ölkəyə kredit resursları yönəltmələrinə imkan vermişdir ki, kommersiya banklarının bu kreditlərin yerləşdirilməsində vasitəçi kimi iştirak etmələri onların inkişafını şərtləndirmişdir;*

*- Mərkəzi Bankın kommersiya banklarının nizamnamə kapitallarına minimum limitlər müəyyənləşdirməsi nəticə etibarı ilə bank sektorunda təmərküzləşməyə, kiçik bankların birləşərək daha iri, müasir iqtisadi tendensiyalar şəraitində bazardakı mövqeyini qoruya biləcək maliyyə qurumlarına çevrilməsinə səbəb olmuşdur və s.*

## 9.5.Milli iqtisadiyyatın inkişafında pul-kredit siyasətinin rolunun artması

Müstəqilliyimizin ilk illərində milli iqtisadiyyatımızda dərin iqtisadi böhran prosesləri müşahidə edilmişdir. Planlı iqtisadiyyatdan bazar münasibətləri sisteminə keçid, Sovet İttifaqının dağılması və bu İttifaqda iqtisadi böhran proseslərinin hələ 80-ci illərin ortalarından başlamasının nəticəsi olaraq yerli sənaye komplekslərinin təsərrüfat-iqtisadi əlaqələrinin qırılması, yeni yaranmış Mərkəzi Bankın ölkədə pul kütləsini idarə etmək, bank sistemini tənzimləmək və formalaşdırmaq sahəsində zəruri alətlərə, təsir imkanlarına, infrastruktura malik olmaması, yeni iqtisadi münasibətlər şəraitində dövlətin iqtisadiyyatı tənzimləmə sahəsində lazımi institutlara malik olmaması və digər bu kimi amillər böhranın daha da dərinləşməsində, inflyasiyanın və işsizliyin ifrat dərəcəyə çatmasında əsas səbəb kimi çıxış etmişdir. Belə bir şəraitdə hökumətin optimal monetar və fiskal siyasət formalaşdıraraq reallaşdırması əsas vəzifə kimi çıxış edirdi. İnfilyasiyanın durmadan artdığı, iqtisadi proseslərin əsas hərəkətvericisi olan bank sisteminin iflic olduğu bir şəraitdə isə xüsusilə monetar – pul-kredit siyasətinə özəl tələblər formalaşmışdır. Qətiyyətlə demək olar ki, ayrı-ayrılıqda bu ölkələrdə böhranın daha tez başa çatması və iqtisadi inkişaf göstəricilərinə daha tez nail olunması bilavasitə pul-kredit siyasətinin mükəmməlliyindən asılı olmuşdur.

Azərbaycan Respublikasının iqtisadiyyatında tənəzzül proseslərinin başa çatması, inflyasiyanın cilovlanması, iqtisadiyyatın müxtəlif

sahələrində artım tempinə nail olunması əsasən 1995-ci ildən ölkədə aparılan iqtisadi islahatların, mükəmməl monetar və fiskal siyasətin nəticəsi kimi müşahidə edilməyə başlanılmışdır. 1997-ci ildən başlayaraq əsas makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsulda (ÜDM) artımın qeydə alınması isə artıq iqtisadi inkişaf proseslərinin başlanğıcı kimi qiymətləndirilmişdir. Cədvəl 1-ə diqqət yetirdikdə aydın görünür ki, 1998-2008-ci illəri əhatə edən son on ildə iqtisadi artım ilbəil daha yüksək faizlərlə ifadə edilmişdir. Hətta 2005-ci ildə ÜDM-in 26,4 %, 2006-cı ildə 34,5 %, 2007-ci ildə isə 25,0 % artması, Azərbaycanı dünya ölkələri arasında iqtisadi artım tempinə görə lider etmişdir.

Sənaye və kənd təsərrüfatı məhsulları istehsalının artımı da bu dinamika ilə uyğunluq təşkil edir və ölkədə iqtisadi inkişafın sahələr arasında balanslı olaraq getdiyini göstərir. Aqrar sektorda strateci dövlət proqramlarının həyata keçirildiyini, bu sahəyə hökumətin maliyyə və digər dəstəyinin daha da gücləndiyini, dövlətin qeyri-neft sektorunun inkişaf etdirilməsini prioritet istiqamət kimi qəbul etdiyini və digər amilləri nəzərə alaraq növbəti illərdə kənd təsərrüfatı məhsulu istehsalı artımının daha böyük rəqəmlərlə ifadə ediləcəyini proqnozlaşdıra bilərik. Aqrar sektor ÜDM-də 5-6 %-lik paya malikdir ki, ekspertlərin fikrincə, bu da ölkənin kənd təsərrüfatının real potensialını ifadə etmir. Bu baxımdan səmərəli pul-kredit və fiskal siyasət nəticəsində formalaşdırılmış investisiya mühitindən aqrar sektorda daha səmərəli istifadə zərurəti görünür.

2000-2008-ci illər ərzində iqtisadi inkişaf proseslərinə nail olunması istiqamətində «Əsrin Müqaviləsi» adlanan Neft Kontraktı həlledici rola malik olmuşdur. Xəzər dənizinin Azərbaycana aid olan hissəsində yerləşən «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının işlənilməsi üzrə 6 ölkəni təmsil edən 11 şirkətlə Hasilat Pay Bölgüsü Sazişinin imzalanması tək neft sektoruna yox, digər sahələrə də xarici investisiyaların axınını stimullaşdırmışdır. Nəticə etibarı ilə bu günə qədər dənizdə və quruda yerləşən neft yataqlarının işlənilməsi üzrə xarici şirkətlərlə izalanmış müqavilələrin sayı 25-ə çatmış, bütövlükdə iqtisadiyyata qoyulmuş xarici investisiyaların həcmi isə 40 mlrd. dolları keçmişdir.

Əgər 1995-ci ildə ölkə iqtisadiyyatına qoyulmuş xarici investisiyalar 375 mln. dollar təşkil etmişdirsə, 2006-cı ildə belə illik göstərici 5 mlrd. dolları keçmiş, 2008-ci ildə isə iqtisadiyyata 6,8 mlrd. dollar xarici investisiya qoyulmuşdur.

Ölkə iqtisadiyyatına xarici investisiyaların qoyulması və onun həcminin ilbəil artması ölkənin pul bazarına, valyuta bazarına öz müsbət təsirini göstərmiş, Mərkəzi Bankın antiinflyasiya pozitiv faktoru kmi çıxış etmişdir.

Mərkəzi Bank hər il ölkənin tədiyyə balansını tərtib edir. Bu sənəd yuxarıda qeyd edilən məsələləri özündə aydın şəkildə əks etdirir. Bu illər

ərzində AMB-nin pul-kredit siyasətinin milli iqtisadiyyatdakı təsirləri ölkənin tədiyyə balansındakı pozitiv dinamikasında da təzahür etmişdir.

**Cədvəl 1**

**Xarici investisiyaların strukturu və dinamikası, 1995-2008-ci illər**

| *İllər* | *Xarici investisiya* | *Dinamika %* | *Neft sektoru* | *Xüsusi çəkisi, %* | *Q.neft sektoru* | *Xüsusi çəkisi, %* |
|---|---|---|---|---|---|---|
| ***1995*** | 375,1 | - | 139,8 | 37,3 | 235,3 | 62,7 |
| ***1996*** | 620,5 | 165,4 | 416,2 | 67,0 | 204,3 | 33,0 |
| ***1997*** | 1307,3 | 210,6 | 780,1 | 59,7 | 527,2 | 40,3 |
| ***1998*** | 1472,0 | 112,6 | 891,8 | 60,5 | 580,2 | 39,5 |
| ***1999*** | 1091,1 | 74,1 | 544,5 | 49,9 | 546,6 | 50,1 |
| ***2000*** | 927,0 | 84,9 | 546,1 | 58,9 | 380,9 | 41,1 |
| ***2001*** | 1091,0 | 117,7 | 820,5 | 75,1 | 271,3 | 24,9 |
| ***2002*** | 2234,9 | 204,8 | 1693,0 | 75,7 | 541,9 | 24,3 |
| ***2003*** | 3371,0 | 150,8 | 2972,4 | 88,2 | 398,6 | 11,8 |
| ***2004*** | 4575,5 | 135,7 | 4088,1 | 89,3 | 487,4 | 10,7 |
| ***2005*** | 4893,2 | 106,9 | 3799,9 | 77,6 | 1093,3 | 22,4 |
| ***2006*** | 5052,8 | 103,2 | 3422,3 | 67,7 | 1630,5 | 32,3 |
| ***2007*** | 6674,3 | 132,1 | 4003,3 | 60,0 | 2671,0 | 40,0 |
| ***2008*** | 6847,4 | 102,6 | 3350,7 | 48,9 | 3496,7 | 51,1 |
| ***Cəmi:*** | ***40533,1*** | - | ***27468,7*** | - | ***13065,2*** | - |

**Qeyd:** Cədvəl AMB-nin məlumatları əsasında hazırlanmışdır

Tədiyyə balansının baza parametrləri «cari əməliyyatlar hesabı» və «kapitalın və maliyyənin hərəkəti hesabı»ndan ibarətdir. Fikrimizcə, bu göstəricilərə və onların son illər üzrə müqayisəli dinamikalarına diqqət yetirməklə milli iqtisadiyyatdakı inkişafın və pozitiv dəyişikliklərin təsdiqini görə bilərik.

90-cı illərdə tədiyyə balansının cari əməliyyatlar hesabı böyük məbləğli kəsirlə müşahidə edilmişdir, yalnız 2000-ci ildə bu kəsirin kəskin şəkildə azalması müsbət tendensiyaların başlanğıcı olmuşdur. Belə kəsir, 2000-ci ildə əvvəlki ildəkindən 431,9 mln. dollar azalaraq 167,8 mln. dollar təşkil etmişdir. Bu da əsasən ölkəmizin neft ixracının artması ilə əlaqələndirilir. 2000-ci ilin yekunlarına görə, xarici ticarət dövriyyəsi 3397,3 mln. dollar təşkil etmiş və əvvəlki ilin müvafiq göstəricisinə nisbətdə 38,2 % artmışdır. İdxal olunan məhsulların həcmi 7,4 % artdığı halda, ixrac 1,8 dəfə çoxalmışdır. İxracın strukturunda neft və neft məhsulları 85 % təşkil edir. Dünya bazarında neftin qiymətinin artması ilə əlaqədar Azərbaycandan ixrac olunan xam neftin hər barrelinin qiyməti orta hesabla 15 dollar artmışdır, digər tərəfdən isə neft ixracının həcmi də 800 min ton çoxalmışdır. Bu amil, sonrakı illərdə də xarici ticarət dövriyyəsində, eyni zamanda da tədiyyə balansının cari əməliyyatlar hesabında müsbət saldonu səciyyələndirmişdir.

AMB-nin məlumatına görə, 2008-ci ildə ölkəyə ümumi kapital axını əvvəlki illə müqayisədə, 154,7 mln. dollar azalaraq 1234,6 mln. dollar təşkil etmişdir. Müsbət haldır ki, Azərbaycan iqtisadiyyatına bütün formalarda cəlb edilmiş xarici kapitalın ÜDM-də xüsusi çəkisi 25,2 % təşkil etməklə yüksək olaraq qalmaqdadır. İqtisadi artımın stimullaşdırılması baxımından ən effektiv formada – birbaşa investisiyalar formasında daxilolmalar ölkəyə cəlb olunmuş xarici kapitalın 47,7 %-ni təşkil etmişdir.

Mərkəzi Bankın qiymətləndirməsinə görə, Azərbaycanın ixrac potensialının durmadan artımı və ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyalar tədiyyə balansının cari əməliyyatlar hesabının kəsirinin tam maliyyələşdirilməsinə, həmçinin ölkənin xarici valyuta ehtiyatlarının artmasına gətirib çıxarmışdır ki, bunun da nəticəsində 2001-ci il yanvarın 1-ə olan vəziyyətə görə, Neft Fondunun aktivləri də daxil olmaqla ölkənin xarici dönərli valyutadakı ehtiyatları beynəlxalq normalara uyğun həcmdə idxalı maliyyələşdirməyə imkan verir.

2003-cü ildə «Cari əməliyyatlar hesabı»nın kəsiri 2 milyard dollara yaxın olmuşdur. Mərkəzi Bank tərəfindən bu Neft strategiyasının reallaşdırılmasının sürətləndirilməsi, ölkəyə cəlb olunmuş xarici kapitalın artması hesabına investisiya yönümlü malların və xidmətlərin idxalı ilə əlaqələndirilmişdir. 2002-ci ildə cari hesabın saldosu – 768 mln dollar, 2003-cü ildə isə – 2021 mln. dollar olmuşdur. Xarici ticarət balansının saldosu müvafiq olaraq 482 mln. dollar və -98 mln. dollar, xidmətlər balansının saldosu -935 mln. dollar və – 1615 mln. dollar, gəlirlər saldosu -385 mln. dollar və -442 mln. dollar, cari transfertlər saldosu isə 482 mln. dollar və 134 mln. dollar təşkil etmişdir. 2003-cü ildə ölkənin xarici ticarət dövriyyəsi 29,5 %, o cümlədən idxal 49,3 %, ixrac isə 13,9 % artmışdır. Əvvəlki illərdə olduğu kimi, 2003-cü ildə də ixracın əsasını neft və neft məhsulları təşkil etmiş və onun həcmi 2,3 mlrd. dollar olmuşdur.

«Kapital və maliyyənin hərəkəti hesabı»nın ifadə etdiyi ölkəyə xarici kapital axını 2003-cü ildə 4,4 mlrd. dollar (əvvəlki ilə nisbətən 1,9 dəfə çox) olmaqla, ÜDM-in 62,2 % çəkiyə malik olmuşdur. Son göstəricinin yüksək olması AMB tərəfindən müsbət hal kimi qiymətləndirilmişdir. AMB-nin hesabatında qeyd edilmişdir ki, Azərbaycan iqtisadiyyatına yönəldilmiş xarici sərmayələrin və ölkənin ixrac potensialının durmadan artması və aparılan uğurlu iqtisadi siyasət ölkənin xarici borcu üzrə olan ödənişlərə tələbatı və idxal olunmuş əmtəə və xidmətlərin dəyərini tam maliyyələşdirməklə yanaşı, ölkənin strateci valyuta ehtiyatlarının da artmasını təmin etmişdir.

**Cədvəl 2**

**Azərbaycanın tədiyyə balansının əsas göstəriciləri**

| | *2000* | *2002* | *2003* | *2007* | *2008* |
|---|---|---|---|---|---|
| ***I. Cari əməliyyatlar hesabının saldosu*** | ***-167,7*** | ***-768,4*** | ***-2020,6*** | ***9018,9*** | ***16453,5*** |
| Xarici ticarət balansı | 319,4 | 481,6 | -98,2 | 15224,3 | 23011,6 |
| Xidmətlər balansı | -224,6 | -935,6 | -1614,5 | -2131,0 | -2342,6 |
| Gəlirlər balansı | -335,4 | -384,7 | -442,0 | -5079,4 | -5266,0 |
| Cari transfertlər balansı | 73,0 | 70,4 | 134,2 | 1005,0 | 1050,5 |
| ***II. Kapitalın və maliyyənin hərəkəti*** | ***441,9*** | ***1051,5*** | ***2338,1*** | ***-5759,8*** | ***-3557,9*** |
| Birbaşa investisiyalar | 29,1 | 1066,8 | 2293,2 | -5102,7 | -545,0 |
| Neft bonusu | 100,0 | 0,0 | 58,6 | 68,2 | 3,5 |
| Kreditlər və digər inves-lar | 312,8 | -15,3 | -13,7 | -725,3 | -3016,4 |
| ***III.Tədiyyə balansının ümumi saldosu*** | ***274,2*** | ***283,1*** | ***317,5*** | ***3259,1*** | ***12895,6*** |

Qeyd edək ki, 2003-cü ildə Dövlət Neft Fondunun aktivləri də nəzərə alınmaqla, ölkənin strateci valyuta ehtiyatları 205,4 mln. ABŞ dolları artaraq 1,5 mlrd. dollara çatmışdır. Ümumiyyətlə, tədiyyə balansının müvafiq göstəricilərinin müqayisəsi 2000-ci ilə nisbətdə, 2003-cü ildə milli iqtisadiyyatda həm keyfiyyət, həm də kəmiyyət dəyişikliklərinin əhəmiyyətli dərəcədə olduğunu göstərir. 2008-ci ilin müvafiq göstəricilərinə diqqət yetirdikdə isə iqtisadi inkişaf göstəricilərinin yaxşılaşmasının artıq faizlərlə yox, dəfələrlə ifadə olunduğunu, milli iqtisadiyyatın konyukturunda, ÜDM-in strukturunda da dinamik dəyişikliklərin olduğunu görə bilərik.

2008-ci ildə tədiyyə balansının ümumi saldosu müsbət 12,0 mlrd. dollar və əvvəlki illə müqayisədə, 4,2 dəfə çox olmuşdur. AMB-nin hesablamalarına görə, tədiyyə balansının cari əməliyyatlar hesabında son illər müşahidə olunan profisit 2007-ci illə müqayisədə, 1,8 dəfə artaraq 2008-ci ildə 16,5 mlrd. dollara çatmışdır. Kapitalın və maliyyənin hərəkəti hesabında yaranmış mənfi saldonu maliyyələşdirərək tədiyyə balansının ümumi müsbət saldosunu şərtləndirən əsas amil ölkədən ixrac olunan neftin dəyərinin 1,4 dəfə artması olmuşdur. Sonuncunun isə neft ixracının həcminin artması ilə yanaşı, dünya bazarında xam neftin qiymətinin kəskin artması olmuşdur. Bu göstərici hər barrel üçün orta hesabla 2007-ci ildə 72.9 dollar idisə, 2008-ci ildə 96,5 dollar olmuşdur.

AMB-nin məlumatında qeyd edilir ki, ölkənin real tədiyyə qabiliyyətini düzgün əks etdirmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının hesabat tədiyə balansının tərtib edilməsi haqqında" 1995-ci il, 8 fevral tarixli Qərarına uyğun olaraq 1995-ci ildən Statistika departamenti Azərbaycan Respublikasının hesabat tədiyyə balansını tərtib edir.

*Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatında müşahidə edilən sürətli inkişaf prosesləri, milli iqtisadiyyatın dünya iqtisadiyyatına*

*inteqrasiyasının sürətlənməsi xarici ticarət əlaqələrinin həm coğrafiyasında, həm də həcmində ifadə olunur. Hazırda Azərbaycanın dünyanın 145 ölkəsi ilə ticarət-iqtisadi əlaqəsi var. 1998-2008-cı illəri əhatə edən son 10 il ərzində xarici ticarət dövriyyəsinin həcmi 30 dəfədən çox artmışdır. Bu illər ərzində idxal 7 dəfədən, ixrac isə 75 dəfədən çox yüksəlmişdir. Cədvəl 3-də bu göstəricilərin müqayisəli dinamikası təqdim edilmişdir.*

**Cədvəl 3**

**Azərbaycan Respublikasının xarici-ticarət dövriyyəsinin əsas göstəriciləri, 1998-2008-cı illər (mln. ABŞ dolları ilə)**

| *İllər* | *Dövriyyə* | *Dinamika, %-lə* | *İdxal* | *Dinamika, %-lə* | *İxrac* | *Dinamika, %-lə* | *Saldo* |
|---|---|---|---|---|---|---|---|
| ***1998*** | 1682,6 | 6,8 | 1076,5 | 35,5 | 606,1 | -22,4 | -470,3 |
| ***1999*** | 1965,1 | 16,8 | 1035,9 | -3,8 | 929,2 | 53,3 | -106,6 |
| ***2000*** | 2917,3 | 48,5 | 1172,0 | 13,1 | 1745,2 | 87,7 | 573,1 |
| ***2001*** | 3745,3 | 28,4 | 1431,1 | 22,1 | 2314,2 | 32,6 | 883,0 |
| ***2002*** | 3833,0 | 2,3 | 1665,6 | 16,4 | 2167,5 | -6,3 | 501,9 |
| ***2003*** | 5218,1 | 36,1 | 2626,4 | 57,7 | 2591,7 | 19,6 | -34,7 |
| ***2004*** | 7131,4 | 36,7 | 3515,9 | 33,7 | 3615,5 | 39,5 | 99,5 |
| ***2005*** | 8547,2 | 19,8 | 4200,4 | 19,5 | 4346,9 | 20,2 | 146,5 |
| ***2006*** | 11637,2 | 36,1 | 5265,1 | 25,3 | 6372,1 | 46,6 | 1107,0 |
| ***2007*** | 11770,5 | 1,1 | 5712,2 | 8,5 | 6058,4 | -5,9 | 3462,3 |
| ***2008*** | 54919,7 | 4,6 dəfə | 7163,5 | 25,4 | 47756,2 | 7,8 dəfə | 40592,7 |

**Qeyd:** Cədvəl DSK-nın məlumatları əsasında hazırlanmışdır

Müşahidələr göstərir ki, son beş ildə xarici ticarət dövriyyəsində ixracın sürətli artımında neft amilinin rolu böyükdur. 2001-ci ildə ixracın 91 %-ni, 2002-ci ildə 87%-ni, 2003-cü ildə 85%-ni, 2004-cü ildə 82%-ni, 2005-ci ildə 76%-ni, 2006-cı ildə 84%-ni, 2007-ci ildə isə 81 %-ni, 2008-ci ildə isə 97 %-ni neft və neft məhsulları təşkil etmişdir. İrihəcmli neft ixracına başlanıldığı 2000-ci ildən xarici-ticarət dövriyyəsində müsbət saldo müşahidə edilir.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2008-ci il ərzində respublikanın rezident və qeyri-rezidentləri tərəfindən 141 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi 54 919 697,3 min ABŞ dolları olmuş, il ərzində 47 756 229,4 min ABŞ dolları dəyərində 2127 adda mal ixrac, 7 163 467,9 min ABŞ dolları dəyərində 5893 adda mal isə idxal olunmuşdur. Beləliklə, ixrac-idxal əməliyyatları üzrə müsbət saldo 40592761,4 min ABŞ dollarına çatmışdır. 2007-ci ilə nisbətən 2008-ci ildə ixrac əməliyyatlarının həcmi 688,29%, yaxud 41 698 005,7 min ABŞ dolları, idxal əməliyyatlarının həcmi isə 25,38%, yaxud 1 449 940,2 min ABŞ dolları artmışdır.

Bu məlumatlara əsasən deyə bilərik ki, 2008-ci ildə ixrac əməliyyatlarının həcmində kəskin sıçrayışlı artım olmuşdur. İxracın dəyəri 8 dəfəyə qədər yüksəlmişdir. Bu da onunla izah edilir ki, 2008-ci ildə Azərbaycanın neft sektorunda hasilatın xeyli artması dunya bazarına ixrac olunan neftin həcminin artmasına səbəb olmuşdur, digər tərəfdən isə xam neftin dünya bazar qiyməti artaraq 140-150 dollara çatmışdır.

DGK-nın hesabatında qeyd edilir ki, Azərbaycanın rezident və qeyri-rezidentləri 2008-ci ildə MDB ölkələrinə 1619619,2 min ABŞ dolları dəyərində əmtəə (ümumi ixraca nisbətən 3,39%) çıxarmışlar, o cümlədən, 830044,4 min ABŞ dolları dəyərində əmtəə sərbəst dönərli valyuta ilə (ixraca nisbətən 51,25%), 548 153,3 min ABŞ dolları dəyərində digər sazişlərlə (ixraca nisbətən 33,84%) və 206865,9 min ABŞ dolları dəyərində əmtəə qapalı valyutaya hesablaşmalar ilə (ixraca nisbətən 12,77%) çıxarılmışdır. Respublikaya MDB ölkələrindən 2 340 338,9 min ABŞ dolları dəyərində əmtəə (ümumi idxala nisbətən 32,67%) gətirilmişdir. Onlardan 1762233,4 min ABŞ dolları dəyərində əmtəə sərbəst dönərli valyutaya (idxala nisbətən 75,30%), 339458,8 min ABŞ dolları dəyərində əmtəə qapalı valyutaya hesablaşmalar ilə (idxala nisbətən 14,50 %) və 189182,4 min ABŞ dolları dəyərində əmtəə digər sazişlərlə (idxala nisbətən 8,08%) gətirilmişdir. Ümumilikdə MDB ölkələri üzrə xarici ticarət dövriyyəsində mənfi saldo 720 719,7 min ABŞ dolları təşkil etmişdir.

İqtisadi inkişafın xarici ticarət əlaqələrinin inkişafındakı təzahür istiqamətlərindən biri də idxalın və ixracın strukturunda əmtəələrin xüsusi çəkisidir. Ekspertlərin fikrincə, son illər bu sahədə əldə edilmiş mühüm nailiyyətlərdən biri idxalın strukturunda ərzaq məhsullarının çəkisinin azalmasıdır ki, bu da ölkədə idxalın əvəzlənməsinin, həm də ərzaq təhlükəsizliyinin təmininin göstəricisidir.

Təhlillər göstərir ki, 2008-ci ildə idxal və ixracın strukturunda əvvəlki ilə nisbətən dinamik dəyişiklik olmuşdur:

- İxracın strukturunda: xam neft - 92,49% (2007-ci ilin ixracına nisbətən 13,7 dəfə artmışdır), neft məhsulları - 4,30% (123,11%), qara metallar və onlardan hazırlanan məmulatlar - 0,48% (301,31%), meyvə-tərəvəz - 0,45% (131,92%), bitki və heyvan mənşəli yağlar - 0,26% (148,78%), alüminium və ondan hazırlanan məmulatlar - 0,26% (133,33%), kimya sənayesi məhsulları - 0,23% (115,68%), alkoqollu və alkoqolsuz içkilər - 0,04% (90%), pambıq - 0,03% (46,23%), tütün və tütün məmulatları - 0,01% (54,59% artım).

- İdxalın strukturunda: maşın və elektrik aparatları, avadanlıqlar, elektrotexniki avadanlıqlar və onların ehtiyat hissələri - 30,82% (2007-ci ilə nisbətən 127,91%), nəqliyyat vasitələri və onların hissələri - 16,98% (137,63%), ərzaq məhsulları - 12,50% (125,88%), qara metallar və

onlardan hazırlanan məmulatlar - 9,30% (108,38%), əczaçılıq məhsulları - 1,51% (118,41%), oduncaq və ondan hazırlanan məmulatlar - 1,16% (115,06%), xalq istehlakı malları - 0,72% (100,24%), mebel - 0,56% (116,93%) təşkil edir. Qalan əmtəələrin payına 26,46% düşür.

Milli iqtisadiyyatda müşahidə edilən sürətli inkşaf prosesləri xarici-iqtisadi əlaqələrdə də təzahür olunur və xarici-iqtisadi əlaqələrin əsas göstəricilərinin təhlili beynəlxalq iqtisadi inteqrasiya proseslərinin sürətləndiyini göstərir. Bununla yanaşı, xarici-iqtisadi əlaqələrin coğrafiyasının və idxal-ixrac əməliyyatlarının regional struktrunun dinamik şəkildə dəyişikliyi, ixracın artımında neft sektorunun rolunun artması müşahidə olunur.

Qeyd etmək lazımdır ki, Mərkəzi Bankın pul-kredit siyasətinin prioritetini inflyasiyanın azaldılması, onun qənaətbəxş səviyyədə saxlanılmas təşkil edir. Mərkəzi Bankın milli iqtisadiyyatdakı ən önəmli rolu da məhz bundan ibarətdir. Son illər, xüsusilə də 90-cı illərin ikinci yarısından başlayaraq sərt pul-kredit siyasəti nəticəsində inflyasiyanın yol verilən səviyyəyə qədər azaldılması həm iqtisadi inkişaf üçün, həm də əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində fundamental bir əsasa çevrilmişdir.

Beyəlxalq maliyyə qurumlarının hesablamalarına görə, 2008-cı ildə dünya bazarında əmtəələrin qiyməti 18,4 %, o cümlədən ərzaq məhsullarının qiymətləri 36,5 % azalmışdır. İnkişaf etmiş ölkələrdə inflyasiya tempi təkrəqəmli göstərici ilə ifadə olunmuşdur.

AMB-nin statistik məlumatlarına görə, 2008-ci ildə sənaye istehsalçılarının qiymət indeksi 33,4 % azalmış, emal sənayesində 3,9 %, kənd təsərrüfatında 12,3 % artmışdır.

90-cı illərin ikinci yarısından başlayaraq Mərkəzi Bankın qarşısında duran əsas vəzifə inflyasiya səviyyəsinin aşağı salınması olmuşdursa, 2000-ci illərin əvvəlindən başlayaraq əsas prioriteti inflyasiya tempinin birrəqəmli səviyyədə saxlanılması təşkil etmişdir. Son illər ölkə iqtisadiyyatının miqyasının sürətlə genişlənməsi, ölkədə tikinti bumunun yaşanılması, əhali gəlirlərinin artması, bu və digər amillərin təsiri ilə məcmu tələbin artması isə ikirəqəmli infilyasiya səviyyəsini qaçılmaz etmişdir.

Əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycan neft ixracatçısıdır, karbohidrogen ehtiyatlarının realizasiyasından iri həcmli valyuta ehtiyatları əldə edir. Bu da ölkədə inflyasiya məsələsinə, məzənnə siyasətinə daha diqqətlə yanaşmanı aktuallaşdırmışdır. «Holland sindromu» kimi məşhur olan anomaliyanın milli iqtisadiyyatda müşahidə ehtimalı böyük olaraq qalır. Bu prosesin mahiyyəti ondan ibarətdir ki, ölkəyə iri həcmli valyutanın daxil olması onun daxili bazardakı təklifini artırır, bu da öz növbəsində milli valyutanın möhkəmlənməsinə, onun bahalaşmasına gətirib çıxarır. Sonuncu isə ixrac potensialından istifadə sahəsində

neqativ amil kimi çıxış edir. Belə ki, milli valyutanın bahalaşması ixracı da bahalaşdırır və bu ixrac məhsullarının beynəlxalq bazarlardakı rəqabət qabiliyyətini aşağı salır. Belə bir proses milli iqtisadiyyatın qeyri-neft sektorunu tənəzzülə apara bilər. Məhz buna görə də AMB-nin qarşısında duran mühüm vəzifələrdən biri manatın məzənnəsini sabit saxlamaq olmuşdur. Demək olar ki, Mərkəzi Bank bu istiqamətdə zəruri nəticələrə nail ola bilmişdir.

Mərkəzi Bankla yanaşı, Azərbaycan Respublikası Dövlət Neft Fondu da neft gəlirlərinin milli iqtisadiyyata mənfi təsirlərinin neytrallaşdırılması istiqamətində fəaliyyət göstərir. Rəsmi sənədlərdə qeyd edilir ki, Neft Fondunun fəaliyyəti neft və qazın kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişlərin həyata keçirilməsindən və Fondun öz fəaliyyətindən əldə olunan vəsaitin toplanması və səmərəli idarə edilməsi vasitəsilə ölkə qarşısındakı aşağıdakı mühüm vəzifələrin həllinə yönəlmişdir:

- böyük həcmdə daxil olan xarici valyuta gəlirləri şəraitində ölkədə makroiqtisadi sabitliyin qorunması və maliyyə-vergi intizamının təmin edilməsi, eyni zamanda, neft gəlirlərindən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafının təmin edilməsi;

- neft və qazın bərpa edilməyən təbii ehtiyat olduğunu nəzərə alaraq, onlardan əldə edilən gəlirin nəsillər arasında bərabər bölüşdürülməsi və gələcək nəsillər üçün ehtiyat vəsaitinin toplanması;

- ölkənin sosial-iqtisadi tərəqqisi ilə əlaqədar mühüm ümummilli layihələrin maliyyələşdirilməsi.

Qeyd etmək lazımdır ki, 2010-cu il və növbəti 3 il üzrə ölkənin iqtisadi-sosial inkişaf konsepsiyasında qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün ortamüddətli iqtisadi-sosial inkişaf siyasətinin prioritet vəzifələri müəyyən edilib. Bunlar aşağıdakılardır:

- makroiqtisadi sabitliyin qorunub saxlanılması və bunun üçün çevik iqtisadi, o cümlədən koordinasiya olunmuş monetar və fiskal siyasətin həyata keçirilməsi;

-ölkə iqtisadiyyatının optimal strukturunun formalaşdırılması, onun neft sektorundan asılılığının azaldılması və diversifikasiya edilməsi, infrastruktur təminatının müasir tələblərə uygunlaşdırılması, innovativ iqtisadiyyatın formalaşdırılması və iqtisadiyyatın intellektual-texnoloji səviyyəsinin yüksəldilməsi;

-milli iqtisadi, o cümlədən enerji, ərzaq, ekoloji təhlükəsizliyin möhkəmləndirilməsi;

-özəl sektorun inkişafının davam etdirilməsi, bu sahəyə dövlət dəstəyinin daha da gücləndirilməsi;

-Beynəlxalq Əmək Bölgüsündə iştirakın optimallaşdırılması və dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndirilməsi;

-"insan kapitalı"nın inkişafı, məşğulluq səviyyəsinin yüksəldilməsi, gəlirlərin ədalətli bölüşdürülməsi, sosial müdafiə sisteminin səmərəliliyinin artırılması, yoxsulluğun azaldılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi.

Karbohidrogen gəlirlərinin infilyasiya təsirlərinin azaldılması istiqamətində Mərkəzi Bankın fəaliyyətinin əsasını məzənnə siyasəti təşkil edir. AMB-nın bu siyasəti milli iqtisadiyyatın sabitliyi ilə yanaşı, beynəlxalq rəqabət qabiliyyətinin qorunmasına və yüksəldilməsinə xidmət edir.

Azərbaycanın son illərdəki iqtisadi inkişafında əvvəldə qeyd etdiyimiz kimi, karbohidrogen ixracatçısı olması həlledici rol oynamışdır. Qlobal maliyyə böhranı qlobal tələbin zəifləməsinə, ikinci isə öz növbəsində ixracyönümlü iqtisadiyyata malik ölkələrə daha çox zərər təhlükəsi yaratmışdır. Bu baxımdan böhran şəraitində Azərbaycanda həyata keçiriləcək pul-kredit siyasətinin qarşısında daha ciddi vəzifələr durmuşdur.

Qlobal maliyyə böhranının real iqtisadiyyatlara transfer olunması nəticəsində 2008-ci ilin ikinci yarısında inkişaf etmiş ölkələr son 20 ildə ən dərin iqtisadi böhran dövrünə qədəm qoyublar, bu ölkələrdə iqtisadi artım tempi 1 %-ə enmişdir. Böhrana qədər dünya iqtisadi artımında inkişaf etmiş ölkələrin payı 29%, inkişaf etməkdə olan ölkələrin payı isə 61% olmuşdursa, böhran dövründə bu nisbət 16 % və 84 % təşkil etmişdir. Birincilərdə 2006-2008-ci illərdə iqtisadi artım göstəricisi 3,0 %-dən 1,0%-ə, ikincilərdə isə 7,9%-dən 6,3%-ə dəyişmişdir. Dünya bankının hesabatında qeyd edilmişdir ki, 2008-ci ilin son rübündə dünyada sənaye istehsalı 20 % azalmış, ticarət dövriyyəsi əvvəlki rüblə müqayisədə, 18 % az olmuşdur. Dünya əmtəə bazarlarında sürətli ucuzlaşma, inkişaf etmiş ölkələrdə potensial bazarların itirilməsi, digər ölkələrdə iqtisadi artım tempinin azalmasının başlıca səbəbinə çevrilmişdir. Ekspertlər 2009-cu ildə dünya iqtisadiyyatında baş verən prosesləri II Dünya müharibəsindən sonra ən kəskin qlobal böhran kimi qiymətləndiriblər.

Qlobal maliyyə böhranı ABŞ-ın ipoteka bazarından qaynaqlanmış və ən ciddi mənfi təsirlərini də bu ölkədə göstərmişdir. Elə maliyyə böhranı ilə mübarizə tədbirləri olaraq pul-kredit siyasətinə dəyişikliklər də birinci olaraq bu ölkədə həyata keçirilmişdir. ABŞ hökuməti pul-kredit siyasətinin yumşaldılmasını problemin həllində başlıca istiqamət kimi görmüşdür. ABŞ-ın Federal Ehtiyatlar Sistemi bankların reinvestisiya dərəcəsini 2008-ci ildə mərhələlərlə 4,75 %-dən 0,5 %-ə, federal fondların faiz dərəcəsi üzrə hədəfləri isə 0-0,25 % intervalına salmışdır.

Ölkədə həyata keçirilən uğurlu İqtisadi Strategiya nəticəsində Azərbaycan, qlobal böhranı kifayət qədər hazırlıqlı qarşılamış, yaradılmış irihəcmli valyuta ehtiyatları iqtisadiyyatın yüksək maliyyə dayanıqlığını təmin etmişdir. Bu maliyyə yastığı hesabına iqtisadiyyatın

likvidlik ehtiyacları vaxtında ödənilmiş, manatın məzənnəsi və bank sisteminin sabitliyi qorunmuş, nəticədə, ölkədə resessiyaya yol verilməmiş, optimal iqtisadi artım templəri qorunub saxlanılmışdır .

Tədqiqatçıların yekdil rəyi belədir ki, AMB çevik pul və məzənnə siyasəti vasitəsilə makroiqtisadi sabitliyin qorunmasında fəal iştirak etmişdir və ardıcıl olaraq antiböhran tədbirlərini həyata keçirmişdir. AMB-nin bəyanatında qeyd edilmişdir ki, böhranın pik dövründə Mərkəzi Bank ictimaiyyətə manatın sabitliyinin qorunacağını bəyan etmiş və bu sabitlik təmin edilmişdir. Həyata keçirilən siyasət beynəlxalq maliyyə qurumları tərəfindən də tədqirəlayiq qiymətləndirilmişdir. Manatın sabitliyi əhalinin gəlirləri və yığımlarını yüksək infilyasiyadan qorumuş, istehsal sahələrində istifadə olunan idxal məhsullarının kəskin bahalaşmasının qarşısını almışdır.

Hazırda AMB-də inflyasiya, pula tələb, qeyri-neft ÜDM-in trend modeli, qeyri-neft ixracı modeli, istehlak mallarının idxalı kimi makroiqtisadi modellərin qurulması həyata keçirilir. AMB-nin məlumatına görə, makroiqtisadi təhlilə, proqnoza və müxtəlif siyasət variantlarının işlənməsi məqsədilə müvafiq simulyasiyalara imkan verən makromodelin qurulması üzrə ekonometrik tədqiqatların ilkin metodları hazırlanmışdır.

Bütün qeyd edilənləri nəzərə alaraq milli iqtisadiyyatdakı inkişaf prosesləri və burada pul-kredit siyasətinin rolu, bu iki amilin qarşılıqlı əlaqəsi ilə bağlı aşağıdakı fikirləri söyləyə bilərik:

- son illər iqtisadiyyatda sürətli inkişaf prosesləri müşahidə edilir və bu dinamik xarakterli olmaqla milli iqtisadiyyatın, demək olar ki, bütün sahələrində, o cümlədən monetar sferada təzahür olunur;
- 1990-cı illərin ikinci yarısından başlayaraq iqtisadiyyatda canlanmaya nail olunmasında, sürətli inflyasiyanın qarşısının alınmasında və iqtisadi inkişafın əsaslarının yaradılmasında sərt pul-kredit siyasətinin müstəsna rolu olmuşdur;
- iqtisadiyyatın miqyasının böyüməsi, iqtisadi artım göstəricilərinin yüksəlməsi ölkənin pul bazarında da kəmiyyət və keyfiyyət dəyişikliklərini şərtləndirmiş və onun tənzimlənməsi üçün yeni tələblər formalaşdırmışdır;
- karbohidrogen ixracatından valyuta daxilolmalarının ilbəil artdığı bir şəraitdə iqtisadi sabitliyin qorunub saxlanılmasında Mərkəzi Bankın pul-kredit siyasətinin rolu və əhəmiyyəti daha da artmışdır;
- son qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına mümkün mənfi təsirlərinin neytrallaşdırılmasında, yaxud belə təsirlərin mümkün qədər azaldılmasında AMB-nin pul-kredit siyasəti alətlərindən istifadəsi xüsusi rol oynamışdır;
- müşahidələr göstərir ki, son illər iqtisadi inkişaf proseslərinin stimullaşdırılmasında, inflyasiya təsirlərinin neytrallaşdırılmasında,

dövlətin iqtisadi tənzimləmə funksiyasının həyata keçirilməsində əsas vasitələrdən biri pul-kredit siyasətidir və bu siyasət qeyd edilən istiqamətlərdə müsbət nəticələr verir;

- pul və məzənnə siyasəti vasitəsilə milli valyuta olan manatın nominal effektiv məzənnəsinin tənzimlənməsi, ticarət tərəfdaşı olan ölkələrdən inflyasiya idxalını neytrallaşdırmağa şərait yaradır;

- Mərkəzi Bankın pul bazarını effektiv şəkildə tənzimləməsi, məcmu tələb və məcmu təklif arasında tarazlığı təmin etməsi dayanıqlı iqtisadi inkişafın əsas faktorlarından biri kimi çıxış edir və s.

## 9.6.Pul-kredit sferasında dövlət nəzarətinin təkmilləşdirilməsi istiqamətləri

İqtisadiyyatın hər-hansı sahəsinin problemlərindən, onların həlli məsələlərindən, yaxud bu sahədəki fəaliyyətdən, o cümlədən dövlətin tənzimləmə siyasətindən bəhs edərkən mövcud normativ hüquqi bazaya diqqət yetirilməsi zəruriətə çevrilmişdir.

Azərbaycanda Mərkəzi Bankın fəaliyyətinin qanunvericilik bazasına daxil olan normativ-hüquqi sənədlərini aşağıdakı kimi təsnifləşdirmək olar:

- Azərbaycan Respublikasının qanunları;
- Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları;
- Nazirlər Kabinetinin qərar və sərancamları;
- AMB-nin normativ-hüquqi aktları;
- Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilə və sazişlər;
- digər hüquqi sənədlər.

Birinci qrupa daxil olan və AMB-nin fəaliyyətinin tənzimlənməsinin əsas hüquqi bazası olan «Mərkəzi Bank haqqında» AR-in Qanunu 10 dekabr 2004-cü ildə qəbul edilmişdir. Bu sənəd Azərbaycan Respublikası Mərkəzi Bankının hüquqi statusunu, onun məqsəd, funksiya və səlahiyyətlərini, habelə idarəetmə və təşkilati strukturunu müəyyən edir, dövlətin Mərkəzi Bankı kimi dövlət hakimiyyəti orqanları ilə və digər şəxslərlə münasibətlərini tənzimləyir.

Qeyd etmək lazımdır ki, Mərkəzi Bankın əsas məqsədi mənfəət əldə etmək deyildir. Lakin istənilən halda bankın fəaliyyətində zərər və mənfəət müşahidə edilə bilər. «Mərkəzi Bank haqqında» Qanunun 11-ci və 12-ci maddələri AMB-nin mənfəətinin formalaşmasının əsaslarını və onun bölüşdürülməsi prosedurunu müəyyənləşdirir: Mərkəzi Bankın mənfəəti Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq gəlirlərdən xərclərin çıxılması ilə hesablanır. Gəlirlər AMB-nin həyata keçirdiyi fəaliyyətdən və qanunvericiliyə zidd olmayan digər mənbələrdən formalaşır. Hesabat ilinin mənfəəti, ilk növbədə, AMB-nin kapital ehtiyatlarının formalaşdırılmasına yönəldilir. Kapital ehtiyatları

formalaşdırıldıqdan sonra Mərkəzi Bankın reallaşdırılmış mənfəətinin sərbəst qalığı Dövlət büdcəsinə köçürülür.

Qanunvericiliyə uyğun olaraq Mərkəzi Bank Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq onun səlahiyyətlərinə aid edilən məsələlər üzrə xarici dövlətlərin mərkəzi bankları ilə qarşılıqlı münasibətlərdə, habelə beynəlxalq maliyyə-kredit təşkilatlarında Azərbaycan Respublikasını təmsil edir.

Qanunun 37-ci maddəsi ölkədə pul tədavülünün təşkilini və bu istiqamətdə AMB-nin fəaliyyətini tənzimləyir. Bu maddənin tələblərinə uyğun olaraq Mərkəzi Bank Azərbaycan Respublikasında nağd pul tədavülünün təşkili üçün pul nişanlarına olan tələbatı müəyyənləşdirir, pul nişanlarının istehsalını təşkil edir və ya hazırlanmasını sifariş verir, onların daşınmasını və saxlanılmasını təmin edir. Bundan başqa, pul nişanlarının tədavülə buraxılması, pul nişanlarının tədavüldən çıxarılması, dəyişdirilməsi, məhvi kimi məsələlər də sözügedən qanunun 38,39,40 və 41-ci maddələrinin müddəaları ilə tənzimlənir.

Qanunvericiliyə görə, AMB-nin kredit təşkilatları ilə münasibətlərinin əsas prinsipləri aşağıdakılardan ibarətdir:

- bank sisteminin sabit işini təmin etmək, bank kreditorlarının və əmanətçilərinin maraqlarını qorumaq məqsədilə bank fəaliyyəti üzərində lisenziyalaşdırma, tənzimləmə və nəzarət funksiyalarını qanunvericiliyə və səmərəli bank nəzarəti üzrə beynəlxalq təcrübəyə uyğun olaraq həyata keçirir;

- qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, Mərkəzi Bank kredit təşkilatlarının cari fəaliyyətinə qarışmır;

- Mərkəzi Bank kredit təşkilatlarının öhdəlikləri üçün, kredit təşkilatları isə Mərkəzi Bankın öhdəlikləri üçün cavabdeh deyildir.

Mərkəzi Bank ölkədə bank fəaliyyətinin həyata keçirilməsi üçün kredit təşkilatlarına lisenziyaların verilməsində və onların ləğv edilməsində müstəsna səlahiyyətlərə malikdir. Onun bu fəaliyyəti «Banklar haqqında» AR-in Qanunu ilə tənzimlənir. Bu Qanunun 2-ci maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının ərazisində banklar və bank olmayan kredit təşkilatları bank fəaliyyətini Mərkəzi Bankın verdiyi xüsusi razılıq (lisenziya) əsasında həyata keçirə bilər.

«Banklar haqqında» Qanun 16 yanvar 2004-cü ildə qəbul edilmişdir və 94 maddədən ibarət olmaqla banklar və bank olmayan kredit təşkilatlarının fəaliyyəti ilə bağlı əsas hüquqi məsələləri və prosedurları özündə əks etdirir.

Qanun ölkədə bank fəaliyyətinə xüsusi tələblər formalaşdırmışdır ki, bunların da təmin edilməsinə nəzarət, bilavasitə Mərkəzi Banka mənsubdur. Qanunun 31-ci maddəsi tələb edir ki, banklar idarəetməni və cari fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyasının, Mülki Məcəllənin, digər normativ hüquqi aktların, Mərkəzi Bankın normativ-

hüquqi aktlarının, öz nizamnamələrinin tələblərinə, onlara verilmiş bank lisenziyasında və ya icazədə göstərilən bütün məhdudiyyətlərə müvafiq surətdə etibarlı və prudensial qaydada həyata keçirməlidirlər. Banklar məcmu kapitalını və likvid ehtiyatlarını müəyyən olunmuş səviyyədə saxlamalı, öz öhdəliklərini yerinə yetirmək və zərərə yol verməmək üçün aktivlərin qiymətdən düşməsinə qarşı zəruri tədbirlər görməlidirlər.

«Banklar haqqında» Qanunun VI fəsili banklara təsir tədbirlərini və sanksiyalarını müəyyənləşdirir. Belə ki, bank tərəfindən prudensial normativlərin və tələblərin pozulmasına, onun fəaliyyətinin «Banklar haqqında» Qanunun və Mərkəzi Bankın normativ xarakterli aktlarının tələbləri pozulmaqla həyata keçirilməsinə, AMB-nin verdiyi lisenziya və icazəyə daxil edilmiş məhdudiyyətlərin pozulmasına yol verdiyini müəyyən etdikdə Mərkəzi Bank belə tədbirlərdən istifadə edə bilər. Qanunla müəyyənləşdirilmişdir ki, Mərkəzi Bankın icrası məcburi olan sərəncamından məhkəmə qaydasında şikayət verilməsi həmin sərəncamın icrasını dayandırmır.

Təhlillər göstərir ki, müasir iqtisadi tendensiyalar, xüsusilə də maliyyə böhranları şəraitində bank sektorunun risklərdən qorunması, bu sektorun likvidliyinin artırılmasında inzibati tənzimləmə vasitələrindən biri olmaqla, normativ-hüquqi bazanın təkmilləşdirilməsi daha da aktuallaşmışdır. Prinsip etirbarilə AMB-in son illəri əhatə edən bu tip fəaliyyətini qənaətbəxş hesab etmək olar. Bu istiqamətdə Mərkəzi Bankın beynəlxalq maliyyə qurumları ilə, xarici ekspertlərlə əməkdaşlığı da səmərəlidir və həm də zəruridir.

Fikrimizcə, Azərbaycanda pul-kredit sferasında dövlətin nəzarət funksiyasını optimal şəkildə reallaşdırmaq, ödəniş sistemlərinin sabitliyini təmint etmək, iqtisadiyyatın kredit resurslarına olan tələbatının səmərəli ödənilməsini tənzimləmək məqsədilə həyata keçirilən qanunvericilik əsaslarının yaradılması və mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi aşağıdakı prioritetləri özündə birləşdirməlidir:

- qanunvericilik bazasının təkmilləşdirilməsində və yeni normativ-hüquqi sənədlərin yaradılmasında mütərəqqi beynəlxalq təcrübənin tətbiqi, iqtisadi inkişaf xüsusiyyətləri Azərbaycanın analoq göstəricisi ilə uyğunluq təşkil edən ölkələrin, xüsusilə də postsovet və postsosialist ölkələrinin təcrübələrinn öyrənilməsi;
- Azərbaycanın irihəcmli karbohidrogen ehtiyatları ixracatçısı olmasının, bu sahədən böyük həcmdə valyuta ehtiyatlarının daxil olmasının nəzərə alınması, valyuta nəzarətinin qanunvericilik bazasının bu xüsusiyyətlər əsasında formalaşdırılması;
- çoxsaylı qanunlar, Mərkəzi Bankın normativ-hüquqi aktları əsasında istifadənin sadələşdirilməsi məqsədilə bank fəaliyyəti və bank nəzarəti üzrə vahid məcəllənin hazırlanması və tətbiqi imkanlarının nəzərdən keçiriməsi;

- milli iqtisadiyyatda konyuktur dəyişikliklərə, xüsusilə də qeyri-neft sektorunun inkişafını stimullaşdıracaq pul-kredit siyasətini formalaşdıra biləcək qanunvericilik bazasının yaradılması;

- ölkənin bank sektorunda xarici investisiyanın iiştirakının optimal həddini müəyyən edən və yerli bankların xarici bazarlara çıxışı imkanlarını genişləndirəcək normativ-hüquqi bazanın formalaşdırılması və s.

Mərkəzi Bankın tələblərinə əsasən, hesablardan vəsaitin silinməsi barədə bütün normal ödənişlərin və qısamüddətli öhdəliklərin həyata keçirilməsi, nağd vəsaitin və qısamüddətli aktivlərin əldə olunması üçün bank rəhbərliyi likvidliyi planlaşdırmalıdır. Çünki bankın likvidlik vəziyyətinə səmərəli nəzarət edə bilməməsi və fövqəladə hallar üçün lazımi planlar hazırlamaması çox vaxt likvidlik böhranına, hətta ödəniş qabiliyyətinin itirilməsinə səbəb olur. Bank likvidliyinin idarə olunmasında nəzərə alınmalı olan əsas amil böyük mənfəət əldə etmək məqsədilə vəsaiti daha uzun müddətlərə yerləşdirən zaman qısamüddətli likvid vəsaitə olan tələbatın tarazlığına nail olmaqdır. Buna görə də likvidlik məsələləri mənfəət mülahizələri ilə tarazlaşdırılmalı, bankın likvidliyi üçün vəsaitə olan tələbat mənfəət mülahizələrindən asılı olmamalıdır.

Təcrübədə zəruri likvidlik səviyyəsinin təmini üçün bankın balansının həm aktiv, həm də passiv maddələrindən istifadə edilir. Belə ki, nağd vəsaitlərin, tez satıla bilən qiymətli kağızların, Mərkəzi Bankda və kommersiya banklarının müxbir hesablarında banka məxsus depozitlərin və digər vəsaitlərin əldə edilməsi likvidlik tələbatlarının ödənilməsi istiqamətlərindən birini təşkil edir ki, bu əməliyyatlar da balansın aktiv hissəsinə aiddir. Digər tərəfdən, bank likvidliyin təmini üçün kommersiya banklarından vəsaitlər cəlb edir (depozitlər və kreditlər şəklində), Mərkəzi Bankdan kreditlər alır, hüquqi və fiziki şəxslərdən depozitlər qəbul edir ki, bunlar isə passiv maddəyə aiddir. Buna görə də mərkəzi banklar likvidliyin səmərəli idarə olunması strategiyasının formalaşdırılması zamanı banklardan aktivlərlə yanaşı, passivlərin də fəal şəkildə tənzimlənməsini tələb edir.

Müasir iqtisadi tendensiyalar, ümumilikdə müasir iqtisadiyyat tələb edir ki, pul-kredit siyasəti çevik olmalı, dolğun informasiyalara və təd-qiqatlara əsaslanmalı, ölkənin iqtisadi inkişaf xüsusiyyətlərinə və iqtisadi modelinə uyğunlaşdırılmalı, milli iqtisadiyyatın inkişafının əsaslarından birinə çevrilməlidir. Bunun üçünsə onun daim təkmilləşdirilməsi qarşıda duran ən mühüm vəzifələrdən biri kimi çıxış edir.

Azərbaycanda pul-kredit siyasətinə təsiri olan və iqtisadiyyatla bağlı bir sıra özəl xüsusiyyətlər mövcuddur ki, bunlara əsasən aşağıdakıları aid etmək olar:

- bazar iqtisadiyyatına keçid prosesinin hələ də davam etməsi, iqtisadiyyatın bir sıra sahələrində, o cümlədən pul-kredit sferasında da bazar münasibətlərinin hələ də tam bərqərar olmaması;

- bank və digər kredit təşkilatlarının uzunmüddətli təcrübəyə malik olmamaları, onların böyük əksəriyyətinin son 10 ildə yaranması və beynəlxalq mütərəqqi təcrübəni hələ də tam mənimsəmələri;

- ölkədə qiymətli kağızlar bazarının zəif inkişaf etməsi, bankların bu sektordakı investisiyalarının əhəmiyyətsiz hesabediləcək səviyyədə az olması, qiymətli kağızlar bazarındakı fəaliyyətin əsasən dövlət qiymətli kağızlarına, Mərkəzi Bankın REPO və Əks-REPO əməliyyatlarına bağlanması;

- əhalinin əmanətləri banklara yönəltməsinin, bank sektoruna inamın yetərli olmaması və mentalitetlə bağlı olan bir sıra səbəblər üzündən lazımi səviyyədə olmaması, nağdsız pul dövriyyəsinin kütləviləşdirilməsində problemlərin mövcudluğu;

- Azərbaycanın iri karbohidrogen ehtiyatları ixracatçısı olması və bu sahədən böyük həcmdə valyuta ehtiyatlarının daxil olması, ölkənin valyuta ehtiyatının sürətlə artması, iqtisadiyyatda dövlət xərclərinin sürətlə çöxalması və s.

Bu amillərin ölkənin pul-kredit siyasətinə təsir imkanlarını ayrı-ayrılıqda aşağdakı kimi izah edə bilərik:

Məlumdur ki, Azərbaycan müstəqillik əldə edənə qədər ölkədə bütün banklar dövlət mülkiyyətində olub, bank fəaliyyəti dövlət tərəfindən planlı şəkildə həyata keçirilib. Yalnız yeni iqtisadi münasibətlərə, bazar iqtisadiyyatna keçid ölkədə özəl bank fəaliyyətini zəruri etmişdir. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərində respublikada xüsusi mülkiyyətə əsaslanaraq qurulmuş bank fəaliyyəti bir sıra postsovet respublikalarında olduğu kimi, fiaskoya uğramışdır. Maliyyə piramidalarının meydana gəlməsi, əhali əmanətlərinin mənimsənilməsi, bank adı altında əslində bankçılığa aidiyyəti olmayan fəaliyyətlərin gerçəkləşdirilməsi bir tərəfdən qanunvericilikdəki boşluqlardan, bank fəaliyyətinə prudensial nəzarətin lazımi səviyyədə olmamasından doğurdusa, digər tərəfdən bunun kökündə həqiqi bazar münasibətlərinin mövcud olmaması dururdu. Əslində, banklar əhalidən və iqtisadi subyektlərdən cəlb etdiyi əmanətləri kredit şəklində, investisiya şəklində iqtisadiyyata yönəltməlidir ki, bu sahədən əldə etdiyi mənfəətin bir hissəsini faiz kimi ödəsin. Belə bir fəaliyyətin səmərəli olması üçünsə real bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın mövcudluğu əsas şərtdir. Təhlillər göstərir ki, ölkədə bank sektorunun inkişafının startı, əsasən 1990-cı illərin ikinci yarısından bazar iqtisadiyyatına keçidin sürətləndiyi, islahatların aparıldığı bir dövrə təsadüf edir. Son 4-5 ildə iqtisadiyyatın müxtəlif sahələrində bazar iqtisadiyyatı elementlərinin sürətli inkişafı bank sisteminə daha ciddi töhfə vermişdir.

Bank sektorunun özündə də bazar iqtisadiyyatına keçidlə bağlı islahatların yekunlaşmaması problemlərdən biri olaraq qalır. 2009-cu ilə qədər bank sektorunun əsas iqtisadi göstəricilərində iki dövlət bankının payı bütün özəl bankların payından çox olmuşdur. Bunlardan biri –

«Kapital Bank» dövlətsizləşdirilsə də, ölkənin ən iri bankı olan «Beynəlxalq Bank» dövlət bankı olaraq qalır.

Bazar iqtisadiyyatının mühüm elementlərindən biri də rəqabət mühitidir. Rəqabət mühitinin lazımi səviyyədə olması tək iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün deyil, həm də bu sahələrlə sıx bağlı olan bank sektoru üçün önəmlidir. Mərkəzi Bank qiymətlərin sabitləşdirilməsinə yönəldilmiş konkret tədbirində nəzərə almalıdır ki, bu qiymət hansı əsaslarla, hansı mühitdə formalaşır. Ola bilər ki, Mərkəzi Bank inkişaf etmiş ölkələrin təcrübələrindən çıxış edərək bazar münasibətlərinə hesablanmış pul-kredit siyasəti yürüdər. Lakin bu həmin ölkələrdəki qədər effektli ola bilməz. Hesab edirik ki, pul-kredit siyasətinin nəticəsi iqtisadiyyatın konyukturundan, bazar elementlərinin inkişaf səviyyəsindən əhəmiyyətli şəkildə asılıdır. Buna görə də pul-kredit siyasətində bu faktorun nəzərə alınması zəruridir ki, müasir dövrdə bank sektorunun inkişafı, pul-kredit siyasətinin ümumi vəziyyəti qiymətli kağızlar bazarı ilə sıx bağlıdır. Ancaq müşahidələr göstərir ki, Azərbaycanda qiymətli kağızlar bazarının inkişaf tempi iqtisadi inkişaf tempi ilə adekvat deyil. Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə bankların və digər kredit təşkilatlarının mənfəətlərinin böyük bir hissəsi bu sektorda, qiymətli kağızların idarə edilməsindən, alqı-satqısından formalaşır. Amma Azərbaycanın banklarının qiymətli kağızlar bazarında investisiya fəaliyyəti həddən artıq çox azdır. Son illər ölkədə, xüsusilə paytaxtda daşınmaz əmlakın sürətli bahalaşması müşahidə edilmişdir. Ekspertlər bunu da qiymətli kağızlar bazarının zəifliyi ilə izah edilə bilər. Belə ki, əgər qiymətli kağızlar bazarı inkişaf etmiş olsaydı, səhmlərə görə dvidendlər ödənilsəydi və insanlar səhmləri almaqla iri müəssisələrə payçı ola bilsəydilər və bu xarici ölkələrdə olduğu kimi ev, mənzil kimi daşınmaz əmlakın alınmasından daha faydalı olsaydı, həmin pullar investisiya şəklində iqtisadiyyata yönəlmiş olardı. Bu da öz növbəsində iqtisadiyyatın inkişafına və məntiqi olaraq bank xidmətlərinə tələbin artmasına gətirib çıxarardı. İnkişaf etmiş ölkələrdə bank kreditləri üzrə fazi dərəcələri əsasən qiymətli kağızlar bazarı ilə, qiymətli kağızların gəlirliyi, dvidendlərin səviyyəsilə əlaqəli olaraq formalaşır. Azərbaycanda isə bank faizləri əsasən Mərkəzi Bankın uçot dərəcəsi və cəlb edilmiş beynəlxalq kreditlərin fazi dərəcəsi əsasında müəyyənləşir. Belə olan halda, Azərbaycanda Mərkəzi Bankın bank faizlərinə təsir imkanları daha genişdir. Buna görə də qeyri-neft sektorlarının inkişafının təminində pul-kredit siyasətindən daha səmərəli istifadə etmək olar. Nəzərə almaq lazımdır ki, bir çox ölkələrlə müqayisədə, Azərbaycanda kommersiya kreditlərinin faiz dərəcələri xeyli yüksəkdir ki, bu iqtisadi inkişafa mənfi təsirlərdən biri kimi çıxış edir.

1990-cu illərin əvvəlində Azərbaycanın bank sektorunda baş vermiş ciddi böhran, əhali əmanətlərinin ilk yaranmış əmanət banklarında batması banklara inamı əsaslı şəkildə sarsıtmışdır. Hələ də əhalinin banklara qarşı inamı lazımi səviyyədə bərpa olunmamışdır ki, bu da özünü əmanətlərin

səviyyəsində göstərir. Digər tərəfdən, mentalitetdən irəli gələn bir xüsusiyyətdir ki, Azərbaycan əhalisinin böyük hissəsi pullarını sandıqlarda saxlamağa daha çox üstünlük verirlər, nəinki banklarda. Belə bir şəraitdə əhalinin banklara inamının artırılması, əmanətlərin banklara cəlb edilərək onların vasitəsilə investisiya kimi iqtisadiyyata yönəldilməsi də Mərkəzi Bankın fəaliyyətində prioritetlərdən birini təşkil etməlidir. Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi, əmanətlərin sığortalanmasının qanunvericilik bazası formalaşdırılmış və Əmanətlərin Sığortalanması Fondu fəaliyyətə başlamışdır. Prinsipcə bunu qeyd edilən istiqamətdə atılmış fundamental bir addım kimi qiymətləndirmək olar. Hesab edirik ki, bununla yanaşı, bu sahədə innovasiyalı metod və yanaşmalardan da istifadəyə ehtiyac var.

# X FƏSİL

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASININ DÖVLƏT STRATEGİYASI

***«Azərbaycan dünyanın enerci təhlükəsizliyi məsələlərinin həllinə böyük töhfə verən ölkəyə çevrilib»***

**İlham Əliyev**

## 10.1. İqtisadi təhlükəsizlik konsepsiyası və onun xüsusiyyətləri

*İqtisadi təhlükəsizlik - ölkə iqtisadiyyatının ona qarşı daxildən və xaricdən yönəlmiş təhlükələrdən qorunmasını təmin edən, zəmanət verən və dövlət tərəfindən yaradılmış hüquqi normalar, şərtlər, iqtisadi normativlər, təlimatlar və direktivlər kompleksidir. Azərbaycan Respublikasının İqtisadi Təhlükəsizlik Konsepsiyası siyasi sənəd kimi öz mahiyyətini Azərbaycan Respublikasının «Milli Təhlükəsizlik Haqqında» Qanununda tapır. Qanunda göstərilir: «Azərbaycan Respublikasının iqtisadi maraqları milli maraqlarının tərkib hissəsi kimi şəxsiyyətin, cəmiyyətin və dövlətin iqtisadi sahədəki tarazlaşdırılmış maraqlarının məcmusudur». İqtisadi təhlükəsizlik uzunmüddətli xarakter daşıyır, dövlət hakimiyyət institutları tərəfindən icra olunur, qanunvericilik sənəd və normalarına uyğun ictimai təşkilatlar tərəfindən təmin olunur.*

*Qeyd etmək lazımdır ki, milli iqtisadi təhlükəsizlik mövcud iqtisadi sistemin səmərəliliyinin təmin olunmasına yönəldilən, şəxsiyyət, cəmiyyət və dövlət mənafelərinin uzlaşdırılmasına və tarazlaşdırılmasına yönəldilmiş fəaliyyətdir. Belə ki, iqtisadi təhlükəsizlik həm birbaşa iqtisadi metodlarla, həm də qeyri-iqtisadi, siyasi, hərbi, diplomatik və s. vasitələrlə təmin olunur. O, bir tərəfdən ölkədə həyata keçirilən iqtisadi strategiya ilə, digər tərəfdən də daxili və xarici siyasətin balanslaşdırılması ilə əlaqədardır. Belə mexanizmin həyata keçirilməsi, ümumiyyətlə, milli təhlükəsizliyin təmin olunmasının əsas vasitəsidir.*

İqtisadi təhlükəsizliyin təmin olunması bütövlükdə Milli Təhlükəsizlik Sisteminin əsasını təşkil edən hərbi vəziyyətin saxlanılmasına, sosial sabitliyin qorunmasına, ekoloji bəlalardan uzaqlaşmasına imkan yaradır. Beləliklə, iqtisadi təhlükəsizlik milli iqtisadi inkişafın meyarı olmaqla, onun davamlı xarakter almasına imkan yaradan fasiləsiz prosesdir.

İqtisadi təhlükəsizliyin mahiyyəti, məzmunu onun kəmiyyət və keyfiyyət xüsusiyyətlərini ifadə edən meyarlar və göstəricilər vasitəsilə müəyyən olunur. Meyarlar da öz növbəsində iqtisadi təhlükəsizliyin göstəriciləri vasitəsilə ifadə olunur. Göstəricilər hər hansı bir iqtisadi prosesin, hadisənin kəmiyyət və keyfiyyət xüsusiyyətlərini özündə birləşdirir.

Bu mənada iqtisadi təhlükəsizliyin meyar nöqteyi-nəzərindən araşdırılması, qiymətləndirilməsi aşağıdakı məsələləri əhatə edir:

- ölkənin təbii, maddi-insani resurs potensialı, onun mövcud durumu və inkişaf səviyyəsi, kəmiyyət və keyfiyyət xüsusiyyətləri və bu potensialın, ondan istifadə səviyyəsinin inkişaf etmiş ölkələrdəki mövcud səviyyə ilə müqayisəsi;
- ölkənin ərazi bütövlüyü və vahid iqtisadi məkan;
- iqtisadiyyatın rəqabət qabiliyyətliliyi;
-xarici təsirlərə qarşı daxili potensial hesabına davam gətirmək, onları dəf etmək imkanının olması;
-ölkədə sosial-iqtisadi sabitlik, sosial gərginliyin olmaması və s.

Qeyd etmək lazımdır ki, iqtisadi təhlükəsizliyin meyarları əsasında ümumi bir istiqamət müəyyən olunur. Bu meyarlar sosial-iqtisadi proseslərin mərhələli həllini müəyyən edir və iqtisadi təhlükəsizlik vəziyyətini ifadə edən göstəricilərin seçilməsini, təyin olunmasını şərtləndirir. Belə ki, əsas cəhət məhz seçilmiş həmin göstəricilərin qiymətlərinin, hədlərinin müəyyən edilməsidir. Belə ki, bu qiymətlərdən kənarlaşmalar iqtisadi təhlükəsizlik vəziyyətinə qarşı mənfi meybllərin formalaşmasına səbəb olur. Bu göstəricilərin hədd qiymətləri yol verilən səviyyədə olduqda ölkənin milli-iqtisadi təhlükəsizliyinə nail olmaq olar. Bu mənada iqtisadi təhlükəsizlik baxımından ölkənin iqtisadi vəziyyətinin qiymətləndirilməsi göstəricilər sisteminin kompleks halda müəyyən edilməsini tələb edir.

Hal-hazırda iqtisadi ədəbiyyatlarda iqtisadi təhlükəsizlik göstəricilərinin konkretləşdirilməsinə fərqli yanaşmalar mövcuddur. Belə ki, iqtisadçılardan S.Qlazyev iqtisadi təhlükəsizlik göstəricilərinə aşağıdakıları aid edir və müəllif tərəfindən onların hədd qiymətləri belə müəyyənləşdirilmişdir.

**Cədvəl 1**

**İqtisadi təhlükəsizlik göstəriciləri**

| **№** | Göstəricilər | **Qlazyevə görə hədd qiymətləri** |
|---|---|---|
| ***1*** | *2* | ***3*** |
| 1 | ÜDM-un həcmi | |
| | a) «yeddilik» üzrə bütövlükdə orta göstəricidən | 75% |
| | b) «yeddilik» üzrə orta göstəricidən adambaşına | 50% |
| | v) dünya üzrə orta göstəricidən adambaşına | 100% |
| 2 | Emal sənayesinin sənaye istehsalında payı | 70% |
| 3 | Maşınqayırmanın istehsal sənayesində payı | 20% |
| 4 | ÜDM-a nisbətən investisiyanın həcmi, % | 25% |

| | | |
|---|---|---|
| 5 | Elmi tədqiqatlara ayrılan xərclərin MDM-da payı | 2% |
| 6 | Buraxılan maşınqayırma məhsulunun ümumi həcmində yeni məhsul növlərinin payı | 6% |
| 7 | Gəlirlərin yaşayış minimumundan aşağı olan əhali təbəqəsinin əhalinin ümumi sayında payı | 7% |
| 8 | Əhalinin ömür müddəti | 70 il |
| 9 | Ən yüksək gəlirə malik 10% əhali hissəsinin və ən aşağı gəlirə malik 10% əhali arasında fərq | 8 dəfə |
| **1** | **2** | **3** |
| 10 | Cinayətkarlığın səviyyəsi (100 min nəfərə düşən cinayətlərin sayı) | 5 min |
| 11 | BƏT-in metodologiyası üzrə işsizliyin səviyyəsi | 7% |
| 12 | İl ərzində işsizliyin səviyyəsi | 20% |
| 13 | Müqayisə olunan dövrdə ÜDM-da xarici borcun həcmi | 20% |
| 14 | Vergi daxilolmalarına nisbətdə | |
| 15 | ÜDM-da xarici borcun həcmi | 25% |
| 16 | Büdcə kəsirinin örtülməsində xarici borcun payı | 30% |
| 17 | ÜDM-dan büdcə kəsiri | 5% |
| 18 | Milli valyutada xarici valyutanın həcm nisbəti | 10% |
| 19 | Nəğd formada milli valyutanın həcmində xarici valyutanın payı, həcmi | 25% |
| 20 | ÜDM-da pul kütləsi ($M_2$) | 50% |
| 21 | Daxili istehlakda ixracın payı, o cümlədən ərzaq da daxil olmaqla | 30% |
| 22 | Yaşayış minimumuna görə regionların diferensasiyası | 1,5 dəfə |

Tədqiqatlar göstərir ki, Qlazyevin təklif etdiyi metodikaya uyğun gələn heç bir dövlət yoxdur. Qlazyev tərəfindən müəyyən edilən hədd qiymətləri baxımından yanaşdıqda, o zaman dünyanın əksər dövlətləri, hətta ən yüksək iqtisadi inkişafa nail olan dövlətlər belə iqtisadi cəhətdən təhlükəsiz hesab oluna bilmirlər. Hətta ümumi olaraq dünyada qəbul edilmiş iqtisadi təhlükəsizlik göstəricilərinə belə bu hədd qiymətləri səviyyəsində uyğun olan dövlətlərin sayı çox azdır və bu uyğunluq da, demək olar ki, qeyri-ciddi xarakter daşıyır.

Qeyd etmək lazımdır ki, bir sıra iqtisadi institutlar tərəfindən dünya ölkələri üçün qəbul edilmiş iqtisadi təhlükəsizlik göstəriciləri işlənib hazırlanmışdır və siyahıda göstəricilərin bəziləri beynəlxalq iqtisadi statistikada qəbul olunmuş terminlərlə ifadə olunmuşdur. Bu göstəricilər aşağıdakılardır:

1)Alıcılıq qabiliyyəti pariteti üzrə məcmu daxili məhsul;

2)Alıcılıq qabiliyyəti pariteti üzrə əhalinin adambaşına düşən məcmu daxili məhsul;

3)Bütün sənaye məhsullarında emal sənayesinin payı, %;

4)Bütün sənaye məhsullarında maşınqayırma sənayesinin payı, %;

5)ÜDM-a faizlə investisiya;

6)Elmi tədqiqatlara ayrılan xərclərin ÜDM-da payı;

7)Beynəlxalq standartlara görə yoxsulluğun (AQP üzrə gündəlik gəliri 1 dollardan az olan əhali hissəsi), %;

8)Gözlənilən orta ömür müddəti, il;

9)10% ən yüksək gəlirə malik əhali hissəsi və 10% ən aşağı gəlirə malik əhali hissəsinin nisbəti, dəfə;

10)BƏT-in metodologiyasına uyğun olaraq işsizliyin səviyyəsi, %;

11)İllik inflyasiyanın səviyyəsi, %;

12)ÜDM-da xarici borcun həcmi, %

13)ÜDM-un həcmində idxalın məbləği, %;

14)ÜDM-da daxili borcun həcmi, %;

15)Dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsində xarici borcun həcmi,%;

16)Beynəlxalq metodologiya üzrə ÜDM-də Dövlət büdcəsinin balansı;

17)Məcmu pul kütləsində ($M_2$) xarici valyuta ilə depozitlərin həcmi;

18)ÜDM-da məcmu pul kütləsi ($M_2$);

19)ÜDM-da ixracın həcmi;

20)Ərzaq istehsalında ixrac ərzağının payı.

Qeyd etmək lazımdır ki, bu göstəricilər belə bir nəticəyə gəlməyə imkan verir ki, dünya ölkələrinin 99%-i, əhalisinin isə 72%-i iqtisadi təhlükəsizlik baxımından «böhran həddi»ndədirlər.

Bundan başqa, əhalisi yüksək həyat səviyyəsi və gəlir səviyyəsinə malik olan bir sıra dünya dövlətləri də vardır ki, onlar da Qlazyevin təklif etdiyi hədd qiymətlərinə görə bəzi göstəricilər üzrə böhran həddindədirlər.

Qeyd etmək lazımdır ki, Qlazyevin təklif etdiyi hədd qiymətləri çərçivəsində iqtisadi cəhətdən təhlükəsiz olan heç bir dövlət hal-hazırda dünyada mövcud deyildir. Çünki elə bir dövlət tapmaq mümkün deyildir ki, o, iqtisadi təhlükəsizliyin göstəriciləri üzrə Qlazyev tərəfindən təklif edilən hədd qiymətlərinə malik olsun. Hətta Yaponiya iqtisadi təhlükəsizliyin qeyd olunan 20 göstəricisindən yalnız 15-i üzrə qoyulan tələblərə uyğun gəlir. ABŞ, Fransa bu göstəricilərdən 14-ü, Cənubi-Koreya, Sinqapur, Böyük Britaniya, Almaniya, Lüksemburq, Finlandiya, Çexiya Respublikası 13-ü, Avstraliya, Avstriya, Belçika, Danimarka, Çin, İsveç 10-u üzrə verilən tələbləri təmin edir. Əlbəttə, bu siyahını daha da genişləndirmək olar. Azərbaycan isə 4 göstərici üzrə verilən tələbləri təmin edir.

A.İllarionov isə Qlazyevə əks mövqedə dayanaraq, ölkənin sosial-iqtisadi inkişafını müəyyən edən göstəricilər sferasında iqtisadi inkişafın səviyyəsini müəyyənedici amil kimi qiymətləndirərək, iqtisadi təhlükəsizlik vəziyyətinin göstəriciləri sırasına aşağıdakıları daxil etmişdir:

1) Alıcılıq qabiliyyəti pariteti üzrə əhalinin adambaşına düşən məcmu daxili məhsul;

2) ÜDM-da övlət müəssisələrinin istehsal payı, %-lə;

3) ÜDM-da dövlət xərcləri, %;
4) ÜDM-da dövlətin istehlakının həcmi, %;
5) ÜDM-da dövlət büdcəsi kəsirinin payı, %;
6) Dövlət borcunun səviyyəsi;
7) Pul kütləsinin artım tempi (ÜDM-un real artım tempi nəzərə alınmdan), %;
8) İnflyasiyanın artım tempi, %;
9) ABŞ dollarına nisbətdə milli valyutanın kursunun azalması, dəyişməsi, %;
10) Xarici ticarət dövriyyəsində vergi yükünün həcmi (idxal və ixraca təyin olunan vergilərin nisbəti), %;

Bir faktı da qeyd edək ki, A.İllarionov bu göstəricilərin hamısını adambaşına düşən ÜDM-un orta illik artım tempi ilə asılılıq konteksində araşdırmışdır. O, bu istiqamətlərdə həyata keçirilən iqtisadi siyasətin rolunu da iqtisadi təhlükəsizliyin təmin olunmasında müəyyənedici amil kimi qiymətləndirərək, büdcə, pul, valyuta, xarici ticarət sahəsində aparılan siyasətin əhəmiyyətinin yüksək olduğunu əsaslandırmışdır.

*Azərbaycanda iqtisadi təhlükəsizliyin həddi göstəricilərini müəyyənləşdirərkən 3 qrupu nəzərə almaq lazımdır:*

*1. Milli mənafelərin əsas prinsipial xüsusiyyətlərini əks etdirən və dövlət səviyyəsində qəbul olunan makroiqtisadi göstəriciləri;*

*2. Əsas xüsusiyyətləri daha geniş şərh edən, tamamlayan və İqtisadi İnkişaf Nazirliyi tərəfindən qəbul olunan göstəriciləri;*

*3. Uyğun olaraq ayrı-ayrı nazirliklər tərəfindən qəbul olunan funksional və sahə səviyyəli göstəriciləri.*

***İqtisadi Təhlükəsizlik Sisteminin strukturunu aşağıdakı kimi vermək olar:***




***Sxem 1. İqtisadi təhlükəsizlik sisteminin strukturu***

İqtisadi təhlükəsizliyin təmin edilməsində dövlət tənzimlənməsinin əsas istiqamətlərindən biri, bütün cəmiyyət üzvləri və sosial qruplar arasında, o cümlədən iqtisadi sferadakı münasibətlərin tənzimlənməsi üçün müvafiq institutların, yəni qanunverici, icra və məhkəmə strukturlarının formalaşması, hüquqi bazanın yaradılması, qəbul edilmiş qanunların və müxtəlif hüquqi aktların icrası ilə bağlı şəraiti təmin etməkdir. Bununla dövlət öz sərhədləri daxilində qayda-qanun yaratmaqla, digər dövlətlərlə də münasibətlərini tənzimləyir. Hətta ən ciddi iqtisadi böhran şəraitində belə dövlət bu imkandan istifadə etməklə özünün milli iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində ciddi və cəsarətli addım atmış olur.

İqtisadi təhlükəsizliyin təmin edilməsində başlıca şərtlərdən biri də dövlətin inhisarlaşmaya qarşı apardığı mübarizə və onun həyata keçirdiyi antiinhisar siyasətinin çevikliyidir. Çünki inhisarçılıq meylləri azad rəqabət mühitini sıxışdırır, iqtisadi mühitdəki neqativ təsirləri gücləndirir.

İstehsalın inkişafı, mərkəzləşməsi, elmi-texnki tərəqqi ilə şərtləşərək tarixi qaçılmaz bir prosesə çevrilən inhisarlaşma cəmiyyət, iqtisadi sistem inkişaf etdikcə dünya ölkələrinin iqtisadi həyatlarına sürətlə nüfuz etməyə başlamışdır. İnhisarlaşma şəraitində bazarda məhsulun həcminə nəzarət edən yalnız bir istehsalçı olur. Belə şəraitdə o, maksimum gəlir əldə edərək bazarda qiymət səviyyəsinə nəzarəti həyata keçirir. İqtisadçılardan İ.V.Dolqova və N.V.Şveyko inhisarın mövcud olduğu aşağıdakı bazar modellərini qeyd edirlər: 1) müstəsna bazar modeli; 2) real bazar modeli; Birinci model həqiqi rəqabətə, axırıncı model isə qeyri-mükəmməl rəqabətə əsaslanır. Birinci bazar modeli üçün təmiz rəqabət, o

biri model üçün isə monopolist rəqabəti, oliqopoliya, monopoliya xasdır. Bunu sxem şəklində aşağıdakı kimi aydın görə bilərik.

**Bazar modellərinin dörd əsas tipləri**

| | **Mükəmməl rəqabət** | Qeyri-mükəmməl rəqabət | | |
|---|---|---|---|---|
| | ***Az rast gəlinən bazar modeli*** | ***Real bazar modeli*** | | ***Az rast gəlinən bazar modeli*** |
| | **Açıq rəqabət** | **İnhisarçı rəqabət** | **Oliqopoliya** | **Açıq rəqabət** |
| Firmaların sayı | Çox az sayda kiçik firmalar | Çoxlu sayda firmalar | Az sayda firmalar, o cümlədən iri firmalar da | Bir firma |
| Məhsulun xüsusiyyəti | Bircinsli, standart | Müxtəlifcinsli, diferensiallaşmış (fərqli) | Bircinsli, yaxud diferensiallaşmış | Unikal |
| Qiymətlər üzərində nəzarət | Yoxdur, tələb və təklif qiymətləri fəaliyyətdədir | Bir neçəsinə, çox dar çərçivədə nəzarət var | Məhdud qarşılıqlı asılılıq: əsasən gizli razılaşma şəraitində | Çoxlu |
| Qiymətə əsaslanmayan rəqabət | Yoxdur | Əsasən reklam, ticarət markaları, ticarət nişanlarına üstünlük vermə | Çox tipik, xüsusən məhsulun müxtəlifliyi şəra- itində | Reklam əsasən ictimai təşkilat-larla əlaqəli şəkildə aparılır (cəmiyyətin tələbatına uyğun) |
| İnformasiyanı əldə etmək mümkünlüyü | Bütün növ informasiyaları eyni imkan daxilində əldə etmək mümkünlüyü | Müəyyən qədər çətinliklər | Müəyyən qədər məhdudiyyətlər | Müəyyən qədər məhdudiyyətlər |
| Sənaye sahəsinə girmə şərti | Çox asandır, maneə yoxdur | Nisbətən asandır | Əhəmiyyətli dərəcədə maneə var | Blokadaya alınmışdır |
| Misallar | Kənd təsərrüfatı, kiçik xidmət sahəsi | Pərakəndə ticarət, geyim, ayaqqabı, kompyuter istehsalı və vençur biznesinin digər növləri | Açıq oliqopoliya: polad, miss, alüminium və s. istehsalı. Diferensiallaşmış istehsal: avtomobil, kənd təsərrüfatı inventarları, məişət elektronikası və s. istehsalı | İctimai istehlak müəssisəsi, kommunal xidmət, telefon kampaniyası, dərslik, televiziya kabeli istehsalı |

Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi sistemdə tüğyan edən inhisarçı meyillərin qarşısını almaq üçün dövlət antiinhisar siyasətini həyata keçirməli, bu istiqamətdə Qanunvericiliyin təkmilləşdirilməsində

maraqlı olmalıdır. Antiinhisar Qanunvericiliyi ilk öncə iri şirkətlər arasındakı qiymət razılaşmasına qarşı olmalıdır, bu razılaşmanı qadağan etməlidir, həm də dempinq yolu ilə rəqiblərin bazardan sıxışdırılıb çıxarılmasına qarşı yönəlməlidir. Dövlət antiinhisar tədbirləri həyata keçirməklə əsas bazar mexanizmlərindən biri kimi sağlam rəqabət mühiti yaratmağa can atır. Sağlam rəqabətə şərait yaradılması bazarın imkanlarından bütün iqtisadi subyektlərin ədalətli şəkildə yararlanması, inhisarçı meyillərin hüquqi şəkildə məhdudlaşdırılmasını təmin edə bilər. Məhz bu addımı həm rəqabətin inkişafı, həm də bütövlükdə cəmiyyətin inkişafı maraqlarına cavab verməlidir. Burada cəmiyyətin maraq dairəsində olan məsələlərə milli istehsalın qorunması və inkişafı, kiçik və orta sahibkarlığın inkişafı, regionların inkişafı, səmərəli məşğulluq strategiyasının həyata keçirilməsi, istehlakçıların hüquqlarının qorunması, sahibkarlığın stimullaşdırılması və s. kimi məsələlər nəzərdə tutulur.

Xarici iqtisadi fəaliyyətin səmərəli təşkilində müxtəlif institutların da rolu böyükdür. Bu sırada inzibati dövlət orqanı kimi İqtisadi İnkişaf Nazirliyi, Sənaye və Energetika Nazirliyi xüsusi yer tutur ki, bu qurum da müvafiq istiqamətlər üzrə dövlətin siyasətini həyata keçirirlər. Bu nazirliklər daxili bazarın inkişafı, yüksək istehsal və emal sənayesi sahələrinin inkişafı, xarici investisiyaların artımı ilə yanaşı, ixracın artırılması, xaricdə istehsalın miqyasının genişləndirilməsi, informasiya tutumlu rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılması, xarici ticarətdəki qeyri-mütənasibliyin aradan qaldırılması və enerji resursları və xammal idxalından asılılığı azaltmaq istiqamətində fəaliyyət göstərir.

Azərbaycanın xarici iqtisadi siyasətində mühüm istiqamətlərdən biri onun müxtəlif beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlığı, regional təşkilatlarda, birliklərdə təmsil olunmasıdır. Bu mənada Azərbaycanın MDB üzvləri ilə iqtisadi siyasi əməkdaşlığı respublikamızın müstəqil dövlət kimi xarici iqtisadi siyasətində, inkişaf strategiyasında önəmli yer tutmaqla, onun milli iqtisadi təhlükəsizliyinin təmin olunmasında özünəməxsus rol oynayır.

Burada məsələlərə iki aspektdən yanaşmaq düzgün olardı. Birincisi, Azərbaycanın MDB çərçivəsində mövqeyi, MDB üzvləri ilə müxtəlif səviyyəli münasibətləri, ikincisi, MDB-nin bir birlik kimi dünya iqtisadiyyatına inteqrasiyası. İkinci məsələyə gəldikdə isə bu barədə bir qədər geniş və çoxsəpkili danışmaq olar. İlk öncə onu qeyd edək ki, MDB-nin bir birlik, təşkilat kimi Dünya İqtisadi Sisteminə inteqrasiyası üçün ilk növbədə onun potensialından tam şəkildə istifadə edilməsi, MDB üzvlərinin bu prosesdə bərabərhüquqlu tərəfdaşlar kimi iştirakının təmin edilməsi vacib şərtlərdən biridir. Belə ki, üzv - ölkələrlə birlikdə MDB iri regional bir təşkilat kimi zəngin təbii və iqtisadi potensiala malikdir. Dünyanın ərazisinin 16,3%-i, əhalisinin 5%-i, təbii ehtiyatlarının 25%-i, sənaye istehsalının 10%-i, elmi-texniki potensialın 12%-i,

dünyada istehsal olunan elektrik enerjisinin 10%-i MDB-nin payına düşür. Digər tərəfdən, Birlik ölkələrinin ümumi bazarının tutumu, həcmi 700 mlrd. dollar məbləğində qiymətləndirilir.

Proqnoz hesabatları isə onu deməyə əsas verir ki, 2015-ci ilədək ÜDM, ixrac və investisiyaların həcmində MDB- nin payı 4%, 2030-cu ilədək isə 7-8%-ə çata bilər. Həm də bu Birliyə daxil olan ümumi ərazi Avropa və Asiyanın qovuşuğunda yerləşməklə Avro-Atlantik və Asiya-Sakit okean hövzəsi regionlarını birləşdirən qısa dəniz və quru nəqliyyatı əlaqələrini təmin edə bilər.

İqtisadi təhlükəsizliyin təmin edilməsində dövlətin mühüm funksiyalarından biri də Bazar İqtisadi Sisteminin normal fəaliyyətini təmin etmək, iqtisadi subyektlər arasında münasibətləri optimallaşdırmaq istiqamətində informasiya ilə bağlı məsələlərin, informasiya təmi-natının tənzimlənməsidir. Bazar subyektləri tərəfindən qəbul edilən qərarların düzgünlüyü onlara ötürülən informasiyanın düzgünlüyü və dolğunluğundan, tamlığından çox asılıdır. Bu mənada bir sıra müəlliflərin də qeyd etdiyi kimi, bazara çoxsaylı, müxtəlif çeşidli əmtəə və xidmətlərin yönəldiyi bir şəraitdə istehlakçılarda onlar haqqında ətraflı təsəvvür yaratmaq, onları bu əmtəə və xidmətlər barəsində məlumatlandırmaq üçün dövlət kommunikasiya vasitələrini yaratmaq və buna yaxından kömək etməklə, bütün iqtisadi agentlərin, subyektlərin, ümumilikdə iqtisadi sistemin normal informasiya təminatına şərait yaradaraq, iqtisadi proseslərin qeyri-müəyyənliyini, nəzərdə tutulmamış halların baş vermə ehtimalını minimuma endirmiş olur. Dövlət bu istiqamətdə birbaşa həm özü fəaliyyət göstərə bilər, həm də bu işlə məşğul olan özəl sektorun fəaliyyətinə şərait yaradaraq, onu stimullaşdıra və ona nəzarət edə bilər. Bu işdə dövlətin üzərinə düşən əsas vəzifələrdən biri də informasiya sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsidir. Dövlət bununla iqtisadi subyektlərin, agentlərin fəaliyyətini hüquqi çərçivədə tənzimləyərək, iqtisadi proseslərin istiqamətlərini müəyyənləşdirir, həm də iqtisadi münasibətlərin bu iştirakçıların bazar sistemindəki informasiyaya sərbəst çıxışlarını təmin etmiş olur. Həmçinin bir sıra hallarda bəzi iqtisadi agentlər informasiyanın gizlədilməsində, onun tam çatdırılmamasında maraqlı tərəf kimi çıxış edərək, buna cəhd edirlər. Nəticədə, istehlakçıya lazım olan informasiya ilə onu ala bilmək imkanı və informasiya bazası arasında uyğunsuzluq yaranır. Məhz dövlət də bazar münasibətləri sisteminin bir subyekti qismində öz tənzimləmə fəaliyyəti ilə bu uyğunsuzluğu aradan qaldırmaq istiqamətində fəaliyyətini həyata keçirməlidir.

Qeyd etmək lazımdır ki, bir sıra müəlliflər iqtisadi təhlükəsizlik göstəricilərini, indikatorlarını dövlətin iqtisadi tənzimləmə fəaliyyəti üçün əsas hesab edirlər. Belə ki,görkəmli iqtisadçı V.Sençakov göstərir ki, Rusiya Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Maliyyə-Bank

Tədqiqatları Mərkəzi tərəfindən iqtisadi təhlükəsizliyə qarşı məhdudiyyət yarada biləcək 150 göstərici seçilmişdir. Kifayət qədər yüksək qarşılıqlı təsir dərəcəsi ilə seçilən bu indikatorlar iqtisadi təhlükəsizliyə qarşı olan təhlükənin həddini, səviyyəsini kəmiyyətcə ifadə edir, yüksək dərəcədə həssaslığa və dəyişkənliyə malik olmaqla, hökumətin iqtisadi siyasət sferasında həyata keçirdiyi siyasət nəticəsində nail olduğu makroiqtisadi sabitliyin dəyişməsi, pozulması ilə bağlı təhlükə yarandıqda dövləti, bazar subyektlərini, cəmiyyəti əvvəlcədən bu barədə məlumatlandırmağa imkan verirlər. Deməli, bu göstəricilərə əsaslanaraq dövlət bu iqtisadi siyasi kursunu həyata keçirir. Məhz bu baxımdan da, demək olar ki, dövlətin iqtisadi prosesləri tənzimləməsi sonda öz əksini həyata keçirdiyi iqtisadi siyasətdə tapmış olur. Çünki bu kursun ən ümdə vəzifəsi, ümumi halda ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsidir. Rusiya alimi V.A.Boqomalov iqtisadi təhlükəsizlik indikatorlarını əsas tutaraq dövlətin iqtisadi tənzimləmə istiqamətində əsas fəaliyyətinin malik olduğu bütün vasitələrlə bu indikatorların həddi qiymətlərinin azalması halında yaranmış vəziyyəti nizamlamaq, nəzarət altında saxlamaq, qaydaya salmaqdan ibarət olduğunu göstərir və bu indikatorların iqtisadiyyatda dövlətin payını müəyyən etdiyi fikrini irəli sürür.

İqtisadçı alim A.Revenkovun fikrincə, dövlət, bazar münasibətləri şəraitində iqtisadiyyatın idarə edilməsində iki tənzimləmə vasitəsindən istifadə etməlidir: plan və bazar. Bu fikirdə əsaslı həqiqət vardır. Çünki yalnız elmi cəhətdən əsaslandırılmış plan vasitəsilə resurslardan səmərəli istifadə etmək, iqtisadiyyatın sferalarının tarazlı inkişafına nail olmaq, cəmiyyətin artmaqda olan tələbatını təmin etmək, uzunmüddətli iqtisadi inkişafa nail olmaq, məhsuldar qüvvələrdən səmərəli istifadə etmək, proporsional inkişafa nail olmaq mümkündür. A.Revenkovun fikrincə, dövlət iqtisadi prosesləri tənzim etməklə yanaşı, həm də istehsal, sosial infrastrukturu inkişaf etdirərək, onun dünya bazarına çıxışına kömək edərək iri kapitalla planauyğun şəkildə əməkdaşlıq etməlidir.

## 10.2.Maliyyə təhlükəsizliyi strategiyasının formalaşması

*Bazar iqtisadiyyatı şəraitində, Dünya İqtisadi Sisteminə inteqrasiyanın sürətlənməsi ilə əlaqədar olaraq həyata keçirilən yeni iqtisadi siyasətin mühüm bir qolu kimi maliyyə təhlükəsizliyi strategiyasının işlənib-hazırlanması mühüm əhəmiyyət kəsb edir. Bu, öz növbəsində iqtisadiyyatın sağlamlaşdırılması və iqtisadi inkişafın yeni prinsiplərlə təmin edilməsinə yönəlmiş ardıcıl məqsədli praktiki işələrin həyata keçirilməsini tələb edir. Beləliklə, Maliyyə təhlükəsizliyi sistemi Konsepsiyasının yaradılması maliyyə sisteminin özünün səmərəli fəaliyyəti ilə yanaşı, ölkənin maliyyə-iqtisadi mexanizminin böyük elementlərinin təhlükəsiz fəaliyyətinin təmin edilməsini tələb edir.*

*Dünya təcrübəsinə nəzər salsaq, görmək olar ki, məsələn, Asiya böhranı zamanı coğrafi yaxınlıq və beynəlxalq spekulyantların misli görünməmiş təzyiqinə baxmayaraq, məhz ÇXR və Tayvan praktiki olaraq zərər çəkməmişlər. Əgər ÇXR-nın «yenilməzliyi» ilk növbədə, kənardan güclü təzyiqlərə baxmayaraq bütün xarici-iqtisadi əməliyyatlar üzərində tam dövlət nəzarətinin qorunub saxlanılması ilə bağlıdırsa, Tayvanda bu onunla əlaqədardır ki, maliyyə liberallaşdırılması zamanı vaxtında strateji maliyyə tənzimlənməsinin yeni vasitələrinin yaradılması həyata keçirilmiş, ənənəvi vasitələr isə müasirləşdirilmişdir. Maliyyə təhlükəsizliyi sahəsində xüsusi tədbirlər sisteminin işlənib-hazırlanmasına ehtiyac maliyyə sferasında bir sıra əhəmiyyətli problemlərin olmasından irəli gəlir:*

*- müasir şəraitdə maliyyə-kredit sistemi pul vəsaitlərinin geniş və sadə təkrar istehsalını təmin etmək iqtidarında deyildir. O, bu funksiyanı yalnız ənənəvi ixracat sahələrində həyata keçirə bilir. Mürəkkəb sistemin qurulması nöqteyi-nəzərindən bu sistem geniş qarşılıqlı ödəmələrlə təzahür edən natamamlıqla xarakterizə olunur. Bu, xüsusilə əməkhaqqı, pensiya və müavinətlər, müdafiə xarakterli sifarişlərə ayrılan xərclərin büdcədən təminatlı maliyyələşdirilməsi üçün təhlükəli hesab olunur;*

*- maliyyə və pul-kredit alətləri öz aralarında kifayət qədər düzgün əlaqələndirilməmişdir. Büdcə siyasəti (xüsusilə, üzunmüddətli strateji investisiyalaşdırma cəhətdən) pul kütləsinin həcmi layihəsi şəklində əsas yaratmadan işlənib hazırlanır;*

*- maliyyə-bank sistemi qarışıq pul dövriyyəsi sisteminə (manat, dollar, avro) əsaslanır ki, bu da kapitalın axınına və dövriyyənin dollarlaşmasına səbəb olur;*

*- müasir maliyyə-bank sistemi yüksək inflyasiya şəraitində formalaşmışdır. Bu, nisbətən sabit qiymətlər və aşağı səviyyəli inflyasiya ilə xarakterizə olunan yeni iqtisadi şəraitdə uyğunlaşmamışdır;*

*- yeni sistemin qanunvericilik bazası tamlığı ilə fərqlənməlidir, yəni iqtisadi fəaliyyətin bütün sferalarını əhatə edən qanunvericilik bazasının yaradılması təmin edilməlidir;*

*- iqtisadi siyasətin idarə olunmasında makroiqtisadi maliyyə tənzimlənməsinin mütləq üstünlüyü şəraitində mikrotənzimlənmə proseslərinin fəallaşmasına yönəlmiş, yeni iqtisadi inkişafın təmin olunması üçün şəraitin yaradılmasına yönələn elementar sənaye siyasətinin olmaması problemi;*

*- əmtəə və maliyyə bazarlarının, xarici investisiyanın ölkəmizdə, yerli investisiyanın xaricdə dövlət tərəfindən tənzimlənməsi meyarlarının işlənib-hazırlanmaması. Belə bir cəhət nəzərə alınmadan bu sahədəki müsbət və mənfi meyillərin birmənalı qiymətləndirilməsi mümkün deyildir;*

*- xarici ticarət, gömrük, vergi, valyuta və digər istiqamətlərdə vahid qarşılıqlı əlaqəli dövlət tənzimlənməsi sisteminin olmaması, valyuta və xarici ticarətə nəzarət funksiyalarının dəqiq sərhədlərinin müəyyən edilməməsi;*

*- ayrı-ayrı əmtəə və maliyyə bazarlarının subyektlərinin və ayrı-ayrı fəaliyyət sferası subyektlərinin təsərrüfat fəaliyyətləri əməliyyatlarına inzibati nəzarətin tam itirilməsi.*

*Qeyd etmək lazımdır ki, hazırda maliyyə sabitliyi siyasətinin və müsbət cəhətlərinin səmərəli sənaye siyasəti ilə tamamlanması iqtisadi inkişafın yeni mərhələsini şərtləndirir.*

*Belə ki, sənaye siyasəti real iqtisadi sektorda ayrı-ayrı iqtisadi subyektlərin fəaliyyətinin dəqiq tənzimlənməsi (və özütənzimləmə) effektivliyi ilə müəyyən edilir. Burada ayrı-ayrı, natamam sistemlərin (iqtisadi subyektlərin) özünü tənzimləməsi nisbi xarakter daşıyacaqlar. Bu onu göstərir ki, yüksək təşkil olunmuş ictimai dinamik sistem tənzimlənən çoxsaylı kəmiyyətlər şəraitində davamlı ola bilər. Belə hal ondan irəli gəlir ki, bir-biriləri ilə ayrı-ayrı funksiyalarla əlaqəli olan natamam sistemlər nisbətən müstəqil olsalar da, kompleks məcmu sistemin üzvü tərkib hissələri olaraq qalırlar və ali səviyyəli tənzimləyici (dövlət) bütövlükdə sistemin vahid dinamik struktur və funksiyalarını müdafiə edir, ona yardım göstərir.*

*Bəzi müəlliflər maliyyə və dövriyyə vəsaitlərinin dövriyyəsini birləşdirməyi (qapamağı), kapital axınının qarşısının almağı, maliyyə vəsaitlərinin axınını real sektora yönəltməyi, iqtisadiyyatın kortəbii olaraq öz-özünə sağalması, sağlamlaşmasını gözləməkdən imtina etməyi tələb edir. Bu siyasətin həyata keçirilməsi siyasi iradə, iqtisadi idarələrin, strukturların əlaqəli fəaliyyətini tələb edir.*

*Dünya iqtisadiyyatında iqtisadi inkişafın azalması və artması şəraitində inflyasiyanın mövcudluğu ilə bağlı kifayət qədər təcrübə mövcuddur. Göstərdiyimiz hər iki şəraitdə prinsipial cəhətdən müxtəlif makroiqtisadi göstəricilər, bir-birlərindən fərqli mübarizə metodları mövcuddur. Son zamanlar, xüsusilə bazar iqtisadiyyatına keçidin ilk illərində respublika iqtisadiyyatında istehsalın səviyyəsinin aşağı düşməsi fonunda qiymətlərin qalxması prosesi (staqflyasiya) gedirdi. Bəzən belə hallar pul kütləsi dövriyyəsinin süni ləngidilməsi yolu ilə inflyasiyanın qarşısını almağa çalışsa da, bu o halda qənaətbəxş hesab oluna bilər ki, belə sərt pul-kredit*

*siyasətinin həyata keçirilməsi istehsalın və investisiyanın dinamikası üçün təhlükə yaratmasın.*

*Bəzən aparılan antiinflyasiya siyasəti güclü inflyasiya amilinə çevrilə bilər. Dövlət sifarişləri üzrə hesablaşmaların ləngidilməsi, sahələrin büdcədən maliyyələşdirilməsinin azalması istiqamətində aparılan sərt siyasət, tələbin məhdudlaşmasına səbəb olur ki, bu da istehsalın inkişafını stimullaşdırmır, onun azalması üçün əsas amilə çevrilir. Müəssisələrdə dövriyyə vəsaitlərinin kəskin şəkildə çatışmazlığı, hətta ödəməqabiliyyətli sektorda istehsalı məhdudlaşdırır. Bu zaman pul kütləsi həcmi dəyişməz qalarsa və ya azalarsa, onda istehsal prosesinin özü güclü inflyasiya amilinə çevrilir.*

*Azərbaycanın maliyyə sisteminə ən böyük təhlükə törədən amillərdən biri də xarici ölkələrlə iqtisadi-ticarət münasibətlərində olan qeyri-ekvivalent mübadilədir. Başqa sözlə, xarici ölkələrə strateji xammal ixrac etməklə onlardan avadanlıq, ərzaq və digər istehlak şeylərinin alınmasıdır. Halbuki, Azərbaycan nəinki öz əhalisini ərzaqla, sənayesini xammalla təmin etmək imkanına malikdir, hətta xarici bazarlara hazır məhsul ixrac etməyə böyük potensial imkanları vardır. Azərbaycan dövləti mövcud imkanları sözügedən istiqamətdə mərhələli şəkildə reallaşdırmağı qarşısına məqsəd kimi qoyur.*

*İqtisadiyyatda qeyri-sabitliyə səbəb olan əsas amillərdən biri pul və əmtəə axınının hərəkətində uyğunsuzluğun olmasıdır. Təsərrüfat sisteminin inkişafının vahid idarə olunması prosesinin hər iki cəhətinin onlar üçün xarakterik, spesifik qanunlara tabeliliyidir. Əmtəə və pul münasibətlərinin sistemə salınması, qarşılıqlı əlaqələndirilməsi mühüm makroiqtisadi vəzifə olub, normal təkrar istehsal prosesi üçün zəmin yaradır. Belə əlaqənin yaradılması pul və əmtəə kütləsinin fasiləsiz və nisbətən avtonom hərəkəti zamanı həyata keçirilməlidir, bu isə proseslərin xüsusi, süni tənzimlənməsini tələb edir.*

*Maliyyə təhlükəsizliyi sistemi dedikdə, ilk növbədə, Qanunverici normativ aktlarla əsaslandırılmamış sferalara maliyyə axını imkanlarını məhdudlaşdıran, maliyyə vəsaitlərindən çirkin məqsədlər üçün istifadə imkanlarını minimuma endirəcək şəraitin yaradılması fonunda maliyyə sisteminin fəaliyyəti nəzərdə tutulur. Maliyyə Təhlükəsizliyi Sisteminin formalaşmasının əsasını maliyyə bazarının inkişaf strategiyasının işlənib-hazırlanması təşkil etməlidir. Bu istiqamətdə, maliyyə bazarının bütün iştirakçılarının maraqlarının balanslaşdırılmasının eyni vaxtda təmin edilməsilə, bu bazarın bütün əsas seqmentlərinin inkişafını əlaqələndirmək vacibdir. Xüsusən, maraqlarda balansın təmin edilməsi prinsipinin həyata keçirilməsi maliyyə bazarının əsas funksiyalarının tam reallaşmasına nail olmağa və onun daha sabit, davamlı fəaliyyəti üçün şəraiti təmin etməyə imkan verir.*

*Maliyyə sistemi üçün təhlükə səviyyəsi nə qədər az olarsa, yatırılan vəsaitlərdən gələn gəlir, fayda bir o qədər çox olar. Vahid konsepsiya formasında maliyyə təhlükəsizliyi sisteminin formalaşması üçün islahatlar*

*dövründə maliyyə-pul alətlərinin fəaliyyətinin kompleks təhlili vacibdir. İqtisadi artıma şərait yaradacaq maliyyə mühitinin yaradılmasını təmin edə bilən sistemin konseptual əsaslarının işlənib-hazırlanması nəzərdə tutulan təhlilin əsas istiqaməti və yekun nəticəsi olmalıdır. Burada əsas diqqət cari maliyyə-iqtisadi problemlərin həllinə yönəldilən maliyyə və pul siyasətinin məqsədyönlü təhlili üzərində cəmləşdirilməlidir. Bu istiqamətdə maliyyə sisteminin bütün elementləri arasında mühüm qarşılıqlı əlaqələr nəzərə alınmalıdır.*

*Maliyyə sisteminin strukturunun təhlili zamanı onun daha çox əhəmiyyət kəsb edən elementləri kimi Büdcə, Vergi, Kredit-Maliyyə Sistemi diqqət mərkəzində olur. Maliyyə təhlükəsizliyi konsepsiyasının işlənib-hazırlanması və iqtisadi artımın təmin olunması zamanı istehsal aparatı ehtiyatları ilə də hesablaşmamaq, onları nəzərdən qaçırmaq olmaz. Lakin böhran şəraitində yalnız maliyyə bazarı alətlərinin köməyilə əsas fondların dəyərinin dəyişilməsini qiymətləndirmək olduqca çətin olardı. Buna görə də əsas fondların müntəzəm şəkildə yenidən qiymətləndirilməsi öz əhəmiyyətini qoruyub saxlayır.*

Yüksək səmərəli maliyyə təhlükəsizliyi sisteminin formalaşması ölkədə baş verən bütün əsas maliyyə-iqtisadi proseslərin dinamikasının çoxsəviyyəli və genişmiqyaslı müşahidəsi, təhlili sisteminə əsaslanmalıdır. Maliyyə təhlükəsizliyi meyarlarının və səviyyələrinin işlənib-hazırlanması kifayət qədər çətin məsələdir. Bank kreditlərindən istifadəyə görə stavkanın həddinin, büdcə kəsirinin maksimal yol verilən həcminin, daxili və xarici borcların səviyyəsinin əsaslandırılmış şəkildə müəyyənləşdirilməsi və hesablanması böyük əhəmiyyət kəsb edir ki, bu da qəbul edilmiş qeyri-düzgün qərarların korrektəsinə, düzəlişinə imkan verir.

Qeyd etmək lazımdır ki, ölkənin iqtisadi təhlükəsizliyinin maliyyə göstəricilərinə makromaliyyə göstəriciləri, qiymət göstəriciləri, maliyyə bazarlarının vəziyyətini və orada baş verən prosesləri əks etdirən göstəricilər, bank fəaliyyəti ilə bağlı göstəricilər, iqtisadiyyatda əmanətlərin və investisiyaların səviyyəsini əks etdirən göstəricilər, valyuta bazarına və milli valyutanın kursuna aid olan göstəricilər aiddir.

*Maliyyə innovasiyalarının reallaşması sferası olduqca genişdir. Bu, maliyyə sisteminin bir çox elementlərini əhatə edir, həmçinin bu sferanın mərkəzi elementi investisiya proseslərinin seqmentidir. Maliyyə innovasiyası maliyyə mühitindəki dəyişmə meyillərini əvvəlcədən müəyyənləşdirir.*

*Son illərdə inkişaf etmiş Qərb ölkələrində maliyyə bazarı xeyli maliyyə innovasiyaları ilə xarakterizə edilir. Bu yeniliklər aşağıdakılardır; opsion və fyuçers bazarı; aktivlərin sekyuritizasiyası; yüksək faizlərlə ödənilən kreditlər; pul bazarına səhmlərin cəlb edilməsi və s. İnnovasiya prosesləri öz-özünə deyil, konseptual, eləcə də ətraf mühit, aləmin doğurduğu səbəblərdən irəli gəlir. Hər hansı bir maliyyə yeniliyini doğuran əsas səbəb gəlir amilidir. İqtisadi nöqteyi-nəzərdən bazarın daha səmərəli və*

*yaxud universal fəaliyyətini təmin edəcək maliyyə məhsulu və ya prosesi gəlirli ola bilər. Maliyyə innovasiyası xərclərin azalması nöqteyi-nəzərindən bazarın səmərəliliyini təmin edə bilir.*

*Qeyd etmək lazımdır ki, xarici investisiyaların milli bazarlara gəlişi ölkə daxilində kapitalın dövriyyə sürətini artırır. Lakin dünya iqtisadiyyatında böhran vəziyyəti yarandıqda qeyri-rezidentlərin maliyyə vəsaitlərinin axını daha da sürətli olur və bu iqtisadi təhlükəsizliyə təsir edir. Beynəlxalq təcrübədə bu çox riskli məsələ hesab olunur və bununla güclü mübarizə tədbirləri işlənib hazırlanmışdır. Məsələn, «Rusiya Federasiyasının Milli Təhlükəsizlik Konsepsiyası»nda qeyd olunur ki, investisiyaların səviyyəsinin enməsi ölkənin iqtisadi təhlükəsizliyini zərbə altında qoyur, «İnvestisiya və innovasiya aktivliyinin dövlət tərəfindən dəstəklənməsinin gücləndirilməsi, müəssisə və təşkilatların kapital qoyuluşlarının maliyyələşdirilməsi üçün uzunmüddətli kreditlər almaq imkanının asanlaşdırılması» ən vacib məsələlər sırasındadır.*

*Qeyd etmək lazımdır ki, investisiya proseslərində maliyyə innovasiyası problemi korporasiya və iri təşkilatlar üçün olduqca aktualdır. Hər bir müəssisənin, təşkilatın gələcəyi, qazanacağı uğurlar investisiya ilə bağlı məsələlərin müvəffəqiyyətlə həllindən asılıdır.*

*Belə ki, investisiya layihələrinin onların reallaşdırılmasına başlandıqdan sonra dövri olaraq yenidən qiymətləndirilməsi və burada investisiya yatırılan obyektlərin qiymətləndirilməsi ilə bağlı analitik mərhələ vacibdir. Ona görə marketinq tədqiqatlarından istifadə məqsədəuyğun hesab edilir.*

## 10.3.Pul-kredit sferasında dövlət nəzarətinin təkmilləşdirilməsi istiqamətləri

İqtisadiyyatın hər hansı sahəsinin problemlərindən, onların həlli məsələlərindən, yaxud bu sahədəki fəaliyyətdən, o cümlədən dövlətin tənzimləmə siyasətindən bəhs edərkən mövcud normativ hüquqi bazaya diqqət yetirilməsi zərurətə çevrilmişdir.

Azərbaycanda mərkəzi bankın fəaliyyətinin qanunvericilik bazasına daxil olan normativ-hüquqi sənədlərini aşağıdakı kimi təsnifləşdirmək olar:

- Azərbaycan Respublikasının Qanunları;
- Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları;
- Nazirlər Kabinetinin Qərar və Sərancamları;
- AMB-nin normativ-hüquqi aktları;
- Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilə və sazişlər;
- digər hüquqi sənədlər.

Birinci qrupa daxil olan və AMB-nin fəaliyyətinin tənzimlənməsinin əsas hüquqi bazası olan «Mərkəzi Bank haqqında» Azərbaycan Respub-

likasının Qanunu 10 dekabr 2004-cü ildə qəbul edilmişdir. Bu sənəd Azərbaycan Respublikası Mərkəzi Bankının hüquqi statusunu, onun məqsəd, funksiya və səlahiyyətlərini, habelə idarəetmə və təşkilati strukturunu müəyyən edir, dövlətin mərkəzi bankı kimi dövlət hakimiyyəti orqanları ilə və digər şəxslərlə münasibətlərini tənzimləyir.

Qeyd etmək lazımdır ki, Mərkəzi Bankın əsas məqsədi mənfəət əldə etmək deyildir. Lakin istənilən halda bankın fəaliyyətində zərər və mənfəət müşahidə edilə bilər. «Mərkəzi Bank haqqında» Qanunun 11-ci və 12-ci maddələri AMB-nin mənfəətinin formalaşmasının əsaslarını və onun bölüşdürülməsi prosedurunu müəyyənləşdirir: Mərkəzi Bankın mənfəəti maliyyə hesabatlarının beynəlxalq standartlarına uyğun olaraq gəlirlərdən xərclərin çıxılması ilə hesablanır. Gəlirlər AMB-nin həyata keçirdiyi fəaliyyətdən və Qanunvericiliyə zidd olmayan digər mənbələrdən formalaşır. Hesabat ilinin mənfəəti, ilk növbədə, AMB-nin kapital ehtiyatlarının formalaşdırılmasına yönəldilir. Kapital ehtiyatları formalaşdırıldıqdan sonra Mərkəzi Bankın reallaşdırılmış mənfəətinin sərbəst qalığı Dövlət büdcəsinə köçürülür.

Qanunvericiliyə uyğun olaraq Mərkəzi Bank Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq onun səlahiyyətlərinə aid edilən məsəllər üzrə xarici dövlətlərin mərkəzi bankları ilə qarşılıqlı münasibətlərdə, habelə beynəlxalq maliyyə-kredit təşkilatlarında Azərbaycan Respublikasını təmsil edir.

Qanunun 37-ci maddəsi ölkədə pul tədavülünün təşklini və bu istiqamətdə AMB-nin fəaliyyətini tənzimləyir. Bu maddənin tələblərinə uyğun olaraq Mərkəzi Bank Azərbaycan Respublikasında nağd pul tədavülünün təşkili üçün pul nişanlarına olan tələbatı müəyyənləşdirir, pul nişanlarının istehsalını təşkil edir və ya hazırlanmasını sifariş verir, onların daşınmasını və saxlanılmasını təmin edir. Bundan başqa pul nişanlarının tədavülə bu-raxılması, pul nişanlarının tədavüldən çıxarılması, dəyişdirilməsi, məhvi Kimi məsələlər də sözügedən qanunun 38,39,40 və 41-ci maddələrinin müddəaları ilə tənzimlənir.

Qanunvericiliyə görə AMB-nin kredit təşkilatları ilə münasibətlərinin əsas prinsipləri aşağıdakılardan ibarətdir:

- bank sisteminin sabit işini təmin etmək, bank kreditorlarının və əmanətçilərinin maraqlarını qorumaq məqsədilə bank fəaliyyəti üzərində lisenziyalaşdırma, tənzimləmə və nəzarət funksiyalarını qanunvericiliyə və səmərəli bank nəzarəti üzrə beynəlxalq təcrübəyə uyğun olaraq həyata keçirir;
- qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, Mərkəzi Bank kredit təşkilatlarının cari fəaliyyətinə qarışmır;
- Mərkəzi Bank kredit təşkilatlarının öhdəlikləri üçün, kredit təşkilatları isə Mərkəzi Bankın öhdəlikləri üçün cavabdeh deyildir.

Mərkəzi Bank ölkədə bank fəaliyyətinin həyata keçirilməsi üçün kredit təşkilatlarına lisenziyaların verilməsində və onların ləğv edilməsində müstəsna səlahiyyətlərə malikdir. Onun bu fəaliyyəti «Banklar haqqında» Azər-baycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu Qanunun 2-ci maddəsində qeyd edilmişdir ki, Azərbaycan Respublikasının ərazisində banklar və bank olmayan kredit təşkilatları bank fəaliyyətini Mərkəzi Bankın verdiyi xüsusi razılıq (lisenziya) əsasında həyata keçirə bilər.

«Banklar haqqında» Qanun 16 yanvar 2004-cü ildə qəbul edilmişdir və 94 maddədən ibarət olmaqla, banklar və bank olmayan kredit təşkilatlarının fəaliyyəti ilə bağlı əsas hüquqi məsələləri və prosedurları özündə əks etdirir.

Qanun ölkədə bank fəaliyyətinə xüsusi tələblər formalaşdırmışdır ki, bunların da təmin edilməsinə nəzarət bilavasitə Mərkəzi Banka mənsubdur. Qanunun 31-ci maddəsi tələb edir ki, banklar idarəetməni və cari fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyasının, Mülki Məcəllənin, digər normativ hüquqi aktların, Mərkəzi Bankın normativ-hüquqi aktlarının, öz nizamnamələrinin tələblərinə, onlara verilmiş bank lisenziyasında və ya icazədə göstərilən bütün məhdudiyyətlərə müvafiq surətdə etibarlı və prudensial qaydada həyata keçirməlidirlər. Banklar məcmu kapitalını və likvid ehtiyatlarını müəyyən olunmuş səviyyədə saxlamalı, öz öhdəliklərini yerinə yetirmək və zərərə yol verməmək üçün aktivlərin qiymətdən düşməsinə qarşı zəruri tədbirlər görməlidirlər.

«Banklar haqqında» Qanunun VI fəsli banklara təsir tədbirlərini və sanksiyalarını müəyyənləşdirir. Belə ki, bank tərəfindən prudensial normativlərin və tələblərin pozulmasına, onun fəaliyyətinin «Banklar haqqında» Qanunun və Mərkəzi Bankın normativ xarakterli aktlarının tələbləri pozulmaqla həyata keçirilməsinə, AMB-nin verdiyi lisenziya və icazəyə daxil edilmiş məhdudiyyətlərin pozulmasına yol verdiyini müəyyən etdikdə Mərkəzi Bank belə tədbirlərdən istifadə edə bilər. Qanunla müəyyənləşdi-rilmişdir ki, Mərkəzi Bankın icrası məcburi olan sərəncamında, məhkəmə qaydasında şikayət verilməsi həmin sərəncamın icrasını dayandırmır.

Təhlillər göstərir ki, müasir iqtisadi tendensiyalar, xüsusilə də maliyyə böhranları şəraitində bank sektorunun risklərdən qorunması, bu sektorun likvidliyinin artırılmasında inzibati tənzimlənmə vasitələrindən biri olmaqla, normativ-hüquqi bazanın təkmilləşdirilməsi daha da aktuallaşmışdır. Prinsip etirbarilə AMB-in son illəri əhatə edən bu tip fəaliyyətini qənaətbəxş hesab etmək olar. Bu istiqamətdə Mərkəzi Bankın beynəlxalq maliyyə qurumları ilə, xarici ekspertlərlə əməkdaşlığı da səmərəlidir və həm də zəruridir.

Fikrimizcə, Azərbaycanda pul-kredit sferasında dövlətin nəzarət funksiyasını optimal şəkildə reallaşdırmaq, ödəniş sistemlərinin

sabitliyini təmin etmək, iqtisadiyyatın kredit resurslarına olan tələbatının səmərəli ödənilməsini tənzimləmək məqsədilə həyata keçirilən qanuvericilik əsaslarının yaradılması və mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi aşağıdakı prioritetləri özündə birləşdirməlidir:

- qanunvericilik bazasının təkmilləşdirilməsində və yeni normativ-hüquqi sənədlərin yaradılmasında mütərəqqi beynəlxalq təcrübənin tətbiqi, iqtisadi inkişaf xüsusiyyətləri Azərbaycanın analoq göstəricisi ilə uyğunluq təşkil edən ölkələrin, xüsusilə də postsovet və postsosialist ölkələrinin təcrübələrinn öyrənilməsi;
- Azərbaycanın irihəcmli karbohidrogen ehtiyatları ixracatçısı olmasının, bu sahədən böyük həcmdə valyuta ehtiyatlarının daxil olmasının nəzərə alınması, valyuta nəzarətinin qanunvericilik bazasının bu xüsusiyyətlər əsasında formalaşdırılması;
- çoxsaylı qanunlar, Mərkəzi Bankın normativ-hüquqi aktları əsasında istifadənin sadələşdirilməsi məqsədilə bank fəaliyyəti və bank nəzarəti üzrə vahid məcəllənin hazırlanması və tətbiqi imkanlarının nəzərdən keçiriməsi;
- milli iqtisadiyyatda konyuktur dəyişikliklərə, xüsusilə də qeyri-neft sektorunun inkişafını stimullaşdıracaq pul-kredit siyasətini formalaşdıra biləcək qanunvericilik bazasının yaradılması;
- ölkənin bank sektorunda xarici investisiyanın iiştirakının optimal həddini müəyyən edən və yerli bankların xarici bazarlara çıxışı imkanlarını genişləndirəcək normativ-hüquqi bazanın formalaşdırılması və s.

Mərkəzi Bankın tələblərinə əsasən, hesablardan vəsaitin silinməsi barədə bütün normal ödənişlərin və qısamüddətli öhdəliklərin həyata keçirilməsi üçün, nağd vəsaitin və qısamüddətli aktivlərin əldə olunması üçün bank rəhbərliyi likvidliyi planlaşdırmalıdır. Çünki bankın likvidlik vəziyyətinə səmərəli nəzarət edə bilməməsi və fövqəladə hallar üçün lazımi planlar hazırlamaması çox vaxt likvidlik böhranına, hətta ödəniş qabiliyyətinin itirilməsinə səbəb olur. Bank likvidliyinin idarə olunmasında nəzərə alınmalı olan əsas amil böyük mənfəət əldə etmək məqsədilə vəsaiti daha uzun müddətlərə yerləşdirən zaman qısamüddətli likvid vəsaitə olan tələbatın tarazlığına nail olmaqdır. Buna görə də likvidlik məsələləri mənfəət mülahizələri ilə tarazlaşdırılmalı, bankın likvidliyi üçün vəsaitə olan tələbat mənfəət mülahizələrindən asılı olmamalıdır.

Təcrübədə zəruri likvidlik səviyyəsinin təmini üçün bankın balansının həm aktiv, həm də passiv maddələrindən istifadə edilir. Belə ki, nağd vəsaitlərin, tez satıla bilən qiymətli kağızların, Mərkəzi Bankda və kommersiya banklarının müxbir hesablarında banka məxsus depozitlərin və digər vəsaitlərin əldə edilməsi likvidlik tələbatlarının ödənilməsi istiqamətlərindən birini təşkil edir ki, bu əməliyyatlar da

balansın aktiv hissəsinə aiddir. Digər tərəfdən, bank likvidliyin təmini üçün kommersiya banklarından vəsaitlər cəlb edir (depozitlər və kreditlər şəklində), Mərkəzi Bankdan kreditlər alır, hüquqi və fiziki şəxslərdən depozitlər qəbul edir ki, bunlar isə passiv maddəyə aiddir. Buna görə də mərkəzi banklar likvidliyin səmərəli idarə olunması strategiyasının formalaşdırılması zamanı banklardan aktivlərlə yanaşı, passivlərin də fəal şəkildə tənzimlənməsini tələb edir.

Müasir iqtisadi tendensiyalar, ümumilikdə müasir iqtisadiyyat tələb edir ki, pul-kredit siyasəti çevik olmalı, dolğun informasiyalara və tədqiqatlara əsaslanmalı, ölkənin iqtisadi inkişaf xüsusiyyətlərinə və iqtisadi modelinə uyğunlaşdırılmalı, milli iqtisadiyyatın inkişafının əsaslarından birinə çevrilməlidir. Bunun üçünsə onun daim təkmilləşdirilməsi qarşıda duran ən mühüm vəzifələrdən biri kimi çıxış edir.

Azərbaycanda pul-kredit siyasətinə təsiri olan və iqtisadiyyatla bağlı bir sıra özəl xüsusiyyətlər mövcuddur ki, bunlara əsasən aşağıdakıları aid etmək olar:

- bazar iqtisadiyyatına keçid prosesinin hələ də davam etməsi, iqtisadiyyatın bir sıra sahələrində, o cümlədən pul-kredit sferasında da bazar münasibətlərinin hələ də tam bərqərar olmaması;
- bank və digər kredit təşkilatlarının uzunmüddətli təcrübəyə malik olmamaları, onların böyük əksəriyyətinin son 10 ildə yaranması və beynəlxalq mütərəqqi təcrübəni hələ də tam mənimsəmələri;
- ölkədə qiymətli kağızlar bazarının zəif inkişaf etməsi, bankların bu sektordakı investisiyalarının əhəmiyyətsiz hesab ediləcək səviyyədə az olması, qiymətli kağızlar bazarındakı fəaliyyətin əsasən dövlət qiymətli kağızlarına, mərkəzi bankın repo və əks-repo əməliyyatlarına bağlanması;
- əhalinin əmanətləri banklara yönəltməməsinin bank sektoruna inamın yetərli olmaması və mentalitetlə bağlı olan bir sıra səbəblər üzündən lazımi səviyyədə olmaması, nağdsız pul dövriyyəsinin kütləviləşdirilməsində problemlərin mövcudluğu;
- Azərbaycanın iri karbohidrogen ehtiyatları ixracatçısı olması və bu sahədən böyük həcmdə valyuta ehtiyatlarının daxil olması, ölkənin valyuta ehtiyatının sürətlə artması, iqtisadiyyatda dövlət xərclərinin sürətlə çoxalması və s.

Bu amillərin ölkənin pul-kredit siyasətinə təsir imkanlarını ayrı-ayrılıqda aşağdakı kimi izah edə bilərik:

Məlumdur ki, Azərbaycan müstəqillik əldə edənə qədər ölkədə bütün banklar dövlət mülkiyyətində olub, bank fəaliyyəti dövlət tərəfindən planlı şəkildə həyata keçirilib. Yalnız yeni iqtisadi münasibətlərə, bazar iqtisadiyyatna keçid ölkədə özəl bank fəaliyyətini zəruri etmişdir. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki,

müstəqilliyin ilk illərində respublikada xüsusi mülkiyyətə əsaslanaraq qurulmuş bank fəaliyyəti bir sıra postsovet respublikalarında olduğu kimi fiaskoya uğramışdır. Maliyyə piramidalarının meydana gəlməsi, əhali əmanətlərinin mənimsənilməsi, bank adı altında əslində bankçılığa aidiyyəti olmayan fəaliyyətlərin gerçəkləşdirilməsi bir tərəfdən qanunvericilikdəki boşluqlardan, bank fəaliyyətinə prudensial nəzarətin lazımi səviyyədə olmamamsından doğurdusa, digər tərəfdən bunun kökündə həqiqi bazar münasibətlərinin olmaması dururdu. Əslində banklar əhalidən və iqtisadi subyektlərdən cəlb etdiyi əmanətləri kredit şəklində, investisiya şəklində iqtisadiyyata yönəltməlidir ki, bu sahədən əldə etdiyi mənfəətin bir hissəsini faiz kimi ödəsin. Belə bir fəaliyyətin səmərəli olması üçünsə real bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın mövcudluğu əsas şərtdir. Təhlillər göstərir ki, ölkədə bank sektorunun inkişafının startı əsasən 1990-cı illərin ikinci yarısından bazar iqtisadiyyatına keçidin sürətləndiyi, islahatların aparıldığı bir dövrə təsadüf edir. Son 4-5 ildə iqtisadiyyatın müxtəlif sahələrində bazar iqtisadiyyatı elementlərinin sürətli inkişafı bank sisteminə daha ciddi töhfə vermişdir.

Bank sektorunun özündə də bazar iqtisadiyyatına keçidlə bağlı islahatların yekunlaşmaması problemlərdən biri olaraq qalır. 2009-cu ilə qədər bank sektorunun əsas iqtisadi göstəricilərində iki dövlət bankının payı bütün özəl bankların payından çox olmuşdur. Bunlardan biri – «Kapital Bank» dövlətsizləşdirilsə də ölkənin ən iri bankı olan «Beynəlxalq Bank» dövlət bankı olaraq qalır.

Bazar iqtisadiyyatının mühüm elementlərindən biri də rəqabət mühitidir. Rəqabət mühitinin lazımi səviyyədə olması tək iqtisadiyyatın müxtəlif sahələrinin inkişafı üçün deyil, həm də bu sahələrlə sıx bağlı olan bank sektoru üçün də önəmlidir. Mərkəzi bank qiymətlərin sabitləşdirilməsinə yönəldilmiş konkret tədbirində nəzərə almalıdır. Bu qiymətin hansı əsaslarla, hansı mühitdə formalaşdığını ola bilər ki, Mərkəzi Bank inkişaf etmiş ölkələrin təcrübələrindən çıxış edərək bazar münasibətlərinə hesablanmış pul-kredit siyasəti yürüdər. Lakin bu həmin ölkələrdəki qədər effektli ola bilməz. Hesab edirik ki, pul-kredit siyasətinin nəticəsi iqtisadiyyatın konyukturundan, bazar elementlərinin inkişaf səviyyəsindən əhəmiyyətli şəkildə asılıdır. Buna görə də pul-kredit siyasətində bu faktorun nəzərə alınması olduqca zəruridir. Müasir dövrdə bank sektorunun inkişafı, pul-kredit siyasətinin ümumi vəziyyəti qiymətli kağızlar bazarı ilə sıx bağlıdır. Ancaq müşahidələr göstərir ki, Azərbaycanda qiymətli kağızlar bazarının inkişaf tempi iqtisadi inkişaf tempi ilə adekvat deyil. Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə bankların və digər kredit təşkilatlarının mənfəətlərinin böyük bir hissəsi bu sektorda, qiymətli kağızların idarə edilməsində, alqı-satqısında formalaşır. Amma Azərbaycanın banklarının qiymətli kağızlar bazarında

investisiya fəaliyyəti hədsiz dərəcədə azdır. Son illər ölkədə, xüsusilə paytaxtda daşınmaz əmlakın sürətli bahalaşması müşahidə edilmişdir. Ekspertlər bunu da qiymətli kağızlar bazarının zəifliyi ilə izah ediblər. Belə ki, əgər qiymətli kağızlar bazarı inkişaf etmiş olsaydı, səhmlərə görə dividendlər ödənilsəydi və insanlar səhmləri almaqla iri müəssisələrə payçı ola bilsəydilər və bu xarici ölkələrdə olduğu kimi ev, mənzil kimi daşınmaz əmlakın alınmasından daha faydalı olsaydı, həmin pullar investisiya şəklində iqtisadiyyata yönəlmiş olardı. Bu da öz növbəsində iqtisadiyyatın inkişafına və məntiqi olaraq bank xidmətlərinə tələbin artmasına gətirib çıxarardı. İnkişaf etmiş ölkələrdə bank kreditləri üzrə faiz dərəcələri əsasən qiymətli kağızlar bazarı ilə, qiymətli kağızların gəlirliyi, dividendlərin səviyyəsilə əlaqəli olaraq formalaşır. Azərbaycanda isə bank faziləri əsasən Mərkəzi Bankın uçot dərəcəsi və cəlb edilmiş beynəlxalq kreditlərin faiz dərəcəsi əsasında müəyyənləşir. Belə olan halda, Azərbaycanda Mərkəzi Bankın bank faizlərinə təsir imkanları daha genişdir. Buna görə də qeyri-neft sektorlarının inkişafı zəminində pul-kredit siyasətindən daha səmərəli istifadə etmək olar. Nəzərə almaq lazımdır ki, bir çox ölkələrlə müqayisədə Azərbaycanda kommersiya kreditlərinin faiz dərəcələri xeyli yüksəkdir ki, bu iqtisadi inkişafa mənfi təsirlərdən biri kimi çıxış edir.

1990-cu illərin əvvəlində Azərbaycanın bank sektorunda baş vermiş ciddi böhran, əhalinin əmanətlərinin ilk yaranmış əmanət banklarında batması banklara inamı əsaslı şəkildə sarsıtmışdır. Hələ də əhalinin banklara qarşı inamı lazımi səviyyədə bərpa olunmamışdır ki, bu da özünü əmanətlərin səviyyəsində göstərir. Digər tərəfdən mentalitetdən irəli gələn bir xüsusiyyətdir ki, Azərbaycan əhalisinin böyük hissəsi pullarını sandıqlarda saxlamağa daha çox üstünlük verirlər, nəinki banklarda. Belə bir şəraitdə əhalinin banklara inamının artırılması, əmanətlərin banklara cəlb edilərək onların vasitəsilə investisiya kimi iqtisadiyyata yönəldilməsi də Mərkəzi Bankın fəaliyyətində prioritetlərdən birini təşkil etməlidir. Əvvəlki paraqraflarda qeyd etdiyimiz kimi əmanətlərin sığortalanması- nın qanunvericilik bazası formalaşdırılmış və Əmanətlərin Sığortalanması Fondu fəaliyyətə başlamışdır. Prinsipcə bunu qeyd edilən istiqamətdə atılmış fundamental bir addım kimi qiymətləndirmək olar. Hesab edirik ki, bununla yanaşı, bu sahədə innovasiyalı metod və yanaşmalardan da istifadəyə ehtiyac var.

Artıq Azərbaycan iri, həcmli neft ixracatçısıdır, yaxın illərdə ixrac edilən təbii qazın da həcmi kəskin şəkildə artacaq. Bu karbohidrogen ehtiyatları respublikamıza külli miqdarda valyuta ehtiyatları gətirir. Bu valyuta ehtiyatlarının əhəmiyyətli bir hissəsi dövlət xərcləri şəklində birbaşa iqtisadiyyata daxil olur. Belə bir şəraitdə həm pul təklifi, həm də valyuta təklifi adi haldakından daha sürətlə artır. Təkcə Azərbaycan

Dövlət Neft Fondunun (ARDNF) vəsaitlərinin ümumi statiskasına diqqət yetirməyimiz yetərli təsəvvür yaradar: 2009-cu il oktyabrın 1-nə olan məlumata görə, ARDNF-nin aktivləri 10,7 milyard manat (13,3 milyard dollar) təşkil etmişdir. Buna qədərsə ümumilikdə Neft Fonduna daxil olan vəsaitlərdən 11 milyard manata yaxını xərclənmişdir. Bu o deməkdir ki, bu vəsaitlər son bir neçə ildə birbaşa iqtisadiyyata daxil edilmişdir. Belə bir şəraitdə Mərkəzi Bankın pul-kredit siyasəti, valyuta tənzimi qarşısında xüsusi tələblər formalaşır. Fikrimizcə, AMB Azərbaycanın keçid iqtisadiyyatı ölkəsi olmasını nəzərə alaraq keçmiş sovet respublikalarının təcrübələrini öyrənməli, neft ixracatçısı olmasını isə nəzərə alaraq OPEK üzvü olan ölkələrin təcrübəsini tədqiq etməlidir. Nəticədə, bu iki təcrübənin sintezindən formalaşan pul-kredit siyasətinin tətbiqi səmərəli ola bilər.

## 10.4.İnvestisiya, innovasiya fəallığının artmasına pul-kredit siyasətinin təsiri

*Qeyd etmək lazımdır ki, iqtisadi islahatlar dövründə iqtisadiyyatda aparılan struktur dəyişiklikləri qarşıda duran prioritet vəzifələr deyildir. Məhz səmərəli fəaliyyət göstərən iqtisadi sistem istehsalatda köhnəlmiş texnologiyanın fasiləsiz olaraq yenisi ilə əvəz edilməsi və istehsalın müasir dövrün tələbləri səviyyəsində idarə edilməsini tələb edir. İqtisadiyyatda innovasiya sferası struktur dəyişikliklərinin əsas nüvəsi, özəyi hesab olunur və onun inkişaf səviyyəsi milli iqtisadi sistemdə aparılan sürətli və keyfiyyətli dəyişikliklərin müəyyənedici amili kimi çıxış edir.*

*İstehsalda texnologiyanın yeniləşməsi prosesi inteqrasiya xarakterli proses olub, insan, maddi və intellektual resursların cəlb edilməsi və onların birgə tətbiqini tələb edir. Məhz iqtisadi inteqrasiyanın ən yüksək inkişaf səviyyəsinə innovasiya proseslərində nail olmaq olur. Bu prosesin səmərəliliyi bu resursların uğurlu kombinasiyasının formalaşmasına kömək edən şəraitdən asılıdır.*

*Hüquqi və təşkilati baxımdan innovasiya sferası ayrılmamışdır: elmi fəaliyyət öz normativ aktları çərçivəsində gedir. Patent hüququ yalnız intellektual mülkiyyəti, innovasiya ideyalarını tənzimləyir, müqavilə hüququ-investisiya əməkdaşlığı formalarını, təsərrüfat hüququ – innovasiya layihələri- nin reallaşması proseslərini tənzimləyir. İnnovasiya sferasında proseslərin fəallığında informasiya mühitinin, məkanının da rolunu qiymətləndirmək vacibdir. Bu sferada informasiya prosesləri innovasiya ideyalarının daşıyıcıları, investorlar və innovasiya proseslərinin təşkilatçıları arasında xüsusi olaraq qarşılıqlı təsir proseslərini təmin edir. Burada innovasiya proseslərinin iştirakçıları arasında innovasiya fəaliyyyətini stimullaşdıran, bu fəaliyyətə marağı formalaşdıran, təmin edən psixoloci mühitin də rolu əvəzedilməzdir.*

*Qanunverici bazanın inkişafı şəraitində bu amillərin nəzərə alın-ması mümkün deyildir. İnnovasiya fəaliyyətində stimul və marağın dərk edilməsi innovasiya proseslərinə maksimal sayda adamların cəlb olunması səviyyəsini əvvəlcədən müəyyənləşdirir. Məsələn, Avropada bütün maraqlananların innovasiya proseslərinə cəlb olunması fəallığının artırılması innovasiya strategiyasının işlənib hazırlanmasında strateji məqsədlər kimi qarşıya qoyulmuşdur.*

*Qeyd etmək lazımdır ki, innovasiya layihələrinə investisiya vəsaitlərinin cəlb olunmasında əsas maneə yaradan səbəblərdən biri aparılan tədqiqatlar, sona çatmış layihələr innovasiya ideyalarından kommersiya məqsədləri ilə istifadə barəsində toplanmış informasiyanın, məlumatların, eləcə də bu informasiyanın yayılmasını təmin edən vahid, Ümummilli İnformasiya Sisteminin olmamasıdır. Dünyada STN adlanan bir sistem yaradılmışdır ki, bu da ABŞ, Yaponiya və Almaniya kimi üç nəhəng elmi-texniki informasiya mərkəzlərini öz ətrafında birləşdirir. Bu sistem «online» rejimində bütün istifadəçilər üçün anlaşıqlıdır, əlçatandır, lakin onun tətbiqi imkanları maliyyə baxımından məhduddur.*

*Bazar iqtisadiyyatı şəraitində hər bir şirkət, firma, bank ölkədəki innovasiya imkanları barəsində informasiya almaq imkanını təmin edəcək şəxsi informasiya sistemini, şəbəkəsini yaradır. Lakin bununla yanaşı, belə subyektlər dövlət orqanları ilə birgə ölkədə vahid, ümumi informasiya sisteminin yaradılmasına çalışmalıdırlar. Dünyada belə sistemlərin yaradılması dövlət tərəfindən maliyyələşdirilir. Zaman keçdikcə belə sistem özünü doğruldaraq, öz xərclərini ödəməklə yanaşı, gəlirlə də işləyirlər.*

*İnvestisiya ilə bağlı qərarların qəbul edilməsində dinamik inkişaf edən müasir dünyada baş verən reallıqları adekvat olaraq əks etdirən informasiya toplusundan istifadə etmək zərurəti meydana çıxır. Lakin bir sıra hallarda dünya informasiya şəbəkəsinə qoşulmaq, onun imkanlarından bəhrələnmək bu sistemdəki xidmətlərin qiymətləri ilə bağlı məhdudiyyətlər səbəbindən çətinləşir. Güclü konsaltinq şirkətlərində keyfiyyətli, yüksək səviyyəli investisiya layihələrinin işlənib hazırlanması onların bu layihələr də nəzərdə tutulan həcmdə işləri dəqiq proqnozlaşdırmağa imkan verən Dünya Təsərrüfatı Sistemi haqqındakı məlumatlar bazasından geniş istifadə imkanlarının olması ilə əlaqədardır. Məhz bu məlumatlar investisiya layihələrinin səmərəliliyini müəyyən edən rəqabətqabiliyyətliliyi qiymətləndirməyə imkan verir. Belə şirkətlər şəxsi informasiya resursları ilə yanaşı, kommersiya banklarının məlumatlarından da istifadə edə bilərlər və bu onların xeyrinə olardı.*

*Yuxarıda dediklərimiz yüksək texnologiyalı innovasiya layihələri ilə bağlı investisiya qərarlarının qəbul edilməsinə aiddir. Aydındır ki, innovasiya fəaliyyətinin canlanması, fəallığı innovasiya prosesinin iştirakçıları olan donorlar və resipiyentlər arasında informasiya mübadiləsini təmin edən geniş əhatəli informasiya bazası, kütləsi olmadan mümkün deyildir. Belə*

*həcmdə informasiya kütləsi bu fəallığın əsasını təşkil edir. Bu faktın dərk olunması, əhəmiyyəti müxtəlif elm sahələrində çalışan alimlər və investisiya bazarlarında elmi-tədqiqat işlərinin reallaşmasına kömək edən vençur firmaların arasında informasiya mübadiləsini fəallaşdırmağa xidmət edən texnoparkların və texnopolislərin yaradılmasının vacibliyini bir daha təsdiqləyir.*

*İnnovasiya proseslərinin müasir konsepsiyası onun iştirakçılarının əhatə dairəsini xeyli genişləndirmişdir. Eləcə də innovasiya ideyalarının axtarışından tutmuş innovasiya layihələrinin reallaşmasınadək bütün mərhələlərdə bu sahədə yetişmiş menecerlərin rolu artmışdır. İnnovasiya sferasının iştirakçılarının maraq dairəsi, onların qarşısında duran vəzifələrin miqyası genişlənmişdir; investisiya qoyulan obyektin seçilməsi, sərbəst vəsaitlərin axtarışı, optimal investisiya əməkdaşlığı formasının seçilməsi, investisiya tərəf müqabilinin seçilməsi, innovasiya layihələrinin rentabelliyinin artırılması yollarının müəyyən edilməsi, daha rəqabətqabiliyyətli layihələrin həyata keçirilməsi proseslərinin idarə edilməsi olduqca vacibdir.*

*Müasir iqtisadi sistemə keçidlə əlaqədar olaraq investisiya-innovasiya layihələrinin hazırlanmasında biznes planının əhəmiyyəti olduqca mühümdür. Bir çox müəssisələr bəzən biznes planlarını hazırlayarkən təcrübəli mütəxəssislərdən, o cümlədən xarici konsaltinq firmalarından onların təcrübəsindən də geniş istifadə edirlər. Lakin bu firmalar investisiya vəsaitinin tapılması, layihədə nəzərdə tutulan məhsulların dünya bazarına çıxarılmasına, investisiya layihələrinin rəqabətqabiliyyətliyinin qiymətləndirilməsinə cavabdehlik daşımırlar.*

*İnvestisiya layihələrinin reallaşması ilə bağlı vəsaitlərin tapılmasında menecerlərin yüksək peşəkarlığı mühüm rol oynayır. Bu gün respublikamız üçün haqqında danışılan problem olduqca önəmli rol oynayır. Çünki innovasiya layihələrinin uğurla reallaşması bu sahədə menecerlərin hazırlıq səviyyəsindən asılıdır.*

*Qeyd etmək lazımdır ki, ölkənin investisiya-innovasiya potensialının artırılmasında bank sisteminin rolunun yüksəldilməsi olduqca vacibdir. Bu istiqamətdə bank sisteminin fəallığının təmin olunması ilə bağlı imkanların aşkara çıxarılması, ölkədə əlverişli siyasi və iqtisadi şəraitin yaradılması mühüm rol oynayır, eləcə də bankların özlərinin də xüsusiyyətləri az əhəmiyyət kəsb etmir. Bu mənada aşağıdakı cəhətlərə diqqət yönəltmək məqsədəuyğun olardı.*

*- bankın şəxsi kapitalının nisbətən məhdud həcmdə olması;*

*- aktivlərdəki şəxsi kapitalın xüsusi çəkisinin az olması;*

*- uzunmüddətli kapital qoyuluşları imkanlarını məhdudlaşdıran qısamüddətli passivlərin üstünlük təşkil etməsi;*

*- passivlərdən depozitlərin payının aşağı olması;*

*- müəssisə və təşkilatların passivlərindəki qalığın payının hesablar üzrə yüksək olması;*

*- aktivlərin və passivlərin strukturunun üst-üstə düşməməsi, uyğunsuzluğu;*

*- bank aktivlərinin likvidliyi probleminin olması, kəskinləşməsi və s.*

*Deməli, innovasiya-investisiya layihələrində yaxından iştirak edən bankların kapital bazası beynəlxalq, dünya standartlarına cavab verməlidir. Çünki yalnız iri banklar istehsala investisiya yatırmaq istiqamətində vəsaitlərinin əksər hissəsini onların təsərrüfat dövriyyəsindən çıxarılmasına tab gətirə bilər.*

*Uzunmüddətli kreditlərin artmasına passivlərin struktur xüsusiyyətləri müəyyən dərəcədə mane olur, banklarda şəxsi vəsaitlər azlıq təşkil edir, cəlb olunan vəsaitlərsə qısamüddətlidir. Faiz dərəcələri ilə verilən borcların riski arasında ziddiyyətlər vəziyyəti bir qədər də kəskinləşdirə bilər. Dünya təcrübəsində uzunmüddətli kreditlər daha etibarlı hesab olunur və onlara görə faiz dərəcələri aşağıdır. Lakin bu gün respublikamızda uzunmüddətli kreditlər daha riskli hesab olunur və onlara verilən faiz dərəcələri müəssisələrin maliyyə imkanlarının məhdudluğu baxımından çox aşağıdır.*

*Qeyri-sabit iqtisadi-siyasi şəraitdə banklar tərəfindən həyata keçirilən investisiya siyasəti aşağıdakı xüsusiyyətlərlə müşahidə olunur:*

*- siyasi risklərin yüksək səviyyədə olması;*

*- dövlət qiymətli kağızlarına kapital qoyuluşlarının gəlirlik səviyyəsinin yüksək olması;*

*- korporativ qiymətli kağızlar bazarının zəif inkişaf etməsi və ya inkişaf etməməsi;*

*- fond bazarının inkişaf etməməsi səbəbindən kreditin, banklarda investisiya aktivlərinin ciddi çatışmazlığı şəraitində investisiya layihələrinə kommersiya bankları tərəfindən bir kömək, yardım formasına çevrilməsi;*

*- investisiya fəaliyyətində risk probleminin ciddi əhəmiyyət kəsb etməsi, investisiya kreditinin müqabilində qoyulan girova qarşı likvidlik tələbini irəli sürən investisiya layihələrini kreditləşdirən banklar üçün kredit riskinin minimuma endirilməsi üçün əlverişli, rahat yollardan biridir. Lakin respublikamızın hələ bu inkişaf mərhələsi üçün belə imkana malik müəssisələrinin sayı çox azdır;*

- borc alanın etibarlı olması. Müəssisələr üçün bu imkan böhrandan çıxış yollarından olsa da, maliyyə vəziyyətinin acınacaqlı olması onlara kredit verilməsi imkanlarını məhdudlaşdırır.

İstehsalın investisiyalaşdırılmasına maliyyə vəsaitlərinin cəlb olunması perspektivlərini araşdıran iqtisadçıların fikrincə, keçid iqtisadiyyatı şəraitində maliyyə-sənaye qruplarının yaradılması həm makroiqtisadi sabitləşmə prosesinə və iqtisadi artım üçün potensialın formalaşmasına, həm də bank sisteminin özünün dayanıqlığının yüksəldilməsinə müsbət təsir göstərir.

*Əksər şirkətlər açıq bazardan istifadə etməklə vəsait toplayırlar.*

*Qiymətli kağızların açıq (kütləvi) yerləşdirilməsi, təklif olunması – bazarda özünü təsdiqləmiş, uğurlu fəaliyyət göstərən, kapitalın iri şirkətlər üçün xarakterik cəlb olunma üsuludur. Adətən, kütləvi şəkildə yerləşdirmə, korporasiyaların gücünün artırılması, məhsul və xidmətlərin çeşidinin genişləndirilməsi, dövriyyəsinin artırılması, əməliyyatların coğrafi miqyasının genişləndirilməsi və s. məqsədilə həyata keçirilir. Korporasiyanın qiymətli kağızları kütləvi yerləşdirməsi olduqca mürəkkəb və bahalı prosesdir, bu prosesi həyata keçirməzdən əvvəl, korporasiya prosesin məqsədlərini, dəyərini və nəticəsini əvvəlcədən görə bilməlidir.*

*İnkişaf etmiş ölkələrdə bu sahədə dəqiq fəaliyyət alqoritmi mövcuddur və burada mühüm cəhət – kredit təminatıdır. Müştərilərə borc verilməsi ilə bağlı aparılan danışıqlar zamanı müzakirə olunan əsas məsələ təminatın həcmi və keyfiyyətidir. Bu, borcun verilməsi zamanı bank sahibinin qərar qəbulu prosesində həlledici cəhətidir.*

*Borc vəsaitlərinin qorunma obyekti kimi aşağıdakılar ola bilər: girov; kredit riskinin sığortalanması; zaminlik; təminat. Borc alan borc müqaviləsinin möhkəmlənməsi üçün müxtəlif formalardan istifadə edir. Kreditlərin ən geniş yayılmış qorunma növləri torpaq, bina, borcalanın digər növ daşınmaz əmlakı, əmtəə-material ehtiyatları, qiymətli kağızlar və s.ola bilər. Bunu cədvəldən də görə bilirik.*

*İnvestisiya kreditlərinin əsas təminat əlamətləri*

| **Əsas qorunma (təminat) əlamətləri** | **Əlamətlərin qiymətləndirilməsi** |
|---|---|
| 1. Təminat ölçüsü | Bu ölçü böyük olduqca, qərarın müsbət həlli ehtimalı artır. |
| 2. Təminatın likvidliyi | - Mülkiyyətin spesifikliyinin qiymətləndirilməsi.<br>- Mülkiyyətin ləğv edilmə müddətinin qiymətləndirilməsi.<br>- Likvidlərin təsnifatı. |
| 3.Təminatın mövcud- olma müddəti | - mülkiyyətin, əmlakın mövcudolma müddəti kreditin müddətindən çox olmalıdır.<br>-mövcudolma müddətinə görə likvidlərin təsnifləşdirilməsi. |
| 4. Təminatın hüquqi cəhətdən əsaslandırılması. | - hüquqların reallaşmasının sadəliyi və etibarlığı.<br>- təminatın təşkil edilməsi<br>- biznes-planın hazırlanması (olması) |

*İlkin inkişaf mərhələsində olan şirkətlər üçün vençur kapitalı daha əlverişlidir. Bu növ kapital – yeni biznes fəaliyyətinin səhmlər və yaxud qiymətli kağızlarla maliyyələşdirilməsidir. Bu, yeni biznesə qoyulmuş pullar olub, bəzən borc öhdəlikləri, çox vaxt da adi səhmlər formasında olur. Borc öhdəlikləri, onların buraxılışı qeydiyyata alınmayanadək satıla bilməz; bir neçə il onlar likvidli olmurlar.*

İnvestorlar ümid edirlər ki, firma bir neçə ildən sonra tam formalaşaraq, inkişaf edəcək və artıq açıq bazarda öz şəxsi səhmlərini satacaqdır. Öz növbəsində, vençur kapital sahibləri səhmləri onların gəlirlərindən bir neçə dəfə artıq qiymətə satacaqlarına ümid bəsləyirlər. Bu, bir variantdır. Təəssüf ki, digər variant da vardır. Yeni firmanın formalaşması ilə bağlı yüksək risklər mövcuddur, buna görə investorların qoyduqları vəsaitləri itirmə ehtimalı böyükdür. Beləliklə, investor bütün pullarını itirə bilər, lakin belə bir ehtimal var ki, onların dəyəri 10, hətta 50 dəfə arta bilər. Vençur kapitalın sahibinin bütün investisiyalar üzrə gəliri uğurlu kapital qoyuluşuna qarşı olduqca həssasdır, yəni bu fəaliyyətin müvəffəqiyyətindən asılıdır.

Kapital axını öz məzmununa görə dünya iqtisadiyyatında unikal hadisədir. Bir çox xarici mütəxəssislər bu problemə müxtəlif cür yanaşırlar. Ən geniş yayılmış yanaşma isə belədir ki, kapital axını kifayət qədər böyük həcmdə, qısamüddətli borc kapitalının sürətlə bir ölkədən digərinə yerdəyişməsidir. Ölkələrin fond bazarları və Dünya Fond Bazarı arasında qarşılıqlı asılılığın artması kapitalın axın riskini artırır, miqyasını genişləndirir və ölkənin maliyyə vəziyyətinə güclü təsir göstərir. Buna görə də BVF, Dünya Bankı və digər maliyyə təşkilatları bu problemin tədqiqinə böyük maraq göstərirlər. Kapitalın sürətlə yerdəyişməsi kapital axınının əsas əlaməti kimi xarici investorların səlahiyyətində olan maliyyə aktivlərinin (səhmlərin, istiqrazların) kütləvi şəkildə onlara satılması, həmçinin yerli banklardakı hesablardan vəsaitlərin kütləvi şəkildə götürülərək daha güclü valyutaya mübadiləsi mühüm rol oynayır.

Bazar iqtisadiyyatı inkişafı yolu seçmiş ölkələr, o cümlədən MDB ölkələri üçün kapital axınının spesifik cəhəti, özünəməxsusluğu həmin ölkələrdə iqtisadi-siyasi sistemin sürətlə transformasiya olunması, bunun daha çox qlobal xarakter daşıması və cəmiyyətin həyat tərzi ilə müəyyən edilir. Bu ölkələrdə mövcud sosial-iqtisadi, eləcə də siyasi şərait, dövlət idarəetməsinin, tənzimlənməsinin səviyyəsi, kapital axınının qeyri-leqal xarakter daşıması və kapitalın xarici ölkələrə yerdəyişməsi formalarının müxtəlifliyi spesifikasını müəyən edir. Burada iqtisadi fəaliyyətlə məşğul olan investorlar həmin ölkələrin milli valyutalarına «inamlarının» zəif olması səbəbindən öz vəsaitlərini xarici valyutanın alınmasına yönəldirlər. Bu hadisəni həmin ölkələrə məxsus spesifik bir hal kimi kapitalın ölkənin «milli valyutasından dollara doğru axını» kimi, yaxud da kapitalın daxili axını adlandırmaq da olar. Digər bir spesifik cəhət bu axının həmin ölkələrdə dönərli olmamasıdır. Belə ki, ölkədə əlverişli investisiya mühiti, sağlam siyasi-iqtisadi şərait yaradılmadıqda, bu istiqamətdə real müsbət dəyişikliklər edilmədikdə, mülkiyyət hüququnun qorunması mexanizmləri təkmilləşdirilmədikdə ölkədən çıxarılan kapital miqrasiya olunmuş kapital xarakterinə malik olur.

Bu mənada, deyilənləri nəzərə alaraq, «kapital axınına» belə tərif vermək olar. Kapital axını ölkənin maliyyə-investisiya resurslarının azalmasına, tükənməsinə səbəb olan, iqtisadi və maliyyə aktivlərinin geniş miqyasda leqal və qeyri-leqal formalarda davamlı axınıdır.

Kapital axınından fərqli olaraq kapital ixracı rezidentlərin şəxsi və dövlət kapitalının rəsmi və qanuni qeydiyyatdan keçmiş müstəqim və portfel investisiyalarla aparılan əməliyyatlar şəklində məqsədyönlü ixracı kimi başa düşülür. Bundan başqa, ixrac olunan kapitalın strukturuna daşınmaz əmlak əldə etmək, dövlət kreditlərinin verilməsi, qeyri-rezidentlərə maliyyə kreditlərinin lisenziyalaşdırılması, tədiyyələrin (ödəmələrin) vaxtının uzadılması üçün ticarət kreditlərinin lisenziyalaşdırılması, rezidentlərin xarici valyutalarının toplanması, açılmış hesablardakı qalıqların dəyişdirilməsi şəklində investisiya yatırımları daxildir. Kapital ixracının başlıca əlamətlərindən biri ondan ibarətdir ki, maliyyə resurslarının ixracı üzrə əməliyyatlar onların maliyyə aktivlərinin artmasına səbəb olur. Kapital axını nəticəsində isə əksinə, bu vəsaitlərin yönəldiyi ölkələrin maliyyə potensialı artır. Kapital axınının səbəbləri və motivləri müxtəlif ola bilir və keçid iqtisadiyyatının bazis əsası, xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin valyuta-maliyyə alətlərinin spesifikası, bazar subyektlərinin, investorların davranış psixologiyası, dövlətin həyata keçirdiyi siyasətə onların inamı, eləcə də ölkənin milli valyutasının stabilliyinə inamları ilə əlaqədardır.

Kapital axınının daha bir səbəbi isə bazar intisadiyyatının əsas hərəkətverici qüvvəsi olan sahibkarlığın zəif inkişafı və bu istiqamətdə qeyri-

münbit mühitin olmasıdır. Buna mülkiyyətin qorunmasının hüquqi sisteminin, məhkəmə sisteminin zəif inkişaf etməsi, qeyri-təkmil olması aiddir.

Kapital axınının digər səbəblərindən biri də ölkənin geniş əhatəli sosial və iqtisadi problemlərinin həllində dollardan istifadə olunması, yəni milli iqtisadiyyatın dollarlaşmasıdır. Bu, istehsalın iqtisadi səmərəliliyinin artırılması, kreditləşmə zamanı, təsərrüfat subyektləri arasında hesablaşmalar məqsədilə, daxili qiymətlərin təyini zamanı, icarə haqlarının dərəcələrinin təyin olunması zamanı daha çox özünü büruzə verir. Ən başlıcası odur ki, iqtisadiyyatın dollarlaşması insanlar arasındakı münasibətlərə də sirayət edir, əhalinin əmanətləri sistemində prioritetləri və davranış motivlərini müəyyənləşdirir. Milli valyuta ilə müqayisədə dollara üstünlük verilməsi əhalinin dollara meyilliliyini (axınını) gücləndirir. Nəticədə, əhalidə olan dolların ümumi həcmi nəğd pul kütləsinin həcminə yaxınlaşır. 1997-1998-ci illərdə Cənubi-Asiyada baş verən böhran dollara qarşı süni surətdə tələbatı artıraraq, əhalinin dollara meyilliliyini, onun əldə edilməsinə doğru axınını gücləndirmişdir.

Kapitalın ixracı əməliyyatlarının tənzimlənməsində qanunverici bazanın qeyri-təkmil olması, valyuta və ixrac nəzarətinin səmərəliliyinin aşağı olması kapital ixracına səbəb olan amillərdən biridir.

Valyuta tənzimlənməsi ilə əlaqədar çoxsaylı pozuntular kapital axınına kömək edir. Bunları aşağıdakı kimi təsnifləşdirmək olar:

- valyuta əməliyyatlarının keçirilməsi ilə əlaqədar baş verən pozuntular. Burada müvəkkil banklar nəzərə alınmır, əməliyyatlara isə rezident və qeyri-rezidentlər arasında hesablaşmalar, xarici valyutanın alqısı və satqısı aiddir;

- Milli Bankın icazəsi olmadan keçirilən valyuta əməliyyatları zamanı baş verən pozuntular.

- maliyyə kreditlərinin alınması və verilməsi, idxal-ixrac əməliyyatları üzrə ödəmələrin (tədiyyələrin) vaxtının uzadılması ilə əlaqədar pozuntular;

- rezidentlər və qeyri-rezidentlər arasında valyuta əməliyyatlarının tam və obyektiv hesabatının və qeydiyyatının aparılması ilə əlaqədar baş verən nöqsanlar.

*Dövlət sərhədlərində nəzarətin zəif olması ölkədən kapital axınına şərait yaradır. Çünki belə vəziyyət ölkənin bütün sərhəd məntəqələri boyunca səmərəli gömrük nəzarətinin təşkilinə mane olur. Nəticə etibarilə ölkənin iqtisadi maraqlarını lazımi səviyyədə təmin edə bilmir. Bu gün Azərbaycanın öz ərazilərinin 20%-dən çoxuna nəzarət edə bilməməsi ilə əlaqədar olaraq Dağlıq Qarabağ ərazisindən təbii sərvətlərimizin talan edilməsi, daşınıb aparılması, eləcə də həmin ərazilərdən narkotik maddələrin əkilib becərilməsi və onların daşınmasında tranzit kimi istifadə edilməsi də respublikamızın iqtisadiyyatı üçün olduqca mənfi nəticələr yaratmaqdadır.*

Qeyd etmək lazımdır ki, kapital axınının miqyasının müəyyənləşdirilməsi vergi və investisiya siyasətinin, valyuta-maliyyə tənzimlənməsinin səmərəliliyinin qiymətləndirilməsində əhəmiyyətli rol oynayır.

Kapital axınının miqyasının qiymətləndirilməsi investorların ölkənin milli valyutasına və bütövlükdə dövlətin iqtisadi siyasətinə qarşı inamını xarakterizə edən göstəricilərdən (indikatorlardan) biridir.

Kapital axınının qiymətləndirilməsindəki ziddiyyətlər onun miqyasının təyin edilməsi metodikasının əsaslandırılmasına böyük əhəmiyyət verir. Hesablamaların əsasını Ümumdünya Bankının metodikası təşkil edir. Birincisi, bu halda müxtəlif tipli və iqtisadi inkişaf səviyyəsi olan ölkələrdə kapital axını miqyasının müqayisəsi üçün vahid metodoloci baza təmin edilir. İkincisi, Ümumdünya Bankının metodikası kapital axınının mahiyyətini və onun başvermə üsulları və kanallarının müxtəlifliyinin geniş izahına əsaslanır.

Ümumdünya Bankı mütəxəssislərinin istifadə etdikləri metod qalıq məbləğlər metodu adlanır və ölkənin tədiyyə balansının məlumatlarına əsaslanır.

Kapital axınının həcmi qısamüddətli şəxsi qeyri-bank kapitalının hərəkəti saldosu, xarici depozit və kommersiya banklarındakı dəyişikliklər, portfel investisiyalar saldosu, «xəta və buraxılış» balansının maddələrinin (dərəcələri) cəmi kimi təyin edilir.

Kapitalın hərəkət saldosu, onun xarici axını, qeyri-qanuni kapital daşınmasının natamam əhatə olunması göstəriciləri əsasında kapital axınının hesablanması mürəkkəblik törədir. Bu mənada kapital axınının miqyasını hesablamaq üçün A.S.Bulatov daha etibarlı balans dərəcələrindən istifadə etməyi məsləhət görür. Bunlar cari əməliyyatlar hesabına kapital axını, qızıl valyuta ehtiyatlarının dəyişməsi və xarici borcun həcmidir.

Tədiyyə balansı əsasında kapital axınının miqyasının qiymətləndirilməsi metodu ilə yanaşı, əlavə təhlil vasitəsi kimi kapital axınının baş verdiyi ayrı-ayrı kanalların ekspert qiymətləndirilməsindən də istifadə olunur.

Kapital axını vergi daxilolmalarının həcmini əhəmiyyətli dərəcədə azaldır, ölkənin valyuta ehtiyatları kəskin şəkildə azalır və xarici borcların qaytarılma mənbələri tükənir. Kapital axını eyni zamanda tədiyyə balansının ehtiyatlarını zəiflədir. Nəzərə alsaq ki, ölkədən çıxarılmış vəsaitlərin yenidən ölkəyə qaytarılması ölkənin qızıl valyuta ehtiyatlarını əhəmiyyətli dərəcədə artıraraq, fond bazarının daha yüksək dərəcədə sabitliyinə şərait yaradır, o zaman kapital axınının qarşısını almaq üçün xüsusi tədbirlər sisteminin işlənib-hazırlanmasının əhəmiyyətini dərk etmək o qədər çətin olmaz. Bu tədbirlərin bəziləri ilə tanış olaq.

Birincisi, kapitalın ölkəyə qaytarılmasına zəmin yaratmaq üçün əlverişli ümumi iqtisadi şəraiti formalaşdırmaq məqsədəuyğun olardı. Dünya təcrübəsi göstərir ki, kapitalın ölkəyə qayıtması kapital axını problemi ilə üzləşmiş ölkənin iqtisadiyyatının stabilləşmədən iqtisadi artıma keçməsi, investisiya mühitinin sağlamlaşdırılması, investisiyaların iqtisadi və siyasi risklərdən etibarlı təminat sistemini formalaşdırmaq, sabit və şəffaf vergi sistemi yaratmaqdan asılıdır. Xarici partnyorlarla əlaqəyə girməklə, kapitalın ölkəyə qaytarılması prosesini müəyyən qədər yüngülləşdirmək olar.

İkincisi, gömrük, valyuta və bank nəzarəti üzrə tədbirlərin işlənib-hazırlanması. Bu mənada, bazar alətlərini təkmilləşdirmək, fond bazarlarının şəffaf və sabitliyi üçün şərait yaratmaq, korporativ qiymətli kağızlar bazarı hesabına fond bazarının həcminin genişləndirilməsi vacibdir. Əks halda yuxarıda qeyd etdiyimiz istiqamətlər üzrə tədbirlər sistemi ölkədən çıxarılmış kapitalın geri qaytarılmasına öz-özünə kömək edə bilməz.

Üçüncüsü, bank sisteminə qarşı inamın artırılması və əhalinin banklardakı vəsaitlərinin saxlanılmasına təminatın gücləndirilməsi, möhkəmləndirilməsi üzrə tədbirlərə xüsusi əhəmiyyət vermək lazımdır. Etibarlı bank sistemi olmadan depozitlərin sığortalanması dövlət maliyyəsi üzərinə əlavə yük ola bilər, çünki kifayət dərəcədə likvidli olmayan qeyri-tədiyyə qabiliyyətli bankların müflisləşməsi nəticəsində üzləşdikləri itkilər depozitlər üzrə ödəmələrin sığortalanması hesabına əvəz oluna bilməz.

Dördüncüsü, bank depozitlərinin məbləğində sərbəst olaraq dövr edə bilən və dollara mübadilə olunan sertifikatların buraxılışı barəsində tövsiyələr hazırlamaq. Bu tövsiyələr milli valyuta ilə əmanətlər toplanmasına stimul yaradaraq, onların müsadirə olunmasına qarşı təminat ola bilər. Bu ideya təkcə əmanətlər baxımından deyil, investisiya potensialının artırılması məqsədilə ətraflı, dərin təhlil edilməlidir.

Beşincisi, ölkədə aparıcı bankın (Milli Bankın) və aparıcı kommersiya banklarının xarici təşkilatlarla birgə kapital axınının mexanizmləri və kanallarının təhlili, ölçüsünün (miqyasının) qiymətləndirilməsi üzrə məsləhətlər aparılması məqsədəuyğun olardı. Bəzi halda ölkənin Mərkəzi Bankı ilə xarici bank arasında ölkədən qanunsuz çıxarılmış kapitalın ölkəyə qaytarılması formaları və şərtləri haqqında xüsusi razılaşma hazırlanması barədə danışıqlar aparıla bilər.

Altıncısı, kapitalın ixracının tənzimlənməsi üzrə qanunverici bazanı genişləndirmək vacibdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatı inkişaf etdirmək, yüksək iqtisadi artım tempinə nail olmaq üçün iqtisadiyyata yatırılan investisiyaların həcmi artırılaraq ÜDM-un minimum 25-30%-ni təşkil etməlidir. Bu həddi qiymətlərindən biri kimi qəbul edilə bilər. Yalnız bu yolla istehsal güclərinin tam qüvvəsilə işini təmin etmək və geniş təkrar istehsal prosesi üçün şərait yaratmaq olar. İnkişaf etmiş

ölkələrdə bu göstərici 40%-ə çatır. Lakin bəzi ölkələr üçün bu problemin həlli ÜDM-də yığımın payını onun istehlak olunan hissəsinin azaldılması hesabına artırmaq məcburiyyəti ilə üzləşdiyi halda mümkün olursa, əhalisinin 30-40%-i, (hətta 50%-ə qədəri də) yoxsulluq həddində yaşayan dövlətlər üçün bu bir o qədər də real görünə bilməz.

Qeyd etmək lazımdır ki, dövlət investisiya proqramlarının reallaşması üçün başqa bir yol kommersiya strukturları tərəfindən hazırlanmış investisiya layihələrinin müəyyənləşdirilməsi üçün hər il Dövlət büdcəsindən vəsaitin ayrılmasıdır. Lakin dövlətin bu layihələrdə iştirakı müəyyən bir səviyyəyədək tənzimlənir. Bu istiqamətdə dövlətin apardığı siyasətin istehsala səmərəli kapital qoyuluşu prinsipləri və strateji maraqlarından irəli gələn tələblərə bir sıra uyğunsuzluğu, tam əhəmiyyət verməməsi kapital qoyuluşu bazarında vəziyyəti sabitsizləşdirərək, şəxsi investorların dövlətə qarşı inamsızlığına səbəb ola bilər. Aparılan büdcə siyasəti ilə iqtisadiyyatın böhrandan çıxarılması istiqamətində ən mühüm investisiya vəzifələrinin həlli imkanları arasında uyğunsuzluq yaranır.

Ölkədə texnoloci innovasiyalara ayrılan xərclərin xeyli hissəsi kapital qoyuluşlarının həcmi ilə müəyyən edilir. Bu məsələlər sırasına fəaliyyətdə olan, mövcud müəssisələrin yenidən qurulmasına kapital qoyuluşları, elmi-texniki tərəqqinin nailiyyətləri əsasında istehsalın təkmilləşdirilməsi və onun texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi ilə əlaqədar yeni obyektlərin, sexlərin, həmçinin müəssisələrin yaradılmasına kapital qoyuluşları aiddir. İstehsal təyinatlı kapital qoyuluşlarının, demək olar ki, yarısı mövcud müəssisələrin yenidən qurulması və texniki-texnoloci silahlanması məqsədlərinə yönəldilir. Lakin bu, investisiyaların həcminin azalması amili nəzərə alınarsa, istehsalın kütləvi şəkildə yenidən silahlanması üçün kifayət deyildir. Göstərilən istiqamətdə innovasiya məqsədli kapital qoyuluşlarından istifadə edən sənaye nəhənglərinə əlvan və qara metallurgiya sahələri aiddir.

İnnovasiya xərcləri arasında elmi tədqiqatlara və araşdırmalara ayrılan vəsaitlər nisbətən çoxluq təşkil edir. Ümumi innovasiya xərclərinə texnologiyanın alınması, marketinq tədqiqatları mütəxəssis hazırlığı (heyətin təlimi və hazırlığı), istehsalın texnologi hazırlığı və digər cari xərclər aiddir. Onu da qeyd edək ki, innovasiya sferasında elmi tədqiqat və eksperimental bazanın inkişafı üçün ayrılan kvota, məbləğ həddi qiyməti göstəricisidir.

Elmi-texniki sahələrin inkişafı və elm, texnika sahəsində xidmətlərin idxal və ixrac göstəricisi də innovasiya sferasında növbəti həddi qiymətlərindəndir.

Ölkədə olan mürəkkəb sosial-iqtisadi vəziyyət elmi-texniki sferanın maliyyə vəziyyətinə mənfi təsir göstərir. Müəssisələrin innovasiya sferasında passivliyi elmi sahələrin təminatında əsas yükün Dövlət büdcəsi üzərinə düşməsinə səbəb olur. Bu sahələrə ayrılan maliyyə vəsaitlərinin

azalması elmi müəssisələrin böhran vəziyyətinə səbəb olur. İnkişaf etmiş ölkələrdə elmi sahələrə ayrılan maliyyə vəsaitlərinin ÜDM-də payı 1996-cı ildə Yaponiyada 3%, Almaniyada 2,8%, ABŞ-da 2,75%, İsveçdə 2,6%, Fransada 2,4% olmuşdur. Aparıcı ölkələrdə burada dövlətin payı ÜDM-in 1%-nə yaxın, yaxud da ümumi məbləğin üçdə biri həcmində olmuşdur. Dünya təcrübəsi göstərir ki, elmi-texniki kompleksin kömək üçün ayrılan vəsaiti ÜDM-un 1%-dən az olmamalıdır, əks halda elmi-texniki potensialın dağılması baş verir. Bu göstərici innovasiya sferasında növbəti həddqiymətidir.

İnnovasiya fəallığının səviyyəsi və innovasiyanın strukturu innovasiya tsikllərinin fazalarına görə fərqlənirlər. Bu tsikllər ortamüddətli, uzunmüddətli və həddindən artıq uzunmüddətli olur. İnnovasiya dalğasının pik səviyyəsi iqtisadiyyatın canlanma fazasında müşahidə edilir. Böhran və tənəzzül şəraitində innovasiya fəallığı kəskin şəkildə aşağı düşür – bu zaman yalançı innovasiya geniş yayılır. Yeni texnologiyanın formalaşması və xüsusilə, yeni texnoloci istehsal üsuluna keçid şəraitində bu dalğa daha çox müşahidə edilir.

Göstərməliyik ki, müəyyən dövr ərzində ÜDM-in sahə strukturuna diqqət yetirdikdə aydın olur ki, həmin sahələrə yönəldilən investisiyalar və oradakı innovasiya mühiti bütövlükdə iqtisadi fəallığı əks etdirir. Başqa sözlə, innovasiya fəallığına olan marağın artması nəticə etibarilə sahələr üzrə iqtisadi artıma olan marağın olması deməkdir.

İnnovasiya tsiklləri elmi tsikllərlə, istehsal tsikllərilə ayrılmaz şəkildə əlaqəlidir. Birincilərə elmi kəşflərin, ixtiraların reallaşması, ikincilərə isə iqtisadi artım tempindəki və istehsalın səmərəliliyi ilə bağlı dəyişmələr, artıb-azalmalar nəzərdə tutulur. İnnovasiya fəallığına maraq oyadan mexanizm elmi-texniki tərəqqinin müxtəlif fazaları üzrə əmtəələrin rəqabətqabiliyyətliliyi və rentabelliyinin dəyişməsidir. Elmi yenilikləri, yeni texnologiyaları birinci olaraq mənimsəyən sahibkarlar xərclərin ilk artımından sonra bazara daha keyfiyyətli məhsullar çıxara və daha az məsrəflərlə məhsul istehsalına nail ola bilirlər. Texniki tərəqqinin səviyyəsi ilə ayaqlaşmayan sahibkarlar isə köhnəlmiş texnologiya ilə məhsul istehsal edərək, bazarda itkilərlə üzləşirlər. Onların fəaliyyətlərində baş verən diferensial elmi-texniki itkilər nəticəsində bu müəssisələr dağılır, yaxud da həmin müəssisələrin sahibləri innovasiyanın tətbiqi məcburiyyətində qalırlar.

İnnovasiyanın reallaşması müxtəlif fazalar üzrə miqyası və risklik dərəcəsi fərqli olan investisiyaların köməyilə həyata keçirilir. Böhrandan çıxış dövründə, genişmiqyaslı iqtisadi canlanma şəraitində müəssisələr tərəfindən bazis innovasiya mənimsənilir. Bu, yeni texniki və texnologiyanın mənimsənilməsi, yeni müəssisələrin tikilməsi yaxud mövcud müəssisələrin texniki cəhətdən yenidən qurulması üçün uzunmüddətli, nəhəng, olduqca rikqli investisiya layihələrinin reallaşmasını tələb edir. Bu istiqa-

mətdə dövlət iqtisadiyyatın tərəqqisi və onun rəqabətqabiliyyətliliyinin yüksəlməsi üçün birbaşa, yaxud da dolayısı ilə bu layihələrə yardım göstərir.

İnnovasiya və investisiyanın proqnozlaşdırılması uzunmüddətli perspektiv proqnoz və konsepsiyaların işlənib-hazırlanmasının tərkib hissəsidir. İnnovasiya-investisiya fəallığı proqramı bir neçə mərhələdə işlənib-hazırlanır: sahələrarası komplekslər, regionlar, sahibkarlıq fəaliyyəti səviyyələri üzrə (kiçik biznesin ayrılması şərtilə), həmçinin əsas parametrlər üzrə oxşar proqnozlar.

Yerli müəssisələr investisiyaların aşağıdakı maliyyələşdirilməsi mənbələrindən istifadə edə bilərlər:

- investisiya əməkdaşlığının müxtəlif formaları;
- səhmlərin buraxılışı və satışı;
- müxtəlif nazirliklərin investisiya müsabiqələrində iştirakı;
- güzəştli dövlət kreditləri;
- xarici banklar tərəfindən istehsalın yenidən qurulması üçün ayrılan kreditlər;
- səmərəli investisiya layihələrinin reallaşmasından əldə edilən gəlirlər hesabına öz-özünü maliyyələşdirmə.

Xarici şirkətlər yerli müəssisələri daxili bazardan çıxarırsa, bunun nəticəsində ölkədə investisiyaları özü maliyyələşdirə bilən müəssisələrin sayı da azalır. İnvestisiyaların maliyyələşdirilməsinin yuxarıda göstərdiyimiz mənbələri müəssisələrin yeni fəaliyyət formalarının məzmununa daxildir və durğunluq, böhranlar şəraitində, müəssisələrin qeyri-ödəmələrinin artması nəticəsində bu formaların yerli müəssisələr tərəfindən mənimsənilməsi çətinləşir.

Elmi ideyaların, elmi işlərin, innovasiya ideyalarının reallaşması bazar iqtisadi sisteminə xas prioritet məsələlərdəndir.

İnvestisiya fəaliyyətinin tənzimlənməsi dövlətin iqtisadi siyasət strategiyası çərçivəsində həyata keçirilməlidir. Burada əsas tənzimləyici alət ayrı-ayrı iqtisadi sferalar və regionlar, bütövlükdə ölkə iqtisadiyyatının prioritet inkişaf istiqamətlərinə yönəlmiş investisiya proqramları və layihələri olmalıdır. Bu məsələlərin həlli birinci olaraq, sabit struktur dəyişikliklərinin təmin edilməsi, ikincisi isə dövlət və şəxsi müəssisələrin investisiya fəaliyyətlərinin iş mexanizmini və özünütənzimləməsini müəyyən edən iqtisadi vasitələrdən uyğun şəkildə istifadə etməklə əlaqədardır. Burada qarşılıqlı əlaqəli iqtisadi-təşkilati tədbirlər həyata keçirmək vacibdir. Keçid iqtisadiyyatı şəraitində müxtəlif iqtisadi sfera və regionlar üçün prioritet investisiya istiqamətlərinin əsaslandırılmasında yeni texniki-iqtisadi metodların işlənib-hazırlanması çətin olsa da, həlli vacib məsələdir. Bu metodlar bazar iqtisadiyyatı konsepsiyaları ilə ziddiyyət təşkil etməməlidir.

Mühüm məsələlərdən biri də investisiya layihələrinin iqtisadi cəhətdən tənzimlənməsində dövlətin iştirak payının müəyyən edilməsidir. İnvestisiya siyasətinin reallaşmasında dövlətin ikili funksiya daşıması əsas təşkil edir. Bir tərəfdən dövlət müvafiq qanunverici bazanın yaradılması ilə iqtisadi mühitin formalaşmasını müəyyənləşdirir, digər tərəfdən isə istehsal-təsərrüfat komplekslərinin sahibi kimi onların inkişafı istiqamətində investisiyalaşmanı özü həyata keçirir.

Ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək üçün dövlət tərəfindən investisiyalar ayrılan prioritet iqtisadi sferalar aşağıdakılardır:

- istehsal-iqtisadi əlaqələrin qurulması nəticəsində idxalı əvəz edən məhsulların istehsalının bərpası. Belə vacib əhəmiyyətli məhsulları istehsal edən müəssisələrin aşağı rentabelliklə işləməsi dövlətin fəal şəkildə onların fəaliyyətinə yardım etməsinə, maliyyələşdirməsinə zərurət yaradır;
- rəqabətqabiliyyətli məhsullar buraxan müəssisələr. İnhisar strukturlarının təsiri ilə formalaşan qiymətlərdən qorunmaq məqsədilə bu müəssisələrə kömək etmək onların istehsal xərclərini azaltmaq zərurətindən irəli gəlir;
- uzun müddət yüksək tələbat duyulan məhsulların istehsalı;
- daha yüksəkkeyfiyyətli və ya yeni məhsul növlərinin buraxılışını mənimsəyən müəssisələr;
- istehsal və sosial infrastruktura.

Prioritetlərin müəyyənləşməsində vacib məsələlərdən biri büdcədən investisiyaların ayrıldığı prioritet sahələr probleminin həllidir. Texniki sistemlərin təhlükəsiz fəaliyyəti və həyati vacib istehsala (yəni, AES-in təhlükəsiz fəaliyyəti, nəqliyyatda təhlükəsizlik, radioaktiv tullantıların utilizasiya və saxlanması üçün obyektlərin tikintisi və s.) yardım məqsədilə ayrılan xərclər başa düşülür.

# XI FƏSİL

# DÖVLƏTİN SOSİAL SİYASƏTİ

***«Sosial məsələlər dövlət siyasətinin prioritet istiqamətidir»***

**İlham Əliyev**

## 11.1.Sosial siyasətin həyata keçirilməsinin başlıca istiqamətləri

Dünya ölkələrinin təcrübəsi göstərir ki, güclü sosial siyasət yeridən dövlət öz vətəndaşlarının hüquq və azadlıqlarının təminatı sahəsində konstitusiya borcunu yerinə yetirmiş olur. Belə ki, bununla da dövlət vətəndaş cəmiyyətinin digər subyektləri ilə birlikdə sosial siyasətin strategiyası və prioritetlərini işləyib hazırlayır.

Sosial siyasətə demoqrafik, əhalinin məşğulluğu və əmək bazarı, səhiyyə, təhsil, mədəniyyət və s. sahələrə aid göstəricilər daxildir. Bundan başqa, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlığın aradan qaldırılması və kriminal ünsürlərlə mübarizə, ekologiyanın yaxşılaşdırılması, insan hüquqlarının təmin olunması da sosial göstəricilərə aiddir.

Qeyd etmək lazımdır ki, özünün sosial siyasətində bu göstəriciləri nəzərə alan dövlət, bu sahədə daha böyük uğurlar qazanır. Bunlar isə öz əksini iqtisadi sistemə xas olan milli təsərrüfatın təşkili modellərində tapır. Bu modellərin xarakteri isə ölkələrin tarixi keçmişlərinə, iqtisadi inkişaf səviyyələrinə, millətin adət-ənənələrinə, mentalitetinə və s. əlamətlərinə görə fərqlənməsi ilə əlaqədardır.

Dünya ölkələrində mövcud olan və diqqəti daha çox cəlb edən müxtəlif bazar iqtisadiyyatı modelləri vardır. Dünyada daha çox «tanınan» milli modellər Amerika, İsveç, Almaniya, Yaponiya, Cənubi Koreya modelləri və başqalarıdır. İqtisadçıların fikrincə, bunların içərisində Almaniyanın «sosial yönümlü bazar iqtisadiyyatı» və İsveçin «sosial-demokrat» modelləri sosial təmayüllü modellərdir.

Almaniyanın sosial bazar iqtisadiyyatı modeli İkinci Dünya müharibəsindən (1939-1945-ci illər) sonra geniş yayılmışdır. Sosial bazar iqtisadiyyatı modeli müharibədən sonrakı dövrdə klassik şəkildə öz əksini alman maliyyəçisi və siyasi xadimi L.Erhardın iqtisadi islahatlarında tapmışdır. Keçən əsrin 50-60-ci illərində həmin modeldən Avropanın digər ölkələrində, xüsusilə də Avstriya və Belçikada istifadə olunmuşdur.

Almaniyanın sosial yönümlü bazar iqtisadiyyatı modeli özündə aşağıdakı cəhətləri birləşdirir:

- qarışıq iqtisadiyyat az və ya çox dərəcədə dövlət bölməsinin mövcudluğu ilə səciyyələnir;

- təsərrüfatçılıq edən subyektlərin fəaliyyəti dövlət tərəfindən tənzimlənir;

- iqtisadiyyatın sosial yönümlülüyü, dövlətin qayğısı cəmiyyətin bütün üzvləri üçün eyni dərəcədə həyata keçirilir, bu yolla əhalinin səhiyyə, təhsil, mədəniyyət və mənzilə olan tələbatının ödənilməsinə təminat verilir;

- azad rəqabətin qorunub saxlanması, tənzimlənmə yolu ilə kApitalın az miqdarda əllərdə toplanmasının qarşısının alınması, yeni təsərrüfat vahidlərinin yaradılmasına xüsusi diqqət yetirilir;

- işsizliyin azaldılması və əhalinin məşğulluğunun tənzimlənməsi diqqət mərkəzində saxlanılır.

Qeyd etmək lazımdır ki, İsveçin «sosial demokratik modeli» Almani-ya modeli ilə bir sıra oxşar cəhətlərə malik olsa da, onun spesifik xüsusiyyətləri də vardır.

«İsveç modeli» termini keçən əsrin 60-cı illərində İsveçdə aparılan islahatların sürətli iqtisadi artımla əlaqələndirilməsi zəminində uğurlu sosial siyasət yeridiliməsi ilə əlaqədar olaraq meydana gəlmişdir. Bu modeli «ümumi rifah dövləti» nin inkişaf etmiş forması ilə eyniləşdirirlər.

İsveç iqtisadiyyatının qarışıq xarakterdə olması və bazar münasibətləri ilə dövlət tərəfindən tənzimlənmənin əlaqələndirilməsi istehsal dairəsində xüsusi mülkiyyətin və istehlakın üstünlüyə malik olması ilə tamamlanır.

İsveç modeli bu ölkənin iqtisadi siyasətində iki əsas məqsədin üstünlüyə malik olması ilə səciyyələnir. Bu isə tam məşğulluğun təmin edilməsi və gəlirlərin bərabərləşdirilməsidir. Bu siyasət əmək bazarında fəal siyasət yeridilməsində, dövlət tərəfindən maliyyə resurslarının çox böyük hissəsinin sosial və iqtisadi məqsədlər üçün səfərbərliyə alınması və yenidən bölüşdürülməsində özünü göstərir.

İsveç modelini çevik iqtisadi siyasət yeritməklə əhalinin tam məşğulluğu ilə qiymətlərin sabitliyinin bir-birilə əlaqələndirilməsini özündə əks etdirən model kimi müəyyən etmək olar. İsveçə xas olan spesifik amil xarici siyasətdə onun həyata keçirdiyi bitərəf siyasətdir.

İsveç modeli özündə aşağıdakı spesifik cəhətləri birləşdirir:

- işsizlik səviyyəsinin aşağı olması;
- əməkhaqqı sahəsində həmkarlır ittifaqlarının həmrəylik siyasəti;
- əməkhaqqının mərkəzləşmiş qaydada tənzimlənməsi;
- dövlət bölməsinin yüksək, xüsusi çəkiyə malik olması;
- ağır vergi yükünün mövcud olması.

Qeyd etmək lazımdır ki, keçən əsrin 90-cı illərində İsveç modelinin nəzərə çarpan bu və ya digər mənfi cəhətləri aradan qalıdırılmışdır.

XX əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyimizi bərpa etdikdən sonra qurmağa başladığımız bazar iqtisadiyyatı sistemi daxilində təsər-

rüfat təşkilinin Azərbaycan modeli tarixi təcrübəmiz, coğrafi-iqtisadi mövqeyimiz və digər amillər nəzərə alınmaqla yaradılır.

Azərbaycanın yeni iqtisadi sistemə keçməsi isə təkcə iqtisadi problemlərin həll edilməsindən asılı deyildir. Çünki iqtisadi problemlər sosial problemlərlə birlikdə həll edildikdə daha yaxşı səmərə verir. Başqa sözlə, iqtisadiyyatda əldə edilən nailiyyətlərdən həm də, sosial problemlərin həlli üçün istifadə olunduqda insanlarda cəmiyyətə, hakimiyyətə, dövlətə daha çox inam yaranır.

Azərbaycan dövlətinin bazar iqtisadiyyatı şəraitində sosial siyasətinin əsas istiqamətləri bunlardır:

- əməyin ödənilməsinin minimum məbləğinə dövlət tərəfindən təminat verilir, onun qalan məsələləri – əməkhaqqının forma və sistemləri, mükafat, haqq, əlavə haqq və s. müəssisələrin özləri tərəfindən müstəqil surətdə, dövlət orqanlarının müdaxiləsi olmadan həll edilir, fərdi əməkhaqqı məhdudlaşdırılmır və yalnız gəlir vergisi vasitəsilə, büdcədən maliyyələşdirilən sahələrdə isə dövlət tərəfindən tənzimlənir;
- əmək qabiliyyəti olmayan əhaliyə və tələbələrə sosial yardım gücləndirilir, minimum istehlak büdcəsinə, uşaqların doğulması və tərbiyə edilməsi ilə əlaqədar, habelə əlillərə verilən müavinətlər və tələbələrin təqaüdü vaxtaşırı görülən tədbirlər nəticəsində bazar iqtisadiyyatına uyğunlaşdırılır;
- minimum istehlak büdcəsinin müəyyən edilməsi və əhalinin inflyasiyadan müdafiə olunması mexanizmi hazırlanır və həyata keçirilir;
- ölkə iqtisadiyyatının inkişafı ilə əhalinin sosial vəziyyəti əlaqələndirilir;
- sosial, ekoloji, demoqrafik vəziyyəti yaxşılaşdırmaq üçün iqtisadiyyatın tarazlı inkişafını təmin edir.

Azərbaycan dövləti beynəlxalq təcrübəni nəzərə alaraq əhalinin sosial müdafiəsinə daim xüsusi diqqət yetirir, bunun özü başlıca funksiyalardan biri hesab edilir. Bunlar öz əksini Azərbaycan Respublikası Konstitusiyasında tapmışdır. Konstitusiyanın 38-ci maddəsində deyilir: «hər kəsin sosial təminat hüququ vardır… hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir».

Respublikamızda son dövrdə aparılan uğurlu siyasət iqtisadiyyatda köklü dəyişikliklərə səbəb olub ki, bu da əhalinin həyat səviyyəsinin yüksəlməsini təmin edib.

Respublikamızda əhalinin sosial müdafiəsinə təminat verən bir sıra qanunlar qəbul olunmuş və sonralar onlara müəyyən dəyişikliklər və əlavələr edilmişdir. Bunlara «Məşğulluq haqqında», «Minimum istehlak büdcəsi haqqında», «Vətəndaşların pul gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsi haqqında», «Vətəndaşların pensiya təminatı haqqında»,

«Məzuniyyətlər haqqında», «Əlillərin sosial müdafiəsi haqqında» və s. qanunları misal göstərmək olar.

*Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində sosial sferanın hərtərəfli inkişafı mühüm rol oynayır. İqtisadi təhlükəsizliyin təmin edilməsinin sosial amillərlə əlaqəli təhlili aşağıdakıların qiymətləndirilməsini tələb edir:*

*- ölkənin müdafiə qabiliyyətinin təmin edilməsi və iqtisadi inkişaf qabiliyyəti, geniş təkrar istehsal rejiminin fəaliyyəti nöqteyi-nəzərindən insan kapitalı, əmək və mütəxəssis potensalının qiymətləndirilməsi; bu potensalın perspektiv inkişaf meyilləri və inkişaf etmiş ölkələrin uyğun göstəricilərinin səviyyəsi ilə müqayisədə onlardan istifadə səmərəliliyinin qiymətləndirilməsi;*

*- sosial sabitlik və əhalinin sosial fəallığı (təbii hərəkatının canlanması, qızışması nöqteyi-nəzərindən);*

*- həyat səviyyəsi və onun keyfiyyəti (əhalinin təkrar istehsalı və demoqrafik potensialın bərpası, məşğulluq səviyyəsi, real və perspektiv işsizlik, kriminogen vəziyyət baxımından).*

*Qeyd etmək lazımdır ki, göstəricilərin seçilməsində bir sıra tələblər nəzərə alınmalıdır. Belə ki, ilk növbədə bu, göstəricilərin sosial sferadakı real və potensial təhlükəni tam əks etdirməsi və ölkənin hesablama, statistika və proqnozlaşdırma sisteminə uyğunluğu tələbidir.*

*Sosial sferada mövcud vəziyyətin dinamikasını qiymətləndirmək üçün müəyyən edilmiş göstəricilər və meyarlar sisteminin təkmilləşdirilməsi sosial siyasətin prioritetlərini dəqiqləşdirməyə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.*

*Dünya ölkələrinin təcrübəsi göstərir ki, əhalinin kütləvi şəkildə yoxsullaşması, həyat keyfiyyətinin aşağı düşməsi, əhalinin sağlamlıq səviyyəsinin pisləşməsi, reproduktiv potensialın aşağı düşməsi və genofondun zəifləməsi, ölkədə istehsalın dağılması fonunda təhsil və intellektual potensialın tədricən tənəzzülə uğraması, kadrların hazırlanması və təhsil sisteminin keyfiyyətinin aşağı düşməsi, ixtisaslı mütəxəssislərin xaricə axını, əhalinin milli xüsusiyyətlərinə yad olan həyat tərzinin yayılması, qanunsuzluğun, qəddarlığın hökm sürməsi – dövlət idarəetmə orqanlarının fəaliyyət prinsiplərinin ölkə vətəndaşlarının maraqlarına cavab verməməsi, dövlətin sosial siyasətinin düzgün istiqamətlənməməsinin nəticəsidir. Sosial proqramların deklarativ, rəsmi xarakter daşıması, onların dövlətin maliyyə imkanlarına uyğunsuzluğu, sosial sferada həyata keçirilən islahatların sürətinin əhalinin real gəlirləri ilə əlaqələndirilməməsi bu proqramların səmərəliliyini heçə endirir.*

*Qeyd etmək lazımdır ki, dövlətin iqtisadi və sosial siyasətinin məqsəd və prioritetlərinin dəqiqləşdirilməsi, bazar iqtisadiyyatının formalaşması və inkişafı proseslərində dövlətin iqtisadi-tənzimləyici funksiyasının transfor-*

*masiyası spesifikasını nəzərə almaqla sosial-əmək münasibətlərinin dövlət tənzimləməsi mexanizmlərini təkmilləşdirmək tələbi durmadan artır.*

*Onu da qeyd edək ki, sosial siyasətin həyata keçirilməsi zamanı ölkənin regionlarının spesifikası, əhalinin tarixən formalaşmış təsərrüfat fəaliyyətinin təşkili metodları və formaları, məşğulluğu nəzərə alınmaqla, əhalinin sosial təhlükəsizliyi və fiziki mövcudluğu, sağlamlığının təmin edilməsinə diqqətin yönəldilməsi, gələcəkdə əhalinin həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsinin qarşısının alınması, əhalinin tənəzzülünə yol verməmək, iqtisadi artımın strateji əhəmiyyətli amilləri olan təhsil və peşə sisteminin dağılmasının qarşısını almaq, ona imkan verməmək kimi məsələlər də diqqət mərkəzində olmalıdır. Bu sahədə fəaliyyət təxirəsalınmaz vəzifələrin həllindən orta və uzunmüddətli perspektivdə daha yüksək məqsədlərə nail olmağa doğru yönəlməlidir.*

*Bu məsələlərin həllində dövlətin mühüm funksiyası iqtisadi dəyişikliklərin taktikası və prioritetlərinin sosial yönümlü islahatların tempi və prioritetləri arasında dəqiq və ciddi uyğunluğun təmin edilməsidir. Həmçinin, həyata keçirilən hər hansı istənilən iqtisadi xarakterli tədbirlərin sosial nəticələrini əvvəlcədən görmək, gəlirlərin ölkənin iqtisadi yüksəlişinə yönəlmiş yenidən bölüşdürülməsi prosesinin tənzimlənməsi vasitəsilə sosial və iqtisadi mexanizmlərin birləşdirilməsi də bu istiqamətdə əsas dövlət funksiyalarına aiddir.*

*Belə bir vacib məsələyə diqqət yönəldilməlidir ki, dövlət müdaxiləsinin hüdudlarını və təsir dairəsini dəqiq müəyyənləşdirmək və sonrakı dövrlərdə onun nəticələrini düzgün proqnozlaşdırmaq mümkün olsun.*

*Bazar münasibətləri şəraitində əsas sosial problemlərdən biri əhalinin təbəqələşməsinin kəskin xarakter alması və sosial-əmlak fərqlərinin dərinləşməsidir. Bu mənada əməyə münasibətin, eləcə də iqtisadi fəaliyyətin stimullaşdırılmasının yeni formalarının tətbiqi, iqtisadi baxımdan özünümüdafiə sisteminin yaradılması ilə yanaşı, gəlirlərin bölüşdürülməsi siyasəti ilkin imkanların bərabərləşdirilməsi və əhalinin aztəminatlı təbəqəsinin, qruplarının müdafiəsi ilə bağlı tədbirlər sistemini də əhatə etməlidir. Burada, xüsusən aşağıdakılar nəzərdə tutulur: yaşayış minimumu həddində gəlirlərin vergilərdən azad edilməsi, təhsil dövründə güzəştlərin verilməsi, evdə, yaxud da sosial müdafiə müəssisələrində olan qeyri-əmək qabiliyyətli şəxslərə (ruhi xəstələrə) güzəştlərin verilməsi, xeyriyyəçiliyin miqyasının genişləndirilməsi və s.*

*Gəlirlərin bərabər bölüşdürülməsi siyasətində aşağı gəlir səviyyəsinə malik olan əhali qruplarının sosial müdafiəsinə, yaxud da yüksək gəlir səviyyəsinə malik olan əhali qruplarının gəlirlərinin məhdudlaşdırılması istiqamətlərinə üstünlük verilə bilər. Həyata keçirilən siyasətin hər iki istiqaməti özündə birləşdirməsi və vergiqoyma sisteminin sosial güzəştlərin səmərəli təşkilinə istiqamətlənməsi daha yaxşı hal hesab oluna bilər. Tənzimlənmə üst səviyyədə başlamalı və ölkənin iqtisadi inkişafına yönələn*

*tələblərlə sosial proqramların irəli sürdüyü tələblər arasında səmərəli tarazlığın, balansın əldə edilməsinə gətirib çıxarmalıdır. Belə sosial proqramların həyata keçirilməsinə yalnız dövlət deyil, həm də müxtəlif institusional strukturlar və ictimai təşkilatlar da cəlb edilməlidir.*

*İnsanların həyat səviyyəsi ümumi, xüsusi, konkret yanaşma ilə öyrənilir, tədqiq olunur, proqnozlaşdırılır. Belə ki, ayrı-ayrı regionlarda, ayrı-ayrı sosial-iqtisadi qruplarda onların istehlakına, gəlirləri və xərclərinə, sərbəst vaxtlarına balans şəklində baxılır, təhlil olunur. Ona görə də həyat səviyyəsinin öyrənilmə metodikası ümumi inteqral konkret yanaşma göstəricilərinin vəhdəti formasında həyata keçirilir. Sonradan diferensial yanaşma formalaşır. Differensial yanaşma dedikdə, onun yaratdığı amilləri qiymətləndirmək başa düşülür. Məsələn, təhsilin, peşənin xarakterinin həyat səviyyəsinə təsiri, həyat səviyyəsinin diferensiasiyası daha çox ümumi göstərici olan gəlirlərin differensiasiyası və diferensial əmsalı ilə ölçülür.*

*Həyat səviyyəsinin yüksəlməsi istiqamətində sosial infrastrukturlar, onların istehsal gücləri, il ərzində xidmət göstərmək qabiliyyəti, hər 1000 nəfərə, ya da adambaşına düşən səviyyəsi mühüm rol oynayır. Sosial infrastruktur sahələrinə görə, kənd və şəhər yerlərində əhalinin sayı, onların məşğulluq səviyyəsi, əhalinin gəlirləri və rifahı ilə ölçülür. Belə ki, gəlirlərin strukturu yaşayış yerləri ilə əlaqəli şəkildə tədqiq olunur.*

*Sosial siyasətin yalnız dövlət və onun strukturlarının vəzifələri və hüquqları olmasını düşünmək düzgün olmazdı. B.V.Rakitskinin verdiyi tərifə görə, sosial siyasət – müxtəlif, bəzən oxşar maraqları olan sosial qrupların, siniflərin qarşılıqlı münasibətləridir. Bəzən də bu münasibətlər çərçivəsində bütövlükdə əhalinin və onun təbəqələrinin, sosial birliklərin (yəni ailə, xalq, şəhər əhalisi, qəsəbə, region əhalisi və s.) sosial vəziyyətinin dəyişilməsi və saxlanılması maraqları uyğunluq təşkil etmirlər. Sosial siyasətin istiqamətləri müxtəlif sosial qrupların və siniflərin, regionların, yerli özünüidarəetmə orqanlarının maraqları nəzərə alınmaqla dəqiqləşdirilməlidir. Bu amil dövlətin müstəqil sosial siyasət həyata keçirmək imkanlarının məhdudlaşması və onun rolunun zəifləməsinə dəlalət etmir. Əksinə, müxtəlif subyektlərin funksiyalarının dəqiqləşdirilməsi və onlar arasında qarşılıqlı təsirin təmin edilməsi əhəmiyyətini artırır. Sosial siyasət sferasında dövlətin və onun subyektlərinin əsas qarşılıqlı təsir prinsipləri aşağıdakılardır:*

- *bütün regionlar üçün ümumi normaların işlənib hazırlanması;*
- *bərabər siyasi-hüquq və sosial-iqtisadi imkanların təmin edilməsi;*

*Sosial siyasətin aktivliyi prinsipinin həyata keçirilməsi üçün qarşıda duran əsas problem regionların və yerli idarəetmə orqanlarının özlərini onların üzərinə düşən sosial funksiyaları həyata keçirmələri üçün lazımi həcmdə maliyyə vəsaitləri ilə təmin etmək, şəraiti formalaşdırmaq, bu subyektlərə onlar qarşısında duran sosial vəzifələrin icrasına təminat verən*

*həcmdə konkret gəlir növlərini təhkim etməkdən ibarətdir. Mərkəzi dövlət idarəetmə aparatının fəaliyyət prioritetləri aşağıdakılardır:*

*- dövlətin sosial siyasətinin məqsəd və vəzifələrini işləyib hazırlamaq;*

*- bütün ölkə ərazisi üçün sosial sferada vahid davranış qaydalarını müəyyənləşdirmək;*

*- ümumi sosial təminat sistemi və səviyyələrinin (əməkhaqqı, pensiya, müavinət, təqaüd, təhsil, tibbi xidmət) formalaşdırılması;*

*- dövlətin sosial siyasətini həyata keçirməsi üçün qanunvericilik bazasının işlənib-hazırlanması;*

*- böhran vəziyyətlərində regionlara yardım etmək.*

*Belə bir qənaətə gəlmək olar ki, dövlətin sosial siyasəti dedikdə, ölkənin konkret tarixi inkişaf mərhələləri və müəyyən məqsədlərlə əlaqədar olan və müəyyən yekun nəticələr nəzərə alınmaqla təşkilati və maliyyə cəhətdən əsaslandırılmış dövlət fəaliyyəti başa düşülür.*

*Qeyd etmək lazımdır ki, bir çox iqtisadçılar göstərirlər ki, iqtisadi islahatların aparıldığı dövrdə sosial qeyri-bərabərlik əhəmiyyətli dərəcədə kəskinləşmişdir. Təbəqələşmənin yüksək səviyyəsi sosial sabitlik və tərəqqinin təminatçısı olan, eləcə də vətəndaşlıq cəmiyyəti institutlarını qərarlaşdıran orta sinif təbəqəsinin əhəmiyyətli dərəcədə çatışmaması ilə müşayiət olunur. Transformasiya dövrünün əvvəlində orta gəlirlərə (yerli standartlara görə) malik olan və cəmiyyətdə sabitləşdirici rol oynayan bir çox professional qrupların nümayəndələri (həkimlər, təhsil işçiləri, alimlər, mühəndislər) bu gün əksər hallarda «yeni yoxsullar» arasında yer almışdılar. Yoxsulluq və sosial bərabərsizlik problemlərini müəyyən səviyyədə dövlətin sosial təminat orqanları həll etməyə çalışırlar. Məhz bu orqanların Vasitəsilə yoxsullara yardım proqramları həyata keçirilir.*

*Ölkədə sosial gərginliyi azaltmaq üçün aşağıdakı prioritet istiqamətlər üzrə təkmilləşdirilmələr aparılmalıdır: fəal məşğulluq siyasətinin aparılmAsı; əhalinin həyat səviyyəsinin aşağı düşməsinin qarşısını almaq, aztəminatlı ailələrin etibarlı sosial müdafiə sistemini təşkil etmək məqsədilə orta sinfin formalaşması istiqamətində gəlir və vergi siyasətinin aparılması; cəmiyyətin mənəvi-əxlaqi dəyərlərinə qayıdış, onun əsaslarının bərpası, yüksəlişinə nail olmaq, ailənin əsaslarının möhkəmləndirilməsi və bu istiqamətdə dövlətin bütün təsir, təhsil vasitələrindən, o cümlədən mətbuatdan geniş istifadə edilməsi.*

*Dövlətin iqtisadi təhlükəsizlik strategiyasında əsas təhlükə amilləri sırasında birincisi, əhalinin əmlak səviyyəsinə görə təbəqələşməsinin sürətlənməsi və yoxsulluq səviyyəsinin yüksəlməsidir. Bu meyil, sosial sabitliyin, ictimai həmrəyliyin və sosial maraqlardakı balansın pozulması təhlükəsini yaradır. Sosial sferada qeyri-sabitliyə səbəb olan əsas amillər sırasına aşağıdakılar aiddir:*

- cəmiyyətin varlılar və yoxsullar olmaqla iki təbəqəyə ayrılması; Birincilərə əhalinin az bir hissəsi, ikincilərə isə gələcəyə heç bir inamı olmayan və əhalinin böyük əksəriyyəti daxildir;

- kəndlə müqayisədə şəhərlərdə yoxsul əhalinin sayının çox olması. Bu nisbət olkədə sosial və kriminal gərginlik yaradaraq, narkomaniya, alkoqolizm, cinayətkarlıq, fahişəlik və s. kimi neqativ halların miqyasının genişlənməsinə səbəb olur.

- sosial münaqişələrə səbəb olan işsizliyin səviyyəsinin artması;

- əmək haqlarının ödənilməsinin ləngidilməsi, müəssisələrin fəaliyyətinin dayanması;

- cəmiyyətdə, təsərrüfat fəaliyyəti sferalarında və digər sahələrdə cinayətkarlıq elementlərinin çoxalması.

*Sosial sferada iqtisadi təhlükəsizliyə qarşı yönələn təhdidlər sırasında iqtisadi xarakterli yaxın səbəblər çoxdur. Bunlar müəssisələrin qeyri-sabit maliyyə vəziyyəti, qeyri-əlverişli investisiya mühiti və s.- dir.*

İşsizlik, qeyri-ödəmələr, əhalinin təbəqələşməsi, cinayətkarlığın artması amilləri milli iqtisadiyyatın inkişafı, insan kapitalının, əmək potensialının təkrar istehsalı üçün birinci dərəcəli təhlükə mənbələri, təhdidlərdir. Lakin cəmiyyətin tənəzzülü prosesinin getdikcə dərinləşməsi və əhalinin surətlə təbəqələşməsi də ölkə iqtisadiyyatı və milli təhlükəsizliyi üçün ciddi təhdidlərdir. Çoxcəhətli olmaları ilə yanaşı, bu proseslərin getdikcə dərinləşməsi və sürətlənməsi ölkə üçün milli fəlakətə çevrilə bilir.

Yoxsulluq problemindən fərqli olaraq əhalinin və cəmiyyətin tənəzzülü prosesinin qarşısını almaq olduqca çətin bir məsələ olub, bütün olkə həyatı üçün dağıdıcı təsirə malik amil kimi onun aradan qaldırılması, dövlətin təxirəsalınmaz müdaxiləsinə böyük zərurət yaradır. Onu da qeyd edək ki, bu problemin həlli təkcə iqtisadi amillərlə deyil, eləcə də hər bir xalqın mənəvi-əxlaqi keyfiyyətləri, qədim adət-ənənəsi, dini, milli mentaliteti ilə birbaşa bağlıdır. İslahatlar və istehsal sferasındakı böhranlar cəmiyyətin parçalanma prosesinin ilkin səbəbi yox, bu prosesin katalizatoruna çevrilir.

*Cəmiyyətdə tənəzzül prosesinin dərinləşməsini qiymətləndirmək üçün xüsusi göstəricilər sisteminin müəyyən edilməsi, onların həd qiymətlərinin işlənib-hazırlanması tələb olunur. Bununla yanaşı, cəmiyyətin tənəzzülü prosesini cəmiyyətin sosial strukturunu formalaşdıran müxtəlif sosial qruplarda və siniflərdə baş verən mümkün fərqli dəyişiklikləri nəzərə almaqla qiymətləndirmək vacibdir.*

Cəmiyyətin tənəzzülə uğraması əlaməti kimi əhalinin yaşayış şəraiti keyfiyyətinin pisləşməsi, əhali arasında xroniki xəstəliklərin və ölümün səviyyəsinin artması, orta ömür müddətinin azalması, əhali arasında əlilliyin səviyyəsinin yüksəlməsi, kimsəsiz, sahibsiz və evsiz-eşiksiz uşaqların çoxalmasını göstərmək olar ki, bu da demoqrafik böhranlara səbəb ola bilər.

Mütəxəssislərin fikrincə, demoqrafik böhranların əsas təhlükəli əlaməti – doğum səviyyəsinin aşağı düşməsi və əhali ölümünün katostrafik həddə çatmasıdır, o cümlədən kişilər arasında yüksək ölüm səviyyəsi və uşaqlar arasında ölüm hallarının çoxalmasıdır. Demoqrafik proseslərdə baş verən neqativ meyilli dəyişikliklər ölkənin böhran vəziyyətindən çıxmasına mənfi təsir göstərməklə yanaşı, dövlətin geosiyasi maraqları üçün real təhlükə mənbəyinə çevrilərək, birbaşa milli təhlüksizliyinə zərbə vurur.

Müasir dünyada cəmiyyətin və əhalinin tənəzzülü prosesləri həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsi, eyni zamanda əhalinin alıcılıq qabiliyyəti və istehlakının səviyyəsində tənəzzüllə bağlı öz aralarında sıx münasibətlərdədir. Əhalinin əməkhaqqı səviyyəsinin aşağı olması əhalinin və işçi qüvvəsinin geniş təkrar istehsal proseslərinə əngəl törədir. Bu, işçini bir neçə yerdə işləməyə məcbur etsə də, onun ailəsinin tələbatı səviyyəsi yenə də təmin edilə bilmir, onun əməkhaqqı səviyyəsi yaşayış minimumundan da aşağı səviyyədə olur. Statistik məlumatlara görə, bu gün Azərbaycanda əhalinin 13%-i yoxsulluq səviyyəsindən aşağı şəraitdə yaşayır. Bu o deməkdir ki, əhalinin bu təbəqəsinin gəlirləri onların minimal tələbatlarının səviyyəsini təmin edə bilmir və onlara dövlət tərəfindən sosial yardımlar formasında kömək göstərilməlidir.

Əhalinin belə mütləq yoxsulluq səviyyəsində yaşaması gələcək nəslin inkişafına mənfi təsir göstərərək, millətin genofondunu zəiflədir. Yoxsulluq əhalinin bazar iqtisadiyyatının tələblərinə uyğunlaşmasını ləngidir, vətəndaşların yeni peşələrə yiyələnmələrinə, ixtisaslarını artırmalarına mane olur, yoxsulluğun son həddi olan dilənçilik vəziyyəti, mənəvi düşkünlük yaradır, cinayətkarların, dilənçilərin sayı artır.

Kommunal xərclərlə bağlı qiymətlərin və tariflərin artması azgəlirli ailələrin qidalanma xərclərinin azalmasını qaçılmaz edir.

Əhalinin kütləvi şəkildə yoxsulluşması, yoxsulluğun nisbi məzmundan mütləq həddə keçməsi, geniş vüsət alması ölkənin milli və iqtisadi təhlükəsizliyi üçün ikinci mühüm real sosial təhdid hesab oluna bilər. Bu, islahatların uğursuzluqla nəticələnməsi və sosial partlayış təhlükəsini doğurur. Dövlətin iqtisadi təhlükəsizlik strategiyasına daxil olan sosial məzmunlu təhdidlər bu iki təhlükənin sürətləndirici amili kimi qiymətləndirilməlidir. Bu da iqtisadi təhlükəsizliyin meyarları üzrə sosial siyasətin prioritetlərində düzəlişlər edilməsini tələb edir.

*Əhalinin gəlir səviyyəsində fərqlərin artması, həyat səviyyəsinin, sosial vəziyyətinin pisləşməsi belə demək mümkünsə, «yeni yoxsulluq ordusu»nun əmələ gəlməsi, əvvəllər orta təbəqədə qərarlaşmış intellektual peşə sahiblərinin və bir çox sahələrin nümayəndələrinin bu əhali qrupuna daxil olması ilə nəticələnir.*

*Yoxsul əhali qrupu işsizlik, qaçqınlıq və məcburi köçkünlər hesabına genişlənsə də, ağırlıq mərkəzi tədricən «işləyən» əhali qrupuna doğru yerini*

*dəyişir. Lakin «işləyən» əhalinin aldıqları əmək haqqı, onların gəlirləri özlərinin və ailə üzvlərinin ərzaq təminatını belə ödəyə bilmir. Dövlət sektorunda və büdcə sferasında belə gəlir səviyyəsi olan əhali qrupu vardır. Belə vəziyyət əhalinin yoxsul təbəqəsinin öz potensial imkanlarını reallaşdırmaqda iqtisadi bərabərsizliyi daha da dərinləşdirən uzunmüddətli xarakter alır və getdikcə ölkədə yoxsulluğun miqyası genişlənir.*

*Gəlirlər səviyyəsində fərq keçid dövründə, islahatların aparıldığı illərdə daha sürətlə artır. Gəlirlərdəki fərqlərlə yanaşı, vətəndaşlar arasında bərabərsizlik dərinləşir. Mövqeyindən asılı olaraq, daha imkanlı təbəqə pul vəsaitlərinə, vəsait mənbələrinə daha asanlıqla yol tapır, həmçinin kapital toplamaq, vəsait yatırmaq (kapital qoymaq) və gəlirlərini vergidən gizlətmək üçün geniş imkanlara malik olurlar.*

*Struktur amilinin təsiri nəticəsində regionlar üzrə gəlirlərin qeyribərabər bölüşdürülməsi iqtisadi bərabərsizliyi daha da dərinləşdirir. Yəni regionlar arasında zəngin və yoxsul regionlar fərqlənirlər. Əhalinin pul gəlirləri içərisində əməkhaqqının payının azalması nəticəsində daha qeyri-əlverişli vəziyyət insanların yaşayış səviyyəsində, məhz əməkhaqqı gəlirlərinin təsirinin böyük olduğu regionlarda, ərazilərdə, həmçinin aşağı rəqabətqabiliyyətli sahələrin, dominantlıq təşkil etdiyi regionlarda müşahidə olunur. Enerji xammalının qiymətlərinin dəyişməsindən fayda götürən regionlarda isə əks vəziyyət yaranır.*

*Əməyin ödənilməsi prinsiplərinin pozulması və əməkhaqqının diferensiasiyasındakı ziddiyyətlər ciddi sosial təhlükə yaradır. Nəticədə, istehlak qiymətlərinin artması fonunda tədricən əməyin qiyməti, dəyəri aşağı düşür. Bu da ödəməqabiliyyətli tələbin səviyyəsində, istehsalın həcminin genişlənməsi, onun səmərəliliyinin yüksəlməsi, iqtisadi artım və texniki tərəqqinin səviyyəsinə mənfi təsir göstərir, həmin istiqamətlərdə tənəzzülə səbəb olur. Bütün bunlar iqtisadi artımın qarşısını alan əsas amillərdən birinə çevrilən əsassız gəlir siyasətinin nəticəsidir.*

*Yaranmış vəziyyəti aradan qaldırmaq, əhalinin yoxsullaşmasının qarşısını almaq üçün ölkədə dayanıqlı iqtisadi artıma nail olmaq lazımdır. Belə bir artım əhalinin adambaşına düşən ÜDM-un real həcminin sosial bazar təsərrüfatı modelindəki istehlak parametrlərinə yaxınlaşmasına kömək edə bilir.*

Dünya təcrübəsi göstərir ki, ildə təxminən 2% həddində iqtisadi artım məğulluq səviyyəsini genişləndirməyə şərait yaradır və bunun əsasında da əhali gəlirlərinin ümumi artımı və vətəndaşların müvafiq kateqoriyalarının sosial müdafiəsini təmin etmək üçün zəruri maliyyə resurslarının həcminin artması baş verir.

Ölkədə nisbətən sosial sabitliyə nail olmaq, yüksəkgəlirlilik səviyyəsini təmin etmək üçün mühüm məsələlərdən biri əhalinin yığımları problemidir.

Cəmiyyətdə yoxsullaşma maliyyə vəsaitlərinin çatışmazlığına şərait yaradan amillərdən biridir ki, bu da iqtisadi artımı ləngidir. Hiperinflya-

siya nəticəsində əhalinin yığımlarının qiymətdən düşməsi adambaşına düşən gəlirlərin və real əməkhaqqının kəskin şəkildə azalması dövriyyə vəsaitlərinin yığım imkanlarını minimuma edirir və vətəndaşların yığım formalarını dəyişir. Yığımlar üzrə aşağı faiz dərəcələri və inflyasiya nəticəsində vəsaitlərin qiymətdən düşməsi riski vətəndaşların topladıqları vəsaitləri, kapitalı xaricə çıxarmağa sövq edir. Onu da qeyd edək ki, inkişaf etmiş ölkələrdə ev təssərüfatlarının banklarda və qeyri-bank strukturlarında yerləşdirdikləri pul ÜDM-un illik həcmini əhəmiyyətli dərəcədə artırır ki, bu da iqtisadi artıma əlverişli əsas yaradır.

Məhz buna görə dövlət yoxsulluğa qarşı mübarizə aparmalıdır. Yoxsulluq cəmiyyəti tənnəzzülə uğradan təhlükələrdən biridir və onunla mübarizə olduqca əhəmiyyətli sosial vəzifələrdəndir.

Dövlətin yoxsulluğun qarşısının alınması məqsədilə həyata keçirdiyi siyasətin əsas istiqamətlərinə aşağıdakılar aiddir:

- makroiqtisadi sahələr üzrə sabitləşmə və dayanıqlı iqtisadi artım siyasətinin həyata keçirilməsi, bu məşğulluğun genişləndirilməsi və minimal əməkhaqqının orta yaşayış minimumunun səviyyəsinin yaxınlaşdırılması, əməyin qiymətinin, dəyərinin artırılması, əməkhaqqı və əhalinin digər ödəmələr üzrə borclarının ləğvi istiqamətində qətiyyətli əsas yaradır;
- dövlətin sosial prinsiplərinə uyğun minimal sosial təminatlar sisteminin formalaşdırılması, təşkil edilməsi;
- yoxsul əhaliyə sosial yardım sisteminin yaradılması, bazar iqtisadi sisteminə keçidlə əlaqədar yoxsulluq həddində yaşayan əhaliyə ünvanlı sosial yardımların müxtəlif formalarını tətbiq etmək, sosial təminatlar sahəsində sabitliyin təmin olunması, vergi güzəştləri, ucuz kreditlər, dotasiyalar ayrılması yolu, münasib qiymətlərə istehlak mallarının istehsalını stimullaşdırmaq yolu ilə əhalinin azgəlirli təbəqəsinin onların gəlirlərinə uyğun səviyyədə öz tələbatlarını təmin edə bilmələri üçün şəraiti yaratmaq.

Qeyd etmək lazımdır ki, birbaşa sosial yardımlar və qoruyucu tədbirlər vasitəsilə real gəlirlərin azalmasının qarşısını almaq onların sabitləşməsini təmin etmək, sonra bu gəlirlərin artım tempini sürətləndirmək, onların qiymətləri artımını ötüb keçən, üstələyən yüksəlişini təmin etməkdən ibarətdir. Bu, investisiya fəallığını artırmağa, istehlak tələbini canlandırmağa, yoxsulluq probleminin kəskinliyini azaltmağa imkan verir.

Əhalinin gəlirlərinin tənzimlənməsi və cəmiyyətin sosial strukturunu optimallaşdırılması yönündə həyata keçirilən siyasətdə əsas diqqət əhalinin böhran vəziyyətindən, yoxsulluq vəziyyətindən çıxarmaq məqsədi ilə bölgü təyinatlı tədbirlər həyata keçirtmək yolu ilə gəlirlərin tarazlaşdırılmasına, bərabərləşdirilməsinə yönəlməlidir. Bu, fiziki şəxslərdən vergi tutulması rejimi və vergi sisteminə uyğun iqtisadi mexanizmin yaradılmasını, varlı adamların pul gəlirlərinin həcminin və xüsusi sektorda və kölgə iqtisadiyyatı vasitəsilə dövlətdən gizlədilən gəlirlərin dəqiq hesaba

alınması üsulunun tapılmasını, vicdanlı vergi ödəyicilərinə qarşı vergi təzyiqinin artmasına yol verməməyi tələb edir.

Bu mənada yüksək gəlir səviyyəsinə malik əhali təbəqəsinə mütərəqqi vergi tutumuna əsaslanaraq şəxsi gəlirdən vergi tutulması prinsiplərini dəqiqləşdirmək, gəlirlərin gizlədilməsinə görə yüksək cərimə sanksiyalarının tətbiqi, ailə amilinin nəzərə alınması (ailədə kimisə öhdədə saxlamaq), gəlirlərin hesablanmasına kompyuterlərin tətbiqi vacibdir. Əmək haqları və sahibkarlar gəlirindən tutulan vergilərin dəqiq bölgüsünü aparmaq, muzdlu işçilər, fermerlər, ailə və fərdi təssərrüfatlardan vergi tutumları zamanı daha aşağı başlanğıc xəttini müəyyən etməklə cəmiyyətdə gəlirlərin tarazlaşdırılmasına, orta sinfin formalaşmasına kömək etmək olar.

Yoxsulluğun miqyasının məhdudlaşdırılması ilə bağlı tədbirlər sırasında real əmək haqlarının artırılması, əmək haqları, təqaüdlər, pensiyalar, müavinətlər üzrə borcların ləğvi xüsusi yer tutur.

Real gəlirlərin azalması və vətəndaşların yoxsullaşmasına əks təsirli tədbirlər sırasında qiymətlərin artımına uyğun olaraq indeksasiya yolu ilə əhalinin real pul gəlirlərinin dəyərini qoruyub saxlamaq, itkilərin eyni vaxtda artım metodu vasitəsilə kompensasiya olunması, yaşayış minimumunun dəyişməsinə uyğun olaraq pul gəlirlərinin minimal səviyyəsinin təkrar nəzərdən keçirilməsi də daxil edilməlidir.

Ən çətin məsələlərdən biri də yoxsulluq həddində yaşayan imkansız əhali qrupuna sosial yardım və onların sosial müdafiəsi ilə bağlı mexanizmlərin işlənib hazırlanmasına, eləcə də dövlət tərəfindən sosial yardımlar məqsədi ilə ayrılan maliyyə vəsaitlərinin xərclənməsində (mənfi mənada) bərabərçiliyə yol verməməklə bağlıdır. Problemin həllinə prinsipial yanaşma ehtiyac səviyyəsinin nəzərə alınması ilə birbaşa ünvanlı sosial yardım göstərilməsi ehtiyacı olanların seçiminin əsaslandırılmasıdır. Eyni zamanda bu məqsədlər üçün ayrılmış maliyyə vəsaitlərindən israfsız istifadəyə yol verməmək, ölkənin bütün regionlarında belə yardımların alınmasının sabitliyini təmin etmək məsələsi də prinsipial əhəmiyyət kəsb edir. İşsizliyin səviyyəsinin artması yoxsulluğun və sosial qeyri-sabitliyin dərinləşməsinə səbəb olan amil kimi iqtisadi təhlükəsizlik üçün daha ciddi təhdidlər sırasına daxil edilməlidir.

İşsizlik probleminin kəskinləşməsi nəticəsində ailələrin gəlir mənbəyinin məhdudlaşması, gəlir səviyyəsinin azalması istehsalda tənəzzül prosesinə səbəb olur, əmtəə və xidmətlərə olan tələbin məhdudlaşması amilinə çevrilir və vergi daxilolmalarının həcmi aşağı düşür. Digər tərəfdən, işsizliyin səviyyəsinin artması cinayətkarlıq və özünəqəsd hallarının çoxalması ilə nəticələnir. ABŞ-ın Con Hopkunc Universitetində aparılan tədqiqatların nəticələrinə görə işsizliyin səviyyəsinin 1% artmasının özünəqəsd hallarının 4,1%, cinayətkarlıq hallarının isə 5,7% artmasına səbəb olur, ÜDM-in həcmi isə 4,5% azalır. Belə faciəli halların qarşısının

alınması məqsədi ilə sosial-iqtisadi islahatlar strategiyasında aztəminatlı ailələrə sosial yardımlar üçün maliyyə vəsaitləri mənbələrinin axtarıb tapılması yox, əhalinin məşğulluğunun təmin edilməsi və yeni iş yerlərinin açılması, mövcud iş yerlərinin saxlanılması isdiqamətində siyasi kurs davam etdirilməlidir.

Məşğulluq siyasəti əmək potensialında tam istifadəyə və əmək qabiliyyətli əhalinin işgüzar fəallığına şəraitin təmin edilməsi istiqamətinə yönəlməlidir. Bu, əhalinin yoxsullaşmasının və kütləvi işsizliyin baş alıb getməsinin qarşısını alır, rəqabət mühitində vətəndaşın məhsuldar davranışını stimullaşdırır. Orta müddət üçün nəzərdə tutulan Sosial İqtisadi İnkişaf Proqramında müəssisələrdə artıq ehtiyat halında işçi qüvvəsi saxlanılması və gizli işsizlik səviyyəsinin artmasına qarşı məhsuldar məşğulluğun təmin edilməsi üzrə tədbirlər sistemi nəzərdə tutulmalıdır.

İqtisadi təhlükəsizlik məşğulluğun səmərəliliyi, məşğul əhalinin öz əməyi, onun nəticələri ilə bütün ölkə əhalisi, o cümlədən uşaqlar, yaşlılar, əmək qabiliyyətini itirənlər, müvəqqəti işləməyənlərin və başqalarının normal həyat səviyyəsini təmin edəbilmə qabiliyyətindən asılıdır. Bu cəhət, məhz məşğul əhalinin himayəçilik yükünün həcmini səviyyələndirir, yəni faktiki işləyən əhalinin himayəsində olan əhalinin sayını göstərir.

İş yerlərinin saxlanması və kütləvi işsizliyin qarşısının alınmasında əmək proteksionizmi siyasətinin həyata keçirilməsi, milli əmək bazarının qorunması üzrə tədbirlər sistemi işlənib hazırlanmalıdır. Bu, maliyyə, texnoloci, struktur, sənaye, ixrac-idxal siyasətinin formalaşması zamanı dövlət orqanları qarşısında yeni istehsalçıların maraqlarının nəzərə alınması, məhsuldar məşğulluğun stimullaşdırılması və təmin edilməsi üçün investisiyalar cəlb edilməsi kimi mühüm vəzifələr irəli sürür.

Məşğulluq sferasında nisbi sabitliyin qorunması və saxlanılması, məşğulluğun artırılması sahəsində regional səviyyədə tədbirlərin işlənib-hazırlanması və həyata keçirilməsində region subyektlərinin cavabdehliyinin və məsuliyyətinin artırılması yeni iş yerlərinin yaradılması ilə bağlı regional proqramların işlənib hazırlanması və həyata keçirilməsinin əhəmiyyətini də artırardı. Bu Proqramda iş qüvvəsinə olan tələbatın fəallaşdırılmasının bütün bazar vasitələri daxil edilməlidir. Onu da qeyd edək ki, belə regional proqramlar ölkə üzrə İnkişaf Proqramının tərkib hissəsidir. Məşğulluğun təmin edilməsi üzrə regional proqramların təsir gücünün artırılması üçün qanunvericilik və normativ aktlara uyğun olaraq islahatlar strategiyası və makroiqtisadi siyasətin prioritetlərində müsbət düzəlişlərin həyata keçirilməsi prinsipial əhəmiyyət kəsb edir. Bu düzəlişlər sırasına aşağıdakılar daxildir;

- sahibkarların yeni iş yerlərinin açılması ilə bağlı investisiya fəallığının artırılmasını stimullaşdırmaq;

- istehsal sahələrinin yenidən qurulması, texniki cəhətdən silahlanması, istehsal sferalarına məxsus kiçik sahibkarlıq fəaliyyətinin genişlən-

dirilməsi istiqamətində kreditlərin cəlb edilməsi üçün əlverişli şərait yaratmaq;

- yerli istehsalçıları xarici və inhisarçı rəqabətdən qorumaq və Ölkədə normal fəaliyyəti təmin edəcək sağlam rəqabət mühitini təmin etmək;

- regional məşğulluq problemlərinin həllində mili dövlətçilik maraqlarının prioritetlərinin reallaşmasında ictimai xarakterli işlərin təşkili səviyyəsini və statusunu, rolunu yüksəltmək;

- ilkin sağlamlaşma mərhələsi keçən müəssisələrə məşğulluğun təmin edilməsi və kadr hazırlığının təkmilləşdirilməsi istiqamətində kömək etmək;

*Qeyd etmək lazımdır ki, yoxsulluq təkcə gəlir və istehlak səviyyəsinin deyil, həmçinin təhsilin, tibbi təminatın, mədəni həyatın aşağı olması, kifayət qədər qidalanmamaq kimi başa düşülür. Belə adamların onları əhatə edən mühit, hadisələr qarşısında aciz və gücsüz qalmaları, səsvermə hüquqlarının olmaması, daimi qorxu içində olmaları, özlərini müdafiəsiz hiss etmələri bu problemin ölkənin hər bir vətəndaşı və bütövlükdə ölkə üçün yaxşı gələcək, sağlam nəsil, qloballaşan dünya ilə ayaqlaşa bilmək vəd etmir. Ona görə də yoxsulluq çoxcəhətli problem olduğu üçün, onunla mübarizə ayrı-ayrı istiqamətlər üzrə, lakin kompleks xarakterdə aparılmalıdır. Real məqsədlər formalaşdırılmalı və onlar elmi cəhətdən əsaslandırılmalı, yoxsulluq vəziyyətinin diaqnostik təyini üçün göstəricilər sistemi müəyyənlədirilməli və Proqramın reallaşma monitorinqi təyin edilməli və nəticələr qiymətləndirilməlidir. Yoxsulluq probleminin kompleks həlli üçün vahid konseptual əsas yaratmaqla, hər bir ölkənin, regionun spesifik xüsusiyyətlərini nəzərə alaraq yoxsulluğun azaldılmasının xüsusi strategiyası işlənib hazırlanmalıdır. Yoxsulluq bütün iqtisadi sistemlərlə əlaqədar və bütün dövrlər üçün xarakterik hadisədir.*

*Cəmiyyətdə kütləvi yoxsulluq o halda baş verir ki, gəlirlər qeyri-bərabər bölüşdürülür. Kütləvi yoxsullaşmanın, pauperizmin səbəbləri müxtəlif zamanlarda fərqli olmuşdur. Qədimlərdə və orta əsrlərdə pauperizmin əsas səbəbləri qıtlıq, epidemiyalar, daşqınlar, yanğınlar, müharibələr idi. Hətta orta əsrlərdə, demək olar ki, bütün təhkimçi kəndlilər xroniki yoxsul-luq həddində yaşayırdılar, yəni baş verən xırda bir səbəbdən kəndlilər arasında aclıq, qıtlıq vüsət alırdı. Lakin bu gün yoxsulluq qlobal xarakter daşıyır. SPİD, narkomaniya, cinayətkarlıq, ətraf mühitdə baş verən bədbəxt hadisələr, texnogen faciələr, təbii fəlakətlər, terrorizm heç bir sərhəd tanımır. Təkcə 2000-ci ildə beynəlxalq miqyasda 26 müharibə baş vermiş və bunun nəticəsində 26 mln. insan qaçqın olmuşdur.*

*Yoxsul əhalinin sayı hər il durmadan artır. Günü 2 dollara yaşayan insanların sayı hər il 80 mln. nəfər artır. Dünya Bankının «1999-2000-ci illər Dünyanın İqtisadi İnkişafı Haqqında hesabatı»nda qeyd olunur ki, 3-cü minilliyin başlanğıcında təxminən 1,5 mlrd. adam günü 1 dollara bərabər səviyyədə yaşamaq məcburiyyətində qalacaqlar. 2015-ci ildə yoxsulluq*

*həddindən aşağı səviyyədə yaşayanların sayı 1,9 milyarda çatacaq ki, bu da Yer Kürəsi əhalisinin üçdə birini təşkil edəcək. Buna əsaslanaraq belə bir nəticə çıxarmaq olar ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin əhalisinin gəlirləri arasında fərq getdikcə artır. Hesabatda o da qeyd olunur ki, artan yoxsul əhalinin əksər hissəsi şəhərlərdə toplanacaqdır.*

*Deməli, belə qənaətə gəlmək olar ki, yoxsulluq problemi gələcəkdə beynəlxalq maliyyə institutlarının fəaliyyətində prioritet istiqamətlərdən olacaqdır.*

*Yüksək gəlir səviyyəsi olan ölkələrdə 100 uşaqdan biri 5 yaşadək yaşayır, yoxsul ölkələrdə isə bu 100 uşaqdan 5 nəfərdir. İnkişaf etmiş ölkələrdə doğulan uşaqların 5%-dən azı 5 yaşadək yarıac-yarıtox yaşamaq məcburiyyətində olduğu halda, zəif ölkələrdə belə vəziyyət uşaqların 50%-ə qədərini əhatə edir.*

*Qlobal problem olan yoxsulluq dünya ölkələrinin iqtisadi inkişaf səviyyəsi ilə birbaşa əlaqədardır. 20 ən zəngin ölkədə orta gəlir səviyyəsi 20 yoxsul ölkədəki orta gəlir səviyyəsindən 37 dəfə yüksəkdir. Son 40 ildə bu fərq 2 dəfə artmışdır.*

*Yoxsulluq problemi müxtəlif dünya ölkələrində fərqli xüsusiyyətlərə malikdir. Şərqi Asiya ölkələrində günü 1 dollara yaşayan əhalinin sayı 1987-ci ildə 420 mln.-dan 1998-ci ildə 280 mln.-a dək azalmışdır. Lakin Cənubi Asiyada, Latın Amerikası ölkələrində, Afrika ölkələrində yoxsulların sayı durmadan artır. Şərqi Avropa, Orta Asiya ölkələrində də yoxsul əhalinin sayı artır.*

*Ölkələr daxilində də yoxsulluğun yayılması fərqli cəhətlərə malikdir. Afrikanın bəzi ölkələrində uşaq ölümü üzrə ən aşağı göstərici siyasi cəhətdən güclü etnik qruplarda müşahidə edilir. Latın Amerikasında yerli əhali gəlmələrə nisbətən daha aşağı təhsil səviyyəsi alırlar. Cənubi Asiyada qadınlar kişilərə nisbətən 2 il az təhsil alırlar, orta təhsil müəssisələrinə daxil olan qadınların sayı kişilərin üçdə iki hissəsini təşkil edir.*

*Hal-hazırda 800 mln.-a yaxın insan, yaxud dünya əhalisinin 14%-i minimum səviyyədə belə ərzaqla təmin edilmir və 0,5 mlrd. insan xroniki olaraq yarıac-yarıtox vəziyyətindədir, onlardan üçdə birini uşaqlar təşkil edir. 1,3 mlrd. adam, yəni dünya əhalisinin 22%-i təmiz içməli suya böyük ehtiyac duyur, 2 mlrd. (34%) antisanitariya şəraitində yaşamağa məcburdur və 2mlrd. əhali elektrik enerjisindən məhrumdur. Beynəlxalq Kənd Təsərrüfatı Məsləhət Qrupunun tədqiqatlarına görə, əkin yerləri 40% tükənmişdir və rekultivasiyaya ehtiyac duyulur. Yaxın 25 ildə dünya əhalisinin dörddə biri su çatışmamazlığından əziyyət çəkəcəkdir, dünya miqyasında istehlakın təxminən 80%-i əkinçiliyin payına düşür. Dünyada kənd təsərrüfatı əvvəlki kimi ekologiyanın pisləşməsi və yoxsulluq arasında əlaqələndirici halqa kimi qalır.*

*Əhalinin ərzaq təhlükəsizliyi problemi XX əsrin 70-ci illərində inkişaf etməkdə olan ölkələrdə baş verən sosial-iqtisadi proseslərlə əlaqədar olaraq*

*dünya ictimaiyyəti tərəfindən güclü müzakirə predmetinə çevrildi. O zamanlar qlobal ziddiyyət meydana gəlmişdi. İnkişaf etmiş ölkələrdə ərzaq məhsullarının ifrat istehsalı bir sıra 3-cü Dünya ölkələrində əhalinin kütləvi aclığı və yeməməzliyi ilə müşayiət olunurdu.*

*Dünya Bankının proqnozlarına görə, planetin əhalisi 2025-ci ildə 3 mlrd. nəfər artacaq. Bu, əsasən Asiya regionları hesabına baş verəcək. 3 mlrd. insan qlobal su ehtiyatları böhranı ilə üzləşəcək və su çatışmazlığından əziyyət çəkəcək, urbanizasiya böhranı olacaqdır ki, nəticədə də yaxın 30 ildə şəhər əhalisi 3 dəfə artacaq. 2020-ci ildə Afrika əhalisinin üçdə ikisi bu gün heç də iqtisadi artım müşahidə edilməyən şəhərlərdə yaşayacaqdır. Yaxın 15 ildə dünya əhalisini ərzaqla təmin etmək üçün ya məhsuldarlığı 3 dəfə artırmaq, yaxud da əkin sahələrini 3 dəfə artırmaq lazım gələcək, lakin reallıq budur ki, əksər kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı orta hesabla 50%-i təşkil edəcəkdir. Yaxın 30 ildə ərzaq məhsullarının istehsalı yalnız 2 dəfə artacaq. Deməli, demoqrafik böhran, qlobal su ehtiyatları böhranı, urbanizasiya probleminə ərzaq böhranı da əlavə olunacaq.*

*Qeyd etmək lazımdır ki, yoxsulluq səviyyəsinin qiymətləndirilməsi, ilk növbədə yoxsulluq həddinin müəyyən edilməsini tələb edir. Müxtəlif əmtəələrin istehlak səviyyəsi az və ya çox dərəcədə uzunmüddətli perspektivdə insanın sağ qalmasına birbaşa dəlalət edir. Bundan başqa, yoxsul ölkələr də daxil olmaqla, əksər cəmiyyətlərdə «yoxsulluq» anlayışı yaşayış üçün lazımi minimum çərçivədən kənara çıxır. «Yoxsulluğun həddi» anlayışı ilk dəfə 1970-ci ildə qəbul edilmişdir. Yoxsulluğun müəyyənləşdirilmiş həddindən bir qədər aşağı tərzdə yaşayan insanın, bu həddən bir qədər yuxarı tərzdə yaşayan insana nisbətən pis həyat səviyyəsinə malik olması fikrinə əsaslanaraq bəzi konsepsiyalar «yoxsulluq həddi» anlayışını qəbul etmirlər.*

*MDB ölkələrində isə yoxsulluğun mütləq həddi qəbul edilmişdir. Mütləq yoxsulluq insanın yemək, su, geyim və sığınacağa olan minimal fizioloci tələbat səviyyəsini qiymətləndirmək imkanını nəzərdə tutur. Burada sosial-mədəni tələbatlar deyil, məhz fizioloci tələbat əsas götürülür. Mütləq yoxsulluq o zaman aşkar olunur ki, insan geyim, ərzaq, yemək, sığınacaq əldə etmək imkanından məhrum olur, yaxud onu itirir və onun həyat tərzi bu səviyyədən aşağı olur. Mütləq yoxsulluq həddini təyin etmək üçün ərzaq səbətinin tərkibi və onun dəyəri müəyyən edilməlidir. Nisbi yoxsulluq konkret cəmiyyətdə, konkret dövrdə ümumi qəbul edilmiş həyat tərzilə, səviyyəsilə müəyyən edilir. Bu, minimal fizioloci tələbatla təyin edilmir.*

*Yoxsulluq problemi heç də bütün ölkələrdə keyfiyyətcə oxşar deyildir. Yoxsulluq anlayışının birmənalı, ümumi qəbul edilmiş, elmi cəhətdən əsaslandırılmış dürüst tərifi yoxdur və ola da bilməz. Problemin sosial, iqtisadi və psixoloci tərəfləri ilə yanaşı, o, siyasi əhəmiyyət, məzmun da kəsb edir. Bu, siyasi mübarizə gedişində konkretləşir və modifikasiyaya*

*uğrayır. Yoxsulluq anlayışı sadəcə olaraq cəmiyyətdəki vəziyyəti əks etdirmir, o, eyni zamanda yaranmış vəziyyətin qəbuledilməzliyini, yol verilməzliyini, hadisənin özünün aradan qaldırılma zəruriliyini göstərir. Dövlətin sosial siyasəti yoxsulluq anlayışının məzmununun şəklini dəyişir.*

*İnkişaf etmiş ölkələrdə yoxsulluq problemi inkişaf etməkdə olan ölkələrdə olduğundan əhəmiyyətli dərəcədə fərqlənir. Bu, birincilərə nisbətən ikincilərdə belə proqramların ya hələ ibtidai səviyyədə olması, yaxud da tamamilə olmaması səbəbindən irəli gəlir.*

*Yoxsulluğun mütləq həddi – dəqiq təyin edilmiş yaşayış minimumudur. Belə yanaşma, problemin mahiyyətini, miqyasını məhdudlaşdırır və əlavə tədqiqatların aparılmasına imkan vermir. Mütləq yoxsulluq həddinə orta güzəran səviyyəsinin dəyişməsindən asılı olmayaraq bir qədər ümumi həyat səviyyəsi kimi baxmaq məqsədəuyğun olardı, nisbi yoxsulluq həddi isə əksinə olaraq dəyişilir və orta həyat səviyyəsini ötüb keçmir. Beləliklə, iki eyni həyat səviyyəsinə malik insan təhlil yerindən və zamanından, siyasi vəziyyətin dəyişməsindən asılı olmayaraq yoxsul, yaxud varlı hesab olunacaq. İnsanların rifahının eyni şəkildə, tərzdə təhlili mənasında yoxsulluq eyni cür qiymətləndirilir.*

*Yoxsulluq həddinin müəyyən edilməsində ən geniş yayılmış yanaşma əsas tələbatların təhlilidir. Ərzaq mallarına olan tələbat əsas tələbat hesab olunur ki, bu da tövsiyə edilmiş qida enerjisinin istehlak həcmidir. Belə yanaşmada orqanizmin qida enerjisinə olan tələbatını müəyyən etmək əsas məsələdir.*

*Yoxsulluq həddinin ərzaq tərkibi, komponentləri ilə əlaqəsi heç də qidaya olan tələbatla bitmir. Müxtəlif ərzaq məhsullarının birgə istifadəsi vasitəsilə orqanizmin minimal xərclərlə qida enerjisinə olan tələbatını təmin etmək olar. Lakin bu, bəzən insanın çoxəsrlik tarixi ənənələr fonunda formalaşmış qida vərdişlərinə, qida rasionuna zidd ola bilər. Yoxsulluğun yüksək qiymətlər fonunda orqanizmin qida tələbatının minimal xərclərlə təmin edilməsi kimi təyin edilən ərzaq həcmi ilə müəyyənləşən həddi, yoxsul əhali təbəqəsi üçün əlçatmaz olan qida rasionunun işlənib hazırlanması ilə nəticələnə bilər. Orqanizmin minimal enerji tələbatının təmin edilməsi üçün lazım olan minimal xərclər yoxsul əhalinin real xərclərindən olduqca az ola bilər. Görünür, lazımi həcmdə enerji qəbul etmək qidalanmaya üstünlük verilməsində tək motiv deyildir.*

*İkinci problem, qeyri-ərzaq təyinatlı tələbatın nəzərə alınması ilə əlaqədardır. Qeyri-ərzaq təyinatlı tələbat fonunda yoxsulluq həddinin təyini zamanı qidanın tərkibinə, komponentlərinə uyğun olaraq qidalanma enerjisinə olan tələbat qədər əhəmiyyətli rol oynamır.*

*Ərzaq təhlükəsizliyi aqrar-sənaye kompleksinin inkişafı baxımından milli təhlükəsizliyin mühüm cəhətlərindən biridir. Ölkədə siyasi, sosial və iqtisadi şəraitin dəyişməsi, həmçinin qloballaşmanın təsiri yeni təhdidlər, təhlükə mənbələri yaradaraq, ərzaq təhlükəsizliyinin təmin edilməsi proble-*

*mini mürəkkəbləşdirərək, ənənəvi yanaşma çərçivəsində onun həllini bir qədər də çətinləşdirir. Bu mənada, ərzaq təhlükəsizliyi probleminə insanın inkişaf konsepsiyası kontekstindən yanaşmanın da nəzərə alınması problemin metodoloci dəyərini və aktuallığını artıraraq, onun kompleks həllinə və insanın prioritet maraqlarının təmin edilməsinə şərait yaradır. BMT-nin İnkişaf Proqramı çərçivəsində formalaşan konsepsiyanın fərqli xüsusiyyəti burada sosial-iqtisadi problemlərin həlli, o cümlədən təhlükəsizliyə insanın inkişafı baxımından yanaşmanın olmasıdır. Bu zaman ərzaq təhlükəsizliyi insanın təhlükəsizliyinin mühüm bir cəhəti, tərkib elementi kimi nəzərdən keçirilir və bilavasitə insanın sağlamlığı ilə əlaqələndirilir. İnsanın təhlükəsizliyi milli təhlükəsizliyə nisbətən geniş məna kəsb edir. Milli təhlükəsizlik ictimai təhlükəsizliyin təmin edilməsi formalarından biri kimi, insanın təhlükəsizliyinin yeddi əsas cəhətlərindən biridir.*

*Əhalinin ərzaq təhlükəsizliyi (dünya ədəbiyyatı terminologiyasında), ilk növbədə makroiqtisadi vəziyyətlə, ictimai istehsalın səmərəliliyi və əhali gəlirləri ilə müəyyən olunur. Əhalinin ərzaq təhlükəsizliyinin vəziyyəti geniş göstəricilər sistemi ilə müəyyən olunur.*

*Ərzaq təhlükəsizliyinə qarşı yönələn belə müxtəlif təhdidləri aşağıdakı əsas istiqamətlər üzrə konkretləşdirmək olar:*

*- əhalinin gəlir səviyyəsinin aşağı və qeyri-sabit olması nəticəsində ərzaq məhsullarının əldə edilməsinin iqtisadi cəhətdən qeyri-mümkünlüyü, çox bahalı olması;*

*- ərzaq məhsulları istehsalının az olması, yaxud bazara az həcmdə məhsulların daxil olması ilə əlaqədar bu məhsulları əldə etməyin fiziki cəhətdən imkansızlığı; eləcə də ekoloji cəhətdən təmiz, sağlamlıq üçün təhlükəsiz ərzaq məhsullarını əldəetmə imkanının qeyri-mümkünlüyü.*

*Ənənəvi yanaşma və kənd təsərrüfatı istehsalının həcmi, eləcə də bazarın təchizatı səviyyəsi ilə əlaqədar olaraq ərzaq təhlükəsizliyinə qarşı təhdidlərin spektri, əhatə dairəsi insanın inkişafı, onun həyat səviyyəsinin keyfiyyətinin yüksəldilməsi nöqteyi-nəzərindən əhəmiyyətli dərəcədə genişlənir. Burada gizli və dolayısı ilə təsir göstərən, süni başvermə xarakterli, qlobal səviyyədə yayılan təhdidlər mühüm əhəmiyyət kəsb edir. Nəticədə onların aşkara çıxarılması və qarşısının alınması da çətinləşir.*

*Bu gün Azərbaycan dünyanın qeosiyasi xəritəsində çox mühüm yer tutur. Müasir vəziyyətin bu və ya digər reallıqları ərzaq təhlükəsizliyi problemlərini önə keçirir. Bu konsepsiya daxili istehsal və səmərəli həcmdə idxal hesabına ölkənin ərzaq və kənd təsərrüfatı məhsulları ilə təmin olunmasını nəzərdə tutur. Bu məsələləri isə yalnız dəqiq təşkil olunmuş aqroiqtisadi mühit çərçivəsində həll etmək olar.*

*İnsanın təhlükəsizliyinin cəhətləri, tərkib elementləri qarşılıqlı əlaqəlidir. Təhdidlərin meydana gəlməsi və risklərin bir-birlərini qarşılıqlı şərtləndirirlər. Təhlükəsizliyin işsizlik, gəlir səviyyəsinin azalması, yoxsulluq kimi iqtisadi və sosial xarakterli təhdidləri ərzaq məhsulları əldə etmək*

*imkanlarını heçə endirir. Ekoloji təhdidlər, ilk öncə ətraf mühitin radiasiya və çirklənməsinin artması, pisləşməsi, yeni biotexnologiyalarla bağlı risklər ərzaq təhlükəsizliyi üçün neqativ təsirlər yaradır.*

*Ərzaq məhsullarının kimyəvi və radiasiya çirklənməsi ərzaq təhlükəsizliyi problemini daha da kəskinləşdirir. Mütəxəssislərin rəyinə görə, kənd təsərrüfatında tətbiq edilən gübrələr, bitkilərin həşəratlardan, ziyanvericilərdən qorunması məqsədilə istifadə edilən müxtəlif vasitələr və dərman preparatları ərzaq məhsullarında kimyəvi qalıqlar şəklində toplanaraq, əhalinin sağlamlığı üçün ciddi təhlükəyə çevrilir. Xüsusilə, müxtəlif kimyəvi maddələrin nəzarətsiz tətbiqi daha ciddi təhlükələr, təhdidlər yaradaraq onkoloci xəstəliklərin, immunoloci və genetik dəyişikliklərin baş verməsi, doğum zamanı uşaqlarda anadangəlmə qüsurların olmasına səbəb olur.*

*Qeyd etmək lazımdır ki, insanın ərzaq təhlükəsizliyinə qarşı olan təhdidlərin qiymətləndirilməsi zamanı, ilk növbədə minimal istehlak səviyyəsinə uyğun sutkalıq kalori normasını xarakterizə edən göstəricinin, əhalinin adambaşına düşən ərzaq məhsullarının istehsalı indeksinin göstəricisi və ixracdan asılılıq əmsalının müəyyən edilməsi mühüm əhəmiyyət daşıyır. Belə ki, müvafiq göstəricilər toplusunun və ilkin xəbərdarlıq sisteminin təşkili, ilk növbədə qarşıya qoyulmuş məqsədlərə və zəruri informasiya əldə etmək imkanlarına əsaslanmalıdır. Bu sahədə statistik informasiyanın məhdudluğu və yarımçıq olması regional səviyyədə insanın təhlükəsizliyi monitorinqi vəzifələrini mürəkkəbləşdirir. Regional səviyyədə tənzimlənmə ərzaq təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Yerli, milli, regional və qlobal səviyyələrdə göstəricilər (indikatorlar) sisteminin ümumi çatışmazlığı onun məhdudluğu, darlığı və sistemdə ərzaq məhsullarının ekoloji parametrlərini xarakterizə edən göstəricilərin olmamasıdır. Bu isə problemin həllinin bir qədər mürəkkəbləşməsi, tam qiymətləndirilməsinə səbəb olur.*

*İnsanın təhlükəsizliyi problemi çoxcəhətli olduğu üçün şərti xarakter daşıyır, lakin kritik səviyyənin kəmiyyətcə ifadə edilməsi həmişə mümkün olmur. Bundan başqa, nəzərə almaq lazımdır ki, «həd qiyməti» anlayışı və onun riyazi metodlarla təyin edilməsi heç də həmişə sosial baxımdan məqbul və insanın, cəmiyyətin inkişafı nöqteyi-nəzərindən düzgün hesab oluna bilməz. Bu baxımdan, bir sıra göstəricilərlə bağlı müqayisə metodunun tətbiqi geniş yayılmışdır. Burada keçmiş dövrlə, insanın inkişafı ilə bağlı yüksək nəticələr əldə etmiş regionların malik olduqları səviyyə ilə müqayisələr aparılır. Ərzaq məhsullarının ekoloji parametrlərinin tənzimlənməsi üçün göstəricilərin (indikatorların) həd qiymətlərinin müəyyən edilməsi xüsusilə çətindir.*

*Ərzaq təhlükəsizliyi problemi fərdi səviyyədə səmərəli həll oluna bilməz. Müasir dövrdə ərzaq məhsullarının keyfiyyətlinə, ekoloji təhlükəsizliyinə nail olmaq xüsusi əhəmiyyət kəsb edir. Müasir iqtisadi inkişaf meyilləri ekoloji təhlükəsizliyin təmin edilməsi, həmçinin ənənəvi ərzaq məhsulları istehsalı imkanlarını məhdudlaşdırır. Müasir texnologiyanın geniş-*

*miqyaslı tətbiqi, kütləvi informasiya vasitələrinin inhisarlaşması, yüksək gəlir əldəetmə cəhdi, ilk növbədə insanların təhlükəsizliyini, sağlamlığını deyil, məhz kapitalın maraqlarını əks etdirir, bu maraqlardan doğan tələblərə cavab verir.*

### 11.2. Sosial islahatlar və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə onun təsiri

Həyat səviyyəsi - çox mürəkkəb sosial-iqtisadi kateqoriya olmaqla, iqtisadi inkişafın mövcud səviyyəsində insanların həyat fəaliyyətlərinin (əmək,məişət,istirahət və i.a.) sabit təmin olunan şəraitinin toplusudur. Həyat səviyyəsi istehlakın həcmi və quruluşunu, insanların həyat tərzini, xidmət sahələrinin inkişaf dərəcəsini və asudə vaxtın strukturunu, mədəni, təbii və digər qiymətlərdən istifadə üçün mövcud şəraiti özündə birləşdirir. Bundan əlavə, ekoloci təhlükəsizliyin səviyyəsini əks etdirir, əhalinin qida məhsulları, paltar, ayaqqabı, mənzil və s. ilə təminolunma dərəcəsini göstərir. Bu, həyat səviyyəsi kateqoriyasının geniş mənada məzmununu ifadə edir.Məhdud mənada həyat səviyyəsi dedikdə isə gəlirlərin həcmi, habelə iqtisadi nemət və xidmətlərin faktiki istehsalı nəzərdə tutulur. Həyat səviyyəsi kəmiyyətcə ayrı-ayrı məhsul növləri üzrə natural (məsələn, hər nəfərə düşən polad, prokat, elektrik enercisi, avtomobil, kimyəvi lif, əsas qida məhsulları - taxıl, ət, süd, şəkər, kartof və s.), ümumi şəkildə isə dəyər formasında( məsələn, hər nəfərə düşən ümummilli məhsul, milli gəlir, milli sərvət və i.a.) ifadə olunur. Cəmiyyət üzrə orta həyat səviyyəsi göstəriciləri ilə yanaşı, ayrı-ayrı sosial qruplar üzrə də belə hesablamalar aparılır ki, bu da onlara müqayisəli xarakteristika verməyə imkan yaradır, həyat səviyyəsinin yüksəlməsi və ya Aşağı düşməsi haqqında isə onun dinamikası və tələbata uyğun gəlib-gəlməməsinə dair məlumatlar əsasında fikir yürütmək olur. Həyat səviyyəsinin dinamikası əhalinin real gəlirləri, ərzaq və qeyri-ərzaq məhsullarının istehlakı, asudə vaxt, ümumi əmək məsrəflərində mexanikləşdirilmiş SAhələrdə sərf olunan əməyin xüsusi çəkisi və başqa göstəricilərin köməyi ilə müəyyən edilir.

Qeyd etmək lazımdır ki, əhalinin həyat səviyyəsini təhlil edərkən istehlak səbəti və yaşayış minimumu göstəricilərindən də istifadə olunur. Bunların mahiyyətini daha yaxşı dərk etmək üçün minimum istehlak büdcəsini nəzərdən keçirmək lazımdır. Belə ki, istehlak büdcəsinin başlıca tərkib hissəsi istehlak səbətidir. İstehlak səbəti və yaşayış minimumu insanın konkret funksional ehtiyaclarını ödəyən, elmi cəhətdən əsaslandırılmış, tarazlaşdırılmış istehlak malları və xidmətlər toplusundan ibarətdir. İstehlak səbətinə təxminən 400 addan çox məhsul və xidmət növü daxil edilir.

Həyat səviyyəsini qiymətləndirmək üçün aşağıdakı göstəricilərdən istifadə edilir: əmək ehtiyatlarının vəziyyəti (orta ömür müddəti); əhalinin təhsil səviyyəsi və hər 1000 nəfərə düşən tələbə və şagirdlərin sayı; kalori ilə hər nəfərə düşən əsas qida məhsullarının istehlakı; ÜMM-də təhsilə ayrılan xərclərin xüsusi çəkisi faizlə; xidmət sahələrinin inkişafı (əhalinin hər 10000 nəfərinə düşən həkimlərin, hər 1000 nəfərinə düşən xəstəxanalardakı çarpayıların sayı, əhalinin mənzillə, məişət cihazları ilə təmin olunması və s)

Qeyd etmək lazımdır ki, son illərdə dünya ölkələrində əhalinin həyat səviyyəsini müəyyən edərkən ölkənin iqtisadi inkişaf göstəriciləri və ya indeksləri hesablanır. Bunlar, özündə bir sıra iqtisadi və sosial göstəriciləri, məsələn, əhalinin təhsil səviyyəsini, orta ömür müddətini, iş həftəsinin uzunluğunu və s. əks etdirir. BMT-nin İnsan Ehtiyatlarının İnkişafına dair Məruzəsində göstərildiyi kimi, keçən əsrin 90-cı illərində ictimai inkişaf indeksinə görə Yaponiya birinci( 0,983), Kanada ikinci (0,982)), Norveç üçüncü (0,978), İsveçrə və İsveç dördüncü və beşinci (hər ikisi 0,977) yeri tutmuşlar. Sonrakı yerlərdə ABŞ (0,976), Avstraliya (0,972), Fransa ( 0,971), Hollandiya (0,970)), İngiltərə (0,964), İslandiya(0,960) və Almaniya( 0,957) olmuşlar.

Onu da göstərmək lazımdır ki, əhalinin həyat səviyyəsini müəyyən edən əsas amil, onun gəlirləridir. Əhali gəlirlərinə isə muzdlu işçilərin əməkhaqqı; sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin gəlirləri; pensiyalar; yardımlar; təqaüdlər və digər sosial transfertlər; əmanətə görə əldə edilən faiz məbləği, qiymətli kağızlara görə dividendlər; xarici valyutaların satışından gələn gəlirlər və s. daxildir.

Əhalinin bütün gəlirləri iki qrupa bölünür :

- əmək sərfi və sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər (əməkhaqqı, mənfəət, mükafat və i.a.);
- qeyri-əmək gəlirləri( qanuni yolla əldə edilən dividend, ayrı-ayrı maliyyə təşkilatlarına qoyulan müxtəlif növ əmanətlər üçün verilən faiz məbləği, mülkiyyətdən, o cümlədən mənzilin kirayə verilməsindən götürülən gəlirlər, dövlət tərəfindən verilən müavinət, yardım, ödənclər və i.a.).

Dünyanın müxtəlif ölkələrində bu gəlirlər eyni deyildir və onlar təsərrüfat konyukturasından, sahibkarlıq fəaliyyətindən və digər amillərdən asılıdır. Bundan başqa, gəlirlərin ümumi məbləğində «qeyri əmək gəlirləri»nin payı olduqca yüksəkdir və ailələr kəskin surətdə fərqlənirlər. P.Samuelsonun və V.Nordhausun yazdıqları kimi gəlirlərin qeyri-bərabər bölüşdürülməsinin səbəblərindən biri sərvət üzərində mülkiyyət münasibətlərinin bərabər olmamasıdır. Məsələn, ABŞ-da ölkənin bütün sərvətinin 20%-ə qədəri əhalinin 1%-nin mülkiyyətindədir.

Əhalinin həyat səviyyəsi minimum dövlət sosial standartları, əməkhaqqı, sosial inkişaf və s. köməyi ilə tənzimlənir.

Minimum dövlət sosial standartları Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş sosial təminatların həyata keçirilməsinə yönəldilmişdir.

Minimum dövlət sosial standartları dedikdə, ölkəmizin Qanunvericiliyi ilə müəyyən olunmuş sosial normalarla ifadə olunan minimum zəruri sosial təminatın həyata keçirilməsi nəzərdə tutulur. Bəzi hallarda regionlar üzrə də belə təminetmə müəyyən edilir.

Azərbaycan dövlətinin minimum dövlət standartlarının həyata keçirilməsinin əsas məqsədi aşağıdakılardan ibarətdir:

- insanların əsas iqtisadi nemətlərə və sosial xidmətlərə olan ən mühüm tələbatlarının ödənilməsinin təmin olunması;
- ölkədə vahid sosial məkanın möhkəmləndirilməsi;
- sosial ehtiyaclar üçün büdcə və büdcədənkənar vəsaitin formalaşması və istifadəsi normativlərinin təmin edilməsi;
- büdcələrarası münasibətlərin təkmilləşdirilməsi və yerli büdcələrin sosial inkişafla əlaqədar olan hissəsinin dövlət tərəfindən müdafiəsi;
- dövlət siyasətinin prioritet istiqamətlərinin həyata keçirilməsi üçün resursların səfərbərliyə alınması.

Bütün bu göstərilənləri dövlət yeritmiş olduğu uğurlu sosial siyasət vasitəsilə tənzimləyir. Belə ki, minimum dövlət standartlarının köməyilə ölkənin müxtəlif regionlarında əhali qruplarının rifahı sahəsində vəziyyəti daim izləmək, habelə müvafiq idarə, müəssisə və təşkilatların vətəndaşlar qarşısında götürdükləri sosial öhdəliklərin yerinə yetirilməsinə dövlət nəzarətini gücləndirmək olar. Çünki verilmiş zəmanətlərin təmin olunmaması sosial gərginliyin artmasına səbəb ola bilər.Respublikamızda həyata keçirilən çevik iqtisadi siyasətin Dövlət büdcəsinə, onun gəlir və xərclərinin dinamikasına təsir göstərməsi fonunda sosial məqsədlər üçün ayrılan vəsaitlərin həcmi son illərdə davamlı şəkildə artmış, bunun nəticələri vətəndaşların pul və digər formada maddi gəlirlərindən tutmuş həyat şəraitinin yaxşılaşmasına qədər geniş spektrdə özünü qabarıq şəkildə büruzə vermişdir.

Ölkə Prezidenti İlham Əliyev bu barədə demişdir: «Yeddi il ərzində 2004-2010-cu illər) Azərbaycanda yoxsulluq 4-5 dəfə aşağı düşmüşdür.Bu bir daha göstərir Ki, bizim apardığımız islahatlar və iqtisadi artım rifah halının yaxşılaşdırılmasına yönəldilmişdir. Onu da göstərir ki, Azərbaycanda enerci sektorunda görülən işlər nəticəsində ölkə xəzinəsinə daxil olan vəsait ədalətli bölünür və beləliklə, Azərbaycanda sosial ədalət Prinsipi həmişə yüksək səviyyədə tətbiq olunur».

Son illər respublikamızın sürətli iqtisadi inkişaf və tərəqqi yolunda inamla irəliləməsi, ilk növbədə ölkə vətəndaşlarının sosial halının yüksəldilməsi ilə müşayiət olunur. Bu fikir Prezident İlham Əliyevin sədrliyi ilə yanvarın 14-də keçirilən Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi

inkişafının yekunlarına və 20100-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında səslənən konkret rəqəmlərlə öz təsdiqini tapmışdır.

Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan genişmiqyaslı islahatlar sayəsində əhalinin məşğulluq səviyyəsi və gəlirləri artmış, vətəndaşların maddi rifah halı daha da yaxşılaşdırılmışdır. Yoxsulluğun səviyyəsi aşağı düşərək, 9,1 faiz təşkil etmişdir. Bununla bağlı Dövlət başçısı müşavirədəki nitqində demişdir: «Bu, bizim böyük nailiyyətimizdir. Yeddi il ərzində Azərbaycanda yoxsulluq 4-5 dəfə aşağı düşmüşdür. Bu, bir daha göstərir ki, bizim apardığımız islahatlar və iqtisdai artım, ilk növbədə Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına yönəldilibdir».

Ötən il bütün sosial proqramlar uğurla icra edilib. Minimum əməkhaqqı və pensiyaların baza hissəsi 75 manatdan 85 manata qaldırılıb. Ünvanlı Sosial Yardım Proqramı regionlarda, ən ucqar kəndlərdə belə dəqiq həyata keçirilir. Bu Proqram çərçivəsində ölkədə 550 min nəfərdən çox adam dövlətdən yardım alır. Müşavirədə bildirilib ki, bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Çünki heç kimə sirr deyil ki, hələ də ehtiyac içində yaşayanlar var. Baxmayaraq ki, yoxsulluğun səviyyəsi aşağı düşür, amma Dövlət, Ölkə başçısı bu sahəyə qayğını hər an nəzərdə saxlayır, çətinlik çəkənlərə köməyi əsirgəmir. Prezident İlham Əliyev müşavirədə demişdir: «Sosial infrastrukturun yaradılmasında böyük işlər görülmüşdür. 40-dan çox tibb müəssisəsi, 70-dən çox məktəb tikilmiş, təmir edilmişdir. Beş olimpiya idman mərkəzi tikilmişdir, mədəniyyət ocaqlarının tikilməsi və təmirinə əsaslı vəsait ayrılır. Bir sözlə, ölkə iqtisadiyyatı və ümumiyyətlə, ölkənin inkişafı üçün vacib olan sosial sahə həmişə olduğu kimi, diqqət mərkəzindədir. Bu, 2011-ci ildə də belə olmalıdır və şübhəsiz, İnvestisiya Proqramında sosialyönümlü layihələr nəzərdə tutulacaqdır».

2010-cu ildə ölkəmizdə əmək pensiyalarının sosial müdafiəsi daha da gücləndirilmişdir. «Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında» Dövlət başçısının Sərəncamına əsasən, əmək pensiyalarının sığorta hissəsinə ötən il yanvarın 1-dən istehlak qiymətləri indeeksinin 2009-cu il üzrə səviyyəsinə uyğun artım tətbiq edilmişdir. Yenə də həmin vaxtdan Böyük Vətən müharibəsi iştirakçılarının yaşa görə əmək pensiyasının baza hissəsi 30 manat artırılmışdır. Prezidentin 2010-cu il 22 aprel tarixli Sərəncamı ilə Böyük Vətən müharibəsi iştirakçılarına 500 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, 1941-1945-ci illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin

müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad müharibəsinin iştirakçılarına 200 manat məbləğində birdəfəlik maddi yardım edilmişdir. Bir neçə gün əvvəl – 20 yanvar Ümumxalq Hüzn Günü ərəfəsində Azərbaycan Prezidentinin Fərmanı ilə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin Təqaüdü təsis edilmişdir. 2011-ci il yanvarın 1-dən qüvvəyə minən bu Fərmana əsasən 1 qrup əlillərə 150 manat, II qrup əlillərə 130 manat, III qrup əlillərə isə 100 manat təqaüd verilməsi müəyyən edilmişdir.

Əhalinin rifah halının yaxşılaşdırılmasında yeni iş yerlərinin yaradılması, əmək bazarlarının tənzimlənməsi və qeyri-məşğul əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsini təşkil edir. İş axtaran və işsiz vətəndaşların, xüsusilə gənclərin sosial müdafiəsinin, onların münasib işlə təminatının gücləndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlərdən biri də əmək yarmarkalarıdır. Bu yarmarkalar regionlarda ənənəvi olaraq hər il keçirilir. Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, ötən il respublikamızın şəhər və rayonlarında keçirilən 55 əmək yarmarkasında 2181 müəssisə 17626 boş (vakant) iş yeri ilə iştirak etmiş və işsiz vətəndaşlar münasib işlərlə təmin olunmuşdur. 545 nəfər peşə hazırlığı kurslarına, 419 nəfər isə haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Keçən il Regionların İnkişafı Dövlət Proqramı çərçivəsində 70 mindən çox iş yeri açılmışdır, onun 53 mini daimidir. Regional inkişaf proqramlarının icrasının başlanmasından, yəni 2004-cü ilin fevralından bu günə qədər ölkəmizdə 900 mindən artıq iş yeri açılmışdır. Bu proses davam edir, yeni istehsal sahələri, yeni sex, sahə və müəssisələr fəaliyyətə başlayır, işsizliyin sayı azalır.

Bütün bunlar, deməyə əsas verir ki, sosial islahatlar növbəti illərdə əhalinin maddi durumuna və rifah halının yaxşılaşmasına öz müsbət təsirini daha çox göstərəcəkdir.

# XII FƏSİL

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ EKOLOCİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ

***«Azərbaycan Respublikasında yürüdülən ekoloci siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloci sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir».***

**İlham Əliyev**

## 12.1 Davamlı ekoloji tarazlığın təmin edilməsinin iqtisadi zəruriliyi və iqtisadi metodlardan istifadənin istiqamətləri

Dünya ölkələrində müxtəlif təyinatlı müəssisələrin tikintisinin genişlənməsi, əksər ölkələrdə nəqliyyat vasitələrinin sayının xeyli artması beynəlxalq səviyyədə ekosistemlərin tarazlığının pozulmasına, bitki və heyvanat aləminin ciddi təhlükəyə məruz qalmasına gətirib çıxarmış, atmosfer havası və torpaqlar çirklənmiş, içməli su azalmış, ayrı-ayrı təbii sərvət növləri, demək olar ki, tükənmişdir. Nəticədə, insan sağlamlığının özü böyük təhlükə altında qalmaqla, bəşəriyyətin genetik fonduna ciddi xələl gətirməyə başlamışdır. Odur ki, məhz bu səbəblərdən ətraf mühitin mühafizəsi, insan sağlamlığının qorunması dünya alimlərini və bütövlükdə bəşəriyyəti düşündürən ciddi problemə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, hazırda isə dünyada daha çox qəbul və tətbiq edilən inkişaf konsepsiyalarından biri "Davamlı inkişaf" Konsepsiyasıdır. Əslində bu Konsepsiyanın meydana çıxması və qəbul edilməsi BMT-nin təbiəti mühafizə fəaliyyəti ilə bağlı olmuşdur.

"Davamlı inkişaf" Konsepsiyasının mahiyyəti gələcək nəsillərin həyatını təhlükə altına qoymadan, indiki nəsillərin tələbatının sosial, iqtisadi və ekoloji cəhətdən normal ödənilməsindən ibarətdir .

1992-ci ildə Rio-de Janeyroda ətraf mühit və inkişaf üzrə keçirilmiş BMT konfransında müasir cəmiyyətin davamlı inkişafa keçid strategiyası qəbul edildi. İngilis dilinin "sustain"-möhkəmləndirmək, kömək etmək və "to be abble"-qabiliyyətli olmaq sözlərindən əmələ gələn "Davamlı inkişaf" termini inkişafın özünü təmin etməsi, başqa sözlə, özü-özündən təkan, gələcək irəliləyişə stimul verən inkişaf kimi başa düşülür.

Keçən əsrin sonlarında əsası qoyulmuş Davamlı İnkişaf Beynəlxalq İnstitutu (İNSD) davamlı inkişafa aşağıdakı tərifi verir: "Davamlı inkişaf

- vahid ətraf mühit, iqtisadi səmərəlilik və xalqların rifahının cəmləşməsi deməkdir".

Mütəxəssislərin fikrincə, bu terminin məzmununda ekoloji davamlılıq imperativi və sosial-iqtisadi davamlılıq imperativi ayrılır. Ekoloji davamlılıq imperativi ekoloji imkanlar çərçivəsində yaşamaq deməkdir, yəni bəşəriyyətin tələbləri təbiətin imkanları xaricində olduğuna görə, insanlar öz tələblərini və tullantılar istehsalını azaltmaqla təbii ehtiyatların vəhşicəsinə sərfinə son qoymalıdırlar.

Qeyd etmək lazımdır ki, «Davamlı inkişaf» Konsepsiyasına bir-birilə qarşılıqlı asılılıqda olan və paralel olaraq mövcudluğu şübhə doğurmayan üç aspektin üzvi sintezi kimi baxılmalıdır: 1) iqtisadi inkişafın artımı; 2) ətraf mühitin və ekosistemlərin mühafizə və bərpası; 3) sosial ədalətin bərqərar olması.

Ekoloji problemlərin həlli üçün BMT tərəfindən "Davamlı inkişaf" Konsepsiyası beynəlxalq və milli qurumlar vasitəsilə həyata keçirilməklə "gələcəksiz inkişafın" qarşısını almağa, ətraf mühiti, biomüxtəlifliyi, insanların sağlamlığını və uzunömürlülüyünü qorumağa yönəldilmişdir. Şübhəsiz ki, hər hansı istehsal layihəsini həyata keçirərkən, başqa sahələrdə fəaliyyət göstərərkən insanlar istər-istəməz bu və ya digər dərəcədə xarici mühitə təsir edirlər. Lakin "Davamlı inkişaf" Konsepsiyası bu layihələrin həyata keçirilməsində elə texnologiyaların, avadanlıq və cihazların istifadəsini nəzərdə tutur ki, onların ətraf mühitə təsiri minimuma endirilsin və təbii ehtiyatların istifadəsini optimal şəkildə təşkil etməklə gələcək nəsillərin xammaldan istifadə imkanlarını məhdudlaşdırmasın.

Artıq uzun müddətdir ki, ölkəmizdə böyük iqtisadi, sosial və siyasi əhəmiyyəti olan ardıcıl neft startegiyası həyata keçirilir. "Əsrin Müqaviləsi"nin imzalanmasından başlayaraq uğurla həyata keçirilən bu strateji xəttə uyğun olaraq dünyanın, o cümlədən ABŞ-ın, Böyük Britaniyanın, Norveçin, Rusiyanın, İtaliyanın, Türkiyənin, Yaponiyanın, Fransanın və bir sıra başqa ölkələrin aparıcı neft şirkətləri Azərbaycan iqtisadiyyatına sərmayə qoymuşlar və burada müasir texnologiyalar tətbiq etməklə, öz işlərini yüksək ekoloji standartlar səviyyəsində qurmağa çalışırlar. "Əsrin Müqaviləsi" və ondan sonra imzalanmış müqavilələr regionda bir sıra ölkələrin strateji maraqlarını təmin etmiş, bu da Azərbaycan Respublikasının sərhədlərinin bərpa olunması və regionda sülhün bərqərar edilməsi üçün vacib bir amilə çevrilmişdir. Beynəlxalq fəaliyyət istiqaməti kimi «Davamlı inkişaf» Konsepsiyası" keçən əsrin 70-ci illərində bir sıra ölkələrdə iqtisadi inkişafın sabitləşdirilməsi və sosial vəziyyətin bərabərləşdirilməsi məqsədilə formalaşmışdır. "Davamlı inkişafın" əsasına təbii resurslardan (xüsusilə də bərpa oluna bilməyən) istifadənin optimallaşdırılması, uzunmüddətli perspektivdə ətraf mühitin keyfiyyətinin qorunub saxlanılması və yaxşılaşdırılması prinsipi qoyulmuşdur.

Keçid dövrünün son dərəcə ağır çətinliklərinə məruz qalan insanlar bəzi hallarda ekologiyanın, təbii resursların qorunmasını arxa plana keçirmək məcburiyyətində qalırlar. Keçmiş strukturların dağılması, ölkədə yaranmış qanun boşluğu və özbaşınalıq nəticəsində istehsalın səviyyəsinin getdikcə aşağı düşməsi nəinki yüksək texnologiyaya malik sənaye sahələrinin yaranmasına, eləcə də köhnə sənaye müəssisələrinin belə normal işləməsinə imkan vermir. Qısa zaman çərçivəsində gəlir gətirən sahələrin sürətli inkişafına üstünlük verildiyinə görə təbii ehtiyatların, havanın, suyun və meşələrin qorunması arxa plana keçir. Odur ki, bu məsələyə ölkənin iqtisadi siyasət strategiyası çərçivəsində kompleks şəkildə yanaşmaq vacibdir. Sənaye cəhətdən zəif inkişaf etmiş ölkə yoxsul vəziyyətdə və dünya sivilizasiyasından kənarda qaldığı kimi, onun son dərəcə bərbad ekologiyası da ümumbəşəri dəyərlər sistemində miskin görünəcəkdir. Məşhur amerikalı alim Fred Li Smitə görə, hələ indiyə qədər ekologiyanı bütövlükdə iqtisadi sistemə inteqrasiya edən məqsədli model qurulmamışdır.

Qeyd etmək lazımdır ki, təbii resursların ölkənin milli sərvəti olduğunu nəzərə alsaq, onda onların özəlləşdirilməsi zamanı iqtisadi təhlükəsizlik kontekstində ekologiya probleminin həlli məsələsi də daim diqqət mərkəzində saxlanılmalıdır. Dünya təcrübəsində qlobal problem kimi ətraf mühitin qorunmasının aşağıdakı prinsipləri ön plana çəkilməlidir:

- əgər təbii resursların qorunmasını özəl sektor öz üzərinə götürməyə qadirdisə, onda dövlətin bu sahəyə xərc çəkməsi istisnalıq təşkil etməlidir;
- ekoloji problemlərin həlli zamanı hər bir rayon ekoloji və iqtisadi məsələlərin seçilməsində tam sərbəst olmalıdır;
- müştərək təsərrüfat fəaliyyəti ilə digər yerdəki ekoloji ziyan arasındakı qarşılıqlı əlaqənin aşkara çıxarılmasına nail olunmalıdır;
- sağlam ekoloji mühitin yaradılması üçün mülkiyyət obyektlərinin sərhədləri müəyyənləşdirilməli və onların toxunulmazlığının təmin edilməsi məqsədilə texniki avadanlığın işlənib hazırlanaraq istifadəyə verilməsi təmin edilməlidir.

Daha çox məhsul istehsalına olan meyil böyük ərazilərdə faydalı qazıntı yataqlarının sürətlə istismarına gətirib çıxarmışdır ki, bu da böyük ərazilərdə təbii mühitin pozulmasını sürətləndirmişdir. Torpaqların rekultivasiyası, bitki örtüyünün bərpası və hasilat prosesi başa çatmış, bir sıra sahələrin təbiəti mühafizə və ekoloji tarazlığın bərqərar edilməsi üzrə işlər isə, əslində aparılmamış, bu tədbirlərin təşkili və həyata keçirilməsi üçün zəruri olan maliyyə vəsaitləri, avadanlıqlar və texniki vəsaitlər daha "məhsuldar" məqsədlərə, daha doğrusu, təbii sərvətlərin yeni yataqlarının mənimsənilməsinə yönəldilmişdir. Nəticədə, külli miqdarda da-ğıdılmış torpaq sahələri, bərbad vəziyyətə düşmüş təbii bitki örtüyü, çirkləndirilmiş çoxlu su hövzələri, səmərəsiz istifadə nəticəsində yararsızlaşmış, bir sıra böyük əhəmiyyətə malik faydalı qazıntı yataqları, respublikanın

ekoloji cəhətdən zərərli zonasına çevrilməsinin başlıca səbəblərindən biri olmuşdur.

Hazırdı böyük torpaq sahələri dağıdılmaqla yanaşı, su hövzələrinin hasilat və saflaşdırma tullantıları ilə intensiv çirkləndirilməsi, bitki və heyvanat aləminin qismən və ya tamamilə məhv olması kimi acı reallıq üzə çıxmışdır. Abşeron, Gəncə, Daşkəsən, Qazax, Qaradağ rayonlarının ərazilərində və Naxçıvan MR-də bu vəziyyət özünü daha açıq şəkildə büruzə vermişdir. İlkin hesablamalara görə, bu rayonlarda ətraf mühitin çirkləndirilməsi nəticəsində ölkənin iqtisadiyyatına dəyən iqtisadi zərərin ümumi miqdarı 150-200 milyon dollar təşkil edir.

Dəymiş zərərin aradan qaldırılması üzrə tədbirlərin həyata keçirilməsi isə daha böyük həcmdə investisiya qoyuluşlarının həyata keçirilməsini tələb edir. Bununla yanaşı, təbiəti mühafizə tədbirləri üçün ayrılan kapital qoyuluşunun vaxtında, lazımi məqsədlər üçün və yüksək səviyyədə mənimsənilməsini təmin etmək məqsədilə bir sıra iqtisadi və təşkilati tədbirlərin həyata keçirilməsi məqsədəuyğun sayılır.

Qeyd etmək lazımdır ki, hazırdı ən maraqlı hal Cənub sərhədləri boyu axan Araz çayı bədnam qonşu Ermənistan respublikasının ərazisindən çirkab materiallarla çirkləndirilir. Çay sularının tərkibində, xüsusilə ağır metalların miqdarı üstünlük təşkil edir. Təəssüflər olsun ki, bu sular kənd təsərrüfatında və Bakının su təchizatında istifadə edilir. Respublikanın 45 şəhərindən 35-ində təmizləyici qurğular fəaliyyət göstərir ki, bunlar da yalnız mexaniki təmizləmə xarakterli işləri yerinə yetirirlər. Həmin qurğuların texnoloji cəhətdən yararsızlığı isə mövcud problemləri daha da dərinləşdirir. Hazırda Bakı şəhərində məişət sularının yalnız yarıya qədəri təmizlənir və Xəzər dənizinə axıdılır. Əslində Bakı Təmizləyici Stansiyasının istismar müddəti 14 il olduğundan artıq onun mənəvi köhnəlməsi baş verir.

Məsələ burasındadır ki, Abşeron yarımadasında sənayenin çirkab suları ilə ətraf mühitin çirklənməsi çox təhlükəli vəziyyət yaratmışdır. Bakı və Sumqayıt şəhərlərində içməli suyun aşağı keyfiyyəti səth sularının çirklənməsi ilə bağlı olsa da, texnika köhnə olduğuna görə, müvafiq problem öz zəruri həllini tapmır.

Onu da qeyd edək ki, ətraf mühitin və suların çirklənməsində kənd təsərrüfatının da rolu az deyildir. İqtisadi islahatların ötən dövründə ölkəmizin kənd təsərrüfatında hər il 300 min ton kimyəvi gübrələr və 40-50 min tondan artıq pestisidlər işlənmişdir. Kollektiv təsərrüfatlarda onlardan səmərəsiz istifadə edilməsi regionlarda əhalinin sağlamlığına mənfi təsirlə nəticələnmişdir.

Qeyd etmək lazımdır ki, son illər respublikada davamlı ekoloji tarazlığın pozulmasına ən çox səbəb olan sahə hasilat və emal sənayesidir. Sənayenin sahələri içərisində, xüsusilə yanacaq-energetika, metallurgiya və kimya sahələri ətraf mühitə kifayət qədər təhlükə törədir.

Bundan başqa, respublikada mineral-xammal sərvətlərinə olan tələbatın artması və onların təbii ehtiyatlarının tükənməsi ilə yanaşı, hasilat sənayesində filiz və qeyri-filiz sərvətlərinin külli miqdarda itkisinə yol verilir.

Mövcud sənaye istehsalı artımını nəzərə alaraq bu ziddiyyətin yaxın dövr üçün daha da kəskinləşəcəyini gözləmək olar və əgər son dərəcə qısa bir müddət ərzində əsaslı tədbirlər həyata keçirilməzsə, bu ziddiyyət respublikanın sənaye sahələrində bir sıra gözlənilməz pis nəticələrə səbəb ola bilər.

Qeyd etmək lazımdır ki, əvvəllər irihəcmli istismar işləri aparılmış Daşkəsən rayonunda həm istismar sahələrində, həm də Filiz Saflaşdırma Kombinatı yerləşən ərazidə, Zəylik Alunit Yatağının İstismarı Sahəsi və Gəncə Gil-Torpaq Kombinatı ərazisində 100 mln. manat ziyanla ölçülən istehsalat tullantılarının ətraf mühitə neqativ təsiri sərbəst davam etməkdədir. Abşeronda əhəngdaşı yataqlarının, Xəzər sahilində qum yataqlarının, çay vadilərində qum-çınqıl yataqlarının kortəbii istismarı nəticəsində yaranan ekoloji problemlər artmaqdadır.

Ümumiyyətlə, mütəxəssislər dağ-mədən sənayesinin ətraf mühitdə problem yaradan istehsalat prosesləri və amillərini aşağıdakı kimi qruplaşdırırlar:

1. Faydalı qazıntıların açıq və yeraltı üsullarla çıxarlması;
2. Ətraf sahədə istehsalat strukturlarının yerləşdirilməsi və fəaliyyət göstərməsi.
3. Zənginləşdirmə və ya saflaşdırma qurğularının yerləşdirilməsi və onların fəaliyyət göstərməsi;
4. İstehsalat tullantılarının yaranması, toplanması, təkrar istehsalat tullantıları;
5. Ağır yüklərin nəqli;
6. Yaımfabrikat məhsulların hazırlanması üzrə qurğuların yerləşdirilməsi və onların fəaliyyət göstərməsi.

Bazar münasibətlərinə keçid şəraitində qarşıya çıxan mühüm problemlərdən birini müəssisələrdə tullantıların zərərsizləşdirilməsi və təbiəti mühafizə tədbirlərinin lazımi səviyyədə maliyyələşdirilməsi mənbələrinin dəqiqləşdirilməsi təşkil edir.

Mühüm məsələlərdən biri ətraf mühitin mühafizəsi üzrə mühüm təbii ehtiyatların tam və kompleks istifadə edilməsi, təkrar xammal ehtiyatları və istehsal tullantılarının təsərrüfat dövriyyəsinə cəlb edilməsi məsələsidir. Hazırda zibilxanalarda külli miqdarda təkrar xammal ehtiyatları toplanmışdır. Onların səmərəli istifadə edilməsi sənaye müəssisələrində bir sıra texniki və iqtisadi tədbirlərin həyata keçirilməsini tələb edir. Balakən rayonunun şimal hissəsində, Böyük Qafqazın cənub yamacları boyunca uzunluğu 50-60 km, eni 25-30 km olan geniş ərazi Zaqatala-Balakən filiz zonası elan edilmişdir. Buradan aydın olur ki, Zaqatala-Balakən

rayonları XXI əsrdə respublikamızın intensiv inkişaf edən dağ-mədən və metallurgiya sənayesi bazasına çevriləcəkdir.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi sübut edir ki, ekoloji tarazlığın pozulmasına qarşı mübarizənin inzibati və ya birbaşa metodları vaxtilə iqtisadiyyatda texnogen inkişafın nəticəsi kimi ətraf mühitin deqradasiyasına yönəldilən ilk sərt və ənənəvi addımlar olmuşdur. Maddi istehsal sahələrinin, xüsusilə də sənaye və kənd təsərrüfatının ətraf mühitə güclü təsiri təmizləyici filtrlərin və qurğuların, texnogenezdən xüsusi qorunan ərazilərin yaranmasına, tullantıların yığılıb saxlanması sisteminin təkmilləşməsinə, eləcə də çirklənmiş torpaqların rekultivasiyasına səbəb oldu. Məsələ burasındadır ki, elə bu günün özündə də bütün dünyada ətraf mühitin mühafizəsi üzrə bütün plan və proqramlarda yuxarıda qeyd etdiyimiz tədbirlərə xüsusi diqqət verilir. Lakin bu metodlarla, əslində texnogen inkişafın nəticələri ilə mübarizə aparılır, onu doğuran səbəblər isə məhdudlaşdırılmır və ya ləğv olunmur.

Ekoloji tarazlığın qorunmasında birbaşa tənzimlənmə metodlarının rolu gələcəkdə də böyük olacağına baxmayaraq, texnologiyanın müasir səviyyəsi istehsalın inkişafının mənfi ekoloji nəticələrinin ancaq alternativ variantlar və aztullantılı texnologiyalar əsasında ləğv olunmasına imkan vermir. Ölkədə bazar iqtisadiyyatının mükəmməl rəqabət sistemi formalaşmadığına görə iqtisadi-hüquqi mexanizmlər ətraf mühiti mühafizə etməyə imkan vermir.

İqtisadi inkişafın müasir mərhələsində ekoloji tarazlığın pozulması ilə bağlı və ekologiya-iqtisadiyyat münasibətlərinin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə təbiət və cəmiyyətin ahəngdar qarşılıqlı əlaqə və təsiri istiqamətində lazımi tədbirlərin görülməsi zərurəti meydana çıxır. Bunun üçün xüsusi olaraq ekoloji tənzimləmə sisteminin yaradılması vacib sayılır. Ekoloji tənzimləmə davamlı ekoloji inkişafın təmin edilməsində dövlətin həyata keçirdiyi siyasətə iqtisadi baxımdan təsir göstərir. O, çox mühüm təsir obyekti kimi təbiət və cəmiyyətin istehsalla bağlı olmayan ünsürlərinə mənfi təsir göstərir, istehsalla bağlı olmayan ünsürlər iqtisadiyyat üçün kənar amillər hesab edilsə də, onlar da öz növbəsində keçid dövründə qarşılıqlı ekoloji tarazlığa səbəb ola bilərlər. Kənar amil dedikdə, ətraf mühitə atılan qaz və bərk formalı tullantılar və çirkab suları nəzərdə tutulur.

Mövcud problemlərin aradan qaldırılması məqsədilə bir sıra iqtisadi metodlardan istifadə edilir. Konkret halda, burada söhbət vergi və maliyyə alətlərinin tətbiq olunmasından gedir. Əgər kənar amillər iqtisadi proseslərə mənfi təsir göstərirsə, onda vergi mexanizminin təsir vasitələrindən, əgər müsbət təsir göstərirsə, subsidiyalardan istifadə olunur. Hazırda ekoloji tarazlığı qoruyub saxlamaq və ekoloji təhlükəsizliyi təmin etmək məqsədilə dünya ölkələrinin çoxunda xüsusi dövlət orqanları fəaliyyət göstərir. Bu orqanlar ekoloji tarazlığın qorunmasına cavabdeh

olmaqla yanaşı, ətraf mühiti çirklənməkdən qorumaq üzrə məqsədli proqramlar və tədbirlər hazırlayıb həyata keçirirlər. Təcrübə göstərir ki, ilk vaxtlar ekoloji tarazlığın qorunması tədbirlərinin iqtisadi müxanizmləri həmin orqanlar tərəfindən çox az tətbiq olunmuş, əvəzində isə daha çox inzibati-amirlik mexanizmlərinə üstünlük verilmişdir.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə ekoloji tənzimləmənin çoxillik təcrübəsinin öyrənilərək ümumiləşdirilməsi respublikamızın iqtisadiyyatında da davamlı ekoloji inkişafın təmin edilməsində iqtisadi mexanizmlərin yaradılması üçün mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq təcrübə sübut edir ki, iqtisadi inkişafın müasir mərhələsində ekoloji tənzimləmə qarşılıqlı əlaqədə olan hər iki metodla aparılmalıdır. Onlardan hansının harada tətbiq edilməsi isə konkret region və yaxud müəssisədən asılı olaraq müəyyən edilir. İqtisadi ədəbiyyatda tətbiq olunan mexanizmlərin və ya tədbirlərin müəssisənin təsərrüfat fəaliyyətinə yaxşı və ya pis təsir göstərməsindən asılı olaraq müvafiq şəkildə müsbət və ya mənfi stimulların yaranması fikri qeyd olunur.

Təcrübədə ekoloji tənzimləmənin iqtisadi metodlarından istifadə, ilk növbədə təbii ehtiyatlara qiymət qoyulması ilə bağlıdır. Eyni zamanda bu metodlardan istifadə zamanı makroiqtisadi səviyyədə dövlətin həyata keçirdiyi iqtisadi siyasətin konseptual əsasları da mühüm əhəmiyyət kəsb edir. Bazar iqtisadiyyatına keçidin indiki mərhələsində güzəştli kreditlərin və güzəştli vergi sisteminin, çirklənməyə görə cərimələrin sistemli şəklə salınaraq tətbiq edilməsi, şübhəsiz ki, ilk növbədə təbiəti mühafizə orqanlarının borcudur.

Respublikamızın bazar iqtisadiyyatına qədəm qoyması ekoloji tarazlığın qorunması sahəsində də bir sıra tədbirlərin həyata keçirilməsinə imkan verir. Beynəlxalq təcrübə göstərir ki, sözügedən sahədə iqtisadi maraqlandırma tədbirlərinin həyata keçirilməsi müsbət nəticələrə gətirib çıxarır. Bazar iqtisadiyyatlı ölkələrin əksəriyyətində bu sahə daim diqqət mərkəzində saxlanılır. Bura əsasən çirklənmədən dəyən sosial-iqtisadi zərərin qiymtələndirilməsi və istehsalın təşkilində ekoloji məsələlərə fikir verilməsi daxildir.

Ekoloji tarazlığın pozulduğu əksər ölkələrdə ətraf mühitin mühafizəsinə xidmət edən Dövlət sistemi fəaliyyət göstərir. Həmin sistemə aşağıdakılar aiddir:

- ətraf mühitin mühafizəsinə dair dövlət tədbirlərinin həyata keçirilməsi;
- ətraf mühitin mühafizəsi sahəsində özəl sektorun fəaliyyətinin dövlət tərəfindən stimullaşdırılması(birbaşa və ya dolayı maliyyə yardımları, güzəştli vergi, kredit və s.);
- normativ tənzimləmə və cərimə sanksiyalarının tətbiqi(ekoloji ekspertiza, ekoloji normativ və məhdudiyyətlər, çirklənməyə görə ödənişlər və s.);

- ekoloji layihə və ideyaların maliyyələşdirilməsi.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə ekoloji tarazlığın qorunmasının aşağıdakı prinsipləri əsas götürülür: ekoloji təhlükəsizliyin üstünlüyü prinsipi; ekoloji təhlükəsizliyin təmin olunmasında əhalinin kütləvi iştirakının vacibliyi; istehsal texnologiyalarının və avadanlıqlarının ekoloji cəhətdən əlverişli səviyyədə olması; ekoloji baxımdan əlverişsiz vəziyyətin yarana bilməsi ehtimalının qabaqcadan dərk edilməsi; ekoloji təhsilin formalaşması və inkişafı; istehsal və ekoloji təhlükəsizliyin vəhdəti prinsipi.

İqtisadi ədəbiyyatda davamlı ekoloji tarazlığın təmin edilməsində istifadə edilən iqtisadi metodları müxtəlif cür təsnifləşdirirlər. Bəzən bu iqtisadi metodları ümumi və xüsusi metodlara ayırmaqla aşağıdakı kimi qruplaşdırırlar:

- makroiqtisadi səviyyəli metodlar, yəni bütün təsərrüfat sahələrini əhatə edən iqtisadi metodlar;
- xüsusi metodlar, bilavasitə ətraf mühitin mühafizəsi ilə bağlı olan iqtisadi metodlar.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, təbii ehtiyatlardan ödənişli istifadə ekoloji tarazlığın qorunması üzrə fəaliyyətin iqtisadi stimullaşdırma sistemini müəyyən edir. Bu sistem tarixən bazar iqtisadiyyatlı ölkələrdə istehsal və istehlakçıların balanslaşdırılmış hərəkətinin formalaşmasına imkan vermişdir. Ayrı-ayrı ölkələrdə tətbiq olunan iqtisadi stimullaşdırma tədbirləri onların davamlı ekoloji inkişafında çox mühüm roil oynamışdır.

Müasir davamlı ekoloji inkişafın təmin olunmasında istifadə edilən ən mühüm iqtisadi metodlardan biri də vergilərdir. Dünya təcrübəsi sübut edir ki, ekoloji vergilər aşağıdakı problemləri həll edir:

- məhsulun qiymətinin ona sərf olunan xərclərə, o cümlədən də təbii ehtiyatlara, ətraf mühitə dəyən zərərə uyğun olması;
- çirkləndirənlər tərəfindən ekoloji zərərin kompensasiyasına şərait yaratmaq.

Ekoloji vergilər, bir tərəfdən, ekoloji cəhətdən balanslaşdırılmış fəaliyyəti stimullaşdırır, digər tərəfdən isə, resurstutumlu istehsalı sıxışdırır. Bu vergilərin tətbiqi zamanı əvvəlcə, ətraf mühitin mühafizəsi orqanları tərəfindən ilkin addım atılır, sonra isə qalan proseslər bazar mexanizmlərinin öhdəsinə buraxılır.

Beynəlxalq təcrübəyə görə, bütövlükdə istehsalçılar üçün vergi güzəştləri ekoloji fəaliyyət növündən asılı olaraq müəyyən edilir. Ekoloji tarazlığın pozulmasına qarşı aparılan mübarizənin səmərəliliyini yüksəltmək məqsədilə güzəştli vergilər sisteminin tətbiqi təcrübəsi geniş yayılmışdır. Bəzən isə belə hallarda istehsalçılar vergiyə cəlb olunmur. İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə fəaliyyət göstərən ekoloji fondların, elə-

cə də tullantılardan istifadə edən və onların emalı ilə məşğul olan müəssisələrin vergidən azad olması buna əyani misaldır.

Beynəlxalq Ekoloji Vergilər Sistemində dörd əsas tətbiq sahəsi fərqləndirilir: sahəvi, texnoloji, regional və məhsula aid olan. Davamlı ekoloji inkişaf tipinə keçidlə əlaqədar olaraq təbiəttutumlu sahələrdə yüksək vergilərin tətbiqi bu sahələrin inkişafına mane olur. Odur ki, texnoloji proseslərin sonunda vergilər yumşaldılmalıdır ki, bu sahələr daha yaxşı inkişaf etsin və ətraf mühitə tullantılar azalsın. Ekoloji vergilərin regional tətbiq sahəsinə rəğmən isə bəzi iqtisadçılar ekoloji cəhətdən gərgin rayonlarda vergilərin nisbətən yumşaq olmasını və bu yolla həmin ərazilərə investisiyaların cəlb edilməsinin mümkünlüyünü əsaslandırmağa çalışır, digər qrup iqtisadçılar isə əksinə, bu ərazilərdə vergilərin daha sərt olmasını, bununla da ətraf mühitə zərərli təsir göstərən müəssisələrin ixtisarını və ərazinin tezliklə reabilitasiyasını təklif edirlər.

Davamlı ekoloji inkişafa nail olmaq məqsədilə ABŞ-da ekoloji vergilər daim diqqət mərkəzində saxlanılır. Bütövlükdə dünyada ozon qatının seyrəlməsinə səbəb olan freonun istehsalını ixtisar etmək məqsədilə 1989-cu ildə Federal hökumət tərəfindən onun satışına vergi qoyuldu. Freonu əvəz edən maddələrlə istehsala keçmək üçün vaxt lazım olduğuna görə bu vergi mütərəqqi əhəmiyyət kəsb edir.

Hazırda qlobal istiləşmə ilə əlaqədar olaraq bəzi ölkələrdə karbona görə vergi tətbiq etmək haqqında düşünürlər. Onların fikrincə, kömür yanarkən təbii qaza nisbətən daha çox karbon ayrıldığına görə o, daha yüksək vergiyə cəlb olunmalıdır. Belə ki,gələcəkdə karbon vergisinin tətbiqi dünyada enerji ehtiyatlarının istismarını azaltmağa və alternativ enerji mənbələrinin istifadəsinə, meşələr salınmasına və s. stimul yaradacaqdır.

Davamlı ekoloji inkişafın təmin edilməsi sistemində ətraf mühitin çirklənməsinə görə ödənişlər mühüm əhəmiyyətə malikdir. Bu ödənişlər müəssisə və firmalar tərəfindən ətraf mühitə dəyən ekoloji-iqtisadi zərərin kompensasiyası üçün vacibdir. Ətraf mühitin çirklənməsinə görə ödənişlər, dəymiş zərərin yalnız kiçik bir hissəsi olmaqla, çirkləndirən müəssisələrin cəzalandırılması vasitəsi kimi çıxış edir.

Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq qiymət mexanizminin təkmilləşdirilməsi problemi davamlı ekoloji inkişafın təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Təbii ehtiyatların qiymətlərinin aşağı olduğu hallarda ETT-nin nailiyyətlərindən istifadənin daim artan problemləri, eləcə də aztullantılı texnologiyaların tətbiqi məsələləri çox vaxt resursların israfçılıqla istifadəsinə gətirib çıxarır. Eyni zamanda, məhsulun qiyməti ekoloji təhlükəsizlik səviyyəsindən asılı olmalı, ekoloji cəhətdən daha təmiz məhsul isə daha ucuz olmalıdır. Bu zaman beynəlxalq təcrübəyə görə ekoloji vergidən, subsidiya və güzəştlərdən istifadə edilməsi məqsədəuyğun hesab olunur.

Azərbaycanın müstəqillik əldə etməsində, onun qorunub saxlanılmasında və möhkəmlənməsində, ölkə iqtisadiyyatının sürətli inkişafında, xalqın rifahının yaxşılaşdırılmasında əvəzsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin fəaliyyətində ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi daima xüsusi diqqət mərkəzində olmuşdur. 1969-1982 və 1993-2003-cü illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində mühüm qanunlar, qərarlar, sərəncamlar qəbul edilmiş, institutsional dəyişikliklər baş vermişdir.

Respublikada həyata keçirilən struktur islahatları çərçivəsində, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadənin ayrı-ayrı aspektlərilə məşğul olan və fəaliyyətlərində qismən bir-birini təkrarlayan bir neçə dövlət qurumu ləğv edilmiş, ulu öndərimiz Heydər Əliyevin 23 may 2001-ci il 485 saylı Fərmanı ilə ölkədə ekologiya, ətraf mühitin mühafizəsi, hidrometeorologiya, geologiya**,** meşəçilik və balıqçılıq sahələrində vahid dövlət siyasətini həyata keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır.

Ötən müddət ərzində nazirlik tərəfindən "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair", "Meşələrin bərpa edilməsi və artırılmasına dair" Milli Proqramlar, "Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair" Dövlət proqramı və "Azərbaycan Respublikasında Hidrometeorologiyanın İnkişaf Proqramı" hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə təsdiq edilmişdir.

Ölkədə ətraf mühit qanunvericiliyinin Avropa İttifaqı Qanunvericiliyinə uyğunlaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, ictimaiyyətin ekoloji biliklərinin və ətraf mühit haqqında məlumatlılığının artırılmasına, habelə dövlət və özəl əmlak mənafelərinin qorunmasına təminat verən qanunlar qəbul edilmiş, digər normativ hüquqi sənədlər hazırlanmış və hökumət qərarları ilə təsdiq edilmişdir.

Müasir Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə başlanmış çoxşaxəli islahatların bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkənin sosial-iqtisadi inkişafı daha da sürətləndirilmiş, inkişaf sürətinə görə Azərbaycan nəinki regionda, hətta dünya ölkələri arasında ön sıralara çıxmışdır.

Ekoloji şəraitin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, meşəçilik, hidrometeorologiya, geologiya, balıqartırma sahəsində son bir neçə ildə ölkə rəhbərliyinin prinsipial mövqeyi nəticəsində böyük işlər görülmüş, uzun illər ərzində yaranmış və müstəqil Azərbaycana miras qalmış ekoloji problemlər təhlil edilərək, onların kompleks həllinə yönəldilən 5 Milli və Dövlət Proqramları təsdiq edilmiş, ekologiya və ətraf mühitin mühafizəsi sahəsində qanunvericilik aktları və hökumət qərarları qəbul edilmiş və ya təkmilləşdirilmiş, ölkəmiz beynəlxalq əlaqələri genişləndirərək 20-dək beynəlxalq konvensiyalara qoşulmuşdur. Ətraf mühitin

mühafizəsi sahəsində inzibati metodlara söykənmiş idarəetmə sistemi təkmilləşdirilmiş, ekoloji təbliğat və monitorinq fəaliyyəti gücləndirilmiş, "Çirkləndirən ödəyir" prinsipindən geniş istifadə edilmişdir. Ətraf mühitin mühafizəsi tədbirlərinə ictimaiyyətin cəlb olunması istiqamətində tədbirlər həyata keçirilmiş, ətraf mühitə əlaqəli nəzarət şəbəkəsi yaradılmışdır. Ətraf mühitə vurulmuş zərərə görə iqtisadi sanksiyalar tətbiq edilmiş, ətraf mühitin mühafizəsi üzrə dövlət fonduna daxilolmalar son bir neçə ildə dəfələrlə artmışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ətraf mühitin mühafizəsinə nəzarəti həyata keçirən qurumlar tərəfindən 2006-cı il ərzində hüquqi və fiziki şəxslər və vətəndaşlar tərəfindən yol verilmiş qanun pozuntularına görə 4375 akt və protokol tərtib olunmuş, müəyyən edilmiş nöqsanlarla əlaqədar idarə, müəssisə və təşkilatlara Ətraf Mühitin Mühafizəsi Haqqında Qanuna əsasən 917 icrası məcburi tələbnamələr verilmişdir. 108 iş üzrə sənədlər tədbir görülməsi üçün hüquq mühafizə orqanlarına, ətraf mühitə vurulmuş zərəri ödəməkdən imtina etdiyinə görə, 376 iş məhkəmələrə göndərilmişdir. Qanun pozuntusuna yol verdiklərinə görə, hüquqi və fiziki şəxslərə qarşı, ümumilikdə 1935 iş üzrə 71427,83 man. məbləğində cərimə tətbiq edilmiş, əvvəlki ilin cərimələri daxil olmaqla 74546,06 man. ödənilmişdir. Ətraf mühitə dəymiş ziyanla bağlı 982 iş üzrə 1194009,7 man. məbləğində iddia qaldırılməş, ondan 128907,56 manatının ödənilməsi təmin edilmişdir. 2982 iş üzrə 405875,47 manat məbləğində ödəmə verilmiş, ondan 143359,79 manat ödənilməsi təmin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2003-cü il tarixli 1152 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Meşələrin Bərpa Edilməsinə və Artırılmasına dair Milli Proqram"ın tələblərinə uyğun olaraq 2006-cı ildə 10140 hektar sahədə meşəbərpa və salma tədbirləri həyata keçirilmişdir. Bunun 3848 hektarını yeni meşələrin salınması, 6292 hektarını isə meşəbərpa işləri təşkil etmişdir. Bu da keçən ildəkinə nisbətən 403 hektar çoxdur. Proqramın icrası ilə əlaqədar 2003-2006-cı illər ərzində 37724 ha-da meşəbərpa tədbirləri aparılmışdır ki, bunun 15104 ha-ı yeni meşələrin salınmasıdır. İlk növbədə, meşələrin bərpası və artırılmasının əsası olan toxum tədarükünün və əkin materialı istehsalının çoxaldılması sahəsində əsaslı nailiyyətlər əldə edilmişdir. Belə ki, tinglik sahəsinin səpin, böyütmə və kökləndirmə şöbələrində 2006-cı ildə 37,5 mln. ədəd, 2001-2006-cı illər ərzində isə cəmi 165,5 mln. ədəd müxtəlif çeşiddə əkin materialı yetişdirilmişdir.

Yarımsəhra ərazilərdə meşə sahələrinin genişləndirilməsi məqsədi ilə yeni Meşəsalma Müəssisələri (Cəngi, Qaradağ, Giləzi, Zərdab və Naxçıvan) yaradılmış, ötən müddət ərzində həmin müəssisələr tərəfindən 88 hektardan çox ərazidə yeni meşəliklər salınmışdır.

Tükənməyən enerji mənbələrindən istifadə sahəsində beynəlxalq təcrübənin ölkədə nümayiş etdirilməsi məqsədi ilə respublikanın müxtəlif regionlarında günəş enerjisindən istifadə edilməklə bioqraz qurğuları və Pirallahı adasında meteoroloji stansiyada külək və günəş enerjisi ilə işləyən qurğular quraşdırılmışdır. Respublika ərazisində aparılan geoloji-kəşfiyyat işləri nəticəsində ölkənin iqtisadi potensialını möhkəmləndirən etibarlı mineral-xammal bazası yaradılmışdır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası MDB ölkələri arasında tikinti materiallarına olan tələbatı daxili imkanlar hesabına ödəyən qabaqcıl ölkələrdən biridir. Geoloji-Kəşfiyyat Xidmətinin maddi-texniki bazası gücləndirilmiş, müasir cihaz və avadanlıqla təmin edilərək modernləşdirilmişdir.

Təkcə Daşkəsən rayonunda aşkarlanmış qızıl yatağının ehtiyatları bazasında istismar dövründə 2,0-2,5 mlrd. ABŞ dolları həcmində əmtəə istehsal edən dağ-mədən müəssisəsi yaratmaq mümkündür.

Son bir neçə il ərzində aparılmış geoloji-kəşfiyyat işləri nəticəsində 30-dan artıq qeyri-filiz və tikinti materialları, 4 yeni qızıl yataqları aşkar edilmiş, ölkənin qızılçıxarma sənayesinin baza ehtiyatları 2 dəfədən çox artırılmışdır. Azərbaycan geologiyası tarixində ilk dəfə təcrübi yolla 573,3 qram təbii qızıl əldə edilmişdir.

"Azərbaycan Respublikasında Hidrometeorologiyanın inkişaf proqramı" nın icrası uğurla davam etdirilmiş, Dövlət Hidrometeoroloji Müşahidə Şəbəkəsinin modernləşdirilməsi, onun müasir cihaz və avadanlıqlarla təchiz edilməsi, informasiya mübadiləsi sisteminin təkmilləşdirilməsi, proqnoz və xəbərdarlıqların dəqiqliyinin artırılması ilə respublikada əhaliyə, dövlət strukturlarına və iqtisadiyyatın ayrı-ayrı sahələrinə göstərilən hidrometeorolojii xidmətin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Əvvəllər hava proqnozlarının hazırlanmasında beynəlxalq şəbəkədən alınmış 2 sinoptik xəritədən istifadə edilirdisə, görülmüş tədbirlər nəticəsində 3 şəbəkədən (Avropa, Türkiyə və Rusiya) alınmış 52 xəritə vasitəsilə verilən proqnozların dəqiqliyi xeyli artırılmışdır.

Ətraf mühitin komponentləri olan hava, torpaq, suyun keyfiyyətinin daim nəzarətdə saxlanılması məqsədi ilə ətraf mühit üzrə monitorinq sistemi təkmilləşdirilmiş, ətraf mühitin çirklənmə vəziyyətinə dair dəqiq məlumatlar alınması məqsədi ilə 6 Analitik tədqiqat laboratoriyasının fəaliyyəti yendən təşkil edilmiş, müasir tələblərə cavab verən cihaz və avadanlıqlarla təchiz edilmiş, nəticədə əvvəllər primitiv üsulla – əl ilə görülən analitik tədqiqat işləri avtomatlaşdırılaraq müasir tələblər səviyyəsinə çatdırılmışdır.Bundan əlavə, əvvəllər laboratoriyalarda mövcud olan analitik cihazlar havada, suda və torpaqda mövcud olan yalnız 30 çirkləndiricinin təyin edilməsinə imkan verirdisə, ABŞ istehsalı olan və avtomatik sistemdə işləyən «Xromotomasspektrometr» cihazının

laboratoriyalarda quraşdırılması havada, suda, torpaqda 3 mindən artıq üzvi çirkləndiricini təyin etmək imkanı yaratmışdır.

Ətraf mühitin idarə olunmasında beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilir. Azərbaycan Respublikası hazırda 20-yə yaxın Beynəlxalq Ekoloji Konvensiyanın və bir çox Beynəlxalq Ekoloji Təşkilatların tamhüquqlu üzvüdür. BMT-nin Ətraf Mühit, İnkişaf və Ərzaq proqramları, Sənaye İnkişaf Təşkilatı, Qlobal Ekologiya Fondu, Dünya Bankı, Avropa İttifaqının TASİS Proqramı və YUNESKO kimi dünyanın aparıcı beynəlxalq təşkilarları ilə sıx əlaqələr qurulmuş, bir sıra region ölkələri və inkişaf etmiş dövlətlərlə (Gürcüstan, İran, Türkiyə, Kanada, Almaniya, Danimarka, Moldova və s.) ikitərəfli əməkdaşlıq sazişləri imzalanmış və bu əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində fəaliyyət uğurla davam etdirilir.

Son illər respublikamızda ekoloji preoblemlərin həlli sahəsində çoxlu işlər görülsə də, uzun illərdən bəri yığılıb qalmış məsələlərin həlli külli miqdarda maliyyə vəsaiti, texniki imkanlar və vaxt tələb edir. Ölkə iqtisadiyyatının sürətli inkişafı, Dövlət büdcəsinin imkanlarının artması və ölkə Rəhbərinin qayğısı bu problemlərin həllinə imkan yaradır. 3 iyul 2006-cı il tarixində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin yanında keçirilmiş müşavirənin yekunları əsasında hazırlanaraq Dövlət Başçısının 28 sentyabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında Ekoloji Vəziyyətin Yaxşılaşdırılmasına Dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı" problemlərin həlli istiqamətində mühüm addımdır.

Kompleks Tədbirlər Planının əsas istiqamətləri Bakı, BibiHeybət zonasında, Heydər Əliyev adına Beynəlxalq Hava Limanı ətrafında, Abşeron yarımadasında, Azərbaycan Respublikasının digər ərazilərində, o cümlədən Sumqayıt, Naxçıvan, Gəncə, Əli-Bayramlı, Mingəçevir və digər şəhərlərdə ekoloji vəziyyətin yaxşılaşdırılması üzrə konkret işlərin görülməsindən, habelə ümumi ekoloji problemlərin həllinə yönəlmiş tədbirlərin yerinə yetirilməsindən və qanunvericiliyin təkmilləşdirilməsindən ibarətdir.

Davamlı ekoloji inkişafın təmin edilməsinin əsas iqtisadi metodlarından biri də ekoloji auditdir. "Ətraf Mühitin Mühafizəsi Haqqında Azərbaycan Respublikasının Qanunu»na uyğun olaraq ətraf mühitin mühafizəsini səmərəli təşkil etmək, təbii ehtiyatlardan səmərəli istifadə etmək, bu sahədə səmərəli iqtisadi-maliyyə nəzarəti yaratmaq, ətraf mühitə vurulan zərərin qiymətləndirilməsini müəyyən etmək məqsədilə ekoloji auditin vurulması zəruri sayılmışdır. Ölkə Qanunvericiliyinə görə, ***ekoloji audit*** dedikdə, "... təbii resursların istifadəsi və bərpası üzrə hesabatların düzgün tərtib edilməsi də daxil olmaqla, təbiətdən istifadəçi tərəfindən ekoloji tələblərin, ətraf mühitin mühafizəsi normalarının və

qaydalarının gözlənilməsi məqsədilə onların təsərrüfat və digər fəaliyyətlərinin müstəqil yoxlanılmasıdır". Ekoloji audit təbiətdən istifadəçi ilə ekoloji auditor arasında bağlanmış müqaviləyə əsasən aparılır.

Ekoloji audit - təbiətdən istifadənin tənzimlənməsi sahəsində tətbiq olunan əsas iqtisadi modellərdən biridir. Ekoloji audit təbiətdən istifadənin iqtisadiyyatının digər elementləri olan ekoloji menecment, ekoloji lizinq, ekoloji sığorta ilə sıx əlaqədardır. O, ilk dəfə olaraq keçən əsrin 70-ci illərindən etibarən ABŞ-da tətbiq olunmağa başlanmışdır.

Ekoloji audit hazırda Böyük Britaniya, Hollandiya, İsveç, Almaniya və digər ölkələrdə geniş inkişaf tapmışdır. Bu ölkələrdə ekoloji auditin aşağıdakı növləri xüsusilə inkişaf etmişdir:

- operativ audit;
- dövlət idarələrinin göstərişi ilə normativ aktların auditi;
- mühasibat uçotunun auditi.

Ekoloji audit aşağıdakı sahələr səviyyəsində həyata keçirilə bilər:

- dövlət idarələri;
- transmilli korporasiyalar;
- regionlar;
- bələdiyyə idarələri;
- müəssisələr.

Ekoloji audit prosesində təbiətdən istifadəçinin fəaliyyəti ekoloji qanunvericilik üzrə qəbul olunmuş normativ-hüquqi sənədlərə və standartlara uyğun olaraq aparılır. Ekoloji auditin sas mahiyyəti təbiətdən istifadəçilərin fəaliyyətinin düzgün və səmərəli qurulmasına zəruri kömək göstərməklə yanaşı, dövlətin ekoloji siyasət sahəsində qəbul etdiyi tələblərin tam həyata keçirilməsi üçün şərait yaratmaq, ölkənin təbii resurslarının, ətraf mühitin, ekoloji tarazlığın qorunmasının səmərəli istiqamətini müəyyən etməkdən ibarətdir. Beynəlxalq Ticarət Palatasının tərifinə görə isə, ekoloji audit, təbiətdən istifadənin idarə olunmasının dövri və obyektiv qiymətləndirilməsini sistematik və sənədlərlə təsdiq olunan və qiymətləndirməni tərkibinə daxil edən idarəetmə vasitəsidir. Beynəlxalq Standatlaşdırma Təşkilatının təbirincə, ekoloji audit vaxtdan-vaxta keçirilən yoxlama prosesi olub, onun əsas məqsədi obyektiv məlumatların alınması, eləcə də ekoloji tədbirlərin ekoloji tələblərə cavab verib-verməməsini təyin edir.

Ekoloji auditin məqsədi ətraf mühitin, ekoloji təhlükəsizliyin təmin olunması üçün təbiətdən istifadəçilərin fəaliyyətinin mövcud qanunvericiliyə, ekoloji norma və standatlara uyğunluğunu müstəqil yoxlamaq, onların fəaliyyətinin səmərəli təşkili və ekoloji siyasətin düzgün müəyyənləşdirilməsi ilə bağlı zəruri məsləhətlər vermək, kömək göstərməklə dövlətin ekoloji siyasətinin həyata keçirilməsinə imkan yaratmaqdır.

## 12.2. Azərbaycanda ekoloci durum və iqtisadi inkişafın tarazlıq problemi

Repsublikamızda ətraf mühitin mühafizəsi məsələləri keçən əsrin 50-60-cı illərindən sonra daha da kəskinləşmişdir. Keçmiş SSRİ tərkibində respublikamızın təbii sərvətlərindən kortəbii istifadə, ekoloji tutum nəzərə alınmadan çirkli sənaye sahələrinin yerləşdirilməsi və onların təmizləyici qurğularla təchiz edilməməsi nəticəsində ətraf mühitə antropogen təsir güclənmiş, bəzi ərazilərdə texnogen landşaftlar əmələ gəlmişdir. Aqrar bölmədə istifadə edilən zəhərli kimyəvi maddələrin normadan artıq tətbiq edilməsi nəticəsində torpaqlar çirklənməyə məruz qalmışdır. Bütün bu təsirlər nəticəsində torpaqların, su hövzələrinin, atmosferin, bitki və heyvanat aləminin və bütövlükdə landşaft komplekslərinin mühafizəsi respublikamızın əsas ekoloji problemlərinə çevrilmişdir.

Azərbaycanda ekoloji problemlər daha çox sənaye və kənd təsərrüfatının inkişaf etdiyi rayonlar üçün səciyyəvidir. Bu baxımdan ekoloji problemlərin kəskinləşdiyi ərazilərə neftçıxarma sənayesinin inkişaf etdiyi Xəzər dənizi, Abşeron yarımadası, Cənub-Şərqi Şirvan və Muğan düzlərini; dağ-mədən sənayesinin inkişaf etdiyi Daşkəsən, Balakən və Naxçıvan MR ərazilərini; iri sənaye şəhərləri olan Bakı, Sumqayıt, Gəncə, Əli-Bayramlı və Mingəçevirin texnogeni pozulmuş torpaq sahələrini; respublikanın atmosfer və su hövzələrini; Kür-Araz ovalığının şoranlaşmış və dağlarımızın eroziyaya uğramış torpaqlarını; ilbəil qırılaraq seyrəldilən və məhvolma təhlükəsi altında olan düzən və dağ meşələrini və s. aid etmək olar. Bütün bunlar öz həllini gözləyən çox mürəkkəb problemlərdir.

Lakin məsələ burasındadır ki, sosial-iqtisadir problemlərin çoxluğu ekoloji məsələlərin həllini çətinləşdirir, dövlətin ekoloji problemlərin həllinə yönəltdiyi vəsaitlər onların aradan qaldırılması üçün kifayət etmir.

**Cədvəl 1**

**2004-2008-ci illərdə Azərbaycan Respublikası üzrə ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadəyə yönəldilmiş əsas investisiya qoyuluşu**

| | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|
| Cəmi, min manat | 1911,3 | 2912,3 | 8879,4 | 55504,6 | 97885,3 |
| O cümlədən | | | | | |
| Su ehtiyatlarının mühafizəsinə | 1706,5 | 1309,8 | 6838,1 | 18762,8 | 78830,2 |
| Atmosfer havasının mühafizəsinə | 204,8 | 1503,9 | 1601,9 | 1091,8 | 929,6 |
| Torpaqların mühafizəsinə | - | 98,6 | 439,4 | 35650 | 18125,7 |
| Digər tədbirlərə | - | - | - | - | - |

Cədvəl məlumatlarından göründüyü kimi, respublikamız üzrə ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadəyə yönəldilmiş əsas investisiya qoyuluşunun həcmi 2008-ci ildə, 2004-cü ilə nisbətən isə 5,6 dəfə artaraq 9,7 milyon manata çatmışdır. Təhlili göstərir ki, 2008-ci ildə bu məqsəd üçün sərf olunan əsas investisiya qoyuluşunun həcmi 2003-2005-ci illərdəki müvafiq investsiya qoyuluşunun həcmindən 14,1% və ya 1,1 mln.manat çox olmuşdur. Bu, əsasən 2008-ci ildə su ehtiyatlarının mühafizəsinə yönəldilən əsas investisiya qoyuluşunun 2006-cı və 2007-ci illərlə müqayisədə müvafiq olaraq 11,5 dəfə və 4,2 dəfə artması nəticəsində mümkün olmuşdur. 2008-ci ilin məlumatına görə, su ehtiyatlarının mühafizəsinə yönəldilmiş əsas investisiya qoyuluşunun (78183 milyon manat) bütövlükdə ətraf mühitin mühafizəsinə və təbii resursLardan səmərəli istifadəyə yönəldilmiş əsas investisiya qoyuluşu həcmində xüsusi çəkisi 80,5%-ə bərabər olmuşdur. Atmosfer havasının müha-fizəsinə yönəldilmiş investisiya qoyuluşlarının həcmi 2008-ci ildə 2006-cı ilə nisbətən 1,7 dəfə, 2007-ci ilə nisbətən 1,1 dəfə azalaraq 929,6 min manat təşkil etmişdir ki, bunun da bütövlükdə respublika üzrə ətraf mühitin mühafizəsinə və təbii resusrlardan səmərəli istifadəyə yönəldilmiş əsas investisiya qoyuluşunun həcmində xüsusi çəkisi 1%-ə bərabərdir.

Qeyd etmək lazımdır ki, son dövrdə torpaqların mühafizəsinə yönəldilən investisiya qoyuluşunun həcmi isə əvvəlki illərlə müqayisədə xeyli azalsa da, 2007-ci illərlə müqayisədə 2 dəfə azalaraq, 2008-ci ildə 18,1 mln. manat təşkil etmişdir.

Ölkəmizdə ekoloji vəziyyətin sağlamlaşdırılması, ekoloji təhlükəsizliyin təmin edilməsi üçün ilk növbədə atmosferin mühafizəsinə diqqət yetirmək lazımdır. Aparılan tədqiqatlar göstərir ki, respublikamızın atmosfer havasının vəziyyəti gərgin olaraq qalmaqdadır.

**Cədvəl 2**

**Azərbaycan Respublikası üzrə 2004-2008-ci illrdə çirkləndirici maddələrin atmosferə atılması mənbələri**

| | 2004 | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|---|
| Çirkləndirici maddələrin atmosferə atılması cəmi, min ton | 975,3 | 1054,3 | 875,1 | 970 | 923 |
| O cümlədən | | | | | |
| Stasionar mənbələrdən | 539,8 | 557,9 | 344,2 | 386 | 281 |
| Avtomobil nəqliyyatından | 435,5 | 496,4 | 530,9 | 584 | 642 |

Cədvəl məlumatlarından göründüyü kimi, 2006-cı ildə atmosferə atılmış çirkləndirici maddələrin həcmi 2006-cı ildə 1995, 2000 və 2005-ci illərlə müqayisədə müvafiq olaraq 34,0%, 3,6% və 17,0% azalmasına baxmayaraq, avtomobil nəqliyyatından atmosferə daxil olan çirkləndirici maddələrəin həcmi müqayisə edilən illərə nisbətən 18,8%, 35,2%, 7,0% artaraq 2006-cı ildə 530,9 min ton təşkil etmişdir. 2008-ci ildə isə 923 min tona çatmışdır.

Respublika Dövlət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, sənaye müəssisələrinin tam gücüilə işlədiyi dövrlərdə ölkənin hava hövzəsinə 112 min ton toz hissəcikləri, 93 min ton kükürd 2-oksid, 638 min ton karbon oksidi, 82 min ton azot oksidi, 1 mln. 665 min ton karbohidrogenlər 37 min ton müxtəlif tərkibli kimyəvi maddələr atılmışdır.

Qeyd etmək lazımdır ki, ən ciddi ekoloji problemlərdən biri torpaqların çirklənməsi ilə bağlıdır. Təkcə Abşeron yarımadasında 3200 hektardan çox ərazi neftlə çirklənmişdir. Abşeronun neft və neft məhsulları ilə ən çox çirklənmiş torpaq sahələri Binəqədi, Qaradağ, Suraxanı, Səbail, Sabunçu və Xəzər rayonlarının ərazilərıdir. Çirklənmiş ərazilərin artıq 15-dən çoxunda təmizləmə işləri aparılıb. Atmosfer havasına atılan tullantıların həcminə və xüsusi çəkisinə görə Bakı, Sumqayıt, Əli-Bayramlı, Gəncə və Mingəçevir şəhərləri öndə gedirlər. Bu şəhərlərin hava hövzəsini çirkləndirən əsas sənaye müəssisələri, neftayırma, neft-kimya, kimya, energetika, metallurgiya, tikinti materialları sənayesi sahələri və avtomobil nəqliyyatı hesab olunurlar. Həmin sənaye müəssisələri, nəinki atmosfer havasını, eyni zamanda, bütövlükdə şəhərlərin ətraf mühitinin çirkləndirilməsinin başlıca mənbəyi hesab olunurlar. Respublikanın atmosfer havasına 2006-cı ildə atılan tullantıların 79,0% -i (271,9 min tonu) Bakı şəhərinin, 4,7%-i (16,3 min tonu) Mingəçevirin, 4,6% -i (15,9 min tonu) Əli-Bayramlının, 3,5%-i (12,0 min tonu) Sumqayıtın, 1,5%-i (5,3 min tonu) Gəncənin payına düşür.

Qeyd etmək lazımdır ki, respublikamızın iri sənaye şəhərlərinin hava hövzəsinin çirkləndirilməsinin əsas səbəbi son 40-50 il ərzində avadanlıq və mövcüd texnologiyaların dəyişdirilməməsi, təmizləyici qurğularla tam təmin olunmaması, nəticədə avadanlığın köhnələrək yararsız vəziyyətə düşməsi olmuşdur. Bütün bunlar isə ətraf mühitə və insanların sağlamlığına mənfi təsir göstərir.

Qeyd etmək lazımdır ki, mövcud vəziyyəti nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 avqust 2008-ci ildə «Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında» Sərəncamı ilə «Təmiz şəhər» Səhmdar Cəmiyyəti yaradıldı. Balaxanı poliqonunda bərk məişət tullantıları zavodunun inşasına başlanıldı və tikintisi 2012-ci ildə başa çatacaq.

Ölkənin hava hövzəsini mühafizə etmək üçün, ilk növbədə mövcud çirkləndirici sənaye sahələrini yenidən qurmaq, müasir texnoloci qurğular, təmizləyicilər tətbiq etməklə, atmosferə atılan çirkləndirici maddələrin ümumi miqdarının azaldılmasına və zərərsizləşdirilməsinə nail olmaq, aztullantılı və tullantısız istehsal sahələri yaratmaq lazımdır. Çirkləndirici müəssisələrdə daha hündür borular tikmək, müəssisələrin ətrafında qaz və tozların təsrinə davam gətirən, havadakı toz, his və müxtəlif qazları tutub saxlaya bilən ağac və kol bitkilərindən ibarət yaşıllıq-mühafizə zolaqları yaratmaq da atmosferi mühafizə tədbirləri sırasına daxildir.

Qeyd etmək lazımdır ki, «Ekologiya» ili olan 2010-cu ildə böyük işlər görülmüşdür. Belə ki, 3 milyondan çox ağac əkilmiş, ekoloji tarazlığın təmin edilməsi və mühafizəsinə 176,1 milyon manat vəsait yönəldilmişdir. Vəsaitin 126,3 milyon manatı isə su mənbələrinin mühafizəsi və istifadəsinə yönəldilib.

Məlumdur ki, respublikamız məhdud su ehtiyatlarına malikdir. Respublikamızın su təminatının belə zəif olmasına səbəb, ilk növbədə əlverişsiz təbii şəraitdir. Lakin bununla belə, tədqiqatlar göstərir ki, respublikanın potensial su ehtiyatları sənayenin, kənd təsərrüfatının və məişətin suya olan tələbatını ödəyə bilər. Su ehtiyatları bir ildə 27-31 kub km. təşkil edir. Bir çox regionlarda, xüsusilə də Abşeron yarımadasında su çatışmazlığı əsasən sudan istifadənin düzgün olmaması ilə bağlıdır.

Təhlil göstərir ki, hər il respublikamızın su hövzələrindən 12 kub km, yeraltı laylardan 1,1-1,2 kub km şirin su götürülür. Respublikanın suya olan tələbatı isə 11,0 -13,0 kub km-dir. Götürülən suyun 20-25%-i sənaye və məişət məqsədləri üçün istifadə olunur. Su obyektlərinə atılan tullantı sularının həcmi 160-170 mln.kub metr arasında tərəddüd edir.

Qeyd etmək lazımdır ki, respublikamızda aşkar olunan və gələcəkdə kəşf ediləcək faydalı qazıntı yataqlarının ehtiyatının müəyyən edilməsi, müasir, gələcək və hətta uzaq gələcəkdə xalq təsərrüfatının xammal ilə təminatının optimal qiymətləndirməyə imkan verir.

Mineral xammallar təbii sərvətlərin ayrılmaz bir hissəsidir. Təbii sərvətlərin digər növlərindən fərqli olaraq (məsələn, torpağın münbitliyi, məhsuldarlığı, su ehtiyatı, günəş və külək enerjiləri, bitki və heyvanat aləmi və s.) mineral sərvətlər bərpa oluna bilmirlər. Buna görə də faydalı qazıntı olan, yeraltı mineral sərvətlərdən qənaətlə, ehtiyatla və məqsədyönlü istifadə olunmalıdır.

Müasir texniki-iqtisadi göstəricilərin müqayisəsi göstərir ki, istismar zamanı faydalı qazıntıların bir qismi yerin təkibindən çıxarılarkən digər bir qismi isə zəngiləşmə prosesində itirilir.

Müstəqil respublikamızın və həmçinin Naxçıvan Muxtar Repsublikasının dağ-mədən sənayesinin XXI əsrdə ətraf mühitə zərərli təsirini azaltmaq, bu sahədə çalışan mütəxəssislərin ümdə vəzifələrindən biridir. Dağ-mədən sənayesinin ətraf mühitə təsiri, ilk öncə, faydalı qazıntıların kəşf edilməsindən başlayır. İkinci, onların istismarı zamanı filizin çıxarılması məqamında və onun nəqlində zərərli təsirlər baş verir. Nəhayət, üçüncü növ təsir, çıxarılan filizin mədənlərdə zənginləşdirilməsi zamanı baş verir.

Qeyd etmək lazımdır ki, torpaqların inventarlaşdırılmasının aparılması göstərir ki, respublika ərazisində torpaqların korlanması əsas iki sənaye sahəsi tərəfindən olur. Bu sənaye sahələrindən biri neft, digəri isə faydalı qazıntıların açıq üsulla (yəni karyer üsulu ilə) istismarı zamanı baş verir. Faydalı qazıntı yataqlarının istismarı, ətraf mühitin bütün elementlərinə təsir edir. Bu hal əsasən açıq üsulla istismar zamanı baş verir. Bu təsir bir sıra hallarda uzun illər qalaraq, son anda konkret səviyyələrdə və proseslərdə üzə çıxır, yaxud da ekoloji mühitin tam kompleksində müvazinətin pozulması ilə nəticələnir. Kənd təsərrüfatı üçün yararlı torpaq sahələrinin dövriyyədən çıxarılması meşələrin seyrəkləşməsi və tamamilə məhv olması, dağ-mədən işləri aparılan ərazinin hidrogeoloci rejiminin tamamilə pozulması və relyefin dəyişməsi bu qəbildəndir. Respublika ərazisində buna aid yüzlərcə misallar göstərmək olar. Hasilat sənayesinin intensif inkişafı getdikcə daha çox faydalı qazıntı yataqlarının istifadəyə verilməsi, dağ-mədən müəssisələrinin istehsal gücünün artırılması və qazıntıların dərinləşdirilməsi ilə müşayiət olunur. Belə bir şəraitdə təkcə dağ-mədən işlərinin aparıldığı yerlərdə deyil, ətraf sahələrdə də torpaq fondlarını qorumaq və min illər boyu təşəkkül tapmış təbii kompleksin pozulmasını almaq müasir dövrün mühüm vəzifələrindən biridir.

Azərbaycan ərazisində fəaliyyət göstərən dağ-mədən sənayesi müəssisələrinin ətraf mühitə göstərdikləri mənfi təsirlər, hər şeydən əvvəl, torpaq fondlarının pozulmasında, bitki və heyvanat aləminə dəyən ziyanlarda, su ehtiyatlarının çirklənməsində və bunun vasitəsilə balıq ehtiyatlarının məhvində, suvarılan torpaqların aşağı düşməsində, su ehtiyatlarından istifadə və kənd təsərrüfatı məhsullarının istehlakçısı olan

əhalinin səhhətinin korlanmasında özünü göstərir. Bununla birgə, qeyd etmək lazımdır ki, onların heç də hamısı ümumiləşdirilmiş şəkildə yalnız dağ-mədən sənayesinə aid edilə bilməz. Burada hər şeydən əvvəl, torpaq ehtiyatlarına dəyən ziyanlar xüsusi ilə böyük miqyas alır. Məsələ bundadır ki, torpaqların ümumi istehsal vasitəsi kimi çıxış etdiyi digər sənaye sahələrindən fərqli olaraq, dağ-mədən sənayesi ondan həm də əmək vasitəsi kimi istifadə edir. Bu zaman yaranan tullantılar yerin təkindən və üst qatından çıxarılmış maddələr olurlar və mənşə etibarı ilə əmələ gəldikləri torpaqların özlərini korlayırlar. Paralel olaraq hasilat prosesinin, bilavasitə həyata keçirildiyi sahələrin dağılması prosesi baş verir ki, bu da mövcud ziddiyyətləri daha da dərinləşdirir.

Respublikanın dağ-mədən sənayesinin bir sıra müəssisələrində həmin proses olduqca təhlükəli şəkil almışdır. Məsələn, Azərbaycan Dağ-mədən Filiz Saflaşdırma Kombinatının tullantıları 250-300 hektar, Zəyin-Alunit Mədəni İdarəsinin 10-110 hektar, Gəncə Aliminium Oksidi Kombinatının tullantıları 300-350 hektar torpaq sahələrini istifadədən çıxarmışdır. Bundan əlavə, bu rayonların bitki örtüyünə böyük ziyan dəymiş, heyvanat aləmi, demək olar ki, məhv olmuşdur. Yaz və payız aylarında intensiv yağışların başlanması ilə Daşkəsən Dağ-mədən Kombinatının ətrafında toplanmış tullantılar yuyularaq Qoşqar çayını müxtəlif tərkibli kimyəvi maddələrlə çirkləndirir.

Qeyd etmək lazımdır ki, faydalı qazıntı yataqlarının istismarı, ekoloji mühitə dəyən zərər, indiyə qədər özünün obyektiv əksini ümumi bir göstəricidə tapmışdır. Faktların yalnız sadə şəkildə verilməsi, bu sahədə uyğun müəssisələrin ekologiyaya dəyişdirici təsiri düzgün qiymətləndirməyə tam şərait yaratmır. Hasilat prosesində torpaq sərvətlərinə dəyən ziyanla dağ-mədən müəssisəsinin istehsal gücü arasında asılılığın təhlili bu qəbildəndir.

Dağ-mədən sənayesinin ətrafının mühitinin mühafizəsinin başlıca problemlərindən biri yerin təkinin və torpaq ehtiyatlarının mühafizəsinin idarə olunması metodlarının təkmilləşdirilməsi təşkil edir.

## 12.3. Azərbaycanda ekoloji inkişafın təmin edilməsi sahəsində beynəlxalq əməkdaşlıq

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra bir çox sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi sahəsində də beynəlxalq əməkdaşlıq fəaliyyətini xeyli genişləndirmişdir. Bu şahədə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin işi təqdirə layiqdir.

Azərbaycan Repsublikasında ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın əsas prinsipləri ekoloji davamlılığı təmin etmək

və inkişaf üçün qlobal təcrübənin öyrənilməsi, beynəlxalq qanunvericilik və ətraf mühit siyasətinin hazırlanması proseisndə iştirak və beynəlxalq təşkilatlarla əməkdaşlıq, müasir beynəlxalq siyasət, standart, norma və texnologiyanın tətbiq edilməsi, Avropa İttifaqının direktivlərinə müvafiq Qanunvericiliyin uyğunlaşdırılması, «Avropa üçün Ətraf Mühit» prosesində iştirak, ətraf mühitin qornuması və təbii ehtiyatlardan səmərəli istifadə sahəsində region və beynəlxalq layihələrin həyata keçirilməsi, region ölkələri və digər vacib tərəfdaşlarla ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq konvensiya və protokollara qoşulmasından ibarətdir.

Hazırda dünyanın heç bir ölkəsi ətraf mühitin mühafizəsi problemlərini təklikdə həll etmək iqtidarında deyil. Bu məqsədlə ölkəmiz üçün ətraf mühitin mühafizəsi sahəsində digər ölkələr və təşkilatlarla razılaşma və sazişlərin imzalanması, beynəlxvlq konvensiyalara qoşulması olduqca vacibdir. Bununla əlaqədar son illər ərzində «Ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Repsublikası Hökuməti və Türkiyə Repsublikası Hökuməti arasında Razılaşma», «Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İran İslam Respublikasının Ətraf Mühit Departamenti arasında Anlaşma Memorandumu», «Ətraf Mühitin Mühafizəsi Sahəsində Azərbaycan Respublikası və Gürcüstan Respublikası arasında Qarşılıqlı Əməkdaşlıq», «BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu» imzalanmışdır. Bundan başqa «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondu (WWF) arasında Azərbaycan Respublikası Ərazisində Təbiəti Mühafizə Sahəsində Əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Kanadanın Dövlət İdarəçilik İnstitutu arasında Xəzər hövzəsində istilikxana qazı tullan-tılarının azaldılması üzrə 2002-2005-ci illər Tədris Proqramının həyata keçirilməsinin şərtləri haqqında Anlaşma Memorandumu», «Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Bakı Nümayəndəliyi ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında Bakı şəhərində Ətraf Mühitə dair İctimai Məlumat Mərkəzinin Yaradılması haqqında Əməkdaşlıq Sazişi» imzalanmış və eyni zamanda Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası, Yaponiya, Ukrayna, Misir, Çexiya Hökumətləri arasında ətraf mühitin mühafizəsi sahəisndə əməkdaşlığa dair Saziş layihələri hazırlanaraq imzalanması üçün dövlətdaxili prosedurlar həyata keçirilir.

Eyni zamanda Azərbaycan ətraf mühitin qorunması sahəsində bir neçə qlobal və regional konvensiya və protokollara qoşulmuşdur (əlavə olunur). Bundan başqa, ölkəmizin «Köçəri Heyvan Növlərinin Qorun-

ması üzrə» Bonn Konvensiyası, «Avropada yarasaların qorunması» Protokolu, «Afrika-Avrasiya Köçəri Su Quşlarının Qorunması» Sazişinə qoşulması və Ümumdunya Təbiəti Mühafizə Təşkilatına (İUCN) üzv olması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyində müvafiq işlər aparılır.

Həmçinin BMT-nin İnkişaf Proqramı (UNDP), Ətraf Mühit Proqramı (UNEP), Sənaye İnkişafı Təşkilatı (UNİDO), TASİS, Dünya Bankı, Qlobal Ekologiya Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı ilə əməkdaşlığa dair danışıqlar aparılır və artıq bu istiqamətdə bir sıra nailiyyətlər əldə edilmişdir.

Eyni zamanda Azərbaycan bir sıra beynəlxalq layihələrin həyata keçirilməsində iştirak edir və bununla bağlı artıq bir neçə saziş və razılaşmalar imzalanıb:

1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarına uyğun olaraq Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında «İnkişaf Krediti haqqında Sazişi» (Kənd Ətraf Mühit Layihəsi), Kənd Ətrafı Mühit Layihəsinin birgə maliyyələşdirilməsi üçün Yaponiya Qrantı üzrə Məktub-Sazişi və Azərbaycan Repsublikası ilə Qlobal Ekologiya Fondunun icraçı təşkilatı kimi çıxış edən Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı arasında «Qlobal Ekoloji Fondun Trast Fondunun Qrantı üzrə Saziş» (Kənd Ətraf Mühit Layihəsi);

2. Azərbaycan Respublikası və Kreditanştalt für Videraufbau, Frankfurt am Main («KfW») arasında Cənubi Qafqaz üçün Ekoregional Təbiəti Mühafizə Proqramı çərçivəsində «Samur-Yalama Milli Parkının yaradılması» layihəsi üzrə maliyyələşdirmə Müqaviləsini və əhmin Müqaviləyə dair Xüsusi Razılaşma;

3. «Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı (UNİDO) arasında «Davamlı Üzvi Çirkləndiricilər (DÜÇ)» haqqında Stokholm Konevensiyasının yerinə yetirilməsi üzrə ilkin fəaliyyəti asanlaşdırmaq üçün sürətləndirilmiş mümkünləşdirici tədbirlərlə əlaqədar olan xidmətlərin göstərilməsi üzrə Müqavilə.

Bundan əlavə, Kanada Beynəlxalq İnkişaf Agentliyinin dəstəyi ilə Pirallahı Meteoroloci Stansiyasında 2 külək və 1 günəş qurğusu quraşdırılmış, Türkiyənin özəl şirkətləri tərəfincən respublikamızda bioqazın istehsalı ilə əlaqədar pilot layihələr həyata keçirilmiş və artıq 3 regionda 4 ədəd bioqaz qurğuları quraşdırılmışdır.

Azərbaycan Respublikası hidrometeorologiya sahəsində Ümumdünya Meteorologiya Təşkilatı ilə əməkdaşlıq əlaqələri qurur. Regionda Türkiyə, Özbəkistan, Qazaxıstan Respublikaları ilə hidrometeorologiya sahəsində ikitərəfli qarşılıqlı əməkdaşlıq proqramları mövcuddur. Müstəqil Dövlətlər Birliyinin (MDB) Dövlətlərarası Hidrometeorologiya Şurasının (DHMŞ) işində Azərbaycan fəal iştirak edir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti Cənubi Qafqazda su ehtiyatlarının idarə olunması ilə bağlı bir sıra regional layihələrdə iştirak edir.

Asiya İnkişaf Bankının krediti ilə yerinə yetirilən «Azərbaycan Respublikasında Daşqın zərərlərinin aradan qaldırılması Layihəsi»ndə nəzərdə tutulmuş hidrometeorologiya komponenti də qabaqcadan xəbərdarlıq sisteminin inkişafına kömək edəcəkdir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını Azərbaycan Respublikası 1995-ci ildə ratifikasiya etmişdir. 1997-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsini təmin etmək məqsədi ilə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyası yaradılmışdır. Konvensiyanın milli əlaqələndiricisi təyin edilmiş və əlaqədar təşkilatların ekspertlərindən ibarət işçi qrupu yaradılmışdır.

Konvensiyadan irəli gələn öhdəlik və vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar Qlobal Ekologiya Fondu (QEF) və BMT-nin İnkişaf Proqramının maliyyə yardımı ilə «Azərbaycan Respublikasının Birinci Milli Məlumatları» hazırlanmış və Konvensiyanın Katibliyinə təqdim edilmişdir.

«Birinci Milli Məlumatlar» Layihəsinin birinci fazasında iqlim dəyişmələrinin təsirinin minimuma endirilməsi üçün müvafiq tədbirlər planı hazırlanmış, ikinci fazada isə iqtisadiyyatın prioritet sahələrində istilik effekti yaradan qaz tullantılarının azaldılması üçün ekoloji cəhətdən təmiz texnologiyalara dair tələbatlar qiymətləndirilmiş və həmin texnologiyaların tətbiqinə dair təkliflər hazırlanmışdır.

Hazırda «Azərbaycan Respublikasının İkinci Milli Məlumatları» hazırlanır. Bu mərhələdə əsas diqqət insan sağlamlığı, ekosistemlərə təsir, təmiz inkişaf mexanizmi üzrə layihələrin seçilməsinə yönəldiləcəkdir.

Konvensiyanın Kioto Protokolunu Azərbaycan Respublikası 2000-ci ildə ratifikasiya etmişdir. Azərbaycan Respublikası Kioto Protokolu üzrə konkret olaraq kəmiyyət öhdəlikləri götürməmişdir və yalnız həmin Protokolun Təmiz İnkişaf Mexanizmində iştirak edir. Bu məqsədlə konkret pilot layihələrinin həyata keçirilməsi üçün Kanada, Danimarka, Fransa, Yaponiya kimi inkişaf etmiş ölkələrlə müvafiq danışıqlar aparılır. 2004-cü ildə «Kioto Protokolunun həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında Azərbaycan Respublikası Hökuməti və Danimarka Krallığı Hökuməti arasında Anlaşma Memorandumu» imzalanmışdır. Fransa Hökuməti ilə karbonun udulmasına dair meşə sahələrinin genişləndirilməsi layihələrinin həyata keçirilməsi məqsədi ilə ilkin texniki-iqtisadi qiymətləndirmə hesabatı hazırlanmışdır.

Hazırda Avropa İttifaqının TACİS Proqramı çərçivəsində Cənubi Qafqaz ölkələrinə və Moldovaya Texniki Dəstək Layihəsi və İstilik effekti yaradan qazların kadastrına dair Qlobal Ekoloji Fondun yardımı ilə Azərbaycanda regional lahiyə həyata keçirilir.

Azərbaycanda Qlobal Ekologiya Fondunun maliyyə yardımı ilə ÜDM-dən istifadə edən müəssisələrdə (Bakı «Çinar Soyuducuları» və Sumqayıt Kompressor zavodlarında) rekonstruksiya işləri aparılmış və həmin müəssisələrdə ozondağıdıcı sayılmayan alternativ maddələrdən istifadə etmək nəzərdə tutulmuşdur.

* «Böyük məsafələrdə havanın transsərhəd çirkləndirilməsi haqqında» Konvensiyanı Azərbaycan Respublikası 2002-ci ildə ratifikasiya etmişdir. Konvensiyanın Milli Əlaqələndiricisi təyin olunmuş və bu sahədə işlərin aparılması üçün işçi qrupu yaradılmışdır. Azərbaycan Respublikası üzrə atmosfer havasına atılan tullantılar barədə 2002-ci il üzrə məlumatların Konvensiyanın Katibliyinə verilməsi təmin olunmuş və sonrakı illər üzrə belə məlumatların hazırlanması davam etdirilir. Konvensiyanın «Ağır metallar», «Davamlı üzvi çirkləndiricilər» və «Turşuluğun azaldılması, evtrofikasiya və yerin ozon qatının bərpası» Protokollarını ratifikasiyaya hazırlamaq üzrə işçi qrupu tərəfindən müvafiq tədbirlər görülür.

* «Sənaye qəzalarının transsərhəd təsiri haqqında» Konvensiya Azərbaycan Respublikası tərəfindən 2004-cü ildə ratifikasiya edilmişdir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Konvensiya üzrə səlahiyyətli orqan təyin edilmişdir.

Konvensiyadan irəli gələn öhdəliklərin yerinə yetirilməsinə kömək məqsədi ilə Almaniyanın Təbiətin və Ətraf Mühitin Mühafizəsi, Nüvə Reaktorlarının Təhlükəsizliyi üzrə Federal Nazirliyinin maliyyə dəstəyi ilə «Kür çayı hövzəsində qəza vəziyyətlərinin xəbərdarlıq edilməsi üçün tədbirlərin hazırlanması və tətbiq edilməsi» Layihəsi həyata keçirilir. Layihəyə əsasən Cənubi Qafqaz dövlətlərində Kür çayı hövzəsində qəza vəziyyətlərinin xəbərdarlıq edilməsi məntəqələrinin yaradılması və müvafiq avadanlıqlarla təchiz edilməsi nəzərdə tutulmuşdur.

*BMT-nin «Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında» Bazel Konvensiyasına Azərbaycan Respublikası 2001-ci ildə qoşulmuşdur. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bazel Konvensiyası üzrə səlahiyyətli orqan təyin edilmişdir. «Təhlükəli tullantıların pasportlaşdırılması» Qaydası və «Azərbaycan Respublikasında təhlükəli tullantıların idarə olunmasının Dövlət Strategiyası» təsdiq edilmişdir. Həmçinin təhlükəli tullantıların basdırılması üçün beynəlxalq standartlara uyğun poliqon inşa edilmiş və 2004-cü ildən təhlükəli tullantıların saxlanılması üzrə Milli Mərkəz fəaliyyətə başlamışdır.

* BMT-nin ciddi quraqlıq və yaxud səhralaşma baş verən ölkələrində, xüsusilə Afrikada səhralaşma ilə mübarizə üzrə Konvensiyasını Azərbaycan Respublikası 1998-ci ildə ratifikasiya etmişdir. Ötən müddətdə Konvensiyanın Azərbaycanda həyata keçirilməsi haqqında Milli Məruzə hazırlanmış, Milli Fəaliyyət Planının hazırlanması üçün məlumatlar təhlil

edilmiş, ölkənin müxtəlif bölgələrində Konvensiyanın məqsədləri mövzusunda seminarlar keçirilmiş və digər işlər görülmüşdür. Hazırda səhralaşma problemləri ilə əlaqədar Meşələrin Bərpası Proqramının əməli həyata keçirilməsinə başlanmış, Proqram üzrə ildə 3,9 min ha. meşə əkini və 5,9 min ha. təbii bərpaya kömək tədbirləri nəzərdə tutulmuşdur. 2004-cü ildə «Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair Dövlət Proqramı» təsdiq edilmişdir. Texnogen təsirlər nəticəsində çirklənmiş torpaqların reabilitasiyası və rekultivasiyası üzrə də bir sıra layihələr həyata keçirilir.

Konvensiyanın yerinə yetirilməsi üzrə aidiyyəti nazirliklərin və idarələrin, eləcə də qeyri-hökumət təşkilatlarının nümayəndələrindən ibarət Koodinasiya Şurası yaradılmışdır.

* «Davamlı üzvi çirkləndiricilər haqqında» Stolkholm Konvensiyası Azərbaycan Respublikası tərəfindən 2003-cü ildə ratifikasiya olunmuşdur. Konvensiya üzrə səlahiyyətli orqan kimi Azərbaycan RespublikAsının Ekologiya və Təbii Sərvətlər Nazirliyi müəyyən edilmişdir. Nazirlikdə Konvensiya ilə bağlı geniş məlumatlar toplanmış, aidiyyəti təşkilatların mütəxəssislərindən ibarət işçi qrup yaradılmış və müvafiq təkliflər planı hazırlanmışdır. Konvensiyanın qüvvəyə minməsi ilə əlaqədar 2004-cü ildə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində müxtəlif nazirliklərin, idarələrin, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə «Pestisidlər, ətraf mühit və əhalinin sağlamlığı» mövzusunda geniş toplantı keçirilmişdir, işçi qrupun üzvləri tərəfindən ölkənin regionlarında keçirilən görüşlərdə davamlı üzvi çirkləndiricilər barədə məlumatlar verilmiş və bu maddələrin ətraf mühit və sosial sahə üçün təhlükəsi barədə maarifləndirmə işləri aparılmışdır.

2005-ci ilin iyul ayından etibarən Qlobal Ekoloji Fondun və BMT – nin Sənaye İnkişafı Təşkilatının dəstəyi ilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində Milli Fəaliyyət Planının hazırlanması prosesinə başlanılmışdır.

* BMT-nin «Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə» Konvensiyasını Azərbaycan Respublikası 2000-ci ildə ratifikasiya etmişdir. Eyni zamanda, 22 oktyabr 2002-ci ildə Azərbaycan Respublikası Konvensiyanın «Su və Sağlamlıq» Protokoluna qoşulmuşdur. Protokol 2005-ci ildən hüquqi qüvvəyə minmişdir.

Konvensiya çərçivəsində 2002-2003-cü illərdə TASİS Proqramının xətti ilə maliyyələşdirilən «Çayların birgə idarə olunması» layihəsi yerinə yetirilmişdir. Layihənin əsas məqsədi transsərhəd çirklənmələr sahəsində müşahidələr aparmaq, onları qiymətləndirmək və daim nəzarətdə saxlamaq, çirklənmənin aradan qaldırılması üçün müvafiq tədbirlərin həyata

keçirilməsini təmin etməkdir. Layihənin yerinə yetirilməsi zamanı 4 transsərhəd çayın, o cümlədən Kür çayının monitorinqi aparılmışdır.

* «Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında» Beynəlxalq Konvensiyaya (MARPOL) Azərbaycan Respublikası 2004-cü ildə qoşulmuşdur. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq struktur bölmələri tərəfindən həyata keçirilən Xəzər dənizinin mühafizəsi, o cümlədən dənizin gəmilər Vasitəsilə çirklənməsinin qarşısının alınması istiqamətində fəaliyyəti sözügedən Konvensiyanın tələblərinə uyğun aparılır.

Son dövrdə respublikamızda Konvensiya üzrə milli qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması işlərinin davam etdirilməsi istiqamətində xeyli işlər görülmüşdür.

Həyata keçirilən layihələr sırasına isə aşağıdakıları aid etmək olar:

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Kanadanın Dövlət İdarəçilik İnstitutu arasında Xəzər Hövzəsində İstilik Effekti Yaradan qazların tullantılarının azaldılması üzrə 2002-2005-ci illər Tədris Proqramı.

2. «İstilik effekti yaradan qazların inventarlaşdırılmasının keyfiyyətinin təkmilləşdirilməsi üçün potensialın yaradılması» regional layihəsinin həyata keçirilməsi sahəsində görülən işlər haqqında.

3. «Qafqaz Ölkələri və Moldovada Qlobal İqlim Dəyişmələri üzrə Öhdəliklərin Yerinə Yetirilməsində texniki Dəstək» layihəsi.

4. «Qlobal ekoloji problemlərin həlli məqsədilə imkanların artırılması üçün milli tələbatların qiymətləndirilməsi» Layihəsi.

5. BMT-nin Ətraf Mühit Proqramı tərəifndən maliyyələşdirilən «Milli Biotəhlükəsizlik» Layihəsi.

6. «Kür çayı hövzəsində qəza vəziyyətinin xəbərdarlıq edilməsi üçün tədbirlərin hazırlanması və tətbiq edilməsi» Layihəsi.

7. «Kür-Araz çayı hövzəsinin suyunun sərhədlərarası pisləşməsinin azaldılması» Layihəsi.

8. «Azərbaycan Respublikasında Ətraf mühitin mühafizəsi üzrə milli fəaliyyət planı və ekoloji siyasətin həyata keçirilməsinə yardım» Layihəsi (TASİS). UNEP-lə birgə (Xəzər Ekoloji Proqramı çərçivəsində).

9. «Xəzər regionunda transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə Metodiki vəsait layihəsinin təkmilləşdirilməsi» Layihəsi.

10. Milli «Nərə» Balıqartırma Zavodunun tikinti layihəsi «sahənin civə çirklənməsindən təmizlənməsi və təhlükəli tullantıların basdırılması üçün Poliqonun tikintisi» Layihəsi.

11. «Ekololoci idarəetmə sisteminin təkmillişdirilməsi» Layihəsi.

12. «Gözlənilməz Neyt Yayılmaları üzrə Azərbaycan Milli Planın İnkişafına yardım» Layihəsi.

13. «Azərbaycan Respublikasının Davamlı Üzvü Çirkləndiricilər üzrə tədbirlərin həyata keçirilməsi» Layihəsi.

14. NATO –nun dəstəyi ilə həyata keçiriləcək «Xəzər dənizi ekosisteminin çoxsahəli analizi» Layihəsi.

Ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə beynəlxalq konvensiyalara qoşulmaqla, onlardan irəli gələn öhdəliklərə əməl olunması ən vacib məsələlərdən biridir. Azərbaycan Respublikası artıq bu sahədə 18 Konvensiyaya, o cümlədən «Biomüxtəliflik haqqında» Konvensiyaya, «Sərhəddən keçən su axınlarının və Beynəlxalq Göllərin Mühafizəsi və istifadəsi haqqında» Konvensiyaya, «Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında» Konvensiyaya, «Təhükəli tullantıların sərhədlərarası daşınmasına və zərərsizləşdirilməsinə nəzarət haqqında» Bazel Konvensiyasına qoşulmuşdur.

Respublikamızda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından iştirakı ilə ölkədə ekoloci mühiti yaxşılışdırmaq istiqamətində beynəlxalq layihələrin reallaşması istiqamətində böyük işlər həyata keçirilmişdir. Bütün bunlar isə respublikamızda ətraf mühitin mühafizəsi və ekoloci təhlükəsizliyin təmin edilməsi sahəsində müəyyən uğurların əldə edilməsinə səbəb olmuşdur. Bu isə son nəticədə yeni iş yerlərinin açılmasına, ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişaf etdirilməsinə və yoxsulluğun aradan qaldırılmasına təkan vermişdir.

# XIII FƏSİL

# DÖVLƏTİN İQTİSADİ SİYASƏTİNİN DAVAMLI VƏ DAYANIQLI İNKİŞAFA TƏSİRİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

***«Biz ölkə iqtisadiyyatının uzunmüddətli və dayanıqlı inkişafını güclü sosial siyasət aparmadan təmin edə bilməzdik. Bu gözəl meyillər növbəti illərdə Azərbaycanda daha da güclənəcək, Azərbaycan xalqı isə ildən-ilə daha da yaxşı yaşayacaqdır»***

**İlham Əliyev**

## 13.1. «Davamlı İnkişaf»ın yaranma tarixi və əsas istiqamətləri

XX əsrdə dünya alimlərinin diqqətini cəlb edən əsas məsələlərdən biri davamlı inkişaf problemini araşdırmaq və bu sahədə tədqiqatları genişləndirmək məsələsi olmuşdur.

Davamlı inkişaf XXI əsrin mühüm sosial-ekoloji-fəlsəfi Konsepsiyası olmaqla, XX əsrin ikinci yarısından başlayaraq təbiət-cəmiyyət münasibətlərində yaranmış olduqca geniş əhatəli gərginliyin və qeyri-tarazlığın sosial-ekoloci nəticələrinin araşdırılması və müvafiq beynəlxalq səviyyəli məcburi tədbirlər kompleksinin həyata keçirilməsi zərurəti nəticəsində meydana gəlmişdir. Bu Konsepsiya bəşəriyyətin tarixində ən mütərəqqi, humanist və qlobal sivilizasiyaya inteqrasiya sahəsində yeni inkişaf konsepsiyalarından biri hesab edilir. Belə ki, elmi-texniki tərəqqinin və inqilabın təbiət-cəmiyyət münasibətlərində yaratdığı mənfi nəticələrin qarşısının alınması, qlobal ekoloci problemlərin həlli yolları və bəşəriyyətin inkişafının gələcək perspektivləri ilk dəfə olaraq əsaslı surətdə və ciddi şəkildə İtaliya biznesmeni və alimi A.Peççei tərəfindən 1968-ci ildə yaradılan «Roma klubu»nun məruzələrində araşdırılmağa başlanmışdır. «Roma klubu» müasir dövrün qlobal problemlərini öyrənən və tədqiq edən çox nüfuzlu və beynəlxalq miqyaslı qeyri-hökumət təşkilatıdır. Həmin klubun ən fəal üzvü, ABŞ-ın Massaçuset Texnologiya İnstitutunun professoru C.Foresfer "Dünya dinamikası" kitabında (1971) planetimiz miqyasında əhali artımı, ərzaq problemi, təbii və ətraf mühitin çirklənməsi, bərpa olunmayan təbii sərvətlərdən istifadənin həddini keçməsi, kapital qoyuluşu və s. məsələlərin riyazi modelləşdirilməsini şərh etmişdir. Klubun üzvü R.Medouzun rəhbərlik etdiyi digər qrupun hazırladığı "Artım həddi" adlı kitabda isə Davamlı inkişaf Konsepsiyasının bəzi ekoloci istiqamətləri, M. Meşaroviç və E.Pestelin

hazırladıqları "Bəşəriyyət yol ayrıcında" adlı 2-ci məruzədə (1974) təbiət – cəmiyyət və yoxsullarla varlılar arasında get-gedə uçuruma çevrilən, dərinləşən və daha da ziddiyyətli xarakter alan münasibətlərin problemə çevrilməsi beynəlxalq arenada alimlərin diqqətinə çatdırılmış və ətraflı şərh olunmuşdur. Klubun üzvləri tərəfindən hazırlanan 3-cü (Y. Tinbergen, "Beynəlxalq qaydaların yenidən qurulması") və 4-cü (E. Laslo, "Qlobal cəmiyyətlər üçün məqsədlər") məruzələrdə lokal və qlobal məqsədlərin əlaqələndirilməsi, cəmiyyətin təşkili və idarə edilməsi, əhalinin maddi rifahının yaxşılaşdırılması, enercidən istifadə, məişət və istehsalat tullantılarının zərərsizləşdirilməsi, təkrar emalı və s. məsələlər ətraflı şərh olunmuşdur. Bütün qeyd olunan məsələlərin məhz insan inkişafına həsr edilməsinə baxmayaraq, Davamlı inkişaf anlayışı öz ətraflı və geniş şərhini 1987-ci ildə xanım Q.X.Brutlandin rəhbərlik etdiyi BMT-nin "Ətraf Mühit və İnkişaf" Komissiyasının hazırladığı "Bizim ümumi gələcəyimiz" adlı məruzədə tapmışdır. Həmin məruzədə "təbiət-cəmiyyət" münasibətlərinin daha da kəskinləşməsi, dünyada əhali artımı və yoxsulluq, içməli su və ərzaq problemi, demoqrafik partlayış, insanların maddi rifahının və yaşayış şəraitinin pisləşməsi, təbii fəlakətlərin getdikcə geniş vüsət alması, bərpa olunmayan təbii sərvətlərin, enerci ehtiyatlarının tükənməsi, ölkələr arasında sosial bərabərsizliyin artması və s. məsələlər əsaslı surətdə təsvir edilmişdir.

Qeyd etmək lazımdır ki, Davamlı inkişaf cəmiyyətin davamlı, dayanıqlı, fasiləsiz, sabit, uzunmüddətli inkişafının təmin olunması kimi başa düşülür. Davamlı İnkişaf bəşəriyyətin ən müasir, mütərəqqi, gələcək nəsillərin tələblərini ödəyən, onların imkanlarını məhdudlaşdırmayan, insan potensialı və kapitalını, yeni biliklərin səfərbər olunmasını əsas şərt kimi qəbul edən, ətraf mühitin mühafizəsini və yaxşılaşdırılmasını nəzərdə tutan inkişaf yoludur. Həmin məruzədə təklif olunan strategiya dünya iqtisadiyyatının uzunmüddətli inkişafı və onun vasitəsilə qlobal sosial-iqtisadi problemlərin həlli yollarına şəpait yaradan bir konsepsiyadır. Bu fakt öz əksini BMT-nin İnkişaf Proqramında (BMTİP), müxtəlif beynəlxalq təşkilatların analitik sənədlərində tapmaqla, 1990-cı ildən etibarən İnsan İnkişafı haqqında İxtisaslaşmış Ümumdünya Məruzəsində mütəmadi olaraq nəşr olunur.

Davamlı inkişafın elmi ədəbiyyatlarda müxtəlif səpkilərdə şərh olunmasına baxmayaraq, onun əsas mahiyyətini insanların tələblərini ödəməyə qadir olan və onların öz gələcək tələbatlarını ödəməsinə mane olmayan iqtisadi inkişaf və insan fəaliyyətinin idarə edilməsinin yeni forması təşkil edir. Bu tələblər isə yalnız ətraf mühitin qorunması, təbii sərvətlərdən və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi,bunun üçün isə yeni texnologiyaların yaradılması və onların istehsalatda geniş tətbiq olunması zəminində həyata keçirilə bilər. Bunun üçün isə insan potensialının inkişafı, müvafiq bilik və bacarıqlara istinad olunması, hər

bir şəxs üçün əlverişli sosial-iqtisadi mühitin yaradılması əsas şərtlər hesab olunur. Davamlı inkişafda hər şey yalnız İnsan İnkişafına təminat verməli və zəmin yaratmalıdır. Davamlı İnkişaf Konsepsiyasının (DİK) ilk sələfi XX əsrin 30-cu illərində C.Keyns tərəfindən təklif olunan «İqtisadi artım» nəzəriyyəsi olmuşdur. Bu nəzəriyyəyə əsasən iqtisadi artımın başlıca keyfiyyət şərtləri, məhz insanın qabiliyyətinin, bacarığının inkişafı, reallaşdırılması, onun şəxsi imkanları və seçiminin genişləndirilmə-sidir.

«İnsan kapitalı» nəzəriyyəsi məşhur Amerika iqtisadçısı T.Şuls tərəfindən XX əsrin 50-ci illərində irəli sürülmüş və sonralar digər tanınmış alimlər tərəfindən inkişaf etdrilərək ona geniş istinad olunmuşdur. Onun «Kapitalın təhsil vasitəsi ilə toplanması», «İnsan kapitalına investisiya qoyulması» adlı məşhur əsərlərində insan kapitalının bütün aspektləri ətraflı şərh olunmaqla, ona olduqca önəmli yer verilmişdir.

F.Şulsun təlimi əsasında onun sonrakı davamçıları tərəfindən insan kapitalı konsepsiyası yaradıldı. İnsan kapitalı amilinin tətbiqi, seçilməsi və təşəkkül tapması təhsilin, elmin, səhiyyənin iqtisadi rolunun daha düzgün qiymətləndirilməsinə çox böyük zəmin yaratmaqla, onların əvvəllər tələbat və qeyri- istehsal vasitələri hesab edilməsi tendensiyasına son qoydu. Tanınmış Amerika iqtisadçısı E.Denisonun məlumatına görə, ABŞ-da və Avropa ölkələrində milli gəlir artımının 12-29%-ə qədəri, məhz təhsilin payına düşür. «İnsan kapitalı» nəzəriyyəsinin əsas istiqamətlərinin hazırlanmasında1992-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatı almış Amerika iqtisadçısı Q.Bekkerin çox böyük rolu olmuşdur. O, insan kapitalına qoyulan investisiyalara təkcə ümumi və peşə təhsilinə ayrılan xərclərin deyil, həm də səhiyyəyə, informasiyaların axtarışına, sənətin və işin dəyişilməsinə, uşaqların tərbiyə edilməsinə və insanın əmək potensialının və istehsal gücünün yüksəlməsinə təminat yaradan digər sahələri də daxil etmişdir.

İnsan resurslarına mahiyyətcə demoqrafik problemlər, məşğulluq məsələləri, səhiyyə, qidalanma, urbanizasiya, mənzil, təhsil, kadrların hazırlanması və s. daxil olmaqla, sosial-iqtisadi inkişaf məqsədilə insan kapitalına və ondan səmərəli istifadə olunmasına təkan verilməsi və yaradılması aiddir. Bu məsələ 1976-cı ildə Beynəlxalq Əmək Təşkilatının (BƏT) «Məşğulluq, artım və baza tələbatları» adlı məruzəsinə daxil edilmişdir.

Qeyd etmək lazımdır ki, hal-hazırda dünyada ekoloci durumun pozulmasının getdikcə geniş miqyas alması həm nüfuzlu beynəlxalq təşkilatların, həm də BMT-nin çox ciddi narahatlığına səbəb olmuş və «Davamlı İnkişaf» konsepsiyasının meydana gəlməsinə zəmin yaratmışdır. 1984-cü ildə BMT Baş Katibinin təşəbbüsü ilə «Ətraf Mühit və İnkişaf» adlı Beynəlxalq Komissiya yaradılmaqla, Norveçin sabiq Baş Naziri, xanım Qro Xarlem Brutland onun sədri təyin olundu. 1987-ci ildə xanım Q.X.Brutland 23 ölkənin ekspert-alimlərinin iştirakı ilə «Bizim ümumi

gələcəyimiz» adlı geniş və sanballı məruzə hazırlayaraq onu BMT-nin Baş Assambleyasına təqdim etdi. Həmin bəşəri əhəmiyyətli məruzənin qayəsini Davamlı inkişaf Konsepsiyası təşkil etməklə, onun əsas mahiyyəti gələcək nəsillərin həyatını təhlükə altında qoymadan, onların həyati mənafeyinə toxunmadan, indiki nəsillərin yaşayış tələbatının sosial, iqtisadi və ekoloci cəhətdən normal ödənilməsindən ibarətdir. BMT-nin 1992-ci il 13-14 iyunda Braziliyanın Rio-de Caneyro şəhərində «Ətraf mühit və Davamlı inkişaf» üzrə keçirilən Beynəlxalq konfransında «XXI əsrin gündəliyi» və «Rio Bəyannaməsi» qəbul edilməklə, Davamlı İnkişafın əsas müddəaları və strateci istiqamətləri bu sənədlərdə daha geniş və ətraflı işıqlandırıldı.

BMT-nin təşəbbüsü ilə 2000-ci ildə keçirilən «Minilliyin Forumu» nda dünyanın 147 ölkəsinin dövlət və hökumət rəhbərləri «Minilliyin Bəyannaməsi»ni qəbul etmişlər. Bu Bəyannamədə 2015-ci ilə qədər dünya ölkələri üçün Minilliyin İnkişaf Məqsədləri (MİM) müəyyən edilmişdir:

- İfrat yoxsulluğu və aclığı aradan qaldırmaq;
- Ümumi ibtidai təhsilə nail olmaq;
- Gender bərabərliyini təmin etmək və qadınlara səlahiyyət vermək;
- Uşaq ölümü hallarını azaltmaq;
- Anaların sağlamlığını yaxşılaşdırmaq;
- QİÇS, malyariya və digər xəstəliklərə qarşı mübarizə aparmaq;
- Ətraf mühitin davamlılığını təmin etmək;
- Davamlı İnkişaf üçün qlobal tərəfdaşlığı genişləndirmək.

Dünya dövlətləri qlobal problemləri həll etmək üçün əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirir. Belə ki, dövlətlər bütün ölkələrdə iqtisadi və davamlı inkişafı təmin edən ətraf mühitin çirklənməsi ilə əlaqədar yaranan problemləri uğurla həll edən səmərəli və açıq beynəlxalq iqtisadi sistemin inkişaf etdirilməsi məqsədilə əməkdaşlıq edirlər. Ətraf mühitin mühafizəsi işinə nail olmaq məqsədilə ticarət siyasəti tədbirləri qətiyyən özbaşına, yaxud da əsaslandırılmamış diskriminasiyaya aparıb çıxarmamalıdır. Bu, beynəlxalq ticarətin məhdudlaşdırılmasına da aiddir. İdxal edən (xaricdən mal gətirən) ölkələrin nəzarətindən kənarda ekoloci problemlərin birtərəfli həll edilməsinədək addımlar atmaqdan da çəkinmək lazımdır. Regional və yaxud qlobal ekoloci problemlərin həllinə yönəldilmiş, ətraf mühitin mühafizəsinə dair tədbirlər mümkün olan qədər beynəlxalq razılıq əsasında qəbul edilməlidir.

Qeyd etmək lazımdır ki, BMT-nin təşəbbüsü ilə 2000-ci ilin sentyabrında «Minilliyin Forumu» keçirilmişdir. Forumda dünyanın 147 ölkəsinin (Azərbaycan da həmin ölkələr sırasındadır) dövlət və hökumət rəhbərləri «Minilliyin Bəyannaməsi» adlı sənədə imza ataraq, bir daha XXI əsrin Gündəliyinin müddəalarını və davamlı inkişafın prinsiplərini dəstəklədiklərini təsdiq etdilər. 8 bölmə və 32 maddədən ibarət olan

”Minilliyin Bəyannaməsi” BMT Baş Assambleyasının 08 sentyabr 2000-ci il tarixli 55/2 saylı qətnaməsi ilə təsdiq edilmişdir.

BMT-nin təşəbbüsü ilə 2000-ci ilin sentyabr ayında Amerikanın Nyu-York şəhərində keçirilən «Minilliyin Forumu»nda iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev forumdakı çıxışında davamlı inkişafın təmin olunmasında qloballaşmanın rolundan bəhs edərək demişdir: «Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin davamlı inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəlməsinə kömək etməlidir».

Dünyəvi dövlət quruculuğunu həyata keçirən Azərbaycanın beynəlxalq nüfuzu getdikcə artır və geostrateci əhəmiyyəti yüksəlir. Hazırda dünyada gedən qloballaşma prosesində fəal iştirak edən respublikamızın Şərq və Qərb arasındakı münasibətlərin inkişafında da rolu yüksəlir. Son illərdə respublika rəhbərliyinin uğurla həyata keçirdiyi Neft strategiyası və ölkəmizin beynəlxalq enerci layihələrinin reallaşmasındakı iştirakı buna sübutdur. Bu baxımdan Ümummilli liderimiz H.Əliyev hələ 2000-ci ildə Minilliyin Zirvə Görüşündəki öz çıxışında qloballaşma prosesində Azərbaycanın regionda geostrateci əhəmiyyətindən bəhs edərək demişdir: «Azərbaycan qloballaşmanın inkişafına müsbət mənada öz töhfəsini verir. Mənim ölkəm dünya miqyasında geostrateci əhəmiyyətə malik öz coğrafi mövqeyindən, ehtiyatlarından və potensialından istifadə edərək Şərq ilə Qərb arasında zəngin tarixi keçmişdən başlanan və gələcəyə istiqamətlənən körpü rolunu səmərəli surətdə həyata keçirir. Biz Böyük İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli üçün çox böyük səylər göstəririk».

Azərbaycan Davamlı inkişafı diqqət mərkəzində saxlayan Ümummilli Lider H.Əliyev «2003-2005-ci illər üçün Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında 20 fevral 2003-cü il tarixində Fərman imzalamışdır. Bu Fərmanda deyilir: «Son illər Azərbaycan Respublikasında ardıcıl olaraq həyata keçirilən islahatlar iqtisadiyyatın inkişafını, makroiqtisadi göstəricilərin davamlı artımını, əhalinin rifahını yaxşılaşdırılmasını təmin etmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra beynəlxalq cəmiyyətin üzvlüyünə daxil olaraq bir çox konvensiyalara, o cümlədən ekoloci konvensiyalara qoşulmuşdur. Ekoloci konvensiyalara biomüxtəlifliyin qorunması, qlobal iqlim dəyişmələri, ozon qatının dağılması, meşəsizləşmə və torpaqların pozulması və s. aiddir.

Meşələrin qırılması və torpağın pozulması hazırda «İnsan inkişafı»na mənfi təsir göstərən əsas ekoloci amillərdən biri kimi BMT-nin diqqət mərkəzində durur. Çünki meşəsizləşmə və torpağın pozulması (eroziyaya uğraması, şoranlaşması, səhralaşması) və onların səbəbləri bütün dünya ölkələri üçün olduqca vacib problem sayılır. Ölkəmizin torpaqlarının 40%-i pozulmuş, eroziyalanmış, 14%-i şoranlığa çevrilmiş və 60000 hektarı isə sənaye tullantıları, o cümlədən neft və neft məhsulları ilə çirklənərək yararsız hala düşmüşdür. Hazırda respublikamızda meşəliklərin ümumi ərazisi 11,5% təşkil etməklə, dünya göstəricilərindən geridədir. Bu baxımdan ölkəmizdə yeni meşəliklərin yaradılması, qırılmış zolaqların bərpa edilməsi, torpağın pozulmasının qarşısının alınması üçün tədbirlər kompleksinin hazırlanıb həyata keçirilməsi İnsan İnkişafının prioritet və davamlı prinsiplərinin həyata keçililməsinə zəmin yaradardı. Bu, artıq XXI əsr üçün günün tələbindən irəli gələn mühüm qlobal problemlərdən biridir.

Qeyd etmək lazımdır ki, «İnsan inkişafı»na dünyada mənfi təsir edən əsas amillərdən biri istehlak mədəniyyəti və istehlakın qeyri-bərabər inkişafı, təbii ehtiyatlardan səmərəli istifadə olunmaması, ətraf mühitin çirklənməsi, fauna və floranını qorunub saxlanılmasıdır.

BMT dünyada istehlakdakı qeyri-bərabərliyi tənzimləmək məqsədilə xüsusi tədbirlər planı hazırlamışdır. Həmin təkliflərə əsasən, bütün insanların əsas tələbatları tam şəkildə təmin olunmalıdır. İstehlak insan sağlamlığını və təhsil səviyyəsini təmin etməlidir, bir qrup insanların istehlakı başqasına mənfi təsir göstərməməlidir və nəhayət, istehlak gələcək nəsillərin imkanlarını məhdudlaşdırmamalıdır.

«İnsan inkişafı»nda sağlamlıq göstəricilərinin əsasını uzunömürlülük (ölkəmizdə göstərilən ömür müddəti kifayət dərəcədə yüksək olmaqla, 71,3 ildir), müəyyən yaşa (40-60) çatmaq ehtimalı olmayan əhalinin sayı, tibbi xidmətdən istifadə etmək imkanı olmayan əhalinin faizi, təmiz içməli sudan məhrum olan əhalinin faizi və 5 yaşına qədər olan uşaqların normal çəki və boy artımından qalması təşkil edir.

«İnsan inkişafı»nda nəzərə alınan əsas təhsil gösətiricisi BMT-nin təsnifatına əsasən ümumi (fərdin praktiki olaraq yazıb oxuya bilməməsi) və funksional (yazıb oxuya bilsə də, məsələnin mahiyyətini anlamaması) savadsızlıqdır. İİƏ hesablanarkən təhsilə cəlb olunanların sayı (6-23 yaşında olanlar arasında təhsil alanların faizi) nəzərə alınır.

BMT İnsan İnkişafı Əmsalını (İİƏ) hesablamaq üçün xüsusi düsturlar təklif etməklə, bu göstərici hər il hesablanır (BMT-nin üzvü olan ölkələr üçün). Bu əmsal qiymətləndirildikdə əsas göstərici kimi sağlamlıq (gözlənilən ömür müddəti), təhsil (təhsil alanların faizi, orta təhsil müddəti və savadsızlıq) və iqtisadi göstəricilər (adambaşına düşən gəlir və yoxsulluq həddindən aşağı yaşayan əhalinin faizi) nəzərə alınır. Azərbaycanda 1993-cü ildən etibarən siyasi sabitliyin yaranması,

demokratiyanın inkişafı, iqtisadiyyatın bütün sahələrində uğurlu islahatların aparılması nəticəsində İİƏ dinamik inkişaf etməkdədir. Belə ki, bu göstərici 1993-cü ildə 0,707 olduğu halda, 2002-ci ildə 0,758 olmaqla orta dünya göstəricisini keçmişdir (dünya üçün orta İİƏ 0,722-dir).

BMT-nin «İnsan inkişafına dair ilk hesabat»ında göstərilir ki, «Millətin həqiqi var-dövləti, onun insanlarıdır. İnikşafın məqsədi ondan ibarətdir ki, insanların uzunmüddətli, sağlam və yaradıcı həyat tərzi üçün əlverişli mühit yaradılsın. Bu sadə, lakin olduqca vacib həqiqət maddi və maliyyə rifahının nailiyyətləri prosesində hər zaman unudulur.

Davamlı İnsan İnkişafı Konsepsiyası cəmiyyətin sosial-iqtisadi tərəqqisini, hər şeydən əvvəl, ətraf mühitin və onun bütün amillərinin mühafizəsi, yeraltı və yerüstü sərvətlərin rasional və məqsədyönlü istifadəsi ilə balanslaşdırılmış formada idarə edilməsini əsas fəaliyyət Proqramı kimi qəbul etmişdir. Bu məqsədlə BMT və YUNESKO «2005-2014-cü illəri Davamlı İnsan İnkişafının tədrisi onilliyi» elan etmişdir. 2005-ci il martın 1-də Nyu-Yorkda BMT-nin Baş Qərargahında Baş Katib Kofi Annan və YUNESKO-nun Baş Direktoru Koişiro Matsuuranın imzaladıqları həmin sənəd Davamlı İnsan İnkişafı Konsepsiyasının prinsip-lərinin həyata keçirilməsində xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda YUNESKO-nun Baş Direktoru Koişiro Matsuuranın, YUNESKO və İSESKO-nun Xoş Məramlı Səfiri, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən (Bakı, avqust 2005) konfransda "YUNESKO-Azərbaycan: gələcəyə körpü" beynəlxalq proqramın həyata keçirilməsinin əsas istiqamətləri ətraflı təhlil olunmuş və fəaliyyətin icra planı hazırlanmışdır.

İnsan potensialı, insan keyfiyyəti, insan kapitalı, insan amili və insan inkişafının müxtəlif aspektləri XX əsrin ortalarından başlayaraq bəzi ölkələrdə fəlsəfi-sosiooci cəhətdən tədqiq edilsə də, İnsan İnkişafı Konsepsiyası BMT tərəfindən ilk dəfə 1990-cı ildə irəli sürülmüşdür. Bundan sonra insan inkişafının prioritetləri bir çox ölkələrdə dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir.

«İnsan İnkişafı» Konsepsiyası sosial tərəqqi tendensiyalarını təhlil etməklə cəmiyyətdə hər bir fərdin vəziyyətinin müxtəlif indikatorlar vasitəsilə çoxcəhətli dəyərləndirilməsinə əsaslanır. Digər inkişaf konsepsiyalarından fərqli olaraq ilk insan həyatının təkcə iqtisadi tərəflərini yox, eyni zamanda onun sosial aspektlərini də (təhsil, səhiyyə, ekologiya, demoqrafiya, mədəniyyət, ailə və məişət və s.) əhatə edir. İnsan inkişafı ictimai həyatın bütün sahələrində fərdin inkişaf imkanlarının genişlənməsi prosesinin əsas istiqamətlərinin göstəricisidir. Daha dəqiq desək, DİİK-nın mahiyyəti hər bir insanın fərdi qabiliyyətinin həyata keçirilməsi üçün əlverişli sosial, iqtisadi və ekoloci şəraitin yaradılmasından ibarətdir.

Davamlı inkişafa xidmət edən faktorlardan biri də mənəvi-psixoloci amillərin formalaşmasıdır. Nəzəri təhlillər və praktiki təcrübə göstərir ki, cəmiyyətin sosial inkişafının sosial tərəqqinin kriteriyalarının yeni koordinat sistemi «həyat səviyyəsi», «insan potensialı», «həyat keyfiyyəti», «insan kapitalı», «insan resursları» kimi anlayışların yaranmasına təkan vermişdir. Dövlət idarəçiliyi praktikasına yönəlmiş «İnsan inkişafı» keçən əsrin 90-cı illərində bir çox ölkələrin və BMT-nin diqqət obyektinə çevrilmişdir. Bu məqsədlə, BMT-nin təşəbbüsü və dəstəyi ilə 1990-cı ildən başlayaraq əksər ölkələrdə (Azərbaycanda 1995-ci ildən) hər il «İnsan inkişafı haqqında hesabat» adlı toplu nəşr edilir. Əvvəllər bu hesabatda hər hansı bir ölkənin iqtisadi vəziyyətini xarakterizə edən – adambaşına düşən orta illik gəlirin miqdarı insan potensialının inkişaf indeksi kimi ənənəvi kəmiyyət göstəricilərindən istifadə olunurdu.

Qeyd etmək lazımdır ki, XX əsrin sonunda insan inkişafı metodologiyası dəyişikliyə uğrayaraq «insanlar iqtisadiyyatın inkişafına yox, iqtisadiyyat insanların inkişafına xidmət etməlidir» prinsipinə əsaslanmağa başladı. Bu prinsip onunla izah olunur ki, müasir iqtisadiyyatı inkişaf etdirmək üçün azad, sağlam düşüncəli müəyyən intellektual səviyyəyə malik insanlar lazımdır. Bu baxımdan müəyyən ölkələrin insan inkişafı hesabatları hazırlanarkən sosial- demoqrafik statistikanın vahid sistemi yaradılmışdır. Məsələn, rus alimlərindən S.D.Valentey və L.İ.Nesterovun məlumatına görə, bu sistem insan inkişafının müxtəlif aspektlərini əhatə edən 12 məlumat blokundan ibarətdir:

1. Demoqrafik xarakteristika;
2. Ətraf mühit, urbanizasiya və mənzil–məişət şəraiti;
3. Sağlamlıq və qidalanma (içməli su təminatı);
4. Təhsil;
5. İqtisadi fəallıq;
6. Sosial qruplar və əhalinin təşkilolunma səviyyəsi;
7. Sosial təminat;
8. Mədəniyyət və dosuq;
9. Vaxtından səmərəli istifadə;
10. İctimai qaydalar və təhlükəsizlik;
11. Sosial münasibətlər;
12. Siyasi fəaliyyət;

İnsan inkişafının müxtəlif aspektlərini əhatə edən yuxarıda göstərilən bloklar insanın həyat və fəaliyyətinin, demək olar ki, bütün sahələrini əhatə edir.

İnsanın həyat fəaliyyəti prosesinin idarə edilməsi problemi insan potensialının qorunması və inkişafı sahəsində qlobal siyasətin qarşısında duran əsas vəzifələrdən biridir.

Davamlı İnsan İnkişafı Strategiyası metodoloci cəhətdən Davamlı İnkişaf Konsepsiyasına əsaslanır. Daha dəqiq desək, DİK bütün inkişaf

təlimlərinin, o cümlədən Dİİ-nın metodoloci əsasını təşkil edir. Məsələn, Rio-de Caneyroda qəbul edilmiş Dİ konsepsiyasını əhatə edən Rio bəyannaməsindəki prinsiplərin əsas məqsədi Dİİ üçün sağlam təbii və sosial mühitin yaradılmasının təmin edilməsidir. Bu baxımdan Bəyannamənin 1-ci prinsipində deyilir: «Davamlı inkişafın diqqət mərkəzində əsas yeri insanlar tutur. İnsanlar təbiətlə harmoniyada sağlam və məhsuldar həyat hüququna malikdirlər».

Davamlı İnsan İnkişafı Konsepsiyası cəmiyyətlə təbiətin tarazlığı əsasında sosial-iqtisadi tərəqqinin davamlılığının təmin edilməsini nəzərdə tutur. Davamlı İnsan İnkişafı Konsepsiyası isə insan həyatının sosial-hüquqi və mənəvi-psixoloci tərəflərinin davamlı inkişafına əsaslanır. Lakin, qeyd etmək lazımdır ki, insan inkişafının davamlılığı, hər şeydən əvvəl, iqtisadi, sosial və ekoloci inkişafın davamlılığı ilə şərtlənir. Yəni, hər hansı bir cəmiyyətdə «Davamlı inkişaf» modelinə keçilməsi davamlı insan inkişafının təminatında həlledici rol oynayır. Davamlı İnkişaf cəmiyyətdə siyasi, hüquqi və sosial- iqtisadi stabilliyə əsaslanır. Davamlı İnkişafa keçilməsi uzunmüddətli bir prosesdir. Davamlı insan inkişafının təmin edilməsi də təkamül xarakteri daşıyır. Davamlı İnkişafa keçilməsi davamlı insan inkişafı üçün sosial, iqtisadi, ekoloci baza rolunu oynayır.

İnsan təbiətin ən ali sərvətidir, bir hissəsidir. Bütün dünya əhalisi birlikdə cəmiyyəti təşkil edir. İnsan və cəmiyyət təbiətsiz yaşaya bilməz. Keçmişdə insanlar təbiətdən asılı idilər. Lakin zaman keçdikcə insanların şüuru inkişaf edir və təbii sərvətlərin istifadəsi asanlaşır, insanın həyat tərzi dəyişir, tədricən müasir sivilizasiya səviyyəsinə çatır, insan cəmiyyəti daha da inkişaf edir və formalaşır. Elmi-texniki tərəqqi insanların inkişafına səbəb olur.

Davamlı İnkişaf anlayışı yarandığı ilk illərdə onun qiymətləndirilməsi zamanı əsas amil yalnız iqtisadi və sosial göstəricilər hesab edilirdi. Əlbəttə, bu göstəricilər hər bir ölkədə əhalinin ümumi vəziyyətini tamamilə əks etdirə bilməz. Çünki ölkədə gəlir əhali arasında qeyri-bərabər formada bölündüyü üçün vətəndaşların bir qrupunun gəliri yüksək, digər qrupununku olduqca az olur, orta göstərici isə bunu əks etdirə bilmir. Lakin 1990-cı ildən başlayaraq «İnsan inkişafı»nın yeni göstəricilərindən istifadə olunmağa başlandı. BMT tərəfindən «İnsan inkişafı»nı qiymətləndirmək məqsədilə müvafiq əmsallar qəbul edilmişdir. İnsan İnkişafında insan amili və potensialı ən aparıcı və həlledici rol oynayır.

Qeyd etmək lazımdır ki, son dövrdə Davamlı İnsan İnkişafı problemi Azərbaycanın alimlərinin diqqətini cəlb etmişdir. Bu sahədə tədqiqatlar aparmış görkəmli alimlərdən Ələddin Əsgərov, Eldar Hüseynov və Sakit Hüseynov tərəfindən yazılmış «Davamlı İnsan İnkişafı» fundamental əsərini xüsusi olaraq göstərmək lazımdır. Bu əsərdə davamlı insan inkişafının bütün aspektləri geniş və əhatəli şəkildə elmi cəhətdən tədqiq edilir.

Azərbaycanın görkəmli alimi, akademik Urxan Ələkbərov isə insan potensialına əsaslanan dDavamlı inkişafın əsas amillərinə, səmərəli yaradıcı ömür, iqtisadiyyat, sağlam təbii və əlverişli sosial mühit, bilik və bacarıq, sağlam və uzun ömürlük göstəricilərini aid edir (2007-ci il).

Qeyd etmək lazımdır ki, ölkədə ümumi inkişafa təsir edən amillərdən biri də ölkənin «yaşı» və təbii sərvətləri sayılır. Çünki qədim tarixə malik olan zəngin və bəşəriyyətə əvəzsiz töhfələr verən ölkərlə yeni yaranmış ölkələrin ümumi inkişafının müqayisəsi göstərir ki, inkişafın səviyyəsinə, əhalinin rifahına və həyat-məişət tərzinə görə yeni – 250-300, hətta 100-150 il «yaşı» olan «gənc» ölkələr klassik ölkələrə nisbətən daha yüksək pillədə dururlar. Lakin tarixi amil inkişafda nəzərə alınsa da o, həlledici göstərici hesab edilmir.

Qeyd etmək lazımdır ki, BMT tərəfindən İnsan İnkişafının səviyyəsini müəyyən etmək və qiymətləndirmək üçün müvafiq əmsallar qəbul edilmişdir. Belə əmsallardan ən əsası, ən vacibi ümumiləşdirilmiş İnsan İnkişafı Əmsalıdır (İİƏ). Bu Əmsal ölkə, onun ayrı-ayrı bölgələri, yaxud bir qrup ölkələr, qaçqın və məcburi köçkünlər, etnik, dini və irqi qruplar üçün insanların sağlamlıq, təhsil və iqtisadi göstəriciləri əsasında hesablanır. İnsan İnkişafı Əmsalı müxtəlif ölkələr üçün fərqlidir. İnsanların həyatın bütün sferalarındakı seçimi və tələbatlarını təmin edən bir proses kimi «Davamlı İnsan İnkişafı»nı səciyyələndirən və onun dinamikasının səviyyəsini təyin və analiz etmək üçün geniş və hərtərəfli statistik göstəricilərə istinad olunur. Alimlərdən Y.Şokamanov və başqaları 2003-cü ildə Konsepsiyanın nəticələrinin təhlilinə istinad edərək statistik göstəricilərin 3 əsas qrupa təsnif olunmasını məqbul hesab etmişlər. Bunu isə aşağıdakı sxem vasitəsi ilə təklif etmişlər:

**İnsan İnkişafının göstəriciləri**

| Qruplar | İnsan İnkişafı göstəriciləri |
|---|---|
| İnsan inkişafının inteqral qiymətləndirilməsi üçün göstəricilər | - İnsan İnkişafı Əmsalı İdndeksi- İİƏ;<br>- Gender amili nəzərə alınmaqla İnkişaf Əmsalı İndeksi– GİƏ;<br>- Qadınların İmkanlarının Genişləndirilməsi Göstəricisi- QİGG;<br>- Əhalinin Yoxsulluq Əmsalı indeksi- ƏYƏ-1, ƏYƏ-2 |
| İnsan İnkişafının əsas inteqral qiymətlənməsini xarakterizə edən göstəricilər | - Doğum zamanı gözlənilən ömür müddəti, əhalinin ölümü;<br>- Əhalinin sağlamlığını və səhiyyə sisteminini xarakterizə edən göstərici;<br>-Əhalinin təhsil səviyyəsini və təhsil sisteimni xarakterizə edən göstərici;<br>- Məhz bir nəfər üçün gəlirlərin istehsalı, paylanması və istifadəsi, gəlirlərin qeyri- bərabərliyi, gəlirlərə görə yoxsulluq. |

| | |
|---|---|
| İnsan İnkişafının digəçr aspektlərini xarakterizə edən göstəricilər | - Demoqrafik inkişaf;<br>- Əmək resursları, məşğuluq, işsizlik, sosial yardım, sosial infrastrukturlar;<br>- Mənzil və kommunikasiya göstəriciləri;<br>-İctimai azadlıq: söz, təsirlər, siyasi proseslərdə iştiraketmə;<br>- Urbanizasiya prosesi,təbii resurslardan istifadə, enerci məsrəfi;<br>-Ətraf mühitdən istifadə, ona təsirin vəziyyəti və qorunması;<br>- Sosial sferaya qoyulan investisiyalar, köməkaxını, resursların kənara çıxarılması, disproporsiya (qeyri-mütənasiblik);<br>- İnsan inkişafı baxımından milli hesablar |

BMT Dünyanın bütün ölkələri üçün «Davamlı İnsan İnkişafı»nın ayrı-ayrı göstəricilərinin müqayisəli tərzdə öyrənilməsi üçün hər il onları təhlil edərkən həmin qiymətləndirməyə əsasən müvafiq hesabatlar dərc edir. Bu, hər şeydən əvvəl, ölkədə inkişafın uğur dərəcəsini, onun insanların sosial-iqtisadi vəziyyəti və rifahının yaxşılaşdırılması istiqamətinə yönəldilməsini göstərir. Qiymətləndirmə İnsan İnkişafının əsas göstəricilərinin xüsusi düsturlarla hesablanmış müvafiq əmsallarına əsasən aparılır. Həmin əmsallar hesablandıqda əsasən ölkə əhalisinin sağlamlıq, təhsil və iqtisadi göstəriciləri nəzərə alınır. Dİİ-nın sağlamlıq göstəricisi kimi uzunömürlülük, bir yaşına qədər olan körpə uşaqlar arasında ölüm və 5 yaşına qədər olan uşaqların çəki, boy və inkişafdan qalma faizi öyrənilir. Yoxsulluq səviyyəsini öyrənmək üçün – təmiz içməli sudan istifadə etməkdən məhrum olan, tibbi xidmətlərdən istifadə etmək imkanı olmayan adamların sayı, orta ömür müddəti hesablanır. Təhsil göstəricisi kimi əhalinin orta hesabla neçə illik təhsilə malik olması və 6-23 yaşlı gənclərin neçə faizinin təhsil alması və savadsızlıq dərəcəsi müəyyən olunur. Bu zaman savadsızlığın müasir təsnifata görə qəbul edilmiş hər iki növü – ümumi savadsızlıq (hər hansı fərdin yazıb-oxuma qabiliyyətinə malik olması) və funksional savadsızlıq (funksional savadı olmayan fərdlərin bəzi yazılı mətnləri oxuya bilməsinə baxmayaraq onun mahiyyətini dərk edə bilməməsi və yazılı mətnlərdən istifadə zamanı çətinlik çəkməsi) hesablanır.

Davamlı İnsan İnkişafı qiymətləndirilərkən ölkənin iqtisadi göstəricilərindən əsasən adambaşına düşən Ümumdaxili Məhsul (ÜDM) hesablanır. Bu zaman ölkə üçün əhalinin alıcılıq qabiliyyətini xarakterizə edən xüsusi əmsal Alıcılıq Qabiliyyəti Pariteti (AQP) nəzərə alınır və ÜDM hesablanarkən həmin göstəriciyə görə ölkələrin müqayisə edilməsinə fikir verilir. Məsələn, İnsan İnkişafı göstəricilərinə görə dünyada ən tərəqqi etmiş ölkə olan İslandiyada əhalinin ÜDM gəlirinin Lüksem-burqdan iki dəfə az olmasına baxmayaraq, o, daha yüksək yerdə durur. Ölkə əhalisinin hər bir nəfərinə düşən ÜDM-ə görə İslandiyanın və Avstriyanın

eyni göstəriciyə malik olmasına baxmayaraq, dünya reytinqində İslandiya 2-ci, Avstriya isə 17-ci yeri tutur. Çünki hər iki ölkənin eyni iqtisadi göstəriciyə malik olmasına baxmayaraq, milli gəlir İslandiyada əhali arasında Avstriyaya nisbətən daha ədalətli və bərabər bölünür, cəmiyyətin bütün təbəqəsinə eyni dərəcədə xidmət edir. ÜDM gəlirin əhali arasında bərabər, ədalətli bölünməsinə və ümumilikdə isə Davamlı İnsan İnkişafı göstəricilərinə görə Norveç dünya ölkələri arasında daha yüksək reytinqə malik olmaqla, birinci yerdə durur. Bəzi ÜDM gəliri müxtəlif olan ölkələr arasında da uyğunsuzluq müşahidə edilir. Belə ki, Ekvatoriall Qvineyada əhalinin hər bir nəfərinə düşən orta ÜDM gəlirin 20 min ABŞ dollarını təşkil etməsinə baxmayaraq, bu gəlirin əhali arasında qeyri-bərabər, ədalətsiz paylanması və sosial qayğılara lazımınca diqqət yetirilmədiyinə görə həmin ölkə dünyanın 177 ölkəsi arasında 121-ci yeri tutur. İqtisadi imkanları eyni olan Katar və Sloveniya həmin siyahıda müvafiq olaraq 26 və 40-cı yerlərdə durur.

Azərbaycan Respublikasında son illər ölkə iqtisadiyyatının bütün sferalarında aparılan səmərəli, məqsədyönlü islahatlar və regionların sosial-iqtisadi inkişafına göstərilən geniş diapozonlu dövlət qayğıları ölkəmizin «Davamlı İnsan İnkişaf»ı göstəricilərinə görə sürətlə tərəqqi etməsi və yüksək pillədə dayanması üçün böyük zəmin yaratmışdır.

Qeyd etmək lazımdır ki, hal-hazırda insanın istehsal fəaliyyətinin güclənməsi və dünya əhalisinin sürətlə çoxalması nəticəsində planetimizin təbii mühitində nəzərəçarpacaq dəyişikliklər baş verir. İnsanın təsərrüfat fəaliyyəti sayəsində yaranan bir çox qlobal problemlər planetar əhəmiyyət kəsb edir. Atmosferin qaz tərkibinin dəyişməsi, torpaqların və dünya okeanının çirklənməsi, energetika problemi, əhalinin ərzaq məhsullarına, mineral maddələrə, içməli suya olan tələbatının ödənilməsi və s. belə qlobal problemlərdəndir.

İnsanın istehsalat fəaliyyətinin inkişafı təbiət qanunlarının və proseslərinin inkişafı ilə tarazlı şəkildə həyata keçirilmişdir. Təbiət-cəmiyyət münasibətlərinin müvazinətini pozmamaq şərti ilə təbii sərvətlərdən istifadə etmək üçün onların təbiətdə qarşılıqlı əlaqələrinin spesifik qanunauyğunluqla-rına riayət olunmalıdır.

### 13.2.Davamlı və Dayanıqlı İnkişafın başlıca şərtləri

Müasir dövrdə davamlı inkişaf, milli iqtisadiyyatın elə bir artımını nəzərdə tutur ki, onun sayəsində cəmiyyətin müasir tələbatlarını ödəyərkən gələcək nəsillərin artan tələbatlarının daha yaxşı ödəmək qabiliyyətini məhdudlaşdırmasın.

Belə ki, ölkəmizin malik olduğu resurs potensialı, onlardan istifadə dərəcəsi, elmi-texniki tərəqqinin mövcud imkanları daxilində yaxın gələ-

cəkdə hərəkətə gətirə biləcək potensialı və mövcud reallıqları nəzərə alınmaqla milli iqtisadiyyatın dinamik, tarazlı və səmərəli inkişafının təmin edilməsinin obyektiv zərurəti davamlı və dayanıqlı inkişaf modelinə keçidin problemlərinin araşdırılmasını təkidlə tələb edir.

Azərbaycan dövlətinin bazar iqtisadiyyatına keçidi qarşısına məqsəd qoyması, habelə postsovet dövründə tarixən ölkəmizin əsasən ekstensiv inkişafı, təbii-mineral xammal ehtiyatlarından ümumən səmərəsiz istifadə olunması, milli iqtisadiyyatın milli maraq və mənafelərə deyil, daha çox Ümumittifaq Əmək Bölgüsünün tələblərinə uyğun formalaşdırılması, hazırki dövrdə təbiət-cəmiyyət münasibətlərinin qarşılıqlı əlaqələrinin qeyri-qənaətbəxş səviyyədə olması ölkəmizdə davamlı və dayanıqlı inkişafın təmin edilməsi problemlərinin yenidən hərtərəfli həll edilməsini obyektiv zərurətə çevirmişdir.

Bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın Davamlı və Dayanıqlı İnkişaf probleminə beynəlxalq təcrübə və mövcud reallıqlar əsasında onun səmərəli reallaşdırılmasını təmin edən iqtisadi strategiyanın başlıca yolları, vasitələri, mexanizmləri və prioritetləri elmi-praktiki əsaslandırmağın böyük əhəmiyyəti vardır. Belə ki, müasir dövrdə ölkəmizin Davamlı inkişafa keçidinin qanunauyğunluqlarını, xüsusiyyətlərini araşdıraraq onun prinsiplər, meyarlar, mexanizmlər və göstəricilər sistemini müəyyənləşdirərək dəyərləndirmək olduqca vacibdir.

Azərbaycanda sosial-iqtisadi inkişafın mövcud vəziyyəti təhlil etmək,davamlı və dayanıqlı inkişaf baxımından öyrənmək və ona keçidi təmin edən əsas amilləri və potensialı aşkara çıxarmaq bir zərurətdir. Bundan başqa, milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişafının təmin edilməsində investisiya – innovasiya amillərinin rolu böyükdür və bu amillər, onlardan istifadənin səmərəliliyinin yüksəldilməsinin başlıca yollarının və mexanizmlərinin təkmilləşdirilməsinin nəzəri və praktiki cəhətdən öyrənilməsidir.

Dünya ölkələrində qloballaşma şəraitində bəşəriyyətin resurslara olan tələbatlarının durmadan artması ilə yanaşı, onların istehsalının getdikcə baha başa gəlməsi, dünyada baş verən qloballaşma proseslərinin məntiqi nəticəsi olaraq ölkələrin qarşılıqlı asılılığının güclənməsi iqtisadi, sosial, demoqrafik və ekoloji problemlərin ümumbəşəri xarakter daşımasına səbəb olmuşdur. Belə bir şəraitdə Azərbaycanda səmərəli fəaliyyət göstərən milli iqtisadiyyatın formalaşdırılması və inkişafı həlledici dərəcədə onun davamlı və dayanıqlı inkişafından asılıdır.

Qeyd etmək lazımdır ki, Davamlı və dayanıqlı inkişaf Konsepsiyası bir problem kimi XX əsrin ikinci yarısında irəli sürülmüşdür. Bu problemin bəşəriyyətin Davamlı inkişafa keçidin təmin edilməsini XXI əsrin prioriteti kimi müəyyənləşdirmiş, 2005-2014-cü illəri isə Davamlı və Dayanıqlı İnkişafın tədqiqi və təşviqi onilliyi kimi bəyan etmişdir.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, milli iqtisadiyyatın «Davamlı və Dayanıqlı İnkişaf»a keçidini təmin etmək üçün, hər şeydən əvvəl, ölkənin resurs potensialı indiki və gələcək nəsillərin maraq və mənafeləri nəzərə alınmaqla səmərəli reallaşdırılmalı, investisiyalara əsaslanan inkişaf modelindən innovasiyalı inkişaf modelinə keçid üçün tələb olunan zəruri iqtisadi, sosial, ekoloji, texniki-texnoloci potensial formalaşdırılmalıdır. Bütün bunlar öz növbəsində «Davamlı və Dayanıqlı İnkişaf» anlayışının mahiyyətinin, milli reallıqlar və dünya təcrübəsi prizmasından davamlı inkişaf modelinə keçidin imkan, prinsip və meyarlarının başlıca yollarının, onun səviyyəsini xarakterizə edən makroiqtisadi göstəricilərin nəzəri və praktiki baxımdan dəyərləndirilməsi qanunauyğunluqları və xüsusiyyətlərinin sistemli öyrənilməsini tələb edir.

Qeyd etmək lazımdır ki, Davamlı və Dayanıqlı İnkişaf konsepsiyasının əsasını belə bir sivil yanaşma təşkil edir ki, sosial-iqtisadi sistemlərin və inkişaf modellərinin xarakterindən asılı olmayaraq milli iqtisadiyyatın elə bir inkişafını təmin etmək lazımdır ki, elmi – texniki tərəqqinin tətbiqi və inkişafı gücləndikcə bütün səviyyələrdə insanların davamlı yaşayış prinsipləri gözlənilsin və ətraf mühitin tarazlığı pozulmasın.

Qeyd etmək lazımdır ki, «Roma klubu»na daxil olan tədqiqatçıların məruzələri bu gün davamlı inkişaf anlayışının başa düşülməsində və onun təmin edilməsi ilə bağlı milli konsepsiyaların formalaşdırılmasında müstəsna rol oynayır. Belə ki, həmin məruzələrin başlıca qüsuru ondan ibarətdir ki, onlar iqtisadi inkişafı təmin edən amilləri müəyyənləşdirərkən elmi-texniki tərəqqinin inkişaf imkanlarını (yeni alternativ enerji növlərinin meydana gəlməsini) və dövlət tənzimlənməsinin rolunu kifayət qədər nəzərə almırlar.

Son dövrdə Davamlı və Dayanıqlı İnkişafla bağlı aparılan nəzəri və əməli xarakterli tədqiqatların məntiqi nəticəsi olaraq dünyada tədricən daha optimist inkişaf modelləri və məruzələri meydana gəlməyə başladı. Rio-de-Caneyroda (1992) və Yohanesburqda (2002) Ətraf Mühit və İnkişafa dair BMT-nin Beynəlxalq Sammitinin keçirilməsi mühüm hadisə Kimi tarixə düşdü. Belə ki, Davamlı və Dayanıqlı İnkişaf Konsepsiyasında məntiqi olaraq planetin ehtiyatlarından səmərəli və qənaətlə istifadə, təbii mühitin qorunub saxlanılması, indiki və gələcək nəsillərin həyat şəraitinin yaxşılaşdırılması şərtilə insanların tələbatının optimal şəkildə ödənilməsi və bütün dünyada sülhün qorunmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişafı nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, iqtisadi ədəbiyyatda «Davamlı İnkişaf» anlayışından geniş istifadə olunsa da, bəzən onun mahiyyətini tam əks etdirməyən «dayanıqlı», «balanslı», «stabil», «təminatlı», «keyfiyyətli» inkişaf anlayışlarından da istifadə edilir. Belə nəzəri yanaşmalar «Davamlı İnkişaf» probleminin əməli cəhətdən həll edilməsi strategiyasının işlənib hazırlanmasında qeyri-müəyyənliyə gətirib çıxara bilər.

Bu baxımdan – «Davamlı İnkişaf» nəzəriyyəsi son illərdə ən çox tədqiq olunan aktual nəzəri, həm də bəşəriyyətin gələcəkdə mövcudluğunun praktiki məsələlərinin həllinin konseptual əsaslarını özündə birləşdirən bir problemə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, son onillikdə dünya iqtisadiyyatının inkişafı nəticəsində ekoloji böhran, başqa sözlə təbiətlə cəmiyyətin qarşıdurması elə bir həddə gəlib çatmışdır ki, bu problemə biganə münasibət bəşəriyyətin özünün mövcudluğunu şübhə altına ala bilər. Dünya miqyasında davamlı inkişafın təmin edilməsinin digər problemi bir çox ölkələrdə yaranan gərgin demoqrafik proseslərlə şərtlənir. Bundan başqa, ayrı-ayrı ölkələr üzrə bu amillərin sistemli təhlili göstərir ki, həmin problemlərin həlli imkanları iqtisadi inkişafın səviyyəsi və xarakterindən asılı olur.

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatın iqtisadi potensialının «Davamlı İnkişaf» baxımından qiymətləndirilməsi mahiyyət və struktur etibarilə mürəkkəb, eyni zamanda çoxaspektli bir problemdir. Təcrübədə iqtisadiyyatın «Davamlı inkişaf»ının mövcud vəziyyətini qiymətləndirmək üçün müxtəlif səviyyələri əhatə edən göstəricilər sistemindən və meyarlardan istifadə olunur.

Onu da göstərmək lazımdır ki, «Davamlı və Dayanıqlı İnkişaf»ın iqtisadi potensialının meyarları və metodoloci prinsipləri haqqında vahid bir beynəlxalq standartlar bu günə kimi mövcud deyildir. «Davamlı İnkişaf»ın meyarları, hər şeydən əvvəl özündə iqtisadi, sosial və ekoloji problemlərin vəhdət halında həllinə və inkişafına əsaslanmalıdır. Həm də bu zaman elə bir inkişaf tipinin formalaşdırılması başa düşülməlidir ki, o, dəyişən şəraitə və tələbata daha effektiv uyğunlaşmaq qabiliyyətinə malik olsun.

«Davamlı İnkişaf»ın səviyyəsini xarakterizə etmək və dəyərləndirmək üçün BMT tərəfindən 4 qrupda birləşdirilmiş (iqtisadi, sosial, ətraf mühit və institutsional), eyni zamanda hər biri üçün ayrıca müəyyən edilmiş göstəricilər sistemindən istifadə məqsədəuyğun hesab edilmişdir.

Belə ki, «Davamlı inkişaf»ın meyarlarının və göstəricilərinin düzgün müəyyənləşdirilməsi milli iqtisadiyyatın səmərəli fəaliyyətinə dövlət müdaxiləsinin hədd, forma və miqyaslarının müəyyənləşdirilməsinin çox mühüm şərtidir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, «Davamlı İnkişaf»ın təmin edilməsi üçün ölkənin əldə olunmuş inkişaf səviyyəsi, potensialı, institutsional bazası ilə yanaşı, milli iqtisadiyyatın mövcud reallıqlarına uyğun, düzgün iqtisadi strategiyanın seçilməsi çox zəruridir. Belə ki, son yüzillikdə beynəlxalq səviyyədə rəqabət üstünlükləri əldə etmiş ölkələrin təcrübəsinin sistemli təhlili göstərir ki, onların uğurunu təmin edən əsas amil, hər şeydən əvvəl, düzgün iqtisadi inkişaf modelinin müəyyənləşdirilməsi və reallaşdırılması mexanizmlərinin seçilməsi olmuşdur. Hal-

hazırda qloballaşan dünyaya fəal inteqrasiya olunan Azərbaycan kimi ölkələr milli iqtisadiyyatın rəqabət mübarizəsinə davam gətirmək üçün, birincisi, iqtisadi inkişafın prioritetlərini düzgün müəyyənləşdirməli, ikincisi, onların reallaşdırılmasının mövcud reallığa və imkanlara uyğun səmərəli üsul, vasitə və mexanizmlərini seçməlidir. Çünki inzibati amirlik sistemindən bazar sisteminə keçən ölkəmizdə yeni iqtisadi sistemin tələblərinə uyğun olaraq bu sistemin səmərəli fəaliyyəti, maddi amillərlə yanaşı - həlledici dərəcədə bu prosesə insanların şüur, təfəkkür, düşüncə tərzi, milli mentaliteti və nəhayət, ölkədə formalaşdırılan və reallaşdırılan iqtisadi siyasətin xarakterinin mövcud reallıqlara nə dərəcədə cavab verməsi müstəsna əhəmiyyət kəsb edir.

Beləki, son illərdə Azərbaycanda milli iqtisadiyyatın davamlı və dinamik inkişafa keçidini təmin etmək üçün kompleks iqtisadi, təşkilati, siyasi ilkin şərtləri formalaşdırmaqla bağlı görülən işlər sayəsində ölkəmizdə kifayət qədər iqtisadi, sosial, elmi–texniki, kadr potensialı, institutsional, hüquqi baza, start kapitalı yaradılmışdır.

Qeyd etmək lazımdır ki,müasir dövrdə ölkəmiz iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, onun gələcək inkişafı əhəmiyyətli dərəcədə həyata keçirilən struktur siyasətinin xarakteri, miqyası və səmərəliliyi ilə birbaşa bağlıdır.

Milli iqtisadiyyatda baş verən quruluş dəyişiklikləri elmi-texniki tərəqqinin inkişaf səviyyəsi və xarakteri ilə qarşılıqlı əlaqədə və asılılıqda olan bir prosesdir və o eyni zamanda elmi-texniki tərəqqinin sürətləndirilməsinin mühüm şərti kimi çıxış edir. Bu baxımdan respublikamızda elə elmi-texniki və struktur siyasətin formalaşdırılmasına çalışmaq lazımdır ki, o bir tərəfdən Azərbaycanın malik olduğu bütün resurslardan səmərəli istifadə etməyə və respublikamızın qarşısında duran sosial-iqtisadi problemlərin mümkün qədər optimal müddətdə həll etməyə şərait yaratsın və ən başlıcası isə, perspektivdə iqtisadi artımın imkanlarını məhdudlaşdırmasın.

Qeyd etmək lazımdır ki, respublikamızda uzun bir dövrü əhatə edən struktur siyasəti, bir tərəfdən, milli iqtisadiyyatın cari problemlərinin həllini, digər tərəfdən perspektivdə Azərbaycanın dünya iqtisadiyyatına daha intensiv qovuşmasını, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsini, ən başlıcası isə davamlı inkişaf problemlərinin həllini nəzərə almalıdır. Bu isə öz növbəsində ölkəmizdə bütünlükdə neft sənayesinin respublikada digər sahələrin inkişafında aparıcı qüvvəyə çevrilməsini, qeyri-neft sektorunun, xüsusən regional, üstün inkişafının prioritet bir vəzifə kimi reallaşdırılmasını zərurətə çevirir.

Qeyd etmək lazımdır ki, son illərdə xüsusi neft fondunun yaradılması, ondan istifadənin şəffaflığının təmin olunması, ölkəmizdə əhali gəlirlərinin, büdcə imkanlarının, habelə müəssisələrin, bankların maliyyə resurslarının əhəmiyyətli dərəcədə artması sayəsində məcmu

tələbin yüksəlməsi, bu gün milli iqtisadiyyatın davamlı inkişafına zəmin yaradan çox mühüm start kapitalını yaratmışdır. Bu baxımdan yaxın gələcəkdə Azərbaycanda start kapitalının formalaşması və inkişafında milli mənafelər, ölkənin iqtisali təhlükəsizliyi nəzərə alınmaqla, investisiyaların maliyyələşdirilməsində daxili və xarici mənbələrin optimal formada əlaqələndirilərək reallaşdırılması çox əhəmiyyətlidir.

Qeyd etmək lazımdır ki, son illərdə ÜDM-də məcmu investisiyaların, xüsusən xarici investisiyaların xüsusi çəkisi kəskin aşağı düşmüş, lakin daxili investisiyaların xüsusi çəkisi 13,4-dən 26,3%-ə yüksəlmişdir. «Davamlı İnkşaf»ın maddi zəmininin yaradılması baxımından iqtisadiyyata yönəldilmiş investisiyaların strukturunda əsas kapitala yönəldilmiş investisiyaların dinamikası, habelə onun istehsal və qeyri-istehsal təyinatlı nisbətinin dəyişməsi milli iqtisadiyyatın istehsal güclərinin dəyərləndirilməsi baxımından əhəmiyyət kəsb edir. Belə ki, 2000-2010-cu illərdə Azərbaycanda əsas kapitala yönəldilmiş investisiyalar 11,3 dəfə artmışdır. Bu illərdə neft sektoruna nisbətən qeyri-neft sektoruna investisiya qoyuluşunun üstün artması nəticəsində əsas kapitala yönəldilmiş investisiyaların strukturunda qeyri-neft sektorunun xüsusi çəkisi 48,1%-dən 73,2%-ə yüksəlmişdir.

Neft sektorunun xüsusi çəkisi isə 51,9%-dən 28,2%-ə düşmüşdür. Bütün bu meyillər ölkəmizdə keçidin ilkin mərhələsində neft sektoruna qoyulmuş külli miqdarda investisiyaların əməli səmərə verməsinin mühüm nəticəsi kimi qiymətləndirilə bilər.

Hazırkı dövrdə respublikamızda daxili mənbələr hesabına investisiya fəallığının artırılmasının ən başlıca maliyyə mənbələrindən biri, müvafiq dövlət siyasəti vasitəsilə əhalinin malik olduğu yığımın əsaslı vəsait qoyuluşu prosesinə mümkün qədər maksimum cəlb olunması prosesi ilə bağlıdır. Dünya təcrübəsi göstərir ki, (xüsusən Yaponiya, Almaniya) əhalinin əmanətlərini banklara cəlb etməklə, onu investisiyanın çox böyük maliyyə mənbələrinə çevirmək olar.

Azərbaycanın dünya iqtisadiyyatına fəal inteqrasiya olduğu müasir bir şəraitdə milli iqtisadiyyatın Davamlı və Dayanıqlı İnkişafının təmin edilməsi məqsədilə investisiya siyasəti və milli innovasiya sisteminin yaradılması əsasında respublikada innovasiya və iqtisadiyyatın inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə davamlı və dayanıqlı sosial inkişafın problemlərini həll etmədən, nə iqtisadi inkişafı, nə də onun təhlükəsizliyini uzun müddətə təmin etmək mümkündür. Belə ki, milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyi qiymətləndirilərkən xüsusi sosial göstəricilərdən də geniş istifadə olunması olduqca vacibdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, milli iqtisadiyyatın uzun müddətə iqtisadi təhlükəsizliyinin təmin edilməsi həlledici dərəcədə ölkədə sənaye, elmi-texniki və innovasiya siyasətinin xarakterindən

birbaşa asılı olur. Bu prinsipial müddəanın dövlətin iqtisadi siyasətində nəzərə alınmaması perspektivdə ölkəmizin müstəqil və davamlı inkişafını, xüsusən onun iqtisadi təhlükəsizliyini şübhə altına ala bilər. Ona görə də Azərbaycanda milli maraqların reallaşdırılması və davamlı inkişafının təmin edilməsi innovasiya əsasında iqtisadiyyatın yenidən qurulmasını tələb edir.

Qeyd etmək lazımdır ki, ölkəmizdə dayanıqlı və davamlı inkişafın təmin edilməsində iqtisadiyyatın rəqabətqabiliyyətliliyi səviyyəsinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, beynəlxalq miqyasda milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi zamanı 300-dən çox göstərici üzrə 100-dən çox qiymətləndirmə vasitələrindən istifadə olunur. Respublikamızda milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini müəyyənləşdirər- kən mövcud potensial, iqtisadi artım tempi, sənaye istehsalının səmərəliliyi və səviyyəsi, elmi-texniki nailiyyətlərin istehsala tətbiqi, ölkənin Beynəlxalq Əmək Bölgüsündə iştirakı dərəcəsi, daxili bazarın həcmi və dinamikliyi; maliyyə sisteminin elastikliyi və dövlət tənzimlənməsinin iqtisadiyyata müdaxiləsinin səmərəliliyi dərəcəsi nəzərə alınmalıdır.

Hal-hazırda Azərbaycanda rəqabət real olaraq daha çox ayrı-ayrı firma və şirkətlər arasında müşahidə olunur. Lakin hər bir firma və şirkət milli iqtisadiyyatın subyekti oldğuna görə, iqtisadiyyatın mikro səviyyəsində rəqabət qabiliyyətinin artırılması makroiqtisadiyyatın inkişafına bilavasitə müsbət təsir göstərir və ona görə də dövlət bütün səviyyələrdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında bilavasitə maraqlı olmalıdır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə aparılan uğurlu islahat onu göstərir ki, biz yaxın gələcəkdə «Orta gəlirli ölkələr» sırasına daxil ola bilərik. Bu ölkələrdə adambaşına düşən milli məhsulun dəyəri 17-18 min ABŞ dollarına bərabərdir. Bu isə ölkə iqtisadiyyatının yaxın 10 ildə yenidən ikiqat artması deməkdir. Bunun üçün isə respublikamızın iqtisadiyyatının hər il 7-8 faiz artması təmin edilməlidir. Bundan əvvəlki illərdə əldə etdiyimiz uğurlar onu göstərir ki, bu işləri yerinə yetirə biləcəyimiz artıq reallıqdır.

BMT yanında İnkişaf və Artım Komissiyasının son məruzəsində qeyd olunur ki, 1950-ci ildən sonra belə bir inkişafa 13 ölkə nail olmuşdur. Azərbaycanın tam imkanı vardır ki, 14-cü dövlət olsun və iqtisadiyyatın şaxələndirilməsinə nail olsun, bu kursu davam etdirsin. Bunun üçün isə respublikamızda hər bir şərait var: ilk növbədə, son 10 ildə görülmüş işlər, yaranmış potensial və təcrübə, ən başlıcası ölkəmizdə uzunmüddətli siyasi sabitlik, siyasi və iqtisadi inkişafdır. Bütün bunlar isə qarşıda duran strateji vəzifələri müvəffəqiyyətlə həll etməyə imkan verəcəkdir.

## 13.3.Azərbaycan dövlətinin iqtisadi siyasətinin Davamlı və Dayanıqlı İnkişafa təsiri və onun təkmilləşdirilməsi

Müasir Azərbaycanı xarakterizə edən əsas xüsusiyyətlərdən biri formalaşdırılmış möhkəm iqtisadi əsaslara söykənməklə əhalinin maddi rifah halının davamlı olaraq yüksəlməsi, ölkə vətəndaşlarının etibarlı sosial müdafiəsinin təmin edilməsinin təşkili durur. Belə ki, sürətli tərəqqiyə can atan Azərbaycan dövlətinin qarşısında duran ən əsas məsələlərdən biri sosialyönümlü milli iqtisadiyyatın yaradılması, ədalət prinsiplərinə əsaslanan quruluşa nail olunması, iqtisadi gəlirlər və maddi nremətlərin proporsional bölgüsünü təmin etməkdir. Belə ki, əvvəlki illərdə olduğu kimi , 2010-cu ildə ölkəmizin hərtərəfli tərəqqi sürəti uğurla davam etdirilmişdir, sosial proqramların icrası işləri daha da intensiv xarakter almışdır. Bu isə xalqın maddi rifahının daha da yaxşılaşmasına səbəb olmuşdur.

Möhtərəm Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunları və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda ölkəmizin son illərdə uğurlu inkişafı, davamlı iqtisadi artım, makroiqtisadi sabitliyin əhalinin sosial müdafiəsinə yönələn konkret proqramlar, yoxsulluğun səviyyəsinin daha da aşağı düşməsi, inteqrasiya əlaqələrinin genişlənməsi əminliklə qeyd edilmişdir. Bütün bunlar onu göstərir ki, dövlət başçımız düzgün və düşünülmüş iqtisadi siyasət yeridir.

Son illərdə respublika iqtisadiyyatının sürətlə inkişaf ilə yanaşı, əhalinin rifah halının daha yaxşılaşdırılması, dövlət tərəfindən sosial öhdəliklərin tam yerinə yetirilməsi, sahibkarlıq subyektlərinin sayının artması, infrastrukturun təkmilləşdirilməsi, yeni iş yerlərinin yaradılması sayəsində işsizliyin minimuma endirilməsi və digər amillər onu deməyə əsas verir ki, dünyada baş verən maliyyə-iqtisadi böhrana baxmayaraq ölkəmiz sürətli inkişafını 2010-cu ildə də davam etdirmişdir.Bu isə ölkədə davamlı və dayanıqlı inkişafa səbəb olmuşdur.

Dünyada baş verən qlobal böhran şəraitində Azərbaycanın əldə etdiyi nailiyyətlər nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən təsdiqlənmiş və BMT-nin İnsan İnkişafına dair növbəti hesabatında 169 ölkə arasında Azərbaycanın 67-ci yer tutması və «orta insan inkişafı ölkələri» qrupunu tərk edərək «yüksək insan inkişafı ölkələri» qrupuna daxil olması buna əyani sübutdur.

Azərbaycanda həyata keçirilən siyasətin uğurlu nətixcələri nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında öz əksini tapmışdır. Dünya İqtisadi Forumu tərəfindən 2010-2011-ci illər üçün hazırlanmış «Qlobal rəqabətlilik hesabatı»nda Azərbaycan MDB ölkələri arasında yenə də birinci, makroiqtisadi sabitlik alt indeksi üzrə isə 14 pillə irəliləyərək 139 ölkə arasında 13-cü yerdə qərarlaşmışdır. 2010-cu ildə beynəlxalq müs-

təvidə uğurlu siyasət aparılmasını vurğulayan cənab İlham Əliyev bildirib ki, Azərbaycan bölgədə gedən proseslərə təsiri artmaqda olan ölkədir: « Elə eləməliyik ki, bu proses daim davam etsin, ölkəmiz güclənsin və inkişaf etsin».

Aparılmış uğurlu islahatlar nəticəsində əldə edilmiş makroiqtisadi göstəricilər, ölkəmizin inkişaf sürətinə görə qabaqcıl ölkələr sırasında olduğunu göstərir.

2010-cu il ərzində ölkədə istehsal olunmuş ümumidaxili məhsulun həcmi əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 1,8 milyard manat və ya 5,0 faiz artaraq 41,6 milyard manata çatmışdır. ÜDM-in hər nəfərə düşən həcmi 4653,3 manat, yaxud 5797,8 ABŞ dolları təşkil etmiş və 2009-cu ilə nisbətən 3,7 faiz artmışdır.

Bütün bunlar onu göstərir ki, aparılan uğurlu siyasətin nəticəsi olaraq respublikamızda Davamlı və dayanıqlı inkişafın təmin edilməsində mühüm nəticələr əldə edilmişdir. Bu isə son nəticədə insanların maddi rifahının yüksəlməsində əsas rol oynamışdır.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyərin 7,9 faizlik artımı müşahidə olunmuş, onun ÜDM-də xüsusi çəkisi isə 44,4 faiz təşkil etmişdir.

Son dövrdə həyata keçirilən iqtisadi siyasətin nəticəsi olaraq ölkə sənayesində təsərrüfat subyektləri tərəfindən istehsal olunmuş mal və xidmətlərin həcmi 2009-cu illə müqayisədə, 2,6 faiz artaraq 27,4 milyard manat təşkil etmişdir. Belə ki, sənayenin mədənçıxarma və emal sahələrində, o cümlədən onların əsas bölmələrində, qida, neft və kimya sənayesi məhsullarının, metallurgiya, poliqrafiya, avtomobil, elektrik, maşın və avadanlıqların və s. məhsulların istehsalında artım müşahidə olunmuş-dur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən son dövrdə qeyri-neft sektorunun inkişafına xeyli diqqət yetirilir. Artıq dövlətimiz tərəfindən qeyri-neft sektorunda iqtisadi inkişafın prioritetləri müəyyən edilmişdir. Bunun nəticəsi olaraq neft-kimya, kimya, metallurgiya, toxuculuq, turizm sahələrinin inkişafında müəyyən uğurlar əldə edilmişdir.

Belə ki, 2010-cu ildə neft məhsullarının istehsalında 8,8 faiz artım müşahidə olunmuşdur. Avtomobil benzininin istehsalı 1,2 faiz artaraq 1,3 milyon ton, avtomobillər üçün dizel yanacağının istehsalı 9,1 faiz artaraq 2,4 milyon ton, sürtkü yağlarının istehsalı 1,9 dəfə artaraq 86,7 min ton olmuşdur. İl ərzində 601,1 min ton ağ neft, 241,4 min ton neft bitumu istehsal edilmişdir.

Möhtərəm Prezident İlham Əliyev Nazirlər Kabinetinin «2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş» iclasda göstərmişdir ki, «İqtisadiyyatımızın çoxşaxəli iqtisadiyyat kimi formalaşmasında qeyri-neft sektorunun inkişafı həlledici rol oynayır. Əgər vaxtilə biz bu siyasətə başlamasaydıq, indi

ölkə iqtisadiyyatı birtərəfli ola bilərdi. Mən yaxşı xatırlayıram, bir neçə il bundan əvvəl bəzi beynəlxalq qurumlarda Azərbaycanda «Holland sindromu» haqqındakı o fikirlər artıq səsələnmir. Biz bu müsbət dinamikanı davam etdirməliyik və 2011-ci ildə sahibkarlığın, özəl sektorun inkişafı üçün, qeyri-neft sektorunun inkişafı üçün əlavə tədbirlər görülməlidir».

Qeyd etmək lazımdır ki, son dövrdə respublikamızda kimya və əczaçılıq məhsulları istehsal edən sahələrə dövlətin qayğısı artmışdır. Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastmass məmulatlarının istehsalı müəssisələ-ri tərəfindən 240,9 milyon manatlıq məhsul istehsal edilmişdir. 2009-cu illə müqayisədə, kimya sənayesində xeyli canlanma müşahidə olunmuş və nəticədə, məhsul istehsalı 16,2 faiz artmışdır. Rezin və plastmas məmulatları istehsalında 15,3 faiz, əczaçılıq məhsullarının istehsalında isə 5,1 faiz azalma olmuşdur. Əsas kimya məhsullarından polietilenin istehsalında 26,5 faiz, azotun istehsalında 6,0 faiz, lak-boya məmulatlarının istehsalında 44,7 faiz artım müşahidə olunmuşdur.

Qeyd etmək lazımdır ki, metallurgiya ölkəmizin iqtisadiyyatında mühüm rol oynayır. Belə ki, son dövrdə respublikamızın metallurgiya sahəsindəki əvvəlki şöhrəti artıq özünə qaytarılır. Belə ki, metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı müəssisələrində 2010-cu ildə 171,4 milyon manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, istehsalın həcmi metallurgiya sənayesində 44,6 faiz artmış, hazır metal məmulatlarının istehsalı sahəsində isə 5,0 faiz azalmışdır. İl ərzində sahədə 128,6 min ton və ya 1,6 dəfə çox poladtökmə məhsulları, 36,5 min ton və ya 5,3 dəfə çox polad borular, 1,1 min ton və ya 3,4 dəfə çox məftil və kanatlar istehsal edilmişdir. Bu işdə Gəncə və Sumqayıt şəhərlərində yerləşən müəssisələrin işini xüsusi olaraq qeyd etmək lazımdır.

Belə bir faktı göstərmək lazımdır ki, Azərbaycan əlverişli investisiya mühitinə görə nümunəvi ölkədir. Son 15 il ərzində ölkəmizə 95 milyard ABŞ dolları məbləğində sərmayə yatırılıb. Bu sərmayələrin, demək olar ki, yarısı xarici sərmayələrdir. Aparılmış hesablamalar göstərir ki, ötən il ölkə iqtisadiyyatına 15,5 milyard dollar vəsait qoyulub və investisiyaların strukturu rəngarəng olub. Son illərdə olduğu kimi, yenə daxili investisiyalar xarici sərmayələri üstələyib.

2010-cu ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 9,7 milyard manat vəsait yönəldilmiş, onun üçdə iki hissəsi və ya 6,4 milyard manatı tikinti-quraşdırma işlərinə sərf edilmişdir. Əvvəlki illə müqayisədə, əsas kapitala yönəldilmiş vəsaitin həcmi 21,2 faiz, tikinti-quraşdırma işlərinə yönəldilən vəsait isə 19,8 faiz çox olmuşdur. Dövlət mülkiyyətli müəssisə və təşkilatlar inşaat işlərinə 5,8 milyard manat, qeyri-dövlət müəssisələri 3,9 milyard manat vəsait sərf etmişlər. Məhsul istehsalı obyektlərinin

inşasında 4,7 milyard manat, xidmət sahələri üzrə obyektlərin tikintisində 5,0 milyard manatlıq vəsaitdən istifadə edilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitin dörddə üç hissəsindən çoxunu daxili, 24,8 faizini isə xarici mənbələrdən yönəldilmiş vəsaitlər təşkil etmiş, daxili mənbələrdən yönəldilən vəsaitlərin 73,9 faizi dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatların, 26,1 faizi qeyri-dövlət müəssisələrinin payına düşmüşdür.

Qeyd etmək lazımdır ki, hazırda Azərbaycanın malik olduğu iqtisadi potensial, bu sahədə imkanları təkcə ölkə daxilində deyil, həm də xaricdə uğurla reallaşdırılması istiqamətində müvafiq işlər görülməsinə şərait yaradır. Bütün bunların nəticəsidir ki, Azərbaycan dövləti və iş adamları xarici ölkələrdə yatırdığı investisiyaların həcmini ilbəil artırır.

Bu gün Azərbaycan sərmayəsini gözləyən müxtəlif xarici dövlətlərin sayı durmadan artır, ölkəmizə investisiya ilə bağlı ünvanlanan əməkdaşlıq təklifləri çoxalır. Böyük maliyyə imkanlarına malik olan Azərbaycan son bir neçə ildə ayrı-ayrı xarici ölkələrə artıq dəyəri milyardlarla dollar həcmində investisiyalar yatırıb. Bütün bunlar isə Azərbaycanın iqtisadi sahədə hər keçən gün, daha da qüdrətli bir ölkəyə çevrildiyini göstərir.

2010-cu ildə Azərbaycan xalqının həyatında mühüm bir hadisə baş verdi. Bu isə respublika əhalisinin saf və ekoloci cəhətdən təmiz suya olan tələbatını ödəməyə səbəb oldu. Respublika əhalisinin illərcə gözlədiyi problem həll edildi. Bundan başqa, 2010-cu ildə yönəldilmiş ümumi vəsaitin 6,8 milyard manatı qeyri-neft bölməsinin inkişafı üçün istifadə edilmişdir.

2010-cu ildə Bakı şəhərində Qranit-Mərmər Zavodu, Səngəçalda 100 min tonluq Taxıl Elevatoru, Naxçıvan şəhərində ildə 5 min ədəd minik avtomobili istehsal etmək gücünə malik Avtomobil və Ordubad rayonunda Beton zavodları, Ordubad Biləv Su Elektrik Stansiyası, Naxçıvan «Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi», Lənkəran rayonunda Konserv Zavodu, Çay və Dondurma fabrikləri, Zaqatala rayonunda Süd və Tütün Emalı zavodları, Abşeron rayonunda Duz Zavodu, Cəlilabad rayonunda Şərab İstehsalı sexi və Göytəpə Su Anbarı, Biləsuvar rayonunda Konserv Zavodu, Ağstafa rayonunda mineral su istehsalı Sexi, Salyan rayonunda Soyuducu Anbar Kompleksi, Qəbələ rayonunda meyvə-tərəvəz saxlamaq üçün 5 min tonluq Soyuducu Anbar, ölkənin müxtəlif bölgələrində 262,2 min nömrəlik Avtomat Telefon Stansiyaları, 252,5 kilometr uzunluğunda Fiber-Optik Magistral kabel xətti, bütün maliyyə mənbələri hesabına ümumi sahəsi 1803,2 min kvadrat metr olan yeni yaşayış evləri, 886 çarpayılıq xəstəxana, 17273 şagird yerlik ümumtəhsil məktəbləri, növbədə 685 nəfəri qəbul edən ambulatoriya-poliklinika müəssisəsi, 1270 yerlik məktəbəqədər uşaq müəssisələri, Ağdaş, Balakən və Göyçay rayonlarında Olimpiya İdman

Kompleksi, Mingəçevir şəhərində «Kür» Olimpiya Tədris-İdman Mərkəzi və Şahmat məktəbi, Cəlilabad rayonunda Müalicə-Diaqnostika Mərkəzi və Şahmat Məktəbi, Bakı şəhərində Müşfiqabad İdman Mərkəzi, «Dalğa Plaza» İş, «Park Bulvar» Ticarət və İstirahət, habelə Sərqi Mərkəzi, Gəncə şəhərində «Ramada Plaza» və Balakən rayonunda «Qafqaz Resort» və «Qafqaz Riverside» mehmanxanaları, «Fitnes» Sağlamlıq Mərkəzi istifadəyə verilmişdir.Bütün bunlar isə dövlətimizin əhaliyə göstərdiyi qayğının nəticəsidir.

Nazirlər Kabinetinin «2010-cu ilin sosial-iqtisadi inkişafının yekunların-da və 2011-ci ildə qarşıda duran vəzifələrə» həsr olunmuş İclasında Prezident İlham Əliyevin qeyd etdiyi kimi, aparılan islahatlar və iqtisadi artım, ilk növbədə Azərbaycan vətəndaşlarının maddi rifahının yüksəldilməsinə yönəldilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sürətli sosial-iqtisadi inkişaf göstəricilərinə görə, Azərbaycan qazandığı nailiyyətlərin miqyasını mütəmadi olaraq genişləndirməkdə və yeni uğurlar qazanmaqda davam etdirir. Artıq dinamik sosial-iqtisadi tərəqqi sahəsində öz modelini yaradan Azərbaycan üçün əsas fərqləndirici xüsusiyyətlərdən biri bu inkişafın davamlı xarakter daşıması, möhkəm bünövrə üzərində qurulmasıdır. Həyata keçirilən və sosial yönümlü problemlərin kompleks həllinə geniş imkanlar açan məqsədyönlü siyasət, səmərəli islahatlar respublikamızda müşahidə olunan iqtisadi inkişafın sürətləndirilməsinə xidmət etməklə yanaşı, dünyada Azərbaycanın mövqelərinin daha da möhkəmlənməsində mühüm rol oynayır. Belə ki, 2010-cu ildə xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi 2,4 milyard manat təşkil edərək, əvvəlki ilə nisbətən 40,9 faiz çox olmuş, yönəldilmiş xarici vəsaitin 94,8 faizi Böyük Britaniya, ABŞ, Çexiya, Yaponiya, Norveç, Türkiyə, Koreya və Fransa investorları tərəfindən həyata keçirilmişdir.Bütün bunlar isə ölkədə iqtisadi artımın təmin edilməsi və insanların maddi rifahının yaxşılaşmasına yönəlmişdir.

Regionların sosial-iqtisadi inkişafına və əhalinin ərzaq malları ilə etibarlı təminatına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi, «Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli Sərəncamına uyğun olaraq kənd təsərrüfatı məhsullarının istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacağa və motor yağlarına görə dövlət tərəifndən büdcə vəsaiti hesabına 40 manat yardım verilməsi, habelə istehsalçılara satılan mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi, eləcə də buğda istehsalçılarının maddi marağının artırılması və buğda istehsalının stimullaşdırılması məqsədi ilə Dövlət büdcəsinin vəsaiti hesabına əkilən hər hektar üçün 40 manat yardımın verilməsi, məhsuldarlığa təsir göstərən reproduksiyalı toxum

materialının satışına görə, əlavə maliyyə vəsaitinin ayrılması, habelə həftənin altıncı və bazar günləri kənd təsərrüfatı məhsullarının satışı üzrə yarmarkaların təşkil edilməsi yetişdirilən məhsulun itkisiz yığılmasına müsbət təsir etmiş və hesabat ilində taxıl, kartof və yumurta istisna olmaqla, əsas kənd təsərrüfatı məhsulları istehsalında artıma nail olunmuşdur.

Ölkə iqtisadiyyatı üçün prioritet sahələrdən birinə çevrilmiş nəqliyyat sektoru əsas infrastrukturlardan biri olaraq dayanıqlı inkişaf edir. Belə ki, ötən illərdə olduğu kimi, bu il də nəqliyyat sektoruna investisiyaların yönəldilməsi, nəqliyyatın hərəkət heyətinin yeniləşməsi, körpülərin tikilməsi, yeni avtomobil yollarının çəkilişi, yenidən qurulması və s. işləri davam etdirilmiş, transmilli layihələrin səmərəli fəaliyyəti bu sahənin inkişafına öz müsbət təsirini göstərmişdir.

2010-cu ildə nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən müəssisələrə və əhaliyə 3,7 milyard manatlıq və ya ötən illə müqayisədə 4,5 faiz çox nəqliyyat xidmətləri göstərilmişdir. Xidmətlərin 70,1 faizi dəmir yolu, avtomobil və boru kəməri, 8,2 faizi dəniz, 11,2 faizi hava nəqliyyatı, qalan hissəsi isə köməkçi və əlavə nəqliyyat fəaliyyəti ilə məşğul olan müəssisələr tərəfindən göstərilmişdir.

Müstəqillik illərində ən yüksək həddə çatmaqla, ötən il ərzində 196,3 milyon ton və ya 3,1 faiz çox yük daşınmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 50,9 faizi avtomobil, 31,8 faizi boru kəməri, 11,3 faizi dəmiryolu, 6,0 faizi dəniz nəqliyyatı vasitəsilə həyata keçirilmişdir. Ölkənin nəqliyyat sistemində boru nəqliyyatı mühüm rol oynayır. Belə ki, magistral neft kəmərləri ilə 50,0 milyon ton neft nəql edilmişdir. Nəqletmənin 76,6 faizi ölkənin əsas nəqliyyat infrastrukturlarından olan Heydər Əliyev adına BTC neft ixrac kəməri ilə həyata keçirilmiş və ötən il ərzində bu kəmər vasitəsilə 38,3 milyon ton neft ötürülmüşdür. 2010-cu ilin iyul ayından başlayaraq gəmilər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalından BTC kəməri ilə altı ay ərzində 1,3 milyon ton Türkmənistan nefti nəql edilmişdir.

Magistral qaz kəmərləri ilə 17,3 milyard kubmetr və ya 7,1 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın 28,2 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 4,9 milyard kubmetr qaz ötürülmüşdür.

Bildiyimiz kimi, hal-hazırda Azərbaycanın Avropanın enerci təhlükəsizliyində rolu getdikcə artır. Belə ki, resupblikamızın zəngin enerci resursları həm ölkəmizin iqtisadi potensialını gücləndirir, həm regional əməkdaşlıqda çox mühüm rol oynayır. Respublikamız dünya miqyasında artıq qaz ixrac edən ölkəyə çevrilib. Enerci strategiyamızın uğurla həyata keçirilməsi daha yeni layihələrin üzərində işlənilməsini vacib edir. Xəzər dənizi-Qara dəniz-Baltik dənizi arasında regional əməkdaşlıq layihəsinin

də gerçəkləşməsi layihədə iştirak edən ölkələrin iqtisadi imkanlarının daha da artmasına gətirib çıxaracaqdır.

Qeyd etmək lazımdır ki, informasiya və rabitə bölməsi respublikamızda iqtisadiyyatın ən sürətlə inkişaf edən sahəsi olaraq qalmaqdadır. Ötən ildə informasiya və rabitə müəssisələri tərəfindən təsərrüfat subyektlərinə və əhaliyə 1,2 milyard manatlıq və ya əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 29,7 faiz çox xidmət göstərilmişdir. Əhaliyə göstərilmiş informasiya və rabitə xidmətlərinin payı 74,3 faiz təşkil etmişdir.

İnformasiya və rabitə xidmətlərindən əldə olunmuş gəlirlərin 67,4 faizi mobil telefon rabitəsindən yaranmış və 2009-cu illə müqayisədə, bu xidmətlərin həcmi 30,2 faiz artaraq 782,6 milyon manat təşkil etmişdir. Mobil telefon abunəçilərinin sayı son bir il ərzində 1,2 milyon artmış, 2011-ci il yanvarın 1-nə abunəçilərdə 8,9 milyon nömrə mövcud olmuş və onların 7,4 milyonu aktiv olmaqla istifadə olunmuşdur.

Son dövrdə Azərbaycan Respublikasında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin həyata keçirmiş olduğu işlər diqqəti cəlb edir. Belə ki, respublikada qlobal informasiya mühitinin yaradılması cəmiyyətin və davamlı inkişafın ən başlıca amilidir. Belə ki, Azərbaycan Respublikasında İnformasiya Kommunikasiya Texnologiyalarının tətbiqi sahəsində mühüm dövlət tədbirləri uğurla həyata keçirilir. BMT-nin İnkişaf Proqramı ilə birlikdə «Azərbaycan Respublikasının İnkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) üzrə Milli Strategiya (2003-2012-ci illər)» hazırlanmaqla, 17 fevral 2003-cü ildə təsdiq edilmişdir. Bu Strategiyada İKT sahəsində elmin daha da geniş istifadə olunması, rəqabətədavamlı məhsullar və xidmətlər göstərən müəssisələrin təşkili, təhsil sistemi üzrə informasiya infrastrukturunun genişləndirilməsi, İnternet və informasiya xidmətlərinin genişlənməsi, yerli və regional informasiya mərkəzlərinin yaradılması nəzərdə tutulur. Bundan başqa, elektron imza, elektron-biznes-kommersiya və elektron sənəd hazırlanması, icra olunması ən əsas prioritet hesab edilir. Artıq bu istiqamətlərdə respublikamızda uğurlu işlər həyata keçirilir.

Qeyd etmək lazımdır ki, əhalinin həyat səviyyəsini yüksəltmək üçün 2010-cu ildə istehlak bazarında əhaliyə 18,4 milyard manatlıq və ya 2009-cu ilə nisbətən 9,4 faiz çox istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir. Belə ki, istehlak bazarında özəl sektorun dinamik inkişafı davam etmiş, özəl müəssisələrdə əhaliyə 17,0 milyard manatlıq istehlak malları satılmış və pullu xidmətlər göstərilmiş, ticarət və xidmət fəaliyyəti üzrə ümumi artımın 95,6 faizi bu müəssisələrdə yaranmışdır. Hər bir ölkə sakini isə hər ay orta hesabla 171,7 manatlıq müxtəlif istehlak malları almış və pullu xidmətlərdən istifadə etmişdir. Adambaşına düşən əmtəə və xidmətlərin 158,8 manatı (92,5 faizi) özəl müəssisələrin hesabına yaranmışdır.Bütün bunlar isə ölkəmizdə ticarət dövriyyəsinin

artması hesabına baş vermişdir. Belə ki, son illərdə Azərbaycanda dünyanın 147 ölkəsi ilə uğurlu ticarət aparılmışdır.

Qeyd etmək lazımdır ki, idxal-ixrac əməliyyatlarının 25,8 faizi İtaliya, 7,1 faizi Fransa, 6,9 faizi Rusiya, 6,5 faizi İsrail, 6,2 faizi Amerika Birləşmiş Ştatları, 4,8 faizi Ukrayna, 3,4 faizi Türkiyə, 3,3 faizi Çin, hər birində 2,8 faiz olmaqla Xorvatiya, İndoneziya, Malayziya, 2,5 faizi Sinqapur, 2,2 faizi Almaniya, 1,7 faizi Gürcüstan, 1,3 faizi Koreya Respublikası, 19,9 faizi isə digər ölkələrlə aparılmışdır.

İdxal əməliyyatlarının 17,3 faizi Rusiya, 11,7 faizi Türkiyə, 9,2 faizi Almaniya, 8,9 faizi Çin, 7,1 faizi Ukrayna, 4,6 faizi Böyük Britaniya, 4,4 faizi Qazaxıstan, 3,1 faizi Amerika Birləşmiş Ştatları, 2,6 faizi Sinqapur, 2,4 faizi Braziliya, 2,4 faizi Koreya Respublikası, 2,2 faizi Yaponiya, 2,1 faizi Fransa, 1,8 faizi İtaliya, 1,8 faizi İran İslam Respublikası, 1,7 faizi Belarus, 16,7 faizi isə digər ölkələrlə aparılmışdır.

İxrac əməliyyatlarının 33,3 faizi İtaliya, 8,7 faizi Fransa, 8,2 faizi İsrail, 7,2 faizi Amerika Birləşmiş Ştatları, 4,2 faizi Ukrayna, 3,7 faizi Xorvatiya, 3,7 faizi İndoneziya, 3,6 faizi Rusiya, 3,5 faizi Malayziya, 2,4 faizi Sinqapur, 1,9 faizi Gürcüstan, 1,6 faizi Çin, 1,5 faizi Kanada, 16,5 faizi isə digər ölkələrlə həyata keçirilmişdir. Son dövrdə MDB dövlətləri ilə ticarət dövriyyəsinə xüsusi diqqət yetirilmişdir.

Çox fərqli haldır ki, MDB ölkələri ilə ticarət əlaqələrimiz genişlənmişdir. Belə ki, Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrlə ticarət dövriyyəsinin ümumi həcmi 4034,8 milyon dollar, o cümlədən ixrac 1983,9 milyon, idxal 2050,9 milyon dollar olmuşdur. 2009-cu ilə nisbətən Birlik ölkələri ilə ticarət dövriyyəsinin həcmi 36,1 faiz, o cümlədən ixrac 1,7 dəfə, idxal olunan malların həcmi 12,2 faiz artmışdır.

Qeyd etmək lazımdır ki, respublikada düşünülmüş məşğulluq strategiyasının, uğurlu sosial siyasətin, habelə yeni iş yerlərinin açılması istiqamətlərində siyasətin həyata keçirilməsi, əhalinin pul gəlirlərinin artmasına, qarşıdakı dövrdə yoxsulluq səviyyəsinin azalmasına gətirib çıxaracaq. Belə ki, 2008-ci il sentyabrın 15-də prezident İlham Əliyev tərəfindən « 2008-2015-ci illərdə Azərbaycan Respublikasında Yoxsulluğun Azaldılması və Davamlı İnkişaf və Dövlət Proqramı» təsdiq olunmuşdur.Bu Proqramda işsizliyin və yoxsulluğun azaldılması məsələsinə xüsusi yer verilmişdir.

Respublikamızda işsizlik probleminin həlli istiqamətində qazanılmış nailiyyətlərin miqyası son illərdə nəzərəçarpacaq dərəcədə genişlənmiş, ümumi iqtisadi inkişaf bu məsələnin həllinə tohfələr vermişdir.Təkcə bir faktı göstərmək lazımdır ki, 2004-cü ilin fevralından 2010-cu ilin sonuna qədər 900 mindən çox iş yerləri açılmışdır. Bu iş yerlərinin çoxu ölkənin regionlarının payına düşür.

Qeyd etmək lazımdır ki, «2009-2013-cü illəri əhatə edən Regionların Sosial-İqtisadi İnkişafının İkinci «Dövlət Proqramı»nın icrası ilə əlaqədar 2009-2010-cu illər ərzində ölkədə 146,6 min yeni, o cümlədən 107,2 min daimi iş yeri açılmışdır. Təkcə 2010-cu ildə 73,0 min, o cümlədən 54,7 min daimi iş yerləri yaradılmış, bu da işsizliyin səviyyəsinin aşağı salınmasının, demək olar ki, əsas amillərindən biridir.Bu davamlı tərəqqi nəticə etibarilə də ölkədə yoxsulluq səviyyəsinin azalaraq 2,1%-ə enməsinə səbəb olmuşdur.7 il əvvəl 49%-lik yoxsulluğun göstərilən həddə qədər azaldılması, iqtisadiyyatın uğurlu diversifikasiyasına, enerci gəlirlərinin səmərəli istifadə olunmasına, sahibkarlığın inkişafına yaradılan şərait, qeyri-neft sektorunun dirçəlməsinə, regionların inkişafına xidmət edən dövlət proqramlarının uğurla reallaşdırılması və bu qəbildən olan digər addımlar sayəsində mümkün olmuşdur.

Qeyd etmək lazımdır ki, 2010-cu ildə Dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə, 10,4 faiz artaraq 11,4 milyard manata, xərcləri isə 12,0 faiz artaraq 11,8 milyard manata çatmış, büdcənin icrasında yaranmış 363,5 milyon manatlıq kəsir ümumdaxili məhsulun 0,9 faizini təşkil etmişdir.Bu da dünya praktikasında ən optimal büdcə hesab edilir.

Belə bir vacib məsələni qeyd etmək lazımdır ki, 2010-cu ildə ölkə əhalisinin gəlirləri əvvəlki illə müqayisədə, 13,3 faiz artaraq 25,6 milyard manata çatmış, onun adambaşına həcmi isə 2866,0 manat və ya ayda orta hesabla 238,8 manat təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatına keçidin başa çatması, Azərbaycanın siyasi kursunda, sosial-iqtisadi inkişafında yeni, keyfiyyətcə daha yüksək mərhələnin təməli qoyulub. Keçid dövrünə xas olan problemlərin tamamilə aradan qalıdrılması iqtisadiyyatımızın hərtərəfli və çoxşaxəli tərəqqisinə, xalqımızın rifah halının yüksəldilməsinə, sosial tələbatlarının daha dolğun ödənilməsinə münbit şərait yaratmaqla, Azərbaycanın siyasi və iqtisadi qüdrətini daha da yüksəldib. Prezident İlham Əliyev ölkəmizin davamlı tərəqqisi yolunda sosial proqramların həllinin böyük əhəmiyyətini önə çəkərək böhranlı ildə bu istiqamətdə görülən işləri yüksək qiymətləndirir. Belə ki, görülən işlər insanların yaşayış səviyyəsinin daim yüksəlməsinə, işsizlik probleminin aradan qaldırılmasına, inflyasiyanın minimum səviyyəyə endirilməsinə imkan verib.

Dövlət Sosial Müdafiə Fondunun ilkin məlumatlarına əsasən, 2011-ci ilin əvvəlinə pensiyaçıların sayı 1291 min nəfər olmuş və onlara təyin olunmuş aylıq pensiyaların orta məbləği 112 manata çatmışdır. Cari ilin əvvəlinə 295 min nəfər sosial müavinət, 34 min nəfər Azərbaycan Respublikası qarşısında xüsusi xidmətlərə görə təqaüd və 123 min ailənin 553 min nəfər üzvü ünvanlı dövlət sosial yardımı almışdır.

Əhalinin maddi rifahını yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İham Əliyev 15 fevral 2011-ci ildə «Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi» haqqında Sərəncam imzalamışdır. Qeyd etmək lazımdır ki, 2010-cu ildə Azərbaycan Dövlətinin həyata keçirdiyi düşünülmüş iqtisdai siyasət və uğurlu antiböhran tədbirləri sayəsində inflyasiyanın aşağı səviyyədə saxlanması təmin olunmuş, bununla belə, istehlak qiymətlərinin 5,7 %-lik indeksi qeydə alınmışdır. Şübhəsiz ki, həmin göstərici əmək pensiyalarına təsir etməlidir. Bu məqsədlə Prezidentin Sərəncamına əsasən Dövldət Sosial Müdafiə Fondu tərəfindən 2010-cu il üzrə istehloak qiymətləri indeksinə uyğun olaraq, 2011-ci il yanvarın 1-dən bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdiriləcəkdir.

Dövlətimizin Başçısı İlham Əliyev bütün görülmüş işləri ətraflı təhlil edərək, uğurlarımızın səbəbini belə açıqlayır: «Bizim seçdiyimiz yol, düzgün yoldur. Biz öz resurslarımıza arxalanırıq və bütün işləri Azərbaycanın milli maraqlarının qorunması istiqamətində aparırıq. Bu bizim üçün başlıca amildir. Ölkəni daha da gücləndirmək, müasirləşdirmək, ölkə qarşısında duran bütün problemləri həll etmək üçün bizim bütün imkanlarımız vardır. Bir daha demək istəyirəm ki, həm düşünülmüş siyasət, həm də möhkəm iradə vardır».

Qeyd etmək lazımdır ki, əhalinin sağlamlığı Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. 2010-cu ildə səhiyyə sahəsinin maddi-texniki bazasının yeniləşdirilməsi və müasirləşdirilməsi istiqamətində böyük işlər həyata keçirilmişdir. Ölkənin regionlarında yüksək standartlara cavab verən müasir tibbi diaqnostika və müalicə mərkəzləri, rayon xəstəxanaları və poliklinikalar tikilmiş və təmir edilmişdir. 2011-ci ilin əvvəlinə ölkədə 760 xəstəxana və 1694 ambulatoriya-poliklinika müəssisəsi fəaliyyət göstərmiş və əhalinin hər 10 min nəfərinə 37 həkim və 71 orta tibb işçisi düşmüşdür.

Qeyd etmək lazımdır ki, «Ekologiya ili» olan 2010-cu ildə böyük işlər görülüb. Respublikamızda ekoloci tarazlığın təmin edilməsi və təbiətin mühafizə obyektlərinin inşasına 176,1 milyon manat məbləğində vəsait yönəldilmiş, vəsaitin 126,3 milyon manatı su mənbələrinin mühafizəsinə və istifadəsinə, 49,8 milyon manatı torpaqların mühafizəsinə və səmərəli istifadəsinə sərf edilmişdir.

Hal-hazırda Azərbaycan Respublikasında təhsil sistemi milli, mənəvi və ümumbəşəri dəyərlərə əsaslanır və Bolonya prosesində yaxından iştirak etməklə, Ümumdünya Təhsil Sisteminə inteqrasiya yolu ilə inkişaf etməkdədir. Təhsil sistemində aparılan uğurlu islahatlar nəticəsində əhalinin təhsil səviyyəsi ilbəil artır və bu gün 15 və yuxarı yaşda olan əhalinin hər 1000 nəfərindən 792-si ali və tam orta təhsilə malikdir.

Qeyd etmək lazımdır ki, son dövrdə respublikamızda təhsil alanlar arasında qızların xüsusi çəkisinin sürətlə artması insan inkişafının gender bərabərliyinin təmin edilməsindən xəbər verir. Belə ki, son dövrdə dövlət idarəetmə, hüquq-mühafizə orqanlarında, təhsil və səhiyyədə, mədəniyyət və incəsənət sahəsində qadınların rəhbər vəzifələrdə, eləcə də parlamentdə təmsil olunmasına görə dünyanın ən tolerant dövlətlərindən biri olmasını sübut edir.

Qeyd etmək lazımdır ki, ali məktəblərə qəbul Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı ilə təsdiq olunmuş yeni - geniş profilli ixtisas siyahısına uyğun olaraq həyata keçirilir. Bolonya Deklarasiyasının tələblərinə tam cavab verən bu yeni siyahının tətbiq olunması Azərbaycan ali təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası yolunda atılan mühüm addımlardan biridir.

Ölkənin ali təhsil müəssisələrində Azərbaycan vətəndaşları ilə birgə 50 xarici ölkənin 4723 nəfər vətəndaşı da təhsil alır. Xarici tələbələrin sırasında Türkiyə, İran, Rusiya, Çin Xalq Respublikası, Türkmənistan, Gürcüstan və İraq vətəndaşları üstünlük təşkil edirlər.

Azərbaycandan isə hazırda xarici ölkələrdə dövlət xətti ilə 2055 nəfər təhsil alır. Xaricdə təhsil alan gənclərin 63 faizi Bakı, 37 faizi isə Azərbaycanın müxtəlif regionlarında yerləşən məktəblərin məzunlarıdır. Tələbələrin əksəriyyəti Türkiyə və Rusiyada təhsil alırlar. Xaricdə təhsil alan tələbələr yetkin mütəxəssis kimi formalaşdıqdan sonra ölkəmizə gəlir və iqtisadiyyatın müxtəlif sahələrində çalışırlar.

Ölkə Prezidenti Möhtərəm İlham Əliyev təhsilin inkişafı ilə yanaşı, elmin inkişafına da daim diqqət yetirir. Belə ki, ölkədə elmin inkişafına dövlət tərəfindən xüsusi diqqət və dəstək göstərilir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycanda 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya" uğurla həyata keçirilir.

2011-ci ilin əvvəlinə ölkədə müxtəlif elmi-texniki xidmətləri həyata keçirən 148 elmi təşkilat və müəssisə fəaliyyət göstərmişdir. Bu elm ocaqlarında elmi tədqiqat və işləmələrlə 18 minə yaxın mütəxəssis məşğul olur və onların 63 faizi tədqiqatçılardır. Mütəxəssislərin hər dörd nəfərindən birinin elmlər doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi vardır.

Bu da respublikamızda elmə göstərilən dövlət qayğısının əyani sübutudur. Belə ki, hələ vaxtı ilə XIX əsrin əvvəllərində əhalisinin əsas hissəsi savadsız əhali təşkil edən bir ölkə, indi dünyanın təhsil və elmi səviyyəsinə görə irəlidə gedən ölkələrdən birinə çevrilmişdir.

Respublikamızda təhsilin, səhiyyənin, mədəniyyət və incəsənətin inkişafında Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun Xoş Məramlı Səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın böyük əməyi vardır. Belə ki, milli-mənəvi dəyərlərimizin,

mədəniyyət və incəsənətimizin hamisi bu sahədə böyük layihələr həyata keçirir. Qeyd etmək lazımdır ki, dövlət siyasətinin əsas prioritetlərindən biri də mədəniyyət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin qorunub saxlanmasından ibarətdir. Təsadüfi deyil ki, Heydər Əliyev Fondunun fəaliyyət göstərdiyi illər ərzində keçirilən bütün irimiqyaslı beynəlxalq və respublika əhəmiyyətli tədbirlərin əsas təşəbbüskarı və təşkilatçısı Mehriban xanım Əliyeva olmuşdur.

Bu gün Azərbaycanda təhsilin və elmin inkişafında mühüm rol oynayan kitabxana fondu 36 milyon ədəd kitabdan ibarət olan 3993 kütləvi kitabxana, 2750 klub müəssisəsi, 223 muzey, 29 peşəkar teatr, 4 filarmoniya, 6 musiqi kollektivi, 2 konsert zalı və 360 mədəniyyət və istirahət parkı xalqımıza xidmət göstərir.

Ölkə Prezidenti İlham Əliyev ölkəmizdə gənclər siyasətinə daima qayğı və diqqət ilə yanaşır. Belə ki, Dövlət Gənclər siyasətinin nəticəsində 2010-cu ildə Gənclər və İdman Nazirliyi tərəfindən müxtəlif istiqamətlər üzrə 100-ə qədər tədbir keçirilmişdir ki, onlardan 19-u beynəlxalq səviyyəli olmuşdur. Avropa Gənclər Fondunun rəsmi məlumatına görə, son 4 ildə Azərbaycanın Gənclər Təşkilatlarının 114 layihəsinə fond tərəfindən 1,4 milyon avro dəyərində maliyyə vəsaiti ayrılmışdır ki, bu da Avropa məkanında yüksək göstəricidir.

2010-cu ildə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün ölkənin müxtəlif bölgələrində olimpiya idman kompleksləri istifadəyə verilmiş, Mingəçevirdə Beynəlxalq Avarçəkmə Mərkəzi yenidən qurulmuşdur.

2010-cu il ərzində daha 5 Olimpiya-İdman kompleksi istismara verilmiş, Olimpiya komplekslərinin sayı 28-ə çatmışdır. 2011-ci ildə isə 6 kompleksin istismara verilməsi nəzərdə tutulur. Bütün bunlar onu göstərir ki, Azərbaycan dövlətinin düzgün daxili və xarici siyasəti özünün bəhrəsini verir.

Qeyd etmək lazımdır ki, dünya maliyyə-iqtisadi böhranı Azərbaycanın öz iqtisadiyyatını sadəcə neft amili üzərində qurmadığını, əldə olunmuş uğurlu nəticələrdə qeyri-neft sektorunun da mühüm paya malik olduğunu təsdiqləmişdir və bu baxımdan 2010-cu ilin yekunları müsbət olaraq xalq tərəfindən yekdilliklə qəbul edilir.

**DÖVLƏTİN İQTİSADİ SİYASƏTİ:**
**DAYANIQLI VƏ DAVAMLI**
**İNKİŞAFIN TƏNTƏNƏSİ**

Formatı: 70/100-1/16. Həcmi: 34 c.v. Tiraj 500. 542 səhifə.

Kitab "VİCTORY" mətbəəsində çap edilib.

–